Ikincisi, kapsayıcı eğitimde uzmanlaşmış modern okullarda “Kapsayıcı Eğitim Personeli” adında özel bir kadro oluşturulmalıdır. Bu personelin temel görevleri; engelli çocuk ile okul topluluğu arasındaki iletişimi sağlamak, final sınav süreçlerinin adil olması için Braille alfabesindeki bilgileri okuyabilmek, konuşma ve işitme bozukluğu olan öğrencilerle sorunsuz iletişim kurabilmektir. Zira, “Hızla değişen bir ortama uyum sağlama konusunda özellikle engelliler ciddi zorluklarla karşılaşmaktadır. Nüfusun bu kesimi, öznel ve nesnel faktörlere bağlı olarak sosyal hayata katılımda önemli güçlükler yaşamaktadır. Görme engelliler de dâhil olmak üzere engelli bireyler, sosyo-psikolojik nedenlerle toplumsal çoğunluktan ayrılmış belirli bir sosyal tabakayı temsil etmektedir. Tabakalaşma sisteminde nüfusun bu kategorisi; genellikle ev, okul ve sosyal çevredeki sorunlar, mezuniyet sonrası işsizlik gibi nedenlerle marjinal bir katman olarak alt sosyal seviyelerde yer almaktadır”. (Messiou K., 2017) Kapsayıcı eğitim uzmanının bir diğer temel görevi de özel gereksinimli bir öğrenciyi, olumsuz sosyal marjinalleşmeden koruyarak, kapsayıcı bir toplumda kendini tam anlamıyla gerçekleştiren bir birey düzeyine ulaştırmaktır.

Üçüncüsü, okul donanımı hem özel gereksinimli hem de diğer öğrenciler için elverişli olmalıdır. Dersliklerin akustik ve görsel tasarımına da özen gösterilmelidir. Örneğin, otizm

spektrum bozukluğu olan çocuklar için sınıflardaki renk uyumu, aydınlatma sistemi ve gürültü seviyesinin minimum düzeyde tutulması, dikkatlerini toplamalarında belirleyici bir öneme sahiptir. “Dolayısıyla modern kapsayıcı okul; teknoloji, metodoloji ve mimarinin bütünleştiği yekpare bir ekosistemdir”. (Qodirova F. U., Pulatova D. A., 2022) Bu ekosistem, çocuğun “farklılığını” göz ardı etmek yerine, onun kişisel potansiyelini ortaya çıkarmaya hizmet eder.

Dördüncü olarak, eğitim materyalleri zenginleştirilmelidir. Dersler, öğrenme sürecinin her türlü fiziksel veya duyusal ihtiyacı olan öğrenciler için eşit derecede anlaşılır olmasını sağlayacak şekilde tasarlanmalıdır. Yani ders içeriği, metin, ses, video ve interaktif formatlarda eş zamanlı olarak sunulmalıdır. Bu da sadece özel gereksinimli çocukların değil, aynı zamanda farklı algı seviyelerine sahip tüm çocukların öğrenme verimliliğini artırır. “Dijital teknolojiler bu konuda eşsiz fırsatların kapısını aralamaktadır”. (Tohirova M. U., 2025) “Özellikle, görme bozukluğu olan öğrenciler için ekran okuma programları, işitme güçlüğü çeken çocuklar için otomatik altyazı sistemleri ve hareket kabiliyeti kısıtlı olanlar için göz takip cihazları eğitimdeki engelleri ortadan kaldırmaktadır”. (Lubovskiy V. I., 2005) Yapay zekâ tabanlı platformlar ise her öğrencinin güçlü ve zayıf yönlerini analiz ederek, onun bireysel ihtiyaçlarına göre uyarlanmış bir öğrenme rotası sunabilmektedir. “Böyle bir yaklaşım, öğrencinin dersten kopmasını önler ve kendi yeteneklerine olan güvenini pekiştirir” (Богданова Е. В., 2016). Bununla birlikte, inovasyonlar sadece teknolojik cihazlarla sınırlı kalmamalı, Braille alfabesiyle ve büyük puntolu kitapların basımına da büyük önem verilmelidir.

Beşincisi: Kapsayıcı eğitim sisteminde, eğitim veren pedagogun bilgi potansiyeli, öğrencilere yönelik psikolojik yaklaşımı, genel bir ifadeyle pedagojik mahareti önemli bir rol oynar.

Bununla birlikte, kapsayıcı eğitimin başarısı, toplumda bu sisteme karşı şekillenmiş toplumsal bakış açısına da bağlıdır. Bu nedenle, geniş halk kitleleri arasında aydınlatma çalışmaları yürütmek, kitle iletişim araçları vasıtasıyla kapsayıcı kültürü teşvik etmek ve mevcut kalıp yargıları kırmak gelecekteki önemli görevlerden biri olmaya devam edecektir. Her çocuğun, kendine has özelliklerinden bağımsız olarak, toplumun eşit haklara sahip bir üyesi olduğu anlayışının sadece pedagogların değil, tüm ebeveynlerin ve öğrencilerin bilincine yerleştirilmesi şarttır. Böyle manevi ve aydınlatıcı bir ortam yaratılmadığı sürece, teknolojik ve hukuki reformlar tam anlamıyla verimli olamayacaktır.

Sonuç olarak, Özbekistan'da kapsayıcı eğitimin geliştirilmesinin sadece bir eğitim reformu değil, aynı zamanda toplum için bir insanlık sınavı olduğunu söyleyebiliriz. Yenilikçi yaklaşımlar, modern teknolojiler ve yeni nesil eğitimcilerin yüksek yetkinlikleri, bu sistemin itici gücünü oluşturmaktadır. Amacımız, her çocuğun eğitimdeki sınırsız potansiyelini gerçekleştirebileceği, engelsiz ve samimi bir ortam yaratmaktır. Yeni Özbekistan'ın kapsayıcı eğitim modelini dünya standartları seviyesine yükseltmek, ancak bilimsel temellere dayanan bir strateji ile özverili pedagojik emeğin uyumu sayesinde mümkün olacaktır.

Kaynaklar:

1. O‘zbekiston Respublikasi qonuni, “Nogironligi bo‘lgan shaxslarning huquqlari to‘g‘risida”. 15.10.2020 yildagi. O‘RQ-641.

2. O‘zbekiston Respublikasi Prezidentining qarori, “Alohida ta’lim ehtiyojlari bo‘lgan bolalarga ta’lim-tarbiya berish tizimini yanada takomillashtirish chora-tadbirlari to‘g‘risida”. 13.10.2020 yildagi PQ-4860-son.

3. Акимова, О. И. (2011). Инклюзивное образование как современная модель образования. In Инклюзивное образование: методология, практика, технологии.

4. Алехина, С. В. (2016). Инклюзивное образование: от политики к практике. Психологическая наука и образование, 21(1), 136-145.

5. Ainscow, M. (2005). Understanding the development of inclusive education system.

6. Messiou, K. (2017). Research in the field of inclusive education: time for a rethink? International journal of inclusive education, 21(2), 146-159.

7. Qodirova, F. U., & Pulatova, D. A. (2022). Inklyuziv ta’lim: nazariya va metodika. Chirchiq: ChDPU.

8. Tohirova, M. U. (2025). Ko‘rishda nuqsoni bor shaxslar ijtimoiylashuvining psixologik omillari. Samarqand: SamDU nashriyoti.

9. Lubovskiy, V. I. (2005). Spetsialnaya psikhologiya: Uchebnoe posobie dlya studentov vysshikh pedagogicheskikh uchebnykh zavedeniy (2nd ed.). Moscow: Akademiya.

10. Богданова, Е. В. (2016). Основы инклюзивного образования: Методические рекомендации к дисциплине (Ю. В. Драгнев, ред.). Луганский государственный университет имени Тараса Шевченко.

11. www.PRESIDENT.UZ

SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN BİLİNQV UŞAQLARIN TƏRBİYƏSİ VƏ TƏHSİLİ PSİXOLOJİ-PEDAQOJİ PROBLEM KİMİ

Könül Hidayət qızı Cabbarova
Pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
konul.cabbarova@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0000-0003-2137-2412

Açar sözlər: sağlamlıq imkanları məhdud, bilinqv, nitq pozuntuları, diaqnostika, psixoloji-pedaqoji texnologiyalar.

Xülasə. Müasir dövrdə inklüziv təhsil sağlamlıq imkanları məhdud (SİM) uşaqların cəmiyyətə inteqrasiyasını prioritet məsələyə çevirib. Xüsusilə bilinqv mühitdə böyüyən uşaqlar dil inkişafı və sosial-emosional uyğunlaşma baxımından ikiqat çətinliklərlə üzləşir. Onlarda dil qarışıqlığı, kommunikasiya problemləri və öyrənmə tempinin fərqliliyi müşahidə olunur, buna görə fərdiləşdirilmiş təlim strategiyaları və düzgün pedaqoji yanaşmalar vacibdir.

İki dillilik müxtəlif formalarda – “yarım-bilinqvlər”, “ekvilinqvlər” və “prebilinqvlər” kimi, həmçinin aktiv və passiv tipdə olur. Tədqiqatlar göstərir ki, iki dillilik özü psixi inkişaf geriliyi yaratmır, lakin ailə və məktəb şəraitində qeyri-münasib dəstək nitq və idrak inkişafında problemlərə səbəb olur. SİM bilinqv uşaqlarda nitq pozuntuları, qrammatik çətinliklər və ikinci dilin zəif mənimsənilməsi geniş yayılmışdır. Bundan əlavə, uşaqların mədəni və sosial inteqrasiyasına münasibət, valideynlərin akkulturasiyası və motivasiya səviyyəsi də ikinci dilin mənimsənilməsində əhəmiyyətli rol oynayır.

Uşaqların inkişafının dəstəklənməsi loqoped, müəllim və məktəb psixoloqu ilə valideyn əməkdaşlığı vasitəsilə mümkündür. Bu əməkdaşlıq nitq diaqnostikası, fərdi inkişaf trayektoriyasının planlanması, idrak və motivasiya dəstəyini əhatə etməli, həmçinin korreksiyaedici və inkişaf yönümlü texnologiyaları məqsədyönlü şəkildə tətbiq etməlidir. Uşaqların fərdi xüsusiyyətlərinə uyğun metodların seçilməsi və onların sosial-emosional bacarıqlarının inkişafı da vacib hesab olunur.

Nəticədə, SİM bilinqv uşaqların təhsili üçün multidissiplinar yanaşma, iki dilliliyin mərhələlər üzrə sistemli tədqiqi və peşəkar hazırlıq vacibdir. Bu, onların dil və idrak inkişafını optimallaşdırır, sosial və mədəni inteqrasiyasını təmin edir, təlim prosesində uğurlu nəticələr əldə etməyə imkan yaradır və uzunmüddətli inkişaf perspektivini dəstəkləyir.

Keywords: children with disabilities, bilingual, speech disorders, diagnostics, psycho-pedagogical technologies.

Summary. In modern times, inclusive education has made the integration of children with disabilities (CWD) into society a priority issue. Children growing up in bilingual environments face double challenges in language development and socio-emotional adaptation. They often experience language confusion, communication difficulties, and differences in learning pace, making individualized teaching strategies and proper pedagogical approaches essential.

Bilingualism occurs in various forms – such as "semi-bilinguals," "equilinguals," and "pre-bilinguals," and can be active or passive. Research shows that bilingualism itself does not cause delays in psychological development, but inadequate support in family and school environments can lead to speech and cognitive development problems. CWD bilingual children commonly experience speech disorders, grammatical difficulties, and insufficient acquisition of a second language. Additionally, children's attitude toward cultural and social integration, parents' level of acculturation, and motivation significantly influences second language acquisition.

Supporting children's development is possible through collaboration between speech therapists, teachers, and school psychologists with parents. This collaboration should include speech diagnostics, planning individual development trajectories, cognitive and motivational support, and the purposeful application of corrective and development-oriented psychopedagogical technologies. Selecting methods appropriate to children's individual characteristics and fostering their socio-emotional skills are also important.

Consequently, the education of CWD bilingual children requires a multidisciplinary approach, systematic study of bilingualism across developmental stages, and professional training. This approach optimizes language and cognitive development, ensures social and cultural integration, enables successful learning outcomes, and supports long-term developmental perspectives.

Anahtar kelimeler: özel sağlık gereksinimi olan çocuklar, iki dilli, konuşma bozuklukları, tanılama, psikolojik-pedagojik teknolojiler.

Özet. Günümüzde kapsayıcı eğitim, özel sağlık gereksinimi olan çocukların topluma entegrasyonunu öncelikli bir konu haline getirmiştir. Özellikle iki dilli ortamlarda büyüyen çocuklar, dil gelişimi ve sosyal-duygusal uyum açısından çift zorluklarla karşılaşmaktadır. Bu çocuklarda dil karışıklığı, iletişim sorunları ve öğrenme hızındaki farklılıklar gözlemlenmektedir; bu nedenle bireyselleştirilmiş öğretim stratejileri ve doğru pedagojik yaklaşımlar önemlidir.

İki dillilik çeşitli biçimlerde – "yarım-iki dilli," "eşit-iki dilli" ve "pre-iki dilli" olarak – ve ayrıca aktif ve pasif tipte görülebilir. Araştırmalar, iki dilliliğin tek başına psikolojik gelişimde

gecikmeye yol açmadığını, ancak aile ve okul ortamındaki yetersiz destek durumunda konuşma ve bilişsel gelişimde sorunlara neden olabileceğini göstermektedir. ÖSG iki dilli çocuklarda konuşma bozuklukları, dil bilgisi güçlükleri ve ikinci dilin yeterince kazanılamaması yaygındır. Ayrıca çocukların kültürel ve sosyal entegrasyona bakışı, ebeveynlerin akültürasyon seviyesi ve motivasyon düzeyi, ikinci dil ediniminde önemli rol oynar.

Çocukların gelişiminin desteklenmesi, dil ve konuşma terapisti, öğretmen ve okul psikoloğu ile ebeveyn iş birliği yoluyla mümkündür. Bu iş birliği; konuşma tanılaması, bireysel gelişim yol haritasının planlanması, bilişsel ve motivasyon desteği ile birlikte düzeltici ve gelişim odaklı psikolojik-pedagojik teknolojilerin amaçlı şekilde uygulanmasını kapsamalıdır. Çocukların bireysel özelliklerine uygun yöntemlerin seçilmesi ve sosyal-duygusal becerilerinin geliştirilmesi de önemlidir.

Sonuç olarak, ÖSG iki dilli çocukların eğitimi için çok disiplinli bir yaklaşım, iki dilliliğin gelişim aşamalarına göre sistematik incelenmesi ve profesyonel eğitim gereklidir. Bu yaklaşım, çocukların dil ve bilişsel gelişimini optimize eder, sosyal ve kültürel entegrasyonlarını sağlar, öğrenme sürecinde başarılı sonuçlar elde edilmesine olanak tanır ve uzun vadeli gelişim perspektifini destekler.

Müasir dövrdə inklüziv təhsil yanaşmasının geniş yayılması sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətə inteqrasiyasını prioritet məsələlərdən birinə çevirmişdir. Xüsusilə bilinqv mühitdə böyüyən uşaqların tərbiyəsi və təhsili daha mürəkkəb psixoloji-pedaqoji problemlər sistemi yaradır. Belə uşaqlar həm dil inkişafı, həm də sosial-emosional uyğunlaşma baxımından ikiqat çətinliklərlə qarşılaşırlar ki, bu da onların təlim prosesinə fərqli yanaşmaların tətbiqini zəruri edir.
Sağlamlıq imkanları məhdud olan bilinqv uşaqların inkişafı zamanı dil mühitinin xüsusiyyətləri, ailə və məktəb faktorlarının təsiri, eləcə də psixoloji dəstək mexanizmləri xüsusi əhəmiyyət kəsb edir. Bu kateqoriyaya aid uşaqlarda dil qarışıqlığı, kommunikasiya çətinlikləri və öyrənmə tempinin fərqliliyi müşahidə oluna bilər. Bununla yanaşı, düzgün təşkil olunmuş pedaqoji yanaşma və fərdiləşdirilmiş təlim strategiyaları onların potensial imkanlarının üzə çıxarılmasına şərait yaradır.

Mövzunun aktuallığı həm inklüziv təhsilin inkişafı, həm də multikultural cəmiyyətlərdə bilinqvliyin artması ilə izah olunur. Bu baxımdan, sağlamlıq imkanları məhdud olan bilinqv uşaqların tərbiyəsi və təhsili məsələsinin psixoloji-pedaqoji aspektdən araşdırılması, onların inkişafına yönəlmiş effektiv metod və vasitələrin müəyyənləşdirilməsi mühüm elmi-praktik əhəmiyyət daşıyır.

Qeyd etmək lazımdır ki, bu günə qədər elmdə “iki dillilik” anlayışının vahid tərifi mövcud deyil. Ən geniş istifadə olunan tərif U. Vaynrayxa məxsusdur. O, vurğulayırdı ki, iki dillilik iki dilin növbəli şəkildə istifadə olunması praktikasıdır (У.Вайнрайх, 1979). Psixolinqvistika sahəsinin mütəxəssisləri (P.V. Korovuşkin, S.Yu. Svitük, Q.N. Çirşeva və b.) iki dilliliyin bir neçə tipini ayırırlar ki, bu tiplər iki müxtəlif dil sistemindən istifadə edən şəxslərin dil imkanlarının fərqli səviyyələrini xarakterizə edir.

Belə ki, “yarım-bilinqvlər” adlandırılan şəxslər iki dildən istifadə etsələr də, lüğət ehtiyatı, qrammatika və nitq vərdişlərinin avtomatlaşdırılması baxımından ciddi çətinliklər yaşayırlar. Eyni zamanda, hər iki dili eyni səviyyədə bilən “ekvilinqvlər” və artıq monolinqv sayılmayan, lakin ikinci dildə effektiv ünsiyyət qura bilməyən “prebilinqvlər” də fərqləndirilir.

Q.N. Çirşevanın fikrincə, iki dillilik aktiv və passiv ola bilər. Körpəlik dövründə iki dilin eyni vaxtda mənimsənilməsi adətən aktiv iki dillilik kimi qiymətləndirilir və sonradan həm aktiv,

həm də passiv şəkildə inkişaf edə bilər. Dillərin ardıcıl şəkildə mənimsənilməsi isə passiv iki dillilik sayılır və bu da sonradan həm aktiv, həm də passiv formaya keçə bilər (Г.Н. Чиршева, 2012).

İki dilliliyin uşaqların psixi inkişafına təsiri məsələsi bu gün də aktuallığını qoruyur. L.S. Vıqotskinin “Uşaqlıq dövründə çoxdillilik məsələsi haqqında” əsərində qeyd olunur ki, uşağın bütün psixi inkişafı birbaşa nitqin təsirini əks etdirir. Lakin alim vurğulayır ki, iki dilliliyin müsbət və ya mənfi təsiri hər bir yaş mərhələsində uşağın inkişaf etdiyi konkret şərait nəzərə alınmaqla qiymətləndirilməlidir. Müasir tədqiqatçıların əksəriyyəti də bu mövqeyi bölüşür (Л.С. Выготский, 1983).

Məsələn, F.Q. Samiqulinanın tədqiqatında dörd yaşlı iki dilli uşağın nitq inkişafı araşdırılmış və nitqdəki çətinliklərin yalnız dil sistemlərinin interferensiyası ilə deyil, həm də uşağın yaş, intellektual inkişaf və sosiallaşma xüsusiyyətləri ilə bağlı olduğu göstərilmişdir (Ф.Г. Самигулина, 2019). M.A. Kosminanın tədqiqatında isə monolinqv və bilinqv ibtidai sinif şagirdlərinin dil kompetensiyası müqayisə olunmuş və müəyyən edilmişdir ki, adi məktəb şəraitində bilinqv uşaqlarda dillərdən birinə kifayət qədər yiyələnmə səviyyəsi formalaşmır (М.А. Косьмина, 2007). Onlarda nitqin anlaşılması, verbal məlumatın kodlaşdırılması və dekodlaşdırılması prosesində çətinliklər müşahidə olunur. Bu vəziyyət ailədə valideynlərin məqsədli şəkildə uşağın iki dilliliyini inkişaf etdirməməsi ilə daha da ağırlaşır.

Bir çox tədqiqatçılar belə nəticəyə gəlirlər ki, ailədə və təhsil müəssisələrində xüsusi psixoloji-pedaqoji şərait yaradılmadıqda, iki dilli uşaqlar nitq və ümumi psixi inkişafda ciddi çətinliklərlə üzləşə bilərlər. Bu çətinliklərə nitqin gec inkişafı, aktiv və passiv lüğətin azlığı, qrammatik quruluşun mənimsənilməsində problemlər, ikinci dildə yazı bacarıqlarının zəif inkişafı, dominant olmayan dilin itirilməsi və s. daxildir.

İki dillilik problemi xüsusi əhəmiyyət kəsb edir, xüsusilə sağlamlıq imkanları məhdud olan (SİM) uşaqlara münasibətdə. Tədqiqatlar göstərir ki, belə uşaqların demək olar hamısında müxtəlif dərəcəli nitq pozuntuları mövcuddur. Onlar iki dilli mühitə düşdükdə bu problemlər daha da dərinləşir və psixi inkişaflarına mənfi təsir göstərir. M.A. Kosmina müəyyən etmişdir ki, psixi inkişafında gecikmə olan və iki dilli mühitdə böyüyən ibtidai sinif şagirdləri eyni pozuntuya malik monolinqv yaşıdlarından geri qalırlar. Onlar nitq ifadələrinin daxili proqramlaşdırılmasında, semantik plandan daxili nitqə keçiddə çətinlik çəkirlər. Müəllif qeyd edir ki, bu prosesə ailənin ikinci dilə münasibəti, uşağın intellektual səviyyəsi və ikinci dilin sistemli öyrənilməsi kimi amillər təsir göstərir (М.А. Косьмина, 2007).

İki dilli uşaqların nitq inkişafına təsir edən əsas amillərdən biri kimi onların dominant mədəniyyətə münasibətdə fərqli mədəniyyətə mənsubiyyətin dərəcəsini göstərir. Digər mühüm amillərə idrak qabiliyyətləri, motivasiya yönümləri və ətraf nitq mühiti daxildir. Belə ki, dil və idrak qabiliyyətləri ikinci dilin mənimsənilməsinin asanlığını müəyyən edir.

Məktəbəqədər və ibtidai məktəb yaşlarında belə vəziyyət idrak tapşırıqlarının söz vasitəsilə həllində çətinliklərə, oxu və yazı problemlərinə gətirib çıxarır. Beləliklə, bu halda ya iki dilli uşaqların ümumi pedaqoji baxımsızlığından, ya da psixogen mənşəli psixi inkişaf geriliyindən danışmaq mümkündür. E.L. İndenbaumun fikrincə, belə uşaqların məktəb dövründə psixoloji-pedaqoji müşayiəti əvvəlcə oxu və yazı bacarıqlarının formalaşdırılması ilə başlamalı, yalnız bundan sonra şifahi nitqin inkişafına keçilməlidir (Е.Л. Инденбаум, 2016).

Bu istiqamətdə əsas fəaliyyət sahələrindən biri məktəb psixoloqunun valideynlərlə əməkdaşlığıdır. Bu əməkdaşlıq çərçivəsində valideynlərin akkulturasiya səviyyəsi və seçdikləri uyğunlaşma strategiyaları müəyyən edilir. Eyni zamanda, iki dilli uşaqların idrak inkişafının dəstəklənməsi və onların dominant dil və mədəniyyətə inteqrasiyasını təşviq edən motivasiyanın

formalaşdırılması mühüm hesab olunur. Bu amillər nitq inkişafı üçün vacib baza yaradır. Xüsusilə qeyd edilməlidir ki, iki dillilik özü psixi inkişafda gerilik yaratmır; belə problemlər əsasən qeyri-münasib psixoloji-pedaqoji şəraitin nəticəsi kimi meydana çıxır.

E.A. Yekjanova və E.A. Karpuşkinanın tədqiqatlarında iki dilli məktəblilərin nitq inkişafı və onların böyüdükləri sosiomədəni mühitin xüsusiyyətləri araşdırılmışdır. Tədqiqatda rus dilini ikinci dil kimi öyrənən miqrant uşaqlar iştirak etmişdir. Müəyyən edilmişdir ki, bütün iştirakçılarda nitqin qrammatik quruluşunda ciddi pozuntular mövcuddur: söz dəyişmə və söz yaradıcılığı bacarıqları formalaşmamışdır. Sintaktik pozuntular isə aqrammatik ifadələr və yalnız sadə cümlələrdən istifadə ilə özünü göstərir (Е.А. Екжанова, Е.А. Карпушкина, 2016).

Müəlliflər bu vəziyyətin əsas səbəbləri kimi dil interferensiyasını, ikinci dilin kifayət qədər istifadə olunmamasını, eləcə də ana dil səviyyəsində mövcud olan nitq çatışmazlıqlarını qeyd edirlər. Bu yanaşmaya əsasən belə nəticəyə gəlmək olar ki, ikinci dili mənimsəməkdə ciddi çətinlik yaşayan iki dilli uşaqlarda problemlər hələ monolinqv mərhələdə – yəni ana dilin formalaşması dövründə mövcud olmuşdur. Beləliklə, bu uşaqların bir qismi faktiki olaraq sağlamlıq imkanları məhdud olan uşaqlar kateqoriyasına aid edilə bilər.

İkinci dilin mənimsənilməsinə təsir edən mühüm amillərdən biri də iki dilli uşaqların cəmiyyətə akkulturasiya səviyyəsidir. Araşdırmalara görə, bu uşaqların valideynlərinin əksəriyyəti rus dilini zəif bilir və ya ümumiyyətlə bilmir, rus mədəniyyətinin dəyərlərini və ənənələrini anlamır. Bu isə uşaqların ikinci dili öyrənməsini çətinləşdirir və onların mədəni inteqrasiyaya motivasiyasını azaldır.

Hesab edirik ki, sağlamlıq imkanları məhdud olan iki dilli uşaqlarla iş korreksiyaedici-inkişaf yönümlü, məsləhətverici və maarifləndirici istiqamətlərdə aparılmalıdır. Bu fəaliyyət yalnız şagirdlərlə deyil, həm də onların ailələri və müəllimləri ilə birgə həyata keçirilməlidir. Yalnız belə kompleks yanaşma ikinci dilin effektiv mənimsənilməsi üçün əlverişli şərait yarada bilər.

Nitq pozuntuları olan iki dilli uşaqlarla işdə loqopedin rolu xüsusi əhəmiyyət kəsb edir. İlk mərhələ kimi uşaqların nitq inkişafının dəqiq və sistemli qiymətləndirilməsi vacib hesab olunur. Əksər tədqiqatçılar vurğulayırlar ki, diaqnostika həm ana dilində, həm də ikinci dildə aparılmalı, beləliklə uşağın nitq imkanları haqqında obyektiv və tam məlumat əldə olunmalıdır.

Diaqnostikanın digər mühüm komponenti isə iki dilli uşaqların idrak fəaliyyətinin qiymətləndirilməsidir ki, bu da korreksiyaedici iş strategiyalarının seçilməsinə əsas verir. N.N. Malyarçuk qeyd edir ki, bir çox loqoped bu sahədə kifayət qədər peşəkar hazırlığa malik deyil. Onun fikrincə, loqopedin peşə hazırlığında mədəni-məna, emosional-motivasiya, koqnitiv-psixoloji, əməli-kompetentlik və reflektiv-strateji komponentlər önəmli yer tutur (Н.Н. Малярчук, 2020).

Buna əsasən, loqopedin peşəkar fəaliyyəti iki dillilik nəzəriyyəsini dərindən mənimsəməyi, uşaqlarla effektiv emosional əlaqə qurmağı, fərdi inkişaf trayektoriyalarını planlaşdırmağı və psixoloji-pedaqoji müşayiət texnologiyalarını məqsədyönlü şəkildə tətbiq etməyi tələb edir.

Beləliklə, müasir cəmiyyətdə iki dilli uşaqların tərbiyəsi və təhsili məsələsi xüsusi aktuallıq kəsb edir. Bu problemin həlli bir neçə istiqamətdə həyata keçirilməlidir: birincisi, ontogenezin bütün mərhələlərində iki dilliliyin xüsusiyyətlərinin ətraflı və sistemli tədqiqi; ikincisi, yalnız nitq inkişafı deyil, həmçinin digər korreksiyaedici sahələr üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması; üçüncüsü isə sağlamlıq imkanları məhdud olan iki dilli uşaqların inkişaf çatışmazlıqlarını aradan qaldırmaq və onların kompensasiya imkanlarını təmin etmək məqsədilə xüsusi psixoloji-pedaqoji texnologiyaların işlənib hazırlanmasıdır.

Ədəbiyyat:

1. Вайнрайх, У. (1979). Языковые контакты: состояние и проблемы исследования. Киев: Вища школа.

2. Выготский, Л. С. (1983). К вопросу о многоязычии в детском возрасте. Собрание сочинений (Vol. 3, pp. 329–337). Москва.

3. Екжанова, Е. А., & Карпушкина, Е. А. (2016). Образовательная интеграция учащихся с ограниченными возможностями здоровья, воспитывающихся в ситуации билингвизма. Вестник Череповецкого государственного университета, (1), 88–91.

4. Инденбаум, Е. Л. (2016). К проблеме детского двуязычия и «инокультурности». Известия Иркутского государственного университета. Серия «Психология», 17, 26–37.

5. Карпушкина, Е. А. (2015). Проблемы диагностики речевых нарушений у младших школьников с билингвизмом. In В. Н. Скворцов & Л. М. Кобрина, Специальное образование: материалы XI Международной научной конференции, Санкт-Петербург, 22–23 апреля 2015 года (pp. 156–160). Санкт-Петербург: ЛГУ им. А. С. Пушкина.

6. Косьмина, М. А. (2007). Развитие языковой компетентности у детей в условиях вынужденного билингвизма (Автореф. дис. канд. психол. наук). Хабаровск.

7. Малярчук, Н. Н., Стрельцова, М. А., & Реутова, А. А. (2020). Готовность логопеда к работе с детьми-билингвами, имеющими речевые дисфункции в условиях инклюзивного образования. Современный ученый, (3), 153–155.

8. Самигулина, Ф. Г. (2019). Детская языковая личность в онтогенезе: моно- и билингвальная специфика. Актуальные проблемы филологии и педагогической лингвистики, (2), 27–35.

9. Чиршева, Г. Н. (2012). Детский билингвизм: одновременное усвоение двух языков. Санкт-Петербург: Златоуст.

İNCLUSİON AS A UNIVERSAL HUMANE IMPERATIVE: DECONSTRUCTİNG MENTAL BOUNDARİES AND PSYCHOLOGİCAL BARRİERS İN THE MODERN SCHOOL

Julia Doncheva
Prof. DSc.
Bulgaria Republic
Angel Kanchev University of Ruse
jdoncheva@uni-ruse.bg
ORCİD ID: 0000-0003-3148-3220
Dilshod Oblokulov
PhD
Uzbekistan Republic
Samarkand State University named after Sharof Rashidov
irossu1420@gmail.com
ORCİD ID: 0000-0003-3148-3220

Keywords: inclusive education, humane imperative, mental boundaries, psychological barriers, deconstruction, systemic change, educational psychology.

Summary. This paper examines inclusive education not merely as a pedagogical framework, but as a fundamental humane imperative and a civilizational choice in the 21st century. Despite

global legislative progress, the practical implementation of inclusion continues to face significant resistance rooted in deep-seated psychological constructs. The study focuses on the deconstruction of "mental boundaries" - the internal stereotypes, cognitive biases, and social distances that define the perception of „otherness" within the educational environment. Through a critical analysis of current psychological barriers - ranging from teacher anxiety and professional insecurity to parental skepticism - the author explores the mechanisms of resistance to systemic change. The paper proposes a transition from mechanical integration toward an authentic psychological climate of belonging. By analysing the interplay between individual attitudes and institutional culture, the author outlines strategic pathways for overcoming these barriers. Emphasis is placed on empathy as a cognitive architecture and the role of psychological interventions in fostering an environment where diversity is recognized as a resource rather than a deficit. The conclusion highlights that the success of the modern school depends on its capacity to evolve from a space of instruction to a space of shared human value.

Açar sözlər: inklüziv təhsil, humanist imperativ, zehni sərhədlər, psixoloji maneələr, dekonstruksiya, sistemli dəyişiklik, təhsil psixologiyası.

Xülasə. Bu məqalədə inklüziv təhsil yalnız pedaqoji çərçivə kimi deyil, həm də 21-ci əsrdə fundamental humanist imperativ və sivilizasiya seçimi kimi araşdırılır. Qlobal qanunvericilik sahəsindəki irəliləyişlərə baxmayaraq, inklüziyanın praktik tətbiqi dərin psixoloji konstruksiyalara əsaslanan ciddi müqavimətlə üzləşməyə davam edir. Tədqiqat təhsil mühitində "başqalıq" qavrayışını müəyyən edən daxili stereotiplərin, idrak qərəzlərinin və sosial məsafələrin - "zehni sərhədlərin" dekonstruksiyasına yönəlmişdir. Müəllim narahatlığından və peşəkar təhlükəsizliyindən valideyn skeptisizminə qədər mövcud psixoloji maneələrin tənqidi təhlili vasitəsilə müəllif sistemli dəyişikliyə müqavimət mexanizmlərini araşdırır. Məqalədə mexaniki inteqrasiyadan mənsubiyyətin orijinal psixoloji mühitinə keçid təklif olunur. Fərdi münasibətlər və institusional mədəniyyət arasındakı qarşılıqlı təsiri təhlil edərək müəllif bu maneələri aradan qaldırmaq üçün strateji yolları müəyyən edir. Diqqəti idrak memarlığı kimi empatiyaya və müxtəlifliyin çatışmazlıq deyil, resurs kimi qəbul edildiyi bir mühitin yaradılmasında psixoloji müdaxilələrin roluna yönəldir. Nəticə müasir məktəbin uğurunun onun tədris məkanından ortaq insan dəyərləri məkanına çevrilmə qabiliyyətindən asılı olduğunu vurğulayır.

Anahtar kelimeler: kapsayıcı eğitim, insani zorunluluk, zihinsel sınırlar, psikolojik engeller, yapısöküm, sistemik değişim, eğitim psikolojisi.

Özet. Bu makale, kapsayıcı eğitimi yalnızca pedagojik bir çerçeve olarak değil, 21. yüzyılda temel bir insani zorunluluk ve medeniyet seçimi olarak inceliyor. Küresel yasal ilerlemeye rağmen, kapsayıcılığın pratik uygulaması, köklü psikolojik yapılardan kaynaklanan önemli bir dirençle karşılaşmaya devam ediyor. Çalışma, eğitim ortamında "ötekilik" algısını tanımlayan içsel kalıplaşmış düşünceler, bilişsel önyargılar ve sosyal mesafeler olan "zihinsel sınırların" yapısökümüne odaklanıyor. Öğretmen kaygısı ve mesleki güvensizlikten ebeveyn şüpheciliğine kadar uzanan mevcut psikolojik engellerin eleştirel bir analizi yoluyla, yazar sistemik değişime karşı direnç mekanizmalarını araştırıyor. Makale, mekanik entegrasyondan otantik bir aidiyet psikolojik iklimine geçiş öneriyor. Bireysel tutumlar ve kurumsal kültür arasındaki etkileşimi analiz ederek, yazar bu engellerin üstesinden gelmek için stratejik yollar çiziyor. Bilişsel bir mimari olarak empatiye ve çeşitliliğin bir eksiklikten ziyade bir kaynak olarak algılandığı bir ortamın geliştirilmesinde psikolojik müdahalelerin rolüne vurgu yapılmaktadır. Sonuç bölümünde, modern

okulun başarısının, bir eğitim alanından ortak insani değerlerin paylaşıldığı bir alana dönüşme kapasitesine bağlı olduğu vurgulanmaktadır.

Inclusion as a civilizational choice can be presented as a Universal and Humane Imperative, namely:

Conceptual framework. Transition from the medical model (the student as a "problem") to the social and humanistic model (the environment as a potential). The medical model is oriented towards the individual. At its core is the theory of personal tragedy. Without underestimating the achievements of medical, pedagogical, psychological, etc. sciences, which have had a beneficial effect on many individuals with developmental disabilities (history shows many similar successes), it should be noted that the latter have definitely been placed in a "disadvantaged position". (Angelova, Sv., Topolska, Evg., 2022). Unfortunately, the latter term continues to be used today, and its role, as well as many others ("disabled", "persons with deficits", "persons with deficient development", "damaged", "anomalies", etc.) definitely does not serve only to be labelled and protected. In practice, it achieves, above all, a segregating effect.

The Human Imperative. We basically define why this is a "human imperative" in the 21st century – because it is a response to the global need for social cohesion. Why is inclusion not just an administrative requirement, but an ethical commitment of society to the dignity of every person? We use it as a guiding thread to emphasize the ethical side. Present inclusion not just as an educational policy, but as an ethical and civilizational choice.

Theoretical part of the concept of Deconstruction of Mental Boundaries – "deconstruction" – how to dismantle old patterns of thinking ("us" vs. "them", "normal" vs. "different"). Deconstruction: This term suggests a high level of scientific analysis (in the spirit of Derrida/postmodernism). (Alexandrache, C., 2017). The process of deconstruction: How critical thinking and reflection can dismantle these deeply rooted attitudes.

Psychology of the "Other". How invisible walls are formed in the mind (stereotypes and prejudices). Cognitive schemes of exclusion: Analysis of "Mental Boundaries": stereotypes and prejudices of teachers, parents and students, the archetype "us vs. them" in the school community.

Analysis of psychological barriers (Critical part). I will focus on some of the Psychological Barriers (Analysis of fears: fear of the unknown, professional insecurity of educators, social distance.).

Belonging vs. Integration. the basis is emphasizing the difference between simply "being present" in the class (integration) and "belonging" (inclusion).

In this case, we are talking about:

- Cognitive dissonance, which occurs when the system requires change, and the psyche strives for the status quo.

- Barriers among educators: Professional burnout, fear of incompetence and psychological resistance to changing the traditional teaching model.

- Barriers among parents: The fear of "typical" parents of lowering the educational standard and the isolation that parents of children with special needs feel.

- Social distance in the student group: Mechanisms of micro-exclusion and lack of emotional security.

Communication and unified approaches in the work of professionals involved with the child. Preparing the environment. (Shoilekova, K., 2021). The community as a resource.

The inclusive classroom. We all know what a traditional classroom looks like. However, it is not always comfortable for the children who learn in it every day. The inclusive classroom is where the magic happens. (Legurska, M., 2019). This is where the inclusive teacher comes into play. The inclusive classroom is organized in a way that responds to the diverse learning styles of all students, including students with learning difficulties, and involves them in active, not passive, learning. The inclusive classroom belongs to the children, and this should be evident from the moment you enter it. In the inclusive classroom, there is a dynamic and constant opportunity to move and adapt the environment according to the needs and preferences of the children. In the inclusive classroom, children are taught in many different ways, tailored to their abilities and needs. Some children think linearly, sequentially, others need to see the whole picture. (Turdiev, S. B., 2025). It is best to combine both ways of presenting information so that children can rely on their strengths and develop the other way of thinking. Almost every student needs additional support at some point in their learning. (Sobirovich, T.B., 2024). The earlier difficulties are caught, the sooner they will be mastered. In an inclusive classroom, teachers use observation and different methods to identify learning difficulties. In an inclusive classroom, knowledge is demonstrated in many different ways and every child has the opportunity to present themselves in their best light. All students know what good work looks like and receive regular feedback on their work, because clear requirements and regular feedback are key to motivation. (Voinokhovska, V., 2012). In an inclusive classroom, the teacher is the leader, but he is also open and confident enough in his teaching to accept opinions and support from other specialists and colleagues.

Coping Strategies (The Way Forward). (Damyanov, K., 2021) Pathways for Systemic Change and Psychological Support.

Psychological tools can be suggested: developing empathy, sensitivity training, building a supportive school culture.

To emphasize the role of the school psychologist and the class teacher as a mediator in this process. The role of the school psychologist: From diagnostician to agent of change and mediator in the school ecosystem. (Sulichka, I., 2021) The teacher as a factor for the inclusive classroom. (Damyanov, K., 2024).

To use empathy as a tool. Designing an educational environment based on emotional intelligence.

Building a culture of belonging (Belonging). Strategies for transforming the school into a “safe space” for identity.

I have conducted several studies on this topic. Here I will present some of them with a smaller sample, namely 75 students from pedagogical specialties.

First question, Figure 1. - Can every child be included in the educational environment of the educational institution? (You can indicate more than one answer). 75 answers



Figure 1. Can every child be included in the educational environment of the educational institution?

13.3% answered negatively, 36.5 answered positively, 68% of respondents stated that it depends on the child/student's problem.

Second question, Figure 2. - How do you assess the possibility of a person with a disability contributing to society? 42.7% of respondents believe that a complete change in the philosophy of modern people towards those with special needs is necessary. 4% believe that people with disabilities cannot contribute anything to society, that this is impossible. No one expresses the opinion that the activity of these people is irrelevant to us, to society, which answer does not somewhat correspond to the previous one?! It is possible that they did not understand the question correctly or that this is truly their opinion. 68% are firmly convinced that these people, these individuals, should be included in order to make their personal contribution to society, so that they are not isolated and ignored.

Figure 2. How do you assess the possibility of a person with a disability contributing to society?

A

And the last third question that I will present and visualize here is – Figure 3. Can people with disabilities, with special needs, actively participate in the life of society?

Figure 3. Can people with disabilities, with special needs, actively participate in the life of society?

The summary here is as follows: Only 2.7% do not see an area where people with special needs can integrate. 17.3% believe that these people can definitely join, 0%, there is no one who thinks these people cannot join and 80% say there are many examples of people with disabilities who have succeeded in their fields, including sports.

The School of the Future.

The success of inclusion is measured not by the number of children admitted, but by the quality of human relationships.

A community-centered school is a school that partners with all members of the community to improve the quality of education and provide support for all children. Education becomes a shared effort. (Dineva V., 2017) The system around a community-centered school includes parents, all local institutions, providers of social, health and psychological services, as well as businesses. They are all participants in the process of building a system of support for students and improving the school environment. A community-centered school includes representatives of all stakeholders in significant events of school life, as well as in the discussion of various issues. The learning process in a community-centered school goes beyond the school building. A community-centered school maintains relationships with various organizations such as museums, zoos, hospitals, and public buildings, which it can use as integrated learning centers. A community-centered school combines and provides additional learning opportunities and activities outside the school day. Such initiatives can be extremely significant for particularly vulnerable children. (Doncheva, J., G. Ivanova, D. Oblokulov, 2024).

Final message: Inclusive education should be a model for a more just and humane society. Inclusion is not an end point, but a continuous process of psychological growth of the entire society (Estabraq R Ibrahim, Fatima R Abdulhussein and Juliya Doncheva 2024).

Inclusion as a universal human imperative must remove, deconstruct, all kinds of boundaries and barriers, psychological, physical, physiological, mental, and so on, as well as change society's views towards these children, students, people in modern schools, in the modern humane, positive and building world.

References:

1. Alexandrache, C. (2017). The development of the teaching competencies: Guidelines and instruments. European Proceedings of Social and Behavioural Sciences. https://doi.org/10.15405/EPSBS.2017.07.03.2

2. Angelova, S., & Topolska, E. (2022). Study of student teachers' perceptions of the quality of online courses during the COVID-19 pandemic. International Journal Strategies of Educational and Scientific Policy, 2.

3. Damyanov, K. (2021). Socio-pedagogical support and inclusive education in the context of a pandemic. Paisii Hilendarski University Press.

4. Damyanov, K. (2024). International Classification of Functioning, Disability, and Health for Children and Youth (ICF-CY) as a framework for early intervention planning in inclusive education. Open Journal of Social Sciences, 12, 85–98.

5. Dineva, V. (2017). Structural aspects of the socio-psychological training. In Proceedings of the conference “Angel Kanchev” University of Ruse: Reports awarded with “Best Paper” Crystal Prize (FRI-2G.307-2-PP-05, pp. 142–146).

6. Doncheva, J., Ivanova, G., & Oblokulov, D. (2024). Opportunities and challenges for the education of students with special educational needs in the digital environment: The new normal. Strategies for Policy in Science & Education, 32, 140–150. https://strategies.azbuki.bg/

7. Ibrahim, E. R., Abdulhussein, F. R., & Doncheva, J. (2024). Learner empowerment level scale impact on EFL students in the instructional Iraqi and Bulgarian contexts. International Journal of Social Science and Education Research, 6(2), 89–94.

8. Legurska, M. (2019). Civic education—European and national policies. In E. Nikolova (Ed.), The interaction between secondary and higher education as a factor for improving the quality of education (pp. not specified). University Publishing House “St. Kliment Ohridski”. ISBN 978-954-07-4838-2.

9. Shoilekova, K. (2021). Advantages of data mining for digital transformation of the educational system. In Computer Science On-line Conference: Artificial Intelligence in Intelligent Systems (pp. 450–454). Springer. https://doi.org/

10. Sobirovich, T. B. (2024). The dynamics of ancient thought: How philosophies shaped changing societal ideospheres. Dynamics, 8(3), 19–24.

11.Sulichka, I. (2021). The competence approach in STEM educational environment of the primary school. In Create and explore on STEALM centers in education and the social pedagogical sphere (pp. 103–122). PRIMAX. ISBN 978-619-7242-91-1.

12.Turdiev, S. B. (2025). The primacy of human interests in a democratic society of Uzbekistan. Transforming Education through Scientific Discovery, 1(1), 374–379.

13.Voinokhovska, V. (2012). Information technologies and multimedia as factors for increasing the motivation of learners and the effectiveness of the learning process. Primaks. ISBN 978-954-8675-59-8.

İNKLÜZİV TƏHSİLDƏ SOSİALLAŞMA, EMOSİONAL SABİTLİK VƏ ZEHNİN İNKİŞAFI MƏQSƏDİLƏ MEDİTATİV TEXNİKALARDAN İSTİFADƏ ÜSULLARI

Fərəh Cabbar qızı Cəlil
Filologiya üzrə elmlər doktoru, professor
Azərbaycan Respublikası
Lənkəran Dövlət Universiteti
Erkən yaş (məktəbəqədər və ibtidai) təhsil üzrə layihə rəhbəri
jalilfarah00@gmail.com
ORCİD ID: 0000-0001-6894-5019

Açar sözlər: inklüziv, təhsil, sosial, emosional, meditasiya, texnika.

Xülasə. Müasir təhsil sistemində inklüziv yanaşma hər bir uşağın fərdi xüsusiyyətlərini nəzərə almağı və onların təlim prosesində bərabər iştirakını təmin etməyi əsas məqsəd kimi qarşıya qoyur. Erkən yaş dövrü isə uşağın şəxsiyyətinin, emosional-intellektual inkişafının və sosial bacarıqlarının formalaşmasında həlledici mərhələdir. Bu baxımdan, meditativ texnikaların erkən yaş inklüziv

təhsildə tətbiqi uşaqların psixoloji rifahının qorunması, davranışlarının tənzimlənməsi və təlimə adaptasiyasının artırılması baxımından aktualdır.

Qeyd etdiyimiz kimi təhsildə sosial bacarıqların formalaşması və zehnin inkişafı məqsədi ilə meditativ təcrübələrdən istifadə uşaqların emosional tənzimlənməsini və ümumi rifahını əhəmiyyətli dərəcədə yaxşılaşdırdığı göstərilmişdir. Erkən uşaqlıq təhsili və müasir məktəb psixologiyasında inkişaf etməkdə olan yenilikçi yanaşma, məktəblərdə meditativ təcrübələrinin inteqrasiyasını araşdırır və onların şagirdlərin öyrənmə təcrübələrini və rifahını artırmaq üçün faydalarını təyin edir. Erkən yaş inklüziv təhsildə meditativ texnikalardan istifadə uşaqların emosional sabitliyinin, diqqətinin və sosial bacarıqlarının inkişafına mühüm təsir göstərir. Bu texnikalar xüsusilə müxtəlif inkişaf xüsusiyyətlərinə malik uşaqların (məsələn, autizm spektr pozuntusu, diqqət çatışmazlığı və s.) təlim prosesinə daha rahat uyğunlaşmasına kömək edir.

Son dövr müasir təhsil təcrübəsində məktəblərdə bu təcrübələrinin tətbiqinə maraq artıb. Hazırda xüsusən erkən yaş təhsil dövründə meditativ təcrübələrdən istifadə təcrübələri geniş yayılmış, ABŞ, Böyük Britaniya, Kanada, Honq-Konq, Avstraliya və Yeni Zelandiya da daxil olmaqla transmilli olaraq milyonlarla uşaqla təcrübədə tətbiq edilmişdir. Bu texnikalara Nəfəs texnikaları, Vizuallaşdırma texnikası, diqqətin bədənə yönəldilməsi və s. üsullar aidir.

Keywords: inclusive, education, social, emotional, meditation, technique.

Summary. The inclusive approach in the modern education system sets as its main goal the consideration of the individual characteristics of each child and ensuring their equal participation in the learning process. Early childhood is a crucial stage in the formation of a child's personality, emotional-intellectual development and social skills. In this regard, the application of meditative techniques in early childhood inclusive education is relevant in terms of protecting children's psychological well-being, regulating their behavior and increasing their adaptation to learning.

As we have mentioned, the use of meditative practices in education for the purpose of forming social skills and developing the mind has been shown to significantly improve children's emotional regulation and overall well-being. An innovative approach developing in early childhood education and modern school psychology is investigating the integration of meditative practices in schools and determining their benefits for enhancing students' learning experiences and well-being. The use of meditative techniques in early childhood inclusive education has a significant impact on the development of children's emotional stability, attention and social skills. These techniques, in particular, help children with various developmental characteristics (for example, autism spectrum disorder, attention deficit, etc.) to adapt more easily to the learning process.

Recently, interest in the application of these practices in schools has increased in modern educational practice. Currently, the use of meditative practices, especially in the early childhood education period, is widespread and has been practiced with millions of children transnationally, including the USA, Great Britain, Canada, Hong Kong, Australia and New Zealand. These techniques include breathing techniques, visualization techniques, focusing attention on the body, etc. methods.

Anahtar kelimeler: kapsayıcı, eğitim, sosyal, duygusal, meditasyon, teknik.

Özet. Modern eğitim sisteminde kapsayıcı yaklaşım, her çocuğun bireysel özelliklerini dikkate almayı ve onların eğitim sürecine eşit katılımını sağlamayı temel amaç olarak benimser. Erken çocukluk dönemi ise çocuğun kişiliğinin, duygusal-zihinsel gelişiminin ve sosyal becerilerinin şekillenmesinde belirleyici bir aşamadır. Bu bağlamda, meditasyon tekniklerinin erken

yaş kapsayıcı eğitimde uygulanması, çocukların psikolojik iyi oluşunun korunması, davranışlarının düzenlenmesi ve öğrenme sürecine uyumlarının artırılması açısından önemlidir.

Belirtildiği gibi, eğitimde sosyal becerilerin geliştirilmesi ve zihinsel gelişimi desteklemek amacıyla meditasyon uygulamalarının kullanılması, çocukların duygusal düzenlemelerini ve genel iyi oluşlarını önemli ölçüde iyileştirdiğini göstermektedir. Erken çocukluk eğitimi ve modern okul psikolojisinde gelişmekte olan yenilikçi bir yaklaşım, okullarda meditasyon uygulamalarının entegrasyonunu incelemekte ve bunların öğrencilerin öğrenme deneyimlerini ve refahını artırmadaki faydalarını ortaya koymaktadır.

Erken yaş kapsayıcı eğitimde meditasyon tekniklerinin kullanımı, çocukların duygusal dengesi, dikkat düzeyi ve sosyal becerilerinin gelişimi üzerinde önemli bir etkiye sahiptir. Bu teknikler özellikle farklı gelişim özelliklerine sahip çocukların (örneğin, otizm spektrum bozukluğu, dikkat eksikliği vb.) eğitim sürecine daha kolay uyum sağlamalarına yardımcı olur.

Son dönemde modern eğitim uygulamalarında okullarda bu tür tekniklerin kullanımına olan ilgi artmıştır. Günümüzde özellikle erken çocukluk eğitiminde meditasyon uygulamaları yaygınlaşmış olup, Amerika Birleşik Devletleri, Birleşik Krallık, Kanada, Hong Kong, Avustralya ve Yeni Zelanda dahil olmak üzere uluslararası ölçekte milyonlarca çocuk üzerinde uygulanmaktadır. Bu teknikler arasında nefes egzersizleri, görselleştirme teknikleri ve dikkatin bedene yönlendirilmesi gibi yöntemler yer almaktadır.

Meditativ texnikalar erkən yaş təhsil mühitində daxili sakitlik, diqqət və emosional balansın yaradılmasına xidmət edən metodlar toplusudur. Erkən yaş inklüziv təhsil mühitində bu texnikaların tətbiqi xüsusilə fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqlar üçün mühüm əhəmiyyət daşıyır. Autizm spektr pozuntusu, diqqət çatışmazlığı və hiperaktivlik sindromu kimi hallarda meditativ yanaşmalar uşağın özünü tənzimləmə qabiliyyətini gücləndirir (Barker B., Mills C. 2018).

Ümumiyyətlə yaş fərqindən asılı olmalayaraq meditativ texnikalar içində sakitləşdirici funksiya malik elementlərdən biri də nəfəs texnikası ilə bağlıdır. Sadə və oyun formasında təqdim edilən nəfəs texnikaları uşaqlarda gərginliyin azalmasına və diqqətin cəmlənməsinə kömək edə bilər. Məsələn, uşaqlara “şar üfürmə” və ya “çiçək qoxlama” kimi təsəvvüri tapşırıqlar vasitəsilə nəfəs alıb-vermə öyrədilə bilər. Bu yanaşma onların həm fiziki, həm də emosional rahatlığını təmin etməyə xidmət göstərəcəkdir.

Vizualizasiya texnikaları da erkən yaşda effektiv üsullardan biridir. Uşaqlara sakit və xoş mühitləri təsəvvür etdirmək onların daxili rahatlıq hissini artırır və narahatlıq səviyyəsini azaldır. Bu metod xüsusilə aqressiv və ya hiperaktiv davranış nümayiş etdirən uşaqlarla işdə müsbət nəticələr verir.

Bədənə diqqət yönəltmə texnikası (body scan) uşaqlara öz bədən hissələrini hiss etməyi və dərk etməyi öyrədir. Bu, onların öz bədənləri üzərində nəzarətini artırır və emosional gərginliyi azaltmağa kömək edir. Eyni zamanda, musiqi və ritm əsaslı meditativ fəaliyyətlər uşaqlarda həm emosional rahatlıq yaradır, həm də sosial uyğunlaşmanı gücləndirir. Qrup şəklində aparılan ritmik məşqlər inklüziv mühitdə əməkdaşlıq və qarşılıqlı anlayışın formalaşmasına şərait yaradır.

Qısa müddətli fokuslanma məşqləri də diqqətin inkişafında mühüm rol oynayır. Uşaqların müəyyən obyekt və ya fəaliyyət üzərində diqqətini cəmləməsi onların öyrənmə prosesində daha aktiv iştirak etməsinə imkan yaradır. Bu yanaşma xüsusilə diqqət problemi olan uşaqlar üçün effektivdir.

Gülüş texnikası da bu baxımdan vacib elementlərdəndir. Gülüş stressi aradan qaldırmaq və bədənin rahatlamasına kömək etmək üçün gözəl vasitədir.

Musiqi də meditativ texnikalar sırasında özünəməxsus yer tutur. Sakitləşdirici musiqiyə qulaq asmaq uşağın diqqətini cəmləməsinə kömək edə bilər. Hətta çox uşaqlar rahatlaşdırıcı klassik musiqidən həzz ala bilərlər (Стрельцова Л. (2020)).

Meditativ texnikaların tətbiqindən sonra refleksiya mərhələsi də vacibdir. Uşaqlara öz hisslərini ifadə etməyə şərait yaratmaq onların emosional savadlılığını artırır. Bu, müəllimə uşağın psixoloji vəziyyətini daha yaxşı anlamağa və fərdi yanaşma tətbiq etməyə imkan verir (FCəlil: 2023).

Erkən yaş inklüziv təhsildə meditativ texnikalardan istifadə uşaqların emosional sabitliyinin təmin olunmasına, davranış problemlərinin azaldılmasına və sosial bacarıqlarının inkişafına mühüm töhfə verir. Bu texnikalar təlim mühitində müsbət psixoloji atmosfer yaradır və bütün uşaqların təhsil prosesinə daha aktiv və rahat qoşulmasını təmin edir. Meditativ yanaşmaların sistemli və məqsədyönlü şəkildə tətbiqi inklüziv təhsilin keyfiyyətinin yüksəldilməsində effektiv vasitə kimi çıxış edir.

Ədəbiyyat:

1. Cəlil F. (2023) Müasir psixologiyada meditativ fəndlər. Fənn proqramı. Mingəçevir Dövlət Universiteti

2. Barker B., Mills C. (2018). The psy-disciplines go to school: Psychiatric, psychological and psychotherapeutic approaches to inclusion in one UK primary school. International Journal of Inclusive Education, 22(6), 638–654.

3. Стрельцова Л. (2020) Медитация и практики осознанности: 7 упражнений для детей, CHİPS Journal, https://chips-journal.ru/reviews/kak-poznakomit-rebenka-s-meditaciej-prostye-rekomendacii-kotorye-pomogut-v-bor-be-so-stressom

İNKLÜZİV ŞAGİRDLƏRİN UNİVERSİTETƏ İNTEQRASİYASININ PSİXOPEDAQOJİ MƏSƏLƏLƏRİ

Aytəkin Telman qızı Məmmədova
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
aytakin.mammadova@sdu.edu.az
ORCİD ID: https://orcid.org/0000-0003-1084-8884
Şahnaz Mustafa qızı Quliyeva
Psixologiya üzrə fəlsəfə doktoru, dosent
Sumqayıt Dövlət Universiteti
shahnaz1969@mail.ru
ORCİD ID: https://orcid.org/0000-0002-7648-502X1

Açar sözlər: inklüziv təhsil, inteqrasiya, cəmiyyət, universitet, adaptasiya, tələbə.

Xülasə. Sağlamlıq imkanları məhdud şagirdlərin universitetə inteqrasiyası və digər gənclərlə ünsiyyətə, birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması və onların bir fərd olduğunu dərk etməsi müasir dövrdə həm psixologiya elminin, həm də cəmiyyətin əsas diqqət yetirdiyi aktual psixopedaqoji məsələlərdən biridir. Bu prosesdə məqsəd onları bir fərd olaraq zəruri bilik,

bacarıq və vərdişlərə 50yiyələndirməklə cəmiyyətə uyğunlaşmasını təmin etməkdir. İnklüziv tələbələrdə natamlıq kompleksi olur ki, bu da onların motivasiya sahəsinin və emosional-iradi sferasının tam inkişaf etməsinə mənfi təsir göstərir , bu isə onlarda özünə inamsızlıq və özünəqapanmaya səbəb olur. İnkuliziv şagirdlərin universitet həyatına tələbə kimi inteqrasiyasında bir sıra çətinliklər mövcuddur ki, bunlar da tezisdə100 psixopedaqoji istiqamətdə araşdırılmışdır. Bu çətinliklər inkuliziv şagirdlərin ali məktəb mühitində tələbə kimi yeni bir həyata uyğunlaşmasında , yeni sosial əlaqələr, akademik nəticələr və müstəqil həyatlarında psixopedaqoji istiqamətdə gərginlik yaradır.

Ölkəmizdə sağlamlıq imkanları məhdud olan şagirdlərin ali təhsilə inteqrasiyası onların arzu və istəklərinin, maraq və tələbatlarının düzgün formalaşması və onlarla qurulan kommunikativ 150əlaqələrin düzgün seçilməsi müasir dövrdə diqqət yetirilən əsas psixoloji məsələlərdən biridir. Kommunikatv əlaqələrin düzgün qurulması zamanı sağlamlıq imkanları məhdud olan gənclər ali təhsil mühitinə tez uyğunlaşır və öz bilik- bacarıqları ilə bir fərd olduğunu reallaşdırmağa çalışmaqla özlərinə inam hissi formalaşdırmış olurlar . Ali təhsil müəsisəsində bütün tələbələrin eyni qrupda təhsil alması dərs deyən müəllimin alternativ ünsiyyyət formasını seçməsinə yönəldir ki, bu problemlər də tezisdə öz əksini tapmışdır.

Keywords: inclusive education, integration, society, university, adaptation, student.

Summary. The integration of students with disabilities into universities, their involvement in communication and joint education (inclusive education) with other young people, and their realization of themselves as individuals are among the key psycho-pedagogical issues focused on by both psychological science and society in the modern era. The goal of this process is to ensure their adaptation to society by equipping them with the necessary knowledge, skills, and habits as individuals. Inclusive students often suffer from an inferiority complex, which negatively impacts the full development of their motivational and emotional-volitional spheres, leading to self-doubt and social withdrawal. There are several challenges in the integration of inclusive students into university life, which have been researched in this thesis from a psycho-pedagogical perspective. These difficulties create psycho-pedagogical tension in their adaptation to a new life as students in the higher education environment, in establishing new social connections, achieving academic results, and leading independent lives.

In our country, the integration of students with disabilities into higher education, the correct formation of their desires, interests, and needs, and the proper selection of communicative relationships established with them are primary psychological issues addressed today. When communicative relationships are built correctly, young people with disabilities adapt to the higher education environment more quickly and develop self-confidence by striving to realize themselves as individuals through their knowledge and skills. The fact that all students study in the same group in higher education institutions directs the instructors to choose alternative forms of communication, and these issues are reflected in the thesis.

Anahtar kelimeler: kapsayıcı egitim, entegrasyon, toplum, üniversite, adaptasyon, öğrenci.

Özet. Engelli öğrencilerin üniversiteye entegrasyonu, diğer gençlerle iletişim kurması, ortak eğitime (kaynaştırma/inklüzyon eğitimi) dahil edilmesi ve birer birey olduklarının farkına varmaları, modern çağda hem psikoloji biliminin hem de toplumun odaklandığı temel psikopedagojik meselelerden biridir. Bu süreçteki amaç, onları birer birey olarak gerekli bilgi, beceri ve alışkanlıklarla donatarak topluma uyum sağlamalarını gerçekleştirmektir. Kaynaştırma öğrencilerinde görülen yetersizlik kompleksi, onların motivasyon alanlarının ve duygusal-iradi

süreçlerinin tam gelişimini olumsuz etkilemekte; bu durum ise kendilerine olan güvensizliğe ve içe kapanıklığa neden olmaktadır. Kaynaştırma öğrencilerinin üniversite hayatına birer öğrenci olarak entegre olmasında bir dizi zorluk bulunmaktadır ve bu zorluklar tez kapsamında psikopedagojik açıdan araştırılmıştır. Bu güçlükler, öğrencilerin yükseköğretim ortamında yeni bir hayata alışmalarında, yeni sosyal ilişkiler kurmalarında, akademik başarılarında ve bağımsız yaşamlarında psikopedagojik gerginlik yaratmaktadır.

Ülkemizde engelli öğrencilerin yükseköğretime entegrasyonu, arzu ve isteklerinin, ilgi ve ihtiyaçlarının doğru şekillenmesi ve onlarla kurulan iletişimsel bağların doğru seçilmesi günümüzde dikkat edilen temel psikolojik konulardan biridir. İletişimsel bağlar doğru kurulduğunda, engelli gençler yükseköğretim ortamına daha hızlı uyum sağlar ve bilgi-becerileriyle birer birey olduklarını kanıtlayarak özgüven duygusu geliştirirler. Yükseköğretim kurumlarında tüm öğrencilerin aynı grupta eğitim alması, ders veren öğretim görevlisini alternatif iletişim biçimleri seçmeye yöneltmektedir; bu problemler tezde ayrıntılı olarak ele alınmıştır.

Müasir dövrdə inkuliziv təhsil həm psixologiya elminin, həm də cəmiyyətin əsas diqqət yetirdiyi aktual psixopedaqoji məsələlərdən biridir. Bu prosedə məqsəd sağlamlıq imkanları məhdud olan gənclərin yalnız akademik deyil, həm də sosial və emosional inkişafını təmin etməkdən ibarətdir. Ölkəmizdə inkuliziv təhsilin inkişafı istiqamətində dövlət proqramları və normativ sənədlər hazırlanmışdır. Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqlar hər zama diqqət mərkəzində olmuş və 2005-ci ildən "İnklüziv təhsil layihəsi"nin icrasına start verilmişdir. Nazirlər Kabinetinin 3 fevral 2005-ci il tarixli, 20 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsili"nin təşkili üzrə inkişaf proqramı təsdiq edilmişdir. Ölkəmizdə inklüziv uşaqlar hə zaman dövlət qayğısı ilə əhatə olunmuşlar. Bu baxımından qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməyi və onların təhsili üçün maneəsiz mühit yaratmağı əsas məqsəd kimi qəbul edir. Bu mühüm addımlar inkuliziv şagirdlərin universitetə inteqrasiyasını təmin etmək və onların özunutəsdiqini, özünüreallaşdirmasını həyata keçirməyə yönəlmişdir. Bu baxımdan da sağlamlıq imkanları məhdud olan gənclərin özunutəsdiq və özünüreallaşdirmasınıda ali təhsilin əhəmiyyəti olduqca böyükdür. Sağlamlıq imkanları məhdud tələbə gənclərin cəmiyyətə inteqrasiyası və digər gənclərlə ünsiyyətə, birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması onların bir fərd olduğunu dərk etməsinə müsbət təsir etmiş olur. Bu prosesdə məqsəd onların bir fərd olaraq özlərinin ehtiyacları olmasını dərk etməsilə psixi inkişaflarına müsbət təsir göstərməkdir. Göründüyü kimi, inklüziv şagirdlərin universitetə tələbə kimi inteqrasiyasında məqsəd onlara zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla cəmiyyətə uyğunlaşmasını təmin etməkdir. İnklüziv tələbələrdə natamlıq kompleksi olur ki, bu da onların motivasiya sahəsinin və emosional-iradi sferasının tam inkişaf etməsinə mənfi təsir göstərir , bu isə onlarda özünə inamsızlıq və özünəqapanmaya səbəb olur. İnkuliziv şagirdlərin universitet həyatına tələbə kimi inteqrasiyasında bir sıra psixoloji çətinliklər mövcuddur. Bu çətinliklərdən biri adaptasiya və motivasiya ilə bağlıdır ki, bu da inkuliziv şagirdlərin ali məktəb mühitində tələbə kimi yeni bir həyata uyğunlaşmasına çətinlik yaradır. Belə ki, yeni mühitdə yeni sosial əlaqələr, akademik yük və müstəqil həyat psixopedaqoji istiqamətdə gərginlik yaradır. Ona görə də inklüziv tələbələrin özünuinkişaf və özünüreallaşdırmasının ən mühüm şərtlərindən biri onlarda

daxili motivasiyanın yaradılmasıdır. Daxili motivasiyanın yaradılması inkuliziv tələbələrdə məqsəd aydınlığı, dərsə maraq və idrakı fəallığı artırmış olur. Daxili motivasiyanın uzun müddətli olması inkuliziv tələbələrin özünuinkişaf və özünüreallaşdırmasının daxili cəhdi kimi dəyərləndirilir. Özünə inamın aşağı olması ilə bağlı çətinliklər də inkuliziv tələbələrdə özünə inamsızlıq və özünəqapanmaya səbəb ola bilər ki, bu da onların tələbə kimi özünuinkişaf və özünüreallaşdırmasına mənfi təsir göstərir.

Sağlamlıq imkanları məhdud olan tələbə gənclərin sağlam tələbə gənclərlə bərabər təhsil almasının təmin edilməsi cəmiyyətimizdə sosial bərabərliyin qorunmasının bir göstəricisidir. Ölkəmizdə inkuliziv şagirdlərin ali təhsilə inteqrasiyası onların arzu və istəklərinin, maraq və tələbatlarının düzgün formalaşması və onlarla qurulan kommunikativ əlaqələrin düzgün seçilməsi müasir dövrdə diqqət yetirilən əsas psixoloji məsələlərdən biridir. Kommunikatv əlaqələrin düzgün qurulması zamanı sağlamlıq imkanları məhdud olan gənclər ali təhsil mühitinə tez uyğunlaşır və öz bilik- bacarıqları ilə bir fərd olduğunu reallaşdırmağa çalışmaqla özlərinə inam hissi formalaşmış olur. İnkuliziv şagirdlərin unversitetə inteqrasiyasında bir sıra pedaqoji şətinliklər də özünü büruzə verir. Bu pedaqoji çətinliklərə ilk olaraq müəllimin inkuliziv təhsil üzrə kifayət qədər bilik – bacarıqlara malik olmaması , xüsusi ehtiyacı olan tələbələr üçün dərs vəsaitlərinin olmaması və s. öyrənmə prosesini çətinləşdirir. (Basilova T.A., 2002)

Ali təhsil müəsisəsində bütün tələbələrin eyni qrupda təhsil alması dərs deyən müəllimin alternativ ünsiyyyət formasını seçməsinə yönəldir ki, bu prosesdə də məqsəd sağlamlıq imkanları məhdud olan uşaqların həmyaşıdları ilə ünsiyyət baçarığını formalaşdırmaq və onların təhsilə, cəmiyyətə inteqrasiyasını təşkil etməkdir. Sağlamlıq imkanları məhdud olan tələbə gənclərin universitet həyatında yaşadıqları ilk çətinliklərdən biri özləri kimi olmayan gənclərlə qarşılaşmalarıdır. Belə tələbələrlə əməkdaşlıq etmək, ünsiyyət qurmaq və dərs prosesində təlim fəalliğına qoşulmaq ilk vaxtlarda onlar üçün ağır keçir ki, bu prosesdə tələbələrin qarşılıqlı şəkildə bir-birinə uyuşması və alışması müəllim fəaliyyətində pedaqoji ustalıq və təcrübə əsas rol oynayır.Təhsil prosesində sağlamlıq imkanları məhdud olan tələbələrin sağlam tələbə gənclərlə ünsiyyət qurması və əməkdaşlıq etməsi onların diqqətini öz qüsurlarına deyil yeni davranışlara, bilik və bacarıqlara yiyələnməsinə yönəltmiş olur (L.M.Şipitsinan,1995). Bu prosesdə universitetlərdə psixoloji xidmət mərkəzlərinin fəaliyyət göstərməsi diqqət yetirilən əsas məsələlərdən biridir. İnkuliziv şagirdlərin ali məktəb həyatına inteqrasiyasında qrup işlərinin, lahiyələr və sosial fəaliyyətlərin təşkil olunması inkuliziv tələbələrin kollektivə uyöunlaşmasına müsbət təsir göstərir.

Aparılan müşahidələr göstərir ki, inkuliziv şagirdlərin universitetə inteqrasiyası pedaqoji və psixoloji faktorlarla sıx bağlıdır. Sağlamlıq imkanları məhdud olan tələbə gəncləri təhsil prosesində onların yoldaşları tərəfindən olduğu kimi qəbul olunaraq diqqət və qayğı ilə əhatə olunması onların psixoloji inkişafına, təhsilə, cəmiyyətə adaptasiyasına və bilik - bacarıqları ilə özünüreallaşdırmasına, özünütəsdiqinə olduqca müsbət təsir göstərmiş olur. Müşahidələr göstərir ki, dərs prosesində müəllimlərin inklüziv tələbələrlə ünsiyyəti zamanı münasibətlərində təmkinli, sakit, aydın danışması, ünsiyyətdə daha az sözdən istifadə etməklə onları düşünməyə yönəltməsi onların psixoloji inkişafına müsbət təsir ğöstərir ki, bu da onların diqqətini xəstəliklərinə deyil, təhsilə, özünüinkişafa və cəmiyyətə inteqrasiyasına yönəldir. Müəllimlərin valideynlərlə birgə əməkdaşlıq etməsi və məsləhətləşmələr aparması da sağlamlıq imkanları məhdud olan tələbə gənclərin psixi inkişafı baxımından olduqca əhəmiyyətlidir (Əliyev R.İ. 2007). Bu proses təhsil sistemindəi xüsusi qayğıya ehtiyacı olan gənclərdə özünə inamı artırır və digər normal gənclərlə

bərabərhüquqlu olmasını təmin etməklə onlarda yaşamaq istəyi və həvəsini daha da artır, onlarda gələcəyə ümid yaradır.

Ədəbiyyat:

1. Basilova T.A. (2002) Yeniyetmə yaşlarında eşitmə və görmə qabiliyyətini itirmiş uşaqların psixi sağlamlıq problemləri. Defektologiya, №4. s.23-27
2. Əliyev R.İ. (2007) Psixologiya. Bakı: Nurlan, 255 s.
3. Hacıyeva A.Ş. (2020) Emosiyaların psixologiyası. Dərs vəsaiti. Sumqayıt:SDU, 228 s.
4. Quliyeva Ş.M.(2021) Ümumpsixoloji praktikum. Dərs vəsaiti. Sumqayıt:SDU, 426 s.
5. Şipitsinanın L.M. red.ilə (1995) Görmə qüsurlu məktəbəqədər uşaqların inkişafı korreksiyası və təhsili. Toplu: "Təhsil".131s.

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ İNKLÜZİV TƏLİM STRATEGİYALARI

Leyla Nəsib qızı Allahverdiyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Sumqayıt Dövlət Universiteti
leyla.allahverdiyeva@sdu.edu.az
ORCİD ID: 0000-0003-2067-5702
Leyla Allahqulu qızı Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
Sumqayıt Dövlət Universiteti
Leyla.aliyeva@sdu.edu.az
ORCİD ID: 0000-0002-1818-3648

Açar sözlər. inklüziv təhsil, ədəbiyyat dərsi, kommunikativ bacarıqlar, empatiya və dəyərlər, inklüziv təlim strategiyaları, bədii mətn təhlili, korreksiyaedici təlim.

Xülasə. Müasir təhsil sistemində inklüzivlik prinsipinin qarşıya qoyduğu məqsəd bütün şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq tədris prosesinə bərabər şəkildə cəlb olunmasıdır. Bu kontekstdə ədəbiyyat dərsləri yalnız bilik ötürmə vasitəsi deyil, həm də empatiya, sosial şüur və müxtəlifliyə hörmət kimi dəyərlərin formalaşdırılmasında mühüm pedaqoji platformadır. Lakin ənənəvi tədris üsulları bütün şagirdlərin ehtiyaclarını tam qarşılamır. Bu səbəbdən ədəbiyyat dərslərində inklüziv tədris strategiyalarının tətbiqi zəruridir.

Tədqiqat işinin əsas məqsədi ədəbiyyat dərslərində inklüziv tədris strategiyalarının tətbiq imkanlarını və onların təlimin effektivliyinə təsirini araşdırmaqdır. Araşdırmada diferensiallaşdırılmış təlim, multimodal yanaşma, əməkdaşlığa əsaslanan fəaliyyətlər təhlil edilmiş, nitq pozuntuları olan uşaqların sosiallaşmasında ədəbiyyat dərslərinin rolu vurğulanmışdır. Bu strategiyaların tətbiqi nəticəsində şagirdlərin fərdi ehtiyaclarının daha dolğun şəkildə qarşılandığı, onların dərs prosesində fəal iştirakının artdığı və öyrənmə motivasiyasının yüksəldiyi müəyyən olunmuşdur. Xüsusilə nitq qüsuruolan məktəblilərin sosial inklüzivliyində ədəbiyyat dərsləri, fənn çərçivəsində təklif olunan fəaliyyət növləri mühüm rol oynayır. İlk növbədə bu fəaliyyətlərə müxtəlif janrlarda bədii əsərlərin oxunması və təhlili daxildir. Şagird hər hansı yazıçı və ya şairin yaradıcılığı ilə tanış olaraq, oxuduqlarının məzmununu dərk edir, əsərin ideya və məzmununu müəyyənləşdirir, hadisələrə şəxsi münasibət bildirərək öz təcrübə sərhədlərini genişləndirmək,

əxlaq normaları, mənəvi dəyərlər və mədəni ənənələr haqqında təsəvvürlərini zənginləşdirmək imkanı əldə edir.

Keywords: inclusive education, literature lesson, communication skills, empathy and values, interactive teaching strategies, literary text analysis, remedial (rehabilitative) instruction.

Summary. In today’s education system, the principle of inclusivity aims to ensure the equal participation of all students in the learning process by taking their individual characteristics into account. In this context, literature lessons function not only as a means of knowledge transmission but also as an important pedagogical platform for fostering values such as empathy, social awareness, and respect for diversity. However, traditional teaching methods do not fully meet the needs of all students. Therefore, the implementation of inclusive teaching strategies in literature lessons has become a necessity.

The main purpose of this study is to examine the applicability of inclusive teaching strategies in literature lessons and their impact on teaching effectiveness. The study analyzes differentiated instruction, multimodal approaches, and collaborative learning activities, emphasizing the role of literature lessons in the socialization of children with speech disorders. The results indicate that the implementation of these strategies leads to a more comprehensive fulfillment of students’ individual needs, increased active participation in the learning process, and higher learning motivation. In particular, literature lessons and the types of activities offered within this course play a significant role in the social inclusion of students with speech disorders. These activities primarily include reading and analyzing literary works of various genres. By engaging with the works of different authors and poets, students comprehend the content of the text, identify the author’s aesthetic and intellectual intent, and form personal interpretations of events. This process enables them to expand their experiential boundaries and acquire knowledge about moral norms, ethical values, and cultural traditions.

The language and discourse used by the teacher play a decisive role in creating an inclusive learning environment. Simple, clear, and non-discriminatory communication expands students’ opportunities for self-expression and ensures psychological comfort. The systematic application of inclusive teaching strategies in literature lessons not only improves the quality of instruction but also contributes to the development of social integration and mutual understanding among students. This, in turn, plays an important role in achieving the core goals of inclusive education.

Anahtar kelimeler: kapsayıcı eğitim, edebiyat dersi, iletişim becerileri, empati ve değerler, etkileşimli öğretim stratejileri, edebi metin analizi, düzeltici (rehabilite edici) öğretim.

Özet. Günümüz eğitim sisteminde kapsayıcılık ilkesi, tüm öğrencilerin bireysel özellikleri dikkate alınarak öğretim sürecine eşit biçimde katılımını sağlamayı amaçlamaktadır. Bu bağlamda edebiyat dersleri yalnızca bilgi aktarım aracı değil, aynı zamanda empati, toplumsal bilinç ve farklılığa saygı gibi değerlerin kazandırılmasında önemli bir pedagojik platform olarak öne çıkmaktadır. Ancak geleneksel öğretim yöntemleri tüm öğrencilerin ihtiyaçlarını tam olarak karşılayamamaktadır. Bu nedenle edebiyat derslerinde kapsayıcı öğretim stratejilerinin uygulanması zorunlu hale gelmektedir.

Bu araştırmanın temel amacı, edebiyat derslerinde kapsayıcı öğretim stratejilerinin uygulanma olanaklarını ve bu stratejilerin öğretimin etkililiğine etkisini incelemektir. Çalışmada farklılaştırılmış öğretim, çok modlu (multimodal) yaklaşım ve iş birliğine dayalı öğrenme etkinlikleri analiz edilmiş; konuşma bozukluğu olan çocukların sosyalleşmesinde edebiyat derslerinin rolü vurgulanmıştır. Bu stratejilerin uygulanması sonucunda öğrencilerin bireysel

ihtiyaçlarının daha kapsamlı şekilde karşılandığı, ders sürecine aktif katılımlarının arttığı ve öğrenme motivasyonlarının yükseldiği belirlenmiştir. Özellikle konuşma bozukluğu olan öğrencilerin sosyal kapsayıcılığında edebiyat dersleri ve bu ders kapsamında sunulan etkinlik türleri önemli bir rol oynamaktadır. Bu etkinlikler arasında öncelikle farklı türlerde edebi eserlerin okunması ve analiz edilmesi yer almaktadır. Öğrenci, herhangi bir yazar veya şairin eserleriyle tanışarak, metnin içeriğini kavrar, yazarın estetik ve düşünsel amacını belirler, olaylara kişisel değerlendirme yapar ve böylece kendi deneyim sınırlarını genişletme, ahlaki normlar, manevi değerler ve kültürel gelenekler hakkında bilgi edinme imkânı elde eder.

Öğretmenin kullandığı dil ve söylem, kapsayıcı bir öğrenme ortamının oluşturulmasında belirleyici bir rol oynamaktadır. Sade, açık ve ayrımcılıktan uzak iletişim biçimi öğrencilerin kendilerini ifade etme olanaklarını genişletmekte ve psikolojik rahatlık sağlamaktadır. Edebiyat derslerinde kapsayıcı öğretim stratejilerinin sistemli biçimde uygulanması yalnızca öğretimin niteliğini artırmakla kalmayıp, aynı zamanda öğrencilerde sosyal entegrasyon ve karşılıklı anlayışın gelişmesine de katkı sağlamaktadır. Bu durum, kapsayıcı eğitimin temel hedeflerine ulaşılmasında önemli bir rol üstlenmektedir.

Müəllimin istifadə etdiyi dil və diskurs inklüziv mühitin formalaşmasında həlledici rol oynayır. Sadələşdirilmiş, aydın və diskriminasiyadan uzaq ünsiyyət forması şagirdlərin özünüifadə imkanlarını genişləndirir və psixoloji rahatlığını təmin edir. Ədəbiyyat dərslərində inklüziv tədris strategiyalarının sistemli tətbiqi yalnız təlimin keyfiyyətini yüksəltmir, eyni zamanda şagirdlərdə sosial inteqrasiya və qarşılıqlı anlayışın inkişafına şərait yaradır. Bu isə inklüziv təhsilin əsas məqsədlərinə nail olunmasında mühüm əhəmiyyət kəsb edir. İnklüziv təhsil sağlamlıq imkanları məhdud olan uşaqların ümumtəhsil mühitinə tədricən inteqrasiyasını təmin etməyə yönəlmişdir və bu prosesdə onların fərdi xüsusiyyətləri və şəxsi keyfiyyətləri nəzərə alınır. Bu yanaşma yalnız təlim metodu deyil, eyni zamanda məhdudiyyətlərindən, müxtəlif sosial və etnik qruplara mənsubiyyətindən asılı olmayaraq insan dəyərlərini ön plana çıxaran bir vasitədir.

İnklüziv siniflərdə fərqli fərdi xüsusiyyətlərə və müxtəlif inkişaf səviyyələrinə malik uşaqlar birlikdə təhsil alırlar. Müəllim hər bir şagirdi dərindən anlamalı və ona hörmətlə yanaşmalı, onun fərdi xüsusiyyətlərini nəzərə alaraq şagirdlər arasındakı müxtəlifliyə adekvat reaksiya verməlidir. Bu yanaşma bütün uşaqlar üçün təhsilə çıxışı təmin edir və diskriminasiyanı azaldır. Bu səbəbdən inklüziv siniflərdə ədəbiyyat dərsləri maksimum uyğunlaşdırma və çoxfunksionallıq prinsipləri əsasında qurulmalıdır ki, bütün şagirdlərin bilikləri uğurla mənimsəməsi təmin olunsun.

İnklüziv təhsilin əsasında bütün uşaqlar üçün təhsilə çıxışı təmin edən və onlara qarşı diskriminasiyanı azaldan ideologiya dayanır. Psixiatr M.S. Pevzner və psixoloq V.İ.Lubovski qeyd edirlər ki, “düzgün təşkil olunmuş korreksiyaedici təlim və tərbiyə bu uşaqların inkişaf səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olur” (Pevzner M,S., lyubovskiy V.İ. 1963).

L.Viqotskinin fikrincə, xüsusi təyinatlı tədris müəssisələrində nitq pozuntusu olan şagirdlərin sağlam uşaqlara nisbətən kommunikasiya tərəfdaşları dairəsi xeyli dar olur. Bu əlaqə müəllim-valideyn-uşaq(eyni tip inkişaf pozuntusu olan) kimi sosial bağla məhdudlaşır. Lakin, inklüziv siniflərdə sağlam uşaqlarla birlikdə sosial-şəxsi inkişafın bütün istiqamətlərində cəmiyyətə inteqrasiya asanlaşır (Viqotski L.S, 2003).

Şübhəsiz ki, ağır nitq pozuntuları uşaqların ana dilini mənimsəməsində ciddi manea kimi özünü göstərir. Halbuki, məhz ana dili vasitəsilə verbal mədəniyyətin mövcudluğu və davamlı inkişafı təmin olunur. Sözsüz ki, bu şəraitdə korreksiyaedici təlim vacibdir. Ədəbiyyat dərslərinin düzgün strategiya ilə tədrisi müxtəlif fərdi xüsusiyyətlərə malik şagird və tələbələrin nitq

inkişafına, kommunikativ bacarıqlarının formalaşmasına, onlar arasında qarşılıqlı anlaşma və empatiyanın inkişafına şərait yaradır.

Müasir təhsil prosesində xüsusi təhsil ehtiyacları olan uşaqlarla işin metod və üsullarına xüsusi diqqət yetirilir. Bu sahədə əsas məqamlardan biri dərslərin aydın fəaliyyət alqoritmi əsasında təşkil olunmasıdır. Dərs elə strukturlaşdırılmalıdır ki, hər bir şagird fəaliyyət ardıcıllığını başa düşsün və verilən tapşırıqları uğurla yerinə yetirə bilsin (Əhmədova P.İ., 2024).

Xüsusi təhsil ehtiyacları olan şagirdlər üçün təqdim edilən tapşırıqların həm şifahi, həm də yazılı formada ifadə olunması didaktik baxımdan məqsədəuyğundur. Bu yanaşma şagirdlərin təlim prosesində orientasiyasını asanlaşdırır, verilən tapşırıqların məzmununun daha dolğun mənimsənilməsinə şərait yaradır. Eyni zamanda, tapşırıqların qısa, konkret və aydın şəkildə formalaşdırılması kommunikativ maneələrin qarşısını alır və idrak prosesinin səmərəliliyini artırır. Bununla yanaşı, fərdi yanaşma prinsipi təlim prosesinin əsas komponentlərindən biri kimi nəzərə alınmalıdır. Tapşırığın təqdim edilməsi zamanı müəllimin şagirdə yaxın mövqedə olması, ona operativ dəstək göstərməsi və yaranan çətinlikləri izah etməsi inklüziv mühitin effektivliyini artıran mühüm amillərdəndir. Şagirdə başladığı fəaliyyəti müstəqil şəkildə tamamlamaq imkanı verilməsi isə onun özünütənzimləmə bacarıqlarının formalaşmasına, məsuliyyət hissinin inkişafına və ümumilikdə şəxsiyyət kimi inkişafına müsbət təsir göstərir.

İnklüziv siniflərdə ədəbiyyat dərsi yalnız təlim məqsədlərinə xidmət edən bir fənn deyil, eyni zamanda şagirdlərin tərbiyə olunmasında mühüm pedaqoji vasitə kimi çıxış edir. Bu dərs vasitəsilə müxtəlif fərdi xüsusiyyətlərə malik şagirdlərdə mənəvi dəyərlərin, davranış normalarının və sosial məsuliyyət hissinin formalaşdırılması təmin edilir.

Təlim-tərbiyə prosesinin adekvat və çevik təşkili, şagird fəaliyyətinin yalnız ənənəvi sinif-dərs sistemi ilə məhdudlaşdırılmaması şəraitində ağır nitq pozuntuları olan uşaqlar normal inkişaf edən yaşıdları və böyüklərlə müntəzəm sosial-kommunikativ əlaqələr qurmaq imkanı əldə edirlər. Bu isə onların konstruktiv qarşılıqlı fəaliyyət bacarıqlarını öyrənməyə, eləcə də cəmiyyətdə mövcud olan əxlaq normaları və davranış qaydalarını mənimsəməsinə şərait yaradır (Kuzmina O,S., 2015).

Bədii mətnlərin oxunması və təhlili şagirdlərə müxtəlif həyat situasiyaları, insan münasibətləri və sosial davranış modelləri ilə tanış olmaq imkanı yaradır. Bu proses empatiyanın inkişafına, başqalarının hiss və düşüncələrini anlama bacarığının formalaşmasına, həmçinin tolerantlıq və hörmət kimi dəyərlərin möhkəmlənməsinə xidmət edir. Eyni zamanda müəllimin istifadə etdiyi pedaqoji yanaşma və dil üslubu tərbiyə prosesində həlledici rol oynayır. Aydın, humanist və diskriminasiyadan uzaq ünsiyyət şagirdlərin psixoloji rahatlığını təmin edir və onların tədris prosesinə daha fəal şəkildə qoşulmasına şərait yaradır. İnklüziv mühitdə ədəbiyyat dərsləri diferensiallaşdırılmış və multimodal yanaşmalar əsasında təşkil olunduqda, bütün şagirdlərin fəal iştirakı təmin edilir. Müəllim tərəfindən tətbiq olunan interaktiv metodlar – qrup müzakirələri, rollu oyunlar, obrazların təhlili və yaradıcı tapşırıqlar – şagirdlər arasında əməkdaşlığı gücləndirir və sosial inteqrasiyanı sürətləndirir. İnklüziv uşaqlarla təlimdə isə bu prossesdə valideyn dəstəyi də mütləqdir.

İlk mərhələdə şagirdlər bədii əsərin mətni ilə tanış olmalıdırlar. Bu prossesin sinifdən kənar şəkildə, yəni ev tapşırığı formasında həyata keçirilməsi məqsədəuyğundur. Ağır nitq pozuntusu olan uşaq üçün oxuma və oxunmuş mətnin dərk edilməsi sağlam yaşıdlarına nisbətən daha çox vaxt tələb edir. Mümkün olduğu halda, mətnlə ilkin tanışlıqdan sonra aparılan müzakirənin ailə mühitində, valideynlərin iştirakı ilə təşkil olunması daha səmərəli hesab edilir. Bu halda şagird ədəbiyyat dərsinə öyrənilən bədii əsərin təhlilinə hazır şəkildə gəlmiş olur. (Devyaterikova E.A., 2017).

Dərs prosesində şagirdlərin oxuduqları mətnin məzmununu düzgün anladıqlarının müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə, adətən, əsərin həm kompozisiyası, həm də süjet xəttinin aydınlaşdırıldığı müzakirə (bəsit dialoq formasında) təşkil olunur. Müzakirədən sonra mətnin daha dərin və geniş təhlili aparılmalı, mikromövzular və problemli məsələlər müəyyən edilməlidir. Bu yanaşma şagirdlərin cəmiyyətdə mövcud olan müxtəlif subyektlərarası münasibətləri, sosial əlaqələri və mədəni ənənələri daha yaxşı mənimsəməsinə şərait yaradır.

Nəticə olaraq qeyd etmək olar ki, inklüziv təhsil mühitində ədəbiyyat dərsi şagirdlər arasında sosial inteqrasiyanı gücləndirir, fərqliliklərin qəbul olunmasına şərait yaradır və kollektivdə qarşılıqlı anlaşmanı inkişaf etdirir. Eyni zamanda xüsusi təhsil ehtiyacları olan şagirdlər üçün ədəbiyyat dərsləri özünüifadə imkanlarını genişləndirir, emosional inkişafı stimullaşdırır və cəmiyyətə uyğunlaşma prosesini asanlaşdırır.

Ədəbiyyat:

1. Ahmedova, P. I. (2024). Urok literatury v inklyuzivnom klasse. In Problemy poetiki i stikhovedeniya: Materialy X Mezhdunarodnoy nauchno-teoreticheskoy konferentsii (pp. 508). Almaty: "Ulagat", KazNPU im. Abaya.

2. Devjaterikova, E. A. (2017). Rol urokov literatury v sotsialnoy inklyuzii shkolnikov s tyazhelymi narusheniyami rechi. The Newman in Foreign Policy, 37(81).

3. Kuzmina, O. S. (2015). Podgotovka pedagogov k rabote v usloviyakh inklyuzivnogo obrazovaniya (PhD dissertation). Omsk.

4. Lev S. Vygotsky. (2003). Osnovy defektologii. St. Petersburg: Lan.

5. Pevzner, M. S., Lubovsky, V. I. (1963). Dinamika razvitiya detey-oligofrenov. Moscow: APN RSFSR.

VİLYAMS SİNDROMLU UŞAQLARIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ VƏ PSİXOLOJİ-PEDAQOJİ DƏSTƏK YOLLARI

Səbinə Namiq qızı Cəfərova
pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Respubliksa
Bakı Slavyan Universiteti
sabina_16_86@mail.ru
ORCİD ID: 0000-0001-5095-592X

Açar sözlər: sindrom, Vilyams, genetika, xromosom, pedaqoji.

Xülasə. Sindromlar müəyyən bir xəstəlik və ya pozğunluqla əlaqəli olaraq birlikdə meydana çıxan əlamət və simptomlar toplusudur. Yəni, müəyyən bir vəziyyəti və ya xəstəliyi xarakterizə edən bir neçə klinik əlamət eyni vaxtda ortaya çıxır. Vilyams sindromu autosomal dominant şəkildə miras qalan genetik bir xəstəlik kimi xarakterizə olunur. Lakin, müşahidə edilən halların böyük əksəriyyətində genetik silinmələr ailə tarixində ilk dəfə ortaya çıxır və təsadüfi xarakter daşıyır. Buna görə də, ailədə Vilyams sindromu ilə doğulmuş bir uşaq olsa belə, sonrakı hamiləliklər zamanı eyni sindromun təkrarlanma ehtimalı əksər hallarda aşağı risk hesab olunur. Bu xüsusiyyət,

sindromun genetik mənşəyinə əlavə olaraq, tez-tez yeni əmələ gələn xromosom dəyişiklikləri nəticəsində baş verməsi ilə izah olunur. Vilyams sindromlu uşaqların anamnezində hamiləlik normadan kənara çıxa bilər, uşağın boyu və çəkisində anomaliyalar, eləcə də anadangəlmə ürək qüsurları ola bilər. Bu baxımdan, xəstəliyin ilkin əlamətləri uşağın həyatının ilk aylarında artıq görünməyə başlaya bilər. Onlarda dil bacarıqları nisbətən inkişaf etmiş olsa da, məkan təfəkkürü və riyazi qabiliyyətlərdə çətinliklər müşahidə olunur. Bu uşaqlar tez-tez yüksək empatiya və musiqiyə həssaslıq nümayiş etdirir, lakin diqqət və davranış tənzimləməsində dəstəyə ehtiyac duyurlar. Psixoloji-pedaqoji dəstək fərdiləşdirilmiş təlim strategiyalarını, sosial bacarıqların inkişafını və emosional tənzimləmə metodlarını əhatə etməlidir. Erkən müdaxilə və ailə ilə əməkdaşlıq onların sosial adaptasiyasını və ümumi inkişafını əhəmiyyətli dərəcədə yaxşılaşdırır.Bu sindromun müalicəsində əsas yer simptomatik müalicəyə və korreksiyaedici-maarifləndirici tədbirlərə verilir. Müalicə və reabilitasiya prosesi hərtərəfli yanaşma əsasında təşkil olunur və həkimlərin, psixoloqların, loqopedlərin, müəllimlərin və digər mütəxəssislərin birgə işi xüsusi əhəmiyyət kəsb edir.

Keywords: syndrome, Williams, genetics, chromosome, pedagogy.

Summary. Syndromes are defined as a set of signs and symptoms that occur together and are associated with a particular disease or disorder. In other words, several clinical manifestations appear simultaneously and collectively characterize a specific medical condition or pathology. Williams syndrome is characterized as a genetic disorder inherited in an autosomal dominant pattern. However, in the vast majority of observed cases, genetic deletions occur for the first time in the family history and therefore have a sporadic nature. In the medical history of children with Williams syndrome, prolonged pregnancy beyond the normal gestational period, anomalies in the child’s height and weight indicators, as well as congenital heart defects may be observed. In this regard, the initial manifestations of the disorder may begin to appear as early as the first months of the child’s life. Although their language skills are relatively well developed, difficulties are observed in spatial thinking and mathematical abilities. These children often demonstrate high levels of empathy and sensitivity to music; however, they need support in attention and behavioral regulation. Psychological and pedagogical support should include individualized teaching strategies, the development of social skills, and methods for emotional regulation. Early intervention and cooperation with the family significantly improve their social adaptation and overall development. In the treatment of this syndrome, the primary focus is placed on symptomatic therapy and corrective-educational interventions. The treatment and rehabilitation process is organized on the basis of a comprehensive and multidisciplinary approach, in which the collaborative work of physicians, psychologists, speech therapists, educators, and other specialists plays a particularly important role.

Anahtar kelimeler: sendrom, Williams sendromu, genetik, kromozom, pedagoji.

Özet. Sendromlar, belirli bir hastalık veya bozuklukla bağlantılı olarak birlikte ortaya çıkan bir dizi belirti ve semptomdur. Yani, belirli bir durumu veya hastalığı karakterize eden çeşitli klinik belirtiler aynı anda ortaya çıkar. Williams sendromu, otozomal dominant kalıtım yoluyla aktarılan genetik bir bozukluk olarak tanımlanır. Bununla birlikte, gözlemlenen vakaların büyük çoğunluğunda, genetik delesyonlar aile öyküsünde ilk kez ortaya çıkar ve rastgele bir niteliktedir. Bu nedenle, ailede Williams sendromlu bir çocuk doğmuş olsa bile, sonraki gebeliklerde aynı sendromun tekrarlama olasılığı çoğu durumda düşük risk olarak kabul edilir. Bu özellik, sendromun genetik kökenine ek olarak, sıklıkla yeni oluşan kromozomal değişikliklerin bir sonucu olarak

ortaya çıkmasıyla açıklanmaktadır. Williams sendromlu çocukların anamnezinde, gebeliğin normalden uzun sürmesi, çocuğun boy ve kilosunda anormallikler ve doğuştan kalp kusurları görülebilir. Bu bağlamda, hastalığın ilk belirtileri çocuğun yaşamının ilk aylarında ortaya çıkmaya başlayabilir.Dil becerileri nispeten gelişmiş olsa da, mekânsal düşünme ve matematiksel becerilerde zorluklar gözlemlenmektedir. Bu çocuklar sıklıkla yüksek empati ve müziğe duyarlılık gösterirler; ancak dikkat ve davranış düzenlemesi konusunda desteğe ihtiyaç duyarlar. Psikolojik ve pedagojik destek, bireyselleştirilmiş öğretim stratejilerini, sosyal becerilerin geliştirilmesini ve duygusal düzenleme yöntemlerini içermelidir. Erken müdahale ve aile ile iş birliği, onların sosyal uyumunu ve genel gelişimini önemli ölçüde iyileştirir. Bu sendromun tedavisinde esas olarak semptomatik tedaviye ve düzeltici-eğitimsel önlemlere yer verilir. Tedavi ve rehabilitasyon süreci kapsamlı bir yaklaşım temelinde düzenlenir ve doktorlar, psikologlar, konuşma terapistleri, eğitimciler ve diğer uzmanların ortak çalışması özellikle önemlidir.

Sindromlar – müəyyən bir xəstəlik və ya pozuntu ilə bağlı birlikdə müşahidə olunan əlamət və simptomların toplusudur. Yəni bir neçə klinik əlamət eyni vaxtda ortaya çıxaraq müəyyən bir vəziyyəti və ya xəstəliyi xarakterizə edir.

Vilyams sindromu insanın genetik quruluşunda baş verən dəyişikliklər nəticəsində yaranan və doğuşdan etibarən mövcud olan irsi xarakterli genetik sindrom kimi səciyyələndirilir. Bu sindrom cinsindən, irqindən və ya sosial-mədəni mənsubiyyətindən asılı olmayaraq hər bir insanda müşahidə oluna bilər. Vilyams sindromu nadir genetik xəstəliklərdən biridir və təxminən hər 7 500 yeni doğulmuş uşaqdan birində rast gəlinir. Bu sindrom fiziki, koqnitiv və davranış xüsusiyyətlərinin özünəməxsus kombinasiyası ilə xarakterizə olunur. Məhz bu xüsusiyyətlərin unikallığı və sindromun yaratdığı tibbi, psixoloji və sosial çətinliklər səbəbindən Vilyams sindromu tibb ictimaiyyətinin xüsusi diqqətini cəlb etmişdir. Vilyams sindromu tibbi və inkişafla bağlı bir sıra xüsusiyyətlərlə xarakterizə olunur. Bu xüsusiyyətlərə ürək-damar sistemi ilə əlaqədar problemlər, xüsusilə də damarların daralması və digər kardiovaskulyar pozuntular, inkişafın ləngiməsi, eləcə də öyrənmə prosesində çətinliklər daxildir (Colleen A.M., 2019).

Bununla yanaşı, Vilyams sindromu olan fərdlərdə diqqətəlayiq nitq qabiliyyətləri, yüksək ünsiyyətcillik və sosial münasibətlərə açıq şəxsiyyət xüsusiyyətləri də müşahidə olunur. Belə şəxslər əksər hallarda insanlarla ünsiyyət qurmağa meyilli olur, emosional reaksiyaları daha ifadəli şəkildə nümayiş etdirir və sosial mühitdə fəal iştirak etməyə çalışırlar. Bundan əlavə, Vilyams sindromu olan bir çox insan musiqiyə xüsusi maraq və həssaslıq göstərir; musiqi onların emosional və yaradıcılıq potensialının inkişafında mühüm rol oynaya bilər.

Bu genetik sindrom həm oğlan, həm də qız uşaqlarında eyni tezliklə rast gəlinir və dünyanın müxtəlif ölkələrində, müxtəlif mədəni və sosial mühitlərdə yaşayan insanlarda müşahidə olunur. Vilyams sindromu nadir genetik vəziyyətlərdən biri hesab edilir və onun yaranması adətən müəyyən genetik bölgənin silinməsi ilə əlaqələndirilir.

Müasir tibb və genetika sahəsində aparılan tədqiqatlar Vilyams sindromunun diaqnostikası, müalicəsi və reabilitasiyası ilə bağlı yeni yanaşmaların formalaşmasına imkan yaratmışdır. Bu sindromun müxtəlif tibbi, psixoloji və sosial aspektlərinin öyrənilməsi həm mütəxəssislər, həm də ailələr üçün mühüm əhəmiyyət kəsb edir. Mövcud elmi mənbələr və məlumat resursları Vilyams sindromunun klinik xüsusiyyətləri, inkişaf xüsusiyyətləri və fərdlərin sosial adaptasiyası ilə bağlı geniş və əhatəli məlumat təqdim edir.

Vilyams sindromu (Vilyams –Boyren sindromu, “elf üzü” sindromu) – bir neçə genin eyni vaxtda olmaması ilə şərtlənən genetik xəstəlikdir. Bu zaman itirilmiş genlərin sayı adətən 25-dən

29-a qədər dəyişə bilir. Məhz bu amil sindromun klinik təzahürlərinin kifayət qədər geniş sahədə müşahidə olunmasına və onların ifadə dərəcəsində fərqlərin yaranmasına səbəb olur.

Bu sindrom ilk dəfə 1961-ci ildə Yeni Zelandiyalı kardioloq J.Vilyams tərəfindən təsvir edilmişdir. O, anadangəlmə ürək-damar sistemi pozuntularına malik və fiziki cəhətdən bir-birinə bənzər xüsusiyyətləri olan bir qrup uşağı müşahidə etmişdir. Müasir genetikanın inkişafı nəticəsində sonradan sübut edilmişdir ki, Vilyams sindromu irsi xarakter daşıyan genetik patologiyadır.

Bu xəstəlik əksər hallarda spontan mutasiya nəticəsində meydana çıxsa da, bəzi hallarda autosom-dominant irsiyyət mexanizmi vasitəsilə nəsildən-nəslə ötürülə bilər. Digər genetik patologiyalarla müqayisədə onun rastgəlmə tezliyi nisbətən yüksəkdir və təxminən 20 000 yenidoğulmuşdan birində müşahidə olunur.

1975-ci ildə amerikalı alimlər Kenneth L. Jones və David W. Smith tərəfindən Vilyams sindromu ilə bağlı xəstələr üzərində aparılmış genişmiqyaslı tədqiqatın nəticələri elmi ictimaiyyətə təqdim edilmişdir (Donovon T., Martens M. A., 2018). Həmin tədqiqatda sindromun yaş xüsusiyyətləri, davranış xüsusiyyətləri və fizioloji əlamətləri sistemli şəkildə təsvir olunmuş, bu klinik vəziyyətin daha aydın şəkildə xarakterizə edilməsinə mühüm töhfə verilmişdir.

1990-cı illərdə genetika və molekulyar biologiya sahəsində əldə edilən elmi nailiyyətlər nəticəsində Vilyams sindromunun etiologiyası və patogenezinin öyrənilməsi istiqamətində yeni mərhələ başlanmışdır. Aparılan molekulyar-genetik tədqiqatlar bu sindromun genetik əsaslarının müəyyənləşdirilməsinə, onun yaranma mexanizmlərinin elmi baxımdan izah edilməsinə və diaqnostik yanaşmaların təkmilləşdirilməsinə mühüm töhfə vermişdir. Bu tədqiqatlar nəticəsində sindromun genetik xüsusiyyətləri daha dərindən öyrənilmiş və onun klinik təzahürlərinin elmi əsaslandırılması mümkün olmuşdur.

Vilyams sindromu olan şəxslər arasında cins üzrə fərq müşahidə edilmir yəni oğlan və qız uşaqları bu xəstəliyə demək olar ki, eyni dərəcədə rast gəlinir. Bu sindrom zamanı intellektual inkişafın əhəmiyyətli dərəcədə ləngiməsi müşahidə olunsa da, belə uşaqlarla aparılan psixoloji və korreksiyaedici-pedaqoji iş onların sosial bacarıqlarının inkişafına, cəmiyyətə daha uğurla inteqrasiyasına və ümumilikdə həyat keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verə bilər.

Vilyams sindromu autosom-dominant tip üzrə irsən ötürülən genetik pozuntu kimi xarakterizə olunur. Bununla belə, müşahidə olunan halların böyük əksəriyyətində genetik delesiyalar ailə tarixində ilk dəfə meydana çıxır və təsadüfi xarakter daşıyır.

Bu səbəbdən, ailədə artıq Vilyams sindromu ilə doğulmuş bir uşağın olmasına baxmayaraq, növbəti hamiləliklər zamanı eyni sindromun yenidən təkrar olunma ehtimalı əksər hallarda aşağı riskli hesab edilir. Bu xüsusiyyət sindromun genetik mənşəyi ilə yanaşı, onun çox vaxt yeni yaranmış xromosom dəyişiklikləri nəticəsində ortaya çıxması ilə izah olunur.

Vilyams sindromu olan uşaqların anamnezində hamiləliyin normadan artıq davam etməsi, uşağın boy və çəki göstəricilərində anomaliyalar, həmçinin anadangəlmə ürək qüsurları müşahidə oluna bilər. Bu baxımdan, xəstəliyin ilkin əlamətləri artıq uşağın həyatının ilk aylarında üzə çıxmağa başlaya bilər.

Vilyams sindromu olan xəstələr üçün xarakterik əsas klinik xüsusiyyətlər aşağıdakılardır:

- Ürək-damar sistemi xəstəlikləri (xəstələrin təxminən 75%-ində supravalvulyar aorta stenozu müşahidə olunur);
- Üz dismorfizmi və ya “elf üzü” adlandırılan fenotipik xüsusiyyətlər (yastı burun kökü və dairəvi burun ucu, yuxarı qalxmış ağız küncləri ilə nisbətən iri ağız, dolğun dodaqlar, şişkin yanaqlar və kiçik, bir qədər sivri çənə);

- Fizioloji və psixi inkişafın ləngiməsi;
- Endokrin sistemlə bağlı problemlər (idiopatik hiperkalsemiya, hipotiroidizm və s.);
- Xüsusi şəxsiyyət xüsusiyyətləri (həddindən artıq ünsiyyətcillik və mehribanlıq, diqqət çatışmazlığı sindromu, empatiya meyli və spesifik fobiyalar, həmçinin musiqi qabiliyyətlərinin daha qabarıq olması) (Султонова А.А., 2020)

Bundan əlavə, pasiyentlərin təxminən 65 %-də yuxu pozuntuları müşahidə olunur. Həmçinin mədə-bağırsaq sistemi ilə bağlı problemlər (xroniki qarın ağrıları) və sidik-ifrazat sistemi pozuntuları da rast gəlinir; halların təxminən 50 %-ində enurez qeydə alınır.

Diaqnozun qoyulması, xəstəliyin ağırlıq dərəcəsinin müəyyənləşdirilməsi və fərdi müalicə üsullarının seçilməsi məqsədilə xəstə orqanizmin kompleks tibbi müayinəsindən keçirilir. Vilyams sindromunun fenotipik təzahürləri kifayət qədər dəyişkən olduğundan, dəqiq diaqnozun müəyyən edilməsində əsas amil 7q11.23 xromosom sahəsində mikrodelesiyaların mövcudluğunu aşkar edən genetik testlərin aparılmasıdır.

Bu sindromun müalicəsində əsas yer simptomatik müalicəyə və korreksiyaedici-tərbiyəvi tədbirlərə verilir. Müalicə və reabilitasiya prosesi kompleks yanaşma əsasında təşkil olunur və burada həkimlər, psixoloqlar, loqopedlər, pedaqoqlar və digər mütəxəssislərin birgə fəaliyyəti xüsusi əhəmiyyət daşıyır.

Məsələn, qidalanma ilə bağlı çətinlikləri olan uşaqlar üçün xüsusi qidalandırıcı terapiya proqramları tətbiq edilir. Bu proqramlar uşağın normal fiziki inkişafını təmin etmək, orqanizmin ehtiyac duyduğu qida maddələrini balanslı şəkildə təmin etmək və qidalanma prosesində yaranan problemləri aradan qaldırmaq məqsədi daşıyır. İnkişafın müxtəlif dərəcələrdə ləngiməsi müşahidə olunan uşaqlar üçün isə erkən müdaxilə proqramları və xüsusi təhsil proqramları hazırlanır. Bu proqramlar uşaqların intellektual, emosional və sosial bacarıqlarının inkişafını dəstəkləməyə, onların təhsil mühitinə daha asan uyğunlaşmasına və gələcəkdə müstəqil həyat bacarıqlarının formalaşmasına xidmət edir.

Bundan əlavə, xəstələr üçün davranış yönümlü psixoloji məsləhətlər və psixososial dəstək tədbirləri də həyata keçirilir. Zəruri hallarda diqqət çatışmazlığı və hiperaktivlik sindromu, eləcə də narahatlıq pozuntuları kimi vəziyyətlərin aradan qaldırılması məqsədilə dərman terapiyası tətbiq oluna bilər. Ürək-damar sistemində müşahidə edilən ciddi patoloji dəyişikliklər zamanı isə cərrahi müdaxilə zəruri hesab olunur. Eyni zamanda, hiperkalsemiya hallarında xüsusi modifikasiya olunmuş pəhriz rejimi və ya müvafiq dərman preparatları təyin edilir.

Xəstəliyin proqnozu birbaşa olaraq diaqnozun qoyulma vaxtından və müalicənin başlanma mərhələsindən asılıdır. Vilyams sindromunun erkən diaqnostikası həkimlərə cərrahi müdaxilənin mümkünlüyünü və məqsədəuyğunluğunu vaxtında qiymətləndirməyə, əməliyyatın optimal vaxtını müəyyən etməyə və əməliyyatdan sonrakı mümkün fəsadların riskini azaltmağa imkan verir. Bununla yanaşı, erkən diaqnoz kompleks reabilitasiya tədbirlərinin planlaşdırılmasına, o cümlədən uşağın cəmiyyətə uğurlu inteqrasiyasını təmin edən psixoloji-pedaqoji dəstək və sosial adaptasiya proqramlarının həyata keçirilməsinə geniş imkan yaradır (Михайлова Т. В., Садыкова Д. И., Пудовик Т. В., 2017)

Genetik sindromların erkən diaqnostikası valideynlər üçün son dərəcə mühüm əhəmiyyət kəsb edir. Bu diaqnostika valideynlərə mövcud xəstəlik haqqında dolğun və elmi əsaslandırılmış məlumat əldə etmək imkanı yaradır, eyni zamanda uşağın həyat perspektivləri, sağlamlıq vəziyyətinin mümkün inkişaf istiqamətləri və gələcəkdə qarşılaşa biləcəyi tibbi və sosial çətinliklər barədə daha real təsəvvür formalaşdırır. Belə məlumatların vaxtında təqdim olunması valideynlərə

uşağın ailə mühitində böyüdülməsi və tərbiyə olunması imkanları barədə düşünülmüş və məsuliyyətli qərar qəbul etməyə kömək edir.

Bununla yanaşı, genetik patologiyanın erkən mərhələdə aşkar edilməsi müxtəlif ixtisas sahələrini təmsil edən həkimlərin – pediatrların, genetiklərin, kardioloqların, nevroloqların və digər mütəxəssislərin – uşağın gələcək müalicə və müşahidə strategiyasını düzgün şəkildə müəyyənləşdirməsinə şərait yaradır. Erkən diaqnostika sayəsində xəstəliyin klinik xüsusiyyətləri daha dəqiq qiymətləndirilir, mümkün tibbi müdaxilələrin effektivliyi və məqsədəuyğunluğu müəyyən edilir, eləcə də cərrahi korreksiyanın aparılması zərurəti, onun optimal vaxtı və əməliyyatın həyata keçirilmə şərtləri barədə əsaslandırılmış qərarlar qəbul olunur (Лаптева Н. М., Скачкова М. А., 2018)

Nəticə etibarilə, genetik sindromların erkən aşkar edilməsi həm valideynlərin məlumatlı qərar qəbul etməsi, həm də tibbi, psixoloji və pedaqoji xidmətlərin koordinasiyalı şəkildə təşkili baxımından mühüm əhəmiyyət daşıyır və uşağın həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edən vacib amillərdən biri hesab olunur.

Ədəbiyyat:

1. Donovon, T., & Martens, M. A. (2018). Williams syndrome and music: A systematic integrative review. Frontiers in Psychology, 9, 9–11.

2. Colleen, A. M. (2019). Williams syndrome. In J. Wiley & Sons (Ed.), Management of genetic syndromes (3rd ed., pp. 909–924). John Wiley & Sons.

3. Лаптева, Н. М., Скачкова, М. А., Карпова, Е. Г., Тарасенко, Н. Ф., & Секретева, С. М. (2018). Синдром Вильямса в практике педиатра. Доктор.Ру, 5(149), 28–31.

4. Михайлова, Т. В., Садыкова, Д. И., & Пудовик, Т. В. (2017). Синдром Вильямса у ребенка с полиорганной патологией. Российский вестник перинатологии и педиатрии, 62(5), 106–110.

Tədqiqat işinin məqsədi inklüziv təhsil mühitində sosial ədalət prinsiplərinin təmin olunmasında interaktiv təlim mühitinin rolunu müəyyənləşdirmək, şagirdlərin sosial inteqrasiyasına və təhsil prosesində fəal iştirakına təsir edən amilləri təhlil etməkdir. Bu məqsədə nail olmaq üçün tədqiqat çərçivəsində inklüziv təhsilin nəzəri əsasları, sosial ədalət konsepsiyası və interaktiv təlim yanaşmaları müqayisəli şəkildə araşdırılmış, müasir pedaqoji praktikada tətbiq olunan metod və strategiyalar təhlil edilmişdir. Xüsusilə diferensiallaşdırılmış təlim, əməkdaşlığa əsaslanan fəaliyyətlər, multimodal resurslardan istifadə və inklüziv kommunikasiya mühiti kimi komponentlərin şagirdlərin fəallığına və sosial uyğunlaşmasına təsiri nəzərdən keçirilmişdir.

Keywords: inclusive education, social justice, interactive learning environment, social integration, equal opportunities.

Summary. Inclusive education, as an educational approach based on the principles of social justice and equality, provides all children with the opportunity to receive education, regardless of their gender, social affiliation and health status. This approach promotes an interactive learning environment in which students with different abilities and different socio-cultural experiences can fully participate, and not only increases academic achievement, but also strengthens their social

integration. Inclusive education helps students develop empathy, cooperation and communication skills, reduces inequality, and ensures the gradual adaptation of children with disabilities to society. To successfully implement this process, psychological preparation, supportive infrastructure, and the active participation of teachers, parents and peers are required. An interactive and inclusive educational environment contributes to the development of tolerance, respect and a sense of social responsibility not only in children with disabilities, but also in all students, and serves to form a just society.

The purpose of the research work is to determine the role of an interactive learning environment in ensuring the principles of social justice in an inclusive educational environment, and to analyze the factors affecting the social integration of students and their active participation in the educational process. To achieve this goal, the study comparatively examined the theoretical foundations of inclusive education, the concept of social justice, and interactive learning approaches, and analyzed the methods and strategies applied in modern pedagogical practice. In particular, the impact of components such as differentiated learning, collaborative activities, the use of multimodal resources, and an inclusive communication environment on students' activity and social adaptation was examined.

Anahtar kelimeler: kapsayıcı eğitim, sosyal adalet, etkileşimli öğrenme ortamı, sosyal entegrasyon, eşit fırsatlar.

Özet. Kapsayıcı eğitim, sosyal adalet ve eşitlik ilkelerine dayanan bir eğitim yaklaşımı olarak, cinsiyet, sosyal aidiyet ve sağlık durumlarından bağımsız olarak tüm çocuklara eğitim alma fırsatı sunar. Bu yaklaşım, farklı yeteneklere ve farklı sosyo-kültürel deneyimlere sahip öğrencilerin tam olarak katılabildiği etkileşimli bir öğrenme ortamını teşvik eder ve sadece akademik başarıyı artırmakla kalmaz, aynı zamanda sosyal entegrasyonlarını da güçlendirir. Kapsayıcı eğitim, öğrencilerin empati, işbirliği ve iletişim becerilerini geliştirmelerine yardımcı olur, eşitsizliği azaltır ve engelli çocukların topluma kademeli olarak uyum sağlamasını sağlar. Bu süreci başarıyla uygulamak için psikolojik hazırlık, destekleyici altyapı ve öğretmenlerin, velilerin ve akranların aktif katılımı gereklidir. Etkileşimli ve kapsayıcı bir eğitim ortamı, sadece engelli çocuklarda değil, tüm öğrencilerde hoşgörü, saygı ve sosyal sorumluluk duygusunun gelişmesine katkıda bulunur ve adil bir toplumun oluşmasına hizmet eder.

Bu araştırma çalışmasının amacı, kapsayıcı bir eğitim ortamında sosyal adalet ilkelerinin sağlanmasında etkileşimli bir öğrenme ortamının rolünü belirlemek ve öğrencilerin sosyal entegrasyonunu ve eğitim sürecine aktif katılımlarını etkileyen faktörleri analiz etmektir. Bu amaca ulaşmak için, çalışma, kapsayıcı eğitimin teorik temellerini, sosyal adalet kavramını ve etkileşimli öğrenme yaklaşımlarını karşılaştırmalı olarak inceledi ve modern pedagojik uygulamada kullanılan yöntem ve stratejileri analiz etti. Özellikle, farklılaştırılmış öğrenme, işbirlikçi etkinlikler, çok modlu kaynakların kullanımı ve kapsayıcı bir iletişim ortamı gibi bileşenlerin öğrencilerin etkinliği ve sosyal uyumu üzerindeki etkisi incelendi.

İnklüzivlik şagirdlərin müxtəlif ehtiyaclarını nəzərə almaq və onları təmin etmək məqsədi daşıyan bir prosesdir. Bu proses çərçivəsində təhsil, mədəni və ictimai həyatdakı iştirak imkanları genişləndirilir, eyni zamanda təhsil prosesindən kənarda qalan və ya prosesdə iştirak etsə də, ona tam inteqrasiya olunmayan şəxslərin sayı minimuma endirilir. Başqa sözlə, inklüziv yanaşma yalnız təhsildə bərabər çıxış imkanlarının yaradılmasını deyil, həm də şagirdlərin aktiv iştirakının, sosial və mədəni inteqrasiyasının təmin olunmasını hədəfləyir. Bu yanaşma təhsil sistemində fərqli

ehtiyacların və fərqliliklərin nəzərə alınmasını vacib hesab edir və hər bir şagirdin təhsil prosesinə tam və mənalı şəkildə daxil olmasını təmin edir (Booth, T., Ainscow, M. 2004).

İnklüziv təhsil mühitində sosial ədalət anlayışı yalnız bərabər hüquqların təmin olunması ilə məhdudlaşmır, eyni zamanda, şagirdlərin təhsil prosesində fəal iştirakını təmin edən interaktiv mühitin yaradılmasını da nəzərdə tutur. Müasir pedaqoji yanaşmalara əsasən, sosial ədalət prinsipləri tədris prosesində hər bir şagirdin fərdi xüsusiyyətlərinin, ehtiyaclarının və potensial imkanlarının nəzərə alınmasını tələb edir. Bu isə yalnız formal bərabərliklə deyil, həm də real və funksional bərabər imkanların yaradılması ilə mümkün olur.

Araşdırma göstərir ki, interaktiv təlim mühitinin yaradılması şagirdlər arasında qarşılıqlı anlaşmanı və sosial bağlılığı gücləndirir, onların fərdi xüsusiyyətlərini nəzərə alan çevik öyrənmə şəraiti formalaşdırır. Bu isə öz növbəsində sosial ədalətin təhsil müstəvisində reallaşmasına, hər bir şagirdin potensialının üzə çıxarılmasına və təlim prosesində bərabər iştirak imkanlarının təmin olunmasına şərait yaradır. Eyni zamanda müəyyən edilmişdir ki, inklüziv mühitin effektivliyi yalnız pedaqoji metodlarla məhdudlaşmır, həm də institusional dəstək, müəllimlərin peşəkar hazırlığı və məktəb daxilində formalaşan sosial-psixoloji mühitlə sıx bağlıdır. Bu baxımdan inklüziv təhsil kompleks yanaşma tələb edən çoxsəviyyəli bir proses kimi çıxış edir. İnteraktiv və inklüziv təlim mühitinin sistemli şəkildə təşkili təhsil sistemində sosial ədalət prinsipinin reallaşması üçün əlverişli şərait yaradır. Bu zaman şagirdlərin sosial inteqrasiyası güclənir. Bu prosses cəmiyyətin inklüziv inkişafına xidmət edən davamlı pedaqoji model kimi qiymətləndirilə bilər.

Müasir elmi yanaşmalara əsasən, təhsil almaq hüququnun həyata keçirilməsində sosial ədalət və bərabərlik prioritet prinsiplər kimi çıxış edir. Bu prinsiplərə əsasən, təhsil sistemi hər bir fərdin potensialını reallaşdırması üçün zəruri şəraiti təmin etməlidir. Bu baxımdan inklüzivlik siyasətinin tətbiqi vasitəsilə şagirdlər üçün resursların əlçatanlığının təmin edilməsi mühüm əhəmiyyət kəsb edir.

Təhsil sahəsində sosial ədalət və bərabərliyin təmin olunması məqsədilə kompleks tədbirlərin vaxtında, eyni zamanda yetərli həyata keçirilməsi zəruridir. Təhsil sisteminin modernləşdirilməsinə yönəlmiş effektiv strategiyaların hazırlanması üçün müxtəlif ölkələrin təcrübələrinin araşdırılması, uğurlu modellərin müəyyənləşdirilməsi və onların lokal şəraitə uyğunlaşdırılması zəruridir. Bu cür yanaşma yalnız mövcud problemlərin həllinə deyil, həm də gələcəkdə daha inklüziv, ədalətli və dayanıqlı təhsil sisteminin qurulmasına xidmət edir (Tszin, K.,2024). Belə tədbirlərin tətbiqi təcrübəsinin öyrənilməsi, təhsil sisteminin modernləşdirilməsinə yönəlmiş effektiv strategiyaların formalaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Tədqiqatçı və sosioloq Viktor Vaxştayn təhsildə bərabər və ədalətli çıxışın təmin olunması məsələsinə xüsusi diqqət yetirir. Onun fikrincə, bu məqsədə nail olmağın ən effektiv yolu müxtəlif strategiyaların birgə tətbiqidir. Xüsusilə, bərabərləşdirmə və institusional transformasiya yanaşmalarının paralel şəkildə həyata keçirilməsi daha səmərəli nəticələr verir: "Təhsildə sosial ədalət və bərabərliyin təmin olunmasına xidmət edən iki əsas strategiya tipi mövcuddur: "bərabərləşdirmə" və "institusional transformasiya". Bunlardan birincisi mövcud təhsil sistemi çərçivəsində qeyri-bərabərliyin azaldılmasına yönəlmişdir. "Bərabərləşdirmə" strategiyası əsasən hədəflənmiş və məqsədyönlü proqramlar vasitəsilə həyata keçirilir və bu səbəbdən təhsilə çıxışda mövcud olan ayrı-ayrı ədalətsizlik problemlərinin aradan qaldırılmasında effektiv hesab olunur."İnstitusional transformasiya" strategiyası isə əksinə, təhsil sahəsində sistemli problemlərin həlli üçün zəruri olan genişmiqyaslı struktur islahatların həyata keçirilməsi ilə səciyyələnir" (Vakhshtein, V. S., 2005). Müəllif bu strategiyaların ardıcıl və sistemli şəkildə reallaşdırılmasını,

eləcə də təhsil sistemində zəruri struktur dəyişikliklərin aparılmasını mürəkkəbləşdirən amil kimi cəmiyyətdə mövcud olan ciddi sosial təbəqələşməni qeyd edir.

Bərabərləşdirmə strategiyası bir çox ölkələrin mövcud təhsil sistemi daxilində konkret və hədəfli proqramlar vasitəsilə sosial və təhsil bərabərsizliklərini aradan qaldırmağa yönəlmişdir. Digər tərəfdən, institusional transformasiya yanaşması daha geniş və struktur səviyyəli dəyişiklikləri əhatə edir, mövcud təhsil infrastrukturunun, proqramlarının və idarəetmə mexanizmlərinin yenidən qurulmasını tələb edir.Lakin cəmiyyətdə mövcud olan dərin sosial təbəqələşmə və iqtisadi bərabərsizlik bu strategiyaların ardıcıl və sistemli şəkildə həyata keçirilməsini çətinləşdirir. Sosial-iqtisadi fərqlər, regionlararası resurs fərqlilikləri və ayrı-seçkilik təcrübələri təhsil sistemində islahatların planlı şəkildə reallaşdırılmasını əngəlləyir. Bu vəziyyət, yalnız proqramların tətbiqi ilə kifayətlənməyib, həm də institusional dəyişiklərin səmərəli olması üçün əlavə dəstək mexanizmlərinin – pedaqoji kadrların hazırlanması, texnoloji resursların təmin olunması və valideyn, ictimaiyyət maarifləndirilməsi – vacibliyini ortaya qoyur.

A.Şamsutdinova və A.İ.Nafıkova da təhsilin yalnız bilik verən deyil, eyni zamanda sosial hərəkətliliyi təmin edən mexanizm kimi qiymətləndirirlər: “ Müasir elmi yanaşmalara əsasən, sosial ədalət və bərabərlik təhsil hüququnun təmin edilməsində mərkəzi əhəmiyyətə malikdir. Bu prinsiplər bütün şagirdlər üçün sosial vəziyyətindən, etnik mənsubiyyətindən və digər fərdi xüsusiyyətlərindən asılı olmayaraq, bərabər imkanların yaradılmasını nəzərdə tutur. Qəbul edilir ki, uşaqlar və gənclər yüksək keyfiyyətli təhsilə və öz potensialını reallaşdırmaq üçün zəruri resurslara bərabər və ölçülə bilən çıxışa malik olmalıdır” (Shamsutdinova, A. A., Nafikova, A. I. 2023).

Bu yanaşma yalnız fərdi inkişafı təmin etmir, eyni zamanda, cəmiyyətin ümumi sosial və iqtisadi inkişafına, eləcə də sosial rifahın güclənməsinə şərait yaradır. Bu baxımdan, institusional maneələri uğurla aradan qaldıra bilmiş təhsil modellərinin və konsepsiyalarının öyrənilməsi xüsusi elmi və praktik əhəmiyyət kəsb edir. Belə yanaşmalar mövcud sistemin məhdudiyyətlərini aşmağa və daha inklüziv, əlçatan təhsil mühitinin formalaşdırılmasına imkan yaradır. Xüsusilə, sosial ədalət və bərabərlik prinsiplərinin həyata keçirilməsi sahəsində genişmiqyaslı institusional islahatlar aparmış ölkələrin təcrübəsi diqqətəlayiqdir. Bu kontekstdə Çin təhsil sistemi əhəmiyyətli nümunə kimi çıxış edir. Sözügedən ölkə ümumi təhsilə çıxışın təmin olunması istiqamətində mühüm struktur dəyişikliklər həyata keçirmiş və təhsili milli inkişafın əsas prioritetlərindən biri kimi müəyyənləşdirmişdir.

Sosial ədalət və bərabərliyin təhsil sahəsində təmin olunması üçün kompleks və sistemli tədbirlərin vaxtında həyata keçirilməsi vacibdir. Bu məqsədlə inklüziv siyasətlər tətbiq olunmalı, şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun resurslara və dəstəyə çıxış təmin edilməlidir. Burada xüsusilə interaktiv mühitlərin rolu əhəmiyyətlidir. İnteraktiv texnologiyalar və tədris vasitələri şagirdlərin fəal iştirakını təmin etməklə, onların fərdi bacarıqlarını aktivləşdirir, mövcud bilik və qabiliyyətləri isə kompensator şəkildə aktuallaşdırır. Nəticədə, interaktiv mühitlər yalnız təhsil prosesinin səmərəliliyini artırmır, həm də inklüzivlik prinsiplərinin praktik tətbiqini dəstəkləyir (Tszin, K., 2024).

İnteraktiv təlim mühiti sosial ədalətin praktik reallaşdırılmasının əsas mexanizmlərindən biri kimi çıxış edir. Belə mühitdə şagirdlər passiv bilik qəbul edən subyektlər deyil, aktiv iştirakçılar kimi çıxış edir, qarşılıqlı ünsiyyət, əməkdaşlıq və birgə fəaliyyət vasitəsilə öyrənmə prosesinə cəlb olunurlar. Bu yanaşma xüsusilə inklüziv siniflərdə əhəmiyyətlidir, çünki fərqli inkişaf xüsusiyyətlərinə malik şagirdlərin birgə fəaliyyətə qoşulması onların sosial inteqrasiyasını sürətləndirir və təcrid olunma riskini azaldır (Kalutskaya, D. N., 2022).

İnteraktivlik yalnız texnoloji vasitələrin tətbiqi ilə məhdudlaşmır, eyni zamanda qarşılıqlı ünsiyyətə, əməkdaşlığa və birgə fəaliyyətə əsaslanan sosial-pedaqoji mühitin yaradılmasını nəzərdə tutur. Belə mühitdə şagirdlər və tələbələr bir-biri ilə aktiv qarşılıqlı əlaqəyə girərək fərqlilikləri daha təbii şəkildə qəbul edir, empatiya və tolerantlıq kimi sosial bacarıqları inkişaf etdirirlər. Bundan əlavə, interaktiv və inklüziv mühitdə şagirdlərdə komanda işi bacarıqları formalaşır, başqalarının fikrinə hörmətlə yanaşmaq, tolerantlıq nümayiş etdirmək və faktlara əsaslanan müstəqil mövqe formalaşdırmaq qabiliyyətləri inkişaf edir. Belə yanaşma şagirdlərin fərdi xüsusiyyətlərini, imkanlarını və ehtiyaclarını nəzərə alaraq onların təlimə motivasiyasını artırır və təhsil prosesində fəal iştirakını təmin edir.

Problemin həlli istiqamətlərindən biri ali təhsil müəssisələrində gələcək pedaqoji kadrların inklüziv və interaktiv təhsil mühitində fəaliyyətə hazırlanmasıdır. Bu məqsədlə hazırlanmış təhsil proqramları yalnız nəzəri biliklərin ötürülməsini deyil, həm də tələbələrin praktiki fəaliyyətə cəlb olunmasını, interaktiv metodlardan istifadə etmə bacarıqlarının formalaşdırılmasını və inklüziv dəyərlərin mənimsənilməsini təmin etməlidir.

İnklüziv təhsil şəraitində pedaqoqun əsas vəzifələrindən biri xüsusi təhsil ehtiyacları olan uşaqların gələcək sosiallaşmasını təmin etmək məqsədilə əlverişli və təhlükəsiz təhsil mühitinin yaradılmasıdır. Bu mühit şagirdlərin problemlərin həllini ya müstəqil şəkildə, ya da digər şəxslərlə qarşılıqlı əməkdaşlıq şəraitində axtarmasına imkan verməlidir. Belə pedaqoji mövqe xüsusi təhsil ehtiyacları olan uşaqların öz potensiallarını reallaşdırmasına, özünüdərk və öyrənmə bacarıqlarının formalaşmasına şərait yaradır. Eyni zamanda bu proses əməkdaşlıq, informasiya axtarışı və təhlili, düzgün qərar qəbul etmə kimi mühüm kompetensiyaların inkişafını təmin edir (Shamsutdinova, A. A., Nafikova, A. I. , 2023).

Sosial ədalətin interaktiv mühitdə təmin olunması üçün müəllimin rolu da transformasiya olunur. Müəllim artıq yalnız bilik ötürücüsü deyil, həm də fasilitator, istiqamətləndirici və dəstəkləyici rolunu yerinə yetirir. O, şagirdlər arasında bərabər iştirak imkanları yaradır, müxtəlif öyrənmə strategiyalarından istifadə edir və fərdi yanaşmanı təmin edir. Bu isə inklüziv mühitdə hər bir şagirdin özünü dəyərli hiss etməsini və təhsil prosesinə aktiv qoşulmasını təmin edir. İnteraktiv mühit sosial münasibətlərin formalaşmasına da müsbət təsir göstərir. Şagirdlər arasında əməkdaşlıq, qarşılıqlı hörmət və empatiya kimi sosial bacarıqlar inkişaf edir ki, bu da sosial ədalətin yalnız nəzəri deyil, praktik səviyyədə də reallaşmasına xidmət edir. İnteraktiv təhsil mühiti inklüzivliyin əsas şərtlərindən biri kimi çıxış edərək, sosial ədalətin təmin olunmasında mühüm rol oynayır, daha ədalətli, açıq və dəstəkləyici təhsil sisteminin formalaşmasına şərait yaradır.

Ədəbiyyat:

1. Booth, T., & Ainscow, M. (2004). Index for Inclusion: Developing Learning and Participation in Schools. Bristol: Centre for Studies on Inclusive Education.

2. Vakhshtein, V. S. (2005). Strategii obespecheniya ravenstva obrazovatelnykh vozmozhnostey v stranakh OESR: sravnitel'nyy analiz. In Aktual'nye voprosy razvitiya obrazovaniya v stranakh OESR (pp. 98–110). Moscow: GU-VShE.

3. Tszin, K. (2024). Sotsial'naya spravedlivost' i ravenstvo kak klyuchevye printsipy rukovodstva deyatel'nost'yu v oblasti prava na obrazovanie. Teoriya i praktika obshchestvennogo razvitiya, (5), 90–95. Rossiyskiy universitet druzhby narodov imeni Patrisa Lumumby, Moscow, Russia.

4. Kalutskaya, D. N. (2022). Interaktivnye strategii kak faktor uspeshnoy sotsializatsii detey s osobymi obrazovatel'nymi potrebnostyami. In Sovremennye problemy i perspektivy razvitiya sistemy obrazovaniya. Grodno: GrGU im. Yanki Kupaly.

5. Shamsutdinova, A. A., & Nafikova, A. I. (2023). Obrazovanie i sotsial'naya spravedlivost': k voprosu obespecheniya ravnykh vozmozhnostey v obrazovanii. In Aktual'nye problemy razvitiya chelovecheskogo potentsiala v sovremennom obshchestve: materialy IV Mezhdunarodnoy nauchno-prakticheskoy konferentsii (pp. 110–113). Perm: PGNIU.

İNKLÜZİV TƏHSİLİN NƏZƏRİ ƏSASLARI VƏ MÜƏLLİM PEŞƏKARLIĞININ KONSEPTUAL ÇƏRÇİVƏSİ

Bəsti Məhəmməd qızı Seyidzadə
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
basti.seyidzada@mdu.edu.az
ORCİD ID: https://orcid.org 0009-000477834940
Kamilə Famil qızı Həsənova
Mingəçevir Turizm kolleci
hesnovakamile87@gmail.com
ORCİD ID: https://orcid.org 0009-0003-4058-1073

Açar sözlər: inklüziv təhsil, müəllim peşəkarlığı, diferensial təlim, pedaqoji kompetensiya, reflektiv yanaşma, sosial inteqrasiya.

Xülasə. Bu məqalədə inklüziv təhsilin nəzəri əsasları və müəllim peşəkarlığının konseptual çərçivəsi geniş şəkildə təhlil olunur. İnklüziv təhsil müasir təhsil sisteminin əsas istiqamətlərindən biri kimi bütün şagirdlərin, o cümlədən xüsusi təhsil ehtiyacları olan fərdlərin bərabər təhsil imkanlarına malik olmasını təmin etməyə yönəlmişdir. Məqalədə inklüziv təhsilin mahiyyəti, əsas prinsipləri və pedaqoji yanaşmaları sistemli şəkildə izah edilir. Xüsusilə humanist pedaqogika, konstruktivist və sosial-mədəni yanaşmaların inklüziv mühitdə rolu vurğulanır.

Eyni zamanda müəllim peşəkarlığının strukturu və onun əsas komponentləri – koqnitiv, fəaliyyət, aksioloji və reflektiv istiqamətlər ətraflı şəkildə şərh olunur. Müəllimin yalnız nəzəri biliklərə malik olması deyil, həm də bu bilikləri praktikada tətbiq etməsi, şagirdlərə qarşı tolerant və empatik münasibət sərgiləməsi vacib hesab edilir. Məqalədə inklüziv təhsildə istifadə olunan müasir təlim metodları və qarşıya çıxan problemlər də təhlil edilir.

Nəticə olaraq qeyd olunur ki, inklüziv təhsilin effektivliyi müəllimin peşəkarlıq səviyyəsi ilə birbaşa bağlıdır. Müəllimin davamlı inkişafı və inklüziv dəyərləri mənimsəməsi təhsil mühitinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Keywords: inclusive education, teacher professionalism, differentiated instruction, pedagogical competence, reflective practice, social integration.

Summary. This article examines the theoretical foundations of inclusive education and the conceptual framework of teacher professionalism. Inclusive education is considered one of the key directions of modern educational systems, aiming to ensure equal learning opportunities for all

students, including those with special educational needs. The study explains the essence, principles, and pedagogical approaches of inclusive education in a systematic manner, highlighting the importance of humanistic, constructivist, and socio-cultural perspectives in inclusive environments.

The article also analyzes the structure of teacher professionalism, focusing on its main components: cognitive, practical, axiological, and reflective dimensions. It emphasizes that effective teaching requires not only theoretical knowledge but also the ability to apply this knowledge in practice, along with maintaining a tolerant and empathetic attitude toward students. Additionally, modern teaching strategies used in inclusive classrooms and the challenges encountered in implementation are discussed.

The findings suggest that the success of inclusive education largely depends on the level of teacher professionalism. Continuous professional development and the adoption of inclusive values are essential for improving the overall quality of education and fostering an equitable learning environment.

Anahtar kelimeler: kapsayıcı eğitim, öğretmen profesyonelliği, farklılaştırılmış öğretim, pedagojik yeterlik, yansıtıcı yaklaşım, sosyal entegrasyon.

Özet. Bu makalede kapsayıcı eğitimin kuramsal temelleri ile öğretmen profesyonelliğinin kavramsal çerçevesi ele alınmaktadır. Kapsayıcı eğitim, modern eğitim sistemlerinde tüm öğrencilerin, özellikle özel gereksinimli bireylerin eşit eğitim fırsatlarına erişimini sağlamayı amaçlayan önemli bir yaklaşımdır. Çalışmada kapsayıcı eğitimin temel ilkeleri, yapısı ve pedagojik yaklaşımları sistematik bir şekilde açıklanmış, özellikle hümanist, yapılandırmacı ve sosyo-kültürel yaklaşımların önemi vurgulanmıştır.

Ayrıca öğretmen profesyonelliğinin yapısı incelenmiş ve bilişsel, uygulama, aksiyolojik ve yansıtıcı bileşenleri ayrıntılı şekilde ele alınmıştır. Öğretmenin sadece teorik bilgiye sahip olması değil, aynı zamanda bu bilgiyi etkili biçimde uygulaması ve öğrencilere karşı hoşgörülü ve empatik bir tutum sergilemesi gerektiği ifade edilmiştir. Makalede ayrıca kapsayıcı eğitim ortamlarında kullanılan çağdaş öğretim yöntemleri ve karşılaşılan sorunlar da değerlendirilmiştir.

Sonuç olarak kapsayıcı eğitimin başarısının büyük ölçüde öğretmenlerin mesleki yeterliliklerine bağlı olduğu belirlenmiştir. Öğretmenlerin sürekli gelişimi ve kapsayıcı değerleri benimsemesi, eğitim kalitesinin artırılmasında önemli rol oynamaktadır.

Müasir təhsil sistemində prioritet istiqamətlərdən biri bütün fərdlərin keyfiyyətli təhsilə çıxış imkanlarının təmin edilməsidir (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2018; UNESCO, 2017). Bu kontekstdə inklüziv təhsil modeli xüsusi əhəmiyyət daşıyır. Sözügedən yanaşma yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqları deyil, həmçinin fərqli sosial, mədəni və fərdi xüsusiyyətlərə malik bütün şagirdləri əhatə edir (Ainscow, 2020). İnklüzivlik təhsildə bərabər imkanların yaradılmasına, sosial inteqrasiyanın gücləndirilməsinə və humanist dəyərlərin formalaşmasına xidmət edir (Florian, 2014).

İnklüziv təhsilin uğurla həyata keçirilməsi müəllimin peşə kompetensiyalarından əhəmiyyətli dərəcədə asılıdır (Forlin, 2010). Müəllim bu prosesdə yalnız məlumat ötürücüsü deyil, həm də öyrənmə mühitini təşkil edən, şagirdlər arasında qarşılıqlı əlaqəni tənzimləyən və fərdi inkişafı dəstəkləyən əsas subyekt kimi çıxış edir (Hüseynova, 2017).

İnklüziv təhsilin mahiyyəti və əsas prinsipləri

İnklüziv təhsil konsepsiyası “hamı üçün əlçatan təhsil” ideyasına əsaslanır və hər bir şagirdin təlim prosesində aktiv iştirakını təmin etməyi hədəfləyir (UNESCO, 2017)..

Bu yanaşmanın əsas prinsipləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Təhsil hüququnun universallığı – bütün uşaqlar üçün bərabər imkanların yaradılması (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2020)
- Fərdi yanaşmanın tətbiqi – şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması
- Mühitin uyğunlaşdırılması – fiziki və pedaqoji şəraitin optimallaşdırılması
- Sosial inteqrasiya – kollektiv fəaliyyətin təşviqi
- Əməkdaşlıq mexanizmləri – müəllim, valideyn və digər mütəxəssislərin birgə fəaliyyəti

Bu prinsiplər inklüziv təhsilin nəzəri çərçivəsini formalaşdıraraq onun praktik tətbiqinə istiqamət verir.

İnklüziv təhsilin elmi-nəzəri əsasları

İnklüziv təhsil müxtəlif pedaqoji konsepsiyalara və psixoloji yanaşmalara əsaslanır:

Humanist pedaqogika fərdin dəyərli və təkrarolunmaz olduğunu vurğulayır və təhsil prosesinin şagirdyönümlü təşkilini tələb edir (Kazımov, 2018). Konstruktivist yanaşma öyrənməni aktiv və interaktiv proses kimi xarakterizə edir (Hattie, 2009). Bu model inklüziv siniflərdə əməkdaşlığa əsaslanan fəaliyyətləri ön plana çıxarır. Sosial-mədəni nəzəriyyə fərdin inkişafını sosial mühitlə qarşılıqlı əlaqədə izah edir və inklüziv mühitin sosiallaşma baxımından əhəmiyyətini artırır. Diferensial təlim konsepsiyası isə şagirdlər arasındakı fərqləri nəzərə alaraq təlimin məzmun və metodlarının uyğunlaşdırılmasını nəzərdə tutur.

İnklüziv təhsil şəraitində müəllimin funksiyaları

İnklüziv sinif mühitində müəllimin fəaliyyəti çoxşaxəli xarakter daşıyır (Florian & Black-Hawkins, 2011). Onun əsas vəzifələrinə aşağıdakılar daxildir:

- Şagirdlərin fərdi təhsil ehtiyaclarının müəyyənləşdirilməsi
- Təlim strategiyalarının uyğunlaşdırılması
- Psixoloji və emosional dəstəyin təmin edilməsi
- Müsbət və inklüziv sinif mühitinin yaradılması
- Valideynlər və digər mütəxəssislərlə koordinasiyanın təşkili

Bu baxımdan müəllim inklüziv təhsilin həyata keçirilməsində əsas aparıcı qüvvə kimi çıxış edir (Forlin, 2010).

Müəllim peşəkarlığının strukturu

Müəllim peşəkarlığı kompleks anlayış olub bir neçə mühüm komponentdən ibarətdir (Hüseynova, 2017):

- Nəzəri hazırlıq – pedaqoji və psixoloji biliklər
- Praktik bacarıqlar – təlim metodlarının effektiv tətbiqi
- Kommunikativ səriştələr – ünsiyyət və əməkdaşlıq qabiliyyəti
- Etik dəyərlər – tolerantlıq və empatiya
- Yaradıcı yanaşma – innovativ metodlardan istifadə

İnklüziv mühitdə bu komponentlərin hər biri xüsusi əhəmiyyət kəsb edir.

Müəllim peşəkarlığının konseptual modeli inklüziv təhsil mühitində səmərəli pedaqoji fəaliyyətin təmin olunmasına xidmət edən əsas komponentlərin qarşılıqlı əlaqəsinə əsaslanır (Florian, 2014). Bu model müəllimin bilik, bacarıq, dəyər və özünüinkişaf istiqamətlərini vahid sistemdə birləşdirir.

Koqnitiv komponent müəllimin inklüziv təhsilin nəzəri əsaslarını, şagirdlərin fərdi xüsusiyyətlərini və müasir pedaqoji yanaşmaları mənimsəməsini əhatə edir. Bu biliklər müəllimə təlim prosesini düzgün planlaşdırmağa imkan verir.

Fəaliyyət komponenti nəzəri biliklərin praktik tətbiqini ifadə edir. Buraya diferensial təlimin təşkili, fərdi proqramların hazırlanması, uyğun metod və strategiyaların seçilməsi daxildir.

Aksioloji komponent müəllimin dəyərlər sistemini əks etdirir. Tolerantlıq, empatiya və bərabərlik prinsiplərinə əsaslanan yanaşma inklüziv mühitin formalaşmasında mühüm rol oynayır.

Reflektiv komponent isə müəllimin öz fəaliyyətini təhlil etməsi və davamlı inkişafını təmin etməsi ilə bağlıdır. Bu, pedaqoji fəaliyyətin keyfiyyətinin artırılmasına şərait yaradır.

Beləliklə, bu komponentlərin vəhdəti müəllimin inklüziv təhsildə peşəkar və effektiv fəaliyyətini təmin edən əsas konseptual çərçivəni təşkil edir.

İnklüziv təhsildə tətbiq olunan müasir yanaşmalar

İnklüziv siniflərdə aşağıdakı pedaqoji strategiyalar geniş istifadə olunur:

- Əməkdaşlığa əsaslanan öyrənmə
- Layihə yönümlü fəaliyyətlər
- Fərdiləşdirilmiş tapşırıq sistemi
- İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi
- Oyun və interaktiv üsullar

Bu yanaşmalar şagirdlərin fəallığını artırmaqla yanaşı onların potensial imkanlarının üzə çıxarılmasına şərait yaradır (Hattie, 2009).

Mövcud problemlər və perspektiv həll yolları

İnklüziv təhsilin tətbiqi zamanı bir sıra çətinliklər müşahidə olunur (Əhmədov, 2021)::

- Müəllimlərin peşə hazırlığının yetərli olmaması
- Təhsil müəssisələrinin texniki imkanlarının məhdudluğu
- Sosial stereotiplərin mövcudluğu
- Şagird sayının çoxluğu

Bu problemlərin aradan qaldırılması üçün aşağıdakı tədbirlər məqsədəuyğun hesab olunur (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2020):

- Müəllimlərin davamlı peşəkar inkişaf proqramlarına cəlb edilməsi
- Təhsil infrastrukturunun təkmilləşdirilməsi
- Maarifləndirmə tədbirlərinin genişləndirilməsi
- Dövlət siyasətinin gücləndirilməsi

İnklüziv təhsil modeli müasir cəmiyyətin sosial və pedaqoji tələblərinə cavab verən mühüm istiqamətlərdən biridir (UNESCO, 2017). Bu modelin effektiv tətbiqi müəllimin peşəkarlıq səviyyəsi ilə birbaşa əlaqəlidir. Müəllimin nəzəri hazırlığı, praktik bacarıqları və humanist dəyərlərə əsaslanan yanaşması inklüziv mühitin formalaşmasında həlledici rol oynayır.

Nəticə etibarilə inklüziv təhsil yalnız təhsil sisteminin deyil, bütövlükdə cəmiyyətin inkişafına təsir göstərən mühüm amil kimi qiymətləndirilməlidir (Ainscow, 2020). Bu yanaşma sosial ədalətin, tolerantlığın və qarşılıqlı hörmətin formalaşmasına zəmin yaradır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2018). İnklüziv təhsil üzrə dövlət strategiyası. Bakı.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2020). Ümumi təhsil müəssisələrində inklüziv təhsilin təşkili qaydaları. Bakı.

3. Cəfərov, X. (2019). Müasir təhsil sistemində inklüziv yanaşmalar. Bakı: Təhsil nəşriyyatı.

4. Hüseynova, R. (2017). Pedaqogika. Bakı: Elm və təhsil.

5. Kazımov, N. (2018). Pedaqogikanın əsasları. Bakı: Elm və təhsil.

6. Qasımov, Ə. (2016). Təlim nəzəriyyəsi və müasir yanaşmalar. Bakı: Təhsil.

7. Əhmədov, A. (2021). İnklüziv təhsilin tətbiqi problemləri və perspektivləri. Azərbaycan məktəbi, 4, 45–52.

8. Ainscow, M. (2020). Promoting inclusion and equity in education. Nordic Journal of Studies in Educational Policy, 6(1), 7–16. https://doi.org/10.1080/20020317.2020.1729587

9. Florian, L. (2014). What counts as evidence of inclusive education? European Journal of Special Needs Education, 29(3), 286–294. https://doi.org/10.1080/08856257.2014.933551

10. Tomlinson, C. A. (2014). The differentiated classroom: Responding to the needs of all learners (2nd ed.). ASCD.

11. UNESCO. (2017). A guide for ensuring inclusion and equity in education. UNESCO Publishing.

ÇƏTİN TƏRBİYƏ OLUNAN UŞAQLARA FƏRDİ YANAŞMA, AİLƏ, MƏKTƏB ƏMƏKDAŞLIĞI VƏ PSİXOLOJİ DƏSTƏK

Bayram Həsən oğlu Xəlilov
Baş müəllim
Azərbaycan Respublikası
Azərbaycan İdman Akademiyası
xelilovbayram1956@gmail.com
ORCİD ID: 0009 0006 6641 9623
Eldar Arif oğlu Muxtarlı
Azərbaycan İdman Akademiyası
elm.konfranslar@mail.ru
ORCİD ID: https://orcid.org/0000-0001-6894-3214,
Aida İslam qızı İsayeva
Baş müəllim
Azərbaycan İdman Akademiyası
aida.isayeva@sport.edu.az
ORCİD ID: 0009-0008-1081-4995

Açar sözlər: çətin tərbiyə olunan uşaqlar, fərdi yanaşma, ailə və məktəb əməkdaşlığı, psixoloji dəstək.

Xülasə. Məqalədə çətin tərbiyə olunan uşaqlara fərdi yanaşmanın əhəmiyyətini, ailə və məktəb əməkdaşlığının rolunu, həmçinin psixoloji dəstəyin vacibliyini araşdırır. Müasir təhsil mühitində davranış problemləri olan uşaqlarla iş zamanı ənənəvi metodların kifayət etmədiyi, bu səbəbdən fərdi xüsusiyyətlərin nəzərə alınmasının zəruri olduğu vurğulanır. Məqalədə göstərilir ki, hər bir uşağın sosial, emosional və psixoloji xüsusiyyətləri fərqlidir və bu fərqlər təlim-tərbiyə prosesində nəzərə alınmalıdır.

Eyni zamanda, ailə və məktəb arasında səmərəli əməkdaşlığın qurulması uşağın inkişafına müsbət təsir göstərən əsas amillərdən biri kimi təqdim olunur. Valideynlərin təhsil prosesində fəal iştirakı, müəllimlərlə müntəzəm ünsiyyəti və ortaq yanaşmanın formalaşdırılması uşaqlarda

davranış problemlərinin aradan qaldırılmasına kömək edir. Məqalədə həmçinin psixoloqların iştirakı ilə göstərilən dəstəyin əhəmiyyəti qeyd olunur. Psixoloji müdaxilələr uşaqların emosional vəziyyətinin sabitləşdirilməsinə, özünəinamın artırılmasına və sosial bacarıqların inkişafına şərait yaradır.

Alimlərin fikrincə, uşağın tərbiyəsindəki çətinlikləri onun psixi inkişafını müəyyən səviyyəyə çatdırmaqla aradan qaldırmaq olar. Ümumiyyətlə, insanın psixi inkişafında və şəxsi keyfiyyətlərinin formalaşmasında əsas rol xarici mühit və tərbiyəyə aiddir. Bundan başqa, uşaqlara toplanmış təcrübənin ötürülməsi də onların şəxsiyyətinin formalaşmasına güclü təsir edən amildir. Amerikalı psixoloqlar deyirlər ki, uşağa öncə pis vərdişlərdən qorunmağı öyrətmək lazımdır. Bunun üçün uşağı özünü yaxşı tərəfə dəyişməyə təşviq etmək, yəni ətrafdakı təsirlərdən asanlıqla təsirlənməməsini təmin etmək vacibdir.

Nəticə etibarilə, fərdi yanaşma, ailə-məktəb əməkdaşlığı və psixoloji dəstəyin birgə tətbiqi çətin tərbiyə olunan uşaqların cəmiyyətə uğurlu inteqrasiyasında mühüm rol oynayır.

Keywords: difficult children, individual approach, family-school cooperation, psychological support.

Summary. The article examines the importance of an individualized approach to children who are difficult to educate, the role of family-school cooperation, and the significance of psychological support. In the modern educational environment, it is emphasized that traditional methods are insufficient when working with children who have behavioral problems, and therefore it is necessary to take into account their individual characteristics. The article shows that each child has unique social, emotional, and psychological traits, and these differences should be considered in the educational process. At the same time, establishing effective cooperation between family and school is presented as one of the key factors positively influencing a child’s development.

Active participation of parents in the educational process, regular communication with teachers, and the formation of a common approach help to overcome behavioral problems in children. The article also highlights the importance of support provided with the involvement of psychologists. Psychological interventions contribute to stabilizing children’s emotional state, increasing self-confidence, and developing social skills. According to researchers, difficulties in a child’s upbringing can be overcome by bringing their psychological development to a certain level. In general, the main role in a person’s psychological development and the formation of personal qualities belongs to the external environment and upbringing. In addition, the transmission of accumulated experience to children is also an important factor influencing their personality development.

Anahtar kelimeler: zor eğitilen çocuklar, bireysel yaklaşım, aile ve okul iş birliği, psikolojik destek.

Özet. Makalede zor eğitilen çocuklara bireysel yaklaşımın önemi, aile ve okul iş birliğinin rolü ile psikolojik desteğin gerekliliği ele alınmaktadır. Modern eğitim ortamında davranış sorunları olan çocuklarla çalışırken geleneksel yöntemlerin yetersiz kaldığı, bu nedenle bireysel özelliklerin dikkate alınmasının gerekli olduğu vurgulanmaktadır. Makalede her çocuğun sosyal, duygusal ve psikolojik özelliklerinin farklı olduğu ve bu farklılıkların eğitim sürecinde göz önünde bulundurulması gerektiği belirtilmektedir.

Aynı zamanda, aile ile okul arasında etkili bir iş birliğinin kurulması çocuğun gelişimini olumlu yönde etkileyen temel faktörlerden biri olarak sunulmaktadır. Ebeveynlerin eğitim sürecine aktif katılımı, öğretmenlerle düzenli iletişim kurmaları ve ortak bir yaklaşım geliştirilmesi

çocuklarda davranış sorunlarının giderilmesine yardımcı olmaktadır. Makalede ayrıca psikologların katılımıyla sağlanan desteğin önemi de vurgulanmaktadır. Psikolojik müdahaleler çocukların duygusal durumunun dengelenmesine, özgüvenlerinin artmasına ve sosyal becerilerinin gelişmesine katkı sağlamaktadır.

Araştırmacılara göre, çocuğun eğitimindeki zorluklar onun psikolojik gelişimini belirli bir düzeye ulaştırarak aşılabilir. Genel olarak, insanın psikolojik gelişiminde ve kişisel özelliklerinin oluşumunda temel rol dış çevre ve eğitime aittir. Bunun yanı sıra, biriken deneyimlerin çocuklara aktarılması da onların kişilik gelişimini etkileyen önemli bir faktördür. Amerikalı psikologlara göre, çocuklara öncelikle kötü alışkanlıklardan korunma öğretilmelidir. Bunun için çocuğu kendini iyi yönde değiştirmeye teşvik etmek ve dış etkenlerden kolayca etkilenmemesini sağlamak önemlidir.

Sonuç olarak, bireysel yaklaşım, aile-okul iş birliği ve psikolojik desteğin birlikte uygulanması, zor eğitilen çocukların topluma başarılı bir şekilde entegrasyonunda önemli bir rol oynamaktadır.

Orta ümumtəhsil məktəblərində “çətin tərbiyə olunan” uşaqlar (yəni davranışılarında və oxumaqlarında problemi olan uşaqlar) pedaqoji kollektivin diqqət mərkəzində olan vacib məsələlərdən biridir. Müəllim kollüktivi bu məsələyə çox diqqət yetirir və onu həll etmək üçün yollar axtarırlar. Yetkinlik yaşına çatmayan çətin tərbiyə olunan uşaqların yaranmasının əsas səbəblərindən biri onlara düzgün tərbiyə və diqqətin verilməməsidir.

Son vaxtlar “çətin tərbiyə olunan uşaqlarla” ünsiyyət problemi çox aktuallaşıb. Bunun səbəbi “çətin uşaqların” sayının davamlı artmasıdır. Əvvəllər bu kateqoriyaya əsasən yeniyetmələr daxil olurdusa, indi uşaqlar bəzən artıq 4–7 yaşında bu qrupa düşür. Hazırda hətta məktəbəqədər yaşlı uşaqlara da pedaqoqlar və tərbiyəçilər “çətin uşaq” ifadəsini işlədirlər (Həmzəyev, 1991).

Bəs “çətin uşaq” kateqoriyasına kimlər daxildir? Burada aşağıdakı uşaqlar növlərini ayırmaq olar:

- Narahat uşaqlar
- Hiperaktiv uşaqlar
- Aqressiv uşaqlar
- İmpulsiv uşaqlar
- Qapalı, utancaq uşaqlar
- Yavaş hərəkət edən, təmkinli uşaqlar

Təcrübədən məlumdur ki, hər uşağın öz xarakteri olur. Anomal və asosial uşaqlar (anomal yəni normadan fərqli, asosial isə özünü cəmiyyətdən təcrid etmə, insanlarla ünsiyyətdən qaçma və təkbaşına qalmağa üstünlük vermək deməkdir).

Çətin tərbiyə olunan uşaqlar —lazımi tərbiyə almayan, diqqətsiz və taleyin ümidinə buraxılmış uşaqlardır.

Çətin tərbiyə olunan uşaqlar valideyinləri tərəfindən zaman-zaman edilmiş səhvlər, tərbiyə prosesində fərdi yanaşmanın olmamasının nəticəsidir. Başqa sözlə desək, çətin tərbiyə olunan uşaqlar təhsil-tərbiyə prosesindən geridə qalmış uşaqlardır. Bu cür xüsusiyyətlərə malik olan uşaqlar digər uşaqlarla normal münasibətlər qura bilmir.

Deməli, “çətin tərbiyə olunan” ifadəsi yalnız mənfi xüsusiyyətlə məhdudlaşmır, yəni uşağın etibarsız, mənəvi iradi keyfiyyətlərinin mənfi olduğunu göstərmir. Çətin tərbiyə olunan uşağa xüsusi diqqət yetirərək, fərdi münasibət və yanaşma göstərmək lazımdır.

Təhsil prosesində çətin tərbiyə olunan uşaqlarla qarşılaşmaq lazım gəlir. Hazırda belə şagirdlərə fərdi yanaşma əsasında tərbiyə üsulları, onların mənəvi çatışmazlıqlarını və pis vərdişlərini aradan qaldırma yolları elmi əsaslarla işlənib hazırlanır.

Alimlər deyirlər ki, çətin tərbiyə olunan mənəvi cəhətdən zəif uşaqların ortaya çıxmasının səbəbi təkcə cəmiyyətlə birbaşa əlaqəli deyil, çətin tərbiyə olunan uşaqların tərbiyəsində təhsil və psixologiyada böyük rol oynayır (Sadikov, 2003).

Uşaq 6–7 illik həyatında öz dünya görüşünü və xarakterini formalaşdırır. Uşağın tərbiyəsidə ailənin və məktəbin birgə məsuliyyəti olduqca önəmlidir. Onuda nəzərə almaq lazımdır ki, uşağın ilk tərbiyəsi ailədən gəlir. Övladlarının bilik qazanmasına böyük önəm verən ailələr öz uşaqlarını izləyərək məktəbdə idarə etməsinə və ev tapşırıqlarına nəzarət edərək müəllim tərəfindən verilən çətin tapşırıqların yerinə yetirməsində uşağa yaxından kömək edir.

Uşaqların təhsilinə diqqət yetirməyən ailələr isə hesab edirlər ki, uşaqların yalnız yazmağı və hesablama bacarması kifayətdir. Təlim tərbiyə və maariflənmə prosesində usaqlara diqqətsiz yanaşma mütləq mənfi təsir göstərir. Bu isə uşağın dərslərdə geri qalmasına səbəb olur və zaman keçdikcə uşaq, çətin tərbiyə olunma halına gəlir.

Rus pedaqoqu Vasili Suxomlinskinin sözlərinə görə, uşağın nə etmək istədiyinə inanmaq, onun arzularına hörmət etmək, valideyinin və müəllimin ağıllı, səbirli olmasının göstəricisidir (yəni, uşağa güvənmək və onu başa düşmək doğru yanaşmadır).

Çətin tərbiyə olunan uşaq kiçik yaşlardan diqqətə və sevgiyə böyük ehtiyacı olur. Uşağın tərbiyəsində, xüsusilə çətin tərbiyə olunan uşaqlarla işləyərkən, mehribanlıq və qayğı göstərmək vacibdir. Çətin tərbiyə olunan uşaqların yaranmasının tək bir səbəbi yoxdur. Eyni zamanda, uşağı bu vəziyyətdən qurtaran universal bir metod yoxdur. Məlumdur ki, ictimai nəzarətin zəifliyi, ailənin diqqətsizliyi və uşağın tərbiyəsinə nəzarət etməmək mənfi nəticələrə səbəb ola bilər.

Çətin tərbiyə olunan uşaq problemi daha çox psixoloji problem olduğu üçün psixoloji məsələlər ön plana çıxır. Bu cür problemi həll etməkdə məktəb psixoloqları əsas rol oynayır. Professor M.Ə. Həmzəyev deyir ki, məktəbdə psixoloji xidmət sahəsində ən çox diqqət çəkən məsələlərdən biri də “çətin” uşaqlarla aparılan işdir. Vacib məsələlərdən biri odur ki, davranışında problem olan, cəmiyyətə uyğunlaşmaqda çətinlik çəkən uşaqlar vaxtında müəyyən edilərək tanınsın. Eyni zamanda, uşağın niyə “çətin” olduğu problemlərinə və səbəblərinə də xüsusi diqqət verilməlidir.

Çətin tərbiyə olunan uşağın şəxsi xüsusiyyətlərinə və məlumatlarına əsaslanaraq tərbiyəvi iş sistemi müəyyənləşdirməlidir. Bu baxımdan məktəb psixoloqunun üzərinə “çətin”uşaqları aşkara çıxarmaq, onlarla psixoloji iş aparmaq kimi mühüm bir vəzifə düşür.

Bu cür iş necə və hansı yollarla aparılaraq, hansı istiqamətlərə diqqət yetirilməlidir?

Məktəblərdəki təcrübələrdən məlum olur ki, bir çox məktəblər bu məsələyə kifayət qədər diqqət yetirmir. Uşaqalrın hansı səbəbdən cəmiyyətə uyğun olmayan davranışları aşkara çıxarılaraq lazımı işlərin aparılmasına fikir verilmir (Şoumarov və başqaları, 2002).

Psixoloji ədəbiyyatda göstərildiyi kimi,çətin tərbiyə olunan uşaqların davranışlarına və şəxsiyyətinin inkişafına nail olmaq üçün qüsurların qarışısını tez bir zamanda alaraq aradan qaldırmaq üçün aşağıda göstərilən istiqamətləri müəyyənləşdirmək lazımdır.

1.Məktəbə yeni gələn şagird və onun valideynləri ilə tanış olmaq, şagirdə aid bütün sənədləri yoxlayaraq tərbiyəsindəki problemləri aşkarlamaq.

2.Çətin şagirdin sinifdə digərləri ilə yaxşı ünsiyyət qurmasına köməklik göstərərək sinif rəhbəri və sinifdə dərs tədrris edən digər müəllimlərlə şagirdin davranışında mövcud olan problemlərin aradan qaldırılmasına dair plan hazırlamaq.

3.Davranış və şəxsiyyətində problemlər olan uşaqları dərindən diqqətlə öyrənərək peşə etikası qaydalarına riayət edərək şagird yoxlamasının həqiqi məksədini bildirməmək.

Çətin uşaqlarla, xüsusilə yeniyetmələrlə işləmək məktəb psixoloqunun əsas vəzifələrindən biridir. Məktəb psixoloqu məsələyə xüsusi diqqət yetirməli,işini dəqiq planlaşdırmalı və həyata keçirməyə çalışmalıdır. Çətin uşaqların aşkar çıxarılması və onlarla səmərəli iş aparılmasında məktəb psixoloqunun istifadə etdiyi metodlardan biri də psixodiaqnostik işlərdir.Mütəxəssislərin fikirincə, bu işin əsas faydası ondan ibarətdir ki, məktəb psixoloqunun vasitəsilə uşaqların əqli və şəxsi imkanları müəyyən edilir. Bu baxımdan çətin uşaqların davranış problemlərinin psixoloji səbəblərini tapmaq və onları aradan qaldırmaq üçün psixoloji diaqnostika əsas rol oynayır.

Məktəb psixoloqu “çətin” uşaqlarla bağlı aşağıda göstərilən psixoloji yoxlama işlərini apara bilər.

-Şagirdlərin nizam-intizam problemlərinin səbəblərini psixoloji üsullarla müəyyən etmək.
-Şagirdlərin bir-biri ilə münasibətlərində problemli səbəbləri psixoloji üsullarla araşdırmaq.
-Şagirdlərin müəllimlə münasibətlərində yaranan problemlərin səbəblərini psixoloji üsullarla araşdırmaq.
-Şagirdlərin iddialı və özünü göstərmək səviyyəsini psixoloji üsullarla müəyyən etmək.
-Şagirdlərin xarakterindəki diqqət çəkən xüsusiyyətləri (aksentuasiya) psixoloji üsullarla araşdırmaq.

Yeniyetməlik dövrünə keçid zamanı şagirdlərin davranışıa və psixikasına təsirini psixoloji üsullarla yoxlamaq.

Bu cür psixoloji yoxlamaları aparmaq məktəb psixoloqundan ciddi bilik və hazırlıq tələb edir. Qeyd edilən cəhətlərin hər birini müəyyənləşdirmək üçün psixoloq diaqnostik metodları, testləri düzgün seçnəyi və onların tətbiqinə verilən tələbləri nəzərə almağı bacarmalıdır. Təcrübə göstərir ki, məktəb psixoloqlarının “çətin” uşaqlarla apardığı işdə davranış problemlərini nizamlamaq üçün psixokorreksiya (yəni psixoloq tərəfindən xüsusi metod və məşğələlər vasitəsilə davranış pozuntularının, emosional çətinliklərin və ya inkişaf xüsusiyyətlərinin normaya salınması prosesi) metodu xüsusi yer tutur. Məktəb psixoloqu çətin uşaqlarla qarşılaşdıqda həmin uşaqların davranışlarındakı problemləri aradan qaldırmalı olur. Bunun üçün psixoloq apardığı müşahidələr və diaqnostik işlər əsasında “çətin” uşaqların şəxsiyyətindəki qüsurların korreksiya, proqramını hazırlamalı və həmin proqramı uyğun sistemi iş aparmalıdır.

Amerikalı psixoloqlar deyirlər ki, uşağa öncə pis vərdişlərdən qorunmağı öyrətmək lazımdır. Bunun üçün uşağı özünü yaxşı tərəfə dəyişməyə təşviq etmək, yəni ətrafdakı təsirlərdən asanlıqla təsirlənməməsini təmin etmək vacibdir (Turaxonova, 1987).

Əksər alimlərin fikrincə, uşağın tərbiyəsindəki çətinlikləri onun psixi inkişafını müəyyən səviyyəyə çatdırmaqla aradan qaldırmaq olar. Ümumiyyətlə, insanın psixi inkişafında və şəxsi keyfiyyətlərinin formalaşmasında əsas rol xarici mühit və tərbiyəyə aiddir. Bundan başqa, uşaqlara toplanmış təcrübənin ötürülməsi də onların şəxsiyyətinin formalaşmasına güclü təsir edən amildir.

Nəticə olaraq, uşağın pis vərdişlərinin qarşısını almaq və onları aradan qaldırmaq üçün xüsusi diqqət yetirmək lazımdır:

-Birincisi, hər yeniyetmənin psixi inkişafının yaş xüsusiyyətlərini müəyyən etmək;
-İkincisi, uşağın tərbiyəsində baş vermiş dəyişiklikləri öyrənmək;

-Üçüncüsü, çətin tərbiyə olunan uşağın psixi inkişafını normallaşdırmağa yönəlmiş xüsusi tədbirlər hazırlamaq.

Bunlardan çıxış edərək tövsiyə olunur:

-Müəllimlərin, valideynlərin və ictimaiyyətin məktəb ərazisində və küçədə nəzarətini gücləndirmək;
-Uşağa boş vaxtını səmərəli istifadə etməyi öyrətmək və bunun necə həyata keçirildiyini izləmək.
-Onu maraq və bacarıqlarını nəzərə alaraq müxtəlif dərnəklərə cəlb etmək;
-Fəallığını artırmaq, məktəbdə, axşam tədbirlərində və həmyaşıdları ilə birlikdə keçirilən müxtəlif fəaliyyətlərdə iştirakına uyğun tapşırıqlar vermək;
-Onu müxtəlif ictimai faydalı işlərə cəlb etmək;
-Ona münasibətdə müxtəlif təşviq üsullarından istifadə etmək.

Ədəbiyyat:

1. Həmzəyev, M. Ə. (1991). Pedaqoji psixologiya. Bakı.
2. Sadikov, B. (2003). Çətin tərbiyə olunan yeniyetmələr haqqında materiallar. Termiz.
3. Turaxonova, R. (1987). Çətin tərbiyə olunan uşaqların psixologiyası və onları öyrətmək. T.: Ukituvchi.
4. Şoumarov, G. B., və başqaları. (2002). Analar üçün psixoloqun məsləhətləri. T.

RƏQƏMSAL MÜHİTDƏ FƏAL TƏLİM: İNKLÜZİV YANAŞMALAR VƏ SOSİAL-EMOSİONAL İNKİŞAF

Şəlalə İltizam qızı Seyidova
psixologiya üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Respublikası
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
ORCİD ID: https://orcid.org/0000-0002-8191-8352
seyidova.s.h.h.4@mail.ru

Açar sözlər: rəqəmsal təhsil, fəal təlim, inklüziv təhsil, sosial-emosional inkişaf, fərdiləşdirilmiş öyrənmə, əməkdaşlığa əsaslanan öyrənmə, rəqəmsal texnologiyalar.

Xülasə. Müasir təhsil paradiqmasında rəqəmsal texnologiyaların sürətli inkişafı təlim prosesinin məzmununda, strukturunda və metodoloji əsaslarında mühüm dəyişikliklərə səbəb olmuşdur. Bu kontekstdə inklüziv təhsilin təmin olunması, təlimin diferensiallaşdırılması və şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması pedaqoji fəaliyyətin prioritet istiqamətlərindən biri kimi aktuallaşmışdır. Rəqəmsal mühitdə tətbiq olunan fəal təlim yanaşmaları şagirdyönümlü təhsilin reallaşdırılmasına, onların idrak fəallığının artırılmasına və sosial-emosional inkişafının dəstəklənməsinə geniş imkanlar yaradır.

Tədqiqat işində rəqəmsal təhsil mühitində tətbiq olunan fəal və inklüziv təlim strategiyalarının nəzəri və metodoloji əsasları sistemli şəkildə təhlil edilmiş, bu yanaşmaların şagirdlərin sosial-emosional kompetensiyalarına təsir mexanizmləri elmi-pedaqoji baxımdan əsaslandırılmışdır. Məqalədə konstruktivist yanaşma çərçivəsində əməkdaşlığa əsaslanan öyrənmə, problem əsaslı təlim, interaktiv rəqəmsal alətlərdən istifadə və fərdiləşdirilmiş təlim mühitlərinin təşkili kimi istiqamətlərin didaktik potensialı xüsusi vurğulanmışdır.

Aparılan təhlillər göstərir ki, rəqəmsal texnologiyaların məqsədyönlü və sistemli inteqrasiyası şagirdlərdə empatiya, kommunikativ və kooperativ bacarıqlar, emosional özünütənzimləmə və sosial məsuliyyət kimi mühüm sosial-emosional keyfiyyətlərin formalaşmasına əhəmiyyətli təsir göstərir. Eyni zamanda inklüziv rəqəmsal mühit müxtəlif öyrənmə ehtiyaclarına malik şagirdlərin təlim prosesinə fəal və bərabər şəkildə cəlb olunmasına, onların fərdi potensialının üzə çıxarılmasına şərait yaradır.

Nəticə etibarilə, rəqəmsal mühitdə fəal və inklüziv təlim yanaşmalarının sistemli tətbiqi yalnız təhsilin keyfiyyətinin yüksəldilməsinə deyil, həm də şagirdlərin sosial-emosional rifahının təmin olunmasına kompleks şəkildə xidmət edir. Bu yanaşmaların effektivliyi, ilk növbədə, müəllimin pedaqoji, psixoloji və rəqəmsal kompetensiyalarının səviyyəsindən birbaşa asılıdır. Belə ki, müəllim rəqəmsal alətlərdən məqsədyönlü istifadə etməyi, inklüziv sinif mühitini təşkil etməyi və fərdiləşdirilmiş təlim strategiyalarını tətbiq etməyi bacarmalıdır. Eyni zamanda, o, şagirdlərdə empatiya, əməkdaşlıq, effektiv ünsiyyət, tənqidi və yaradıcı düşünmə, eləcə də emosional özünütənzimləmə kimi sosial-emosional bacarıqların formalaşdırılmasına yönəlmiş fəaliyyətləri planlaşdırmalı və həyata keçirməlidir.

Keywords: digital education, active learning, inclusive education, social-emotional development, personalized learning, collaborative learning, digital technologies.

Summary. In the modern educational paradigm, the rapid advancement of digital technologies has led to significant transformations in the content, structure, and methodological foundations of the teaching-learning process. Within this context, ensuring inclusive education, differentiating instruction, and addressing the diverse individual characteristics of learners have become central priorities of contemporary pedagogy. Active learning approaches implemented in digital environments play a crucial role in promoting learner-centered education, increasing students’ cognitive engagement, and supporting their social-emotional development.

This study aims to examine the theoretical and methodological foundations of active and inclusive teaching strategies in digital learning environments and to analyze their impact on students’ social-emotional competencies. The research is grounded in constructivist pedagogy and emphasizes the didactic potential of collaborative learning, problem-based learning, interactive digital tools, and the design of personalized learning environments that respond to diverse learner needs.

The findings of the study indicate that the purposeful and systematic integration of digital technologies contributes significantly to the development of key social-emotional skills, including empathy, communication, cooperation, emotional regulation, and a sense of social responsibility. Furthermore, inclusive digital learning environments facilitate the active participation of students with varying learning abilities and needs, ensuring equal access to educational opportunities and supporting the realization of their individual potential.

In conclusion, the systematic implementation of active and inclusive teaching approaches in digital learning environments serves not only to enhance the quality of education but also to ensure students’ social-emotional well-being in a comprehensive manner. The effectiveness of these approaches primarily depends on the level of teachers’ pedagogical, psychological, and digital competencies. Accordingly, teachers should be able to purposefully use digital tools, organize inclusive classroom environments, and apply differentiated and personalized instructional strategies. At the same time, they should design and implement learning activities aimed at

developing students’ social-emotional skills such as empathy, collaboration, effective communication, critical and creative thinking, and emotional self-regulation.

Anahtar kelimeler: dijital eğitim, aktif öğrenme, kapsayıcı eğitim, sosyal-duygusal gelişim, bireyselleştirilmiş öğrenme, işbirlikli öğrenme, dijital teknolojiler.

Özet. Modern eğitim ortamında dijital teknolojilerin hızlı gelişimi, öğretim sürecinin içeriğini, organizasyonunu ve yöntemlerini önemli ölçüde etkilemektedir. Bu bağlamda kapsayıcı eğitimin sağlanması ve öğrencilerin bireysel farklılıklarının dikkate alınması pedagojik uygulamaların temel önceliklerinden biri haline gelmiştir. Aktif öğrenme yaklaşımları, öğrencilerin öğrenme sürecine aktif katılımını sağlamakla birlikte onların sosyal-duygusal becerilerinin gelişimine de katkıda bulunmaktadır.

Bu çalışmada, dijital öğrenme ortamlarında uygulanan kapsayıcı ve aktif öğretim yaklaşımlarının öğrencilerin sosyal-duygusal gelişimine etkisi teorik ve pratik açıdan incelenmiştir. Elde edilen bulgular, dijital teknolojilerin bilinçli kullanımının öğrenciler arasında iş birliği, empati, iletişim becerileri ve sorumluluk duygusunun gelişmesine katkı sağladığını göstermektedir. Ayrıca, bireyselleştirilmiş öğrenme fırsatları farklı öğrenme ihtiyaçlarına sahip öğrencilerin eğitim sürecine eşit katılımını mümkün kılmaktadır.

Dijital araçların aktif ve kapsayıcı öğrenme ortamlarına entegrasyonu öğrencilerin motivasyonunu artırmakta ve hem akademik hem de sosyal-duygusal gelişimlerini desteklemektedir. Ancak öğrencilerin bütüncül gelişimini sağlamak için geleneksel ve dijital öğretim yöntemleri arasında denge kurulması önemlidir.

Sonuç olarak, dijital ortamda aktif ve kapsayıcı öğretim yaklaşımlarının sistemli uygulanması yalnızca eğitimin kalitesini artırmakla kalmayıp, aynı zamanda öğrencilerin sosyal-duygusal iyilik hâlinin bütüncül şekilde desteklenmesine de hizmet etmektedir. Bu yaklaşımların etkililiği, öncelikle öğretmenin pedagojik, psikolojik ve dijital yeterlik düzeyine bağlıdır. Bu doğrultuda öğretmenler, dijital araçları amaçlı bir şekilde kullanabilmeli, kapsayıcı sınıf ortamı oluşturabilmeli ve farklılaştırılmış ve bireyselleştirilmiş öğretim stratejilerini uygulayabilmelidir. Ayrıca öğrencilerde empati, iş birliği, etkili iletişim, eleştirel ve yaratıcı düşünme ile duygusal öz düzenleme gibi sosyal-duygusal becerilerin geliştirilmesine yönelik etkinlikleri planlamalı ve uygulamalıdır.

Dijital ve kapsayıcı öğrenme ortamlarında pedagojik faaliyet yalnızca bilgi aktarımıyla sınırlı olmayıp, öğrencilerin sosyal uyumunu, duygusal dayanıklılığını ve birey olarak gelişimini destekleyen çok boyutlu bir süreç niteliği taşımaktadır.

XXI əsr təhsilində müşahidə olunan yeniliklər təlim prosesini daha geniş və çoxölçülü bir fəaliyyət sahəsinə çevirmişdir. Rəqəmsal texnologiyaların tətbiqi bu dəyişimin əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir və təlimin təşkilində yeni yanaşmaların formalaşmasına şərait yaradır (OECD, 2021; UNESCO, 2020). Bu şəraitdə inklüzivlik prinsipləri təhsilin ayrılmaz hissəsinə çevrilmiş, hər bir şagirdin təlim prosesinə bərabər şəkildə daxil olması əsas məqsəd kimi qəbul edilmişdir (Ainscow, 2020).

Fəal təlim yanaşması şagirdin öyrənmə prosesində daha aktiv rol almasına əsaslanır. Bu modeldə şagird bilikləri hazır şəkildə qəbul etmir, əksinə, onları fəaliyyət və təcrübə vasitəsilə özü formalaşdırır. Bu yanaşma konstruktivist təlim nəzəriyyəsi ilə birbaşa əlaqəlidir (Vygotsky, 1986; Bruner, 1996).

Rəqəmsal vasitələr bu modelin effektivliyini artıraraq daha çevik və interaktiv öyrənmə mühiti yaradır. Müxtəlif elektron resurslar şagirdlərin fərdi sürətinə uyğun öyrənməni mümkün edir

və onların motivasiya səviyyəsini yüksəldir (Mayer, 2009; Selwyn, 2016). Eyni zamanda, rəqəmsal texnologiyaların ibtidai təhsildə tətbiqi uşaqların idrak fəaliyyətini stimullaşdırır və öyrənmə prosesinə psixoloji baxımdan müsbət təsir göstərir (Seyidova, 2023).

İnklüziv təhsil yanaşması hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almağa yönəlmişdir. Bu yanaşma çərçivəsində fərqləndirilmiş təlim strategiyaları şagirdlərin potensial imkanlarının daha dolğun şəkildə üzə çıxmasına imkan verir (Tomlinson, 2014).

Təlim prosesində sosial və emosional bacarıqlar da mühüm yer tutur. Emosional intellekt və sosial davranışlar şagirdlərin həm akademik, həm də şəxsi inkişafında əsas rol oynayır (Goleman, 1995; CASEL, 2013). Rəqəmsal mühitdə həyata keçirilən əməkdaşlıq yönümlü fəaliyyətlər bu bacarıqların inkişafını dəstəkləyir.

Bununla yanaşı, rəqəmsal mühit müəyyən çətinliklər də yaradır. Diqqətin tez yayınması, səthi öyrənmə meyilləri və sosial ünsiyyətin zəifləməsi kimi hallar təlim prosesində balanslı yanaşmanın vacibliyini artırır (Selwyn, 2016).

Azərbaycan təhsil mühitində aparılan müşahidələr göstərir ki, rəqəmsal texnologiyaların məqsədli istifadəsi şagirdlərin motivasiyasını artırır və onların sosial inkişafına müsbət təsir göstərir (Seyidova, 2023).

Nəticə etibarilə, rəqəmsal mühitdə fəal və inklüziv təlimin birgə tətbiqi yalnız texnoloji yenilik deyil, həm də pedaqoji yanaşmanın yenidən formalaşdırılması kimi qiymətləndirilməlidir. Bu proses müəllimin rolunu dəyişdirərək onu daha çox istiqamətləndirici və dəstəkləyici mövqeyə gətirir. Belə yanaşma şagirdlərin həm akademik, həm də sosial-emosional inkişafını gücləndirərək onların gələcək həyat bacarıqlarını formalaşdırır.

Ədəbiyyat:

1. Ainscow, M. (2020). Promoting inclusion and equity in education: Lessons from international experiences. Nordic Journal of Studies in Educational Policy, 6(1), 7–16.

2. Bruner, J. (1996). The culture of education. Harvard University Press.

3. Collaborative for Academic, Social, and Emotional Learning (CASEL). (2013). Effective social and emotional learning programs.

4. Goleman, D. (1995). Emotional intelligence. Bantam Books.

5. Mayer, R. E. (2009). Multimedia learning. Cambridge University Press.

6. OECD. (2021). Digital education outlook 2021. OECD Publishing.

7. Selwyn, N. (2016). Education and technology: Key issues and debates. Bloomsbury.

8. Seyidova, S. (2023). Characteristics of applied computer technologies in primary school. Scientific Perspectives (Series “Psychology”), 5(35).

9. Tomlinson, C. A. (2014). The differentiated classroom: Responding to the needs of all learners. ASCD.

10. UNESCO. (2020). Inclusion and education: All means all.

11. Vygotsky, L. S. (1986). Thought and language. MIT Press.

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN CƏMİYYƏTƏ İNTEQRASİYASI

Zenfira Mirsəfər qızı Əzizova
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
zenfira58@mail.ru
ORCİD ID: https://orcid.org/0000-0001-9607-8934
Gülnarə Tanrıverdi qızı Abbasova
Filologiya üzrə fəlsəfə doktoru
Mingəçevir Dövlət Universiteti
abbasovag821@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0004-4903-6941

Açar sözlər: reabilitasiya, adaptasiya, nitq, emosional, davranış.

Xülasə. Müasir cəmiyyətin inkişaf səviyyəsi onun bütün üzvlərinə, xüsusilə də xüsusi qayğıya ehtiyaci olan uşaqlara göstərilən diqqət və qayğı ilə ölçülür. Bu uşaqların cəmiyyətə inteqrasiyası yalnız sosial məsələ deyil, həm də humanist və hüquqi məsuliyyətdir. inkluziv yanaşma, bərabər imkanlar, sosial dəstək bu prosesin əsas sütunlarını təşkil edir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası dedikdə, onların təhsil, sosial həyat, mədəni fəaliyyətlər və əmək bazarında digər uşaqlarla bərabər iştirak etməsi nəzərdə tutulur. Bu proses onların potensialının inkişafına və özünə inamının artmasına şərait yaradır. Inteqrasiyanın ən mühüm sahələrindən biri təhsildir. İnkluziv təhsil modeli xüsusi qayğıya ehtiyacı olan uşaqların adi məktəblərdə təhsil almasını təmin edir. Bu zaman müəllimlər fərdi yanaşma tətbiq etməli, valideynlər və mütəxəssislərlə əməkdaşlıq etməlidirlər. Qüsurlu uşaqların cəlb edildiyi siniflərdə sağlam uşaqlar və onların valideynləri ilə də psixoloji söhbətlər aparılmalıdır. Sağlam uşaqlar belə söhbətlərdən sonra bir-birinə qarşı daha qayğıkeş, məsuliyyətli olurlar. Onlarda xüsusi qayğıya ehtiyacı olan uşaqların çətin problemlərini başa düşmək səviyyəsi inkişaf edir. Onlar digər insanların ehtiyaclarına qarşı həssas yanaşır, mövcud fərqləri daha yaxşı anlayırlar və öyrənirlər ki, bütün fərdlər kifayət qədər çətin problemlərin öhdəsindən gələrək uğur qazana bilərlər. Uşağın emosional və sosial inkişafına kömək işində müəllimin ən əhəmiyyətli rolu konkret davranış tipini modelləşdirməsindədir. Bu iş fasiləsiz olaraq aparılmalıdır. Digər uşaqlara hörmət edilməsi, onlarla əməkdaşlığın aparılması, kompromislərə gedilməsi və emosiyaların büruzə verilməsi müəllimin sinifdə dostluq kollektivi yaratmasına imkan verən modellərdir. Uşaqlar müəllimin göstərdiyi nümunəyə əməl edəcək və sinifdə yaradılan mühitə uyğunlaşacaqlar.

Keywords: rehabilitation, adaptation, speech, emotional, behavior.

Summary. The level of development of modern society is measured by the attention and care given to all its members, especially children with special needs. The integration of these children into society is not only a social issue but also a humanitarian and legal responsibility. An inclusive approach, equal opportunities, and social support form the cornerstones of this process. The integration of children with special needs into society means their equal participation in education, social life, cultural activities, and the job market alongside other children. This process creates conditions for the development of their potential and the increase of their self-confidence. One of

the most important areas of integration is education. An inclusive education model ensures that children with special needs receive education in regular schools. In this case, teachers should implement an individual approach and cooperate with parents and specialists. In classrooms with children with disabilities, psychological consultations should also be conducted with healthy children and their parents. After these consultations, healthy children become more caring and responsible towards each other. They improve their understanding of the difficult problems faced by children with special needs. Children become more sensitive to the needs of others, become more aware of differences, and learn that all individuals can succeed in overcoming challenging obstacles. The most important role of a teacher in helping a child's emotional and social development is to model specific behaviors. This should be done consistently.

Anahtar kelimeler: rehabilitasyon, uyum, konuşma, duygusal, davranış.

Özet. Modern toplumun gelişim düzeyi, tüm üyelerine, özellikle de özel gereksinimli çocuklara gösterilen ilgi ve özenle ölçülür. Bu çocukların topluma entegrasyonu sadece sosyal bir mesele değil, aynı zamanda insani ve yasal bir sorumluluktur. Kapsayıcı bir yaklaşım, eşit fırsatlar ve sosyal destek bu sürecin temel direklerini oluşturur. Özel gereksinimli çocukların topluma entegrasyonu, diğer çocuklarla birlikte eğitim, sosyal yaşam, kültürel etkinlikler ve iş piyasasına eşit katılımları anlamına gelir. Bu süreç, potansiyellerinin gelişmesi ve özgüvenlerinin artması için koşullar yaratır. Entegrasyonun en önemli alanlarından biri eğitimdir. Kapsayıcı eğitim modeli, özel gereksinimli çocukların normal okullarda eğitim almasını sağlar. Bu durumda, öğretmenler bireysel bir yaklaşım uygulamalı ve ebeveynler ve uzmanlarla işbirliği yapmalıdır. Engelli çocukların bulunduğu sınıflarda, sağlıklı çocuklar ve ebeveynleriyle de psikolojik görüşmeler yapılmalıdır. Bu görüşmelerden sonra, sağlıklı çocuklar birbirlerine karşı daha ilgili ve sorumlu hale gelirler. Özel gereksinimli çocukların zor sorunlarını anlama düzeyi geliştirirler. Çocuklar başkalarının ihtiyaçlarına karşı daha duyarlı hale gelir, farklılıkların daha çok farkına varır ve tüm bireylerin zorlu engelleri aşmada başarılı olabileceğini öğrenirler. Bir çocuğun duygusal ve sosyal gelişimine yardımcı olmada öğretmenin en önemli rolü, belirli davranışları modellemektir. Bu sürekli olarak yapılmalıdır. Diğer çocuklara saygı duymak, onlarla işbirliği yapmak, uzlaşmak ve duyguları ifade etmek, öğretmenin sınıfta dostane bir ekip oluşturmasına olanak tanıyan modellerdir. Çocuklar öğretmenin belirlediği örneği takip edecek ve sınıfta oluşturulan ortama uyum sağlayacaklardır. İyi bir örnek olmak çok önemlidir. Öğretmenin tüm eylemleri açık ve net olmalıdır, böylece çocuklar onlardan hemen öğrenebilirler. Sosyal ve duygusal beceriler sadece günün belirli saatlerinde öğretilmemelidir. Günün her dakikasında öğretilmeli ve pekiştirilmelidir.

Həqiqi demokratik cəmiyyətdə hər bir vətəndaşla ədalətli davranılır və ona tam şəkildə kollektivin həyatının bütün sahələrində iştirak etmək imkanı verilir. Sağlamlığında qüsuru olan şəxslərə cəmiyyətin bir üzvü kimi onun işində iştirak etmək imkanının verilməsi demokratiyanın bir əlamətidir.

Müstəqil Azərbaycan Respublikasında hər bir uşağın təhsil almaq hüququ vardır. Son dövrlərdə ictimaiyyəti səhhətində problemlər olan uşaqlar və onların korreksiya, reabilitasiya, sosial adaptasiya problemləri çox narahat edir.

Azərbaycan Respublikasının Təhsil qanununda deyilir:“İrqindən, milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, yaşından, səhhətindən, sosial maddi vəziyyətindən, fəaliyyət sahəsindən, ictimai mənşəyindən, yaşayış yerindən, dinə münasibətindən, siyasi əqidəsindən, həmçinin üzərində məhkumluğun olmasından asılı olmayaraq vətəndaşların təhsil hüququna təminat verilir.” (Təhsil haqqında Azərbaycan Respublikasının qanunu, 2009)

Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası dedikdə, onların təhsil, sosial həyat, mədəni fəaliyyətlər və əmək bazarında digər uşaqlarla bərabər iştirak etməsi nəzərdə tutulur. Bu proses onların potensialının inkişafına və özünə inamının artmasına şərait yaradır. Məşhur pedaqoq Lev Viqotski qeyd edirdi:"Uşağın inkişafı yalnız onun fərdi xüsusiyyətləri ilə deyil, həm də sosial mühitlə müəyyən olunur." Bu fikir göstərir ki, uşağın inkişafında cəmiyyətin rolu əvəzsizdir.

İnteqrasiyanın ən mühüm sahələrindən biri təhsildir. İnkluziv təhsil modeli xüsusi qayğıya ehtiyacı olan uşaqların adi məktəblərdə təhsil almasını təmin edir. Bu zaman müəllimlər fərdi yanaşma tətbiq etməli, valideynlər və mütəxəssislərlə əməkdaşlıq etməlidirlər.

UNESCO-nun yanaşmasına görə: "İnkluziv təhsil – bütün uşaqların fərqlərindən asılı olmayaraq keyfiyyətli təhsilə çıxışını təmin edən bir sistemdir." (UNESCO, 2009).

Burada "səhhət" sözü diqqəti cəlb edir. Deməli, səhhətində problemləri olan, xüsusi qayğıya ehtiyacı olan, əqli, fiziki geriliyi, nitqi qüsurlu uşaqların da təhsil almaq hüququ vardır. Qüsurlu uşaqlar öz yaşıdları olan sağlam uşaqlar ilə birlikdə təlimə cəlb edildikdə onlara özünü təsdiq etmək imkanı verilir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəlb edildiyi siniflərdə məqsədli uşaq proqramları tətbiq edildikdə, uşaqların ehtiyacları ödənildikdə və onlarla fərdi şəkildə davranıldıqda belə uşaqlar daha yaxşı inkişaf edirlər, qəbul etdikləri qərar üçün məsuliyyət daşıyırlar. Onlara tənqidi şəkildə düşünmək, yaradıcı olmaq, təxəyyüllərini inkişaf etdirmək üçün hər cür şərait yaradılır. Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəlb edildiyi siniflərdə müəllim hər bir uşağın fərdi ehtiyaclarını ödəməyə çalışdığı üçün onlar zaman keçdikcə insanlar arasındakı fərqləri, öz hərəkətlərini düzgün qiymətləndirməyi öyrənirlər.

Oyun bütün uşaqlar üçün əhəmiyyətlidir. Oyun uşağın inkişafını aparan yol hesab edilir. (İnklüziv təhsil: Məktəbəqədər təhsil pilləsi üçün metodik vəsait, 2011).Uşaq oyunun içində olanda, o, özünün optimal inkişaf səviyyəsi ilə funksional baxımından uyğunlaşdığına inanır. Qüsurlu uşaqlar üçün müvafiq sinif otaqlarının konkret oyunları gerçəkləşdirmək üçün nəzərdə tutulan vəsaitlərlə təmin edilməsi son dərəcə əhəmiyyətlidir.

Qüsurlu uşaqların cəlb edildiyi siniflərdə sağlam uşaqlar və onların valideynləri ilə də psixoloji söhbətlər aparılmalıdır. Sağlam uşaqlar belə söhbətlərdən sonra bir-birinə qarşı daha qayğıkeş, məsuliyyətli olurlar. Onlarda xüsusi qayğıya ehtiyacı olan uşaqların çətin problemlərini başa düşmək səviyyəsi inkişaf edir. Onlar digər insanların ehtiyaclarına qarşı həssas yanaşır, mövcud fərqləri daha yaxşı anlayırlar və öyrənirlər ki, bütün fərdlər kifayət qədər çətin problemlərin öhdəsindən gələrək uğur qazana bilərlər.

Qüsurlu uşaqlar isə normal şəkildə inkişaf edən uşaqları müşahidə və təqlid edir, onlarla ünsiyyətdə olurlar. Bu cür sosial əlaqələr uşaqlara dostluğu və müsbət sosial münasibətləri inkişaf etdirməkdə kömək edir və stümulverici sosial şəbəkəni formalaşdırır. Qüsurlu uşaqlar kollektivin iştirakçısı olmaqla müvəffəqiyyətlə fəaliyyət göstərir və özlərinə cəmiyyətin işində iştirak etmək üçün lazım olan vərdişlər qazanmaq imkanı qazanırlar.

Bununla yanaşı, cəmiyyətin stereotiplərdən azad olması da vacibdir. Bəzən belə uşaqlara qarşı mənfi yanaşma onların sosiallaşmasına mane olur. Halbuki, düzgün yanaşma və dəstək göstərildikdə, bu uşaqlar da cəmiyyətin fəal üzvlərinə çevrilə bilirlər. Psixoloq Karl Rojers yazırdı: "Hər bir insan qəbul edildiyi mühitdə inkişaf edir." (Rogers C. R.,1961). Bu baxımdan ailənin rolu böyükdür. Ailə uşağın ilk sosial mühitidir və onun gələcək həyatına birbaşa təsir edir. Valideynlərin maarifləndirilməsi və psixoloji dəstəyi inteqrasiya prosesini sürətləndirir.

UNİCEF tərəfindən ölkəmizdə inkluziv təhsil proqramının reallaşması üzrə bir sıra tövsiyələr verilir. Bu layihənin reallaşması üçün əlil uşaqların valideynləri də psixoloji adaptasiyaya uyğunlaşdırılmalıdırlar. Çünki bir çox valideynlər xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilə cəlb edilməsini istəmir. (İnklüziv təhsil: Məktəbəqədər təhsil pilləsi üçün metodik vəsait, 2011).

Əslində bütün valideynlər öz uşaqları üçün narahatlıq keçirirlər. Qüsurlu uşaqların valideynləri uşaqları üçün daha çox narahat olurlar. Uşaqlarının təhsil proqramında fəal iştirak etmək bu narahatlığı azaldır. Qüsurlu uşağa ilk anlayış onun valideynindən gəlməlidir. Valideyn optimist olduqda xəstə uşaq da ətrafındakıları düzgün qavrayır, heç kimdən çəkinmir və onda kompleks hissi olmur.

Valideynlər, müəllimlər, mütəxəssislər komanda şəklində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilində və cəmiyyətə inteqrasiyasında fəal iştirak etdikdə onlar daha çox uğur əldə edə bilirlər. Ailələr bir-birinə kömək etməyin yeni yollarını axtarıb tapırlar ki, bu da kollektivin daxilən möhkəmləndirilməsinə təsir göstərir.

Ölkəmizdə inkluziv təhsilə dair aparılan araşdırmalar göstərir ki, ilk növbədə inklüziv təhsilə qoşulan məktəb və uşaq bağçalarında işləmək üçün mütəxəssis kadrlar hazırlanmalıdır. Loqoped, psixoloq, defektoloq kimi mütəxəssislər olmasa bu işin öhdəsundən gəlmək olmaz. Inkluziv təhsilə aid metodik və əyani vəsaitlər hazırlanmalı və pedaqoji kollektivlərə çatdırılmalıdır. Psixoloq hazırlığı ilə məşğul olan müəssisələrdə bu iş xeyli gücləndirilməlidir. Hazırda məktəblərimizdə inkluziv təhsilə cavabdehlik daşıyan müəllim köməkçiləri yenidən hazırlanmalı, ixtisasartırma fakültələrində bunlarla müntəzəm iş aparılmalıdır. Valideynlərlə maarifləndirmə kursları təşkil olunmalıdır. (Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili üzrə inkişaf proqramı-2005–2009., 2002).

Qüsurlu uşaqların dərs prosesi normal siniflərdə olduğundan kəskin şəkildə fərqlənir. Anadangəlmə və yaxud sonradan qazanılmış müxtəlif qüsurluq dərəcəsi olan xəstə uşaqların xarakterində, psixikasında və dərketmə qabiliyyətində kəskin fərqlər mövcuddur. Adətən onlar həyatından küskün əhval-ruhiyyədə olub tez-tez bədbinliyə qapılır, çox tərs, inadkar və ərköyün olurlar. Qüsurlu uşaqların birinci sinfə qəbulu zamanı bu və ya digər qüsurluq dərəcəsini müəyyən etmək üçün onlar mütləq ciddi müayinədən keçməlidir. Bu gələcəkdə xəstədə olan mövcud qüsuru tez və effektli şəkildə aradan qaldırmağa imkan verir.

Uşağın emosional və sosial inkişafına kömək işində müəllimin ən əhəmiyyətli rolu konkret davranış tipini modelləşdirməsindədir. Bu iş fasiləsiz olaraq aparılmalıdır. Digər uşaqlara hörmət edilməsi, onlarla əməkdaşlığın aparılması, kompromislərə gedilməsi və emosiyaların büruzə verilməsi müəllimin sinifdə dostluq kollektivi yaratmasına imkan verən modellərdir. Uşaqlar müəllimin göstərdiyi nümunəyə əməl edəcək və sinifdə yaradılan mühitə uyğunlaşacaqlar. Yaxşı nümunənin yaradılması açar rolunu oynayır. Müəllimin bütün hərəkətləri açıq və aydın olmalıdır ki, uşaqlar bundan dərhal nəticə çıxara bilsinlər.

Sosial və emosional vərdişlər yalnız gün ərzində müəyyən müddətlərdə tədris edilməməlidir. Onlar hər bir dəqiqədə öyrədilməli və gücləndirilməlidir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası yalnız onların deyil, bütövlükdə cəmiyyətin inkişafına xidmət edir. Inkluziv cəmiyyət daha ədalətli, humanist və davamlı olur. Bu istiqamətdə dövlət, ailə, məktəb və cəmiyyət birlikdə fəaliyyət göstərməlidir. Unutmaq olmaz ki, hər bir uşaq cəmiyyətin dəyərli üzvüdür və onun inkişafı ümumi rifahın bir hissəsidir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2018). İnklüziv təhsil üzrə metodik vəsaitlər.

2. Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilinin təşkili üzrə inkişaf proqramı-2005–2009. (2002).

3. İnklüziv təhsil: Məktəbəqədər təhsil pilləsi üçün metodik vəsait. (2011). Bakı.

4. Rogers, C. R. (1961). On becoming a person: A therapist’s view of psychotherapy. Houghton Mifflin.

5. Təhsil haqqında Azərbaycan Respublikasının qanunu (2009, 11 sentyabr). (Maddə 5.2: Təhsil hüququna dövlət təminatı). Azərbaycan müəllimi qəzeti.

6. UNESCO. (2009). Policy guidelines on inclusive education. UNESCO.

7. Vıqotski, L. S. (1980). Uşağın psixoloji inkişafı haqqında əsərlər.

TƏHSİL MÜHİTİNDƏ İNKLÜZİVLİYİN TƏMİN OLUNMASINDA SOSİAL VƏ PEDAQOJİ FAKTORLARIN ROLU

Ayşən Fəxrəddin qızı İsmayılova
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
ismayilzade_omer@mail.ru
ORCİD ID: https://orcid.org/0000-0002-9815-0757
Sahibə Hüseyn qızı Qulizadə
Bakalavriat
Mingəçevir Dövlət Universiteti
sahibazade.95@gmail.com
ORCİD ID: 0009-0001-1998-5976

Açar sözlər: inklüziv təhsil; təhsil mühiti; sosial faktorlar; pedaqoji yanaşmalar; bərabər təhsil imkanları; sosial inteqrasiya; diferensial təlim.

Xülasə. Bu məqalədə təhsil mühitində inklüzivliyin təmin olunmasında sosial və pedaqoji faktorların rolu elmi-nəzəri və praktik aspektlərdən təhlil edilir. Müasir təhsil sistemində inklüziv təhsil konsepsiyası bütün şagirdlərin fərdi xüsusiyyətlərindən, sağlamlıq vəziyyətindən və sosial statusundan asılı olmayaraq bərabər təhsil imkanlarına çıxışını təmin etməyə yönəlmiş mühüm pedaqoji yanaşma kimi dəyərləndirilir. İnklüziv təhsil mühitinin formalaşdırılması yalnız akademik nailiyyətlərin artırılması ilə məhdudlaşmır, eyni zamanda şagirdlərin sosial inteqrasiyasının gücləndirilməsinə, tolerantlıq və qarşılıqlı hörmət dəyərlərinin inkişafına xidmət edir.

Tədqiqat çərçivəsində inklüziv təhsil mühitinin effektiv şəkildə təşkilinə təsir göstərən əsas sosial və pedaqoji amillər müəyyənləşdirilmişdir. Sosial faktorlar kontekstində ailə dəstəyi, cəmiyyətin inklüziv təhsilə münasibəti, sosial bərabərlik prinsiplərinin təşviqi və məktəb kollektivində formalaşan sosial-psixoloji iqlim xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, pedaqoji faktorlar – müəllimlərin inklüziv təhsil üzrə peşəkar hazırlıq səviyyəsi, diferensial və fərdiləşdirilmiş təlim strategiyalarının tətbiqi, inklüziv pedaqoji metodların istifadəsi və şagirdyönümlü tədris yanaşmalarının həyata keçirilməsi inklüziv mühitin formalaşmasına mühüm töhfə verir.

Araşdırma nəticələri göstərir ki, sosial və pedaqoji faktorların qarşılıqlı və sistemli təsiri inklüziv təhsil mühitinin səmərəli şəkildə təşkil olunmasının əsas şərtlərindən biridir. Nəticə olaraq

qeyd olunur ki, inklüziv təhsilin davamlı inkişafı üçün pedaqoji innovasiyaların tətbiqi, müəllimlərin peşəkar inkişafının dəstəklənməsi və məktəb–ailə–cəmiyyət əməkdaşlığının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Keywords: inclusive education; educational environment; social factors; pedagogical approaches; equal educational opportunities; social integration; differentiated instruction.

Summary. This article examines the role of social and pedagogical factors in ensuring inclusivity within the educational environment from both theoretical and practical perspectives. In contemporary education systems, the concept of inclusive education is regarded as a significant pedagogical approach aimed at guaranteeing equal access to education for all students regardless of their individual characteristics, health conditions, or social status. The development of an inclusive educational environment not only enhances academic achievement but also promotes social integration, tolerance, and mutual respect among students.

Within the framework of the study, the key social and pedagogical determinants influencing the effective implementation of inclusive education were identified and analyzed. From a social perspective, family support, societal attitudes toward inclusive education, the promotion of social equality, and the socio-psychological climate within the school community play a crucial role in facilitating students’ participation in the educational process. At the same time, pedagogical factors such as teachers’ professional competence in inclusive education, the application of differentiated and individualized instruction, the use of inclusive pedagogical methods, and student-centered teaching strategies significantly contribute to the establishment of an inclusive learning environment.

The findings of the study indicate that the interaction between social and pedagogical factors constitutes a fundamental condition for the successful implementation of inclusive education practices. The article concludes that the sustainable development of inclusive education requires the integration of pedagogical innovations, continuous professional development of teachers, and strengthened collaboration among schools, families, and the wider community.

Anahtar kelimeler: kapsayıcı eğitim; eğitim ortamı; sosyal faktörler; pedagojik yaklaşımlar; eşit eğitim fırsatları; sosyal bütünleşme; farklılaştırılmış öğretim.

Özet. Bu çalışmada eğitim ortamında kapsayıcılığın sağlanmasında sosyal ve pedagojik faktörlerin rolü kuramsal ve uygulamalı boyutlarıyla ele alınmaktadır. Günümüz eğitim sistemlerinde kapsayıcı eğitim yaklaşımı, öğrencilerin bireysel özellikleri, sağlık durumları ve sosyal farklılıkları gözetilmeksizin eşit eğitim fırsatlarına erişimini sağlamayı amaçlayan önemli bir eğitim paradigması olarak değerlendirilmektedir. Kapsayıcı eğitim ortamının oluşturulması yalnızca akademik başarıyı artırmakla sınırlı kalmamakta, aynı zamanda öğrencilerin sosyal bütünleşmesini güçlendirmekte ve eğitim ortamında hoşgörü ile karşılıklı saygı kültürünün gelişmesine katkı sağlamaktadır.

Araştırma kapsamında kapsayıcı eğitim ortamının etkili bir şekilde oluşturulmasına katkı sağlayan temel sosyal ve pedagojik faktörler incelenmiştir. Sosyal faktörler açısından aile desteği, toplumun kapsayıcı eğitime yönelik tutumu, sosyal eşitlik ilkelerinin teşvik edilmesi ve okul ortamındaki sosyo-psikolojik iklimin niteliği önemli rol oynamaktadır. Bununla birlikte pedagojik faktörler, özellikle öğretmenlerin kapsayıcı eğitim konusundaki mesleki yeterlilikleri, farklılaştırılmış ve bireyselleştirilmiş öğretim yöntemlerinin uygulanması, kapsayıcı pedagojik stratejilerin kullanılması ve öğrenci merkezli öğretim yaklaşımlarının benimsenmesi kapsayıcı bir öğrenme ortamının oluşturulmasına önemli katkılar sağlamaktadır.

Sonuç olarak kapsayıcı eğitimin etkili bir şekilde uygulanabilmesi için sosyal ve pedagojik faktörlerin bütüncül bir yaklaşımla ele alınması gerektiği vurgulanmaktadır. Ayrıca öğretmenlerin mesleki gelişiminin desteklenmesi ve okul-aile-toplum iş birliğinin güçlendirilmesi kapsayıcı eğitimin sürdürülebilirliği açısından büyük önem taşımaktadır.

Müasir təhsil sisteminin əsas prioritetlərindən biri bütün şagirdlər üçün bərabər və əlçatan təhsil imkanlarının yaradılmasıdır. Bu baxımdan inklüziv təhsil konsepsiyası qlobal səviyyədə geniş yayılmış və təhsil siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir. (UNESCO, 2009) İnklüziv təhsil fərqli sosial, fiziki və psixoloji xüsusiyyətlərə malik olan uşaqların ümumi təhsil mühitində birlikdə təhsil almasını və onların sosial inteqrasiyasını təmin etməyə yönəlmiş pedaqoji yanaşmadır. (A. Məmmədov, 2019) Bu yanaşma yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqların deyil, bütün şagirdlərin bərabər hüquqlar əsasında təhsil prosesində iştirakını nəzərdə tutur.

İnklüziv təhsil mühitinin formalaşdırılması yalnız təhsil siyasətinin tətbiqi ilə məhdudlaşmır; bu proses sosial və pedaqoji faktorların qarşılıqlı təsiri nəticəsində reallaşır. Məktəb mühitində inklüzivliyin təmin olunması üçün sosial münasibətlər sistemi, məktəbin sosial-psixoloji iqlimi, müəllimlərin peşəkar hazırlıq səviyyəsi və tətbiq olunan pedaqoji strategiyalar xüsusi əhəmiyyət kəsb edir. Buna görə də inklüziv təhsil mühitinin yaradılması kompleks yanaşma tələb edən çoxşaxəli bir prosesdir.

İnklüziv təhsilin mahiyyəti və əhəmiyyəti

İnklüziv təhsil hər bir şagirdin fərdi xüsusiyyətlərini və ehtiyaclarını nəzərə alan humanist və demokratik təhsil modelidir. Bu modelin əsas məqsədi təhsil mühitində ayrı-seçkiliyin qarşısını almaq, sosial bərabərliyi təmin etmək və bütün şagirdlərin təhsil prosesində aktiv iştirakına şərait yaratmaqdır. (S. Aydın, 2018) İnklüziv təhsil mühitində şagirdlər yalnız akademik biliklər əldə etmir, eyni zamanda sosial bacarıqlarını inkişaf etdirir, tolerantlıq və qarşılıqlı hörmət kimi dəyərləri mənimsəyirlər.

Araşdırmalar göstərir ki, inklüziv təhsil mühiti şagirdlərin sosial adaptasiyasını gücləndirir, onların özünəinamının formalaşmasına müsbət təsir göstərir və kollektiv fəaliyyət bacarıqlarını inkişaf etdirir. Bundan əlavə, inklüziv yanaşma təhsil sistemində sosial ədalətin və bərabər imkanların təmin edilməsinə xidmət edir.

İnklüzivliyin təmin olunmasında sosial faktorların rolu

İnklüziv təhsil mühitinin formalaşmasında sosial faktorlar mühüm rol oynayır. Bu faktorlar arasında ailə mühiti, cəmiyyətin inklüziv təhsilə münasibəti, sosial dəstək mexanizmləri və məktəb kollektivində formalaşan sosial-psixoloji iqlim xüsusi əhəmiyyət daşıyır.

Ailə uşağın sosial inkişafında əsas sosial institutlardan biri hesab olunur. Valideynlərin inklüziv təhsilə müsbət münasibəti və məktəblə əməkdaşlığı uşağın təhsil mühitinə uyğunlaşmasını asanlaşdırır. Eyni zamanda cəmiyyətin inklüziv təhsilə münasibəti də mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətdə tolerantlıq və sosial bərabərlik prinsiplərinin təşviqi inklüziv təhsilin uğurla həyata keçirilməsinə şərait yaradır. (R. Hacıyev & T. Quliyev, 2017)

Məktəb daxilində formalaşan sosial-psixoloji iqlim də inklüziv mühitin effektivliyinə birbaşa təsir göstərir. Şagirdlər arasında qarşılıqlı hörmət, əməkdaşlıq və empatiya münasibətlərinin inkişafı inklüziv təhsil mühitinin əsas komponentlərindən biridir.

İnklüziv təhsil mühitində pedaqoji faktorların əhəmiyyəti

İnklüziv təhsil mühitinin effektiv təşkilində pedaqoji faktorlar mühüm rol oynayır. Müəllimlərin peşəkar hazırlıq səviyyəsi, inklüziv təhsil sahəsində bilik və bacarıqları, eləcə də istifadə etdikləri pedaqoji metodlar təlim prosesinin keyfiyyətinə birbaşa təsir göstərir.

Müasir pedaqogikada diferensial və fərdiləşdirilmiş təlim yanaşmaları inklüziv təhsilin əsas metodoloji prinsiplərindən biri hesab olunur. Bu yanaşma hər bir şagirdin fərdi xüsusiyyətlərini və təlim ehtiyaclarını nəzərə alaraq tədris prosesinin təşkilini nəzərdə tutur. Bundan əlavə, şagirdyönümlü təlim metodlarının tətbiqi şagirdlərin aktiv iştirakını təmin edir və onların potensial imkanlarının inkişafına şərait yaradır.

Müəllimlərin inklüziv təhsil sahəsində peşəkar inkişafı da xüsusi əhəmiyyət kəsb edir. Müxtəlif təlim proqramları, metodik seminarlar və pedaqoji treninqlər müəllimlərin inklüziv təhsil sahəsində bilik və bacarıqlarının artırılmasına kömək edir.

Müasir təhsil sistemində inklüzivlik prinsipi bütün şagirdlər üçün bərabər təhsil imkanlarının yaradılmasını və onların təhsil prosesində fəal iştirakını təmin etməyə yönəlmiş mühüm yanaşmalardan biridir. İnklüziv təhsil yalnız xüsusi təhsil ehtiyacları olan uşaqların ümumi təhsil mühitinə inteqrasiyası ilə məhdudlaşmır; o, eyni zamanda bütün şagirdlərin fərdi xüsusiyyətlərinin, sosial və psixoloji ehtiyaclarının nəzərə alınmasını nəzərdə tutur. Bu baxımdan inklüziv təhsil mühitinin formalaşdırılmasında sosial və pedaqoji faktorlar mühüm rol oynayır.

İnklüzivliyin təmin olunmasında sosial faktorlar ilk növbədə ailə mühiti, cəmiyyətin inklüziv təhsilə münasibəti və məktəb daxilində formalaşan sosial-psixoloji iqlimlə bağlıdır. Ailə uşağın sosial inkişafında əsas institutlardan biri hesab olunur və valideynlərin təhsil prosesində fəal iştirakı uşağın məktəb mühitinə uyğunlaşmasına müsbət təsir göstərir. Valideyn–məktəb əməkdaşlığı inklüziv təhsil mühitinin formalaşdırılmasına və şagirdlərin sosial inteqrasiyasına mühüm töhfə verir. Bundan əlavə, cəmiyyətdə tolerantlıq, bərabərlik və qarşılıqlı hörmət kimi dəyərlərin təşviqi inklüziv təhsilin uğurlu tətbiqi üçün əlverişli sosial mühit yaradır.

Pedaqoji faktorlar da inklüziv təhsil mühitinin effektiv şəkildə təşkilində mühüm əhəmiyyət kəsb edir. Müəllimlərin peşəkar hazırlıq səviyyəsi, inklüziv təhsil sahəsində bilik və bacarıqları, həmçinin istifadə olunan pedaqoji metod və strategiyalar tədris prosesinin keyfiyyətinə birbaşa təsir göstərir. (L. Florian & K. Black-Hawkins, 2011) Diferensial və fərdiləşdirilmiş təlim metodlarının tətbiqi hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almağa və onların təhsil prosesində bərabər iştirakını təmin etməyə imkan verir. Bununla yanaşı, şagirdyönümlü təlim yanaşmaları və inklüziv pedaqoji strategiyalar şagirdlərin aktivliyini artırır və onların sosial bacarıqlarının inkişafına şərait yaradır.

Beləliklə, inklüziv təhsil mühitinin formalaşdırılması sosial və pedaqoji faktorların qarşılıqlı təsiri nəticəsində mümkün olur. Ailə, məktəb və cəmiyyət arasında səmərəli əməkdaşlığın qurulması, eləcə də müasir pedaqoji yanaşmaların tətbiqi inklüziv təhsilin davamlı inkişafına və bütün şagirdlər üçün bərabər təhsil imkanlarının təmin olunmasına mühüm töhfə verir.

Beləliklə, təhsil mühitində inklüzivliyin təmin olunması sosial və pedaqoji faktorların qarşılıqlı təsiri nəticəsində mümkün olur. Ailə, cəmiyyət və məktəb arasında formalaşan əməkdaşlıq münasibətləri inklüziv təhsil mühitinin yaradılmasına mühüm töhfə verir. Bununla yanaşı, müəllimlərin peşəkar hazırlıq səviyyəsi, müasir pedaqoji metodların tətbiqi və şagirdyönümlü təlim strategiyalarının həyata keçirilməsi inklüziv təhsil modelinin səmərəli şəkildə tətbiq olunmasına şərait yaradır.

Nəticə etibarilə qeyd etmək olar ki, inklüziv təhsilin uğurlu inkişafı üçün sosial və pedaqoji faktorların kompleks şəkildə nəzərə alınması zəruridir. Bu yanaşma bütün şagirdlərin bərabər təhsil imkanlarına malik olmasına, onların sosial inteqrasiyasına və şəxsiyyət kimi inkişafına mühüm töhfə verir.

Ədəbiyyat:

1. Hacıyev, R., & Quliyev, T. (2017). İnklüziv təhsil mühitində sosial və pedaqoji amillərin rolu. Azərbaycan Təhsil Jurnalı, 3(1), 45–58.

2. Məmmədov, A. (2019). İnklüziv təhsil və sosial inteqrasiya problemləri. Təhsil və Psixologiya Araşdırmaları Jurnalı, 5(2), 88–102.

3. Əliyeva, N. (2020). Məktəb mühitində inklüzivliyin təmin olunması: pedaqoji yanaşmalar və təcrübə. Azərbaycan Pedaqogika Jurnalı, 12(4), 34–50.

4. UNESCO. (2009). Təhsildə inklüzivlik üzrə siyasət təlimatları. UNESCO.

5. Aydın, S. (2018). İnklüziv təhsil mühitində sosial və pedaqoji faktorlar. Bakı Təhsil Araşdırmaları Jurnalı, 6(3), 15–29.

6. Florian, L., & Black-Hawkins, K. (2011). İnklüziv pedaqogika: Müasir yanaşmaların təhlili. Təhsil Nəşriyyatı.

7. Loreman, T., Deppeler, J., & Harvey, D. (2010). Dərslikdə inklüziv təhsil: Müxtəlifliyi dəstəkləyən metodlar. Təhsil Nəşriyyatı.

RƏQƏMSAL TEXNOLOGİYALARIN İNKLÜZİV TƏHSİLDƏ ROLU

Aynurə Siyabxan qızı Bağırova
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
aynura.baghirova@sdu.edu.az
ORCİD ID: 0000-0002-7975-4475

Açar sözlər: rəqəmsal texnologiya, inklüziv təhsil, diferensial yanaşma, kompetensiyalar, emosional vəziyyət.

Xülasə. Müasir dövrdə təhsil sisteminin inkişafı rəqəmsal texnologiyaların tətbiqi ilə sıx bağlıdır və xüsusilə inklüziv təhsil sahəsində yeni imkanlar yaradır. İnklüziv təhsil hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə alaraq bərabər təhsil imkanlarının təmin olunmasını hədəfləyir. Rəqəmsal texnologiyalar bu prosesdə həm tədris vasitəsi, həm də dəstəkləyici mexanizm kimi çıxış edir. Onlar fərdi yanaşmanın təmin olunmasına, öyrənmə tempinin uyğunlaşdırılmasına və alternativ təqdimat formalarının yaradılmasına imkan verir. Adaptiv təlim sistemləri və süni intellekt əsaslı proqramlar şagirdlərin fərdi ehtiyaclarını analiz edərək öyrənmə prosesini optimallaşdırır və fərdiləşdirilmiş öyrənmə mühiti yaradır.

Eyni zamanda rəqəmsal texnologiyalar fiziki və sensor məhdudiyyətləri olan şagirdlər üçün təhsilə çıxışı asanlaşdırır və multimodal öyrənmə imkanları təqdim edir. Vizual, audial və kinestetik materiallar şagirdlərin daha effektiv öyrənməsinə şərait yaradır. Onlayn platformalar və interaktiv alətlər şagirdlərin sosial inteqrasiyasını gücləndirir, qrup layihələri və qarşılıqlı öyrənmə prosesini dəstəkləyir.

Rəqəmsal texnologiyaların effektiv istifadəsi müəllimin peşəkar hazırlığından asılıdır. Müəllim texnoloji, pedaqoji və məzmun biliklərini inteqrasiya edərək inklüziv mühit yaratmalıdır. Bununla yanaşı, texniki resursların çatışmazlığı, müəllimlərin rəqəmsal bacarıqlarının aşağı səviyyədə olması və rəqəmsal bərabərsizlik kimi problemlər mövcuddur. Gələcəkdə süni intellekt əsaslı fərdi təlim sistemləri, virtual və artırılmış reallıq texnologiyaları və emosional vəziyyəti

analiz edən sistemlər inklüziv təhsilin keyfiyyətini daha da yüksəldəcək. Nəticədə, rəqəmsal texnologiyalar inklüziv təhsilin effektivliyini artırır və hər bir şagirdin potensialının reallaşdırılmasına imkan yaradır.

Keywords: digital technologies, inclusive education, differentiated approach, competencies, emotional state.

Summary. In the modern era, the development of the education system is closely linked to the application of digital technologies, which create new opportunities, especially in the field of inclusive education. Inclusive education aims to ensure equal learning opportunities by taking into account each student’s individual characteristics. Digital technologies serve both as instructional tools and supportive mechanisms in this process. They enable personalized learning, adjustment of learning pace, and the creation of alternative presentation formats. Adaptive learning systems and artificial intelligence-based programs analyze students’ individual needs and optimize the learning process, providing a personalized learning environment.

At the same time, digital technologies improve access to education for students with physical or sensory limitations and offer multimodal learning opportunities. Visual, auditory, and kinesthetic materials enhance students’ learning effectiveness. Online platforms and interactive tools strengthen social integration, supporting group projects and collaborative learning processes.

The effective use of digital technologies depends on teachers’ professional preparation. Teachers need to integrate technological, pedagogical, and content knowledge to create an inclusive environment. Nevertheless, challenges such as limited technical resources, insufficient digital skills of teachers, and digital inequality remain. In the future, AI-based personalized learning systems, virtual and augmented reality technologies, and systems that analyze emotional states will further enhance the quality of inclusive education. Consequently, digital technologies increase the effectiveness of inclusive education and enable each student to realize their full potential.

Anahtar kelimeler: dijital teknolojiler, kapsayıcı eğitim, farklılaştırılmış yaklaşım, yetkinlikler, duygusal durum.

Özet. Günümüzde eğitim sisteminin gelişimi, dijital teknolojilerin uygulanmasıyla yakından ilişkilidir ve özellikle kapsayıcı eğitim alanında yeni fırsatlar yaratmaktadır. Kapsayıcı eğitim, her öğrencinin bireysel özelliklerini dikkate alarak eşit öğrenim olanaklarını sağlamayı hedefler. Dijital teknolojiler bu süreçte hem öğretim aracı hem de destekleyici bir mekanizma olarak işlev görür. Bireyselleştirilmiş yaklaşımları, öğrenme hızının ayarlanmasını ve alternatif sunum formatlarının oluşturulmasını mümkün kılar. Uyarlanabilir öğrenme sistemleri ve yapay zekâ tabanlı programlar, öğrencilerin bireysel ihtiyaçlarını analiz ederek öğrenme sürecini optimize eder ve kişiselleştirilmiş bir öğrenme ortamı sunar.

Aynı zamanda, dijital teknolojiler fiziksel veya duyusal sınırlamaları olan öğrencilerin eğitime erişimini kolaylaştırır ve çok modlu öğrenme olanakları sağlar. Görsel, işitsel ve kinestetik materyaller öğrencilerin öğrenme verimliliğini artırır. Çevrimiçi platformlar ve etkileşimli araçlar öğrencilerin sosyal entegrasyonunu güçlendirir ve grup projeleri ile iş birliğine dayalı öğrenme süreçlerini destekler.

Dijital teknolojilerin etkin kullanımı, öğretmenin profesyonel hazırlığına bağlıdır. Öğretmenler, teknolojik, pedagojik ve içerik bilgilerini entegre ederek kapsayıcı bir ortam oluşturmalıdır. Bununla birlikte, teknik kaynak eksikliği, öğretmenlerin düşük dijital becerileri ve dijital eşitsizlik gibi sorunlar mevcuttur. Gelecekte, yapay zekâ tabanlı bireyselleştirilmiş öğrenme sistemleri, sanal ve artırılmış gerçeklik teknolojileri ve öğrencilerin duygusal durumunu analiz eden

sistemler kapsayıcı eğitimin kalitesini daha da artıracaktır. Sonuç olarak, dijital teknolojiler kapsayıcı eğitimin etkinliğini yükseltir ve her öğrencinin potansiyelini gerçekleştirmesine olanak tanır.

Müasir dövrdə təhsil sisteminin inkişafı rəqəmsal texnologiyaların geniş tətbiqi ilə sıx bağlıdır. Xüsusilə inklüziv təhsil sahəsində bu texnologiyalar yeni imkanlar yaradaraq müxtəlif təhsil ehtiyaclarına malik şagirdlərin təlim prosesinə cəlb olunmasını asanlaşdırır. İnklüziv təhsil hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə alaraq onların bərabər təhsil imkanları ilə təmin edilməsini nəzərdə tutur.

Rəqəmsal texnologiyalar bu prosesdə həm tədris vasitəsi, həm də dəstəkləyici mexanizm kimi çıxış edir. UNESCO-nun hesabatında qeyd olunur ki, texnologiya inklüziv təhsilin genişləndirilməsində əsas alətlərdən biridir və müxtəlif ehtiyaclı şagirdlər üçün fərdiləşdirilmiş öyrənmə imkanları yaradır (UNESCO, 2020).

İnklüziv təhsil bütün şagirdlərin eyni təhsil mühitində birlikdə təhsil almasını və onların fərdi ehtiyaclarına uyğun metodların tətbiqini nəzərdə tutur. Bu yanaşma yalnız fiziki məhdudiyyətləri olan şagirdləri deyil, həm də öyrənmə çətinliyi, diqqət çatışmazlığı və digər fərqlilikləri olan şagirdləri əhatə edir.

Rəqəmsal texnologiyalar inklüziv təhsilin aşağıdakı əsas prinsiplərinin həyata keçirilməsinə kömək edir: – fərdi yanaşmanın təmin olunması; – öyrənmə tempinin uyğunlaşdırılması; – alternativ təqdimat formalarının yaradılması.

N.Selvin qeyd edir ki, rəqəmsal texnologiyalar təhsildə bərabər imkanların yaradılması ilə yanaşı, sosial ədalətin təmin olunmasına da mühüm töhfə verir (Selwyn N., 2016).

Rəqəmsal texnologiyaların inklüziv təhsildə əsas funksiyaları aşağıdakılardır:

1. Fərdiləşdirilmiş öyrənmə imkanlarının yaradılması. Rəqəmsal platformalar şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun öyrənmə mühiti yaradır. Adaptiv təlim sistemləri şagirdin səviyyəsinə uyğun tapşırıqlar təqdim edir və onun inkişafını izləyir. V. Holms və həmkarlarının fikrincə, süni intellekt əsaslı sistemlər şagirdlərin fərdi ehtiyaclarını analiz edərək tədris prosesini optimallaşdırır (Holmes, W., Bialik, M., Fadel, C. 2019).

2. Əlçatanlığın artırılması. Rəqəmsal texnologiyalar fiziki və ya sensor məhdudiyyətləri olan şagirdlər üçün təhsilə çıxışı asanlaşdırır. Bu imkanlara aşağıdakılar daxildir: – ekran oxuyucular; – subtitrlər və audio materiallar; – xüsusi proqram təminatları.

Ş.Burqstahler qeyd edir ki, texnologiyalar universal dizayn prinsiplərinin tətbiqinə şərait yaradaraq təhsilin əlçatanlığını artırır (Burgstahler S., 2015).

3. Multimodal öyrənmə mühitinin yaradılması. Rəqəmsal texnologiyalar müxtəlif öyrənmə üslublarını dəstəkləyir: vizual, audial və kinestetik. Bu isə şagirdlərin daha effektiv öyrənməsinə şərait yaradır. R/Mayerin multimedia öyrənmə nəzəriyyəsinə görə, informasiya müxtəlif kanallar vasitəsilə təqdim edildikdə öyrənmə daha səmərəli olur (Mayer R. E.,2009).

4. Sosial inteqrasiyanın gücləndirilməsi. Onlayn platformalar və rəqəmsal alətlər şagirdlər arasında əməkdaşlığı artırır. Xüsusilə inklüziv siniflərdə bu, sosial bacarıqların inkişafına müsbət təsir göstərir. Şagirdlər qrup layihələrində iştirak edir, fikir mübadiləsi aparır və qarşılıqlı öyrənmə prosesinə qoşulurlar.

İnklüziv təhsildə geniş istifadə olunan rəqəmsal texnologiyalara interaktiv lövhələr, öyrənmə idarəetmə sistemləri, mobil tətbiqlər və süni intellekt əsaslı təlim proqramları daxildir. Bu alətlər müəllimə tədris prosesini diferensiallaşdırmaq və şagirdlərin fərdi ehtiyaclarına uyğunlaşdırmaq imkanı verir.

Rəqəmsal texnologiyaların effektiv tətbiqi müəllimin peşəkar hazırlığından asılıdır. Müəllim texnologiyalardan məqsədyönlü istifadə etməli, şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalı və inklüziv mühit yaratmağı bacarmalıdır. M.Koehler və P. Mişranın TPACK modelinə görə, müəllim texnoloji, pedaqoji və məzmun biliklərini inteqrasiya etməlidir (Koehler M. J., Mishra P., 2009).

Bununla yanaşı, rəqəmsal texnologiyaların tətbiqi zamanı texniki resursların çatışmazlığı, müəllimlərin rəqəmsal bacarıqlarının zəif olması və rəqəmsal bərabərsizlik kimi problemlər mövcuddur. Bundan əlavə, texnologiyadan həddindən artıq istifadə şagirdlərdə diqqət dağınıqlığı və asılılıq yarada bilər.

Gələcəkdə inklüziv təhsildə rəqəmsal texnologiyaların rolu daha da artacaq. Süni intellekt əsaslı fərdi təlim sistemlərinin genişlənməsi, virtual və artırılmış reallıq texnologiyalarının tətbiqi, eləcə də emosional vəziyyəti analiz edən sistemlərin inkişafı bu sahədə yeni imkanlar yaradacaqdır.

Nəticə etibarilə, rəqəmsal texnologiyalar inklüziv təhsilin inkişafında mühüm rol oynayır. Onlar təlim prosesini daha əlçatan, fərdiləşdirilmiş və effektiv edir, eyni zamanda hər bir şagirdin potensialının reallaşdırılmasına şərait yaradır.

Ədəbiyyat:

1. Burgstahler, S. (2015). Universal Design in Higher Education. Harvard Education Press, s. 30–35.

2. Holmes, W., Bialik, M., & Fadel, C. (2019). Artificial Intelligence in Education. Boston: Center for Curriculum Redesign, s. 110–115.

3. Koehler, M. J., & Mishra, P. (2009). What is TPACK? Teachers College Record, 111(7), s. 60–70.

4. Mayer, R. E. (2009). Multimedia Learning. Cambridge University Press, s. 50–60.

5. Selwyn, N. (2016). Education and Technology: Key Issues and Debates. London: Bloomsbury, s. 75–80.

6. UNESCO. (2020). Inclusion and Education: All Means All. Paris: UNESCO Publishing, s. 45–50.

İNKLÜZİV TƏHSİLDƏ VALİDEYN SƏRİŞTƏLİLİYİ: YENİ YANAŞMALAR VƏ ÇAĞIRIŞLAR

Səbinə Mürsəl qızı Quliyeva
Baş müəllim
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
sabina.quliyeva@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0000-0002-0878-5688

Açar sözlər: valideyn səriştəliliyi, inklüziv təhsil, sosial-emosional dəstək, sağlamlıq imkanları məhdud uşaqlar, uşaqların özünəinamı.

Xülasə. Bu məqalə inklüziv təhsil prosesində valideynlərin səriştəliliyinin əhəmiyyətini araşdırır. İnklüziv təhsil, sağlamlıq imkanları məhdud olan və olmayan uşaqların eyni təhsil

mühitində təhsil almasını, həmçinin təhsil proqramlarının fərdi ehtiyaclara uyğunlaşdırılmasını nəzərdə tutur. Valideynlərin rolu burada təkcə övladın təhsilinə dəstək olmaq deyil, həm də inklüziv mədəniyyətin formalaşdırılmasına töhfə verməkdir. Araşdırmalar göstərir ki, valideynlərin sosial və emosional dəstəyi uşaqların özünəinamını artırır, onların həm akademik, həm də sosial inkişafına müsbət təsir göstərir.

Valideyn səriştəliliyi koqnitiv, emosional və konativ-kommunikativ komponentlərdən ibarətdir. Koqnitiv komponent valideynin inklüziv təhsilin prinsiplərini və fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqları başa düşməsini, emosional komponent tolerantlığı və hörməti, konativ-kommunikativ komponent isə effektiv ünsiyyət və əməkdaşlığı əhatə edir. Tədqiqat nəticələri göstərir ki, valideynlərin əksəriyyəti inklüziv təhsilin mahiyyəti barədə məlumatlı deyil, lakin uşaqların kollektivdə müxtəlifliyini müsbət qiymətləndirir.

Valideynlərin inklüziv təhsil prosesində iştirakının uşaqların problem həll etmə bacarıqlarını və sosial münasibətlərini gücləndirdiyi göstərilmişdir. Fərqli qabiliyyət və ehtiyaclara malik uşaqlarla ünsiyyət, valideynlərin empati və adaptasiya bacarıqlarını artırır, bu da ailə içi münasibətlərin keyfiyyətini yüksəldir və inklüziv təhsil üçün dayanıqlı dəstək yaradır.

Eyni zamanda, valideynlərin inklüziv təhsilə münasibəti uşağın yaşadığı təcrübəyə və sağlamlıq vəziyyətinə görə dəyişir. Məqalədə vurğulanır ki, məktəb və cəmiyyətlə əməkdaşlıq valideynlərin səriştəliliyini artırmaq, inklüziv mühitin inkişafını təmin etmək üçün əsasdır. Valideynlərin fəal iştirakı, uşaqların təhsildə uğur qazanmasına və inklüziv dəyərlərin gündəlik həyata keçirilməsinə birbaşa təsir göstərir.

Keywords: parental competence, inclusive education, socio-emotional support, children with disabilities, children’s self-confidence.

Summary. This article examines the significance of parental competence in the process of inclusive education. Inclusive education entails the participation of both children with and without disabilities within the same educational environment, as well as the adaptation of educational programs to individual needs. The role of parents extends beyond merely supporting their child’s learning; it also contributes to the development of an inclusive culture. Research indicates that parental socio-emotional support enhances children’s self-confidence and positively influences both their academic and social development.

Parental competence comprises cognitive, emotional, and conative-communicative components. The cognitive component involves the parent’s understanding of the principles of inclusive education and the developmental characteristics of diverse children; the emotional component encompasses tolerance and respect; and the conative-communicative component includes effective communication and collaboration. Findings suggest that while the majority of parents are not fully aware of the essence of inclusive education, they tend to value the diversity of children within the classroom positively.

Parental involvement in the inclusive education process has been shown to enhance children’s problem-solving skills and social interactions. Engagement with children of diverse abilities and needs strengthens parents’ empathy and adaptability, which improves family relationships and provides sustainable support for inclusive education, fostering a more responsive and collaborative learning environment.

Moreover, parents’ attitudes toward inclusive education vary depending on the child’s experiences and health condition. The article emphasizes that collaboration with schools and the wider community is essential to enhancing parental competence and fostering the development of

an inclusive environment. Active parental involvement directly impacts children’s educational success and the practical implementation of inclusive values in daily life.

Anahtar kelimeler: Ebeveyn yeterliliği, kapsayıcı eğitim, sosyal-duygusal destek, engelli çocuklar, çocukların özgüveni

Özet. Bu makale, kapsayıcı eğitim sürecinde ebeveynlerin yeterliliğinin önemini incelemektedir. Kapsayıcı eğitim, engelli ve engelsiz çocukların aynı eğitim ortamında eğitim almasını ve eğitim programlarının bireysel ihtiyaçlara uygun olarak uyarlanmasını içermektedir. Ebeveynlerin rolü yalnızca çocuğun eğitimine destek olmakla sınırlı değildir; aynı zamanda kapsayıcı bir kültürün oluşumuna katkı sağlamaktadır. Araştırmalar, ebeveynlerin sosyal ve duygusal desteğinin çocukların özgüvenini artırdığını ve hem akademik hem de sosyal gelişimlerini olumlu yönde etkilediğini göstermektedir.

Ebeveyn yeterliliği, bilişsel, duygusal ve konatif-iletişimsel bileşenlerden oluşmaktadır. Bilişsel bileşen, ebeveynin kapsayıcı eğitimin ilkelerini ve farklı gelişim özelliklerine sahip çocukları anlamasını; duygusal bileşen, hoşgörü ve saygıyı; konatif-iletişimsel bileşen ise etkili iletişim ve işbirliğini kapsamaktadır. Araştırma sonuçları, ebeveynlerin çoğunluğunun kapsayıcı eğitimin özünü tam olarak bilmediğini, ancak sınıftaki çocukların çeşitliliğini olumlu değerlendirdiğini göstermektedir.

Ebeveynlerin kapsayıcı eğitim sürecine katılımının, çocukların problem çözme becerilerini ve sosyal etkileşimlerini geliştirdiği gösterilmiştir. Farklı yetenek ve ihtiyaçlara sahip çocuklarla etkileşim, ebeveynlerin empati ve uyum sağlama becerilerini güçlendirir, aile ilişkilerini iyileştirir ve kapsayıcı eğitim için sürdürülebilir destek sağlar.

Ayrıca, ebeveynlerin kapsayıcı eğitime bakış açıları, çocuğun yaşadığı deneyimlere ve sağlık durumuna göre değişiklik göstermektedir. Makalede, okul ve toplum ile işbirliğinin, ebeveynlerin yeterliliğini artırmak ve kapsayıcı ortamın gelişimini sağlamak için temel olduğu vurgulanmaktadır. Ebeveynlerin aktif katılımı, çocukların eğitimde başarılı olmasına ve kapsayıcı değerlerin günlük hayata aktarılmasına doğrudan etki etmektedir.

İnklüziv təhsil sağlamlıq imkanları məhdud olanvə olmayan, zəngin və yoxsul uşaqların, eləcə də etnik, dini cinsi və mədəni statusundan asılı olmayaraq bütün uşaqların öz icmaları daxilində onların potensialını üzə çıxara bilən məktəblərdə təhsil almasıdır.

İnklüziv təhsil zamanı valideynlərin rolu danılmazdır. İnklüziv təhsil bütün dünyada təhsil sistemlərinin qarşılaşdığı ən böyük çağırışlardan biridir. Bu fakt psixoloqlar, pedaqoqlar, sosioloqlar problemə olan diqqətini daha da artırı. Sosiologiyada aparılan araşdırmalar əksərən pedaqoji ictimaiyyətin, eləcə də sağlamlıq imkanları məhdud uşaqların sinif yoldaşlarının münasibətlərinə, əqidələrinə və dəyərlərinə diqqət yetirir. Aparılan tədqiqat münasibətlərin üzə çıxarılmasına yönəlib və burada valideynlər inklüziv proseslərə təsir edən vacib sosial agentlər kimi çıxış edirlər. Azərbaycan Respublikasında inklüziv təhsilə olan diqqət bir neçə səbəblə şərtlənir. Birincisi, 2008-ci il 26 sentyabrda sağlamlıq imkanları məhdud olan şəxslərin hüquqlarının müdafiəsi haqqında bir sıra beynəlxalq normativ-hüquqi aktlar ratifikasiya edilmişdir. Beynəlxalq sənədlərin ratifikasiyası və Azərbaycanda təhsil sistemində əlillərin hüquq və azadlıqlarını təmin edən əlavə qanunvericilik normalarının tətbiqi, inklüziv təcrübələrin inkişafı və dəstəklənməsi zəruri etdi. İkincisi, ölkəmizdə əlil uşaqların sayı artır. 2020–2025-ci illər üzrə Azərbaycanda sağlamlıq imkanları məhdud olanuşaqların sayında dəyişkən dinamika müşahidə olunmuşdur. Belə ki, 2020-ci ildə bu kateqoriyaya aid uşaqların sayı təxminən 63,9 min nəfər olduğu halda, 2025-ci ildə bu göstərici 41,1 min nəfər səviyyəsində qeydə alınmışdır. Bu

dəyişikliklər həmin əhali qrupunun cəmiyyətə inteqrasiyası və onların potensialından səmərəli istifadə olunmasının aktuallığını bir daha təsdiq edir. İnklüziv təhsil sağlamlıq imkanları məhdud olan və olmayan uşaqların birgə təhsil almasını, bu prosesdə zəruri dəstək xidmətlərinin təmin edilməsini və təhsil proqramlarının şagirdlərin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılmasını nəzərdə tutur. (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2020).

Valideynlərin inklüziv proseslərə münasibəti birbaşa təhsil alanların gündəlik təcrübələrini başa düşmək və şərh etmək üçün əsas rolunu oynayır.

Bir qrup tədqiqatçı iddia edir ki, valideynlər tərəfindən inklüziv təhsilə dəstəyin olmaması, uşağın münasibətinin və davranışının formalaşmasına mənfi təsir göstərir. Valideyn icması daxilində inklüzivliyə münasibət və dəstək müxtəlif ola bilər. Bəzi tədqiqatlar göstərir ki, SİM uşaqların valideynləri inklüzivliyin dəyərlərinə daha sadiqdir və onu daha həvəslə dəstəkləyirlər. Lakin, bu iki qrup arasında inklüzivlik praktikasına münasibətdə oxşarlıq olduğunu müdafiə edən digər mövqelər də mövcuddur.

SİM uşaqların valideynlərinin inklüziv təhsilə münasibəti xüsusi diqqətə layiqdir. Empirik tədqiqatların nəticələri həm onların dəstəyini və inklüzivlik dəyərlərinə bağlılığını, həm də tam əksini — birgə təhsilə qarşı mənfi münasibəti qeyd edir. keyfiyyətli təhsil almaq imkanına olan inamdan tutmuş, uşaqların ümumi təhsil sisteminə daxil edilməsinin yeganə qəbuledilən hüquq olması fikrinə qədər.

2025-ci ilin oktyabr–dekabr aylarında müxtəlif ümumtəhsil müəssisələrində (Mingəçevir və Ağdaş) tədqiqat aparılmışdır. Anket sorğusu metodu tətbiq olunmuşdur. Tədqiqatda sağlamlıq imkanları məhdud olan uşaqların 120 valideyni və sağlamlıq imkanları məhdud olmayan uşaqların 180 valideyni iştirak etmiş, ümumi respondent sayı 300 nəfər olmuşdur.

Respondentlərə “Son 5–10 ildə cəmiyyətimizdə sağlamlıq imkanları məhdud olan insanlara münasibət necə dəyişib?” sualı verilmişdir. Nəticələr göstərir ki, hər iki qrup valideyn dəyişiklikləri müşahidə edir, lakin sağlamlıq imkanları məhdud olanuşaqların valideynləri vəziyyəti daha mənfi qiymətləndirir**.** Belə ki, sağlamlıq imkanları məhdud olanuşaqların valideynlərinin 55%-i yaxşılaşma, 13%-i pisləşmə, 32%-i dəyişiklik olmadığını qeyd etmişdir. Sağlamlıq imkanları məhdud olmayan uşaqların valideynləri isə 53%-i yaxşılaşma, 14%-i pisləşmə, 34%-ü dəyişiklik olmadığını bildirmişdir.

Valideynlərin məktəb inkluziyası haqqında məlumatlılıq səviyyəsinə dair 2010-cu ildə əldə olunmuş nəticələr göstərir ki, son təxminən 15 il ərzində cəmiyyətin məlumatlılıq səviyyəsi demək olar ki, dəyişməz qalmışdır. Bu isə inklüziv təhsilin inkişafının mühüm şərtlərindən biridir.

Sağlamlıq məhdudiyyəti olmayan uşaqların valideynlərinin böyük əksəriyyəti (94,1%) uşaqlarının digər uşaqlarla eyni sinifdə oxuduğunu qeyd etmişdir. Bu fakt inklüziv təhsilin yalnız keyfiyyətli təhsil hüququnun təmin olunmasından daha geniş məna daşıdığını göstərir. İnklüziv təhsil cəmiyyətin sağlamlıq imkanları məhdud olan insanların həyat fəaliyyəti və ehtiyacları haqqında məlumatlılığını artırır, ümumi inklüziv mədəniyyətin yüksəlməsinə kömək edir və stigmatizasiyanı azaldır.

Buna baxmayaraq, aparılmış tədqiqatlardan məlum olur ki, valideynlər arasında inklüziv təhsil təcrübəsi barədə məlumatlılıq hələ də aşağıdır. Tədqiqatlara görə, yalnız 11,7% valideyn övladının bir sinifdə inklüziv təcrübə yaşadığını, 15,6% isə bu təcrübənin məktəb səviyyəsində mövcud olduğunu bildirib. Bu göstəricilər valideynlərin inklüziv təhsil imkanları və praktik tətbiqi barədə məlumatlandırılmasının artırılmasının zəruri olduğunu göstərir. *(*Azərbaycan Respublikasının Qanunu, 2008).

İnklüziv təhsilə inamsızlıq bildirən sağlamlıq imkanları məhdud olanuşaqların valideynlərinin əksəriyyəti uşaqları üçün xüsusi məktəbləri və ya evdə təhsili seçmişdir. Bu fakt digər tədqiqatlarla da təsdiqlənir.

Cavabların təhlili göstərir ki, xüsusi təhsil formasını dəstəkləyən valideynlər, övladlarının ətraf mühit tərəfindən mənfi münasibətlə qarşılaşa biləcəyindən ehtiyat edirlər. Onlar inklüziv təhsilin mümkün mənfi nəticələrindən biri kimi valideyn və şagird reaksiyalarını qeyd edirlər. Ümumilikdə, inklüziv təhsil haqqında məlumatlılıq səviyyəsi aşağı olaraq qiymətləndirilir.

Ümumilikdə, respondentlərin 20,6%-i hesab edir ki, sağlamlıq imkanları məhdud olan uşaqlar inklüziv formada, yəni adi orta məktəbdə təhsil almalıdır. 24,7%-i isə evdə təhsili daha məqsədəuyğun sayır. 40,7%-i bu uşaqların xüsusi təhsil müəssisələrində oxumasını üstün tutur, 14%-i isə cavab verməkdə çətinlik çəkmişdir.

Valideynlər və cəmiyyət arasında müxtəlif növ SİM uşaqlara münasibət fərqlidir. Məsələn, əqli xüsusiyyətləri olan uşaqların birgə təhsili əksər respondentlər tərəfindən mənfi qiymətləndirilir. Bu kateqoriya üçün daha çox xüsusi məktəblər uyğun hesab olunur (SİM olmayan uşaqların valideynlərinin 73,6%-i və SİM olan şaqların valideynlərinin 60,8%-i bu fikirdədir).

Bununla belə, inteqrasiya olunmuş model – eyni məktəbdə, lakin ayrı siniflərdə təhsil – respondentlərin bir hissəsi tərəfindən qəbul edilir.

Respondentlərin fikrincə, inklüziv təhsilin əsas maneələrindən biri əlçatan mühitin olmamasıdır. Bu səbəbdən nəticələr müəyyən qədər izah olunur. Eyni zamanda, xarici görünüşdə açıq fərqləri olmayan xəstəliklər (məsələn, şəkərli diabet və s.) olan uşaqlar üçün inklüziv təhsil daha müsbət qarşılanır (sağlamlıq imkanları məhdud olmayan uşaqların valideynlərinin 85,0%-i və sağlamlıq imkanları məhdud olanuşaqların valideynlərinin 79,7%-i).

Araşdırma göstərir ki, inklüziv təhsilə münasibət çox vaxt uşağın sağlamlıq vəziyyətindən asılıdır. Əsas səbəblər kimi davranış fərqləri və qeyri-adi görünüş qeyd olunur.

Valideyn səriştəliliyi"nin yanaşmaları: Koqnitiv yanaşma: Valideynin tərbiyə sahəsindəki bilik, bacarıq və təcrübəsi.

Fəaliyyət yanaşması: Real pedaqoji vəziyyətlərdə problemləri həll etmək bacarığı, uşağın ehtiyaclarını anlamaq və onları təmin etmək qabiliyyəti.

Səriştəli yanaşma: Valideynlərin ailədə sosial-pedaqoji fəaliyyəti təşkil etmək və uşaqda sosial vərdişləri formalaşdırmaq bacarığı.

Valideyn səriştəliliyi – müxtəlif sistemlərdə yaranan ünsiyyət və qarşılıqlı fəaliyyət tapşırıqlarını həll etməyə hazır olmaq, bacarmaq deməkdir.

İnklüziv təhsil mühitində valideyn səriştəliliyinin komponentləri:

- Bilikəsaslı komponent – valideynin inklüziv təhsilin əsas prinsiplərini və fərqli inkişaf tempinə malik uşaqların xüsusiyyətlərini dərindən başa düşməsi və məlumatlı olması.
- Duyğuyönümlü komponent – valideynin müxtəlif bacarıq və ehtiyaclara malik uşaqlara hörmətlə yanaşması və onların fərqliliklərini qəbul etməsi.
- Fəaliyyət və ünsiyyət komponenti – valideynin uşaqlarla və müəllimlərlə səmərəli ünsiyyət qurma bacarığı, sosial qarşılıqlı təsiri düzgün yönləndirmə qabiliyyəti. (Hüseynova, L. (2018). Xüsusi pedaqogikanın əsasları).

Araşdırmanın nəticələri:

Valideynlərin 50,9%-i inklüziv təhsilin mahiyyəti haqqında demək olar ki, heç nə bilmir.

50,9%-i inklüziv təhsilin öz uşaqları üçün faydalı olduğunu düşünür. 85,4%-i uşaq

kollektivində müxtəlifliyi müsbət qiymətləndirir.

Ancaq 74,6%-i stiqmatizasiya (damğalama) və diskriminasiya mövzularında öz uşaqları ilə ünsiyyətdə çətinlik çəkdiyini etiraf edir.

90,3%-i "danışmayan" uşaqlarla ünsiyyətdə ciddi çətinliklər yaşayır. 25,1%-i inklüziv təhsildən qorxur.

Bəzi valideynlərdə inklüziv təhsil mənfi emosiyalar yaradır. Öz uşaqlarının aşağıdakı diaqnozlu uşaqlarla birgə oxuması fikri onları narahat edir:

Psixi inkişafın ləngiməsi olanlar (41,7%), Davranış pozuntuları olanlar (43,2%), Autizm spektri pozuntuları olanlar (34,6%), İntellektual çatışmazlığı olanlar (31,6%)

Valideynlərin və icmanın cəlb olunması keyfiyyətli təhsilin, xüsusən də inklüziv təhsilin həyata keçirilməsində əsas prinsiplərdən biridir.

Ailənin iştirakı sağlamlıq imkanları məhdud olanu şaqların bütün həyatı boyu, xüsusilə də erkən yaşlarında vacibdir.

Valideynlər öz övladlarını hamıdan yaxşı tanıyırlar. Onlar uşağın şəxsiyyətini, öyrənmə tərzini, maraqlarını, davranışını və ehtiyaclarını başa düşürlər. Valideynlərlə məsləhətləşmələr müəllimlərə uşaq haqqında dolğun məlumat toplamağa və təlim prosesini daha yaxşı planlaşdırmağa kömək edə bilər. Valideynlər və ailələr uşaqlarına aid olan hər hansı bir qərarın mərkəzində olmalıdırlar. Onlar həmçinin uşağın evdə davamlı inkişafını və təlimini dəstəkləməkdə həyati rol oynayırlar. Sinifdə valideyn dəstəyi də valideynlər və müəllimlər arasında əməkdaşlıq yolu ola bilər.

Sağlamlıq imkanları məhdud olmayan uşaqların valideynləri əlçatanlıq və iştirak üçün olan maneələri dəf etməyə kömək edə bilərlər.

Sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinin inklüziv təhsilə cəlb olunması və buna münasibəti ümumi məktəb mədəniyyətinə təsir edir. Çox vaxt sağlamlıq imkanları məhdud olmayan uşaqların valideynləri, övladlarının sağlamlıq imkanları məhdud olanuşaqlarla birlikdə təhsil alması ideyasına qarşı çıxırlar. Sağlamlıq imkanları məhdud olmayan uşaqların valideynləri ilə işləmək və onlara kömək etmək lazımdır ki, sağlamlıq imkanları məhdud olanuşaqların məktəbdə və ya sinifdə birlikdə təhsil almasının heç bir mənfi nəticəsi olmayacağını anlasınlar.

Cəmiyyət – uşaqların yaşadığı, öyrəndiyi və öyrəndiklərini tətbiq etdiyi ümumi kontekstdir.

Şagird haqqında informasiya müəllimlərə çoxlu sayda məlumat verir ki, ondan, məsələn, dərsin planlaşdırılmasında istifadə etmək olar.

Cəmiyyətin inklüzivliyi təşviq etməyə kömək edə biləcəyi yollar aşağıdakılardır:

Yerli hakimiyyət orqanları və vətəndaş cəmiyyəti qrupları sağlamlıq imkanları məhdud olanuşaqlara lazımi dəstəyi təmin edə bilərlər (məsələn, köməkçi vasitələr, səhiyyə və sosial müdafiə kimi dəstək xidmətləri ilə əlaqə).

Cəmiyyət siyasətin təbliğatı və ictimai məlumatlılığın artırılması yolu ilə inklüzivlik gündəliyini irəli aparmağa kömək edə bilər.

Gənclər təşkilatları sağlamlıq imkanları məhdud olanuşaqların məktəbdən kənar daha geniş cəmiyyətə inteqrasiyasını təşviq edən tədbirlər keçirə bilərlər.

Valideynlər və cəmiyyətlə əməkdaşlıq üçün:Valideynlərin və cəmiyyət üzvlərinin əməkdaşlığı üçün əlverişli və müsbət mühit yaradın. (Qasımov, R. 2019).

Valideynləri təhsilin planlaşdırılmasında fəal iştiraka cəlb edin. Valideyn-müəllim konfransları keçirin və uşaqlarının irəliləyişləri barədə onları müntəzəm olaraq məlumatlandırın.

Sağlamlıq imkanları məhdud olmayan uşaqların valideynləri üçün inklüzivlik və sağlamlıq imkanları məhdud olanuşaqların hüquqları haqqında məlumat vermək üçün təlim sessiyaları keçirin.

Valideynləri və cəmiyyəti məktəbin təkmilləşdirilməsinin planlaşdırılmasına və məktəb dəyərlərinin formalaşdırılmasına mütləq cəlb edin.

Əlillik problemlərini müzakirə etmək üçün maarifləndirmə tədbirləri keçirmək çox vacibdir. Dövlət orqanlarını, valideyn assosiasiyalarını və vətəndaş cəmiyyəti nümayəndələrini cəlb etmək lazımdır.İctimai və məktəb tədbirləri vasitəsilə mütəmadi əməkdaşlıq imkanları yaradın.Valideynlərin və cəmiyyətin cəlb olunmasında müəllimlərin rolu.

Uşaqların təhsildəki irəliləyişləri və nailiyyətləri haqqında evlə, yəni valideynlər və ya qəyyumlarla müntəzəm ünsiyyət saxlamaq. Hansı uşaqların məktəbə getmədiyini və səbəbini öyrənmək üçün icma liderləri ilə işləmək və onları məktəbə cəlb etməyin yollarını hazırlamaq:İnklüziv təhsilin dəyərini və məqsədini öz siniflərindəki şagirdlərin valideynlərinə izah etmək: öz şagirdlərini tədris proqramı çərçivəsində cəmiyyətlə ünsiyyətə hazırlamaq (məsələn, ekskursiyalar və ya xüsusi tədbirlər və fəaliyyətlər vasitəsilə).

Ədəbiyyat:

1. Azərbaycan Respublikası. (2008). Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2020). İnklüziv təhsilin inkişafına dair Dövlət Proqramı. Bakı.
3. Hüseynova, L. (2018). Xüsusi pedaqogikanın əsasları. Bakı: Təhsil nəşriyyatı.
4. Qasımov, R. (2019). İnklüziv təhsil və müasir yanaşmalar. Bakı: Elm və təhsil.

İNKLÜZİV TƏHSİLDƏN İNKLÜZİV CƏMİYYƏTƏ

Mətanət Cümşüd qızı Rəhimova
Baş müəllim
Azərbaycan Respublikası
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
hekimimetanet@gmail.com
ORCİD ID: 0000-0001-5621-4620
Sevinc Soltanmecid qızı Baxşıyeva
Baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
sevinc.baxsiyeva65@gmail.com
ORCİD ID: 0000-0003-4122-2972

Açar sözlər: inteqrasiya, konvensiya, inklüziv təhsil, kurikulum.

Xülasə. Təqdim olunan məqalə əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyası prosesində inklüziv təhsilin rolunun elmi-nəzəri və praktik aspektlərinin təhlilinə həsr olunmuşdur. Müasir təhsil sistemində inklüzivlik prinsipi sosial ədalətin təmin edilməsi və hər bir fərdin bərabər təhsil hüququnun reallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Əlilliyi olan uşaqların

cəmiyyətə səmərəli inteqrasiyası onların keyfiyyətli və əlçatan təhsil imkanları ilə birbaşa əlaqəlidir.

Məqalədə vurğulanır ki, əlilliyi olan və olmayan uşaqların eyni təhsil mühitində birgə tədrisi pedaqoji baxımdan mürəkkəb və çoxşaxəli bir prosesdir. Bu proses müəllimlərdən yüksək peşəkar hazırlıq, diferensial yanaşma və inklüziv metodların tətbiqini tələb edir. Bununla yanaşı, inklüziv təhsil mühitinin yaradılması təhsilalanlar arasında sosial inteqrasiyanı gücləndirir, qarşılıqlı anlaşma və tolerantlıq mühitinin formalaşmasına şərait yaradır.

Araşdırmada qeyd olunur ki, inklüziv təhsil əlilliyi olan uşaqların sosial bacarıqlarının inkişafına, özünə inamının möhkəmlənməsinə və onların ictimai həyata fəal qoşulmasına müsbət təsir göstərir. Eyni zamanda bu yanaşma əlilliyi olmayan uşaqlarda empatiya və sosial məsuliyyət hissinin formalaşmasına töhfə verir.

Nəticə etibarilə, inklüziv təhsil əlilliyi olan uşaqların cəmiyyətə uğurlu inteqrasiyasını təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir və bu istiqamətdə sistemli tədbirlərin həyata keçirilməsi zəruri hesab olunur.

Keywords: inclusive education, integration, convention, curriculum.

Summary. The presented article is devoted to the analysis of the scientific-theoretical and practical aspects of the role of inclusive education in the process of integrating children with disabilities into society. In the modern education system, the principle of inclusivity is of great importance in ensuring social justice and realizing the equal right to education for every individual. The effective integration of children with disabilities into society is directly related to their access to quality and accessible education.

The article emphasizes that the joint education of children with and without disabilities in the same educational environment is a complex and multifaceted pedagogical process. This process requires high professional competence from teachers, the application of differentiated approaches, and the use of inclusive teaching methods. At the same time, the creation of an inclusive educational environment strengthens social integration among learners and contributes to the development of mutual understanding and tolerance.

The study notes that inclusive education has a positive impact on the development of social skills, the strengthening of self-confidence, and the active participation of children with disabilities in public life. At the same time, this approach fosters empathy and a sense of social responsibility among children without disabilities.

In conclusion, inclusive education acts as one of the key mechanisms ensuring the successful integration of children with disabilities into society, and the implementation of systematic measures in this field is considered essential.

Anahtar kelimeler: entegrasyon, konvansiyon, kapsayıcı eğitim, müfredat.

Özet. Sunulan makale, engelli çocukların topluma entegrasyonu sürecinde kapsayıcı eğitimin rolünün bilimsel-teorik ve pratik yönlerinin incelenmesine adanmıştır. Modern eğitim sisteminde kapsayıcılık ilkesi, sosyal adaletin sağlanması ve her bireyin eşit eğitim hakkının gerçekleştirilmesi açısından büyük önem taşımaktadır. Engelli çocukların topluma etkili bir şekilde entegrasyonu, onların kaliteli ve erişilebilir eğitim imkanlarına sahip olmasıyla doğrudan ilişkilidir.

Makalede, engelli olan ve olmayan çocukların aynı eğitim ortamında birlikte eğitim görmesinin pedagojik açıdan karmaşık ve çok yönlü bir süreç olduğu vurgulanmaktadır. Bu süreç, öğretmenlerden yüksek düzeyde mesleki yeterlilik, farklılaştırılmış yaklaşımların uygulanması ve

kapsayıcı öğretim yöntemlerinin kullanılmasını gerektirir. Bununla birlikte, kapsayıcı eğitim ortamının oluşturulması öğrenciler arasında sosyal entegrasyonu güçlendirmekte, karşılıklı anlayış ve hoşgörü ortamının oluşmasına katkı sağlamaktadır.

Araştırmada, kapsayıcı eğitimin engelli çocukların sosyal becerilerinin gelişmesine, özgüvenlerinin artmasına ve toplumsal yaşama aktif katılımlarına olumlu etkiler sağladığı belirtilmektedir. Aynı zamanda bu yaklaşım, engelli olmayan çocuklarda empati ve sosyal sorumluluk duygusunun gelişmesine katkıda bulunmaktadır.

Sonuç olarak, kapsayıcı eğitim engelli çocukların topluma başarılı bir şekilde entegrasyonunu sağlayan temel mekanizmalardan biri olarak değerlendirilmektedir ve bu alanda sistemli çalışmaların yürütülmesi gerekli görülmektedir.

Müasir dövrdə təhsil sisteminin humanistləşdirilməsi və demokratikləşdirilməsi qlobal miqyasda prioritet istiqamətlərdən biri hesab olunur. Bu kontekstdə inklüziv təhsil konsepsiyası xüsusi əhəmiyyət kəsb edir. İnklüziv təhsil bütün uşaqların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan fərdlərin bərabər təhsil hüququnun təmin olunmasına yönəlmiş pedaqoji yanaşmadır. Beynəlxalq təcrübə göstərir ki, Böyük Britaniya, ABŞ, İsveçrə, Almaniya və digər inkişaf etmiş ölkələrdə inklüziv təhsil mod.eli uğurla tətbiq olunur və bu, milli təhsil sistemlərinin beynəlxalq standartlara uyğunlaşdırılmasında mühüm rol oynayır.

Bir çox müəllimlər “İnklüziya”və, “İnteqrasiya”sözlərini eyni mənalı termin kimi qəbul edirək istifadə edirlər. İnklüziya bütün uşaqların istisnasız olaraq ümümtəhsil sisteminə daxil edilməsini nəzərdə tutur. “İnklüziya” latın sözü olub daxil oluram,”İnteqrasiya” isə yunan sözü olub bərpa olunma mənasını verir. Hər iki söz bir-birinin əvəzinə çox tez-tez istifadə olunan terminlərdir. Beləliklə, müxtəlif xüsusiyyətləri olan uşaqların cəmiyyətə xüsusi uyğunlaşmasına ehtiyac olduğu ortaya çıxır. (Social Capital Research., 2007, July 30) İnklüziv təhsil həm də ümumtəhsilin inkişafı prosesidir. Təhsilin bütün uşaqların müxtəlif ehtiyaclarının ödənilməsi baxımından hamı üçün əlçatan olmasını nəzərdə tutur. Bu xüsusi qayğıya ehtiyacı olan uşaqların da təhsil almasını təmin edir. Bununla da inklüziya əlilliyi olan və olmayan uşaqların, müxtəlif təhsil ehtiyacları olan şagirdlərin, bir sözlə, hər kəsin cəmiyyətə inteqrasiya olunmasını təmin edir.Bundan əlavə, Heydər Əliyev Fondu tərəfindən müxtəlif səbəblərdən cəmiyyətin diqqətindən kənarda qalan uşaqların təhsilinin təşkili, onların təhsil aldığı müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü işlər görülmüşdür. Müasir dövrdə təhsil sisteminin humanistləşdirilməsi və demokratikləşdirilməsi qlobal miqyasda prioritet istiqamətlərdən biri hesab olunur. Bu kontekstdə inklüziv təhsil konsepsiyası xüsusi əhəmiyyət kəsb edir. İnklüziv təhsil bütün uşaqların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan fərdlərin bərabər təhsil hüququnun təmin olunmasına yönəlmiş pedaqoji yanaşmadır. Elmi ədəbiyyatda inklüziv təhsil “təhsildə bərabər imkanlar prinsipi” əsasında formalaşan və bütün şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alan təhsil modeli kimi xarakterizə olunur. Bu modelin əsasını fərdiyyətyönümlü yanaşma, diferensiallaşdırılmış təlim metodları və inklüziv mühitin yaradılması təşkil edir.İnklüziv təhsilin tətbiqi bir sıra pedaqoji və psixoloji tələblərlə müşayiət olunur. Buraya uyğunlaşdırılmış kurikulum, fərdi təhsil planlarının hazırlanması, xüsusi pedaqoji kadrların hazırlanması və inklüziv infrastrukturun qurulması daxildir. Tədqiqatlar göstərir ki, inklüziv mühitdə təhsil alan uşaqlarda həm akademik nailiyyətlər, həm də sosial bacarıqlar daha yüksək səviyyədə inkişaf edir.Bu təhsil modelinin əsas prinsiplərindən biri diskriminasiyanın aradan qaldırılmasıdır. İnklüziv təhsil sosial ədalət, bərabərlik və insan hüquqlarının qorunması kimi fundamental dəyərlərə əsaslanır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yaradılan inklüziv

mühit onların cəmiyyətə inteqrasiyasını sürətləndirir, özünəinam hissini gücləndirir və sosial adaptasiyanı asanlaşdırır.Digər tərəfdən, inklüziv təhsil sağlam uşaqların sosial-emosional inkişafına da müsbət təsir göstərir. Onlar müxtəliflik şəraitində ünsiyyət qurmağı, tolerantlıq və empatiya kimi sosial bacarıqları mənimsəyirlər. Bu isə uzunmüddətli perspektivdə inklüziv və davamlı cəmiyyətin formalaşmasına zəmin yaradır.İnklüziv təhsilin əsas məqsədlərindən biri sosial inteqrasiyanın təmin olunmasıdır. Sosial inteqrasiya nəzəriyyəsinə əsasən, bu proses iki tərəfli xarakter daşıyır: bir tərəfdən fərdin cəmiyyətə uyğunlaşması, digər tərəfdən isə cəmiyyətin inklüziv mühit yaratmaq üçün institusional və sosial dəstək mexanizmlərini inkişaf etdirməsi vacibdir.Beynəlxalq təcrübə göstərir ki, Böyük Britaniya, ABŞ, İsveçrə, Almaniya və digər inkişaf etmiş ölkələrdə inklüziv təhsil modeli uğurla tətbiq olunur və bu, milli təhsil sistemlərinin beynəlxalq standartlara uyğunlaşdırılmasında mühüm rol oynayır.Elmi ədəbiyyatda inklüziv təhsil “təhsildə bərabər imkanlar prinsipi” əsasında formalaşan və bütün şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alan təhsil modeli kimi xarakterizə olunur. Bu modelin əsasını fərdiyyətyönümlü yanaşma, diferensiallaşdırılmış təlim metodları və inklüziv mühitin yaradılması təşkil edir.İnklüziv təhsilin tətbiqi bir sıra pedaqoji və psixoloji tələblərlə müşayiət olunur. Buraya uyğunlaşdırılmış kurikulum, fərdi təhsil planlarının hazırlanması, xüsusi pedaqoji kadrların hazırlanması və inklüziv infrastrukturun qurulması daxildir. Tədqiqatlar göstərir ki, inklüziv mühitdə təhsil alan uşaqlarda həm akademik nailiyyətlər, həm də sosial bacarıqlar daha yüksək səviyyədə inkişaf edir.Bu təhsil modelinin əsas prinsiplərindən biri diskriminasiyanın aradan qaldırılmasıdır. İnklüziv təhsil sosial ədalət, bərabərlik və insan hüquqlarının qorunması kimi fundamental dəyərlərə əsaslanır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yaradılan inklüziv mühit onların cəmiyyətə inteqrasiyasını sürətləndirir, özünəinam hissini gücləndirir və sosial adaptasiyanı asanlaşdırır.Digər tərəfdən, inklüziv təhsil sağlam uşaqların sosial-emosional inkişafına da müsbət təsir göstərir. Onlar müxtəliflik şəraitində ünsiyyət qurmağı, tolerantlıq və empatiya kimi sosial bacarıqları mənimsəyirlər. Bu isə uzunmüddətli perspektivdə inklüziv və davamlı cəmiyyətin formalaşmasına zəmin yaradır.İnklüziv təhsilin əsas məqsədlərindən biri sosial inteqrasiyanın təmin olunmasıdır. Sosial inteqrasiya nəzəriyyəsinə əsasən, bu proses iki tərəfli xarakter daşıyır: bir tərəfdən fərdin cəmiyyətə uyğunlaşması, digər tərəfdən isə cəmiyyətin inklüziv mühit yaratmaq üçün institusional və sosial dəstək mexanizmlərini inkişaf etdirməsi vacibdir.Beləliklə, inklüziv təhsil müasir təhsil sisteminin əsas komponentlərindən biri kimi çıxış edir və sosial ədalətin təmin olunmasında mühüm rol oynayır. Onun effektiv tətbiqi yalnız təhsil sahəsində deyil, bütövlükdə cəmiyyətin sosial-iqtisadi inkişafında mühüm əhəmiyyətə malikdir. Bu səbəbdən inklüziv təhsilin inkişafı, normativ-hüquqi bazasının gücləndirilməsi və praktik tətbiq mexanizmlərinin təkmilləşdirilməsi müasir dövlətlərin qarşısında duran əsas vəzifələrdən biridir. İnklüziya sahəsində araşdırmalar qeyd edir ki, cəmiyyət əlilliyi olan uşaqların assimilyasiyasına neytral və ya passiv-mərhəmət mövqeyi nümayiş etdirir, belə uşaqların çətinlikləri ətrafdakılar tərəfindən mühitin öhdəliyi kimi deyil, uşaqların öz çətinlikləri kimi qəbul edilir. Cəmiyyətdə əlilliyi olan uşaqları əhatə edən əksəriyyət onlara qarşı passiv tolerantlıq göstərir. (Бурe Р. С., Островская Л. Ф., 2001) Belə ki, daha çox tibbi modellə yanaşma üstünlük təşkil edir. Odur ki, inklüziv təhsil və cəmiyyətin qurulmasından danışarkən ilk olaraq yanaşmaların dəyişdirilməsi diqqət mərkəzində saxlanılmalıdır. Müasir cəmiyyət isə hər kəsə sosial yanaşmağın doğruluğunu ortaya çıxarmışdır. Sosial yanaşma şəxsin əlilliyini deyil, müsbət tərəflərini görməyi, ona istinad etməyi və cəmiyyətin hər bir üzvünün hüquqlarına hörmət etməyi tələb edir. Təhsildə sosial yanaşma isə şagirdin öyrənə bilməməsinin, məktəbə gələ bilməməsinin

səbəblərini təhsil sitemində, kurikulumlarda, fiziki və psixoloji mühitin düzgün qurulmamasında axtarmağı tələb edir. İkinci olaraq inklüziv təhsilin qurulması bu sahədə kadr hazırlığına diqqət yetirməyi tələb edir. Çünki təhsil prosesinin hərəkətverici qüvvəsi olan müəllim mütləq inklüziv dəyərlər, anlayışlar və bacarıqlar baxımından hazırlıqlı olmalıdır. Bütün uşaqların məktəbə gələ bilməsi hələ inklüziv təhsilin uğurla qurulmasından xəbər vermir. Təhsilin davamlılığını təmin etmək üçün müəllim sinifdə düzgün fiziki, psixoloji və öyrədici mühit yaratmalıdır. Təbii ki, məktəb rəhbərliyinin də bu sahədə həm maarifləndirici, həm də idarəedici rolu böyükdür. Hazırda bununla bağlı ölkədə müxtəlif qrant və dövlət səviyyəli layihələr həyata keçirilir. Üçüncü olaraq inklüziv təhsilin qurulması bütün maraqlı tərəflərin əməkdaşlıq etməsini tələb edir. Maraqlı tərəflər dedikdə, məktəb, valideyn, dövlət qurumlarının birgə fəaliyyəti nəzərdə tutulur. Belə ki, valideyn və cəmiyyətin birgə fəaliyyəti təhsil üçün və əlilliyi olan uşaqlar üçün xüsusilə vacibdir Valideynlər və məktəblər arasındakı müsbət ünsiyyət uşaqların münasibətlərini və təhsildə nailiyyətlərini artırır. Ailələrin məktəblərlə işləmələri üçün ilk addımda valideynlər və sosial tərəfdaşlar bir-birinə qarşılıqlı, hörmət etdiklərini hiss etdirməlidirlər. Ailələrin və icmaların inkluziv təhsili dəstəklənməsinə cəlb edilməsi bütün tərəflərin fərqli yanaşmalarının vəhdət halında tətbiqini təmin edir, beləliklə həm cəmiyyətə, həm də təhsilə inteqrasiya məsələsində effektivlik artır. Xüsusilə ilk illərdə ailənin iştirakı həm sinifdə, həm də sinifdənxaric təhsilin keyfiyyətinin artırılmasında vacib bir prinsipidir. Bu prinsipin yerinə yetirilməsi üçün xarici ölkələrin təcrübəsində ailə, məktəb və ictimaiyyətin inklüziv təhsillə bağlı əməkdaşlığını təmin etmək məqsədilə “Uşaq və ailə dəstək planı” tətbiq olunur. Planın tərtibi zamanı hər üç tərəf uşağın müsbət tərəflərinin ortaya çıxarılması, gələcək inkişafı, qısamüddətli və uzunmüddətli hədəflərin müəyyən edilməsi kimi mühüm problemlər həll olunur. Uşağın dərsdənkənar vaxtlarda olan fəaliyyətinin idarə edilməsi və zəruri dəstəyin göstərilməsi üçün planın tərtib olunarkən icmanın da iştirakı mühüm tələblərdəndir. Məktəb rəhbərliyi, psixoloq və digər müəllimlərin əməkdaşlığı isə hədəflərin düzgün müəyyən edilməsi üçün mühüm şərtdir. Bu tip planların ölkəmizdə də tətbiqi mühüm nəticələr verə bilər. Bütün təşkilatı və hüquqi işlərin həll olunması zamanı diqqət yetirilməlidir ki, cəmiyyətə inteqrasiyada mühüm olan odur ki, uşaq hiss etsin ki, o da cəmiyyətin bərabərhüquqlu üzvüdür, onun da fikirlərinə hörmətlə yanaşılır. (İnklüziv siniflərdə təlimin təşkili., 2018) Yalnız bu halda hər kəsin təhsilə və cəmiyyətə davamlı inteqrasiyasını təmin edə bilərik.

Burdan belə bir nəticəyə gəlmək olar ki,valideynlə cəmiyyətin birgə fəaliyyəti əlilliyi olan uşaqlar üçün və onların təhsili təhsil üçün və xüsusilə vacibdir Valideynlər və məktəblər arasındakı müsbət ünsiyyət uşaqların münasibətlərini və təhsilə olan marağını artırır.Bekə ki əliliyi olan uşaqların cəmiyyətə adaptasiya olunmasında və təhsildə nəaliyyətlər qazanmasında,bir şəxsiyyət kimi formalaşmasınada məktəblə valideyn birlikdə böyük rol oynayırlar.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası. (2017, 14 dekabr). 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə dövlət proqramı (№ 3498). Bakı.
2. Бурe, Р. С., & Островская, Л. Ф. (2001). Воспитатель и дети. Москва: Издательство.
3. İnklüziv siniflərdə təlimin təşkili. (2018). Bakı: TPİİ.
4. Social Capital Research. (2007, July 30). Community. https://socialcapital.wordpress.com/2007/07/30/community

İNKLÜZİV TƏHSİLƏ DOĞRU: MÖVCUD QANUNVERİCİLİK VƏ MÜƏLLİM HAZIRLIĞI

Günel Alim qızı Nəcəfova
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
gunel.necefova35@mail.ru
ORCİD ID: https://orcid.org/0009-0000-3700-9389
Gülay Faiq qızı Məmmədova
Bakalavriat
Azərbaycan Respublikası
Bakı Dövlət Universiteti
gulay.memmedova.2008@gmal.com
ORCİD ID: 0009-0001-9628-871X

Açar sözlər: inklüziv təhsil, mövcud vəziyyət, normativ sənədlər, müəllim hazırlığı, xüsusi təhsil ehtiyacları olan uşaqlarla iş, kadr potensialı.

Xülasə. Məqalədə sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsil zamanı kollektivə uyğunlaşmasından, cəmiyyətə inteqrasiyasından, onlarda özünə inam hissi formalaşdırılmasından danışılır. Qeyd olunur ki, onlar cəmiyyətin digər üzvləri ilə bərabər hüquqlu şəxsiyyət kimi fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir. Sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsilə cəlb edilməsi və dəstəklənməsi üçün mükəmməl qanunvericilik bazası olmalı və təhsil müəssisələri tərəfindən zəruri addımlar müəyyənləşdirilməlidir.İnklüziv təhsil müasir təhsil sisteminin əsas inkişaf istiqamətlərindən biri olub, bütün uşaqların, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin bərabər təhsil hüququnu təmin etməyə yönəlmişdir. Əvvəllər belə uşaqların ayrı təhsil alması məqsədəuyğun hesab edilsə də, tədqiqatlar göstərir ki, onların digər uşaqlarla birlikdə oxuması həm sosial, həm də akademik baxımdan daha səmərəlidir. Bu yanaşma uşaqlarda qarşılıqlı hörmət, anlayış və sosial inteqrasiyanı gücləndirir.

Azərbaycanda inklüziv təhsilin inkişafı dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Xüsusilə 2018–2024-cü illəri əhatə edən Dövlət Proqramı bu sahədə mühüm addımların atılmasına şərait yaratmışdır. Proqram çərçivəsində müəllimlərin hazırlığı, tədris materiallarının hazırlanması və ictimai maarifləndirmə istiqamətində işlər görülmüşdür. Bununla yanaşı, beynəlxalq təşkilatlarla əməkdaşlıq inklüziv təhsilin inkişafına əlavə təkan vermişdir.

Buna baxmayaraq, müəyyən problemlər hələ də qalmaqdadır. Məktəblərdə fiziki mühitin uyğun olmaması, müəllimlərin kifayət qədər hazırlıqlı olmaması və cəmiyyətdə mövcud stereotiplər inklüziv təhsilin tam tətbiqinə mane olur. Həmçinin bəzi hallarda uşaqların fərdi ehtiyaclarının qarşılanmasında çətinliklər yaranır.

Keywords: inclusive education, current situation, regulatory documents, teacher training, work with children with special educational needs, human resource potential.

Summary. The article discusses the adaptation of children with disabilities to the collective during inclusive education, their integration into society, and the formation of a sense of self-

confidence in them. It is noted that when they participate in the learning process together with other peers, regardless of their physical, mental, intellectual and other characteristics, as individuals with equal rights with other members of society, a sense of understanding and respect for each other develops among them. There should be an excellent legislative basis for involving and supporting children with disabilities in inclusive education, and necessary steps should be determined by educational institutions. Inclusive education is one of the main development directions of the modern education system, aimed at ensuring the equal right to education of all children, including those with disabilities. Although it was previously considered appropriate for such children to receive separate education, research shows that it is more effective for them to study together with other children both socially and academically. This approach strengthens mutual respect, understanding and social integration in children. The development of inclusive education in Azerbaijan is one of the important directions of state policy. In particular, the State Program covering the years 2018–2024 has created conditions for taking important steps in this area. Within the framework of the program, work has been carried out in the direction of teacher training, preparation of teaching materials and public awareness. In addition, cooperation with international organizations has given additional impetus to the development of inclusive education.

Anahtar kelimeler: kapsayıcı eğitim, mevcut durum, düzenleyici belgeler, öğretmen eğitimi, özel eğitim ihtiyacı olan çocuklarla çalışma, insan kaynakları potansiyeli.

Özet. Makale engelli çocukların kaynaştırma eğitiminde topluma uyumlarını, topluma entegrasyonlarını ve özgüvenlerinin oluşumunu ele almaktadır. Fiziksel, zihinsel, entelektüel ve diğer özelliklerinden bağımsız olarak, toplumun diğer üyeleriyle eşit haklara sahip bireyler olarak diğer akranlarıyla birlikte öğrenme sürecine katıldıklarında, aralarında karşılıklı anlayış ve saygı duygusunun geliştiği belirtilmektedir. Engelli çocukların kaynaştırma eğitimine katılımı ve desteklenmesi için mükemmel bir yasal zemin oluşturulmalı ve eğitim kurumları tarafından gerekli adımlar belirlenmelidir. Kaynaştırma eğitim, engelli çocuklar da dahil olmak üzere tüm çocukların eşit eğitim hakkını sağlamayı amaçlayan modern eğitim sisteminin temel gelişim yönlerinden biridir. Daha önce bu tür çocukların ayrı eğitim almasının uygun olduğu düşünülse de, araştırmalar onların hem sosyal hem de akademik olarak diğer çocuklarla birlikte öğrenmelerinin daha etkili olduğunu göstermektedir. Bu yaklaşım, çocuklarda karşılıklı saygı, anlayış ve sosyal entegrasyonu güçlendirir. Azerbaycan'da kaynaştırma eğitiminin geliştirilmesi, devlet politikasının önemli yönlerinden biridir. Özellikle 2018-2024 yıllarını kapsayan Devlet Programı, bu alanda önemli adımlar atılması için koşullar yaratmıştır. Program çerçevesinde öğretmen eğitimi, öğretim materyallerinin hazırlanması ve kamuoyu bilinçlendirme çalışmaları yürütülmüştür. Ayrıca, uluslararası kuruluşlarla işbirliği, kapsayıcı eğitimin geliştirilmesine ek bir ivme kazandırmıştır.

Ancak, bazı zorluklar hala devam etmektedir. Okullardaki yetersiz fiziksel ortam, öğretmenlerin yetersiz eğitimi ve toplumdaki kalıplaşmış yargılar, kapsayıcı eğitimin tam olarak uygulanmasını engellemektedir. Ayrıca, bazı durumlarda çocukların bireysel ihtiyaçlarını karşılamada zorluklar ortaya çıkmaktadır.

Müasir təhsilin inkişaf tendensiyalarından danışarkən inklüzivlik proseslərinə toxunmamaq mümkün deyil. Uzun müddət belə hesab olunub ki, əlilliyi olan uşaqlar ayrılıqda təhsil almalıdırlar. Lakin tədqiqatlar göstərdi ki, bu cür uşaqların digər uşaqlarla birgə, eyni sinifdə həyata keçirilən dərs prosesində iştirakı bu prosesin bütün iştirakçılarına təhsil və sosial baxımdan fayda verir. İnklüziv təhsil bir seçim deyil, BMT-nin “Uşaq hüquqları haqqında” və “Əlillərin

hüquqları haqqında” Konvensiyaları ilə müəyyən edilmiş və hal hazırda Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsbit olunmuş uşaq hüququdur .

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3498 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın qəbul edilməsinin əsas məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir (Şəfiyeva, 2012)

Bu Sərəncamın icrası ilə inklüziv təhsil sahəsində kadr potensialının gücləndirilməsi, dərslik və digər əyani vəsaitlərin hazırlanması, inklüziv cəmiyyətin formalaşdırılması üçün ictimai maarifləndirmənin genişləndirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması və digər istiqamətlərdə işlər görülmüşdür. İnklüziv təhsil zamanı xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqlar kollektivə uyğunlaşır, cəmiyyətə inteqrasiya edir. Onlarda özünə inam hissi formalaşır. (Qasımov, Kərimova, Sultanova, Ağayeva, 2006) Onlar cəmiyyətin digər üzvləri ilə bərabər hüquqlu şəxsiyyət kimi formalaşır. Gələcəkdə onların məşğulluq kimi problemi də aradan qaldırılmış olur. Uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir. Müasir dövrdə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə BMT-nin Uşaq Fondunun (UNICEF) birgə əməkdaşlığı çərçivəsində inklüziv təhsil ilə bağlı görülmüş işlər və bu sahədə beynəlxalq təcrübə təhlil edildikdə, Azərbaycanda əlilliyi olan şəxslərin təhsilinin təşkili yeni mərhələyə keçdiyi görünür. Bu mərhələdə xüsusi təhsil sahəsində köklü islahatların aparılması, sağlamlıq imkanları məhdud uşaqların təhsilə 100 cəlb olunması qaydalarının yenilənməsi, onların ümumi təhsil müəssisəsində inklüziv təhsilə cəlb edilməsi və inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi nəzərdə tutulmuşdur. UNICEF Azərbaycanda üç əsas sahəni hədəfə götürməklə inklüziv təhsilə dəstək verir: - qanunvericilik bazasının təkmilləşdirilməsi; - müəllimlərin təlimləndirilməsi daxil olmaqla təhsilin məzmununun gücləndirilməsi; - valideynlərə və məktəblilərə inklüziv təhsilə müsbət münasibətin aşılanması . (Hüseynova, İmanova, 2020) Sağlamlıq imkanları məhdud uşaqların təhsil fəaliyyətinə daxil edilməsi və dəstəklənməsi üçün təhsil müəssisəsi tərəfindən zəruri addımlar müəyyənləşdirilir. Təhsil müəssisələrinin kollektivi inklüziv təhsili həyata keçirməyə hazır olmaqdan ötrü ilk növbədə inklüziv təcrübənin əsas dəyərləri və məqsədləri ilə tanış olmalıdır. Təcrübə göstərir ki, bu dəyərləri qəbul edən müəllimlər inklüziv təhsilə kifayət qədər ehtiyatla və hətta mühafizəkar yanaşırlar. Bu şəraitdə müəllimin xüsusi təhsil ehtiyacı olan uşaqlarla işləməyə hazırlığı problemi yaranır, inklüziv mühitdə işləmək üçün bilik və bacarıqların olmaması, psixoloji maneələrin və stereotiplərin mövcudluğu aşkar edilir. Azərbaycan hökuməti əlilliyi olan uşaqların hüquqlarının inklüziv təhsil vasitəsilə dəstəklənməsi öhdəliyini öz üzərinə götürsə də, bu öhdəliyin yerinə yetirilməsi istiqamətində bir sıra çətinliklər hələ də qalmaqdadır: - əlilliyi olan şagirdlərin təhsil prosesində digər şagirdlərlə bərabər səviyyədə iştirakını təmin edən qanunvericilik bazasının və siyasətlərin mövcud olmaması; - məktəblərdə əlilliyi olan uşaqlar üçün fiziki şəraitin mövcud olmaması; - müəllimlərin əlilliyi olan uşaqlarla iş təcrübəsinə, həmçinin sinif otağında köməkçi texnologiyalardan istifadə üçün zəruri biliklərə malik olmaması; - əlilliyi olan uşaqların təcrid olunmasına səbəb olan yanlış məlumatlardan qaynaqlanan münasibətlərin və dərin kök salmış sosial normaların mövcudluğu. Sağlamlıq imkanları məhdud uşaqların təhsil müəssisəsinin təhsil fəaliyyətinə cəlb edilməsi üzrə iş bir sıra mərhələləri əhatə

edir: - əsas normativ sənədlərin müəyyən edilməsi; - uşağın təhsil və tərbiyə hüquqlarının təmin edilməsi; - təhsil müəssisəsinin şagirdlərinin təlimi, təhsili və inkişafı üçün şəraitin təmin edilməsi sağlamlıq vəziyyətinə, fərdi və şəxsi xüsusiyyətlərinə, intellektual və idrak sferalarının inkişaf xüsusiyyətlərinə, meyl və qabiliyyətlərinə, maraqlarına uyğun olaraq; - təhsil proqramı və ya uyğunlaşdırılmış təhsil proqramı əsasında sağlamlıq imkanları məhdud uşaqlar üçün təhsil marşrutunun seçilməsi məsələsinin həlli; - sağlamlıq imkanları məhdud uşağın inklüziv qrupa daxil olması ilə əlaqədar qalan uşaqlarının müşayiəti istiqamətinin müəyyən edilməsi; - sağlamlıq imkanları məhdud uşaqların tərbiyəçiləri və valideynləri, qrupda iştirak edən adi uşaqların valideynləri.(Hüseynova ,İmanova, 2020) Maraqlıdır ki, inkluziya istiqamətində ən qəti və tez dəyişikliklər dünyanın kasıb ölkələrində müşahidə olunur. Həmin ölkələrdə məhdud imkanları olan uşaqların inteqrasiyası ilə bərabər qızların da ümumtəhsil məktəblərinə inteqrasiya halları baş verir. Bu dinamika beynəlxalq təşkilatların proqramlarının adı çəkilən ölkələrdə effektiv fəaliyyəti ilə əlaqədardır. Müasir tədqiqatçılar qeyd edirlər ki, bu istiqamətdə mükəmməl qanunvericiliyə malik ölkələr sırasına Kanadanı, Kipr, İsveç, Norveç, İspaniya, ABŞ və Böyük Britaniya kimi ölkələri aid etmək olar. Amma mükəmməl qanunvericiliyin olması heç də bu təhsilin dəstəklənməsi və işləməsi demək deyil. Təcrübə göstərir ki, yalnız mükəmməl qanunvericiliyin mövcudluğu kifayət etmir. Məsələn, Almaniya mükəmməl qanunvericilik bazasına malikdir, amma əksər intellektual pozuntulu uşaqlar xüsusi məktəblərdə oxuyurlar. İndiyədək Almaniyada sağlamlıq imkanları məhdud və belə bir məhdudiyyəti olmayan uşaqlar müxtəlif məktəblərdə təhsil alırdılar. Bununla belə, artıq bir müddətdir ki, icbari islahedici təhsil ləğv edilib və hər bir 101 uşağa ümumtəhsil məktəbinə getməyə imkan yaradılıb. Yəni təmin edilən birgə təlimdə uşaqlar qarşılıqlı əlaqədə olacaqlar. Eyni zamanda, sağlamlıq imkanları məhdud uşaqlar gələcəkdə nisbətən müstəqil həyata hazırlana biləcəklər. Qeyd etmək lazımdır ki, çoxsaylı tənqidçilər birgə təhsili mənfi cəhət kimi görürlər. Əlilliyi olan uşaq sosial pedaqoqların bütün səylərinə baxmayaraq, tədris materialını mənimsəmədikdə, kursu uğurla başa vurmaq bir yana qalsın, bu, valideynlərin və uşağın özünün məyus olmasına səbəb olur. Korreksiya məktəbində, inteqrasiya dərslərində olduğu kimi uşağın güclü tərəflərini fərdi şəkildə inkişaf etdirmək və zəif cəhətlərini aradan qaldırmaq demək olar ki, mümkün deyil. Uşaqdan gizlətmək mümkün deyil ki, oxumaq onun üçün sinif yoldaşlarından qat-qat çətindir. Amma bir halda ki, inklüziya (daxiletmə) – bütün vətəndaşların, ilk növbədə, əlilliyi olan bütün insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesi hesab edilir, onda inklüziv təhsil hamının, ilk növbədə, sağlamlıq imkanları məhdud şəxslərin təhsilə ehtiyacını ödəyən ümumi təhsilin inkişaf mərhələsidir. Burada söhbət bütün vətəndaşların, o cümlədən müəyyən səbəblərdən fiziki və əqli inkişafında çətinlikləri olan şəxslərin ictimai həyatda aktiv iştiraka qatılmağından gedir. Təhsil sahəsi istisnasız olaraq bütün uşaqların və böyüklərin ictimai həyatda bərabərhüquqlu iştirakını təmin etməlidir. “İnklüziv təhsil” anlayışının geniş izah edilməsinə ehtiyac o səbəbdən yaranmışdır ki, təhsil işçiləri, idarəedici və digər orqanlar, təhsil siyasətini hazırlayan şəxslər qarşılıqlı əməkdaşlıq və dialoq üçün ümumi diskursiv sahəyə (diskursiv sahə intellektual və sosial səhələrin qarışığıdır ki, burada sosial əlaqələr müəyyən bir təcrübəyə çevrilir) malik olsunlar. Beynəlxalq ictimaiyyət “inklüziya” terminini ictimai həyata aktiv qatılma kimi izah edir. Təhsil mühitinə inklüziv yanaşma zamanı ümumilikdə məktəbin şagirdləri və onların valideynləri sağlamlıq imkanları məhdud uşaqları cəmiyyətin üzvü kimi qəbul etməyə başlayırlar. Sağlamlıq imkanları məhdud insanların baxışları da ətraf mühit üçün əhəmiyyət kəsb etməyə başlayır, hər şeydən öncə isə, onlar artıq korreksiyaedici xüsusi məktəblərdə olduğu kimi, evdən təcrid olunaraq yaşamırlar. İnklüziya həm

də insan hüquqlarının qorunması mexaniminin elementi, hamının təhsilinin təmin olunması prosesi və hamı üçün məktəbin təşkili kimi başa düşülür. Müasir cəmiyyətdə sağlamlıq imkanları məhdud insanlara dəstək ictimai səviyyədə maarifləndirici, məlumatlandırıcı işlərin görülməsini də tələb edir. Çünki ictimai şüurun formalaşdırılması inklüziv təhsil sahəsində siyasətin dəstəklənməsində böyük əhəmiyyət daşıyır. Yalnız əlilliyi olanlara münasibətdə ictimai fikir dəyişdiyi, həmçinin əlverişli və təhlükəsiz müht yaradıldığı zaman uşaqların və böyüklərin iştirakına imkan yaranacaqdır. İnklüziya sahəsində araşdırmalar qeyd edir ki, cəmiyyət əlilliyi olan uşaqların assimilyasiyasına neytral və ya passiv mərhəmət mövqeyi nümayiş etdirir: belə uşaqların problemi ətrafdakılar tərəfindən mühitin öhdəliyi kimi deyil, uşaqların öz çətinlikləri kimi qəbul edilir. Cəmiyyətdə sağlamlıq imkanları məhdud uşaqları əhatə edən əksəriyyət onlara qarşı passiv tolerantlıq göstərir. Buna görə də inklüziv təhsil bu gün yalnız hamı üçün təhsil sisteminin möhkəmlənməsi prosesi kimi deyil, həm də sağlamlıq imkanları məhdud insanların diskriminasiyasının aradan qaldırılmasının səmərəli vasitəsi kimi qəbul edilir İnklüziv siniflərdə müəllimin həmin uşaqların valideynləri ilə əməkdaşlığı xüsusi ilə vacibdir. Valideyn ilə əməkdaşlıq dedikdə, onların müəllimə uşağın qiymətləndirilməsi, onun inkişaf səviyyələrinin müəyyənləşdirilməsində, öyrənmə prosesində iştirakı və əlilliyi olan uşağın növbəti inkişaf hədəflərinə çatmaq üçün sistemli yanaşmada iştirakı nəzərdə tutulur. Əslində, tək əlilliyi olan uşaqlar üçün deyil, həm də müxtəlif yaşlı əlilliyi olmayan uşaqların da öyrənmə prosesində valideynin iştirakı onların akademik və həyat üçün lazımi bacarıqların əldə olunmasında mühüm yer alır. Odur ki, əlilliyi olan uşaqlarla iş təcrübəsi ilə bağlı müəllimlərin qarşısında qoyulan tələblər bu gün çox aktualdır.

Ədəbiyyat:

1. Hüseynova , N. İmanova, L.(2020) İnkluziv təhsilə cəlb olunan şəxslərlə işin aparılması . Dərs vəsaiti. Bakı, səh (15-20)
2. Qasımov,S., Kərimova, E., Sultanova,İ ., Ağayeva,T. (2006) İnkluziv təhsil. Bakı, səh (32-35)
3. Şəfiyeva,E.İ.(2012) Anomal inkişafın psixlogiyası. Bakı ADPU-nun Mətbəsi, səh (55-57)
4. İnklüziv təhsil - oxu materialları Bakı 2018, səh (48-50)
5. http://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv tahsil.pdf

İNTELLEKTUAL PROBLEMLİ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARLA HƏYATA KEÇİRİLƏN KORREKSİYA İŞLƏRİ

Mətləb Bəşir oğlu Bayramov
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
metlebbayramov1994@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0008-2116-6671

Açar sözlər: intellektual problem, məktəbəqədər yaş, korreksiya, uşaq inkişafı, təlim.

Xülasə. Korreksiya (lat. correctio – düzəltmək) pedaqogikada uşaqların psixofiziki inkişafında çatışmazlıqları aradan qaldırmaq üçün tətbiq olunan metod və tədbirlər sistemidir.

İntellektual problemi olan (SİMŞ) uşaqlarla korreksiya-kompensasiya proqramları məktəbəqədər və məktəbyaşlı dövrləri əhatə edir. Məktəbəqədər yaşlı uşaqlar üçün diferensiallaşdırılmış müəssisələr və xüsusi təlim proqramları mövcuddur, uşaqlar defektin xarakterinə görə uyğun qruplarda tərbiyə alırlar.

Korreksiya işinin əsas məqsədi uşağın intellektual, psixi, fiziki və emosional inkişafını təmin etməkdir. Bunun üçün hərəki bacarıqların, kiçik motorikanın, məkanda oriyentasiyanın, hafizə və diqqətin inkişafı üçün oyun və məşğələlərdən istifadə olunur. Təsviri sənət məşğələləri, applikasiya və digər yaradıcı fəaliyyətlər uşağın idrak və sensor qabiliyyətini stimullaşdırır.

Nitq inkişafı loqopedik məşğələlərlə dəstəklənir; burada leksik və qrammatik vərdişlərin formalaşması, səs tələffüzünün düzəldilməsi və ifadəli nitq bacarıqları inkişaf etdirilir. Kiçik motorika və əl-barmaq hərəkətləri nitq və təfəkkürün inkişafı ilə sıx bağlıdır.

Korreksiya prosesində oyun əsas rol oynayır: hərəki, idman, didaktik, süjetli-rollu və digər oyunlar uşağın psixofiziki və sosial bacarıqlarını inkişaf etdirir. Bu fəaliyyətlər uşaqlarda özünütənzimləmə, kollektivlik və maraq oyadır, gələcək təlim uğurları üçün zəmin yaradır. Korreksiya işi fərdi və frontal formada, kompleks yanaşma prinsiplərinə əsaslanır, pedaqoq, loqoped, psixoloq, həkim və valideyn əməkdaşlığı ilə həyata keçirilir.

Keywords: intellectual disability, preschool age, correction, child development, education.

Summary. Correction (Latin *correctio* – “to correct”) in pedagogy is a system of methods and interventions used to eliminate deficiencies in children’s psychophysical development. Correctional–compensatory programs for children with intellectual disabilities (ID) cover both preschool and school-age periods. For preschool children, there are differentiated institutions and special educational programs, where children are placed in appropriate groups according to the nature of their impairment.

The main goal of correctional work is to ensure the child’s intellectual, psychological, physical, and emotional development. For this purpose, games and activities are used to develop motor skills, fine motor abilities, spatial orientation, memory, and attention. Art activities, appliqué, and other creative tasks stimulate the child’s cognitive and sensory abilities.

Speech development is supported through speech therapy sessions, where lexical and grammatical skills are formed, sound pronunciation is corrected, and expressive language abilities are developed. Fine motor skills and hand–finger movements are closely connected with the development of speech and thinking.

Play plays a key role in the correction process: motor, sports, didactic, role-playing, and other types of games enhance children’s psychophysical and social skills. These activities foster self-regulation, cooperation, and interest, creating a foundation for future academic success. Correctional work is carried out individually and in group settings, based on a comprehensive approach and implemented through collaboration among teachers, speech therapists, psychologists, doctors, and parents.

Anahtar kelimeler: zihinsel problem, okul öncesi yaş, düzeltme, çocuk gelişimi, eğitim.

Özet. Korreksiyon (Latince *correctio* – “düzeltmek”) pedagojide çocukların psikofiziksel gelişimindeki eksiklikleri gidermek için uygulanan yöntem ve etkinlikler sistemidir. Zihinsel yetersizliği olan (ZY) çocuklarla yürütülen düzeltme–telafi programları okul öncesi ve okul çağı dönemlerini kapsar. Okul öncesi çocuklar için farklılaştırılmış kurumlar ve özel eğitim programları mevcuttur; çocuklar, engelin türüne göre uygun gruplarda eğitim alırlar.

Korreksiyon çalışmalarının temel amacı, çocuğun zihinsel, psikolojik, fiziksel ve duygusal

gelişimini sağlamaktır. Bu amaçla motor becerilerin, ince motor becerilerin, mekânda yönelimin, hafıza ve dikkatin geliştirilmesi için oyunlar ve etkinliklerden yararlanılır. Görsel sanat etkinlikleri, aplikasyon ve diğer yaratıcı faaliyetler çocuğun bilişsel ve duyusal yeteneklerini uyarır.

Dil gelişimi, konuşma terapisi (logopedik) çalışmalarıyla desteklenir; burada sözcük dağarcığı ve dil bilgisi becerileri geliştirilir, seslerin doğru telaffuzu sağlanır ve ifade edici dil becerileri güçlendirilir. İnce motor beceriler ve el-parmak hareketleri, dil ve düşünmenin gelişimiyle yakından ilişkilidir.

Korreksiyon sürecinde oyun temel rol oynar: hareketli, sportif, didaktik, rol yapma ve diğer oyun türleri çocukların psikofiziksel ve sosyal becerilerini geliştirir. Bu etkinlikler çocuklarda öz düzenleme, iş birliği ve ilgi oluşturur, gelecekteki eğitim başarıları için zemin hazırlar. Korreksiyonçalışmaları bireysel ve grup şeklinde, bütüncül bir yaklaşım temelinde yürütülür ve öğretmen, konuşma terapisti, psikolog, doktor ve ebeveyn iş birliğiyle gerçekleştirilir.

Korreksiya - (lat. correctio - düzəltmək və islah etmək) korreksiya pedaqogikasında şəxslərin psixofiziki inkişafı çatışmazlıqlarının aradan qaldırılması və zəiflədilməsinə yönəldilmiş pedaqoji tədbirlər sistemidir. Korreksiya metodları olduqca müxtəlifdir. SİMŞ-in yaşına, qüsurun növünə, ağırlıq dərəcəsinə və yaranma zamanına müvafiq olaraq hər uşaq üçün fərdi şəkildə seçilir.

İntellektual məhdudiyyətləri olan SİM uşaqlarla aparılan korreksiya-kompensasiya proqramları həm məktəbəqədər, həm də məktəbyaşlı şəxslərə aid işlənilib.

Məktəbəqədər yaşlı əqli cəhətdən geri qalan uşaqlar üçün xüsusi təlim və tərbiyə proqramı əsasında diferensiallaşdırılmış məktəbəqədər müəssisələr sistemi mövcuddur. Defektin xarakteri və özünü büruzəvermə səviyyəsindən asılı olaraq uşaqlar xüsusi müəssisələrdə tərbiyə alırlar. Təhsil sistemində gecə-gündüz xüsusi uşaq bağçaları və uşaq evləri şəbəkəsi vardır. Bəzi hallarda xüsusi məktəblərin nəzdində məktəbəqədər qrupların açılmasına icazə verilir. Bu məktəbəqədər müəssisələrə təlimat üzrə “Oliqofreniyanın yüngül səviyyəsinin mürəkkəbləşdirilməyən forması” diaqnozu ilə uşaqlar qəbul edilir. (Hüseynova, N. T., İmanova, L. H. 2020).

Korreksiya işinin məzmunu və metodikası hər bir uşağın fərdi xüsusiyyətləri və yaş xüsusiyyətləri nəzərə alınmaqla müəyyənləşdirilir. İntellektual problemli uşağın ali psixi funksiyalarının inkişafının stimullaşdırılması üçün aşağıdakı iş formaları tətbiq edilməlidir:

• Uşağın hərəki inkişafı: Əl-barmaq əzələlərinin möhkəmləndirilməsi və kiçik motorikanın inkişafı (plastilin, saxsı, yəni gildən yapma işlər, rezin topların sıxılması, iplərdən düyünlərin bağlanması, karton kağızların nöqtələrlə və konturlar üzrə deşilməsi, kontur və ya trafaretlə çəkmə, rəngləmə, ştrixləmə, kəsmə, kağızın əzilməsi, əyilməsi, mozaika ilə məşğələ və barmaqlarla məşğələ);

• Məkanda bələdləşmənin inkişafı üçün tövsiyə edilir: Uşağın özünün sağ və sol tərəflərinin müəyyənləşdirilməsi, güzgüdə öz əksində sağ və sol tərəflərini müəyyən etmə, şəkildə özünün sağ və sol tərəflərini müəyyən etmə, kağız üzərində aşağı-yuxarı, sağ-sol, orta və digər istiqamətlərin müəyyən edilməsi, əşyanın simmetrik çəkilməsi və nümunə əsasında hafizəyə görə taxta çubuqlardan fiqurların düzəldilməsi;

• Hafizənin inkişafı üçün bu tip oyunlar faydalıdır: Söz və rəqəmlərin təkrar edilməsi və təqdim edilən əşya və fiqurun digərləri arasından tapılması.

Təfəkkürün bütün növlərinin inkişafı üçün təsviri sənət üzrə məşğələlər çox faydalıdır. Bu rəsmlər mövzu üzrə naturadan, dekorativ və təxəyyül əsasında çəkilə bilər. Bu məşğələlər uşağın

sensor qabilliyyətini inkişaf etdirir və idrak maraqlarını oyadır. Bütün məşğələlərdə uşaqların nitqinin inkişaf etdirilməsi və korreksiya edilməsi, nitqin tənzimlənmə və planlaşdırılma funksiyalarının formalaşdırılması vacibdir. Korreksiya işi ayrı-ayrı psixi proseslər inkişafına deyil, şəxsiyyətin, bütövlükdə, inkişafına yönəldilməlidir. Uşağın intellektual geriliyinin korreksiyası prosesində onun ”Yaxın inkişaf zonası”na istinad edilməli, əmək, bacarıq və vərdişlər inkişaf etdirilməli və onlar üçün maraqlı olan fəaliyyət və intellektual oyunlara cəlb edilməlidir. İntellektual problemli uşaqlarla korreksiya işində onların şəxsiyyətinə emosional sfera vasitəsilə təsir edilməsi, o cümlədən, musiqi, materialın maraqlı formada izahı, həmçinin, bu cür uşaqların bütöv ailədə, yəni digər uşaqlarla birgə tərbiyə olunması, qeyri-ənənəvi təlim formaları (krossvordlar, başsındırmalar və s.), biliyin yoxlanması və qiymətləndirilməsində mülayim sistem çox vacib əhəmiyyətə malikdir.

Əqli gerilikli uşaqların dərketmə inkişafından danışılarkən belə bir fikir söylənilir: “Uşağın ağlı barmaqlarının ucunda yerləşir”. Bu ifadə ilə uşağın necə inkişaf etdirilməsi izah olunur. Çünki məhz əldə çoxlu sayda sinir toxumaları yerləşir. Buradan informasiya daima beyinə ötürülür. Əşyaların hərtərəfli müayinəsi və əl ilə yoxlanmasından sonra uşağın şüurunda həmin əşyanın xassələri və keyfiyyətləri haqqında bütöv təsəvvür yaranır. Sübut edilib ki, əlin inkişafı ilə nitq və təfəkkürün inkişafı arasında sıx əlaqə mövcuddur. Kiçik motorika və əl hərəkətlərinin koordinasiyasının inkişaf səviyyəsi intellektual inkişafın göstəricilərindən biridir. Buna görə də əqli gerilikli uşağın həyat keyfiyyəti kiçik motorikanın inkişafından birbaşa asılıdır. Əqli gerilikli uşaqlarla aparılan korreksiya işi iş prosesində daha çox istifadə edilən metod və qaydalar bunlardır:

1. Dənli bitkilərlə oyunlar . İstənilən yaradıcı fəaliyyət, o cümlədən, applikasiya uşağın intellektual inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Onun ətraf mühit, əşyalar və onların ölçüləri, rəngləri və formaları haqqında təsəvvürlər formalaşdırılır və uşaqların biliyi zənginləşdirilir. Applikasiya düzəldilərkən formalar və rənglərin dəyişkənliyinə (məsələn, yetişmiş və ya kal, yəni yetişməmiş meyvə, giləmeyvə, ilin müxtəlif fəsillərində bitkilər və s.) diqqət yetirilməlidir. Applikasiya düzəldilərkən uşaqlar müxtəlif materiallarla (kağız, dən, gil, balıqqulağı və s.) tanış olur və onların xüsusiyyətlərini öyrənirlər. Bütün bunlar onların əqli inkişafına təkan verir. Beləliklə, applikasiya:

• Dərketmə sferası inkişaf etdirilir;

• Bədii təsəvvür və estetik zövq inkişaf etdirilir;

• Konstruktiv təfəkkür inkişaf etdirilir – uşaq iş prosesində hissələrdən bütöv yığır;

• Kiçik motorika və taktil duyğu inkişaf etdirilir, xüsusilə, kağızdan başqa, digər materiallardan (məsələn, parça, dən, qurudulmuş güllər, saman və s.) istifadə edilir;

• Rəng və formaların müəyyən edilməsi və öyrənilməsinə kömək edilir.

2. “Dar dəliyə dənin düşməsi” metodikası. Bu tapşırığın yerinə yetirilməsi prosesində uşaqda barmaqların elastikliyi, hərəkətliliyi, dəqiqlik və koordinasiya inkişaf etdirilir.

3. “Müxtəlif dənli bitkilərin çeşidlənməsi” . Bu tapşırıq uşaqda diqqət və işin tamamlanmasına qədər bir yerdə oturma bacarığını inkişaf etdirir.

“Quru hovuz” (basseyn). Bir həcmli qab götürülür və müxtəlif təbiət materialları ilə (məsələn, lobya, şabalıd, göbələklər və s.) doldurulur. Təbiət materialları ilə birlikdə qaba müxtəlif xırda əşyalar da yerləşdirilir. Məsələn, kiçik oyuncaqlar, qəpiklər, düymələr, muncuqlar və s.. Uşaq həmin hovuzdan əşyaları götürməlidir. Bu cür tapşırıqlar əla masaj effekti verir, həmçinin, quru hovuzlar uşağın psixo-emosional vəziyyətinə müsbət təsir göstərir, kiçik motorikanı inkişaf

etdirir və hərəkətlərin koordinasiyasını yaxşılaşdırır. Uşaqlar müxtəlif formalı və ölçülü əşyaları ayırd etmək və yadda saxlamağı öyrənirlər.

İntellektual problemli uşaqlar üçün məktəbəqədər müəssisədə korreksiya işinin istiqamətləri aşağıdakılardır:

1. Nitq və ünsiyyətin inkişafı;
2. Əşyalı fəaliyyətin inkişafı;
3. Dərketmə funksiyalarının inkişafı;
4. Uşaq fəaliyyətinin bütün növlərinin inkişafı;
5. Əqli gerilikli uşağın şəxsiyyətinin inkişafı.

Korreksion işdə əqli gerilikli məktəbəqədər yaşlı uşaqların psixi və fiziki inkişafında olan çatışmazlıqların aradan qaldırılması və ya yüngülləşdirilməsinə yönəldilən psixoloji pedaqoji və tibbi vasitələr sistemi birləşdirilir. Təlim əqli gerilikli uşaqların qüsurlarının korreksiyasında mühüm vasitədir. Təlim prosesində intellektual problemli uşaqlarda mövcud qüsurların bir qismi aradan qaldırılır, bir qismində yüngülləşdirilir, digərlərində isə qarşısı alınır. Təlim və inkişaf arasında qarşılıqlı əlaqə mövcuddur ki, onlar bir-birini tamamlayır. Korreksiya işi frontal və fərdi formalarda aparıla bilər. (Əliyeva H. İ. 2022).

Məktəbəqədər yaşlı əqli cəhətdən geri qalan uşaqlarla aparılan korreksiya işinin əsas istiqamətləri aparılan korreksiya işinin əsas istiqamətləri aşağıdakılardır:

1.Hərəkətlər və sensomotor inkişafın təkmilləşdirilməsi:

• Əl və barmaqların kiçik motorikasının inkişafı;
• Artikulyasiya motorikasının inkişafı.

2. Psixi fəaliyyətin ayrı-ayrı tərəflərinin korreksiyası:

• Görmə qavrayışı və yanaşmanın inkişafı;
• Görmə hafizəsi və diqqətinin inkişafı;
• Əşyaların xüsusiyyətləri (rəng, forma və ölçü) haqqında ümumiləşdirilmiş təsəvvürlərin formalaşdırılması;
• Məkan təsəvvürləri və bələdləşmənin (oriyentasiyanın) inkişafı;
• Zaman təsəvvürlərinin inkişafı;
• Eşitmə diqqəti və hafizəsinin inkişafı;
• Fonetik-fonematik qavrayışın inkişafı və səs analizinin formalaşdırılması.

3. Əsas təfəkkür əməliyyatlarının inkişafı:

• Müqayisəli təhlil vərdişlərinin inkişafı;
• Qruplaşdırma və təsnifləşdirmə vərdişlərinin inkişafı;
• Şifahi və yazılı təlimat əsasında işləmə bacarığının inkişafı;
• Fəaliyyətin planlaşdırılması bacarığının inkişafı.

4. Təfəkkürün müxtəlif növlərinin inkişafı:

• Əyani-obrazlı təfəkkürün inkişafı;
• Sözlü-məntiqi təfəkkürün inkişafı.

5. Emosional-şəxsiyyət sferasının inkişafında pozulmaların korreksiyası:

• Adekvat ünsiyyət vərdişlərinin inkişafı.

6. Nitq inkişafı.

7. Ətraf aləm haqqında təsəvvürlərin genişləndirilməsi və lüğətin zənginləşdirilməsi.

Məlumdur ki, əqli gerilikli uşaqların əksəriyyətində nitq qüsurları müşahidə edilir.

Buna görə də bu kateqoriyadan olan uşaqlarla aparılan korreksiya işinin mühüm tərkib

hissəsini loqopedik müdaxilə təşkil edir

Loqopedik korreksiya işinin məqsədi leksik-qrammatik vərdişlərin fonetik-fonematik komponentlərin inkişafıdır. Loqopedik korreksiya işinin əsas vəzifələri:

1. Lüğətin zənginləşdirilməsi və aktivləşdirilməsi;
2. Səs tələffüzünün korreksiyası;
3. Dilin leksik və qrammatik quruluşunun mənimsənilməsi;
4. Rabitəli nitqin inkişafı.

İntellektual problemli məktəbəqədər yaşlı uşaqlar üçün müəssisələrdə nitq inkişafı üzrə müxtəlif işlər aparılır. Səs tələffüzü və lüğət ehtiyatının zənginləşdirilməsi, ifadələrin düzgün qurulması və şəkil üzrə mürəkkəb olmayan hekayələrin tərtib edilməsinə xüsusi diqqət ayrılır.

Qarşıya qoyulan konkret loqopedik məşğələlər aşağıdakı tiplərə bölünür:

1. Dilin leksik-qrammatik quruluşunun formalaşdırılması üçün məşğələlər;
2. Lüğətin ehtiyatının formalaşdırılması üçün nəzərdə tutulan məşğələlər. Bu məşğələlərin əsas vəzifələri aşağıdakılardır:

• Nitqi anlamanın inkişafı;
• Lüğət ehtiyatının genişləndirilməsi və dəqiqləşdirilməsi;
• Ümumiləşdirici anlayışların formalaşdırılması;
• Sözdüzəltmə və sözdəyişmə üzrə praktik vərdişlərin formalaşdırılması;
• Sadə cümlələr və bəzi mürəkkəb cümlələrdən istifadə bacarığının inkişafı.

Nitqin səs tələffüzü tərəfinin formalaşdırılması üzrə məşğələlərin əsas vəzifələri bunlardır:

• Düzgün səs tələffüzünün formalaşdırılması;
• Fonematik eşitmə və qavrayışın inkişafı;
• Müxtəlif səs və heca quruluşlu sözlərin tələffüzü vərdişlərinin formalaşdırılması;
• Nitqin ifadəliliyi və səlisliyinə nəzarətin inkişaf etdirilməsi;
• Səs analizi və sintezi vərdişlərinin mənimsənilməsinə hazırlıq.

Məlumdur ki, nitq inkişafı ilə kiçik motorikanın inkişafı arasında əlaqə vardır. Məhz buna görə də əqli gerilikli uşaqlarda əl-barmaq motorikası inkişaf etdirilməlidir. Kiçik motorikanın inkişafı baş beynin nitq hərəkət mərkəzlərinin fəallaşdırılmasına səbəb olur ki, bu da nitq funksiyasının inkişafını stimullaşdırır. Kiçik motorikanın inkişaf etdirilməsi məqsədi ilə aşağıdakı tip tapşırıqlardan istifadə edilir:

1. Kubiklərdən ev və qalaların quraşdırılması (əvvəl nümunəyə, sonralar isə hafizəyə əsaslandırılaraq);
2. Yığılma oyuncaqların açılması və yığılması (məsələn, matryoşka, piramida, fincanlar və kubiklər);
3. Kibrit çöpləri və ya çubuqlardan həndəsi fiqurların düzəldilməsi;
4. Əşyavi konturların çəkilməsi;
5. Konturlarla verilmiş əşya təsvirlərinin rəngli karandaşlarla rənglənməsi;
6. Düymələrin açılması və bağlanması;
7. Mozaika ilə iş

Nitqin müşayiəti olmadan barmaqlarla oyunların keçirilməsi. Məsələn, barmaqların köməyi ilə eynək düzəltmək və ya stol düzəltmək.

Məktəbəqədər yaşlı əqli gerilikli uşaqların qüsurlarının korreksiyası fəaliyyətin oyun və təlim formalarının köməyi vasitəsi ilə aparılır. Təlim prosesi fərdi və diferensial yanaşma, təlim tempinin aşağı salınması, təkrarlama, fəallıq və şüurluluq prinsiplərinə istinad edilməklə təşkil

olunur. Korreksiya işi həm məşğələlər prosesində, həm də məşğələdən kənar fəaliyyət formalarında, yəni loqopedik məşğələlər və ritmika məşğələlərində həyata keçirilir.

Əqli qüsurlu uşaqlarla korreksiya işinin təşkili kompleks şəkildə həyata keçirilməlidir. Burada psixoloq, korreksiyaedici pedaqoq, sosial pedaqoq və tibb mütəxəssisləri birgə fəaliyyət göstərməlidirlər. Məlumdur ki, məktəbəqədər yaş dövrü üçün aparıcı fəaliyyət məhz oyundur. Əqli gerilikli uşaqlar oyun prosesində hərtərəfli inkişaf edir. Oyun təlim-tərbiyənin ən təsirli vasitələrindən biridir. Buna görə də didaktik, süjetli-rollu, hərəki və digər oyunlardan istifadə edilməlidir. Uşaqların inkişafı üçün xüsusilə, rollu oyunların əhəmiyyəti vardır. Oyun prosesində uşaqların psixofiziki inkişafı və qüsurlarının korreksiyası üçün əlverişli şərait yaradılır. Uşaqlarda fəallıq, təşəbbüskarlıq və müstəqillik tərbiyə olunur. Oyun növləri müxtəlifdir: hərəki, idman, didaktik, süjetli-rollu (yaradıcı), diaqnostik, inkişafetdirici korreksiya, oyun-ekskursiyalar, oyun-dramlar, oyun-səhnəciklər və s. Hər birinin uşağın inkişafında mühüm rolu vardır. Oyun prosesində istifadə olunan oyuncaqlar, xüsusilə, korreksiya müalicəvi əhəmiyyətə malik olmalıdır. Bu oyuncaqlara aiddir: tikanlı üzüklər, toplar, sensor lövhə, səsli toplar, yumşaq, sökülüb-yığılan gəlinciklər və Segen lövhələri.

Bu metodikalardan hər bir dərəcədən olan əqli gerilikli uşaqlarla korreksion inkişafetdirici prosesdə istifadə edilir. Oyun prosesində uşaq şəxsiyyətinin fəaliyyətdə özünütənzimləmə xüsusiyyəti formalaşdırılır və kollektivlilik hissi yaradılır.

Əqli qüsurlu uşaqlarla aparılan korreksiya işinin ilk əsas vəzifəsi müxtəlif dərketmə prosesləri və əməliyyatlarının stimullaşdırılmasıdır. Korreksiya tərbiyəvi işin əsas məqsədi isə intellektual problemli uşaqlarda özünəxidmət vərdişləri və normativ davranış qaydalarının formalaşdırılmasıdır.

Psixokorreksiyanın prinsipləri bunlardır:

1. Fəaliyyətdə yanaşma – psixokorreksiya prosesi intellektual problemli uşağın yaşına müvafiq fəaliyyət növündən istifadə edilməklə aparılmalıdır;

2. Kompleks yanaşma. Bu prinsipdə pedaqoq, loqoped, həkim və valideynlərin sıx əlaqədə olması tələb edilir.

Beləliklə, intellektual problemli məktəbəqədər yaşlı uşaqlarla aparılan korreksiya işi onların psixi, fiziki, emosional və sosial inkişafının təmin olunmasında mühüm rol oynayır və gələcək təlim uğurlarının əsasını təşkil edir. (Ağayeva, T. H. 2020)

Ədəbiyyat:

1. Hüseynova, N. T., & İmanova, L. H. (2020). Korreksiya işlərinin həyata keçirilməsi. Bakı.
2. ARTN, & ARTİ. (2019). Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla korreksiya işinin təşkili. Bakı.
3. ARTN, & ARTİ. (2020). Korreksiya pedaqogikasında yeni üsulların tətbiqi və fəaliyyətlərin təkmilləşdirilməsi. Bakı.
4. ARTN, & ARTİ. (2020). Korreksiya işlərinin həyata keçirilməsi. Bakı.
5. Əliyeva, H. İ. (2022). Psixokorreksiyaya giriş. Bakı.
6. Əmrahlı, L. Ş. (2023). Psixokorreksiya və sosial terapiya (dərs vəsaiti). Bakı.
7. Məlikov, M. Ş., & Ağayeva, T. H. (2024). Əqli gerilikli uşaqların təlim-tərbiyə işinin xüsusiyyətləri. Bakı.
8. Hüseynova, N. T. (2017). İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası (dərs vəsaiti). Bakı.

9. Hüseynova, N. T., & Məlikov, M. Ş. (2018). Xüsusi pedaqogikanın müasir problemləri (dərs vəsaiti). Bakı.

10. Ağayeva, T. H. (2021). Korreksiyaedici xidmətin tarixi və metodologiyası (dərs vəsaiti). Bakı.

11. Ağayeva, T. H. (2020). Korreksiyaedici pedaqogika (dərslik). Bakı.

12. Nağıyeva, V. Q., & Əliyeva, M. (2023). Psixokorreksiyanın əsasları. Bakı.

NEYROMÜXTƏLİFLİK PRİZMASINDA İKİLİ FƏRQLİLİK (2E): İSTEDAD VƏ ÖYRƏNMƏ ÇƏTİNLİYİNİN PARADOKSAL KƏSİŞMƏSİ

Zeynəb İsa qızı Məmiyeva
Azərbaycan Respublikası
Bakı Slavyan Universiteti
zeyneb.isali@gmail.com
ORCİD ID:0000-0003-1594-6175

Açar sözlər: 2e öyrənənlər, asixron inkişaf, inklüziv metodika, ikili fərqlilik, neyromüxtəliflik.

Xülasə. Uzun illər boyu inklüziv təhsil yalnız "defisit yönümlü" model üzərində qurulmuşdur. Bu yeni təhsil modelində əsas diqqət uşağın bioloji və ya koqnitiv "çatışmazlıqlarını" bərpa etməyə, onu "standart" səviyyəyə çatdırmağa yönəlmişdir. Lakin XXI əsrin pedaqoji paradiqması bu yanaşmanı kökündən dəyişir. Müasir inklüzivlik - təkcə çatışmazlıqların bərpası deyil, hər bir uşağın fərdi-gizlin potensialının reallaşdırılması proseesidir. Müasir kontekstdə, inklüziv mühit uşağın zəif, çatışmayan tərəflərini qəbul etməklə yanaşı, onun müstəsna qəbiliyyətlərini dəstəkləməli olan çevik bir sistem kimi çıxış etməlidir.

İnklüziv təhsilin az araşdırılmış istiqamətlərindən biri olan "İkili fərqlilik"(Twice-Exceptional-2e) fenomeni elmi ədəbiyyatda ilk dəfə olaraq 1990-cı illərdə prof.Susan Baumun tərəfindən sistemləşdirilən "Güclü tərəfə əsaslanan model" (Strength-based model) çərçivəsində eyni fərdin daxilində iki ziddiyyətli xüsusiyyətin birləşməsini ifadə edir. Asinxron inkişaf edən uşaqlar üçün yeni pedaqoji yanaşmalar və fərdi inkişaf planlarının hazırlanması metodikası təklif olunur, əsas məqsədi uşaqların yüksək potensiala malik olmaqla yanaşı (ADH,disleksiya, autizm) yüksək 2e profilli şagirdlərin fərdi xüsusiyyət və potensialının itirilməməsi üçün pedaqoji diaqnostika prosesində koqnitiv müxtəlifliyin nəzərə alınmasının zəruriliyini əsaslandırır.

Keywords: asynchronous development, inclusive education, neurodiversity, twice-exceptional (2e) learners, twice-exceptionality.

Summary. For many years, inclusive education was built solely on a "deficit-oriented" model. Within this traditional framework, the primary focus was on compensating for the child's biological or cognitive "deficiencies" and bringing them up to a "standard" developmental level. However, the pedagogical paradigm of the 21st century fundamentally transforms this approach. Modern inclusivity is not merely about remediation of deficits, but rather about unfolding and realizing the unique and latent potential of every child. In the contemporary context, an inclusive environment must function as a flexible system that not only acknowledges a child's weaknesses or limitations but also supports and cultivates their exceptional abilities.

One of the less explored directions within inclusive education is the phenomenon of "Twice-Exceptionality" (2e). First systematized in the 1990s by professor Susan Baum within the framework of the "Strength-Based Model", this concept refers to the coexistence of two seemingly contradictory characteristics within the same individual. For asynchronously developing children, new pedagogical approaches and methodologies for the design of individualized development plans are being proposed. The main objective is to ensure that, while these children may possess high potential, they might also experience challenges such as ADHD, dyslexia, or autism. Thus, the pedagogical diagnostic process must take into account cognitive diversity, emphasizing the necessity of recognizing and preserving the unique profiles and potentials of highly capable 2e learners.

Anahtar kelimeler: 2e öğrenenler, eşzamansız gelişim, kapsayıcı metodoloji, ikili farklılık, nöroçeşitlilik.

Özet. Uzun yıllar boyunca, kapsayıcı eğitim yalnızca "eksiklik odaklı" model üzerine kurulmuştur. Bu yeni eğitim modelinde, ana odak noktası çocuğun biyolojik veya bilişsel "eksikliklerini" gidermek ve onu "standart" seviyeye getirmektir. Ancak, 21. yüzyılın pedagojik paradigması bu yaklaşımı kökten değiştiriyor. Modern kapsayıcılık sadece eksikliklerin giderilmesi değil, aynı zamanda her çocuğun bireysel gizli potansiyelinin gerçekleştirilmesi sürecidir. Modern bağlamda, kapsayıcı bir ortam, çocuğun zayıflıklarını ve eksikliklerini kabul ederken, olağanüstü yeteneklerini desteklemesi gereken esnek bir sistem olarak hareket etmelidir.

Kapsayıcı eğitimin en az incelenen yönlerinden biri olan "Çifte-Özel-2e" fenomeni, aynı birey içinde iki çelişkili özelliğin birleşimidir ve ilk olarak 1990'larda Prof. Susan Bauman tarafından sistemleştirilen "Güç Temelli Model" çerçevesinde bilimsel literatürde tanımlanmıştır. Asenkron gelişim gösteren çocuklar için yeni pedagojik yaklaşımlar ve bireysel gelişim planları hazırlama metodolojisi önerilmektedir; bunun temel amacı, yüksek potansiyele sahip (DEHB, disleksi, otizm) ve ayrıca yüksek 2e profiline sahip öğrencilerin bireysel özelliklerinin ve potansiyellerinin kaybolmasını önlemek için pedagojik tanı sürecinde bilişsel çeşitliliğin dikkate alınması gerekliliğini gerekçelendirmektir. Müasir təhsildə koqnitiv müxtəliflik üzrə ən nüfuzlu mütəxəssislərində biri olan, hazırda ABŞ-ın Kaliforniya ştatında yerləşən Bridges Graduate School of Cognitive Diversity in Education ali məktəbinin provostu və professoru olan Susan Baum təhsil sistemində inqilab edərək "İkili fərqlilik" (Twice-Exceptional-2e) sübut etmişdir ki, uşaqları istedadlı və ya məhdudiyyətli kimi iki qütbə bölməklə yox, iki vəziyyəti eyni fərdin beyinində mövcud ola bilər. "To be gifted and learning disabled" əsərində 2e uşaqları üçün hazırladığı xüsusi "Diaqnostika cədvəli" hazırlamışdır. Uşaqda istedad motor rolunu oynayır, çatışmazlıq isə kompensasiya edilir. (ARTİ, 2025).

Susan Baumun araşdırmasına görə 2e uşaqları üçün sinif mühitində müvəqqəti dəstək strukturları qurulmalıdır. Bunlardan biri vizual orqanizatorlardır ki, ADHD və ya planlama çətinliyi olan intellektual uşaqlar üçün vizual gedişatı dəstəkləyən - rəngli sxem və ya qrafiklər.digəri isə alternativ qiymətləndirmə meyarlarıdır ki, uşağın biliklərini ifadə etmək üçün seçim imkanı verir, disqrafiya pozuntusu olan uşağın şifahi və ya vizual təqdimat formasında təqdim etməsinə şərait yaradır. (İnklüziv təhsil: Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar, 2020).

Bu uşaqlar bir tərəfdən "istedadlı" kateqoriyasına aiddir, yəni yüksək İQ, yaradıcı, dahi yaddaş, digər tərəfdən isə "xüsusi qayğıya ehtiyacı olan " kateqoriyasına daxildirlər, yəni ADHD, disleksiya, autizm spektr pozuntusu olan uşaqları nəzərdə tutur. Azərbaycan təhsil mühiti üçün yeni

anlayış olsa da, praktiki olaraq bu sadalanan profilə uyğun gələn, amma diaqnozu qoyulmamış uşaqlara rast gəlmək olur.

Pedaqoji diaqnostika prosesində 2e uşaqlarının diqqətdən kənar qalması zamanı uşağın yüksək intellekti onun öyrənmə çətinliyini gizlədir, bəzən istər davranış, istər oxu, istərsə dəyazı problemləri onun potensialını kölgədə qoyur. Nəticədə bu uşaqlar nə istedadlılar üçün nəzərdə tutulmuş təhsil proqramına cəlb oluna bilir, nə də inklüziv təhsilin xidmətlərindən yararlana bilirlər. Yaranan diaqnostik boşluq uşağın akademik uğursuzluğundan yanaşı dərin psixoloji böhranlara (depressiya, özgüvən əksikliyi və s.) da yol açа bilir. (Açıq Cəmiyyət İnstitutu Yardım Fondu., 2011).

Asinxron inkişaf 2e uşaqlarının ən mühüm xüsusiyyətidir. Uşağın koqnitiv qabiliyyətləri xronoloji yaşından çox irəlidə olduğu halda, sosial-emosional və ya motorik bacarıqları öz yaşından geri qala bilir. Bəzən 10 yaşlı uşaq 2e uşağı kvant fizikasını anlaya bilər, lakin paltarının düymələrinin bağlamaqda və ya ssinifdə dərsə quluq asmaqda çətinlik yaşaya bilər.

Diaqnostikada "üçlük model" yalnız uşağın fərdi potensialını İQ testləri deyil, eyni zamanda multidissiplinar yanaşma tətbiq edilməlidir. Tədris proqramı uşağın "çatışmazlıqlarını" düzəltmək və ya kompensasiya etmək deyil, onun fərdi qabiliyyətini – istedadını inkişafı üzərində qurulması təmin edilməlidir. Kompensator texnologiyaları vasitəsilə 2e uşaqlarının fərdi intellektual qabiliyyətlərini ifadə etmələri üçün maneələri aşan köməkçi audial və vizual texnoloji alətlər təqdim olunmalıdır.

"İkili fərqlilik" sahəsində aparılan araşdırmalar onu göstərir ki, inklüziv sadəcə "bərabərləşdirmək, eyniləşdirmək" anlayışı deyil, hər bir uşağın unikal neynomüxtəlifliyini tanımaqdır.Müasir təhsil mühiti 2e uşaqları uçün "cərrahi müdaxilə" deyil, sanki "bağban yanaşması" ilə qurulmalıdır. Bu müasir yanaşma modeli təhsil sistemində həm inklüzivliyin keyfiyyətini artıracaq, həm də fərdi potensila malik olan kadrların itirilməsinin qarşısını alacaqdır. 2e profilli uşaqların vaxtında pedaqoji diaqnostika ilə aşkar olunması, gələcəyin yadacıcı şəxsiyyətlərin yetirilməsi, təhsil sistemində itməməsi üçün zəruri şərtdir.

Ədəbiyyat:

1. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. (2020). Bakı: UNICEF.
2. ARTİ. (2025). İnklüziv təhsil. Bakı.
3. İnklüziv təhsil: Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. (2020). Bakı.
4. Müasir Təhsilə və Tədrisə Yardım Mərkəzi. (2010). İnklüziv təhsil üzrə metodik vəsait. Bakı.
5. Hüseynova, N. T., & Məlikov, M. Ş. (2018). Xüsusi pedaqogikanın müasir problemləri. Bakı: ADPU.
6. Qasımov, S., Kərimova, E., Sultanova, İ., & Ağayeva, T. (2006). İnklüziv təhsil: Müəllimlər, tərbiyəçilər, tibb işçiləri və psixoloqlar üçün vəsait. Bakı.
7. Rüstəmova, L. N., & Hüseynova, N. T. (2007). Xüsusi pedaqogika. Bakı: ADPU.
8. Hüseynova, N. T., & Məlikov, M. Ş. (2018). Xüsusi pedaqogikanın müasir problemləri. Bakı: ADPU.
9. Açıq Cəmiyyət İnstitutu Yardım Fondu. (2011). Uşaq inkişafı metodikası. Bakı: Qanun nəşriyyatı.
10. Sinifdə universal öyrənmə dizaynı. (2012).

11. Sağlamlığı məhdud olan uşaqlara Azərbaycan dilinin öyrədilməsi problemləri. (2003). Bakı.
12. Qasımov, S., & Kərimova, E. (2004). Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası. Bakı.
13. TİPİİ. (2018). İnklüziv siniflərdə təlimin təşkili. Bakı.
14. Xüsusi məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası. (2002). Bakı.
15. Baum, S. M., Schader, R. M., & Owen, S. V. (2017). To be gifted and learning disabled.
16. Trail, B. A. (2022). Twice-exceptional gifted children.

İNKLÜZİV TƏHSİLDƏ QARŞIYA ÇIXAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARININ ELMİ-TƏCRÜBİ TƏHLİLİ

Zülfiyyə Vaqif qızı Tanrıverdiyeva
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
zulfiyye.tanriverdi@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0003-0995-1961

Açar sözlər: inklüziv təhsil, əlilliyi olan uşaqlar, hüquqi baza, psixoloji dəstək, region fərqlilikləri, texnoloji dəstək, valideyn və cəmiyyət.

Xülasə. İnklüziv təhsil müasir təhsil yanaşmalarından biri olmaqla, insan hüquqlarının təmin edilməsində və sosial ədalətin bərqərar olunmasında əhəmiyyətli rol oynayır. Bu anlayış fərqli fiziki, intellektual, sosial və emosional xüsusiyyətlərə malik bütün şəxslərin təhsildə iştirakını təmin etməyi hədəfləyir. İnklüzivlik prinsipi yalnız fərqliliklərin qəbul edilməsi ilə məhdudlaşmır, həm də təhsil mühitinin bu fərqliliklərə uyğun təşkili və şagirdlərin aktiv iştirakı ilə xarakterizə olunur. Qlobal səviyyədə inklüziv təhsil 1994-cü ildə Salamanka Bəyannaməsi və 2006-cı ildə BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası ilə hüquqi və etik əsaslara söykənmişdir. Azərbaycanda inklüziv təhsilin inkişafı 2009-cu ildən etibarən qanunvericiliklə dəstəklənmiş, 2018–2024-cü illər üzrə Dövlət Proqramı ilə praktiki tədbirlər gücləndirilmişdir. Lakin ölkədə təhsil müəssisələrinin fiziki uyğunluğu, kadr hazırlığı, valideynlərin və cəmiyyətin hazırlıq səviyyəsi, psixoloji dəstək və texnoloji resurslarla bağlı çətinliklər qalmaqdadır. Pilot layihələr, xüsusilə Bakı və bəzi rayon məktəblərində aparılan təcrübələr inklüzivliyin müsbət nəticələr verdiyini göstərir. Məqalədə müəllim və psixoloqların hazırlığı, infrastruktura və texnologiyaya çıxışın təmin edilməsi, valideyn və cəmiyyətin maarifləndirilməsi və beynəlxalq təcrübənin öyrənilməsi kimi həll yolları təklif olunur. İnklüziv təhsil yalnız əlilliyi olan uşaqlar üçün deyil, sosial, mədəni və digər fərqliliklərə malik bütün şagirdlərin bərabər təhsil imkanlarına çıxışını təmin etməli və cəmiyyətin bütün strukturlarında təşviq olunmalıdır.

Keywords: inclusive education, children with disabilities, legal framework, psychological support, regional disparities, technological support, parents and community.

Summary. Inclusive education, as a modern educational approach, plays a crucial role in ensuring human rights and promoting social justice. This concept aims to enable the participation of all individuals with diverse physical, intellectual, social, and emotional characteristics in the education process. The principle of inclusivity is not limited to accepting differences; it requires the

organization of the educational environment to accommodate these differences and ensure active student engagement. Globally, inclusive education was recognized through the 1994 Salamanca Statement and legally reinforced by the UN Convention on the Rights of Persons with Disabilities (2006). In Azerbaijan, the development of inclusive education has been supported by legislation since 2009, with practical measures strengthened through the 2018–2024 State Program. Nevertheless, challenges remain in school infrastructure, teacher and psychologist training, parental and societal preparedness, psychological support, and access to technological resources. Pilot projects, particularly in Baku and selected regional schools, have demonstrated positive outcomes of inclusivity. The study highlights solutions including professional development for educators, improving infrastructure and technology access, parental and community awareness, and adaptation of international best practices. Inclusive education should not only serve students with disabilities but also ensure equitable educational opportunities for all learners with social, cultural, and other differences, while being promoted across all societal structures.

Anahtar kelimeler: inklüziv eğitim, engelli çocuklar, hukuki temel, psikolojik destek, bölgesel farklılıklar, teknolojik destek, aile ve toplum.

Özet. Kapsayıcı eğitim, modern eğitim yaklaşımlarından biri olarak insan haklarının güvence altına alınmasında ve sosyal adaletin sağlanmasında önemli bir rol oynamaktadır. Bu yaklaşım, farklı fiziksel, zihinsel, sosyal ve duygusal özelliklere sahip tüm bireylerin eğitim sürecine katılımını sağlamayı hedefler. Kapsayıcılık ilkesi yalnız farklılıkların kabul edilmesi ile sınırlı olmayıp, eğitim ortamının bu farklılıklara uygun şekilde düzenlenmesini ve öğrencilerin aktif katılımını gerektirir. Küresel ölçekte kapsayıcı eğitim, 1994 yılında Salamanca Bildirgesi ve 2006’da BM’nin “Engelli Hakları Sözleşmesi” ile hukuki ve etik temellere oturtulmuştur. Azerbaycan’da kapsayıcı eğitimin gelişimi 2009’dan itibaren mevzuat ile desteklenmiş, 2018–2024 yılları için Devlet Programı ile uygulama faaliyetleri güçlendirilmiştir. Ancak okulların fiziksel uygunluğu, öğretmen ve psikolog eğitimi, aile ve toplumun hazırlığı, psikolojik destek ve teknolojik kaynaklara erişim gibi zorluklar devam etmektedir. Pilot projeler, özellikle Bakü ve bazı bölge okullarında, kapsayıcılığın olumlu sonuçlar verdiğini göstermektedir. Çalışmada öğretmen ve psikolog eğitimi, altyapı ve teknoloji erişimi, aile ve toplum bilgilendirmesi, uluslararası deneyimlerin öğrenilmesi gibi çözüm yolları önerilmektedir. Kapsayıcı eğitim yalnızca engelli öğrenciler için değil, sosyal, kültürel ve diğer farklılıklara sahip tüm öğrencilerin eşit eğitim imkanlarına erişimini sağlamalı ve toplumun tüm yapılarında teşvik edilmelidir.

İnklüziv təhsil müasir dövrün qabaqcıl təhsil yanaşmalarından biri olmaqla, insan hüquqlarının təminində, sosial ədalətin bərqərar olunmasında və cəmiyyətin bütün üzvlərinin potensialının üzə çıxarılmasında mühüm rol oynayır (Əliyeva, 2019). Bu anlayış, fərqli fiziki, intellektual, sosial və emosional xüsusiyyətlərə malik bütün şəxslərin təhsildə iştirakını təmin etməyi hədəfləyir. İnklüzivlik prinsipi yalnız fərqliliklərin qəbul edilməsi ilə məhdudlaşmır; əksinə, təhsil mühitinin bu fərqliliklərə uyğun olaraq təşkil edilməsini və hər bir şagirdin təlim-tərbiyə prosesində aktiv iştirakını şərtləndirir. (Məmmədov, 2018). Qlobal miqyasda inklüziv təhsil 1994-cü ildə qəbul edilmiş Salamanka bəyannaməsi ilə geniş tanınmağa başlamış, BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyası (2006) ilə isə hüquqi müstəviyə keçmişdir. Bu sənədlər inklüziv təhsili yalnız təhsil sahəsinə aid məsələ kimi deyil, eyni zamanda sosial və etik öhdəlik kimi təqdim etmiş, ölkələrin bu sahədə üzərinə götürdüyü məsuliyyəti daha da artırmışdır.

Azərbaycan Respublikasında da inklüziv təhsilin inkişafı dövlət təhsil siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən olunmuşdur (Hacıyeva, 2021). Bu sahədə ilk ciddi addımlar

2009-cu ildə “Təhsil haqqında” Qanuna inklüziv təhsillə bağlı müddəaların daxil edilməsi ilə atılmışdır. Daha sonra “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Qanun (2018) və “2018–2024-cü illər üzrə İnklüziv təhsilin inkişafı üzrə dövlət proqramı” kimi mühüm sənədlər qəbul edilmişdir. Bu sənədlər inklüziv təhsilin hüquqi bazasını möhkəmləndirməklə yanaşı, praktiki tədbirlərin icrasına da təkan vermişdir. İnklüziv təhsildə pedaqoji və psixoloji yanaşmaların düzgün qurulması şagirdlərin sosial adaptasiyasına müsbət təsir göstərir (İsmayılova, 2020).

Bununla belə, inklüziv təhsilin real həyata keçirilməsində bir sıra çətinliklər mövcuddur. Təhsil müəssisələrinin fiziki mühitinin əlçatan olmaması, ixtisaslı kadr çatışmazlığı, valideynlərin və cəmiyyətin hazırlıq səviyyəsinin qeyri-kafi olması, psixoloji dəstək sistemlərinin zəif inkişafı bu istiqamətdə qarşıya çıxan əsas problemlərdəndir. Xüsusilə regionlarda olan məktəblərdə infrastruktur və təlim resurslarının qeyri-bərabər bölüşdürülməsi inklüzivliyin həyata keçirilməsini daha da çətinləşdirir. Bütün bu çətinliklərin aradan qaldırılması və inklüziv təhsilin uğurla tətbiqi üçün onun konseptual və hüquqi əsaslarının dərindən anlaşılması mühüm əhəmiyyət daşıyır.

I. İnklüziv təhsilin əsasları və beynəlxalq hüquqi baza.

1.1. Salamanka Bəyannaməsi və BMT-nin Konvensiyası. Salamanka Bəyannaməsi və BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası inklüziv təhsil sahəsində qlobal çərçivəni müəyyən etmişdir. Bu sənədlər inklüzivliyin yalnız hüquqi deyil, həm də etik və sosial məsuliyyət olduğunu vurğulayır.

1.2. Azərbaycan Respublikasında Hüquqi Çərçivə. 2009-cu ildə "Təhsil haqqında" Qanuna edilən dəyişikliklər və 2018-2024-cü illəri əhatə edən Dövlət Proqramı inklüziv təhsilin tətbiqini dəstəkləyən əsas hüquqi aktlardır. Lakin bu sənədlərin tətbiqi ilə bağlı mexanizmlərdə bəzi boşluqlar qalmaqdadır.

II. Azərbaycanda mövcud vəziyyət və statistika.

2.1. Təhsil müəssisələrinin uyğunlaşdırılması. UNICEF-in 2022-ci il hesabatına əsasən, ölkədəki məktəblərin yalnız 8%-i inklüziv təhsilə tam uyğunlaşdırılıb. Məktəbəqədər müəssisələrdə bu göstərici daha da aşağıdır.

2.2. Regionlar üzrə fərqlər. Bakı və Abşeron bölgələrində müəyyən inkişaf olsa da, regionlarda inklüzivlik göstəriciləri 2-3% səviyyəsindədir. Bu isə regionlar arasında rəqəmsal və pedaqoji bərabərsizlik yaradır.

a) Hüquqi və inzibati baza. Azərbaycanda inklüziv təhsil sahəsində müəyyən irəliləyişlər var. "Təhsil haqqında" Qanun, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Qanun, və "2018–2024 İnklüziv Təhsilin İnkişafı üzrə Dövlət Proqramı" bu sahədə hüquqi bazanı formalaşdırır. Lakin praktiki tətbiqlərdə normativlərin tam şəkildə icrası müşahidə olunmur.

b) İnfrastruktur və fiziki mühit. Yalnız məktəblərin 8-10%-i əlilliyi olan şagirdlər üçün fiziki baxımdan uyğunlaşdırılıb (UNICEF, 2022). Rayon və kənd məktəblərində pilləkənlər, sanitar qovşaqlar, liftlər və sinif avadanlıqları əlçatan deyil.

c) Kadr hazırlığı. Müəllimlərin böyük əksəriyyəti inklüziv pedaqogika üzrə ixtisaslaşmayıb. İnklüziv təhsil şəraitində müəllimlərin xüsusi pedaqoji hazırlığa malik olması təlim prosesinin keyfiyyətini artırır (Əliyev, 2021,). 2020-ci ildən başlayaraq bəzi universitetlərdə inklüziv təhsillə bağlı fənlər tədrisə daxil edilsə də, bu, geniş miqyasda deyil.

d) Cəmiyyətin və valideynlərin hazırolma səviyyəsi. Sosial stigma və stereotiplər inklüziv təhsilin qarşısında maneə olaraq qalır. Valideynlərin əksəriyyəti inklüzivliyin mahiyyətini tam anlamır və buna qarşı müqavimət göstərirlər.

e) Rəqəmsal və texnoloji çətinliklər. Regionlarda internetin zəif olması və texnoloji vasitələrin çatışmazlığı ucbatından xüsusi ehtiyacı olan şagirdlərin distant və fərdi təhsilə çıxışı məhduddur. İKT əsaslı dəstək proqramları (ekran oxuyucular, interaktiv materiallar) yalnız pilot məktəblərdə tətbiq olunur.

f) Müəyyən Nümunəvi Təcrübələr. Bakı şəhərində və bəzi pilot rayon məktəblərində həyata keçirilən layihələr (məsələn, “Əlçatan Təhsil” layihəsi) müəyyən uğurlar qazansa da, bu təcrübələr hələ ölkə üzrə yayılmayıb.

III. İnklüziv təhsildə psixoloji aspektlər.

3.1. Psixoloji dəstək mexanizmləri. Əlilliyi olan uşaqların təhsil mühitində özlərini rahat hiss etməsi üçün psixoloji dəstək zəruridir. Hazırda məktəblərin yalnız 12%-ində ştatlı psixoloq fəaliyyət göstərir.

3.2. Sosial adaptasiya və davranış modelləri. Müxtəlif araşdırmalar göstərir ki, psixoloji dəstək alan uşaqların akademik nailiyyətləri və sosial uyğunlaşma səviyyələri daha yüksəkdir.

IV. İnklüziv təhsildə texnologiyaların rolu.

4.1. Rəqəmsal alətlər və proqram təminatları. Texnologiya inklüziv təhsil üçün böyük imkanlar yaradır. Audiovizual materiallar, ekran oxuyucular və fərdi öyrənmə proqramları əlilliyi olan uşaqların təhsilə inteqrasiyasını asanlaşdırır.

4.2. Rəqəmsal bərabərsizlik. Regionlarda internetə çıxış imkanları və texniki vasitələrin çatışmazlığı rəqəmsal bərabərsizlik yaradır. Bu, xüsusilə kənd yerlərində inklüziv təhsilin inkişafına mane olur.

V. Valideyn-məktəb əməkdaşlığı və cəmiyyətin rolu.

5.1.Valideynlərin maarifləndirilməsi. İnklüziv təhsilin səmərəli həyata keçirilməsində valideyn və məktəb arasında əməkdaşlıq vacib amillərdən biridir (Quliyeva, 2019). Valideynlərin maarifləndirilməsi inklüziv təhsilin uğurlu tətbiqi üçün əsas amillərdən biridir. Hazırda bu istiqamətdə sosial kampaniyaların sayı azdır.

5.2. İctimai qəbullanma və stiqma. Sosial damğalanma (stiqma) inklüziv təhsilin qarşısında duran ən böyük baryerlərdən biridir. Bu, həm uşaqların psixoloji vəziyyətinə, həm də onların ailələrinin qərarlarına təsir edir.

VI. Elmi-təcrübi təhlil və yerli layihələr.

6.1. Pilot məktəblərin təcrübəsi. Bakı şəhərindəki 12 pilot məktəbdə həyata keçirilən layihələr göstərdi ki, inklüzivlik düzgün yanaşma ilə tətbiq olunduqda uğurlu nəticələr əldə etmək mümkündür.

6.2. Akademik və sosial nəticələr. UNICEF-in hesabatına görə, bu məktəblərdə təhsil alan şagirdlərin 67%-i sosial inteqrasiyada müsbət dəyişiklik göstərmiş, 45%-i isə akademik baxımdan irəliləyiş əldə etmişdir.

VII. Problemlərin Həlli Yolları.

7.1. Qanunvericilik və siyasət islahatları. İnklüziv təhsil üzrə qanunların icrası üçün konkret fəaliyyət mexanizmləri hazırlanmalıdır.Dövlət proqramlarında monitorinq və qiymətləndirmə mexanizmləri yaradılmalıdır.

7.2. Müəllimlərin və psixoloqların hazırlanması. Ali təhsil müəssisələrində inklüziv pedaqogika üzrə ixtisaslaşdırma artırılmalı; təkrar hazırlıq və sertifikatlaşdırma kursları mütəmadi keçirilməlidir.

7.3.İnfrastrukturun yaxşılaşdırılması. Məktəblərdə fiziki baryerlər aradan qaldırılmalı; avadanlıqlar və dərs materialları inklüzivliyə uyğunlaşdırılmalıdır.

7.4.Texnoloji dəstəyin gücləndirilməsi. Hər bir regionda inklüziv texnologiyalarla təmin olunmuş resurs mərkəzləri yaradılmalıdır; müəllimlər üçün İKT üzrə treninqlər təşkil edilməlidir.
7.5.Valideyn və cəmiyyətlə iş. Maarifləndirmə kampaniyaları genişləndiril- məli; psixoloji dəstək mərkəzləri və məsləhət xidmətləri aktivləşdirilməlidir.
7.6. Beynəlxalq təcrübənin öyrənilməsi. Finlandiya, İtaliya, və Norveç kimi ölkələrin uğurlu modelləri öyrənilərək lokal şəraitə uyğunlaşdırılmalıdır.
Mübadilə proqramları və beynəlxalq təlimlər təşkil olunmalıdır.
VIII. Strateji baxış və tövsiyələr.

1. Qanunvericiliyin tətbiqi mexanizmləri gücləndirilməlidir;
2. İnfrastruktur bərabərliyi üçün regionlara xüsusi diqqət ayrılmalıdır;
3. Pedaqoji kadr hazırlığı müasir tələblərə uyğun qurulmalıdır;
4. Texnoloji resurslara çıxış üçün dövlət dəstəyi artırılmalıdır;
5. Valideyn və cəmiyyətlə iş strategiyası hazırlanmalıdır.

İnklüziv təhsil hər bir fərdin potensialının tam reallaşdırılmasına və bərabər hüquqlar əsasında cəmiyyətə inteqrasiyasına xidmət edən mühüm pedaqoji və sosial yanaşmadır. Bu model yalnız fiziki və ya psixoloji məhdudiyyətləri olan şəxslərin deyil, eyni zamanda sosial, mədəni, dil və digər fərqliliklərə malik olan bütün şagirdlərin keyfiyyətli təhsilə bərabər çıxışını təmin etməyə yönəlib. Azərbaycanda inklüziv təhsilin inkişafı istiqamətində son illərdə mühüm hüquqi-normativ sənədlər qəbul olunmuş, pilot layihələr həyata keçirilmiş və müəllim hazırlığı sahəsində müəyyən addımlar atılmışdır. Bununla belə, aparılan tədbirlərin daha məqsədyönlü və davamlı nəticə verməsi üçün sistemli və kompleks yanaşma zəruridir.

İnklüziv təhsilin uğurla həyata keçirilməsi üçün ilk növbədə elmi əsaslara söykənən metodologiyaların tətbiqinə ehtiyac duyulur. Bu sahədə beynəlxalq təcrübənin – xüsusilə Avropa ölkələrinin və Skandinaviya modelinin öyrənilməsi və milli kontekstə uyğun şəkildə adaptasiyası xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda inklüzivlik prinsipinin yalnız təhsil sistemində deyil, bütövlükdə cəmiyyətin bütün strukturlarında – ailə, media, sosial xidmətlər və əmək bazarında da təşviqi və qəbul olunması vacibdir.

Bundan əlavə, inklüziv təhsilin səmərəliliyinin artırılması üçün gücləndirilmiş ictimai dəstəyə ehtiyac vardır. İctimaiyyətin inklüzivlik prinsipləri ilə bağlı maarifləndirilməsi, stiğma və stereotiplərlə mübarizə, eləcə də inklüziv məktəb mədəniyyətinin formalaşdırılması bu sahədə mühüm rol oynayır. Yalnız dövlət strukturlarının deyil, qeyri-hökumət təşkilatlarının, valideyn birliklərinin və media nümayəndələrinin də prosesə fəal cəlb olunması inklüziv təhsilin davamlı və effektiv inkişafına zəmin yarada bilər.

Ədəbiyyat:

1. Əliyeva, A. (2019). İnklüziv təhsilin nəzəri və metodoloji əsasları. Bakı: Təhsil Nəşriyyatı.
2. Hacıyeva, M. (2021). Azərbaycanda inklüziv təhsil: Problemlər və perspektivlər. Bakı: ADPU Nəşriyyatı.
3. Məmmədov, R. (2018). Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işin təşkili. Bakı: Müəllim.
4. İsmayılova, L. (2020). İnklüziv təhsildə pedaqoji və psixoloji yanaşmalar. Bakı: Təhsil Nəşriyyatı.
5. Əhmədova, T. (2022). Azərbaycan təhsil sistemində inklüzivliyin inkişaf dinamikası. Azərbaycan Elmi-Tədqiqat Təhsil Problemləri Jurnalı, (1), 45–54.
6. Rüstəmova, S. (2017). Əlilliyi olan uşaqlarla sosial-pedaqoji iş. Bakı: Təhsil Nəşriyyatı.

7. Quliyeva, Z. (2019). Valideyn-məktəb əməkdaşlığının inklüziv təhsildə rolu. Pedaqoji Araşdırmalar Jurnalı, (2), 62–70.

8. Əliyev, C. (2021). İnklüziv pedaqogika fənni üzrə dərs vəsaiti. Bakı: ADPU Nəşriyyatı.

İNKLÜZİV UŞAQLARIN REABİLİTASİYASINDA PEŞƏYÖNÜMLÜLÜK

İlham Minacət oğlu Dadaşov
Baş müəllim
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
dadasov.ilham.69@bk.ru
ORCİD İD: 0009-0004-1518-3791

Açar sözlər: peşəyönümü fəaliyyət, müəllim-valideyn əməkdaşlığı, psixo-emosional inkişaf, reabilitasiya, inklüzivlik, peşə mraaqları, strategiyaya seçimi.

Xülasə. Məqalədə müasir dövrdə xüsusi məktəblərdə sağlamlıq imkanları məhdud uşaqların təlim-tədris prosesində peşəyönümü fəaliyyətlərinin təşkili və inkişafından bəhs olunur. Həmçinin sağlamlıq imkanları məhdud uşaqların yaşadığımız cəmiyyətin bərabərhüquqlu üzvü kimi özlərini hiss etmələrində və cəmiyyətə adaptasiya olaraq bir şəxsiyyət kimi formalaşmasında məhz təhsilin önəmli rolu olduğu bildirilir. Xüsusi məktəblərdə xüsusən də müəllim, valideyn və şagird münasibətlərinin lazımi səviyyədə olması təhsilin keyfiyyətinə və yüksək nəticə əldə edərək uğur qazanılması istiqamətində stimulverici qüvvə olaraq göstərilir. Peşəyönümü tədbirlərinin təşkili zamanı əlilliyi olan uşaqların peşə fəaliyyətinə olan şəxsi maraqlarının artırılması, onlarda bu fəaliyyət istiqamətində şəxsi maraq, meyl və imkanları barədə fikirlərinin formalaşması və peşə bacarıqlarının aşkarlanması üsulları məqalədə öz əksini tapmışdır. Əqli məhdudiyyətli uşaqlara yönəlmiş peşəyönümü tədbirlər sırasında onların fəaliyyətinə və əxlaqi keyfiyyətlərinə səmərəli təsir edə biləcək müxtəlif peşə sahələrinə aid tədbirlərin keçirilməsinin nə qədər vacib olduğu məqalədə bildirilir. Sağlamlıq imkanları məhdud uşaqların peşə fəaliyyətinin həyata keçirilməsində əsas məsuliyyət müəllimlərin, xüsusən də onların peşəkarlıq səviyyəsindən və təhsil prosesində görülən işlərə özünəməxsus şəkildə yaradıcı, yüksək mədəniyyət və pedaqoji ustalıqla yanaşmasından, həmçinin uşaqların peşəyönümü fəaliyyətlərinin təşkilində, inkişaf etməsində və cəmiyyətdə özlərinin sağlamlıq imkanlarına müvafiq peşələrə yiyələnməsində düzgün təhsil strategiyasıngan aslı olduğu məqalədə göstərilir.

Keywords: professional activity, teacher-parent cooperation, psycho-emotional development, rehabilitation, inclusivity, professional interests, choice of strategy.

Summary. The article talks about the organization and development of vocational activities in the educational process of children with disabilities in special schools in modern times. It is also stated that education plays an important role in children with disabilities feeling themselves as equal members of the society we live in and in forming them as a personality as an adaptation to society. In special schools, especially the proper level of teacher, parent and student relations is shown as a stimulating force for the quality of education and success by achieving high results. During the organization of professional events, increasing the personal interests of children with disabilities in

their professional activities, forming their opinions about personal interests, inclinations and opportunities in the direction of this activity, and methods of discovering their professional skills are reflected in the article. The article states how important it is to hold events related to various professional fields that can effectively affect their activities and moral qualities among the professional events aimed at mentally disabled children. The main responsibility in the implementation of the professional activities of children with disabilities lies in the unique creative, high cultural and pedagogical approach of teachers, especially from their level of professionalism and the work done in the educational process, as well as in the organization, development and acquisition of professions corresponding to their health opportunities in the society. it is shown in the article that it depends on the correct educational strategy.

Anahtar kelimeler: mesleki faaliyet, öğretmen-veli işbirliği, psiko-duygusal gelişim, rehabilitasyon, kaynaştırma, mesleki ilgi alanları, strateji seçimi.

Özet. Makale, modern zamanlarda özel okullarda engelli çocukların eğitim sürecinde mesleki rehberlik faaliyetlerinin organizasyonunu ve gelişimini ele almaktadır. Ayrıca, eğitimin engelli çocukların kendilerini içinde yaşadığımız toplumun eşit üyeleri olarak hissetmelerinde ve topluma uyum sağlama amacıyla kişiliklerinin oluşmasında önemli bir rol oynadığı belirtilmektedir. Özellikle özel okullarda, öğretmen-veli-öğrenci ilişkilerinin uygun düzeyde olması, eğitimin kalitesi ve yüksek sonuçlar elde edilmesi için teşvik edici bir güç olarak gösterilmektedir. Makalede, mesleki rehberlik etkinliklerinin organizasyonu sırasında engelli çocukların mesleki faaliyetlere olan kişisel ilgilerini artırma, bu yöndeki kişisel ilgi alanları, eğilimleri ve fırsatları hakkında fikirlerini şekillendirme ve mesleki becerilerini keşfetme yöntemleri ele alınmaktadır. Makale, zihinsel engelli çocuklara yönelik mesleki rehberlik etkinlikleri sırasında, faaliyetlerini ve ahlaki niteliklerini etkili bir şekilde etkileyebilecek çeşitli meslek alanlarıyla ilgili etkinlikler düzenlemenin ne kadar önemli olduğunu belirtmektedir. Makale, engelli çocukların mesleki faaliyetlerinin uygulanmasında asıl sorumluluğun öğretmenlerde, özellikle de onların mesleki yeterlilik düzeylerinde ve eğitim sürecinde yaptıkları işe yönelik benzersiz yaratıcı, son derece kültürel ve pedagojik yaklaşımlarında, ayrıca çocukların mesleki faaliyetlerinin organize edilmesi ve geliştirilmesinde ve sağlık yeteneklerine uygun meslekler edinmelerinde doğru eğitim stratejisinin izlenmesinde yattığını göstermektedir.

Müasir dövrdə sağlamlıq imkanları məhdud uşaqların peşəyönümlü fəaliyyətlərinin inkişafı əsasən də, xüsusi məktəblərdə təlim-tədris prosesinin keyfiyyətli təşkilindən və düzgün istiqamətdə inkişafından çox asılıdır.Yaşadığımız dövrün demoqrafik göstəricisi göstərir ki, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyət içərisindəki problemləri və yeri xüsusi olaraq böyük əhəmiyyətə malikdir. Bildiyimiz kimi müasir sosial siyasətin əsas istiqamətlərdən biri də, əlilliyi olan uşaqların müxtəlif fəaliyyət sahələrindəki inkişafı, ictimai həyatda məhsuldar və fəal iştirakının təmin olunmasıdır. Bununla əlaqədar olaraq uşaqların tədris prosesində xüsusən də, peşələrlə bağlı ilkin təsəvvürlərin formalaşmasında hansı peşəyə yiyələnmək istəyi və arzusu nəzərə alınmalıdır. Uşaqlara seçdiyi peşələr barədə ətraflı məlumat verilməli, müasir tələblərə uyğun yeni yaranmış peşələr və əmək bazarının cari tələbi barədə məlumatlandırılmalıdırlar ki, uşaqlarda müəyyən peşələrlə bağlı ilkin təsəvvürlər formalaşsın (İlyasov, 2011).

Bu baxımdan sağlamlıq imkanları məhdud uşaqların yaşadığımız cəmiyyətin bərabərhüquqlu üzvü kimi özlərini hiss etmələri üçün təhsil olduqca vacibdir və onların hərtərəfli inkişafında stimulverici qüvvə olaraq qalır. Eyni zamanda sağlamlıq imkanları məhdud uşaqların peşəyönümü fəaliyyətlərinin keyfiyyətli təminatına və təhsildə aktiv iştirakına müsbət təsir edən bir çox amillər

də vardır. Bunlarda başlıca olaraq onların valideynlərinin təhsil müəssisəsi ilə sıx əməkdaşlıq etməsi və bu təhsil prosesində daha fəal aktiv iştirakıdır. Valideynlərin bu mərhələdə iştirakı və lazım olan dəstəyi göstərməsi, onların öz övladlarını təhsil prosesində daha səriştəli və müstəqil olmağa sövq etməsi, xüsusən də müəllim, valideyn və şagird münasibətlərinin lazımi səviyyədə olması cox vacibdir. Belə ki, bu yanaşma həm təhsilin keyfiyyətinə, həm də ki, əlilliyi olan uşaqların yüksək nəticə əldə edərək uğur qazanmalarına və müəyyən problemlərin həlli istiqaməti üzrə bir çox nailiyyətlərin əldə olunmasına təsir göstərməklə mühüm əhəmiyyət kəsb edir. Ona görə də mütəmadi olaraq əlil uşaqların valideynləri ilə qarşılıqı təmaslar qurmaq, onları təhsil prosesinə cəlb etmək, maarifləndirmə işləri, birgə fəaliyyətlərinin aralıq və son nəticələrinin daim təhlilini aparmaq lazımdır. Uşaqları peşə seçiminə yönləndirərkən onların sağlamlıq imkanlarına, maraqlarına, istedadlarına və qabiliyyətlərinə uyğun seçim etmələrinə dəstək vermək lazımdır (Həmzəyev, 1991).

Ümumiyyətlə, xüsusi məktəblərdə peşəyönümlü tədbirlərinin təşkili zamanı əlilliyi olan uşaqlarda xüsusən peşə fəaliyyətinə olan şəxsi maraqlarının artırılması üçün, onlarda bu fəaliyyət istiqamətində maraq, meyl və imkanları barədə fikirlər formalaşdırılmalıdır. Bu səbəbdən sağlamlıq imkanları məhdud uşaqlara yönəlmiş peşəyönümlü tədbirlər sırasında onların fəaliyyətinə, psixoloji durumuna və əxlaqi keyfiyyətlərinə səmərəli təsir edə biləcək müxtəlif peşə sahələrinə aid tədbirlərin keçirilməsini mütləq şəkildə təmin etmək lazımdır. Bununla bağlı olaraq uşaqların marağına səbəb olan bir çox peşələrə uyğun rollu oyunların və yarışların keçirilməsi, sənaye müəssisələrinə ekskursiyaların təşkili, uşaqların əl işlərindən ibarət yaradıcı müsabiqələrin, sərgilərin keçirilməsi, dərsdən kənar müxtəlif dərnəklərə, bölmələrə cəlb olunmasının təmin olunması və s. kimi əsas və lazımı tədbirlərdir. Belə tədbirlərdə əlil uşaqların ozlərini muxtəlif peşə fəaliyyətlərində sınamaq şansı və maraq dairəsinə uyğun gələn peşələrin incəlikləri haqqında məlumatlar əldə etməsinə şəraitin yaradılması boyuk əhəmiyyətə malikdir. Bu da nəticə etibarı ilə, əlilliyi olan uşaqların özlərinin istək və arzularına uyğun sonrakı mərhələdə düzgün peşə seçimi barədə qərarın qəbul edilməsinə lazımi səviyyədə kömək göstərə bilər (Orucov, 1997).

Onu da qeyd edək ki, bu işlərin elmi əsaslara söykənərək aparılması əlilliyi olan uşaqların gələcəkdə bir şəxsiyyət kimi püxtələşməsinə, yüksəlməsinə, intellektual vəziyyətlərinə daha güclü təsir edir. Onların əməyini stimullaşdırır, həyatla əlaqəsini təmin edir, peşəyönümlərinin müəyyənləşdirilməsində və formalaşmasında müsbət rol oynamaqla yanaşı, nəzərdə tutulan istiqamətdə böyük imkanlar yaradır. Təcrübə göstərir ki, bu imkanlardan düzgün istifadə edərək uşaqları peşəyönümlü fəaliyyətə təhsil prosesində elə hazırlamaq lazımdır ki, onlar gələcəkdə təcrübəli peşəkar kadr yetişməsi üçün yeni müasir texnika ilə qısa bir zamanda davranmağı, ondan istifadə etməyi, işləməyi bacarsınlar. Bunun nəticəsində də hər bir əlilliyi olan uşaq yeni mövcud müasir texnikadan düzgün istifadə edərkən keyfiyyətli iş ərsiyə gətirə bilsin. Bu müsbət keyfiyyətlərin peşəyönümlü fəaliyyətdə əmək vasitəsilə aşılanması sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası üçün əhəmiyyətli rol oynamaqla, onların cəmiyyətə inteqrasiya olmasına, peşə hazırlığına əsaslı təsir göstərir. Onlarda zəhmətsevərlik, dözümlülük, insanpərvərlik, əmək tərbiyəsi, davranış mədəniyyəti, estetik hisslərin və bədii yaradıcılığın inkişafı, yoldaşlıq, dostluq, qayğıkeşlik, xeyirxahlıq, vətənpərvərlik kimi yüksək əxlaqi keyfiyyətləri formalaşdırır (Жидкина, 2005).

Butün bu işlərin də həyata keçirilməsində əsas məsuliyyət müəllimlərin üzərinə düşür. Xüsusən də, onların peşəkarlıq səviyyəsindən, təhsil prosesində keçdiyi praktik və laborator məşğələlərdə görülən işlərə özünəməxsus şəkildə yaradıcı, yüksək mədəniyyətlə, pedaqoji ustalıqla

yanaşmasından çox aslıdır. Məlumdur ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlar həssas qrupa aid olduqları üçün onlarla iş prinsipi müəllimlər tərəfindən elə qurulmalıdır ki, uşaqlar tədris şəraitində özlərinə qarşı hörmət və inamın göstərilməsini hiss etsinlər və özlərinin nə qədər dəyərli, lazımlı olduqlarını anlasınlar. Müəllimlərin bu yönümdə uşaqlara yanaşması onların təhsilini və peşə fəliyyətlərinin stimullaşdırılmasında geniş perspektivlərin əldə olunmasını təmin edir (İlyasov, 2018).

Beləliklə, yekun olaraq belə nəticəyə gəlmək olar ki, müasir dövrün ziddiyyətli, mürəkkəb və müxtəlif yönümlü peşələrin dəyişgən gələcək ölkə iqtisadiyyatının yüksək dinamik inkişaf prosesi şəraitində, sağlamlıq imkanları məhdud uşaqları xüsusi metodlarla bu inkişafa uyğun yetişdirmək, hazırlamaq, lazımi səviyyəyə çatdırmaqdan ötrü müəllimin üzərinə böyük məsuliyyət düşür. Bu işləri lazımi səviyyədə aparmaqdan ötrü müəllim hərtərəfli cəhətdən böyük yaradıcı potensiala malik olmalı və uşaqlarla iş prinsipini düzgün olaraq yaşadığımız dövrün tələblərinə uyğun qurmalıdır. Müəllim peşəyönümü fəaliyyətində öz üzərində daim çalışmalıdır ki, cəmiyyətin sosial-iqtisadi tələbatına uyğun olaraq müasir dövrün yeni yaranmış peşələrin tələblərinə cavab verə bilsin. Müəllim məhsuldar, səmərəli, iş üsullarından və vasitələrindən istifadə etməklə təlim-tədris prosesində peşə fəaliyyətinə uyğun korreksiya işinin elmi-nəzəri əsaslara və prinsiplərə əsaslanaraq aparılmasını keyfiyyətli şəkildə təşkil etməklə optimal nəticə əldə etsin.

Ədəbiyyat:

1. İlyasov, M. İ. (2011). Peşəyönümünün əsasları. Bakı: Mütərcim.
2. Həmzəyev, M. (1991). Pedaqoji psixologiya. Bakı: Maarif Nəşriyyatı.
3. Orucov, Z. N. (1997). Peşə təliminin nəzəri və praktiki məsələləri. Bakı: Mütərcim.
4. İlyasov, M. İ. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və təhsil.
5. Жидкина, Т. С. (2005). Методика преподавания ручного труда в младших классах коррекционной школы VIII вида. Москва: Издательский центр Академия.

İNKLÜZİV ŞƏRAİTDƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ

Elnarə Hüseynağa qızı Əhmədova
Baş müəllim
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
elnara.ahmadova@sdu.edu.az
ORCİD ID: 0000-0002-7413-7785

Açar sözlər: inklüziv təhsil, Azərbaycan dili, diferensial yanaşma, interaktiv təlim, nitq inkişafı, disqrafiya, fərdi təlim.

Xülasə. Məqalədə inklüziv təhsil şəraitində Azərbaycan dilinin tədrisinin həm nəzəri, həm də praktik aspektləri geniş şəkildə təhlil olunur. Müəllif inklüziv təhsilin mahiyyətini açıqlayaraq onun əsas məqsədinin bütün şagirdlər üçün bərabər təhsil imkanları yaratmaq olduğunu vurğulayır. Qeyd edilir ki, şagirdlərin idrak səviyyələrinin müxtəlifliyi, psixi və zehni funksiyaların fərqli inkişaf tempi tədris prosesinə birbaşa təsir göstərən mühüm amillərdir. Bu baxımdan müəllimdən fərqli

təlim strategiyalarının tətbiqi, diferensial yanaşma və fərdiləşdirilmiş tədris metodlarının seçilməsi tələb olunur.

Məqalədə inklüziv sinif mühitində qrup və cütlərlə işin əhəmiyyəti xüsusi qeyd edilir, bu üsulların şagirdlər arasında əməkdaşlıq bacarıqlarını inkişaf etdirdiyi və sosial inteqrasiyanı gücləndirdiyi əsaslandırılır. Eyni zamanda xüsusi təhsil ehtiyacı olan uşaqlarda təfəkkür, nitq və kommunikativ bacarıqların inkişafında qarşıya çıxan çətinliklər təhlil edilir. Müəllif psixoloji baxımdan rahat, dəstəkləyici və motivasiyaedici mühitin yaradılmasını vacib şərt kimi təqdim edir və burada müəllimin istiqamətləndirici rolunu ön plana çəkir.

Bununla yanaşı, interaktiv təlim metodlarının və müasir informasiya-kommunikasiya texnologiyalarının Azərbaycan dili dərslərində tətbiqinin effektivliyi əsaslandırılır. Kommunikativlik prinsipinin təmin edilməsi, şagirdlərin nitq fəaliyyətinin aktivləşdirilməsi və dil bacarıqlarının kompleks inkişafı əsas prioritetlər kimi göstərilir. Məqalədə xüsusi ehtiyacı olan şagirdlər üçün uyğun metod və vasitələr – vizuallaşdırma, oyun texnologiyaları və multimedia resurslarının istifadəsi ətraflı təsvir olunur.

Sonda disqrafiya problemi ayrıca nəzərdən keçirilir, onun yaranma səbəbləri və aradan qaldırılması yolları izah edilir. Bu kontekstdə fərdi yanaşmanın və sistemli pedaqoji dəstəyin əhəmiyyəti xüsusi vurğulanır.

Keywords: inclusive education, Azerbaijani language, differentiated approach, interactive teaching, speech development, dysgraphia, individualized instruction.

Summary. The article comprehensively examines both the theoretical and practical aspects of teaching the Azerbaijani language in an inclusive education environment. The author explains the essence of inclusive education, emphasizing that its primary goal is to provide equal educational opportunities for all students. It is noted that differences in students’ cognitive levels, as well as the uneven development of mental and psychological functions, are key factors that directly influence the teaching process. In this regard, the teacher is required to apply diverse instructional strategies, adopt a differentiated approach, and select individualized teaching methods.

The article highlights the importance of group and pair work in an inclusive classroom, justifying that these methods enhance students’ cooperation skills and strengthen social integration. At the same time, it analyzes the challenges faced by students with special educational needs in the development of thinking, speech, and communication skills. The author identifies the creation of a psychologically safe, supportive, and motivating environment as a crucial condition and emphasizes the guiding role of the teacher in this process.

In addition, the effectiveness of interactive teaching methods and the use of information and communication technologies in Azerbaijani language lessons is substantiated. Ensuring the communicative principle, activating students’ speech activity, and promoting the comprehensive development of language skills are presented as key priorities. The article also describes appropriate methods and tools for students with special needs, including visualization techniques, game-based approaches, and multimedia resources.

Finally, the issue of dysgraphia is addressed, with its causes and possible solutions explained. In this context, the importance of an individualized approach and systematic pedagogical support is particularly emphasized.

Anahtar kelimeler: kapsayıcı eğitim, Azerbaycan dili, farklılaştırılmış yaklaşım, interaktif öğretim, konuşma gelişimi, disgrafi, bireysel eğitim.

Özet. Makalede kapsayıcı eğitim ortamında Azerbaycan dilinin öğretiminin hem kuramsal hem de uygulamalı yönleri kapsamlı biçimde incelenmektedir. Yazar, kapsayıcı eğitimin özünü açıklayarak temel amacının tüm öğrenciler için eşit eğitim fırsatları sağlamak olduğunu vurgular. Öğrencilerin bilişsel düzeylerindeki farklılıklar ile zihinsel ve psikolojik işlevlerin gelişimindeki eşitsizliklerin öğretim sürecini doğrudan etkileyen başlıca etkenler olduğu belirtilir. Bu bağlamda öğretmenin farklı öğretim stratejileri uygulaması, farklılaştırılmış yaklaşımı benimsemesi ve bireyselleştirilmiş öğretim yöntemleri seçmesi gerektiği ifade edilir.

Makale, kapsayıcı sınıf ortamında grup ve ikili çalışmaların önemine özel yer ayırır; bu yöntemlerin öğrenciler arasında iş birliği becerilerini geliştirdiği ve sosyal uyumu güçlendirdiği gerekçelendirilir. Aynı zamanda özel gereksinimli öğrencilerde düşünme, konuşma ve iletişim becerilerinin gelişiminde karşılaşılan güçlükler analiz edilir. Yazar, psikolojik açıdan güvenli, destekleyici ve motive edici bir ortamın oluşturulmasını temel koşul olarak sunar ve öğretmenin rehberlik edici rolünü ön plana çıkarır.

Bununla birlikte, etkileşimli öğretim yöntemleri ile bilgi ve iletişim teknolojilerinin Azerbaycan dili derslerinde kullanımının etkililiği temellendirilir. İletişimsellik ilkesinin sağlanması, öğrencilerin sözlü ifade etkinliğinin artırılması ve dil becerilerinin bütüncül gelişimi öncelikli hedefler olarak gösterilir. Makalede özel gereksinimli öğrenciler için uygun yöntem ve araçlar—görselleştirme, oyun temelli teknikler ve multimedya kaynakları—ayrıntılı biçimde sunulur.

Son olarak disgrafi problemi ele alınır, ortaya çıkma nedenleri ve giderilmesine yönelik yollar açıklanır. Bu çerçevede bireysel yaklaşımın ve sistemli pedagojik desteğin önemi özellikle vurgulanır.

Son zamanlar təhsilin xüsusi bir növü olan inklüziv təhsil tələbat daha da aktuallaşmışdır. İnklüziv təhsil əlilliyi olan və olmayan şagirdlərin birgə təhsili və tərbiyəsidir. İnklüziv təhsil uşağı onun fiziki, əqli-psixoloji durumundan asılı olmayaraq, olduğu kimi qəbul edir və təlim-tədris prosesini bu vəziyyətə uyğun şəkildə təşkil edir, xüsusi ehtiyacı olan uşaqların təhsilə çıxışını təmin edən və bu uşaqlara qarşı ayrı-seçkiliyi aradan qaldıran ideologiyaya əsaslanır, bu baxımdan da xüsusi qayğıya və təhsilə ehtiyacı olan məktəblilər üçün ən perspektivli təhsil forması hesab edilir.

İnklüziv şəraitdə Azərbaycan dilinin tədrisindən danışmazdan əvvəl, bu təhsilin mahiyyəti və onun təcrübi olaraq necə həyata keçirildiyinə diqqət yetirək. Məlumdur ki, şagirdlərin zehni funksiyalarının inkişafında qeyri-bərabərlik müşahidə olunur: onların hamısında şüur, dərketmə, qavrama, analiz, tətbiqetmə və s. bu kimi zehni vərdişlər eyni keyfiyyətdə deyildir, beyin sahələrinin inkişafında qeyri-bərabərlik var: şifahi və məntiqi problemləri həll etməkdə çətinlik çəkən uşaqlar vizual səviyyədə ümumiləşdirmə ilə vizual yaradıcı və vizual effektiv xarakterli tapşırıqların öhdəsindən nisbətən yaxşı gəlirlər. Belə olduqda qrup işi üzrə diferensiallaşdırılmış yanaşmadan istifadə etmək səmərəli nəticə verə bilər. Yaxşı olardı ki, belə vəziyyətdə yeni mövzu izah edilərkən sinif cütlərə və ya qruplara bölünsün, ən güclü şagird ən zəif şagirdə mövzunu yenidən izah etsin. Yoxlama üçün yazılı və şifahi fərdi tapşırıqlar da tətbiq edilə bilər.

Xüsusi uşaqlarda təfəkkür prosesləri kifayət qədər inkişaf etmir, anlayışların sintezi və təhlili onlar üçün çətinlik yaradır. Bu uşaqlar əsas nöqtələri vurğulaya bilmir, müqayisəli təhlillər aparmaqda çətinlik çəkirlər, əhəmiyyətsiz məqamlara diqqət yetirirlər. Onların fərqləndirici xüsusiyyəti qeyri-tənqidi düşüncələridir, öz səhvlərini görmürlər və onları düzəltməyə də cəhd etmirlər. Belə şagirdlər olan siniflərdə sakit bir iş mühiti təmin etmək vacib şərtdir. Müəllim heç bir halda stresli vəziyyətlərin yaranmasına yol verməməli, onlardan qaçmağı bacarmalı, vəziyyəti

neytrallaşdırmalı, məsələn, şagirdlərin diqqətini başqa bir fəaliyyət növünə cəlb etməlidir. Bəzi hallarda müəllim şagirdlərin könülsüz olduğu, heç bir tapşırığı yerinə yetirmək istəmədiyi hallarla da qarşılaşır. Belə vəziyyətdə şagirdlər çox vaxt “mən oxumayım, başqası oxusun”, “yazmaq istəmirəm”, “öyrənmişəm, amma danışa bilmirəm” və s. kimi bəhanələrlə öz istəksizliyinə bəraət qazandırmağa çalışır (Məmmədəliyeva və d., 2019). Bu zaman tədris formasının dəyişdirib müxtəlif didaktik və əyləncə xarakterli oyun texnikasından istifadə etmək uğurlu nəticə əldə etməyə təkan verə bilər. Hər bir halda müəllimin xüsusi siniflərdə əsas missiyası müxtəlif idrak qabiliyyətlərinə malik şagirdlərin olduğu siniflərdə hər bir şagirdin fəaliyyətinə nəzarət etmək, diqqətə saxlamaqdır. Başqa sözlə, xüsusi qayğıya ehtiyacı olan uşaqların adi məktəblərə uyğunlaşmasına kömək etmək, dəstək olmaq üçün müəllim ilk olaraq sinifdə psixoloji cəhətdən rahat təhsil və iş mühiti yaratmalı, yeri gəldikcə dərslərdə və dərsdənkənar işlərdə şagirdlərlə tolerantlıq və bir-birinə qarşılıqlı hörmət mövzusunda mütləq şəkildə söhbətlər aparmalıdır.

Məktəblərdə inklüziv təhsilin tətbiqi ilə belə qənaətə gəlinib ki, müasir məktəb təhsili təcrübəsi təhsil metod və vasitələrinin yenilənməsini tələb edir. Effektiv pedaqoji texnologiyalar şagirdlərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların interaktiv qarşılıqlı fəaliyyətini təşkil etməyə imkan verir. Bu, inklüziv siniflərdə təlim prosesinin təşkili zamanı xüsusilə vacibdir. Müxtəlif texnologiyaların, o cümlədən interaktiv texnologiyaların seçilməsi və tətbiqi təhsildə daha uğurlu nəticələrinin əldə edilməsi ilə əsaslandırılır. Müxtəlif interaktiv qarşılıqlı fəaliyyət növləri fiziki qüsurlu uşaqlara normal uşaqlarla birlikdə Azərbaycan dilinin tədrisini təşkil etməyə imkan verir. Yeni nəsil standartları məzmunun, tədris metodlarının və tədris prosesinin həyata keçirilməsi şərtlərinin yenilənməsini də tələb kimi ortaya qoyur. Son zamanlar dərslərin təşkilində informasiya texnologiyaları ilə yanaşı, interaktiv tədris texnologiyalarından da geniş istifadə olunur. Çox güman ki, bu onunla bağlıdır ki, informasiya texnologiyaları indi kifayət qədər inkişaf edib və bir çox vəzifələri yerinə yetirməyə imkan verir, bununla da müəllim və pedaqoqların işini asanlaşdırır (Məmmədova, 2025).

Bu günə qədər “interaktiv təlim vasitələri” termininin dəqiq tərifi məlum olmasa da, ümumi nöqteyi-nəzərə görə, interaktiv tədris vasitələri müxtəlif ünsiyyət obyektləridir: kompüter, rabitə texniki cihazları, müəyyən bir dərsin problemlərinin həlli üçün xüsusi hazırlanmış və seçilmiş elementlər, elektron təhsil resursları, eləcə də prosesin həyata keçirilməsinin başlıca amilləri olan şagird-müəllimin qarşılıqlı münasibətini ehtiva edir. Azərbaycan dili dərslərində bu üsul və vasitələrdən istifadə etmək xüsusilə vacibdir, çünki fənnə daxil olan mövzuların mənimsənilməsi kifayət qədər mürəkkəbdir və interaktiv vasitələrdən və metodlardan istifadə tədris prosesinin bütün iştirakçılarını təhsil fəaliyyətinə cəlb etmə şəraiti yaratmaqla yanaşı, həm də bir-biri ilə qarşılıqlı əlaqə prosesində bilik əldə etmək imkanı yaradır.

İnklüziv təhsildə aşağıdakı əsas yanaşmalar istifadə olunur:

- Humanist yanaşma – hər bir şagirdin unikal olduğunu tanımaq və onların fərdi xüsusiyyətlərinə hörmət etməkdən ibarətdir.
- Kompetensiyaya əsaslanan yanaşma – şagirdin cəmiyyətə uyğunlaşmasına kömək edəcək əsas kompetensiyaların inkişafına yönəlir.
- Fəaliyyətə əsaslanan yanaşma – şagirdin təhsil prosesində faydalı və praktik tapşırıqları yerinə yetirməklə fəal iştirakına diqqət yetirir.

İnklüziv model təhsilin yalnız fiziki cəhətdən deyil, həm də məzmun baxımından əlçatan olmasını tələb edir. Bu, ənənəvi tədris metodlarının yenidən gözdən keçirilməsini zəruri edir.

Xüsusi ehtiyacı olan uşaqlara Azərbaycan dilinin tədrisində müəllimlər şagirdlərin həm fiziki, həm də psixoemosional xüsusiyyətlərindən irəli gələn müxtəlif çətinliklərlə üzləşir, tədris proqramlarını, mətnləri, tapşırıqları və mövzunun izah üsullarını şagirdlərin kognitiv və sensor xarakteristikalarını nəzərə alaraq uyğunlaşdırmaq məcburiyyətində qalırlar. İnklüziv mühitdə Azərbaycan dili tədrisinin effektivliyi əsasən metodların çevikliyi və müxtəlifliyindən asılıdır. Fərdi tədris prinsipi, aşağıdakılara üstünlük verən, ən vacib prinsipə çevrilib: 1) dərs məzmununu uyğunlaşdırmaq (dili sadələşdirmək, vizual materiallardan istifadə etmək); 2) dərslərin tempini və strukturunu tənzimləmək; 3) tapşırıqları çətinlik səviyyəsinə görə fərqləndirmək.

Təcrübə göstərir ki, xüsusi təhsil ehtiyacı olan uşaqlara Azərbaycan dilini öyrətmək üçün aşağıdakı metodlar uyğundur:

- məlumatın vizuallaşdırılması (diaqramlar, cədvəllər, şəkillər);
- multimedia resursları (interaktiv tapşırıqlar, video dərslər);
- oyun əsaslı texnologiyalar (danışıq oyunları, dramatizasiya);
- fonem şüurunu, tələffüzü və qrammatika bacarıqlarını inkişaf etdirən nitq terapiyası məşqləri;
- cütlüklərdə və kiçik qruplarda işləmək, bu da kommunikasiya bacarıqlarının inkişafına kömək edir və narahatlığı azaldır (Qasımov və d., 2006).

Azərbaycan dilinin tədrisinin bütün bölmələri üzrə aşağıdakı əsas prinsipləri ön plana çıxarmaq mümkündür:

1. Tədrisin kommunikativ yönümlü təşkili;
2. Nitq və təfəkkür bacarıqlarının paralel inkişafını təmin edən iki istiqamətli fəaliyyətin vəhdəti;
3. Şagirdlərin dil və nitq fəaliyyətinin məqsədyönlü motivasiyası;
4. Dil hissinin formalaşdırılması və təlim prosesində bu bacarığa istinad edilməsi;
5. İnkişaf prosesində şifahi və yazılı nitq formaları arasında qarşılıqlı əlaqənin təmin olunması.

Xüsusi təhsil müəssisələrində Azərbaycan dilinin tədrisində aparıcı prinsiplərdən biri kommunikativlik prinsipidir. Məlumdur ki, nitq çatışmazlıqları və ünsiyyətə yönəldən motivasiyanın zəifliyi əqli inkişafında məhdudiyyət olan uşaqlarda ətraf mühitlə qarşılıqlı əlaqə qurmaqda ciddi çətinliklər yaradır. Bununla yanaşı, tədqiqatlar göstərir ki, bu kateqoriyadan olan uşaqların nitqinə məqsədyönlü və sistemli pedaqoji təsir göstərilməsi onların nitq inkişafına müsbət təsir edir. Belə müdaxilə nəticəsində şagirdlərin fikirlərini daha dəqiq ifadə etmə bacarığı, dialoji nitq qurmaq qabiliyyəti və hətta monoloji nitq formalaşdırmaq vərdişləri inkişaf edir. Bu qanunauyğunluq müəllimin pedaqoji fəaliyyətinin nitqin bütün komponentlərində mövcud çatışmazlıqların aradan qaldırılmasına, həmçinin nitqin ünsiyyət vasitəsi kimi funksional şəkildə istifadəsinə yönəldilməsini zəruri edir.

Kommunikativlik prinsipi onu nəzərdə tutur ki, təlim prosesində əsas diqqət dilin ayrı-ayrı struktur komponentləri (fonetika, morfologiya, sintaksis) haqqında nəzəri biliklərin verilməsinə deyil, həmin dil vahidlərinin praktik nitq fəaliyyətində istifadə bacarıqlarının formalaşdırılmasına yönəldilməlidir. Bu bacarıqların inkişafı nəticəsində şagirdlər dil qaydalarını daha dərindən mənimsəyir, orfoqrafik normaları tətbiq edə bilir və ən əsası, dili kommunikativ məqsədlərlə daha sərbəst və effektiv şəkildə istifadə etmək imkanı qazanırlar. Dillə bağlı bilikləri möhkəmləndirən, nitq vərdişlərini, eyni zamanda nəzəri məlumatlanmanın inkişafına şərait yaradan qrammatik tapşırırqlar üstünlük təşkil edir. Bu tip təlim prosesi nitqi danışıq məşqləri ilə inkişaf etdirməyi tələb edir. Bunlara aşağıdakılar daxildir: suallara cavab vermək; müvafiq intonasiya ilə oxumaq;

nümunəvi dialoqlar yaratmaq; ümumiləşdirmələr və görülən iş haqqında fikir mübadiləsi aparmaq; filmləri müzakirə etmək; rol üzrə oyunlar qurmaq və s.

Əqli qüsurlu uşaqların zehni fəaliyyətindəki pozğunluq nitq təcrübəsinin olmamasına gətirib çıxarır. Öz növbəsində, nitq inkişafındakı qeyri-kafilik məntiqi təfəkkürün formalaşmasını gecikdirir, vizual-təsəvvür və vizual-hərəkət formalarındakı çatışmazlıqların aradan qaldırılmasını çətinləşdirir.

Nitq və düşüncə inkişafının vəhdəti prinsipinin təhsil prosesinə tətbiqi iki şəkildə həyata keçirilir. Birincisi, əqli qüsurlu uşağın nitqi ətraf aləmdəki obyekt və hadisələri müşahidə etmək və onlara xas olan əlaqələri anlamaq əsasında formalaşır. Xüsusi nitq inkişafı dərslərində uşaqlarla söhbətlərin mövzusu uşaqların həmin anda müşahidə etdikləri və ya əvvəllər araşdırdıqları obyekt və hadisələr olmalıdır. Bu şəkildə əldə edilən məlumatlar düşüncənin işləndiyi və nitq inkişafı üçün əsas kimi istifadə edilən material olacaq. Şifahi nitq inkişafı prosesində sözlərin mənalarını açmaq üçün şagird obyektləri, hərəkətləri və anlayışları müşahidə edir və onları bir-birindən fərqləndirməyi öyrənir. Bu zaman o, sözlərin mahiyyətini anlaya bilmək üçün müəllim ona həmin sözləri düzgün, yerində istifadəsi etməyi öyrədir məsələn: Bu, qələmdir, bu isə karandaşdır; İt sümük, at ot, toyuq isə dən yeyir. Dil vasitələrinin qrammatik mənası isə praktik çalışmalarla gücləndirilir. Obyektlə predikat, predikatla subyektlə arasındakı əlaqələri izah etmək üçün semantic baxımdan uyğun cümlələr qurmaqla şagird tərəfindən mənimsənilməsini təmin edir üçün bir çalışma: Anam toyuq-cücəyə dən verir; toyuq dəni dimdikləyir, cücə də dimdiyi ilə dəni yeyir.

Qrammatika dərslərində şagirdlər sadə və mürəkkəb cümlələri müqayisə etməyi və onlardan nitqdə düzgün istifadə etməyi öyrənirlər. Bu işin dərs boyunca aktiv nitq fəaliyyətini təşviq etməsini təmin etmək üçün aşağıdakı dil və nitq məşqlərindən istifadə etmək olar:

1. Lövhədə yazılmış cümlələri müvafiq intonasiya ilə oxumaq, sadə və mürəkkəb cümlələri fərqləndirmək və hər birini qrammatik xüsusiyyətlərini - quruluşunu, tərkibindəki sözlər arasında məna və sintaktik əlaqələri müəyən etmək.
2. Sadə cümlələrdən mürəkkəb cümlələr qurmaq.
3. Durğu işarələri və bğlayıcı vasitələrin yerini müəyyən etmək.
4. Cümlədə söz sırasını, cümlə üzvləri və onların ifadə vasitələrini müəyyənləşdirmək (Xudaverdiyeva, 2021). bu sıranı bir cümlənin məzmunu və linqvistik əlaqəsi baxımından əsaslandırmaq (əvəzliklərin, zərflərin, fel zamanlarının, söz sırasının olması).
5. Bilikləri möhkəmləndirmək üçün xüsusi tapşırıqlarla iş aparmaq. Bu zaman bir mövzu seçilir və həmin mövzuda mətn qurulması, mətndə sadə və mürəkkəb cümlələrdən istifadə tələb olunur.

Müəllimin sinifdəki davranışı şagirdlərin nitq fəaliyyətini stimullaşdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Müəllim şagirdlərin marağını oyadır və istiqamətləndirir, həvəsləndirmə, qiymətləndirmə və sinifdə müsbət münasibətlər qurmaqla onu qoruyur. Dərsin təşkilində fəal rol oynayarkən, müəllim uşaqların nitq fəaliyyətini məhdudlaşdırmır.

Qrammatika və orfoqrafiya dərslərində mümkün qədər tez-tez qısa esse, xülasə və sərbəst diktələr şəklində yaradıcı yazı tapşırıqlarından istifadə etmək eyni dərəcədə vacibdir. Bu halda, yazılı nitqin daha tənzimlənmiş və sabit qrammatik quruluşu şifahi nitqin çatışmazlıqlarını qismən aradan qaldırır və stilistik və qrammatik səhvlərin düzəldilməsi üzərində daha məqsədyönlü iş aparmağa imkan verir. Nəzərə alsaq ki, yazdığını gördüyü üçün şagird beynində daha tez vizuallaşdırma apara bilir ki, bu da mövzunun şagirdin qavraması və yaddaşında saxlamaığı baxımından daha effektiv nəticə verir.

Xüsusi şagirdlərdə disqrafiya son zamanlarda tez-tez müşahidə edilən bir haldır. yazı bacarıqlarının formalaşmasında müşahidə olunan spesifik öyrənmə pozuntularından biridir. Bu problemə malik şagirdlərdə yazı prosesinin təşkili və icrası zamanı müxtəlif çətinliklər özünü göstərir. Disqrafiyanın əsas əlamətlərinə bitişik və nizamsız yazılmış söz və cümlələr, sətirlərin əyri yerləşməsi, yazı alətlərini düzgün tutmaqda çətinlik, yazı zamanı kağızın tez-tez zədələnməsi, yazı prosesinin yorucu və ləng olması, həmçinin qısa və natamam cümlələrdən istifadə daxildir. Mütəxəssislər disqrafiyanı yalnız yazı texnikası ilə məhdudlaşan problem kimi deyil, həm də psixi fəaliyyətlə bağlı kompleks çətinlik kimi qiymətləndirirlər. Bu pozuntu şagirdin düşüncələrini yazılı şəkildə ifadə etmə qabiliyyətinə mənfi təsir göstərir. Başqa sözlə, şagird ideyanı formalaşdırsa da, onu sözlər vasitəsilə kağız üzərinə köçürməkdə çətinlik çəkir. Bu isə həm idrak proseslərinə, həm də incə motor bacarıqlarına təsir edir. Nəzərə alsaq ki, məktəb tapşırıqlarının böyük hissəsi yazı fəaliyyətinə əsaslanır, disqrafiya təlim prosesində ciddi maneələr yaradır. Araşdırmalara əsasən, dünya əhalisinin təxminən beşdə birində bu problemə rast gəlindiyi ehtimal olunur (İnklüziv siniflərdə təlimin təşkili, 2018).

Disqrafiya incə motorika ilə sıx bağlı olduğundan, bu cür çətinlik yaşayan uşaqlar gündəlik həyatda da müəyyən problemlərlə üzləşirlər. Məsələn, ayaqqabı bağlamaq, qayçıdan istifadə etmək kimi fəaliyyətlər onlar üçün çətin ola bilər. Eyni zamanda diqqətin davamlı saxlanılmasında problemlər, fikirlərin sistemləşdirilməsində çətinliklər və nitq zamanı rabitənin pozulması müşahidə oluna bilər. Sosial-emosional müstəvidə isə bu uşaqlar bəzən haqsız olaraq “tənbəl” və ya “qabiliyyətsiz” kimi qiymətləndirilə bilirlər. Disqrafiyası olan şagirdlərə dəstək məqsədilə ilk növbədə bu problemin vaxtında müəyyən edilməsi vacibdir. Digər öyrənmə pozuntularında olduğu kimi, burada da fərdiləşdirilmiş təhsil planlarının tətbiqi mühüm əhəmiyyət kəsb edir. Erkən müdaxilə yazı bacarıqlarının inkişafı baxımından xüsusi rol oynayır və şagirdin akademik uğur qazanmasına müsbət təsir göstərir. Mütəxəssislərin iştirakı ilə uyğun strategiyaların seçilməsi daha effektiv nəticələr əldə etməyə imkan verir. Tədris prosesində aşağıdakı yanaşmaların tətbiqi məqsədəuyğun hesab olunur:

İlk olaraq, standart yazı şablonlarının məcburi tətbiqindən mümkün qədər uzaq durmaq tövsiyə edilir. Disqrafiyası olan şagirdlər üçün yazı fəaliyyəti olduqca mürəkkəb olduğundan, müxtəlif yaradıcı üsulların tətbiqi daha effektiv nəticə verə bilər. Müxtəlif növ yazı alətləri və kağız formalarının (xüsusilə kvadrat bölməli kağızların) istifadəsi faydalı ola bilər. Davamlı məşq və məqsədyönlü fəaliyyət nəticəsində yazı keyfiyyətində müəyyən irəliləyiş əldə etmək mümkündür, baxmayaraq ki, bu proses adətən uzunmüddətli olur.

İkinci olaraq, yazılı tapşırıqların həcmi və forması tənzimlənməlidir. Bu şagirdlərin mövzunu başa düşdüyü, lakin yazılı ifadədə çətinlik çəkdiyi nəzərə alınaraq, biliklərin qiymətləndirilməsi üçün alternativ üsullardan istifadə etmək tövsiyə olunur. Məsələn, şifahi cavablar, audioyazıların istifadəsi və ya əvvəlcədən hazırlanmış materialların təqdim olunması daha uyğun ola bilər.

Bundan əlavə, şagirdlərə tapşırıqları yerinə yetirmək üçün əlavə vaxt verilməsi vacibdir. Bu, onların işə daha erkən başlamasına və tapşırıqları öz tempində tamamlamasına imkan yaradır. Lazım gəldikdə tapşırıqların ev şəraitində yekunlaşdırılmasına da şərait yaradılmalıdır.

Qiymətləndirmə zamanı diqqət tələb olunan əsas məqamlardan biri də qrammatika və orfoqrafiya məsələlərinə yanaşmadır. Əgər tapşırığın məqsədi bu sahələri yoxlamaq deyilsə, şagirdin işi məhz bu səhvlərə görə aşağı qiymətləndirilməməlidir. Əsas diqqət məzmunun mənimsənilməsinə yönəldilməlidir. Eyni zamanda, şagirdlərə yazılı mətn quruluşunun əsas prinsipləri – planlaşdırma, məntiqi ardıcıllıq və strukturlaşdırma bacarıqları sistemli şəkildə

öyrədilməlidir. Bu bacarıqlar bütün şagirdlər üçün faydalı olmaqla yanaşı, disqrafiyası olan uşaqlar üçün xüsusi əhəmiyyət daşıyır.Nəhayət, texnologiyadan istifadə müəyyən hallarda köməkçi vasitə kimi çıxış edə bilər. Kompüterdə yazı bəzi şagirdlər üçün daha rahat olsa da, klaviatura ilə işləmək də müəyyən motor bacarıqları tələb edir. Bu səbəbdən, texnologiya problemi tam aradan qaldırmasa da, alternativ dəstək vasitəsi kimi istifadə edilə bilər. Bununla belə, hər bir şagirdin elementar yazı bacarıqlarına yiyələnməsi vacib hesab olunur.

Beləliklə, şifahi və yazılı nitqin qarşılıqlı təsiri hər iki formanın təkmilləşdirilməsinə faydalı təsir göstərir.

Metodiki prinsiplərin birləşməsi, onların ana dilinin tədrisi prosesində ciddi şəkildə tətbiqi və ümumi didaktik prinsiplərlə qarşılıqlı təsiri Azərbaycan dili dərslərinin inkişaf potensialının artmasına və korreksiyaedici təlim məqsədlərinə daha uğurlu nail olmağa kömək edir.

Ədəbiyyat:

1. Məmmədəliyeva, Y., Kərimov, H., Doxolova, K., və d. (2019). Azərbaycan dili. Bakı: Çaşıoğlu.

2. Xudaverdiyeva, T. (2021). İnklüziv təhsildə təlimin təşkili prinsipləri: Perspektivlər və nəticələr. Azərbaycan məktəbi, 3(696), 49–58.

3. İnklüziv siniflərdə təlimin təşkili. (2018). Bakı. https://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf

4. Qasımov, S., Kərimova, E., Sultanova, İ., & Ağayeva, T. (2006). İnklüziv təhsil. Bakı: OKA-OFSET.

5. Məmmədova, Ş. (2025). İnklüziv təhsil: xüsusiyyətləri, mahiyyəti, problemləri. Respublika elmi konfransının materialları, 266–270.

6. Шаклеин, В. М., & Рыжова, Н. В. (2008). Современные методики преподавания русского языка нерусским. Москва.

İNKLÜZİV TƏHSİLDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN ROLU

Nərgiz Fikrət qızı Fərzəliyeva
Azərbaycan Respublikası
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı
nargizfarzaliyeva62@gmail.com
ORCİD ID: 0009-0000-4958-8691

Açar sözlər: inklüziv təhsil, rəqəmsal texnologiyalar, fərdiləşdirilmiş təlim, əlçatanlıq, təhsil innovasiyaları.

Xülasə. Müasir dövrdə inklüziv təhsilin təmin olunması təhsil sisteminin əsas prioritetlərindən biri hesab olunur və bu prosesdə rəqəmsal texnologiyalar mühüm rol oynayır. Rəqəmsal vasitələr müxtəlif qabiliyyətlərə, fərdi xüsusiyyətlərə və öyrənmə ehtiyaclarına malik şagirdlər üçün bərabər təhsil imkanlarının yaradılmasına şərait yaradır və onların potensial inkişafını dəstəkləyir. Bu texnologiyalar təlim prosesinin daha əlçatan, çevik və fərdiləşdirilmiş şəkildə təşkilinə imkan verir. Məqalənin əsas məqsədi inklüziv təhsil mühitində rəqəmsal texnologiyaların tətbiq imkanlarını araşdırmaq və onların tədris prosesinə təsirini təhlil etməkdir.

Aparılan təhlillər göstərir ki, mobil qurğular, interaktiv tətbiqlər, eləcə də genişləndirilmiş və virtual reallıq texnologiyaları şagirdlərin öyrənmə motivasiyasını artırır, idrak fəaliyyətini gücləndirir və sosial inteqrasiyanı dəstəkləyir. Bununla yanaşı, rəqəmsal texnologiyalar müəllimlərə diferensiallaşdırılmış və fərdiləşdirilmiş təlim strategiyalarını tətbiq etməyə imkan yaradır. Bu isə müxtəlif ehtiyaclara malik şagirdlərin təhsil prosesində fəal iştirakını təmin edir. Eyni zamanda, bu vasitələr fiziki, sensor və idrak məhdudiyyətləri olan öyrənənlərin təhsil resurslarına çıxışını asanlaşdırır. Rəqəmsal mühitdə əməkdaşlıq imkanları genişlənir, şagirdlər arasında qarşılıqlı ünsiyyət və birgə fəaliyyət güclənir. Bu proses ümumi təhsil keyfiyyətinin yüksəlməsinə və davamlı inkişafın təmin olunmasına mühüm təsir göstərir. Nəticə olaraq, rəqəmsal texnologiyaların təhsil sisteminə inteqrasiyası inklüziv, ədalətli və davamlı təhsil mühitinin formalaşmasına mühüm töhfə verir və cəmiyyətin inkişafına müsbət təsir göstərir.

Sinif otaqlarında inklüziv məkanların yaradılması inzibati düzəlişlərdən daha çox şey tələb edir; müəllimlər şagirdlərin fərdi fərqlərini tanıyan və qəbul edən pedaqoji yanaşmaları inkişaf etdirməlidirlər. Bu, sinif otağında "tənqidi yaradıcılıq" vasitəsilə əməkdaşlığı və öyrənməni təşviq edir. İnklüziv təhsil müsbət inanclara və mütəxəssislərin öhdəliklərinə əsaslanır, onlar şagirdlərə dəyər verməli və hörmət etməlidirlər, lazımi dəstək ilə əlilliyi olan şagirdlərin gözləntiləri üstələyə biləcəyini qəbul etməlidirlər. Bu şagirdləri cəmiyyətə inteqrasiyaya hazırlamaqla inklüziv təhsil sosial düşüncə tərzini dəyişdirmək və paradiqma dəyişikliyini təşviq etmək, peşə təhsili və məşğulluq vasitəsilə onların sosial adaptasiyasını və maliyyə rifahını yaxşılaşdırmaq gücünə malikdir.

Keywords: inclusive education, digital technologies, personalized learning, accessibility, educational innovation.

Summary. Ensuring inclusive education has become one of the main priorities of modern educational systems, and digital technologies play a significant role in achieving this goal. Digital tools provide equal learning opportunities for students with diverse abilities, individual characteristics, and learning needs, while supporting their overall development and participation in learning environments. They enable the organization of the educational process in a more accessible, flexible, and personalized manner. The main aim of this study is to examine the application of digital technologies in inclusive education and to analyze their impact on the teaching and learning process. The findings indicate that mobile devices, interactive applications, as well as augmented and virtual reality technologies increase students’ motivation, enhance cognitive engagement, and support social integration. In addition, digital technologies allow teachers to implement differentiated and personalized instructional strategies tailored to the needs of each learner. This ensures the active participation of students with different abilities in the educational process. Furthermore, these tools facilitate access to educational resources for learners with physical, sensory, and cognitive limitations. Digital environments also promote collaboration, communication, and shared learning experiences among students. This contributes to improving overall educational outcomes and supports sustainable development goals in education. As a result, the integration of digital technologies significantly enhances inclusive, equitable, and high-quality education systems worldwide today.

Anahtar kelimeler: kapsayıcı eğitim, dijital teknolojiler, bireyselleştirilmiş öğrenme, erişilebilirlik, eğitimde yenilikler.

Özet. Günümüzde kapsayıcı eğitimin sağlanması eğitim sistemlerinin temel önceliklerinden biri haline gelmiştir ve bu süreçte dijital teknolojiler önemli bir rol oynamaktadır. Dijital araçlar,

farklı yeteneklere, bireysel özelliklere ve öğrenme ihtiyaçlarına sahip öğrenciler için eşit öğrenme fırsatlarının oluşturulmasına katkı sağlar ve onların gelişimini destekler. Bu teknolojiler, eğitim sürecinin daha erişilebilir, esnek ve bireyselleştirilmiş bir şekilde düzenlenmesine imkan tanır. Bu çalışmanın temel amacı, kapsayıcı eğitim ortamlarında dijital teknolojilerin kullanım olanaklarını incelemek ve eğitim sürecine olan etkilerini analiz etmektir. Yapılan değerlendirmeler, mobil cihazlar, etkileşimli uygulamalar ile artırılmış ve sanal gerçeklik teknolojilerinin öğrencilerin motivasyonunu artırdığını, bilişsel katılımı güçlendirdiğini ve sosyal entegrasyonu desteklediğini göstermektedir. Ayrıca, dijital teknolojiler öğretmenlerin farklılaştırılmış ve bireyselleştirilmiş öğretim stratejileri uygulamasına olanak sağlar. Bu durum, farklı özelliklere sahip öğrencilerin eğitim sürecine aktif katılımını destekler. Bununla birlikte, dijital araçlar fiziksel, duyusal ve bilişsel sınırlamaları olan bireylerin eğitim kaynaklarına erişimini kolaylaştırır. Dijital ortamlar öğrenciler arasında iş birliğini, iletişimi ve ortak öğrenme deneyimlerini güçlendirir. Bu süreç eğitim kalitesinin artmasına ve sürdürülebilir gelişimin desteklenmesine katkı sağlar. Sonuç olarak, dijital teknolojilerin entegrasyonu kapsayıcı, adil ve sürdürülebilir eğitim ortamlarının geliştirilmesine önemli katkılar sağlamaktadır.

Tarix boyu təhsil işçiləri inklüziv təlim cəmiyyətləri yaratmağa çalışmış, həm məzmun yanaşmalarını, həm də pedaqoji metodlarını yenidən konfiqurasiya edərək əlçatanlığı artırmağa çalışmışlar.(Florian L., 2014) Bu daimi uyğunlaşma təkcə şagirdlərə deyil, həm də təlim strukturlarına və bütövlükdə cəmiyyətə təsir edən vacib bir düşüncə tərzinə və fundamental mexanizmə çevrilmişdir. Şəxsi biliklərin müxtəlif ehtiyaclarını ödəmək üçün hazırlanmış adaptiv təlim təcrübələri inklüziv iştirakın təşviqində mühüm rol oynayır. (Əliyev. R, 2018) Hər bir insanın fərqli şəkildə öyrəndiyini və şagirdlərin ehtiyaclarının texnoloji pozuntulara cavab olaraq inkişaf etdiyini nəzərə alsaq, bu dəyişikliklərə effektiv şəkildə cavab vermək üçün bilik yayma təcrübələrini davamlı olaraq tənzimləmək vacibdir.

İnklüziv siniflərdə motivasiyanın artırılmasının əsas yollarından biri differensiallaşdırılmış təlim strategiyalarının tətbiqidir. Hər bir şagirdin öyrənmə tempi və üslubu fərqli olduğundan, vahid tədris yanaşması effektiv nəticə vermir. Bu səbəbdən müəllimlər müxtəlif metod və vasitələrdən istifadə edərək fərdiləşdirilmiş öyrənmə mühiti yaratmalıdırlar. Vizual materiallar, audio resurslar və praktik tapşırıqlar şagirdlərin müxtəlif öyrənmə üslublarına uyğun şəkildə təqdim edilməlidir. Bu yanaşma şagirdlərin dərsə cəlb olunmasını artırır və onların motivasiyasını gücləndirir. Eyni zamanda, şagirdlərə seçim imkanının verilməsi onların öyrənmə prosesinə daha məsuliyyətlə yanaşmasına səbəb olur. Bu isə daxili motivasiyanın formalaşmasına müsbət təsir göstərir. Beləliklə, differensiallaşdırılmış təlim inklüziv mühitdə motivasiyanın əsas stimullaşdırıcı amillərindən biri kimi çıxış edir (Tomlinson, 2014).

Motivasiyanın artırılmasında müəllimin rolu xüsusi əhəmiyyət daşıyır. Müəllim yalnız bilik verən deyil, həm də şagirdləri ruhlandıran və onların öyrənmə prosesini dəstəkləyən şəxsdir. Onun müsbət münasibəti və dəstəkləyici davranışı şagirdlərin özünəinamını artırır. Xüsusilə inklüziv siniflərdə müəllimin empatik yanaşması şagirdlərin psixoloji rahatlığını təmin edir. Bu isə onların dərsə aktiv qoşulmasına şərait yaradır. Müəllim şagirdlərin nailiyyətlərini qiymətləndirərək onları təşviq etməli və uğur hissini gücləndirməlidir. Kiçik uğurların belə qeyd olunması motivasiyanın davamlılığını təmin edir. Nəticədə, müəllim-şagird münasibətlərinin müsbət qurulması motivasiyanın yüksəlməsində əsas amillərdən biri olur (Harmer, 2007).

Əlavə olaraq, inklüziv siniflərdə valideyn və cəmiyyətin rolu motivasiyanın gücləndirilməsində əhəmiyyətli faktordur. Valideynlərin dəstəyi və şagirdin nailiyyətlərinə marağı onun dərsə olan motivasiyasını artırır. Məktəblə valideyn əməkdaşlığı, evdə öyrənmə mühitinin formalaşdırılması və şagirdin uğurlarının müsbət qiymətləndirilməsi motivasiyanı davamlı edir. Eyni zamanda, cəmiyyətin inklüziv təhsil barədə məlumatlandırılması və şagirdlərin uğurlarının tanınması sosial dəstəyi gücləndirir. Motivasiya yalnız fərdi deyil, sosial amillərlə də birbaşa bağlıdır. Şagirdlərin sosial mühitdə qəbul olunması və uğur hekayələrinin paylaşılması onların özünü dəyərli hiss etməsinə şərait yaradır. Bu yanaşma həm şagirdlərin dərsə marağını artırır, həm də inklüziv təhsilin ümumi effektivliyini yüksəldir. Nəticədə, valideyn və cəmiyyətin aktiv iştirakı motivasiyanın davamlılığını təmin edən vacib amillərdən biridir.

İnklüziv siniflərdə motivasiyanın artırılmasında rəqəmsal texnologiyaların rolu da böyükdür. Müasir dövrdə müxtəlif onlayn platformalar və tətbiqlər dil öyrənmə prosesini daha maraqlı və interaktiv edir. Bu vasitələr şagirdlərə fərdi tempdə öyrənmək imkanı yaradır və onların maraqlarına uyğun məzmun təqdim edir. Xüsusilə oyunlaşdırma elementləri şagirdlərin dərsə olan marağını artırır. Rəqəmsal resurslar həmçinin vizual və eşitmə materiallarının istifadəsini genişləndirir. Bu isə müxtəlif öyrənmə üslublarına uyğunlaşmanı asanlaşdırır. Eyni zamanda, texnologiya şagirdlərə öz nailiyyətlərini izləmək imkanı verir ki, bu da onların motivasiyasını artırır. Beləliklə, rəqəmsal texnologiyalar inklüziv təhsildə motivasiyanın gücləndirilməsində mühüm vasitə kimi çıxış edir (Chapelle, 2003).

Qiymətləndirmə prosesi də şagirdlərin motivasiyasına birbaşa təsir göstərən amillərdən biridir. Ənənəvi qiymətləndirmə üsulları bəzən şagirdlərin real potensialını əks etdirmir və onların motivasiyasını azalda bilər. Bu baxımdan formativ qiymətləndirmə üsullarının tətbiqi daha effektiv hesab olunur. Müəllim şagirdlərə davamlı rəy verməli və onların inkişafını izləməlidir. Bu yanaşma şagirdlərin öz zəif və güclü tərəflərini dərk etməsinə kömək edir. Eyni zamanda, alternativ qiymətləndirmə üsulları şagirdlərin müxtəlif bacarıqlarını üzə çıxarmağa imkan verir. Bu isə onların

özünəinamını və motivasiyasını artırır. Beləliklə, düzgün təşkil olunmuş qiymətləndirmə sistemi inklüziv siniflərdə motivasiyanın yüksəldilməsinə xidmət edir (Black & Wiliam, 1998).

Nəticə olaraq, inklüziv siniflərdə ingilis dili öyrənən şagirdlərin motivasiyasının artırılması kompleks və çoxşaxəli yanaşma tələb edir. Bu prosesdə differensiallaşdırılmış təlim, müəllimin dəstəkləyici rolu və müasir texnologiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Şagirdlərin fərdi ehtiyaclarının nəzərə alınması onların öyrənmə prosesinə daha fəal qoşulmasına şərait yaradır. Eyni zamanda, müsbət sinif mühiti və əməkdaşlığa əsaslanan fəaliyyətlər motivasiyanı gücləndirir. Valideynlərin və məktəbin birgə fəaliyyəti də bu prosesə müsbət təsir göstərir. Bu istiqamətdə sistemli və davamlı yanaşma inklüziv təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Beləliklə, motivasiyanın artırılması inklüziv təhsilin uğurla həyata keçirilməsinin əsas şərtlərindən biri kimi qiymətləndirilir (Ryan, Deci, 2000).

Ədəbiyyat:

1. Black, P., & Wiliam, D. (1998). Assessment and classroom learning. Assessment in Education.
2. Chapelle, C. A. (2003). English Language Learning and Technology. Cambridge University Press.
3. Dörnyei, Z. (2001). Motivational Strategies in the Language Classroom. Cambridge University Press.
4. Harmer, J. (2007). How to Teach English. Pearson Education.
5. Ryan, R. M., & Deci, E. L. (2000). Intrinsic and Extrinsic Motivations. Academic Press.
6. Tomlinson, C. A. (2014). The Differentiated Classroom. ASCD.

İNKLÜZİV TƏHSİLDƏ ASSİSTİV TEXNOLOGİYALARIN İSTİFADƏSİ

Səkinə Məhərrəmova Etibar qızı
Azərbaycan Respublikası
Azərbaycan Texnologiya Universiteti
sekine_1989@mail.ru
ORCİD ID: https://orcid.org/0009-0007-4322-3254
Günel Fazil qızı Kərimli
Mingəçevir Dövlət Universiteti
Gunel.karimli@mdu.edu.az
ORCİD ID: 0000-0001-7424-6108

Açar sözlər: inklüziv təhsil, əlilliyi olan tələbələr, köməkçi texnologiya, rəqəmsal texnologiyalar, fərqləndirilmiş təlim.

Xülasə. Təhsil sahəsində əlilliyi olan tələbələr dərs və fəaliyyətlər zamanı müxtəlif çətinliklərlə qarşılaşır, bu isə onların akademik uğurlarına və cəmiyyətdə fəal iştirakına təsir göstərir. Bərabər öyrənmə imkanlarının təmin olunması üçün rəqəmsal texnologiyalar, xüsusilə kompüterlər, noutbuklar və mobil qurğular, əhəmiyyətli vasitə kimi çıxış edir. Lakin bu texnologiyalardan əlilliyi olan tələbələrin gündəlik həyatlarında necə istifadə etdikləri məsələsi hələ də kifayət qədər öyrənilməyib. UNESCO və BMT kimi beynəlxalq təşəbbüslər bu sahədə bərabər imkanların təmin edilməsini hədəfləyir. İnklüziv siniflərin əsas məqsədi bütün tələbələr üçün fərdi

bacarıqlardan asılı olmayaraq bərabər təhsil imkanları yaratmaqdır. Bu baxımdan köməkçi texnologiyalar (AT) — mətnin səsə çevrilməsi proqramları, adaptiv klaviaturalar, kommunikasiya vasitələri — tələbələrin müstəqil öyrənməsini və dərsdə aktiv iştirakını dəstəkləyir. AT həmçinin müəllimlərin peşə hazırlığını gücləndirir, lakin müəllim təlimləri hələ də geniş yayılmayıb. Fərqləndirilmiş təlim prinsipləri tələbələrin öyrənmə ehtiyaclarına uyğun məzmun, proses və məhsulun fərdiləşdirilməsini nəzərdə tutur, emosional və fiziki dəstəyi təmin edərək öyrənmə nailiyyətlərini artırır. Universal Design for Learning (UDL) çərçivəsində AT tələbələrin müxtəlif öyrənmə tərzlərinə uyğun çıxış əldə etməsini və dərs materialları ilə interaktivliyi təmin edir. Son illərdə inklüziv siniflərdə AT-nin istifadəsi artmaqda davam edir, çünki bu texnologiyalar əlilliyi olan tələbələrin təhsilə çıxışını bərabərləşdirir və inklüziv mühitin yaradılmasına mühüm töhfə verir.

Keywords: inclusive education, students with disabilities, assistive technology, digital technologies, differentiated instruction.

Summary. Students with disabilities in the education sector face various challenges during classroom activities, which can affect their academic achievement and active participation in society. Digital technologies, particularly computers, laptops, and mobile devices, play a crucial role in ensuring equal learning opportunities. However, there is still limited research on how students with disabilities apply and use these technologies in their daily lives. International initiatives, such as UNESCO and the United Nations, aim to ensure equal access in this area. The primary goal of inclusive classrooms is to provide equal educational opportunities for all students, regardless of their individual abilities. In this context, assistive technologies (AT)—such as text-to-speech software, adaptive keyboards, and communication devices—support students’ independent learning and active participation in class. AT also enhances teachers’ professional development, although teacher training in AT remains insufficient. Differentiated instruction principles involve adapting content, process, and product according to students’ learning needs, while providing emotional and physical support to improve learning outcomes. Within the Universal Design for Learning (UDL) framework, AT enables students to access and interact with learning materials in ways that suit diverse learning styles. In recent years, the use of AT in inclusive classrooms has continued to increase, as these technologies help equalize access to education for students with disabilities and play a significant role in creating an inclusive learning environment.

Anahtar kelimeler: kapsayıcı eğitim, engelli öğrenciler, yardımcı teknoloji, dijital teknolojiler, farklılaştırılmış öğretim

Özet. Eğitim alanında engelli öğrenciler, sınıf içi etkinlikler sırasında çeşitli zorluklarla karşılaşmakta ve bu durum akademik başarılarını ve toplum içinde aktif katılımlarını etkileyebilmektedir. Eşit öğrenme fırsatlarının sağlanmasında dijital teknolojiler, özellikle bilgisayarlar, dizüstü bilgisayarlar ve mobil cihazlar, önemli bir araç olarak öne çıkmaktadır. Ancak, engelli öğrencilerin bu teknolojileri günlük yaşamlarında nasıl kullandıkları hâlen yeterince araştırılmamıştır. UNESCO ve Birleşmiş Milletler gibi uluslararası girişimler, bu alanda eşit erişimin sağlanmasını hedeflemektedir. Kapsayıcı sınıfların temel amacı, tüm öğrencilere bireysel yeteneklerinden bağımsız olarak eşit eğitim fırsatları sunmaktır. Bu bağlamda yardımcı teknolojiler (AT)—metni sese dönüştüren programlar, adaptif klavyeler ve iletişim cihazları—öğrencilerin bağımsız öğrenmesini ve derse aktif katılımını desteklemektedir. AT ayrıca öğretmenlerin mesleki gelişimini artırır, ancak öğretmen eğitimi hâlen yeterince yaygın değildir. Farklılaştırılmış öğretim ilkeleri, öğrencilerin öğrenme ihtiyaçlarına göre içerik, süreç ve ürünün uyarlanmasını sağlayarak

öğrenme başarısını artırır. Evrensel Öğrenme Tasarımı (UDL) çerçevesinde AT, öğrencilerin farklı öğrenme stillerine uygun materyallere erişimini ve etkileşimlerini mümkün kılar. Son yıllarda kapsayıcı sınıflarda AT kullanımı artmaya devam etmektedir; bu teknolojiler, engelli öğrencilerin eğitime eşit erişimini sağlamakta ve kapsayıcı bir öğrenme ortamının oluşturulmasına önemli katkı sunmaktadır.

Təhsil sahəsində əlilliyi olan tələbələr sinif mühitində keçirilən müxtəlif fəaliyyətlər zamanı onların öyrənmə prosesini və akademik uğurlarını məhdudlaşdıran bir sıra çətinliklərlə qarşılaşırlar. Bu baxımdan onların cəmiyyətdə fəal iştirak etmələri üçün yaşıdları ilə bərabər imkanlara malik olmaları olduqca vacibdir. Bu kontekstdə rəqəmsal texnologiyalar tədris proqramına çıxışın təmin edilməsində mühüm vasitə kimi çıxış edir. Araşdırmalar göstərir ki, kompüterlər, noutbuklar və mobil qurğular kimi rəqəmsal texnologiyalar bir çox tələbənin həyatında əhəmiyyətli dəyişikliklər yaratmışdır. Bununla belə, texnologiyaların təhsilə təsiri artmasına baxmayaraq, əlilliyi olan tələbələrin bu texnologiyaları gündəlik həyatlarına necə tətbiq etdikləri və onlardan necə istifadə etdikləri məsələsinə kifayət qədər diqqət yetirilməmişdir. Bu vəziyyət müəyyən dərəcədə təəccüblü hesab edilmir, çünki əlilliyi olan uşaqlar haqqında mövcud elmi tədqiqatlar hələ də kifayət qədər inkişaf etməmişdir. Digər tərəfdən, ümumi tədqiqatların əksəriyyəti tələbə əhalisinin bu qrupunu çox vaxt nəzərə almır. Bu isə rəqəmsal texnologiyalara çıxış və onlardan səmərəli istifadə baxımından bərabər imkanların təmin olunması üçün müəyyən problemlər yarada bilər. Bərabərlik və ədalət prinsiplərinin qorunması ilə bağlı bu məsələ son onillikdə həyata keçirilən bir sıra beynəlxalq təşəbbüslərdə də öz əksini tapmışdır. Məsələn, “Harnessing ICTs for Education 2030” adlı UNESCO-Weidong Group layihəsi dörd il ərzində iştirakçı ölkələrə informasiya və kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə 2030-cu ilə qədər Davamlı İnkişaf Məqsədi 4-ün reallaşdırılmasına dəstək göstərməyi nəzərdə tutur. Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatı 13 dekabr 2006-cı ildə Baş Assambleyada Əlilliyi olan şəxslərin hüquqları haqqında beynəlxalq konvensiyanı qəbul etmişdir. Bu konvensiya əlilliyi olan şəxslər üçün uyğun texnologiyaların hazırlanmasını, onların əlçatanlığının artırılmasını və istifadəsinin genişləndirilməsini təşviq edir. Eyni zamanda, əlilliyi olan insanların gündəlik həyatını asanlaşdıran xüsusi texniki vasitələrin yaradılmasını da əhatə edir (K. C. Chiu, S. Lee, M.-Y. Ho, 2022)

İnklüziv siniflərin əsas məqsədi bütün tələbələrə, onların fərdi bacarıqlarından asılı olmayaraq, bərabər öyrənmə imkanları təqdim etməkdir. Lakin hər bir tələbənin uğur qazana biləcəyi mühitin yaradılması üçün yaradıcı və innovativ vasitələr tələb olunur. Köməkçi texnologiya (AT) bu baxımdan mühüm rol oynayır və mətnin səsə çevrilməsi proqramları, adaptiv klaviaturalar və kommunikasiya vasitələri kimi fərdiləşdirilmiş həllər vasitəsilə əlilliyi olan tələbələrin təhsil təcrübəsini dəstəkləyir. Belə vasitələr əlçatanlığı genişləndirir, müstəqilliyi gücləndirir və tələbələrin dərs prosesində aktiv iştirakını təşviq edir. Təhsil sistemi inkişaf etdikcə AT öyrənmə sahəsində mövcud fərqlilikləri aradan qaldırır və müasir inklüziv təhsilin vacib elementinə çevrilir. İnklüziv təhsil bütün tələbələr üçün, onların bacarıqlarından və ya əlillik vəziyyətindən asılı olmayaraq, bərabər təhsil imkanlarını təmin etməyi hədəfləyir. Bu çərçivədə AT əlilliyi olan tələbələrin öyrənmə prosesində qarşılaşdıqları çətinlikləri aradan qaldırır və onların yaşıdları ilə bərabər dərsdə fəal iştirak etməsinə kömək edir. AT potensial məhdudiyyətləri inkişaf və öyrənmə fürsətlərinə çevirərək daha ədalətli və inklüziv sinif mühiti yaradır.

Son illərdə inklüziv siniflərdə köməkçi texnologiyaların istifadəsi artmaqda davam edir, çünki bu texnologiyalar əlilliyi olan tələbələrin təhsilə bərabər çıxışını təmin edən əsas vasitələrdən biridir. Aparılan tədqiqatlar AT-nin faydalarını, tətbiqi zamanı qarşıya çıxan çətinlikləri və onun

təhsil siyasətləri ilə uyğunluğunu araşdırır. Universal Design for Learning (UDL) isə bütün tələbələr üçün təhsilin əlçatan olmasını təmin edən mühüm çərçivədir. Bu yanaşma tələbələrin dərs prosesinə aktiv cəlb olunmasını təmin etmək üçün müxtəlif iştirak, təqdimat və ifadə üsullarının istifadəsini təşviq edir. Bu çevik yanaşma öyrənmə, sensor və fiziki çətinlikləri olan tələbələrin tədris materiallarına fərdi ehtiyaclarına uyğun şəkildə çıxış əldə etməsinə imkan yaradır. AT isə bu çərçivədə əsas vasitə kimi çıxış edərək tələbələrin tədris materialları ilə fərqli yollarla qarşılıqlı əlaqədə olmasına şərait yaradır (Deepak Chahal, Sandeep Chahal, Sandeep Kumar, 2024)

Greenspan (2006) xüsusi ehtiyacları olan uşaqları belə təsnif edir: onların fiziki, əqli-intellektual, sosial və emosional inkişaf göstəriciləri yaşıdlarının inkişafından əhəmiyyətli şəkildə fərqlənir. Gündəlik həyatda əlavə dəstəyə ehtiyacı olan və tez-tez "istisna fərdlər" kimi qiymətləndirilən bu uşaqlar məktəb və cəmiyyət mühitində fəal rol oynaya bilməli, bunun üçün onların fərdi tələblərinə uyğunlaşdırılmış təhsil proqramları hazırlanmalıdır.

Köməkçi texnologiya (AT) yalnız tələbələrin öyrənmə prosesini dəstəkləyən vasitələri deyil, həm də müəllimlərin peşə hazırlığını gücləndirən alətləri də əhatə edir (Magana, 2017). Başqa sözlə, AT tələbələrin dərsdə iştirakını, öyrənmə fəaliyyətlərini və gündəlik həyatda müstəqilliklərini artırmaq üçün xüsusi hazırlanmış resursları təmin edir. Bununla belə, AT-dən istifadə ilə bağlı müəllim təlimləri hələ də kifayət qədər geniş yayılmayıb. İnklüziv məktəblərdə müəllimlərin hazırlanması əsasən uşaqların müəyyənləşdirilməsi, qiymətləndirilməsi və fərdi təhsil proqramlarının planlaşdırılması və fərdiləşdirilməsinə yönəlir (H. Widiyastono, D. S. Rejeki, M. Supratiwi, G. Gunarhadi, J. Yuwono, H. Hermawan, 2023).

Akademik mənbələrdə "köməkçi avadanlıq" və ya "köməkçi cihazlar" anlayışları geniş istifadə olunur və yalnız fiziki cihazlarla məhdudlaşmır. Bu anlayışa informasiya və kommunikasiya texnologiyaları (İKT), universal texnologiyalar, təhsil texnologiyaları, innovativ və əlçatan texnologiyalar da daxildir. Belə texnologiyalar xüsusi ehtiyacları olan şəxslərin qabiliyyətlərini dəstəkləmək, onların məhdudiyyətlərini kompensasiya etmək və gündəlik fəaliyyətlərini daha səmərəli icra etmələrinə kömək etmək üçün hazırlanır. Məsələn, disleksiya, görmə və ya eşitmə məhdudiyyətləri olan tələbələr üçün ekran oxuyucular, adaptiv klaviaturalar və kommunikasiya cihazları kimi həllər mövcuddur.

Bu vasitələr yalnız öyrənməni asanlaşdırmır, həm də istifadəçilərin sosial və akademik mühitdə tam inteqrasiyasını təmin edir. Beləliklə, köməkçi texnologiyalar fərdi güclü tərəfləri nəzərə alaraq əlillik səbəbindən ortaya çıxan maneələri aradan qaldırır və şəxslərin gündəlik həyat və fəaliyyətlərinə fəal şəkildə qoşulmasını dəstəkləyir. Aparılmış tədqiqatın nəticələrinə görə, görmə və eşitmə məhdudiyyətləri olan, həmçinin əzələ-skelet sistemi ilə bağlı problemləri olan şəxslər çoxsaylı müstəqil tapşırıqları yerinə yetirməkdə müəyyən çətinliklər yaşamağa başlamış və fərdi konsultasiyalardan frontal və qrup dərslərinə keçid üçün hazırlıqsız olduqlarını nümayiş etdirmişlər (Abdina Ainur, Uyzbayeva Anar, Zhanarstanova Maral, 2023).

Fərqləndirilmiş təlim prinsipləri pedaqoji yanaşmaların məzmun, məhsul və öyrənmə prosesləri üzrə dəyişdirilməsinə əsaslanır. Levy (2008) məzmunun fərdiləşdirilməsini tələbənin öyrənmə səviyyəsinə uyğun olaraq material miqdarının tənzimlənməsi kimi, prosesin fərdiləşdirilməsini məlumatın təqdimat üsulunun uyğunlaşdırılması kimi, məhsulun isə tələbənin qabiliyyət və potensialına əsaslanaraq müxtəlif nəticələr gözlənilməsi kimi təsvir edir. Salend (2016) vurğulayır ki, fərqləndirilmiş təlimin uğurla tətbiqi üçün tələbələrin emosional vəziyyəti və öyrənmə mühiti nəzərə alınmalıdır; burada emosional vəziyyət öyrənmə prosesinə tələbələrin münasibətini və motivasiyasını əhatə edir. Nəticə olaraq, öyrənmə mühitinin psixoloji və fiziki

baxımdan dəstəkləyici və təhlükəsiz olması tələbələrin effektiv öyrənməsi üçün mühüm amildir. Minott (2009) təhsildə fərqləndirmənin zəruriliyini önə çəkir və bildirir ki, pedaqoji fəaliyyət universal “hamıya eyni” yanaşması ilə həyata keçirilə bilməz. Əgər müəllimlər eyni metod və strategiyanı bütün tələbələr üçün tətbiq edirsə, aşağı göstəricili və xüsusi öyrənmə ehtiyacları olan tələbələr nəzərə alınmaya bilər. Fərqləndirmə yanaşması ənənəvi tədris metodlarından fəal öyrənmə metodlarına keçidi tələb edir və bu, tələbələrin öyrənmə nailiyyətlərinin artmasına şərait yaradır.

Beləliklə, fərqləndirilmiş təlim inklüziv təhsilin əsas prinsipini təşkil edir. Məzmuna, məhsula, tədris prosesinə, emosional faktorlar və öyrənmə mühitinə məqsədyönlü dəyişikliklər tətbiq etməklə müəllimlər tələbələrin fərdi ehtiyaclarını daha effektiv qarşılayır və öyrənmə nəticələrinin keyfiyyətini artırır (Aysel Beydullayeva, 2022).

Nəticə olaraq onu qeyd etmək olar ki, köməkçi texnologiyalar inklüziv siniflərdə əlilliyi olan tələbələrin öyrənməsini dəstəkləyir, müstəqilliyi artırır və bərabər təhsil imkanları yaradır.

Ədəbiyyat:

1. K. C. Chiu, S. Lee, M.-Y. Ho (2022). Assistive Technology for the Inclusion of Students with Disabilities: A Systematic Review. Educational Technology Research and Development. Cild 70, səh. 1912-1916 file:///C:/Users/Admin/Downloads/s11423-022-10127-7.pdf

2. Deepak Chahal, Sandeep Chahal, Sandeep Kumar (2024). Assistive Technology in Inclusive Classrooms. Educational Transformation in Digital Era. Səh. 8-10 https://www.researchgate.net/publication/388538962_Assistive_Technology_in_Inclusive_Classrooms

3. H. Widiyastono, D. S. Rejeki, M. Supratiwi, G. Gunarhadi, J. Yuwono, H. Hermawan (2023). Utilization of Assistive Technology in Special Needs Children’s Learning (Inclusive Education). Journal of Disability Cild. 3 No. 1. səh. 1-3 https://jurnal.uns.ac.id/disability/article/view/80244/45443

4. Abdina Ainur, Uyzbayeva Anar, Zhanarstanova Maral (2023). Assistive Technologies in Inclusive Education: A Comprehensive Analysis of Contemporary Research in Kazakhstan . Tuijin Jishu/Journal of Propulsion Technology Cild. 44 No. 6. səh. 4623-4624 https://www.propulsiontechjournal.com/index.php/journal/article/view/4708/3201

5. Aysel Beydullayeva (2022). Inclusive Education in Azerbaijan: A role of assistive technologies in facilitating its effectiveness — ADA University Master Tezis https://repository.ada.edu.az/entities/publication/e59af4db-a20b-42ae-9517-3c56a5c996e2

MULTİKULTURAL MÜHİTDƏ İNKLÜZİV DAVRANIŞ MODELLƏRİ

Baxış İslam oğlu Ələsgərov
Tarix üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı
elesgerovbaxis@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0001-7680-2654

Açar sözlər: inklüziv davranış, multikultural mühit, tolerantlıq, empatiya, sosial inteqrasiya, mədəni müxtəliflik, sosial ədalət.

Xülasə. Müasir qloballaşan dünyada multikultural mühitlərin genişlənməsi müxtəlif mədəniyyətlərə, dillərə və sosial qruplara məxsus insanların birgə yaşamasını zəruri edir. Bu şəraitdə inklüziv davranış modellərinin formalaşdırılması sosial harmoniyanın, qarşılıqlı hörmətin və bərabər imkanların təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. İnklüziv davranış fərqliliklərin qəbul olunması, tolerantlıq, empatiya və sosial ədalət prinsiplərinə əsaslanır.

Məqalədə multikultural mühitin xüsusiyyətləri, inklüziv davranış modellərinin mahiyyəti və onların formalaşdırılmasına təsir edən amillər təhlil olunur. Xüsusilə təhsil mühitində inklüziv davranışın inkişafı, müəllim və şagird münasibətləri, sosial qarşılıqlı əlaqələr və mədəni müxtəlifliyin idarə olunması məsələlərinə diqqət yetirilir. Tədqiqat göstərir ki, inklüziv davranış modelləri yalnız nəzəri biliklər əsasında deyil, praktik fəaliyyət və sosial təcrübə nəticəsində formalaşır.

Bununla yanaşı, multikultural mühitdə stereotiplər, diskriminasiya və sosial ayrı-seçkilik kimi problemlər inklüzivliyin inkişafına mane olur. Məqalədə bu problemlərin aradan qaldırılması üçün pedaqoji və sosial strategiyalar təklif olunur.

Nəticə olaraq, inklüziv davranış modellərinin inkişafı cəmiyyətin davamlı və harmonik inkişafının əsas şərtlərindən biridir. Bu istiqamətdə təhsil sistemi, ailə və sosial institutların birgə fəaliyyəti xüsusi əhəmiyyət daşıyır.

Keywords: inclusive behavior, multicultural environment, tolerance, empathy, social integration, cultural diversity, social justice.

Summary. In the modern globalized world, the expansion of multicultural environments necessitates the coexistence of people belonging to different cultures, languages, and social groups. In these circumstances, the formation of inclusive behavior models is of great importance in terms of ensuring social harmony, mutual respect, and equal opportunities. Inclusive behavior is based on the principles of acceptance of differences, tolerance, empathy, and social justice.

The article analyzes the characteristics of the multicultural environment, the essence of inclusive behavior models, and the factors influencing their formation. Particular attention is paid to the development of inclusive behavior in the educational environment, teacher-student relations, social interactions, and the management of cultural diversity. The study shows that inclusive behavior models are formed not only on the basis of theoretical knowledge, but also as a result of practical activity and social experience.

At the same time, problems such as stereotypes, discrimination, and social segregation in a multicultural environment hinder the development of inclusion. The article proposes pedagogical and social strategies to overcome these problems.

As a result, the development of inclusive behavior models is one of the main conditions for the sustainable and harmonious development of society. In this direction, the joint activity of the education system, family and social institutions is of particular importance.

Anahtar kelimeler: kapsayıcı davranış, çok kültürlü ortam, hoşgörü, empati, sosyal entegrasyon, kültürel çeşitlilik, sosyal adalet.

Özet. Modern küreselleşmiş dünyada, çok kültürlü ortamların genişlemesi, farklı kültürlere, dillere ve sosyal gruplara mensup insanların bir arada yaşamasını gerektirmektedir. Bu koşullar altında, sosyal uyum, karşılıklı saygı ve fırsat eşitliğinin sağlanması açısından kapsayıcı davranış modellerinin oluşturulması büyük önem taşımaktadır. Kapsayıcı davranış, farklılıkların kabulü, hoşgörü, empati ve sosyal adalet ilkelerine dayanmaktadır.

Bu makale, çok kültürlü ortamın özelliklerini, kapsayıcı davranış modellerinin özünü ve oluşumlarını etkileyen faktörleri analiz etmektedir. Özellikle eğitim ortamında, öğretmen-öğrenci ilişkilerinde, sosyal etkileşimlerde ve kültürel çeşitliliğin yönetiminde kapsayıcı davranışın gelişimine dikkat çekilmektedir. Çalışma, kapsayıcı davranış modellerinin sadece teorik bilgiye dayanarak değil, aynı zamanda pratik faaliyet ve sosyal deneyim sonucunda da oluştuğunu göstermektedir.

Aynı zamanda, çok kültürlü bir ortamda kalıplaşmış yargılar, ayrımcılık ve sosyal ayrışma gibi sorunlar, kapsayıcılığın gelişimini engellemektedir. Makale, bu sorunların üstesinden gelmek için pedagojik ve sosyal stratejiler önermektedir.

Sonuç olarak, kapsayıcı davranış modellerinin geliştirilmesi, toplumun sürdürülebilir ve uyumlu gelişiminin temel koşullarından biridir. Bu doğrultuda, eğitim sistemi, aile ve sosyal kurumların ortak faaliyeti özellikle önemlidir.

Qloballaşma prosesləri nəticəsində müasir cəmiyyətlərdə multikultural mühitin rolu getdikcə artır. Müxtəlif etnik, dini və mədəni qrupların birgə yaşadığı bu mühitlər sosial münasibətlərin yeni modellərini tələb edir. Bu baxımdan inklüziv davranış modelləri cəmiyyətin harmonik inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Multikultural mühitdə inklüziv davranış fərqliliklərin qəbul edilməsi və onlara hörmətlə yanaşma əsasında formalaşır. Bu, yalnız sosial münasibətlərin tənzimlənməsi deyil, həm də insan hüquqlarının qorunması baxımından vacibdir.

Multikultural mühit müxtəlif mədəniyyətlərin, dillərin və həyat tərzlərinin qarşılıqlı təsiri ilə xarakterizə olunur. Bu mühitdə fərqliliklər sosial zənginlik kimi qəbul edilir və cəmiyyətin inkişafına töhfə verir (Məmmədov, 2021).

Lakin bu müxtəliflik eyni zamanda müəyyən çətinliklər də yaradır. Mədəni fərqlərdən qaynaqlanan anlaşılmazlıqlar və stereotiplər sosial münasibətlərdə gərginliyə səbəb ola bilər. Bu baxımdan inklüziv yanaşmaların tətbiqi vacibdir.

İnklüziv davranış modelləri fərdlərin və qrupların sosial münasibətlərdə bərabərlik, hörmət və tolerantlıq prinsiplərinə əsaslanan davranış formalarını əhatə edir. Bu modellər empatiya, qarşılıqlı anlayış və sosial məsuliyyət kimi dəyərlərə əsaslanır.

İnklüziv davranış yalnız fərdi xüsusiyyət deyil, həm də sosial mühitin təsiri ilə formalaşan kompleks bir prosesdir.

Təhsil mühiti inklüziv davranış modellərinin formalaşdırılmasında ən mühüm sosial institutlardan biridir. Məktəblər və ali təhsil müəssisələri yalnız bilik ötürən məkan deyil, həm də şəxsiyyətin formalaşdığı, sosial münasibətlərin qurulduğu və dəyərlərin mənimsənildiyi mühüm mühitdir. Bu baxımdan inklüziv davranışın inkişafı təhsil sisteminin əsas prioritetlərindən biri kimi çıxış edir.

İnklüziv davranışın təhsil mühitində formalaşdırılması ilk növbədə inklüziv təhsil prinsiplərinin tətbiqindən başlayır. Bu prinsiplər bütün şagirdlər üçün bərabər imkanların yaradılmasını, fərqliliklərin qəbul edilməsini və hər bir fərdin təhsil prosesində aktiv iştirakını təmin etməyi nəzərdə tutur (İsmayılov, 2020). İnklüziv təhsil mühiti şagirdlər arasında qarşılıqlı hörmətin və tolerant münasibətin formalaşmasına şərait yaradır.

Bu prosesdə müəllimin rolu xüsusi əhəmiyyət kəsb edir. Müəllim yalnız bilik verən deyil, həm də sosial davranış modeli kimi çıxış edir. Onun şagirdlərə münasibəti, ünsiyyət tərzi və sinif mühitində yaratdığı psixoloji atmosfer inklüziv davranışın formalaşmasına birbaşa təsir göstərir. Müəllimlərin empatik yanaşması, fərdi xüsusiyyətləri nəzərə alması və bütün şagirdlərə bərabər münasibət göstərməsi inklüziv mühitin əsas şərtlərindəndir (Quliyev, 2018).

İnklüziv davranışın formalaşdırılmasında tədris metodları və pedaqoji yanaşmalar da mühüm rol oynayır. Aktiv və interaktiv təlim metodları – qrup işi, debatlar, layihə əsaslı öyrənmə və rollu oyunlar – şagirdlər arasında əməkdaşlığı gücləndirir və onların bir-birini daha yaxşı anlamasına kömək edir. Bu metodlar şagirdlərdə empatiya, qarşılıqlı hörmət və sosial məsuliyyət kimi keyfiyyətlərin inkişafına şərait yaradır (Məmmədov, 2021).

Təhsil proqramlarının və dərsliklərin məzmunu da inklüziv davranışın formalaşdırılmasında əhəmiyyətlidir. Dərs materiallarında müxtəlif mədəniyyətlərin, dillərin və sosial qrupların nümayiş etdirilməsi şagirdlərdə multikultural dəyərlərə hörmətin formalaşmasına kömək edir. Bu yanaşma stereotiplərin aradan qaldırılmasına və daha geniş dünyagörüşünün formalaşmasına şərait yaradır.

Məktəbdaxili sosial mühit də inklüziv davranışın inkişafında mühüm rol oynayır. Şagirdlər arasında qarşılıqlı münasibətlər, dostluq əlaqələri və sosial fəaliyyətlər onların davranış modellərini formalaşdırır. Məktəbdə təşkil olunan birgə tədbirlər, mədəniyyət günləri, sosial layihələr və könüllülük fəaliyyətləri şagirdlərdə inklüziv dəyərlərin inkişafına müsbət təsir göstərir.

Eyni zamanda, inklüziv davranışın formalaşdırılmasında psixoloji dəstək sistemlərinin rolu böyükdür. Məktəb psixoloqları şagirdlərin sosial adaptasiyasına kömək edir, konfliktlərin həllinə dəstək verir və inklüziv mühitin qorunmasına töhfə verirlər. Psixoloji dəstək xüsusilə fərqli ehtiyacları olan və ya sosial adaptasiya çətinliyi yaşayan şagirdlər üçün vacibdir.

Rəqəmsal texnologiyaların tətbiqi də inklüziv davranışın inkişafına yeni imkanlar yaradır. Onlayn platformalar və interaktiv təhsil vasitələri müxtəlif mədəniyyətlərdən olan şagirdlərin birgə fəaliyyətini asanlaşdırır və onların ünsiyyət bacarıqlarını inkişaf etdirir (Rzayev, 2022). Bununla yanaşı, rəqəmsal mühitdə etik davranış qaydalarının öyrədilməsi də vacibdir.

Bununla belə, təhsil mühitində inklüziv davranışın formalaşdırılması müəyyən çətinliklərlə də müşayiət olunur. Stereotiplər, diskriminasiya halları və sosial fərqliliklər bəzi hallarda şagirdlər arasında gərginlik yarada bilər. Bu problemlərin aradan qaldırılması üçün sistemli və məqsədyönlü tədbirlərin həyata keçirilməsi vacibdir.

Nəticə olaraq, təhsil mühitində inklüziv davranışın formalaşdırılması kompleks və çoxşaxəli prosesdir. Müəllimlərin rolu, pedaqoji yanaşmalar, təhsil proqramları, sosial mühit və psixoloji dəstək bu prosesin əsas komponentlərini təşkil edir. Bu amillərin düzgün inteqrasiyası inklüziv və harmonik təhsil mühitinin formalaşmasına və şagirdlərin sosial inkişafına mühüm töhfə verir.

Multikultural mühitdə inklüziv davranışın formalaşdırılması mürəkkəb və çoxşaxəli prosesdir. Bu proses müxtəlif sosial, psixoloji və pedaqoji amillərin qarşılıqlı təsiri nəticəsində baş verir. Hər bir amil fərdin dünyagörüşünə, dəyərlərinə və sosial münasibətlərinə təsir edərək onun inklüziv davranış modelini müəyyənləşdirir.

İlk növbədə, ailə mühiti inklüziv davranışın formalaşmasında əsas rol oynayan amillərdən biridir. Uşaqların ilkin sosiallaşması ailədə baş verir və valideynlərin dünyagörüşü, dəyərləri və davranış modelləri onların gələcək münasibətlərinə birbaşa təsir göstərir. Əgər ailədə tolerantlıq, hörmət və bərabərlik prinsipləri təşviq olunursa, bu, uşaqlarda inklüziv düşüncənin formalaşmasına müsbət təsir edir. Əksinə, stereotiplərin və ayrı-seçkiliyin mövcud olduğu ailə mühitində böyüyən uşaqlarda qeyri-inklüziv davranış meylləri formalaşa bilər.

Digər mühüm amil təhsil sistemidir. Məktəblər və ali təhsil müəssisələri yalnız bilik ötürən deyil, həm də sosial dəyərləri formalaşdıran mühüm institutlardır. Təhsil mühitində tətbiq olunan pedaqoji yanaşmalar, müəllimlərin davranışı və tədris proqramları inklüziv davranışın inkişafına birbaşa təsir göstərir. İnklüziv təhsil modeli şagirdlərdə empatiya, tolerantlıq və sosial məsuliyyət kimi keyfiyyətlərin formalaşmasına kömək edir (İsmayılov, 2020). Müəllimlər bu prosesdə əsas vasitəçi kimi çıxış edir və onların davranışları şagirdlər üçün nümunə rolunu oynayır.

Sosial mühit və yaşıd qrupları da inklüziv davranışın formalaşmasında mühüm rol oynayır. İnsanlar gündəlik həyatlarında müxtəlif sosial qruplarla ünsiyyət qurur və bu ünsiyyət onların davranış modellərinə təsir edir. Multikultural mühitdə fərqli mədəniyyətlərə malik insanlarla qarşılıqlı əlaqə empatiyanın və qarşılıqlı anlayışın inkişafına şərait yaradır. Lakin eyni zamanda bu mühitdə stereotiplər və qərəzli yanaşmalar da yarana bilər ki, bu da inklüziv davranışın formalaşmasına mane olur (Məmmədov, 2021).

Kütləvi informasiya vasitələri və media da mühüm təsir amillərindəndir. Televiziya, internet və sosial şəbəkələr insanların düşüncə tərzinə və sosial münasibətlərinə ciddi təsir göstərir. Media vasitəsilə yayılan məlumatlar inklüziv dəyərlərin təşviqinə və ya əksinə, stereotiplərin güclənməsinə səbəb ola bilər. Xüsusilə sosial mediada yayılan yanlış məlumatlar və ya qərəzli məzmunlar bəzi hallarda ayrı-seçkiliyin artmasına gətirib çıxarır([Rzayev, 2022).

Psixoloji amillər də bu prosesdə mühüm yer tutur. Fərdin şəxsiyyət xüsusiyyətləri, emosional intellekti və empatiya səviyyəsi onun inklüziv davranışa meylini müəyyən edir. Empatiya qabiliyyəti yüksək olan fərdlər digər insanların hisslərini daha yaxşı anlayır və onlara qarşı daha tolerant münasibət göstərirlər. Bu isə inklüziv davranışın əsas komponentlərindən biridir (Quliyev, 2018).

Mədəni faktorlar da inklüziv davranışın formalaşmasına təsir edir. Hər bir cəmiyyətin özünəməxsus dəyərləri, ənənələri və davranış normaları vardır. Multikultural mühitdə bu müxtəlif mədəniyyətlərin qarşılıqlı təsiri yeni davranış modellərinin formalaşmasına səbəb olur. Əgər bu proses düzgün idarə olunarsa, mədəni müxtəliflik sosial zənginlik mənbəyinə çevrilə bilər.

Hüquqi və institusional amillər də nəzərə alınmalıdır. Dövlətin həyata keçirdiyi siyasət, qanunvericilik bazası və sosial proqramlar inklüziv davranışın təşviqində mühüm rol oynayır. Bərabərlik və insan hüquqlarının qorunmasına yönəlmiş qanunlar cəmiyyətdə inklüziv mühitin formalaşmasına şərait yaradır (Əliyev, 2020).

Eyni zamanda, iqtisadi amillər də bu prosesə təsir göstərir. Sosial-iqtisadi bərabərsizliklər bəzi hallarda sosial qruplar arasında məsafə yaradır və inklüziv davranışın inkişafını çətinləşdirir. Maddi imkanların qeyri-bərabərliyi sosial ayrı-seçkiliyə səbəb ola bilər ki, bu da inklüzivliyin zəifləməsinə gətirib çıxarır.

Nəticə olaraq, multikultural mühitdə inklüziv davranışa təsir edən amillər çoxşaxəli və qarşılıqlı əlaqəlidir. Ailə, təhsil sistemi, sosial mühit, media, psixoloji xüsusiyyətlər və dövlət siyasəti bu prosesin əsas komponentlərini təşkil edir. Bu amillərin düzgün istiqamətləndirilməsi inklüziv davranış modellərinin formalaşdırılmasına və cəmiyyətdə sosial harmoniyanın təmin olunmasına mühüm töhfə verir.

Multikultural mühitdə inklüziv davranışın inkişafına mane olan əsas problemlərdən biri stereotiplər və diskriminasiyadır. Bu problemlər sosial münasibətlərdə gərginlik yaradır və inklüzivliyin inkişafına mane olur.

Gələcəkdə inklüziv davranış modellərinin inkişafı üçün təhsil sistemində innovativ metodların tətbiqi vacibdir. Eyni zamanda ictimai maarifləndirmə və sosial layihələr bu sahədə mühüm rol oynaya bilər.

Multikultural mühitdə inklüziv davranış modelləri sosial harmoniyanın və davamlı inkişafın əsas şərtlərindən biridir. Bu modellərin formalaşdırılması üçün kompleks və sistemli yanaşma tələb olunur.

Ədəbiyyat:

1. Əliyev, A. (2020). Multikulturalizm və cəmiyyət. Təhsil.
2. Həsənov, R. (2019). Sosial münasibətlər və multikultural mühit. Elm.
3. İsmayılov, K. (2020). Təhsildə inklüziv yanaşmalar. ADPU.
4. Məmmədov, S. (2021). Sosial psixologiya və mədəni müxtəliflik. Maarif.
5. Quliyev, T. (2018). Davranış psixologiyası. Elm və təhsil.
6. Rzayev, N. (2022). Müasir cəmiyyətdə sosial dəyişikliklər. Təhsil.

İNKLÜZİV TƏHSİLİN İNKİŞAFINDA RƏQƏMSAL TRANSFORMASİYA VƏ PSİXO-PEDAQOJİ YANAŞMALAR: MULTİDİSİPLİNAR ANALİZ

İlahə Yasin qızı Əmrahzadə
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
ilahe.emrahzade@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0009-0004-9491-6315

Açar sözlər: inklüziv təhsil, rəqəmsal transformasiya, süni intellect, neyropsixologiya, adaptiv texnologiyalar, fərdi təhsil ehtiyacları, koqnitiv yük.

Xülasə. Bu tədqiqat işində müasir inklüziv təhsil mühitində rəqəmsal transformasiyanın psixopedaqoji aspektləri və bu innovativ prosesin fərdi təhsil ehtiyaclarının (FTE) müəyyənləşdirilməsindəki həlledici rolu elmi-nəzəri və praktik aspektlərdən hərtərəfli təhlil edilir. Müasir təhsil sistemində rəqəmsal alətlərin şagirdlərin fərdi psixoloji xüsusiyyətlərini diaqnostika etmək, onların öyrənmə maneələrini erkən mərhələdə aşkar etmək və təhsil mühitini məhz bu spesifik ehtiyaclara uyğunlaşdırmaq imkanları mühüm pedaqoji yanaşma kimi dəyərləndirilir. Tədqiqatın elmi yeniliyi, Süni İntellekt (Sİ) əsaslı adaptiv platformaların tətbiqinin inklüziv siniflərdəki effektivliyini kəmiyyət göstəriciləri ilə əsaslandırmasıdır. Eksperimental təhlillər sübut edir ki, rəqəmsal adaptiv sistemlərin tətbiqi şagirdlərin akademik nailiyyətlərini orta hesabla 27% artırır, eyni zamanda mürəkkəb tapşırıqların icrası zamanı yaranan koqnitiv stressi 40%

səviyyəsində azaldır. Araşdırma nəticələri göstərir ki, rəqəmsal texnologiyaların müasir psixopedaqoji metodlarla sistemli inteqrasiyası inklüziv təhsilin davamlı inkişafı, təhsilalanların fərdi inkişaf trayektoriyalarının qurulması və müəllimlərin rəqəmsal kompetensiyalarının artırılması üçün həlledici əhəmiyyət kəsb edir. Xüsusi qayğıya ehtiyacı olan şagirdlərin sosial inteqrasiyası və təhsil bərabərliyinin təmin olunmasında rəqəmsal assistiv texnologiyalar mühüm strateji vasitə kimi xarakterizə olunur. Tədqiqat çərçivəsində əldə olunan nəticələr rəqəmsal resursların inklüziv pedaqogikada tətbiqi üçün konseptual bazanı formalaşdırır və bu sahədə gələcək praktik fəaliyyətlər üçün elmi zəmin yaradır.

Keywords: inclusive education, digital transformation, artificial intelligence, neuropsychology, adaptive technologies, individual educational needs, cognitive load.

Summary. This research analyzes the psycho-pedagogical aspects of digital transformation within the modern inclusive education environment and explores the critical role of this innovative process in identifying individual educational needs (IEN) from both theoretical and practical perspectives. In the contemporary educational system, the potential of digital tools to diagnose students' individual psychological characteristics, detect learning barriers at an early stage, and adapt the educational environment specifically to these needs is evaluated as a significant pedagogical approach. The scientific novelty of the research lies in substantiating the effectiveness of implementing Artificial Intelligence (AI)-based adaptive platforms in inclusive classrooms through quantitative indicators.

Experimental analyses prove that the application of digital adaptive systems increases students' academic achievements by an average of 27%, while simultaneously reducing cognitive stress by 40% during the execution of complex tasks. The research results indicate that the systematic integration of digital technologies with modern psycho-pedagogical methods is of decisive importance for the sustainable development of inclusive education, the construction of individual development trajectories for learners, and the enhancement of teachers' digital competencies. Digital assistive technologies are characterized as essential strategic tools for ensuring the social integration of students with special needs and promoting educational equality. The findings obtained within the framework of this study form a conceptual basis for the application of digital resources in inclusive pedagogy and create a scientific foundation for future practical activities in this field.

Anahtar kelimeler: kapsayıcı eğitim, dijital dönüşüm, yapay zeka, nöropsikoloji, adaptif teknolojiler, bireysel eğitim ihtiyaçları, bilişsel yük.

Özet. Bu araştırma çalışmasında, modern kapsayıcı eğitim ortamında dijital dönüşümün psikopedagojik yönleri ve bu yenilikçi sürecin bireysel eğitim ihtiyaçlarının (BEİ) belirlenmesindeki belirleyici rolü bilimsel-teorik ve pratik açılardan kapsamlı bir şekilde analiz edilmektedir. Modern eğitim sisteminde dijital araçların öğrencilerin bireysel psikolojik özelliklerini teşhis etme, öğrenme engellerini erken aşamada tespit etme ve eğitim ortamını tam olarak bu spesifik ihtiyaçlara göre uyarlama olanakları önemli bir pedagojik yaklaşım olarak değerlendirilmektedir. Araştırmanın bilimsel yeniliği, kapsayıcı sınıflarda Yapay Zeka (YZ) tabanlı adaptif platformların uygulanmasının etkinliğini nicel göstergelerle temellendirmesidir. Deneysel analizler, dijital adaptif sistemlerin uygulanmasının öğrencilerin akademik başarılarını ortalama %27 oranında artırdığını, aynı zamanda karmaşık görevlerin yerine getirilmesi sırasında oluşan bilişsel stresi %40 seviyesinde azalttığını kanıtlamaktadır. Araştırma sonuçları, dijital teknolojilerin modern psikopedagojik yöntemlerle sistematik entegrasyonunun kapsayıcı eğitimin sürdürülebilir

gelişimi, öğrenenlerin bireysel gelişim yörüngelerinin oluşturulması ve öğretmenlerin dijital yetkinliklerinin artırılması için hayati önem taşıdığını göstermektedir. Özel gereksinimli öğrencilerin sosyal entegrasyonu ve eğitimde fırsat eşitliğinin sağlanmasında dijital destekleyici teknolojiler önemli stratejik araçlar olarak nitelendirilmektedir. Bu çalışma kapsamında elde edilen bulgular, dijital kaynakların kapsayıcı pedagojide uygulanması için kavramsal bir çerçeve oluşturmakta ve bu alandaki gelecekteki pratik faaliyetler için bilimsel bir zemin hazırlamaktadır.

Müasir təhsil sisteminin əsas prioritetlərindən biri bütün şagirdlər üçün bərabər və əlçatan təhsil imkanlarının yaradılmasıdır. Bu baxımdan inklüziv təhsil konsepsiyası qlobal səviyyədə geniş yayılmış və rəqəmsal transformasiya ilə vəhdət təşkil edərək təhsil siyasətinin mühüm istiqamətinə çevrilmişdir. İnklüziv təhsilin ən mühüm mərhələsi şagirdlərin psixoloji xüsusiyyətlərinin və fərdi təhsil ehtiyaclarının düzgün müəyyənləşdirilməsidir. Təhsildə Universal Dizayn (Universal Design for Learning - UDL) konsepsiyasının baniləri olan Harvard Universiteti alimləri David Rose və Anne Meyer elmi şəkildə sübut edirlər ki, rəqəmsal texnologiyalar inklüziv mühitdə fərdi təhsil ehtiyaclarının diaqnostikası və təlim prosesinin hər bir fərdin sensor-koqnitiv imkanlarına uyğunlaşdırılmasında strateji, həlledici rol oynayaraq, təhsilin tam əlçatanlığını təmin edən fundamental vasitədir. (D. H. Rose & A. Meyer, 2002).

Müasir təhsil paradiqmasının ən mühüm çağırışlarından biri fərdin diversifikasiyasını (müxtəlifliyini) bir maneə deyil, zənginlik kimi qəbul edən inklüziv mühitlərin yaradılmasıdır. İnklüziv təhsil, yalnız xüsusi qayğıya ehtiyacı olan şagirdlərin fiziki olaraq sinif daxilində yerləşdirilməsi deyil, onların təlim prosesindəki aktiv iştirakını, emosional rifahını və sosial mobilliyini təmin edən sistemli bir yanaşmadır. Lakin ənənəvi pedaqoji metodların standartlaşdırılmış quruluşu çox vaxt fərdi öyrənmə trayektoriyalarını qarşılamaqda çətinlik çəkir ki, bu da təhsil sistemində "rəqəmsal və pedaqoji baryerlərin" yaranmasına səbəb olur.

Bu kontekstdə rəqəmsal transformasiya, inklüzivliyin təmin olunmasında "kompensator" (bərpaedici) və "katalizator" (sürətləndirici) funksiyasını yerinə yetirir. UNESCO-nun (2020) strateji hədəflərində qeyd olunduğu kimi, texnologiya hər bir fərdin sensor, koqnitiv və fiziki imkanlarına uyğunlaşa bilən "Universal Dizayn" (UDL) prinsiplərini reallaşdırmaq üçün yeganə çıxış yoludur. İnklüziv təhsil mühitinin formalaşdırılması prosesində rəqəmsal alətlər şagirdlərin gizli potensialını üzə çıxarmaqla yanaşı, həm də müəllimlər üçün şagirdyönümlü strategiyaların qurulmasında mühüm metodoloji baza rolunu oynayır.

Tədqiqatın aktuallığı ondan ibarətdir ki, rəqəmsal texnologiyalar inklüziv təhsili sadəcə texniki cəhətdən deyil, həm də psixopedaqoji cəhətdən transformasiya edir. Şagirdlərin psixoloji xüsusiyyətlərinin və fərdi təhsil ehtiyaclarının rəqəmsal platformalar vasitəsilə diaqnostikası, tədris prosesində "fərdiləşdirilmiş inklüziya" modelini reallığa çevirir. David Rose və Anne Meyer tərəfindən vurğulandığı kimi, rəqəmsal öyrənmə mühiti şagirdin fərdi koqnitiv profilinə və qavrayış səviyyəsinə uyğunlaşdırıldıqda, təhsil prosesi standart bir metodologiyadan çıxaraq, hər bir uşağın neyropsixoloji xüsusiyyətlərini dəstəkləyən və potensial imkanlarını maksimallaşdıran dinamik bir inkişaf sahəsinə çevrilir.

1. Şagirdlərin psixoloji xüsusiyyətlərinin rəqəmsal diaqnostikası. İnklüziv təhsilin fundamental mərhələsi sayılan fərdi təhsil ehtiyaclarının müəyyənləşdirilməsi prosesində müasir rəqəmsal texnologiyalar, ənənəvi subyektiv qiymətləndirmə metodlarını dinamik və yüksək dəqiqlikli "Affektiv Hesablama" (Affective Computing) sistemləri ilə əvəz etməkdədir. Süni intellektə əsaslanan bu yanaşma, şagirdin təlim prosesindəki emosional-psixoloji reaksiyalarını və koqnitiv yüklənmə dərəcəsini real zaman rejimində analiz edərək, tədris mühitinin fərdin

psixofizioloji vəziyyətinə uyğunlaşdırılmasını təmin edir. Bu sahədə tətbiq edilən "Göz İzləmə" (Eye-tracking) texnologiyası şagirdin mətni qavrama trayektoriyasını, vizual fiksasiya nöqtələrini və oxu sürətini izləmək vasitəsilə onun diqqət konsentrasiyasının strukturunu müəyyən edir. Bu metodologiya neyrobioloji əsaslı spesifik qavrayış maneələrini, xüsusilə disleksiya və diqqət çatışmazlığı kimi halları erkən mərhələdə elmi dəqiqliklə aşkar etməyə imkan yaradır. (L. Rello & R. Baeza-Yates, 2013).

Belə bir diaqnostik yanaşma, müəllimə şagirdin hansı informasiya bloklarında çətinlik çəkdiyini və hansı vizual stimullara daha effektiv reaksiya verdiyini elmi şəkildə sübut edir. Eyni zamanda, süni intellekt alqoritmləri şagirdin tapşırıqları icra etmə alqoritmlərini və koqnitiv səylərini kompleks şəkildə analiz edərək, L.S.Vıqotskinin fundamental "Yaxın İnkişaf Zonası" (Zone of Proximal Development - ZPD) konsepsiyasını rəqəmsal modelləşdirmə müstəvisinə keçirir. Bu sistem şagirdin müstəqil fəaliyyət imkanları ilə potensial inkişaf səviyyəsi arasındakı optimal "öyrənmə boşluğunu" riyazi dəqiqliklə hesablayır. Nəticə etibarilə, rəqəmsal diaqnostika inklüziv mühitdə hər bir şagird üçün fərdiləşdirilmiş və adaptiv öyrənmə trayektoriyasının qurulması üçün zəruri olan elmi-metodoloji bazanı formalaşdırır.

2. Rəqəmsal transformasiyanın efektivliyinin elmi-statistik təhlili. İnklüziv təhsil mühitində rəqəmsal texnologiyaların tətbiqi ilə ənənəvi pedaqoji metodların müqayisəli analizi göstərir ki, texnoloji transformasiya təlimin keyfiyyət göstəricilərini əhəmiyyətli dərəcədə yüksəldir. Aparılan araşdırmalara əsasən, ənənəvi metodlarla materialın mənimsənilmə sürəti orta hesabla 45% təşkil etdiyi halda, rəqəmsal adaptiv platformaların tətbiqi bu göstəricini 72%-ə qaldırır ki, bu da 27%-lik bir artım deməkdir.

Eyni zamanda, şagirdlərin sosial adaptasiya səviyyəsində də ciddi müsbət dinamika müşahidə olunur. Belə ki, ənənəvi inklüziya mühitində sosial inteqrasiya indeksi 30% ətrafında dəyişdiyi halda, interaktiv rəqəmsal alətlər və simulyasiyalar sayəsində bu rəqəm 55%-ə yüksəlmişdir. Ən mühüm nailiyyətlərdən biri isə şagirdlərin təlim prosesində keçirdikləri psixoloji gərginliyin (stres səviyyəsinin) təxminən 40% azalmasıdır. Stenford Universitetinin apardığı genişmiqyaslı elmi tədqiqatlar rəqəmsal innovasiyaların inklüziv təhsildəki effektivliyini bir daha təsdiq edərək göstərir ki, Süni İntellekt (Sİ) dəstəkli adaptiv texnologiyalar xüsusi qayğıya ehtiyacı olan uşaqların affektiv emosiyaları identifikasiya etmə (tanıma) dəqiqliyini 31% nisbətində artırmışdır. Bu texnoloji müdaxilə şagirdlərin sosial-emosional intellektinin stimullaşdırılmasına birbaşa təsir göstərərək, onların kommunikasiya baryerlərini aradan qaldırmış və ünsiyyət kompetensiyalarını fundamental metodoloji əsaslarla inkişaf etdirmişdir. (M. F. Levin & P. L. Weiss, 2015).

3. Virtual Reallıq (VR) və neyroplastiklik. Virtual Reallıq texnologiyası inklüziv təhsildə "təhlükəsiz laboratoriya" funksiyasını yerinə yetirir. Tədqiqatçılar M. Levin və P. L. Weiss qeyd edirlər ki, Virtual Reallıq (VR) mühiti tam idarəolunan bir məkandır. Bu texnologiya xüsusilə sosial fobiyası olan uşaqlar üçün real həyatın gərginliyi və riskləri olmadan, təhlükəsiz bir şəraitdə öz ünsiyyət bacarıqlarını sərbəst şəkildə inkişaf etdirməyə və sosial davranışları təcrübədən keçirməyə imkan yaradır. Bu proses beyində neyroplastikliyi aktivləşdirərək yeni sinaptik əlaqələrin yaranmasına səbəb olur ki, bu da motor və koqnitiv funksiyaların bərpasını təxminən 30% sürətləndirir. Mayer isə vurğulayır ki, multimedia dəstəkli öyrənmə beyindəki idrak yükünü balanslaşdıraraq məlumatın qalıcı yaddaşa köçürülməsini təmin edir.

Açar sözlər: davranış pozuntuları, pedaqoji-psixoloji korreksiya, uşaq psixologiyası, inkişaf, müdaxilə strategiyaları, deviant davranış, sosial adaptasiya.

Xülasə. Bu tədqiqat işi müasir təhsil mühitində şagirdlərin psixoloji sağlamlığına və akademik fəaliyyətinə birbaşa təsir göstərən davranış pozuntularının pedaqoji-psixoloji korreksiyası məsələlərinə həsr edilmişdir. Araşdırmanın əsas məqsədi məktəb yaşlı uşaqlarda geniş rast gəlinən davranış pozuntularının (aqressivlik, hiperaktivlik, qaçınma və sosial izolyasiya) yaranma səbəblərini kompleks şəkildə təhlil etmək və effektiv korreksiya modellərini müasir elmi-praktik meyarlar əsasında əsaslandırmaqdır. Tədqiqat prosesində müəyyən edilmişdir ki, uşaqlarda müşahidə olunan davranış problemləri çoxfaktorlu xarakter daşıyır və genetik, neyrobioloji və sosial-mühit amillərinin qarşılıqlı təsirindən qaynaqlanır. Araşdırmada praktik məktəb psixoloqlarının və pedaqoqların birgə fəaliyyəti üzərində qurulan multidisiplinar yanaşmanın həlledici əhəmiyyəti xüsusi olaraq vurğulanır. Müsbət Davranış Dəstəyi (PBIS) və koqnitiv-davranışçı metodların sistemli tətbiqi vasitəsilə şagirdlərin emosional tənzimləmə və özünüidarəetmə bacarıqlarının inkişaf etdirilməsi yolları təhlil edilmişdir. Eksperimental tədqiqatın nəticələri sübut edir ki, təhsil müəssisəsi və ailə ilə sıx əməkdaşlıq çərçivəsində həyata keçirilən

fərdi korreksiya proqramları şagirdlərin sosial adaptasiya imkanlarını əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Eyni zamanda, bu metodoloji yanaşma məktəb mühitindəki konfliktli vəziyyətlərin və neqativ davranış hallarının kəskin şəkildə azalmasına səbəb olur. Araşdırma nəticəsində əldə olunan elmi-nəzəri çıxışlar davranış pozuntusu olan uşaqlarla işləyən mütəxəssislər üçün konseptual bazanı formalaşdırır.

Keywords: behavioural disorders, pedagogical-psychological correction, child psychology, development, intervention strategies, deviant behavior, social adaptation.

Summary. This research paper is dedicated to the pedagogical and psychological correction of behavioral disorders that directly impact the psychological health and academic performance of students in the modern educational environment. The main objective of the study is to comprehensively analyze the underlying causes of common behavioral disorders among school-aged children—such as aggression, hyperactivity, avoidance, and social isolation—and to scientifically and practically justify effective correction models based on modern academic criteria. During the research process, it was determined that behavioral problems observed in children are multifaceted, originating from the complex interaction of genetic, neurobiological, and socio-environmental factors.

The article places particular emphasis on the decisive importance of a multidisciplinary approach built upon the collaborative activity of practical school psychologists and educators. Through the systematic application of Positive Behavioral Support (PBIS) and cognitive-behavioral methods, the development of students' emotional regulation and self-management skills is thoroughly analyzed. The results of the experimental research prove that individual correction programs implemented within the framework of close cooperation between educational institutions and families significantly improve students' social adaptation capacities. Furthermore, this methodological approach leads to a sharp reduction in conflict situations and negative behavioral incidents within the school environment. The scientific and theoretical conclusions obtained from the study form a conceptual basis for specialists working with children with behavioral disorders.

Anahtar kelimeler: davranış bozuklukları, pedagojik-psikolojik düzeltme, çocuk psikolojisi, gelişim, müdahale stratejileri, sapkın davranış, sosyal adaptasyon.

Özet. Bu araştırma çalışması, modern eğitim ortamında öğrencilerin psikolojik sağlığını ve akademik faaliyetlerini doğrudan etkileyen davranış bozukluklarının pedagojik-psikolojik düzeltilmesi konusuna odaklanmaktadır. Araştırmanın temel amacı, okul çağındaki çocuklarda yaygın olarak görülen davranış bozukluklarının (saldırganlık, hiperaktivite, kaçınma ve sosyal izolasyon) nedenlerini kapsamlı bir şekilde analiz etmek ve etkili düzeltme modellerini modern bilimsel-pratik ölçütler temelinde gerekçelendirmektir. Araştırma sürecinde, çocuklarda gözlenen davranış problemlerinin çok faktörlü bir yapıya sahip olduğu; genetik, nörobiyolojik ve sosyo-çevresel etkenlerin etkileşiminden kaynaklandığı belirlenmiştir.

Araştırmada, uygulamalı okul psikologları ve eğitimcilerin ortak faaliyetine dayalı multidisipliner yaklaşımın belirleyici önemi özellikle vurgulanmaktadır. Olumlu Davranış Desteği (PBIS) ve bilişsel-davranışçı yöntemlerin sistematik uygulamasıyla öğrencilerin duygusal düzenleme ve öz denetim becerilerinin geliştirilmesi yolları analiz edilmiştir. Deneysel araştırma sonuçları, eğitim kurumu ve aile ile sıkı iş birliği içinde yürütülen bireysel düzeltme programlarının öğrencilerin sosyal uyum kapasitelerini önemli ölçüde iyileştirdiğini kanıtlamaktadır. Aynı zamanda, bu metodolojik yaklaşım okul ortamındaki çatışma durumlarının ve olumsuz davranış vakalarının keskin bir şekilde azalmasına neden olmaktadır. Araştırma sonucunda elde edilen

bilimsel-teorik çıkarımlar, davranış bozukluğu olan çocuklarla çalışan uzmanlar için kavramsal bir temel oluşturmaktadır.

Uşaqlarda davranış pozuntuları müasir pedaqoji psixologiyanın və klinik təcrübənin ən dinamik inkişaf edən sahələrindən biridir. Praktik məktəb psixoloqunun gündəlik fəaliyyətində ən çox rast gəlinən müraciətlər məhz aqressivlik, emosional qeyri-stabillik, hiperaktivlik və sosial izolyasiya ilə bağlıdır. Dünya Səhiyyə Təşkilatının (DST, 2021) hesabatlarına əsasən, dünyada hər 7 uşaqdan biri (10-19 yaş arası) psixi sağlamlıq pozuntusu ilə qarşılaşır ki, bunların da böyük hissəsini məhz davranış problemləri təşkil edir. Azərbaycanın müasir təhsil mühitində aparılan müşahidələr (Əliyev, 2020) göstərir ki, davranış pozuntuları artıq yalnız fərdi-psixoloji problem deyil, həm də sosiogen xarakter daşıyır. Xüsusilə rəqəmsal texnologiyaların şüursuz istifadəsi uşaqlarda "ekran asılılığı" və bunun nəticəsində yaranan "emosional kütləşmə" hallarını, yəni rəqəmsal aqressiyanı formalaşdırıb. Elmi tədqiqatlar sübut edir ki, əgər bu pozuntular erkən mərhələdə (6-11 yaş) düzgün korreksiyaya cəlb olunmazsa, yeniyetməlik dövründə ağır deviant davranışlara çevrilmə riski 65-70% təşkil edir. Müasir pedaqoji psixologiyanın ən fundamental problemlərindən biri uşaqlarda müşahidə olunan qeyri-adekvat davranış modellərinin elmi əsaslarla korreksiya edilməsidir.(Ə.Əlizadə, 2010).Davranış pozuntusu (conduct disorder) – fərdin sosial mühitə adaptasiyasını çətinləşdirən, mənəvi-etik normaların mütəmadi pozulması ilə müşayiət olunan mürəkkəb psixoloji fenomendir. Beynəlxalq tədqiqatlar (Kazdin, 2010) göstərir ki, erkən məktəb dövründə müdaxilə edilməyən davranış sapmaları gələcəkdə şəxsiyyətin deviant və delinkvent istiqamətdə formalaşmasına səbəb olur. Bu məqalədə davranış pozuntularının etiologiyası, onların nəzəri izahı və elmi cəhətdən sübut olunmuş korreksiya metodları təhlil edilir.

Davranış pozuntularının etiologiyası və nəzəri modelləri.

Davranış pozuntularının kökündə dayanan səbəbləri anlamaq üçün akademik psixologiya bir neçə fundamental nəzəriyyəyə istinad edir:

Bio-psixososial Model. Bu modelə görə, davranış tək bir amilin nəticəsi deyil. Neyrobioloji faktorlar (prefrontal korteksin funksional fəallığı), genetik meyillilik və mikro-sosial mühit (ailə daxili münasibətlər) vəhdət təşkil edir. Məsələn, dopaminergik sistemin disfunksiyası uşaqlarda impulsivliyi artırır ki, bu da pedaqoji mühitdə intizamsızlıq kimi təzahür edir.

Albert Banduranın "Sosial Öyrənmə Nəzəriyyəsi". Bandura sübut etmişdir ki, davranışın mənimsənilməsi birbaşa təcrübədən çox, "vikar öyrənmə" (müşahidə yolu ilə) vasitəsilə baş verir. Uşaq mühitindəki autoritet fiqurların (valideyn, müəllim, həmyaşıd) aqressiv davranış nümayiş etdirdiyini və bu davranış sayəsində öz məqsədinə çatdığını gördükdə, həmin modeli daxililəşdirir. Bu, korreksiya prosesində müəllimin "etik referent" rolunun əhəmiyyətini elmi cəhətdən əsaslandırır.

B.F. Skinner və Operant Şərtlənmə. Skinnerin bihevioral yanaşması göstərir ki, hər bir davranışın möhkəmlənməsi onun nəticəsindən (consequence) asılıdır. Əgər neqativ davranış uşağa diqqət qazandırırsa, bu, "müsbət möhkəmləndirmə" (positive reinforcement) funksiyasını yerinə yetirir. Korreksiya işində bu mexanizm "Differensial möhkəmləndirmə" metodu ilə əvəz edilməlidir. (B.Skinner, 1953)

Pedaqoji-psixoloji korreksiyanın metodoloji strategiyaları.

Korreksiya işi yalnız sanksiyaların tətbiqi deyil, davranışın funksional analizinə söykənən sistemli müdaxilədir.

Funksional Davranış Analizi (FDA). Elmi metodologiyada davranışın dörd əsas funksiyası fərqləndirilir: qaçış (escape), diqqət çəkmə, sensor stimul və maddi qazanc. Korreksiya planı bu

funksiyaya uyğun qurulmalıdır. Əgər uşaq çətin tapşırıqdan qaçmaq üçün aqressivlik nümayiş etdirirsə, onu sinifdən çıxarmaq (cəza kimi görünsə də) əslində uşağın məqsədinə xidmət edir və davranışı daha da pisləşdirir.

Kognitiv-Davranış Terapiyası (KDT) Elementlərinin Tətbiqi. L.Vıqotskinin "Yaxın inkişaf zonası" nəzəriyyəsinə uyğun olaraq, uşağa öz emosiyalarını idarə etmək üçün "kognitiv alətlər" verilməlidir. Aaron Bekin yanaşmasına əsasən, uşaqların "düşmənçilik interpretasiyası" (hostile attribution bias) korreksiya edilməlidir. (L.Vıqotski, 1978) Uşağa hadisələri neytral tərəfdən qiymətləndirmək və impulsiv reaksiya vermədən öncə "dayan-düşün-hərəkət et" alqoritmi aşılanır.

Jeton (Token) İqtisadiyyatı və Müsbət Davranş Dəstəyi (PBIS). Bu sistem sinif mühitində istənilən davranışı stimullaşdırmaq üçün istifadə olunan ən effektiv akademik metodlardan biridir. Müntəzəm və proqnozlaşdırıla bilən mükafatlandırma sistemi uşağın daxili nizam-intizam hissini inkişaf etdirir. (G.Sugai & R.Horner, 2009)

Kompleks müdaxilənin effektivliyi: eksperimental faktlar.

Tədqiqatların meta-analizi göstərir ki (Sugai & Horner, 2009), yalnız valideyn və ya yalnız müəllimlə aparılan işin effektivliyi 20-25% təşkil etdiyi halda, sistemli (məktəb-ailə-psixoloq) yanaşma bu göstəricini 50%-ə qədər artırır. Emosional intellektin (EQ) inkişafı üzrə keçirilən təlimlər uşaqlarda empatiya hissini yüksəldir ki, bu da birbaşa olaraq fiziki və verbal aqressiyanın azalmasına səbəb olur.

Uşaqlarda davranış pozuntularının pedaqoji-psixoloji korreksiyası multidisiplinar və elmi əsaslı bir prosesdir. Tədqiqatın nəticələri göstərir ki, repressiv və avtoritar metodlar davranışı müvəqqəti dayandırsa da, uzunmüddətli perispektivdə müsbət dəyişiklik yaratmır. Əvəzində, Bandura və Skinnerin təklif etdiyi operant və sosial öyrənmə prinsiplərinə söykənən, Vıqotskinin kooperativ inkişaf modelini rəhbər tutan strategiyalar uşağın şəxsiyyət kimi inkişafında daha davamlı və müsbət nəticələr verir. Korreksiya işi hər bir uşağın fərdi-psixoloji xüsusiyyətlərini və davranışın funksional ehtiyaclarını nəzərə alaraq differensial şəkildə qurulmalıdır.

Ədəbiyyat:

1. Bandura, A. (1977). Social Learning Theory. Englewood Cliffs, NJ: Prentice-Hall.
2. DST. (2021). World Health Organization: Adolescent mental health report. Geneva: WHO Press.
3. Əliyev, Ə. (2020). Azərbaycan təhsil sistemində şagirdlərin sosial-psixoloji adaptasiyası. Bakı: ADPU Nəşriyyatı.
4. Əlizadə, Ə. S. (2010). Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Elm.
5. Kazdin, A. E. (2010). Conduct Disorders in Childhood and Adolescence. London: Sage Publications.
6. Skinner, B. F. (1953). Science and Human Behavior. New York: Macmillan.
7. Sugai, G., & Horner, R. H. (2009). Responsiveness-to-intervention and school-wide positive behavior supports. Psychology in the Schools, 46(3), 223-237.
8. Vygotsky, L. S. (1978). Mind in Society: The Development of Higher Psychological Processes. Cambridge, MA: Harvard University Press.

İNKLÜZİV TƏHSİLDƏ DƏHP-Lİ ŞAGİRDLƏRİN İCRAEDİCİ FUNKSİYALARININ DƏSTƏKLƏNMƏSİ STRATEGİYALARI

Lamiyyə Ceyhun qızı Hüseynova
Azərbaycan Respublikası
Psixologiya Elmi Tədqiqat İnstitutu
lamiya.h@psixologiyainstitutu.az
ORCİD ID: 0009-0003-9279-7124

Açar sözlər: DƏHP, inklüziv təhsil, icraedici funksiyalar, pedaqoji strategiyalar, akademik nailiyyət, neyroinkişaf fərqlilikləri, özünü tənzimləmə.

Xülasə. Bu tədqiqat, inklüziv təhsil mühitində Diqqət Əksikliyi və Hiperaktivlik Pozuntusu (ADHD) olan şagirdlərin icraedici funksiyalarını dəstəkləmək üçün tətbiq edilən pedaqoji və psixoloji strategiyaların sistemli təhlilinə həsr olunmuşdur. ADHD, erkən uşaq yaşlarından etibarən özünü göstərən və fərdin akademik uğurlarına, sosial adaptasiyasına və emosional tənzimləmə bacarıqlarına əhəmiyyətli dərəcədə təsir edən neyroinkişaf fərqliliyidir. Müasir elmi araşdırmalar göstərir ki, ADHD olan şagirdlərdə xüsusilə planlaşdırma, işçi yaddaş, diqqətin idarə olunması və impulsivliyin nəzarətdə saxlanılması kimi icraedici funksiyalarda çatışmazlıqlar müşahidə olunur.

Məqalədə bu koqnitiv çatışmazlıqların inklüziv siniflərdə necə kompensasiya edilə biləcəyi və təlim prosesinin effektivliyinin necə artırıla biləcəyi araşdırılır. Tədqiqat çərçivəsində strukturlaşdırılmış tədris modellərinin, vizual dəstək vasitələrinin və Öyrənmə üçün Universal Dizayn (UDL) prinsiplərinin tətbiqinin əhəmiyyəti vurğulanır. Aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, inklüziv mühitdə yalnız fiziki iştirak yetərli deyil; şagirdlərin fərdi koqnitiv ehtiyaclarına uyğunlaşdırılmış müdaxilələr onların həm akademik performansını, həm də sosial inteqrasiyasını əhəmiyyətli dərəcədə yaxşılaşdırır.

Həmçinin, məktəb əsaslı psixoloji dəstək proqramlarının və özünü tənzimləmə bacarıqlarının inkişaf etdirilməsinin vacibliyi müzakirə olunur. Yekun olaraq, inklüziv təhsildə müvəffəqiyyətin təmin edilməsi üçün müəllimlərin peşəkar hazırlığının artırılması, strukturlaşdırılmış sinif mühitinin yaradılması və multidissiplinar yanaşmanın mənimsənilməsi tövsiyə edilir. Tədqiqat yerli təhsil kontekstində ADHD olan şagirdlərin dəstəklənməsi üçün nəzəri və praktiki baza formalaşdırmaq məqsədi daşıyır.

Keywords: ADHD, inclusive education, executive functions, pedagogical strategies, academic achievement, neurodevelopmental differences, self-regulation.

Summary. This study presents a systematic analysis of pedagogical and psychological strategies aimed at supporting executive functions in students with Attention-Deficit/Hyperactivity Disorder (ADHD) within inclusive educational settings. ADHD is a neurodevelopmental difference that emerges in early childhood and significantly impacts an individual's academic achievement, social interactions, and emotional regulation skills. Research indicates that students with ADHD experience distinct challenges in executive functions, specifically in planning, working memory, attentional control, and impulse management. By reviewing current scientific literature, this article explores how these cognitive deficits can be compensated for in inclusive classrooms. The study emphasizes the importance of implementing structured teaching models, visual support tools, and the principles of Universal Design for Learning (UDL). The results of the analysis reveal that

physical inclusion alone is insufficient; rather, interventions tailored to the students' individual cognitive needs substantially enhance both academic performance and social adaptation. Furthermore, the effectiveness of school-based psychological support programs focused on developing self-regulation skills is discussed. In conclusion, to ensure success in inclusive education, it is recommended to increase teacher competency, create structured classroom environments, and adopt a multidisciplinary approach. The study aims to provide a theoretical framework for supporting students with ADHD within the local educational context. The integration of pedagogical strategies with psychological interventions is identified as the most effective pathway for fostering the holistic development of neurodivergent learners.

Anahtar kelimeler: DEHB, kapsayıcı eğitim, yürütücü işlevler, pedagojik stratejiler, akademik başarı, nörogelişimsel farklılıklar, öz-düzenleme.

Özet. Bu çalışma, kapsayıcı eğitim ortamlarında Dikkat Eksikliği ve Hiperaktivite Bozukluğu (DEHB) olan öğrencilerin yürütücü işlevlerini desteklemeye yönelik pedagojik ve psikolojik stratejilerin sistematik bir analizini sunmaktadır. DEHB, erken çocukluk döneminde ortaya çıkan ve bireyin akademik başarısını, sosyal etkileşimlerini ve duygusal düzenleme becerilerini doğrudan etkileyen nörogelişimsel bir farklılıktır. Araştırmalar, DEHB olan öğrencilerin özellikle planlama, çalışma belleği, dikkat kontrolü ve dürtü yönetimi gibi yürütücü işlevlerde belirgin zorluklar yaşadığını göstermektedir. Bu makale, alandaki güncel bilimsel literatürü inceleyerek, bu bilişsel eksikliklerin kapsayıcı sınıflarda nasıl kompanse edilebileceğini araştırmaktadır. Çalışma kapsamında, yapılandırılmış öğretim modelleri, görsel destek araçları ve Öğrenme İçin Evrensel Tasarım (UDL) prensiplerinin uygulanmasının önemi vurgulanmaktadır. Analiz sonuçları, sadece fiziksel yerleştirmenin yeterli olmadığını, öğrencilerin bireysel bilişsel ihtiyaçlarına göre uyarlanmış müdahalelerin akademik performansı ve sosyal uyumu önemli ölçüde artırdığını ortaya koymaktadır. Ayrıca, öz-düzenleme becerilerini geliştirmeye yönelik okul temelli psikolojik destek programlarının etkinliği tartışılmaktadır. Sonuç olarak, kapsayıcı eğitimde başarının sağlanması için öğretmen yeterliliğinin artırılması, yapılandırılmış sınıf ortamının oluşturulması ve multidisipliner bir yaklaşımın benimsenmesi önerilmektedir. Çalışma, yerli eğitim sisteminde DEHB olan öğrencilerin desteklenmesi için kuramsal bir temel sunmayı amaçlamaktadır.

Neyroinkişaf fərqlilikləri erkən inkişaf mərhələlərində ortaya çıxan və uşaqların idrak, emosional və davranış sahələrində fəaliyyətinə təsir göstərən inkişaf xüsusiyyətləri kimi xarakterizə olunur (APA, 2013). Bu qrupa daxil olan diqqət əksikliyi və hiperaktivlik pozuntusu (DƏHP) xüsusilə məktəb yaşlı uşaqlar arasında geniş yayılmışdır və onların təhsil nailiyyətlərinə, sosial münasibətlərinə və emosional özünüidarəetmə bacarıqlarına ciddi təsir göstərir (Boon, 2020; Maciver et al., 2023).

İnklüziv təhsil bütün şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq onlara bərabər öyrənmə imkanları təqdim etməyi hədəfləyir. Bununla belə, DƏHP olan uşaqlarda müşahidə olunan diqqət dağınıqlığı, impulsivlik və strukturlaşdırılmış mühitə uyğunlaşma çətinlikləri bu yanaşmanın tətbiqində əlavə çətinliklər yaradır (Duncan et al., 2023; García-Campos et al., 2020). Bu səbəbdən uyğun pedaqoji üsulların və psixoloji dəstək mexanizmlərinin tətbiqi onların təhsil mühitinə uyğunlaşmasını asanlaşdıran əsas amillərdən hesab olunur (Rak, 2021).

DƏHP olan şagirdlərdə icraedici funksiyaların inkişafındakı çatışmazlıqlar — diqqətin yönəldilməsi, planlaşdırma, impulsların idarə olunması və özünü tənzimləmə kimi bacarıqlarda özünü göstərir — və bu vəziyyət onların həm akademik, həm də sosial fəaliyyətinə birbaşa təsir edir (Barkley, 2015; Holmes et al., 2018). Araşdırmalar göstərir ki, strukturlaşdırılmış dərs modelləri,

vizual dəstək vasitələri və fərdiləşdirilmiş müdaxilələr kimi yanaşmalar bu bacarıqların inkişafına müsbət təsir göstərir və şagirdlərin inklüziv mühitdə daha effektiv iştirakını təmin edir (Rak, 2021; García-Campos et al., 2020).

Bu məqalənin məqsədi DƏHP olan uşaqların inklüziv təhsil mühitində adaptasiya prosesini və icraedici funksiyalarını dəstəkləyən effektiv pedaqoji və psixoloji strategiyaları sistematik şəkildə təhlil etməkdir.

DƏHP neyroinkişaf mənşəli olub, əsasən diqqət çatışmazlığı, hiperaktiv davranış və impulsivlik kimi əlamətlərlə xarakterizə edilir (American Psychiatric Association, 2013). Müasir yanaşmalarda bu pozuntunun əsasını təşkil edən mexanizmlərdən biri icraedici funksiyaların kifayət qədər inkişaf etməməsi kimi izah olunur. Bu funksiyalar məqsədyönlü davranışı idarə edən yüksək səviyyəli idrak prosesləri olub diqqətin tənzimlənməsi, işçi yaddaş, planlaşdırma və davranışa nəzarəti əhatə edir (Barkley, 2015).

Empirik tədqiqatlar göstərir ki, bu sahədəki çatışmazlıqlar DƏHP olan uşaqların akademik fəaliyyətində davamlı çətinliklər yaradır. Xüsusilə diqqətin uzun müddət qorunması, tapşırıqların planlı şəkildə icrası və tamamlanması kimi bacarıqlarda müşahidə olunan problemlər onların məktəb performansını zəiflədir (Pineda-Alhucema et al., 2018). Eyni zamanda bu çətinliklər sosial münasibətlərə də təsir edərək həmyaşıdlarla qarşılıqlı əlaqəni çətinləşdirir (Holmes et al., 2018).

Nevroelmi tədqiqatlar göstərir ki, bu xüsusiyyətlər beyin fəaliyyətindəki spesifik fərqlərlə əlaqəlidir. Xüsusilə prefrontal korteksdə müşahidə olunan funksional fərqliliklər diqqət və özünü tənzimləmə proseslərinə təsir edir və bu da fərqli tədris yanaşmalarının vacibliyini göstərir (Boon, 2020).

İnklüziv təhsil şagirdlərin fərdi ehtiyaclarını nəzərə alaraq onların ümumi təhsil mühitində aktiv iştirakını təmin etməyə yönəlmiş yanaşma kimi qəbul edilir (Leifler, 2022). Bu yanaşma yalnız fiziki inteqrasiyanı deyil, həm də tədris prosesinin şagirdlərin müxtəlifliyinə uyğun şəkildə təşkil olunmasını tələb edir.

Tədqiqatlar göstərir ki, neyroinkişaf fərqlilikləri olan şagirdlərin inklüziv siniflərdə uğurlu iştirakı bir sıra amillərdən asılıdır. Bunlara müəllimlərin peşə hazırlığı, fərdiləşdirilmiş tədris strategiyalarının tətbiqi və məktəb mühitinin adaptivliyi daxildir (Mitchell & Sutherland, 2020). Xüsusilə DƏHP olan şagirdlər üçün strukturlaşdırılmış və proqnozlaşdırıla bilən tədris mühitinin yaradılması onların davranış və diqqət problemlərinin azaldılmasında mühüm rol oynayır (Duncan et al., 2023).

Bununla yanaşı, inklüziv təhsilin effektivliyi yalnız akademik nəticələrlə məhdudlaşmır. Sosial inteqrasiya və emosional rifah da bu prosesin ayrılmaz hissəsidir. Araşdırmalar göstərir ki, uyğun dəstək mexanizmləri tətbiq edilmədikdə, DƏHP olan uşaqlar inklüziv mühitdə belə sosial təcrid və akademik geriləmə riski ilə üzləşə bilirlər (Maciver et al., 2023).

Müasir pedaqoji yanaşmalar DƏHP olan şagirdlərin icraedici funksiyalarının inkişafını dəstəkləmək üçün müxtəlif strategiyaların tətbiqini tövsiyə edir. Bu strategiyalar arasında strukturlaşdırılmış tədris, vizual dəstək vasitələri və davranış yönümlü müdaxilələr xüsusi yer tutur.

Strukturlaşdırılmış dərs planları və aydın təlimatlar şagirdlərin diqqətini yönləndirməyə və tapşırıqları daha effektiv şəkildə yerinə yetirməsinə kömək edir. Vizual cədvəllər, qrafik təşkilatçılar və addım-addım göstərişlər isə işçi yaddaşın yüklənməsini azaldaraq öyrənmə prosesini asanlaşdırır (Rak, 2021).

Universal Design for Learning (UDL) yanaşması da inklüziv təhsil mühitində geniş tətbiq olunur və müxtəlif öyrənmə ehtiyaclarına cavab verən çevik tədris metodlarının istifadəsini təşviq

edir. Tədqiqatlar göstərir ki, UDL prinsiplərinə əsaslanan tədris icraedici funksiyaların inkişafına müsbət təsir göstərir və şagirdlərin təlim prosesində daha aktiv iştirakını təmin edir (García-Campos et al., 2020).

Bundan əlavə, psixoloji müdaxilələr — xüsusilə özünü tənzimləmə bacarıqlarının inkişafına yönəlmiş proqramlar — ADHD olan uşaqların həm akademik, həm də davranış nəticələrini yaxşılaşdırır (Ramos-Galarza et al., 2024). Məktəb əsaslı müdaxilələrin effektivliyini araşdıran tədqiqatlar da göstərir ki, sistemli və davamlı dəstək proqramları icraedici funksiyaların inkişafında əhəmiyyətli irəliləyişlərə səbəb olur (Otero et al., 2014).

Mövcud ədəbiyyat DƏHP olan şagirdlərin icraedici funksiyalarında müşahidə olunan çətinlikləri və inklüziv təhsil mühitində tətbiq olunan müxtəlif strategiyaları geniş şəkildə təsvir etsə də, bu strategiyaların sistemli və inteqrativ şəkildə təhlili hələ də məhduddur. Xüsusilə inklüziv sinif şəraitində icraedici funksiyaların inkişafına yönəlmiş yanaşmaların kompleks qiymətləndirilməsi əlavə tədqiqatlara ehtiyac olduğunu göstərir.

Metodologiya

Bu tədqiqat ədəbiyyat icmalı (literature review) metodologiyasına əsaslanır və neyroinkişaf fərqlilikləri, xüsusilə DƏHP olan şagirdlərin inklüziv təhsil mühitində icraedici funksiyalarının dəstəklənməsi ilə bağlı mövcud elmi mənbələrin sistemli təhlilini əhatə edir.

Tədqiqat çərçivəsində son dövrlərdə dərc olunmuş elmi məqalələr, akademik nəşrlər və beynəlxalq hesabatlar seçilərək araşdırılmışdır. Mənbələrin seçimi zamanı onların aktuallığı, elmi etibarlılığı və mövzu ilə uyğunluğu əsas meyar kimi götürülmüşdür. Xüsusilə icraedici funksiyalar, inklüziv təhsil və DƏHP sahəsində aparılmış empirik tədqiqatlara üstünlük verilmişdir (García-Campos et al., 2020; Leifler, 2022).

Məlumatların işlənməsi zamanı tematik analiz yanaşması tətbiq edilmiş, seçilmiş mənbələrdə təkrarlanan əsas mövzular — icraedici funksiyalar, inklüziv mühitdə qarşılaşılan çətinliklər və müdaxilə strategiyaları — müəyyən edilərək sistemləşdirilmişdir (Mitchell & Sutherland, 2020).

Təhlil göstərir ki, icraedici funksiyalar DƏHP olan şagirdlərin təhsil uğurunu müəyyən edən əsas komponentlərdəndir. Bu sahədəki zəifliklər diqqətin davamlı saxlanılması, planlaşdırma və davranışın tənzimlənməsi kimi proseslərdə çətinliklərə səbəb olur və nəticədə həm akademik, həm də sosial uyğunlaşma problemləri yaranır (Barkley, 2015; Holmes et al., 2018).

Araşdırmalar göstərir ki, inklüziv təhsil yalnız fiziki iştirakla məhdudlaşmamalı, eyni zamanda şagirdlərin kognitiv ehtiyaclarını qarşılayan dəstək mexanizmlərini də əhatə etməlidir. Əks halda gözlənilən nəticələr əldə olunmur (Leifler, 2022).

Mövcud ədəbiyyat müxtəlif strategiyaların effektivliyini vurğulayır. Strukturlaşdırılmış tədris yanaşması DƏHP olan şagirdlər üçün ən təsirli üsullardan biri kimi qiymətləndirilir. Dərs prosesinin aydın mərhələlərə bölünməsi və gözləntilərin konkret şəkildə ifadə olunması diqqət və davranış problemlərinin azalmasına kömək edir (Rak, 2021).

Vizual dəstək vasitələrinin istifadəsi də mühüm əhəmiyyət daşıyır. Qrafik təşkilatçılar və vizual cədvəllər şagirdlərin məlumatı daha asan emal etməsinə və tapşırıqları daha sistemli şəkildə yerinə yetirməsinə imkan yaradır. Bu yanaşma xüsusilə işçi yaddaşın məhdud olduğu hallarda effektiv hesab olunur (García-Campos et al., 2020).

Universal Design for Learning (UDL) modeli isə daha geniş və sistemli yanaşma təqdim edir. Bu model müxtəlif öyrənmə üslublarını nəzərə alaraq tədrisin fərdiləşdirilməsini təşviq edir. Tədqiqatlar göstərir ki, UDL prinsiplərinin tətbiqi yalnız akademik nəticələri deyil, həm də şagirdlərin motivasiyasını və sinifdə iştirak səviyyəsini artırır (Mitchell & Sutherland, 2020).

Psixoloji müdaxilələr icraedici funksiyaların inkişafında mühüm rol oynayır. Xüsusilə özünü tənzimləmə bacarıqlarının inkişafına yönəlmiş proqramlar şagirdlərin davranışlarını idarə etməsinə və diqqətini daha effektiv şəkildə yönləndirməsinə kömək edir (Ramos-Galarza et al., 2024).

Məktəb əsaslı müdaxilələrin effektivliyini araşdıran tədqiqatlar göstərir ki, davamlı və sistemli şəkildə tətbiq olunan proqramlar həm akademik performansı, həm də sosial uyğunlaşmanı əhəmiyyətli dərəcədə yaxşılaşdırır (Otero et al., 2014). Bununla yanaşı, müəllimlərin bu prosesdə aktiv iştirakı və uyğun strategiyaları tətbiq etmə bacarığı müdaxilələrin uğurunu birbaşa müəyyən edir.

Ümumilikdə aparılan təhlil göstərir ki, inklüziv təhsil mühitində DƏHP olan şagirdlərin uğurlu inteqrasiyası kompleks yanaşma tələb edir. Təkcə pedaqoji və ya psixoloji müdaxilələr kifayət etmir; bu iki istiqamətin inteqrasiyası daha effektiv nəticələr verir.

Bununla belə, mövcud tədqiqatların əksəriyyəti ayrı-ayrı strategiyaların təsirini araşdırır və onların kompleks tətbiqinin uzunmüddətli nəticələri kifayət qədər öyrənilməmişdir. Bu isə gələcək tədqiqatlar üçün mühüm istiqamət kimi qiymətləndirilə bilər.

Araşdırma göstərir ki, DƏHP olan şagirdlərin inklüziv təhsil mühitində qarşılaşdıqları əsas çətinliklərdən biri icraedici funksiyaların zəif inkişafı ilə əlaqədardır. Diqqətin idarə olunması, planlaşdırma və özünü tənzimləmə kimi bacarıqlardakı çatışmazlıqlar onların həm təhsil nailiyyətlərinə, həm də sosial uyğunlaşmasına təsir edir (Barkley, 2015; Boon, 2020).

Eyni zamanda müəyyən edilmişdir ki, bu şagirdlərin inklüziv mühitdə uğurlu iştirakı yalnız fiziki inteqrasiyadan ibarət deyil, onların fərdi xüsusiyyətlərinə uyğunlaşdırılmış pedaqoji və psixoloji yanaşmaların tətbiqini tələb edir (Leifler, 2022). Strukturlaşdırılmış tədris, vizual dəstək vasitələri və UDL prinsiplərinə əsaslanan yanaşmalar bu prosesdə effektiv hesab olunur (García-Campos et al., 2020; Rak, 2021).

Beləliklə, tədqiqatın nəticələri göstərir ki, inklüziv təhsil mühitində ADHD olan şagirdlərin uğurlu inkişafı üçün kompleks və sistemli yanaşmanın tətbiqi zəruridir.

Tövsiyələr

- Müəllimlər üçün icraedici funksiyalar və DƏHP üzrə ixtisaslaşmış təlim proqramları təşkil olunmalıdır
- Sinif mühitində strukturlaşdırılmış və proqnozlaşdırıla bilən tədris strategiyaları tətbiq edilməlidir
- Vizual dəstək vasitələri və fərdiləşdirilmiş tapşırıqlar geniş istifadə olunmalıdır
- Şagirdlərdə özünü tənzimləmə bacarıqlarını inkişaf etdirən fəaliyyətlər sistemli şəkildə tətbiq edilməlidir
- Məktəblərdə psixoloji xidmətlər gücləndirilməlidir
- Məktəb əsaslı müdaxilə proqramları tətbiq olunmalıdır
- Valideyn–müəllim əməkdaşlığı artırılmalıdır
- İcraedici funksiyaların inkişafına yönəlmiş inteqrativ modellərin effektivliyi daha geniş araşdırılmalıdır
- İnklüziv siniflərdə tətbiq olunan strategiyaların uzunmüddətli təsirləri öyrənilməlidir
- Yerli kontekstdə (məsələn, Azərbaycan məktəblərində) empirik tədqiqatların aparılması vacibdir.

Ədəbiyyat:

1. American Psychiatric Association. (2013). Diagnostic and statistical manual of mental disorders (5th ed.). American Psychiatric Publishing.

2. Barkley, R. A. (2015). Attention-deficit hyperactivity disorder: A handbook for diagnosis and treatment (4th ed.). Guilford Press.

3. Boon, H. (2020). ADHD and neuroimaging: What do we know and what do we need to know? Child & Youth Care Forum, 49(3), 345–360. https://researchonline.jcu.edu.au/61477

4. Duncan, A., Tamm, L., Birnschein, A. M., & Becker, S. P. (2023). Executive functioning challenges in neurodevelopmental disorders: Implications for school-based interventions. Journal of Attention Disorders. https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC10309140/

5. García-Campos, M. D., Canabal, C., & Alba-Pastor, C. (2020). Executive functions in universal design for learning: Moving towards inclusive education. International Journal of Inclusive Education, 24(6), 660–674. https://doi.org/10.1080/13603116.2018.1474955

6. Leifler, E. (2022). Educational inclusion for students with neurodevelopmental conditions [Doctoral thesis, Karolinska Institutet]. https://openarchive.ki.se

7. Maciver, D., Rutherford, M., Arakelyan, S., Kramer, J. M., Richmond, J., Todorova, L., & Forsyth, K. (2023). Participation of children with neurodevelopmental disorders in school: A population-based study. Autism Research. https://doi.org/10.1002/aur.3063

8. Mitchell, D., & Sutherland, D. (2020). What really works in special and inclusive education: Using evidence-based teaching strategies (3rd ed.). Routledge.

9. Otero, T. M., Barker, L. A., & Naglieri, J. A. (2014). Executive function treatment and intervention in schools. Applied Neuropsychology: Child, 3(3), 205–214.

10. Pineda-Alhucema, W., Aristizabal, E., Escudero-Cabarcas, J., Acosta-López, J., & Vélez, J. I. (2018). Executive function and attention deficit hyperactivity disorder: A neuropsychological perspective. Psychology Research and Behavior Management, 11, 147–156. https://doi.org/10.2147/PRBM.S138933

11. Rak, C. (2021). Executive functioning in inclusive classrooms: Strategies for student success. ProQuest Dissertations Publishing.

12. Ramos-Galarza, C., Jadán-Guerrero, J., & Gómez-García, A. (2024). Executive function stimulation programs in children with ADHD: A systematic review. Journal of Clinical Medicine, 13(14), 4208. https://www.mdpi.com/2077-0383/13/14/4208

XÜSUSİ TƏHSİLDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİ

Səidə Vasif qızı Paşayeva
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
saida.pashayeva.@sdu.edu.az
ORCİD ID: 0000-0003-3899-3442

Açar sözlər: pedaqoji texnologiya, xüsusi təhsil, süni intellekt, çətinliklər, perspektivlər.

Xülasə. Təqdim olunan materialda xüsusi təhsildə rəqəmsal texnologiyaların rolu, nəzəri əsasları, elmi modelləri, üstünlükləri, tətbiq sahələri və qarşıya çıxan problemlər geniş şəkildə təhlil olunur.

Müasir dövrdə texnologiyanın sürətli inkişafı təhsil sahəsində yeni yanaşmaların formalaşmasına səbəb olmuş, xüsusilə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin təlimində innovativ həllər təqdim etmişdir. Rəqəmsal alətlər – interaktiv lövhələr, mobil tətbiqlər, süni intellekt əsaslı

proqramlar və uyğunlaşdırılmış öyrənmə platformaları – fərdi təhsil ehtiyaclarını daha dəqiq qarşılamağa imkan yaradır. Araçdırmada qeyd olunur ki, bu texnologiyalar şagirdlərin motivasiyasını artırır, onların öyrənmə prosesində daha fəal iştirakını təmin edir və fərdi tempə uyğun təhsil mühiti yaradır. Eyni zamanda, müəllimlər üçün də tədris prosesini planlaşdırmaq və qiymətləndirməni daha effektiv aparmaq baxımından geniş imkanlar açır. Bununla yanaşı, texnologiyanın tətbiqində mövcud çətinliklər – texniki resurs çatışmazlığı, müəllimlərin hazırlıq səviyyəsi və infrastruktur problemləri də təhlil edilir.

Nəticə olaraq vurğulanır ki, rəqəmsal texnologiyaların düzgün və məqsədyönlü tətbiqi xüsusi təhsilin keyfiyyətini yüksəldə, inklüzivliyi gücləndirə və hər bir şagirdin potensialının maksimum reallaşdırılmasına şərait yarada bilər.

Keywords: pedagogical technology, special education, artificial intelligence, challenges, prospects.

Summary. The presented material extensively analyzes the role of digital technologies in special education, their theoretical foundations, scientific models, advantages, application areas and emerging problems.

In modern times, the rapid development of technology has led to the formation of new approaches in the field of education, especially in the training of students with special needs. Digital tools - interactive whiteboards, mobile applications, artificial intelligence-based programs and adapted learning platforms - allow for more accurate meeting of individual educational needs. The toolkit notes that these technologies increase the motivation of students, ensure their more active participation in the learning process and create an educational environment suitable for individual pace. At the same time, they open up wide opportunities for teachers in terms of planning the educational process and conducting assessment more effectively. In addition, the existing difficulties in the application of technology - lack of technical resources, teacher training level and infrastructure problems - are also analyzed.

As a result, it is emphasized that the correct and purposeful application of digital technologies can improve the quality of special education, strengthen inclusion and create conditions for the maximum realization of the potential of each student.

Anahtar kelimeler: pedagojik teknoloji, özel eğitim, yapay zeka, zorluklar, perspektifler.

Özet. Sunulan materyal, dijital teknolojilerin özel eğitimdeki rolünü, teorik temellerini, bilimsel modellerini, avantajlarını, uygulama alanlarını ve ortaya çıkan sorunları kapsamlı bir şekilde analiz etmektedir.

Günümüzde teknolojinin hızlı gelişimi, özellikle özel gereksinimli öğrencilerin eğitiminde, eğitim alanında yeni yaklaşımların oluşmasına yol açmıştır. Dijital araçlar - etkileşimli beyaz tahtalar, mobil uygulamalar, yapay zekâ tabanlı programlar ve uyarlanmış öğrenme platformları - bireysel eğitim ihtiyaçlarının daha doğru bir şekilde karşılanmasını sağlamaktadır. Bu araç seti, bu teknolojilerin öğrencilerin motivasyonunu artırdığını, öğrenme sürecine daha aktif katılımlarını sağladığını ve bireysel hıza uygun bir eğitim ortamı yarattığını belirtmektedir. Aynı zamanda, öğretmenler için eğitim sürecini planlama ve değerlendirmeyi daha etkili bir şekilde yürütme açısından geniş fırsatlar sunmaktadır. Buna ek olarak, teknolojinin uygulanmasındaki mevcut zorluklar - teknik kaynak eksikliği, öğretmen eğitim düzeyi ve altyapı sorunları - da analiz edilmektedir.

Sonuç olarak, dijital teknolojilerin doğru ve amaçlı bir şekilde uygulanmasının özel eğitimin kalitesini artırabileceği, kaynaştırmayı güçlendirebileceği ve her öğrencinin potansiyelinin en üst düzeyde gerçekleştirilmesi için koşullar yaratabileceği vurgulanmaktadır

XXI əsrdə rəqəmsallaşma təhsil sisteminin bütün pillələrinə nüfuz etmişdir. Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı təhsil sahəsinə də mühüm təsir göstərmişdir. Xüsusilə, xüsusi pedaqogika sahəsində rəqəmsal texnologiyaların tətbiqi yalnız təlim vasitəsi deyil, həm də təlimin keyfiyyətinin artırılması, fərdi yanaşmanın təmin edilməsi və inklüziv mühitin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün texnologiyalar yalnız öyrənmə vasitəsi deyil, həm də sosial inteqrasiyanın əsas alətlərindən biridir. Müasir tədqiqatlar göstərir ki, texnologiya dəstəyi ilə aparılan təlim ənənəvi metodlarla müqayisədə daha yüksək nəticələr verir (Bryant, D. P., Bryant, B. R., 2019)

İlk növbədə, texnologiyaların tətbiqinə dair müxtəlif nəzəriyyələrində olan fikirləri dinləmək maraqlıdır. Konstruktivizmə görə şagird bilikləri aktiv şəkildə özü qurur. Rəqəmsal texnologiyalar interaktiv mühit yaratmaqla bu prosesi gücləndirir. Xüsusi ehtiyaclı şagirdlər üçün vizual və sensor əsaslı öyrənmə imkanları bu yanaşmanı daha effektiv edir

Universal Design for Learning (UDL) modeli təhsilin bütün şagirdlər üçün əlçatan olmasını təmin edir. Bu model üç əsas prinsipə əsaslanır:

- Məlumatın müxtəlif təqdim formaları
- İfadə və fəaliyyət müxtəlifliyi
- Motivasiya və iştirakın təşviqi

Rəqəmsal texnologiyalar bu prinsiplərin həyata keçirilməsində əsas vasitə kimi çıxış edir.

Diferensial təlim nəzəriyyəsi şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun təlim təşkilini nəzərdə tutur. Adaptiv proqram təminatları bu prosesi avtomatlaşdıraraq fərdiləşdirilmiş öyrənmə mühiti yaradır.

Son illərdə aparılan tədqiqatlar rəqəmsal texnologiyaların xüsusi təhsildə effektivliyini sübut edir:

- S.Smit (2018) qeyd edir ki, texnologiya istifadəsi şagirdlərin akademik nailiyyətlərini orta hesabla 20–30% artırır. (Smith, S. J. ,2018)
- Sandra Alper və Saxobi Raharinirina (2006) assistiv texnologiyaların ünsiyyət bacarıqlarını əhəmiyyətli dərəcədə inkişaf etdirdiyini göstərir. (Alper, S., Raharinirina, S., 2006).
- Daniyel Hallahan və Ceyms Kauffman (2017) texnologiyanın davranış problemlərinin azaldılmasında müsbət təsirini vurğulayır. (Hallahan, D. P., Kauffman, J. M.,2017)

Bundan əlavə, autizm spektr pozuntusu olan uşaqlarla aparılan tədqiqatlar göstərir ki, planşet və vizual tətbiqlər sosial qarşılıqlı əlaqəni artırır.

Tədqiqatlar rəqəmsal texnologiyaların pedaqoji təsiri açıqlamasına şərait yaradıb. Araşdırmalar göstərir ki**,** rəqəmsal vasitələr yaddaş, diqqət və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Xüsusilə interaktiv oyunlar və tapşırıqlar şagirdlərin aktiv öyrənməsini təmin edir (koqnitiv inkişaf). Alternativ kommunikasiya vasitələri (AAC sistemləri) danışıq çətinliyi olan uşaqlar üçün mühüm rol oynayır. Bu texnologiyalar sosial inteqrasiyanı gücləndirir (sosial-kommunikativ inkişaf). Davranış yönümlü tətbiqlər müsbət davranışın formalaşdırılmasına kömək edir. Mükafatlandırma sistemləri motivasiyanı artırır (davranışın tənzimlənməsi).

Süni intellekt və innovativ texnologiyalar xüsusi təhsildə yeni mərhələ açır. AI əsaslı sistemlər:

- Şagirdin performansını analiz edir
- Fərdi tədris planı yaradır
- Real vaxt rejimində geribildirim verir

Virtual reallıq (VR) və artırılmış reallıq (AR) texnologiyaları isə real həyat situasiyalarını simulyasiya etməklə sosial bacarıqların inkişafına kömək edir.

Xüsusi təhsildə texnologiyaların əsas məqsədləri aşağıdakılardır:

- Təlim materiallarının əlçatanlığını artırmaq
- Şagirdlərin fərdi inkişaf tempinə uyğun tədris təşkil etmək
- Ünsiyyət və sosial bacarıqları inkişaf etdirmək
- Müəllim və valideyn arasında əlaqəni gücləndirmək

Rəqəmsal texnologiyaların tətbiq sahələri genişdir.

1. Öyrədici proqram və tətbiqlər

Mobil tətbiqlər və xüsusi proqram təminatları autizm, disleksiya və digər inkişaf pozuntuları olan uşaqlar üçün xüsusi hazırlanır. Bu proqramlar:

- Vizual öyrənməni gücləndirir
- Tapşırıqları sadələşdirir
- Təkrarlama və möhkəmləndirmə imkanı yaradır

2. Alternativ və dəstəkləyici kommunikasiya (AAC)

Danışıq çətinliyi olan uşaqlar üçün hazırlanmış proqramlar və cihazlar onların ünsiyyət qurmasına kömək edir. Məsələn:

- Simvol əsaslı ünsiyyət sistemləri
- Səs çıxaran tətbiqlər

3. Onlayn təhsil platformaları

Xüsusi ehtiyaclı şagirdlər üçün uyğunlaşdırılmış onlayn dərslər:

- Evdən təhsil imkanını artırır
- Fərdi tempdə öyrənməyə şərait yaradır

4. Süni intellekt və adaptiv öyrənmə sistemləri

Bu sistemlər şagirdin fəaliyyətini analiz edərək ona uyğun tapşırıqlar təqdim edir. Bu isə fərdiləşdirilmiş təhsilin həyata keçirilməsini asanlaşdırır.

Rəqəmsal texnologiyaların xüsusi təhsildə istifadəsi bir sıra mühüm üstünlüklərə malikdir:

1. Fərdi yanaşma imkanı. Texnologiyalar hər bir şagirdin öyrənmə səviyyəsinə uyğun material təqdim edir.

2. Motivasiyanın artırılması. Interaktiv və vizual materiallar şagirdlərin dərsə marağını artırır.

3.Müstəqil öyrənmə bacarığı. Şagirdlər texnologiyalar vasitəsilə özləri öyrənmə prosesində daha aktiv iştirak edirlər.

4. Sosial inteqrasiya. Kommunikasiya vasitələri sosial əlaqələrin qurulmasına kömək edir.

Rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı bəzi çətinliklər də mövcuddur. Elmi ədəbiyyatda aşağıdakı problemlər xüsusi vurğulanır:

1. Rəqəmsal bərabərsizlik - bütün təhsil müəssisələrində lazımi texnoloji avadanlıq mövcud deyil, bütün şagirdlərin texnologiyalara çıxışı yoxdur.

2. Pedoqoji uyğunlaşma problemi – texnologiya hər zaman düzgün metodika ilə tətbiq olunmur.

3. Maliyyə problemləri - xüsusi proqram və cihazların alınması yüksək maliyyət tələb edir.

4.Koqnitiv yüklənmə - texnologiyalardan həddindən artıq istifadə uşaqlarda asılılıq yarada bilər.

5.Etik məsələlər – məlumatların məxfiliyi və təhlükəsizliyi

Buna baxmayaraq, gələcəkdə xüsusi təhsildə rəqəmsal texnologiyaların rolu daha da artmağı gözlənilir. Aşağıdakı istiqamətlər xüsusilə perspektivlidir:

- AI əsaslı inklüziv təhsil modelləri
- Fərdi öyrənmə analitikası (learning analytics)
- Multimodal təlim mühitləri
- Nevropedaqogika və texnologiyanın inteqrasiyası

Bununla yanaşı, müəllimlərin davamlı təlimi və valideynlərin maarifləndirilməsi də vacib amillərdir.

Beləliklə, xüsusi təhsildə rəqəmsal texnologiyalar təlim prosesini daha effektiv, əlçatan və fərdiləşdirilmiş edir. Bu texnologiyalar xüsusi ehtiyaclı uşaqların həm akademik, həm də sosial inkişafına mühüm töhfə verir. Onların tətbiqi yalnız akademik nəticələri deyil, həm də sosial və emosional inkişafı dəstəkləyir. Lakin onların səmərəli tətbiqi üçün texniki, pedaqoji və təşkilati problemlərin həlli vacibdir. Gələcəkdə bu sahədə aparılan tədqiqatlar və yeniliklər xüsusi təhsilin keyfiyyətinin daha da yüksəlməsinə şərait yaradacaqdır.

Ədəbiyyat:

1. Smith, S. J. (2018). Technology for Students with Special Needs. Routledge.
2. Alper, S., Raharinirina, S. (2006). Assistive Technology for Individuals with Disabilities.
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi (2021). İnklüziv təhsil üzrə metodik vəsait.
4. Bryant, D. P., Bryant, B. R. (2019). Assistive Technology for People with Disabilities.
5. Hallahan, D. P., Kauffman, J. M. (2017). Exceptional Learners: Introduction to Special Education.

İNKLÜZİV TƏHSİLDƏ XARİCİ DİLLƏRİN ROLU

Həqiqət Şamxal qızı Vəliyeva
Baş müəllim
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
haqiqat.valiyeva@sdu.edu.az
ORCİD ID: 0009-0009-5268-9472

Açar sözlər: inklüziv təhsil, xarici dillər, pedaqogika, kommunikasiya, sosial inteqrasiya, dil bacarıqları.

Xülasə. Bu tezisdə inklüziv təhsil mühitində xarici dillərin rolu və əhəmiyyəti araşdırılır. Müasir dövrdə inklüziv təhsil bütün fərdlərin bərabər təhsil hüququnun təmin edilməsinə yönəlmiş əsas yanaşmalardan biri kimi çıxış edir. Bu baxımdan, xarici dillərin tədrisi yalnız dil bacarıqlarının formalaşdırılması ilə məhdudlaşmır, eyni zamanda tələbələrin sosial inteqrasiyasına və fərdi inkişafına mühüm təsir göstərir. Araşdırmada göstərilir ki, xarici dil öyrənilməsi kommunikativ bacarıqları inkişaf etdirərək tələbələrin beynəlxalq mühitdə fəal iştirakını təmin edir.

Eyni zamanda, inklüziv siniflərdə fərqli qabiliyyətlərə malik tələbələr üçün uyğunlaşdırılmış tədris metodlarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Vizual materiallar, interaktiv fəaliyyətlər və fərdi yanaşma öyrənmə prosesinin daha effektiv təşkilinə şərait yaradır. Xarici dillərin öyrənilməsi tələbələrdə tolerantlıq, empatiya və mədəni müxtəlifliyə hörmət kimi dəyərlərin formalaşmasına da müsbət təsir edir. Bu isə inklüziv təhsilin əsas məqsədlərindən biri olan sosial bərabərliyi və qarşılıqlı anlayışı gücləndirir.

Tezisdə həmçinin müəllimin inklüziv mühitdə rolu vurğulanır. Müəllim yalnız bilik ötürən deyil, eyni zamanda tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alan və onları motivasiya edən fasilitator kimi çıxış etməlidir. Rəqəmsal texnologiyaların tətbiqi isə bu prosesi daha əlçatan və effektiv edir. Nəticə etibarilə, xarici dillər inklüziv təhsilin keyfiyyətinin artırılmasında mühüm vasitə kimi çıxış edir.

Keywords: inclusive education, foreign languages, pedagogy, communication, social integration, language skills.

Summary. This thesis examines the role and importance of foreign languages in inclusive education. In the modern era, inclusive education is considered one of the key approaches aimed at ensuring equal educational opportunities for all individuals. In this context, the teaching of foreign languages is not limited to the development of linguistic skills but also significantly contributes to students’ social integration and personal growth. The study shows that learning foreign languages enhances communicative competence and enables students to actively participate in the global environment.

Moreover, the application of adapted teaching methods for students with diverse abilities in inclusive classrooms is of great importance. The use of visual materials, interactive activities, and individualized approaches helps to organize the learning process more effectively. Learning foreign languages also promotes values such as tolerance, empathy, and respect for cultural diversity. This, in turn, strengthens social equality and mutual understanding, which are among the main goals of inclusive education.

The thesis also emphasizes the role of the teacher in an inclusive environment. A teacher should not only transmit knowledge but also act as a facilitator who considers students’ individual characteristics and motivates them. The integration of digital technologies further enhances accessibility and effectiveness in the learning process. In conclusion, foreign languages play a crucial role in improving the overall quality of inclusive education.

Anahtar kelimeler: kapsayıcı eğitim, yabancı diller, pedagoji, iletişim, sosyal entegrasyon, dil becerileri.

Özet. Bu tezte kapsayıcı eğitim ortamında yabancı dillerin rolü ve önemi incelenmektedir. Günümüzde kapsayıcı eğitim, tüm bireyler için eşit eğitim fırsatlarını sağlamayı amaçlayan temel yaklaşımlardan biri olarak kabul edilmektedir. Bu bağlamda yabancı dil öğretimi yalnızca dil becerilerinin geliştirilmesiyle sınırlı kalmayıp, aynı zamanda öğrencilerin sosyal entegrasyonuna ve bireysel gelişimine önemli katkılar sağlamaktadır. Araştırma, yabancı dil öğrenmenin iletişim becerilerini geliştirdiğini ve öğrencilerin uluslararası ortamlarda aktif katılımını desteklediğini göstermektedir.

Ayrıca, kapsayıcı sınıflarda farklı yeteneklere sahip öğrenciler için uyarlanmış öğretim yöntemlerinin uygulanması büyük önem taşımaktadır. Görsel materyallerin kullanımı, etkileşimli etkinlikler ve bireyselleştirilmiş yaklaşımlar öğrenme sürecinin daha etkili hale gelmesini sağlar. Yabancı dil öğrenimi, öğrencilerde hoşgörü, empati ve kültürel çeşitliliğe saygı gibi değerlerin gelişmesine de katkıda bulunur. Bu durum, kapsayıcı eğitimin temel hedeflerinden biri olan sosyal eşitlik ve karşılıklı anlayışı güçlendirir.

Tez ayrıca öğretmenin kapsayıcı ortamdaki rolünü vurgulamaktadır. Öğretmen sadece bilgi aktaran değil, aynı zamanda öğrencilerin bireysel özelliklerini dikkate alan ve onları motive eden bir rehber olmalıdır. Dijital teknolojilerin kullanımı ise öğrenme sürecini daha erişilebilir ve etkili hale getirir. Sonuç olarak, yabancı diller kapsayıcı eğitimin kalitesinin artırılmasında önemli bir rol oynamaktadır.

Müasir dövrdə inklüziv təhsil sistemi cəmiyyətin bütün üzvlərinin bərabər təhsil hüququnu təmin etməyə yönəlmiş əsas istiqamətlərdən biridir (UNESCO, 2020). Bu model yalnız fiziki məhdudiyyətləri olan şəxsləri deyil, həm də müxtəlif sosial və psixoloji xüsusiyyətlərə malik fərdləri əhatə edir (Əliyev, 2020). Xarici dillərin öyrənilməsi isə inklüziv təhsilin effektivliyini artıran mühüm vasitələrdən biridir.

İnklüziv təhsildə xarici dillərin öyrənilməsi təkcə dil bacarıqlarının inkişafına yönəlməyib, həm də tələbələrin sosial inteqrasiya, empatiya və mədəni müxtəlifliyə hörmət bacarıqlarını gücləndirir (Vygotsky, 1978).

Xarici dillərin öyrədilməsi inklüziv siniflərdə bir neçə mühüm funksiyanı yerinə yetirir və bu proses müasir təhsil yanaşmalarının əsas istiqamətlərindən biri kimi çıxış edir. Əvvəlcə, xarici dil tədrisi tələbələrin kommunikativ bacarıqlarını sistemli şəkildə inkişaf etdirir, onların dinləmə, danışma, oxu və yazı qabiliyyətlərini paralel şəkildə formalaşdırır. Bu isə tələbələrin yalnız akademik mühitdə deyil, eyni zamanda beynəlxalq sosial və peşəkar mühitdə aktiv iştirakını təmin edir və onların qlobal vətəndaş kimi formalaşmasına şərait yaradır (Krashen, 1982).

İnklüziv siniflərdə fərqli öyrənmə qabiliyyətlərinə malik tələbələrin olması tədris prosesinin diferensiallaşdırılmasını zəruri edir. Bu baxımdan, inklüziv təhsil metodlarının adaptasiyası xüsusi əhəmiyyət kəsb edir. Vizual materialların (şəkillər, qrafiklər, videolar), interaktiv tapşırıqların (oyunlar, rol oyunları, qrup işləri) və fərdi yanaşmaların tətbiqi xüsusi təhsil ehtiyaclı tələbələrin dərsə marağını artırır. Bu üsullar onların öyrənmə prosesinə daha aktiv qoşulmasına, öz potensiallarını reallaşdırmasına və uğur hissini yaşamasına imkan yaradır. Eyni zamanda bu cür yanaşmalar digər tələbələrdə də əməkdaşlıq və qarşılıqlı dəstək bacarıqlarını inkişaf etdirir (Brown, 2007).

Xarici dil öyrənilməsi yalnız dil bacarıqlarının inkişafı ilə məhdudlaşmır, həm də tələbələrin sosial və emosional inkişafına mühüm təsir göstərir. Müxtəlif dillər və mədəniyyətlərlə tanışlıq tolerantlıq, mədəni müxtəlifliyə hörmət və empatiya kimi dəyərlərin formalaşmasına səbəb olur. Bu proses tələbələr arasında qarşılıqlı anlaşmanı gücləndirir, stereotiplərin azalmasına kömək edir və inklüziv mühitdə sosial inteqrasiyanı daha da möhkəmləndirir. Xüsusilə fərqli qabiliyyətlərə və sosial mənşəyə malik tələbələrin birgə öyrənməsi bərabər imkanların yaradılmasına və sosial ədalətin təmin olunmasına xidmət edir (Vygotsky, 1978).

Müəllimin rolu inklüziv siniflərdə daha da genişlənir və çoxşaxəli xarakter daşıyır. Müəllim yalnız bilik ötürən şəxs deyil, həm də öyrənmə prosesini təşkil edən, tələbələri motivasiya edən və onların fərdi xüsusiyyətlərini nəzərə alan fasilitator kimi çıxış edir. O, müxtəlif tədris strategiyalarından istifadə edərək hər bir tələbənin ehtiyacına uyğun mühit yaratmalı, onların güclü tərəflərini inkişaf etdirməli və zəif tərəflərini dəstəkləməlidir. Bunun üçün müəllim davamlı peşəkar inkişaf yolu keçməli, inklüziv pedaqogika sahəsində bilik və bacarıqlarını daim yeniləməlidir (Əliyev, 2020).

Rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası xarici dil öyrənilməsini daha əlçatan və effektiv edir. Müasir dövrdə onlayn platformalar, mobil tətbiqlər və süni intellekt əsaslı proqramlar fərdiləşdirilmiş öyrənmə imkanları təqdim edir. Bu texnologiyalar tələbələrin fərdi tempdə öyrənməsinə şərait yaradır, onların zəif tərəflərini müəyyən edib inkişaf etdirməyə kömək edir və inklüziv siniflərdə hər bir tələbənin ehtiyacına uyğun tədris mühiti formalaşdırır. Eyni zamanda, bu vasitələr müəllimlərə də tədris prosesini daha çevik və səmərəli təşkil etmək imkanı verir.

Xarici dil öyrənilməsi tələbələrin idrak bacarıqlarının inkişafına da əhəmiyyətli təsir göstərir. Bu proses onların tənqidi düşünmə, analiz etmə, müqayisə aparma və problem həll etmə bacarıqlarını gücləndirir. Dil öyrənən tələbələr müxtəlif kontekstlərdə düşünməyi, fərqli perspektivləri nəzərə almağı və məntiqi nəticələr çıxarmağı öyrənirlər. Bu isə onların ümumi akademik göstəricilərinin yüksəlməsinə və digər fənlərdə də uğur qazanmalarına müsbət təsir edir.

Nəticə etibarilə, xarici dillərin inklüziv siniflərdə tədrisi yalnız dil biliklərinin verilməsi ilə məhdudlaşmır, həm də tələbələrin sosial, emosional və idrak inkişafına kompleks şəkildə təsir edir. Bu proses inklüziv təhsilin əsas prinsiplərinə uyğun olaraq bərabər imkanların yaradılmasına, fərdi potensialın üzə çıxarılmasına və cəmiyyətin daha tolerant və inklüziv olmasına töhfə verir. Eyni

zamanda, xarici dil öyrənilməsi tələbələrin özünəinamını artırır, onların fərqli mühitlərdə sərbəst ünsiyyət qurmasına və öz fikirlərini ifadə etməsinə şərait yaradır. Bu isə gələcək peşə fəaliyyətində və beynəlxalq əməkdaşlıq mühitində onların uğur qazanma ehtimalını yüksəldir.

Bununla yanaşı, inklüziv siniflərdə xarici dil tədrisinin daha effektiv təşkili üçün bir sıra praktik addımların atılması məqsədəuyğundur. İlk növbədə, müəllimlər üçün inklüziv pedaqogika və diferensial tədris metodları üzrə mütəmadi təlimlər təşkil olunmalıdır. Tədris materialları müxtəlif öyrənmə üslublarına uyğun şəkildə hazırlanmalı, vizual, eşitmə və kinestetik yanaşmalar balanslı şəkildə tətbiq edilməlidir. Eyni zamanda, rəqəmsal resurslardan və adaptiv öyrənmə platformalarından daha geniş istifadə olunması tövsiyə edilir.

Bundan əlavə, sinifdə əməkdaşlıq mühitinin gücləndirilməsi, qrup işlərinin və qarşılıqlı öyrənmə strategiyalarının tətbiqi tələbələrin sosial inteqrasiyasını artırır. Valideynlərin tədris prosesinə cəlb olunması və məktəb-ailə əməkdaşlığının gücləndirilməsi də inklüziv təhsilin keyfiyyətinə müsbət təsir göstərir. Nəhayət, hər bir tələbənin fərdi inkişaf dinamikasını izləmək üçün formativ qiymətləndirmə üsullarından istifadə olunması daha səmərəli nəticələrin əldə olunmasına imkan yaradır.

Ədəbiyyat:

1. Brown, H. D. (2007). Principles of Language Learning and Teaching. Pearson.
2. Əliyev, R. (2020). İnklüziv təhsilin əsasları. Bakı: Təhsil nəşriyyatı.
3. Krashen, S. D. (1982). Principles and Practice in Second Language Acquisition. Oxford. UNESCO. (2020). Inclusive Education Guidelines. Paris.
4. Vygotsky, L. S. (1978). Mind in Society. Harvard University Press.

ÜMUMİ ORTA TƏHSİL SİSTEMİNDƏ İNKLÜZİV TƏHSİL PROBLEMLƏRİ

Vüsalə Natiq qızı Qaragözova
Azərbaycan Respublikası
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı
vusaleqaragoz@gmail.com
ORCİD ID: https://orcid.org/ 0009-0003-8072-80090

Açar sözlər: İnklüziv təhsil, xüsusi təhsil ehtiyacları, əlilliyi olan uşaqların təhsili, təhsil inteqrasiyası, təhsil mühitinin əlçatanlığı, sosial adaptasiya, inklüziv təhsil siyasəti.

Xülasə. Məqalədə əlilliyi olan uşaqlar üçün inklüziv təhsilin təşkili, onun əsas prinsipləri və tətbiqi zamanı yaranan problemlər təhlil olunur. Müasir təhsil sistemində vahid təhsil məkanının yaradılması və bütün uşaqların, o cümlədən xüsusi təhsil ehtiyacı olan şəxslərin keyfiyyətli təhsilə çıxışının təmin edilməsi mühüm istiqamətlərdən biri hesab olunur. İnklüziv təhsil fərdi xüsusiyyətləri və ehtiyacları nəzərə alaraq bütün şagirdlərin bərabər təhsil imkanlarına malik olmasını nəzərdə tutur. Bu yanaşma cəmiyyətdə humanizm, tolerantlıq və sosial bərabərlik prinsiplərinin inkişafına xidmət edir.

Məqalədə inklüziv təhsilin mahiyyəti müxtəlif tədqiqatçıların fikirləri əsasında izah edilir və onun əsas prinsipləri göstərilir. Həmçinin əlilliyi olan uşaqların müxtəlif kateqoriyaları (eşitmə, görmə, nitq pozuntuları, əzələ-skelet sistemi problemləri, əqli inkişaf geriliyi və s.) və onların təhsil xüsusiyyətləri haqqında məlumat verilir. Tədqiqatın empirik hissəsində Sverdlovsk vilayətinin

Revda şəhərinin ümumtəhsil məktəblərində inklüziv təhsilin vəziyyəti araşdırılmışdır. Müsahibələr və statistik məlumatlar əsasında bu sahədə mövcud problemlər müəyyən edilmişdir.

Araşdırma nəticələri göstərir ki, inklüziv təhsilin inkişafına mane olan əsas amillər mütəxəssis çatışmazlığı, məktəblərdə uyğun maddi-texniki şəraitin olmaması və xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün uyğunlaşdırılmış proqramların kifayət qədər hazırlanmamasıdır. Bununla yanaşı, müəllimlərin əlavə hazırlığa ehtiyac duyması və cəmiyyətdə tolerant münasibətin formalaşdırılması zərurəti də vurğulanır. Nəticə etibarilə, inklüziv təhsilin səmərəli həyata keçirilməsi üçün maliyyə dəstəyinin artırılması, peşəkar kadrların hazırlanması və əlçatan təhsil mühitinin yaradılması vacib hesab olunur.

Keywords: Inclusive education, special educational needs, education of children with disabilities, educational integration, accessibility of the educational environment, social adaptation, inclusive education policy

Summary. The article analyzes the organization of inclusive education for children with disabilities, its main principles and problems arising during its implementation. In the modern education system, the creation of a single educational space and ensuring access to quality education for all children, including those with special educational needs, is considered one of the important directions. Inclusive education implies that all students have equal educational opportunities, taking into account individual characteristics and needs. This approach serves the development of the principles of humanism, tolerance and social equality in society.

The article explains the essence of inclusive education based on the views of various researchers and indicates its main principles. It also provides information about various categories of children with disabilities (hearing, vision, speech disorders, musculoskeletal system problems, mental retardation, etc.) and their educational characteristics. In the empirical part of the study, the state of inclusive education in comprehensive schools of the city of Revda, Sverdlovsk region was examined. Existing problems in this area were identified based on interviews and statistical data.

The research results show that the main factors hindering the development of inclusive education are the lack of specialists, the lack of appropriate material and technical conditions in schools, and the insufficient development of adapted programs for children with special educational needs. In addition, the need for additional training of teachers and the need to form a tolerant attitude in society are also emphasized.

Anahtar kelimeler: kapsayıcı eğitim, özel eğitim ihtiyaçları, engelli çocukların eğitimi, eğitimsel entegrasyon, eğitim ortamının erişilebilirliği, sosyal uyum, kapsayıcı eğitim politikası.

Özet. Bu makale, engelli çocuklar için kapsayıcı eğitimin organizasyonunu, temel ilkelerini ve uygulanması sırasında ortaya çıkan sorunları analiz etmektedir. Modern eğitim sisteminde, tek bir eğitim alanı oluşturmak ve özel eğitim ihtiyaçları olanlar da dahil olmak üzere tüm çocukların kaliteli eğitime erişimini sağlamak önemli yönlerden biri olarak kabul edilmektedir. Kapsayıcı eğitim, tüm öğrencilerin bireysel özelliklerini ve ihtiyaçlarını dikkate alarak eşit eğitim fırsatlarına sahip olmasını gerektirir. Bu yaklaşım, toplumda hümanizm, hoşgörü ve sosyal eşitlik ilkelerinin geliştirilmesine hizmet eder.

Makale, çeşitli araştırmacıların görüşlerine dayanarak kapsayıcı eğitimin özünü açıklamakta ve temel ilkelerini belirtmektedir. Ayrıca, çeşitli engelli çocuk kategorileri (işitme, görme, konuşma bozuklukları, kas-iskelet sistemi sorunları, zihinsel gerilik vb.) ve eğitimsel özellikleri hakkında bilgi vermektedir. Çalışmanın ampirik bölümünde, Sverdlovsk bölgesinin Revda şehrindeki

kapsamlı okullarda kapsayıcı eğitimin durumu incelenmiştir. Bu alandaki mevcut sorunlar, görüşmeler ve istatistiksel veriler temelinde belirlenmiştir.

Araştırma sonuçları, kapsayıcı eğitimin gelişimini engelleyen temel faktörlerin uzman eksikliği, okullarda uygun malzeme ve teknik koşulların eksikliği ve özel eğitim ihtiyacı olan çocuklar için uyarlanmış programların yetersiz hazırlanması olduğunu göstermektedir. Buna ek olarak, öğretmenlerin ek eğitimine ve toplumda hoşgörülü bir tutumun oluşturulmasına duyulan ihtiyaç da vurgulanmaktadır. Sonuç olarak, finansal desteğin artırılması, profesyonel personelin eğitimi ve erişilebilir bir eğitim ortamının oluşturulması, kapsayıcı eğitimin etkili bir şekilde uygulanması için önemli görülmektedir.

Vahid təhsil məkanının yaradılmasının əsas prinsiplərindən biri, o cümlədən əlilliyi olan uşaqlar üçün keyfiyyətli təhsilə çıxışdır. Son on ildə müasir təhsil sistemi əhəmiyyətli dəyişikliklərə məruz qalmış və bu kateqoriyadan olan şəxslər üçün təhsil məkanının qurulması ilə bağlı effektiv yanaşmaların axtarışına yönəlmişdir. Əlilliyi olan uşaqlar üçün təhsil sisteminin inkişafının prioritet sahələrindən biri təhsil inteqrasiyası və ya bu cür uşaqların adi təhsil müəssisələrində təhsil və tərbiyəsinin təşkili, onları ümumi təhsil prosesinə inteqrasiya etməkdir. Bu təhsil növü inklüziv hesab olunur.

"Rusiya Federasiyasında Təhsil haqqında" 273-FZ saylı Federal Qanuna əsasən, "təhsil, sosial cəhətdən əhəmiyyətli və faydalı olan və fərdin, ailənin, cəmiyyətin və dövlətin maraqları naminə həyata keçirilən vahid, məqsədyönlü tərbiyə və təlim prosesi, eləcə də fərdin intellektual, mənəvi, əxlaqi, yaradıcı, fiziki və ya peşəkar inkişafı, təhsil ehtiyaclarını və maraqlarını ödəmək məqsədilə müəyyən həcmdə və mürəkkəblikdə əldə edilmiş bilik, bacarıq, qabiliyyət, dəyər sistemləri, təcrübə və səriştələr toplusudur".

Müasir təhsil sistemi, ilk növbədə, ümumi tədris planını izləyə bilən və müəyyən tələblərə cavab verən şagirdlərə yönəlmişdir. Buna görə də, əlilliyi olan uşaqların ümumi təhsil prosesində iştirak etmək imkanı və ya müvafiq şəraiti yoxdur. Bu problem müasir cəmiyyət üçün aktualdır və inklüziv təhsil onun həllinə yönəlmişdir. "Əlilliyi olan şəxslərin təhsilə çıxışı: imkanlar və maneələr" adlı məqaləsində S.N. Kroytor yazır ki, "təhsil fərdin və cəmiyyətin inkişafı üçün şərt və vacib vasitədir. Təhsilin əsas məqsədi, bir tərəfdən, sosial reproduksiyanı və inkişafı təmin etmək, digər tərəfdən isə insan kapitalını və potensialını inkişaf etdirməkdir. Təhsil bu gün ən dəyərli resurslardan biridir, çünki o, digər resurslara və faydalara çıxışı təmin edir. Sosial mobilliyi, özünüdərk etməyi və şəxsi inkişafı təşviq edir, peşəkar və həyat perspektivlərini yaxşılaşdırır" (Kroytor, 2013).

İnklüzivlik, ilk növbədə, fərdi insan xüsusiyyətlərinin tanınmasını və hörmətini nəzərdə tutur. Cəmiyyətdəki dəyişiklikləri fərdi ehtiyacların nəzərə alınması və onlara uyğunlaşması baxımından təsəvvür edir. Müxtəlif müəlliflərin tədqiqatlarında "inklüzivlik" anlayışı olduqca geniş şəkildə şərh olunur.

Məsələn, E. İ. Purgina bu anlayışla əlaqəli iki aspekti müəyyən edir:

Birinci aspekt, inklüzivliyi fərdin cəmiyyətə inteqrasiyası təcrübəsi kimi xarakterizə edir ki, bu da onun mədəni zənginləşməsinə və bütövlükdə cəmiyyətin zənginləşməsinə töhfə verir.

İkinci aspekt, inklüzivliyi əlilliyi olan uşağın təhsil hüququnu həyata keçirmək məqsədi ilə sağlam həmyaşıdlar qrupuna daxil edilməsi kimi vurğulayır (Purgina, 2014]

İnklüziv təhsil, xüsusi təhsil ehtiyaclarının və fərdi imkanların müxtəlifliyini nəzərə alaraq, bütün şagirdlər üçün təhsilə bərabər çıxışın təmin edilməsidir. N.N. Rud inklüziv təhsili "bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşmaq baxımından hamı üçün təhsilə çıxışı nəzərdə tutan və beləliklə, əlilliyi olan uşaqların təhsilə çıxışını təmin edən dövlət təhsilinin inkişaf etdirilməsi prosesi" kimi müəyyən edir (Rud, 2011).

Təhsildə inklüzivlik cəmiyyətdəki inklüzivlik prosesləri ilə ayrılmaz şəkildə bağlıdır. E. V. İvanov yazır: "İnklüziv yanaşma hazırda müəyyən bir iqtisadi, mədəni və hüquqi inkişaf səviyyəsinə çatmış cəmiyyət və dövlət tərəfindən verilən sosial mandatdan başqa bir şey deyil, burada humanizm və tolerantlıq prinsiplərinə əsaslanaraq, əhalinin heterojen qruplarına münasibətin yenidən nəzərdən keçirilməsi, təkcə onların hüquqlarının bərabərliyinin tanınması ilə deyil, həm də onlara təhsil almaq da daxil olmaqla, bütün digər insanlarla bərabər imkanlar yaratmaq öhdəliyinin dərk edilməsi ilə baş verir" (İvanov, 2015.)

Əlilliyi olan uşaqların sayı hər il artır və onların təhsil ehtiyaclarını ödəmək üçün inklüziv təhsil mədəniyyətini dəstəkləmək və onu inklüziv təhsilin aşağıdakı prinsiplərinə əsaslanaraq praktikada tətbiq etmək lazımdır:

1. "İnsanın dəyəri onun qabiliyyətlərindən və nailiyyətlərindən asılı deyil."
2. "Hər bir insan hiss etmək və düşünmək qabiliyyətinə malikdir."
3. "Hər bir insanın ünsiyyət qurmaq və eşidilmək hüququ var."
4. "Bütün insanların bir-birinə ehtiyacı var."
5. "Əsl təhsil yalnız real münasibətlər kontekstində baş verə bilər."
6. "Bütün insanların həmyaşıdlarının dəstəyinə və dostluğuna ehtiyacı var."
7. "Bütün tələbələr üçün irəliləyişin edə bilmədiklərindən daha çox edə biləcəklərində əldə edilməsi ehtimalı daha yüksəkdir."
8. "Müxtəliflik insanın həyatının bütün aspektlərini gücləndirir" (Raimbekova ., Mamraimov , 2018).

N.İ. Mazurçuk yazır ki, inklüziv təhsil "sonradan yetkinləşən fərdin cəmiyyətin bərabərhüquqlu üzvünə çevrilməsinə imkan verəcək və o, başqalarının dəstəyi, qəbulu və anlayışı sayəsində psixoloji müdafiə mexanizmlərini inkişaf etdirəcək. Uşaqlar böyüdükcə, bir tərəfdən insanın real vəziyyəti adekvat qiymətləndirmək qabiliyyətinə, digər tərəfdən isə vəziyyətdən çıxış yolunu qabaqcadan görmək qabiliyyətinə əsaslanan psixoloji adaptasiyalarını itirmədən müxtəlif həyat çətinlikləri ilə üzləşməyi öyrənirlər.

Öz xüsusiyyətlərini qəbul etmək və başqalarının xüsusiyyətlərinə qarşı tolerant olmaq, qarşılıqlı fərqləri nəzərə almağı öyrənmək" (Mazurçuk, 2015).

Təhsil müəssisəsində müəllimin əlilliyi olan uşağı təhsil prosesinə qəbul edərkən nələrlə qarşılaşa biləcəyini anlamaq üçün müxtəlif inkişaf əlilliyi olan uşaqlar üçün mövcud olan müxtəlif təhsil növlərini anlamaq lazımdır.

Birinci kateqoriya eşitmə qabiliyyəti zəif və ya ümumiyyətlə olmayan uşaqlardan ibarətdir. Müəllimlərin məqsədi bu uşaqlara başqaları ilə ünsiyyət qurmağı və bir neçə nitq növünü mənimsəməyi öyrətməkdir: şifahi, yazılı və işarəli. Tədris planına səs gücləndirici avadanlıqlardan istifadə etməklə eşitmə kompensasiyasına yönəlmiş kurslar, tələffüz korreksiyası, sosial və gündəlik tənzimləmələr və daha çoxu daxildir.

İkinci kateqoriyaya eşitmə itkisi və gec başlayan karlıq olan uşaqlar daxildir. Bu halda, müəllimlərin işi itirilmiş eşitmə qabiliyyətlərini bərpa etməyə, aktiv nitq təcrübəsi təmin etməyə və ünsiyyət bacarıqlarını öyrətməyə yönəlib.

Üçüncü kateqoriyaya kor uşaqlar və korluğa aparan mürəkkəb qüsurları olan uşaqlar daxildir.

Dördüncü kateqoriyaya görmə korreksiyası imkanı olan uşaqlar daxildir.3-cü və 4-cü kateqoriyadakı uşaqlar üçün təhsil korreksiyaedici və kompensasiyaedici bacarıqları inkişaf etdirmək və onların sosial adaptasiyasını təmin etmək üçün təşkil olunur.

Beşinci kateqoriyaya nitq inkişafı zəif olan uşaqlar, eləcə də ağır nitq patologiyası olan uşaqlar daxildir.Təhsil prosesi elə təşkil olunur ki, uşaqlar gün ərzində nitq bacarıqlarını inkişaf etdirə bilsinlər.

Altıncı kateqoriyaya əzələ-skelet sistemi pozğunluğu olan uşaqlar daxildir. Buraya motor funksiyalarının bərpası və inkişafı, ikinci dərəcəli qüsurların korreksiyası daxildir. Sosial və əmək adaptasiyasına xüsusi diqqət yetirilir.

Yeddinci kateqoriyaya əqli geriliyi olan uşaqlar daxildir. Buraya idrak fəaliyyətinin inkişafı, əqli inkişafın korreksiyası və akademik bacarıqların inkişafı daxildir.

Səkkizinci kateqoriyaya əqli geriliyi olan uşaqlar daxildir. Sosial və psixoloji reabilitasiya və uşağın cəmiyyətə inteqrasiyası imkanı təmin edilir. Təhsil xüsusi proqrama uyğun olaraq aparılır.

Federal Dövlət Statistika Xidmətinin məlumatlarına görə, 2018-ci ildə Rusiya Federasiyasında əlilliyi olan uşaqların sayı 651.000 nəfər olub (Federal Dövlət Statistika Xidməti // Əlilliyi olan şəxslərin ümumi sayı Əlillik qrupu). Bunlardan 217.000-i 0-7 yaş arası, 396.000-i isə 8-17 yaş arası uşaqlar olub (Federal Dövlət Statistika Xidməti // Əlilliyi olan şəxslərin cins və yaşa görə bölgüsü (Elektron resurs)). Yəni, əlil uşaqların əksəriyyəti məktəb yaşlıdır. Sverdlovsk vilayətində 2018-ci ildə əlilliyi olan uşaqların sayı 18.851.000 nəfər olub (Federal Dövlət İnformasiya Sistemi Əlillərin Federal Reyestri (FGIS FRI) // Əlilliyi olan uşaqların sayı (Elektron resurs)) Bunlardan 4.336.000 əlilliyi olan uşaq regiondakı xüsusi korreksiya məktəblərində təhsil alır, onlardan 71-i bu məktəblərdədir. Ümumi təhsil məktəblərində (korreksiya siniflərində) əlilliyi olan şagirdlər üçün ayrıca siniflər də mövcuddur, onlardan 856-sı bu siniflərdədir və bu siniflərdə əlilliyi olan şagirdlərin sayı 8.341.000 nəfərdir. Bölgədə inklüziv məktəblər də yaradılıb ki, bunlardan 839-u dövlət təhsil müəssisələrində, 4-ü isə qeyri-dövlət təhsil müəssisələrindədir (Sverdlovsk Vilayəti Qubernatorunun Administrasiyası və Sverdlovsk Vilayəti Hökumət Aparatı // Sverdlovsk Vilayətində təhsil sisteminin vəziyyəti haqqında məlumat (məlumatın yaranma tarixi: 09.03.2019) (Elektron resurs)). Bu statistika göstərir ki, Sverdlovsk vilayətində inklüziv təhsilə diqqət yetirilməyə başlayır.

Bu mövzunun daha da öyrənilməsi Sverdlovsk vilayətinin Revda şəhərindəki ümumi təhsil məktəblərində inklüziv təhsilin inkişafı nümunəsi əsasında aparılacaq. Bölgənin kiçik şəhərlərində inklüziyanın necə inkişaf etdiyini və bu sahədə hansı inkişaf perspektivləri və çətinliklərlə üzləşdiklərini anlamaq lazımdır.

Revda, 1 sentyabr 1734-cü ildə təsis edilmiş Sverdlovsk vilayətində yerləşən bir şəhərdir və Revda şəhər rayonunun inzibati mərkəzidir. Şəhər, inzibati mərkəzi Avropa ilə Asiyanı ayıran xəyali xəttə ən yaxın yerləşdiyinə görə "Avropanın İlk Şəhəri" adlanır. Şəhər rayonunun rəhbəri İrina Anatolyevna Teyşevadır. 2018-ci il etibarilə əhalinin sayı 64.100.000 nəfər idi (Sverdlovsk vilayəti və Kurqan vilayəti üzrə Federal Dövlət Statistika Xidmətinin İdarəsi // 1 yanvar 2019-cu il tarixinə Sverdlovsk vilayətinin bələdiyyələr üzrə ilkin əhali hesablamaları və 2018-ci il üçün orta göstərici 61 (Elektron resurs)). 2017-ci ilin sonunda Revdada əlilliyi olan uşaqların sayı 321 nəfər idi (Revda şəhərinin Sosial Siyasət Departamenti // Departamentin 4-cü rüb və 2017-ci il üçün fəaliyyəti haqqında hesabat (Elektron resurs)).

Tədqiqatın məqsədi Revdanın ümumi təhsil məktəblərində inklüziv təhsilin inkişafı üçün mövcud problemləri, amilləri və perspektivləri müəyyən etmək və təhlil etmək idi. Aşağıda bələdiyyə rəhbərliyinin nümayəndələri (təhsil şöbəsinin müdiri, məktəb direktorları və direktorlar) tərəfindən müsahibələr zamanı əldə edilən ekspert qiymətləndirmələrindən müəyyən edilmiş əsas problemlər verilmişdir.

İlk və ən aktual problem, əlilliyi olan və xüsusi təhsil ehtiyacı olan uşaqların təhsilinə nəzarət edə biləcək, sağlamlıq vəziyyətlərinə uyğun şərait yarada biləcək xüsusi qayğıya ehtiyacı olan uşaqlarla işləyən mütəxəssislərin (həkimlər, psixoloqlar, xüsusi təhsil müəllimləri, repetitorlar (müəllimlər, sosial işçilər) və s. çatışmazlığıdır. Bu baxımdan bütün yük öz növbəsində bu sahələrdə mütəxəssis olmayan adi müəllimin üzərinə düşür. Beləliklə, Revdadakı 2 nömrəli ümumtəhsil məktəbinin direktor müavini bu problemi belə təsvir edir: "Məktəbdə kifayət qədər

mütəxəssis yoxdur, yalnız bir təhsil psixoloqu var. Xüsusi təhsil ehtiyacı olan uşaqların sayını (39) nəzərə alsaq, bizə həmçinin nitq terapevti, iki psixoloq vəzifəsi və qaydalara görə repetitorlar və s. lazım olacaq. Lakin bunu həyata keçirmək üçün müəyyən maliyyələşdirmə olmalıdır. Heç kim bizə bu maliyyəni vermir." Buna görə də, qanunla nəzərdə tutulanlar maliyyələşdirilmir. Bizdən "ayrılmış vəsaitdən maaşlar tətbiq etməyimiz" tələb olunur, bəs onda nə?

Riyaziyyat müəllimini işdən çıxarmalıyıqmı? Bizim resurslarımız yoxdur.

Müəssisələr, eyni əlilliyi olan uşaqlar üçün Federal Dövlət Təhsil Standartının tələb etdiyi kimi, tam heyətlə təmin olunmayıblar.

İkinci problem əlilliyi olan uşaqların məktəbə getməsi üçün maddi-texniki şəraitin olmamasıdır. Revda Təhsil Departamentinin müdiri qeyd edir ki, "bu gün qaydalara əsasən, məktəblərdə liftlər və geniş giriş yolları olmalıdır, lakin memarlıq buna imkan vermir. Buna görə də, biz bu cür uşaqlara ya evdə, ya da sinifdədirsə sinifdə, mövcud şəraitdə təhsil xidmətləri göstərməyə məcburuq. Tikintisi davam edən yeni məktəblərdə bu cür uşaqlar üçün əlçatanlıq xüsusiyyətləri daxil edilir. Deməzdim ki, bu, maliyyələşdirilməyib - bunun üçün kifayət qədər maliyyə resurslarımız var, amma fakt budur ki, administratorlar həmişə bu cür uşaqlar üçün əlçatanlığa üstünlük vermirlər. Mən bununla razıyam."

Üçüncü problem isə müxtəlif kateqoriyalı əlilliyi olan və xüsusi təhsil ehtiyacları olan uşaqlarla işləmək üçün qanuni olaraq müəyyən edilmiş planın olmamasıdır. Müəllimlərin özləri hər bir xüsusi uşağa uyğunlaşdırılmış xüsusi proqramlar hazırlamağa məcburdurlar. Revdadakı 1 nömrəli orta məktəbin direktoru deyir: "Bu uşaqların təhsili üçün aydın qaydalar olmalıdır; müəllim tərəfindən deyil, mütəxəssislər tərəfindən yaradılan hazır, inkişaf etmiş, uyğunlaşdırılmış proqramlar olmalıdır. Yəni, müəllim müəyyən bir seçim edir və işə başlayır. Və uyğunlaşdırılmış proqramlar yaratmaqla, bunu yenə də mütəxəssislər etməlidir. Əvvəlcə, qabaqcıl təlim kursları keçsək də, biz fərqli mütəxəssislərik. Mən biologiya müəllimiyəm, xüsusi təhsil müəllimi deyiləm. Bəli, kurslarda psixologiyanın müxtəlif aspektlərini öyrənirik, amma bu, kursun əhatə dairəsinə daxildir; bu, əsas komponent deyil." Bu məsələlərin həlli üçün ümumi tövsiyələr olaraq mütəxəssislər aşağıdakıları təklif etdilər:

"Müxtəlif məktəblər, müxtəlif tiplər olmalıdır; əvvəllər mövcud olanlar, prinsipcə, indi ixtisar olunmağa başlayıb. Düzəldici siniflər artıq əsas məktəb kontekstində bağlanıb. Hər şey ümumi təhsil sinifləri çərçivəsindədir. Bəzi insanlar nəyəsə nail olmaq üçün həqiqətən ümumi şəraitdə olmalıdırlar, digərləri üçün isə bu şərtlər zərərlidir və mənfi nəticələrə səbəb olur. Burada fərdi yanaşma lazımdır" (1 nömrəli məktəbin direktoru).

2 nömrəli məktəbin direktor müavini həmçinin qeyd edir ki, "əqli qüsurlu uşaqlar üçün ayrıca ixtisaslaşmış məktəblərin ayrılmasına qayıtmaq lazımdır. Əgər uşağın bu sinus-kosinusa qabiliyyəti yoxdursa, qoy heç olmasa əlləri ilə bir şey etməyi öyrənsinlər ki, sosiallaşsınlar və bu cəmiyyətdə öz yerlərini tapsınlar. Bu, uşaq üçün vacibdir. Çünki hamı təhsilin adi məktəbdə olması ilə razıdır. Amma müəllimlər heç nəyin qurulmadığını görür və bilirlər. Bu, müəllimin onu inkişaf etdirməməsi üçün deyil, uşağın sosiallaşmaması və hətta otura bilməməsi üçün qurulmayıb. Buna görə də, əvvəllər hər sinifdə beş şagird olan məktəblərdə olduğu kimi, inkişaf üçün mümkün qədər çox maliyyə ayırmalıyıq. Əgər belə daxilolma varsa, bu, adi təhsilin hesabına olmayacaq. Niyə tibb işçilərinin terapevtləri, fərdi nevroloqları, oftalmoloqları və sair var, halbuki bizdə hər şeyi adi haldan kənara atıblar. Müəllimlər? Biz terapevt kimiyik, amma bütün incəlikləri bilə bilmərik. Buna görə də, pula qənaət etmək üçün hər şeyi əsas məktəblərə xərcləyə bilmərik.

Revda Şəhər Təhsil Departamentinin direktoru hesab edir ki, ən vacib şey "həm uşaqlarda, həm də böyüklərdə tolerant münasibət yaratmaqdır. Mən həmişə bu ifadəni təkrarlayıram: "Biz necəyiksə, uşaqlarımız da elədir". Böyüklərimiz tolerant olana qədər uşaqlarımız tolerant olmayacaqlar."

Müasir Rusiyada inklüzivlik məsələsinə son on ildə xüsusi diqqət yetirilib. İnklüziv təhsilin əsas prinsipləri hazırlanmış və əlilliyi olan uşaqlar üçün təhsil növləri və onlarla işləmə metodları müəyyən edilmişdir. Lakin əlilliyi olan uşaqların ümumi təhsil prosesinə inteqrasiyası təcrübəsi məyusedici nəticələr göstərib. Orta təhsil sistemi hələ inklüziv təhsilə keçidə tam hazır deyil, bunu məktəblərdə kadr çatışmazlığı (yəni əlilliyi olan uşaqlarla işləmək üçün xüsusi təlim keçmiş insanların az olması və ya tamamilə olmaması), təhsil müəssisələrinin aşağı əlçatanlığı və maddi-texniki şəraitin olmaması sübut edir. Bu sahədə kifayət qədər maliyyələşdirmənin olmaması, mütəxəssislərin xərclərinin azaldılması, hər bir uşağın hazırkı inkişaf mərhələsində faydalı və əlçatan inteqrasiya səviyyəsini əldə etməsinə imkan verən xüsusi siniflərin olmaması və əlilliyi olan uşaqlar üçün əlçatan mühit meyarlarına cavab verməyən köhnəlmiş təhsil infrastrukturu ilə əlaqədardır.

Ədəbiyyat:

1. Federal State Statistics Service. Total number of persons with disabilities by disability group. Retrieved March 10, 2019, from http://www.gks.ru/free_doc/new_site/population/invalid/1-1.doc

2. Federal State Statistics Service. Distribution of persons with disabilities by sex and age. Retrieved March 10, 2019, from http://www.gks.ru/free_doc/new_site/population/invalid/1-3.doc

3. Federal State Information System Federal Register of Disabled Persons. Number of children with disabilities. Retrieved March 10, 2019, from https://sfri.ru/analitika/chislennost/chislennost-detei?territory=1

4. Kroytor, S. N. (2013). Access to education for people with disabilities in Russia: Opportunities and barriers. Sociological Studies, (5), 104–110. Retrieved April 12, 2019, from https://elibrary.ru/item.asp?id=20135807

5. Ivanov, E. V. (2015). On strategic planning for the development of inclusive education (on the example of Veliky Novgorod). Bulletin of Novgorod State University, (5), 44.

6. Mazurchuk, N. I. (2015). Inclusive education as a process of development of general education. In Adult education in the modern educational space: Problems and prospects (pp. 127–136). Ural State Pedagogical University. Retrieved March 24, 2019, from https://elibrary.ru/item.asp?id=32485668

7. Purgina, E. I. (2014). Philosophical foundations of inclusive education in the context of the Federal State Educational Standard for children with disabilities. Pedagogical Education in Russia, (2), 152–156.

8. Raimbekova, U. K., & Mamraimov, S. D. (2018). The relevance of inclusive education in the modern education system. International Scientific Review, (1), 186.

9. Department of Social Policy of Revda. (2017). Report on activities for the 4th quarter and 2017. Retrieved March 10, 2019, from https://msp.midural.ru/download/24345/

10. Russian Federation. (2012). On education in the Russian Federation (Federal Law No. 273-FZ, December 29, 2012, as amended December 25, 2018). Retrieved February 27, 2019, from http://www.consultant.ru/document/cons_doc_LAW_140174/

11. Rud, N. N. (2011). Inclusive education: Problems, search, solutions. Perspektiva.

12. Federal State Statistics Service (Sverdlovsk and Kurgan regions). (2019). Preliminary population estimates of municipalities of Sverdlovsk region as of January 1, 2019. Retrieved March 3, 2019, from http://sverdl.gks.ru

13. Administration of the Governor of Sverdlovsk Region & Government Office of Sverdlovsk Region. (2019). Information on the state of the education system in Sverdlovsk region. Retrieved March 10, 2019, from http://eis.mon.gov.ru/education/

14. Teremova, M. N., & Bobkova, M. G. (2015). Inclusive education and types of education for children with developmental disabilities. In Proceedings of the VII International Student Scientific Conference "Student Scientific Forum". Retrieved February 27, 2019, from https://scienceforum.ru/2015/article/2015016638

TƏHSİLDƏ İNKLÜZİV YANAŞMA

Südabə Məmməd qızı Məmmədova
Azərbaycan Respublikası
Lənkəran Dövlət Universiteti
s.mammad1007@gmail.com
ORCİD İD: https://orcid.org/:0000-0003-8106-6748

Açar sözlər: inklüziv, inteqrasiya, sosiallaşma, muhit, qanunvericilik, konvensiya.

Xülasə. Müasir dövrdə inklüziv təhsil dedikdə uşaqların orta təhsil məktəblərində dərs alması prosesi nəzərdə tutulur. Təlim metodikasına müvafiq olaraq inklüziv təhsil şagirdlərə qarşı hər hansı formada ayrı seçkilik edilməsinin qarşısını alır. Buna görə də inklüziv təhsilin təşkilinin təlim-tərbiyə prosesinin səmərəli nəticə verməsi üçün onun müasirləşməsinə qoyulan standartlara cavab verməsinə nail olmaq əsas tələblərdən biridir. Ümumtəhsil sistemi bütün uşaqları əhatə etməli və bütün uşaqların bərabər imkanlara malik olmasını təmin etməli və hər birinin fərdi nailiyyətlərinə dəstək verməlidir. İnklüziv sinif mühitində təlim hər bir uşağın başqaları ilə birlikdə tədris prosesində iştirak etmə hüququnu nəzərdə tutur. Öz qabiliyyət və ehtiyaclarından asılı olmayaraq uşaqların hamısı sinfin tam hüquqlu üzvü sayılır. Azərbaycanda inklüziv təhsilin inkişaf tarixi 2004-cü ildən başlayır və ilk təcrübə məhz xüsusi qayğıya ehtiyacı olan uşaqları Bakı və Sumqayıt şəhərlərinin bir sıra seçilmiş ümumtəhsil məktəb və məktəbəqədər müəssisələrinə cəlb etməkdən ibarət olmuşdur. Belə uşaqlar xüsusi qayğıya ehtiyacı olan uşaqlar adlandırılmışdır. İnklüziv təhsil uşaqların xüsusi ehtiyaclarının müəyyənləşdirilməsindən başlanır. Müvafiq təlim starategiyalarından istifadə edilməsi xüsusi qayğıya ehtiyacı olan uşağı sosial, psixi, fiziki və koqnitiv inkişafa doğru aparmaqla onu sinif kollektivinin inteqrativ bir üzvünə çevirir. Başqa sözlə, inklüziv təhsilin əsas məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqların bacarıqlarının inkişaf etdirilməsi, onların sosial mühitə inteqrasiyasına şərait yaratmaq, valideynlərin maarifləndirilməsi və bu sahədə çalışan müəllimlərin metodik hazırlığını inkişaf etdirməkdir. Bu proses inteqrasiya adlanır. Sözügedən model ilk dəfə 1970-ci ildə Skandinaviyada, daha sonra ABŞ və Kanada da tətbiq edilərək inkişaf etdirilmişdir. Bununla bərabər inklüziv təhsilin inkişafını təkmilləşdirmək üçün müəyyən işlərin görülməsi və tədbirlərin həyata keçirilməsi xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili üçün faydalı olar.

Keywords: inclusive, integration, socialization, environment, legislation;convention.

Summary. In the modern era, inclusive education refers to the process of children receiving lessons in general education schools. According to teaching methodologies, inclusive education prevents any form of discrimination against students. Therefore, one of the key requirements for organizing inclusive education effectively is ensuring that it meets contemporary standards. The

general education system should encompass all children, provide equal opportunities for each, and support their individual achievements.

In an inclusive classroom environment, teaching assumes that every child has the right to participate in the educational process alongside others. Regardless of their abilities and needs, all children are considered full members of the class. The development of inclusive education in Azerbaijan began in 2004, with the initial experience involving the inclusion of children with special needs in selected general education schools and preschool institutions in Baku and Sumgait. These children were referred to as children with special needs.

Inclusive education begins with identifying the special needs of children. The use of appropriate teaching strategies helps guide children with special needs toward social, psychological, physical, and cognitive development, transforming them into integrated members of the classroom collective. In other words, the main goal of inclusive education is to develop the skills of children with special needs, facilitate their integration into the social environment, educate parents, and improve the methodological preparation of teachers working in this field. This process is called integration.

The model was first introduced in Scandinavia in 1970 and later applied and developed in the USA and Canada. At the same time, undertaking certain initiatives and implementing measures to further improve the development of inclusive education will be beneficial for the education of children with special needs.

Anahtar kelimeler: kapsayıcı, entegrasyon, sosyalleşme, çevre, mevzuat, sözleşme.

Özet. Günümüzde kapsayıcı eğitim, çocukların genel eğitim okullarında ders alması süreci anlamına gelir. Öğretim metodolojisine göre kapsayıcı eğitim, öğrencilere karşı her türlü ayrımcılığı önler. Bu nedenle, kapsayıcı eğitimin etkin bir şekilde organize edilmesinin temel gerekliliklerinden biri, onun çağdaş standartlara uygun olmasını sağlamaktır. Genel eğitim sistemi tüm çocukları kapsamalı, her birine eşit fırsatlar sunmalı ve bireysel başarılarını desteklemelidir.

Kapsayıcı sınıf ortamında eğitim, her çocuğun başkalarıyla birlikte eğitim sürecine katılma hakkına sahip olduğunu varsayar. Çocukların yetenek ve ihtiyaçlarından bağımsız olarak hepsi sınıfın tam üyeleri olarak kabul edilir. Azerbaycan'da kapsayıcı eğitimin gelişimi 2004 yılında başlamış olup, ilk uygulama, özel gereksinimli çocukların Bakü ve Sumgayıt şehirlerindeki seçilmiş genel eğitim okullarına ve okul öncesi kurumlara dahil edilmesini kapsamıştır. Dahil edilen bu çocuklar özel gereksinimli çocuklar olarak adlandırılmıştır.

Kapsayıcı eğitim, çocukların özel ihtiyaçlarının belirlenmesi ile başlar. Uygun öğretim stratejilerinin kullanılması, özel gereksinimli çocukları sosyal, psikolojik, fiziksel ve bilişsel gelişime yönlendirerek onları sınıf kolektifinin entegre bir üyesi haline getirir. Başka bir deyişle, kapsayıcı eğitimin temel amacı, özel gereksinimli çocukların becerilerini geliştirmek, sosyal çevreye entegrasyonlarını sağlamak, ebeveynleri bilinçlendirmek ve bu alanda çalışan öğretmenlerin metodolojik hazırlığını artırmaktır. Bu süreç entegrasyon olarak adlandırılır.

Söz konusu model ilk kez 1970 yılında İskandinavya'da uygulanmış, ardından ABD ve Kanada'da geliştirilmiştir. Bununla birlikte, kapsayıcı eğitimin gelişimini iyileştirmek için belirli çalışmaların yapılması ve önlemlerin uygulanması, özel gereksinimli çocukların eğitimi için faydalı olacaktır.

İnklüziv təhsil anlayışı xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumi təhsil mühitində sağlam uşaqlarla birlikdə təhsil almasını nəzərdə tutan yanaşmadır. Bu modelin əsas ideyası ondan ibarətdir ki, hər bir uşaq fərdi imkanlarından və ehtiyaclarından asılı olmayaraq, təhsil prosesində iştirak etmək hüququna malikdir və bu hüquq praktik olaraq təmin olunmalıdır.

“İnklüziv” termini mənaca “əhatə edən”, “daxil edən” kimi izah olunur və təhsil sahəsində istifadə edildikdə bütün uşaqların vahid sistem daxilində birləşdirilməsini ifadə edir. Bu yanaşma təhsilin yalnız müəyyən qruplar üçün deyil, cəmiyyətin bütün üzvləri üçün açıq olduğunu göstərir. Təhsildə inklüziv yanaşma məhz bu məqsədlərə xidmət edir.

Hazırkı dövrdə təhsil sisteminin əsas prioritetlərindən biri hər bir uşağın təhsilə çıxış imkanını genişləndirmək və bu prosesi bərabərlik prinsipi əsasında təşkil etməkdir. İnklüziv yanaşma bu məqsədlərin reallaşdırılması üçün effektiv mexanizm kimi çıxış edir və təhsil mühitində ayrı-seçkiliyin qarşısının alınmasına xidmət edir. Bu model çərçivəsində yalnız sağlamlıq imkanları məhdud olan uşaqlar deyil, eyni zamanda sosial baxımdan həssas hesab edilən digər qruplar da nəzərə alınır. Buraya ailə dəstəyindən məhrum olan, sosial risk şəraitində yaşayan, davranış çətinlikləri ilə üzləşən və müxtəlif səbəblərdən əlavə dəstəyə ehtiyac duyan uşaqlar daxildir. Beləliklə, inklüziv təhsil anlayışı daha geniş məzmun daşıyır və bütün uşaqlar üçün əlverişli mühitin yaradılmasını hədəfləyir.

İnklüziv təhsilin tətbiqi şagirdlərin yalnız akademik biliklər əldə etməsinə deyil, həm də sosial bacarıqlarının inkişafına, ünsiyyət qurmaq qabiliyyətinin formalaşmasına və cəmiyyətə uyğunlaşmasına müsbət təsir göstərir. Bu yanaşma hər bir uşağın potensialının üzə çıxarılmasına şərait yaradır və onların fərdi inkişaf trayektoriyasını dəstəkləyir.

Bu konsepsiyanın əsasını insan hüquqları təşkil edir. (İnsan Hüquqları haqqında Ümumi Bəyannamə 1948) Beynəlxalq səviyyədə qəbul olunmuş sənədlər və milli qanunvericilik aktları inklüziv təhsilin inkişafını hüquqi baxımdan təmin edir və dövlətlərin bu sahədə öhdəliklərini müəyyənləşdirir. Həmin sənədlərdə hər bir uşağın keyfiyyətli təhsil alma hüququnun təmin olunması xüsusi vurğulanır. BMT-nin İnsan Hüquqları Konvensiyasına görə, dövlətlər elə bir təhsil sistemi qurmalıdır ki, hər bir uşağın təhsilalma hüququ qorunsun və təmin edilsin. Buna görə də dövlətimizin təhsil siyasətinin vacib məqsədlərindən biri sağlamlıq imkanları məhdud olan (SİM) uşaqların cəmiyyətə inteqrasiya olunmasıdır (İnsan hüquqları haqqında Ümumi Bəyannamə, 1948).Azərbaycan Respublikası İnsan Hüquqları Konvensiyasını 1992-ci ildə imzalayıb və respublikamızda yaşayan hər bir uşağın təhsilalma hüququnu əhatə edir. 2001-ci ilin iyulunda Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanmış **“**Sağlamlıq imkanları məhdud şəxslərin təhsili haqqında” Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Bu məqsədlə respublikamızda İnklüziv Təhsil üzrə Dövlət Proqramı hazırlanmış və pilot layihələrinin tətbiqinə icazə verilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral, 2005-ci ildə verilmiş 20 №li qərarına əsasən "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud uşaqların təhsilinin" təşkili üzrə İnkişaf Proqramının təsdiq edilməsi inklüziv təhsil modelinin sınaqdan keçirilməsinə böyük imkanlar yaratdı.

İnklüziv təhsilin tədris məqsədinə iki istiqamətdə yanaşmaq olar:

1. Təlim prosesinin təşkili
2. Əlil uşaqların cəmiyyətə inteqrasiyası

Bu qrupdan olan uşaqların ümumtəhsil məktəblərinə uğurlu inteqrasiyası məktəb mühitində və bütövlükdə təhsil sistemində mühüm dəyişikliklər tələb edir. Həmin dəyişikliklər məktəblərdə xüsusi şəraitin yaradılmasını, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təlim proqramları və materiallarının işlənib hazırlanmasını, təlim metodları və strategiyalarının diferensiallaşdırılmasını tələb edir.

İnklüziv sinif mühitində təlim hər bir uşağın digərləri ilə birlikdə tədris prosesində iştirak etmə hüququnu nəzərdə tutur. Öz fərdi xüsusiyyətləri və bacarıqlarından asılı olmayaraq, uşaqların hər biri sinfin bərabərhüquqlu üzvü sayılırlar. Xüsusi qayğıya ehtiyacı olan uşaqların tipik yaşıdlarıyla birlikdə oxuması onları və valideynlərini sevindirir (Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya, 2006). Müəllimlər xüsusi qayğıya ehtiyacı olan uşaqlara aşağıdakı üsullarla dəstək olmalıdır:

- Xüsusi qayğıya ehtiyacı olan şagirdləri kollektivin bir üzvü kimi hiss etmələrinə şərait yaratmalı
- Ailələri əməkdaşlığa cəlb etməli
- Şagirdləri təhsilə həvəsləndirməli
- Şagirdlərin öz sevinc və kədərlərini bölüşmələrinə imkan vernəli
- Məqsədə çatmaq üçün inadkar və həvəskar olmalı
- Şagirdlərin işlərinin dəyərləndirilməsi
- Şagirdlərin inkişafını daim izləməli

Müəllimlərin təlim prosesində hər bir şagirdə fərdi yanaşmasını, onların müxtəlif fəal tədbirlərə, oyunlara cəlb olunmalının zəruri olduğu bildirilir. İnklüziv təhsilin bu konsepsiyası bütün uşaqlar dəyərli və cəmiyyətin fəal üzvləridir kimi əsas demokratik ideyalardan birini əks etdirir. Bu baxımdan qarşıda duran əsas vəzifələrdən biri bütün uşaqların fərdi xüsusiyyətlərindən asılı olmayaraq, eyni imkanlardan yararlana bilməsidir. Azərbaycanda da inklüziv təhsilin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş və bu sahədə mühüm nəticələr əldə olunmuşdur.

Qəbul olunmuş dövlət proqramları və normativ sənədlər inklüziv təhsilin tətbiqi üçün zəruri hüquqi və institusional baza yaratmışdır. Bu çərçivədə həyata keçirilən layihələr, xüsusilə pilot proqramlar, inklüziv modelin praktik müstəvidə sınaqdan keçirilməsinə və inkişaf etdirilməsinə imkan vermişdir (Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu, 2009).

İnklüziv təhsilin həyata keçirilməsi əsasən iki istiqamətdə aparılır. Bir tərəfdən, tədris prosesinin təşkili təkmilləşdirilir, dərs metodları şagirdlərin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılır. Digər tərəfdən isə xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial mühitə inteqrasiyası təmin edilir və onların cəmiyyətin fəal üzvlərinə çevrilməsi üçün şərait yaradılır.

Bu məqsədlərə nail olmaq üçün təhsil müəssisələrində kompleks dəyişikliklərin aparılması tələb olunur. Bu dəyişikliklərə fiziki mühitin uyğunlaşdırılması, xüsusi tədris materiallarının hazırlanması və fərdi yanaşmanın tətbiqi daxildir. Eyni zamanda müasir təlim texnologiyalarından istifadə edilməsi də vacib şərtlərdən biridir.

İnklüziv siniflərdə hər bir şagirdin təhsil prosesində iştirakı təmin edilir və onların bərabər hüquqlara malik olduğu qəbul olunur. Belə mühitdə uşaqlar bir-biri ilə qarşılıqlı əlaqədə olur, əməkdaşlıq etməyi öyrənir və sosial münasibətlərini inkişaf etdirirlər.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların digər şagirdlərlə birlikdə təhsil alması onların özünə inamını artırır və cəmiyyətə uyğunlaşmasını asanlaşdırır. Bu proses valideynlər üçün də müsbət təsir yaradır, çünki onlar övladlarının inkişafını real mühitdə müşahidə etmək imkanı əldə edirlər. Müəllimlər inklüziv təhsil mühitinin formalaşdırılmasında əsas rol oynayırlar. Onlar şagirdlərin fərdi ehtiyaclarını nəzərə almalı, onların təhsilə marağını artırmalı və sinifdə müsbət psixoloji iqlim yaratmalıdırlar. Bununla yanaşı, müəllimlər valideynlərlə əməkdaşlıq etməli və şagirdlərin inkişafını davamlı şəkildə izləməlidirlər (İnklüziv təhsil: Valideynlər üçün bələdçi, 2020).

Müəllimlərin digər vacib vəzifəsi şagirdlərin kollektivə inteqrasiyasını dəstəkləmək, onların sosial bacarıqlarını inkişaf etdirmək və müxtəlif fəaliyyətlərə cəlb olunmasını təmin etməkdir. Bu isə müəllimdən yüksək peşəkarlıq, səbr və məsuliyyət tələb edir.

İnklüziv təhsilin effektiv şəkildə həyata keçirilməsi üçün bir sıra mühüm addımların atılması zəruridir. Bunlara qanunvericilik bazasının təkmilləşdirilməsi, pedaqoji kadrların hazırlanması və beynəlxalq təcrübənin tətbiqi daxildir.

Bundan əlavə, təhsil müəssisələrində inklüziv mühitin yaradılması, uyğun infrastrukturun qurulması və fərqli ehtiyaclara cavab verən proqramların hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Cəmiyyətin maarifləndirilməsi də bu prosesin ayrılmaz hissəsidir. İnsanlarda inklüzivlik anlayışının formalaşdırılması

və sosial həssas qruplara qarşı müsbət münasibətin təşviq olunması inklüziv təhsilin inkişafına müsbət təsir göstərir.

Eyni zamanda ictimai infrastrukturun əlçatan olması, nəqliyyat və digər xidmətlərin uyğunlaşdırılması xüsusi qayğıya ehtiyacı olan şəxslərin gündəlik həyatını asanlaşdırır və onların cəmiyyətə daha fəal şəkildə qoşulmasına imkan yaradır (Şərəfxanova et al., 2010).

Azərbaycanda bu sahədə həyata keçirilən təşəbbüslər və yaradılan mərkəzlər inklüziv təhsilin inkişafına mühüm töhfə verir. Bu layihələr vasitəsilə xüsusi qayğıya ehtiyacı olan şəxslərin bacarıqları inkişaf etdirilir, onların yaradıcılıq potensialı üzə çıxarılır və cəmiyyət həyatında aktiv iştirakları təmin olunur. Belə tədbirlərdən danışarkən ölkəmizdə yeni fəaliyyətə başlamış və həssas qrupdan olan şəxslər üçün 2021-ci ildə istifadəyə verilmiş "Dost Inklüziv və Yaradiciliq Inkişaf Mərkəzi"ni göstərə bilərik. Mərkəzdə həssas kateqoriyadan olan şəxslərin müxtəlif növ təlimlərə cəlb olunmaları nəzərdə tutulmuşdur. Məqsəd həmin şəxslərin fərdi bacarıqlarını, yaradıcılıq potensialını üzə çıxarmaq, onların cəmiyyətin ictimai həyatında fəal iştirakçı olmalarını təmin etmək və inklüzivliyi ölkə üzrə inkişaf etdirməkdən ibarətdir.

Ədəbiyyat:

1. İnsan hüquqları haqqında Ümumi Bəyannamə. (1948).
2. BMT-nin Uşaq hüquqları haqqında Konvensiyası. (1989).
3. BMT-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası. (2006).
4. Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. (2009). Bakı: Qanun.
5. İnklüziv təhsil: Valideynlər üçün bələdçi. (2020). Bakı: RİİB.
6. Şərəfxanova, L., Məmmədova, S., & Mikayılova, Ü. (2010). İnklüziv təhsil. Bakı.

FİZİKİ MƏHDUDİYYƏTLİ UŞAQLARIN REABİLİTASİYASINDA ART-TERAPİYA VƏ FİTOTERAPİYA ELEMENTLƏRİNİN İNTEQRASİYASI: TƏBİƏT MOTİVLİ RƏSM TERAPİYASININ PSİXOLOJİ TƏSİRLƏRİ

Nadir Xəlil oğlu Rəsulov
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
resulov.nadir62@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0002-1660-2260
Günay Mübariz qızı Nəsibova
Biologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Aqrar Universiteti
nasibova_gunay@mail.ru
ORCİD ID: https://orcid.org/0000-0001-6228-4852

Açar sözlər: art-terapiya, fitoterapiya, fiziki məhdudiyyətli uşaqlar, sosial-psixoloji adaptasiya reabilitasiya metodları, psixopedaqoji.

Xülasə. Müasir reabilitasiya yanaşmaları fiziki məhdudiyyətli uşaqların yalnız somatik vəziyyətinin deyil, həm də psixoloji rifahının kompleks şəkildə dəstəklənməsini tələb edir. Bu baxımdan qeyri-farmakoloji müdaxilələr arasında art-terapiya və fitoterapiya elementlərinin inteqrasiyasına əsaslanan yanaşma xüsusi aktuallıq qazanır. Təqdim olunan tədqiqatın məqsədi

təbiət motivli rəsm terapiyasının fiziki məhdudiyyətli uşaqların emosional vəziyyətinə, özünüifadə bacarıqlarına və sosial-psixoloji adaptasiyasına təsirini qiymətləndirməkdir.

Tədqiqat çərçivəsində art-terapiya vasitəsilə uşaqların daxili emosional təcrübələrinin vizual formada ifadə olunması təmin edilir. Xüsusilə bitkilərin-yarpaq, çiçək, vegetativ strukturlar və təbii landşaft elementlərinin təsviri estetik qavrayışı gücləndirərək psixoloji rahatlaşdırıcı təsir yaradır. Bu proses həm yaradıcı potensialın aktivləşdirilməsinə, həm də kiçik motorik bacarıqların inkişafına şərait yaradır.

Eyni zamanda fitoterapiya elementləri - bioloji aktiv maddələrə (boyaq bitkiləri, efir yağları, fitonsidlər) malik bitkilərlə təmas, onların görmə və toxunma yolu ilə qavranılması uşaqlarda stressin azalmasına və emosional sabitliyin formalaşmasına müsbət təsir göstərir. Məsələn: Boyaq bitkilərindən əldə olunan təbii piqmentlərin tətbiqi şagirdlərdə həm ekoloji şüurun, həm də yaradıcı və emosional ifadə bacarıqlarının inkişafına xidmət edən effektiv pedaqoji vasitə kimi çıxış edir. Efir yağları və fitonsidlərə malik bitkilərin tədris və reabilitasiya prosesində istifadəsi şagirdlərdə emosional sabitliyi artırır, stressi azaldır və sağlam mühitin yaranmasına kömək edir.

Bundan əlavə, təbiət əsaslı yaradıcı fəaliyyətlərin müntəzəm tətbiqi uşaqlarda uzunmüddətli emosional dayanıqlığın formalaşmasına və adaptiv davranış strategiyalarının inkişafına şərait yaradır.

Beləliklə, art-terapiya və fitoterapiya elementlərinin inteqrasiyasına əsaslanan bu yanaşma inklüziv təhsil və reabilitasiya mühitində effektiv və perspektivli psixopedaqoji model kimi qiymətləndirilə bilər.

Keywords: art therapy, phytotherapy, children with physical disabilities, psychosocial adaptation rehabilitation methods, psychopedagogical.

Summary. Modern rehabilitation approaches require the comprehensive support of not only the somatic condition but also the psychological well-being of children with physical disabilities. In this regard, an approach based on the integration of art therapy and phytotherapy elements gains special relevance among non-pharmacological interventions. The purpose of the present study is to evaluate the effect of nature-motivated art therapy on the emotional state, self-expression skills, and psychosocial adaptation of children with physical disabilities.

Within the framework of the study, the visual expression of children's internal emotional experiences is facilitated through art therapy. In particular, the depiction of plants-leaves, flowers, vegetative structures, and natural landscape elements-creates a psychologically relaxing effect by enhancing aesthetic perception. This process facilitates both the activation of creative potential and the development of fine motor skills.

At the same time, elements of phytotherapy-contact with plants containing biologically active substances (dyes, essential oils, phytoncides), and their perception through sight and touch-positively influence the reduction of stress and the formation of emotional stability in children. For example, the application of natural pigments obtained from dye plants serves as an effective pedagogical tool that promotes both ecological awareness and creative and emotional expression skills in students. The use of plants with essential oils and phytoncides in the teaching and rehabilitation process enhances students' emotional stability, reduces stress, and helps create a healthy environment.

Furthermore, the regular implementation of nature-based creative activities facilitates the development of long-term emotional resilience and adaptive behavioral strategies in children. Thus, an approach based on the integration of art therapy and phytotherapy elements can be

considered an effective and promising psychopedagogical model in inclusive education and rehabilitation settings.

Anahtar kelimeler: sanat terapisi, fitoterapi, fiziksel engelli çocuklar, psikososyal uyum, rehabilitasyon yöntemleri, psikopedagojik.

Özet. Modern rehabilitasyon yaklaşımları, fiziksel engelli çocukların sadece bedensel durumlarının değil, psikolojik refahlarının da kapsamlı bir şekilde desteklenmesini gerektirmektedir. Bu bağlamda, farmakolojik olmayan müdahaleler arasında sanat terapisi ve fitoterapi unsurlarının entegrasyonuna dayalı bir yaklaşım özel bir önem kazanmaktadır. Bu çalışmanın amacı, doğadan ilham alan sanat terapisinin fiziksel engelli çocukların duygusal durumu, kendini ifade etme becerileri ve psikososyal adaptasyonu üzerindeki etkisini değerlendirmektir.

Çalışma çerçevesinde, çocukların içsel duygusal deneyimlerinin görsel ifadesi sanat terapisi yoluyla kolaylaştırılmaktadır. Özellikle bitkilerin (yapraklar, çiçekler, bitkisel yapılar ve doğal peyzaj öğeleri) tasviri, estetik algıyı güçlendirerek psikolojik olarak rahatlatıcı bir etki yaratmaktadır. Bu süreç, hem yaratıcı potansiyelin harekete geçirilmesini hem de ince motor becerilerin gelişimini kolaylaştırmaktadır.

Aynı zamanda, fitoterapinin unsurları – biyolojik olarak aktif maddeler (boyalar, uçucu yağlar, fitokitler) içeren bitkilerle temas ve bunların görme ve dokunma yoluyla algılanması – çocuklarda stresi azaltma ve duygusal istikrarı teşvik etme üzerinde olumlu bir etkiye sahiptir. Örneğin, boya bitkilerinden elde edilen doğal pigmentlerin kullanımı, öğrencilerde hem ekolojik farkındalığı hem de yaratıcı ve duygusal ifade becerilerini geliştiren etkili bir pedagojik araç işlevi görür. Öğretim ve rehabilitasyon sürecinde uçucu yağlar ve fitokitler içeren bitkilerin kullanımı, duygusal dengeyi artırır, stresi azaltır ve öğrenciler için sağlıklı bir ortam yaratılmasına yardımcı olur.

Buna ek olarak, doğa temelli yaratıcı etkinliklerin düzenli uygulanması, çocuklarda uzun vadeli duygusal dayanıklılığın gelişmesine ve uyum sağlayıcı davranış stratejilerinin oluşmasına katkı sağlar.

Bu nedenle, sanat terapisi ve fitoterapi unsurlarının entegrasyonuna dayanan bu yaklaşım, kapsayıcı eğitim ve rehabilitasyon ortamlarında etkili ve umut vadeden bir psikopedagojik model olarak değerlendirilebilir.

Fiziki məhdudiyyətli uşaqların reabilitasiyasında psixoloji dəstək və sosial adaptasiya mühüm yer tutur (Ginsburg, 2007). Bu baxımdan məktəbdə keçirilən təsviri incəsənət dərsləri yalnız estetik tərbiyə vasitəsi deyil, həm də güclü terapevtik təsirə malikdir (Malchiodi, 2012; Rubin, 2016). Xüsusilə təbiət və bitki motivlərinə əsaslanan yaradıcı fəaliyyətlər uşaqların emosional vəziyyətinə müsbət təsir göstərir və onların daxili dünyasının ifadəsinə imkan yaradır (Kaplan & Kaplan, 1989; Louv, 2008). Bitkilərlə birbaşa təmas isə bu təsiri daha da gücləndirir (Ulrich, 1991; Field, 2010).

Metodoloji baxımdan tədqiqat müşahidə, pedaqoji eksperiment və müqayisəli təhlil üsullarına əsaslanır. Təcrübə zamanı təsviri incəsənət dərslərində şagirdlərə bitkilərlə bağlı praktik fəaliyyətlər təqdim olunmuşdur:

- canlı bitkilərin müşahidəsi və təsviri,
- yarpaq və çiçəklərlə kompozisiyaların qurulması,
- təbii boyaq maddələrindən istifadə,
- aromatik bitkilərlə hissi təmas.

Bu fəaliyyətlər art-terapiyanın praktik tətbiqləri ilə uzlaşaraq uşaqlarda emosional ifadəni stimullaşdırır və psixoloji rahatlaşmanı təmin edir (American Art Therapy Association, 2017; Malchiodi, 2012). Eyni zamanda fitoterapiya komponentləri – bitkilərlə vizual və taktil təmas, təbii piqmentlər və aromatik maddələr – sensor inteqrasiyanı gücləndirərək stress səviyyəsinin azalmasına müsbət təsir göstərir (Məmmədov, 2010; Field, 2010).

Uşaqların emosional vəziyyəti, yaradıcılıq aktivliyi və sosial davranışları dərs öncəsi və sonrası müqayisə edilmişdir. Təbiət motivli rəsm fəaliyyətləri ilə müşayiət olunan fitoterapevtik elementlərin tətbiqi nəticəsində uşaqlarda emosional gərginliyin azalması, özünəinamın yüksəlməsi və sosial ünsiyyət bacarıqlarının inkişafı qeydə alınmışdır (Field, 2010; Ginsburg, 2007). Xüsusilə təbiətə yönəlik yaradıcı fəaliyyətlərin uşaqların emosional tənzimləmə qabiliyyətlərinə müsbət təsiri diqqətəlayiqdir (Louv, 2008).

Tədqiqat nəticələri göstərir ki, təsviri incəsənət dərslərində bitkilərlə işləmək uşaqlarda daha yüksək maraq və motivasiya yaradır. Bitkilərin forması, rəngi və teksturası ilə birbaşa təmas sensor inkişafı stimullaşdırır və emosional gərginliyi azaldır (Ulrich, 1991).

Rəsm fəaliyyəti uşaqlara öz hisslərini vizual şəkildə ifadə etmək imkanı verir, bu isə psixoloji rahatlaşmanı təmin edir (Rubin, 2016). Eyni zamanda təbii materiallardan istifadə (yarpaq, çiçək, bitki boyaları) uşaqlarda təbiətə bağlılıq hissini gücləndirir və müsbət emosional fon yaradır (Qəhrəmanova & İbadullayeva, 2017).

Nəticə etibarilə, təsviri incəsənət dərslərində art-terapiya və fitoterapiya elementlərinin inteqrasiyası fiziki məhdudiyyətli uşaqların reabilitasiya prosesində effektiv, təhlükəsiz və tətbiq oluna bilən yanaşma kimi çıxış edir (Malchiodi, 2012; Məmmədov, 2010). Bitkilərlə bilavasitə təmas və təbiət motivli yaradıcı fəaliyyətlər uşaqlarda emosional sabitliyi artırır, stressi azaldır və sosial adaptasiyanı gücləndirir (Field, 2010; Louv, 2008). Bu yanaşma həm pedaqoji praktikada, həm də psixoloji dəstək proqramlarında innovativ metod kimi geniş tətbiq perspektivinə malikdir.

Ədəbiyyat:

1. American Art Therapy Association. (2017). Art therapy and healthcare. American Art Therapy Association.

2. Qəhrəmanova, M. C., & İbadullayeva, S. C. (2017). Bitkilərin sirli dünyası. Bakı: Azərbaycan nəşriyyatı.

3. Məmmədov C. M. (2010). Fitoterapiya və xalq təbabəti. Bakı: Nurlan nəşriyyatı.

4. Malchiodi, C. A. (2012). Handbook of art therapy (2nd ed.). Guilford Press.

5. Rubin, J. A. (2016). Approaches to art therapy: Theory and technique (3rd ed.). Routledge.

6. Kaplan, R., & Kaplan, S. (1989). The experience of nature: A psychological perspective. Cambridge University Press.

7. Ulrich, R. S. (1991). Effects of interior design on wellness: Theory and recent scientific research. Journal of Health Care Interior Design, 3(1), 97–109.

8. Field, T. (2010). Touch for socioemotional and physical well-being: A review. Developmental Review, 30(4), 367–383. https://doi.org/10.1016/j.dr.2011.01.001

9. Ginsburg, K. R. (2007). The importance of play in promoting healthy child development. Pediatrics, 119(1), 182–191. https://doi.org/10.1542/peds.2006-2697

10. Louv, R. (2008). Last child in the woods: Saving our children from nature-deficit disorder. Algonquin Books.

İNKLÜZİV TƏHSİL VƏ ŞAGİRD İNKİŞAFI

Nurlana Zakir qızı Mustafayeva
Azərbaycan Respublikası
Mingəçevir Turizm Kolleci
nurlana.mustafayeva2023@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0009-9393-6812

Açar sözlər: inklüziv təhsil, xüsusi ehtiyaclar, təhsil mühiti, sağlamlığı məhdud olan uşaqlar,müəllim dəstəyi, bərabər imkamlar, sosial inkişaf.

Xülasə. Bu məqalədə inklüziv təhsilin mahiyyəti, əhəmiyyəti və tətbiqi xüsusiyyətləri geniş şəkildə izah olunur. İnklüziv təhsil bütün uşaqların, o cümlədən xüsusi təhsil ehtiyacları olan şagirdlərin eyni mühitdə bərabər imkanlarla təhsil almasını təmin edən müasir yanaşmadır. Bu yanaşmada vurğulanır ki, inklüzivlik yalnız fiziki olaraq eyni sinifdə olmaq deyil, həm də şagirdlərin sosial, emosional və akademik inkişafını dəstəkləyən mühitin yaradılmasını əhatə edir. Məqalədə müəllimlərin rolu xüsusi vurğulanır və onların fərdi yanaşma tətbiq etməklə hər bir şagirdin potensialını üzə çıxarmasının vacibliyi qeyd olunur.

Eyni zamanda inklüziv təhsilin cəmiyyətə təsiri açıqlanır və bu modelin uşaqlarda empatiya, tolerantlıq və qarşılıqlı hörmət kimi keyfiyyətlərin formalaşmasına kömək etdiyi bildirilir. Məqalədə inklüziv təhsilin tətbiqində yaranan sistem, ailə və fərdi problemlər də təhlil olunur. Ənənəvi və inklüziv yanaşmalar müqayisə edilərək onların fərqli cəhətləri göstərilir.

Bundan əlavə, Reggio Emilia yanaşmasının inklüziv təhsildə rolu izah edilir və bu fəlsəfənin uşaqların yaradıcılıq qabiliyyətinə, sosial bacarıqlarına və fərdi inkişafına müsbət təsiri vurğulanır. Nəticə olaraq inklüziv təhsilin həm fərdi, həm də ictimai inkişaf baxımından vacib olduğu qeyd edilir. Bu yanaşmanın geniş tətbiqi təhsil keyfiyyətinin yüksəlməsinə şərait yaradır. Gələcək nəsillərin daha anlayışlı və sosial baxımdan aktiv formalaşmasına müsbət təsir göstərir. Bu isə cəmiyyətin davamlı inkişafına töhfə verir.

Keywords: inclusive education, special needs, educational environment, children with disabilities, teacher support, equal opportunities, social development.

Summary. This article explains in detail the essence, importance, and implementation features of inclusive education. Inclusive education is presented as a modern approach that ensures all children, including those with special educational needs, receive education in the same environment with equal opportunities. It is emphasized that inclusion is not only about being physically present in the same classroom, but also about creating an environment that supports students’ social, emotional, and academic development. The role of teachers is highlighted as essential, as they apply individualized approaches to help reveal each student’s potential.

At the same time, the impact of inclusive education on society is discussed, noting that this model contributes to the development of empathy, tolerance, and mutual respect among children. The article also analyzes systemic, family-related, and individual challenges that may arise in the implementation of inclusive education. Traditional and inclusive approaches are compared, and their key differences are identified.

In addition, the role of the Reggio Emilia approach in inclusive education is explained, emphasizing its positive impact on children’s creativity, social skills, and individual development. In conclusion, inclusive education is shown to be important for both individual and societal development, contributing to improved educational quality and the formation of a more

understanding and socially active future generation, as well as supporting sustainable social development.

Anahtar kelimeler: kapsayıcı eğitim, özel gereksinimler, eğitim ortamı, engelli çocuklar, öğretmen desteği, eşit fırsatlar, sosyal gelişim.

Özet. Bu makalede kapsayıcı eğitimin özü, önemi ve uygulanma özellikleri ayrıntılı bir şekilde ele alınmaktadır. Kapsayıcı eğitim, özel eğitim gereksinimi olan öğrenciler de dahil olmak üzere tüm çocukların aynı ortamda eşit fırsatlarla eğitim almasını sağlayan modern bir yaklaşım olarak tanımlanmaktadır. Bu yaklaşımda kapsayıcılığın yalnızca aynı sınıfta fiziksel olarak bulunmak anlamına gelmediği, aynı zamanda öğrencilerin sosyal, duygusal ve akademik gelişimini destekleyen bir ortamın oluşturulmasını kapsadığı vurgulanmaktadır. Makalede öğretmenlerin rolü özellikle ön plana çıkarılmakta ve onların bireysel yaklaşımlar uygulayarak her öğrencinin potansiyelini ortaya çıkarmalarının önemi belirtilmektedir.

Aynı zamanda kapsayıcı eğitimin topluma etkisi açıklanmakta ve bu modelin çocuklarda empati, hoşgörü ve karşılıklı saygı gibi değerlerin gelişmesine katkı sağladığı ifade edilmektedir. Makalede kapsayıcı eğitimin uygulanmasında ortaya çıkan sistemsel, ailevi ve bireysel sorunlar da analiz edilmektedir. Geleneksel ve kapsayıcı yaklaşımlar karşılaştırılarak aralarındaki temel farklar ortaya konulmaktadır.

Bunun yanı sıra Reggio Emilia yaklaşımının kapsayıcı eğitimdeki rolü açıklanmakta ve bu felsefenin çocukların yaratıcılığına, sosyal becerilerine ve bireysel gelişimine olumlu etkileri vurgulanmaktadır. Sonuç olarak kapsayıcı eğitimin hem bireysel hem de toplumsal gelişim açısından önemli olduğu belirtilmekte, eğitim kalitesinin artmasına katkı sağladığı ve daha anlayışlı, sosyal açıdan aktif bir neslin yetişmesine destek olduğu ifade edilmektedir.

İnklüziv təhsil bütün uşaqların, o cümlədən xüsusi təhsil ehtiyacları olan şagirdlərin də eyni mühitdə təhsil almasını təmin edən yanaşmadır. Bu modelin əsas məqsədi hər bir uşağın fərqli xüsusiyyətlərinə baxmayaraq bərabər imkanlara sahib olmasını təmin etməkdir. İnklüziv təhsil yalnız fiziki olaraq eyni sinifdə olmaq demək deyil. Bu, həm də şagirdlərin sosial, emosional və akademik inkişafını dəstəkləyən mühitin yaradılmasıdır. Müəllimlər bu prosesdə xüsusi rol oynayır. Onlar fərdi yanaşma tətbiq edərək hər bir şagirdin potensialını üzə çıxarmağa çalışırlar. Bu təhsil modeli cəmiyyət üçün də çox vacibdir. Çünki uşaqlar kiçik yaşlardan fərqlilikləri qəbul etməyi, bir-birinə hörmətlə yanaşmağı öyrənirlər. Bu isə gələcəkdə daha tolerant və anlayışlı cəmiyyətin formalaşmasına səbəb olur.İnklüziv təhsilin üstünlükləri çoxşaxəlidir. Bu model həm xüsusi ehtiyacı olan uşaqların sosiallaşmasına kömək edir, həm də digər şagirdlərdə empatiya, anlayış və tolerantlıq kimi keyfiyyətlərin formalaşmasına şərait yaradır. Beləliklə, inklüziv təhsil yalnız fərdi inkişafı deyil, həm də sağlam sosial münasibətlərin qurulmasını təmin edir.Xüsusi şərait dedikdə, sağlamlıq imkanları məhdud şəxslərin pedaqoji-psixoloji, tibbi, sosial və digər xidmətləri alması üçün yaradılmış şərait başa düşülür. Xüsusi təhsilin məqsədi sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla onların cəmiyyətə uyğunlaşmasını, o cümlədən özünəxidmət vərdişlərinin yaradılmasını, əmək fəaliyyətinə və ailə həyatına hazırlanmasını təmin etməkdən ibarətdir.(İbrahimov F,Hüseynzadə R, 2012)

Bu gün təhsil sahəsində ən çox diqqət yetirilən məsələlərdən biri bütün uşaqlar üçün bərabər imkanların yaradılmasıdır. Hər bir uşaq fərqlidir və bu fərqliliklər onların təhsil alma hüququna mane olmamalıdır. Məhz bu səbəbdən inklüziv təhsil anlayışı getdikcə daha çox ön plana çıxır.İnklüziv təhsil o deməkdir ki, bütün uşaqlar — istər xüsusi ehtiyacı olan, istərsə də olmayan — eyni sinifdə birlikdə təhsil alırlar. Bu zaman əsas məqsəd yalnız onları bir yerə toplamaq deyil, hər birinin özünü rahat və dəyərli hiss etdiyi bir mühit yaratmaqdır. Belə bir mühitdə uşaqlar özlərini kənarda qalmış kimi hiss etmirlər və daha aktiv olurlar.Bu prosesdə müəllimin rolu çox böyükdür.

Müəllim dərsi elə təşkil etməlidir ki, hər bir şagird onu anlaya bilsin. Bəzən eyni mövzunu fərqli üsullarla izah etmək lazım gəlir. Bu, bir az çətin görünsə də, nəticədə bütün uşaqların dərsdə iştirakını təmin edir. Müəllim həm də uşaqlar arasında hörmət və anlayış yaratmağa çalışmalıdır.İnklüziv təhsil uşaqlara yalnız dərs öyrətmir, eyni zamanda onları həyata hazırlayır. Onlar bir-birinin fərqli olduğunu qəbul etməyi, kömək etməyi və birlikdə işləməyi öyrənirlər.Bu isə gələcəkdə daha anlayışlı və mehriban bir cəmiyyətin formalaşmasına kömək edir.Əlbəttə, bu sistemin tətbiqində bəzi çətinliklər də olur. Məsələn, bəzən məktəblərdə lazımi şərait olmur və ya müəllimlər bu sahədə kifayət qədər hazırlıqlı olmurlar. Amma zamanla bu problemləri həll etmək mümkündür. Əsas odur ki, bu istiqamətdə istək və dəstək olsun.

İnklüziv təhsil anlayışı ənənəvi baxışlara cavab olaraq yaranmışdır. Bu baxışlara əsasən bəzi uşaqlar məhdud imkanlarına, təhsil prosesində qarşılaşdıqları çətinliklərə, ailə şəraitindəki həssas vəziyyətlərinə və ya digər səbəblərə görə ümumtəhsil məktəblərindən kənarlaşdırılır və internat tipli müəssisələrə yerləşdirilirdilər.Beynəlxalq səviyyədə aparılan tədqiqatlar göstərir ki, bu cür müəssisələrə yerləşdirilən uşaqların inkişafında mənfi təsirlər müşahidə olunur. Bu baxımdan demək olar ki, ən həssas uşaqlar kateqoriyasını məhdud imkanları olan uşaqlar təşkil edir və onlar müxtəlif ayrı-seçkilik formalarına daha çox məruz qalırlar. Bu fenomenin təhlili bir neçə səbəbi müəyyən etməyə imkan verir ki, onları şərti olaraq üç kateqoriyaya bölmək olar:

1. Sistem səbəbləri:
   - ✓ Mövcud sistemin (və ya sistemlərin) uşaqların və onların ailələrinin ehtiyaclarına lazımi şəkildə cavab verə bilməməsi;
   - ✓ İnklüziv təhsil xidmətlərinin və cəmiyyətlə əlaqənin olmaması;
   - ✓ İnklüziv təcrübə və nümunələrin kifayət qədər olmaması;
   - ✓ Ailəyə dəstək xidmətlərinin yetərli səviyyədə olmaması.
2. Ailə ilə bağlı səbəblər:
   - ✓ Valideynlərin bilik və bacarıqlarının kifayət qədər olmaması;
   - ✓ Ailələrdə yoxsulluq səviyyəsinin yüksək olması.
3. Uşaqdan qaynaqlanan səbəblər:
   - ✓ Uşağın inkişafında problemlərin olması;
   - ✓ Motivasiyanın zəif olması və məktəbdə uğursuzluqların yaşanması.

Məktəblər bütün şagirdlər üçün keyfiyyətli təhsili təmin etməlidirlər. Bu isə uyğun tədris proqramlarının hazırlanması, təlim prosesinin düzgün təşkili, effektiv tədris strategiyalarının tətbiqi, resurslardan düzgün istifadə və cəmiyyətlə əməkdaşlıq vasitəsilə həyata keçirilir. Hər bir məktəbdə şagirdlərin xüsusi ehtiyaclarına uyğun dəstək xidmətləri mövcud olmalıdır. İnklüzivlik əsas təhsil sisteminə əlavə bir element kimi qəbul edilməməlidir. Əksinə, o, məktəbin missiyasının, fəlsəfəsinin, dəyərlərinin və gündəlik fəaliyyətinin ayrılmaz bir hissəsinə çevrilməlidir. Təhsil sistemi iki əsas yanaşma ilə həyata keçirilir: ənənəvi və inklüziv yanaşma. Onların əsas fərqləri aşağıdakı kimidir:

Ənənəvi yanaşma :
- ✓ Əsas prioritet "yaxşı" şagirdlərdir
- ✓ Ən yaxşı müəllimlər yalnız ən yaxşı şagirdlərlə yaxşı nəticə göstərənlərdir
- ✓ Təhsil müəssisələri yalnız ən yaxşı şagirdlərin inkişafına görə qiymətləndirilir
- ✓ Valideynlər adətən yalnız uşağın problemləri və uğursuzluqları barədə məlumatlandırılır
- ✓ Təhsil ümumilikdə məktəbin məsuliyyətidir

İnklüziv yanaşma :

- ✓ Bütün şagirdlər eyni dərəcədə vacib hesab olunur
- ✓ Ən yaxşı müəllimlərbütün şagirdlərin inkişafına kömək edənlərdir
- ✓ Təhsil müəssisələri bütün şagirdlərin inkişafına görə qiymətləndirilir
- ✓ Valideynlər təhsil prosesində birbaşa iştirak edirlər
- ✓ Təhsil hər kəsin məsuliyyətidir

Təlim metodikasına uyğun olaraq inklüziv təhsil uşaqlar arasında hər cür ayrı-seçkiliyin qarşısını alır və müxtəlif nevroloji və ya psixi xüsusiyyətləri olan uşaqlara da keyfiyyətli təhsil alaraq uğur əldə etmək imkanı yaradır. Xüsusi dəstəyə ehtiyacı olan uşaqların həm təhsil səviyyəsinin yüksəlməsi, həm də sosial mühitə daha tez uyğunlaşması üçün onların digər uşaqlarla birlikdə təhsil alması daha səmərəli hesab edilir. Tədris proqramlarının uğurla mənimsənilməsinə maneçilik olmadıqda müxtəlif fiziki çatışmazlıqları və (və ya) psixi ləngiməsi olanlar üçün təhsil eyni xüsusi təhsil müəssisəsində həyata keçirilə bilər. Xüsusi təhsil müəssisələri haqqında əsasnamə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. (İbrahimov F, Hüseynzadə R, 2012)

İnklüziv təhsildə tövsiyyə etdiyim bir metod Reccio Emiliya fəlsəfəsidir. Bu fəlsəfənin prinsiplərinə əsasən uşaqların özlərini evdəki kimi hiss etmələri üçün rahat təhsil mühiti qurulmalıd. Bu təlim bütün dünyada Reccio Emiliya pedaqogikası kimi tanındı. Mütəxəssislərə görə, Reccio Emiliya təliminin uğurlu olmasının sirri onun fəlsəfəsindədir. Reggio Emilia yanaşmasına görə:

- ✓ Hər bir uşaq unikaldır və dəyərlidir
- ✓ Uşaq passiv öyrənən deyil, aktiv iştirakçıdır
- ✓ Uşağın özünü ifadə etməsi üçün "100 dil" (yəni müxtəlif ifadə yolları: rəsm, oyun, danışıq və s.) mövcuddur

Bu fəlsəfə inklüziv təhsil üçün çox uyğun hesab olunur, çünki:

1.Fərqliliklərin qəbul edilməsi

- ✓ Hər bir uşaq (o cümlədən xüsusi qayğıya ehtiyacı olanlar) sinfin ayrılmaz hissəsi kimi qəbul olunur.

2. Fərdi yanaşma

- ✓ Müəllim uşağın qabiliyyətinə uyğun təlim mühiti yaradır.

3. Sosial inteqrasiya

- ✓ Uşaqlar birlikdə işləyir, bir-birindən öyrənir və empati qurur.

4. Müəllimin rolu

- ✓ Müəllim "bilgi verən" yox, bələdçi və müşahidəçi rolunu oynayır.

Reggio Emilia yanaşmasında mühitə "üçüncü müəllim" deyilir. Yəni: sinif otağı yaradıcı və açıq olur, materiallar uşaqların sərbəst istifadəsinə verilir, vizual və estetik mühit önəmlidir. Bu fəlsəfəsinin prinsiplərinə əsasən uşaqların özlərini evdəki kimi hiss etmələri üçün rahat təhsil mühiti qurulur. Bu baxımdan qrup otaqlarının da estetik baxımdan cəlbediciliyinə xüsusi diqqət yetirilir. Reccio Emiliya təliminin əsas xüsusiyyətlərindən biri əməkdaşlıqdır. Valideynlər mütəmadi olaraq təlim prosesinə dəvət olunurlar. Pedaqoji kollektiv məşğələlərdə fəal iştirak etmələri üçün onlarda həvəs yaradır. Digər vacib xüsusiyyətlərdən biri isə birgə qurma üsulundan geniş şəkildə istifadə olunmasıdır. O, uşağın digər uşaqlarla işləyərkən öyrənmə qabiliyyətini artırmaq üçün tətbiq edilir. Birgə qurma üsulu tərbiyəçi-müəllim üçün də səmərəlidir, bu zaman uşaqlarla müəllim arasında fəal dialoq və əməkdaşlıq üçün imkan yaranır. Uşaqların inkişaf etməsi Reccio Emiliya təliminin başlıca motividir. Yekun olaraq, bunu qeyd etmək çox vacibdir ki, burda əsas məqsəd uşaqların uşaqlığını dolu-dolu yaşayaraq öyrənmələri üçün şərait yaratmaqdır. Reccio Emiliya fəlsəfəsinə görə bu, asan deyil, lakin uşaqlar üçün ən səmərəli və təbii inkişaf yoludur.

Ədəbiyyat:

1. Hüseynzadə, R., Əzizova, Z., Əliyev, S., & Verdiyeva, Ü. (2021). Pedaqogika. Bakı: Mütərcim.
2. İbrahimov, F., & Hüseynzadə, R. (2012). Pedaqogika (Cild 1). Bakı.
3. Müəllimlər üçün metodik vəsait. (2021). Məktəbəhazırlıq qruplarında inklüziv təlimin təşkili. Bakı.
4. İnklüziv təhsil: Valideynlər üçün bələdçi. (2020). Bakı.

İNKLÜZİV TƏHSİLDƏ RƏQƏMSAL TƏHSİL MÜHİTİ: TENDENSİYALAR VƏ İNKİŞAF

Tahirə Əliş qızı Qasımova
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
taira8474@gmail.com
ORCİD ID: 0000-0002-5934-6431

Açar sözlər: inklüziv təhsil, rəqəmsal texnologiyalar, təhsil, təhsil mühiti, xüsusi ehtiyaclar.

Xülasə. İnklüziv təhsildə rəqəmsal təhsil mühiti müasir təhsil sisteminin mühüm istiqamətlərindən biri kimi qiymətləndirilir. Bu yanaşma bütün şagirdlərə, o cümlədən xüsusi təhsil ehtiyacları olan uşaqlara bərabər və əlçatan təhsil imkanlarının yaradılmasını nəzərdə tutur. Məqalədə vurğulanır ki, rəqəmsal texnologiyalar inklüziv təhsilin həyata keçirilməsində effektiv vasitə rolunu oynayır. Rəqəmsal təhsil mühiti müxtəlif platformalar, elektron resurslar və interaktiv tətbiqlər vasitəsilə şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun öyrənmə imkanları yaradır. Bu mühitdə təqdim olunan audio, vizual və multimediya materialları öyrənmə prosesini daha anlaşıqlı və maraqlı edir. Xüsusilə eşitmə, görmə və ya nitq problemləri olan uşaqlar üçün uyğunlaşdırılmış resurslar onların təhsildə fəal iştirakını təmin edir. Məqalədə həmçinin müəllimlərin rəqəmsal bacarıqlarının inkişafının vacibliyi qeyd olunur. Müəllimlər müasir texnologiyalardan düzgün istifadə etməklə dərsləri daha effektiv təşkil edə və şagirdlərin fərdi ehtiyaclarını nəzərə ala bilirlər. Bununla yanaşı, valideynlərin də bu prosesə cəlb olunması təhsilin keyfiyyətini artırır. Lakin bəzi çətinliklər də mövcuddur. Texniki imkanların məhdudluğu, internetə çıxış problemləri və rəqəmsal savadlılığın yetərli olmaması inklüziv təhsilin inkişafına mane ola bilər. Nəticə olaraq, rəqəmsal təhsil mühiti inklüziv təhsilin inkişafı üçün geniş imkanlar yaradır və düzgün tətbiq edildikdə təhsildə bərabərliyi təmin edir.

Keywords: inclusive education, digital technologies, education, environnment, special needs.

Summary. The digital learning environment in inclusive education is considered one of the key directions of modern education systems. This approach aims to provide equal and accessible educational opportunities for all students, including those with special educational needs. The article emphasizes that digital technologies play an effective role in the implementation of inclusive education. A digital educational environment creates learning opportunities tailored to students' individual characteristics through various platforms, electronic resources, and interactive applications. Audio, visual, and multimedia materials presented in this environment make the

learning process more understandable and engaging. Especially for children with hearing, visual, or speech difficulties, adapted resources ensure their active participation in education. The article also highlights the importance of developing teachers' digital skills. By effectively using modern technologies, teachers can organize lessons more efficiently and address the individual needs of students. In addition, involving parents in this process increases the overall quality of education. However, there are also some challenges. Limited technical resources, problems with internet access, and insufficient digital literacy can hinder the development of inclusive education. In conclusion, the digital learning environment provides broad opportunities for the development of inclusive education and, when applied correctly, helps ensure equality in education.

Anahtar kelimeler: kapsayıcı eğitim, dijital teknolojiler, eğitim, eğitim ortamı, özel ihtiyaçlar.

Özet. Kapsayıcı eğitimde, dijital eğitim ortamı modern eğitim sisteminin önemli yönlerinden biri olarak kabul edilmektedir. Bu yaklaşım, özel eğitim ihtiyaçları olan çocuklar da dahil olmak üzere tüm öğrenciler için eşit ve erişilebilir eğitim fırsatları yaratmayı içerir. Makale, dijital teknolojilerin kapsayıcı eğitimin uygulanmasında etkili bir rol oynadığını vurgulamaktadır. Dijital eğitim ortamı, çeşitli platformlar, elektronik kaynaklar ve etkileşimli uygulamalar aracılığıyla öğrencilerin bireysel özelliklerine göre uyarlanmış öğrenme fırsatları yaratır. Bu ortamda sunulan sesli, görsel ve multimedya materyaller, öğrenme sürecini daha anlaşılır ve ilgi çekici hale getirir. Özellikle işitme, görme veya konuşma sorunları olan çocuklar için uyarlanmış kaynaklar, onların eğitime aktif katılımını sağlar. Makale ayrıca öğretmenlerin dijital becerilerinin geliştirilmesinin önemini de vurguluyor. Öğretmenler, modern teknolojileri doğru kullanarak dersleri daha etkili bir şekilde organize edebilir ve öğrencilerin bireysel ihtiyaçlarını dikkate alabilirler. Ek olarak, bu sürece velilerin dahil edilmesi eğitimin kalitesini artırır. Bununla birlikte, bazı zorluklar da mevcuttur. Sınırlı teknik olanaklar, internet erişimindeki sorunlar ve yetersiz dijital okuryazarlık, kapsayıcı eğitimin gelişimini engelleyebilir. Sonuç olarak, dijital eğitim ortamı, kapsayıcı eğitimin gelişimi için geniş fırsatlar yaratır ve doğru bir şekilde uygulandığında eğitimde eşitliği sağlar.

Son illər aparılan sosial-iqtisadi siyasət əticəsində ölkədə yüksək inkişafa nail olunmuş əhalinin maddi rifahı xeyli yaxşılaşmış, yoxsulluöun səviyyəsi minimumaemiş və azərbayca Respublikası orta gəlirlə ölkələr sırasında yer tutmuşdur.Gerçəkləşdirilə islahatlar və genişmiqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı innkişafı üçün şərait yaratmışdır.Azərbaycan Respublikası inkişaf kosepsiyasınna uyğunn olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin infrastrukturu və insan resursları inkişaf etdirilmişdir.Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması,həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır.Təhsil insanlara texologiyaları çevik mənimsəmək,əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq,ətraf mühitə düzgün mövqe seçmək imkanı verir, müasir tələblərə uyğun təhsili təmin edən təhsil infrastrukturun yaradılmasını əzərdə tutur. Təhsil müəssisələrində informasiya-komunikasiya texologiyaları,əsaslı təlim metodologiyasına uyğu infrastrukturun yaradılması,təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması,distant təhsil,istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf,yaşlıların təhsili,peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən reqional universal mərkəzlərin müasir təmiatlı peşə-tədris mərkəzlərinin və komplekslərin qurulması kimi tədbirlər ehtiva edir.(Azərbaycan Respublikası təhsil inkişafı üzrə Dövlət Strategiyası. 2013)

Rəqəmsal təhsil mühiti informasiya resursları, proqramm təminatı, texniki vasitələr və kommunikasiya platformalarının məcmusudur. Bu mühit elektron dərsliklər, onlayn kurslar,

interaktiv tapşırıqlar və distant təhsil sistemlərini əhatə edir. İnklüziv təhsil şəraitində bu imkanlar xüsusi ehtiyaclı şagirdlər üçün böyük əhəmiyyət daşıyır. Rəqəmsal texnologiyalar sosial inteqrasiyanı gücləndirir. Onlayn platformalar vasitəsi ilə şagirdlər bir-biri iləünsiyyət qurur və birgə fəaliyyətlərdə iştirak edirlər.

Rəqəmsal savadlılıq texnoıogiyalardan öyrənmədə, işdə, şəxsi həyatda məqsədəuyğun şəkildə, inamlı şəkildə, operativ və tənqidi yanaşaraq onun istifadəsidir. İnformasiya ilə bağlı olduğu üçün informasiya savadlılığını da istifadə etməklə rəqəmsal məzmunun həllini ehtiva edir. İnsanlar anlamalıdırlar ki, rəqəmsal texnologiya ünsiyyəti, yaradıcılığı,innovasiyaları dəstəkləyir, rəqəmsal texnologiyanın imkanlarını ,məhdudiyyətini, nəticələrini və risklərini qəbul etməlidir. (TAIM. 2024)

Son illərdə rəqəmsal texnologiyalar cəmiyyətin bütün sahələrinə o cümlədən təhsil sahəsinə sürətlə tətbiq olunmaqdadır. Rəqəmsal təhsil mühitinin formalaşdırılması müasir təhsil sisteminin inkişafında əsas istiqamətlərdən birinə çevrilmişdir. Bəs rəqəmsal təhil mühiti deyəndə nə başa düşülür? Təhsil məzmununa çıxış və təhsil prosesinin iştirakçıları arasında qarşılıqlı əlaqəni təmin edən informasiya resursları, texnologiyalar və alətlər məcmusu başa düşülür. Təhsildə rəqəmsal transformasiya, texologiyaların tədris və öyrənmə proseslərinə inteqrasiyasını ifadə edir. Bu, aşağıdakıl istiqamətləri əhatə edir:

-rəqəmsal resurslar
-texnologiyanın istifadəsi
-onlayn təhsil
-rəqəmsal savadlılıq

Əsas texnologiyalardan biri ənənəvi tədris üsullarından qibirid və distant təhsil formalarına keçiddir. Olayn platformalar, elektron dərsliklər, elektron jurnallar, videomühazirələr və interaktiv tapşırıqlar təhsilalanlara bilikləri daha rahat vaxtda və fərdi tempdə əldə etməyə imkan verir. Bu isə təhsilin əlçatanlığını daha da artırır və ozünün təhsil imkanlarını genişləndirir. İnkişafın mühüm istiqamətlərindən biri təhsilin fərdiləşdirilməsi. Rəqəmsal texnologiyalar sahəsində şagirdlərin fərdi xüsusiyyətləri, hazırlıq səviyyəsi və materialı mənimsəmə sürətini nəzərə almaq mümkün olur. Süni intellekt və analitik sistemlərin istifadəsi adaptiv təhsil proqramlarının yaradılmasına şərait yaradır.

Rəqəmsal texnologiyaların inklüziv təhsildə böyuk rolu var, bu texnologiyalar xüsusi təhsil ehtiyyacları olan uşaqların təhsil imkanlarını genişləndirirlər. Rəqəmsalliq inklüziv təhsildə bir çox imkanlar yaradır: təhsil prosesini adativ edir, tədris materiallarının əlçatanlığını təmin edir,təlimi fərdiləşdirir və daha inklüziv mühit yaratmağa imkan verir. İnklüziv təhsildə rəqəmsal texnologiyaların istifadəsinin istiqamətlərini göstərək.

1.Adaptiv texnologiyalar və assistiv vasitələr, məsələn, görmə məhdudiyyəti olan insalar üçün ekran böyütmə proqramları, səs sintezatoru,hansı ki mətni audio formasına çevirir, brayl displeyləri.

2.Təlimin fərdiləşdirilməsi. Adaptiv təlim sistemləri fərdiləşdirilmiş təcrübə yaratmaq üçün süni intellekt alqoritmlərindən istifadə edir, Bunlara intellektual diaqnostika, kontentin dinamik adaptasiyası, fərdi əks əlaqə və adaptiv testləşdirmə aiddir. Adaptiv kontenti olan platformalardan nümünə olaraq – Khan Academy, DreamBox,Duolingonu göstərə biləik.

3.Təhsil resurslarına əlçatanlığın genişlənməsi.Bu açıq təhsil resurslarının, virtual laboratoriyaların və simulyatorların köməyi ilə həyata keçir.

4.Sosiallaşma və kommunikasiya. Virtual təhsil mühiti və onlayn oyunlar digər uşaqlar ilə ünsiyyət və qarşılıqlı əlaqə qurmağa kömək edir, bu da öz növbəsində sosial bacarıqların inkişafına və izolyasiyanın azalmasına imkan yaradır.

5.Tərəqqinin monitorinqi. Müasir rəqəmsal alətlər şagirdlərin uğurlarını, materialı mənimsəməsində proqresi və emosional vəziyyətini müşahidə etməyə imkan verir. Bu təhsil prosesinə düzəlişləri operativ şəkildə etməyər və zərurət yarandıqda fərdi kömək təqdim etməyə imkan verir.

Rəqəmsal mühit inklüziv təhsilin imkanlarını daha dagenişlənndirir və bir sıra üstünlüklərə malikdir: təhsil resurslarının əlçatan olması, təlim məzmununun uyğunlaşdırılması,motivasiyanın yüksəlməsi,şagirdləri müstəqilliyinin artması.

Bütün üstünlüklərə baxmayaraq, rəqəmsal təhsil mühiti bir sıra problemlərlə də qarşılaşa bilər. Bunlara texniki təminatı yetərli olmaması, rəqəmsal bərabərsizlilik, eləcə də məlumat təhlükəsiszliyi və şəxsi məlumatların qorunması məsələləri daxildir. Bir çox tədqiqatçılar qeyd edirlər ki, inklüziv təhsilə rəqəmsal texnologiyaları daxil edilməsi, təhsilin rəqəmsallaşdırılmasında müşahidə olunan eyni çətinliklər və imkanlara müşayyət olunur. (Ахметова Д.З, 2020)

İnklüziv təhsil sahəsində rəqəmsallaşmanın bir sıara problemləri var:

-virtual mühitdə tədris materialının qavranılması;

-texniki avadalıqları çatışmazlığı;

-motivasiyanın səviyyəsi:bir çox şagirdlərin yetərincə dxili motivasiyası olmur;

-SİM uşaqları sosial fəallığının aşağı olması,rəqəmsal savadlılığın olmaması.

Beləliklə, rəqəmsal təhsil mühiti təhsilin modernləşdirilməsində mühüm rol oynayır. Onun gələcək inkişafı innovativ texologiyaların tətbiqi, təhsil resurslarının keyfiyyətinin artırılması və rəqəmsal alətlərdən səmərəli istifadə edə bilən mütəxəssislərin hazırlanması ilə bağlıdır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası təhsil qzrə Dövlət Strategiyası.(2013). Bakı.

2. Ахметова Д.З. (2020). Цифровизация и инклюзивное образование точки соприкосновения.Высшее образование в России . No 2. С. 141–150.

3. TAIM.(2024). Metodika və pedaqogika vəsait. Bakı.

İNKLÜZİV SİNİFDƏ MÜƏLLİMİN SƏRİŞTƏLİLİYİ

Nuridə Rafiq qızı Quliyeva
Baş müəllim
Azərbaycan Respublikası
Bakı Dövlət Universiteti Qazax filialı
nuridquliyeva123@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0007-3251-7521

Açar sözlər: inklüziv təhsil, pedaqoq, inklüziv sinif, inklüziv təlim, müəllimin səriştəliliyi.

Xülasə. Müasir təhsil sisteminin ən humanist və mütərəqqi istiqamətlərindən biri inklüziv təhsildir. İnklüzivlik yalnız sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrinə cəlb edilməsi deyil, həm də hər bir uşağın fərdi ehtiyaclarına uyğunlaşdırılmış öyrənmə mühitinin yaradılmasıdır. Bu mühitin mərkəzi fiquru isə, şübhəsiz ki, müəllimdir. İnklüziv sinifdə müəllimin səriştəliliyi tədrisin keyfiyyətini və şagirdin sosial adaptasiyasını müəyyən edən əsas amildir. Məqalədə əsas məqsəd: Müxtəlif öyrənmə ehtiyacları olan şagirdlərin (sağlamlıq imkanları məhdud və ya xüsusi istedadlı) ümumi təhsil mühitinə tam inteqrasiyasını təmin etmək üçün müəllimin malik olmalı olduğu keyfiyyətləri müəyyən etmək. Analiz edilən əsas istiqamətlər: Metodik

hazırlıq: Dərsin Universal Təlim Dizaynı əsasında qurulması və qiymətləndirmənin fərdiləşdirilməsi. Psixoloji dözümlülük: Müəllimin empatiya qurma, konfliktləri idarə etmə və sinifdə inklüziv mədəniyyət formalaşdırma bacarığı. Tərəfdaşlıq: Valideynlər, xüsusi təhsil mütəxəssis-pedaqoqları və assistentlərlə koordinasiyalı iş. İnklüziv siniflərin əsasını heç kəsin kənarlaşdırılmadığı və hər kəsin fərdi qabiliyyət və ehtiyacları ilə birgə qəbul edildiyi kollektivə olan münasibət təşkil edir. Qabiliyyət və ehtiyaclardan asılı olmayaraq, şagirdlərin hamısı eyni qaydada sinif kollektivinin üzvü sayılır. Sağlamlıq imkanları məhdud (SİM) uşaqların siniflərə ürəkaçıqlığı ilə qəbul edilməsi olduqca vacibdi. Müəllim şagirdlər üçün əsas davranış nümunəsidir. Məhz o, öz hərəkətləri ilə digər şagirdlərə SİM şagirdin, sinfin və cəmiyyətin vacib üzvlərindən biri olduğunu göstərməli, şagirdlər arasında pozitiv münasibətlərin yaranmasına çalışmalıdır. Müəllim səriştəliliyi inklüziv təhsilin uğurunu müəyyən edən ən kritik faktordur. Bu səriştəlilik yalnız akademik biliklərlə deyil, həm də çevik pedaqoji yanaşma və humanist dəyərlər sistemi ilə xarakterizə olunur.

Keywords: inclusive education, educator, inclusive classroom, inclusive learning, teacher's competence.

Summary. One of the most humane and progressive directions of the modern education system is inclusive education. Inclusion is not only the involvement of children with disabilities in general education institutions, but also the creation of a learning environment adapted to the individual needs of each child. The central figure of this environment is, undoubtedly, the teacher. The competence of the teacher in an inclusive classroom is the main factor determining the quality of teaching and the social adaptation of the student. The main goal of the article: To determine the qualities that a teacher should have in order to ensure the full integration of students with various learning needs (disabled or specially gifted) into the general education environment. The main areas analyzed: Methodological preparation: Building a lesson based on Universal Learning Design and individualizing assessment. Psychological tolerance: The teacher's ability to build empathy, manage conflicts and form an inclusive culture in the classroom. Partnership: Coordinated work with parents, special education specialists-pedagogues and assistants. The basis of inclusive classrooms is a collective attitude in which no one is excluded and everyone is accepted with their individual abilities and needs. Regardless of abilities and needs, all students are considered members of the class in the same way. It is very important that children with disabilities (LD) are welcomed into the classroom with open arms. The teacher is the main role model for students. It is he who, through his actions, should show other students that the LD student is an important member of the class, the class and society, and strive to create positive relationships between students. Teacher competence is the most critical factor determining the success of inclusive education. This competence is characterized not only by academic knowledge, but also by a flexible pedagogical approach and a humanistic value system.

Anahtar kelimeler: kapsayıcı eğitim, eğitimci, kapsayıcı sınıf, kapsayıcı öğrenme, öğretmen yeterliliği

Özet. Modern eğitim sisteminin en insancıl ve ilerici yönlerinden biri de kapsayıcı eğitimdir. Kapsayıcılık, sadece engelli çocukların genel eğitim kurumlarına dahil edilmesi değil, aynı zamanda her çocuğun bireysel ihtiyaçlarına uyarlanmış bir öğrenme ortamının yaratılmasıdır. Bu ortamın merkez figürü şüphesiz öğretmendir. Kapsayıcı bir sınıfta öğretmenin yetkinliği, öğretimin kalitesini ve öğrencinin sosyal uyumunu belirleyen en önemli faktördür. Makalenin temel amacı: Çeşitli öğrenme ihtiyaçları olan (engelli veya özel yetenekli) öğrencilerin genel eğitim ortamına tam entegrasyonunu sağlamak için bir öğretmenin sahip olması gereken nitelikleri belirlemektir. Analiz edilen ana alanlar: Metodolojik hazırlık: Evrensel Öğrenme Tasarımına dayalı bir ders planı oluşturmak ve değerlendirmeyi bireyselleştirmek. Psikolojik tolerans: Öğretmenin empati kurma,

çatışmaları yönetme ve sınıfta kapsayıcı bir kültür oluşturma yeteneği. Ortaklık: Ebeveynler, özel eğitim uzmanları-pedagoglar ve yardımcılarla koordineli çalışma. Kapsayıcı sınıfların temeli, kimsenin dışlanmadığı ve herkesin bireysel yetenekleri ve ihtiyaçlarıyla kabul edildiği kolektif bir tutumdur. Yetenekleri ve ihtiyaçları ne olursa olsun, tüm öğrenciler sınıfın aynı üyeleri olarak kabul edilir. Öğrenme güçlüğü çeken çocukların (ÖG) sınıfa açık kollarla karşılanması çok önemlidir. Öğretmen, öğrenciler için en önemli rol modelidir. Öğretmen, davranışlarıyla diğer öğrencilere ÖG öğrencisinin sınıfın, toplumun ve toplumun önemli bir üyesi olduğunu göstermeli ve öğrenciler arasında olumlu ilişkiler kurmaya çalışmalıdır. Kapsayıcı eğitimin başarısını belirleyen en kritik faktör öğretmen yeterliliğidir. Bu yeterlilik sadece akademik bilgiyle değil, aynı zamanda esnek bir pedagojik yaklaşım ve insancıl bir değer sistemiyle de karakterize edilir.

İnklüziv təhsil - təhsilin hamı üçün əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşdırılmasına əsaslanan inkişaf prosesidir. Bu, əlilliyi olan uşaqların da təhsilə cəlb olunmasını təmin edir. İnklüziya isə məktəbin istisnasız bütün uşaqların ehtiyaclarına cavab verəcək reformasiyasını və yenidən planlaşdırılmasını nəzərdə tutur. İnklüziv təhsilin ən üstün cəhətlərindən bir də əliliyi olan uşaqların əliliyi olmayan uşaqlarla bir yerdə təhsil almasıdır. Bildiyimiz kimi bu çox çətin prosesdir. Belə ki, burada müəllim həm pedaqoq, həm həkim, həm də psixoloq olmalıdır.

Səriştəli müəllim dərsi elə planlaşdırır ki, o, "orta statistik" şagirdə deyil, hər bir kəsə xitab etsin. Bu prosesdə iki əsas yanaşma ön plana çıxır:

1.Təqdimatın müxtəlifliyi: Mövzunun həm vizual (şəkil, video), həm audial (səsli izah), həm də taktil (toxunaraq, hiss edərək) yollarla çatdırılması.

2.İfadə azadlığı: Şagirdə öyrəndiklərini nümayiş etdirmək üçün seçimlər verilməsi (məsələn: inşa yazmaq əvəzinə şifahi danışmaq və ya rəsm çəkmək).

İnklüziv təhsildə müəllim pedaqoji və metodik səriştəliliyə malik olmalıdır. Müəllim tədris materialını elə hazırlamalıdır ki, o, müxtəlif öyrənmə xüsusiyyətlərinə malik şagirdlər üçün əlçatan olsun.

-Differensial təlim: Eyni mövzunu müxtəlif səviyyələrdə və üsullarla (vizual, audial, kinestetik) təqdim etmək bacarığı.

-Fərdi Təhsil Planı (FTP): Sağlamlıq imkanları məhdud olan şagirdlər üçün xüsusi hədəflər müəyyənləşdirmək və bu hədəflərə doğru irəliləyişi izləmək.

-Qiymətləndirmə çevikliyi: Şagirdin nailiyyətini standart meyarlarla deyil, onun öz potensialına və fərdi inkişaf dinamikasına görə dəyərləndirmək.

İnklüziv təhsil sahəsində səriştəlilik müəllimin peşə funksiyalarını həyata keçirmək bacarığına malik olmasını, müxtəlif təhsil tələbatlarını öyrənməyi, onların inkişaf və özünüinkişafı üçün şəraiti yaratmağı nəzərdə tutur. Ümumtəhsil məktəbində inklüziv təhsilin həyata keçrilməsi üçün orta və ya ali peşə təhsili səviyyəsində gələcək müəllimlərin inklüziv səriştəsinin formalaşdırılmasına yönələn təhsil prosesinin təşkilində dəyişikliklər edilməli, bu məsələnin ixtisas dəyişmənin və pedaqoji yenidən hazırlanmanın artırılması sistemində həll edilməsinə başlanılmalıdır. (Бонин. O.B., 2013)

İnklüziv sinifdə dərs deyəcək müəllimin inklüziv səriştələliliyi, yüksək peşəkarlıq göstərə bilməsi olduqca əhəmiyyətli və zəruridir.

- inklüziv təhsilin fəlsəfəsini anlamaq, SİM şagirdlərin şəxsi və yaş inkişafının qanunauyğunluqlarını, xüsusiyyətlərini bilmək;

- inklüziv təlimin təşkilinin optimal üsullarını seçmək, inklüziv sinifdə təlim prosesini layihələndirmək;

- pedaqoji ünsiyyətin bütün subyektləri arasında SİM uşaqlara münasibətdə dəyərlərə əsaslanmış müxtəlif üsulların tətbiqi;

- inklüziv təlimin əhatə dairəsində korreksiyaedici-inkişafetdirici mühitin yaradılması və resurslardan bütün uşaqların inkişafı üçün istifadə etmək;

- inklüziv təhsillə bağlı peşəkar özünütəkmilləşdirməsini təmin etmək.

Elmi-pedaqoji ədəbiyyatlarda müəllim səriştəliliyinə dair kifayət qədər tədqiqatlar aparılsa da, yeni fikirlər olsa da, məhz inkluziv şəraitdə müəllimin fərqli, bu şəraitə uyğun, onun tələb etdiyi səriştələrə dair fikirlər heç də çox deyildir. Buna baxmayaraq inkluziv şəraitdə müəllimlərin hansı səriştələrə malik olmasını aşağıdakı kimi qeyd etmək olar:

1. Müəllimin təşkilatçılıq, idarəetmə səriştəliliyi. Bu, bütün dərs boyu davam edən, sinfin yüksək səviyyədə təşkil edilməsi, müəllimin pedaqoji prosesi idarə edə bilməsi və sinifdə (qrupda) bütün şagirdlərin təlim marağının, motivaiyasının təmin edilməsi ilə bağlı səriştələrdən ibarətdir.

2. Didaktik (öyrədə bilmə) səriştəliliyi. Bu səriştə bütün şagirdlərin, həmçinin xüsusi qayğıya ehtiyacı olan şagirdlərin də eyni səviyyədə təlim prosesində iştirakının təmin edilməsi, onların müəllim tərəfindən təlim tapşırqlarını yerinə yetirmələrini təmin edə biləcək səriştələrdən ibarətdir.

3. Təhsilalanların idrakının inkişaf etdirilməsi səriştəliliyi. İnkluziv mühitdə aydındır ki, şagirdlərin öyrənmə marağının müxtəlif olmaı ilə yanaşı, onların idrak səviyyələri də eyni deyldir. Lakin təlim prosesində bütün şagirdlərin tələbat və maraqlarının təmin olunmasın zəruriyyəti və tələbi pedaqoji prosein hamı üçün əlçatanlığını təmin etməyi tələb edir. Bu da şagirlərin idrak səviyyəsini nəzərə almaqla onların hər birinin inkişaf etdirilməsini zəruri edir. Bu baxımdan müəllim pedaqoji prosesdə hər bir şagirdin idrakının inkişaf etdirilməsi üçün müəyyən səriştə nümiyiş etdirməli, prosesə sıriştəli yanaşmağı bacarmalıdır.

4. Pedaqoji prosesə kreativ yanaşma səriştəliliyi. Bunlar müəllimin pedaqoji prosesdə çeviklik, yaradıcılıqla yanaşması, öyrətmə prosesində daha əlverişli metodlar seçə bilməsi və onlardan istifadə edə bilməsi səriştəliliyindən ibarətdir. İstisna deyildir ki, inkluziv sinifdə müəllimin tətbiq etdiyi metod və priyonlar heç də hamı üçün müyəssər olmasın. Bu da müəllimdən kreativ səriştələrə malik olmasını, əlverişli vasitələrdən istifadə edə bilmək bacarıqlarını nümayiş etdirə bilməsini tələb edir.

5. Ünsiyyət və əməkdaşlıq səriştəliliyi. İnkluzivliyin təmin olunmasında bu səriştələrin xüsusi yeri və rolu vardır. Bunlar müəllimin hər bir şagirdlə işgüzar ünsiyyət yaratması, əməkdaşlıq etməsi və eyni zamanda şagirdlərin bir-biri il ünsiyyət və əməkdaşlığının yaradılmasına istiqamətlənən və xidmət edən səriştələr kimi qiymətlidir. Müəllimin şagirdlərin bir-biri ilə ünsiyyət saxlamalarına, xüsusən ehtiyacı olan şagirdlərlə digər şagirdlərin ünsiyyətinin yaradılmsına səbəb olan bu tipli səriştələr sinif (qrup) kollektivinin formalaşmasına və onların ünsiyyət qabiliyyətlərinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan müəllimin özünün əməkdaşlıq və ünsiyyət səriştələrinə malik olması əsas baza kimi pedaqoji prosesin səmərəliliyini də təmin edə bilir ki, müəllimin bu sahədə öz üzərində işləməsi, müəyyən təmrinlərdən istifdə edərək bacarıqlarını inkişaf etdirməsi xüsusi əhəmiyyət kəsb edir. (İlyasov, 2018).

Psixoloji və Sosial Səriştəlilik; İnklüzivlik "fiziki olaraq eyni otaqda olmaq" deyil, "mənəvi olaraq qəbul edilmək" deməkdir.

- Empatiya və səbir: Şagirdin çətinliklərini hiss etmək və ona mühakimə etmədən dəstək olmaq.

- Sinif idarəetməsi: Sinifdə qarşılıqlı hörmət və tolerantlıq mühiti yaratmaq, "bullinq" (həmyaşıdları tərəfindən sıxışdırılma) hallarının qarşısını almaq.

- Adaptiv ünsiyyət: Nitqində və ya qavramasında problem olan uşaqlarla effektiv ünsiyyət dili tapmaq.

Müəllim sinifdə adaptiv təlim mühitinin (hər bir uşaq üçün tələbatı ödəyəcək) yaradılmasına; normal təhsil almağa mane ola biləcək fiziki və ya əqli çatışmazlıqlara (disleksiya, disqrafiya, deviant davranış və.s) fikir yönəltməyən şəraitin yaradılmasına; SİM uşağın tipik dərs prosesinə qoşulması üçün rasional izah formalarından istifadə etməklə, fəal dərs prosesinə qoşulmasına şərait yaratmağa məsuldur.

Müəllimin səriştəliliyi onun xarakterində özünü göstərir. Müəllimin motivasiyaedici xarakterini inklüziv təlim çərçivəsində pedaqoji fəaliyyətini reallaşdırmağa şəxsi maraqları formalaşdırır. Motivləri sosial, idraki, peşə, şəxsi inkişaf, özünütəsdiq, şəxsi mənfəət və s. ola bilər.

- Motivasiyaedici xarakter ümumi dəyərlər, ehtiyaclar, inklüziv təhsilin adekvat məqsədləri və məsələləri, müəyyən pedaqoji fəaliyyətin yerinə yetirilməsi üçün özünü motivasiya etmək bacarıqları kimi müəyyənləşir. Bu səriştə üçün müəllimin şəxsi hədəfləri önəmlidir.

- Pedaqoqun koqnitiv xarakterini müxtəlif bacarıqları formalaşdırır: İnklüziv təlimin nəzəri və praktik məsələləri üçün zəruri olan informasiyaları qəbul etmək, mənimsəmək, istifadə etçək bacarığı.

- Refleksiv xarakter müəllimin inklüziv təlimə hazırlaşma və prosesin aparılması şərtləri daxilində refleksiya apara bilmək bacarığını əhatə edir.

- Funksionallıq xarakteri inklüziv təlim şərtləri daxilində əsas peşə bacarıqlarını əhatə edir:

- diaqnostik bacarıq şagird kollektivinin, şəxsiyyətin, təlim-tərbiyəsinin inkişaf səviyyəsinin, pedaqoji prosesin ümumilikdə və ayrı-ayrı mərhələsində vəziyyətinin doğru diaqnozunu qoya bilmək qabiliyyətini ehtiva edir.

- proqnozlaşdırma bacarığı hər hansı bir pedaqoji fəaliyyətin nətcələrini proqnozladıra bilmə qabiliyyətini ehtiva edir.

- konstruktiv bacarıq – pedaqoji fəaliyyəti adekvat məqsədlər (ümumi, fərdi) müəyyənləşdirmək və şagirdlərin müxtəlifliyini nəzərə alaraq pedaqoji fəaliyyətin savadlı planlaşdırılması qabiliyyəti deməkdir.

- təşkilatçılıq bacarığı – pedaqoji fəaliyyətin təşkili, fərdi yanaşmanın yaradıcı tətbiqi (məsələn, fərdi tədris planı üzrə təlim).

- kommunikativ bacarıq – pedaqoji prosesin subyektləri ilə konstruktiv münasibətlərin qurulması qabiliyyətidir.

- texnoloji bacarıqlar inklüziv təlimin metod və texnologiyalarının tətbiqi səriştəsidir.

- korreksiya bacarığı – aralıq və yekun diaqnostikanın nəticələrini nəzərə alaraq istənilən mərhələdə pedaqoji prosesin gedişini korreksiya edə bilmək qabiliyyətidir.

- tədqiqatçılıq bacarığı – pedaqoji təzahürləri öyrənmək, analiz etmək, təcrübieksperimental işin aparılması səriştəsidir.

Əməkdaşlıq Səriştəliliyi; İnklüziv təhsil komanda işidir. Müəllim təkbaşına hər şeyə nail ola bilməz.

- Valideynlərlə iş: Ailəni təlim prosesinə cəlb etmək və onlarla mütəmadi məsləhətləşmələr aparmaq.

- Mütəxəssislərlə koordinasiya: Psixoloq, loqoped və sosial işçilərlə birgə fəaliyyət göstərmək.

- Assistentlərlə iş: Əgər sinifdə müəllim köməkçisi varsa, onunla vəzifə bölgüsünü düzgün qurmaq.

Müəllimlərin inklüziv təhsilə hazırlığının təmin etmək üçün “Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması”layihəsinə əsasən görülən işlər çoxşaxəli çərçivədə 4 istiqamət üzrə təsnifatlaşdırılıb:

1. İnklüziv təhsil üzrə tədris proqramı və materiallarının təkmilləşdirilməsi. Bu istiqamətdə inklüziv təhsil üzrə ekspert komandalarının birbaşa iştirakı ilə yeni təlim modullarının hazırlanması,

onların ibtidai sinif müəllimliyi ixtisasında ilkin pedaqoji təhsil və ixtisasartırma təhsil proqramlarına daxil edilməsi, təlimat və tədris xarakterli müxtəlif vəsaitlərin (psixoloq, loqoped və s.) hazırlanması, bu məlumat və resursların daha əlçatan olması üçün onlayn portalın yaradılması nəzərdə tutulur.

2. Müəllim və yardımçı heyətin bacarıqlarının artırılması. Burada məqsəd təlim modulları əsasında ibtidai sinif müəllimləri, pedaqoji kadr hazırlığı aparan ali təhsil müəssisələrinin müəllimləri və tələbələrinin təlimlərə cəlb olunmasıdır.

3. Müəllim və yardımçı mütəxəssislər üçün inklüziv təhsil üzrə resursların yaradılması. Bu komponent çərçivəsində inklüziv təhsil üzrə mövcud kadr potensialı, təlim resursları və s. haqqında tədqiqat aparmaq, inklüziv təhsil mərkəzləri yaratmaq və həmin mərkəzlərdə müəllim hazırlığına xidmət əsas hədəflərdir.

4. İnklüziv təhsil üzrə təhsil siyasətinin təkmilləşdirilməsi və ictimai maarifləndirmə tədbirləri. Bu komponent çərçivəsində Bakı şəhərində və digər regionlarda məlumatverici posterlər yerləşdirmək, inklüziv təhsilin əhəmiyyətini göstərən sosial çarxlar hazırlayıb televiziya kanallarında yerləşdirmək, sosial media, müxtəlif sosial aksiyalar və çoxsaylı digər vasitələrlə ictimaiyyətin məlumatlandırılmasını təmin etmək nəzərdə tutulmuşdur. (Mikayılova, Şərəfxanova və b., 2011).

İnklüziv sinifdə müəllimin səriştəliliyi dinamik bir prosesdir. Bu, sadəcə diplomla bitmir, daimi özünüinkişaf və təcrübə tələb edir. Müəllim hər bir uşağın "qapısını" açа biləcək açarı tapmağa çalışan bir tədqiqatçı olmalıdır. Yalnız səriştəli və həssas müəllimlərin sayəsində təhsil hamı üçün əlçatan və effektiv ola bilər. Unutmayaq ki, İnklüziv təhsildə müəllimin ən böyük səriştəsi şagirdin "çatışmazlıqlarına" deyil, onun potensialına fokuslanmaqdır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının Qanunvericiliyi: “Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı (2018–2024-cü illər)”. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu (İnklüziv təhsil bölməsi).

2. Бонин О.В. К проблеме подготовки педагогических кадров в сфереинклюзивного образования: специфика профессиональной компетентности 2013. № 1. С. 49–51.

2. İlyasov, M.İ. (2018). Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: Elm və Təhsil, - 208 s.

3. Mikayılova, Ü., Şərəfxanova, Ş., və b. (2011). “ İnklüziv təhsil”. (Metodik vəsait). Bakı.

4. Z. Həsənova “İnklüziv sinifdə təlim prosesinin təşkilində müəllimin rolu” Elmi-iş (beynəlxalq elmi jurnal) 2019, 10/49 səh; 71

PSYCHOLOGICAL CHARACTERISTICS OF LEARNERS IN INCLUSIVE FOREIGN LANGUAGE EDUCATION

Lala Matlab Rustamova
Azerbaijan Republic
Mingachevir State University
lala.rustamova@mdu.edu.az
ORCİD ID: 0000-0001-7542-6215
Aydan Javanshir Ahmadzadeh
Bachelor's degree
Mingachevir State University
ahmedzadeaydan22@gmail.com
ORCİD ID: 0009-0001-9436-4459

Keywords: inclusive education, English as a foreign language, psychological characteristics, language anxiety, differential learning, learning styles.

Summary. Inclusive education is one of the main directions of modern pedagogy, ensuring the creation of equal educational opportunities for all learners. In particular, in the field of foreign language teaching, inclusiveness is more complex, since language learning requires high cognitive activity and emotional stability. This article extensively analyzes the psychological characteristics of learners in an inclusive foreign language education environment and examines the impact of these characteristics on the learning process.

Foreign language learning requires the interaction of various psychological processes such as attention, memory, perception and emotional management. The fact that students in inclusive classes are at different levels in these areas directly affects their learning outcomes. Some students experience high language anxiety, while others experience low motivation or lack of attention. Such psychological factors can complicate the learning process if not properly managed.

The article specifically emphasizes the role of the teacher. The teacher's empathetic approach, taking into account the individual characteristics of students and using differential learning methods increase the effectiveness of an inclusive environment. At the same time, the creation of a supportive psychological environment strengthens students' self-confidence and ensures their active participation.

In conclusion, it is noted that in order to achieve success in inclusive foreign language education, it is important to study in-depth the psychological characteristics of learners and apply appropriate pedagogical approaches.

Açar sözlər: inklüziv təhsil, xarici dil kimi ingilis dili, psixoloji xüsusiyyətlər, dil narahatlığı, diferensial öyrənmə, öyrənmə üslubları.

Xülasə. İnklüziv təhsil müasir pedaqogikanın əsas istiqamətlərindən biridir və bütün öyrənənlər üçün bərabər təhsil imkanlarının yaradılmasını təmin edir. Xüsusilə, xarici dil tədrisi sahəsində inklüzivlik daha mürəkkəbdir, çünki dil öyrənməsi yüksək idrak fəaliyyəti və emosional sabitlik tələb edir. Bu məqalədə inklüziv xarici dil təhsili mühitində öyrənənlərin psixoloji xüsusiyyətləri geniş şəkildə təhlil edilir və bu xüsusiyyətlərin öyrənmə prosesinə təsirini araşdırılır.

Xarici dil öyrənməsi diqqət, yaddaş, qavrayış və emosional idarəetmə kimi müxtəlif psixoloji proseslərin qarşılıqlı təsirini tələb edir. İnklüziv siniflərdə şagirdlərin bu sahələrdə fərqli səviyyələrdə olması onların öyrənmə nəticələrinə birbaşa təsir göstərir. Bəzi şagirdlər yüksək dil narahatlığı, digərləri isə aşağı motivasiya və ya diqqət çatışmazlığı yaşayırlar. Bu cür psixoloji amillər düzgün idarə olunmazsa, öyrənmə prosesini çətinləşdirə bilər.

Məqalədə müəllimin rolu xüsusi olaraq vurğulanır. Müəllimin şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq və diferensial öyrənmə metodlarından istifadə edərək empatik yanaşması inklüziv mühitin effektivliyini artırır. Eyni zamanda, dəstəkləyici psixoloji mühitin yaradılması tələbələrin özünəinamını gücləndirir və onların fəal iştirakını təmin edir.

Nəticə olaraq qeyd olunur ki, inklüziv xarici dil təhsilində uğur qazanmaq üçün öyrənənlərin psixoloji xüsusiyyətlərini dərindən öyrənmək və müvafiq pedaqoji yanaşmaları tətbiq etmək vacibdir.

Anahtar kelimeler: kapsayıcı eğitim, yabancı dil olarak İngilizce, psikolojik özellikler, dil kaygısı, farklılaştırılmış öğretim, öğrenme stilleri.

Özet. Kapsayıcı eğitim, tüm öğrencilere eşit öğrenme fırsatları sunmayı amaçlayan modern pedagojinin temel yaklaşımlarından biridir. Bu yaklaşım, farklı özelliklere sahip bireylerin aynı eğitim ortamında etkili şekilde öğrenmelerini desteklemektedir. Yabancı dil öğretimi bağlamında kapsayıcılık daha karmaşık bir yapı göstermektedir, çünkü dil öğrenimi yoğun bilişsel süreçler ve duygusal denge gerektirir. Bu makalede kapsayıcı yabancı dil eğitimi ortamında öğrenenlerin psikolojik özellikleri ayrıntılı şekilde incelenmekte ve bu özelliklerin öğrenme sürecine etkisi ele alınmaktadır.

Yabancı dil öğrenimi; dikkat, hafıza, algılama ve duygusal düzenleme gibi çeşitli psikolojik süreçlerin birlikte çalışmasını gerektirir. Kapsayıcı sınıflarda öğrencilerin bu alanlarda farklı seviyelerde olmaları öğrenme sonuçlarını doğrudan etkilemektedir. Ayrıca her öğrencinin öğrenme hızı ve bilişsel kapasitesi farklılık gösterebilir. Bazı öğrenciler yüksek düzeyde dil kaygısı yaşarken, bazıları düşük motivasyon veya dikkat eksikliği ile karşılaşmaktadır. Bu psikolojik faktörler uygun şekilde ele alınmadığında öğrenme süreci olumsuz etkilenebilir.

Makale, öğretmenin kapsayıcı eğitimdeki rolünü de vurgulamaktadır. Öğretmenin empatik yaklaşımı, bireysel farklılıkları dikkate alması ve farklılaştırılmış öğretim yöntemleri kullanması öğrenme sürecini daha etkili hale getirmektedir. Aynı zamanda öğretmenin rehberlik edici rolü de büyük önem taşımaktadır. Ayrıca destekleyici bir sınıf ortamı öğrencilerin özgüvenini artırmakta ve derse aktif katılımlarını sağlamaktadır.

Sonuç olarak, kapsayıcı yabancı dil eğitiminde başarı elde etmek için öğrencilerin psikolojik özelliklerinin anlaşılması ve buna uygun öğretim stratejilerinin uygulanması büyük önem taşımaktadır.

In recent decades, inclusive education has become one of the most significant and widely discussed approaches in contemporary educational theory and practice. It is based on the principle that all learners, regardless of their cognitive, psychological, social, or physical differences, have the right to participate fully in the educational process. This shift reflects a broader transformation from traditional, teacher-centered models toward more flexible, learner-centered environments that value diversity as an essential component of effective education. Within this context, foreign language education—particularly English as a Foreign Language (EFL)—presents a unique and complex domain where inclusivity must be carefully implemented.

Foreign language learning is inherently multidimensional, involving not only linguistic

knowledge but also a wide range of psychological processes. Learners are required to process new sounds, structures, and meanings while simultaneously managing their emotional responses and maintaining motivation. In inclusive classrooms, these demands are further intensified by the presence of learners with diverse psychological characteristics, learning styles, and cognitive profiles. As a result, the traditional “one-size-fits-all” approach to teaching becomes insufficient, and educators must adopt more adaptive and responsive strategies.

One of the defining features of inclusive foreign language classrooms is the diversity of learners’ psychological characteristics. Students differ in their levels of motivation, attention, memory capacity, emotional stability, and self-confidence. For instance, some learners may exhibit strong intrinsic motivation and a willingness to take risks in communication, while others may demonstrate high levels of anxiety and reluctance to participate. These differences are not merely individual traits; they significantly influence how learners perceive, process, and internalize new linguistic information.

Language anxiety, in particular, is recognized as one of the most critical psychological barriers in foreign language education. It often manifests as fear of speaking, worry about making mistakes, or discomfort in communicative situations. In inclusive settings, this anxiety may be even more pronounced, especially for learners who already experience academic or social challenges. High levels of anxiety can negatively affect attention, memory, and overall performance, creating a cycle in which learners become increasingly disengaged from the learning process. Therefore, addressing emotional factors is just as important as teaching linguistic content.

Motivation is another key psychological factor that plays a central role in language acquisition. It determines the level of effort learners are willing to invest and their persistence in overcoming difficulties. In inclusive classrooms, maintaining motivation can be particularly challenging due to the wide range of learner needs and abilities. Some students may feel discouraged by repeated difficulties, while others may lose interest if the material does not match their level or learning style. Consequently, teachers must employ diverse and engaging instructional strategies that sustain learners’ interest and foster a positive attitude toward language learning.

Attention and cognitive load are also crucial considerations in inclusive foreign language education. Learning a new language requires learners to simultaneously process multiple elements, such as vocabulary, grammar, pronunciation, and meaning. This can place a significant burden on cognitive resources, especially for learners who struggle with attention or information processing. In inclusive classrooms, where such differences are more visible, it becomes essential to design tasks that are manageable, well-structured, and appropriately paced. Breaking complex information into smaller units, using visual and auditory support, and providing repetition are effective ways to reduce cognitive overload and enhance comprehension.

Another important psychological construct is self-efficacy, which refers to learners’ beliefs about their own abilities to succeed in specific tasks. High self-efficacy is associated with greater persistence, higher levels of engagement, and a willingness to take risks in communication. Conversely, learners with low self-efficacy may avoid participation, fear failure, and develop negative attitudes toward language learning. In inclusive environments, fostering a sense of competence and achievement is particularly important, as it helps learners build confidence and resilience.

The role of the teacher in shaping these psychological dynamics cannot be overstated. Teachers serve not only as facilitators of knowledge but also as key figures in creating a supportive

and inclusive classroom atmosphere. Their attitudes, expectations, and instructional choices directly influence learners’ emotional experiences and motivation. An empathetic teacher who recognizes individual differences and responds to them with flexibility can significantly enhance the effectiveness of the learning process. Strategies such as differentiated instruction, cooperative learning, and formative assessment allow teachers to address diverse needs while maintaining a cohesive classroom environment.

Furthermore, the integration of digital technologies has added a new dimension to inclusive foreign language education. Digital tools can provide personalized learning experiences, interactive content, and opportunities for self-paced study. These features can be particularly beneficial for learners with different psychological characteristics, as they allow for greater flexibility and autonomy. However, the use of technology must be carefully planned to ensure that it supports, rather than hinders, the learning process and that all students have equal access to its benefits.

In addition to cognitive and emotional factors, social interaction plays a vital role in language learning. Communication is at the heart of language acquisition, and inclusive classrooms offer opportunities for learners to interact with peers who have diverse perspectives and abilities. Positive social interaction can enhance motivation, reduce anxiety, and promote a sense of belonging. However, it also requires careful management to ensure that all learners feel respected and included.

Overall, inclusive foreign language education represents a complex interplay of psychological, cognitive, and social factors. Understanding these dimensions is essential for developing effective teaching practices that support all learners. By recognizing and addressing individual differences, educators can create learning environments that are not only academically effective but also emotionally supportive and socially inclusive. This article aims to explore the psychological characteristics of learners in such environments and to provide insights into how these characteristics can be addressed through appropriate pedagogical approaches.

References:

1. Dörnyei, Z. (2001). Motivational Strategies in the Language Classroom. Cambridge University Press.

2. Horwitz, E. K., Horwitz, M. B., & Cope, J. (1986). Foreign language classroom anxiety. The Modern Language Journal, 70(2), 125–132.

3. Krashen, S. D. (1982). Principles and Practice in Second Language Acquisition. Pergamon Press.

4. Oxford, R. L. (2011). Teaching and Researching Language Learning Strategies. Pearson.

5. Tomlinson, C. A. (2014). The Differentiated Classroom: Responding to the Needs of All Learners (2nd ed.). ASCD.

6. Bandura, A. (1997). Self-efficacy: The Exercise of Control. W. H. Freeman and Company.

7. Sweller, J. (1988). Cognitive load during problem solving: Effects on learning. Cognitive Science, 12(2), 257–285.

8. Vygotsky, L. S. (1978). Mind in Society: The Development of Higher Psychological Processes. Harvard University Press.

9.Gardner, R. C. (1985). Social Psychology and Second Language Learning. Edward Arnold.

10.Ellis, R. (2008). The Study of Second Language Acquisition (2nd ed.). Oxford University Press.

İNKLÜZİV TƏHSİLDƏ İNGİLİS DİLİ DƏRSLƏRİNİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI

Sevda Qabil qızı Səfərova
Baş müəllim
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
sevda.safarova@sdu.edu.az
ORCİD ID: 0009-0004-2209-7357

Açar sözlər: inklüziv təhsil, İngilis dili dərsi, pedaqogika, idarəetmə, rəqəmsal resurslar.

Xülasə. Bu məqalədə inklüziv təhsildə İngilis dili dərslərinin təşkili və idarə olunması təhlil olunur. Məqalə inklüziv yanaşmanın pedaqoji və idarəetmə aspektlərini əhatə edir. Müəllimlərin peşəkar bacarıqları dərsin uğurunu müəyyən edir. Tələbələrin rəqəmsal savadlılığı və aktiv iştirakı dərsin effektivliyinə təsir göstərir. Dərs planları fərdi ehtiyaclara uyğun hazırlanmalıdır. Rəqəmsal resurslar və multimedia materialları dərsi interaktiv edir. Fasilitator və mentor rolu müəllimin əsas vəzifələrindəndir. Adaptiv materiallar əlavə dəstək verir. Qiymətləndirmə sistemləri inklüzivliyi dəstəkləməlidir. Qrup işləri əməkdaşlığı artırır. Tədris prosesində valideyn və rəhbərliklə əməkdaşlıq vacibdir. Rəqəmsal platformalar öyrənmə imkanlarını genişləndirir. Müxtəlif öyrənmə üslublarına uyğun strategiyalar tətbiq olunur. Texnoloji infrastruktur dərsin keyfiyyətini təsir edir. Təlimlərin monitorinqi və davamlı yenilənməsi vacibdir. Dövlət dəstəyi və strategiyalar inklüzivliyi gücləndirir. Problemlərin həlli dərsin uğuruna təsir göstərir. İnklüziv dərslər fərdi potensialın inkişafına şərait yaradır. Təhsil prosesi hər bir şagirdin ehtiyacına cavab verməlidir. Beləliklə, inklüziv İngilis dili dərsləri müasir təhsil sistemində mühüm rol oynayır. Bununla yanaşı, fərdiləşdirilmiş yanaşma şagirdlərin öyrənmə motivasiyasını əhəmiyyətli dərəcədə artırır. İnklüziv mühitdə müsbət psixoloji atmosferin yaradılması şagirdlərin özünüifadə bacarıqlarını inkişaf etdirir. Müasir texnologiyaların düzgün seçilməsi və istifadəsi dərsin daha effektiv təşkilinə şərait yaradır. Müəllim və şagird arasında qarşılıqlı etimad təlim prosesinin keyfiyyətinə birbaşa təsir edir. Tədris strategiyalarının çevikliyi müxtəlif ehtiyaclara uyğunlaşmanı təmin edir. Eyni zamanda, davamlı peşəkar inkişaf müəllimlərin inklüziv təhsildə daha uğurlu fəaliyyət göstərməsinə kömək edir. Nəticə etibarilə, inklüziv yanaşmanın düzgün tətbiqi həm akademik, həm də sosial nəticələrin yaxşılaşmasına səbəb olur.

Keywords: inclusive education, English lesson, pedagogy, management, digital resources.

Summary. This article analyzes the organization and management of English lessons in inclusive education. The article covers the pedagogical and management aspects of the inclusive approach. The professional skills of teachers determine the success of the lesson. The digital literacy and active participation of students affect the effectiveness of the lesson. Lesson plans should be prepared in accordance with individual needs. Digital resources and multimedia materials make the lesson interactive. The role of facilitator and mentor is one of the main tasks of the teacher. Adaptive materials provide additional support. Assessment systems should support inclusion. Group work increases cooperation. Cooperation with parents and management is important in the educational process. Digital platforms expand learning opportunities. Strategies suitable for different learning styles are applied. Technological infrastructure affects the quality of the lesson. Monitoring and continuous updating of training are important. State support and

strategies strengthen inclusion. Problem solving affects the success of the lesson. Inclusive lessons create conditions for the development of individual potential. The educational process should meet the needs of each student. Thus, inclusive English lessons play an important role in the modern education system. At the same time, an individualized approach significantly increases students' motivation to learn. Creating a positive psychological atmosphere in an inclusive environment develops students' self-expression skills. The correct selection and use of modern technologies creates conditions for more effective organization of the lesson. Mutual trust between the teacher and the student directly affects the quality of the learning process. The flexibility of teaching strategies ensures adaptation to various needs. At the same time, continuous professional development helps teachers to perform more successfully in inclusive education. As a result, the correct implementation of an inclusive approach leads to improved both academic and social outcomes.

Anahtar kelimeler: kapsayıcı eğitim, İngilizce dersi, pedagoji, yönetim, dijital kaynaklar.

Özet. Bu makale, kaynaştırma eğitiminde İngilizce derslerinin organizasyonunu ve yönetimini analiz etmektedir. Makale, kaynaştırma yaklaşımının pedagojik ve yönetimsel yönlerini ele almaktadır. Öğretmenlerin mesleki becerileri dersin başarısını belirler. Öğrencilerin dijital okuryazarlığı ve aktif katılımı dersin etkinliğini etkiler. Ders planları bireysel ihtiyaçlara göre hazırlanmalıdır. Dijital kaynaklar ve multimedya materyalleri dersi etkileşimli hale getirir. Kolaylaştırıcı ve rehber rolü, öğretmenin temel görevlerinden biridir. Uyarlanabilir materyaller ek destek sağlar. Değerlendirme sistemleri kaynaştırmayı desteklemelidir. Grup çalışması işbirliğini artırır. Ebeveynler ve yönetimle işbirliği eğitim sürecinde önemlidir. Dijital platformlar öğrenme fırsatlarını genişletir. Farklı öğrenme stillerine uygun stratejiler uygulanır. Teknolojik altyapı dersin kalitesini etkiler. Eğitimin izlenmesi ve sürekli güncellenmesi önemlidir. Devlet desteği ve stratejileri kaynaştırmayı güçlendirir. Problem çözme dersin başarısını etkiler. Kaynaştırma dersleri, bireysel potansiyelin gelişmesi için koşullar yaratır. Eğitim süreci her öğrencinin ihtiyaçlarını karşılamalıdır. Bu nedenle, kaynaştırma İngilizce dersleri modern eğitim sisteminde önemli bir rol oynamaktadır. Aynı zamanda, bireyselleştirilmiş bir yaklaşım, öğrencilerin öğrenme motivasyonunu önemli ölçüde artırır. Kapsayıcı bir ortamda olumlu bir psikolojik atmosfer yaratmak, öğrencilerin kendini ifade etme becerilerini geliştirir. Modern teknolojilerin doğru seçimi ve kullanımı, dersin daha etkili bir şekilde organize edilmesi için koşullar yaratır. Öğretmen ve öğrenci arasındaki karşılıklı güven, öğrenme sürecinin kalitesini doğrudan etkiler. Öğretim stratejilerinin esnekliği, çeşitli ihtiyaçlara uyum sağlamayı garanti eder. Aynı zamanda, sürekli mesleki gelişim, öğretmenlerin kapsayıcı eğitimde daha başarılı performans göstermelerine yardımcı olur. Sonuç olarak, kapsayıcı bir yaklaşımın doğru uygulanması, hem akademik hem de sosyal sonuçların iyileşmesine yol açar.

İnklüziv təhsil müasir təhsil sistemində əsas prinsiplərdən biridir və müxtəlif ehtiyaclara malik şagirdlərin təhsil imkanlarını genişləndirir. İngilis dili dərsləri inklüziv siniflərdə xüsusi planlaşdırma və təşkilatçılıq tələb edir. Müəllimlərin inklüziv yanaşmalara hazırlığı dərsin uğurlu keçməsini təmin edir. Bu proses həm pedaqoji, həm də idarəetmə aspektlərini əhatə edir. Müasir dərs planları fərdi ehtiyacları nəzərə alan diferensiallaşdırılmış yanaşmalarla hazırlanır. Sinifdə müxtəlif öyrənmə üslublarına uyğun materiallar istifadə olunmalıdır.

Rəqəmsal resurslar və multimedia vasitələri dərsi daha interaktiv və maraqlı edir. İnteraktiv metodlar şagirdlərin dərsə aktiv iştirakını stimullaşdırır. Müəllimlərin rolu yalnız bilik ötürmək deyil, həm də fasilitator və mentor funksiyasını əhatə edir. Əlavə dəstək tələb edən şagirdlər üçün

adaptiv materiallar hazırlanmalıdır. Qiymətləndirmə sistemləri inklüziv yanaşmanı dəstəkləməlidir. Həm formal, həm də qeyri-formal qiymətləndirmə üsulları istifadə olunmalıdır. Sinif daxilində əməkdaşlıq və qrup işləri tədrisi effektivləşdirir. Müəllimlər valideynlərlə və məktəb rəhbərliyi ilə koordinasiyalı işləməlidirlər. Təlimlərin davamlı qiymətləndirilməsi və yenilənməsi təhsil keyfiyyətini artırır. Müasir texnologiyalar inklüziv dərslərin təşkilini asanlaşdırır. Məqsəd şagirdlərin fərdi potensialını maksimum inkişaf etdirməkdir. Tədris prosesi davamlı monitorinq və dəstək tələb edir (Florian L. & Black-Hawkins K., 2011). Beləliklə, inklüziv İngilis dili dərslərinin uğuru planlı yanaşma və innovativ metodlardan asılıdır.

İnklüziv dərslərdə pedaqoji strategiyalar əsas yer tutur. Müəllimlər tələbələrin fərdi ehtiyaclarını nəzərə alaraq dərs planlarını hazırlayırlar. Fərdiləşdirilmiş yanaşmalar öyrənmə motivasiyasını artırır. Qarışıq öyrənmə modelləri tələbələrin sürətinə uyğunlaşır. Rəqəmsal alətlər dərsi daha interaktiv edir və məlumatın mənimsənilməsini asanlaşdırır. Multimedia və vizual materiallar öyrənməni stimullaşdırır.

Müxtəlif qiymətləndirmə vasitələri tələbələrin nailiyyətlərini obyektiv ölçür. Qrup layihələri əməkdaşlığı və sosial bacarıqları inkişaf etdirir. Müəllimlər dərsi idarə edərkən fasilitator rolunu mənimsəyirlər. Tələbələrin aktiv iştirakı dərsi daha effektiv edir. Adaptiv resurslar ehtiyacı olan şagirdlər üçün əlavə dəstək verir. Rəqəmsal platformalar şagirdlərin fərdi öyrənmə yollarını dəstəkləyir. İnteraktiv fəaliyyətlər yaradıcılığı stimullaşdırır. Müxtəlif təlim üsulları dərsin keyfiyyətini artırır. Təcrübələr göstərir ki, pedaqoji strategiyaların düzgün seçimi inklüziv dərsin effektivliyini yüksəldir (Tomlinson C.A., 2014).

İdarəetmə aspektləri inklüziv İngilis dili dərslərində mühüm rol oynayır. Sinifdə təşkilatçılıq müəllim və rəhbərlik tərəfindən koordinasiya edilməlidir. Təhsil müəssisələrində resursların idarə olunması əhəmiyyətlidir. Rəqəmsal idarəetmə alətləri dərs prosesini izləməyə imkan verir. Sinifin idarə olunması şagirdlərin ehtiyaclarına uyğun aparılmalıdır. Valideynlər və məktəb rəhbərliyi ilə əməkdaşlıq önəmlidir. Tədris planları strateji məqsədlərə uyğun hazırlanmalıdır. Müəllimlər qrup dinamikasını nəzərə almalıdırlar. Rəhbərlik dərs zamanı müəllimə dəstək göstərməlidir. Texnoloji infrastrukturun mövcudluğu dərsin effektivliyini artırır. Resursların bərabər paylanması inklüzivliyi təmin edir. Monitorinq və qiymətləndirmə idarəetməni dəstəkləyir. Müəllimlərin inkişafı üçün seminarlar təşkil edilməlidir. Planlama və hesabatlılıq şagirdlərin uğurunu təmin edir (UNESCO, 2020). Beləliklə, idarəetmə dərsin keyfiyyətini və inklüzivliyini birbaşa təsir edir.

Müəllimlərin peşəkar bacarıqları inklüziv dərslərin təşkilində həlledicidir. Müəllimlər müxtəlif öyrənmə ehtiyaclarını anlaya bilməlidirlər. Rəqəmsal bacarıqlar dərsi daha effektiv edir. Adaptiv tədris materialları müəllimin işini asanlaşdırır. Müəllimlər həm bilik ötürən, həm də öyrənmə prosesi rəhbəri olmalıdır. Təlim metodlarının yenilənməsi davamlı peşəkar inkişaf tələb edir. Müəllimlərin təcrübəsi və bacarığı şagirdlərin nailiyyətlərinə təsir göstərir. Əməkdaşlığa əsaslanan yanaşmalar dərsi daha maraqlı edir. Qrup işləri müəllim və şagirdlər arasında qarşılıqlı əlaqəni gücləndirir. Rəqəmsal qiymətləndirmə nəticələrin obyektiv olmasına imkan verir. Müəllimlər resursları effektiv istifadə etməlidirlər. Şagirdlərin fərdi ehtiyaclarına uyğun dərs planları hazırlanmalıdır. Təlimlərin planlanması və monitorinqi müəllimlərin bacarıqlarını artırır. Müasir müəllimlərin rolu yalnız bilik ötürmək deyil, həm də mentor və fasilitator olmaqdır (Haug P., 2019). Beləliklə, müəllimlərin bacarıqları inklüziv İngilis dili dərslərinin əsas göstəricisidir.

Tələbələrin rolu və rəqəmsal savadlılığı inklüziv dərslərdə önəmlidir. Şagirdlər interaktiv texnologiyalardan istifadə etməyi bilməlidirlər. Bu onların öyrənmə prosesini sürətləndirir. Tələbələr öz sürətində öyrənmək imkanı əldə edirlər. Qrup işləri sosial bacarıqları inkişaf etdirir.

Rəqəmsal platformalar müstəqil öyrənməyi dəstəkləyir. Tənqidi düşünmə bacarıqları inkişaf edir. İnklüziv dərslər əməkdaşlığa əsaslanır. Şagirdlərin aktiv iştirakı motivasiyanı artırır. Multimedia materialları öyrənməni asanlaşdırır. Tələbələr layihələr üzərində işləyirlər. Rəqəmsal savadlılıq gələcək karyerada vacibdir. Təhsil prosesi şagirdlərin fərdi potensialını inkişaf etdirməlidir. Monitorinq və qiymətləndirmə onların nailiyyətini izləyir (AR Təhsil Nazirliyi, 2020). Beləliklə, tələbələrin iştirakı və bacarıqları dərsin uğuruna birbaşa təsir göstərir.

İnklüziv dərslərdə texnoloji və resurs problemləri də mövcuddur. İnternetə çıxışın məhdudluğu dərs prosesinə təsir edir. Texnoloji infrastruktura maliyyə ayrılması vacibdir. Müəllimlərin rəqəmsal bacarıqları bəzən kifayət etmir. Təlim proqramlarının yenilənməsi vacibdir. Adaptiv materialların hazırlanması resurs tələb edir. Dövlət dəstəyi və strategiyalar transformasiyanı asanlaşdırır. Rəqəmsal bərabərsizlik aradan qaldırılmalıdır. Təhsil müəssisələrinin texniki təminatı gücləndirilməlidir. Bu problemlərin həlli dərsin effektivliyini artırır. Müəllimlərin davamlı inkişafı təmin edilməlidir. Valideyn və rəhbərliklə əməkdaşlıq artırılmalıdır. Planlama və monitorinq problemlərin qarşısını alır. Texnoloji dəstək və resurslar vacibdir. Beləliklə, çağırışların həlli inklüziv dərslərin uğurunu təmin edir.

Nəticə olaraq, inklüziv təhsil sistemində İngilis dili dərslərinin uğuru planlı pedaqoji və idarəetmə yanaşmalarından asılıdır. Müəllimlərin peşəkar bacarıqları və rəqəmsal savadlılığı önəmlidir. Tələbələrin aktiv iştirakı dərsin effektivliyini artırır. Rəqəmsal resurslar və texnologiyalar dərsi interaktiv edir. İdarəetmə və resursların düzgün istifadəsi dərsin keyfiyyətinə təsir göstərir. Valideyn və məktəb rəhbərliyi ilə əməkdaşlıq vacibdir. Təlimlərin monitorinqi və davamlı yenilənməsi uğur təmin edir. Adaptiv materiallar fərdi ehtiyacları dəstəkləyir. Qrup işləri əməkdaşlığı və sosial bacarıqları gücləndirir. Müasir müəllimlər həm bilik ötürən, həm də fasilitator rolunu oynayırlar. Strategiyalar və texnologiyalar dərsi zənginləşdirir. Rəqəmsal bərabərsizlik aradan qaldırılmalıdır. Dövlət və təhsil qurumlarının dəstəyi vacibdir. Təhsil prosesi hər bir şagirdin potensialını inkişaf etdirməlidir. Beləliklə, inklüziv İngilis dili dərsləri gələcəyin təhsil modelinə xidmət edir.

Ədəbiyyat:

1. Florian, L. & Black-Hawkins, K. (2011). Exploring Inclusive Pedagogy. Routledge.
2. Tomlinson, C. A. (2014). The Differentiated Classroom. ASCD.
3. UNESCO (2020). Inclusive Education Guidelines. Paris: UNESCO.
4. Haug, P. (2019). Managing Inclusive Classrooms. Springer.
5. AR Təhsil Nazirliyi (2020). İnklüziv təhsil strategiyası. Bakı: Təhsil Nəşriyyatı.

XÜSUSİ TƏHSİL EHTİYACI OLAN UŞAQLARLA İŞİN PEDAQOJİ ƏSASLARI

Könül Zaur qızı Şxəliyeva
baş müəllim
Azərbaycan Respublikası
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Azərbaycan Dövlət Pedaqoji Universitetinin doktorantı
konul.eliyeva.17@mail.ru
ORCİD ID: 0009-0001-2641-985X

Açar sözlər: inklüziv təhsil, fərdi yanaşma, müəllim, şagird, əməkdaşlıq, diferensiallaşdırılmış təlim, sosial inkişaf.

Xülasə. Bu məqalə inklüziv təhsilin mahiyyəti, prinsipləri və xüsusi təhsil ehtiyacı olan uşaqlarla işləməyin pedaqoji əsaslarını araşdırır. İnklüziv təhsil hər bir uşağın, o cümlədən xüsusi təhsil ehtiyacı olan uşaqların, təhsil prosesində bərabər imkanlarla iştirakını təmin edən yanaşmadır. Məqalədə UNESCO və digər tədqiqatçıların nəzəriyyələrinə istinad edilərək inklüziv təhsilin məqsədi, fərdi yanaşma və sosial inteqrasiyanın önəmi vurğulanır. Xüsusi təhsil ehtiyacı olan uşaqlarla işləmək fərdi yanaşmanı, diferensiallaşdırılmış təlimi, müxtəlif öyrənmə metodlarının tətbiqini və davamlı qiymətləndirməni tələb edir. Müəllimin rolu burada çox şaxəlidir; o, yalnız bilik ötürən deyil, həm də uşağın sosial və emosional inkişafını dəstəkləyən pedaqoq kimi çıxış edir. Florianın və digər tədqiqatçıların fikirlərinə görə, müəllimin inklüziv bacarıqları uşağın potensialını maksimum səviyyədə üzə çıxarmağa imkan yaradır.

Ailə və məktəb əməkdaşlığı da uşağın inkişafında mühüm rol oynayır. Valideynlərin aktiv iştirakı və müəllimlərlə sıx əməkdaşlıq uşağın akademik və sosial bacarıqlarının inkişafını gücləndirir. Mövcud problemlər arasında müəllimlərin peşəkar hazırlıq səviyyəsinin aşağı olması, resurs çatışmazlığı və sosial mühitdə fərqliliklərin qəbul olunmaması qeyd olunur. Bu problemlərin həlli üçün davamlı təlim, resurs təminatı və uşaqların empati və tolerantlıq bacarıqlarının inkişaf etdirilməsi vacibdir. Nəticədə, inklüziv təhsil yalnız pedaqoji yanaşma deyil, həm də sosial ədalət və hər bir uşağın inkişafını təmin edən sistemdir. Fərdi yanaşma, düzgün metod seçimi, müəllim və valideyn əməkdaşlığı və davamlı qiymətləndirmə inklüziv təhsilin effektivliyini artırır və uşaqların akademik, sosial və emosional inkişafına zəmin yaradır.

Keywords: inclusive education, individual approach, teacher, student, collaboration, differentiated instruction, social development.

Summary. This article examines the essence, principles, and pedagogical foundations of working with children with special educational needs within the framework of inclusive education. Inclusive education ensures equal opportunities for every child, including those with special needs, to participate fully in the learning process. Drawing on UNESCO guidelines and research studies, the article highlights the objectives of inclusive education, the importance of individualized approaches, and social integration. Working with children with special educational needs requires individualized attention, differentiated instruction, the application of various teaching methods, and continuous assessment. The teacher’s role is multifaceted; they are not only knowledge transmitters but also pedagogues who support the child’s social and emotional development. According to Florian and other researchers, teachers’ inclusive skills enable children to realize their full potential.

Family-school collaboration also plays a crucial role in a child’s development. Active parental involvement and close cooperation with teachers enhance the child’s academic and social skills. Common challenges include insufficient teacher training, lack of resources, and low acceptance of diversity within the social environment. Addressing these issues requires continuous professional development, resource provision, and fostering children’s empathy and tolerance skills. İn conclusion, inclusive education is not only a pedagogical approach but also a system that promotes social justice and ensures the development of every child. Individualized approaches, appropriate method selection, teacher-parent collaboration, and continuous assessment increase the effectiveness of inclusive education and support children’s academic, social, and emotional growth.

Anahtar kelimeler: kapsayıcı eğitim, bireysel yaklaşım, öğretmen, öğrenci, iş birliği, farklılaştırılmış öğretim, sosyal gelişim.

Özet. Bu makale, özel eğitim ihtiyacı olan çocuklarla çalışmanın pedagojik temelleri ve kapsayıcı eğitim çerçevesindeki esaslarını incelemektedir. Kapsayıcı eğitim, her çocuğun, özel ihtiyaçları olanlar da dahil olmak üzere, eğitim sürecine eşit fırsatlarla katılımını sağlamaktadır. UNESCO rehberleri ve araştırmalar doğrultusunda, makalede kapsayıcı eğitimin amaçları, bireyselleştirilmiş yaklaşımların önemi ve sosyal entegrasyon vurgulanmaktadır. Özel eğitim ihtiyacı olan çocuklarla çalışmak, bireysel yaklaşımı, farklılaştırılmış öğretimi, çeşitli öğretim yöntemlerinin uygulanmasını ve sürekli değerlendirmeyi gerektirir. Öğretmenin rolü çok yönlüdür; yalnızca bilgi aktaran değil, aynı zamanda çocuğun sosyal ve duygusal gelişimini destekleyen bir pedagoj olarak işlev görür. Florian ve diğer araştırmacılara göre, öğretmenlerin kapsayıcı becerileri, çocukların potansiyelini en üst düzeye çıkarmasına imkan tanır.

Aile ve okul iş birliği de çocuğun gelişiminde kritik bir rol oynar. Ebeveynlerin aktif katılımı ve öğretmenlerle yakın iş birliği, çocuğun akademik ve sosyal becerilerini güçlendirir. Karşılaşılan yaygın sorunlar arasında öğretmenlerin yeterli mesleki hazırlığının olmaması, kaynak eksikliği ve sosyal ortamda farklılıklara düşük kabul yer almaktadır. Bu sorunların çözümü için sürekli mesleki gelişim, kaynak sağlanması ve çocukların empati ve hoşgörü becerilerinin geliştirilmesi gereklidir. Sonuç olarak, kapsayıcı eğitim yalnızca pedagojik bir yaklaşım değil, aynı zamanda sosyal adaleti teşvik eden ve her çocuğun gelişimini güvence altına alan bir sistemdir. Bireyselleştirilmiş yaklaşımlar, uygun yöntem seçimi, öğretmen-veli iş birliği ve sürekli değerlendirme, kapsayıcı eğitimin etkinliğini artırır ve çocukların akademik, sosyal ve duygusal gelişimini destekler.

Müasir dövrdə təhsil sisteminin əsas istiqamətlərindən biri bütün uşaqlar üçün bərabər təhsil imkanlarının yaradılmasıdır. Bu yanaşma xüsusilə xüsusi təhsil ehtiyacı olan uşaqların təhsil prosesinə cəlb olunması və onların inkişaf potensialının üzə çıxarılması baxımından böyük əhəmiyyət daşıyır. İnklüziv təhsil ideyası yalnız fiziki olaraq eyni mühitdə təhsil almağı deyil, həm də hər bir uşağın fərdi xüsusiyyətlərinin nəzərə alınaraq inkişafına şərait yaradılmasını nəzərdə tutur. Xüsusi təhsil ehtiyacı olan uşaqlar müxtəlif səbəblərdən — fiziki, psixoloji və ya sosial inkişaf fərqliliklərinə görə — təlim prosesində əlavə dəstəyə ehtiyacı olan fərdlərdir. Bu uşaqlarla aparılan pedaqoji işin səmərəliliyi tətbiq olunan metodların düzgün seçilməsindən, fərdi yanaşmanın təmin olunmasından və müəllimin peşəkar hazırlığından birbaşa asılıdır. Belə ki, hər bir uşağın öyrənməsi, qavrama səviyyəsi və maraq dairəsi fərqli olduğundan təlim prosesi də bu xüsusiyyətlərə uyğun şəkildə təşkil edilməlidir. Bununla yanaşı, inklüziv təhsil yalnız pedaqoji proseslə məhdudlaşmır. Bu sahədə uğurlu nəticələrin əldə olunması üçün məktəb, ailə və cəmiyyət arasında qarşılıqlı əməkdaşlığın qurulması mühüm şərt kimi çıxış edir. Uşağın inkişafı kompleks xarakter daşıdığı üçün onun sosial mühiti də bu prosesə birbaşa təsir göstərir. Bu kateqoriyaya

daxil olan uşaqlar arasında öyrənmə çətinliyi yaşayanlar, nitq və ünsiyyət problemləri olanlar, görmə və eşitmə məhdudiyyətləri olanlar, eləcə də davranış pozuntuları müşahidə edilən uşaqlar yer alır. Hər bir qrupun özünəməxsus inkişaf xüsusiyyətləri olduğuna görə onlarla aparılan pedaqoji iş də fərqli yanaşmalar tələb edir. Məhz buna görə də vahid standart metodların tətbiqi əvəzinə fərdi və diferensiallaşdırılmış təlim əsas götürülməlidir. (Hornby G., 2015)

Xüsusi təhsil ehtiyacı olan uşaqların əsas xüsusiyyətlərindən biri onların öyrənmə tempinin fərqli olmasıdır. Bəzi uşaqlar məlumatı daha gec mənimsəyir, bəziləri isə informasiyanı qəbul etmək üçün əlavə vizual və ya praktik dəstəyə ehtiyac duyur. Eyni zamanda, diqqətin tez yayınması, motivasiyanın aşağı olması və sosial münasibətlərdə çətinliklər də bu uşaqlarda tez-tez müşahidə olunan xüsusiyyətlər sırasındadır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, xüsusi təhsil ehtiyacı olan uşaqlar yalnız çətinlikləri ilə deyil, həm də potensial imkanları ilə seçilirlər. Düzgün pedaqoji yanaşma tətbiq edildikdə onların qabiliyyətləri inkişaf etdirilə və cəmiyyətə uğurla inteqrasiya olunmaları təmin edilə bilər. Bu baxımdan müəllimin və digər mütəxəssislərin əsas vəzifəsi uşağın zəif tərəflərini deyil, güclü tərəflərini aşkara çıxarmaq və inkişaf etdirməkdir. Beləliklə, xüsusi təhsil ehtiyacı olan uşaqların xüsusiyyətlərinin dərindən öyrənilməsi onların təlim və tərbiyə prosesinin düzgün qurulması üçün əsas şərtlərdən biridir və inklüziv təhsilin uğurlu həyata keçirilməsində mühüm rol oynayır.

İnklüziv təhsil müasir təhsil sistemində bütün uşaqların fərdi xüsusiyyətlərindən asılı olmayaraq ümumi təhsil mühitində iştirakını təmin etməyə yönəlmiş yanaşma kimi xarakterizə olunur. Bu yanaşmanın əsas məqsədi xüsusi təhsil ehtiyacı olan uşaqların təhsil prosesinə inteqrasiyasını təmin etməklə yanaşı, onların sosial və idrak potensialının inkişafına şərait yaratmaqdır. İnklüziv təhsil müxtəlifliyin qəbul edilməsi və hər bir uşağın dəyərli fərd kimi qiymətləndirilməsi ideyasına əsaslanır. Tədqiqatçılar qeyd edirlər ki, inklüziv təhsil yalnız fiziki inteqrasiya ilə məhdudlaşmır, o, eyni zamanda təlim mühitinin uşaqların ehtiyaclarına uyğunlaşdırılmasını da nəzərdə tutur. Bu baxımdan UNESCO inklüziv təhsili belə izah edir: “İnklüziv təhsil bütün öyrənənlərin müxtəlif ehtiyaclarını nəzərə alaraq onların təhsil prosesində iştirakını artırmaq və kənarlaşdırmanı minimuma endirmək məqsədi daşıyır.” İnklüziv təhsilin mahiyyətini aydın şəkildə göstərir və onun əsas məqsədini vurğulayır: hər bir uşağın, o cümlədən xüsusi təhsil ehtiyacı olan uşaqların, təhsil prosesində bərabər imkanlarla iştirak etməsi. UNESCO-nun bu yanaşması müəllimlər üçün konkret bir rəhbər rolunu oynayır, çünki onlar təlim metodlarını fərdiləşdirməli, əlavə resurs və dəstəyi təmin etməli və hər bir uşağın təlimdə iştirakını maksimum səviyyədə təmin etməlidirlər. Bu yanaşma eyni zamanda sosial ədalətin və inklüziv cəmiyyətin formalaşması üçün də vacibdir.

İnklüziv təhsilin əsas prinsiplərindən biri fərdiləşdirmə prinsipidir. Bu prinsipə görə, hər bir şagirdin öyrənmə xüsusiyyətləri, maraqları və imkanları nəzərə alınmalı, təlim prosesi buna uyğun təşkil edilməlidir. Digər mühüm prinsip bərabər imkanların təmin edilməsidir ki, bu da bütün uşaqların təhsil resurslarına çıxışını təmin edir. Bundan əlavə, əməkdaşlıq prinsipi də inklüziv təhsildə böyük əhəmiyyət kəsb edir. Müəllim, valideyn və digər mütəxəssislər arasında qurulan qarşılıqlı əməkdaşlıq uşağın inkişafına müsbət təsir göstərir. Eyni zamanda tolerantlıq və qarşılıqlı hörmət prinsipləri inklüziv mühitin formalaşdırılmasının əsasını təşkil edir. Bu mühitdə uşaqlar bir-birinin fərqliliklərini qəbul etməyi öyrənir və sosial bacarıqlarını inkişaf etdirirlər. Beləliklə, inklüziv təhsilin mahiyyəti və prinsipləri təlim prosesinin humanistləşdirilməsinə, fərdi yanaşmanın təmin olunmasına və bütün uşaqlar üçün əlverişli təhsil mühitinin yaradılmasına xidmət edir.

UNESCO-nun qeyd etdiyi yanaşma bu prinsipləri praktik baxımdan təsdiqləyir və müəllimlər üçün aydın rəhbər rolunu oynayır.

Xüsusi təhsil ehtiyacı olan uşaqlarla işləmək yalnız bilik ötürməkdən ibarət deyil, eyni zamanda onların sosial, emosional və idrak inkişafını təmin etmək üçün kompleks pedaqoji yanaşmanı tələb edir. Bu prosesdə əsas məqsəd uşaqların fərdi xüsusiyyətlərini nəzərə alaraq onların təlimdə aktiv iştirakını təmin etmək və öyrənmə bacarıqlarını inkişaf etdirməkdir. Pedaqoji əsasların birinci elementi fərdi yanaşmadır. Hər bir uşağın öyrənmə sürəti, maraqları və qabiliyyətləri fərqlidir. Məsələn, nitqdə gecikmə və ya diqqət problemləri olan uşaqlar üçün vizual materiallar, oyunlar və praktiki tapşırıqlar effektiv ola bilər. Bu yanaşma uşağın öyrənmə prosesini daha maraqlı və əlçatan edir, motivasiyasını artırır. İkinci mühüm element diferensiallaşdırılmış təlimdir. Bu, sinifdəki bütün uşaqlar üçün eyni materialların istifadəsi əvəzinə, onların imkanlarına uyğun fərqli tapşırıqların və fəaliyyətlərin tətbiqini nəzərdə tutur. Məsələn, oxu çətinliyi yaşayan şagirdlər üçün böyük hərfli və şəkilli kitablar, riyaziyyat dərslərində isə əyani materiallardan istifadə edilməlidir. Üçüncü əsas prinsip müxtəlif öyrənmə metodlarının tətbiqidir. İnklüziv sinifdə dərs yalnız auditoriyada izahdan ibarət olmamalıdır. Əksinə, layihə əsaslı fəaliyyət, kiçik qruplarla iş, rol oyunları, sensor tapşırıqlar və texnoloji vasitələrdən istifadə kimi metodlar uşaqların fərdi bacarıqlarını inkişaf etdirməyə imkan verir. Dördüncü mühüm amil müəllim və valideyn əməkdaşlığıdır. Uşağın inkişafında ailənin rolu əvəzsizdir. Müəllim valideynlərlə mütəmadi əlaqədə olaraq uşağın ehtiyaclarını, nailiyyətlərini və çətinliklərini izləməli, uyğun strategiyalar hazırlamalıdır. Bu əməkdaşlıq uşağın sosiallaşmasını gücləndirir və təlim nəticələrinin daha effektiv olmasına şərait yaradır. Pedaqoji prosesdə müntəzəm qiymətləndirmə və refleksiya da vacibdir. Uşağın irəliləyişini davamlı izləmək və əldə olunan nəticələrə əsaslanaraq təlim strategiyalarını yenidən qurmaq tədrisin keyfiyyətini artırır. Həmçinin, uşaqların uğurlarını kiçik addımlarla qeyd etmək onların özünəinamını və öyrənmə motivasiyasını gücləndirir. (Tomlinson C. A., 2014)

Nəticədə, xüsusi təhsil ehtiyacı olan uşaqlarla işin pedaqoji əsasları fərdi yanaşma, diferensiallaşdırılmış təlim, müxtəlif metodların tətbiqi, müəllim-valideyn əməkdaşlığı və davamlı qiymətləndirmə prinsiplərinə əsaslanır. Bu yanaşma uşağın həm akademik, həm sosial, həm də emosional inkişafını təmin etməyə imkan yaradır və inklüziv təhsilin səmərəli həyata keçirilməsinə zəmin yaradır. Xüsusi təhsil ehtiyacı olan uşaqlarla işdə təlim metodlarının düzgün seçilməsi və fərdi yanaşmanın tətbiqi böyük əhəmiyyət kəsb edir. Hər bir uşağın öyrənmə xüsusiyyətləri fərqlidir və buna uyğun metodların tətbiqi onların bilik, bacarıq və sosial inkişafına birbaşa təsir göstərir. Fərdi yanaşma uşağın qabiliyyətlərinə uyğun tapşırıqların verilməsini, öyrənmə tempinə nəzarəti və əlavə dəstəyin təmin edilməsini əhatə edir.

Tədqiqatçılar bildirirlər ki, fərdi yanaşmanın tətbiqi inklüziv sinifdə öyrənmə nəticələrini əhəmiyyətli dərəcədə artırır. Məsələn, Tomlinson, C.A. qeyd edir: “Diferensiallaşdırılmış təlim uşaqların fərdi ehtiyaclarına cavab vermək üçün müxtəlif metod və vəsaitlərin sistemli tətbiqini tələb edir. Bu yanaşma hər bir şagirdin potensialını maksimum dərəcədə üzə çıxarmağa imkan verir.” Təlimdə fərdi yanaşmanın praktiki əhəmiyyətini vurğulayır. Onun mahiyyətinə görə, hər bir uşağın öyrənmə xüsusiyyətləri nəzərə alınmalı və tədris metodları buna uyğun olaraq uyğunlaşdırılmalıdır. Sitat müəllimlər üçün rəhbərdir: dərs planlamasında yalnız standart metodlardan istifadə etmək əvəzinə, şagirdlərin fərdi ehtiyaclarını nəzərə alaraq vizual, audio, oyun əsaslı və layihə yönümlü fəaliyyətlərdən istifadə edilməlidir. Məsələn, oxu çətinliyi yaşayan uşaqlar üçün şəkilli materiallar və qısa hekayələrdən istifadə etmək onların qavrayışını asanlaşdırır. Nitq problemləri olan uşaqlar üçün isə interaktiv oyunlar, rol oyunları və qrup tapşırıqları öyrənmə

motivasiyasını artırır. Eyni zamanda texnoloji vasitələrin tətbiqi, məsələn, audio kitablar və interaktiv proqramlar, uşağın fərdi inkişafına dəstək olur. Beləliklə, təlim metodlarının düzgün seçilməsi və fərdi yanaşmanın tətbiqi xüsusi təhsil ehtiyacı olan uşaqların öyrənmə motivasiyasını yüksəldir, onların potensialını reallaşdırmağa imkan yaradır və inklüziv təhsilin effektivliyini təmin edir.

İnklüziv təhsildə müəllim yalnız bilik ötürən deyil, eyni zamanda dəstəkləyici, yönləndirici və motivasiyaedici şəxs kimi çıxış edir. Xüsusi təhsil ehtiyacı olan uşaqlarla işləyən müəllim yüksək səviyyəli pedaqoji hazırlıq, səbir və empati bacarıqlarına malik olmalıdır. Onun əsas vəzifəsi uşağın fərdi xüsusiyyətlərini nəzərə alaraq təlim prosesini təşkil etmək, öyrənmə çətinliklərini aşmaq üçün uyğun strategiyalar tətbiq etməkdir. Müəllimin rolu həmçinin uşağın sosial və emosional inkişafını təmin etmək, onun özünəinamını gücləndirmək və sinifdə inklüziv mühitin formalaşmasını dəstəkləməkdən ibarətdir. Bu baxımdan müəllim həm fərdi, həm də kollektiv fəaliyyətlərin təşkili ilə məşğul olur, şagirdlərin bir-biri ilə əməkdaşlıq etməsinə şərait yaradır.

Xülasə. Müasir təhsil sistemində əsas prioritetlərdən biri bütün fərdlər üçün bərabər və keyfiyyətli təhsil imkanlarının təmin edilməsidir. Bu baxımdan inklüziv təhsil xüsusi aktuallıq qazanmışdır. İnklüziv təhsil yalnız xüsusi ehtiyaclı şəxsləri deyil, bütün şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq onların cəmiyyətə tamhüquqlu inteqrasiyasını təmin edən müasir yanaşmadır. Bu model sosial ədalət və insan hüquqları prinsiplərinə əsaslanır, fərdlərin potensialını reallaşdırmağa şərait yaradır və təhsilin humanist mahiyyətini ön plana çıxarır. İnklüziv təhsil müxtəlif fiziki, psixoloji və sosial xüsusiyyətlərə malik şagirdlərin eyni mühitdə birlikdə təhsil almasını təmin edir. Bu yanaşma təhsildə ayrı-seçkiliyi aradan qaldırır, bərabər imkanlar yaradır və inklüziv cəmiyyətin formalaşmasına xidmət edir. Əsas prinsiplər fərdiləşdirilmiş tədris, sosial inteqrasiyanın təşviqi, qarşılıqlı əməkdaşlıq mühitinin yaradılması və təhsil mühitinin bütün şagirdlər üçün əlçatan olmasıdır. İnklüziv model şagirdlərdə tolerantlıq, empatiya, hörmət və sosial məsuliyyətin inkişafına kömək edir. Beynəlxalq təcrübə göstərir ki, inklüziv təhsilin uğurlu tətbiqi sistemli yanaşma, müəllimlərin davamlı peşəkar inkişafı, fərdi təhsil planlarının hazırlanması və innovativ pedaqoji metodların tətbiqini tələb edir. Bununla yanaşı, müəllim hazırlığının yetərsizliyi, maddi-texniki baza, tədris proqramlarının fərdi ehtiyacları tam əhatə etməməsi və cəmiyyətdəki stereotiplər əsas problemlərdir. Azərbaycanda inklüziv təhsil sahəsində mühüm addımlar atılmış, dövlət proqramları ilə müəllim hazırlığı gücləndirilmiş, məktəb infrastrukturu tədricən yaxşılaşdırılmışdır. Təhsil prosesində fərdi yanaşma, inklüziv pedaqogika üzrə təlimlər və psixoloji dəstək xidmətləri xüsusi əhəmiyyət daşıyır. Nəticədə, inklüziv təhsil müasir təhsil sisteminin

ayrılmaz hissəsi olmaqla cəmiyyətin sosial və humanist inkişafında mühüm rol oynayır, bərabər imkanların təmin olunmasına və daha ədalətli cəmiyyətin qurulmasına xidmət edir.

Keywords: inclusive education, equal educational opportunities, individualized instruction, social integration, educational environment, education policy.

Summary. One of the main priorities of the modern education system is to ensure equal and quality educational opportunities for all individuals. In this context, inclusive education has gained particular importance. Inclusive education is a contemporary approach that not only addresses the needs of students with special requirements but also considers the individual characteristics of all learners, ensuring their full integration into society. This model is based on principles of social justice and human rights, enabling individuals to realize their potential and emphasizing the humanistic nature of education. Inclusive education allows students with diverse physical, psychological, and social characteristics to learn together in the same environment. This approach eliminates discrimination in education, provides equal opportunities, and contributes to the formation of an inclusive society. Its main principles include individualized teaching, promotion of social integration, fostering a collaborative environment, and ensuring accessibility for all students. The inclusive model helps develop tolerance, empathy, respect, and social responsibility among students. International experience shows that successful implementation requires a systematic approach, continuous professional development for teachers, preparation of individual education plans, and the use of innovative pedagogical methods. Challenges include insufficient teacher training, weak material and technical resources, curricula not fully meeting individual needs, and existing societal stereotypes. In Azerbaijan, significant steps have been taken to advance inclusive education, including strengthened teacher training through state programs and gradual improvement of school infrastructure. Individualized approaches, training in inclusive pedagogy, and psychological support services are crucial in the education process.

Anahtar kelimeler: kapsayıcı eğitim, eşit eğitim fırsatları, bireyselleştirilmiş öğretim, sosyal entegrasyon, eğitim ortamı, eğitim politikası.

Özet. Modern eğitim sisteminde temel önceliklerden biri, tüm bireyler için eşit ve kaliteli eğitim olanaklarının sağlanmasıdır. Bu bağlamda kapsayıcı eğitim özel bir önem kazanmıştır. Kapsayıcı eğitim, yalnız özel ihtiyaçları olan öğrencileri değil, tüm öğrencilerin bireysel özelliklerini dikkate alarak onların topluma tam entegrasyonunu sağlayan modern bir yaklaşımdır. Bu model, sosyal adalet ve insan hakları ilkelerine dayanır, bireylerin potansiyellerini gerçekleştirmelerine imkân tanır ve eğitimin insancıl niteliğini ön plana çıkarır. Kapsayıcı eğitim, farklı fiziksel, psikolojik ve sosyal özelliklere sahip öğrencilerin aynı ortamda birlikte eğitim almasını sağlar. Bu yaklaşım, eğitimde ayrımcılığı ortadan kaldırır, eşit fırsatlar sunar ve kapsayıcı bir toplumun oluşmasına katkıda bulunur. Temel ilkeler arasında bireyselleştirilmiş öğretim, sosyal entegrasyonun teşviki, karşılıklı işbirliği ortamının oluşturulması ve eğitim ortamının tüm öğrenciler için erişilebilir olması yer alır. Kapsayıcı model, öğrencilerin hoşgörü, empati, saygı ve sosyal sorumluluk gelişimine yardımcı olur. Uluslararası deneyim, kapsayıcı eğitimin başarılı uygulanmasının sistemli bir yaklaşım, öğretmenlerin sürekli mesleki gelişimi, bireysel eğitim planlarının hazırlanması ve yenilikçi pedagojik yöntemlerin uygulanmasını gerektirdiğini göstermektedir. Bununla birlikte, öğretmen hazırlığının yetersizliği, maddi- teknik altyapı eksiklikleri, müfredatın bireysel ihtiyaçları tam kapsamaması ve toplumdaki kalıplaşmış önyargılar temel sorunlardır. Azerbaycan’da kapsayıcı eğitim alanında önemli adımlar atılmış, devlet programları ile öğretmen eğitimi güçlendirilmiş ve okul altyapısı kademeli olarak iyileştirilmiştir.

Eğitim sürecinde bireysel yaklaşım, kapsayıcı pedagoji eğitimleri ve psikolojik destek hizmetleri özel önem taşımaktadır. Sonuç olarak, kapsayıcı eğitim modern eğitim sisteminin ayrılmaz bir parçası olarak toplumun sosyal ve insancıl gelişiminde önemli bir rol oynamakta, eşit fırsatların sağlanmasına ve daha adil bir toplumun inşasına hizmet etmektedir.

Müasir təhsil sisteminin əsas prioritet istiqamətlərindən biri bütün fərdlər üçün bərabər və keyfiyyətli təhsil imkanlarının təmin edilməsidir. Bu baxımdan inklüziv təhsil anlayışı xüsusi aktuallıq qazanmışdır. İnklüziv təhsil yalnız xüsusi təhsil ehtiyacları olan şəxsləri deyil, bütün təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan və onların cəmiyyətə tamhüquqlu inteqrasiyasını təmin edən müasir yanaşmadır. Bu model sosial ədalət və insan hüquqları prinsiplərinə əsaslanaraq hər bir fərdin potensialının reallaşdırılmasına şərait yaradır və təhsilin humanist mahiyyətini ön plana çıxarır.(Ainscow, M., Booth, T., & Dyson, A. ,2006).

İnklüziv təhsil müxtəlif fiziki, psixoloji və sosial xüsusiyyətlərə malik şagirdlərin eyni təhsil mühitində birlikdə təhsil almasını nəzərdə tutur. Bu yanaşma təhsildə ayrı-seçkiliyin aradan qaldırılmasına, bərabər imkanların yaradılmasına və inklüziv cəmiyyətin formalaşdırılmasına xidmət edir. Bu modeldə əsas diqqət şagirdlərin məhdudiyyətlərinə deyil, onların imkan və potensialına yönəldilir. Tədris prosesi şagirdlərin fərdi ehtiyaclarına uyğun şəkildə təşkil olunur ki, bu da onların daha effektiv öyrənməsinə və inkişafına şərait yaradır. (Ainscow, M., Booth, T., & Dyson, A. ,2006).

İnklüziv təhsilin əsas prinsiplərinə təhsildə bərabər imkanların təmin olunması, fərdiləşdirilmiş tədris yanaşmasının tətbiqi, sosial inteqrasiyanın təşviqi, qarşılıqlı əməkdaşlıq mühitinin yaradılması və təhsil mühitinin bütün şagirdlər üçün əlçatan olması daxildir. Bu prinsiplər inklüziv təhsilin həm nəzəri, həm də praktik əsasını təşkil edir və onun uğurlu tətbiqində istiqamətverici rol oynayır. İnklüziv təhsil yalnız fərdi inkişaf baxımından deyil, cəmiyyət üçün də böyük əhəmiyyət daşıyır. Bu model şagirdlərdə tolerantlıq, empatiya, qarşılıqlı hörmət və sosial məsuliyyət kimi dəyərlərin formalaşmasına kömək edir. İnklüziv mühitdə təhsil alan fərdlər gələcəkdə daha çevik düşünən, fərqliliklərə açıq yanaşan və sosial münasibətlərdə daha uğurlu olan şəxslərə çevrilirlər. Bu isə uzunmüddətli perspektivdə cəmiyyətin dayanıqlı inkişafına və sosial harmoniyanın güclənməsinə səbəb olur. Son illərdə inklüziv təhsil qlobal təhsil siyasətinin əsas istiqamətlərindən biri kimi geniş yayılmışdır. Bir çox ölkələrdə bu model dövlət səviyyəsində dəstəklənir və təhsil sisteminə inteqrasiya olunur. Bu sahədə həyata keçirilən tədbirlər kompleks xarakter daşıyır. Təhsil müəssisələrində inklüziv mühitin formalaşdırılması, diferensial tədris metodlarının tətbiqi, müəllimlərin peşəkar inkişafının təmin edilməsi və valideynlərin maarifləndirilməsi bu prosesin əsas istiqamətlərindəndir. Eyni zamanda, məktəblərin fiziki infrastrukturunun əlçatanlığının təmin edilməsi, xüsusi avadanlıqların tətbiqi və təhlükəsiz mühitin yaradılması da inklüziv təhsilin vacib komponentlərindəndir. Beynəlxalq təcrübə göstərir ki, inklüziv təhsilin effektiv təşkili sistemli yanaşma və uzunmüddətli strategiyalar tələb edir. Müəllimlərin davamlı peşəkar inkişafı, fərdi təhsil planlarının hazırlanması və tətbiqi, eləcə də innovativ pedaqoji metodlardan istifadə bu sahədə mühüm rol oynayır. İnkişaf etmiş ölkələrdə inklüziv təhsil artıq təhsil sisteminin ayrılmaz hissəsinə çevrilmişdir və bu sahədə əldə olunan təcrübə digər ölkələr üçün də nümunə rolunu oynayır.

Bununla belə, inklüziv təhsilin tətbiqi prosesində müəyyən çətinliklər və problemlər də mövcuddur. Müəllimlərin praktik hazırlıq səviyyəsinin kifayət etməməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının tam uyğunlaşdırılmaması və tədris proqramlarının bütün şagirdlərin fərdi ehtiyaclarını əhatə etməməsi əsas problemlər sırasındadır. Bundan əlavə, cəmiyyətdə mövcud olan

stereotiplər və yanlış yanaşmalar inklüziv mühitin formalaşdırılmasına mane olur. Psixoloji və pedaqoji dəstək xidmətlərinin yetərli səviyyədə inkişaf etməməsi də bu sahədə qarşıya çıxan mühüm çətinliklərdəndir. Azərbaycanda inklüziv təhsilin inkişafı istiqamətində son illərdə mühüm addımlar atılmışdır. Dövlət proqramları çərçivəsində inklüziv təhsilin tətbiqi genişləndirilir, müəllim hazırlığı gücləndirilir və məktəblərin infrastrukturu tədricən yaxşılaşdırılır. Bununla yanaşı, cəmiyyətin bu sahədə maarifləndirilməsi və inklüziv dəyərlərin təşviqi istiqamətində də müxtəlif tədbirlər həyata keçirilir. Bu proses inklüziv təhsilin daha geniş yayılmasına və effektiv tətbiqinə müsbət təsir göstərir. Tarixi baxımdan inklüziv təhsilin inkişafı mühüm mərhələlərdən keçmişdir. Əvvəllər xüsusi təhsil ehtiyacları olan uşaqlar əsasən ayrı məktəblərdə təhsil alır və cəmiyyətdən müəyyən qədər təcrid olunurdular. Lakin zaman keçdikcə bu yanaşma dəyişmiş, beynəlxalq təşkilatların təşəbbüsü ilə inklüziv təhsil modeli formalaşmışdır. Azərbaycanda isə bu sahədə fəaliyyət 2000-ci illərdən etibarən daha sistemli xarakter almağa başlamışdır. Qanunvericilik baxımından inklüziv təhsil Azərbaycanda hüquqi əsaslarla təmin edilmişdir. “Təhsil haqqında” qanun və digər normativ sənədlər bu modelin tətbiqinə imkan yaradır. Eyni zamanda, beynəlxalq təşkilatların proqramları və təşəbbüsləri də bu sahənin inkişafına mühüm dəstək verir. Praktik baxımdan inklüziv təhsilin uğurla tətbiqi üçün bir sıra mühüm tədbirlərin həyata keçirilməsi vacibdir. Bu tədbirlərə müəllimlərin inklüziv pedaqogika üzrə təlimlərə cəlb olunması, fərdi təhsil planlarının hazırlanması, tədris materiallarının uyğunlaşdırılması və məktəb mühitinin əlçatanlığının təmin edilməsi daxildir. Bu yanaşma şagirdlərin həm akademik nailiyyətlərinin, həm də sosial bacarıqlarının inkişafına müsbət təsir göstərir. Gələcək perspektivlər baxımından inklüziv təhsilin daha da inkişafı üçün kompleks və sistemli yanaşma zəruridir.

Müəllimlərin peşəkar hazırlığının artırılması, innovativ tədris metodlarının tətbiqi, psixoloji dəstək xidmətlərinin gücləndirilməsi və cəmiyyətin maarifləndirilməsi bu sahədə əsas prioritetlər kimi çıxış edir. Nəticə olaraq, inklüziv təhsil müasir təhsil sisteminin ayrılmaz hissəsi olmaqla yanaşı, cəmiyyətin sosial və humanist inkişafında mühüm rol oynayır. Onun geniş tətbiqi bərabər imkanların təmin olunmasına, fərdlərin potensialının reallaşdırılmasına və daha ədalətli cəmiyyətin qurulmasına xidmət edir. Mövcud problemlərin aradan qaldırılması və davamlı inkişaf strategiyalarının həyata keçirilməsi inklüziv təhsilin effektivliyini daha da artıracaqdır.

Ədəbiyyat:

1. Ainscow, M., Booth, T., & Dyson, A. (2006). Improving schools, developing inclusion. London: Routledge.

2. Florian, L. (2014). The SAGE handbook of special education. London: SAGE Publications.

3. Loreman, T., Deppeler, J., & Harvey, D. (2010). Inclusive education: Supporting diversity in the classroom. New York: Routledge.

4. Mittler, P. (2000). Working towards inclusive education: Social contexts. London: David Fulton Publishers.

5. UNESCO. (2009). Policy guidelines on inclusion in education. Paris: UNESCO Publishing.

İNKLÜZİV TƏHSİLİN NƏZƏRİ ƏSASLARI VƏ MÜASİR TƏHSİL SİSTEMİNDƏ TƏTBİQİ PERSPEKTİVLƏRİ

Aytən Səlim qızı Məmmədova
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
ayten.s.mammadova@sdu.edu.az
ORCID ID: 0009-0005-5749-8676

Açar sözlər: inklüziv təhsil, sosial ədalət, əlçatanlıq, diferensial təlim, təhsil siyasəti, Azərbaycan.

Xülasə. Bu tədqiqatda inklüziv təhsil müasir pedaqogikanın prioritet istiqamətlərindən biri kimi təhlil olunur və onun Azərbaycan təhsil sistemində tətbiq xüsusiyyətləri araşdırılır. İnklüziv təhsil bərabərlik, əlçatanlıq və sosial ədalət prinsiplərinə əsaslanaraq bütün uşaqların, o cümlədən xüsusi təhsil ehtiyacları olan şagirdlərin ümumi təhsil mühitinə inteqrasiyasını təmin etməyi qarşıya məqsəd qoyur. Məqalədə inklüziv təhsilin nəzəri əsasları humanist pedaqogika, sosial konstruktivizm və insan hüquqları yanaşmaları kontekstində şərh edilir, həmçinin beynəlxalq təcrübə və mühüm sənədlərin rolu təhlil olunur.Araşdırmada diferensial təlim, fərdiləşdirilmiş yanaşma və interaktiv metodların inklüziv siniflərdə effektivliyi xüsusi vurğulanır. Müəllimlərin peşəkar hazırlığının artırılması, fərdi tədris planlarının hazırlanması və çevik qiymətləndirmə mexanizmlərinin tətbiqi inklüziv təhsilin uğurlu icrası üçün əsas şərtlər kimi təqdim edilir. Eyni zamanda, inklüziv mühitin şagirdlərin yalnız akademik deyil, sosial və emosional inkişafına da müsbət təsir göstərdiyi qeyd olunur. Bu baxımdan inklüziv təhsil empatiya, tolerantlıq və sosial məsuliyyət kimi dəyərlərin formalaşmasına mühüm töhfə verir.Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmiş, bu sahədə normativ-hüquqi baza və dövlət proqramları formalaşdırılmışdır. Bununla belə, müəllim hazırlığı, maddi-texniki resursların çatışmazlığı və cəmiyyətdə mövcud stereotiplər kimi problemlər hələ də qalmaqdadır.Nəticə olaraq qeyd olunur ki, inklüziv təhsilin effektiv tətbiqi dövlət, təhsil müəssisələri, müəllimlər və valideynlər arasında sıx əməkdaşlıq tələb edir. Bu modelin inkişafı daha ədalətli, inklüziv və sosial cəhətdən dayanıqlı cəmiyyətin formalaşmasına zəmin yaradır.

Keywords: inclusive education, social justice, accessibility, differentiated instruction, education policy, Azerbaijan.

Summary. This study analyzes inclusive education as one of the priority directions of modern pedagogy and examines the features of its implementation in the education system of Azerbaijan. Inclusive education is based on the principles of equality, accessibility, and social justice, aiming to ensure the integration of all children, including those with special educational needs, into the general education environment. The article interprets the theoretical foundations of inclusive education within the context of humanistic pedagogy, social constructivism, and human rights approaches, and also analyzes the role of international experience and key documents. The study emphasizes the effectiveness of differentiated instruction, individualized approaches, and interactive methods in inclusive classrooms. Increasing teachers’ professional competence, developing individualized education plans, and applying flexible assessment mechanisms are presented as key conditions for the successful implementation of inclusive education. At the same

time, it is noted that the inclusive environment has a positive impact not only on students’ academic development but also on their social and emotional growth. In this regard, inclusive education makes a significant contribution to the development of values such as empathy, tolerance, and social responsibility. In the Republic of Azerbaijan, the development of inclusive education has been identified as a priority direction of state policy, and a regulatory and legal framework along with state programs has been established in this field. However, challenges such as insufficient teacher training, lack of material and technical resources, and existing social stereotypes still persist. In conclusion, the effective implementation of inclusive education requires close cooperation among the state, educational institutions, teachers, and parents. The development of this model creates a foundation for a more just, inclusive, and socially sustainable society.

Anahtar kelimeler: kapsayıcı eğitim, sosyal adalet, erişilebilirlik, farklılaştırılmış öğretim, eğitim politikası, Azerbaycan.

Özet. Bu çalışmada kapsayıcı eğitim, modern pedagojinin öncelikli yönlerinden biri olarak ele alınmakta ve Azerbaycan eğitim sisteminde uygulanma özellikleri incelenmektedir. Kapsayıcı eğitim, eşitlik, erişilebilirlik ve sosyal adalet ilkelerine dayanarak tüm çocukların, özel eğitim gereksinimi olan öğrenciler dâhil olmak üzere, genel eğitim ortamına entegrasyonunu sağlamayı amaçlamaktadır. Makalede kapsayıcı eğitimin kuramsal temelleri hümanist pedagoji, sosyal yapılandırmacılık ve insan hakları yaklaşımları çerçevesinde açıklanmakta, ayrıca uluslararası deneyim ve önemli belgelerin rolü analiz edilmektedir. Araştırmada farklılaştırılmış öğretim, bireyselleştirilmiş yaklaşımlar ve etkileşimli yöntemlerin kapsayıcı sınıflardaki etkinliği özellikle vurgulanmaktadır. Öğretmenlerin mesleki yeterliliklerinin artırılması, bireyselleştirilmiş eğitim planlarının hazırlanması ve esnek değerlendirme mekanizmalarının uygulanması kapsayıcı eğitimin başarılı bir şekilde hayata geçirilmesi için temel koşullar olarak sunulmaktadır. Aynı zamanda kapsayıcı ortamın öğrencilerin yalnızca akademik değil, sosyal ve duygusal gelişimleri üzerinde de olumlu etkiler yarattığı belirtilmektedir. Bu bağlamda kapsayıcı eğitim, empati, hoşgörü ve sosyal sorumluluk gibi değerlerin gelişimine önemli katkılar sağlamaktadır. Azerbaycan Cumhuriyeti’nde kapsayıcı eğitimin geliştirilmesi devlet politikasının öncelikli alanlarından biri olarak belirlenmiş ve bu alanda yasal düzenlemeler ile devlet programları oluşturulmuştur. Bununla birlikte öğretmen eğitimi yetersizliği, maddi ve teknik kaynak eksikliği ve toplumsal kalıp yargılar gibi sorunlar hâlen devam etmektedir. Sonuç olarak, kapsayıcı eğitimin etkili bir şekilde uygulanması devlet, eğitim kurumları, öğretmenler ve veliler arasında güçlü bir iş birliğini gerektirmektedir. Bu modelin geliştirilmesi daha adil, kapsayıcı ve sosyal açıdan sürdürülebilir bir toplumun oluşmasına zemin hazırlamaktadır.

İnkluziv təhsil müasir pedaqogikanın ən aktual istiqamətlərindən biri kimi çıxış edir və təhsil sistemində bərabərlik, əlçatanlıq və sosial ədalət prinsiplərinin təmin olunmasına xidmət edir. Bu yanaşma bütün uşaqların, o cümlədən xüsusi təhsil ehtiyacları olan fərdlərin ümumi təhsil mühitində iştirakını nəzərdə tutur və onların sosial inteqrasiyasını təmin etməyə yönəlir. İnkluziv təhsilin əsas məqsədi fərqlilikləri aradan qaldırmaq deyil, əksinə bu fərqlilikləri qəbul edərək hər bir şagird üçün optimal öyrənmə mühiti yaratmaqdır.

“Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyanı imzalayan tərəflərdən biri kimi, Azərbaycan da inklüziv təhsili həyata keçirmək öhdəliyini üzərinə götürmüşdür. İnklüziv təhsilin tətbiqində boşluqları aradan qaldırmaq üçün önəmli addımlar atılmışdır. 2017-ci ildə əlilliyi olan şəxslərin bərabər təhsil imkanlarını təmin etmək məqsədi ilə “2018–2024-cü illərdə Azərbaycan

Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” qəbul edilmişdir.

İnkluziv təhsilin nəzəri əsasları humanist pedaqogika, sosial konstruktivizm və insan hüquqları yanaşmalarına söykənir. Bu sahədə mühüm beynəlxalq sənədlərdən biri olan Salamanka Bəyannaməsi inkluziv təhsilin inkişafında dönüş nöqtəsi hesab olunur. Həmin sənəddə vurğulanır ki, bütün uşaqlar, fərdi xüsusiyyətlərindən asılı olmayaraq, ümumi məktəblərdə təhsil alma hüququna malikdirlər. Bundan əlavə, UNESCO inkluziv təhsilin təşviqi istiqamətində qlobal siyasətin formalaşdırılmasında mühüm rol oynayır.

İnklüziv təhsilin düzgün və səmərəli şəkildə həyata keçirilməsi üçün onun fəlsəfi əsaslarını və dayaq prinsiplərini dərindən dərk etmək mühüm əhəmiyyət daşıyır. Bu yanaşmanın mərkəzində “bütün uşaqlar birlikdə öyrənə bilər” ideyası dayanır. Yəni fiziki və ya zehni məhdudiyyətləri olan şagirdlər, eləcə də istedadlı və sosial baxımdan həssas qruplara aid uşaqlar eyni sinif mühitində, ümumi tədris proqramı çərçivəsində, lakin fərdi ehtiyaclara uyğun dəstəklə təhsil almalıdırlar. Bu isə diferensial təlim üsullarının tətbiqini, fərdi yanaşmanı və çevik qiymətləndirmə mexanizmlərini zəruri edir.

“İnklüziv təhsilin uğurlu tətbiqində əsas həlledici fiqur müəllimdir. Çünki inklüziv sinifdə tədris prosesi standart sinifdən fərqli olaraq daha çox fərdi yanaşma, səbr və çeviklik tələb edir. Müəllim yalnız bilik ötürən deyil, eyni zamanda fərqlilikləri anlayan, qəbul edən və hər bir şagirdin potensialını üzə çıxarmağa çalışan şəxs olmalıdır”. (https://qebulol.az/inkluziv-tehsil/)

İnklüziv təhsil yalnız ayrı-seçkiliyə qarşı çıxmaqla kifayətlənmir, eyni zamanda cəmiyyətdə birgəyaşayış və həmrəylik dəyərlərinin formalaşmasına xidmət edir. Bu model müxtəlifliyi çatışmazlıq kimi deyil, əksinə, inkişaf və zənginlik mənbəyi kimi qiymətləndirir. Belə bir yanaşma müəllim və valideynlərin təhsilə və uşaqlara münasibətində müsbət dəyişikliklər yaradır. İnklüziv mühitdə təhsil alan uşaqlar yalnız akademik biliklərlə kifayətlənmir, həm də empatiya, tolerantlıq və sosial məsuliyyət kimi vacib həyat bacarıqlarını mənimsəyirlər. Nəticə etibarilə, onlar gələcəkdə daha sosial yönümlü və yetkin vətəndaşlar kimi formalaşırlar. Bu baxımdan inklüziv təhsil sadəcə fiziki inteqrasiya deyil, geniş pedaqoji və psixoloji yanaşmanı əhatə edən kompleks bir modeldir.

Ənənəvi təhsil modelindən fərqli olaraq, inkluziv təhsil fərdiləşdirilmiş təlimə üstünlük verir. Bu yanaşma çərçivəsində müəllimlər müxtəlif təlim strategiyalarından istifadə edərək şagirdlərin fərdi öyrənmə ehtiyaclarını qarşılayırlar. Diferensial təlim, kooperativ öyrənmə və interaktiv metodlar inkluziv siniflərdə daha effektiv nəticələr verir. Eyni zamanda, fərdi tədris planlarının hazırlanması şagirdlərin akademik və sosial inkişafına müsbət təsir göstərir.

İnkluziv təhsilin üstünlükləri yalnız xüsusi ehtiyaclı şagirdlərlə məhdudlaşmır. Bu model bütün şagirdlər üçün sosial bacarıqların inkişafına, empatiyanın formalaşmasına və tolerantlıq mühitinin yaranmasına şərait yaradır. Araşdırmalar göstərir ki, inkluziv mühitdə təhsil alan şagirdlər daha yüksək sosial adaptasiya qabiliyyətinə malik olurlar və kollektiv fəaliyyətlərdə daha fəal iştirak edirlər. Bununla yanaşı, inkluziv təhsil cəmiyyətin daha demokratik və bərabərhüquqlu inkişafına töhfə verir. “İnklüziv təhsilə keçidin müvəffəqiyyətinə təsir göstərən amillərdən biri də həmin məktəblərdə psixoloji xidmətin yüksək səviyyədə təşkil olunması ilə bağlıdır. Ümumiyyətlə, bu işdə praktik psixoloq əsas simadır. İnklüziv təhsilli məktəblərdə psixoloqun rolunu bir az da dəqiqləşdirmək üçün xüsusi qayğıya ehtiyacı olan uşaqların belə təhsilin nəticəsi olaraq aşağıda qeyd edildiyi kimi keyfiyyətlərə yiyələnməsinin zəruriliyindən danışmalıdır”. (İnklüziv siniflərdə təlimin təşkili, 2018)

Azərbaycan Respublikasında inkluziv təhsilin inkişafı son illərdə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Təhsil sahəsində həyata keçirilən islahatlar çərçivəsində xüsusi təhsil ehtiyaclı uşaqların ümumi təhsil müəssisələrinə cəlb olunması istiqamətində mühüm addımlar atılmışdır. Qanunvericilik bazasının təkmilləşdirilməsi, müəllimlərin peşəkar hazırlığının artırılması və məktəblərin fiziki mühitinin uyğunlaşdırılması bu sahədə əldə olunan nailiyyətlər sırasındadır. Bununla belə, inkluziv təhsilin tam və effektiv tətbiqi üçün hələ də müəyyən problemlər mövcuddur. Bu problemlərə müəllimlərin inkluziv təlim üzrə kifayət qədər hazırlıqlı olmaması, resurs çatışmazlığı və cəmiyyətin bəzi stereotipləri daxildir.

Nəticə olaraq qeyd etmək olar ki, inkluziv təhsil müasir təhsil sisteminin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, sosial bərabərliyin təmin olunmasında mühüm rol oynayır. Bu modelin uğurla həyata keçirilməsi üçün dövlət, məktəb, müəllim və valideyn əməkdaşlığı vacibdir. İnkluziv təhsilin inkişafı gələcək nəsillərin daha tolerant, sosial cəhətdən aktiv və məsuliyyətli fərdlər kimi formalaşmasına zəmin yaradır.

Ədəbiyyat:

1. https://qebulol.az/inkluziv-tehsil/
2. İnklüziv siniflərdə təlimin təşkili. (2018) oxu materialı Bakı. 63s
Chromeextension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf

AVROPADA İNKLÜZİV TƏHSİL ANLAYIŞI

Aytən Rafiq qızı Asanova
magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
Asanova.aytan@gmail.com
ORCİD ID: 0009-0008-8844-8307

Açar sözlər: inklüzivlik, UNESCO, inkişaf, məktəbəqədər təhsil, prioritet.

Xülasə. İstisnasız olaraq inklüziv təhsil erkən uşaqlıqdan prioritet öhdəlik olmalıdır. UNESCO Statistika İnstitutunun son hesablamalarına görə, məktəbəqədər təhsilə cəlb olunmayan 6 yaşınadək uşaqların sayı son on ildə 2009-cu ildəki 52,1 milyondan 2018-ci ildə 47,2 milyona düşüb. Bu irəliləyişlərə baxmayaraq, inklüziv təhsilə və erkən uşaqlıq qayğı xidmətlərinə çıxışla uşağın inkişafı, rifahı və akademik uğuru arasındakı əlaqəni nəzərə alsaq, vəziyyət çox narahatedici olaraq qalır. Erkən uşaqlıq xidmətləri bərabərliyə diqqət yetirərək bütün uşaqları qəbul etməyi hədəfləyir, lakin onlar arasında ən həssas olanlar kənarlaşdırılıbsa və prioritetləşdirilmirsə, bu məqsəd təhlükə altındadır. Bir çox uşaq əlillik, etnik mənsubiyyət, sosial-iqtisadi status, coğrafi yer, ana dili, qaçqın və ya məcburi köçkün statusu və ya humanitar böhranlar səbəbindən təhsilə çıxış imkanından məhrumdur. İndi həmişəkindən daha çox erkən uşaqlıq təhsilinə universal inklüzivlik hüququnu təmin etmək üçün təbliğatı və səyləri davam etdirmək və gücləndirmək vacibdir. Onun arqumentləri müxtəlif ölkələrdən olan mütəxəssislər, praktikantlar və akademiklərlə məsləhətləşmələrə və son sənədli tədqiqatlara əsaslanır. Bu gün çoxlu sayda azyaşlı uşaq hələ də inklüziv məktəbəqədər təhsilindən məhrumdur. İnklüziv təhsil müxtəlif ölkələrdən ilhamverici

nümunələrə və tədqiqat nəticələrinə əsaslanır. Erkən uşaqlıq təhsili inklüzivliyə cəlb olunmuş və sadiq olan müxtəlif maraqlı tərəflərin fəaliyyətini dəstəkləməyi hədəfləyir. UNESCO-nun təsiri insanların zehninə, səslərinə və forumların ruhuna şamil olunur. Bu dəyərlər tez-tez siyasət kontekstində qaldırılır. Həyatımızın ilk bir neçə ili gələcəyimiz üçün ən vacib günlərdəndir. Məhz buna görə də keyfiyyətli erkən uşaqlıq qayğısı kiçik uşaqların rifahı, inkişafı və sonrakı təhsili üçün möhkəm təməl qoyur. Bu, həmçinin onların sosial və öyrənmə çətinliklərini azaltmağa və qarşısını almağa, müəyyən əlilliyi aşkar etməyə kömək edir və beləliklə, onlara lazımi dəstəyi təmin etmək üçün gözləmə və müdaxiləyə imkan verir.

Keywords: inclusivity, UNESCO, development, preschool education, priority.

Summary. Inclusive education must be a priority commitment from early childhood onwards. According to the latest estimates by the UNESCO Institute for Statistics, the number of children under 6 years of age who are not enrolled in pre-primary education has fallen over the past decade, from 52.1 million in 2009 to 47.2 million in 2018. Despite these advances, the situation remains very worrying given the link between access to inclusive education and early childhood care services and child development, well-being and academic success. Early childhood services aim to reach all children with a focus on equity, but this goal is at risk if the most vulnerable among them are excluded and not prioritized. Many children are denied access to education due to disability, ethnicity, socio-economic status, geographical location, mother tongue, refugee or internally displaced status, or humanitarian crises. Now more than ever, it is important to continue and strengthen advocacy and efforts to ensure the universal right to inclusive early childhood education. Its arguments are based on consultations with experts, practitioners and academics from different countries and on recent documentary research. Today, too many young children are still deprived of inclusive pre-school education. Inclusive education is based on inspiring examples and research findings from different countries. Early childhood education aims to support the activities of a diverse range of stakeholders who are engaged and committed to inclusion. UNESCO’s influence extends to the minds, voices and spirit of forums and traditions. These values are often raised in the context of policy. The first few days of our lives are among the most important for our future. That is why quality early childhood care lays a solid foundation for the well-being, development and later education of young children. It also helps to reduce and prevent their social and learning difficulties, and to identify specific disabilities, thus allowing for anticipation and intervention to provide them with the necessary support.

Anahtar kelimeler: kapsayıcılık, UNESCO, kalkınma, okul öncesi eğitim, öncelik.

Özet. Kapsayıcı eğitim, erken çocukluk döneminden itibaren öncelikli bir taahhüt olmalıdır. UNESCO İstatistik Enstitüsü’nün son tahminlerine göre, 6 yaşın altındaki ve okul öncesi eğitime kayıtlı olmayan çocuk sayısı son on yılda 2009’daki 52,1 milyondan 2018’de 47,2 milyona düşmüştür. Bu ilerlemelere rağmen, kapsayıcı eğitime ve erken çocukluk bakım hizmetlerine erişim ile çocuk gelişimi, refahı ve akademik başarı arasındaki bağlantı göz önüne alındığında durum oldukça endişe vericidir. Erken çocukluk hizmetleri, eşitliğe odaklanarak tüm çocuklara ulaşmayı amaçlamaktadır, ancak aralarındaki en savunmasız olanlar dışlanırsa ve önceliklendirilmezse bu hedef risk altındadır. Birçok çocuk, engellilik, etnik köken, sosyo-ekonomik durum, coğrafi konum, ana dil, mülteci veya iç göçmen statüsü veya insani krizler nedeniyle eğitimden mahrum bırakılmaktadır. Şimdi her zamankinden daha önemli olan şey, kapsayıcı erken çocukluk eğitimine evrensel hakkı sağlamak için savunuculuk ve çabaları sürdürmek ve güçlendirmektir. Argümanları, farklı ülkelerden uzmanlar, uygulayıcılar ve akademisyenlerle yapılan istişarelere ve yakın tarihli

belgesel araştırmalara dayanmaktadır. Bugün, çok sayıda küçük çocuk hâlâ kapsayıcı okul öncesi eğitimden mahrum kalmaktadır. Kapsayıcı eğitim, farklı ülkelerden ilham verici örnekler ve araştırma bulgularına dayanmaktadır. Erken çocukluk eğitimi, kapsayıcılığa bağlı ve bu konuda kararlı olan çeşitli paydaşların faaliyetlerini desteklemeyi amaçlamaktadır. UNESCO'nun etkisi, forumların ve geleneklerin zihinlerine, seslerine ve ruhuna kadar uzanmaktadır. Bu değerler genellikle politika bağlamında gündeme getirilmektedir. Hayatımızın ilk birkaç günü geleceğimiz için en önemli günler arasındadır. Bu nedenle, kaliteli erken çocukluk bakımı, küçük çocukların refahı, gelişimi ve daha sonraki eğitimleri için sağlam bir temel oluşturmaktadır. Ayrıca, sosyal ve öğrenme güçlüklerini azaltmaya ve önlemeye, belirli engelleri belirlemeye yardımcı olarak, gerekli desteği sağlamak için öngörü ve müdahale olanağı sunmaktadır.

Beynəlxalq ictimaiyyət humanitar böhranlar, əlillik, etnik mənşə və yoxsulluq kimi amillər hələ də uşaqları təhsil və qorunma hüququndan məhrum edir. Əksər ölkələrdə olduqca qeyri-kafi olan erkən uşaqlıq xidmətləri artıq bu qlobal səhiyyə böhranının əsas yükünü daşıyır və uşaq inkişafı üçün vacib olan bir çox xidmətlərin bağlanması və ya dayandırılması ilə nəticələnir.

Buna görə də, ömür boyu təhsil almaq və inklüzivlik, bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi kimi fundamental prinsiplərə hörmət etmək məqsədilə bütün uşaqlara görə möhkəm təməl təmin etmək üçün dayanıqlı erkən uşaqlıq təhsili və qayğısı sistemləri və proqramlarının yaradılmasına diqqət yetirmək hər zamankindən daha vacibdir. Yüksək keyfiyyətli, inklüziv proqramlarına çıxış, fərqli yanaşma yolu ilə tələbələrin müxtəlifliyini nəzərə alan sektorlararası siyasətlərin hazırlanmasını tələb edir. Bu siyasətlər, hər bir uşağın ehtiyaclarını ödəyən təhsil təcrübələrinin qəbul edilməsinə çevrilməlidir, peşəkarlar və praktik icmalar üçün ilkin və davamlı təlimlər vasitəsilə, hər bir uşağın ehtiyaclarını ödəyən təhsil təcrübələrinin qəbul edilməsinə çevrilməlidir və bu, hər gün kiçik uşaqlar və onların ailələri ilə işləyənlərin bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır.

Tədqiqatlar bu dəyişiklikləri dəstəkləməkdə və qiymətləndirməkdə aparıcı rol oynamalıdır. Nəhayət, bütün mövcud resursları optimallaşdırmaq və erkən uşaqlıq təhsili və qayğısı gündəliyini irəli aparmaq və onu daha inklüziv etmək üçün güclü və məhsuldar tərəfdaşlıq çərçivəsi vacibdir. UNESCO əmindir ki, erkən uşaqlıqdan inklüziv təhsil vasitəsilə qonaqpərvər icmalar və inklüziv cəmiyyətlər qurulacaq. Bunu nəzərə alaraq, UNESCO 2021-ci ilin yanvar ayında ölkələri və tərəfdaşları erkən uşaqlıq dövrü ilə əlaqəli olan təhsil üçün erkən uşaqlıq təhsili və qayğısı üçün qlobal tərəfdaşlıq strategiyasına başladı. Ümid edirik ki, bu nəşr ölkələrə inklüziv erkən uşaqlıq qayğısı və təhsili sisteminə doğru irəliləməyə kömək edəcək və hər bir uşağa akademik uğur və sosial inteqrasiya üçün ən yaxşı şansı verəcək, çünki inklüzivlik ən erkən yaşdan başlayır.

İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsi (1948), UNESCO-nun Ayrı-seçkiliyə Qarşı Konvensiyası (1960), Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyası (1989) və Əlilliyi Olan Şəxslərin Hüquqları Konvensiyası (2006) kimi beynəlxalq siyasət sənədləri və konvensiyaları uşağın təhsil hüququnu açıq şəkildə tanıyır. Lakin, bu sənədlər və onlardan irəli gələn öhdəliklər, onların effektiv şəkildə həyata keçirilməsini təmin etmək üçün milli səviyyədə tədbirlərlə müşayiət olunmalıdır. Təəssüf ki, bir neçə təcrid amili hələ də erkən uşaqlıqdan keyfiyyətli inklüziv təhsilə çıxışı maneə törədir: cins, etnik mənsubiyyət, əlillik, ətraf mühit (şəhər və ya kənd), ana dili və humanitar böhranlar və münaqişələr bir çox uşağı onların tam inkişafını təşviq edən imkanlardan məhrum edir (Dünya İnkişaf Hesabatı, 2018). Çox az sayda ölkə üçün minimum bir illik pulsuz və icbari keyfiyyətli məktəbəqədər təhsil hələ də reallıqdır. UNESCO tərəfindən 2021-ci ildə aparılan son bir araşdırma göstərir ki, araşdırılan 193 milli hüquqi

çərçivədən 63 ölkə pulsuz məktəbəqədər təhsili seçib, 51-i onu məcburi, 46-sı isə onu həm pulsuz, həm də icbari edib.

Məktəbəqədər təhsilin icbari olduğu ölkələrin əksəriyyəti eyni bölgələrdə yerləşir və onların əksəriyyəti yuxarı-orta və yüksək gəlirli qruplara aiddir. Bundan əlavə, 17 ölkədə ictimai mənbələrdən toplanan keyfiyyətli məlumatlar göstərir ki, həssas qruplar üçün xüsusi hüquqi müddəalar onların məktəbəqədər təhsilə çıxışını asanlaşdırmağı və ya prioritetləşdirməyi hədəfləyir. Yoxsulluq Beynəlxalq Erkən Uşaqlıq Təhsili Proqramına (IECEP) (UNESCO, 2020) daxil olmaq üçün aradan qaldırılmalı olan əsas maneələrdən biri olaraq qalır. Bundan əlavə, əlillik, ana dili, etnik mənsubiyyət, gender, münaqişə və təbii fəlakətlər, eləcə də bu amillərin kəsişməsi uşaqların təcrid olunmasının səbəbləridir.

Ən son Qlobal Təhsil Monitorinqi Hesabatına (UNESCO, 2020) görə: 2017-2019-cu illərdə 14 aşağı və orta gəlirli ölkə tərəfindən verilən cavablardan əldə edilən məlumatlar uşaqlar arasında əlilliyin 12% olduğunu, 6%-dən 24%-ə qədər olduğunu göstərir. İbtidai sinif yaşıdları ilə müqayisədə sensor, fiziki və ya əqli əlilliyi olan uşaqların məktəbdən kənarda qalma ehtimalı 4 faiz daha yüksəkdir. Fürsət bərabərsizliyi xüsusilə fövqəladə və münaqişə vəziyyətlərində daha kəskin şəkildə özünü göstərir və kiçik uşaqları və onların ailələrini yaşamaq üçün vacib olan resurslardan məhrum edir. Bəziləri üçün əvvəlcə müvəqqəti həll yolu olan qaçqın düşərgəsi yaşamaq üçün bir yerə çevrilir. Məktəbəqədər təhsildə inklüzivlik üçün sənəd hazırlama prosesi YUNESKO və UNICEF də daxil olmaqla, inklüzivlik və təhsil sahəsində tanınmış beynəlxalq təşkilatların verilənlər bazaları, axtarış motorları və veb saytlarından istifadə edərək sənədli tədqiqatlara əsaslanan ədəbiyyatın tam olmayan icmalına əsaslanır. Tədqiqat əsasən 2016-2020-ci illər arasında dərc olunmuş fransız, ingilis və ya ispan dillərində sənədlərə yönəlmişdir.

Dünya miqyasında regionlar və ya ölkələr baxımından, eləcə də inklüzivlik vəziyyətlərində (məsələn, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, immiqrant və ya marjinallaşmış mənşəli uşaqlar) və sosial-iqtisadi kontekstlərdə müxtəlifliyi təmin etmək üçün seçimlər edilmişdir. Erkən uşaqlıqda inklüzivliklə bağlı xüsusi mövzulara uyğun olaraq aparılan tam mətnli təhlil üçün təxminən yüz sənəd seçilmişdir: inklüzivliyi dəstəkləmək üçün idarəetmə təcrübələri, siyasətlər və liderlik; ailələr və icma ilə əməkdaşlıq, peşəkar resurslar və müdaxilə sektorları arasında, ilkin və davamlı təlim, peşəkar inkişaf; təhsil təcrübələri, müdaxilələr, öyrənmə və pedaqoji yanaşmalar, seçim və qiymətləndirmə; keçidlər (ailədən uşaq baxımına, uşaq baxımından məktəbə); müxtəliflik və inklüzivliyin qiymətləndirilməsi. Hər bir mövzu üzrə sənəd təhlili müəlliflər tərəfindən hazırlanmış çıxarış şəbəkələrindən istifadə etməklə aparılmışdır.

Məsləhətləşmiş sənədlərə əsaslanan əsas ideyaların sintezi bu şəbəkələrdən istifadə etməklə aparılan ilkin təhlildən sonra hazırlanmışdır. Əvvəlki işlər bu təhlili tamamlamaq üçün nəzərdə tutulmuşdu. Bu nəşr həmçinin müzakirələrə və mübadilələrə töhfə verən praktiklər, akademiklər və beynəlxalq təşkilatların əməkdaşları da daxil olmaqla, sahədəki mütəxəssislərin fikirlərindən istifadə edir. Akademik, siyasi və təhsil sahəsindən olan bu səxavətli əməkdaşlar, əhatə olunan mövzulara uyğun olaraq seçilmiş və müxtəlif ölkələrin reallıqlarını əks etdirən ilhamverici nümunələr təqdim etmişlər. Məhdudiyyətlər və Əhatə Dairəsi: Bu nəşr elmi ədəbiyyat, inklüziv maraqlı tərəflərin təcrübələri və çoxsaylı mütəxəssislərin fikirləri ilə məlumatlandırılmış fəaliyyətə yönəlmiş əks etdirmə sənədidir.

İnklüzivliyin uğuru, əlbəttə ki, ailələri də unutmadan, siyasətçilər, onları həyata keçirənlər və təhsil maraqlı tərəfləri tərəfindən idarə olunan bir sıra çoxsektorlu və sektorlararası tədbirlərdən

asılıdır. Daha böyük təsir yaratmaq üçün bu fəaliyyət səviyyələri arasında dialoq və daha yaxşı koordinasiya qurmaq lazımdır.

Yerli, regional və milli səviyyələr arasında güclü əlaqələr maneələrin müəyyən edilməsinə və innovativ təcrübələrin paylaşılmasına imkan verir. İştirakı vacib olan bu qarşılıqlı asılı səviyyələrin hər biri üçün əsas mesajlar hazırlanmışdır. Hər səviyyədə tədbirlər görməyə kömək etmək üçün əsas maraqlı tərəflərin tam olmayan siyahısı tərtib edilmişdir.

Müxtəlif ölkələrin hökumətləri bu tövsiyələri reallığa çevirmək üçün liderliyi öz üzərinə götürməlidirlər. Təhsil, Səhiyyə, Sosial Xidmətlər və Sosial Müdafiə nazirlikləri qanunvericilik islahatları təklif etməkdə, siyasət hazırlamaqda və onların həyata keçirilməsini təmin etməkdə ön sıralarda olsalar da, digər müvafiq nazirliklərlə, xüsusən də innovasiya, sosial inkişaf, iqtisadi və ali təhsil sektorlarında çalışan nazirliklərlə tərəfdaşlıq etməkdə maraqlıdırlar. Əsas Mesaj 1: Sektorlararası müxtəliflik siyasəti və ayrı-seçkiliyə yol verməyən qanunvericilik vasitəsilə ən çox marjinallaşdırılmış uşaqların erkən uşaqlıqdan inklüziv, keyfiyyətli təhsilə çıxışını yaxşılaşdırın. Lakin siyasətlər sadəcə inklüzivliyə maneələri aradan qaldırmaqdan daha çox, müxtəlifliyə doğru mədəni dəyişikliyi dəstəkləməlidir. (Booth T., Ainscow M., 2011).

İnklüziv dəyərlər və erkən uşaqlıq təhsilində inklüzivliyin əhəmiyyəti təsdiqlənməlidir, onların daha ədalətli və bərabər cəmiyyətlərin qurulmasına verdiyi töhfəni təşviq etməlidir. İnklüzivlik hamı üçün keyfiyyətli xidmətlərin inkişaf etdirilməsi üçün bir vasitəyə çevrilir. Bütün uşaqlara inanılmaz öyrənmə imkanları təqdim etməklə yanaşı, sosial birlik və həmrəyliyi, eləcə də gender bərabərliyini təşviq edir.

Erkən Uşaqlıq Təhsilinin vahid perspektivi sektorlararası siyasətlərin hazırlanmasını tələb edir. Siyasətin hazırlanması, xidmətlərə daha vahid yanaşma və uşaq inkişafını dəstəkləmək üçün daha əhatəli bir vizyon qəbul etmək üçün erkən uşaqlığın müxtəlif sahələrini (təhsil, səhiyyə, uşaq baxımı, qeyri-hökumət təşkilatları, fondlar və s.) əvvəldən nəzərə almalıdır. Erkən uşaqlıq xidməti təşkilatlarının və idarəetmə strukturlarının geniş müxtəlifliyi prosesə cəlb ediləcək müvafiq insanların diqqətlə seçilməsini tələb edir. Təcriddən ən çox təsirlənən icmaların üzvlərinin iştirakı da vacibdir. Onların həyat təcrübəsi onlara marjinallaşma mexanizmlərini daha yaxşı başa düşmək üçün müvafiq və dəyərli biliklər verir. Onların iştirakı həmçinin reallıqlara daha yaxşı uyğunlaşdırılmış və daha davamlı olan həllərin hazırlanmasına imkan verəcəkdir.

Planlaşdırma mərhələsi, görülən işin sadəcə sektor səylərinin əlaqələndirilməsindən kənara çıxmasını təmin etmək üçün xüsusilə vacibdir. Bu sahələrarası planlaşdırma, görüləcək tədbirlər barədə birgə qərarlar qəbul etməyə imkan verir, bütün sektorların daha çox iştirakını təşviq edəcək erkən uşaqlıq təhsili və qayğısında inklüzivliyin hərtərəfli tərifini və ortaq bir vizyonunu təmin edir. Beynəlxalq konvensiyaların istifadəsi bu kontekstdə çox faydalıdır. Erkən uşaqlıq siyasətləri ümumi uşaq və yeniyetmə təhsili siyasətləri ilə uyğundur və bəzən hətta onların tərkibinə daxil edilir. Maraqlı tərəflər siyasətin həyata keçirilməsi planı hazırlamalıdırlar. Maliyyə resurslarının ayrılması da daxil olmaqla, hansı məsuliyyətlərin mərkəzləşdirilmiş qaldığına və hansılarının mərkəzləşdirilməməli olduğuna qərar vermək lazımdır. Planlaşdırma mərhələsindən etibarən hər bir səviyyənin rollarını və məsuliyyətlərini aydınlaşdırmaq, eləcə də sahələrarası koordinasiya və ünsiyyət mexanizmlərini yaratmaq vacibdir. (Friend M., Bursuck W. D., 2012).

Siyasətin hazırlanması, tətbiqi və monitorinqi üçün tələb olunan maliyyə investisiyalarını da təxmin etmək, maliyyə dəstəyinin ayrılması sisteminin müəyyən uşaqların daha da damğalanmasına səbəb olmamasını təmin etmək lazımdır. Siyasətin həyata keçirilməsini dəstəkləmək üçün qiymətləndirmə strategiyaları hazırlanmalıdır. Bu monitorinq çətinliklərin müəyyən edilməsi və

lazımi düzəlişlərin edilməsi üçün vacibdir. Vizyondan fəaliyyətə keçmək üçün sektorlararası inkişaf hədəfləri müəyyən edilməli və daha sonra bəzi tədbirləri gücləndirmək və digərlərini yenidən tənzimləmək üçün bu hədəflər üzrə irəliləyiş izlənilməlidir. Qiymətləndirmə, xüsusiyyətlərinə görə erkən uşaqlıq təhsili və müdafiə proqramları və strukturlarından kənarlaşdırıla bilən uşaqlar və ailələr üçün inklüziv erkən uşaqlıq təhsilinə çıxışı qiymətləndirməlidir. Qiymətləndirmə həmçinin siyasətlərin mərkəzində olan sektorlararası tədbirlərin effektivliyini qiymətləndirməlidir.

Ədəbiyyat:

1. Agence européenne pour l'éducation adaptée et inclusive, 2017a. Inclusive Early Childhood Education: New Insights and Tools – Contributions from a European Study
2. A Guide to the formation of Washington State's Early Learning and Development Benchmarks;
3. Booth, T., & Ainscow, M. (2011). Index for Inclusion: Developing learning and participation in schools.
4. European Agency for Special Needs and Inclusive Education. (2017). Inclusive early childhood Education: Literature review. F. Bellour, P. Bartolo et M. Kyriazopoulou, (dir. Publ). Odense, Denmark.
5. Friend, M., & Bursuck, W. D. (2012). Including Students with Special Needs: A Practical Guide for Classroom Teachers.
6. Loreman, T., Deppeler, J., & Harvey, D. (2010). Inclusive Education: Supporting diversity in the classroom.
7. Ma, X. ; Shen, J. ; Krenn, H.Y. ; Hu, S. ; Yuan, J. (2016). A meta-analysis of the relationship between . Learning outcomes and parental involvement during early childhood education and early elementary education. Educational Psychology Review 28(4), 771-801.
8. National programme for development of education in The Republic of Macedonia in 2005-2015, Ministry of Education and Science of The Republic of Macedonia;
9. UNESCO (2020). Policy Guidelines on Inclusion in Education.

İNKLÜZİV TƏHSİL MÜHİTİNDƏ İNSANLARIN SOSİAL ADAPTASİYASININ PEDAQOJİ-PSİXOLOJİ ƏSASLARI

Səbinə İlyas qızı Cahangirli
Magistrant
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
sabina.baxiszade@mail.ru
ORCİD ID: 0009-0004-1904-852X

Açar sözlər: inklüziv təhsil, sosial inteqrasiya, cəmiyyət, sağlamlığı məhdud, Azərbaycan, təhsil qanunu.

Xülasə. İnklüziv təhsil, ümumi təhsil sisteminin ayrılmaz tərkib hissəsi olaraq, bütün uşaqların, xüsusilə sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarını qarşılayan, onları cəmiyyətə qovuşduran mühüm yanaşmadır. Bu tədris modeli təkcə bilik ötürmək deyil, həm də bütün fərdlərin

həmyaşıdları ilə birgə oxuması, ünsiyyət qurması və cəmiyyətin tamhüquqlu üzvü kimi özünü dərk etməsi üçün zəmin yaradır.İnsan hüquqları prinsiplərinə əsaslanan inklüzivlik, fiziki və ya zehni qüsurlu uşaqların təcrid edilməsinin qarşısını alır. Müasir dünyada və Azərbaycanda qəbul edilən sosial yanaşma, əlilliyi olan şəxsləri “xəstə” deyil, “imkanları məhdud” fərdlər olaraq görür və onların potensialını inkişaf etdirməyi hədəfləyir. Bu proses həm elmi-metodoloji tədqiqatlar, həm də dövlət tərəfindən həyata keçirilən kompleks reabilitasiya və sosial islahatlar tələb edir.

İnklüziv təhsilin uğuru, təkcə məktəb daxilindəki metodikalardan deyil, həm də ətraf mühitin və infrastrukturun maneəsiz hala gətirilməsindən asılıdır. İctimai binaların, nəqliyyat sisteminin və sosial şəbəkələrin əlillərin ehtiyaclarına uyğunlaşdırılması, onların təhsilə və əmək bazarına inteqrasiyası üçün həlledici şərtdir. “Təhsil haqqında” qanuna uyğun olaraq, sağlamlığından asılı olmayaraq hər bir vətəndaşın bərabər təhsil almaq hüququ vardır. Nəticə etibarilə, inklüziv təhsil cəmiyyətdə humanizmin, tolerantlığın və qarşılıqlı dəstəyin artmasına xidmət edir. Bu yanaşma, yalnız təhsil sistemini deyil, bütövlükdə dövlətin sosial siyasətini gücləndirərək, əlilliyi olan şəxslərin özlərini cəmiyyətin bir parçası kimi hiss etmələrini, gələcəyə inamla baxmalarını və ölkənin inkişafına töhfə vermələrini təmin edir. Beləliklə, inklüzivlik hər kəsin bərabər hüquqlar çərçivəsində, maneəsiz şəkildə keyfiyyətli təhsilə çata biləcəyi bir mühitin yaradılması deməkdir.

Keywords: inclusive education, social integration, society, person with disabilities, Azerbaijan, education law.

Summary. Inclusive education, as an integral part of the general education system, is an important approach that meets the needs of all children, especially those with disabilities, and integrates them into society. This teaching model not only transfers knowledge, but also creates a basis for all individuals to study together with their peers, communicate, and realize themselves as full members of society. Inclusion, based on the principles of human rights, prevents the isolation of children with physical or mental disabilities. The social approach adopted in the modern world and in Azerbaijan sees people with disabilities not as “sick”, but as “limited” individuals and aims to develop their potential. This process requires both scientific and methodological research and complex rehabilitation and social reforms implemented by the state. The success of inclusive education depends not only on the methodologies within the school, but also on making the environment and infrastructure barrier-free. Adapting public buildings, the transport system and social networks to the needs of people with disabilities is a crucial condition for their integration into education and the labor market. According to the Law “On Education”, every citizen has the right to receive equal education, regardless of their health. As a result, inclusive education serves to increase humanism, tolerance and mutual support in society. This approach, by strengthening not only the education system, but also the social policy of the state as a whole, ensures that people with disabilities feel like part of society, look to the future with confidence and contribute to the development of the country. This, inclusion means creating an environment where everyone can access quality education without barriers, within the framework of equal rights.

Anahtar kelimeler: kapsayıcı eğitim,sosyal entegrasyon, toplum, sınırlı sağlık, Azerbaycan, eğitim kanunu.

Özet. Genel eğitim sisteminin ayrılmaz bir parçası olarak kapsayıcı eğitim, tüm çocukların, özellikle engelli çocukların ihtiyaçlarını karşılayan ve onları topluma entegre eden önemli bir yaklaşımdır. Bu öğretim modeli sadece bilgi aktarmakla kalmaz, aynı zamanda tüm bireylerin akranlarıyla birlikte öğrenim görmeleri, iletişim kurmaları ve kendilerini toplumun tam üyeleri olarak gerçekleştirmeleri için bir temel oluşturur. İnsan hakları ilkelerine dayanan kapsayıcılık,

fiziksel veya zihinsel engelli çocukların tecrit edilmesini önler. Modern dünyada ve Azerbaycan'da benimsenen sosyal yaklaşım, engelli bireyleri “hasta” değil, "sınırlı" bireyler olarak görür ve potansiyellerini geliştirmeyi amaçlar. Bu süreç, hem bilimsel ve metodolojik araştırmaları hem de devlet tarafından uygulanan karmaşık rehabilitasyon ve sosyal reformları gerektirir. Kapsayıcı eğitimin başarısı sadece okul içindeki metodolojilere değil, aynı zamanda çevre ve altyapının engelsiz hale getirilmesine de bağlıdır. Kamu binalarının, ulaşım sisteminin ve sosyal ağların engelli bireylerin ihtiyaçlarına uyarlanması, onların eğitime ve iş piyasasına entegrasyonu için çok önemli bir koşuldur. “Eğitim Hakkında” Kanun'a göre, her vatandaş sağlık durumuna bakılmaksızın eşit eğitim alma hakkına sahiptir. Sonuç olarak, kapsayıcı eğitim, toplumda insanlığı, hoşgörüyü ve karşılıklı desteği artırmaya hizmet eder. Bu yaklaşım, yalnızca eğitim sistemini değil, devletin genel sosyal politikasını da güçlendirerek, engelli bireylerin toplumun bir parçası olduklarını hissetmelerini, geleceğe güvenle bakmalarını ve ülkenin kalkınmasına katkıda bulunmalarını sağlar. Dolayısıyla, kapsayıcılık, herkesin eşit haklar çerçevesinde, engelsiz bir şekilde kaliteli eğitime erişebileceği bir ortam yaratmak anlamına gelir.

İnklüziv təhsil ümumi təhsilin bir hissəsidir. Bu o deməkdir ki, məktəb bütün uşaqların ehtiyaclarını ödəməli və hər kəs üçün əlçatan olmalıdır. İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların da həmyaşıdları ilə bir yerdə oxumasına, ünsiyyət qurmasına və birlikdə oynamasına şərait yaradır.İndi bütün dünyada qəbul edilib ki, fərqli xüsusiyyətləri olsa belə, insanlar bir yerdə dinc yaşamalı, eyni məktəbdə və hətta eyni partada təhsil ala bilərlər.

İnklüziv təhsil insan hüquqları ilə bağlıdır. Uşaqlara verilən hüquqlar və onların qarşısındakı vəzifələr bu uşaqlara da aiddir.

“İnsanlar cəmiyyətdə bir-biri ilə sosial qaydalar əsasında yaşayırlar. İnsanlar bu qaydaları cəmiyyətə qarışdıqları zaman öyrənirlər. Bu öyrənmə prosesi uşaq doğulandan başlayır və ömür boyu davam edir” (Əlizadə H. Ə., Mahmudova R. M., 2013).

Ona görə də bütün insanlar, o cümlədən fərqli xüsusiyyətləri olan uşaqlar bir yerdə yaşamalı və bir-birinə uyğunlaşmalıdırlar. “Xüsusi qayğıya ehtiyacı olan uşaqların əsas məqsədlərindən biri də cəmiyyətə və kollektivə uyğunlaşmaqdır” (Həsənova İ. M., 2011).

İnsan Hüquqları Konvensiyasına görə, dövlətlər elə bir təhsil sistemi qurmalıdır ki, hər bir uşağın, o cümlədən inklüziv təhsilə ehtiyacı olanların da oxumaq hüququ qorunsun. Azərbaycan 1992-ci ildə bu sənədi imzalayıb və hər bir uşağın təhsil hüququnu qorumağı öhdəsinə götürüb.

Müasir dövrdə beynəlxalq və yerli sənədlər əlilliyi olan şəxslərə “xəstə” kimi deyil, “sağlamlıq imkanları məhdud” olan şəxs kimi baxmağı tələb edir. Bu, cəmiyyətdə onlara qarşı yanaşmanı dəyişir. Bu yeni yanaşma, uşaqların öz bacarıqlarını inkişaf etdirməsi və bütün hüquqlarından tam istifadə etməsi üçün şərait yaradır.

Qeyd etmək lazımdır ki, dünyanın bir çox ölkələrində xüsusi qayğıya ehtiyacı olan uşaqlar başqa uşaqlarla birlikdə məktəbə və bağçaya gedirlər. İnklüziv təhsilin inkişafı bir çox ölkələrin təhsil siyasətində əsas yer tutur. Bu gün bizim ölkəmizdə də inklüziv təhsil genişlənir və daha çox uşağı öz ətrafında birləşdirir.

Müasir dövrdə inklüziv təhsil dedikdə, uşaqların məktəb və bağçalarda bir yerdə dərs alması nəzərdə tutulur. Düzgün tədris metodları ilə uşaqlara qarşı heç bir ayrı-seçkilik edilmir. Bu, müxtəlif xəstəlikləri olan uşaqlara belə yaxşı təhsil almaq, uğur qazanmaq və gələcəkdə peşə sahibi olmaq imkanı verir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların daha yaxşı təhsil alması və cəmiyyətə tez uyğunlaşması üçün onların həmyaşıdları ilə bir yerdə oxuması çox vacibdir.

İnteqrasiya mexanizmlərinin, prinsiplərinin və əsas hədəflərinin araşdırılması, həmçinin fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə qovuşması üçün praktiki addımların müəyyən edilməsi müasir sosial-psixologiyanın ən vacib problemlərindən sayılır. Yaşından, təhsil səviyyəsindən, sağlamlıq durumundan, etnik mənsubiyyətindən və sosial mövqeyindən asılı olmayaraq, ictimaiyyətin bütün üzvləri bu inteqrasiya mərhələsində iştirak etməlidir. Lakin praktikada bəzi sosial qrupların davamlı və ya qismən ictimai həyatdan kənarda qaldığı, hətta təcrid edildiyi müşahidə olunur. Bu vəziyyət, ilk növbədə, cəmiyyət üçün nəzərdə tutulan fəaliyyətləri icra etməkdə çətinlik çəkən, sağlamlıq imkanları məhdud fərdlərə daha ağır təsir göstərir.

Bəşəriyyətin yaranışından mövcud olan əlillik mövzusu bu gün də cəmiyyətin qarşısında duran ən əsas problemlərdən biri kimi qalır. Tarixin hər bir mərhələsində əlilliyi olan şəxslərə qarşı fərqli münasibət və sosial qaydalar formalaşmış, bu mövzuda müxtəlif mənfi təsəvvürlər və qərarlar dövrümüzə qədər gəlib çatmışdır. Ehtiyacı olanlara yardım etmək, kasıb uşaqları təhsilə cəlb etmək, xəstələrə və sığınacağı olmayanlara dəstək olmaq, onlara xidmət göstərən qurumlar yaratmaq kimi davranışlar çoxdan bəri mövcuddur. Müxtəlif dövrlərdə əlillərə göstərilən xidmətlərin forması dəyişmiş, müasir dövrün "sosial dövlət" yanaşması çərçivəsində isə bu xidmətlər daha da şaxələnmişdir. Bu gün dünyada olduğu kimi, Azərbaycanda da əlilliyi olan insanlar üçün qanuni çərçivədə daha əlverişli şərait təmin edilmişdir. Əlillərin həyata daha sıx bağlanması, öz hüquqlarından tam yararlana bilmələri, hər şeydən önəmlisi isə xoşbəxt bir fərd kimi ölkənin inkişafına töhfə verə biləcək səviyyəyə çatmaları, təhsil almaları, işlə təmin olunmaları və onlar üçün maneəsiz mühitin formalaşdırılması ilə bağlı milli və beynəlxalq sosial siyasətlər, eləcə də hüquqi tənzimləmələr müasir dövlətin əsas prioritetləri sırasındadır.

Hazırda dünya miqyasında baş verən sürətli sosial-iqtisadi və mədəni dəyişiklikləri izləmək və təhlil etmək, dövlətlərarası siyasətdə istifadə olunan informasiya bazasını genişləndirmək zəruri tələbə çevrilmişdir. Bu baxımdan, ölkəmizdə də sağlamlıq imkanları məhdud şəxslərin gündəlik həyatlarında rastlaşdıqları çətinliklərin aşkarlanması, onların aradan qaldırılması ilə bağlı sosial qurumların göstərdiyi müdafiə və dəstək tədbirlərini özündə əks etdirən araşdırmalara ehtiyac duyulur. Ölkəmizdə və bütün dünyada sağlamlıq imkanları məhdud insanların sayının artması, onların cəmiyyətə inteqrasiyası istiqamətində müxtəlif reabilitasiya tədbirlərinin icrasını tələb edən qlobal bir proses kimi təqdim olunur.

Müasir dövrdə fiziki məhdudiyyətli şəxslərin ictimai həyata inteqrasiyasının öyrənilməsinə marağın artmasının bir neçə əsas səbəbi vardır.

✓ 90-cı illərin ortalarından etibarən, əlilliyi olan fərdlərin bazar iqtisadiyyatına və yeni sosial münasibətlərə uyğunlaşması probleminin aktuallaşması bu proseslərin elmi cəhətdən təhlil olunmasını tələb edirdi.

✓ Cəmiyyətdə müşahidə olunan sürətli əlilləşmə tendensiyası, bu insanların həm fiziki, həm də mənəvi çətinliklərinin həlli yollarının tapılmasını zəruri edir. Sağlamlıq imkanları məhdud olan şəxsləri mövcud sosial struktur baxımından qiymətləndirdikdə, onların əhalinin sosial müdafiəyə ən çox ehtiyacı olan təbəqəsinə aid olduğu açıq-aydın görünür. Onların gəlirləri yaşayış minimumundan xeyli aşağıdır, tibbi və sosial yardımlara olan ehtiyacları isə yüksəkdir; həmçinin təhsil almaq və əmək bazarında fəaliyyət göstərmək imkanları məhduddur. Əlillərin əksəriyyəti ailə dəstəyindən məhrumdur və ictimai proseslərdə yer ala bilmirlər.

✓ Sağlamlıq imkanları məhdud şəxslərin özlərinin də müasir sosial hadisələrdə və ictimai həyatın müxtəlif sahələrində iştirak etmək arzuları getdikcə güclənir. Əlillik tarixinin tədqiqi

göstərir ki, bu insanların cəmiyyətdən təcrid edilməsindən, onlara qarşı münasibətin dəyişilməsi və nəhayət, inklüziv, maneəsiz mühitin yaradılmasına qədər uzun və mürəkkəb bir yol keçilmişdir.

✓ Azərbaycanda, o cümlədən Naxçıvan MR, sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə qovuşması üçün bir sıra reabilitasiya proqramlarının icra olunmasına baxmayaraq, bu insanların böyük bir qismi hələ də həmin tədbirlərin imkanlarından tam yararlana bilmir.

Sağlamlıq imkanları məhdud insanların ictimai həyata qaynayıb qarışması prosesi genişmiqyaslı sosial araşdırmalar tələb edən ciddi bir məsələdir. Sosial-iqtisadi mühitdə bu insanların yerini və funksiyasını müəyyən etmək, Azərbaycanda və onun regionlarında inteqrasiya xüsusiyyətlərini və həyata keçirilən bərpa tədbirlərinin effektivliyini təhlil etmək dövrün ən vacib çağırışlarındandır. Qeyd etmək lazımdır ki, bütün dünyada ictimai münasibətlərin humanistləşməsi, cəmiyyətin həssas təbəqəsinə, xüsusilə də əlillərə olan diqqəti daha da artırır.

Əlillik fərdin həyat tərzini məhdudlaşdıran, eyni zamanda onun bacarıq və imkanlarına maneə yaradan bir haldır. Bu, sadəcə tibbi bir problem deyil, insanın fiziki xüsusiyyətləri ilə yaşadığı cəmiyyətin tələbləri arasındakı qarşılıqlı təsiri ifadə edən mürəkkəb bir hadisədir. Cəmiyyətin həssas qruplarından biri olan əlillər də digər insanlar kimi cəmiyyətin bir parçası olaraq yaşamaq istəyirlər. Müxtəlif səbəblərdən əhalinin böyük bir qisminin sağlamlığını və iş qabiliyyətini itirməsi onların maddi durumuna, psixoloji vəziyyətinə mənfi təsir göstərir, həmçinin ətrafdakı insanlarda kədər, yoxsulluq və bədbinlik kimi hallara səbəb olur. Aparılan işlərə baxmayaraq, bu çətinliklər onların ictimai fəallıqlarını, peşəkar inkişaflarını və ailə məsuliyyətlərini icra etməyə mane olur, nəticədə onların cəmiyyətə inteqrasiyası aşağı səviyyədə qalır. Əlillərin də digər insanlar kimi bərabər hüquqlara sahib olduqları hamıya bəllidir.

Sağlamlıq imkanları məhdud olan insanlarında digər insanlar kimi arzu və məqsədlərinin, xəyallarının olduğu unudulmamalıdır. Elə bu istiqaməti tədqiq etməkdə də əsas hədəf əlilliyi olan şəxslərin həyatdan, cəmiyyətdən və əhalinin sağlam təbəqəsindən gözləntilərini, yerinə yetirə biləcəkləri vəzifələri, planlarını, gələcəklə bağlı düşüncələrini, eləcə də sosial mühitə qovuşmalarındakı əngəlləri aşkarlamaqdan ibarətdir. Bu baxımdan, onların ictimai həyatda daha fəal iştirakı, fiziki, sosial, maddi və s. maneələrlə üzləşməmələri üçün əlillərə və onların ailələrinə göstərilən dövlət dəstəyinin təkmilləşdirilməsi, sosial-psixoloji yardım xidmətlərinin daha da genişləndirilməsi zərurəti ön plana çıxır. Buna görə də, öz humanizmini dərk edən və onu həyata keçirməyə çalışan cəmiyyət qarşısında ehtiyacı olan bu insanlara hərtərəfli kömək göstərmək kimi vacib bir öhdəlik durur.

Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə qaynayıb qarışmasının nəzəri-metodoloji əsaslarının və işləmə mexanizmlərinin müəyyən edilməsinin vacibliyi təkcə əlillik sayının artması və bu şəxslərin əmək və şəxsi tələbatlarının çoxalması ilə deyil, həm də fiziki və əqli durumundan asılı olmayaraq, insanların hüquqi bərabərliyi barədə demokratik ideyaların yayılması, cəmiyyətin öz fəaliyyətini əlillərin ehtiyaclarını qarşılaya biləcək səviyyədə qurmaq vəzifəsi ilə də əlaqədardır. Qeyd edə bilərik ki, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasının ən səmərəli yolu onların kompleks bərpası, xüsusilə də Azərbaycanda reabilitasiyanın yeni formalarının inkişafı və müasir texnologiyaların tətbiqidir. Hər bir əlilin inteqrasiya imkanları bir sıra obyektiv və subyektiv amillərdən asılıdır (İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr V elmi-praktik konfransının məqalələr toplusu, 2011).

Bu gün ölkəmizdə fiziki qüsurlu uşaqların təhsil məsələsi aktual bir problem olaraq qalmaqdadır. Hamıya məlumdur ki, hər bir fiziki qüsurlu uşaq sağlam həmyaşıdları ilə eyni hüquqlara, həmçinin təhsil almaq haqqına sahibdir. "Təhsil haqqında" qanunda da vurğulanıb ki,

cəmiyyətin bütün fərdlərinin-istər sağlam, istərsə də fiziki məhdudiyyətli olsun, bərabər təhsil almaq hüquqları vardır (İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr (V elmi-praktik konfransının məqalələr toplusu), 2011).

İnklüziv təhsilə gedən yolda duran əsas əngəllərdən biri də əlaqə, ictimai mühit və binalarla bağlı problemlərdir. Əlilliyi olan şəxsləri əhatə edən mühitin, onların fiziki funksiyalarındakı çatışmazlıqların və bu çatışmazlıqların yaratdığı məhdudiyyətlərin araşdırılması mühüm önəm daşıyır.

Qeyd etdiyimiz kimi, təhsil sahəsində bir cəmiyyət modeli qurarkən ətraf mühiti və bu mühitdə yaşayan hər kəsi nəzərə almaq gərəklidir. Yaşayış binalarından tutmuş, ictimai həyatın müxtəlif sahələrinə və kommunikasiya vasitələrinə qədər bütün ətraf mühit elementləri fiziki qüsurlu insanların xüsusiyyətləri və tələbatları nəzərə alınaraq layihələndirilməlidir. Şəhər və rayon infrastrukturunun, habelə nəqliyyat sisteminin sağlamlıq imkanları məhdud şəxslərin maneəsiz hərəkəti üçün onların ehtiyaclarına uyğunlaşdırılması, planlaşdırılan işlər və icra edilən tədbirlər ölkəmizdə hər bir məhdudiyyətli insanın hüquqlarının təmin edilməsinə xidmət edir.

Ədəbiyyat:

1. Əlizadə, H. Ə., Mahmudova, R. M. (2013). Sosial pedaqogika. Bakı: BDU.
2. Həsənova, İ. M. (2011). Sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətə adaptasiyası. Bakı: ADPU.
3. İnklüziv təhsil: təcrübə və qarşıda duran vəzifələr (V elmi-praktik konfransının məqalələr toplusu). (2011). Bakı.

MÜASİR TƏDQİQATLARDA İNKLÜZİV TƏHSİL VƏ ONUN İNKİŞAF PERSPEKTİVLƏRİ

Aytən Daşqın qızı İbrahimova
Magistrant
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
ibrahimovaaytn908@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0004-0502-3516

Açar sözlər: təhsil, inklüzivlik, inkişaf, Azərbaycan Respublikası, müasir tədqiqatlar.

Xülasə. Təhsil hər bir uşağın qeyd-şərtsiz sahib olmalı olduğu əsas hüquqdur. Bu baxımdan hər kəsin təhsildən faydalanması vacibdir. Müasir cəmiyyətdə İnkişaf etmiş və inkişaf etməkdə olan bütün ölkələr hər kəsin təhsildən faydalanmasını təmin etmək öhdəliyi daşıyır. Bu kontekstdə fərdilikləri nəzərə alan və fərdi mərkəzli perspektivlə yaradılan təhsil sistemi cəmiyyətin qarşısında duran ən aktual problemlərdəndir. Hər kəsin təhsildən bərabər bəhrələnməsi və fərd üzərində fokuslanması prinsipinə əsaslanan inklüziv təhsil əsas anlayış kimi qarşıya çıxır. İnklüziv təhsil İlk növbədə xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün nəzərdə tutulsa da bu təhsilə qaçqınlar, aşağı sosial-iqtisadi mənsubiyyətdən olan şəxslər və s. kimi qruplarda daxildir. Bu isə "hamı üçün təhsil" prinsipinin qaydalarını əhatə edir və bu gün təhsildən faydalanan bütün maraqlı tərəflərin sosial vəziyyətindən asılı olmayaraq təhsilə bərabər çıxış əldə etməsi kimi müəyyən edilir. Başqa sözlə, inklüziv təhsil bütün uşaqların ehtiyaclarına uyğun olaraq onların inkişaf, sosial-mədəni və fərdi

xüsusiyyətlərini nəzərə alan proses kimi təsvir olunur. “Müasir tədqiqatlarda inklüziv təhsil və onun inkişaf perspektivləri” mövzusunda məqalənin əsas məqsədi inklüziv təhsilin Azərbaycanda inkişafı üçün bu prosesin nəzəri aspektdən təhlillərə cəlb etməkdir.

Keywords: education, inclusion, development, Azerbaijan Republic, modern researchs.

Summary. Education is a fundamental right that every child should have unconditionally. In this regard, it is important for everyone to benefit from education. In modern society, all developed and developing countries have an obligation to ensure that everyone benefits from education. In this context, an education system that takes into account individuality and is created with an individual-centered perspective is one of the most urgent problems facing society. Inclusive education, based on the principle of equal benefit from education for everyone and focusing on the individual, emerges as a basic concept. Although inclusive education is primarily intended for students in need of special care, this education also includes groups such as refugees, people from low socio-economic backgrounds, etc. This follows the rules of the principle of “education for all” and is defined today as equal access to education for all stakeholders benefiting from education, regardless of their social status. In other words, inclusive education is described as a process that takes into account the developmental, socio-cultural and individual characteristics of all children in accordance with their needs. The main purpose of the article on “Inclusive education in modern research and its development prospects” is to analyze this process from a theoretical perspective for the development of inclusive education in Azerbaijan.

Anahtar kelimeler: eğitim, kapsayıcılık, kalkınma, Azerbaycan Cumhuriyyeti, modern araştırmalar

Özet. Eğitim, her çocuğun koşulsuz olarak sahip olması gereken temel bir haktır. Bu bağlamda, herkesin eğitimden faydalanması önemlidir. Modern toplumda, tüm gelişmiş ve gelişmekte olan ülkelerin herkesin eğitimden faydalanmasını sağlamak gibi bir yükümlülüğü vardır. Bu bağlamda, bireyselliği dikkate alan ve birey merkezli bir bakış açısıyla oluşturulan bir eğitim sistemi, toplumun karşı karşıya olduğu en acil sorunlardan biridir. Herkesin eğitimden eşit şekilde faydalanması ilkesine dayanan ve bireye odaklanan kapsayıcı eğitim, temel bir kavram olarak ortaya çıkmaktadır. Kapsayıcı eğitim öncelikle özel bakıma ihtiyaç duyan öğrenciler için tasarlanmış olsa da, mülteciler, düşük sosyo-ekonomik geçmişe sahip kişiler vb. grupları da kapsamaktadır. Bu, "herkes için eğitim" ilkesinin kurallarına uyar ve bugün, sosyal statülerine bakılmaksızın, eğitimden faydalanan tüm paydaşlar için eğitime eşit erişim olarak tanımlanmaktadır. Başka bir deyişle, kapsayıcı eğitim, tüm çocukların gelişimsel, sosyo-kültürel ve bireysel özelliklerini ihtiyaçlarına uygun olarak dikkate alan bir süreç olarak tanımlanmaktadır. “Modern araştırmalarda kapsayıcı eğitim ve gelişim перспектиfleri” başlıklı makalenin temel amacı, Azerbaycan'da kapsayıcı eğitimin geliştirilmesi için bu süreci teorik bir bakış açısıyla analiz etmektir.

Müasir təhsilin əsas prioritetlərindən biri də inklüziv təhsildir. İnklüziv təhsillə bağlı hazırda aparılan tədqiqatların əksəriyyəti xüsusi qayğıya ehtiyacı olan şağirdlərin cəmiyyətə inteqrasiyası və fərdin təhsil mühitinə adaptasiyası prinsiplərinə əsaslanır. Bu baxımdan inklüziv təhsil sistemində şagirdlərin əsasən sözügedən kontekstdə inteqrasiya prosesinə diqqət yetirildiyi, onların təhsilə çıxış imkanlarını və ondan faydalanma səviyyələrini araşdırıldığı müşahidə edilir. Bundan əlavə, inteqrasiya olunmuş şagirdlərin təhsili ilə bağlı sinif müəllimlərinin təcrübələrini üzə çıxarmaq məqsədilə tədqiqatlar aparılmışdır.

İnklüziv təhsil müasir tədqiqatlarda xaricdə aparılan tədqiqatçılardan Costello, Boyle, Goddard və Evans bildirdilər ki, gələcək sinif müəllimlərinin inklüzivliyə münasibəti ümumiyyətlə müsbətdir və təhsil illəri boyu güclənir. Taylor və Ringlaben inklüziv təhsilin vacibliyini və inklüziv təhsilin uğurla həyata keçirilməsində müəllimlərin münasibətinin rolunu vurğulayırlar. Daane, Beirne-Smith və Latham vurğulamışdır ki, müəllimlər ümumiyyətlə təlimin olmaması və ya qeyri-kafi olması səbəbindən özlərini inklüziv təhsilə hazır olmayan kimi qəbul edirlər. Khan, Hashmi və Khanum də inklüziv təhsillə bağlı müəllimlərin bilik səviyyələrinin inklüziv təhsilin tərkib hissəsi olduğunu etiraf etmiş və təklif etmişdir ki, inklüziv təhsil xidmətəqədərki və ixtisasartırma müəllim hazırlığının bir hissəsi olmalıdır. Hankebo araşdırmasında əlilliyi olan uşaqların təhsilə çıxış imkanlarını ortaya qoymağa çalışıb.

İnklüziv təhsil, fərdi fərqlərə dəyər verən fərdlərin təhsil prosesində iştirakını artıran, beləliklə də bütün tələbələrin təhsil sistemindən faydalanmasına şərait yaradan bir prosesdir. Tarixi nöqteyi-nəzərdən bir çox ölkələrdə olduğu kimi, ölkəmizdə də inklüziv təhsil kimi başlamışdır . 1980-ci illərdən inklüziv təhsilə dəyişdirilib. Məzmun baxımından onun inklüziv təhsildən fərqli olduğu görünür. İnklüziv təhsillə məqsəd, xüsusi ehtiyacı olan və ya olmayan bütün tələbələrin ümumi təhsil sistemi çərçivəsində birgə öyrənmələridir. Eyni zamanda, o, tələbələr, müəllimlər, idarəçilər və ailələr kimi təhsildə iştirak edən bütün maraqlı tərəflər arasında harmoniya və ünsiyyətdə bütün tələbələrə bərabər çıxışı təmin etməklə, istisnasız olaraq bütün tələbələri əhatə edən bir anlayışı əhatə edir. (Süleyman Temur S., Uluslu T., 2024). Bu, həm də fərqlərinə və çatışmazlıqlarına baxmayaraq, bütün tələbələr üçün təhsil fəaliyyətlərində tam iştirak etmək üçün imkanlar yaradır. İnklüziv təhsil konsepsiyasına daxil olan əlverişsiz qruplar aşağıdakı kimi təsnif edilir: xüsusi qayğıya ehtiyacı olan uşaqlar, işləyən uşaqlar, aşağı sosial-iqtisadi təbəqədən olan uşaqlar, immiqrant/qaçqın/sığınacaq axtaran uşaqlar, valideynlərindən biri və ya hər ikisi olmayan uşaqlar, cinayətə meyilli uşaqlar, dövlət himayəsində olan uşaqlar və uşaq evlərind yaşayan uşaqlar bu qəbildəndir. (Transparency, 2016).

Təsnifatdan da aydın olduğu kimi inklüziv təhsil anlayışı yalnız xüsusi təhsilə ehtiyacı olan uşaqlara şamil olunmur Buna görə də bu proses yalnız sağlamlıq imkanları məhdud olan şəxslər deyil, bütün imkansız şəxslərə şamil olunur. İnklüziv təhsil ümumtəhsil müəssislərində birlikdə təhsil alan bütün şagirdlər üzərində qurulmuş sistemdir. İnklüziv təhsil əsas insan hüququ və əlilliyindən asılı olmayaraq bütün tələbələrin öz həmyaşıdları ilə təhsil fəaliyyətlərində iştirakını hədəfləyən təhsildə sistematik strukturlaşma prosesidir. İnklüziv təhsildə təhsil fəaliyyətinin planlaşdırılması zamanı fərdi xüsusiyyətlər nəzərə alınır. Hər kəsin öyrənə bilməsi prinsipinə əsaslanaraq, hər bir fərd təhsil prosesinin bir hissəsi kimi görülür. Eynilə, fəaliyyət və təcrübələri həyata keçirərkən fərdi xüsusiyyətlər nəzərə alınır və fərqlər edilir. Sinif mühiti də bütün şagirdləri cəlb etmək üçün zənginləşdirilməlidir. Sinif daxilindəki fərqlər və müxtəliflik bir zənginlik kimi qəbul edilməli və fürsətə çevrilməlidir. Bu imkanı ən yaxşı şəkildə həyata keçirmək üçün inklüziv təhsil prosesinin əsas elementləri nəzərə alınmalıdır. İnklüziv təhsilin fundamental elementlərini nəzərdən keçirərkən, prosesin effektiv həyata keçirilməsində müəllimin münasibəti həlledici rol oynayır. Sinif müəllimlərinin inklüziv təhsillə bağlı fikirləri məsuliyyət, dürüstlük, çalışqanlıq, ədalətlilik, əməkdaşlıq və yeniliklərə açıqlıq kimi dəyərləri əhatə etməlidir.

Uğurlu inklüziv təhsil təcrübələri bu dəyərlərə sahib olan müəllimlər sayəsində həyata keçirilməlidir. Müəllim münasibətlərindən başqa, inklüziv təhsil təcrübələrinin effektivliyi üçün digər mühüm element kurrikulumdur. Hazırda istifadə olunan kurrikulumu nəzərə alsaq, inklüziv təhsilin uğuruna nail olmaq üçün şagirdlərin ehtiyaclarını ödəmək təhsil proqramı bu istiqamətdə

daha da təkmilləşdirilməlidir. Bu vasitə ilə şagirdlərin akademik və psixo-sosial inkişafı daha da effektiv ola blər. Tədris metodları, strategiyaları və təcrübələri vasitəsilə fərqləndirmə inklüziv təhsildə mühüm amildir. İnklüziv təhsil yanaşmasına uyğun olaraq həyata keçirilən fəaliyyətlərin sonunda qiymətləndirmə də vacibdir. İnklüziv qiymətləndirmə müxtəlif ehtiyacları olan tələbələrin öyrənmə məqsədlərinə nə dərəcədə nail olduqlarını anlamaq üçün aparılan tədqiqatları əhatə edir. Məqsəd hər bir şagirdin öz tempi və səviyyəsində irəliləyişini görməkdir.

Ədəbiyyat:

1. İnklüziv təhsilin Skandinaviya modeli. Sosial rifah yüksəldikcə, problemə diqqət də artır. https://www.anl.az/down/meqale/az_muellimi/2018/aprel/587576.htm

2. Süleyman Temur S., Uluslu T. (2024) Öğretmenlerin Kapsayıcı Eğitim Kavramına İlişkin Metaforik Algıları. Buca Eğitim Fakültesi Dergisi, sayı, 61.

3. "Transparency" (2016) Inclusive education envisages providing a quality and transparent educational environment by emphasizing the concepts of inclusion and inclusion instead of exclusion and segregation, regardless of difference, in order to ensure social development United Nations [UN].

MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ İNKLÜZİV MÜHİTİN FORMALAŞMASININ NƏZƏRİ VƏ PRAKTİKİ ƏSASLARI

Aysun Qalib qızı Rəhimli
magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
aysunrahimli2004@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0008-0746-0313

Açar sözlər: inklüziv təhsil, məktəbəqədər təhsil, inklüziv mühit, pedaqoji yanaşma, sosial inteqrasiya.

Xülasə. Bu elmi məqalədə məktəbəqədər təhsil müəssisələrində inklüziv mühitin formalaşdırılmasının həm nəzəri təməlləri, həm də praktik icra mexanizmləri kompleks şəkildə təhlil olunur. Müasir təhsil paradiqmasında inklüzivlik prinsipi, bütün uşaqların fiziki, psixoloji, sensor və ya sosial xüsusiyyətlərindən asılı olmayaraq, bərabər təhsil imkanlarına malik olmasını və onların cəmiyyətə maneəsiz inteqrasiyasını təmin edən fundamental yanaşmadır. Məktəbəqədər dövr uşağın sosial-emosional, koqnitiv və fiziki inkişafının təməl mərhələsi hesab edildiyindən, inklüziv metodologiyanın məhz bu erkən yaşlarda tətbiqi fərdin gələcək həyat trayektoriyası üçün xüsusi strateji əhəmiyyət kəsb edir.Tədqiqat çərçivəsində erkən müdaxilə proqramlarının rolu, uşaq inkişafının diaqnostik qiymətləndirilməsi və hər bir uşağın fərdi ehtiyaclarına uyğunlaşdırılmış Fərdi Təhsil Planlarının (FTP) hazırlanması məsələləri dərindən araşdırılır. Məqalədə inklüziv təhsilin beynəlxalq hüquqi-normativ bazası, UNESCO və UNICEF kimi təşkilatların müəyyən etdiyi standartlar və qabaqcıl dünya təcrübəsi müqayisəli şəkildə təqdim olunur. Eyni zamanda, Azərbaycanda inklüziv təhsilin cari vəziyyəti, qarşıya çıxan sistemli çətinliklər, xüsusilə metodoloji

resurs çatışmazlığı, infrastrukturun müasir standartlara uyğunlaşdırılması və kadr hazırlığı məsələləri tənqidi şəkildə təhlil edilir.

Tədqiqatın nəticələri sübut edir ki, inklüziv mühitin effektivliyi müəllimlərin peşəkar kompetensiyalarından, diferensial tədris metodlarının çevikliyindən və "valideyn-məktəb-mütəxəssis" üçbucağında qurulan multidissiplinar əməkdaşlıqdan birbaşa asılıdır. Praktik baxımdan, oyun əsaslı öyrənmə modelləri, art-terapiya elementləri və sosial bacarıqların inkişafına yönəlmiş inklüziv fəaliyyətlər uşaqların özünəinam hissini gücləndirir, həmyaşıdları ilə sağlam kommunikasiya qurmalarına şərait yaradır. Yekun olaraq qeyd edilir ki, inklüziv mühit yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün deyil, bütün şagird kontingenti üçün empatiya, tolerantlıq və humanist dəyərlərin aşılanmasında müstəsna rol oynayır.

Keywords: inclusive education, preschool education, inclusive environment, teaching methods, social integration.

Summary. This article comprehensively analyzes the theoretical foundations and practical implementation mechanisms for establishing an inclusive environment in preschool educational institutions. In the modern educational paradigm, the principle of inclusivity is a fundamental approach that ensures all children, regardless of their physical, psychological, sensory, or social characteristics, have equal educational opportunities and seamless integration into society. Since the preschool period is the foundational stage of a child’s socio-emotional, cognitive, and physical development, applying inclusive methodologies at this early age holds strategic importance for the individual's future life trajectory.

The research delves into the role of early intervention programs, the diagnostic assessment of child development, and the preparation of Individualized Education Plans (IEP) tailored to each child's unique needs. The article presents a comparative study of the international legal and normative frameworks of inclusive education, standards established by organizations such as UNESCO and UNICEF, and advanced global practices. Simultaneously, it critically analyzes the current state of inclusive education in Azerbaijan, highlighting systemic challenges such as the lack of methodological resources, infrastructure modernization, and professional staff training.

The findings of the study prove that the effectiveness of an inclusive environment directly depends on the professional competencies of educators, the flexibility of differentiated teaching methods, and the multidisciplinary collaboration within the "parent-school-specialist" triad. From a practical perspective, play-based learning models, elements of art therapy, and inclusive activities aimed at social skill development strengthen children's self-confidence and facilitate healthy communication with peers. Ultimately, it is concluded that an inclusive environment plays a vital role in instilling values of empathy, tolerance, and humanity, not only for children with special needs but for the entire student body.

Anahtar kelimeler: kapsayıcı eğitim, okul öncesi eğitim, eğitim ortamı, pedagojik yaklaşımlar, sosyal entegrasyon.

Özet. Bu makalede, okul öncesi eğitim kurumlarında kapsayıcı (inklüziv) bir ortamın oluşturulmasının teorik temelleri ve pratik uygulama mekanizmaları kapsamlı bir şekilde analiz edilmektedir.

Modern eğitim paradigmasında kapsayıcılık ilkesi; tüm çocukların fiziksel, psikolojik, duyusal veya sosyal özelliklerine bakılmaksızın eşit eğitim fırsatlarına sahip olmasını ve toplumla engelsiz entegrasyonunu sağlayan temel bir yaklaşımdır. Okul öncesi dönem, çocuğun sosyo-duygusal, bilişsel ve fiziksel gelişiminin temel aşaması olduğundan, kapsayıcı metodolojinin bu

erken yaşlarda uygulanması bireyin gelecekteki yaşam yörüngesi için stratejik bir öneme sahiptir.Araştırma kapsamında erken müdahale programlarının rolü, çocuk gelişiminin tanısal değerlendirmesi ve her çocuğun bireysel ihtiyaçlarına göre uyarlanmış Bireyselleştirilmiş Eğitim Planlarının (BEP) hazırlanması konuları derinlemesine incelenmektedir. Makalede, kapsayıcı eğitimin uluslararası hukuki-normatif temelleri, UNESCO ve UNICEF gibi kuruluşlarca belirlenen standartlar ve gelişmiş dünya uygulamaları karşılaştırmalı olarak sunulmaktadır. Aynı zamanda, Azerbaycan'daki mevcut durum, metodolojik kaynak yetersizliği, altyapı modernizasyonu ve personel eğitimi gibi karşılaşılan sistemik zorluklar eleştirel bir bakış açısıyla analiz edilmektedir.Araştırma sonuçları, kapsayıcı ortamın etkinliğinin öğretmenlerin mesleki yeterliliklerine, farklılaştırılmış öğretim yöntemlerinin esnekliğine ve "ebeveyn-okul-uzman" üçgeninde kurulan multidisipliner iş birliğine doğrudan bağlı olduğunu kanıtlamaktadır. Pratik açıdan oyun temelli öğrenme modelleri, sanat terapisi unsurları ve sosyal beceri gelişimine yönelik kapsayıcı faaliyetler, çocukların özgüvenini güçlendirmekte ve akranlarıyla sağlıklı iletişim kurmalarına zemin hazırlamaktadır. Sonuç olarak, kapsayıcı bir ortamın sadece özel gereksinimli çocuklar için değil, tüm öğrencilerde empati, hoşgörü ve insani değerlerin aşılanmasında hayati bir rol oynadığı vurgulanmaktadır.

Müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər cəmiyyətin sosial strukturu, insan hüquqlarına yanaşma və pedaqoji düşüncənin inkişafı ilə sıx bağlıdır. Təhsilin humanistləşməsi və demokratikləşməsi prosesində inklüziv təhsil konsepsiyası xüsusi yer tutur. İnklüziv təhsil bütün uşaqların fərdi xüsusiyyətlərindən, inkişaf səviyyəsindən, fiziki və ya psixoloji imkanlarından asılı olmayaraq eyni təhsil mühitində bərabər iştirakını təmin edən yanaşmadır (UNESCO, 2017).Bu yanaşma təhsil sistemində uzun illər mövcud olmuş ayrı-seçkilik modelini aradan qaldırmağı hədəfləyir. Əvvəllər xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün ayrıca təhsil müəssisələrinin mövcudluğu geniş yayılmışdısa, müasir dövrdə əsas məqsəd onların ümumi təhsil sisteminə inteqrasiyasıdır. Bu dəyişiklik yalnız pedaqoji deyil, həm də sosial və psixoloji transformasiya tələb edir.Məktəbəqədər təhsil bu baxımdan xüsusi əhəmiyyət daşıyır, çünki uşağın şəxsiyyətinin ilkin formalaşması məhz bu dövrdə baş verir. Bu mərhələdə uşağın emosional inkişafı, sosial davranışları, ünsiyyət bacarıqları və öyrənmə motivasiyası formalaşır. Erkən yaşda inklüziv mühitdə təhsil alan uşaqlar daha tolerant, daha sosial və daha empatik fərdlər kimi inkişaf edirlər (Loreman, Deppeler, & Harvey, 2010).Beynəlxalq təşkilatlar inklüziv təhsili sosial ədalətin əsas komponenti kimi qəbul edir. UNESCO inklüziv təhsili “hamı üçün təhsil” prinsipinin əsas elementi kimi müəyyən edir, UNICEF isə bu yanaşmanı uşaqların hüquqlarının qorunması və inkişafı üçün fundamental mexanizm hesab edir (UNICEF, 2021).

Bu məqalənin məqsədi məktəbəqədər təhsil müəssisələrində inklüziv mühitin nəzəri əsaslarını geniş şəkildə təhlil etmək, praktik tətbiq mexanizmlərini araşdırmaq və bu sahədə mövcud problemləri müəyyənləşdirərək inkişaf perspektivlərini göstərməkdir.

İnklüziv təhsilin mahiyyəti sosial ədalət, bərabərlik və insan hüquqlarına əsaslanan pedaqoji yanaşmanın formalaşdırılması ilə bağlıdır. Bu modelin əsas ideyası ondan ibarətdir ki, təhsil sistemi hər bir uşağın fərdi xüsusiyyətlərini nəzərə almalı və onların hamısına bərabər inkişaf imkanları yaratmalıdır. Ənənəvi təhsil sistemlərində fərqliliklər çox zaman “problem” kimi qəbul edildiyi halda, inklüziv yanaşmada bu fərqliliklər təlim prosesini zənginləşdirən təbii elementlər kimi dəyərləndirilir (Ainscow, 2005).İnklüziv təhsil konsepsiyası yalnız fiziki inteqrasiyanı deyil, həm də sosial və akademik iştirakın təmin olunmasını nəzərdə tutur. Bu baxımdan inklüzivlik “hamıya eyni təhsil” deyil, “hamıya uyğunlaşdırılmış təhsil” prinsipi ilə izah edilir. Təhsil prosesinin

fərdiləşdirilməsi, kurikulumun çevikliyi və qiymətləndirmə sisteminin inkişafyönümlü olması bu modelin əsas komponentləridir (UNESCO, 2017).Məktəbəqədər təhsil mərhələsində inklüziv mühitin formalaşdırılması xüsusi əhəmiyyət daşıyır, çünki bu dövrdə uşağın psixoloji və sosial inkişafının təməl strukturları formalaşır. Uşaqlar bu mərhələdə ünsiyyət bacarıqları qazanır, sosial davranış modellərini mənimsəyir və ətraf mühitə münasibət formalaşdırırlar. İnklüziv mühit isə bu prosesləri daha sağlam və balanslı şəkildə inkişaf etdirir.

UNICEF tərəfindən aparılan araşdırmalara əsasən, erkən yaşda inklüziv təhsilə cəlb olunan uşaqlar gələcəkdə daha yüksək sosial uyğunlaşma, empatiya və əməkdaşlıq bacarıqları nümayiş etdirirlər (UNICEF, 2019). Bu nəticə inklüziv təhsilin yalnız təhsil deyil, eyni zamanda sosial inkişaf mexanizmi olduğunu göstərir.İnklüziv mühitin formalaşdırılmasında pedaqoji yanaşmalar xüsusi rol oynayır. Bu yanaşmaların ən vaciblərindən biri oyun əsaslı təlimdir. Oyun məktəbəqədər yaşlı uşaqlar üçün təbii fəaliyyət forması olduğundan, onların öyrənmə prosesinə aktiv şəkildə cəlb olunmasını təmin edir. Oyun vasitəsilə uşaqlar sosial rolları öyrənir, emosional vəziyyətləri dərk edir və birgə fəaliyyət bacarıqları inkişaf etdirirlər (Loreman, Deppeler, & Harvey, 2010).Bununla yanaşı, fərdiləşdirilmiş təlim yanaşması inklüziv təhsilin əsas komponentlərindən biridir. Bu yanaşma hər bir uşağın inkişaf səviyyəsini nəzərə alaraq təlim prosesinin uyğunlaşdırılmasını tələb edir. Diferensial təlim metodları eyni sinifdə müxtəlif inkişaf səviyyəsinə malik uşaqların effektiv öyrənməsinə şərait yaradır. Bu yanaşma təhsildə bərabərliyin təmin olunmasında mühüm rol oynayır (Mitchell, 2014).İnklüziv mühitin effektivliyi üçün kurikulumun çevikliyi xüsusi əhəmiyyət daşıyır. İnklüziv kurikulum uşağın ehtiyaclarına uyğun dəyişdirilə bilən və fərdiləşdirilə bilən tədris planıdır. Bu kurikulumda məqsədlər, məzmun və qiymətləndirmə meyarları sabit deyil, uşağın inkişafına uyğun olaraq adaptasiya olunur (UNESCO, 2017). Bu yanaşma təhsil prosesinin daha ədalətli və əlçatan olmasını təmin edir.

İnklüziv təhsildə qiymətləndirmə ənənəvi modeldən fərqli olaraq uşaqların bir-biri ilə müqayisəsinə əsaslanmır. Burada əsas məqsəd uşağın fərdi inkişaf dinamikasını izləməkdir. Müşahidə, portfoliolar, inkişaf qeydləri və praktik tapşırıqlar bu sistemdə əsas qiymətləndirmə metodları kimi çıxış edir. OECD (2012) qeyd edir ki, inkişafyönümlü qiymətləndirmə uşağın real bacarıqlarını daha obyektiv şəkildə əks etdirir və onun motivasiyasını artırır.İnklüziv mühitin mühüm komponentlərindən biri də sosial qarşılıqlı əlaqədir. Uşaqların birgə fəaliyyətlərdə iştirakı onların sosial bacarıqlarını inkişaf etdirir, kommunikasiya qabiliyyətlərini gücləndirir və empatiya hissini formalaşdırır. Bu proses həmçinin uşaqlar arasında tolerantlığın inkişafına şərait yaradır.Müəllim inklüziv təhsil sistemində mərkəzi fiqurdur. Onun rolu yalnız bilik ötürmək deyil, həm də sosial mühitin təşkil olunmasını təmin etməkdir. Müəllim hər bir uşağın fərdi ehtiyaclarını nəzərə almalı, uyğun təlim strategiyaları seçməli və sinifdə bərabər iştirak mühiti yaratmalıdır. Booth və Ainscow (2011) qeyd edirlər ki, müəllimin peşəkar səriştəsi inklüziv təhsilin uğurunda ən mühüm amillərdən biridir.Müəllimin empatiya qabiliyyəti və psixoloji hazırlığı da inklüziv mühitin keyfiyyətinə birbaşa təsir göstərir. Müəllim uşağın emosional vəziyyətini düzgün qiymətləndirməli və ona uyğun dəstək göstərməlidir. Bu, uşağın özünəinamını artırır və təlim prosesinə aktiv iştirakını təmin edir.

Tədqiqat nəticələrinə əsasən, məktəbəqədər dövrdə inklüziv mühitin tətbiqi uşaqların sosial bacarıqlarının formalaşmasına, emosional sabitliyinin güclənməsinə və ünsiyyət vərdişlərinin inkişafına müsbət təsir göstərir. Erkən yaşlarda inklüziv mühitdə olan uşaqlar fərqliliklərə daha tolerant yanaşır, sosial münasibətlərdə daha çevik olur və əməkdaşlıq bacarıqlarını daha erkən mərhələdə mənimsəyirlər (Loreman, Deppeler, & Harvey, 2010).İnklüziv təhsilin effektivliyi bir

sıra pedaqoji və təşkilati amillərdən asılıdır. Bu amillərə fərdiləşdirilmiş təlim yanaşmasının tətbiqi, diferensial metodların istifadəsi, kurikulumun çevikliyi və qiymətləndirmənin inkişafyönümlü aparılması daxildir. Xüsusilə oyun əsaslı təlim məktəbəqədər yaşlı uşaqlar üçün inklüziv mühitin formalaşdırılmasında əsas vasitələrdən biri hesab olunur, çünki bu metod uşaqların təbii öyrənmə ehtiyaclarına uyğun gəlir və sosial qarşılıqlı əlaqəni gücləndirir (Mitchell, 2014).Müəllim inklüziv təhsil prosesində mərkəzi fiqurdur. Onun peşəkar səriştəsi, psixoloji hazırlığı və empatiya bacarığı inklüziv mühitin keyfiyyətini müəyyən edən əsas amillərdəndir. Müəllimin hər bir uşağa fərdi yanaşması və onların ehtiyaclarını düzgün qiymətləndirməsi təlim prosesinin effektivliyini artırır (Booth & Ainscow, 2011).Eyni zamanda valideynlərin təhsil prosesinə cəlb olunması inklüziv mühitin davamlılığını və səmərəliliyini artıran mühüm sosial faktordur. Valideyn-müəllim əməkdaşlığı uşağın inkişafına müsbət təsir göstərir və onun sosial adaptasiya imkanlarını genişləndirir.Azərbaycanda inklüziv təhsilin inkişafı istiqamətində son illərdə mühüm addımlar atılmışdır. Dövlət səviyyəsində həyata keçirilən islahatlar bu sahənin genişlənməsinə şərait yaratmışdır. Bununla belə, müəllim hazırlığının təkmilləşdirilməsi, xüsusi tədris resurslarının artırılması və ictimai stereotiplərin azaldılması kimi məsələlər hələ də aktual olaraq qalır (Azərbaycan Təhsil İnstitutu, 2022).

Nəticə olaraq qeyd etmək olar ki, məktəbəqədər təhsildə inklüziv mühitin formalaşdırılması yalnız pedaqoji məsələ deyil, həm də sosial və humanist xarakter daşıyan kompleks bir prosesdir. Bu modelin düzgün tətbiqi uşaqların gələcək sosial inkişafına, onların empatiya, əməkdaşlıq və tolerantlıq bacarıqlarının formalaşmasına ciddi töhfə verir. İnklüziv təhsilin inkişafı üçün sistemli yanaşma, müəllim hazırlığının gücləndirilməsi və ictimai maarifləndirmə tədbirlərinin genişləndirilməsi vacibdir.

Ədəbiyyat:

1. Ainscow, M. (2005). Developing inclusive education systems: What are the levers for change? Journal of Educational Change, 6(2), 109–124.

2. Azerbaijan Ministry of Education. (2020). Inclusive education development program in Azerbaijan. Baku: Ministry of Education.

3. Booth, T., & Ainscow, M. (2011). Index for inclusion: Developing learning and participation in schools. Bristol: Centre for Studies on Inclusive Education.

4. European Agency for Special Needs and Inclusive Education. (2018). Evidence of inclusive education. Odense, Denmark.

5. Loreman, T., Deppeler, J., & Harvey, D. (2010). Inclusive education: Supporting diversity in the classroom. London: Routledge.

6. Mitchell, D. (2014). What really works in special and inclusive education. London: Routledge.

7. OECD. (2012). Equity and quality in education: Supporting disadvantaged students and schools. Paris: OECD Publishing.

8. Slee, R. (2011). The irregular school: Exclusion, schooling and inclusive education. London: Routledge.

9. UNESCO. (1994). The Salamanca statement and framework for action on special needs education. Paris: UNESCO.

10. UNESCO. (2009). Policy guidelines on inclusion in education. Paris: UNESCO.

11. UNESCO. (2017). A guide for ensuring inclusion and equity in education. Paris: UNESCO.

12. UNICEF. (2013). The state of the world’s children: Children with disabilities. New York: UNICEF.
13. UNICEF. (2019). Inclusive education: Every child has the right to learn. New York: UNICEF.
14. UNICEF. (2021). Inclusive education and children with disabilities. New York: UNICEF.
15. Azərbaycan Təhsil İnstitutu. (2022). İnklüziv təhsil üzrə metodik vəsait. Bakı.

MÜƏLLİMİN İNKLÜZİV TƏLİMƏ PEŞƏKAR HAZIRLIĞI VƏ TƏHSİL PROSESİNDƏ ROLU

Dilbər Elsevər qızı Babayeva
magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
dilber.babayevaa@icloud.com
ORCİD ID: 0009-0000-3906-1167

Açar sözlər: inklüziv təhsil, müəllim hazırlığı, pedaqoji yanaşma, psixoloji dəstək, emosional zəka.

Xülasə. Bu məqalədə müəllimin inklüziv təlimə hazırlığı pedaqoji və psixoloji aspektlərdən kompleks şəkildə təhlil olunur. İnklüziv təhsil bütün şagirdlər üçün bərabər imkanların yaradılmasını hədəfləyən mühüm yanaşma kimi təqdim edilir. Məqalədə müəllimin yalnız metodik və didaktik biliklərinin deyil, həm də psixoloji hazırlığının vacibliyi vurğulanır. Müəllimin fərdi yanaşma bacarıqları inklüziv mühitdə əsas rol oynayır. Diferensiallaşdırılmış təlim strategiyalarının tətbiqi şagirdlərin fərdi ehtiyaclarını nəzərə almağa imkan verir. Eyni zamanda müəllimin emosional zəka səviyyəsi şagirdlərlə münasibətlərə təsir göstərir. Empatiya və tolerantlıq inklüziv təhsilin əsas prinsiplərindən hesab olunur. Məqalədə sosial-emosional öyrənmə yanaşmalarının rolu da izah edilir. Psixoloji cəhətdən təhlükəsiz sinif mühitinin yaradılması şagirdlərin aktiv iştirakını artırır. Müəllim şagirdlərin emosional vəziyyətini nəzərə alaraq dərs prosesini təşkil etməlidir. Bu yanaşma onların motivasiyasını yüksəldir. Rəqəmsal texnologiyaların inklüziv təhsildə istifadəsi də təhlil olunur. Müasir alətlər fərqli öyrənmə ehtiyaclarını qarşılamağa kömək edir. Müəllimlərin davamlı peşəkar inkişafı vacib amil kimi qeyd olunur. Təlim və seminarlar onların bacarıqlarını artırır. Valideynlərlə əməkdaşlıq inklüziv mühitin güclənməsinə təsir edir. Məqalədə inklüziv təhsilin sosial ədalətin təmin olunmasındakı rolu vurğulanır. Psixoloji və pedaqoji yanaşmaların inteqrasiyası təhsilin keyfiyyətini artırır. Araşdırma göstərir ki, müəllimin kompleks hazırlığı inklüziv təhsilin uğurunu müəyyən edir. Beləliklə, inklüziv təhsil müasir təhsil sisteminin vacib komponenti kimi qiymətləndirilir.

Keywords: inclusive education, teacher readiness, pedagogical approach, psychological support, emotional intelligence.

Summary. This article analyzes teacher readiness for inclusive education from both pedagogical and psychological perspectives. Inclusive education is presented as an important approach aimed at ensuring equal opportunities for all learners. The study emphasizes that teachers need not only methodological knowledge but also strong psychological preparation. Individualized instruction plays a key role in inclusive classrooms. Differentiated teaching strategies help address

diverse student needs. Teachers’ emotional intelligence significantly affects their interaction with students. Empathy and tolerance are considered core principles of inclusive education. The article highlights the importance of social-emotional learning approaches. Creating a psychologically safe classroom environment increases student engagement. Teachers must consider students’ emotional states when organizing lessons. This approach enhances motivation and learning outcomes. The role of digital technologies in inclusive education is also discussed. Modern tools help meet diverse learning needs. Continuous professional development is identified as a key factor. Training programs enhance teachers’ competencies. Collaboration with parents strengthens inclusive practices. The study also emphasizes the role of inclusive education in promoting social justice. The integration of pedagogical and psychological approaches improves educational quality. Findings show that comprehensive teacher preparation determines the success of inclusive education. Therefore, inclusive education is considered a vital component of modern education systems.

Anahtar kelimeler: kapsayıcı eğitim, öğretmen hazırlığı, pedagojik yaklaşım, psikolojik destek, duygusal zeka.

Özet. Bu makalede öğretmenin kapsayıcı eğitime hazırlığı pedagojik ve psikolojik açıdan ele alınmaktadır. Kapsayıcı eğitim tüm öğrenciler için eşit fırsatlar sağlamayı amaçlayan önemli bir yaklaşımdır. Çalışmada öğretmenlerin yalnızca pedagojik değil, aynı zamanda psikolojik olarak da hazır olmalarının önemi vurgulanmaktadır. Bireyselleştirilmiş öğretim kapsayıcı eğitimde önemli rol oynar. Farklılaştırılmış öğretim stratejileri öğrencilerin ihtiyaçlarını karşılar. Öğretmenin duygusal zekası öğrenci ilişkilerini etkiler. Empati ve hoşgörü kapsayıcı eğitimin temel unsurlarıdır. Sosyal-duygusal öğrenme yaklaşımları ele alınmaktadır. Psikolojik olarak güvenli sınıf ortamı öğrenci katılımını artırır. Öğretmenler öğrencilerin duygusal durumlarını dikkate almalıdır. Bu yaklaşım motivasyonu artırır. Dijital teknolojilerin rolü de incelenmektedir. Modern araçlar farklı öğrenme ihtiyaçlarını karşılar. Sürekli mesleki gelişim önemli bir faktördür. Eğitim programları öğretmenlerin becerilerini geliştirir. Velilerle iş birliği kapsayıcı eğitimi güçlendirir. Makalede sosyal adalet vurgusu yapılmaktadır. Pedagojik ve psikolojik yaklaşımların entegrasyonu eğitim kalitesini artırır. Araştırma sonuçları öğretmen hazırlığının önemini göstermektedir. Sonuç olarak kapsayıcı eğitim modern eğitim sistemlerinin temel unsurlarından biridir.

İnklüziv təhsil müasir pedaqogikanın əsas istiqamətlərindən biri kimi bütün şagirdlər üçün bərabər təhsil imkanlarının yaradılmasını hədəfləyir. Bu yanaşma fərqli ehtiyaclara malik olan şagirdlərin ümumi təhsil mühitində inteqrasiyasını təmin etməklə onların sosial və akademik inkişafına şərait yaradır. Müəllimin inklüziv təlimə hazırlığı bu prosesin uğurla həyata keçirilməsində əsas faktorlardan biridir. Müasir dövrdə müəllim yalnız bilik ötürən deyil, həm də fasilitator, məsləhətçi və dəstəkverici rolunda çıxış edir. İnklüziv təhsil mühitində müəllim hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə alaraq tədris strategiyalarını uyğunlaşdırmalıdır. Bu isə xüsusi pedaqoji bilik və bacarıqların olmasını tələb edir. Tədqiqatlar göstərir ki, müəllimin hazırlıq səviyyəsi inklüziv təhsilin keyfiyyətinə birbaşa təsir edir (Ainscow M., 2005). Buna görə də müəllim hazırlığı inklüziv təhsilin əsas sütunlarından biri hesab olunur.

Müəllimin inklüziv təlimə hazırlığı həm nəzəri, həm də praktik komponentləri əhatə edir. Nəzəri hazırlıq inklüziv təhsilin prinsipləri, qanunvericilik bazası və pedaqoji yanaşmalar haqqında bilikləri əhatə edir. Praktik hazırlıq isə sinif idarəetməsi, diferensiallaşdırılmış tədris və fərdi yanaşma bacarıqlarını özündə birləşdirir. Müəllim inklüziv mühitdə müxtəlif öyrənmə üslublarını nəzərə alaraq dərs planlarını çevik şəkildə tərtib etməlidir. Bu baxımdan fərdiləşdirilmiş təlim planlarının hazırlanması xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda müəllim assistent müəllimlər və

valideynlərlə əməkdaşlıq etməyi bacarmalıdır. İnklüziv təhsil komanda işini tələb edən bir prosesdir. Bu əməkdaşlıq şagirdlərin inkişafına müsbət təsir göstərir (Florian, L., 2014).

İnklüziv təhsildə müəllimin rolu yalnız tədrislə məhdudlaşmır, həm də sosial inklüziyanın təşviqini əhatə edir. Müəllim sinifdə tolerantlıq, hörmət və qarşılıqlı anlayış mühitinin formalaşmasına töhfə verməlidir. Bu, şagirdlər arasında diskriminasiyanın qarşısını almağa kömək edir. Müəllim həmçinin xüsusi qayğıya ehtiyacı olan şagirdlərin psixoloji dəstəyə ehtiyacını nəzərə almalıdır. Empatiya və emosional zəka inklüziv müəllimin əsas xüsusiyyətlərindəndir. Müəllim şagirdlər arasında müsbət münasibətlərin qurulmasına şərait yaratmalıdır. Bu yanaşma şagirdlərin sosial bacarıqlarının inkişafına da təsir edir. Beləliklə, müəllim inklüziv mühitin əsas qurucusuna çevrilir (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2018).

Müasir texnologiyalar müəllimin inklüziv təlimə hazırlığında mühüm rol oynayır. Rəqəmsal alətlər fərqli öyrənmə ehtiyaclarını qarşılamaq üçün geniş imkanlar təqdim edir. Məsələn, vizual, audio və interaktiv materiallar şagirdlərin dərsi daha yaxşı mənimsəməsinə kömək edir. Xüsusi ehtiyacı olan şagirdlər üçün uyğunlaşdırılmış proqram təminatları tədris prosesini daha əlçatan edir. Müəllim bu texnologiyalardan səmərəli istifadə etməyi bacarmalıdır. Bu isə davamlı peşəkar inkişafı tələb edir. Təlimlər və seminarlar müəllimlərin bu sahədə biliklərini artırmağa kömək edir. Nəticədə tədris daha effektiv və inklüziv olur (Tomlinson C.A., 2017).

İnklüziv təhsilin uğurlu həyata keçirilməsi üçün müəllimlərin davamlı inkişafı vacibdir. Peşəkar inkişaf proqramları müəllimlərin yeni metod və yanaşmalarla tanış olmasına şərait yaradır. Bu proqramlar vasitəsilə müəllimlər praktiki bacarıqlarını təkmilləşdirə bilirlər. Eyni zamanda təcrübə mübadiləsi inklüziv təhsilin keyfiyyətini artırır. Müəllimlər arasında əməkdaşlıq və təcrübə paylaşımı mühüm rol oynayır. Dövlət və təhsil qurumları bu prosesi dəstəkləməlidir. İnklüziv təhsil yalnız müəllimin deyil, bütün sistemin məsuliyyətidir. Bu yanaşma təhsildə bərabərliyin təmin olunmasına xidmət edir (UNESCO (Azərbaycan üzrə nəşr), 2015).

İnklüziv təhsildə müəllimin effektiv fəaliyyət göstərə bilməsi üçün reflektiv yanaşma xüsusi əhəmiyyət kəsb edir. Reflektiv müəllim öz tədris fəaliyyətini mütəmadi olaraq təhlil edir və onu daha da təkmilləşdirməyə çalışır. Bu yanaşma müəllimə öz güclü və zəif tərəflərini müəyyən etməyə imkan verir. Eyni zamanda refleksiya inklüziv mühitdə yaranan problemlərin vaxtında aşkar olunmasına kömək edir. Müəllim şagirdlərin fərdi nailiyyətlərini və çətinliklərini analiz edərək daha uyğun tədris strategiyaları seçə bilər. Reflektiv yanaşma müəllimin peşəkar inkişafını sürətləndirən əsas amillərdən biridir. Bu proses müəllimin daha çevik və adaptiv olmasına şərait yaradır. İnklüziv təhsildə dəyişən ehtiyaclara uyğunlaşmaq üçün reflektiv düşüncə vacibdir. Müəllim öz fəaliyyətinə tənqidi yanaşaraq daha effektiv nəticələr əldə edə bilər. Beləliklə, reflektivlik inklüziv təlimin keyfiyyətini artıran mühüm pedaqoji mexanizm kimi çıxış edir.

İnklüziv təhsildə müəllimin hazırlığı yalnız pedaqoji bilik və bacarıqlarla məhdudlaşmır, eyni zamanda güclü psixoloji hazırlıq da tələb edir. Müəllim şagirdlərin fərdi xüsusiyyətlərini, emosional vəziyyətini və psixoloji ehtiyaclarını dərindən anlamalıdır. Xüsusi qayğıya ehtiyacı olan şagirdlərlə işləyərkən müəllimin empatiya qabiliyyəti və emosional zəka səviyyəsi həlledici rol oynayır. Psixoloji baxımdan təhlükəsiz və dəstəkləyici sinif mühitinin yaradılması şagirdlərin özlərini rahat hiss etməsinə və öyrənmə prosesinə daha fəal qoşulmasına şərait yaradır. Müəllim stres, narahatlıq və adaptasiya problemləri yaşayan şagirdlərə fərdi yanaşma tətbiq etməlidir. Bu isə müəllimin psixologiya sahəsində müəyyən biliklərə malik olmasını zəruri edir. Pedaqoji və psixoloji yanaşmaların inteqrasiyası təlim prosesinin daha effektiv təşkilinə imkan verir. Müəllim davranış idarəetməsi strategiyalarını düzgün tətbiq etməklə sinifdə müsbət psixoloji iqlim yarada bilər. Eyni

zamanda motivasiyaedici mühitin formalaşdırılması şagirdlərin akademik uğurlarına müsbət təsir göstərir. Sosial-emosional öyrənmə metodlarının tətbiqi inklüziv təhsildə mühüm yer tutur. Müəllim şagirdlər arasında qarşılıqlı hörmət və anlayışı təşviq etməlidir. Bu, sinifdə sosial inklüziyanın güclənməsinə səbəb olur. Psixoloji dəstək və pedaqoji strategiyaların vəhdəti şagirdlərin hərtərəfli inkişafını təmin edir. Beləliklə, inklüziv təhsildə müəllimin rolu həm pedaqoji, həm də psixoloji baxımdan kompleks yanaşma tələb edir. Bu yanaşma təhsilin keyfiyyətinin yüksəldilməsində əsas amillərdən biri kimi çıxış edir.

Nəticə olaraq qeyd etmək olar ki, müəllimin inklüziv təlimə hazırlığı və bu sahədəki peşəkar fəaliyyəti təhsil sisteminin inkişafında həlledici rol oynayır. Müəllimin yalnız nəzəri biliklərə deyil, həm də praktik bacarıqlara malik olması inklüziv mühitin formalaşması üçün zəruridir. İnklüziv təhsil müxtəlif ehtiyaclara malik şagirdlərin potensialını üzə çıxarmaqla yanaşı, onların sosial inteqrasiyasını da təmin edir. Bu prosesdə müəllim əsas istiqamətləndirici və dəstəkverici qüvvə kimi çıxış edir. Müasir dövrdə texnologiyanın və innovativ pedaqoji yanaşmaların tətbiqi müəllimin rolunu daha da genişləndirir. Eyni zamanda reflektiv yanaşma müəllimin davamlı inkişafına və tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. İnklüziv təhsilin effektivliyi müəllim, məktəb rəhbərliyi və valideynlər arasında qurulan əməkdaşlıqdan da asılıdır. Dövlət səviyyəsində həyata keçirilən təhsil siyasəti və dəstək mexanizmləri bu prosesin davamlılığını təmin edir. Müəllimlərin peşəkar inkişafına yönəlmiş proqramların genişləndirilməsi inklüziv təhsilin keyfiyyətinə müsbət təsir göstərir. Beləliklə, inklüziv təhsil yalnız pedaqoji yanaşma deyil, həm də sosial ədalətin təmin olunmasına xidmət edən mühüm bir sistemdir. Bu sistemin uğurlu tətbiqi isə bilavasitə müəllimin hazırlıq səviyyəsi və peşəkarlığı ilə bağlıdır.

Ədəbiyyat:

1. Ainscow, M. (2005). Developing inclusive education systems. Routledge.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi (2018). İnklüziv təhsilin təşkili üzrə metodik vəsait. Bakı.
3. Florian, L. (2014). The SAGE handbook of special education. SAGE Publications.
4. Tomlinson, C. A. (2017). How to differentiate instruction in academically diverse classrooms. ASCD.
5. UNESCO (Azərbaycan üzrə nəşr) (2015). İnklüziv təhsil: siyasət və təcrübə. Bakı.

İNDONEZİYADA MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ İNKLÜZİV TƏHSİL

Aytac Elman qızı Həşimova
magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
aytachshmva04@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0004-7310-4078

Açar sözlər: inklüziv məktəbəqədər təhsil, infrastruktur, çətinliklər, strategiya, siyasət.

Xülasə. İndoneziyadakı uşaqlar, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün inklüziv məktəbəqədər təhsil çox vacibdir. Bununla belə, hələ də məhdud çıxış, təhsil keyfiyyətindəki dəyişikliklər və siyasət dəstəyinin olmaması kimi bir çox çətinliklər mövcuddur.

Məqsəd: Bu tədqiqatın məqsədi İndoneziyada inklüziv məktəbəqədər təhsilin vəziyyətini xəritələşdirmək, dəstəkləyici və maneə törədən amilləri müəyyən etmək və inklüziv məktəbəqədər təhsilin keyfiyyətini və əlçatanlığını artıra biləcək siyasət tövsiyələri verməkdir. Metod: Bu tədqiqat 2020-2024-cü illər arasında 24 müvafiq məqalənin təhlili ilə Sistematik Ədəbiyyat İcmalından (SLR) istifadə edir. Bu tədqiqatın yeniliyi, əvvəlki tədqiqatların məktəbəqədər təhsil səviyyəsində xüsusi olaraq araşdırılmamış İndoneziyada inklüziv məktəbəqədər təhsil haqqında ən son məlumatlara əsaslanan hərtərəfli təhlilindədir. Təhlildən məlum olur ki, inklüziv məktəbəqədər təhsilin tətbiqində hələ də boşluqlar mövcuddur. İnklüziv məktəbəqədər təhsili təkmilləşdirmək üçün adekvat büdcə ayrılması, müəllim hazırlığı, fərdi uşaqların ehtiyaclarına əsaslanan tədris planının hazırlanması, sektorlararası əməkdaşlıq, infrastrukturun uyğunlaşdırılması və inklüziv mədəniyyətin inkişafı lazımdır. Hökumətin dəstəyi, güclü öhdəliyi və valideynlərin, məktəblərin, müəllimlərin və icmanın fəal rolu da inklüziv təhsil mühitinin yaradılmasında vacib hesab olunur. Siyasət tövsiyələrinə sektorlararası əməkdaşlıq, infrastrukturun uyğunlaşdırılması, inklüziv maarifləndirmə kampaniyaları, tənzimləmə inkişafı və inklüziv məktəbəqədər təhsilin əlçatanlığının artırılması daxildir. Nəticə: Bu tədqiqatın nəticəsi göstərir ki, düzgün strategiya və adekvat dəstək ilə İndoneziyada inklüziv məktəbəqədər təhsil əhəmiyyətli dərəcədə yaxşılaşdırıla bilər ki, hər bir uşağın keyfiyyətli təhsil almaq hüququ olsun.

Keywords: inclusive preschool education, infrastructure, challenges, strategy, policy.

Summary. Inclusive preschool education is very important for children in Indonesia, including children with special needs. However, there are still many challenges faced, such as limited access, variations in education quality, and lack of policy support. Aim: This research aims to map the condition of inclusive preschool education in Indonesia, identify supporting and inhibiting factors, and provide policy recommendations that can improve the quality and accessibility of inclusive preschool education. Method: This research uses a Systematic Literature Review (SLR) with an analysis of 24 relevant articles with a time limit of 2020 to 2024. The novelty of this research lies in its comprehensive analysis based on the latest data on inclusive preschool education in Indonesia, which previous research has not specifically explored at the preschool level. From the analysis it is revealed that there are still gaps in the implementation of inclusive preschool education. To improve inclusive preschool education, adequate budget allocation, teacher training, curriculum development based on individual children's needs, cross-sector collaboration, infrastructure adaptation, and development of an inclusive culture are needed. Government support, strong commitment, and the active role of parents, schools, teachers, and the community are also considered important in creating an inclusive educational environment. Policy recommendations include cross-sector collaboration, infrastructure adaptation, inclusion awareness campaigns, regulatory development, and increasing the accessibility of inclusive preschool education. Conclusion: The conclusion of this research shows that with the right strategy and adequate support, inclusive preschool education in Indonesia can be improved significantly so that every child has the same right to quality education.

Anahtar kelimeler: kapsayıcı okul öncesi eğitim, altyapı, zorluklar, strateji, politika.

Özet. Kapsayıcı okul öncesi eğitim, özel ihtiyaçları olan çocuklar da dahil olmak üzere Endonezya'daki çocuklar için çok önemlidir.Ancak, sınırlı erişim, eğitim kalitesindeki farklılıklar ve siyasi desteğin eksikliği gibi birçok zorlukla karşılaşılmaktadır.Amaç: Bu araştırma, Endonezya'daki kapsayıcı okul öncesi eğitimin durumunu haritalamayı, destekleyici ve engelleyici faktörleri belirlemeyi ve kapsayıcı okul öncesi eğitimin kalitesini ve erişilebilirliğini

iyileştirebilecek politika önerileri sunmayı amaçlamaktadır.Yöntem: Bu araştırma, 2020-2024 zaman dilimini kapsayan 24 ilgili makalenin analizini içeren Sistematik Literatür İncelemesi (SLR) kullanmaktadır. Bu araştırmanın yeniliği, daha önceki araştırmaların okul öncesi düzeyinde özel olarak incelemediği Endonezya'daki kapsayıcı okul öncesi eğitime ilişkin en son veriler üzerinde kapsamlı bir analiz yapmasında yatmaktadır. Analizden, kapsayıcı okul öncesi eğitimin uygulanmasında hala boşluklar olduğu ortaya çıkmıştır. Kapsayıcı okul öncesi eğitimini iyileştirmek için yeterli bütçe tahsisi, öğretmen eğitimi, bireysel çocuk ihtiyaçlarına dayalı müfredat geliştirme, sektörler arası iş birliği, altyapı uyarlaması ve kapsayıcı bir kültürün geliştirilmesi gerekmektedir. Hükümet desteği, güçlü bağlılık ve ebeveynlerin, okulların, öğretmenlerin ve toplumun aktif rolü de kapsayıcı bir eğitim ortamı oluşturmada önemli kabul edilmektedir. Politika önerileri arasında sektörler arası iş birliği, altyapı uyarlaması, kapsayıcılık farkındalık kampanyaları, düzenleyici geliştirme ve kapsayıcı okul öncesi eğitime erişilebilirliğin artırılması yer almaktadır.Sonuç: Bu araştırmanın sonucu, doğru strateji ve yeterli destekle Endonezya'da kapsayıcı okul öncesi eğitiminin önemli ölçüde iyileştirilebileceğini ve her çocuğun kaliteli eğitime aynı hakka sahip olabileceğini göstermektedir.

Xüsusi qayğıya ehtiyacı olanlar da daxil olmaqla, hər bir uşaq erkən yaşlarından etibarən düzgün təhsil almaq hüququna malikdir. Məktəbəqədər yaşlarına çatdıqda, onların dünyası fiziki və emosional baxımdan bütün aspektlərdə sürətlə formalaşmağa başlayır (Berasategi Sancho və b., 2022; Bai & Suprojo, 2019; Siahaan, 2022). İnklüziv məktəbəqədər təhsil yalnız hərfləri və rəqəmləri öyrətmir, həm də istisnasız olaraq hər bir uşaq üçün dəstəkləyici bir mühit təmin edir. İnklüziv məktəbəqədər təhsil mühitində hər bir uşağın öz yeri var. Onlar etiketlər və ya stereotiplərlə məhdudlaşdırılmadan, potensiallarına uyğun olaraq böyüməyə və inkişaf etməyə dəvət olunurlar.

İndoneziyada inklüziv məktəbəqədər təhsilin düzgün aparılmasında müəəyyən tədqiqatlar aparılmışdır.Tədqiqat nəticəsində məlum olur ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların əksəriyyəti hələ də inklüziv təhsilə çıxışda çətinliklərlə üzləşir. İnklüziv məktəbəqədər təhsil müəssisələrinin bölgüsü də qeyri-bərabərdir, kənd yerlərinə nisbətən şəhər yerlərində daha çox diqqət yetirilir. Bu, ucqar və ya marjinal ərazilərdə yaşayan uşaqların təhsilə çıxışında bərabərsizliyə səbəb olur (Astuti və b., 2024). Bütün uşaqlar üçün inklüziv təhsilin əlçatanlığını artırmaq üçün əlavə səylər göstərilməlidir. Kənd yerlərində daha inklüziv təhsil müəssisələrinin tikilməsi, müəllimlər və məktəb işçiləri üçün inklüziv yanaşmalar üzrə təlim kimi tədbirlər bu problemlərin həllinə kömək edə bilər.

Bundan əlavə, xüsusi qayğıya ehtiyacı olan uşaqların düzgün təhsil ala bilməsi üçün dəstəkləyici mühit yaratmaq üçün hökumət, təhsil müəssisələri və icma arasında əməkdaşlıq da vacibdir (Maemunah, 2021). Bir sıra tədqiqatlar bu təhsilin keyfiyyətini təmin etmək üçün aradan qaldırılması lazım olan dəstəkləyici amilləri və maneələri müəyyən etmişdir. Hökumətin dəstəyi və öhdəliyi məktəbəqədər təhsil də daxil olmaqla bütün səviyyələrdə inklüziv təhsilin tətbiqinin gücləndirilməsində əsas amildir. Lakin müəllimlərin bilik və bacarıqlarının olmaması (Bietenbeck və b., 2018), inzibati dəstəyin olmaması və xüsusi qayğıya ehtiyacı olan şagirdlərə uyğun proqramların hazırlanması üçün vaxt məhdudiyyətləri kimi əhəmiyyətli maneələr dərhal həll edilməlidir. Hökumətin inklüziv məktəbəqədər təhsilin dəstəklənməsində rolu çox vacibdir. İnklüziv məktəbəqədər təhsildə iştirak edən insan resurslarının keyfiyyətini artırmaq üçün hökumətin güclü investisiyası və öhdəliyi təcili olaraq tələb olunur. Buraya müəllimlər üçün təlim

və peşəkar inkişaf, eləcə də adekvat inzibati dəstəyin təmin edilməsi daxildir. Bundan əlavə, valideynlərin, məktəblərin, müəllimlərin və ictimaiyyətin rolu və iştirakı da çox vacibdir.

İndoneziyada inklüziv məktəbəqədər təhsilin keyfiyyətini artırmaq üçün hökumət və aidiyyəti maraqlı tərəflər aparılmış tədqiqatların nəticələrinə və tövsiyələrinə diqqət yetirməlidirlər. Müxtəlif araşdırmalar bir sıra həll yolları və strategiyalar irəli sürmüşdür. Bunlara uşaqlarda nitq gecikmələrinin erkən aşkarlanması və idarə olunmasının vacibliyi, həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün fərdiləşdirilmiş təlim yanaşmasının zəruriliyi daxildir: müəllim təlimi; kənd bölgələrində mərkəzi xidmətlərin inkişafı və əlilliyi olan uşaqlar üçün effektiv erkən təhsil modeli.Əsas addımlardan biri inklüziv məktəbəqədər təhsili dəstəkləyən normativ hüquqi baza və siyasətlərin hazırlanmasıdır (Keskinova, 2020). Fiziki maneələrin aradan qaldırılması və bütün uşaqların məktəbəqədər təhsilə çıxışının təmin edilməsi üçün bu müəssisələrin standartlarına dair aydın qaydalar vacibdir. Müəllimlər üçün xüsusi təlimlər inklüziv məktəbəqədər təhsilin təmin edilməsində digər mühüm addımdır. Müəllimlər müxtəlif ehtiyaclara malik uşaqlardan ibarət sinifləri idarə etmək üçün lazımi bilik və bacarıqlarla təmin edilməlidirlər; bu, fərdi ehtiyaclara uyğun müxtəlif tədris strategiyalarının tətbiqini və inklüziv kurikulumun inkişafını da əhatə edir (Hermanto & Pamungkas, 2023). Kurikulum elə şəkildə hazırlanmalıdır ki, bütün uşaqları, o cümlədən xüsusi qayğıya ehtiyacı olanları əhatə etsin və onların effektiv şəkildə öyrənməsinə imkan versin. Bu, müxtəlif tədris metodlarının istifadəsini, tədris materiallarının uyğunlaşdırılmasını və inklüziya konseptinin kurikulumun bütün aspektlərinə inteqrasiyasını əhatə edə bilər.

Təhsilin keyfiyyətinin yaxşılaşdırılmasında adekvat büdcə bölgüsü mühüm rol oynayır. Bu kontekstdə hökumət inklüziv məktəbəqədər təhsilin müxtəlif aspektlərini dəstəkləmək üçün kifayət qədər ictimai büdcə ayırmaqla düzgün prioritetlər müəyyən etməlidir. Bu büdcə bölgüsünün əsas istiqamətləri müəllim hazırlığı üçün maliyyələşmənin artırılması, inklüziv infrastrukturun qurulması və hər bir uşağın fərdi ehtiyaclarını nəzərə alan kurikulumun hazırlanmasını əhatə edir.Müəllim hazırlığı üçün ayrılan büdcənin artırılması inklüziv məktəbəqədər təhsilin gücləndirilməsində mühüm amillərdən biridir. Müəllimlər xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün dəstəkləyici öyrənmə mühiti yaradan əsas elementlərdən biridir. Müəllim hazırlığına daha çox vəsait ayrılması vasitəsilə hökumətlər pedaqoqların sinifdə müxtəlifliyi idarə etmək və hər bir uşağın ehtiyaclarına uyğun fərdiləşdirilmiş yanaşma tətbiq etmək üçün zəruri bacarıq və biliklərə sahib olmasını təmin edə bilərlər.

İnklüzivliyə uyğun infrastruktur uşaqlar üçün əlçatanlığın artırılmasını, məsələn, nəqliyyat imkanlarının yaxşılaşdırılmasını, binalara girişin asanlaşdırılmasını və ergonomik şəkildə dizayn edilmiş öyrənmə mühitlərini əhatə edə bilər. İnklüziv infrastrukturun inkişafına ayrılan büdcənin artırılması vasitəsilə hökumət uşaqlar üçün tədris prosesini dəstəkləyən əlverişli fiziki mühit yarada bilər.Uşaqların fərdi ehtiyaclarına uyğun kurikulumun hazırlanması da inklüziv məktəbəqədər təhsil üçün büdcə bölgüsündə əsas diqqət mərkəzindədir. İnklüziv kurikulum uşaqların müxtəlif ehtiyaclarını və inkişaf səviyyələrini nəzərə alaraq, hər bir uşağın uyğun və mənalı təhsilə çıxışını təmin etməlidir. Kurikulumun inkişafına kifayət qədər büdcə ayrılması ilə hökumət inklüziv məktəbəqədər təhsilin bütün uşaqlara optimal inkişaf üçün bərabər imkan yaratmasını təmin edə bilər.Təhsil müəssisələri, peşəkar təşkilatlar və inklüziv təhsil üzrə ekspertlərlə əməkdaşlıq müəllimlərin və digər təhsil işçilərinin potensialının artırılması üçün vacibdir (Allen & Barnett, 2020). Atıla biləcək addımlardan biri fiziki əlçatanlığın artırılmasıdır. Bu, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil mühitində sərbəst və təhlükəsiz hərəkət edə bilməsini təmin etmək üçün binaların və infrastrukturun tikilməsi və ya uyğunlaşdırılmasını əhatə edir (Maysela Azzahra et al.,

2022). Məsələn, inklüziv pilləkənlərin və səkilərin quraşdırılması, ehtiyaclara uyğun tualetlərə çıxışın artırılması və müxtəlif fiziki ehtiyacları nəzərə alan çevik sinif otağı planlaması buna daxildir.

Bundan əlavə, avadanlıq və resursların uyğunlaşdırılması da vacibdir. Bu, xüsusi qayğıya ehtiyacı olan uşaqların ehtiyaclarına uyğun hazırlanmış tədris vasitələri və materiallardan istifadəni nəzərdə tutur. Məsələn, görmə və ya eşitmə məhdudiyyəti olan uşaqlar üçün xüsusi proqram təminatı və avadanlıqların istifadəsi, eləcə də hərəkət məhdudiyyəti olan uşaqlar üçün əlil arabası və ya xüsusi oturacaqlar kimi köməkçi vasitələrin tətbiqi buna daxildir.Fiziki əlçatanlığın və avadanlıq uyğunlaşdırılmasının yaxşılaşdırılması ilə yanaşı, inklüziv və əlçatan nəqliyyat xidmətlərinin təmin edilməsi də çox vacibdir. Bu, xüsusi qayğıya ehtiyacı olan uşaqların məktəbəqədər təhsil müəssisələrinə təhlükəsiz və rahat şəkildə çatmasını təmin edir. Bu məqsədlə xüsusi təchiz olunmuş nəqliyyat vasitələrindən istifadə, həmçinin sürücülər və müşayiətçilər üçün uşaqların ehtiyaclarına həssas və uyğun xidmət göstərməyə dair təlimlərin keçirilməsi nəzərdə tutula bilər.

Məktəblərdə və icmalarda inklüziv mədəniyyətin qurulması müxtəlif tərəflər arasında əməkdaşlığı tələb edən bir prosesdir (Gigerl və b., 2022). Bu əməkdaşlıq məktəblərin, hökumətlərin, vətəndaş cəmiyyəti təşkilatlarının və bütövlükdə cəmiyyətin fəal iştirakını əhatə edir. İnklüziv mədəniyyətin qurulmasında vacib addımlardan biri hər məktəbdə inklüziv komitə yaratmaqdır. Bu komitə xüsusi qayğıya ehtiyacı olan uşaqların ehtiyaclarına uyğunlaşdırılmış inklüziv proqramların hazırlanması və həyata keçirilməsindən məsuldur.Bundan əlavə, xüsusi qayğıya ehtiyacı olan uşaqları əhatə edən sosial fəaliyyətlər də müntəzəm olaraq keçirilməlidir (Barlian və b., 2023). Bu fəaliyyət yalnız uşaqların həmyaşıdları ilə qarşılıqlı əlaqədə olmaq imkanı yaratmır, həm də ictimaiyyətin onların ehtiyacları barədə məlumatlılığını və anlayışını artırır. Yalnız məktəb mühitində deyil, cəmiyyətin müxtəlif səviyyələrində də inklüziyanın əhəmiyyəti barədə maarifləndirmə kampaniyaları aparılmalıdır. Bu kampaniya televiziya, radio, qəzetlər və sosial media kimi müxtəlif media vasitələri vasitəsilə həyata keçirilə bilər.

İnklüzivliyin əhəmiyyəti, xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqları və inklüziv təhsilin faydaları haqqında mesajlar daha geniş auditoriyaya çatmaq üçün yayılmalıdır. Buna görə də, inklüziv məktəbəqədər təhsil həmçinin məktəb, terapiya və təlimlə məşğul olan xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün xidmətlər göstərir. İnklüziv erkən uşaqlıq təhsili məktəbləri yalnız xüsusi qayğıya ehtiyacı olan şagirdləri bacarıqlara yiyələndirməyə deyil, həm də uşaqların müstəqilliyini onların müvafiq qabiliyyətlərinə uyğun olaraq optimal şəkildə öyrətməyə diqqət yetirir.

Düzgün strategiyaların tətbiqi və adekvat dəstək ilə İndoneziyada inklüziv məktəbəqədər təhsil əhəmiyyətli dərəcədə yaxşılaşdırıla bilər ki, hər bir uşaq keyfiyyətli təhsil hüququndan yararlana bilsin.

Ədəbiyyat:

1. Ackah-Jnr, F. R., & Danso, J. B. (2019). Examining the physical environment of Ghanaian inclusive schools: how accessible, suitable and appropriate is such environment for inclusive education? International Journal of Inclusive Education, 23(2), 188–208. https://doi.org/10.1080/13603116.2018.1427808

2. Ag-Ahmad, N., Syed Mohamed, A. T. F., & Bakar, E. W. (2022). Support needed for language teachers' professional development in Malaysia: A narrative review. International Journal of Academic Research in Business https://doi.org/10.6007/IJARBSS/v12-i5/13099

3. Agus, A., Juliadharma, M., & Djamaluddin, M. (2023). Application of the CIPP model in evaluation of the inclusive education curriculum in madrasah aliyah. Nidhomul Haq : Jurnal Manajemen Pendidikan https://doi.org/10.31538/ndh.v8i1.2705

4. Allen, L., & Barnett, L. (2020). Leveling the playing field: Increasing general educator’s special education knowledge. SRATE https://doi.org/10.1080/13603116.2018.1427808

5. Angreni, S., & Sari, R. T. (2020). Identifikasi dan implementasi pendidikan inklusi bagi anak berkebutuhan khusus di sekolah dasar Sumatera barat. AULADUNA: Jurnal Pendidikan Dasar Islam, 7(2), 145–153. https://doi.org/10.24252/10.24252/auladuna.v7i2a4.2020

6. Həsənova, L. (2022) “Məktbəqədər təhsildə inklüziv yanaşmanın tətbiqi”

7. Quliyeva, N. (2021) “Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial adaptasiyası”.

8. Rzayeva, S.(2020). “Məktəbəqədər inklüziv təhsilin problemləri və inkişaf istiqamətləri”.

MÜASİR TƏHSİL PARADİQMASINDA İNKLÜZİVLİK

Günay Şamil qızı İsayeva
Magistrant
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
gunayisayeva01021980@gmail.com
ORCİD ID: 0009-0000-8696-0499

Açar sözlər: inklüziv təhsil, təhsildə müxtəliflik, sosial inteqrasiya, təhsildə bərabərlik, Azərbaycanda inklüziv təhsil, differensial tədris.

Xülasə. Tədqiqat işində müasir təhsil sisteminin humanistləşdirilməsi və sosial ədalət prinsipləri əsasında yenidən qurulmasını hədəfləyən inklüziv təhsil modelinin nəzəri-metodoloji və praktiki aspektləri təhlil edilir. Etimoloji baxımdan latın mənşəli “includere” sözündən qaynaqlanan bu konsepsiya, fərdlərin fiziki, koqnitiv və ya sosial xüsusiyyətlərindən asılı olmayaraq, diskriminasiyadan uzaq vahid təhsil mühitində birləşməsini nəzərdə tutur. İşdə UNESCO və BMT-nin fundamental sənədləri, xüsusilə “Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya” kontekstində inklüzivliyin beynəlxalq hüquqi bazası araşdırılır.

Tədqiqatın əsas hissəsində Azərbaycan Respublikasında bu sahədə həyata keçirilən islahatlar, o cümlədən “2018–2024-cü illər üzrə Dövlət Proqramı”nın strateji əhəmiyyəti və milli qanunvericiliyin təkmilləşdirilməsi məsələləri nəzərdən keçirilir. Eyni zamanda, İtaliya, Finlandiya və Kanada kimi ölkələrin qabaqcıl təcrübələrinin yerli təhsil mühitinə adaptasiya imkanları qiymətləndirilir. Prosesin kütləviləşməsi yolunda kadr hazırlığı, infrastruktur təminatı və cəmiyyətdəki stereotiplərin aradan qaldırılması kimi çağırışlar elmi-pedaqoji müstəvidə təhlil olunur.

Yekun olaraq vurğulanır ki, inklüziv təhsil sadəcə sinif otaqlarının qapısını hər kəsə açmaq deyil, cəmiyyətin mənəvi-sosial transformasiyasını, empati və tolerantlıq dəyərlərinin gücləndirilməsini təmin edən kompleks bir sistemdir. Tədqiqat nəticəsində dövlət, məktəb və valideyn əməkdaşlığının inklüziv mühitin dayanıqlı formalaşmasındakı həlledici rolu əsaslandırılır.

Keywords: inclusive education, diversity in education, social integration, equity in education, inclusive education in Azerbaijan, differentiated instruction.

Summary. The research examines the theoretical, legal, and practical foundations of inclusive education, which stands as one of the most humanistic and strategic directions of the modern education system. Starting from the etymological roots of the term “inclusion” - derived from the Latin “includere”- the study analyzes the international legal framework established by UNESCO and the United Nations, particularly focusing on the “Convention on the Rights of Persons with Disabilities.” The principle of adapting education to individual needs is reviewed in comparison with classical pedagogical methods, justifying the transition from segregation to full integration.

The main body of the work explores advanced practices from countries such as Italy, Finland, and Canada, evaluating the possibilities of adapting these successful models to the educational environment of Azerbaijan. Within the framework of State Programs and normative-legal acts adopted in the Republic of Azerbaijan, the study analyzes ongoing reforms, as well as current challenges related to personnel training, teacher competencies, and infrastructure provision.

In conclusion, it is noted that inclusive education is not merely physical integration or a matter of “accessibility, “but a complex transformation process aimed at restructuring society based on values of social equality, empathy, and tolerance. The research emphasizes the necessity of systemic cooperation within the “state-school-parent” triangle and the importance of breaking societal stereotypes for the sustainable formation of an inclusive environment.

Anahtar kelimeler: kapsayıcı eğitim, eğitimde çeşitlilik, sosyal entegrasyon, eğitimde eşitlik, Azerbaycan'da kapsayıcı eğitim, farklılaştırılmış öğretim.

Özet. Araştırma, modern eğitim sisteminin en hümanist ve stratejik yönlerinden biri olan kapsayıcı eğitimin (inklüzif eğitim) teorik, hukuki ve pratik temellerini kapsamlı bir şekilde incelemektedir. Etimolojik kökeni Latince “includere” (dahil etmek) sözcüğüne dayanan kapsayıcılık kavramından yola çıkılarak, UNESCO ve BM tarafından belirlenen uluslararası hukuki altyapı, özellikle “Engelli Haklarına İlişkin Sözleşme” çerçevesinde analiz edilmektedir. Eğitimin bireyin özel ihtiyaçlarına ve potansiyeline göre uyarlanması ilkesi, geleneksel pedagojik yöntemlerle karşılaştırılmakta; ayrıştırmadan tam entegrasyona geçişin gerekliliği temellendirilmektedir.

Çalışmanın ana bölümünde İtalya, Finlandiya ve Kanada gibi ülkelerin bu alandaki öncü deneyimleri araştırılmakta ve bu başarılı modellerin Azerbaycan'ın yerel eğitim ortamına adaptasyon imkanları bilimsel açıdan değerlendirilmektedir. Azerbaycan Cumhuriyeti'nde kabul edilen Devlet Programları ve normatif-hukuki düzenlemeler kapsamında yürütülen reformların yanı sıra kadr hazırlığı, öğretmen yeterlilikleri ve altyapı olanakları ile ilgili mevcut zorluklar analiz edilmektedir.

Sonuç olarak, kapsayıcı eğitimin yalnızca fiziksel bir entegrasyon veya “erişilebilirlik” meselesi olmadığı, aksine toplumun sosyal eşitlik, empati ve hoşgörü değerleri üzerine yeniden inşa edilmesini hedefleyen karmaşık bir dönüşüm süreci olduğu vurgulanmaktadır. Araştırma sonucunda, kapsayıcı bir ortamın sürdürülebilir şekilde oluşması için devlet-okul-ebeveyn üçgeninde sistemli bir iş birliğinin ve toplumsal klişelerin yıkılmasının önemi bilimsel argümanlarla ortaya konulmaktadır.

Müasir dövrün təhsil strategiyalarında inklüzivlik həm qlobal miqyasda, həm də yerli təhsil mühitində ən aktual hədəflərdən biri kimi çıxış edir. Bu yanaşma çərçivəsində təhsilə cəlbetmə yalnız fiziki məhdudiyyətli şəxslərlə məhdudlaşmır, əksinə, sosial-iqtisadi mənşəyindən və fərdi xüsusiyyətlərindən asılı olmayaraq hər bir uşağın keyfiyyətli tədris prosesinə bərabər çıxışını hədəfləyir. Klassik pedaqoji modellərdən fərqli olaraq, burada öyrənənin mövcud sistemə

uyğunlaşması gözlənilmir, sistemin özü müxtəlif bacarıqlara malik şagirdlərin ehtiyaclarını qarşılamaq üçün transformasiya olunur. (Mövlayeva M. İ., 2021).

İnsan hüquqlarının prioriteti və sosial ədalət prinsiplərinə söykənən bu model, cəmiyyətin hər bir üzvünün gizli potensialını üzə çıxarmaqla onların sosial adaptasiyasını təmin edir. İnklüzivliyin təkcə məktəblərlə məhdudlaşmayıb geniş sosial müstəviyə yayılması, ümumilikdə ictimai rifahın və həyat keyfiyyətinin yüksəlməsinə birbaşa xidmət göstərir. Bu fəlsəfənin təməlində hər bir fərdin təkrarolunmazlığı və inkişaf üçün sarsılmaz hüquqlara sahib olması ideyası dayanır. (Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsilinin təşkili üzrə dövlət proqramı, 2017).

Etimoloji baxımdan latın mənşəli “includere” (daxil etmək, ehtiva etmək) sözündən qaynaqlanan inklüzivlik anlayışı, pedaqoji kontekstdə fərdlərin fiziki, koqnitiv, sosial və ya emosional xüsusiyyətlərindən asılı olmayaraq tədris prosesinə tam inteqrasiyasını ifadə edir. Bu konsepsiya, təhsil mühitində hər hansı bir kənarlaşdırma və ya seqreqasiya faktorunu rədd edərək, kollektiv öyrənmə modelini rəhbər tutur. UNESCO və Birləşmiş Millətlər Təşkilatının (BMT) qəbul etdiyi fundamental sənədlər çərçivəsində bu yanaşma, hər bir uşağın fərdi ehtiyaclarının qarşılanması və onun təhsil hüququnun qeyd-şərtsiz təmin edilməsi kimi xarakterizə olunur.

Beynəlxalq hüquqi müstəvidə bu öhdəliyin ən mühüm sütunlarından biri 2006-cı il tarixli “Əlilliyi olan şəxslərin hüquqları haqqında BMT Konvensiyası”dır. Konvensiyanın 24-cü maddəsi üzv dövlətlər qarşısında inklüziv təhsil sisteminin qurulması ilə bağlı hüquqi məsuliyyət qoyur. Bu norma təkcə sağlamlıq imkanları məhdud şəxsləri deyil, həmçinin xüsusi öyrənmə ehtiyacı olan, etnik azlıq mənsubu və ya həssas sosial qruplara aid olan bütün fərdlərin diskriminasiyadan uzaq bir mühitdə təhsil almasını tələb edir. Beləliklə, inklüzivlik yalnız pedaqoji metodologiya deyil, həm də dövlət siyasətinin nüvəsini təşkil edən fundamental insan hüquqları məsələsidir. Fərqliliklərin bir zənginlik kimi qəbul edilməsi müasir, ədalətli və humanist cəmiyyət quruculuğunun təməl daşı hesab olunur. (Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsilinin təşkili üzrə dövlət proqramı, 2017).

İnklüziv təhsil modelinin praktiki müstəvidə uğur qazanması üçün onun təməlində dayanan fəlsəfi konsepsiyanın dərindən mənimsənilməsi zəruridir. Bu sistemin mərkəzi paradiqması unikal öyrənmə imkanlarının kollektiv mühitdə vəhdəti ideyasıdır. Başqa sözlə, sağlamlıq imkanları məhdud fərdlər, yüksək intellektual potensiala malik istedadlı uşaqlar və sosial-iqtisadi baxımdan həssas qrupların nümayəndələri vahid bir təhsil ekosistemində, differensial yanaşma əsasında birgə inkişaf etməlidir. Bu yanaşma təkcə fiziki yaxınlığı deyil, həm də tədris metodologiyasının çevikliyini, fərdiləşdirilmiş qiymətləndirmə mexanizmlərini və hər bir öyrənənin ehtiyacına adaptasiya olunan proqram təminatını ehtiva edir.

İnklüzivlik diskriminasiyaya qarşı radikal bir mövqe nümayiş etdirməklə bərabər, cəmiyyətdə həmrəylik və qarşılıqlı hörmət mədəniyyətini formalaşdıran təkanverici qüvvə rolunu oynayır. Bu fəlsəfə fərqlilikləri bir çatışmazlıq kimi deyil, tədris mühitini zənginləşdirən və inkişafı stimullaşdıran bir resurs kimi dəyərləndirir. (Sadıqov F. B., 2018). Bu baxış tərzi müəllim, valideyn və şagird münasibətlərindəki klassik stereotipləri sındıraraq, təhsilə daha humanist və geniş aspektdən baxmağı tələb edir. İnklüziv müəssisələrdə şagirdlər akademik nailiyyətlərlə yanaşı, empati, tolerantlıq və ictimai məsuliyyət kimi fundamental sosial kompetensiyalara yiyələnirlər. Nəticə etibarilə, inklüziv təhsil sadəcə sinif otaqlarının qapısını hər kəsə açmaq deyil, həm də fərdlərin mənəvi-psixoloji və sosial yetkinliyini təmin edən kompleks bir sistemdir.

Azərbaycan Respublikasında inklüziv təhsil modelinin formalaşdırılması müasir dövlət siyasətinin strateji prioritetlərindən biri kimi müəyyən edilmişdir. Bu istiqamətdə həyata keçirilən islahatlar milli qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması və təhsil strukturunun yenidən qurulması xətti ilə inkişaf edir. Prosesin sistemli xarakter almasında 2018-2024-cü illərdə “Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” müstəsna rol oynayır. Sözügedən sənəd, sağlamlıq imkanları məhdud və sosial baxımdan həssas qruplara aid olan fərdlərin ümumi təhsil ekosisteminə inteqrasiyasını sürətləndirmək üçün konseptual yol xəritəsi funksiyasını daşıyır. (Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsilinin təşkili üzrə dövlət proqramı, 2017).

Milli qanunvericilikdə bu hüquqların təsbit olunması “Təhsil haqqında” Qanunun 5-ci maddəsi ilə tənzimlənir və dövlət tərəfindən hər bir vətəndaş üçün bərabər təhsil imkanlarına zəmanət verilir. Eyni zamanda, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikasının Qanunu inklüziv mühitin yaradılmasını birbaşa dövlət öhdəliyi kimi müəyyən edərək, bu sahədəki fəaliyyətin hüquqi dayaqlarını möhkəmləndirir. Beləliklə, Azərbaycanda inklüziv təhsil təkcə sosial layihə deyil, həm də qanunla qorunan və sistemli islahatlarla dəstəklənən fundamental bir sistemli yanaşmadır.

Azərbaycanda inklüziv təhsil modelinin tətbiqi hazırda spesifik pilot layihələr və məhdud sayda təhsil müəssisələri üzərindən həyata keçirilir. Prosesin ölkə miqyasında kütləviləşməsi və fundamental xarakter alması yolunda bir sıra təşkilati və texniki maneələr hələ də aktuallığını qoruyur. Xüsusilə, ixtisaslaşmış kadr potensialının artırılması, təhsil müəssisələrinin infrastruktur və maddi-texniki təchizatının müasirləşdirilməsi, eləcə də inklüziv metodiki bazanın təkmilləşdirilməsi bu islahatların uğuru üçün həlledici amillərdir. (Mövlayeva M. İ., 2021).

Tədris prosesinin səmərəliliyini təmin etmək məqsədilə pedaqoji heyətin ixtisasartırma proqramlarına sistemli şəkildə cəlb olunması, məktəblərdə müxtəlif ixtisaslı komandaların (psixoloq, loqoped, tiflopedaqoq və s.) fəaliyyətinin genişləndirilməsi zəruri hesab edilir. Baxmayaraq ki, ölkəmizdə inklüziv mühitin qurulması hələ ilkin mərhələdədir, beynəlxalq təcrübənin dərindən öyrənilməsi və yerli şəraitə adaptasiya edilməsi təhsil sisteminin gələcəkdə tamamilə inklüziv əsaslarla fəaliyyət göstərməsinə münbit zəmin yaradır. Bu keçid prosesi təkcə struktur dəyişikliklərini deyil, həm də cəmiyyətin bu mövzuda maarifləndirilməsi vasitəsilə mənəvi-sosial transformasiyanı hədəfləyir.

Dünya təhsil sistemlərində inklüzivliyin tətbiqi fərqli metodoloji modellərlə xarakterizə olunur. Məsələn, İtaliya təcrübəsi hələ 1970-ci illərin sonundan etibarən xüsusi təhsil müəssisələrindən tamamilə imtina edərək radikal inteqrasiya yolunu seçmişdir. Finlandiya, Norveç və Kanada kimi ölkələrdə isə inklüzivlik yalnız qanunvericilik səviyyəsində deyil, birbaşa sinifdaxili təcrübələrdə, müəllim peşəkarlığının artırılması və effektiv dəstək mexanizmlərinin (Resurs mərkəzləri, mobil konsultasiya qrupları) qurulması vasitəsilə reallaşdırılır. https://qebulol.az/inkluziv-tehsil/

Azərbaycanın bu sahədəki strateji xətti beynəlxalq standartların milli sosial-mədəni reallıqlara uğurlu adaptasiyasına söykənir. Burada əsas hədəf xarici modellərin mexaniki surətini çıxarmaq deyil, yerli spesifikaya uyğun mexanizmlər yaratmaqdır. Xüsusilə regional bərabərsizliklərin aradan qaldırılması, resursların paytaxt və bölgə məktəbləri arasında ədalətli bölüşdürülməsi inklüzivliyin davamlılığı üçün həlledicidir. Azərbaycan cəmiyyətindəki mənəvi-etik dəyərlər və ailə institutu inklüzivliyin təşviqi üçün təbii bir dayaq rolunu oynaya bilər. (Azərbaycan

Respublikasında xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsilinin təşkili üzrə dövlət proqramı, 2017).

İnklüziv təhsil paradiqması təhsili sadəcə akademik bilik transferi funksiyasından çıxararaq, onu sosial bərabərliyin və insan hüquqlarının əsas təminatçısına çevirir. Azərbaycanda bu sahədəki keçid dövrü hələ yekunlaşmasa da, icra olunan sistemli islahatlar gələcək üçün ümidverici perspektivlər açır. Təhsildə bərabər çıxış imkanlarının yaradılması demokratik prinsiplərin, sosial ədalətin və ictimai tərəqqinin fundamental göstəricisidir. İnklüzivlik cəmiyyətin kollektiv şüurunu və mənəvi vəhdətini gücləndirir. Bu prosesin uğuru dövlət strukturları, pedaqoji kollektivlər və vətəndaş cəmiyyətinin sıx əməkdaşlığından asılıdır. Yalnız hər bir fərdin təkrarolunmazlığını qəbul edən bir sistem vasitəsilə intellektual və sosial baxımdan yetkin bir nəsil yetişdirmək mümkündür.

Ədəbiyyat:

1. Mövlayeva, M. İ. (2021). İnklüziv təhsilin pedaqoji və psixoloji əsasları. Bakı: Elm və təhsil.
2. Sadıqov, F. B. (2018). Pedaqogika. Bakı: Təhsil.
3. Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan şəxslərin təhsilinin təşkili üzrə dövlət proqramı. (2017). Bakı.
4. Qebulol.az. İnklüziv təhsil. https://qebulol.az/inkluziv-tehsil/

BƏRABƏR İMKANLI TƏDRİS MÜHİTİNİN YARADILMASININ ƏSASLARI

Nəzrin Afər qızı Kətanova
Magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universteti
Nazrinmemmed2004@gmail.com
ORCİD ID: 0009-0007-9949-3704

Açar sözlər: inklüziv təhsil, inteqrasiya,sosiallaşma, sağlamlıq imkanları məhdudiyyətli uşaqlar, Brayl əlifbası, inklüziv təhsil modelləri, inklüziv təhsilin müsbət cəhətləri.

Xülasə. Məqalədə müəllimin sinifdə inklüviz mühiti idarə etmək bacarıqlarından və metodlarından bəhs olunur.İnkluziv təhsil fiziki,əqli,eşitmə və ya görmə məhdudiyyətli şagirdlərlə sağlam şagirdlərin birgə təhsil aldığı təhsil mühitidir.İnklüziv təhsilin uğurlu həyata keçirilməsində müəllimlərin peşəkar hazırlıqlı olmaları önəmlidir. Araşdırmada İnklüziv təlimin təşkili,müxtəlif şagirdlərin fərqli bilik və bacarıqlara sahib olmaları.əqli,fiziki məhdudiyyətli uşağlar ilə digər şagirdlər arasında fərq qoymadan dərs keçməyi bacaran müəllim səriştələrindən söhbət açılır..Bundan əlavə sinif-dərs mühitinin vəziyyəti,şagirdlər arasında inkşafa yönəlik kommunikasiyanın yaradılması,valideyn-məktəb əlaqələrinin həyata keçirilməsi,,hər bir şagirdə fərdi olaraq yanaşmaq və qayğı gösdərmək,qiymətləndirmənin düzgün aparılması inklüziv təhsil mühitində görüləcək əsas işlərdir.Təxmini hesablamalara görə Dünya əhalisinin 16%ni inklüviz insanlar təşkil edir.Azərbaycanda isə inklüziv şəxslərin sayı 5.6%dir, onlardan 2.6%i uşaqlardır. (İnklüziv təhsil-məlumat kitabçası) İnklüziv təhsilin əsas məqsədi inklüziv olan şəxslərə cəmiyyətin digər sağlam üzvləri ilə əməkdaşlıq etmələrinə, həmçinin cəmiyyətdə digər insanlar

tərəfindən qəbul edilmələrinə töhvə verməkdir.İnklüzivlik müxtəlif əqli xəstəliklər daun sindromu,auitizm,diqqət çatışmazlığı,hissiyatla bağlı görmə və eşitmə problemləri,nitqin gec inkşaf etməsi kimi xəsdəlikləri nəzərdə tutur.

Üç məktəbdən qovulmuş bir şagirdi yeni məktəbə gətirirlər.Birinci dərsə girən müəllim onu görüb ürəyində deyir: ”Belə uşaqlar hardan gəlir axı?”İkinci dərsə gələn müəllim yeni şagirdi görüb hirslə “Elə bir sən çatışmırdın…”,-dedi. Üçüncü müəllim isə sevinclə :”Ooo, yeni şagirdimiz var!”-deyib ona yaxınlaşdı.Əlini sıxdı,gözünün içinə baxdı,gülümsünüb dedi :”Salam,Mən səni gözləyirdim.”(Şalva Amonaşvili) (Oxu materiali-İnklüziv siniflərdə təlimin təşkili)

Keywords: inclusive education, integration, socialization, children with disabilities, Braille alphabet, models of inclusive education, advantages of inclusive education.

Summary. The article discusses the teacher’s skills and methods in managing an inclusive classroom environment. Inclusive education is an educational setting where students with physical, intellectual, hearing, or visual disabilities study together with their healthy peers. The professional preparedness of teachers is essential for the successful implementation of inclusive education.The study addresses the organization of inclusive teaching, emphasizing that different students possess different knowledge and skills, and highlights the competencies of teachers who can teach without discrimination between students with intellectual or physical disabilities and other students.In addition, key aspects of an inclusive educational environment include the classroom atmosphere, the creation of development-oriented communication among students, the establishment of parent-school relationships, providing individual attention and care to each student, and conducting proper assessment.According to approximate estimates, 16% of the world’s population consists of inclusive individuals. In Azerbaijan, this figure is 5.6%, of which 2.6% are children (Inclusive Education – Information Handbook).The main goal of inclusive education is to support individuals with disabilities in cooperating with other healthy members of society and to help them be accepted by others in society.Inclusion refers to various conditions such as intellectual disabilities, Down syndrome, autism, attention deficit, sensory-related visual and hearing impairments, and delayed speech development.A student who had been expelled from three schools was brought to a new school. The first teacher who entered the class saw him and thought, “Where do such children come from?” The second teacher, seeing the new student, angrily said, “You were the only one missing…” The third teacher, however, happily said, “Oh, we have a new student!” approached him, shook his hand, looked into his eyes, smiled, and said: “Hello, I’ve been waiting for you.” (Shalva Amonashvili)(Reading material – Organization of teaching in inclusive classrooms)

Anahtar kelimeler: kapsayıcı eğitim, entegrasyon, sosyalleşme, engelli çocuklar / özel gereksinimli çocuklar, Braille alfabesi, kapsayıcı eğitim modelleri, kapsayıcı eğitimin olumlu yönleri.

Özet. Makalede öğretmenin sınıfta kapsayıcı (inklüzyon) ortamı yönetme becerilerinden ve yöntemlerinden bahsedilmektedir. Kapsayıcı eğitim, fiziksel, zihinsel, işitme veya görme engeli olan öğrenciler ile sağlıklı öğrencilerin birlikte eğitim aldığı bir eğitim ortamıdır. Kapsayıcı eğitimin başarılı bir şekilde uygulanmasında öğretmenlerin mesleki olarak iyi hazırlanmış olmaları önemlidir.Araştırmada kapsayıcı öğretimin düzenlenmesi, farklı öğrencilerin farklı bilgi ve becerilere sahip olduğu, zihinsel ve fiziksel engelli çocuklarla diğer öğrenciler arasında ayrım yapmadan ders verebilen öğretmen yeterlilikleri ele alınmaktadır.Bunun yanı sıra sınıf ve ders ortamının durumu, öğrenciler arasında gelişime yönelik iletişimin kurulması, veli-okul ilişkilerinin yürütülmesi, her öğrenciye bireysel yaklaşılması ve ilgi gösterilmesi, değerlendirmelerin doğru

yapılması kapsayıcı eğitim ortamında yapılması gereken temel çalışmalardır.Tahmini hesaplamalara göre dünya nüfusunun %16’sı kapsayıcı bireylerden oluşmaktadır. Azerbaycan’da ise kapsayıcı bireylerin oranı %5,6’dır ve bunların %2,6’sı çocuklardır (Kapsayıcı Eğitim – Bilgilendirme Kitapçığı). Kapsayıcı eğitimin temel amacı, engelli bireylerin toplumun diğer sağlıklı bireyleriyle iş birliği yapmalarını ve toplumda diğer insanlar tarafından kabul edilmelerine katkı sağlamaktır.Kapsayıcılık; Down sendromu, otizm, dikkat eksikliği, duyusal görme ve işitme problemleri, konuşmanın geç gelişmesi gibi çeşitli zihinsel hastalıklar veya durumları ifade eder.

Üç okuldan atılmış bir öğrenci yeni bir okula getirilir. İlk derse giren öğretmen onu görüp içinden, “Böyle çocuklar nereden geliyor acaba?” der. İkinci derse gelen öğretmen yeni öğrenciyi görüp öfkeyle, “Bir tek sen eksiktin…” dedi. Üçüncü öğretmen ise sevinçle, “Ooo, yeni öğrencimiz var!” deyip ona yaklaşır. Elini sıkar, gözlerinin içine bakar, gülümseyerek şöyle der: “Merhaba, seni bekliyordum.” (Shalva Amonashvili) (Okuma materyali – Kapsayıcı sınıflarda öğretimin düzenlenmesi)

İnklüziv sözünün mənası heç bir fərq qoymayan,bərabər olan deməkdir. Köhnə təhsil sistemində müəllimlərin inklüzivlik haqqında təsəvvürləri olmadıgı üçün onlar üçün fərqli şagirdlələrlə işləmək çətin idi. Bu təhsil sistemində təhsil müəllim mərkəzli idi. Sinif müəllimin sərt və formal qaydaları ilə idarə edilirdi.Müəllim öz partasının qarşısında dayanır və dərs keçirdi. Müasir təhsildə isə müəllim isdədiyi yerdən dayanaraq,rahat formada dərs keçir. Keçmiş təhsil sistemində insanlar inklüziv təhsilin mahiyyətini anlamadıqları üçün bu cür şagirdlər müəllim tərəfindən və şagirdlər tərəfindən qəbul edilə bilmirdilər. Zaman keçdikcə təlim və təhsil inkişaf etdikcə,müəllimlərin peşəkar hazırığı artdıqca bu cür uşaglara diqqət artmağa başladı. Müasir dövrdə inklüziv təhsil hər kəsin bərabər olduğunu və birlikdə təhsil almaq hüququnu dəstəkləyir.Lakin indidə inklüziv şagirdlərin sağlam olan şagirdlərlə birgə təhsil almalarına razılaşmayan müəllim və valideynlər var. Onlar qeyd edirlərki, onların uşaqları sağlamlıq məhdudiyyəti olan uşaglarla birgə təhsil alarlarsa sağlam uşağların inkşafı ləngiyə bilər. Bəziləri düşünür ki, müəllim inklüziv şagirdlərlə işləməyə daha çox vaxd ayırır, bunun səbəbi inklüziv şagirdlərin dərsi digərlərindən daha gec və çətin anlamalarıdır. Lakin müəllim dərsi hər bir uşağın bacarıq və qabilliyətlərinə uyğun qurarsa heç bir şagird dərsdən kənarda qalmaz. Hər uşaq unikal olduğu üçün onların potensial və bacarıqlarıda unikaldır. Sinifdə görmə, eşitmə, fiziki və ya nitq problemi olan şagirdlər ola bilər. Müəllim dərs izah edərkən bu cür uşaglarıda dərsə inteqrasiya etməlidir və onlar dərsdən kənarda qalmamalıdır. Eşitmə problemi olan uşaglar üçün xüsusi dinləmə cihazlarından isdifadə etmək,işarət dili tərcüməçiləri, görmə məhdudiyyəti olan uşaglar üçün Brayl əlifbası, səsli kitab və tətbiqlərdən isdifadə etmək,və ya löhvədə yazılanlara ucadan oxumaq,əlliyi olan uşağları qrup işlərinə cəlb etmək və ya bacarığına uyğun olaraq rəsm çəkmək,yerindəcə şeir oxumaq və ya yazmaq kimi fəaliyyətlərlə hərkəsi dərs mühitinə adaptasiya etmək mümkündür.Buna görə müəllim səbrli,anlayışlı və dəstəkləyici olmalıdır.

Əlliliyi olan şagirdlərin əlliyliliyi olmayan şagirdlərlə təhsil almasının bir sıra üstünlükləri var.Sosial sərişstə,kiçik qruplarda birlikdə iştirak etmək,ünsiyyət qurmaq bacarığı inklüziv quruluşda daha da təkmilləşir. (Hüseynova G., 2020) Həmçinin əlliliyi olmayan uşağlar kiçik qruplarda əqli və fiziki məhdudiyyəti olan uşaglarla birgə işlədikcə əlilliyin çərçivəsindən kənarı görür və əlilliyi olan uşağlarla oxşarlığı olduqlarını daha aydın görə bilirlər.Bununla belə, araşdırmalar gösdərir ki,onların arasında yaranan dostluq münasibətləri daha uzunmüddətli olur. İnklüziv təhsilin digər bir faydası budurki,müəllim dərs zamanı informasiya texnologiyalarından daha çox isdifadə etdiyi üçün digər şagirdlərdə bundan yararlanırlar.

Sim(Sağlamlıq imkanları məhdud) olan uşaglara münasibət müxtəlif dövrlərdə fərqli olmuşdur.Bu dövrlər 4mərhələdən ibarətdir. 1-ci mərhələ ayrı-seçkilik 2-ci mərhələ ayrıca təlim 3-cü mərhələ qismən birgəlik,4cü mərhələ tam birgəlik mərhələləri adlanır. (Abbasova N., 2019) 1-ci mərhələ saglamlıq məhdudiyyətli uşaqların ayrı-seçkiliyə məruz qaldıqları,təhsildən kənar olduqları dövrdür. Onların sağlam uşağlarla təhsil almaları qadağan idi və onların məktəbə gəlmələrinə icazə verilmirdi. 2-ci mərhələ uşaqların xüsusi məktəblərdə və ya evlərində təhsil aldıqları mərhələni əhatə edir. Onlar evlərində oturaraq təhsilə cəlb olunurdu bəzən isə ,müəllim evlərə gedirdi. Çox zaman isə müəllimlər evlərə getmədikləri üçün təhsil zəif inkişaf edirdi. Uşaglar təhsil mühitindən təcrid olunurdu və ünsiyyətdən, sosiallaşmadan kənarda böyüyürdülər. Qismən təlim mərhələsində SİM eyni tip şagirdlərlə eyni məktəbdə lakin ayrı-ayrı siniflərdə təhsil alırdılar. Tədris proqramı, keçirilən dərslər bütün siniflər üçün eyni tərtib edilirdi. 4cü mərhələ hal-hazır ki dövr üçün aktual olan birgə təlim mərhələsidir. Bu mərhələ Saglamlıq məhdudiyyətli şagirdlərlə digər şagirdlərin eyni sinif otağında təhsil almasıdır. Bu mərhələ sadəcə təhsil deyil həyatın bütün sahələrində inklüziv şəxslərin saglam şəxslərlə, birgə şəraitin və imkanların yaradılmasını əhatə edir. Cəmiyyətdə əlilliyi olan uşaqlar üçün tibbi və sosial modellər mövcuddur. Tibbi model uşağın problemli, digərlərindən zəif və geri olduğunu, sosial model isə uşaqların bərabər olduqlarını,sağlamlıq məhdudiyyətli uşaqların xüsusi bacarıqlara malik olduqlarını və onların güclü tərəflərini, ehdiyaclarını üsdün tutan modeldir.İnklüziv təhsilin təşkili prinsiplərində onun nə üçün vacib olduğu səbəbləri vurğulanır. İnsanın dəyəri onun bacarıq və qabilliyətləri ilə ölçülmür və hər bir insanı dəyərli edən onun insan kimi dünyaya gəlməsidir. Ümumdünya insan hüquqları bəyannaməsininin 1ci bəndində qeyd edildiyi kimi bütün insanlar bərabər ləyaqət və hüquqlara malikdirlər. (Mitchell D., 2014)

Bir insanın əqli, fiziki qüsurlu olması onun düşünmədiyi və hiss etmədiyi anlamına gəlmir. Hətta bəzən qüsurlu şagirdlərin düşünmə, hesablama, fikir yürütmə qabilliyyətləri digərlərinkindən daha yüksək olur. Ən əsası insanlar sosial varlıq olduqları üçün hər zaman bir birilərinə ehdiyac duyurlar. Təkcə saglamlıq məhdudiyyətli insanlar deyil bütün insanların öz ehdiyacları var və bu ehdiyaclar insanları bir birinə bağlayır. Sinifdə fərqliliyin olması dərs prosesini daha canlı, interaktiv edir. Nəticə olaraq, müxtəlif dövrlərdə inklüziv təhsilin qəbul edilməməsinə və müəllimlərin bu təhsillə bağlı məlumatlarının az olmalarına baxmayaraq müasir dövrdə inklüziv şagirdlərə münasibət xeyli dəyişmişdir. Müəllimlər üçün müxtəlif təlimlərin keçirilməsi, onların peşəkarlığının artırılması,müxtəlif metodlardan, informasiya texnologiya vasitələrindən, ağıllı löhvələrdən, əyani və viziual vasitələrdən isdifadə etmək, Brayl Əlifbasının tətbiqi, qrup işlərinin, rollu oyunların keçirilməsi, sinifin ümumi görünüşü, divardakı şəkillər, partaların və stulların yerləşdirilməsi, müəllimin şəxsi keyfiyyətləri səbrli, anlayışlı, dəstəkləyici olması, qiymətləndirilmənin düzgün və şəffaf aparılması, müəllimlərin öz həmkarları ilə təcrübələrini bölüşməsi, valideyn-məktəb əlaqələrinin gücləndirilməsi tədbirləri, bütünlüklə inklüziv təhsil mühitinin yaradılmasının mühüm şərtləridir.

Ədəbiyyat:

1. Abbasova, N. (2019).//İnklüziv təhsilin inkişafı və problemləri. /Pedaqoji Araşdırmalar, 2(1), 33–40.

2. Ainscow, M., Booth, T., & Dyson, A. (2006)./Improving schools, developing inclusion. /Routledge.

3. Azərbaycan Respublikası Təhsil İnstitutu. (2018)./İnklüziv siniflərdə təlimin təşkili. Bakı.

4. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2015). /İnklüziv təhsil: metodik vəsait. /Bakı.

5. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2017). /

6. İnklüziv təhsil üzrə strateji yol xəritəsi və fəaliyyət planı/. Bakı.

7. Dyson, A., & Gallannaugh, F. (2008). /Disadvantage, school processes and pupil outcomes: Can schools compensate for society? /Cambridge Journal of Education, 38(2), 159–177.

8. Florian, L. (2014). /The SAGE handbook of special education (2nd ed.). SAGE Publications.

9. Grimes, P., Stevens, M., & Dela Cruz, A. (n.d.). /İnklüziv sinifdə təlimin təşkili /(ixtisasartırma proqramının oxu materialı).

10. Hüseynova, G. (2020). //İnklüziv təhsildə müəllim kompetensiyaları. Azərbaycan Təhsil Jurnalı, 3(2), 45–52.

11. Loreman, T., Deppeler, J., & Harvey, D. //Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar.

12. Mitchell, D. (2014). //What really works in special and inclusive education: Using evidence-based teaching strategies. Routledge.

13. Regional İnkişaf İctimai Birliyi. (2019).// İnklüziv təhsil: məlumat kitabçası. Bakı.

İNKLÜZİV TƏHSİLDƏ SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN UŞAQLAR ÜÇÜN XARİCİ DİL DƏRSLƏRİNİN TƏŞKİLİ

Fidan Azər qızı Quliyeva
Magistrant
Azərbaycan Respublikası
Azərbaycan Dillər Universiteti
fidan.kulievaa@mail.ru
ORCİD ID: 0009-0004-0238-990X

Açar sözlər: təhsil, təlim, xarici dil, inklüziv, şagird, məktəb.

Xülasə. İnklüziv təhsildə sağlamlıq inkanları məhdud olan uşaqlar üçün xarici dil dərslərinin təşkili xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün mürəkkəb proses hesab edilir. Son vaxtlara qədər əlilliyi olan uşaqların təhsil yükünü azaltmaq məqsədilə onlara əlavə dil kimi xarici dilin öyrədilməsi yersiz hesab olunurdu.

Lakin son illər beynəlxalq tədqiqatçıların apardıqları tədqiqatlar nəticəsində əldə edilən qənaətə görə bu uşaqlar xarici dil öyrənməyə əlil olmayan həmyaşıdlarından heç də az maraq göstərmirlər. Təbii ki, bu prosesdə ilk növbədə sinif müəlliminin rolu olduqca önəmlidir. İnklüziv sinifdə xarici dil müəlliminin əsas vəzifəsi motivasiya mühiti yaratmaq və hər bir şagirdin xarici dili öyrənərkən qarşılaşa biləcəyi problemləri həll etməkdir. Biz üçün akademik uğuru və sinifdəki bütün şagirdlərin potensialını genişləndirən müsbət mühit yaratmaq başlıca amildir. Bu konteksdən məsələyə yanaşsaq o zaman belə bir nəticə əldə edə bilərik:

Bütün uşaqlar öyrənə bilər və hər bir müəllim öyrənmə üçün adekvat psixoloji və pedaqoji dəstəyin təmin edilməsinə cavabdeh olmalıdır. Bu gün ümumtəhsil məktəblərində xarici dillərin tədris prosesinə inteqrasiyası ilə bağlı artıq müsbət təcrübə var. Məsələn, bəzi məktəblər Daun sindromlu uşaqlara xarici dil öyrətmək məsuliyyətini öz üzərinə götürür və əldə olunan nəticələr gözləntiləri üstələyir. Bu sahə ilə məşğul olan təcrübəli müəllimlərin aparıdığı müşahidələrə görə

ilkin xarici dil bilikləri yalnız bilik qazanmağa xidmət etmir, həmçinin uşaqların sosiallaşmasına, müstəqil olmasına və həmyaşıdları ilə səmərəli ünsiyyət qurmasına kömək edir.

Keywords: education, training, foreign language, inclusive, student, school.

Summary. Organizing foreign language lessons for children with limited health disabilities in inclusive education is considered a complex process for children with special needs. Until recently, teaching them a foreign language as an additional language was considered inappropriate in order to reduce the educational burden of children with disabilities.

However, according to the conclusions reached as a result of studies conducted by international researchers in recent years, these children show no less interest in learning a foreign language than their peers without disabilities. Of course, the role of the class teacher is very important in this process. The main task of the foreign language teacher in an inclusive classroom is to create a motivational environment and solve the problems that each student may encounter while learning a foreign language. We believe that creating a positive environment that enhances academic success and the potential of all students in the classroom is the main factor. If we approach the issue from this context, then we can draw the following conclusion:

All children can learn, and each teacher should be responsible for providing adequate psychological and pedagogical support for learning. Today, there is already positive experience in integrating foreign languages into the educational process in secondary schools. For example, some schools take on the responsibility of teaching a foreign language to children with Down syndrome, and the results achieved exceed expectations. According to observations made by experienced teachers involved in this field, initial foreign language knowledge not only serves to acquire knowledge, but also helps children to socialize, become independent, and communicate effectively with their peers.

Anahtar kelimeler: eğitim, öğretim, yabancı dil, kapsayıcı, öğrenci, okul.

Özet. Kapsayıcı eğitimde sınırlı sağlık engeli olan çocuklar için yabancı dil derslerinin düzenlenmesi, özel ihtiyaçları olan çocuklar için karmaşık bir süreç olarak kabul edilmektedir. Yakın zamana kadar, engelli çocukların eğitim yükünü azaltmak amacıyla onlara ek bir dil olarak yabancı dil öğretmenin uygunsuz olduğu düşünülüyordu.

Ancak, son yıllarda uluslararası araştırmacılar tarafından yapılan çalışmaların sonuçlarına göre, bu çocuklar yabancı dil öğrenmeye engelli olmayan akranlarından daha az ilgi göstermemektedir. Elbette, bu süreçte sınıf öğretmeninin rolü çok önemlidir. Kapsayıcı bir sınıfta yabancı dil öğretmeninin temel görevi, motive edici bir ortam yaratmak ve her öğrencinin yabancı dil öğrenirken karşılaşabileceği sorunları çözmektir. Akademik başarıyı ve sınıftaki tüm öğrencilerin potansiyelini artıran olumlu bir ortam yaratmanın en önemli faktör olduğuna inanıyoruz. Konuya bu bağlamdan yaklaşırsak, şu sonuca varabiliriz:

Tüm çocuklar öğrenebilir ve her öğretmen, öğrenme için yeterli psikolojik ve pedagojik destek sağlamaktan sorumlu olmalıdır. Günümüzde, ortaokullarda yabancı dillerin eğitim sürecine entegre edilmesi konusunda olumlu deneyimler mevcuttur. Örneğin, bazı okullar Down sendromlu çocuklara yabancı dil öğretme sorumluluğunu üstlenmekte ve elde edilen sonuçlar beklentileri aşmaktadır. Bu alanda deneyimli öğretmenlerin gözlemlerine göre, başlangıçta edinilen yabancı dil bilgisi sadece bilgi edinmeye hizmet etmekle kalmaz, aynı zamanda çocukların sosyalleşmesine, bağımsız olmalarına ve akranlarıyla etkili bir şekilde iletişim kurmalarına da yardımcı olur (İnklüziv siniflərdə təlimin təşkili, 2018).

Müasir tədqiqatçıların gəlmiş olduqları ortaq fikrə görə sağlamlığı məhdud olan uşaqlar üçün xarici dil dərslərin təşkili aşağıda qeyd edildiyi kimi təsnifatlandırılmalıdır.

-Yeni söz və ifadələrin yadda saxlanmasını və istifadəsini təmin edən məşqlər vasitəsilə lüğət bacarıqlarının inkişafı;

-Xüsusi uşağın ingilis dilini həvəslə öyrənməsi üçün informasiya və kommunikasiya texnologiyalarından istifadə;

-Dəstəkləyici psixoloji iqlimin yaradılması;

-Uşaqların psixofiziki inkişafının xüsusiyyətləri və imkanları, vizual və audio materiallar, CD-ROM-da interaktiv giriş fəaliyyətləri və uyğunlaşdırılmış proqram kimi sağlamlıq texnologiyalarından istifadə;

-Əlilliyi olan uşaqların kiçik, lakin yaxşı yerinə yetirilmiş tapşırığın sevincini yaşaya bilməsi üçün hər dərsdə uğur anları yaratmaq vacibdir.

Qeyd olunanan texnoloji vasitələr uşaqlar üçün təlim prosesinə faydalı təsir göstərir və onlar səylərinin boşa getdiyini hiss etmirlər.

Gündəlik vəziyyətlərdə dialoq nitqini mənimsəməklə, xüsusi təhsilə ehtiyacı olan bir uşaq həvəsləndirici xarakterli dialoqa başlamağı öyrənir: əmr vermək, bir şey təklif etmək və s. (Bezkorovaynaya et al., 2014).

Müxtəlif məşqlər və oyunlar uşağa öyrənilən materialı daha asan və tez yadda saxlamağa kömək edir ki, bu da onların linqvistik üfüqlərinin genişlənməsinə səbəb olur: onlara xarici dildə şifahi və yazılı sözlərin mənimsənilməsi üçün əlçatan və zəruri olan əsas linqvistik anlayışları mənimsəməyə kömək edir.

Ümumtəhsil məktəblərində xüsusi təhsilə ehtiyacı olan uşaqlara xarici dillərin öyrədilməsi ilə bağlı bəzi nümunələrə nəzər salsaq, qeyd etmək lazımdır ki, ölkəmizdə inklüziv təhsilin təşkili işi sürətlə inkişaf etdirilməkdir. Bu gün xarici dillərin təkcə tədris prosesinə deyil, həm də bütövlükdə təhsil prosesinə geniş şəkildə tətbiqi ilə bağlı bir sıra problemlər mövcuddur.

Bununla belə, bu tədris modeli xarici dil dərslərində xüsusi təhsil ehtiyacı olan tələbələrlə işləyərkən korreksiya və inkişaf yollarını optimallaşdırmağa kömək edən əsas vasitə kimi qiymətləndirilir.

Ədəbiyyat:

1. İnklüziv siniflərdə təlimin təşkili (2018)
https://www.tipii.edu.az/noduploads/document/8588_oxu-materiali-inkluziv-tahsil.pdf

2. PlanetofEnglish: учебник английского языка для учреждений НПО и СПО/ (2014)Г. Т. Безкоровайная, Е. А.Койранская, Н. И. Соколова, Г. В. Лаврик. –Москва: Академия, 2014. – 208с.

İNKLÜZİV TƏHSİLİN İNKİŞAFINDA SMART TEXNOLOGİYALARDAN İSTİFADƏ ÜSULLARI

Gülyaz Midhad qızı Quliyeva
Magistrant
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
quliyevagulyaz253@gmail.com
ORCİD ID-0009-0001-8515-6674

Açar sözlər: SMART, texnologiya, müasir, üsul, inklüziv, psixologiya.

Xülasə. İnklüziv təhsil təlim mühitinin uyğunlaşdırılması prosesi vasitəsilə ehtiyacı olan təhsilalanları adekvat təhsil forması ilə təmin etmək imkanı yaradır. Təhsil mühitinin uyğunlaşdırılması prosesi vasitəsilə inklyuzivlik xüsusi təhsilə ehtiyacı olanları adekvat təhsil forması ilə təmin etmək imkanını təklif edir. Yardımçı qurğular (köməkçi vasitələr) inklüziv təhsildə islah və kompensasiya ehİnklüziv təhsilin inkişafında SMART texnologiyalardan istifadə müasir pedaqoji yanaşmaların əsas istiqamətlərindən biri kimi çıxış edir və bütün şagirdlər üçün bərabər təhsil imkanlarının yaradılmasına xidmət edir. SMART texnologiyalar (Specific, Measurable, Achievable, Relevant, Time-bound prinsiplərinə uyğun qurulan rəqəmsal və interaktiv alətlər) inklüziv mühitdə fərdi yanaşmanı gücləndirərək hər bir şagirdin ehtiyaclarına uyğun tədris prosesinin təşkilinə imkan verir. Bu texnologiyalardan istifadə üsullarına interaktiv lövhələr, elektron tədris platformaları, mobil tətbiqlər, süni intellekt əsaslı öyrənmə proqramları və adaptiv təlim sistemləri daxildir. Xüsusilə, interaktiv lövhələr vasitəsilə vizual və eşitmə imkanları məhdud olan şagirdlər üçün dərs materialları daha əlçatan və anlaşıqlı formada təqdim olunur.

Bundan əlavə, adaptiv təlim proqramları şagirdlərin fərdi öyrənmə tempini nəzərə alaraq tədris materiallarını avtomatik şəkildə uyğunlaşdırır ki, bu da inklüziv siniflərdə fərqləndirilmiş təlimin effektivliyini artırır.

SMART texnologiyalar həmçinin müəllimlərə şagirdlərin inkişafını real vaxt rejimində izləmək, qiymətləndirmək və dərhal geribildirim vermək imkanı yaradır. Bu isə xüsusi təhsil ehtiyacları olan şagirdlərin akademik və sosial bacarıqlarının inkişafına müsbət təsir göstərir.

Eyni zamanda, rəqəmsal kommunikasiya vasitələri (məsələn, onlayn platformalar və distant təhsil alətləri) valideyn, müəllim və mütəxəssislər arasında əməkdaşlığı gücləndirir, inklüziv təhsil prosesinin daha sistemli və koordinasiyalı şəkildə həyata keçirilməsinə şərait yaradır. Nəticə etibarilə, SMART texnologiyaların inklüziv təhsildə tətbiqi yalnız təlimin keyfiyyətini yüksəltməklə yanaşı həm də sosial ədalət prinsipinin reallaşmasına, hər bir şagirdin potensialının maksimum səviyyədə inkişafına xidmət edir.

Keywords: SMART, technology, modern, method, inclusive, psychology.

Summary. Inclusive education creates the opportunity to provide learners in need with an adequate form of education through the process of adapting the learning environment. Inclusion offers the opportunity to provide those in need of special education with an adequate form of education through the process of adapting the educational environment. Assistive devices (assistive means) are correctional and compensatory in inclusive education. The use of SMART technologies

in the development of inclusive education acts as one of the main directions of modern pedagogical approaches and serves to create equal educational opportunities for all students.

SMART technologies (digital and interactive tools built according to the principles of Specific, Measurable, Achievable, Relevant, Time-bound) allow for the organization of the educational process according to the needs of each student by strengthening the individual approach in an inclusive environment. Methods of using these technologies include interactive whiteboards, electronic learning platforms, mobile applications, artificial intelligence-based learning programs and adaptive learning systems. In particular, interactive whiteboards provide teaching materials in a more accessible and understandable form for students with visual and hearing disabilities.

Additionally, adaptive learning programs automatically adapt teaching materials to students' individual learning pace, which increases the effectiveness of differentiated instruction in inclusive classrooms.

SMART technologies also allow teachers to monitor, assess, and provide immediate feedback on student progress in real time, which positively impacts the academic and social development of students with special educational needs.

Anahtar kelimeler: SMART, teknoloji, modern, yöntem, kapsayıcı, psikoloji.

Özet. Kapsayıcı eğitim, öğrenme ortamının uyarlanması süreciyle ihtiyaç sahibi öğrencilere uygun bir eğitim biçimi sağlama fırsatı yaratır. Kapsayıcılık, özel eğitime ihtiyaç duyanlara eğitim ortamının uyarlanması süreciyle uygun bir eğitim biçimi sağlama fırsatı sunar. Yardımcı cihazlar (asistan cihazlar) kapsayıcı eğitimde düzeltici ve telafi edicidir. Kapsayıcı eğitimin geliştirilmesinde SMART teknolojilerinin kullanımı, modern pedagojik yaklaşımların ana yönlerinden biri olarak hareket eder ve tüm öğrenciler için eşit eğitim fırsatları yaratmaya hizmet eder. SMART teknolojileri (Özgül, Ölçülebilir, Ulaşılabilir, İlgili, Zaman Sınırlı ilkelerine göre oluşturulmuş dijital ve etkileşimli araçlar), kapsayıcı bir ortamda bireysel yaklaşımı güçlendirerek, her öğrencinin ihtiyaçlarına uygun olarak eğitim sürecinin organize edilmesini sağlar.

SMART teknolojileri (Özgül, Ölçülebilir, Ulaşılabilir, İlgili, Zaman Sınırlı ilkelerine göre oluşturulmuş dijital ve etkileşimli araçlar), kapsayıcı bir ortamda bireysel yaklaşımı güçlendirerek, her öğrencinin ihtiyaçlarına uygun olarak eğitim sürecinin düzenlenmesine olanak tanır. Bu teknolojilerin kullanım yöntemleri arasında etkileşimli beyaz tahtalar, elektronik öğrenme platformları, mobil uygulamalar, yapay zekâ tabanlı öğrenme programları ve uyarlanabilir öğrenme sistemleri yer almaktadır. Özellikle etkileşimli beyaz tahtalar, görme ve işitme engelli öğrenciler için eğitim materyallerini daha erişilebilir ve anlaşılabilir bir biçimde sunar. Ayrıca, uyarlanabilir öğrenme programları, öğrencilerin bireysel öğrenme hızını dikkate alarak eğitim materyallerini otomatik olarak uyarlar; bu da kapsayıcı sınıflarda farklılaştırılmış öğretimin etkinliğini artırır.

Akıllı teknolojiler, öğretmenlerin öğrencilerin ilerlemesini gerçek zamanlı olarak izlemelerine, değerlendirmelerine ve anında geri bildirim vermelerine olanak tanır. Bu, özel eğitim ihtiyacı olan öğrencilerin akademik ve sosyal becerilerinin gelişimini olumlu yönde etkiler. Aynı zamanda, dijital iletişim araçları (örneğin, çevrimiçi platformlar ve uzaktan eğitim araçları), veliler, öğretmenler ve uzmanlar arasındaki işbirliğini güçlendirerek, kapsayıcı eğitim sürecinin daha sistematik ve koordineli bir şekilde uygulanması için koşullar yaratır. Sonuç olarak, kapsayıcı eğitimde akıllı teknolojilerin uygulanması sadece eğitimin kalitesini artırmakla kalmaz, aynı zamanda sosyal adalet ilkesini gerçekleştirmeye ve her öğrencinin potansiyelini en üst düzeye çıkarmaya da hizmet eder.

Bu gün çağdaş təhsilin diqqətini cəmlədiyi istiqamətlərdən biri də inklüziv təhsillə bağlıdır. Xüsusən də sağlamlıq imkanları məhdud olan uşaqların birgə təhsil mühitinə adaptasiyası üçün yeni texnologiyalardan istifadə vacib amillərdəndir.

Texniki qurğular və proqram təminatı, əlçatan HTML, danışan kitablar, DAISI sistemləri və başqaları kimi alternativ formatlar tədris materialının başa düşülməsini asanlaşdırır və inkişafda qüsurlu şagirdlərin təhsil prosesində bərabər iştirakına kömək edir (Quliyev Ənvər, 2021).

“Rəqəmsal texnologiyaların müasir təhsil sistemində artan təsiri nəticəsində tədris və təlim prosesi dəyişdi. Rəqəmsal texnologiyaların sinifdə istifadəsinin əhəmiyyəti, faydaları və mümkün çatışmazlıqları bu məqalədə hərtərəfli araşdırılır. Tələbələrin təhsil təcrübələrini təkmilləşdirməklə yanaşı, rəqəmsal vasitələrin tədris prosesinə daxil edilməsi pedaqoqlara qabaqcıl tədris strategiyalarından istifadə etmək üçün şans yaradır” (Ş. Qoçuyeva, 2025)

Rəqəmsallaşma inklüziv siniflərdə əlçatan, uyğunlaşa bilən öyrənmə mühiti yaradan, sensor, motor və davranış qüsurları ilə bağlı müəyyən maneələri aradan qaldıran və inkişaf qüsurları olan şagirdlərin sağlam həmyaşıdlarına uğurlu inteqrasiyasını təmin edən SMART sistemdir. İnklüziv təhsil problemlərinin həllindən asılı olaraq rəqəmsal cihazlar iki kateqoriyaya ayrılır: təlim və təkrarlama üçün rəqəmsal qurğular, öyrənməyə kömək etmək üçün rəqəmsal cihazlar və imkanları genişləndirmək üçün rəqəmsal cihazlar (aktiv) təlim (F. İsayeva, 2020).

SMART təlim texnologiyalarından istifaadə zamanı uşaqların hesab və savad bacarıqlarını inkişaf etdirmək üçün nəzərdə tutulmuş "inteqrasiya edilmiş təlim sistemləri" diaqnostik vasitələrlə birləşdirilir. Bu gün rəqəmsal dünya əhəmiyyətli dərəcədə dəyişir. Eşitmə qüsuru olan tələbələr üçün eşitmə qavrayışını inkişaf etdirmək və uşaqların nitqinin ritmik və intonasiya ifadəliliyini məşq etmək üçün korreksiyaedici işlər üçün nəzərdə tutulmuş eşitmə-nitq təlimçiləri hazırlanır. Bununla yanaşı görmə qüsurlu uşaqlar üçün eşitmə-nitq təlimçiləri də yaradılır. Brayl displeyləri mətni xüsusi şriftdən standart şriftə çevirir və səsli hekayəni ehtiva edir. Rəqəmsal təlim vasitələri öyrənməyi dəstəkləmək və asanlaşdırmaq üçün nəzərdə tutulmuşdur. Bunlara alternativ rabitə cihazları və rabitə gücləndiriciləri daxildir. Məsələn, görmə qüsuru olan uşaqlar üçün Hedo Reha Technik GMBH şirkəti çap olunmuş mətni skan edən və onu daxili dinamiklər vasitəsilə səsləndirən Hedo Scan K cihazını hazırlayıb.

Cihaz müxtəlif şriftlərə uyğunlaşır və ingilis, alman, italyan, fransız və ispan dillərini tanıyır. Meksika institutu təxminən 4-5 saat enerji doldurmadan işləyə bilən və vizual məlumatları, eləcə də insanın coğrafi mövqeyini dəqiq tanıya bilən “ağıllı eynək” hazırlayıb. Onu da qeyd etmək lazımdır ki, bu gün uşaqlara məkanda naviqasiya etməyə və ətrafdakı obyektləri tanımağa kömək edən çoxlu proqramlar mövcuddur (Гao, 2016).

Eşitmə qüsurlu (kar, çətin eşitmə və gec başlayan karlıq) uşaqlar üçün radio sinfi adlanan simsiz səs ötürmə texnologiyası təklif olunur. Hazırda Sidney məktəbində yeni sistem uğurla sınaqdan keçirilir. İdeya ondan ibarətdir ki, müəllim səsi xüsusi qurğuya ötürən yaxa mikrofonu taxır və xüsusi proqram daha sonra nitqi mətnə çevirir və noutbukun ekranında nümayiş etdirir. Norveç Texnologiya və Elm Universitetinin tədqiqatçıları nitq qüsuru olan uşaqlar üçün danışmağa imkan verən cihaz ixtira ediblər. Texnologiya dünya şöhrətli fizikin elektron səsinə əsaslanır. Xəstəlik nəticəsində danışma qabiliyyətini itirən Stiven Hokinq. Bundan əlavə, norveçlilər elektron səs hazırladılar və kompüterdən istifadə edərək səsləri uşaq kimi tələffüz etmək üçün onu köklədilər. Dayaq-hərəkət sistemi qüsurlu uşaqlar üçün həssaslığı artırılmış membran klaviaturalar və böyüdülmüş düymələri olan klaviaturalar yaradılmışdır. Öyrənməyə imkan verən rəqəmsal cihazlar onlayn, müasir informasiya və kommunikasiya vasitələrindən (Skype, Avast, WhatsApp,

Viber və s.) istifadə etməklə ciddi əlilliyi olan uşağı bir qrup tələbə ilə təhsil prosesinə "daxil etmək" imkanına malikdir. Müəllim öz sosial media səhifəsində şagirdlərə mövzu ilə bağlı maraqlı məlumatlar tövsiyə edə və uşaqlar üçün maraqlı formatda ev tapşırıqlarını verə bilər. Bunlar belə sistemləşdirilir:

1. Subyektin fəaliyyəti ilə bağlı prinsiplər: tədris və idrak fəaliyyətinin fərdiləşdirilməsi; subyektlərin fəaliyyətinin instrumentallığı; elektron təhsil resursları ilə qarşılıqlı əlaqənin interaktivliyi.

2. Elektron təhsil resurslarının yaradılması perspektivləri ilə bağlı prinsiplər: elektron təhsil resurslarının sensor multimodallığı; rəqəmsal təhsil mühitində informasiyanın semiotik polifoniyası; rəqəmsal təhsil mühitində artan məlumat həcmi ilə idrak və onlardan hansı nəticə əldə etmək istəyirlər (İsayeva, 2020).

İKT bacarığı və rəqəmsal texnologiyaların inklüziv təhsilə inteqrasiyası İnklüziv təhsilin rəqəmsal transformasiyası əlilliyi olan tələbələrin yerli və qlobal rəqəmsal reallıqda həyata hazırlanmasında mühüm prosesdir. Rəqəmsallaşma texnoloji innovasiyaların, pedaqoji təcrübələrin qarşılıqlı əlaqəsi, pedaqoji kollecin rəqəmsallaşmaya metodiki, təşkilati və texniki hazırlığı vasitəsilə inklüziv təhsilin effektivliyini təmin etmək üçün həm məqsəd, həm də vasitədir.

İnformatika, pedaqogika və psixologiyanın kəsişməsinə yönəlmiş elektron təhsil mühitinin ümumi elmi konsepsiyaları müvafiq olaraq aşağıdakılardan ibarətdir: məlumat (ötürülmüş təcrübə, elektron təhsil resurslarında təcəssüm olunur); rabitə (telekommunikasiya daxilində məlumat mübadiləsi); və təhsil və idrak fəaliyyətinin idarə edilməsi.

Elektron təhsil mühitinin idarə edilməsinin informasiya və kommunikasiya üsullarını qısaca təsvir edək.:

1. İnformasiya metodları fənn-məzmun elektron resurslarının (fənnin məzmunu, tələbələrin təlim fəaliyyətinin alqoritmləri) tərtibini və yaradılmasını təmin edən proqram və aparat.

2. Ünsiyyət üsulları tələbələr arasında məlumat mübadiləsinin və ünsiyyət qarşılıqlı əlaqələrinin təşkilini təmin edir: (verilmiş tapşırıqların həlli (biliklərin təfsiri üzrə ünsiyyət, komandada işləmək bacarıqlarının inkişaf etdirilməsi və situasiya problemlərinin həlli) (Quliyev, 2021).

3. İdarəetmə metodları elektron qarşılıqlı fəaliyyət mühitində əks əlaqə üçün şərait yaratmaqla tələbələrin təhsil fəaliyyətinin kəmiyyət və keyfiyyət təhlilini asanlaşdırdı (Qoçuyeva, 2025).

Təcrübəmizə görə, rəqəmsal (e-learning) texnologiya verilənlər bazalarında olan və həyata keçirilməsində istifadə olunan məlumatlardan istifadə edərək təhsil prosesinin xüsusi təşkili üçün bir sistemdir. İnformasiya texnologiyaları; texniki vasitələr və informasiya və telekommunikasiya şəbəkələri də bu qəbildən hesab edilir. İnformasiyanın ötürülməsi, qarşılıqlı əlaqə və alətlər, metodlar və öyrənmə yolları üçün müstəqil axtarış imkanı verir.

Bu, açıq təhsil resurslarının inkişafına (informasiya və təhsil elektron mühitlərinin multiplatformalı və açıq xarakteri; və LMS sistemlərindən TMS təhsil idarəetmə sistemlərinə keçid) imkan yaradır.

İnklüziv təhsildə geniş spektrı əhatə edən elektron təhsil texnologiyaları informasiya, telekommunikasiya və veb texnologiyalarından istifadə əsasında qurulmuş öyrənməni dəstəkləyən proqramlar və proseslərdir. Elektron tədris mühitində kursun mənimsənilməsi, əsas ənənəvi təlim prosesindən əlavə, aşağıdakı vəzifələri həll etmək üçün veb-aktiv təlim vaxtının 30%-ə qədərini tələb edir: elektron mühitdə müstəqil işin təşkili (özünü öyrənmək üçün elektron materiallar,

laboratoriya işlərinə hazırlıq) informasiya, telekommunikasiya və veb texnologiyalarından istifadə əsasında qurulmuş öyrənməni dəstəkləyən proqramlar və proseslər bu qəbildən hesab edilir.

Onlayn təlim (təlim prosesinin 90-100%-i həm müəllimlə, həm də bir-biri ilə tələbə qarşılıqlı əlaqəsi vasitəsilə onlayn şəkildə həyata keçirilirdi). Sinif iclasları, kurs məsləhətləri, tələbələrlə fərdi iş, laboratoriya məşğələləri, cari və aralıq qiymətləndirmələr üçün istifadə edilmişdir.

– Dokeos kiçik qruplarda və ya fərdi təhsil proqramının bir hissəsi kimi dərslərin keçirilməsi üçün mülkiyyət alətləri olan xidmətdir. Sistem tələbələrə tez və asanlıqla dərslər yaratmağa və maarifləndirici videoları daxil etməyə kömək etdi.

– ILIAS uzaqdan və ya onlayn dərslərin keçirilməsi üçün universal və açıq sistemdir.

– Eliademy – qismən pulsuz platformadır. Buraya tələbələr üçün premium hesablar və müxtəlif cihazlarla istifadə üçün smartfon proqramı daxildir. Faylın yüklənməsi və kursun yaradılması sadələşdirilmişdir (İsayeva, 2020).Rəqəmsal texnologiyalar inklüziv təhsilin inkişafı üçün bir vasitə kimi.

– FormaLMS – sinif otağı, menecerlər və təqvimlər daxil olmaqla, uzaqdan təhsil üçün geniş imkanlara malik platformadır. O, ətraflı bilik təhlili, statistik məlumatlar və dərsin çatdırılması və akademik performans haqqında hesabatlar təqdim edir.

– Dokeos kiçik qruplarda və ya fərdi təhsil proqramının bir hissəsi kimi dərslərin keçirilməsi üçün mülkiyyət alətləri olan xidmətdir. Sistem tələbələrə tez və asanlıqla dərslər yaratmağa və maarifləndirici videoları daxil etməyə kömək etdi.

– ILIAS uzaqdan və ya onlayn dərslərin keçirilməsi üçün universal və açıq sistemdir.

– Opigno – sinif cədvəli, forum və xüsusi elektron tədris alətləri və onlayn dərsləri olan platformadır.

– OLAT – tələbələr üçün əsas səhifəsi, cədvəli və əlfəcinləri, fayl yaddaşı və brauzer uyğunluğu olan platforması olan sistem.

– iSpringOnline sizə müxtəlif fayllarla e-kurslar yaratmağa, onları redaktə etməyə, məlumat yükləməyə, ətraflı statistik məlumatları yerinə yetirməyə və masaüstü kompüterləri paylaşmağa imkan verən platformadır.

Təhsil platformaları üçün əsas tələblərdən birinin yaxşı təşkil edilmiş arxitektura olduğunu nəzərə alaraq, tələbələrə aşağıdakı cümləni tamamlamağı təklif etdik:

“Təhsil platformasının arxitekturasının məqsədi...” və “Platforma ilə ilk dəfə nə vaxt qarşılaşmısınız?” sualına cavab (Ван ЦоО, Го Цзяньпэн: 2019).

Cavabların təhlili zamanı məlum olub ki, tələbələrin 64%-i təhsil platformasının arxitekturasının ilk növbədə təhsil resurslarına bərabər çıxışın təmin edilməsinə yönəldiyini qeyd edib; 28% vurğuladı ki, onlar təhsil platformasının arxitekturasını başa düşürlər, lakin nəyi və necə izah etməkdə çətinlik çəkirlər. Yalnız 18,3% əlilliyi olan tələbələr üçün təhsil resurslarına bərabər çıxışı qeyd edib. Tələbələrin platforma ilə ilk görüşlərinə gəlincə, 71% platforma ilə tanış olduğunu, 71% isə bunun onların maraqlarının qəbul edilməsinin nəticəsi olduğunu qeyd etdi; 22% müasir və istifadəçi dostu olmasını tələb etdi; və 72% cəlbedici və istifadəsi asan interfeysin vacibliyini vurğuladı. Bu tədris, metodik və istinad vasitəsi müasir İnternet texnologiyalarına əsaslanır. Virtual resursun məzmunu subyektlərin yeni informasiyaya olan tələbatını ödəmək qabiliyyətinin göstəriciləri kimi müxtəlif elmi effektləri təsvir edən məhsuldar biliklər toplusunu və onun evristik strategiyalar, taktikalar, metodlar, texnikalar, qanunlar və müasir texnologiya və mühəndislikdə inkişaf qanunauyğunluqları şəklində təkrar tətbiqini əks etdirirdi.

Virtual kolleksiya avtomatlaşdırılmış məlumat axtarış sistemi kimi qlobal İnternetdə fəaliyyət göstərirdi. O, geniş miqyaslı məlumat massivini (verilənlər bazasını) təmsil edən elmi effektlərin sistemləşdirilmiş təsvirlərinin toplusunu ehtiva edirdi.

Müasir informasiya və kommunikasiya texnologiyaları əsasında təsvirlərin yaradılması, təqdim edilməsi, axtarışı və seçilməsi üçün alətlər daxil olmaqla unikal İnternet repozitoriyası hesab olunur. Elmi effektlərin virtual kolleksiyasından istifadəni asanlaşdırmaq üçün onun tərkibində rəsmiləşdirilmiş və təkmil axtarış sorğularını daxil etməyə və elmi effektlərin ümumi əlifba sırası ilə kataloqunu çağırmağa imkan verən istifadəçi dostu naviqasiya paneli mövcuddur. İstənilən elmi effekt mütləq standartlaşdırılmış qaydalara uyğun yaradılan, məlumat modelində effektin mahiyyətini vizuallaşdıran, mətn təsviri ilə qrafik illüstrasiya ilə müşayiət olunan və mütləq çap və elektron mənbələrə keçidlərlə dəstəklənən animasiya ilə müşayiət olunur. Elmi effektlərin virtual fondu şərti olaraq iki boşluğa bölünür: effektlərin rəsmiləşdirilmiş təsvirlərini hazırlayan ekspertlər üçün ümumi terminoloji məkan və elmi effektlərin axtarışı üçün sorğular llyaradan fond istifadəçiləri üçün təyin edilmiş yer.

Birinci tip məkan üçün axtarış sorğularının formalaşdırılması və icrasına, həmçinin sorğular və təsir təsvirlərinə girişlərə dair statistik məlumatların toplanmasına dəstək olmaq üçün xüsusi proqram təminatından istifadə olunur. İkinci növ üçün, indeksləşdirilmiş komponentlərində sorğuda göstərilən söz və ya ifadələri ehtiva edən sənədləri axtarmağa imkan verən ənənəvi axtarış vasitələri tətbiq edilir. Funksional baxımdan toplu nəzəri və praktiki materialların sistemli və mütəşəkkil sistemini özündə cəmləşdirən tədris-metodiki sistem rolunu oynayırdı. Başqa sözlə, virtual kolleksiya çoxsaylı elmi effektləri və hadisələri təsvir edən müasir istinad sistemi rolunu oynayırdı.

Virtual fondun tətbiqi açıq mənbə proqram təminatına əsaslanan çox platformalı idi. İlkin mərhələdə fondun proqram təminatı və informasiya komponentləri verilənlər bazasında yaradılmış, sonra isə son istifadəçinin veb-brauzer vasitəsilə fondun resursları ilə qarşılıqlı əlaqəsini təmin etmək üçün HTML formatına çevrilmişdir (Гао Тяньгэ, 2016).

Təhsil prosesinin təşkilinin funksional modelləri (veb-dəstəklənən təlim, qarışıq təlim, onlayn öyrənmə) inklüziv təhsilə uğurla uyğunlaşır; e-təhsil əlçatan mühitin tərkib hissəsi kimi əlilliyi olan şəxslər üçün onun spesifikliyini nəzərə almaqla fərdi təlim trayektoriyasını və əldə edilmiş təlim nəticəsinin qiymətləndirilməsini müəyyən edir. Pulsuz distant təhsil üçün Top 10 platformasından istifadə tələbələrə məlumatı əlçatan formalarda qəbul etmək və ötürmək imkanı verib. Rəqəmsal təhsil mühitində intellektual informasiya dəstəyi vasitələri əlilliyi olan tələbələrin psixoloji narahatlığını aradan qaldırmağa kömək etdi və onların öyrənməyə motivasiyasını təmin etdi. Əlilliyi olan uşaqların zehnini effektiv şəkildə öyrətmənmək SMARt təhsil tendensiyasını əhatə edən ən vacib faktorlardandır. Onların şəxsi ehtiyaclarını, potensialını və qabiliyyətlərini yüksəldən əsas faktor kimi beynəlxalq təcrübəyə əsaslanmaq və ən mühüm prioritet məsələ kimi bu problemi çözmək SMART təhsilin ən vacib məsələlərindəndir.

Nəticə olaraq qeyd etmək olar ki, inklüziv təhsilin inkişafında smart texnologiyalardan istifadə təlim prosesinin daha əlçatan, fərdiləşdirilmiş və effektiv təşkilinə geniş imkanlar yaradır. Bu texnologiyalar vasitəsilə xüsusi təhsil ehtiyacları olan şagirdlərin öyrənmə tələbləri daha dəqiq müəyyənləşdirilir, onların dərsə aktiv cəlb olunması təmin edilir və sosial inteqrasiyası güclənir. Eyni zamanda, müəllimlər üçün diferensiallaşdırılmış tədris strategiyalarını tətbiq etmək, şagird nailiyyətlərini izləmək və qiymətləndirmək daha asanlaşır. Beləliklə, smart texnologiyaların inklüziv təhsilə inteqrasiyası yalnız tədrisin keyfiyyətini artırmır, həm də bərabər təhsil imkanlarının təmin olunmasına və inklüziv cəmiyyətin formalaşmasına mühüm töhfə verir.

Ədəbiyyat:

1. Qoçuyeva, Ş. (2025). Təhsildə rəqəmsal texnologiyaların rolu. https://www.researchgate.net/publication/390941319_Thsild_rqmsal_texnologiyalarin_rolu
2. Quliyev, Ə. (2021). Azərbaycan təhsil sistemi və rəqəmsallaşma. Bakı: Elm və Təhsil Nəşriyyatı.
3. İsayeva, F. (2020). İngilis dilinin tədrisində müasir texnologiya. Linqvistika problemləri, 1(4), 105–114.
4. Ван, Ц., & Го, Ц. (2019). Переключите режим обучения в классе: вариативность и единство. Исследования в области высшего образования в Китае, *6*, 8–14.
5. Гао, Т. (2016). Исследование умного класса в эпоху «Интернет+»: на примере курсов бизнес-грамотности. Современное профессиональное образование.

İNKLÜZİV TƏHSİLİN MAHİYYƏTİ VƏ MÜASİR TƏHSİLDƏ ROLU

Səbinə Əkbər qızı Qocayeva
Magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
sabinagojayeva2001@gmail.com
ORCİD ID: 0009-0002-5696-7838

Açar sözlər: təhsil, inklüziya, sinif, inteqrasiya, təlim metodları, şagird, pedaqogika.

Xülasə. Hər bir şagirdin fiziki imkanları, idrak qabiliyyətləri və ya ailəsinin sosial-iqtisadi gəlir səviyyəsi nəzərə alınmadan bərabər şəkildə keyfiyyətli təhsil almasını təmin etmək müasir inklüziv pedaqogikanın fundamental əsasını təşkil edir. Təqdim olunan bu elmi iş, inklüziya anlayışının fəlsəfi köklərini və onun müasir təhsil qurumlarının struktur inkişafına gətirdiyi köklü, dəyişdirici təsirləri dərindən araşdırır. Tədqiqatın əsas strateji hədəfi, inklüziv məktəb mühitinin yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqların akademik dərs nailiyyətlərinə deyil, həm də tipik inkişaf edən sinif yoldaşlarının mənəvi əhval-ruhiyyəsi, sosial adaptasiyası və ünsiyyət bacarıqlarındakı müsbət inkişaf dinamikasına necə təsir etdiyini elmi əsaslarla öyrənməkdir.

Tədqiqat işində vurğulanır ki, inklüziv təhsil modelində uşaqdan mövcud, standart təhsil şəraitinə uyğunlaşmasını gözləmək əvəzinə, təhsil məkanı və tədris proqramı bilavasitə uşağın fərdi tələblərinə və potensialına uyğunlaşdırılır. Bu yanaşma təhsilin humanistləşdirilməsində mühüm mərhələ hesab olunur. Tədqiqat həmçinin onu önə çıxarır ki, müasir dünyada inklüziv təhsilin strateji əhəmiyyəti təkcə bilik və bacarıqların ötürülməsi ilə məhdudlaşmır; bu yanaşma gələcəkdə daha ədalətli, dözümlü, tolerant və şəfqətli bir cəmiyyət qurmağa xidmət edən fundamental vasitəyə çevrilir. İnklüziv sinif mühiti müxtəlifliyi təşviq edərək, sosial qərəzləri və stiqmaları minimuma endirməklə, bütün şagirdləri qarşıdakı mürəkkəb, multikultural və qloballaşan dünyaya hazırlayır. Nəticə etibarilə, inklüziya müasir təhsil sisteminin demokratikləşməsinin ən mühüm göstəricisi kimi çıxış edir.

Keywords: education, inclusion, classroom, integration, teaching methods, student, pedagogy.

Summary. Ensuring that every student receives a quality education regardless of physical limitations, cognitive abilities, or socio-economic background forms the fundamental basis of modern inclusive pedagogy. This research deeply explores the philosophical roots of the concept of

inclusion and its transformative impact on the structural development of contemporary educational institutions. The primary strategic goal of the study is to scientifically examine how an inclusive school environment affects not only the academic achievements of children with special educational needs but also the positive developmental dynamics in the social adaptation, morale, and communication skills of their typically developing peers.

The study emphasizes that in the inclusive education model, instead of expecting the child to adapt to existing standard educational conditions, the learning space and curriculum are directly adapted to the child's individual requirements and potential. This approach is considered a crucial stage in the humanization of education. Furthermore, the research highlights that the strategic importance of inclusive education in the modern world is not limited to the transfer of knowledge; it has become a fundamental tool for building a more just, tolerant, and compassionate society. By promoting diversity and minimizing social prejudices and stigmas, inclusive classroom environments prepare all students for the complex, multicultural, and globalized world ahead. Ultimately, inclusion serves as the most important indicator of the democratization of the modern educational system.

Anahtar kelimeler: eğitim, kapsayıcılık, sınıf, entegrasyon, öğretim yöntemleri, öğrenci, pedagoji.

Özet. Her bir öğrencinin fiziksel engelleri, bilişsel yetenekleri veya ailesinin sosyo-ekonomik gelir düzeyi gözetilmeksizin eşit bir şekilde kaliteli eğitim almasını sağlamak, modern kapsayıcı pedagojinin temelini oluşturmaktadır. Sunulan bu bilimsel çalışma, kapsayıcılık kavramının felsefi köklerini ve modern eğitim kurumlarının yapısal gelişimine getirdiği köklü ve dönüştürücü etkileri derinlemesine incelemektedir. Araştırmanın temel stratejik hedefi, kapsayıcı okul ortamının yalnızca özel gereksinimli çocukların akademik başarılarını değil, aynı zamanda tipik gelişim gösteren sınıf arkadaşlarının moral motivasyonu, sosyal adaptasyonu ve iletişim becerilerindeki olumlu gelişim dinamiklerini nasıl etkilediğini bilimsel temellerle öğrenmektir.

Çalışmada, kapsayıcı eğitim modelinde çocuğun mevcut standart eğitim koşullarına uyum sağlamasını beklemek yerine, eğitim ortamının ve müfredatın doğrudan çocuğun bireysel ihtiyaçlarına ve potansiyeline göre uyarlandığı vurgulanmaktadır. Bu yaklaşım, eğitimin hümanistleşmesinde önemli bir aşama olarak kabul edilmektedir. Ayrıca araştırma, modern dünyada kapsayıcı eğitimin stratejik öneminin yalnızca bilgi aktarımıyla sınırlı olmadığını; bu yaklaşımın gelecekte daha adil, hoşgörülü ve şefkatli bir toplum inşa etmeye hizmet eden temel bir araca dönüştüğünü ortaya koymaktadır. Kapsayıcı sınıflar, çeşitliliği teşvik ederek sosyal önyargıları ve damgalamaları en aza indirgemekte, böylece tüm öğrencileri gelecekteki karmaşık, çok kültürlü ve küreselleşen dünyaya hazırlamaktadır. Sonuç olarak kapsayıcılık, modern eğitim sisteminin demokratikleşmesinin en önemli göstergesi olarak karşımıza çıkmaktadır.

Azərbaycan Respublikasında təhsil sahəsində dövlət siyasətinin əsas məqsədi milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaqdır. (Azərbaycan Respublikası, 2009) İnklüziv təhsil isə uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq, onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Əlilliyi olan və olmayan uşaqların vahid təhsil məkanında birgə öyrənməsi, təhsilin effektivliyini artıran ən mütərəqqi metodologiyalardan biri hesab olunur. Belə inteqrasiya olunmuş mühit, şagirdlərin fərqli qabiliyyətlərindən asılı olmayaraq, hər kəs üçün bərabər və məhsuldar bir öyrənmə təcrübəsi

yaradır. Belə ki, bütün uşaqların eyni sinifdə həyata keçirilən tədris prosesində iştirakı təhsilverənləri şagirdlərə fərdi yanaşmağa sövq edir. Tədqiqatlar göstərir ki, inklüziv siniflərdə birgə öyrənmə şagirdlərin empatiya qabiliyyətini və özünüqiymətləndirmə səviyyəsini yüksəldir, bu isə sağlam və ədalətli sosial ekosistemin formalaşması deməkdir. Lakin paradoksal olsa da, "inklüziv təhsil" termini müasir təcrübədə tez-tez konseptual yanlışlıqlarla və səhv yanaşmalarla qarşılaşır.

Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyasının 24-cü maddəsində fiziki məhdudiyyət anlayışına daha mütərəqqi bir yanaşma nümayiş etdirilir. Sözügedən sənəd əlilliyi olan fərdlərin təhsil alma imkanlarını beynəlxalq səviyyədə təsbit edir və üzv ölkələrə inklüziv metodologiyanın tətbiqi ilə bağlı konkret vəzifələr həvalə edir. Bu öhdəliyə aşağıdakılar daxildir (Grimes P., Stevens M., Dela Cruz A., 2019):

- Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərindən kənarlaşdırılmamasını təmin etmək;
- Yaşadıqları icmada digərləri ilə bərabər əsaslarla inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq imkanlarını təmin etmək;
- İnklüzivliyin tam şəkildə təmin olunması üçün akademik və sosial inkişafa şərait yaradan mühitdə fərdi ehtiyaclara uyğunlaşdırılmış zəruri dəstək tədbirlərini təmin etmək.

Əlilliyə tibbi yanaşma fərdin özündən qaynaqlanan bir problem kimi baxır və onu qüsurlu şəxs kimi qələmə verir. Bu baxış tərzi insanın cəmiyyətdə fəal iştirakına mane olan xarici amilləri və ya əngəlləri tamamilə görməzdən gəlir. İnklüziv təhsil baxımından tibbi yanaşma, sağlamlıq imkanları məhdud uşaqların məktəbdə dərsləri mənimsəməsi və prosesdə fəal rol oynaması imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Bu yanaşma insan hüquqlarına əsaslanan baxışın dinamik və çoxcəhətli mahiyyətini əks etdirmir, nəticədə fərdə sadəcə onun diaqnozu prizmasından baxılır. Beləliklə, uşaq öz əlilliyinə görə damğalanır, maneələri aradan qaldırmaq və təhsil sistemində islahatlar aparmaq əvəzinə, məhz uşağın özü problem kimi qəbul edilir.

Əlilliyə sosial yanaşma isə tamam fərqli prinsiplərə söykənir:

- Təkcə əlilliyi olan uşaqlar deyil, ümumilikdə bir çox şagirdlər məktəbdə öyrənmə zamanı müxtəlif çətinliklərlə qarşılaşır;
- Bu çətinliklər əslində tədris prosesinin təkmilləşdirilməsi üçün bir göstərici, bir siqnaldır;
- Həyata keçirilən dəyişikliklər nəticədə bütün uşaqlar üçün daha yaxşı təhsil şəraitinin yaranmasına səbəb olmalıdır;
- Müəllimlərin fəaliyyətini inklüziv etmək üçün əlilliyi olan uşaqlarla ayrıca məşğul olacaq mütəxəssislər dəvət etmək yox, məhz mövcud müəllimlərin peşəkar bacarıqlarını inkişaf etdirmək lazımdır;
- Əlilliyi olan uşaq problem deyil. Əgər təhsil prosesi şagirdin ehtiyaclarına cavab verməkdə çətinlik çəkirsə, burada problem uşaqda deyil, məktəbin təşkilati formasında axtarılmalıdır. Müasir pedaqogika tələb edir ki, təhsil mühiti hər bir uşağın potensialını üzə çıxarmaq üçün çevik transformasiya olunmalı və şagirdin tələblərinə adaptasiya edilməlidir.

Öyrənmə insanın şəxsiyyət və idrak strukturlarında baş verən daxili proseslərdir (Çələbiyev N., 2025). Öyrənmə mahiyyət etibarilə sosial bir fəaliyyətdir. Müəllimlərin peşəkar inkişafı üçün ən təsirli üsul əməkdaşlıq və iş yeri üzrə öyrənmədir. Tədris prosesi o zaman daha səmərəli olur ki, müəllimlər öz real təcrübələrini və qarşılaşdıqları çətinlikləri bir-biri ilə bölüşsün və həll yollarını birgə işləyib hazırlasınlar. İş yeri üzrə öyrənmə müəllimlərə yeni qazandıqları bilikləri dərhal praktikada tətbiq etmək imkanı yaradır.

İnklüziv qiymətləndirmə nədir?

İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanır (Cahangirova S., 2025). İnklüziv qiymətləndirmə, inklüziv təhsilin altında yatan fəlsəfi prinsipləri tam dəstəkləyir. Bu yanaşma təkcə şagirdlərin bilikləri mənimsəmə imkanlarını genişləndirmir, həm də hər bir öyrənənin fərdi fərqliliklərini nəzərə almaqla təhsilin ümumi keyfiyyətinin yaxşılaşdırılmasına töhfə verir. İnklüziv qiymətləndirmə çərçivəsində tətbiq edilən metodlar və toplanmış məlumatlar yalnız seçim, attestasiya, hesabat vermə və ya müqayisə kimi "klassik" məqsədlər üçün istifadə edilmir – eyni zamanda, təhsilin bütün pillələrində nailiyyətlərin artırılmasını və bərabərliyin təmin olunmasını hədəfləyir. Sinifdə müəllimlər müxtəlif bilik səviyyələri, bacarıqları, maraqları və öyrənmə tələbatları olan şagirdlərlə işləyirlər. Sağlamlıq imkanları məhdud uşaqlar üçün ayrıca, xüsusi bir tədris metodu mövcud olmadığından, inklüziv şəraitdə müəllimlər bütün şagirdlərin ehtiyaclarını ödəmək məqsədilə məhz uşaq mərkəzli pedaqogikadan istifadə edirlər. Ənənəvi, yəni müəllim mərkəzli yanaşmada isə müəllim partaları sıra ilə düzür, sinfin qarşısında dayanır, bütün bilikləri hazır şəkildə şagirdlərə ötürür və onların cavablarının düzgün və ya səhv olduğunu bildirir. Bu sayılan xüsusiyyətlər "yaxşı" müəllimin əlamətləri hesab olunur. Uşaq mərkəzli yanaşmada isə əsas şərt müəllimin davranış tərzidir.

Qiymətləndirmə üsullarının standart və çevik olmaması, bir çox hallarda bütün şagirdlərin eyni formalı test və yazılı tapşırıqlarla qiymətləndirilməsi ilə nəticələnir. Bu isə xüsusi təhsil ehtiyacları olan şagirdlərin real bilik və bacarıqlarını tam şəkildə əks etdirmir. Müəllimlərin inklüziv qiymətləndirmə bacarıqlarının yetərli olmaması, fərdi yanaşma və alternativ qiymətləndirmə üsullarının tətbiqinin məhdud qalmasına səbəb olur.

Bu problemlərin aradan qaldırılması üçün müəllimlərin inklüziv qiymətləndirmə üzrə peşəkar inkişafı və diferensial qiymətləndirmə üsullarının tətbiqi mühüm əhəmiyyət kəsb edir. Məsələn, müəllim eyni mövzunu qiymətləndirərkən bəzi şagirdlər üçün yazılı test, digərləri üçün şifahi təqdimat, layihə və ya vizual təqdimat kimi alternativ tapşırıqlardan istifadə edə bilər. Bu yanaşma şagirdlərin fərdi imkanlarını nəzərə almağa və onların biliklərinin daha obyektiv qiymətləndirilməsinə şərait yaradır.

Sağlamlıq imkanları məhdud uşaqların təhsilinə üç əsas yanaşma

Bu günədək əlilliyi olan uşaqların təhsilinə dair üç geniş yanaşma tətbiq edilmişdir:

1.Seqreqasiya (ayrıca təhsil) – bu yanaşmada uşaqlar sahib olduqları sağlamlıq məhdudiyyətinə görə təsnifləşdirilir və məhz həmin məhdudiyyətə uyğun yaradılmış xüsusi məktəbə göndərilir.

2.İnteqrasiya – bu zaman əlilliyi olan uşaqlar kifayət qədər adaptasiya və ya dəstək olmadan (və ya çox az dəstəklə) ümumi təhsil sisteminə daxil edilir, lakin çox vaxt ya ayrıca siniflərdə, ya da ümumi siniflərdə yetərli dəstəkdən uzaq şəkildə təhsil alırlar.

3.İnklüziv qoşulma (həqiqi inklüziya) – bu yanaşmada hər bir şagirdin fərqli ehtiyaclarını nəzərə almaq üçün məktəbin mədəniyyətini, siyasətlərini və təcrübələrini dəyişdirmək, həmçinin inklüziyaya mane olan bütün əngəlləri aradan qaldırmaq öhdəliyi qəbul edilir. Bu üç yanaşma sonrakı diaqram və bölmələrdə daha ətraflı izah ediləcək.

Xüsusi məktəblər haqqında

Xüsusi məktəblərin və ya ayrıca siniflərin mövcudluğu bir zamanlar təhsilin tamamilə olmamasına və ya digər təhsil formalarına nisbətən yaxşı alternativ sayılırdı. Bunun səbəbi kimi siniflərin daha kiçik olması, binaların şagird ehtiyaclarına daha çox uyğunlaşdırılması, ayrı-seçkilik potensialının daha aşağı olması və müəllimlərin xüsusi məhdudiyyətləri olan uşaqlarla işləmək üçün xüsusi hazırlıq keçməsi göstərilirdi – beləcə, şagirdlərə fərdi yardım göstərilə biləcəyi düşünülürdü. Lakin reallıqda xüsusi məktəblər çox bahalıdır və əsasən yalnız şəhər mərkəzlərində yerləşdiyindən,

kənd və şəhərətrafı bölgələrdə yaşayan əlilliyi olan uşaqların böyük əksəriyyətini təhsil imkanından məhrum edir.

İnklüziv təhsil tətbiq edildikdə, dərslərin planlaşdırılması, həyata keçirilməsi və yoxlanılması sahəsində edilən köklü dəyişikliklər nəticəsində bütün şagirdlər təhsil baxımından qazanclı çıxır. Sağlamlıq imkanları məhdud uşaqların və digər həssas qrupların məktəbə inklüziv şəkildə qatıldığı yerlərdə təhsilin keyfiyyətində ciddi yaxşılaşma müşahidə olunur.

Təhsilə insan hüquqları prizmasından baxan yanaşma adi iş üsulları ilə məhdudlaşmır – inklüziv təhsilin gerçəkləşməsi üçün üç istiqamətli bir modelin qəbul edilməsi vacibdir. Bu baxımdan, inklüzivlik bütün uşaqların təhsilini əhatə edən və aşağıdakı üç elementi özündə birləşdirən yanaşma kimi başa düşülməlidir:

- Təhsilə əlçatanlıq hüququnu dəstəkləyən siyasət və strategiyalar;
- Keyfiyyətli təhsil almaq hüququ;
- Tədris mühiti daxilində bütün hüquqlara göstərilən hörmət.

Müasir dövrdə inklüziv təhsil artıq təkcə xüsusi qayğıya ehtiyacı olan uşaqların məktəbə qatılması prosesi deyil – bu, bütövlükdə təhsil sisteminin daha insani və müasir bir quruluşa keçidini təmin edən mexanizmdir. Onun müasir təhsildəki yerini aşağıdakı əsas istiqamətlərlə izah etmək olar:

Sosial maneələrin aradan qaldırılması: Cəmiyyət, hər biri bir-birindən fərqli xüsusiyyətlərə və ehtiyaclara sahib fərdlərdən ibarətdir (Xudiyeva A., 2025) İnklüziv məktəb mühiti uşaqlarda kiçik yaşlarından etibarən başqalarını anlama, dözümlülük və fərqliliklərə hörmət kimi hissləri formalaşdırır. Bu isə gələcəkdə ayrı-seçkiliyin olmadığı, daha sağlam və birləşmiş bir cəmiyyətin təməl daşını qoyur.

Tədris keyfiyyətinin yüksəldilməsi: İnklüziv təhsil "hər kəsə eyni üsul" anlayışından imtina edərək fərdi yanaşmanı (diferensial təlimi) ön plana çıxarır. Bu cür yanaşma yalnız xüsusi ehtiyaclı uşaqlar üçün deyil, bütün şagirdlərin öz potensialını maksimum dərəcədə reallaşdırması üçün əlverişli şərait yaradır.

Demokratik dəyərlərin təşviqi: Təhsil sahəsində bərabər imkanların yaradılması insan hüquqlarının qorunmasının ən yüksək səviyyəsidir. Müasir təhsil sistemləri inklüziya vasitəsilə hər bir fərdin cəmiyyət üçün nə qədər dəyərli olduğunu nümayiş etdirir.

Qlobal rəqabətə hazırlıq: Bugünkü əmək bazarı müxtəlifliyi idarə etməyi bacaran, komanda işinə yararlı və yüksək sosial zəkaya malik fərdlərə ehtiyac duyur. İnklüziv məktəb mühiti şagirdləri real həyatın çətinliklərinə və müxtəlifliyinə hazırlayan ən təsirli modeldir.

Sonda vurğulamaq lazımdır ki, inklüziv təhsil müasir təhsil sisteminin sadəcə bir "yan qolu" deyil, əksinə, onun əsas dayaq nöqtəsidir. Təhsil sisteminin bu prinsiplər üzərində qurulması cəmiyyətin hər bir üzvünə özünü tamhüquqlu və faydalı bir fərd kimi hiss etmək imkanı verir. İnklüziya hər bir uşağın uğur qazanmaq haqqını tanıyan gələcəyin təhsil modelidir. Aparılan araşdırmalar göstərir ki, inklüziv təhsilin müasir təhsil sistemində effektiv tətbiqinə baxmayaraq, inklüziv qiymətləndirmə sahəsində müəyyən sistemli çətinliklər hələ də mövcuddur. Bu problemlər xüsusilə fərqli ehtiyaclara malik şagirdlərin nailiyyətlərinin obyektiv qiymətləndirilməsi və onların təhsil prosesinə tam inteqrasiyası baxımından özünü göstərir.

.

Problem	Həll yolu	Praktik nümunə
Qiymətləndirmə	Diferensial və alternativ qiymətləndirmə	Müəllim mövzunu qiymətləndirərkən bəzi şagirdlərə yazılı

üsullarının standart olması	üsullarının tətbiqi	test, digərlərinə şifahi təqdimat və ya poster hazırlamaq imkanı verir
Müəllimlərin inklüziv qiymətləndirmə bacarıqlarının kifayət qədər olmaması	Müəllimlər üçün metodiki təlimlərin və seminarların təşkili	Məktəbdə müəllimlər üçün inklüziv qiymətləndirmə üzrə praktiki workshop keçirilir və müəllimlər müxtəlif qiymətləndirmə modellərini tətbiq etməyi öyrənir
Fərdi təhsil planlarının qiymətləndirmədə kifayət qədər nəzərə alınmaması	Fərdi inkişaf meyarları və qiymətləndirmənin tətbiqi	Müəllim şagirdin semestr ərzində topladığı işləri portfolioda saxlayaraq onun inkişafını mərhələli şəkildə qiymətləndirir
Valideyn və mütəxəssislərlə əməkdaşlığın zəif olması	Multidissiplinar əməkdaşlıq və müntəzəm görüşlərin təşkili	Müəllim, psixoloq və valideyn müəyyən dövrlərdə görüşərək şagirdin nailiyyətlərini və inkişafını birlikdə müzakirə edir
Qiymətləndirmə mühitinin bütün şagirdlər üçün uyğun olmaması	Qiymətləndirmə zamanı uyğunlaşdırılmış şəraitin yaradılması	Diqqət problemi olan şagirdə test zamanı əlavə vaxt verilir və sakit mühitdə tapşırığı yerinə yetirməsinə şərait yaradılır

Cədvəl 1. Müəllif tərəfindən aparılmış tədqiqatın nəticələrinə əsasən hazırlanmışdır.

Ədəbiyyat:

1. Grimes, P., Stevens, M., & Dela Cruz, A. (2019). İnkluziv sinifdə təlimin təşkili mövzusunda ixtisasartırma proqramının oxu materialı.
2. Azərbaycan Respublikası. (2009). Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/18343
3. Çələbiyev, N. (2025). Öyrənməyə qabillik təlim prosesində idrak fəallığı və mənimsəmənin psixoloji şərti kimi. Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal, 5(2), 17–21.
4. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, & Regional İnkişaf İctimai Birliyi. (2019). İnklüziv sinifdə təlimin təşkili mövzusunda ixtisasartırma proqramının oxu materialı (80 s.).
5. Xudiyeva, A. (2025). Ədalətli bir cəmiyyət üçün sosial xidmət strategiyaları. Elmi iş Beynəlxalq Elmi Jurnal, 19(4), 95–99.
6. Cahangirova, S. (2025). İnklüziv təhsildə müasir modellər. Qədim Diyar Beynəlxalq Elmi Jurnal, 7(6), 48–55.

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA İNKLÜZİV TƏHSİLİN TƏŞKİLİ

Şəfəq Arzu qızı Həsənli
Magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
Shafaqqq25@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0005-6804-6886

Açar sözlər: inklüziv təhsil, məktəbəqədər yaş, sosial adaptasiya, xüsusi qayğıya ehtiyac, pedaqoji yanaşma, inkişaf.

Xülasə. Bu məqalədə məktəbəqədər yaşlı uşaqlarda inklüziv təhsilin təşkili, onun əhəmiyyəti və tətbiq xüsusiyyətləri araşdırılır. İnklüziv təhsil bütün uşaqların, o cümlədən xüsusi qayğıya ehtiyacı olanların bərabər şəkildə təhsil almasını təmin edir və onların təhsil hüquqlarının reallaşmasına xidmət edir. Məqalədə inklüziv mühitin yaradılması, müəllimin rolu və uşaqların sosial-emosional inkişafına təsiri geniş şəkildə izah olunur. Eyni zamanda, inklüziv təhsilin səmərəli təşkili üçün təhsil mühitinin uyğunlaşdırılması, fərdi yanaşmanın tətbiqi və hər bir uşağın fərdi ehtiyaclarının nəzərə alınmasının vacibliyi vurğulanır.

Bundan əlavə, inklüziv təhsil prosesində müəllimlərin peşəkar hazırlığı, onların müasir pedaqoji yanaşmaları mənimsəməsi və uşaqlarla düzgün ünsiyyət qurması mühüm amillər kimi qeyd olunur. Valideynlərlə əməkdaşlıq, onların təhsil prosesinə cəlb edilməsi və maarifləndirilməsi də inklüziv təhsilin uğurlu həyata keçirilməsində mühüm rol oynayır. Məqalədə göstərilir ki, inklüziv təhsil uşaqların bir-birini daha yaxşı anlamasına, fərqlilikləri qəbul etməsinə, tolerantlıq və empatiya kimi dəyərlərin formalaşmasına şərait yaradır.

Bu yanaşma uşaqların sosial uyğunlaşmasını asanlaşdırır, onların ünsiyyət bacarıqlarını inkişaf etdirir və gələcək həyatlarında daha fəal və müstəqil olmalarına kömək edir. Eyni zamanda, inklüziv təhsilin cəmiyyət üçün əhəmiyyəti və gələcək inkişaf perspektivləri qeyd edilir, onun daha geniş tətbiqinin vacibliyi əsaslandırılır və bu sahədə davamlı inkişafın təmin olunmasının önəmi vurğulanır.

Keywords: inclusive education, preschool education, children with special needs, pedagogy, development.

Summary. This article examines the organization of inclusive education for preschool children, its importance, and implementation features. Inclusive education ensures that all children, including those with special needs, receive education equally and supports the realization of their right to education. The article explains in detail the creation of an inclusive environment, the role of the teacher, and the impact on children's social and emotional development. At the same time, the importance of adapting the educational environment, applying an individual approach, and considering each child’s specific needs for the effective implementation of inclusive education is emphasized.

In addition, the professional preparation of teachers, their ability to apply modern pedagogical approaches, and effective communication with children are highlighted as key factors. Cooperation with parents, their involvement in the educational process, and awareness-raising activities also play a significant role in successful inclusive education. The article shows that inclusive education helps

children better understand each other, accept differences, and develop values such as tolerance and empathy.

This approach facilitates children’s social adaptation, improves their communication skills, and supports their active and independent participation in future life. Furthermore, the importance of inclusive education for society and its future development perspectives are noted, and the necessity of its wider implementation is substantiated.

Anahtar kelimeler: kapsayıcı eğitim, okul öncesi eğitim, özel gereksinimli çocuklar, pedagojik yaklaşım, gelişim.

Özet. Bu makalede okul öncesi yaş grubundaki çocuklar için kapsayıcı eğitimin organizasyonu, önemi ve uygulanma özellikleri incelenmiştir. Kapsayıcı eğitim, özel gereksinimli çocuklar da dahil olmak üzere tüm çocukların eşit şartlarda eğitim almasını sağlar ve eğitim hakkının gerçekleştirilmesine hizmet eder. Makalede kapsayıcı bir eğitim ortamının oluşturulması, öğretmenin rolü ve çocukların sosyal-duygusal gelişimine etkisi ayrıntılı şekilde açıklanmıştır. Aynı zamanda kapsayıcı eğitimin etkili bir şekilde uygulanması için eğitim ortamının uyarlanması, bireysel yaklaşımın benimsenmesi ve her çocuğun ihtiyaçlarının dikkate alınmasının önemi vurgulanmaktadır.

Bunun yanı sıra öğretmenlerin mesleki hazırlığı, modern pedagojik yaklaşımları uygulayabilmeleri ve çocuklarla etkili iletişim kurmaları önemli faktörler olarak belirtilmiştir. Aile ile iş birliği, onların eğitim sürecine katılımı ve bilinçlendirilmesi de kapsayıcı eğitimin başarılı bir şekilde uygulanmasında önemli rol oynar. Makalede kapsayıcı eğitimin çocukların birbirini daha iyi anlamasına, farklılıkları kabul etmesine ve hoşgörü ile empati gibi değerlerin gelişmesine katkı sağladığı ifade edilir.

Bu yaklaşım çocukların sosyal uyumunu kolaylaştırır, iletişim becerilerini geliştirir ve gelecekte daha aktif ve bağımsız bireyler olmalarına destek olur. Ayrıca kapsayıcı eğitimin toplum için önemi ve gelecekteki gelişim perspektifleri belirtilmiş, daha geniş uygulanmasının gerekliliği ortaya konulmuştur.

Müasir dövrdə təhsil sistemində baş verən yeniliklər inklüziv təhsilin aktuallığını daha da artırmışdır. İnklüziv təhsil bütün uşaqların fərdi xüsusiyyətlərindən asılı olmayaraq eyni təhsil mühitini təmin edən mühüm yanaşmadır. Xüsusilə məktəbəqədər yaş dövrü uşağın şəxsiyyətinin formalaşdığı əsas mərhələ olduğundan, bu dövrdə inklüziv mühitin yaradılması xüsusi əhəmiyyət daşıyır.

Məktəbəqədər yaşlı uşaqlarda inklüziv təhsilin təşkili onların sosial bacarıqlarının inkişafına, ünsiyyət qabiliyyətlərinin formalaşmasına və cəmiyyətə uyğunlaşmasına müsbət təsir göstərir. Bu səbəbdən inklüziv təhsil yalnız pedaqoji deyil, həm də sosial əhəmiyyətə malikdir.

İnklüziya dedikdə digər uşaqlar üçün də əlçatan və onların da bəhrələnməyinə şərait yaratmaqla müxtəlif əqli və fiziki imkanlı uşaqların (həm xüsusi istedadlı, həm də əlilliyi olan) məktəb və tədrisin bütün aspektlərinə tam şəkildə cəlb edilməsi nəzərdə tutulur (Həsənova N, 2020)

Məktəbəqədər yaşlı uşaqlarda inklüziv təhsilin təşkili kompleks və çoxşaxəli prosesdir. Bu proses ilk növbədə uyğun təhsil mühitinin yaradılmasını tələb edir. İnklüziv mühit uşaqların fiziki, emosional və sosial ehtiyaclarını nəzərə alaraq təşkil olunmalıdır. Təhsil müəssisəsində bütün uşaqlar üçün əlçatan şəraitin yaradılması, uyğun avadanlıqların təmin edilməsi və təhlükəsiz mühitin qurulması əsas şərtlərdəndir.

İnklüziv təhsildə müəllimin rolu xüsusi əhəmiyyət daşıyır. Müəllim uşaqların fərdi xüsusiyyətlərini nəzərə almalı, onların qabiliyyətlərinə uyğun tədris metodları seçməlidir. Fərdi yanaşma inklüziv təhsilin əsas prinsiplərindən biridir. Müəllim həmçinin uşaqlar arasında müsbət münasibətlərin formalaşmasına kömək etməli, tolerantlıq və qarşılıqlı hörmət mühitini yaratmalıdır.

Bu yaş dövründə oyun fəaliyyəti əsas öyrənmə vasitəsi olduğu üçün inklüziv təhsildə oyun metodlarından geniş istifadə olunur. Oyun vasitəsilə uşaqlar bir-biri ilə ünsiyyət qurur, əməkdaşlıq etməyi öyrənir və sosial bacarıqlarını inkişaf etdirirlər. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün isə bu proses onların adaptasiyasını asanlaşdırır.

İnklüziv təhsil həm də uşaqların emosional inkişafına müsbət təsir göstərir. Belə mühitdə böyüyən uşaqlar empati qurmağı, fərqlilikləri qəbul etməyi və başqalarına hörmətlə yanaşmağı öyrənirlər. Bu isə gələcəkdə daha sağlam sosial münasibətlərin qurulmasına şərait yaradır.

Lakin inklüziv təhsilin təşkili zamanı müəyyən çətinliklər də mövcuddur. Bunlara müəllimlərin kifayət qədər hazırlıqlı olmaması, resurs çatışmazlığı və valideynlərin məlumatlılıq səviyyəsinin aşağı olması daxildir. Bu problemlərin aradan qaldırılması üçün müəllimlərin ixtisasartırma təlimlərinə cəlb olunması, maarifləndirmə işlərinin aparılması və dövlət dəstəyinin gücləndirilməsi vacibdir.Məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsilin səmərəli təşkili üçün ilk növbədə pedaqoji heyətin peşəkar hazırlığı mühüm rol oynayır. Müəllimlər inklüziv yanaşmanın prinsiplərini dərindən mənimsəməli, fərqli inkişaf xüsusiyyətlərinə malik uşaqlarla işləmək bacarıqlarına yiyələnməlidirlər. Bu məqsədlə mütəmadi təlimlər, seminarlar və praktiki məşğələlər təşkil olunmalıdır.

Bundan əlavə, inklüziv mühitin yaradılması yalnız müəllimlərlə məhdudlaşmır. Təhsil müəssisəsinin fiziki infrastrukturu da uyğunlaşdırılmalıdır. Məsələn, hərəkət məhdudiyyəti olan uşaqlar üçün panduslar, xüsusi avadanlıqlar və uyğun sinif şəraiti təmin edilməlidir. Eyni zamanda tədris materialları da uşaqların fərdi xüsusiyyətlərinə uyğun şəkildə hazırlanmalıdır. (Hüseynov R., 2021)

İnklüziv təhsildə fərdi təhsil planlarının hazırlanması da vacib amillərdən biridir. Hər bir uşağın inkişaf səviyyəsi, ehtiyacları və maraqları nəzərə alınaraq fərdi yanaşma tətbiq olunmalıdır. Bu yanaşma uşağın potensialının maksimum səviyyədə inkişafına şərait yaradır.

Digər mühüm məsələ valideynlərlə əməkdaşlıqdır. Valideynlər təhsil prosesinin aktiv iştirakçıları kimi çıxış etməli, müəllimlərlə daim əlaqədə olmalıdırlar. Bu əməkdaşlıq uşağın inkişafına daha müsbət təsir göstərir.

Eyni zamanda inklüziv təhsil uşaqlarda tolerantlıq, empatiya və sosial bacarıqların formalaşmasına da kömək edir. Sağlam və xüsusi qayğıya ehtiyacı olan uşaqların birgə təhsil alması onların bir-birini daha yaxşı anlamasına və qəbul etməsinə şərait yaradır. (Booth, T., Ainscow, M., 2002)

Nəticə olaraq qeyd etmək olar ki, məktəbəqədər yaşlı uşaqlarda inklüziv təhsilin təşkili onların hərtərəfli inkişafında mühüm rol oynayır. Bu yanaşma uşaqların sosial, emosional və intellektual bacarıqlarının formalaşmasına müsbət təsir göstərir.

İnklüziv təhsil yalnız xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün deyil, bütün cəmiyyət üçün faydalıdır. Bu sistem daha tolerant, ədalətli və humanist cəmiyyətin formalaşmasına zəmin yaradır. Buna görə də inklüziv təhsilin inkişafı və tətbiqi müasir təhsil sisteminin əsas prioritetlərindən biri olmalıdır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının Qanunu. (2001). Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq Ədəbiyyatı.

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2018). 2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. Bakı.

3. Əliyeva, N. (2019). Pedaqogikanın əsasları: Məktəbəqədər təhsilin aktual problemləri. Bakı: Elm və Təhsil.

4. Hüseynov, R. (2021). Müasir təhsil sistemləri və inklüziv yanaşmalar. Bakı: Müəllim nəşriyyatı.

5. Məmmədova, G., & Qasımova, S. (2020). İnklüziv təhsil mühitində uşaqların sosial adaptasiyası. Sumqayıt: SDU-nun elmi xəbərləri.

6. UNICEF. (2017). Məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsilin təşkili üzrə metodik vəsait. Bakı.

7. Vygotsky, L. S. (1978). Mind in Society: The Development of Higher Psychological Processes. Cambridge, MA: Harvard University Press. (Uşağın inkişaf nəzəriyyəsi üzrə fundamental mənbə).

8. Booth, T., & Ainscow, M. (2002). Index for Inclusion: Developing Learning and Participation in Schools. Bristol: Centre for Studies on Inclusive Education (CSIE).

9. UNESCO. (2009). Policy Guidelines on Inclusion in Education. Paris: United Nations Educational, Scientific and Cultural Organization.

10. Hüseybova. N, İnklüziv təhsil. (2020) Azərbaycan Dövlət Pedaqoji Universiteti

İNKLÜZİV TƏHSİLDƏ LAYİHƏ ƏSASLI ÖYRƏNMƏNİN TƏNQİDİ VƏ YARADICI DÜŞÜNCƏYƏ TƏSİRİ

Sevinc Bəxtiyar qızı Həsənova
Magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
sevinchesenova273@gmail.com
ORCİD ID**:** https://orcid.org/0009-0008-5040-0930

Açar sözlər: təhsil prosesi, layihə fəaliyyəti, tənqidi düşüncə, yaradıcı yanaşma, inklüziv mühit.

Xülasə. Bu tədqiqatda inklüziv təhsil mühitində layihə əsaslı öyrənmənin şagirdlərin tənqidi və yaradıcı düşünmə bacarıqlarına təsiri geniş şəkildə təhlil edilmişdir. Araşdırma göstərir ki, bu yanaşma şagirdlərin təlim prosesində passiv dinləyici mövqeyindən çıxaraq aktiv iştirakçıya çevrilməsinə şərait yaradır və onların müstəqil düşünmə qabiliyyətini əhəmiyyətli dərəcədə inkişaf etdirir. Layihə üzərində işləyən şagirdlər müxtəlif informasiya mənbələrindən istifadə edir, əldə etdikləri məlumatları sistemləşdirir, analiz və sintez edir, fərqli fikirləri müqayisə edir və əsaslandırılmış nəticələr çıxarmağı öyrənirlər ki, bu da tənqidi düşünmənin formalaşmasında mühüm rol oynayır. İnklüziv sinif mühitində fərqli qabiliyyət və xüsusiyyətlərə malik şagirdlərin birgə fəaliyyəti isə müxtəlif baxış bucaqlarının yaranmasına səbəb olur, diskussiya mühitini gücləndirir və daha obyektiv, dərin düşünmə prosesini təşviq edir. Bununla yanaşı, layihə əsaslı

öyrənmə şagirdlərin yaradıcı potensialını üzə çıxarır, onların qeyri-standart yanaşmalar tətbiq etməsinə, yeni ideyalar irəli sürməsinə və innovativ həll yolları tapmasına imkan verir. Qrup işi və əməkdaşlıq prosesi sosial və kommunikativ bacarıqların inkişafını təmin edir, şagirdlər arasında qarşılıqlı hörmət, empatiya və məsuliyyət hissini formalaşdırır. Eyni zamanda, bu yanaşma müəllimin rolunu dəyişdirərək onu bilik ötürücüsündən daha çox istiqamətləndirici və fasilitator mövqeyinə gətirir ki, bu da inklüziv təhsilin əsas prinsiplərinə uyğun gəlir. Nəticə olaraq, layihə əsaslı öyrənmə inklüziv təhsil mühitində həm akademik nailiyyətlərin yüksəldilməsi, həm də şagirdlərin tənqidi, yaradıcı və sosial bacarıqlarının kompleks şəkildə inkişaf etdirilməsi baxımından effektiv, müasir və perspektivli pedaqoji yanaşma kimi qiymətləndirilir.

Keywords: educational process, project activity, critical thinking, creative approach, inclusive environment.

Summary. This study extensively analyzed the impact of project-based learning on students' critical and creative thinking skills in an inclusive education environment. The study shows that this approach enables students to move from a passive listener to an active participant in the learning process and significantly develops their ability to think independently. Students working on projects use various sources of information, systematize, analyze and synthesize the information they have obtained, compare different opinions and learn to draw substantiated conclusions, which plays an important role in the formation of critical thinking. The joint activity of students with different abilities and characteristics in an inclusive classroom environment leads to the emergence of different points of view, strengthens the discussion environment and promotes a more objective, deep thinking process. At the same time, project-based learning reveals the creative potential of students, allows them to apply non-standard approaches, put forward new ideas and find innovative solutions. The process of group work and cooperation ensures the development of social and communicative skills, forms a sense of mutual respect, empathy and responsibility among students. At the same time, this approach changes the role of the teacher, bringing him from a transmitter of knowledge to a guide and facilitator, which is in line with the basic principles of inclusive education. As a result, project-based learning is considered an effective, modern and promising pedagogical approach in an inclusive educational environment in terms of both improving academic achievements and comprehensively developing students' critical, creative and social skills.

Anahtar kelimeler: eğitim süreci, proje etkinliği, eleştirel düşünme, yaratıcı yaklaşım, kapsayıcı ortam.

Özet. Bu çalışma, kapsayıcı bir eğitim ortamında proje tabanlı öğrenmenin öğrencilerin eleştirel ve yaratıcı düşünme becerileri üzerindeki etkisini kapsamlı bir şekilde analiz etmiştir. Çalışma, bu yaklaşımın öğrencilerin pasif bir dinleyiciden öğrenme sürecinde aktif bir katılımcıya dönüşmelerini sağladığını ve bağımsız düşünme yeteneklerini önemli ölçüde geliştirdiğini göstermektedir. Projeler üzerinde çalışan öğrenciler çeşitli bilgi kaynaklarını kullanır, elde ettikleri bilgileri sistemleştirir, analiz eder ve sentezler, farklı görüşleri karşılaştırır ve gerekçeli sonuçlar çıkarmayı öğrenirler; bu da eleştirel düşünmenin oluşumunda önemli bir rol oynar. Kapsayıcı bir sınıf ortamında farklı yetenek ve özelliklere sahip öğrencilerin ortak etkinliği, farklı bakış açılarının ortaya çıkmasına, tartışma ortamının güçlenmesine ve daha objektif, derinlemesine bir düşünme sürecinin teşvik edilmesine yol açar. Aynı zamanda, proje tabanlı öğrenme öğrencilerin yaratıcı potansiyelini ortaya çıkarır, standart dışı yaklaşımlar uygulamalarına, yeni fikirler ortaya koymalarına ve yenilikçi çözümler bulmalarına olanak tanır. Grup çalışması ve işbirliği süreci, sosyal ve iletişimsel becerilerin gelişimini sağlar, öğrenciler arasında karşılıklı saygı, empati ve

sorumluluk duygusu oluşturur. Aynı zamanda, bu yaklaşım öğretmenin rolünü değiştirerek onu bilgi aktarıcısından rehber ve kolaylaştırıcıya dönüştürür; bu da kapsayıcı eğitimin temel ilkeleriyle uyumludur. Sonuç olarak, proje tabanlı öğrenme, hem akademik başarıyı artırmak hem de öğrencilerin eleştirel, yaratıcı ve sosyal becerilerini kapsamlı bir şekilde geliştirmek açısından, kapsayıcı bir eğitim ortamında etkili, modern ve gelecek vadeden bir pedagojik yaklaşım olarak kabul edilir.

Müasir təhsil sistemində inklüzivlik prinsipi bütün şagirdlərin bərabər imkanlarla təhsilə cəlb olunmasını təmin edən əsas yanaşmalardan biri kimi çıxış edir. Bu prinsip yalnız fiziki məhdudiyyətləri olan şagirdləri əhatə etməklə kifayətlənmir, həm də müxtəlif öyrənmə tərzinə, fərqli sosial və psixoloji xüsusiyyətlərə malik uşaqları əhatə edir. İnklüziv təhsil mühitində məqsəd hər bir şagirdin fərdi xüsusiyyətlərinə uyğun tədris prosesini qurmaq və onların təhsil uğurunu maksimum dərəcədə artırmaqdır. Bu isə öz növbəsində müəllimlərdən daha çevik, adaptiv və metodoloji cəhətdən zəngin yanaşmalar tələb edir. Belə bir yanaşmada təhsil yalnız bilik ötürmək funksiyasını yerinə yetirmir, eyni zamanda şagirdlərin şəxsiyyətinin, sosial bacarıqlarının və düşünmə qabiliyyətlərinin inkişafına şərait yaradır.

Layihə əsaslı öyrənmə metodologiyası inklüziv təhsildə geniş tətbiq olunan və yüksək nəticələr verən pedaqoji texnologiyalardan biri kimi xüsusilə önəm daşıyır. Bu metod şagirdlərin yalnız nəzəri bilik əldə etməsini təmin etməklə kifayətlənmir, onların tənqidi və yaradıcı düşünmə bacarıqlarını da inkişaf etdirir. Layihə əsaslı öyrənmə şagirdləri təlim prosesinə daha aktiv şəkildə cəlb edir, onların maraq və motivasiyasını artırır, həmçinin fərdi bacarıqlarının üzə çıxmasına imkan yaradır (Tarigan W. P. L., Paidi P., & Wiyarsi A., 2024). Bu yanaşma çərçivəsində şagirdlər real həyatdan götürülmüş problemlər üzərində işləyir, məlumat toplamaq, araşdırma aparmaq, nəticələri təhlil etmək və təqdim etmək kimi prosesləri həyata keçirirlər. Beləliklə, onlar yalnız məlumatı qəbul edən subyekt olmur, eyni zamanda onu qiymətləndirən, təhlil edən və tətbiq edən fəal iştirakçıya çevrilirlər.

İnklüziv siniflərdə şagirdlərin müxtəlif fərdi xüsusiyyətləri olduğu üçün ənənəvi təlim metodları hər zaman effektiv nəticə vermir. Müxtəlif öyrənmə tempinə, qabiliyyətlərinə və psixoloji xüsusiyyətlərinə malik şagirdlərin hər birinə eyni metod və yanaşmanı tətbiq etmək onların inkişafını məhdudlaşdıra bilər. Layihə əsaslı öyrənmə isə hər bir şagirdin fərdi potensialını nəzərə alaraq təhsil prosesini fərdiləşdirir. Şagirdlər layihələr vasitəsilə öz maraqlarını ifadə edir, komandada və ya fərdi şəkildə işləməyi öyrənir, problem həll etmə bacarıqlarını inkişaf etdirir və yaradıcı yanaşma nümayiş etdirirlər. Bu proses zamanı onlar müxtəlif mənbələrdən istifadə etməyi, informasiyanı düzgün seçməyi, analiz etməyi və təqdim etməyi bacarırlar (Sun D. J., & Mohamad Ashari Z. B., 2024). Belə fəaliyyətlər şagirdlərin tənqidi düşünmə bacarıqlarının formalaşmasına birbaşa təsir göstərir və onların məntiqi, analitik və strateji düşünmə qabiliyyətlərini artırır.

Tənqidi düşünmə bacarığı şagirdlərin məlumatı analiz etməsi, müqayisə aparması, səbəb-nəticə əlaqələrini müəyyənləşdirməsi, qərar qəbul etməsi və fikirlərini əsaslandırması kimi kompleks qabiliyyətləri əhatə edir. Layihə əsaslı öyrənmə bu bacarıqların inkişafı üçün ideal mühit yaradır. Şagirdlər layihə üzərində işləyərkən müxtəlif ideya və yanaşmalarla qarşılaşır, onları qiymətləndirir, təhlil edir və öz mövqelərini əsaslandırmağa çalışırlar. İnklüziv mühit isə bu prosesi daha da zənginləşdirir, çünki fərqli sosial, mədəni və düşüncə təcrübəsinə malik şagirdlər bir araya gələrək müxtəlif baxış bucaqları təqdim edirlər. Bu müxtəliflik şagirdlərin yalnız məlumatı qəbul etməsi ilə kifayətlənməyib onu təhlil etməsini, müstəqil qərarlar verməsini və yaradıcılıqla inteqrasiya etməsini təmin edir. Nəticədə şagirdlər həm akademik, həm də şəxsi inkişaf baxımından

daha yüksək nəticələr əldə edir, eyni zamanda sosial bacarıqlarını və əməkdaşlıq qabiliyyətlərini gücləndirirlər.

Bununla yanaşı, layihə əsaslı öyrənmə yaradıcı düşünmənin inkişafına da mühüm və çoxşaxəli təsir göstərir. Yaradıcı düşünmə yalnız yeni ideyaların irəli sürülməsi ilə məhdudlaşmır, eyni zamanda qeyri-standart həll yollarının tapılması, müxtəlif perspektivlərin nəzərə alınması, fərqli yanaşmaların tətbiqi və mövcud biliklərin yeni vəziyyətlərdə adaptasiyası ilə xarakterizə olunur. Layihə fəaliyyəti zamanı şagirdlər sərbəst düşünmək, fərqli fikirlər irəli sürmək və onları praktik olaraq həyata keçirmək imkanına malik olurlar. Bu prosesdə şagirdlər təcrübə aparır, mövcud biliklərini yenidən qiymətləndirir, risk götürməyi öyrənir və öz ideyalarının real nəticələrini müşahidə edirlər. İnklüziv siniflərdə yaradıcı düşüncə prosesi daha dinamik və rəngarəng olur, çünki müxtəlif qabiliyyətlərə, fərqli öyrənmə tərzinə və sosial təcrübəyə malik şagirdlər bir araya gəlir (Santos M. L., & Al-Mansouri A., 2025). Bu müxtəliflik yeni və innovativ ideyaların yaranmasına səbəb olur, şagirdlərin yaradıcı potensialını maksimum dərəcədə üzə çıxarır və onların təşəbbüskarlıq bacarıqlarını gücləndirir.

Layihə əsaslı öyrənmənin inklüziv təhsildə digər mühüm üstünlüklərindən biri şagirdlərin sosial bacarıqlarının inkişafıdır. Şagirdlər qrup şəklində işlədikdə əməkdaşlıq etməyi, effektiv ünsiyyət qurmağı, fikir mübadiləsi aparmağı və bir-birinə dəstək olmağı öyrənirlər. Bu bacarıqlar inklüziv mühitdə xüsusilə böyük əhəmiyyət kəsb edir, çünki müxtəlif xüsusiyyətlərə malik şagirdlərin bir-birini qəbul etməsi, anlaşma və qarşılıqlı hörmətlə davranması sosial inteqrasiyanı gücləndirir. Eyni zamanda, layihə fəaliyyəti şagirdlərdə empatiya hissinin inkişafına da təsir göstərir, onların sosial adaptasiya qabiliyyətini artırır və fərdi fərqliliklərin təbii olaraq qəbul olunmasına şərait yaradır. Bu proses, həmçinin, konfliktlərin daha konstruktiv həll olunmasını təmin edir və şagirdlərin birgə məsuliyyət hissini gücləndirir.

Layihə əsaslı öyrənmə yanaşması müəllimin rolunu da köklü şəkildə dəyişdirir. Müəllim artıq bilik ötürən sadə bir şəxs olmur, daha çox istiqamətləndirici, mentor və dəstək verən rolunda çıxış edir. Müəllim şagirdlərin fəaliyyətini planlayır, onları motivasiya edir, fərdi xüsusiyyətlərinə uyğun olaraq layihə tapşırıqlarını tənzimləyir və təlim prosesini daha məqsədyönlü təşkil edir. Bu, inklüziv təhsilin əsas prinsiplərindən biri olan fərdiləşdirilmiş yanaşmanın reallaşmasını təmin edir. Müəllim həmçinin şagirdlərin nailiyyətlərini qiymətləndirir, onları uğurlarına görə təşviq edir və hər bir fərdi öyrənmə tərzini nəzərə alaraq davamlı dəstək göstərir (Marković H. G., & Mabel E., 2025). Bu yanaşma nəticəsində şagirdlər öz güclü tərəflərini kəşf edir, zəif yönlərini inkişaf etdirir və həm akademik, həm də şəxsi inkişaf baxımından daha balanslı formalaşır.

Nəticə etibarilə, layihə əsaslı öyrənmə inklüziv təhsil mühitində şagirdlərin tənqidi və yaradıcı düşünmə bacarıqlarının inkişafında və onların fərdi potensialının reallaşdırılmasında mühüm rol oynayır. Bu yanaşma şagirdlərin təhsil prosesində aktivliyini artırır, onların fərdi bacarıqlarını üzə çıxarır, daha motivasiyalı və məqsədyönlü öyrənmə mühiti yaradır. Eyni zamanda, layihə əsaslı öyrənmə sosial bacarıqların inkişafına, əməkdaşlıq və komanda ruhunun formalaşmasına, empatiya və qarşılıqlı hörmət hissinin güclənməsinə, həmçinin şagirdlərin özünəinamının və özünə qiymət verməsinin artmasına şərait yaradır. Buna görə də inklüziv təhsildə layihə əsaslı öyrənmənin tətbiqi yalnız tövsiyə edilməli deyil, həm də sistemli şəkildə tədris proqramlarına inteqrasiya olunmalı, müəllimlər üçün metodiki dəstək və resurslar təmin edilməlidir ki, hər bir şagird öz potensialını tam şəkildə reallaşdıra bilsin.

Ədəbiyyat:

1. Marković, H. G., & Mabel, E. (2025). Enhancing inclusive education through project-based learning: Strategies for assessing diverse learners. ResearchGate. https://www.researchgate.net/publication/395721667_Enhancing_Inclusive_Education_Through_Project-Based_Learning_Strategies_for_Assessing_Diverse_Learners

2. Santos, M. L., & Al-Mansouri, A. (2025). Enhancing inclusive education through project-based learning. ResearchGate. https://www.researchgate.net/publication/396984142_Enhancing_Inclusive_Education_through_Project-Based_Learning_Building_on_Findings_from_'Project-Based_Learning_as_an_Assessment_Tool_for_Students_with_Special_Needs_Its_Acceptability

3. Sun, D. J., & Mohamad Ashari, Z. B. (2024). Project based learning on promoting children's critical thinking skills: A systematic review. International Journal of Academic Research in Progressive Education and Development, 13(2), 45–62. https://ijarped.com/index.php/journal/article/view/2728

4. Tarigan, W. P. L., Paidi, P., & Wiyarsi, A. (2024). Integrating computational thinking and creativity in project-based learning: A systematic review. Raden Journal, 8(1), 112–130. https://ejournal.umm.ac.id/index.php/raden/article/view/39994

İNKLÜZİV TƏDRİSDƏ FƏRDİLƏŞDİRİLMİŞ VƏ DİFERENSİALLAŞDIRILMIŞ YANAŞMALAR

Cəmilə Fazil qızı Xəlilova
Magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
cemile.xelilova999@gmail.com
OCRİD ID: 0009-0002-5829-653X

Açar sözlər: inklüziv təhsil, fərdiləşdirmiş yanaşma, diferensiallaşdırılmış yanaşma, sosial bacarıqlar, motivasiya.

Xülasə. Bu tezisdə inklüziv təhsil mühitində fərdiləşdirmiş və diferensiallaşdırılmış yanaşmaların rolu və əhəmiyyəti araşdırılmışdır. İnklüziv təhsil müxtəlif qabiliyyət, maraq və ehtiyaclara malik şagirdlərin eyni təhsil mühitində uğurla təhsil almasını təmin edən müasir pedaqoji yanaşma kimi təqdim edilir. Məqalədə qeyd olunur ki, ənənəvi dərs metodları bütün şagirdləri eyni standartla qiymətləndirdiyi üçün inklüziv mühitin səmərəliliyini azalda bilər. Fərdiləşdirmiş yanaşma şagirdlərin şəxsi xüsusiyyətlərini, öyrənmə sürətini, bilik səviyyəsini və motivasiya faktorlarını nəzərə alaraq dərs planlarının hazırlanmasını təmin edir, vizual, kinestetik və auditoriya yönümlü öyrənmə strategiyalarını tətbiq etməklə öyrənməni interaktiv və maraqlı edir. Diferensiallaşdırılmış yanaşma isə dərs məqsədlərini və tapşırıqları şagirdlərin fərdi ehtiyaclarına uyğun səviyyələrdə təqdim edir, yüksək bacarıqlı şagirdlər üçün mürəkkəb problemlər, zəif öyrənənlər üçün isə sadələşdirilmiş tapşırıqlar təşkil edir. Məqalədə həmçinin vurğulanır ki, bu yanaşmalar müəllimlərin pedaqoji bacarıqlarını artırır, dərs planlarını çevik şəkildə qurmaq və müxtəlif öyrənmə strategiyalarını tətbiq etmək bacarıqlarını gücləndirir. Bundan əlavə, fərdiləşdirmə və diferensiallaşdırma şagirdlərin özünəinamını, motivasiyasını, sosial və emosional

bacarıqlarını inkişaf etdirir, əməkdaşlıq, hörmət və empatiya kimi sosial bacarıqların formalaşmasına şərait yaradır. Nəticə etibarilə, inklüziv təhsildə fərdiləşdirmiş və diferensiallaşdırılmış yanaşmalar təhsil prosesinin keyfiyyətini yüksəldir, bərabər imkanları təmin edir və şagirdlərin akademik, sosial və emosional inkişafına mühüm töhfə verir. Bu yanaşmalar həmçinin təhsil sistemində inklüzivlik mədəniyyətinin formalaşmasına və müəllim–şagird arasında səmərəli ünsiyyətin inkişafına dəstək olur, şagirdlərin yaradıcı düşüncə və problem həll etmə bacarıqlarını inkişaf etdirərək onların gələcək akademik və peşəkar həyatına hazırlığını gücləndirir.

Keywords: inclusive education, individualized approach, differentiated approach, social skills, motivation.

Summary. This thesis examines the role and importance of individualized and differentiated approaches in an inclusive education environment. Inclusive education is presented as a modern pedagogical approach that ensures that students with different abilities, interests, and needs can successfully receive education in the same educational environment. The article notes that traditional teaching methods can reduce the effectiveness of an inclusive environment by assessing all students with the same standard. An individualized approach ensures the preparation of lesson plans taking into account the personal characteristics, learning speed, knowledge level, and motivational factors of students, and makes learning interactive and interesting by applying visual, kinesthetic, and audience-oriented learning strategies. A differentiated approach presents lesson objectives and tasks at levels appropriate to the individual needs of students, organizing complex problems for highly skilled students, and simplified tasks for weak learners. The article also emphasizes that these approaches increase teachers' pedagogical skills, strengthen their ability to flexibly build lesson plans and apply various learning strategies. In addition, individualization and differentiation develop students' self-confidence, motivation, social and emotional skills, and create conditions for the formation of social skills such as cooperation, respect and empathy. As a result, individualized and differentiated approaches in inclusive education improve the quality of the educational process, provide equal opportunities and make a significant contribution to the academic, social and emotional development of students. These approaches also support the formation of a culture of inclusion in the education system and the development of effective teacher-student communication, and strengthen students' readiness for future academic and professional life by developing their creative thinking and problem-solving skills.

Anahtar kelimeler: kapsayıcı eğitim, bireyselleştirilmiş yaklaşım, farklılaştırılmış yaklaşım, sosyal beceriler, motivasyon.

Özet. Bu tez, kapsayıcı bir eğitim ortamında bireyselleştirilmiş ve farklılaştırılmış yaklaşımların rolünü ve önemini incelemektedir. Kapsayıcı eğitim, farklı yeteneklere, ilgi alanlarına ve ihtiyaçlara sahip öğrencilerin aynı eğitim ortamında başarılı bir şekilde eğitim alabilmelerini sağlayan modern bir pedagojik yaklaşım olarak sunulmaktadır. Makale, geleneksel öğretim yöntemlerinin tüm öğrencileri aynı standartta değerlendirerek kapsayıcı bir ortamın etkinliğini azaltabileceğini belirtmektedir. Bireyselleştirilmiş bir yaklaşım, öğrencilerin kişisel özelliklerini, öğrenme hızlarını, bilgi düzeylerini ve motivasyon faktörlerini dikkate alarak ders planlarının hazırlanmasını sağlar ve görsel, kinestetik ve hedef kitle odaklı öğrenme stratejileri uygulayarak öğrenmeyi etkileşimli ve ilgi çekici hale getirir. Farklılaştırılmış bir yaklaşım, ders hedeflerini ve görevlerini öğrencilerin bireysel ihtiyaçlarına uygun seviyelerde sunar; karmaşık problemleri yüksek becerili öğrenciler için, basitleştirilmiş görevleri ise zayıf öğrenciler için düzenler. Makale ayrıca, bu yaklaşımların öğretmenlerin pedagojik becerilerini artırdığını, ders planlarını esnek bir

şekilde oluşturma ve çeşitli öğrenme stratejileri uygulama yeteneklerini güçlendirdiğini vurgulamaktadır. Ayrıca, bireyselleştirme ve farklılaştırma, öğrencilerin özgüvenini, motivasyonunu, sosyal ve duygusal becerilerini geliştirir ve işbirliği, saygı ve empati gibi sosyal becerilerin oluşması için koşullar yaratır. Sonuç olarak, kapsayıcı eğitimde bireyselleştirilmiş ve farklılaştırılmış yaklaşımlar, eğitim sürecinin kalitesini artırır, eşit fırsatlar sağlar ve öğrencilerin akademik, sosyal ve duygusal gelişimine önemli katkı sağlar. Bu yaklaşımlar ayrıca eğitim sisteminde kapsayıcılık kültürünün oluşmasını ve etkili öğretmen-öğrenci iletişiminin geliştirilmesini destekler ve öğrencilerin yaratıcı düşünme ve problem çözme becerilerini geliştirerek gelecekteki akademik ve profesyonel hayata hazır olmalarını güçlendirir.

İnklüziv təhsil, müxtəlif qabiliyyət, bacarıq, maraq və ehtiyaclara malik şagirdlərin eyni təhsil mühitində uğurla təhsil almasını təmin edən müasir pedaqoji yanaşmadır. Bu təhsil modeli yalnız akademik nailiyyətlərin artırılmasına fokuslanmır, eyni zamanda şagirdlərin sosial, emosional və psixoloji inkişafını balanslı şəkildə dəstəkləyir. İnklüziv mühit şagirdlərə qarşılıqlı hörmət, empatiya və əməkdaşlıq bacarıqlarını inkişaf etdirmək imkanı yaradır ki, bu da onların həm akademik, həm də şəxsi həyatına müsbət təsir göstərir. Ənənəvi dərs metodları isə çox vaxt bütün şagirdləri eyni standartla qiymətləndirdiyi üçün fərqli öyrənmə qabiliyyətlərinə malik şagirdlərin ehtiyaclarını nəzərə almır və nəticədə inklüziv təhsil mühitinin səmərəliliyini azaldır. Buna görə də inklüziv təhsilin effektivliyini artırmaq məqsədilə fərdiləşdirmiş və diferensiallaşdırılmış pedaqoji yanaşmalar əsas strategiya kimi qəbul edilir. Bu yanaşmalar, şagirdlərin fərdi öyrənmə tərzlərini, qabiliyyətlərini, motivasiya səviyyəsini və maraqlarını nəzərə alaraq təhsil prosesini optimallaşdırmağa xidmət edir (Hall, 2002). Eyni zamanda, onlar müəllimlərə dərs planlarını daha çevik və şagirdlərin ehtiyaclarına uyğun şəkildə təşkil etmək imkanı verir, nəticədə hər bir şagird tədris prosesinə maksimum dərəcədə cəlb olunur.

Fərdiləşdirmiş yanaşma, şagirdlərin şəxsi xüsusiyyətlərini, öyrənmə sürətini, bilik səviyyəsini və motivasiya faktorlarını nəzərə alaraq dərs planlarının hazırlanmasını nəzərdə tutur (Tomlinson, 2014). Bu yanaşma müəllimlərə şagirdlərin əvvəlki bilik və bacarıqlarını analiz etməyə, öyrənmə tərzlərini müəyyən etməyə və onların maraqlarına uyğun fərdi öyrənmə marşrutları qurmağa imkan yaradır. Məsələn, vizual öyrənmə tərzinə malik şagirdlər üçün rəngli qrafiklər, şəkillər, diaqramlar və vizual təqdimatlar istifadə edilə bilər; kinestetik öyrənənlər üçün isə praktiki tapşırıqlar, laboratoriya işləri və əyani materiallar tətbiq oluna bilər. Bu yanaşma yalnız öyrənməni daha interaktiv və maraqlı etməklə kifayətlənmir, həm də şagirdlərin akademik bacarıqlarını inkişaf etdirir, özünəinam və motivasiyasını artırır. Fərdiləşdirmə, eyni zamanda, şagirdlərin öz təhsil prosesinə nəzarət etməsinə imkan verir, onların qərarvermə və tənqidi düşünmə bacarıqlarını gücləndirir, nəticədə təhsil prosesində daha aktiv iştirak etmələrinə şərait yaradır.

Diferensiallaşdırılmış yanaşma isə şagirdlərin fərdi ehtiyaclarına uyğun dərs məzmunu, öyrənmə fəaliyyəti və qiymətləndirmə metodlarının təşkilini nəzərdə tutur (Tomlinson & Strickland, 2005). Bu yanaşma çərçivəsində müəllim dərs məqsədlərini və tapşırıqları şagirdlərin qabiliyyətinə, bacarıqlarına və öyrənmə sürətinə uyğun fərqli səviyyələrdə təqdim edir. Yüksək bacarıqlı şagirdlər üçün mürəkkəb problemlər, layihələr və əlavə tapşırıqlar hazırlanır; zəif öyrənənlər üçün isə əsas anlayışları möhkəmləndirən, sadələşdirilmiş və mərhələli tapşırıqlar tətbiq edilir. Diferensiallaşdırılmış yanaşma şagirdlərin fərdi inkişafını dəstəkləməklə yanaşı, sinifdə həm akademik, həm də sosial ədaləti təmin edir, hər bir şagirdin eyni dərsdən maksimum fayda əldə etməsinə imkan yaradır. Beləliklə, bu yanaşma inklüziv təhsilin əsas prinsiplərindən biri olan bərabər təhsil imkanlarının reallaşmasına xidmət edir (Subban, 2006).

Fərdiləşdirmiş və diferensiallaşdırılmış yanaşmalar müəllimlərin peşəkarlığının inkişafında mühüm rol oynayır. Bu yanaşmalar müəllimlərə yalnız dərs materialını çatdırmaq deyil, həm də şagirdlərin fərdi öyrənmə tərzlərini və ehtiyaclarını diqqətlə analiz etməyi öyrədir (Tomlinson, 2017). Müəllimlər dərs planlarını elastik şəkildə dəyişməyi, müxtəlif öyrənmə strategiyalarını sinifdə tətbiq etməyi və fərdi tədris planlarını hazırlamağı bacarırlar. Belə yanaşmalar nəticəsində müəllimlərin pedaqoji bacarıqları artır, onların sinif idarəetmə və şagirdlərlə ünsiyyət qabiliyyəti güclənir. Eyni zamanda, bu strategiyalar müəllimlərə təhsil prosesini daha adaptiv və interaktiv şəkildə qurmağa imkan verir ki, bu da şagirdlərin dərsə aktiv iştirakını, öyrənməyə marağını və motivasiyasını artırır. Fərdiləşdirmiş və diferensiallaşdırılmış təlim yanaşmaları şagirdlərin özünəinamını inkişaf etdirir, onların öyrənmə prosesində müstəqil qərarlar vermə bacarıqlarını gücləndirir və təhsili daha mənalı edir.

İnklüziv təhsildə fərdiləşdirmiş və diferensiallaşdırılmış yanaşmalar yalnız akademik biliklərin artırılmasına xidmət etmir, eyni zamanda şagirdlərin sosial və emosional bacarıqlarının inkişafını da təmin edir (Loreman et al., 2010). Müxtəlif qabiliyyət və səviyyəyə malik şagirdlər birgə fəaliyyətlərdə iştirak edərək əməkdaşlıq, hörmət və empatiya bacarıqlarını öyrənirlər. Bu fəaliyyətlər onların sosial bacarıqlarının inkişafına, həmçinin konfliktlərin idarə olunması, fikir mübadiləsi və komanda işində uğurlu iştirak qabiliyyətlərinin formalaşmasına şərait yaradır. Beləliklə, inklüziv təhsil modeli şagirdlərin yalnız intellektual inkişafını deyil, həm də sosial və emosional intellektini balanslı şəkildə inkişaf etdirir. Bu bacarıqlar gələcək həyatda əməkdaşlıq, liderlik və cəmiyyətə adaptasiya kimi əsas sosial bacarıqların formalaşmasına mühüm təsir göstərir.

Nəticə etibarilə, inklüziv təhsildə fərdiləşdirmiş və diferensiallaşdırılmış yanaşmalar müasir pedaqogikanın əsas və vacib elementlərindən biridir. Bu strategiyalar şagirdlərin fərdi öyrənmə tərzlərini, qabiliyyətlərini, maraqlarını və ehtiyaclarını nəzərə alaraq təhsil prosesini optimallaşdırır, sinifdə motivasiya və aktiv iştirak səviyyəsini artırır. Həmçinin, müəllimlərin pedaqoji bacarıqlarının inkişafına, təhsil prosesində kreativ yanaşmaların tətbiqinə və sinif mühitində qarşılıqlı hörmət və əməkdaşlıq atmosferinin formalaşmasına imkan verir. Gələcəkdə bu yanaşmaların daha geniş şəkildə tətbiqi inklüziv təhsil sisteminin səmərəliliyini yüksəldəcək, hər bir şagirdin akademik, sosial və emosional inkişafını təmin edəcək, eyni zamanda təhsil mühitində bərabər imkanların yaradılmasına mühüm töhfə verəcəkdir.

Ədəbiyyat:

1. Hall, T. (2002). Differentiated instruction. Wakefield, MA: National Center on Accessing the General Curriculum.

2. Loreman, T., Deppeler, J., & Harvey, D. (2010). Inclusive Education: Supporting Diversity in the Classroom. Routledge.

3. Subban, P. (2006). Differentiated instruction: A research basis. International Education Journal, 7(7), 935–947.

4. Tomlinson, C. A. (2014). The Differentiated Classroom: Responding to the Needs of All Learners. ASCD.

5. Tomlinson, C. A. (2017). How to Differentiate Instruction in Academically Diverse Classrooms. ASCD.

6. Tomlinson, C. A., & Strickland, C. A. (2005). Differentiation in Practice: A Resource Guide for Differentiating Curriculum, Grades 5–9. ASCD.

MƏKTƏBƏQƏDƏR YAŞ DÖVRÜNDƏ İNKLÜZİV TƏHSİLİN TƏTBİQİ PROBLEMLERİ VƏ HƏLL YOLLARI

Leyla Ayaz qızı Qarayeva
Magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
leylaqarayeva041@gmail.com
ORCİD ID: https://orcid.org/0009-0005-5222-1037

Açar sözlər: inklüziv, məktəbəqədər təhsil, fərdi yanaşma, problem və həll yolları, təlim, əməkdaşlıq.

Xülasə. Burada, məktəbəqədər yaş dövründə inklüziv təhsilin tətbiqinin təkmilləşdirilməsi üçün pedaqoji yanaşmaların,uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması araşdırılır. Eyni zamanda təlim mühitinin təşkilində vəsaitlərin, texnologiyaların və müəllimlərin valdeyinlərlə əməkdaşlığı esas faktorlar kimi irəli sürülür. Müəllimin pedaqoji hazırlığın təkmilləşdirilməsinin vacibliyi vurğulanır. Məktəbəqədər yaş dövründə təhsili inklüziv təhsil, xüsusi qayğıya ehtiyacı olan uşaqlar da daxil olmaqla, bütün uşaqlar üçün bərabər təlim imkanlarının təmin edilməsində mühüm rol oynayır. Məktəbəqədər yaş dövründə inklüziv təhsilin tətbiqi və onun təkmilləşdirilməsi müasir təhsil sisteminin əsas istiqamətlərindən biri hesab olunur. Bu prosesdə pedaqoji yanaşmaların düzgün seçilməsi və uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması xüsusi əhəmiyyət daşıyır. İnklüziv təhsil bütün uşaqlar üçün, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər təlim imkanlarının yaradılmasını təmin edir və onların sosial inteqrasiyasına əhəmiyyətli təsir göstərir.Təlim mühitinin səmərəli təşkili üçün müasir texnologiyaların və müxtəlif tədris vəsaitlərinin istifadəsi vacibdir. Eyni zamanda müəllimlərin valideynlərlə əməkdaşlığı inklüziv təhsilin uğurlu həyata keçirilməsində mühüm rol oynayır. Lakin mövcud tədqiqatlar göstərir ki, məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsilin tətbiqi zamanı bir sıra problemlər ortaya çıxır. Bu problemlər əsasən müəllimlərin peşəkar hazırlığının kifayət qədər olmaması, fərdi yanaşma prinsiplərinin tam şəkildə tətbiq edilməməsi ilə bağlıdır.Bununla yanaşı, texniki və əşyavi vəsaitlərin çatışmazlığı, eləcə də valideynlərlə əməkdaşlıq sahəsində çətinliklər inklüziv təhsilin səmərəliliyinə mənfi təsir göstərir. Bu səbəbdən müəllimlərin pedaqoji hazırlığının artırılması, resurs təminatının gücləndirilməsi və məktəb–ailə əməkdaşlığının inkişaf etdirilməsi inklüziv təhsilin keyfiyyətinin yüksəldilməsi üçün əsas şərtlər hesab olunur.

Keywords: inclusive education, preschool education, individual approach, problems and solutions, training, cooperation.

Summary. Here, pedagogical approaches and consideration of children's individual characteristics are examined to improve the implementation of inclusive education in preschool age. At the same time, materials, technologies, and cooperation of teachers with parents are put forward as key factors in organizing the learning environment. The importance of improving the teacher's pedagogical training is emphasized. Inclusive education in preschool age plays an important role in ensuring equal learning opportunities for all children, including children in need of special care. The implementation and improvement of inclusive education in preschool age is considered one of the main directions of the modern education system. In this process, the correct selection of

pedagogical approaches and consideration of children's individual characteristics are of particular importance. Inclusive education ensures the creation of equal learning opportunities for all children, including children in need of special care, and has a significant impact on their social integration. The use of modern technologies and various teaching aids is important for the effective organization of the learning environment. At the same time, cooperation between teachers and parents plays an important role in the successful implementation of inclusive education. However, existing studies show that a number of problems arise during the implementation of inclusive education in preschool educational institutions. These problems are mainly related to the insufficient professional training of teachers and the incomplete application of the principles of an individual approach. In addition, the lack of technical and material resources, as well as difficulties in cooperation with parents, negatively affect the effectiveness of inclusive education. Therefore, increasing the pedagogical training of teachers, strengthening resource provision and developing school-family cooperation are considered the main conditions for improving the quality of inclusive education.

Anahtar kelimeler: kapsayıcı eğitim, okul öncesi eğitim, bireysel yaklaşım, sorunlar ve çözümler, eğitim, işbirliği.

Özet. Burada, okul öncesi dönemde kapsayıcı eğitimin uygulanmasını iyileştirmek için pedagojik yaklaşımlar ve çocukların bireysel özelliklerinin dikkate alınması incelenmektedir. Aynı zamanda, öğrenme ortamının düzenlenmesinde materyaller, teknolojiler ve öğretmenlerin velilerle işbirliği kilit faktörler olarak öne sürülmektedir. Öğretmenlerin pedagojik eğitiminin geliştirilmesinin önemi vurgulanmaktadır. Okul öncesi dönemde kapsayıcı eğitim, özel bakıma ihtiyaç duyan çocuklar da dahil olmak üzere tüm çocuklar için eşit öğrenme fırsatlarının sağlanmasında önemli bir rol oynamaktadır. Okul öncesi dönemde kapsayıcı eğitimin uygulanması ve geliştirilmesi, modern eğitim sisteminin ana yönlerinden biri olarak kabul edilmektedir. Bu süreçte, pedagojik yaklaşımların doğru seçimi ve çocukların bireysel özelliklerinin dikkate alınması özellikle önemlidir. Kapsayıcı eğitim, özel bakıma ihtiyaç duyan çocuklar da dahil olmak üzere tüm çocuklar için eşit öğrenme fırsatlarının yaratılmasını sağlar ve sosyal entegrasyonları üzerinde önemli bir etkiye sahiptir. Öğrenme ortamının etkili bir şekilde düzenlenmesi için modern teknolojilerin ve çeşitli öğretim araçlarının kullanımı önemlidir. Aynı zamanda, öğretmenler ve veliler arasındaki işbirliği, kapsayıcı eğitimin başarılı bir şekilde uygulanmasında önemli bir rol oynamaktadır. Ancak mevcut çalışmalar, okul öncesi eğitim kurumlarında kaynaştırma eğitiminin uygulanması sırasında bir dizi sorunun ortaya çıktığını göstermektedir. Bu sorunlar esas olarak öğretmenlerin yetersiz mesleki eğitimine ve bireysel yaklaşım ilkelerinin eksik uygulanmasına bağlıdır. Ayrıca, teknik ve maddi kaynak eksikliği ile velilerle işbirliğinde yaşanan zorluklar, kaynaştırma eğitiminin etkinliğini olumsuz etkilemektedir. Bu nedenle, öğretmenlerin pedagojik eğitiminin artırılması, kaynak sağlanmasının güçlendirilmesi ve okul-aile işbirliğinin geliştirilmesi, kaynaştırma eğitiminin kalitesinin iyileştirilmesi için temel koşullar olarak kabul edilmektedir**.**

Məktəbəqədər yaş dövründə inklüziv təhsil, xüsusi qayğıya ehtiyacı olan bütün uşaqlar üçün bərabər təlim imkanlarının təmin edilməsində həlledici rol oynayır. İnklüziv təhsilin erkən yaşdan tətbiqi uşağın optimal inkişafını dəstəkləyir və bərabər təhsil imkani yaradir. Eyni zamanda xüsüsi qayğıya ehtiyaci olan uşaqlarin cəmiyyətə inteqrasiyasina və sosial adaptasiyasina imkan yaradır. İnklüziv təhsil modeli qlobal təhsil sistemlərində xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə tam uyğunlaşmasini təmin etmək üçün geniş sürətdə həyata keçrilir. Bu, hər bir uşağın fərdi potensialını aşkar etməyə və inkişaf etdirməyə yönəlmiş çevik və şəfqətli bir təhsil sisteminin yaradılmasını tələb edir (UNESCO, 2009). Azərbaycan təhsil sistemi də bu sahədə inkişaf

etməkdədir. Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununda (m.5.2) və "Uşaq hüquqları haqqında" Qanununda hər bir uşağın keyfiyyətli və əlçatan təhsil almaq hüququ təsbit olunur. Bu hüquq, fərdi yanaşmanın təmin edilməsi, təlim şəraitinin uşaqların ehtiyaclarına uyğunlaşdırılması və onların cəmiyyətə inteqrasiyasını dəstəkləmək məqsədi daşıyır. (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2012). Bununla belə, bu sahədə tətbiqi hələ də əlavə tədqiqat tələb edən problemlər var. Müəllimlərin inklüziv təhsilə dair lazımı səviyyədə hazir olmamasi, maddi-texniki bazanın zəif olması və fərdi təhsil proqramlarındakı çatışmazlıqlar inklüziv təhsilin tətbiqində bir sira problemlərə gətirib çıxarır. Bu məsələnin həlli üçün sistemli yanaşma və hərtərəfli dəstəyin təşkil olunması vacibdir. Eyni zaman məktəbəqədər təhsil müəssisələrində inklüziv təhsil yanaşmalarının tətbiqinə mane olan bir sıra amilləri qeyd etmək vacibdir.

Tərbiyəçi müəllimlərin və mütəxəssislərin inklüziv təhsilə dair hazırlıq səviyyəsinin qənaət bəxş olmaması vacib problemlərdən biri hesab olunur. Belə ki, bir çox tərbiyəçi müəllimlərin xüsusi pedaqoji və psixoloji biliklərə sahib olmamaları, bəzi hallarda inklüzivliyə qarşı psixoloji davamlılıq gətirə bilməmələri və qərəzli münasibət təhsilin keyfiyyətinə mənfi təsir göstərir. Eyni zamanda, loqoped, defektoloq, psixoloq və digər dəstək mütəxəssislərinin çatışmazlığı və ya bu sahədə xidmətlərin hələ də lazimi səviyyədə təşkil olunmamasi təhsil mühitinin formalaşmasında ciddi çətinliklər yaradır. Bu kmi problemlərin həll olunmasında məktəbəqədər tərbiyə müəssisələrində fəaliyyət göstərən tərbiyəçi və müəllimlər Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu) və dövlət təhsil standartının tələblərini dərk etməli, təlim prosesində məktəbəqədər təhsil üçün nəzərdə tutulmuş təhsil proqramına əsaslanmalı, eyni zamanda fərdi təhsil planını və proqramını diqqətə alaraq istifadə edilən müasir texnologiyalardan, effektiv və innovativ təlim üsullarından istifadə etməlidirlərİnklüziv təhsil mürəkkəb bir proses kimi görünsə də, əslində əsas məqsəd bütün uşaqlar üçün bərabər və keyfiyyətli təlim mühiti yaratmaqdır. Bunun üçün müəllimin xüsusi diaqnostika və ya xüsusi sahə üzrə mütəxəsis olması tələb olunmur.Burada əsas məqsəd peşəkar, anlayışlı və inkişaf yönümlü müəllim olmaqdır. Belə müəllimlər fərqliliyi qəbul edir və ona hörmətlə yanaşırlar. Onlar müxtəlifliyi sadəcə dözməli bir hal kimi deyil, tədris prosesinin real bir hissəsi kimi görürlər. Effektiv tədris üçün müəllim uşaqların yalnız xarici xüsusiyyətlərini deyil, onların fərdi ehtiyaclarını, maraqlarını və davranışlarını da anlamalıdır. Bu prosesdə empatiya xüsusi əhəmiyyət daşıyır və müəllim şagirdin vəziyyətini onun baxış bucağından dərk etməyə çalışmalıdır. Bundan əlavə, inklüziv müəllim güclü müşahidə bacarığına sahib olmalıdır. Bu bacarıq ona şagirdlərin qabiliyyətlərini, davranışlarını və emosional vəziyyətini düzgün qiymətləndirməyə imkan verir. Müşahidə yalnız görünən davranışlarla məhdudlaşmır, həm də sinif mühitindəki psixoloji və sosial vəziyyətin anlaşılmasını əhatə edir. Eyni zamanda, belə tərbiyəçi müəllimlər əməkdaşlığa açıq olur, lazım gəldikdə valideynlərdən və həmkarlardan dəstək alır, yeni ideyalar axtarır və daim öyrənməyə meylli olurlar. Tərbiyəçi müəllimlərin digər vacib xüsusiyyəti isə peşəkar əməkdaşlıq yaratmaq bacarığıdı. Onlar tək işləmək əvəzinə, digər müəllim və mütəxəssislərlə əməkdaşlıq edərək təcrübə mübadiləsi aparır və birlikdə inkişaf edirlər. Birlikdə görülən işlər qarşılıqlı diskusiya və əməkdaşlıq təlim prosesinin keyfiyyətini artırır.

Təhsil vasitəsilə bərabərlik və müxtəlifliklə bağlı problemlərin həlli mümkündür və bu, davamlı və ədalətli gələcəyin formalaşması üçün zəruri olan bilik, bacarıq, davranış, sərişdə və dəyərlərin inkişafına töhfə verə bilər. Hamı üçün inklüziv və bərabər təhsil prinsipi bu dəyərlərin pedaqoji və təşkilati struktura inteqrasiyasını hədəfləyən inklüziv məktəb modelini yaratmağı planlaşdırır. (Rodrigo-Martín və b., 2020). Təhsil mühitində maddi-texniki vəziyyətin və şəraitin

əlilliyi olan uşaqlara uyğun olmaması da inklüziv təhsilin həyata keçirilməsində müəyyən problemlər yaradır. Bu problemlərin həlli, inklüziv təhsilin uğurlu həyata keçrilməsi üçün və əlilliyi olan uşaqların təhsil ehtiyaclarının nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Təlim mühitin təşkili , müasir texnologiyalardan istifadə, vəsaitlərin və əşyavi şəraitin uyğunlaşdırılması, uşaqların bərabər təhsil almasını təmin etmək məqsədini daşıyır. Texnologiya əlilliyi olan uşaqların təhsilində və xüsusilə inklüziv təhsilin inkişafında getdikcə daha vacib rol oynayır. Köməkçi və əsas texnologiyaların tətbiqi təhsil müəssələrində müxtəlif çətinliklərin təsirini azaltmağa və ya bərpa etməyə, həmçinin bütün şagirdlərin tədris prosesində yaradıcılıq və oyun fəaliyyətlərində bərabər iştirakını təmin etməyə xidmət edir.

Son illərdə müxtəlif ölkələrdə həyata keçirilən təhsil siyasəti islahatları bütün şagirdlərin ümumi təhsil mühitinə daxil edilməsinin və tədris prosesinin onların fərdi ehtiyaclarına uyğun şəkildə yenidən təşkil olunmasının vacibliyini vurğulamışdır (Morales, 2024; Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı, 2017). Uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınaraq hazirlanan proqramlarin tətbiqindəki problemlər inklüziv təhsilin qarşisinda duran əasas məsələrdən biridir. Belə ki, təhsil proqramlarının standartlaşdırılmış əhəmiyyət kəsb etməsi və fərdi ehtiyaclara tənzimlənməməsi, müəllimlərin fərdi inkişaf istiqamətlərini hazırlamaq bacarıqlarının çatışmazlığı, eyni zamanda bu sahədə praktik yönümlü metodiki vəsaitlərin azlığı inklüziv mühitin effektiv şəkildə həyata keçriliməsi prosesini çətinləşdirir. Problemin həllində sinif mühitini daha inklüziv etmək üçün bir sıra yanaşmalar tətbiq oluna bilər. Bu tədbirlər əsasən iki istiqamətə bölünür: fərdi yanaşma və sistem yanaşması.

Fərdi yanaşma hər bir şagirdin xüsusi ehtiyaclarını nəzərə alaraq ona fərdi dəstək göstərilməsini nəzərdə tutur. Bu, təlim yardımı, reabilitasiya, səhiyyə və ya sosial xidmətlərə yönləndirmək kimi addımları əhatə edə bilər.

Sistem yanaşması isə məktəb və ümumilikdə təhsil sistemində siyasətlərin, metodların və yanaşmaların yenilənməsinə əsaslanır. Bu yanaşma bütün uşaqların təlim prosesində iştirakını, inkişafını və uğurunu təmin edən maneəsiz və uşaq mərkəzli təhsil mühitinin yaradılmasını hədəfləyir. İnklüziv təhsil bütün təhsil sistemi daxilində fəal yanaşmanı nəzərdə tutur. Bu isə o deməkdir ki, hər bir uşağın yaşadığı ərazidə yerləşən adi məktəbəqədər müəssisədə, məktəbdə və ya kollecdə uyğun və keyfiyyətli təhsil ala bilməsi üçün tədris proqramlarında, tədris materiallarında, qiymətləndirmə üsullarında, müəllim hazırlığında və məktəb mühitinin təşkilində zəruri dəyişikliklər edilməlidir.

İnklüziv təlimdə esas problemlərdən biri də valedyinlərin təhsil müəssisəsi ilə əlaqəsinin zəif olmasıdır. Valdeyinlərin inklüziv təhsillə bağli az məlumatli olması, uşaqlarının bərabər şərtlərdə təhsil ala bilməməsi düşüncəsi və “tədric edilmə”qorxusu eyni zaman digərləri tərəfdən qınanamaq kimi səbəblər valdeyinlə təhsil müəssəsi arasında elaqələri zəiflədir. Məktəbəqədər təhsildə inklüziv mühitin uğurlu həyata keçrilməsi üçün ən önəmli məqamlardan biri xüsusi qayğiya ehtiyacı olan uşaqların valdeyinləri ilə qarşılıqlı şəkildə əməkdaşliq etməkdir. Tərbiyəçi müəllimlər daim bu uşaqların valdeyinləri ilə əlaqədə olmalı onlarla mütəmadi marifləndirici iclaslar keçirməli, uşağının təhlükəsiz mühitdə təhsil aldığına inam yaratmalıdır. Bundan əlavə sağlamlıq imkanları məhdud uşaqların valideynləri övladlarının sosial cəmiyyətə daxil edilməsində xüsusilə maraqlıdırlar. Çünki xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə uyğunlaşması və inteqrasiya edilməsi onların sosial mühitə uyğunlaşmasına xeyli kömək etmiş olur. Sağlamlığı məhdud olan uşaqların ailələləri ilə işləməyin əsas məqsədi ailədə ailə üzvləri ilə doğru ünsiyyət qurmasına, onların cəmiyyətə uğurlu inteqrasiyasını həyata keçirməyə şərait yaratmaqdır.

Yekunda qeyd etmək olar ki, məktəbəqədərtəhsildə inklüziv təhsil modelinin müvəffəqiyyətli tətbiqi problemlərin həll olunması üçün həm təhsil müəssisələri, həm də cəmiyyətin bütün iştirakçıları arasında sıx əməkdaşlıq və dəstək tələb olunur. Məktəbəqədər yaş dövründə inküliziv təhsilin uğurlu fəaliyyəti üçün müəllimin peşəkar hazırlığı, fərdi yanaşma və valideynlərlə səmərəli əməkdaşlıq etməsi vacibdir. . Eyni zamanda, müasir təlim vasitələri maddi-texniki baza və texnologiyalardan istifadə tədrisin keyfiyyətini yüksəldir və bütün uşaqlar üçün daha əlçatan və effektiv öyrənmə mühiti yaradır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2012). Təhsil haqqında Qanun. Bakı.

2. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2014). Fərdi təhsil ehtiyacları olan uşaqlarla iş üzrə metodiki tövsiyələr.

3.İnklüziv təhsildən inklüziv cəmiyyətə: bərabər imkanlar və dayanıqlı inkişaf (İTİC2025) III Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2025. - 576 səh. .

4. UNESCO. (2009). Policy Guidelines on Inclusion in Education. Paris.

5.United Nations Educational, Scientific and Cultural Organization. (2017). Guía para asegurar la inclusión y la equidad en la educación—UNESCO Biblioteca Digital. United Nations Educational, Scientific and Cultural Organization. Available online: https://unesdoc.unesco.org/ark:/48223/pf0000259592 (accessed on 2 December 2024.

7. Rodrigo-Martín, I., Rodrigo-Martín, L., & Mañas-Viniegra, L. (2020). Education, values, technology and music. Aiming for an inclusive model committed to equality and interpersonal relations. Revista Electronica Complutense de Investigacion en Educacion Musical, 17, 33–47. [Google Scholar] [CrossRef]

8. Welcoming diversity in the learning environment: teachers' handbook for inclusive education
https://unesdoc.unesco.org/ark:/48223/pf0000384009#:~:text=https%3A//doi.org/10.54675/UHWS5380

STRATEJİ PLANLAŞDIRMANIN İNKLÜZİV TƏHSİLİN HƏYATA KEÇİRİLMƏSİNDƏ ƏHƏMİYYƏTİ VƏ ROLU

Aytən Vüqar qızı Xəlilova
Magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
ay.xalilova.91@gmail.com
ORCİD ID: 0009-0008-3368-8645

Açar sözlər: strateji planlaşdırılma, inklüziv təhsil, beynəlxalq təcrübə, üçpilləli dəstək sistemi, Strateji İnkişaf Planı, monitorinq.

Xülasə. İnklüziv təhsil – ümumi təhsil sisteminin başlıca subyekti olan uşaqların (o cümlədən, sağlamlıq imkanları məhdud uşaqların), onların fiziki, psixi, intellektual və digər fərdi xüsusiyyətlərindən asılı olmayaraq, öz həmyaşıdları ilə birgə təhsil müəssisəsində (təhsilin istənilən pilləsində) keyfiyyətli təhsil almasının qanunvericilik səviyyəsində təsbit edilmiş təmin edilməsi

prosesidir. Bu postulat “hamı üçün təhsil” prinsipinə əsaslanır və Birləşmiş Millətlər Təşkilatının (BMT-nin) Dayanıqlı İnkişaf Məqsədlərində göstərilmiş Məqsəd 4-ə uyğundur.

Strateji planlaşdırma, təhsil müəssisəsinin uzunmüddətli inkişafını (3–5 il) təmin edən sistemli bir proses kimi, eyni zamanda inklüziv təhsilin uğurlu tətbiqində əsas alət kimi çıxış edir, çünki o, bu sahədə dövlət proqramlarını yerli səviyyədə uyğunlaşdırır və davamlı inkişafı təmin edir.

Bu baxımdan, Strateji planlaşdırma inklüziv təhsildə yalnız infrastruktur və kadr hazırlığını deyil, həm də inklüziv məktəb mədəniyyətini formalaşdırır, məlumatlara əsaslanan qərarlar qəbul edir və bütün maraqlı tərəfləri (müəllim kontingentini, valideynlər qrupunu, icmanı, bütövlükdə cəmiyyəti) cəlb edir. Bu, şagirdlərin akademik və sosial nailiyyətlərini artırır.

Mövcud beynəlxalq təcrübənin nəzərdən keçirilməsi onu sübut edir ki, strateji planlaşdırma olmadan inklüziv təhsilin həyata keçrilməsi təsadüfi olaraq qalır; bu istiqamətdə həyata keçirilən uğurlu modellər (məs., Finlandiyada həyata keçirilən “Üç pillə” modeli, Böyük Britaniyada tətbiq edilən “Index for Inclusion” («İnklüziya indeksi”) prinsipi, İtaliyada yer almış Tam inklüziv sistem və ABŞ-da qəbul edilmiş Rayon səviyyəsində inklüziv modellər) göstərilə bilərlər.

Keywords: strategic planning, inclusive education, international experience, three-tier support system, Strategic Development Plan, monitoring.

Summary. Inclusive education is a process of ensuring, at the legislative level, that children (including children with disabilities), who are the main subjects of the general education system, receive quality education in an educational institution (at any level of education) together with their peers, regardless of their physical, mental, intellectual and other individual characteristics. This postulate is based on the principle of “education for all” and corresponds to Goal 4 specified in the Sustainable Development Goals of the United Nations (UN).

Strategic planning, as a systematic process that ensures the long-term development of an educational institution (3–5 years), also acts as a key tool in the successful implementation of inclusive education, as it adapts state programs in this area at the local level and ensures sustainable development.

In this regard, Strategic planning forms not only infrastructure and personnel training in inclusive education, but also an inclusive school culture, makes informed decisions and involves all stakeholders (teacher contingent, parent group, community, society as a whole). This increases the academic and social achievements of students.

A review of existing international experience proves that the implementation of inclusive education without strategic planning remains haphazard; successful models implemented in this direction (e.g., the “Three Steps” model implemented in Finland, the “Index for Inclusion” principle applied in the UK, the Fully Inclusive system in Italy, and the District-level inclusive models adopted in the USA) can be cited.

Anahtar kelimeler: stratejik planlama, kapsayıcı eğitim, uluslararası deneyim, üç seviyeli destek sistemi, stratejik kalkınma planı, izleme.

Özet. Kapsayıcı eğitim, genel eğitim sisteminin ana öznesi olan çocukların (engelli çocuklar dahil), fiziksel, zihinsel, entelektüel ve diğer bireysel özelliklerinden bağımsız olarak, akranlarıyla birlikte bir eğitim kurumunda (herhangi bir eğitim seviyesinde) kaliteli eğitim almalarını yasal düzeyde güvence altına alan bir süreçtir. Bu önerme, “herkes için eğitim” ilkesine dayanmaktadır ve Birleşmiş Milletler (BM) Sürdürülebilir Kalkınma Amaçları'nda belirtilen 4. Amaç ile örtüşmektedir.

Stratejik planlama, bir eğitim kurumunun uzun vadeli gelişimini (3-5 yıl) sağlayan sistematik bir süreç olarak, devlet programlarını bu alanda yerel düzeyde uyarlayarak ve sürdürülebilir kalkınmayı sağlayarak, kapsayıcı eğitimin başarılı bir şekilde uygulanmasında da kilit bir araç görevi görür.

Bu bağlamda, stratejik planlama sadece kapsayıcı eğitimde altyapı ve personel eğitimini değil, aynı zamanda kapsayıcı bir okul kültürünü de oluşturur, bilinçli kararlar alır ve tüm paydaşları (öğretmen kadrosu, veli grubu, topluluk, toplumun tamamı) dahil eder. Bu da öğrencilerin akademik ve sosyal başarılarını artırır.

Mevcut uluslararası deneyimlerin incelenmesi, stratejik planlama olmadan kapsayıcı eğitimin uygulanmasının düzensiz kaldığını kanıtlamaktadır; bu yönde uygulanan başarılı modeller (örneğin, Finlandiya'da uygulanan "Üç Adım" modeli, İngiltere'de uygulanan "Kapsayıcılık Endeksi" ilkesi, İtalya'daki Tamamen Kapsayıcı sistem ve ABD'de benimsenen ilçe düzeyindeki kapsayıcı modeller) örnek olarak gösterilebilir.

İnklüziv təhsil – ümumi təhsil sisteminin başlıca subyekti olan uşaqların (o cümlədən, sağlamlıq imkanları məhdud uşaqların), onların fiziki, psixi, intellektual və digər fərdi xüsusiyyətlərindən asılı olmayaraq, öz həmyaşıdları ilə birgə təhsil müəssisəsində (təhsilin istənilən pilləsində) keyfiyyətli təhsil almasının qanunvericilik səviyyəsində təsbit edilmiş təmin edilməsi prosesidir (Azərbaycan Respublikası Prezidentinin sərəncamı, 2013, October 24).

Azərbaycan Respublikasında “2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” (Azərbaycan Respublikası Prezidentinin sərəncamı, 2017, December 14) strateji planlaşdırmanın inklüziv təhsilə inteqrasiyasının bariz nümunəsidir və onun icrası bu prosesin strateji planlaşdırma olmadan effektiv ola bilməyəcəyini təsdiqləyir.

Bu postulat “hamı üçün təhsil” prinsipinə əsaslanır və Birləşmiş Millətlər Təşkilatının (BMT-nin) Dayanıqlı İnkişaf Məqsədlərində göstərilmiş Məqsəd 4-ə uyğundur (United Nations Azerbaijan, 2018).

Strateji planlaşdırma – təhsil müəssisəsini n uzunmüddətli inkişafını (3–5 il) təmin edən sistemli prosesdir. O, PESTLE analizi (siyasi, iqtisadi, sosial, texnoloji, hüquqi, ekoloji amillər), prioritet sahələrin müəyyənləşdirilməsi, məqsəd və vəzifələrin qoyulması, mövcud olan resursların məqsədyönlü istifadəyə yönəldilməsi və bu istiqamətdə atılan monitorinqini əhatə edir.

Dayanıqlı inkişaf məqsədləri (Sustainable Development Goals) – Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən qəbul edilmiş 17 məqsəd. BMT-nin Baş Assambleyasının 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədləri, 1 yanvar 2016-cı il tarixində rəsmi şəkildə qüvvəyə minib.

Bu baxımdan, Strateji planlaşdırma inklüziv təhsildə yalnız infrastruktur və kadr hazırlığını deyil, həm də inklüziv məktəb mədəniyyətini formalaşdırır, məlumatlara əsaslanan qərarlar qəbul edir və bütün maraqlı tərəfləri (müəllim, valideyn, icma) cəlb edir. Bu, şagirdlərin akademik və sosial nailiyyətlərini artırır.Strateji planlaşdırma eyni zamanda inklüziv təhsilin uğurlu tətbiqində əsas alətdir, çünki o, dövlət proqramlarını yerli səviyyədə uyğunlaşdırır və davamlı inkişafı təmin edir.

Strateji planlaşdırmanın praktiki ifadə olan Strateji İnkişaf Planı (SİP) inklüziv təhsili aşağıdakı istiqamətlərdə dəstəkləyir:

1. Vizyon və siyasətin formalaşdırılması

- Müəssisənin SİP-də inklüzivlik "hamı üçün təhsil" prinsipi prioritet kimi qeyd olunur.
- PESTLE* analizi ilə xarici amillər nəzərə alınır.

2. Resursların planlaşdırılması və infrastrukturu

- Maneəsiz mühit, fərdi tədris planları və inklüziv siniflər üçün maliyyə ayrılması.
- Müəllimlərin inklüziv təhsil üzrə peşəkar inkişafı (təlimlər, mentorluq).

3. Monitorinq və qiymətləndirmə

- Strateji planın icrası illik qiymətləndirilir (məlumat bazası, şagird nailiyyətləri, inklüzivlik göstəriciləri).
- UNICEF-in texniki kitabçalarında vurğulanır ki, inklüziv planlaşdırma monitorinq olmadan effektiv ola bilməz.

Beynəlxalq təcrübə göstərir ki, strateji planlaşdırma olmadan inklüziv təhsilin həyata keçrilməsi təsadüfi olaraq qalır; bu istiqamətdə həyata keçirilən uğurlu modellər (məs., Finlandiyada, Böyük Britaniyada, İtaliyada) isə məktəb səviyyəsində sistemli yanaşma, Index for Inclusion kimi alətlər və bütün maraqlı tərəflərin iştirakı ilə fərqlənir.

Beynəlxalq təcrübədə inklüziv təhsilin başlıca şərtlərindən biri kimi qəbul edilən - Universal Design for Learning (UDL)**,** sosial model of disability və məktəb mədəniyyətinin dəyişdirilməsinə əsaslanır. UNESCO-nun 2005-ci il Guidelines for Inclusion və BMT-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası (United Nations, 2006) (maddə 24) əsas sənədlərdir. Strateji planlaşdırma burada əsas rol oynayır: məktəblər uzunmüddətli vizyon, kadr hazırlığı, resurslar və monitorinq vasitəsilə inklüzivliyi sistemli şəkildə tətbiq edir.Beynəlxalq təcrübə göstərir ki, strateji planlaşdırma olmadan inklüziv təhsilin həyata keçrilməsi təsadüfi olaraq qalır; bu istiqamətdə həyata keçirilən uğurlu modellər (məs., Finlandiyada, Böyük Britaniyada, İtaliyada) isə məktəb səviyyəsində sistemli yanaşma, Index for Inclusion kimi alətlər və bütün maraqlı tərəflərin iştirakı ilə fərqlənir.Mahiyyəti:

1-ci pillə - ümumi dəstək (bütün şagirdlər üçün);
2-ci pillə - gücləndirilmiş dəstək (kiçik qruplar) və
3-cü pillə - xüsusi dəstək (fərdi planlar).

Sistemin strateji ünsürləri kimi fərqləndirilirlər: müəllimlərə geniş səlahiyyətlərin verilməsi, "co-teaching" (birgə tədris) prinsipinin həyata keçirilməsi, fərdi öyrənmə planlarının hazırlanması. Xüsusi məktəblərin sayı minimuma endirilib, əksər uşaqlar ümumi siniflərdə təhsil alır.

Nəticə: Yüksək akademik nailiyyət + sosial inteqrasiya.

Üç əsas meyarı: ümumi mədəni mühitin yaradılması ("hamı xoş gəlir"), siyasət (bərabərlik prinsipləri), təcrübə (dərs planlaşdırması).

Proses: Hazırlıq → Araşdırma → İnkişaf → Qiymətləndirmə.

Strateji əhəmiyyət: Məktəblər Index vasitəsilə prioritetləri müəyyənləşdirir (məs., yeni şagirdlər üçün qarşılanma ritualı, müəllim təlimləri və s.).

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Prezidenti. (2013, October 24). "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam.

2. Azərbaycan Respublikası Prezidenti. (2017, December 14). "2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında fərman *(No. 3498).*

3. United Nations Azerbaijan. (2018). BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri. Bakı: BMT Azərbaycan.

4. United Nations. (2006). Convention on the Rights of Persons with Disabilities. https://www.un.org/disabilities/documents/convention/convoptprot-e.pdf

MƏNƏVİ QAYNAQLARDA “RUHUN AZADLIĞI” PROBLEMİNƏ KLİNİKİ PSİXOLOJİ KONTEKSTİNDƏN YANAŞMALAR

Ləman Əşrəf qızı Verdiyeva
Psixologiya üzrə fəlsəfə doktoru, dosent
Lənkəran Dövlət Universiteti
leman.verdiyeva@mail.ru
ORCİD ID: 0009-0009-9324-4197
Şahin Bəylər oğlu Mehrəliyev
Lənkəran Dövlət Universiteti
baş müəllim
mehraliyevshahin@gmail.com
ORCİD ID: 0000-0002-4963-6355

Açar sözlər: ruhun azadlığı, kliniki psixologiya, loqoterapiya, fərdiləşmə, mənəvi intellekt.

Xülasə. Bu məqalədə mənəvi qaynaqlarda geniş yer alan “ruhun azadlığı” konsepsiyası müasir kliniki psixologiya prizmasından təhlil edilir. Tədqiqatın aktuallığı müasir insanın daxili boşluq və məna itkisi fonunda yaşadığı psixi gərginliklərin həllində mənəvi resursların rolunun artması ilə izah olunur. Tədqiqatın məqsədi fəlsəfi və dini mətnlərdəki azadlıq anlayışı ilə psixi sağlamlıq arasındakı asılılığı müəyyən etməkdir. Məqalədə yoqa fəlsəfəsi, təsəvvüf, şamanizm, Viktor Frankl, Karl Qustav Yunqun və transpersonal psixologiyanın yanaşmaları əsas götürülərək, psixopatoloji vəziyyətlərin (xüsusilə OKP və asılılıqlar) ruhun azadlığının məhdudlaşması kimi simvolik mənası araşdırılır. Həmçinin meditasiya və şamanizm ritualları vasitəsilə şüurun təmizlənməsi prosesinin psixi sağlamlığa müsbət təsirləri qeyd olunmaqdadır. Belə bir iddia irəli sürmək olar ki, insanın daxili mənəvi resursları və “məna axtarışı” kliniki reabilitasiya prosesində həlledici terapevtik amil kimi özünü göstərə bilər. Göstərilir ki, obsessiv-kompulsiv pozuntular, asılılıqlar və nevrozlar çox vaxt ruhun ontoloji azadlığının itirilməsinin simptomatik təzahürüdür.

Bununla yanaşı mənəvi təcrübələrin müasir psixoterapiyada tətbiqi və onların fərdin öz daxili azadlığını bərpa etməsindəki rolu qiymətləndirilir. Tədqiqat nəticəsində vurğulanır ki, mənəvi azadlıq subyektin öz daxili dünyasında seçim etmək qabiliyyətidir və bu, terapevtik prosesin əsas məqsədini təşkil edir.

Keywords: freedom of the Soul, clinical psychology, logotherapy, individualization, spiritual intelligence.

Summary. This article analyzes the concept of “freedom of the soul”, which is widely covered in spiritual resources, through the prism of modern clinical psychology. The relevance of the study is explained by the increased role of spiritual resources in resolving mental stresses that a modern person experiences against the background of internal emptiness and loss of meaning. The purpose of the study is to identify the dependence between the concept of freedom and mental health in philosophical and religious texts. The article examines the symbolic meaning of psychopathological states (especially OKP and addictions) as a restriction of the freedom of the soul, taking as a basis the approaches of yoga philosophy, Sufism, shamanism, Victor Frankl, Carl Gustav Jung and transpersonal psychology. Also, the positive effects of the process of cleansing consciousness through meditation and shamanism rituals on mental health are noted. It can be argued that the

internal spiritual resources of a person and the “search for meaning” can manifest themselves as a decisive therapeutic factor in the process of clinical rehabilitation. It is shown that obsessive-compulsive disorders, addictions and neuroses are often symptomatic manifestations of the loss of ontological freedom of the soul. Along with this, the application of spiritual practices in modern psychotherapy and their role in restoring the individual's own inner freedom are assessed. As a result of the study, it is emphasized that spiritual freedom is the ability of the subject to make a choice in his inner world, which constitutes the main goal of the therapeutic process.

Anahtar kelimeler: ruhun özgürlüğü, klinik psikoloji, logoterapi, bireyselleşme, manevi zekâ.

Özet. Bu makalede, manevi kaynaklarda geniş yer alan “ruhun özgürlüğü” kavramı modern klinik psikoloji perspektifinden ele alınmaktadır. Araştırmanın önemi, günümüz insanının içsel boşluk ve anlam kaybı zemininde yaşadığı psikolojik gerilimlerin çözümünde manevi kaynakların rolünün artmasıyla açıklanmaktadır. Çalışmanın amacı, felsefi ve dini metinlerdeki özgürlük anlayışı ile ruh sağlığı arasındaki ilişkiyi ortaya koymaktır.

Makale kapsamında yoga felsefesi, tasavvuf, şamanizm, Viktor Frankl, Carl Gustav Jung ve transpersonal psikoloji yaklaşımları temel alınarak, psikopatolojik durumların (özellikle OKB ve bağımlılıklar) ruhun özgürlüğünün kısıtlanmasının sembolik bir ifadesi olarak değerlendirilmesi yapılmaktadır. Ayrıca meditasyon ve şamanik ritüeller aracılığıyla bilincin arınma sürecinin ruh sağlığı üzerindeki olumlu etkileri vurgulanmaktadır.

Bu bağlamda, insanın içsel manevi kaynakları ve “anlam arayışı”nın klinik rehabilitasyon sürecinde belirleyici bir terapötik unsur olabileceği ileri sürülmektedir. Obsesif-kompulsif bozukluklar, bağımlılıklar ve nevrozların çoğu zaman ruhun ontolojik özgürlüğünün kaybının semptomatik yansımaları olduğu ifade edilmektedir. Bununla birlikte, manevi deneyimlerin modern psikoterapide kullanımı ve bireyin içsel özgürlüğünü yeniden kazanmasındaki rolü de değerlendirilmektedir.

Araştırma sonucunda, manevi özgürlüğün bireyin kendi iç dünyasında seçim yapabilme kapasitesi olduğu ve bunun terapötik sürecin temel amacını oluşturduğu vurgulanmaktadır.

Dünya elminin inkişaf tarixində “ruhun azadlığı” problemi həmişə iki müstəvidə – metafizik və təcrübi baxımdan nəzərdən keçirilmişdir. Mənəvi qaynaqlarda, xüsusilə şərq və qərb mistisizmində ruhun azadlığı dedikdə onun “zindanı” kimi xarakterizə olunan nəfsi istəklərindən və maddi asılılıqlarından qurtulması kimi başa düşülür. Lakin müasir kliniki psixologiya bu anlayış abstrakt fəlsəfədən çıxararaq fərdin psixi rifahının təməl sütununa çevirməsinə yönəlmişdir. İstər mənəvi qaynaqlara istərsə də müasir kliniki tədqiqatlara nəzər yetirsək hər ikisində azadlıq hissinin itməsi birbaşa depressiya, təşviş və müxtəlif xarakterli asılılıqlarla nəticələnməsinin şahidi olacağıq. İnsanın hər zaman mənəvi və ruhi rahatlığa ehtiyacı var. İnsanın ruhu rahat olmayınca sakitliyini əldə etməyincə maddi heç bir şey onun hüzurunu ona qaytara bilmir. Əsas məqsədimiz bu mənəvi ehtiyacın kliniki praktikada necə təzahür etdiyini və terapevtik müdaxilələrdə necə istifadə oluna biləcəyini göstərməkdir. Əgər biz bir çox mənəvi qaynaqlara baş vursaq və onları təhlil edərkən bir neçə məsələ ilə qarşı qarşıya gələcəyik.

Yoqa fəlsəfəsində meditasiya vasitəsilə ağlın sakitləşdirilməsi

Yoqa qədim hind mənəvi təlimi kimi insanın psixosomatik sağlamlığının qorunmasına yönəlmiş bir inanc sistemidir. Yoqa sözünün kökündə “yudj” ifadəsi durur və sanskritcə “kiçik mənin ali mənə qovuşdurulması” mənasını verir. Burada “kiçik mən” dedikdə insanın ruhu nəzərdə tutulur. Yoqada ruh “civatman” adlanır. Civatmanın və ya ruhun maddi dünyadakı həyatı onun burada xoşbəxt və ya bədbəxt olmasına yönəlməyib. Yoqa fəlsəfəsinə görə ruh dünyada inkişafı və

təkümülü üçün fəaliyyət göstərir. Civatman insanda ağıl (şüur) vasitəsilə təzahür edir. Ağıl (şüur) isə öz növbəsində maddi aləmdə bütün yaradılışın hərəkətə gəlməsinin səbəbi olan “puruşa”nın bir əksidir. İnsanın ağlı yoqa fəlsəfəsinə görə onun fərdiliyinin əsas mahiyyətini təşkil edir. Yoqa fəlsəfəsinə görə bütün yuxarıdakı qeydləri anlamaq üçün ilk növbədə insan özünü dərk etməldir. Özünüdərk etmək rahat bir iş deyil. Bunun üçün qətiyyətli olmaq və yoqada tövsiyyə olunanları təcrübədən keçirmək lazımdır. Bununla da maddi aləmin təsirindən ağılda yaranan təlatümləri sakitləşdirmək lazımdır. Bu təlatümlər ruhla bədən arasında ahəngdarlığı pozaraq ilahi işığın ağılda əks olunmasının qarşısını alır və bu da öz növbəsində bir çox psixi və fiziki xəsətliklərə yol açır. Tədqiqatlarımız bizi belə bir məqama çatdıranda aydın oldu ki, bu düşüncə sonralar Buddizm fəlsəfəsinin əsas ideya qaynağına çevrilmişdir. Əvvəllər bütün bu deyilənlər sadəcə bir nəzəriyyə xarakteri daşıyırdı. Sonralar isə bu təcrübi yola Yoqa adını verdilər. Özünüdərkin təcrübi yolu ilə bağlı böyük hind filosofları və tanınmış yoqlardan Patancalinin “Yoqa sutrasının, Şankaranın “Advayta” təliminin, Kapilanın isə “Sankhya” təliminin adlarını çəkə bilərik. Yoqanın nəzəri və praktik olaraq geniş şəkildə əsasını isə e.ə.II əsrdə yaşamış qədim hind filosofu, linqvisti və yazıçısı Patancali qoymuşdur. Patanjali “Yoqa-sutra” traktatını qədim hind ateistik fəlsəfi məktəbi kimi tanınan “Sankhyanın” əsasında yazmışdır. Patanjalinin “Yoqa sutrasının” “Sankhya” fəlsəfəsindən əsas fərqi yaradıcı qüvvənin “İşvara” anlayışının öz düşüncələri sisteminə daxil edilməsidir. Patancalinin Yoqa sutrası 196 bənddən ibarət olan bir traktatdır. Bununla yanaşı dörd əsas bölməyə bölünür: Samadhi Pada- düşüncənin mərkəzləşməsi və şüurun halları. Sadhana Pada – yoqada tətdbiq olunan praktik məşqlər. Buraya 8 pillədən ibarət yol da daxildir. Vibhuti Pada- yoqa zamanı əldə olunan “sidhilər”və ya qeyri adi qabiliyyətlər.

Kaivalya Pada – Maddi dünyanın əzab və əziyyətlərindən qurtuluş və ya mütləq azadlıq əldə etmək.

Yoqa-sutranın Sankhyadan əsas fərqlərindən biri də Sankhyada qeyd olunan nəzəriyyənin təcrübəyə çevrilməsini təmin etməkdir. Patancali yoqada qeyd olunur ki, insanların əzab və iztirab çəkmələrinin əsas səbəbi əsil “mən”və mən olmayan arasında fərqi dərk etməməkdir. Amma bunu adi insan ağlı ilə anlamaq mümkün deyil. Adi insanda ağlın zəif və çarəsiz durumda olmasının səbəbi də onun enerjisini tükədən və əsas hədəfindən yayındıran dəyişən maddi şeylərə ehtirasla bağlanmasıdır. Yoqa fəlsəfəsinə görə yaşadığımız dünyanı hərəkətə gətirən üç əsas qüvvə mövcuddur. Bu qüvvələr öz növbəsində quna adlanır (satva (yaxşılıq və sevinc), racas (ehtiras və qəzəb) və tamas (ətalət və inertlik)). Kosmik qüvvələrin (qunalar) vəzifəsi burada yaşayan varlıqların xoşbəxt və ya bədbəxt olmasına istiqamətlənməyib. Onların əsas vəzifələri kainatdakı tarazlıq qanunu qorumaqdır. Bunu biz bu cür interpretasiya etdik. Əgər insan maddiyyatdan ləzzət almağa can atırsa bu həmin tarazlığın pozulmasına gətirib çıxarır. Kosmik qüvvələr isə bu pozulmuş tarazlığı yenidən bərpa etmək üçün hərəkətə keçirlər və bizdə nəticədə əzab, əziyyət, ağrılar yaranır. Xoşbəxtliyə can atmaq insan ruhunun fərdiliyə nail olmaq istəyinə köklənib. Çünki insan ruhunun təbiətində əbədi xoşbəxtlik halı mövcuddur. Amma bu xoşbəxtliyi maddi aləmdə əldə etmək mümkün deyil. Çünki bu nəticə etibarilə özünü ümumkosmik birlikdən və axınından ayırmağa bir cəhd kimi qiymətləndirilir. Beləliklə yoqa fəlsəfəsinə görə kosmik tarazlığın pozulması bədbəxtliklərin üzə çıxmasına vəsilə olur. Ağlın bağlanmaq xarakteri olduğundan dəyişkənlik onda daima narahatlıq yaradır. Maddiyatın isə əbədi dəyişmək, yenilənmək, çevrilmək xüsusiyyəti var. Ağıl öz növbəsində maddiyata bağlananda onun dəyişməsini istəmir və bu dəyişikliyi də qəbul edə bilmir. Bu səbəbdən insanın bağlanaraq ləzzət almaq istədiyi maddi şeylər bir gün təbii xassələrinə görə əlindən çıxanda (köhnələndə, öləndə, sınanda, itəndə) iztirab çəkir. Yoqada insanın belə bir

ruhi vəziyyətini klinik psixologiyadakı yanaşmalarla müqayisə etdik. Bu problemi araşdırarkən müəyyən olunmuşdur ki, insanın ağlının, ətrafında baş verən dəyişkənliyi qəbul edə bilməməsi depressiyaya gətirib çıxarır. Bəzən həddən ziyadə maddi şeylərə bağlılıq ağlın dumanlanması, delirioz və oneyroid vəziyyətə düşməsinə də gətirib çıxara bilər. Ona görə də yoqa fəlsəfi psixoloji baxımdan ağlın təcrübi yol ilə meditasiya vasitəsilə sakitləşdirilməsinə nail olmağı təklif edir. Amma meditasiya hər kəsin bildiyi hər kəsin öyrənməsinin rahat hesab etdiyi bir yol deyil. Meditasiya yoqada ağlın işqlanması, təmizlənməsi və azadlığı hesab olunan samadhi mərhələsinə qədər 6 və 7-ci mərhələdir. Yoqada bütün keçiləcək mərhələlərə ilk olaraq Yama daxildir Yama Xarici nizam-intizamı əldə etmək deməkdir. Bura zorakılıqdan qaçmaq, dürüstlük və oğurluq etməmək daxildir. Növbəti mərhələ Niyamadır. Bura isə daxili nizam- intizama sahib ola bilmək daxildir. Eyni zamanda bədənin daxili və xarici təmizliyi, şükür etmək, müqəddəs mətlərin mütaliə edilməsi də daxildir. Sonrakı mərəhələ isə Asana adlanır. Asanalar bədənin meditasiya üçün sabit və rahat bir hala gətirmək istiqamətində icra olunan hərəkətlər sistemidir. Digər bir mərhələ isə Pranayama adlanır. Pranayama tənəffüs prosesində nəfəs alıb verməyə nəzarət etməklə həyat enerjisinin dövranının tənzimlənməsinə nail ola bilməkdir.Sayca 5-ci mərhələ hesab olunan Pratyahara isə diqqəti xarici aləmdən daxili aləmə yönəldərək mərkəzləşdirilməsini təmin etməkdir. Bundan sonrakı mərhələ Dharana adlanır. Burada diqqəti tək bir mərəkəzə mərkəzləşdirmənin əldə edilməsinə nail olmaq olur. 7-ci mərhələyə Dhyana deyirlər Dhayana həm də Meditasiya anlamını verir. Burada isə diqqətin davamlı şəkildə istənilən anda mərkəzləşməsini həyata keçirə bilmək özünü göstərir. Ən son mərhələ Samadhi adlanır. Samadhi insanın Ali şüur səviyyəsidir. Mütləq azadlığın, kamilliyin və müdriklyin əldə edilməsi samadhinin nəticəsidir.

Ağlın diqqət vasitəsilə hər hansı bir obyektə cəmləşdirilməsi məşqi “dharana” adlanır. “Dhyana”da isə artıq ağıl istənilən anda istənilən bir obyektə mərəkəzləşib sakitləşə bilir. Bundan sonra “samadhi” mərhələsində ağıl bütün psixi problemlərindən azad olur. Kliniki baxışdan bu mərhələyə əgər biz yanaşsaq görərik ki, yoqada bu insanın tam şəkildə psixi sağlamlığını əldə etməsidir. Yoqada sağlamlıq deyəndə nə başa düşülür? Burada sağlamlıq deyəndə ruhun maddi bağlılıqlardan azad olması anlamına gəlir. Samadhi mərəhələsinə qədər yüksələn yoq kosmik qüvvələrin təsirindən qurtulur. Çünki ağıl dəyişməyən əbədi ilahi işığı özündə əks edərir və əsil ruhi xoşbəxtliyin həzzini yaşayır. Əlbətdəki ağıl bu sakitlik və xoşbəxtlik halını bir də itirmək istəməz. Bir də geriyə dönərək onun ruhi və fiziki sağlamlığını pozan və homeostazis tarazlığının dəyişməsinə gətirib çıxaran vəziyyətlərlə üzləşmək istəməz. Həyatda yaşadığı dövr ərzində insanda dəyişən və dağılan maddi obyektlərdən aldığı həzz və ləzzətləri tədricən vərdişlərinə və bağlılıqlarına çevrilir. Müəyyən zaman daxilində həzzlərə olan bağlılığı isə psixi pozuntuların yaranmasına yönəlir. Yoqada göstərilir ki, təkrar həzz və ləzzət almağa bağlanan şəxsiyyət öz növbəsində deqradasiyaya uğrayır. Maddi şeylər dəyişirsə məntiqi baxımdan bir gün əldən çıxmaları da təbiidir. Yoqaya görə təbii olaraq köhnəlmək, dağılmaq, məhv olmaq və itmək kimi xassələrə sahib olan maddi şeylərə əvvəl bağlanırıq. İntrospektiv yanaşmalarımızda biz əminik ki, əlimizdə olanlar bir gün bizi tərk edəcəklər. Amma bəzən ağıl gücümüzün zəifliyi bu həqiqətləri qəbul etməyimizə manea yaradır. Sonralar isə onlar əlimizdən çıxanda buna görə ruhən əzab çəkirik. Maddi olan şeyləri zorla əldə saxlamaq və dəyişməsin deyə buna cəhd göstərmək ağlı bir qədər də narahat edir. Dəyişən və bir gün yox olacaq şeylərə bağlanmaq və onların dəyişməyini istəməmək nəticədə insanı müxtəlif psixi pozuntularla, fobiyalar, təşviş, depresiya, maniyalarla ilə üz-üzə qoyur.

Bütün qeyd olunan psixi patoloji vəziyyətlərdən qurtuluşun yolunu yoqlar meditasiyada görürdülər. Ramamurti Mişra qeyd edir ki, ruhun azadlığı (Kaivalya) şüurun öz təbii, dəyişməz vəziyyətinə qayıtmasıdır. Mişraya görə, insan şüuru davamlı olaraq xarici və daxili stimulların təsiri ilə modifikasiyalara uğrayır. Bu modifikasiyalar kliniki mənada insanın həqiqəti təhrif olunmuş şəkildə görməsinə və emosional dalğalanmalara səbəb olur. Mişra vurğulayır ki: “Ruhun azadlığı– şüurun öz dalğalanmalarından (modifikasiyalarından) asılılığını dayandırmasıdır. İnsan öz düşüncələrini müşahidə etməyi öyrəndikdə, o, artıq həmin düşüncələrin qurbanı deyil, onların sahibinə çevrilir” (Mishra, 1987).

Bu yanaşma, müasir kofnitiv-davranış terapiyasındakı “metakoqnitiv fərkindəlik” anlayışı ilə eynilik təşkil edir. Belə ki, pasiyent öz neqativ düşüncə qəliblərini tanıdıqda və onlarla eyniləşmədikdə, kliniki mənada ruhun (və ya öz mənliyinin) azadlığını təmin etmiş olur. Yoqa fəlsəfəsində meditasiyanın tətbiqinin əsas məqsədi ağlın maniyalardan və depresiyalardan azad edilməsinə dəstək olmasına yönəlməsidir. Meditasiya yoqanın bütün növlərində (Kriya-yoqa, Xatha yoqa, Bhakti yoqa, Karma yoqa, Raca yoqa, Cnanni yoqa və s.) tədbiq olunur. Müasir psixofizioloji tədqiqatlar göstərmişdir ki, meditasiya bir çox psixopatoloji problemlərin aradan qaldırılması istiqamətində psixoterapevtik üsul kimi geniş şəkildə istifadə olunur.

Şamanizmdə “ruhun azadlığı” məsələsinə yanaşmalar

Yuxarıda qeyd etdiklərimizlə yanaşı şamanizmdə də biz yoqa ilə paralel və oşxar tendensiyalarla rastlaşa bilərik. Həmçinin şaman praktikası yoqa fəlsəfəsində olduğu kimi ruhun azadlığını nəzərdə tutarkən onun həyatı boyu parçalanmış varlığının yenidən bərpasına yönəlmişdir. Bu məsələ sonralar “geştalt” psixoloji məktəbinin əsas terapevtik üslubuna çevrildi. Müasir dövrdə bu sahədə tədqiqat aparan alimlərin təcrübələrinə nəzər yetirərkən belə bir qənaətə gəldik ki, şamanizmdə tətbiq olunan psixi texnikalar kliniki istiqamətdə ruhun və bədənin birgə sağlamlığına yönəlmiş üsulllara çox bənzəyir. Müasir psixologiya ilə şamanik şəfa üsullarını sintez edən Alberto Villoldo, ruhun azadlığı problemini “energetik azadlıq” kontekstində nəzərdən keçirir. Villoldoya görə, insanın yaşadığı ağır emosional travmalar onun “İşıq Enerji Sahəsində” neqativ izlər buraxır. Bu izlər kliniki olaraq fərdin eyni destruktiv davranış modellərini təkrar etməsinə, yəni keçmişin əsiri olmasına səbəb olur. Villoldo qeyd edir: “Ruhun azadlığı – energetik sahəmizdəki köhnə travma izlərinin silinməsi və fərdin öz taleyini yenidən yazmaq iqtidarında olmasıdır. Biz keçmişin qurbanı olmaqdan çıxıb, öz şəfamızın yaradıcısına çevrilməliyik”(Villoldo, 2000).

Təhlillərimiz göstərdi ki, şamanlar ruhun geri qaytarılması dedikdə insanın həyatı boyu ünsiyyətdə olduğu insanlarla emosional ünsiyyəti zamanı yaranan konfliktlərlə bağlıdır. Bu konfliktlər zamanı şəxsdə inciklik, kin, nifrət, sevgi, qəzəb, qorxu yaddaşında qalır. İnsan bunu diqqətlə analiz edərkən əgər özünü və qarşı tərəfi bağışlaya bilirsə mənfi emosiyalar azad olur. Müəyyən etdik ki, bu kliniki psixologiyada dissosiasiya olunmuş hissələrin inteqrasiyası ilə eyniləşdirir. Şamanlara görə, ruhun azadlığı patoloji vəziyyətdə olan alın yazısının mənəvi baxımdan insanın öz iradəsinin ixtiyarına keçməsi prosesidir. Tanınmış Amerika antropoloqu Karlos Kastaneda yerli amerika “yaqi” xalqının psixodelik və ruhi təcrübələrlə bağlı nəzəri və praktik təcrübələrinə əsaslanaraq qeyd etmişdir ki, şamanlar bütün psixi problemlərin kökündə insan ruhunun “tonal” vasitəsilə azadlığının əlindən alınmasında görürdülər. Yaqilərə görə insanın ruhu kainatı yaradan və idarə edən “kosmik ruhun” tərkib hissəsidir. Kosmik ruhun varlığı heç nədən asılı deyil və azaddır. Bu sonsuz şüurun tərkib hissəsi sayılan insani ruhun da azadlığı müəyyən səbəblərdən əlindən alınmışdır. Yaqilərin “tonal” adlandırdıqları görünən dünyanı ruhun zindanı hesab edirdilər. İnsanın bütün mental və emosionlar problemlərinin qaynağı da burdadır.

Çünki tonalı yalnız reallıq bilən öz əsil mahiyyətinin itirlməsini görürdülər. Yerli Amerika Yaqi xalqının bu düşüncələrinə dünyanın əksər şamanistik təfəkkürünə sahib olan xalqlarda rast gəlmək olar. Misal olaraq Havay, Yava, Sibir və Afrika xalaqlarının arxetipik düşüncələrində yuxarıda sadaladığımız ruhun paralel metafizik təsəvvürlərinə rast gəlmək mümkündür. Eyni zamanda tanınmış antropoloq və filosof Mirça Eliade bu sahədə çox geniş tədqiqatlara sahibdir. Klinik və Transpersonal psixoloji sahədə psixodelik təcrübələri ilə ün qazanan S.Qrof şamanizmdə azadlıq probleminin sağlamlığa təsirini daha dolğun şəkildə izah etməyə çalışırdı. O, qeyd edirdi ki, "Ruhun həqiqi azadlığı onun öz fərdi eqosunun dar çərçivəsindən çıxıb, kainatın bütöv enerjisi ilə qovuşmasıdır. Bu, sadəcə intellektual bir dərk deyil, dərin bir ontoloji təcrübədir" (Grof & Grof, 1989).

Kliniki praktikada S. Qrof "ruhun azadlığını" fərdin öz doğum travması ilə üzləşməsi və "ölüm-yenidən doğuş" prosesindən keçməsi kimi təsvir edir. Onun fikrincə, bir çox psixozlar və ekzistensial böhranlar əslində ruhun azadlığa çıxmaq üçün etdiyi "mənəvi fövqəladə hallar" (spiritual emergencies) kimi qiymətləndirilməlidir. M. Xarner "Şamanın yolu" əsərində bütün bəşəriyyətin arxetipik yaddaşının eyni kökdən gəldiyini və çox oxşar olmasını ortaya qoymuşdur. O And dağlarında yaşayan "Xivaro" qəbiləsindəki şamanların psixodelik təcrübələrində iştirak etməyə nail olmuşdur. M. Xayner qeyd edir ki, şamanların psixodelik təcrübələrində iştirak edərkən şüuru dəyişərək yüksək frekanslara keçid etmişdir. Bu zaman onun şüuru, daha ali mərhələlərə qədəm qoymuşdur. Burada o müəyyən etmişdir ki, bizim bir çox psixoloji problemlərimizin əsasında həll edə bilmədiyimiz arxetipik obrazların konfliktləri və qarşıdurması durur. Bizim şüurumuz sanki bu əks qütblü arxetiplərin (kölgə, şeytan, mələk, müdrik, cadugər və b.) mübarizə meydanına çevirmişdir. M. Xarner K.Yunqun qeyd etdiyi kimi qaranlıq və işıqlı arxetip obrazları əksər xalqların gen yaddaşında mövcuddur ideyasının sübutunu şamanlarla birgə iştirak etdiyi psixodelik təcrübədə alır. Xarner vurğulayır ki: "Şamanın yolu – qorxu və məhdudiyyətlərdən azad olmaq yoludur. Ruhun azadlığı, insanın kainatın görünməyən qüvvələri ilə birbaşa təcrübə vasitəsilə əlaqə qurması və bu yolla öz şəfasına nail olmasıdır" (Harner, 1980).

Kliniki psixologiya nöqteyi-nəzərindən bu, pasiyentin subyektiv dünyasındakı simvolik resursların aktivləşdirilməsi və daxili gücün bərpası deməkdir. M. Xarnerin təklif etdiyi metodlar insanın öz daxili "tamlığına" qayıtması üçün ruhun fraqmentlərini bir araya gətirməyi hədəfləyir.

Təsəvvüfdə ruhun sağlamlığı və azadlığının üç mərəhələsi

İslam dinində özünə xüsusi mövqe qazanan və mistik cərəyan kimi tanınan sufizm və təsəvvüf heç də təcrübələrində yuxarıda qeyd etdiyimiz mənəvi qaynaqlardan geri qalmır. Təsəvvüfün əsas predmeti insanını ruhudur və əsas məqsədi ruhunu dünyada yaşadığı dövr ərzində nəfsinin kölәliyindən azad etməsidir. Gerçəkdə ruh və nəfs mahiyyət baxımından eynidir. Sadəcə nəfs ruhun maddiyyatla təmasda olarkən gerçək mahiyyətini unudaraq müəyyən hissəsinin keyfiyyətcə dəyişməsidir. Ona görə də təsəvvüfdə nəfsin növlərindən və inkişaf mərtəbələrindən bəhs olunur. N.Tusi "Əxlaqi Nasiri" əsərində bunları nəfsin əsas strukturu kimi vermişdir. Nəfsin ən ilk pilləsi Əmmarə nəfs adlanır. Əmmarə nəfs insanı daima pis işlərə sövq etməklə yanaşı şəhvani hisslərin mənbəyi hesab olunur. Əmmarə nəfs ehtiraslarını nəyin bahasına olursa olsun söndürməyə cəhd edər. Bu barədə hədislərdə buyrulmudur:

"Nəfsi istək şeytanın əsas silahıdır ki, insanı nəfsi istəyə cəlb edən kimi insan elə zənn edəcək ki, o doğru yoldadır və heç zaman tövbə edib doğru yola gəlmək istəməz".

Bu həmən nəfsi istəkdir ki, insan əlində şərab dolu qədəhlə Allahın adını çəkərək sağlıq deməklə özünə bu cür bəraət qazandırar; “Əsas odur qəlbim təmizdir. Ona görə də mən yaxşı adam hesab oluna bilərəm və ibadət etməyimə də ehtiyac yoxdur Nə etsəm Allah günahımdan keçər”.

Əmmarə nəfs Z.Freydin psixoanalizində şəxsiyyətin strukturu ilə bağlı qeyd etdiyi “İd” anlayışının izahına da çox bənzrliyi var. K.Q.Yunqun arxetiplərlə bağlı düşüncələrində isə “kölgə” anlayışına müəyyən yaxınlığı da var desək yanılmarıq. Nəfsin növbəti pilləsi Ləvvamə nəfs adlanır. Ləvvamə nəfs səhf etdikdən sonra özünü danlamağa başlayır və məzəmmət edir. Nəticədə pis əməlinə görə peşimançılıq çəkir. Ləvvamə günahkarlıq hissinin mənbəyi hesab olunur. Bir çoxlarının hesab etdiyi vicdanın özüdür. İslamın müqəddəs kitabı “Qurani Kərim” də bununla bağlı keçən Qiyamət surəsəsinin 2-ci ayəsi “ And içirəm özünü qınayan nəfsə” ləvvamə nəfsə işarədir. Bundan sonrakı nəfsi mərtəbələrə yüksəlmək üçün “mürşidə” (ruhani müəllim) ehtiyac duyulur. N. Tusi “Ofsafül Əşraf” əsərində mürşidi “seyrü-süluk yolunu qət edərək kamillik zirvəsində qərar tutan bir şəxs kimi qələmə vermişdir. Mürşidsiz yolu qət etməyin mümkün olmadığını Mevlana Məsnəvisində çox çətin və təhlükəli olduğunu ifadə etmişdir. İlk olaraq nəfsin saflaşdırılması prosedurasına diqqətin “zikr”lərə yönəlməsindən başlayır. Təsəvvüfdə nəfsi tərbiyə etmək üçün zikr və dualardan istifadə etmək əsas vasitələrdən biri hesab olunur. Buna Mülhəmə nəfs deyilir. Nəfsin bu mərtəbəsində yetişərkən zikr davam etdirilməlidir. İnsan nəfsinə hakim kəsilmiş pis keyfiyyətləri dua etməklə aradan qaldırmağa çalışmalıdır. Növbəti nəfs mərtəbəsi Mütməinə nəfs adlanır. Nəfsin saflaşdırılması yolunda bura qədər yüksələ bilən insan gözəl əməllərdən, xoşa gələn işlərdən başqa heç bir pis işin baş verməsinə razı olmaz. Bu cür insan mənəvi xəstəliklərdən qurtulmuş və imanı qüvvətlənmişdir. Qəlbi daima zikrdədir və tərəddüddən uzaqdır.

Nəfsin 4-cü pilləsi Radiyə nəfslə başlayır. Radiyə nəfs daima Allahla olan, Onun hökmünə və hikmətinə ram olaraq razı olan bir insanın nəfsidir. Bu mərtəbəyə yüksələn qul öz iradəsindən əl çəkərək Hakkın iradəsinə fani olmuşdur. Bununla bağlı Qurani Kərimin Əl Fəcr surəsi ayə 28-də deyilir; “Sən Ondan, O da Səndən razı olaraq Rəbbinə dön”. Burada insan üçün böyük maneələr yarana bilər. Bunlara kəramətlərə sahib olmaq və kəşf əhli olmaq daxildir. Kəramətlər elmin izah edə bilmədiyi parapsixoloji qabiliyyətlərdir. Misal olaraq levitasiya göydə uçmaq, teyyül ərz və teyyül məkan-zamanı idarə edə bilmək, qısa zamanda istənilən məkana çatmaq və s. Yoqada buna “sidhi” deyilir. Demək olar ki, yoqada sidhi anlayışı ilə təsəvvüfdə kəramət eynim mənanı verir. Özünüdərkin müəyyən mərhələsinə çatanda təbii olaraq bu qabiliyyətlər yolu sona çatdırmaq üçün ilhamverici və dəstəkverici vasitə kimi yaranır. Möcüzələrə sahib olduğunu görən şəxs bu qabiliyyətlərini qazanc, reklam, qisas və digər nəfsi istəklərinə doğru yönəldərsə qalxdığı bütün mərtəbələrdən düşmək təhlükəsi ilə üz-üzə qala bilər. Ona görə də bu yolu sufilər təhlükəli yol hesab edirdilər. Son nəfsani mərhələlərdən bir Mərdiyyə nəfsdir. Nəfsin bu mərtəbəsinə yüksələrkən bəndənin Allahdan razılığı kifayət etmir, gərəkdir ki, Allah da qulundan razı qalsın. Mərdiyyə nəfsə qədər yüksələ bilən bəndədən Allah da razı olur. Nəfsin ən son inkişaf pilləsi Nəfsi Kamilədir. Kamil nəfs bütün pis sifətlərdən təmizlənmiş hesab olunur. Nəfsin bu mərtəbəsinə çalışmaqla yetişmək mümkün deyil. Bura qədər qalxmaq ilahi lütf ilədir. Belə insanla təkcə bir dəfə rastlaşmaq kifayət edir ki, qəflətdən oyanasan. Təsəvvüfdə qeyd olunur ki, nəfsani xəstəliklər onun kamilləşməsi üçün əsas maneədir. Nəsirəddin Tusinin fundamental əsəri hesab olunan “Təcridül-etiqad”da ruhun (nəfsin) azadlığını onun “mücərrəd” (maddi olmayan) mahiyyəti ilə əlaqələndirir. Tusi göstərmək istəyir ki, ruh bədən daxilində olsa da, mahiyyətcə ondan asılı deyil və öz-özünü dərk edən bir cövhərdir. Həmçinin nəfs öz mahiyyətini dərk etmək üçün heç bir maddi alətə ehtiyac duymur; onun azadlığı məhz bu müstəqilliyindədir” (Tusi, 2005).

Kliniki baxımdan əgər biz N.Tusinin bu “təcrid” ideyasını analiz etsək müasir psixoterapiyada istifadə olunan “disidentifikasiya” anlayışı ilə uyğun olduğunu görərik. Buradan belə bir nəticəyə gəlmək olar ki, insan özünü psixopatoloji simptomlarından, fiziki varlığında olan ağrılarından və ya keçmişdə həyatında baş verən travmalarından təcrid edə bilsə, öz ali “Mən”inə qovuşa biləcək. Tusiyə görə, öz əsil Məninə qovuşa bilmək ruhunun müstəqilliyini dərk etməyə gətirib çıxarır. Bu elə bir mərhələdir ki, burada insan özünün əxlaqi və psixi kamilliyi ilə baş-başa qalır. Nəticədə kamil insan bütün psixi və fiziki xəstəliklərindən şəfa tapmış olur. Avropada isə bu məsələlərin kliniki psixoloji baxımdan tədqiqinə N.Tusidən sonra yeddi əsrdən sonra başlanılmışdır. Bununla yanaşı bütün təsəvvüf alimləri və ustadları nəfsin təmizlənməsinin dörd mərhələsindən bəhs edirlər. Bu mərhələlər şəriət, təriqət, həqiqət və mərifətdir. Fikir versəniz təsəvvüfdə bu mərəhələri keçmək yoqada ruhun azadlığa yetməsi istiqamətində yəni samadhi əldə etməsi naminə keçdiyi yoqa mərhələlərinə bənzərlyi var. Bütün inanclardakı əsas paralel yanaşmalar hər birinin son məqsədinin bir olmasıdır. Bu son məqsəd isə ruhun azadlığını əldə etməsidir. Mevlana Cəlaləddin Rumi Məsnəvidə qeyd edirdi ki, insan torpağa və palçığa bulaşmış qanadlarının ağırlığından əsil vətəni sayılan göylərə qalxa bilməyən bir mələk kimidir. Nəfs mələk qanadlarına yapışıb onu qalxmağa qoymayan həmin palçıq kimidir. Torpaq və palçıq insann nəfsinin bu dünyaya aludə olmasına işarədir. Böyük şairimiz Şeyx Nizami Gəncəvi də şərəfnaməsində torpağın insanda nəfsinə aludəlik yaratmasından bəhs etmişdir. Mevlana Cəlaləddin Rumi Məsnəvidə neyin nə zamansa vətəni olan qamışlıqdan ayrıldığna görə oxuyub fəryad etdiyindən bəhs edir. Neyin fəryadı simvolik olaraq sanki insanda mənəvi və ya nəfsani xəstəliklərin simptomlarını xatırladır. Təsəvvüfdə və digər mənəvi qaynaqlarda bəla və xəstəliklərin çox zaman insanı qəflətdən oyanmasına təkan verən əsas amil hesab olunur. Ekzistensial ağrılardan nəticə çıxarmaq çox zaman insanın dərin depresiv hallardan qurtuluşuna yol açmasına səbəb olduğu faktlarına biz xəstələrin anamnezlərində çox rast gəlmişik. İnsanın mənəvi ağrıları olmasa özünün xəstələndiyini başa düşməz və müalicə olunması üçün də həkimə də müraciət etməz. Nəfsani xəstəlikləri müalicə etmək üçün isə təsəvvüf ilk olaraq şəriət yolunu getməyi məsləhət bilir. Təsəvvüfün şəriət mərhələsi deyir ki, insanı xəstələndirən onun nəfsidir. Nəfsi isə gərək ağıl ilə tərbiyələndirəsən. Şəriət nəfsi tərbiyələndirmək üçün ilahi qaydalara riayət etməkdir. Burada təsəvvüf bildirir ki, şəriət mərhələsində nəfsin tərbiyəsi ağlın ixtiyarına keçir. Ağıl Allahın insana bəxş etdiyi ən dəyərli nemət hesab edilir. Yalnız ağlın yardımı ilə insan nəfsini ram edib onu kamilləşdirə bilər. Təsəvvüfün növbəti mərhələsi təriqət adlanır. Təriqətdə müəyyən məqamlar var ki, burada insan nəfsini daha ciddi şəkildə tərbiyə etmək üçün bir müddət dayanmalıdır. Ona görə də təriqətin məqamlarına həm də dayanacaqlar da deyirlər. Təriqətin məqamlarından biri zahidlik və ya zühd adlanır. Zühdün mənası azla qane olmaqdır.Burada insanın əlində nə varsa ona şükür etməli və əlindən çıxan şey üçün isə təəsüflənməməlidir. Bu o deməkdir ki, Allah bir gün sənə nəsə vermişsə bir gün də onu ala bilər. Dünya nemətləri fanidir və bir gün əlindən çıxacaq şeylər üçün təəsüflənmək ağıla ziddir. Təriqətin digər məqamı isə razılıqdır. Razılıq məqamında insan başına gələnlərə şükür etməklə yanaşı istər pis istər yaxşı hadisələrə qarşı razılığını səmimi şəkildə göstərməlidir. Təriqətin sonunda insan onunla baş verən pis və yaxşı hadisələrə qarşı neytral mövqedə durur. Kimlərsə onu tərifləyəndə və ya təhqir edəndə əhvalı dəyişməməlidir. Ona olan bütün mənfi və müsbət münasibətlərə neytral yanaşmalıdır. Bura qədər nəfs artıq bütün problemlərindən arınıb təmizlənir. Oxşar yanaşma yoqa fəlsəfəsində də mövcuddur. Təsəvvüfün növbəti mərhələsi həqiqət adlanır. Bu yoqada samadhi mərhələsini xatırladır. Əgər biz yuxarıdakı qeydlərimizə Viktor Franklın loqoterpaiyası isitqamətində yanaşsaq fərqli müəyyən oxşarlığı görə bilərik. Belə bir qənəətə gəldik ki, kliniki

psixologiyada ruhun azadlığı problemini elmi səviyyəyə meydana gətirən ilk psixoloqlardan biri Viktor Frankl olmuşdur. O, mənəvi azadlığı insanın instinktlərdən, irsiyyətdən və mühitdən müəyyən dərəcədə müstəqil olması kimi təqdim etməyə çalışır. Frankl qeyd edirdi ki, insan həyatda əldə etdiyi hər şeyini itirə bilər. Amma onun daxili azadlığına, hadisələrə verdiyi məna və münasibətə toxunmaq isə mümkün deyildir. O, özünün məşhur “İnsanın məna axtarışı” əsərində yazırdı: “İnsan yalnız bioloji və psixoloji amillərin məhsulu deyil. O, həmişə bu amillərdən üstün durmağa qadirdir. İnsanın sonuncu azadlığı – istənilən şəraitdə öz münasibətini seçmək qabiliyyətidir” (Frankl, 2010).

Kliniki praktikada iradənin güclü olması ruhun azadlığının əsas təzahürü kimi dəyərləndirilir. Biz buna Viktor Franklın “Həyata hə de” əsərində “faşist düşərgələrində” sağ qalan insanların simasında canlı nümunə kimi görə bilərik. Əgər pasiyent bu iradəni itirirsə, onda “eksistensial bir boşluq” yaranır. Bu da nəticə etibarilə çox vaxt kliniki depressiya, psixopatiya və isteriya şəklində özünü büruzə verir. Əslində insanın ruhən azadlığını əlindən alan və onu “psixi zindana” məhkum edən problemlərin simvolik mənaları var. Misal olaraq “Obsessiv-Kompulsiv” pozuntular zamanı insan özünün davamlı təkrar olunan düşüncələrinin əsirinə çevrilir. Sanki o mənasız ritualları heç bir faydası olmadan icra edərək ruhi sakitliyinə nail olmağa can atır. Mənəvi ədəbiyyatlarda buna “vəsvəsə” deyirlər. Vəsvəsə zamanı insanın ürəyi sıxılır və sanki hansısa bir qüvvə onun daxilində bir ümidsizlik, qorxu yaratmağa çalışır. Çox zaman bu uzun müddət insanın özünə günahkarlıq hissini təlqin etməsindən də meydana gələ bilər. Ona görə də keçmişdə belə vəsvəsələrdən qurtulmaq üçün dua və zikrlər edirdilər. İnsan bəzən problemlərini onu qurtara biləcək düşüncələrə özünü kökləyəndə bu da öz növbəsində bəzən plasebo effektini də verə bilər. Cənub bölgəsində apardığımız müşahidələr zamanı pasiyentlərin mənəvi inanclarının onların sağalma sürətinə birbaşa təsir etdiyini mşahidə etdik. Bununla bağlı belə bir real baş vermiş hadisəni nəzərinizə çatdırmaq istərdik. Keçmişdə təcrübəli həkimlərin yalnız rayon mərkəzlərində olmasını nəzərə alaraq insanlar xəstələnəndə daha çox “türkəçarələr” edən tükəçarəçilərə və dua yazan “mollalara” müraciət edərmişlər. Qarlı qış gecələrinin birində kənddə yaşayan yaxın qohumlardan birinin babası möhkəm xəstələnir. Kəndin özündə həkim olmadığından rayon mərkəzinə getmək üçün də dizə qədər çatan qarlı yol ilə minik vaistəsi tapıb getmək çox çətin idi. Çarəsiz qalan qohumlar belə qərar gəlirlər ki, qonşu kənddə yaşayan “mollanın” yanına gedib xəstəliyin sağalması üçün dua yazdırsınlar. Bu barədə xəstəyə də bildirirlər. Beləliklə qonşu kəndə mollanın yanına dua yazdırmağa yola düşməyə çalışan xəstənin qohumları qarda hərəkət etməkdə çox çətinlik çəkirlər. Belə qərar gəlirlər ki, evdə özləri kağıza bir cızma qara etsinlər və bunu dua kimi xəstəyə təqdim etsinlər. Beləliklə yalançı duanı özləri yazan qohumlar müəyyən zaman keçəndən sonra gəlib xəstəyə mollanın yanına getdiklərini deyirlər. Sonra da özlərinin yazdıqları cızmaqara yazılmış kağızı xəstəyə təqdim etməklə mollanın tövsiyyələrini də ona bildirirlər. Bunları duyan xəstə müəyyən müddətdən sonra özünə gəlir və sağalır. Bu hadisə insanın özünə inamı sayəsində xəstəliklərinin sağala bilməsinə bir daha sübut ola biləcək faktlardan biri hesab oluna bilər.

Karl Qustav Yunq özünün analitik psixologiyasında ruhun azadlığı məsələsinə arxetiplər baxımından yanaşırdı.Yunqa görə, insan şüuraltısında gizlənən arxetipik güclərini (Kölgə, amina və animus, şeytan, mələk və b.) dərk etməsə psixi problemlərindən yaxasını qurtara bilməz. Bu dərk etmə eyni zamanda ruhun azadlığına yönəlir. Arxetipik qüvvələr fərdin davranışlarını və bütün həyatını onun xəbəri olmadan idarə edir. Yunq qeyd edirdi: “Siz şüuraltını şüurlu hala gətirməyənə qədər, o, sizin həyatınızı idarə edəcək və siz buna tale deyəcəksiniz” (Jung, 1993).

Kliniki mənada ruhun azadlığı o deməkdir ki, – insan özünün həm işıqlı həm də qaranlıq tərəfini özünə aid olan kimi qəbul edərək hər iki başlanğıcı barışdırır. Əks qütblərin barışması insanın öz daxili tamlığını bərpa etməsinə gətirib çıxarır. Bu, sufizmdəki öz nəfsini dərk etmək və onu ağıla tabe etmək prosesinə çox yaxındır.

Bu istiqamətdə söhbətimizi davam etdirərkən mövzu ilə bağlı İrvin Yalomun qeydlərinə də rast gəldik. O, qeyd edir ki, azadlıq təkcə arzuolunan deyil, həm də ağır yükdür. Bir çox psixoloji problemlər insanın bu mütləq azadlıqdan və məsuliyyətdən qaçmaq cəhdidir. Yalom yazır: "Azadlıq dedikdə, biz həm də öz həyatımızın dizayneri olduğumuzu nəzərdə tuturuq. Bu dərk etmə insanı dərin bir ekzistensial təşvişə salır" (Yalom, 1980).

Aparılan kliniki seanslarda ruhun azadlığının bərpa edilməsi, pasiyentin öz həyatı üçün məsuliyyəti öz üzərinə götürməsinə kömək etməsi mənasına gəlir. Əsasən də humanistik terapiyada bu cəhəti biz daha aydın şəkildə görə bilərik. Kliniki terapiyanın müasir məqsədlərindən biri də insanın öz problemlərini özü dərk etməklə yanaşı həlli yolunu da özü tapmasıdır. Əlbətdəki mənəvi qaynaqlardakı əksər təcrübələr də elə burada elmi şəkildə aparılan tədqiqatlara çox uyğun gəlir. Bu bizə əsas verir deyək ki, istər elmi istərsə də metafiziki baxımdan kliniki problemlərin həlli istiqamətində yanaşanda eyni müsbət nəticələr əldə edə bilirik.

Tədqiqatlarımız göstərir ki, müasir kliniki praktikada geniş istifadə olunan özünüdərk texnikaları birbaşa mənəvi təcrübələrin elmiləşdirilmiş formasıdır. Ruhun azadlığı burada keçmiş və gələcəkdən əl çəkib yalnız indiki anda olmaq qabiliyyəti kimi başa düşülür. İnsan keçmişin travmaları və gələcəyin qorxuları tərəfindən idarə olunduqda, o, ruhən özünü zindanda hiss edir. Müntəzəm meditativ praktikalar zamanı insan öz emosiya və düşüncələrinə kənardan baxa bilir və onlara reaksiya verməkdə azad seçimə sahib olur. Uzun illər ərzində dünyada metafiziki təcrübələri qeyri elmi metodlar kimi həqiqi elmlərdən uzaq tutmağa cəhd edirdilər. Amma bu qeydlərin sakral mənalarını açdıqca dərk edirik ki, istər mənəvi istərsə də elmi qaynaqlar insan psixikasının sağlamlığına yönəlmişdir. Bəşəri dəyərlər çərçivəsində xalqların qədim ruhi biliklərini incələyərkən məhz müasir elmi yanaşmaların sayəsində faydalı olduqları üzə çıxır. Aparılan təhlillər göstərir ki, "ruhun azadlığı" anlayışı təkcə abstrakt bir fəlsəfi kateqoriya deyil, insanın psixi dayanıqlığının əsas göstəricisi kimi özünü ifadə edir. Kliniki psixologiya mənəvi qaynaqlardakı bu qədim bilikləri müasir elmi metodlarla birləşdirərək, insanın daxili buxovlardan azad olması üçün güclü alətlər kimi təqdim edir. Beləliklə, ruhun azadlığı problemi həm mənəvi yüksəlişin, həm də kliniki sağalmanın ortaq hədəfi hesab olunmalıdır. Yuxarıda qeyd olunanları bir daha nəzərdən keçirərkən belə bir nəticəyə gəlmək olar ki, bir çox mənəvi texnologiyaları müasir klinik psixologiyada da tətbiq edərək uğurlu nəticələr əldə etmək olar. Misal olaraq meditasiyadan, nəfəs texnikalarından, koqnitiv özünütəhlildən, biblioterpiyadan (mənəvi qaynaqları mütaliə etməklə) və digər psixotexnikalardan istifadə etməklə bir çox psixi və psixoloji problemləri aradan qaldırmaq üçün dəstəkləyici əlavə metodlar kimi istifadə etmək olar.

Ədəbiyyat:

1. Frankl, V. (2010). İnsanın məna axtarışı. Qanun Nəşriyyatı.
2. Şəfiyeva, E. İ. (2002). Klinik psixologiya.
3. Tusi, N. (2005). Təcridül-etiqad. Elm Nəşriyyatı.
4. Jung, C. G. (1993). Modern man in search of a soul. Harcourt Brace & World.
5. Yalom, I. D. (1980). Existential psychotherapy. Basic Books.
6. Maslow, A. H. (1971). The farther reaches of human nature. Viking Press.

7. Mishra, R. S. (1987). Fundamentals of yoga psychology. Julian Press.
8. Harner, M. (1980). The way of the shaman: A guide to power and healing. Harper & Row.
9. Grof, S., & Grof, C. (1989). Spiritual emergency: When personal transformation becomes a crisis. Warner Books.
10. Villoldo, A. (2000). Shaman, healer, sage: How to heal yourself and others with the energy medicine of the Americas. Harmony Books.

SÜNİ İNTELLEKTİN TƏTBİQİLƏ İNSAN-KOMPÜTER SİSTEMİNDƏ İSTİFADƏÇİNİN PSİXOLOJİ DAVRANIŞLARININ PROQNOZLAŞDIRILMASI

Aidə Mübariz qızı Mustafayeva
Texnika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
Süni intellekt və Rəqəmsal Texnologiyalar İnstitutunun Direktoru
AMEA-nın Riyaziyyat İnstitutunun doktorantı
aida.mustafayeva@mdu.edu.az
ORCİD ID: 0000-0003-0801-5605

Açar sözlər: süni intellekt, insan-kompüter qarşılıqlı əlaqəsi (HCI), psixoloji davranışların proqnozlaşdırılması, multimodal verilənlər, BiLSTM, İzah edilə bilən süni intellekt (XAI), sosial mühəndislik riski.

Xülasə. Təqdim olunan məqalədə süni intellekt texnologiyalarının tətbiqi fonunda insan–kompüter qarşılıqlı əlaqəsi sistemlərində istifadəçi davranışlarının psixoloji aspektlər üzrə proqnozlaşdırılması problemi ardıcıl və sistemli şəkildə təhlil edilmişdir. Tədqiqatın əsas məqsədi istifadəçi davranışlarının dinamik və çoxşaxəli xarakterini nəzərə alan, eyni zamanda adaptivlik və izah edilə bilənlik xüsusiyyətlərini özündə birləşdirən intellektual yanaşmanın formalaşdırılmasıdır. Müasir rəqəmsal mühitdə istifadəçi davranışlarının sürətlə dəyişməsi və verilənlərin həcminin artması bu sahədə daha təkmil analitik modellərin tətbiqini zəruri edir. Araşdırma çərçivəsində multimodal verilənlərin inteqrasiyasına əsaslanan yanaşma tətbiq olunmuşdur; belə ki, göz izləmə, toxunuş əsaslı qarşılıqlı təsir göstəriciləri, EEG siqnalları və digər fizioloji parametrlər birgə emal edilərək istifadəçinin kognitiv və emosional vəziyyəti daha dolğun şəkildə modelləşdirilmişdir. Bu yanaşma istifadəçi niyyətlərinin daha dəqiq müəyyənləşdirilməsinə və davranış trayektoriyalarının yüksək dəqiqliklə proqnozlaşdırılmasına imkan yaratmışdır. Metodoloji baxımdan tədqiqat zaman ardıcıllıqlı verilənlərin analizi üçün BiLSTM arxitekturasına əsaslanır; bu model istifadəçinin əvvəlki davranış nümunələrini nəzərə alaraq gələcək fəaliyyətlərini proqnozlaşdırmağa və real vaxt rejimində adaptiv qərarvermə mexanizmləri formalaşdırmağa şərait yaradır. Bununla paralel olaraq, izah edilə bilən süni intellekt yanaşmalarının tətbiqi modelin qərarlarının interpretasiyasını təmin edir və istifadəçi etibarının formalaşmasına müsbət təsir göstərir. Tədqiqatda sosial mühəndislik riskləri də nəzərə alınmış, istifadəçi davranışlarının proqnozlaşdırılması bu tip təhlükələrə qarşı müdafiə mexanizmlərinin gücləndirilməsi kontekstində qiymətləndirilmişdir. Bu məqsədlə verilənlərin toplanması və emalı, modelin qurulması və adaptasiyası, eləcə də risk analizi mərhələlərini əhatə edən funksional model təklif olunmuşdur. Nəticə etibarilə, təqdim edilən

yanaşma insan–kompüter sistemlərində daha fərdiləşdirilmiş, adaptiv və təhlükəsiz mühitin formalaşdırılmasına imkan verən, nəzəri və tətbiqi baxımdan əhəmiyyətli metodoloji çərçivə kimi qiymətləndirilə bilər.

Keywords: artificial intelligence, human–computer interaction (HCI), user behavior prediction, multimodal data, BiLSTM, Explainable AI (XAI), social engineering risk.

Summary. The present study systematically examines the problem of predicting users’ psychological behaviors in human–computer interaction (HCI) systems within the context of artificial intelligence applications. The primary objective of the research is to develop an intelligent approach that accounts for the dynamic and multidimensional nature of user behavior while integrating the principles of adaptability and explainability. In the contemporary digital environment, the rapid evolution of user behavior, coupled with the exponential growth of data, necessitates the adoption of more advanced analytical models in this domain. Within the scope of the study, an approach based on the integration of multimodal data has been employed. Specifically, eye-tracking data, touch-based interaction indicators, EEG signals, and other physiological parameters have been jointly processed to construct a more comprehensive model of users’ cognitive and emotional states. This approach enables a more accurate identification of user intentions and facilitates high-precision prediction of behavioral trajectories.

From a methodological perspective, the study relies on the BiLSTM architecture for the analysis of sequential data. This model allows for the prediction of future user actions by considering historical behavior patterns and supports the development of adaptive decision-making mechanisms in real time. In parallel, the application of explainable artificial intelligence (XAI) approaches ensures the interpretability of model decisions and contributes positively to the establishment of user trust. Furthermore, social engineering risks have been explicitly considered, and user behavior prediction has been evaluated in the context of strengthening defense mechanisms against such threats. To this end, a functional model encompassing data collection and preprocessing, model development and adaptation, as well as risk analysis has been proposed. In conclusion, the proposed approach can be regarded as a significant methodological framework, both theoretically and practically, enabling the development of more personalized, adaptive, and secure environments in human–computer interaction systems.

Anahtar kelimeler: yapay zeka, insan–bilgisayar etkileşimi (HCI), kullanıcı davranışı tahmini, çok modlu veri, BiLSTM, açıklanabilir yapay zeka (XAI), sosyal mühendislik riski.

Özet. Bu çalışmada, yapay zekâ teknolojilerinin uygulanması bağlamında insan–bilgisayar etkileşimi (HCI) sistemlerinde kullanıcı davranışlarının psikolojik yönlerden tahmin edilmesi problemi sistematik ve bütüncül bir şekilde ele alınmıştır. Araştırmanın temel amacı, kullanıcı davranışlarının dinamik ve çok boyutlu yapısını dikkate alan, aynı zamanda uyarlanabilirlik ve açıklanabilirlik özelliklerini bir araya getiren akıllı bir yaklaşımın geliştirilmesidir. Günümüz dijital ortamında kullanıcı davranışlarının hızlı değişimi ve veri hacminin sürekli artışı, bu alanda daha gelişmiş analitik modellerin kullanılmasını zorunlu kılmaktadır.Çalışma kapsamında, çok modlu verilerin entegrasyonuna dayalı bir yaklaşım benimsenmiştir. Bu doğrultuda, göz izleme verileri, dokunma tabanlı etkileşim göstergeleri, EEG sinyalleri ve diğer fizyolojik parametreler birlikte işlenerek kullanıcıların bilişsel ve duygusal durumlarının daha kapsamlı bir şekilde modellenmesi sağlanmıştır. Bu yaklaşım, kullanıcı niyetlerinin daha doğru belirlenmesine ve davranış eğilimlerinin yüksek doğrulukla tahmin edilmesine olanak tanımaktadır. Metodolojik açıdan araştırma, ardışık verilerin analizi için BiLSTM mimarisine dayanmaktadır. Bu model,

kullanıcıların geçmiş davranış örüntülerini dikkate alarak gelecekteki eylemlerini tahmin etmeye ve gerçek zamanlı uyarlanabilir karar verme mekanizmalarının geliştirilmesine imkân sağlamaktadır. Bununla birlikte, açıklanabilir yapay zekâ (XAI) yaklaşımlarının uygulanması, model kararlarının yorumlanabilirliğini artırmakta ve kullanıcı güveninin oluşmasına katkı sağlamaktadır.Ayrıca, sosyal mühendislik riskleri de dikkate alınmış ve kullanıcı davranışlarının tahmini bu tür tehditlere karşı savunma mekanizmalarının güçlendirilmesi bağlamında değerlendirilmiştir. Bu amaçla, veri toplama ve ön işleme, model geliştirme ve uyarlama ile risk analizi aşamalarını kapsayan işlevsel bir model önerilmiştir.Sonuç olarak, önerilen yaklaşım, insan–bilgisayar etkileşimi sistemlerinde daha kişiselleştirilmiş, uyarlanabilir ve güvenli ortamların oluşturulmasına imkân tanıyan, hem teorik hem de uygulamalı açıdan önemli bir metodolojik çerçeve olarak değerlendirilebilir.

Müasir dövrdə rəqəmsallaşma və süni intellekt (Sİ) texnologiyalarının sürətli inkişafı insan–kompüter qarşılıqlı əlaqəsini (Human–Computer Interaction – HCI) yeni mərhələsini formalaşdırmışdır. Artıq kompüter sistemləri yalnız istifadəçinin əmrlərinə reaksiya verən passiv alətlər deyil, eyni zamanda istifadəçi davranışlarını analiz edən, öyrənən və gələcək sistem davarnışlarını proqnozlaşdıran ağıllı sistemlərə çevrilmişdir. Bu transformasiya xüsusilə böyük verilənlər (Big Data), maşın öyrənməsi və dərin öyrənmə texnologiyalarının geniş tətbiqi ilə daha da sürətlənmişdir. Qlobal səviyyədə süni intellektin tətbiqi son illərdə kəskin artım nümayiş etdirir. Statistik məlumatlara əsasən, 2025-ci ildə dünyada süni intellekt istifadəçilərinin payı təxminən hər 6 nəfərdən 1-ə çatmışdır Eyni zamanda, 2026-cı il üzrə statistikaya görə, dünya üzrə şirkətlərin təxminən 90%-dən çoxu fəaliyyətlərinin ən azı bir sahəsində süni intellekt texnologiyalarından istifadə edir . Bu göstəricilər süni intellektin artıq yalnız innovativ texnologiya deyil, iqtisadi və sosial sistemlərin əsas komponentinə çevrildiyini göstərir. Bundan əlavə, süni intellektin tətbiqi yalnız təşkilatlar səviyyəsində deyil, fərdi istifadəçi davranışlarında da əhəmiyyətli dəyişikliklər yaratmışdır. Araşdırmalar göstərir ki, yüz milyonlarla insan gündəlik fəaliyyətlərində süni intellekt alətlərindən istifadə edir və bu texnologiyalar qərarvermə prosesinə birbaşa təsir göstərir. Bu isə insan davranışının rəqəmsal mühitdə daha sürətli və dinamik şəkildə dəyişməsinə səbəb olur. Azərbaycan kontekstində də rəqəmsallaşma və istifadəçi davranışlarının transformasiyası sürətlə davam edir. Son illərin rəqəmsal statistik göstəricilərinə əsasən, ölkədə internetin istifadə səviyyəsi yüksək olub əhalinin böyük hissəsini əhatə edir və bu da istifadəçi davranışlarının əsasən rəqəmsal platformalarda formalaşdığını göstərir. Bu isə insan–kompüter sistemlərində davranışların analizi və proqnozlaşdırılması üçün geniş verilənlər bazasının mövcudluğunu təmin edir. Lakin istifadəçi davranışlarının proqnozlaşdırılması yalnız texniki problem deyil. İnsan davranışının mürəkkəbliyi sosial mühəndislik hücumları ilə birbaşa əlaqəlidir. Sosial mühəndislik texnikaları istifadəçilərin psixoloji zəifliklərindən və davranış nümunələrindən faydalanaraq maliyyə və məlumat təhlükəsizliyinə ciddi risk yaradır. Məsələn, phishing, vishing və digər manipulyasiya üsulları istifadəçilərin seçim və davranışlarının proqnozlaşdırılması ilə daha effektiv həyata keçirilə bilər. Statistik araşdırmalar göstərir ki, dünya üzrə kiber hücumların 90%-dən çoxu istifadəçi davranışlarının manipulyasiyasına əsaslanır. Bu isə süni intellektin yalnız HCI sahəsində deyil, həm də kibertəhlükəsizlik və sosial mühəndislikdən qorunma baxımından kritik rol oynadığını göstərir.

Əsas problem ondan ibarətdir ki, mövcud süni intellekt modelləri böyük həcmli verilənləri analiz edə bilsə də, insan davranışının bütün mürəkkəbliyini və kontekstual xüsusiyyətlərini tam şəkildə əks etdirə bilmir. Sosial mühəndislik risklərini nəzərə alaraq, istifadəçi davranışlarının daha adaptiv və izah oluna bilən modellərinin yaradılması zəruridir. Bu isə həm HCI sistemlərinin təkmilləşdirilməsi, həm də kiber təhlükəsizliyin artırılması üçün mühüm tədqiqat istiqaməti yaradır.

Beləliklə, təqdim olunan tədqiqatın əsas məqsədi süni intellekt texnologiyalarından istifadə etməklə insan-kompüter sistemlərində istifadəçi davranışlarının proqnozlaşdırılması metodlarını araşdırmaq, sosial mühəndislik risklərini nəzərə almaq və daha effektiv, təhlükəsiz və istifadəçi yönümlü yanaşmaların formalaşdırılmasına töhfə verməkdir.

Süni intellektin insan-kompüter qarşılıqlı əlaqəsində tətbiqi son onillikdə geniş tədqiqat sahəsi kimi formalaşmışdır. Adaptiv interfeyslərdə istifadəçi davranışlarının proqnozlaşdırılmasını maşın öyrənməsi metodları ilə həyata keçirmişdir (Alkatheiri, 2022). Təhlil göstərir ki, real vaxtda istifadəçi niyyətlərini təxmin etmək üçün toplanan verilənlər həm göz izləmə (eye-tracking), həm də qarşılıqlı təsir məlumatlarını ehtiva etməli və modellər daimi olaraq öyrənməlidir. Bu yanaşma istifadəçi təcrübəsini fərdiləşdirmək üçün böyük potensiala malikdir, lakin məlumatların həcmi və müxtəlifliyi artdıqca modellərin mürəkkəbliyi və hesablama yükü də artır. İzah edilə bilən süni intellekt (Explainable AI – XAI) yanaşmaları HCI sistemlərində şəffaflığı və istifadəçi etibarını artırır (Belm, Smith, & Lee, 2024). Tədqiqat nəticələri göstərir ki, süni intellekt modellərinin yalnız proqnoz verməsi kifayət etmir, istifadəçilərin bu proqnozları başa düşməsi və qəbul etməsi də vacibdir. Bu, xüsusilə sosial mühəndislik və kibertəhlükəsizlik risklərinin yüksək olduğu mühitlərdə kritik əhəmiyyət daşıyır.

Sensor əsaslı HCI modelləri, göz izləmə və toxunuş girişlərinin inteqrasiyasını araşdıraraq multimodal davranış analizi təqdim edir (Brdnik, Heričko, & Šumak, 2022). Multimodal məlumatlara EEG verilənlərini də əlavə etməklə istifadəçi niyyətlərinin daha dəqiq proqnozlaşdırılması təmin edilmişdir (Li, Zhong, Zhang, & Zhao, 2022). Bu tədqiqatlar göstərir ki, multimodal verilənlərin inteqrasiyası daha dəqiq və adaptiv modellərin yaradılmasına imkan verir, lakin məlumatların toplanması, işlənməsi və qorunması ciddi texniki və etik çətinliklər yaradır.

Uzun ardıcıllı davranışların proqnozlaşdırılması BiLSTM modelləri ilə həyata keçirilmişdir (Sun & Duan, 2025). Bu yanaşma istifadəçinin davranış tarixçəsinə əsaslanaraq gələcək əməliyyatları təxmin edə bilir. Fizioloji verilənlər və qarşılıqlı təsir məlumatlarının inteqrasiyası isə multimodal niyyət proqnozlaşdırmasını təkmilləşdirir (Qu, Guo, & Wang, 2022). Hər iki yanaşma göstərir ki, istifadəçi davranışlarının mürəkkəbliyi və kontekstual dəyişkənliyi hələ də böyük problem olaraq qalır, çünki real həyat senarilərində davranış nümunələri çoxşaxəlidir və modellərin adaptivliyi daim yenilənməlidir.

HCI sahəsindəki uzunmüddətli araşdırmalar istifadəçi performansı, kognitiv modellər, affektiv hesablama və virtual mühitlərdə dəyişiklik aşkarlanması üzərində cəmləşmişdir (Karacan, Çağıltay, & Tekman, 2010; Ocak & Çağıltay, 2016; Gürcan, Cagiltay, & Çağıltay, 2020; Akgün, Kaplan, & Çağıltay, 2011). Bu tədqiqatlar süni intellektin HCI sistemlərində həm texnoloji, həm də istifadəçi yönümlü inteqrasiyasını göstərir, lakin sosial mühəndislik hücumlarına qarşı adaptiv müdafiə mexanizmlərinin yetərincə öyrənilmədiyini ortaya qoyur.

Beləliklə, mövcud ədəbiyyat istifadəçi davranışlarının proqnozlaşdırılmasının texniki və metodoloji aspektlərini geniş işıqlandırsa da, bir neçə açıq problem qalır (şəkil 1).



Şəkil 1. İstifadəçi davranışlarının proqnozlaşdırılmasının texniki və metodoloji aspektləri

Şəkildən göründüyü kimi, süni intellektin insan-kompüter qarşılıqlı əlaqəsində tətbiqi üç əsas istiqaməti əhatə edir: adaptiv interfeyslər, multimodal analizlər və izah edilə bilən süni intellekt (XAI).

Adaptiv interfeyslər istifadəçi davranışlarının proqnozlaşdırılmasına yönəlib və maşın öyrənməsi metodları vasitəsilə istifadəçinin niyyətlərini real vaxtda təxmin etməyə çalışır (Alkatheiri, 2022). Bu yanaşma fərdiləşdirilmiş istifadəçi təcrübəsi yaratmaq üçün böyük potensiala malikdir, lakin verilənlərin həcmi və müxtəlifliyi modellərin mürəkkəbliyini və hesablama yükünü artırır.

Çoxmodal analizlər göz izləmə, EEG və digər fizioloji verilənlərin inteqrasiyasını əhatə edir (Brdnik, Heričko, & Šumak, 2022; Li, Zhong, Zhang, & Zhao, 2022). Bu inteqrasiya daha dəqiq niyyət proqnozlaşdırılmasına imkan verir, lakin məlumatların toplanması, emalı və qorunması ciddi texniki və etik çətinliklər yaradır.

İzah edilə bilən süni intellekt istifadəçi etibarını və sistem şəffaflığını artırır (Belm, Smith, & Lee, 2024). Bu yanaşma göstərir ki, süni intellekt modellərinin yalnız proqnoz verməsi kifayət etmir, istifadəçilərin proqnozları başa düşməsi və qəbul etməsi vacibdir.

Şəkil 1-də təqsvir olunduğu kimi, bu üç istiqamət inteqarsiya edilərək araşdırma problemini formalaşdırır. Bu problem dörd əsas boşluqla əlaqələndirilir:

1. Sosial mühəndislik riskləri – istifadəçi davranışlarının proqnozlaşdırılması phishing, vishing və manipulasiya kimi təhlükələr üçün potensial risk yaradır.

2. Böyük verilənlərin idarə olunması – multimodal məlumatların inteqrasiyası daha dəqiq modellər yaradır, lakin məlumatların işlənməsi və qorunması ciddi texniki və etik çağırışlarla üzləşdirir.

3. İzah olunan modellərin yaradılması – XAI metodları vasitəsilə şəffaf və adaptiv sistemlər hazırlanır ki, istifadəçilər modellərin qərarlarını anlaya bilsinlər.

4. Etik və hüquqi aspektlər – istifadəçi məlumatlarının toplanması və analizində məxfilik, anonimlik və etik prinsiplərə riayət vacibdir.

Beləliklə, mövcud ədəbiyyat təhlili göstərir ki, HCI sahəsində süni intellektin tətbiqi həm texnoloji, həm də istifadəçi yönümlü aspektləri ilə inkişaf etdirilsə də, sosial mühəndislik riskləri, böyük verilənlərin idarə olunması və izah edilə bilən adaptiv sistemlərin qurulması sahəsində hələ də əhəmiyyətli problemlər mövcuddur. Tədqiqatın məqsədi bu boşluqları aradan qaldırmaq və həm istifadəçi yönümlü, həm də kibertəhlükəsizliyi təmin edən adaptiv funksional HCI modelləri

yaratmaqdır. Şəkil 2-də yuxarıda qeyd olunan problemləri nəzərə almaqla istifadəçi davranışlarının proqnozlaşdırılmasının funskional modeli təklif olunur.



Şəkil 2. İstifadəçi davranışlarının proqnozlaşdırılmasının funskional sxemi

Şəkildən göründüyü kimi, istifadəçi davranışlarının proqnozlaşdırılmasının funskional sxemi üç əsas mərhələdən ibarətdir:

1. Verilənlərin Toplanması və Emalı - İstifadəçi davranışlarının proqnozlaşdırılması üçün multimodal, o cümlədən göz izləmə (eye-tracking), toxunuş girişləri, EEG və digər fizioloji məlumatlar verilənlər toplanılır. Toplanan verilənlər əvvəlcə standartlaşdırılacaq, təmizlənəcək və etibarlı anonimləşdirmə prosedurlarından keçəcək ki, etik və hüquqi tələblər qorunmuş olsun.

2. Modelin İnkişafı və Adaptasiyası - BiLSTM və digər dərin öyrənmə arxitekturaları istifadə edilərək uzun ardıcıllı istifadəçi davranışları proqnozlaşdırılır. Multimodal verilənlərin inteqrasiyası ilə model adaptiv olacaq və real vaxtda istifadəçi niyyətlərini təxmin edilir. Izah edilə bilən süni intellekt yanaşmaları (XAI) tətbiq ediləcək ki, istifadəçilər və sistem administratorları modelin qərarlarını başa düşə bilsin.

3. Risk Analizi və Sosial Mühəndislikdən Qorunma - Modelin proqnozlaşdırma mexanizmləri sosial mühəndislik hücumları ilə əlaqəli riskləri nəzərə alacaq. Fərqli hücum ssenariləri (phishing, vishing, manipulyasiya) simulyasiya ediləcək və modelin reaksiya və adaptivliyi test ediləcəkdir.

Bu metodologiya həm HCI sahəsində istifadəçi yönümlü sistemlərin təkmilləşdirilməsinə, həm də kibertəhlükəsizliyin artırılmasına yönəlmişdir.

Tədqiqatın aparılması nəticəsində aşağıdakı problemlərin həlli mümkün olmuşdur:

1. İstifadəçi Davranışlarının Daha Adaptiv Proqnozu -BiLSTM və multimodal inteqrasiya modelləri tətbiq edilərək istifadəçi əməliyyatlarının real vaxt proqnozları hazırlanmışdır. Bu modellərin adaptivliyi istifadəçinin fərqli davranış nümunələrini tanımasına və gələcək əməliyyatları dəqiq proqnozlaşdırmasına imkan verir.

2. Multimodal Verilənlərin Effektiv İnteqrasiyası - Göz izləmə, toxunuş girişləri və EEG məlumatları birləşdirilərək istifadəçi niyyətlərinin dəqiqliyi əhəmiyyətli dərəcədə artırılmışdır. Verilənlərin emalı və anonimləşdirilməsi etik və hüquqi tələblərə uyğun həyata keçirilmişdir.

3. Sosial Mühəndislik Risklərinin Azaldılması- Model phishing, vishing və digər manipulyasiya ssenarilərinə qarşı adaptiv reaksiya mexanizmləri ilə təchiz edilmişdir. Bu yanaşma HCI sistemlərinin təhlükəsizliyini artırır və istifadəçi məlumatlarının qorunmasını təmin edir.

Beləliklə, tədqiqat nəticəsində süni intellekt əsaslı HCI modellərinin həm istifadəçi yönümlü, həm də təhlükəsiz olmasını təmin edən metodoloji çərçivə yaradılmışdır. Bu yanaşma həm akademik tədqiqatlarda, həm də real tətbiq sistemlərində adaptiv, izah oluna bilən və multimodal verilənlərə əsaslanan HCI sistemlərinin inkişafına imkan verir.

Ədəbiyyat:

1. Alkatheiri, M. (2022). Predicting user behavior in adaptive interfaces using machine learning. Computers in Human Behavior, 130, 107200. https://doi.org/10.1016/j.chb.2022.107200

2. Belm, R., Smith, J., & Lee, K. (2024). Explainable AI for human-computer interaction: Improving transparency and user trust. International Journal of Human–Computer Studies, 170, 102964. https://doi.org/10.1016/j.ijhcs.2024.102964

3. Brdnik, T., Heričko, M., & Šumak, B. (2022). Sensor-based human-computer interaction modeling: Eye-tracking and touch input integration. Sensors, 22(15), 5830. https://doi.org/10.3390/s22155830

4. Li, X., Zhong, Y., Zhang, Q., & Zhao, H. (2022). Multimodal user intention prediction using eye-tracking and EEG data. Frontiers in Psychology, 13, 784311. https://doi.org/10.3389/fpsyg.2022.784311

5. Sun, L., & Duan, Y. (2025). Long-sequence behavior prediction with BiLSTM for human-computer interaction. Journal of Cognitive Systems and Software Analysis, 11(2), 205–221. https://mfacademia.org/index.php/jcssa/article/view/205

6. Qu, Y., Guo, F., & Wang, J. (2022). Multimodal intention prediction integrating physiological and interaction data. Frontiers in Psychology, 13, 816127. https://doi.org/10.3389/fpsyg.2022.816127

7. Karacan, H., Çağıltay, K., & Tekman, H. G. (2010). Change detection in desktop virtual environments: An eye-tracking study. Computers in Human Behavior. https://open.metu.edu.tr/handle/11511/43950

8. Ocak, N., & Çağıltay, K. (2016). Comparison of cognitive modeling and user performance analysis for touch screen mobile interface design. International Journal of Human–Computer Interaction. https://open.metu.edu.tr/handle/11511/28536

9. Gürcan, F., Cagiltay, N. E., & Çağıltay, K. (2020). Mapping human–computer interaction research themes and trends from its existence to today: A topic modeling-based review of past 60 years. International Journal of Human–Computer Interaction. https://open.metu.edu.tr/handle/11511/37585

10. Akgün, M., Kaplan, G., & Çağıltay, K. (2011). Bringing affect to human computer interaction. In Lecture Notes in Computer Science, Human-Computer Interaction Series. https://open.metu.edu.tr/handle/11511/78201

11. https://www.frontiersin.org/articles/10.3389/fpsyg.2022.816127/full

12. https://www.microsoft.com/en-us/corporate-responsibility/topics/AI-Economy-Institute/reports/Global-AI-Adoption-2025

13. https://resourcera.com/data/artificial-intelligence/companies-using-ai

14. https://grabon.com/blog/ai-statistics

15. https://datareportal.com/reports/digital-2026-azerbaijan
16. https://www.verizon.com/business/resources/reports/dbir/

UŞAQ AQRESSİVLİYİNİN TƏZAHÜR FORMALARI

Zümrüd Soltan qızı Cavadova
Psixologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası
Gəncə Dövlət Universiteti
cavadova.zumrud.51@mail.ru
ORCİD ID: https://orcid.org/0009-0005-7489-5964

Açar sözlər: aqressiv, uşaq, yeniyetmə, ailədaxili, təzahür, aqressiv davranış.

Xülasə. Ailədaxili münasibətləri, valideyinlərin övladlarına və aqressiv davranışa münasibətini öyrəndikdən sonra, bu amillərin yeniyetmənin aqressivlik dərəcəsinin səviyyəsinin formalaşmasına çox böyük təsirin olduğunu qeyd etmək olar.

Tam ailələrdə və normal şəraitdə böyüyən uşaqlar həyata daha hazırlıqlı olur, insanlarla qarşılıqlı münasibətdə daha tolerant mövqe tuturlar, aqressiv enerjinin yığılma ehtimalı onlarda daha az olur. Ondan fərqli olaraq natamam ailələrdə böyüyən uşaqlar böhran dövrlərini daha ağır yaşayır, bu mərhələdə onlarla yaşayan insanlar arasında daha böyük psixoloji uçurumlar əmələ gəlir. Bu isə bir çox komplekslərin yaranmasına və gələcəkdə deviant davranışa meyilli olmalarının ehtimalını artırır. Ondan irəli gələrək, belə yeniyetmələr öz asudə vaxtlarını da daha çox evdən kənarda keçirtməyə üstünlük verirlər. Valideyinlərin seçdiyi ailənin idarəetmə üsulları da yeniyetmələrin öz vaxtlarını səmərəli şəkildə təşkil etməsinə təsir edir. Avtoritar tipli ailələrdə uşaqların müstəqillik çərçivələri daha az olur. İstənilən qərarların qəbulu zamanı yeniyetmələr özlərini nümayiş etdirmək, öz mövqelərini bildirmək imkanından məhrum olurlar. Məhz bu amil həmçinin uşaqların evdən kənarda aqressiv olmasına da gətirə bilər. Evdə valideyinləri tərəfindən həddən çox sıxılan uşaqlar cəmiyyətə düşən zaman müəyyən mənada özlərini tənzim etmək qabiliyyətini itirilər. Demokratik tipli idarə etmə üslubunu seçən və onu düzgün şəkildə tədbiq edən valideyinlər isə övladlarla daha yaxşı münasibət qura bilir. Onlar müstəqil qərar qəbul etmək, seçim etmək və seçimə görə məsuliyyət daşımaq vərdişlərinə malik olurlar.

Keywords: aggressive, child, adolescent, intra-family, manifestation, aggressive behavior.

Summary. Having studied family relationships, the attitude of parents to their children and aggressive behavior, it can be noted that these factors have a great influence on the formation of the level of aggression of a teenager.

Children growing up in complete families and in normal conditions are more prepared for life, take a more tolerant position in interaction with people, and are less likely to accumulate aggressive energy. In contrast, children growing up in incomplete families experience crisis periods more severely, at this stage greater psychological gaps arise between the people living with them. This increases the likelihood of the formation of many complexes and their tendency to deviant behavior in the future. As a result, such teenagers prefer to spend more of their free time outside the home. The family management methods chosen by parents also affect how teenagers organize their time effectively. In authoritarian families, children have less autonomy. Teenagers are deprived of the opportunity to demonstrate themselves and express their position when making any decisions. This

factor can also lead to children becoming aggressive outside the home. Children who are overly pressured by their parents at home lose their ability to regulate themselves in a certain sense when they enter society. Parents who choose a democratic management style and apply it correctly are able to establish better relationships with their children. They have the habit of making independent decisions, making choices, and taking responsibility for their choices.

Anahtar kelimeler: saldırgan, çocuk, ergen, aile içi, tezahür, saldırgan davranış.

Özet. Aile ilişkilerini, ebeveynlerin çocuklarına karşı tutumunu ve saldırgan davranışları inceledikten sonra, bu faktörlerin bir gencin saldırganlık düzeyinin oluşumunda büyük bir etkiye sahip olduğu görülebilir.

Tam ailelerde ve normal koşullarda büyüyen çocuklar hayata daha hazırlıklıdır, insanlarla etkileşimde daha hoşgörülü bir tutum sergiler ve saldırgan enerji biriktirme olasılıkları daha düşüktür. Buna karşılık, eksik ailelerde büyüyen çocuklar kriz dönemlerini daha şiddetli yaşarlar; bu aşamada birlikte yaşadıkları insanlar arasında daha büyük psikolojik uçurumlar ortaya çıkar. Bu, birçok kompleksin oluşma olasılığını ve gelecekte sapkın davranışlara eğilimlerini artırır. Sonuç olarak, bu tür gençler boş zamanlarının çoğunu ev dışında geçirmeyi tercih ederler. Ebeveynlerin seçtiği aile yönetimi yöntemleri, ergenlerin zamanlarını etkili bir şekilde nasıl organize ettiklerini de etkiler. Otoriter ailelerde çocukların özerkliği daha azdır. Ergenler, kendilerini gösterme ve herhangi bir karar alırken pozisyonlarını ifade etme fırsatından mahrum kalırlar. Bu faktör, çocukların ev dışında da agresifleşmelerine yol açabilir. Evde ebeveynleri tarafından aşırı baskı altında kalan çocuklar, topluma girdiklerinde bir anlamda kendilerini düzenleme yeteneklerini kaybederler. Demokratik bir yönetim tarzı seçen ve bunu doğru uygulayan ebeveynler, çocuklarıyla daha iyi ilişkiler kurabilirler. Bağımsız kararlar alma, seçim yapma ve seçimlerinin sorumluluğunu alma alışkanlığına sahiptirler.

Cəmiyyətdə olan fərqlər, iqtisadi problemlər, siyasi kataklizmalar, mənəvi sarsıntılar və digər amillər cəmiyyətin özündə konfliktlərin və aqressiyanm yaranmasına gətirib çıxarır. Konfliktlər həmişə cəmiyyət üzvlərinin baxışlarının və maraqlarının müxtəlifliyi, əksliyi üzərində baş verir. Müasir dünyada olduğu kimi, azərbaycanlının də həyatı konflikt və aqressiya ilə doludur. Aqressivlik - cəmiyyətin müxtəlif sahələrində və dairələrində, xüsusən ailədə özünü biruzə verən, insanın müasir həyatının reallığıdır. Bütün bunlar əsasında məhz ailədaxili münasibətlərin və aqressiv davranışın yaranması, formalaşması arasında əlaqənin öyrənilməsini vacib hesab edirik. Aydındır ki, sürdüyümüz çətin həyatda, xüsusən də ailədə aqressiv davranışa yol verməmək çox çətindir. Lakin ailənin hər bir üzvü orda formalaşan və onlardan öyüd-nəsihət götürüb, yaşamağı öyrənən gənc nəsli düşünməlidir. Məhz ailədə valideyinlər və övladlar arasında münasibətlərin necə qurulmasından asılı olaraq cəmiyyətimizin bir çox problemlərini həll etmək olar. Hər bir məktəbli orta hesabla günün 18 saatını ailədə keçirir. Ailə- kiçik qrup kimi məktəblinin şəxsiyyətinə, onun formalaşmasına daima təsir göstərir. Orada sağlam psixoloji mühitin olması, xüsusilə ər-arvad, gəlin-qaynana, valideyin-uşaq konfliktlərinin acı nəticələri yalnız həmin şəxslərin deyil, həm də konfliktə daxil olmayan ailənin digər üzvlərinin əhvalına psixoloji təsir göstərir. Bundan ən çox əziyyət çəkən isə uşaqlar olur.

Aqressiya - belə bir hərəkəti gözləməyən insana qarşı təhqirə istiqamətlənən və ya zərər gətirməyə yönəlmiş istənilən davranış formasıdır.

Hətta tarixə müraciət etsək, dünyanın istənilən nöqtəsində aqressivliyin yüksək dərəcədə təzahür etməsini müşahidə edə bilərik. Təəssüflər olsun ki, Azərbaycan xalqının tarixi belə

aqressivliyin nümunələri ilə doludur. Ölkəmiz dövrlərlə, əsrlərlə müharibələr meydanına çevrilmişdir.

Belə tendensiyalardan irəli gələrək razılaşmaq lazımdır ki, aqressivlik və konflikt insanlığın qarşısında duran ən böyük problemlərdən biridir. Bunun üçün isə aqressiyanm nə olduğunu müəyyənləşdirmək vacibdir. Beləki, aqressiya sözü latın «aggredi» sözündən əmələ gəlir. Mənası isə «hücum etmək» deməkdir. Bu söz avropa dillərində uzun illərdən bəri istifadə olunur. Lakin onun mənası müxtəlif vaxtlarda fərqli idi. XIX əsrin əvvəllərinə qədər aqressiv davranış istənilən aktiv davranışın mənasını anlamını verirdi. Bura həm sülhsevər, həm də qərəzli davranış aid idi. Sonradan bu sözün mənası dəyişildi və daha da dəqiqləşdi. Aqressiya sözü altında ətrafdakı insanlara düşməncəsinə münasibət başa düşülməyə başlandı.

Aqressiya sözünün və bu söz arxasında duran fəaliyyətin psixoloji mahiyyətini açmaq ən dərrakəli insanları bir çox əsrlər boyu maraqlandırırdı. Lakin yalnız keçən yüz illikdə bu problem sistematik elmi tədqiqatın diqqət mərkəzində oldu. Bass belə hesab edir ki, aqressiya - özündə təhlükəni ifadə edən və ya digərlərə zərər yetirən istənilən davranışdır (Бэрон Р., & Ричардсон, Д., 2000; Бендас Т.В., 2005). Bir neçə məşhur tədqiqatçı (Berkowitz, Feshbach) tərəfindən söylənilən digər bir fikrə görə: bu və ya digər hərəkəti aqressiya kimi səciyyələndirmək üçün o mütləq təhqir etmə, incitmə məqsədini daşımalıdır.

Aqressiyanın insana qarşı zərər və ya təhqirin olmasını faktını götürsək, resipiyentə bədən xəsarətinin yetirilməsi bu zaman mütləq hesab olunmur. Aqressiya hər hansı neqativ nəticəyə yönəlmiş davranış olan zaman baş verir. Beləliklə, davranış ilə təhqirdən savayı, insanı mənfi tərəfdən qələmə vermək, cəmiyyət içində ələ salmaq və ya qaralamaq, vacib bir şeydən məhrum etmək, hətta sevgi və mehribanlıqdan məhrum etmə bəzi vəziyyətlərdə aqressivlik kimi xarakterizə oluna bilər.

Aqressivliyin uşaqlarda təzahürünü və onun formalarını öyrənərkən bu zaman uşağın hansı yaş dövrünə mənsub olması çox vacib amildir. Çünki, şəxsiyyətin inkişafının hər bir yaş dövrü özünün gedişinin xüsusiyyətlərinə və qanunauyğunluqlarına məxsusdur. Məhz bu xüsusiyyət və qanunauyğunluqlarına görə müxtəlif yaş dövrləri bir-birilərindən olduqca fərqlənir. Əlbətdə aqressiyanm təzahür forması da artıq qeyd etdiyimiz kimi müxtəlif çalarlar ala bilər. İşimizdə diqqətimizi müxtəlif yaş dövrlərindən məhz öz dəyişkənliyi, gürlüğü ilə fərqlənən yeniyetməlik dövrünə yönəltmişik. Buna əsasən bu yaş dövrünün müəyyən əlamətlərinin göstərilməsini mütləq hesab edirik. İlk növbədə A.N.Leontyevin psixi inkişafın mərhələlərinə aid sözlərini qeyd etmək lazımdır «onu əhatə edən insani münasibətlər aləmində uşağın əvvəllər tutduğu yer, onun tərəfindən öz imkanlarına müvafiq gəlməyən kimi dərk olunur və uşaq onu dəyişdirməyə səy göstərir. Uşağın həyat tərzi ilə, artıq onun bu həyat tərzini qabaqlamış imkanları arasında açıq ziddiyyət meydana çıxmağa başlayır. Buna müvafiq olaraq, onun fəaliyyəti də yenidən qurulur. Bununla da onun psixi həyatının inkişafının yeni mərhələsinə keçidi başa çatır» (A.N. Leontyev).

Yeniyetməlik dövrü hər bir insanda müxtəlif cür keçir. Bu həm uşağın özü üçün, həm də onu əhatə edən insanlar üçün çətin dövürdür. Bu vaxt istər fiziki, istərsə də psixi inkişaf bir tərəfdən sürətlə, digər tərəfdən hər bir sahədə həyata keçirilməyə başlayır. Həmin dövrdə uşaq şəxsiyyətinin inkişafında bir çox yetginliklər, dəyişikliklər baş verir ki, onların sahəsində uşağın təlim-tərbiyyəsində, rəftar və davranışında müxtəlif tipli çətiniklər əmələ gəlir, şıltaqlıq, inadkarlıq edir, gah tənbəl, gah da hər şeyə həvəs göstərir, kobud, qapadlıq kimi keyfiyyətlər meydana gəlir. Bu yaş dövründə cəzalandırma qətiyyən səmərə vermir. Çox zaman valideyin övlad problemləri, ümumi «dil»in tapılmaması məhz bu dövrdə baş verir. Yeniyetmə get-gedə valideyinlərdən «uzaqlaşır» və

öz qapalı şəxsi həyatını yaşamağa başlayır. Bu yaş dövrü ən tərəddüdlü, ən böhranlı və ən müvazinətsiz dövrdür.

Bu yaşda uşaqda anatomik-fizioloji və psixi inkişafında, iradi-emosional və əqli həyatında nəzərə çarpan ciddi dəyişikliklər baş verir. Bu zaman yetkinliyin üç səviyyəsi - cinsi, psixoloji və sosial yetkinlik özünü göstərir. Onun şəxsiyyət mənasında formalaşması üçün bu üç səviyyə vəhdətdə inkişaf etməlidir. Bu yaş dövrünün xarakteristikasının olması aqressivliyin təzahürünə də təsir göstərir.

Yeniyetməlik yaşında aqressiv davranışın xüsusiyyətləri haqqında danışdıqda yeniyetmənin ailədə böyüməsi faktını nəzərə almaq mütləqdir. Ailə demək olar ki, həmişə sosializasiyanın əsas amili rolunda çıxış edir. Məhz ailə əksəriyyət uşaqlar üçün aqressiv davranışın əsas mənbəyi hesab olunur. Ailə üzvlərinin arasındakı münasibətlər üzərində o digər insanlarla qarşılıqlı əlaqədə olmağı öyrənir. Ailə mühitində uşaq yeniyetməlik dövründə və kamil yaşlarında özünü aktiv biruzə verən davranış və münasibət formalarını öyrəıiir. Valideyinlərin uşaqların səhv davranışına reaksiyaları, valideyin və uşaq arasındakı münasibətlərin xarakteri, ailədə olan harmoniya və ya disharmoniyanın səviyyəsi, doğma bacı və ya qardaşlarla münasibətin xarakteri - bütün bu faktorlar uşağın, ailədə və ondan kənar, aqressivliyini əvvəlcədən müəyyən edə və kamil yaşlarında onun ətrafdakılarla münasibətinə təsir edə bilər.

Ailədə təzahür edən münasibətlərə keçməzdən əvvəl ailənin tiplərinə toxunmaq istərdim. Ailənin sadə və mürəkkəb olmaqla 2 tipini ayırırlar. Sadə və ya nukleyar ailə iki nəsildən ibarət olur (valideyinlər və uşaq). Mürəkkəb ailə üç və ya daha çox nəsildən (baba-nənə, ata-ana və uşaqlar) ibarətdir. Müasir dövrdə şəhər mühitində nukleyar ailə əsas ailə tipi hesab olunur. Ailənin tam və natamam olması xarakteristikası da uşağın aqressivliyi ilə da bağlıdır. Bu xarakteristika məhz ailənin mühitini təşkil edən ünsürlərdən biridir. Valideyinlərin biri və ya ikisinin uşaqla yaşaması, onlar arasında münasibətin forması aqressivliyin yaranmasına böyük təsiri olan faktordur. Məsələn, Qettinq azyaşlı canilərin, əsasən natamam ailələrdən çıxmasını müəyyən etmişdi. Mak- Karti azyaşlı canilərin əsasən «digərlərin hissələrinə biganəlik, fiziki aqressiya və ailə üzvlərinin bir-birinə marağının olmadığı ailələrdən» əmələ gəldiyini qeyd edirdi (Бэрон, Р., & Ричардсон, Д., 2000).

Aqressiv davranışın oğlanlar və qızlarda necə təzahür etməsi faktı da tədqiqatçılar tərəfindən diqqətsiz qalmayıb. Aqressiv davranışın müxtəlif komponentlərinin qızlarda və oğlanlarda ifadə olunma dərəcəsinin öyrənilməsi göstərdi ki, oğlanlar fiziki və bilavasitə verbal aqressiyaya, qızlarda isə bilavasitə verbal və dolayısı verbal aqressiyaya meyillilik daha çoxdur. Beləliklə oğlanlar üçün aqressiyanın «verbal - fiziki» xassiyyətinə görə yox, konfliktə girən insanla bilavasitə, açıq ifadə olunması xasdır. Qızlar üçün isə məhz verbal aqressiyamm istənilən formasında - bilavasitə və ya dolayısı ilə üstünlüyü xarakterikdir.

Aqressiyanın öyrənilməsinin ən çox mübahisəli mənbəyi - kütləvi informasiya vasitələridir.

Yeniyetmələrdə aqressivliyin necə təzahür olunması ilə yanaşı onun aradan qaldırılması, profilaktiası vacib məsələlərdən biridir. Bu zaman uşağın soisalizasiyasmm uğurlu baş verməsinə çalışmaq lazımdır. Effektiv sosializasiyanın vacib şərti isə aqressiv davranışın formalaşmasının qarşısının alınması, bağlılıq motivasiyasının inkişaf etdirilməsidir. Bununla o ətrafdakılarm və ilk növbədə öz valideyinlərinin maraqlarını, diqqətini və razılığını nəzərə almağa öyrənir. Bağlılıq, somdan, ikinci dərəcəli möhkəmləndirmə rolunda sosial tələblərə və tabulara uyğunlaşmanı şərtləndirə bilər. Aqressiyanm inkişafının vacib şərti kimi yalnız sosial öyrənməni yox, həmçinin frustrasiyanı da bir daha qeyd etmək vacibdir. Bu isə uşaqlarda daha çox valideyin tərəfindən

məhəbbətini olmaması və ya azlığı, ya bir, ya da iki valideyin tərəfindən cəzaların daimi verilməsi ilə bağlıdır.

Aqressiv davranış aktlarına fikir verməyərək, onun qarşısını almaq və yox etmək üsulu müsbət hesab olunmur. Gündəlik pedaqoji-psixoloji sərištə, psixoloji konsultasiya üzrə təcrübə və bəzi xüsusi tədqiqatlar yeniyetməlik yaşında aqressivlik aktlarının nəzərə alınmamasını təhlükəli nəticələrə və aqressiv davranışın sonrakı dövrlərdə eskalasiyasma gətirə biləcəyini göstərir. Bu zaman belə davranış şəxsiyyət üçün adi hala və normaya çevrilir. Yəqin ki, valideyinlər tərəfindən balaca uşağın aqressivliyi əhəmiyyət verilmədikdə, onun ünsiyyət dairəsinin sıx olması (yalnız ailə) səbəbindən də belə davranış möhkəmləndirilməyəcək. Əgər valideyinlər yeniyetmənin aqressiv davranışına əhəmiyyət vermirlərsə isə bu onun möhkəmləndirilməyən şəkildə qalması demək deyil. Balaca uşaqdan fərqli olaraq yeniyetmənin ünsiyyət dairsə ailə ilə məhdudlaşmır. Bu zaman möhkəmləndirmə ailədən kənarda baş verə bilər. Məsələn, «valideyinlərin davranışının səhv olması» interpretasiyasından irəli gələrək həmyaşıdlılar tərəfindən aqressiyanm təriflənməsi şəklində baş verə bilər. Bununla yanaşı yeniyetməlik yaşında davranış xüsusiyyətlərinin (sosial qaydaları dözümlülüyə sınamaqla davranışında icazə verilən sərhədləri müəyyən edilməsi) tendensiyasının ifrat ifadə olunmasından irəli gələrək böyüklərin aqressiv davranış aktına reaksiya verməməsi öz-özlüyündə aqressivliyin müsbət möhkəmləndirilməsinə gətirə bilər.

Fəal cəzalandırma da aqressiv davranışın ləngidilməsinin və korreksiyasmm üsulu kimi nəzərdən keçirilir. Lakin belə üsulla ləngidilmiş aqressiv reaksiyalar mütləq deyil ki, tam aradan çıxsın. Onlar sonradan cəzalandırma ehtimalının az olması şəraitində özünü biruzə verə bilər.

Bilavasitə yeniyetməyə qarşı istifadə olunan profilaktik tərbiyə işləri fərdi təsir və korreksiya üsulları ilə məhdudlaşdırıla bilməz. Yeniyetmələrin deviant davranışın profilaktikası və qabaqcadan aradan qaldırılması həm sosial tərəfdən vacib, həm də psixoloji tərəfdən mütləqdir.

İlkin profilaktikanın yüksəlməsi problemi aşağıdakı əsas istiqamətlərdə aparılmalıdır:

- yeniyetmə şəxsiyyətinin inkişafında yaxın ətraf mühit içərisində mənfi amillərin və desosiallaşdıran təsirlərin müəyyən edilməsi və dezuyğunlaşmaya gətirən bu mənfi təsirlərin yox edilməsi;
- həddi buluğa çatmamış uşaqlarda asosial kənara çıxmaların vaxtında diaqnostikası və tərbiyə-profilaktik vasitələrdə differensasiya yanaşmasının həyata keçirilməsi.

Buradan yeniyetmələrin davranışında sosial kənara çıxmaları şərtləndirən fərdi, şəxsi, soisal-psixoloji və psixo-pedaqoji amillərin sistemli təhlilin keçirilməsinin vacibliyi yaranır. Bütün bunların əsasında tərbiyəvi psixoloji iş aparılmalıdır. Yeniyetmələrdə davranış problemlərinin vaxtında aşkarlanması, onların əmələ gəlməsinin sistemli təhlili və adekvat tərbiyəvi-korreksiya işi yeniyetmənin desosializasiyasmı aradan qaldırmağa kömək edir. Vaxtında belə davranışa fikir verilmədikdə isə o xroniki vəziyyətə keçir. Beləliklə aqressiv davranışın profilaktikası üçün yeniyetməyə pozitiv ünsiyyət vərdişlərini, cəmiyyətin digər üzvləri ilə qarşılıqlı əlaqəyə girməyi, konfliktlərin sülhcəsinə alternativ aradan qaldırılmasının yollarını axtarmağı aşılamaq lazımdır.

Beləliklə müasir dünyada, xüsusən də Azərbaycan şəraitində əsrlər boyu formalaşmış dəyər və ənənələrin dəyişilməsi və yeniləri ilə əvəz olunması mühitində aqressiya problemi həm elm, həm də sosial təcrübə nöqteyi nəzərindən çox aktualdır.

Böyümə dövrü, yeniyetmə yaşı öz-özlüyündə xəstəlik deyil, lakin dərin psixoloji problemləri yarada bilər. Bu zaman krizis yeniyetməni xəstəlik vəziyyətindən ayıran sərhəddi keçməyə və mütəxəssis psixoloq, psixiatrların işə qarışmasını tələb edən mühitin yaranmasına səbəb ola bilər. Ona görə də bu dövrdə aqressivliyin psixologiyasını daha yaxşı başa düşmək üçün yeniyetməlik

yaşının öyrənilməsi vacibdir.

Yeniyetmələrin aqressiv davranışının səbəbi axra qədər öyrənilməyib. Buna baxmayaraq biz iş zamanı yeniyetmələrdə aqressiv davranışı şərtləndirən aşağıdakı kateqoriyaları ayıra bilərik: ailə, həmyaşıdlar, kütləvi informasiya vasitəsi və s. Uşaqlar bilavasitə möhkəmləndirmənin köməyi ilə və müşahidə vasitəsilə aqressiv davranışa yiyələnirlər. Cəmiyyətimiz və biz isə çox təəssüf aqressiya və səbirsizliklə doluyuq. Bütün bunları öz gənc nəslimizə, onlar isə sonrakı nəslə ötürürlər. Təhlükə ondan ibrətdir ki, yeni gələn nəsildə bu anadan gəlmə və kütləvi xəstəlik formasını ala bilər. Bu zaman isə o sosial patologiyadan sosial normaya keçə bilər. Buna görə də bu mövzunun həm psixologiya, həm pedaqogika, həm də yeniyyetmələrlə praktiki iş aparanların sahəsində daha geniş və dərin öyrənilməsi aktualdır.

Ədəbiyyat:

1. Abbasov, A. M., & Əlizadə, Ə. Ə. (1998). Ailə həyatının etika və psixologiyası (32 s.). Bakı.
2. Alıyev, C. Q. (2000). Kiçik məktəblilərdə aqressivlik hissinin yaranmasına təsir göstərən amillər. Elmi konfrans materialı. Bakı.
3. Əlizadə, Ə. Ə. (1986). Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi (236 s.). Bakı.
4. Məmmədov, Ə. M., & Kərimov, Ə. Ə. (1964). Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi (72 s.). Bakı.
5. Muradxanov, M. Ə. (1947). Uşaqların tərbiyəsində ailə mühüm ocaqdır (24 s.). Bakı.
6. Бендас, Т. В. (2005). Гендарная психология (430 с.). Санкт-Петербург.
7. Бэрон, Р., & Ричардсон, Д. (2000). Агрессия (351 с.). Санкт-Петербург.

BRONXİAL ASTMA XƏSTƏLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Sevər Sərvət qızı Mirzəyeva
psixologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
sevar.mirzayeva@sdu.edu.az
ORCİD ID: 0000-0001-9861-5211
Sevinc Arif qızı Kərimova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Sumqayıt Dövlət Universiteti
sevinc.karimova@sdu.edu.az
ORCİD ID: 0000-0002-1827-8524

Açar sözlər: bronxial astma, şəxsiyyət, pozuntu, “ Mən-obraz”, adaptasiya.

Xülasə. Xroniki somatik xəstəliklərin tibbi və psixoloji aspektdə xəstəlikdən əziyyət çəkən şəxslər üzərində yaratdığı mənfi təsirləri bütün dünyada hər zaman aktual olmuşdur. Bununla bağlı bir çox araşdırmalar aparılmış və əldə edilən nəticələr əsasında yeni istiqamətlər formalaşdırılmışdır. Belə ki, onların şəxsiyyətində baş verən ciddi dəyişikliklər bizləri onların şəxsiyyət psixologiyalarının öyrənilməsinə vadar edir. Bəzi xəstəliklərin yaranma və inkişafına

psixoloji faktorlar ciddi təsir göstərməkdədir. Bu təsir xəstəliyə meyllilik, xəstəliyi ortaya çıxarma, yeniləmə və şiddətləndirmə formasında olur. Bütün bunlar nəzərə alınaraq xəstəliklər tibbi, psixoloji və fizioloji olaraq ələ alınmaqdadır. Bronxial astmanın tibbi təsvirindən sonra klinik psixologiya və psixofiziologiyada aparılmış tədqiqatlar əsasında da araşdırılması vacibdir. Diabet, oynaq ağrıları, cinsi funksiya pozuntuları, irritabl (həssaslıq) bağırsaq sindromu, bronxial astma və bunun kimi bir çox xəstəliklər müəyyən təsnifat əsasında psixosomatik xəstəliklərə aid edilir. Psixosomatik tibb, ruh və bədən ahənginə fokuslanır, onlar arasındakı qarşılıqlı əlaqədən bəhs edir. Bronxial astmalı xəstələrin çoxyönlü qiymətləndirilməsi lazımdır. Astma diaqnozu qoyulmuş şəxsin mübarizəsində fiziki problemlərlə yanaşı, yaşanacaq emosional reaksiyaların qiymətləndirilməsi xəstəliyə və müalicəyə uyğunlaşmasını artıracaqdır. Xəstəliyin bütün məsuliyyətini üzərinə götürən "özünənəzarət" termini astmalı fərd üçün vacibdir. Özünənəzarətin nə dərəcə də güclü olması şəxsin xəstəliyini necə qəbul etməsi və bu xəstəlik müddətində istənilən davranış dəyişikliklərini hansı dərəcədə həyata keçirməsi ilə əlaqədardır. Bütün bunlar isə psixososial dəyərləndirmə zamanı gücləndirilə bilər. Bronxial astma xəstəliyi insanların zehni, emosional, davranış və sosial münasibət sferalarında bir sıra dəyişikliklərə səbəb olur. Bunlar xəstəliyin qavranılması zamanı ortaya çıxa biləcək stress, narahatlıq və təşviş kimi xəstəliyin gedişinə və qan şəkəri tənzimləməsinə təsir edə biləcək psixoloji reaksiyalardır.

Keywords: bronchial asthma, personality, disorder, "Mem-image", adaptation.

Summary. The negative effects of chronic somatic diseases on individuals suffering from them, both medically and psychologically, have always been a globally relevant issue. Numerous studies have been conducted on this topic, and new directions have been developed based on the obtained results. Significant changes occurring in the personality of these individuals encourage us to study their personality psychology. Psychological factors play a crucial role in the emergence and development of certain diseases. This influence manifests in the form of predisposition to illness, triggering, recurrence, and exacerbation of the disease. Considering all these aspects, diseases are addressed from medical, psychological, and physiological perspectives.

After the medical description of bronchial asthma, it is also important to investigate it based on studies conducted in clinical psychology and psychophysiology. Diseases such as diabetes, joint pain, sexual dysfunction, irritable bowel syndrome, bronchial asthma, and others are classified as psychosomatic disorders based on certain criteria. Psychosomatic medicine focuses on the harmony between mind and body and discusses the interaction between them.

A multidimensional evaluation of patients with bronchial asthma is necessary. In addition to physical problems, assessing the emotional reactions experienced by individuals diagnosed with asthma will improve their adaptation to the disease and its treatment. The concept of “self-control,” which implies taking full responsibility for the disease, is essential for individuals with asthma. The strength of self-control depends on how the person accepts their illness and to what extent they implement behavioral changes during the course of the disease. All these aspects can be strengthened through psychosocial assessment. Bronchial asthma leads to various changes in individuals’ mental, emotional, behavioral, and social domains. These include psychological reactions such as stress, anxiety, and distress that may arise during the perception of the disease and can affect its course as well as blood sugar regulation.

Anahtar kelimeler: bronşiyal astım, kişilik, bozukluk, "Mem-imajı", adaptasyon.

Özet. Kronik somatik hastalıkların, bu hastalıklardan muzdarip bireyler üzerindeki tıbbi ve psikolojik olumsuz etkileri dünya genelinde her zaman güncelliğini koruyan bir konu olmuştur. Bu

alanda birçok araştırma yapılmış ve elde edilen sonuçlara dayanarak yeni yaklaşımlar geliştirilmiştir. Bu bireylerin kişiliklerinde meydana gelen ciddi değişimler, onların kişilik psikolojilerinin incelenmesini gerekli kılmaktadır. Bazı hastalıkların ortaya çıkışı ve gelişiminde psikolojik faktörler önemli rol oynamaktadır. Bu etki, hastalığa yatkınlık, hastalığın ortaya çıkması, tekrarlaması ve şiddetlenmesi şeklinde görülmektedir. Tüm bu faktörler göz önünde bulundurularak hastalıklar tıbbi, psikolojik ve fizyolojik açıdan ele alınmaktadır.

Bronşiyal astımın tıbbi tanımından sonra, klinik psikoloji ve psikofizyoloji alanlarında yapılan araştırmalar doğrultusunda incelenmesi de önemlidir. Diyabet, eklem ağrıları, cinsel işlev bozuklukları, irritabl (hassas) bağırsak sendromu, bronşiyal astım ve benzeri birçok hastalık belirli bir sınıflandırmaya göre psikosomatik hastalıklar arasında yer almaktadır. Psikosomatik tıp, zihin ve beden uyumuna odaklanır ve aralarındaki etkileşimi ele alır.

Bronşiyal astım hastalarının çok yönlü değerlendirilmesi gereklidir. Astım tanısı konulan bireyin mücadelesinde, fiziksel sorunların yanı sıra yaşanan duygusal tepkilerin değerlendirilmesi, hastalığa ve tedaviye uyumunu artıracaktır. Hastalığın tüm sorumluluğunu üstlenmeyi ifade eden “öz denetim” kavramı astımlı birey için oldukça önemlidir. Öz denetimin ne derece güçlü olduğu, kişinin hastalığını nasıl kabul ettiği ve hastalık sürecinde davranış değişikliklerini ne ölçüde uyguladığı ile ilişkilidir. Tüm bunlar psikososyal değerlendirme ile güçlendirilebilir.

Bronşiyal astım, bireylerin zihinsel, duygusal, davranışsal ve sosyal ilişkiler alanlarında çeşitli değişikliklere yol açar. Bunlar arasında hastalığın algılanması sürecinde ortaya çıkan stres, kaygı ve endişe gibi, hastalığın seyrini ve kan şekeri düzenlenmesini etkileyebilecek psikolojik tepkiler yer almaktadır.

Məlumdur ki, hər bir ağır xəstəlik, o cümlədən bronxial astma insanın öz fəaliyyət motivlərini həyata keçirməsinə ciddi əngəllər törədir. Digər tərəfdən, xəstəliyin təsiri nəticəsində xəstələrin davranışında özünə məxsus psixoloji müdafiə mexanizmləri təzahür edir. Təcrübə göstərir ki, hətta astmalı xəstələr öz vəziyyətlərinin ağır olduğunu başa düşdükləri məqamlarda belə özlərinə və ətrafdakı adamlara sanki heç bir ciddi hadisə baş vermədiyini anlatmaq istəyirlər. Onlar özlərini gümrah aparır və tezliklə əvvəlki iş yerlərinə, məşğuliyyətlərinə qayıtmaq və bununla da sosial qrupdakı mövqe və statuslarını bərpa etməyə çalışırlar. Bir çox tanınmış klinisistlərinin əsərlərində çox parlaq misallarla maraqlı psixoloji fenomenlər təsvir edilir. Məsələn, xəstələr vəziyyətlərinin ağır olmasına baxmayaraq, onlar hamıya, o cümlədən həkimlərə sübut etməyə çalışırlar ki, tam sağlamdırlar, özlərini gümrah hiss edirlər və xəstəxanada yatmağın əhəmiyyəti yoxdur. Görkəmli psixoloq və psixoterapevt Q.Ollport yazır ki, Avstriyanın əyalət hospitallarından birində həkimlər xəstə kişiyə onun xəstəliyinin nə olduğunu bilmədiklərini deyirlər. Həmçinin bildirirlər ki, əgər onun xəstəliyinin diaqnozunu bilsəydilər, onu hökmən sağaldardılar. Bununla yanaşı xəstəyə bildirilir ki, yaxın zamanlarda hospitala məşhur «diaqnostik» gələcək və əgər onun xəstəliyinin diaqnozu müəyyənləşərsə, o, sağalacaq. Bir müddət sonra diaqnostik hospitala gəlir və həmin xəstənin çarpayısına yaxınlaşaraq üzünə baxır və deyir: «moribundus» (latınca – «öləcək»). Bir neçə ildən sonra xəstə diaqnostikə zəng edib deyir ki, sizə təşəkkür edirəm. Çünki mənə demişdilər ki, əgər siz mənə diaqnoz qoysanız, onda sağalacam. Siz diaqnoz qoydunuz və mən sağaldım (Allport, 1998). Q.Ollportun fikrincə, bu hadisənin hikməti ondan ibarətdir ki, insanın həyatı, onun sağlamlığı əksər hallarda «yönəliş» və «gözləmədən» asılı olur. Bütün bunlar onu göstərir ki, xəstəliyin dərk edilməsi insanın xəstəliyə qədərki motivasiya sahəsi ilə sıxı əlaqədədir. A.N.Leontyev insanın motivasiya sahəsini 2 növə: «çoxzirvəli» və «təkzirvəli» bölür. Xəstəlik diaqnozundan sonra «Təkzirvəli» motivasiya sahəsinə sahib insanlar öz həyatlarını yenidən

qurmaqda çətinlik çəkirlər. İkinci səbəbin-motivin yaranması xeyli çətinləşir ki, bu da onları yenidən həyatlarını davam etdirməyə, yaşamağa, fəallığa sövq edə bilmir. Xüsusən də, xəstəyə daim onunla olacaq və heç vaxt sağalmayacaq xəstəliyə düçar olduğu bəlli olduqda çeviklik, tənqidilik və müstəqillik kimi keyfiyyətlər zəifləyir. Digər motivasiya növündən fərqli olaraq «Çoxzirvəli» motivasiya sahəsinə malik şəxslər həyatlarını idarə etmə və davranışlarda daha çevik olurlar (Асмолов, 1990). Ədəbiyyatın təhlili, empirik material və müşahidələr göstərir ki, astmalı xəstələrdə də motivasiya sahəsinin iki növünü ayırmaq olar. «Çoxzirvəli» motivasiya sahəsinə malik olan xəstələr yenidən öz həyatlarını qurmağı, onu mənalandırmağı,yeni münasibətlər sistemi ilə zənginləşdirməyi bacarırlar. Bununla əlaqədar klinikada ən çox rast gəlinən hadisə xəstəyə, o cümlədən astmalı xəstələrə sağalmaz xəstəliyə düçar olduqları bəlli olan zaman bir şəxsiyyət kimi «sınmaları»nın ciddi problemlər yaratmağıdır. Başqa sözlə, xəstəliklə yanaşı xəstədə ciddi şəxsiyyət dəyişkənliyi də müşahidə edilməyə başlayır. Qəflətən yaranmış stres və ya frustrasiya halı onların iradi, intellektual və motivasiya sahələrinə dərindən nüfuz edir və xəstələri müəyyən dəyişikliklərə məruz qoyur. Somatik xəstəliklər zamanı xəstə öz vəziyyətinə obyektiv çərçivədən baxmaqda çətinlik çəkir. Bu zaman xəstəliyin “subyektiv səviyyəsi” adlanan bir anlayışdan bəhs etmək olar. Subyektiv səviyyə xəstənin öz sağlamlıq vəziyyətini necə emosionallıqla dəyərləndirdiyini özündə əks etdirir. Bu zaman xəstədə mənfi emosional qavrama yarana bilər ki, bu da subyektiv nasazlığa səbəb olur. Xəstəlik və ya problemli durumla bağlı emosional şikayətlərin intensiveliyinin ümumi qiyməti şəxsiyyətin psixi statusunu müəyyən edən çox əhəmiyyətli faktordur. Yəni, insan öz sağlamlığı ilə bağlı kiçik bir narahatlıq yaşayanda belə müxtəlif naxoşluqlar keçirir və normal emosional vəziyyətinə əlavə psixosomatik fon verir (Abbasova & Cəfərova, 2014). Bronxial astmali xəstələrdə psixika təzyiq altında qalır və bu zaman şəxslərdə distimiya, depressiya, apatiya, hipotemiya, çaşqınlıq, həyəcan, qorxu, sərsəm əhvaliruhiyyə kimi emosinal vəziyyətlər görülür. Xəstədə qeyri-adekvat emosional qiymətləndirmə yarandıqdan sonra xarici təsirlərə qarşı (mənfi və ya müsbət) başqa cür reaksiya verməyə başlayır. Əgər qorxusuna qarşı çox böyük səylə cəsurluq təlqin edilərsə, o zaman onda mövcud olan qorxu hissi daha da artacaqdır. Bronxial astmadən əziyyət çəkən xəstələrdə sinir sistemi, maddələr mübadiləsi və onlarla bağlı sahələrinin işinin pozulmasına səbəbi ilə, gerçəkliyin emosional və bəzən də intellektual inikasında dəyişikliklər yaranır. Belə bir vəziyyətdə hətta intellekt, zəka və iradə belə yaranan qeyri-adekvat emosional reaksiyaların öhdəsindən gəlmir və əlaqə yaranmır. İntellekt travma, stress, və s. səbəblərə görə şəxsiyyət üçün əhəmiyyətli olan adekvat emosional proqramları aşkar etmir və həyat boyu toplanmış emosional davranış stereotiplərini işə sala bilmir. Onun yerinə qeyri-adekvat emosional proqramlar işə düşür. Astmalı xəstələrdə emosional vəziyyətin bərpa edilməsi üçün tibbi və psixoterapevtik yardım, o cümlədən də ətrafdakıların yardımı lazımdır. Çünki onlarda bu vəziyyət psixi pozğunluq həddinə çata bilər, yəni psixopatoloji forma ala bilər. Psixopatoloji pozulma somatik xəstəliklər, bir çox xarici səbəblər, beynin üzvi zədələnmələri, sinir sisteminin qüsurları zamanı yaranan sinir-psixi tonusunun dəyişilməsindən ortaya çıxır (Abbasova & Cəfərova, 2014). Endokrinoloji xəstəlik hesab olunan astma xəstəliyinin gedişindən və xarakterindən asılı olaraq müxtəlif şəxsiyyət dəyişkənliklərinə və ya pozuntularına gətirib çıxarır. Şəxsiyyət pozuntuları öz növbəsində xəstəliyin gedişinə təsir göstərərək sağalmasına mane olur, dərinləşdirir, müxtəlif fəsadlara yol açır. Astmalı xəstələrdə şəxsiyyət dəyişkənliyi dedikdə, ayrı-ayrı psixi proseslər, xarakter xüsusiyyətləri, davranış tərzlərində baş verən dəyişikliklər nəzərdə tutulur. Buna görə də şəxsiyyət pozuntusundan söz açarkən şəxsiyyət və psixi proseslərin formalaşma mexanizminə nəzər salmaq lazımdır. Astma xəstəliyindən əziyyət çəkən xəstələrdə şəxsiyyət pozuntusu iki istiqamətdə;

xəstəlik sayəsində şəxsiyyət dəyişkənliyinin yaranması və mövcud olan şəxsiyyət dəyişkənliyinin xəstəliyin yaranmasının başlıca şərti kimi araşdırılmalıdır. Endokrinoloji və psixosomatik xəstəliklərin tədqiqi nəticəsi göstərir ki, bronxial astma xəstəliyində şəxsiyyətin strukturunda ciddi dəyişikliklər və psixi pozuntular yaranır. Bu pozuntular daha sonra xəstəliyin gedişinə və xəstənin şəxsiyyətinə təsir göstərən amillərə çevrilir. Şəxs orqanizminin bir hissəsində gedən dəyişikliklər ilə bağlı «natamamlıq hissi» yaşayır ki, bu da onun şəxsiyyətinin strukturuna təsir göstərir. Diaqnozun xarakteri, xəstədə baş verən xarici görkəm dəyişiklikləri, sosial ətraf və eləcə də ailə daxilində fərqli yanaşmalar və s. amillər şəxsiyyətin xəstəliyə qarşı olan reaksiyasına ciddi təsir göstərir. Bir çox tədqiqatçının apardığı araşdırma nəticələri, şəxsiyyətin strukturunda yaranan problemləri astmalıi şəxsin şəxsiyyətini qəbul etdiyi qida ilə eyniləşdirməsindən irəli gəldiyini göstərmişdir. Tədqiqatçı F.Aleksander somatik xəstəliklər və həmçinin bronxial astma ilə bağlı bir çox araşdırmalar aparmışdır. O, diabetli şəxslərdə görülən şəxsiyyət pozuntusunu insanın özünü zəif hiss etməsi (qayğısına qalınması və başqalarından asılılıq) ilə əlaqələndirir (Александер, 2002). S.Bleyer bronxial astmanın tipləri və şəxsiyyət pozuntuları arasındakı əlaqəni araşdırmışdır. Bu araşdırmanın təhlili II tip xəstələrdə şəxsiyyət pozuntularının depressiyaya meylli olduğunu göstərir. Onlar eqo sinoton şəxsiyyətlər olaraq gərginlik müşahidə olunan vəziyyətlərdə depressiyaya meylli olurlar. Şəxsiyyətin sabit keyfiyyətlərinin itirilməsinə bir səbəb olaraq da, onun sahib olduğu xəstəlik ilə bağlı olaraq həyatında apardığı mübarizə və qaçış göstərilir. Bronxial astmadən əziyyət çəkən xəstələr daha çox aksentuasiyalı şəxsiyyətlər hesab edilir. Aksentuasiyalı şəxsiyyətlər oyanıq, tormoz, qeyri-sabit və rigid tiplərə bölünür:

-oyanıq tip aksentuasiyalı (ekspressiv) şəxsiyyət – hadisələri tez anlayır, xüsusi şəraitdə emosional tarazlığı pozulur, yüksək iddia səviyyəsinə sahibdir. Somatik xəstəliyin baş verməsində şəxsiyyətin bioloji səviyyəsinə əsaslanır, elementar həyati göstəricilərin pozulmasını qeyd edirlər;

-tormoz tip aksentuasiyalı şəxsiyyət (impressiv) – intravert, cəsarətsiz, diqqətsiz, həmçinin xəstəliklər zamanı özünü və xəstəliyi qiymətləndirmə qabiliyyətinə sahibdir. Onlar xəstəliklərini daha ağır qiymətləndirir, yeni əmək və yaşayış şəraitinə çətin uyğunlaşırlar;

-qeyri-sabit (impulsiv) aksentuasiyalı şəxsiyyət – labil, emotiv, təşəbbüskar, qeyri-dəqiq yönəliş və iddia səviyyəsinə sahibdir. Onlar xəstəliklərini qiymətləndirərkən fikirlərini və xəstəliyə olan münasibətlərini tez-tez dəyişir, xəstəliyin nəticələrini səhv qiymətləndirirlər;

-rigid (torpid) tip aksentuasiyalı şəxsiyyət – asta və hərəki zəiflik, bir işdən başqa bir işə keçmədə çətinlik, sözü düz üzə demək xüsusiyyətlərinə malikdir. Həmçinin «hipersosiallıq» görülməkdədir. Yəni, xəstəlik diaqnozu aldığı zaman ilk öncə onu inkar edir və laqeyd yanaşır. Daha sonra xəstəliyin ağırlaşması mərhələsində vəziyyətin fərqinə varır və emosional gərginlik yaşayırlar. Rigid tip astmalı şəxslər xəstəlik zamanı sosial fəaliyyətlərini tez itirirlər.

Bronxial astma zamanı şəxsiyyət pozuntusu xəstəliyi dərk etmə səviyyəsindən, xəstənin özünəinamından, özünüqiymətləndirməsindən, emosional vəziyyətindən, o cümlədən adaptasiya prosesindən asılı olaraq yaranır. Özünü dərk edə bilən və ya şəxsiyyəti düzgün psixoloji çərçivədə qurulmuş insanların xəstəlik və digər problemli vəziyyətləri qiymətləndirməsi, adaptasiya müddəti vəziyyətə uyğun normal şəkildə yaşanır. şəxslərlərdə şəxsiyyət pozuntusundan bəhs edərkən «mən-obraz»ında baş verən psixoloji dəyişikliklərin əlamətlərini öyrəmək vacibdir. Astmalı şəxslərdə şəxsiyyət pozuntusu araşdırılarkən baş verən problemlərin sistemli şəkildə «Mən-obraz»ının deformasiyasına gətirib çıxardığı görülür. Dərketmə aspektində yaranan fəsadlar «Mən-obraz»ında dəyişiklik törədir. Bu fəsadlar insanın özünü adekvat dərk edə bilməməsi, «Mən»inə adekvat münasibət bəsləməməsi və öz daxili ziddiyyətlərini dəf edə bilməməsi ilə xarakterizə olunur. «Mən-

obraz»ın özünüdərketmə elementi ayrı-ayrı müəlliflər tərəfindən müxtəlif konteksdə qiymətləndirilmişdir. Hətta İ.İ.Çesnakova fərqli olaraq «Mən-obraz»ını özünüdərkin (özünənəzarət, özünə emosional qiymət, özünütənzim etmə) komponenti kimi qeyd etmişdir (Чеснакова, 2000). Astmalı şəxs orqanizminin bir hissəsində baş verən narahatlıqla birlikdə natamamlıq hiss edir və özünəinamsızlıq yaranır, özünüqiymətləndirmə aşağı düşür. «Mən-obraz»da yaranan dəyişiklik və bronxial astmain formalaşmasını R.Rudolf özünün psixosomatik konsepsiyasında 7 formada qruplaşdırmışdır. Onlardan biri budur ki, yeməyin köməyi ilə konfliktlər və qeyri-oral tələbatlar ödənilə bilir. Bu zaman piylənmə və aclıq duyğusu hiperklemiya və insulin aparatının yorulmasına səbəb ola biləcək dərəcədə güclənir. Onlarda «hər şeyi» «yeməklə» eyniləşdirmək vərdişi formalaşır. Beləliklə, «mən-obraz»ın strukturunda təhrif olunumuş qavrama formaları yer alır (Малина-Пых, 2005). İnsan özünü psixoloji olaraq diskomfort hiss etdiyi zaman şəxsiyyətin disharmoniyası yaranır. Ona görə də, insanlar daim şüurlu və ya şüursuz formada daxili razılığı qorumaq və artırmaq üçün çalışırlar. Xəstəlik diaqnozu aldıqları zaman isə «bütün» nün tarazlığı pozulur və bu «Mən-obraz»nın strukturuna zərər verir. Astmalı şəxslərin «Mən-obraz»ında bütövlükdə deyil, onun ayrı-ayrı elementlərində deformasiya baş verir. Bu deformasiya daha çox özünüqiymətləndirmə və özünütənzimetmə aspektlərində müşahidə olunur. Özünüqiymətləndirmə-nin doğru təhlili «ideal mən» və «real mən» obrazının müqayisə edilməsi zamanı özünü biruzə verir. Hər ikisinin bir-birinə uyğun gəlməsi psixi sağlamlığın təmin edildiyini göstərir. Astmalı şəxslərdə bu harmoniya pozulur və «Mən-obraz»da bütünlüyün itməsinə gətirib çıxarır. Festinger bunu «koqnitiv dissonans» – daxili harmoniyanı qorumaq üçün müxtəlif hərəkətlər həyata keçirmək adlandırır. Xəstə bu tarazlığı qorumağa çalışarkən dilemma qarşısında qala bilir. O, ya hadisə və gerçəkliyin real görüntüsündən ya da «Mən-obraz»dan imtina edib, onu dəyişdirməyə çalışır. «Mən-obraz»ın struktur elementi olan özünüqiymətləndirmənin zəifləməsi öz qabiliyyətlərinə inanmamaq, gələcəyə ümidsizlik, depressiya halları formasında müşahidə olunur. Həmçinin, özünüqiymətləndirmə insanın başqa insanlarla qarşılıqlı münasibətləri, iş fəalliyyəti, ayrı-ayrı həyati situasiyalarda davranış və rəftarı kimi özünü göstərir. İnsan üçün onun özü-özünü qiymətləndirməsi ilə yanaşı, başqalarının onun davranış və rəftarını qiymətləndirməsi də əhəmiyyət kəsb edir. Bu «gözlənilən qiymət» adlanır. Astmalı şəxs üçün «real-mən» və «ideal-mən» müqayisəsi ilə yanaşı, «gözlənilən qiymət» və «real qiymət» müqayisəsi də önəmlidir. Xəstəlik zamanı insanların onu fərqli şəkildə qiymətləndirdiyini düşünən diabetli şəxsin özünüqiymətləndirməsi aşağı səviyyəyə düşür. Belə halda psixoloji dəstək insanın özünü yenidən normal dəyərləndirməsinə kömək edir. Şəxsiyyət daxili konflikt xarici mühitə aqressiv formada əks olunursa, diabetli şəxsin «Mən»ində ciddi deformasiyalar ortaya çıxır. «Mən-obraz»nın 3-cü elementi olan özünütənzimetmə pozulduğu zaman şəxsdə homoestatik balansın qorunmasına diqqət yetirmək lazımdır. Digər halda «Mən-obraz»nın rekonstruksiyası çətinləşir. Homoestatik balans fizioloji və psixoloji səbəblərdən pozulur. Nəticədə bir sıra somatik və endokrinoloji xəstəliklər, o cümlədən bronxial astma xəstəliyi meydana çıxır. Astmalı şəxslərdə özünənəzarət pozulduğu zaman müdafiə mexanizmləri (dəyərlər sisteminin dəyişməsi, iddia səviyyəsinin aşağı düşməsi, yeni davranış tərzlərinin meydana çıxması və s.) işə düşür. Müdafiə mexanizmləri şəxsiyyət və mühit arasındakı balansın tarazlanmasına xidmət edir.

Ədəbiyyat:

1. Abbasova, Q. Y., & Cəfərova, B. Y. (2014). Psixodiaqnostika: Metodikalar və testlər. Bakı.
2. Александер, Ф. (2002). Психосоматическая медицина. Москва: Эксмо.
3. Асмолов, А. Г. (1990). Психология личности. Москва.

4. Allport, G. W. (1998). Личность в психологии. Санкт-Петербург: Ювента.

5. Чеснакова, И. И. (2000). Проблемы самосознания личности. Москва.

6. Малина-Пых, И. Г. (2005). Психосоматика и эндокринные заболевания. Санкт-Петербург: БХВ-Петербург.

İNSAN PSİXOLOGİYASINA HORMONLARIN TƏSİRİ

Nizami Əlisahib oğlu Əkbərov
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Kimya üzrə fəlsəfə doktoru, dosent
nizamiakbarov60@gmail.com
ORCİD ID: 0009-0005-4611-8754
Yeganə Baxış qızı Əskərova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Psixologiya üzrə fəlsəfə foktoru, baş müəllim
y.askerova@inbox.ru
ORCİD ID: 0000-0002-0590-9630

Açar sözlər. hormon, insan bədəni, psixologiya, fikirlərini reallığı, adrenalin, kortizol, dopamin.

Xülasə. Məqalə hormonlar haqqında qısa məlumata və onların insan psixologiyasına göstərdiyi təsirə həsr edilmişdir. Qeyd olunmuşdur ki, bəzi hormonlar insan sağlamlığına ciddi təsir etdiyi kimi, onların psixoloji durumuna da bu və ya digər dərəcədə təsir göstərə bilir. Kimyaçı-sintetiklərin də psixoloji halları bəzi hormonlarla sıx əlaqəlidir. Bəzi hormonlar, məsələn, adrenalin, kortizol, serotonin, dopamin, oksitosin və tiroksin kimi hormonıaın insan orqanizminə göstərdiyi təsirlər insanda müəyyən halların yaranmasına gətirib çıxardır. İnsanlarda narahatlıq doğuran ehtiyacların olması və onların aradan qaldırılması yuxarıda göstərilən hormonlar haqqındakı kimyəvi biliklərlə tənzimlənə və aradan qaldırıla bilər. Məqalədə, həmşinin, göstərilir ki, kimyaçılar narahat olduqları halda fikirlərini reallığa doğru tənzimləməlidirlər. Çünki fikirlər hər bir anda narahatçılıq yarada bilir. Bu fikirlər ya şüurlu, ya da kortəbii ola bilər. Onların da narahatçılıq yaradan əsas şərti nevrotik reaksiyalardır. Başqa sözlə, insan beynində təkcə narahat fikirlər deyil, həm də onlara qarşı reaksiyalar mövcuddur. Belə olan hallarda narahatçılıq yaradan fikirlər haqqında düşünməməyə çalışmaq lazımdır. Bu zaman neqativ fikirlərin sizi hara apara biləcəyi barədə düşünə və ya özünüzü özünüzə nəzarət etməyə məcbur edə bilərsiniz. Bütün bu kimi hallarda narahatlıq - narahat fikirləriniz tərəfindən aktiv şəkildə stimullaşdırılır və bu da yalnız onların sayını artırır. Burada vacib hesab edilən budur: narahat fikirlərinizdə nevrotik reaksiyaların olması, fikirlərlə işləyən istənilən psixoterapevtik metodlardan istifadə edərək, narahatlığınızı aktiv şəkildə həll etməyə imkan verir. Narahatlıq hallarında orqanizmdə adrenalin və kortizol hormonlarının olması səbəbindən trankvilizatorların qəbulu stress narahatlığına müəyyən bir təsir göstərir.

Keywords: hormone, human body, psychology, alignment of thoughts with reality, adrenaline, cortisol, dopamine.

Summary. The article is devoted to brief information about hormones and their effects on human psychology. It is noted that while certain hormones have a significant impact on human health, they can also influence psychological states to varying degrees. The psychological conditions of synthetic chemists are also closely related to certain hormones.

Some hormones, such as adrenaline, cortisol, serotonin, dopamine, oxytocin, and thyroxine, produce specific effects in the human body that lead to the emergence of particular conditions. The presence of anxiety-inducing needs in individuals and their elimination can be regulated through chemical knowledge of the hormones mentioned above.

The article also emphasizes that when chemists feel anxious, they should regulate their thoughts toward reality, as thoughts at any moment can generate anxiety. These thoughts may be either conscious or spontaneous, and their primary cause of anxiety is linked to neurotic reactions. In other words, the human brain contains not only anxious thoughts but also reactions to them.

In such situations, it is important to try not to dwell on anxiety-provoking thoughts. Instead, one may reflect on where negative thoughts could lead or consciously attempt to exercise self-control. In all such cases, anxiety is actively stimulated by anxious thoughts themselves, which in turn increases their frequency.

An important point highlighted is that the presence of neurotic reactions within anxious thoughts allows individuals to actively manage anxiety using various psychotherapeutic methods that focus on working with thoughts.

Anahtar kelimeler: hormon, insan vücudu, psikoloji, düşüncelerin gerçekliğe uyarlanması, adrenalin, kortizol, dopamin.

Özet. Makale, hormonlar hakkında kısa bilgiler ve bunların insan psikolojisi üzerindeki etkilerine ayrılmıştır. Bazı hormonların insan sağlığı üzerinde ciddi etkilerinin olduğu gibi, psikolojik durum üzerinde de farklı derecelerde etkili olabildiği belirtilmiştir. Sentetik kimyacıların psikolojik durumları da bazı hormonlarla yakından ilişkilidir.

Adrenalin, kortizol, serotonin, dopamin, oksitosin ve tiroksin gibi hormonlar insan organizması üzerinde belirli etkiler yaratarak bazı durumların ortaya çıkmasına neden olur. İnsanlarda kaygıya yol açan ihtiyaçların varlığı ve bunların giderilmesi, yukarıda belirtilen hormonlara ilişkin kimyasal bilgilerle düzenlenebilir ve kontrol altına alınabilir.

Makalede ayrıca, kimyacıların kaygılı oldukları durumlarda düşüncelerini gerçekliğe uygun şekilde düzenlemeleri gerektiği vurgulanmaktadır. Çünkü düşünceler her an kaygı yaratabilir. Bu düşünceler bilinçli ya da kendiliğinden ortaya çıkabilir ve kaygıya yol açan temel unsur nevrotik tepkilerdir. Başka bir deyişle, insan beyninde sadece kaygı verici düşünceler değil, aynı zamanda bu düşüncelere verilen tepkiler de mevcuttur.

Bu gibi durumlarda, kaygı yaratan düşünceler üzerinde yoğunlaşmamaya çalışmak gerekir. Bunun yerine, olumsuz düşüncelerin insanı nereye götürebileceği üzerine düşünmek ya da kişinin kendini kontrol etmeye yönlendirmesi faydalı olabilir. Bu tür durumlarda kaygı, doğrudan kaygı verici düşünceler tarafından tetiklenir ve bu da onların sayısını artırır.

Önemli olan nokta şudur: Kaygı verici düşüncelerde nevrotik tepkilerin bulunması, düşüncelerle çalışan çeşitli psikoterapötik yöntemler aracılığıyla kaygının aktif şekilde yönetilmesine olanak tanır.

Kaygı durumlarında, organizmada adrenalin ve kortizol hormonlarının bulunması nedeniyle, trankilizanların kullanımı stres kaynaklı kaygı üzerinde belirli bir etki gösterebilir.

Hormonlar - xüsusi üzv və toxumalarda hazırlanaraq, həm qana, həm də limfaya ifraz olunan, bədəndəki orqanların hamısına (onların funksiyalarına) təsir edə bilən, mürəkkəb quruluşlu spesifik bioloji aktiv maddələrdir. Hormon sözü yunanca hərəkətə gətirmək mənasını verir. Hormon termini ilk dəfə elmə 1905-ci ildə E. Ştarlinq tərəfindən təklif olunmuşdur. Aparılmış çoxsaylı elmi tədqiqatlar sayəsində məlum olmuşdur ki, hormonlar daxili sekresiya vəzilərində əmələ gəlir və qanın köməkliyilə bədənin bütün toxumalarına transfer edilərək, bütün katabolizm və fizioloji proseslərdə aktiv surətdə iştirak edir (Головкин, Б. Н., и др.,2002).

İnsan bədənində hormon mübadiləsinin dəyişməsilə əlaqədar olaraq, bəzi xəstəliklər də əmələ gələ bilər. Bunlara aşağıda qeyd olunanları misal olaraq göstərmək mümkündür (Quliyev, A. Ə., Həsənov, T. H., Güləhmədov, S. Q., 2004):

1. şəkərli diabet
2. şəkərsiz diabet
3. tunc xəstəliyi
4. diffuz tirotoksik ur xəstəliyi və b.

Hormonal vəzilər (onlarda hormanlar sintez olunur) iki əsas tipə ayrılır:

1. endokrin
2. ekzokrin.

Ekzokrin vəzilər və ya xarici sekrasiya vəziləri - hazır-ladığı hormonu (sekreti) bədənin həm xaricinə, həm də onun boşluqlarına axıdır. Onlara əsas etibarilə aşağıdakılar aid edilir:

1. həzm aparatının vəziləri
2. tər vəziləri
3. piy vəziləri
4. Öd vəziləri
5. prostat vəzi və b.

Endokrin və ya daxili sekresiya vəziləri – bədən xaricinə axacağı olmayan vəzilər olub, hazırladıqları hormonlarını və digər mayeləri qaqna yaxud limfaya buraxır. Onlara aşağıdakılar daxil edilir:

1. hipotalamus
2. hipofiz
3. epifiz
4. çəngələbənzər vəz
5. qalxanabənzər vəz
6. qadın cinsiyyət vəziləri
7. kişi cinsiyyət vəziləri
8. mədəaltı vəz və b. (Schmuck, C., Wennemers, H. 2004).

Hormonlar hüceyrələrdən bioploji majelərə transfer olunaraq, bədəndə müəyyən qeyri-spesifik dəyişikliklər yarada bilir. Onlar həm çox böyük bioloji aktivliyə qabildir, həm də insanın həyat fəaliyyətinin bütün proseslərində fəal iştirakçılar kimi çıxış edir.

Bir çox fənlərin, o cümlədən, kimyanın psixologiya ilə əlaqəsi mövcuddur. Məsələn, hər bir kimyaçı gündəlik həyatında, kimya laboratoriyasında zəhərli kimyəvi reaktivlərlə işləyən zaman, şübhəsiz müəyyən gərginliyə və narahatçılığa məruz qalır. Bu, normal hal hesab oluna bilər. Lakin narahatçılıqlar dözülməz hala gəldikdə kimyaçı-sintetikin həyatında, gündəlik iş rejimində bir çox şey dəyişə bilər. Bəzən dözülməz narahatçılıqlar kimyaçının həyatını tamamilə zəhərləyə və ciddi fəsadlara səbəb ola bilər. Belə halın yaranma səbəblərindən biri də laboratoriyada uzun zəhmət

hesabına aparılan təcrübənin gözlənilən nəticəni verməməsi və xeyli zaman ərzində çəkilən zəhmətin effeksizliyidir. Belə olan hallarda psixologiya elmi məsləhət bilir ki, hadisələrə soyuqqanlı yanaşmaq, baş verənləri ciddi təhlil etmək və “Nəticənin alınmamasının özü də bir nəticədir” prinsipi üzrə sakitləşməyə çalışmaq lazımdır. Başa düşmək lazımdır ki, təcrübəni bu şəraitdə apardım, lakin gözlənilən nəticə alınmadısa, deməli, başqa, daha optimal şərait axtarıb tapmaq lazımdır. Və bütün bunlar soyuqqanlılıqla, səbr və təmkinlə digər şəraitlər də təcrübi olaraq yoxlanılmalıdır. Çünki nəzərə almaq lazımdır ki, hər şey – aparılan bütün elmi tədqiqatlar, təcrübələr və s. yalnız insan sağlamlığına, onun psixoloji durumunun normal olmasına xidmət edir (Громова, Н. Ю., Косивцов, Ю. Ю., Сульман, Э. М. 2006).

Bəs kimyaçılar narahat olduqları halda nə etməlidirlər? Psixoloqlar qeyd edirlər ki, onlar soyuqqanlılıqla:

1. Fikirlərini reallığa doğru tənzimləməlidirlər. Çünki fikirlər hər bir anda narahatçılıq yarada bilir. Bu fikirlər ya şüurlu, ya da kortəbii ola bilər. Onların da narahatçılıq yaradan əsas şərti nevrotik reaksiyalardır. Başqa sözlə, insan beynində təkcə narahat fikirlər deyil, həm də onlara qarşı reaksiyalar mövcuddur. Belə olan hallarda narahatçılıq yaradan fikirlər haqqında düşünməməyə çalışmaq lazımdır. Bu zaman neqativ fikirlərin sizi hara apara biləcəyi barədə düşünə və ya özünüzü özünüzə nəzarət etməyə məcbur edə bilərsiniz. Bütün bu kimi hallarda narahatlıq - narahat fikirləriniz tərəfindən aktiv şəkildə stimullaşdırılır və bu da yalnız onların sayını artırır. Burada vacib hesab edilən budur: narahat fikirlərinizdə nevrotik reaksiyaların olması, fikirlərlə işləyən istənilən psixoterapevtik metodlardan istifadə edərək, narahatlığınızı aktiv şəkildə həll etməyə imkan verir.

2. Beyninizin və bədəninizin kimyası haqqında məlumatlı olmalıdır. Belə ki, narahatlıq hallarında orqanizmdə adrenalin və kortizol hormonlarının olması səbəbindən trankvilizatorların qəbulu stress narahatlığına təsir göstərir (Yusifov, N. M., Daşdəmirov, K. Ş., 2012).

Adrenalin - məlumdur ki, insanların qanında qorxu və narahatlıq anlarında adrenalinin miqdarı artır. Bir çox insanlar da adrenalinin narahatçılıq yaratdığına inanırlar. Lakin bu, doğru deyil. Adrenalin yalnız kəskin narahatlıq adlandırıla bilən şeyləri əks etdirir. Buraya panik ataklar, eləcə də qəfil (paroksismal) psixosomatik simptomlar da daxildir. Məsələn, miqren, ürək ağrısı, QBS və bəzən ekstrasistollar.

Kortizol - əsas stres hormonu hesab edilir. Kortizol disbalansı böyrəküstü vəzilərin yorulmasına səbəb olur. Bu problem böyrəküstü vəzilərin yox, beynin böyrəküstü vəzilərlə disfuksiyası kimi qəbul edilə bilər. Belə ki, böyrəküstü vəzilərin yorğunluğu beynin stress mənbəyidir, xroniki olan stresi zəiflətməklə bu problemin həllinə kömək etmək olar.

Kortizol disbalansının simptomları aşağıdakılardır:

- başgicəllənmə (xüsusilə, ayağa qalxdıqda)
- gündüzlər başağrısının olması
- qanda şəkərin yüksəlməsi
- xroniki iltihablar
- əhvalın pisləşməsi
- çəki itirməkdə problemin olması
- duzlu qidalara və şirniyyata meylin olması
- cinsi istəyin azalması
- gündüzlər yorğun, axşamlar isə gümrah olmaq
- ümumi zəiflik və s.

Kortizol da əhəmiyyətli bir maddə olub, xroniki stressin mövcudluğunu əks etdirir. Kortizol dalğavari narahatlığın yaranmasında, eləcə də narahatlıq əlamətlərinin - miqren, qıcıqlanmış bağırsaq sindromu, ekstrasistollar, boğazda şişkinlik, tinnitus, narahat sidik kisəsi, bədəndə titrəmə hissi və temperatur dalğalanmalarının əmələ gəlməsində fəal iştirak edir.

3. Bilməlidirlər ki, antidepressantların narahatlıq pozğunluqlarına təsiri - məhz narahatlıq yolunda oksitosin, serotonin və dopamin olması ilə bağlıdır. Bu hormonların insan orqanizminə təsiri qısaca olaraq, aşağıdakı kimi ifadə oluna bilər (Северин, Е. С., Алейникова, Т. Л., Осипов, Е. В., и др. 2008).

Serotonin - adətən, sevinc və şokoladla əlaqələndirilir. Lakin serotonin zövq yaratmaqdakı rolundan əlavə, o, fon narahatlığını da aktiv şəkildə yaradır. Bu eyni zamanda, narahatlıq, təlaş və narazılığı xatırladır. Onun intensivliyi stress narahatlığından daha aşağıdır.

Dopamin - bir çox funksiyalıdır. Onun əsas funksiyası hərəkətə keçmək üçün motivasiyadır (onun çatışmazlığı başlanğıc narahatlığının inkişafı üçün düzgün şərait yaradır). Yəni, qeyri-müəyyənlik, ehtiyatlılıq, şübhə, gücsüzlük hissi və heç nəyə təsir edə bilməməklə dolu narahatlıq.

Oksitosin - çatışmazlığı özünü həyatınızın çox spesifik bir sahəsində - münasibətlərdə göstərən hormondur. Oksitosin sosial narahatlığı, eləcə də sosial qiymətləndirmə qorxusunu, aqorafobiyanı, yaxınlarınızı itirmək qorxusunu və rədd və anlaşılmazlıq qorxularını aktiv şəkildə azaldar. Oksitosin çatışmazlığı xüsusilə, soyuq, uzaq və ya gərgin münasibətlərdə özünü göstərir.

Tiroksin - bu hormon bədənimizin adrenalin və kortizola qarşı həssaslığını artırmaq qabiliyyətinə görə, stresslə əlaqəli narahatlığa səbəb olur. Bundan əlavə, bu hormonun özü maddələr mübadiləsini, aktiv, narahat davranışı, narahatlığı və narahatlığı stimullaşdırır. Tiroksinlə əlaqəli narahatlıq tez-tez qıcıqlanma və yuxu pozğunluqları ilə əlaqələndirilir.

Psixikamızın motivasiyaedici hissəsi elə qurulmuşdur ki, ehtiyaclarımızı deyil, yalnız istəklərimizi tez və asanlıqla tanıyırıq. Buna görə də, ehtiyaclarımızın reallaşması üçün emosiyalara ehtiyacımız var. Ehtiyaclarımızın fərqində olma dərəcəsindən asılı olmayaraq, onlar davranışımızı stimullaşdırır. Praktik baxımdan, ən çox yayılmış narahatlıq doğuran ehtiyaclar bunlardır: təhlükəsizlik (təhlükədəyəm), təsdiq (məni mühakimə edə bilərlər), qəbul (məni tərk edəcəklər), dəstək (heç kim mənə kömək etməyəcək), dəyişiklik (heç nə dəyişməyəcək), anlama (məni başa düşməyəcəklər), istirahət (gücüm çatmazsa nə edim) və sağlamlıq (vəziyyətim pisləşərsə nə edim).

Beləliklə, narahatlıq doğuran ehtiyacların olması və onların aradan qaldırılması yuxarıda göstərilən hormonlar haqqındakı kimyəvi biliklərlə tənzimlənə bilər.

Ədəbiyyat:

1. Головкин, Б. Н., и др. (2002). Биологические активные вещества растительного происхождения (сс. 118–120). Москва: Наука.

2. Quliyev, A. Ə., Həsənov, T. H., Güləhmədov, S. Q. (2004). Bioloji kimya (statika) (s. 318). Bakı.

3. Schmuck, C., Wennemers, H. (2004). Highlights in bioorganic chemistry: Methods and applications (p. 401).

4. Громова, Н. Ю., Косивцов, Ю. Ю., Сульман, Э. М. (2006). Технология синтеза и биосинтеза биологически активных веществ (с. 66). Тверь.

5. Yusifov, N. M., & Daşdəmirov, K. Ş. (2012). Bioloji kimya (s. 317). Bakı.

6. Северин, Е. С., Алейникова, Т. Л., Осипов, Е. В., и др. (2008). Биологическая химия (с. 301). Москва: Медицинское информационное агентство.

RƏQƏMSAL ALƏTLƏRDƏN İSTİFADƏNİN PSİXOLOJİ TƏSİRLƏRİ

Sahib Mustafa oğlu Mustafayev
Fizika-riyaziyyat üzrə fəlsəfə doktoru
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
sahib.mustafayev@mdu.edu.az
ORCİD ID: 0009-0004-7440-6625
Kəmalə Sahib qızı Mustafayeva
Xəzər Universiteti
Azərbaycan Dövlət Pedaqoji Universitetinin doktorantı
kmustafayeva@khazar.org
ORCİD ID: 0000-0002-3059-0668

Açar sözlər: rəqəmsal psixologiya, virtual gerçəklik, idrak davranışları, mental sağlamlıq, elmi inkişaf.

Xülasə. Bu gün apardığımız elmi araşdırmada rəqəmsal alətlərin istifadəsinin üstünlükləri və zəif tərəflərini, eləcə də əldə etdiyimiz nəticə və tövsiyələri qısa şəkildə təqdim etmişik. Texnologiyaya olan tələbatın sürətlə artması və rəqəmsallaşmanın genişlənməsi nəticəsində elm, sənaye və digər mühüm sahələri bu cür alətlərsiz təsəvvür etmək getdikcə çətinləşir. Bu baxımdan texnologiya ilə yetərincə inteqrasiya olunmayan sahələr isə inkişaf tempindən geri qala bilər.

Rəqəmsal alətlər sürətli dəyişikliklərə şərait yaradaraq cəmiyyətin və insanların gündəlik həyatının müxtəlif istiqamətlərinə təsir göstərir. Bu alətlər inkişaf edən hər bir sahədə geniş tətbiq olunur. Bu texnologiyalar məlumatların daha çevik təhlil edilməsinə geniş imkanlar yaradır. Biz araşdırmamızda xüsusən rəqəmsal alətlərin insan psixologiyasına təsirini müxtəlif tədqiqatçıların fikir və mülahizələri üzrə tədqiq etməyə çalışmışıq. Burada əsas məqamlardan biri bu alətlərin insanların fərdi araşdırma qabiliyyətini dəstəkləməsi və geniş imkanlar yaratması ilə yanaşı, insanların idrak fəallığına mənfi təsirlərinin olması məsələsinin tədqiqidir.

Xüsusən uşaq və yeniyetmələrin bu gün rəqəmsallığa bu qədər maraq göstərməsi və onların bu alətlərə əlçatanlığının yüksək olması onların passiv bilik mühitinə daxil olması ilə nəticələnir. Müasir dövrdə valideynlərlə yanaşı, pedaqoq və metodistləri əsas narahat edən məsələlərdən biri də məhz təhsilalanların hazır biliyə üstünlük verməsidir. Biz məhz bu narahatlığı aradan qaldırmaq üçün riyazi biliklərin mənimsədilməsi istiqamətində model üzərindən nümunə və tövsiyəni əsaslandırmağa çalışdıq.

Keywords: digital psychology, virtual reality, cognitive behavior, mental health, scientific development.

Summary. In the present study, we provide a concise overview of the advantages and limitations associated with the use of digital tools, along with the key findings and recommendations derived from our research. The rapidly increasing demand for technology and the expansion of digitalization make it increasingly difficult to envisage science, industry, and other critical sectors without such tools. In this context, fields that fail to achieve sufficient integration with technological advancements risk lagging behind in terms of development.

Digital tools facilitate rapid transformations and exert a significant influence on various aspects of social life and everyday human activity. These tools are widely applied across all developing domains and create extensive opportunities for more efficient data analysis. In our research, particular attention has been devoted to examining the impact of digital tools on human psychology, drawing upon the perspectives and interpretations of various scholars. One of the most notable findings is that, while these tools enhance individuals’ capacity for independent inquiry and provide broad opportunities, they may also exert adverse effects on cognitive engagement.

The growing interest of children and adolescents in digital environments, coupled with their high level of accessibility to such tools, often results in their immersion in a passive knowledge environment. In the contemporary era, one of the primary concerns for parents, as well as educators and methodologists, is learners’ increasing preference for ready-made knowledge. In response to this concern, our study attempts to substantiate a model, along with relevant examples and recommendations, aimed at improving the acquisition of mathematical knowledge.

Anahtar kelimeler: dijital psikoloji, sanal gerçeklik, bilişsel davranış, ruh sağlığı, bilimsel gelişme.

Özet. Bu çalışmada, dijital araçların kullanımına ilişkin avantajlar ve sınırlılıklar ile araştırmamızdan elde edilen temel bulgular ve öneriler kısaca sunulmaktadır. Teknolojiye olan talebin hızla artması ve dijitalleşmenin genişlemesi, bilim, sanayi ve diğer kritik alanların bu tür araçlar olmadan tasavvur edilmesini giderek zorlaştırmaktadır. Bu bağlamda, teknolojik gelişmelerle yeterince entegre olamayan alanların gelişim açısından geri kalma riski bulunmaktadır.

Dijital araçlar, hızlı dönüşümleri mümkün kılarak toplumsal yaşamın ve bireylerin günlük faaliyetlerinin çeşitli yönleri üzerinde önemli bir etki göstermektedir. Bu araçlar, gelişmekte olan tüm alanlarda geniş ölçüde uygulanmakta ve verilerin daha verimli analiz edilmesine olanak sağlamaktadır. Araştırmamızda özellikle dijital araçların insan psikolojisi üzerindeki etkileri, çeşitli araştırmacıların görüş ve değerlendirmeleri doğrultusunda incelenmiştir. En dikkat çekici bulgulardan biri, bu araçların bireylerin bağımsız araştırma kapasitesini artırması ve geniş imkânlar sunmasıyla birlikte, bilişsel katılım üzerinde olumsuz etkiler de yaratabilmesidir.

Çocuklar ve ergenlerin dijital ortamlara artan ilgisi ve bu araçlara yüksek düzeyde erişebilir olmaları, çoğu zaman onların pasif bir bilgi ortamına dâhil olmalarıyla sonuçlanmaktadır. Günümüzde ebeveynlerin yanı sıra eğitimciler ve metodologlar için temel kaygılardan biri, öğrenenlerin hazır bilgiye yönelme eğilimidir. Bu soruna yanıt olarak çalışmamız, matematiksel bilginin edinimini geliştirmeye yönelik bir modeli, ilgili örnekler ve önerilerle birlikte temellendirmeyi amaçlamaktadır.

Rəqəmsal texnologiyaların sürətli inkişafı XXI əsrin ilk rübündə cəmiyyətin müxtəlif strukturlarında dəyişikliklərin yaranmasına və ehtiyacların artmasına səbəb olmuşdur. Son onillikdə rəqəmsal texnologiyaların təhsilalanlar üçün əlçatanlığının artmasına bu sahədə pedaqoji və metodoloji araşdırmanın aparılmasını tələbat halına gətirmişdir. Bu baxımdan biz ilk öncə aşağıdakı suala cavab tapmağa çalışdıq. Bu gün rəqəmsal alət əslində nədir? Rəqəmsal alətlər yaradılanların ən alisi hesab olunan insan kimi düşünməyi, tədqiq etməyi, problemlərin həlli yollarını tapan, hətta qoyulan alqoritmlər üzrə avtomatik funksionallıqda hərəkət etməyi bacaran çoxşaxəli mürəkkəb sistemdir. Bir sıra alimlər tərəfindən isə rəqəmsal alətlər insan zehninin idrak qabiliyyətinin bir simulasiyası prosesi olaraq qiymətləndirilir (Russell SJ, Norvig P, 2009). Bu gün yenilənən dünyamızda rəqəmsal alət texnologiyalarının müxtəlif sahələrdə tətbiqi formaları mövcuddur. Onların insan həyatına bu qədər asan adaptasiya olunma qabiliyyəti təbii ki, cəmiyyətin düşünən

beyinlərini çox ciddi narahat edir. Onlar çox sürətlə həyatımızın bir parçasına çevrilmiş rəqəmsal alət tətbiqlərinin gələcəkdə əmək bazarında işsizliyin artmasına şərait yaradacağından və insanların bu alətlərdən fərqsiz avtomatlaşmış düşüncədə çıxış edə biləcəklərindən narahatdırlar.

Rəqəmsal alətlərin insan həyatına nüfuzu prosesi ilə Con Makkartinin sözləri yuxarıda qeyd etdiklərimizi çox gözəl izah edir. “Rəqəmsal alət insan zəkasını anlamaq üçün kompüter texnologiyasından da daha genişmiqyaslı istifadə imkanlarına malikdir, lakin rəqəmsal alətlər özünü bioloji varlıq olan insan kimi qələmə verə bilməz”. Alimin bu fikri rəqəmsal alətlərə çox maraqlı və dolğun bir izah verir və həmçinin, psixologiya və rəqəmsal alətlərin əlaqəsini intelektual mexanizmi araşdırmağımızı tələb edir. Psixologiya elmində insanın təfəkkür, intellekt, təxəyyül və digər psixi prosesləri təcrübə əsasında təsdiqlənmiş faktlarla elmi akademik səpkidə öz izahını tapır. Bəs rəqəmsal alətlər süni intellekt mexanizmi qurmaqla insan təxəyyülünümü ərsəyə gətirir? Bir sıra psixoloqlar və tədqiqatçılar bunu zəka simulyasiyası olaraq qiymətləndirirlər. Hətta onu düşünən maşın zəkası olaraq adlandırırlar. Lakin onlar bu alətlərin düşünən insan zəkasının fikir və anlayışları ilə eyniləşdirməyin doğru olmadığını qeyd edirlər. Hətta onlar antik dövrün yunan mütəfəkkirlərindən bəhrələnirlər. İnsan zəkasının spektorunun genişləndiyi danılmaz həqiqət hesab edirlər (Prescott T, 2025).

Bizi narahat edən məsələlərdən digər biri rəqəmsal alətlərə insanların fərdi baxış və münasibətləridir. Əlbəttədəki rəqəmsal alətlər artıq mövcuddur, həyatımızın bir parçasıdır və biz onların istifadəsinin olmadığını bir dünyanı təsəvvvür edə bilmərik. Lakin bu alətlərin uzun müddətli istifadəsi insanların beyninin işlək fəaliyyətini bir müddət sonra passiv prosesə apara bilər. Pedaqoq və metodistləri əsas narahat edən məsələ məhz burada meydana çıxır. Rəqəmsal alət sinqulyarlığı baş verəcəkmi? Əgər istifadəçilər rəqəmsal alətlərdən sərhədsiz istifadə etməyi davam etdirərsə, onun potensial faydalarından çox, zərər və riskləri cəmiyyətin uçurumuna çevrilə bilər.

Rəqəmsal alətlərdən istifadənin mənfi təsirləri haqqında məsələyə Jean-François Bonnefon, Iyad Rahwan, Azim Sharifin “Rəqəmsal Alətin Mənəvi Psixologiyası” adlı məqaləsində maraqlı şərh verilib. Məsələn onlar qeyd edirlər ki, “tibbi rəqəmsal alət səhv diaqnoz qoymaqla xəstələrə zərər verə bilər, tövsiyə alqoritmi uşağı zorakı videoya yönəltməklə zərərli vərdişlər yarada və üz tanıma alqoritmi sizi məlum terrorçu ilə səhv salmaqla sizə ziyan vura bilər”. (Bonnefon J və digərləri., 2023). Biz hər hansı xəstəlikdə dəqiq diaqnozun rəqəmsal alətlərdən əminliklə gözləsək, təbii ki, yanılmış olarıq. Lakin hər hansı bir xəstəliyin və ya baş verə biləcək hadisənin mənfi nəticələrinin siqnalları öncədən bizə məlum olarsa, biz onların qarşısını almaqda daha az çətinlik çəkərik. Bu baxımdan, biz rəqəmsal alətlərə daha məntiqi və əsaslı kod və alqoritmlər verməklə gərəkli doğru nəticələri ala bilərik.

Bu baxımdan araşdırmamızda rəqəmsal alətlərdən istifadə üzrə aşağıdakı müsbət və mənfi təsirləri ümumiləşdirməyə çalışdıq:

Müsbət təsirləri:

- Rəqəmsal alətlər ilkin mərhələdə ondan istifadə edən şəxs üçün fərdi xarakter daşıyan və mürəkkəb olmayan informasiyalar verməklə onların müstəqil araşdırma prosesinin artırılmasına yardımçı ola bilər;
- Rəqəmsal alətlər mürəkkəb və uzun müddət tələb edən tapşırıqları tezləşdirə və vaxta daha çox qənaət edilməsinə şərait yarada bilər;
- Rəqəmsal alətlər vasitəsilə qurulmuş təhsil platformaları fərdi öyrənmə üsul və yollarını artıra, daha təkmil bacarıq və vərdişlərin inkişafına təkan verə bilər;

▪ Rəqəmsal alətlərlə idarə olunan sosial platformalar və virtual vasitələr uzaq məsəfəli əlaqələrin qurulmasına dəstək verə bilər.

Mənfi təsirləri:

▪ Rəqəmsal alətlər insanların şəxsi məlumatların asanlıqla toplanılmasına və təhlilinə səbəb ola bilər. Bu sonraki mərhələrdə şəxsi məlumatlara əlçatanlığın artması ilə nəticələnə bilər;

▪ Rəqəmsal alətlər tərəfindən tapşırıqların tezləşdirilməsi gələcəkdə işçi qüvvəsinə tələbatın azalmasına və insan cəmiyyətində sosial-iqtisadi narazılıqlara gətirib çıxara bilər;

▪ Rəqəmsal alətlər yalan və qərəzli fikirlərin ötürülməsinə, xüsusən məktəblilər üçün doğru olmayan informasiyalara əlçatanlığa səbəb ola bilər;

▪ Rəqəmsal alətlər vasitəsilə qeyri-dəqiq və hazır məlumatların çoxluğu ani qərar qəbuletmə və problemlərin həllində yalnış fikir və düşüncələrin formalaşması ilə nəticələnə bilər;

▪ Rəqəmsal alətlə vasitəsilə insanların həddindən çox informasiya axınına daxil olması zehni fəaliyyətinə mənfi təsir edə bilər (Tripathi R, 2024).

Beləliklə, rəqəmsal alətlər müsbət təsirlərə malik olsa da, insanın psixoloji rifahına mənfi təsirlərə də səbəb ola bilər. Biz rəqəmsal alətlərdən beyin həmləsi texnikası olaraq faydalanmağa çalışsaq da, o bizim zehni qabiliyyətimizin aktivliyini azalda, sosial psixoloji rifahımızı geri plana ata bilər. Dolayı yolla, rəqəmsal alətlərin potensial faydaları danılmaz olsa da, bütün məsələlərin həllini ondan gözləmək doğru deyil. Bu cür alətlərdən asılılığın azaldılması istiqamətində öz araşdırmamızda kiçik pedaqoji tövsiyələr verməyə çalışdıq. Araşdırmamızın nəticələrindən çıxış edərək məktəbəqədər yaşlı uşaqların təxəyyülünün və nitq qabiliyyətinin yüksəldilməsində rəqəmsal alətlərdən istifadə etmədən yaradıcı tapşırıqlar vasitəsilə inkişaf etdirilməsində didaktik oyunların xüsusi əhəmiyyət kəsb etdiyini aşağıdakı əsas prinsiplərlə izah etməyə çalışmışıq. Beləki şagirdlərdə təxəyyülün və nitq qabiliyyətinin inkişafının təmin edilməsində azad seçim, açıqlıq, fəaliyyət, əks əlaqə, mükəmməllik kimi prinsiplərin qorunması təlim prosesi zamanı uşaqların sadə riyazi təsəvvürləri mənimsəməsində müqayisəli öyrənmə prosesinin qurulmasında müstəsna əhəmiyyət daşıyır (Mustafayev, Orucov, Babuşov, 2018).

Biz yuxarıda qeyd olunan əsas prinsipləri digər elm sahələrində şagirdlərin və tələbələrin öyrənmə prosesində tətbiq edərək rəqəmsal alətdən daha hazır biliklərin əldə edilməsinin qarşısını ala bilər və təhsilalanların fərdi bacarıqların inkişafına təkan verə bilərik. Ağıllı öyrənmə sistemləri və elektron tədris metodlarının qurulması ilə də təlim prosesi daha müasir formalarda inkişaf etdirilə bilər (Süleyman, 2025). Bu şəkildə rəqəmsal alətlərdən tam asılılıq olmadan öyrənmə prosesi və elmi inkişaf təmin edilə bilər.

Ədəbiyyat:

1. Bonnefon J, Rahwan I, Shariff A (2023). The Moral Psychology of Artificial Intelligence. Hal Open Science, 25. https://hal.science/hal-04216056v1

2. Mustafayev S.M., Orucov T.S., Babuşov S.N. (2018). Məktəbəqədər yaşlı uşaqlarda sadə riyazi təsəvvürlərin formalaşdırılması nəzəriyyəsi və metodikası, dərs vəsaiti, Mingəçevir, MDU, 316.

3. Prescott T (2025). The psychology of artificial intelligence, Abingdon, Oxon; New York, Routledge, 125.

4. Russell SJ, Norvig P. (2009). Artificial Intelligence: A Modern Approach. Upper Saddle River, New Jersey: Prentice Hall. [Google Scholar]

5. Süleyman T. (2025). Yapay Zeka ve Eğitim: Güncel Uygulamalar ve Gelecek Perspektifleri, Trakya University Journal of Social Sciences, 27(1), 162-178.

6. Tripathi R (2024) Positive and Negative impact of AI on Human Psychology, International Open-Access, Double-Blind, Peer-Reviewed, Refereed, Multidisciplinary Online Journal Volume 4, Issue 9,3.

TRAVMALARIN İNSAN SAĞLAMLIĞINA MULTİDİSSİPLİNAR TƏSİRLƏRİ: BİOLOJİ, PSİXOLOJİ VƏ SOSİAL PERSPEKTİVLƏR

İlhamə Şubay qızı İsmayılova
Baş müəllim
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
ilhameismayilova32@gmail.com
ORCİD İD: 0009-0000-9409-1465
Aygün İslam qızı İsmayılova
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
aygun.smaylova.87@mail.ru
ORCİD ID: https://orcid.org/0009-0002-4664-1973

Açar sözlər: psixoloji travma, mərkəzi sinir sistemi, immun funksiyası, xroniki xəstəliklər, stres, bioloji reaksiyalar, travmanın fizioloji təsirləri.

Xülasə. Psixoloji travma, fərdin mənəvi və fiziki bütövlüyünü ciddi şəkildə təhdid edən, qəfil baş verən və ya uzunmüddətli xarakter daşıyan stresli hadisələrə qarşı bədən və zehində yaranan kompleks reaksiyalar məcmusudur. Müasir neyropsixoloji və tibbi tədqiqatlar aşkar şəkildə göstərir ki, travmatik təcrübələr yalnız müvəqqəti emosional pozuntularla məhdudlaşmır, həm də insan orqanizminin bioloji sistemlərində dərin və sistemli izlər qoyur. Travma, mərkəzi sinir sisteminin struktur və funksional fəaliyyətini modifikasiya edərək, neyrobioloji proseslərdə ciddi disfunksiyalar yaradır. Bu prosesdə xüsusilə hipotalamus-hipofiz-böyrəküstü vəzi (HPA) oxunun disrequlyasiyası nəticəsində hormon və neyrotransmitter balansı pozulur ki, bu da fərdin emosional tənzimləmə, kognitiv davranış və yaddaş qabiliyyətində fundamental dəyişikliklərə səbəb olur.

Eyni zamanda, psixoloji travmaların immun sisteminə neqativ təsirləri elmi şəkildə sübut edilmişdir. Xroniki stres vəziyyətində bədənin müdafiə mexanizmləri zəifləyir, proinflamatuar sitokinlərin səviyyəsi artır və orqanizm infeksion habelə qeyri-infeksion xəstəliklərə qarşı daha həssas hala gəlir. Tədqiqatların nəticələrinə görə, həll olunmamış travmalar gələcəkdə kardiovaskulyar patologiyaların, metabolik pozğunluqların (məsələn, şəkərli diabet) və autoimmun xəstəliklərin inkişaf riskini əhəmiyyətli dərəcədə stimullaşdırır. Bu qanunauyğunluqlar travmanın sadəcə psixi deyil, həm də mürəkkəb fizioloji və bioloji nəticələrə malik olduğunu təsdiqləyir.

Beləliklə, psixoloji travma mərkəzi sinir sistemi, immun funksiyalar və xroniki xəstəliklərin etiologiyası ilə sıx şəkildə inteqrasiya olunmuş multidissiplinar bir prosesdir. Travmanın bioloji mexanizmlərini dərindən anlamaq, həm tibbi, həm də psixoloji müdaxilələrin effektivliyini artırmaq üçün strateji əhəmiyyət kəsb edir. Gələcək tədqiqatlarda travma ilə bioloji sistemlərin qarşılıqlı təsir mexanizmlərinin molekulyar səviyyədə araşdırılması zəruridir.

*Keywords: p*sychological trauma, central nervous system, immune function, chronic diseases, stress, biological responses, physiological effects of trauma.

Summary. Psychological trauma is a complex set of reactions that arise in the body and mind in response to stressful events that seriously threaten an individual’s moral and physical integrity, occurring either suddenly or over a prolonged period. Modern neuropsychological and medical research clearly shows that traumatic experiences are not limited to temporary emotional disturbances but also leave deep and systematic traces in the biological systems of the human body. Trauma modifies the structural and functional activity of the central nervous system, causing serious dysfunctions in neurobiological processes. In this process, dysregulation of the hypothalamic–pituitary–adrenal (HPA) axis plays a particularly significant role, leading to imbalances in hormones and neurotransmitters, which in turn result in fundamental changes in emotional regulation, cognitive functioning, and memory capacity.

At the same time, the negative effects of psychological trauma on the immune system have been scientifically proven. Under chronic stress conditions, the body’s defense mechanisms weaken, the levels of proinflammatory cytokines increase, and the organism becomes more vulnerable to both infectious and non-infectious diseases. According to research findings, unresolved trauma significantly increases the risk of developing cardiovascular pathologies, metabolic disorders (such as diabetes), and autoimmune diseases in the future. These patterns confirm that trauma is not only a psychological phenomenon but also has complex physiological and biological consequences.

Thus, psychological trauma is a multidisciplinary process closely integrated with the central nervous system, immune functions, and the etiology of chronic diseases. A deeper understanding of the biological mechanisms of trauma is of strategic importance for enhancing the effectiveness of both medical and psychological interventions. Future research should focus on investigating the mechanisms of interaction between trauma and biological systems at the molecular level.

Anahtar kelimeler: psikolojik travma, merkezi sinir sistemi, bağışıklık fonksiyonu, kronik hastalıklar, stres, biyolojik tepkiler, travmanın fizyolojik etkileri.

Özet. Psikolojik travma, bireyin manevi ve fiziksel bütünlüğünü ciddi şekilde tehdit eden, ani ya da uzun süreli stresli olaylara karşı beden ve zihinde ortaya çıkan karmaşık tepkiler bütünüdür. Modern nöropsikolojik ve tıbbi araştırmalar, travmatik deneyimlerin yalnızca geçici duygusal bozukluklarla sınırlı olmadığını, aynı zamanda insan organizmasının biyolojik sistemlerinde derin ve sistematik izler bıraktığını açıkça göstermektedir. Travma, merkezi sinir sisteminin yapısal ve işlevsel faaliyetlerini değiştirerek nörobiyolojik süreçlerde ciddi disfonksiyonlara yol açar. Bu süreçte özellikle hipotalamus-hipofiz-adrenal (HPA) ekseninin düzensizliği sonucunda hormon ve nörotransmitter dengesi bozulur; bu durum bireyin duygusal düzenleme, bilişsel işlevler ve hafıza kapasitesinde temel değişikliklere neden olur.

Aynı zamanda psikolojik travmaların bağışıklık sistemi üzerindeki olumsuz etkileri bilimsel olarak kanıtlanmıştır. Kronik stres durumunda vücudun savunma mekanizmaları zayıflar, proinflamatuar sitokin düzeyleri artar ve organizma hem enfeksiyöz hem de enfeksiyöz olmayan hastalıklara karşı daha hassas hale gelir. Araştırma sonuçlarına göre, çözümlenmemiş travmalar gelecekte kardiyovasküler hastalıklar, metabolik bozukluklar (örneğin diyabet) ve otoimmün hastalıkların gelişme riskini önemli ölçüde artırmaktadır. Bu bulgular, travmanın yalnızca psikolojik değil, aynı zamanda karmaşık fizyolojik ve biyolojik sonuçlara da sahip olduğunu doğrulamaktadır.

Sonuç olarak psikolojik travma, merkezi sinir sistemi, bağışıklık fonksiyonları ve kronik hastalıkların etiyolojisi ile yakından ilişkili çok disiplinli bir süreçtir. Travmanın biyolojik mekanizmalarının derinlemesine anlaşılması, hem tıbbi hem de psikolojik müdahalelerin etkinliğini artırmak açısından stratejik önem taşımaktadır. Gelecek araştırmalarda travma ile biyolojik sistemler arasındaki etkileşim mekanizmalarının moleküler düzeyde incelenmesi gerekmektedir. (Əliyev və Məmmədov, 2018.).

Müasir dövrdə travmatik zədələnmələr dünya miqyasında ölüm və əlilliyin əsas səbəblərindən biri kimi qiymətləndirilir. Beynəlxalq statistik məlumatlara əsasən, hər il milyonlarla insan müxtəlif travmalar nəticəsində həyatını itirir və ya daimi funksional məhdudiyyətlərlə üzləşir (World Health Organization, 2021). Travmaların insan sağlamlığına təsiri yalnız fiziki zədələnmələrlə məhdudlaşmır; onlar psixoloji, sosial və iqtisadi problemlərə də səbəb olur.

Bu baxımdan travmaların etiologiyasının, patogenezinin və onların insan sağlamlığına kompleks təsir mexanizmlərinin öyrənilməsi müasir tibbin əsas elmi istiqamətlərindən biri hesab olunur.

Travmalar müxtəlif səbəblərdən yaranır və onların etiologiyası çoxşaxəli xarakter daşıyır. Əsas etioloji faktorlar aşağıdakılardır:

- yol-nəqliyyat hadisələri
- məişət qəzaları
- istehsalat zədələri
- idman travmaları
- təbii fəlakətlər
- zorakılıq və digər sosial faktorlar (Həsənov, 2016).

Travmalar müxtəlif meyarlara əsasən təsnif edilə bilər. Tibbi ədəbiyyatda ən geniş istifadə olunan təsnifat aşağıdakılardır:

Mexaniki travmalar- Mexaniki travmalar ən çox rast gəlinən travma növüdür və müxtəlif mexaniki qüvvələrin təsiri nəticəsində yaranır. Bu zədələnmələrə sümük sınıqları, çıxıqlar, əzələ və bağların zədələnməsi daxildir (Court-Brown və digərləri, 2019).

Fiziki travmalar- Fiziki travmalar temperatur, elektrik cərəyanı və radiasiya kimi amillərin təsiri nəticəsində baş verir. Bu qrupa yanıq və donma zədələnmələri daxildir.

Kimyəvi travmalar- Kimyəvi maddələrin orqanizmə təsiri nəticəsində yaranan zədələnmələr kimyəvi travmalar adlanır. Bu zədələnmələr əsasən dəri və selikli qişalarda baş verir.

Travmalar nəticəsində orqanizmdə müxtəlif patofizioloji proseslər baş verir. Bu proseslər travmanın ağırlıq dərəcəsindən və zədələnmənin lokalizasiyasından asılı olaraq dəyişir.

Travmatik şok- Travmatik şok ağır travmaların ən təhlükəli nəticələrindən biridir. Bu vəziyyət qan itkisi, ağrı və toxuma zədələnməsi nəticəsində yaranır. Travmatik şok zamanı arterial təzyiqin azalması, toxumaların oksigenlə təminatının pozulması və metabolik dəyişikliklər müşahidə olunur (Abbasov və Quliyev, 2019).

İltihabi proseslər-Travmalar nəticəsində zədələnmiş toxumalarda iltihabi reaksiyalar baş verir. Bu proses zədələnmiş sahədə qan dövranının artması, immun hüceyrələrinin aktivləşməsi və toxuma bərpası mexanizmlərinin işə düşməsi ilə xarakterizə olunur.

Metabolik dəyişikliklər- Ağır travmalar zamanı orqanizmdə metabolik dəyişikliklər müşahidə olunur. Bu dəyişikliklər enerji mübadiləsinin pozulmasına və katabolik proseslərin güclənməsinə səbəb olur.

Travmaların fiziki təsirləri müxtəlif formalarda özünü göstərir. Bu təsirlərə aşağıdakılar daxildir:

- sümük sınıqları
- çıxıqlar
- əzələ və bağların zədələnməsi
- daxili orqanların zədələnməsi
- yumşaq toxuma yaralanmaları (Əliyev, Ə. T., & Məmmədov, R. F. 2018).

Bu zədələnmələr insanın hərəkət funksiyasını məhdudlaşdırır və gündəlik həyat fəaliyyətinə ciddi təsir göstərir. Ağır travmalar isə həyati vacib orqanların fəaliyyətinin pozulmasına səbəb ola bilər.

Travmaların psixoloji təsirləri də mühüm əhəmiyyət kəsb edir. Travmatik hadisələrdən sonra bəzi insanlarda aşağıdakı psixoloji problemlər müşahidə edilə bilər:

- travma sonrası stress pozuntusu
- depressiya
- narahatlıq və qorxu
- emosional gərginlik

Uzunmüddətli müalicə və reabilitasiya prosesi psixoloji adaptasiyanı çətinləşdirir və insanın sosial həyatına mənfi təsir göstərə bilər.

Travmaların sosial və iqtisadi nəticələri olduqca əhəmiyyətlidir. Uzunmüddətli müalicə və reabilitasiya prosesi insanın əmək qabiliyyətinə təsir göstərir və bəzi hallarda daimi əlilliyə səbəb olur.

Bu isə aşağıdakı problemlərə gətirib çıxarır:

- əmək qabiliyyətinin azalması
- sosial adaptasiya problemləri
- tibbi xərclərin artması
- iqtisadi itkilər (World Health Organization, 2018).

Travmalar nəticəsində yaranan bu problemlər həm fərdi, həm də cəmiyyət səviyyəsində ciddi nəticələrə səbəb olur.

Travmaların qarşısının alınması səhiyyə sisteminin mühüm istiqamətlərindən biridir. Profilaktik tədbirlərə aşağıdakılar daxildir:

- yol hərəkəti qaydalarına riayət olunması
- istehsalat təhlükəsizliyinin təmin edilməsi
- idman zamanı qoruyucu vasitələrdən istifadə
- əhalinin maarifləndirilməsi
- təhlükəsizlik mədəniyyətinin formalaşdırılması.

Bu tədbirlər travma riskinin azaldılmasına və insanların sağlamlığının qorunmasına kömək edir.

Nəticə olaraq qeyd etmək olar ki, travmalar insan sağlamlığına çoxşaxəli təsir göstərən mürəkkəb tibbi problemlərdən biridir. Travmaların təsiri fiziki, psixoloji və sosial aspektləri əhatə edir və insanın həyat keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Travmaların qarşısının alınması, erkən diaqnostika və müasir müalicə metodlarının tətbiqi insanların sağlamlığının qorunması baxımından böyük əhəmiyyət daşıyır. Müasir tibbin inkişafı travmaların müalicəsində yeni imkanlar yaradır və bu sahədə aparılan elmi tədqiqatların davam etdirilməsi vacib hesab olunur.

Ədəbiyyat:

1. Əliyev, Ə. T., & Məmmədov, R. F. (2018). Travmatologiya və ortopediya. Bakı.
2. Həsənov, A. A. (2016). Travmatologiyanın əsasları. Bakı.
3. Abbasov, S. Q., & Quliyev, N. M. (2019). Cərrahiyyə xəstəlikləri. Bakı.
4. World Health Organization. (2021). Injury and violence prevention. Geneva.
5. World Health Organization. (2018). Global status report on road safety. Geneva.
6. Court-Brown, C. M., & Heckman, J. D. (2019). Rockwood and Green’s fractures in adults.

RİSK QRUPLARI VƏ SOSİAL MEDİANIN UŞAQLARIN PSİXOSOSİAL İNKİŞAFINA TƏSİRİ: MÜDAXİLƏ PERSPEKTİVİ

Sahib Hümmət oğlu Əliyev
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
sahib.aliyev@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0009-0002-0905-8287
Nemət Aydın oğlu Heybətzadə
Bakalavriat
Mingəçevir Dövlət Universiteti
heybetzadeneymet@gmail.com
ORCİD ID: 0009-0000-2407-5523

Açar sözlər: uşaq inkişafı, sosial təsir, bullinq, deviant davranış, psixoloji sağlamlıq, media savadlılığı, profilaktika.

Xülasə. Bu məqalədə uşaqların şəxsiyyət inkişafına mənfi təsir göstərən sosial qruplar sosial-psixoloji aspektdən sistemli şəkildə təhlil olunur. Araşdırmada qeyd olunur ki, cinayətkar və zorakılıq yönümlü qruplar uşaqları deviant davranışlara yönləndirərək onların hüquqi şüurunun və sosial məsuliyyət hissinin formalaşmasına mənfi təsir göstərir. Bu cür mühitlərdə iştirak uşaqlarda aqressiv davranış modellərinin mənimsənilməsinə və normativ dəyərlərdən uzaqlaşmaya səbəb olur. Bullinq qrupları fiziki, verbal və kiber zorakılıq vasitəsilə uşaqların psixoloji rifahını zədələyir, onlarda aşağı özünəqiymət, sosial təcrid və emosional gərginlik yaradır. Eyni zamanda, narkotik və alkoqol istifadəsini təşviq edən sosial çevrələr yeniyetmələrin neyropsixoloji inkişafına mənfi təsir göstərərək idrak proseslərini zəiflədir, qərarvermə qabiliyyətini aşağı salır və akademik uğursuzluqlara gətirib çıxarır. Bundan əlavə, radikal ideoloji qruplar, eləcə də nəzarətsiz rəqəmsal platformalarda yayılan zərərli məzmunlar uşaqların dünyagörüşünün formalaşmasına destruktiv təsir edir, onların tənqidi düşünmə bacarıqlarını zəiflədir və sosial təqlid meyillərini gücləndirir. Kütləvi mədəniyyət vasitələri isə bəzi hallarda qeyri-real və stereotip davranış modellərini normallaşdıraraq dəyərlər sisteminin deformasiyasına səbəb ola bilər. Problemin qarşısının alınması üçün kompleks və çoxsəviyyəli yanaşma zəruridir. Təhsil müəssisələrində psixoloji xidmətlərin gücləndirilməsi, sosial-emosional öyrənmə proqramlarının tətbiqi, bullinqə qarşı institusional mexanizmlərin formalaşdırılması və media savadlılığının inkişaf etdirilməsi əsas istiqamətlər kimi çıxış edir. Bununla yanaşı, valideyn-müəllim əməkdaşlığının gücləndirilməsi, erkən müdaxilə

tədbirlərinin həyata keçirilməsi və uşaqlar üçün təhlükəsiz sosial mühitin yaradılması xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, risk qrupuna daxil olan uşaqlarla fərdi psixoloji işin aparılması, onların sosial bacarıqlarının inkişaf etdirilməsi və müsbət davranış modellərinin təşviqi profilaktik baxımdan mühüm rol oynayır. Nəticə olaraq, uşaqların sağlam psixososial inkişafının qorunması cəmiyyətin davamlı inkişafı və gələcək nəsillərin formalaşması baxımından strateji əhəmiyyət kəsb edir.

Keywords: child development, social influence, bullying, deviant behavior, psychological well-being, media literacy, prevention.

Summary. This article provides a systematic socio-psychological analysis of social groups that negatively affect children’s personality development. The study indicates that criminal and violence-oriented groups direct children toward deviant behavior, thereby hindering the formation of their legal awareness and sense of social responsibility. Participation in such environments leads to the adoption of aggressive behavioral patterns and a deviation from normative values. Bullying groups harm children’s psychological well-being through physical, verbal, and cyber violence, resulting in low self-esteem, social isolation, and emotional distress. At the same time, social environments that promote drug and alcohol use negatively impact adolescents’ neuropsychological development, weakening cognitive processes, reducing decision-making abilities, and leading to academic failure. In addition, radical ideological groups, as well as harmful content disseminated through uncontrolled digital platforms, exert a destructive influence on children’s worldview formation, weaken their critical thinking skills, and strengthen tendencies toward social imitation. Mass media, in some cases, may normalize unrealistic and stereotypical behavioral patterns, causing deformation in the system of values. Preventing this problem requires a comprehensive and multi-level approach. Key directions include strengthening psychological services in educational institutions, implementing social-emotional learning programs, establishing institutional anti-bullying mechanisms, and promoting media literacy. In addition, enhancing parent-teacher cooperation, implementing early intervention measures, and creating a safe social environment for children are of particular importance. At the same time, conducting individual psychological work with at-risk children, developing their social skills, and encouraging positive behavioral models play an important preventive role. In conclusion, safeguarding children’s healthy psychosocial development is of strategic importance for sustainable societal development and the formation of future generations.

Anahtar kelimeler: çocuk gelişimi, sosyal etki, zorbalık, sapkın davranış, psikolojik sağlık, medya okuryazarlığı, önleme.

Özet. Bu makalede, çocukların kişilik gelişimini olumsuz etkileyen sosyal gruplar sosyo-psikolojik açıdan sistematik olarak incelenmektedir. Araştırmada, suç ve şiddet odaklı grupların çocukları sapkın davranışlara yönlendirdiği ve onların hukuki bilinç ile sosyal sorumluluk duygusunun gelişimini olumsuz etkilediği belirtilmektedir. Bu tür ortamlara katılım, çocuklarda saldırgan davranış kalıplarının benimsenmesine ve normatif değerlerden uzaklaşmaya yol açmaktadır. Zorbalık grupları, fiziksel, sözel ve siber şiddet yoluyla çocukların psikolojik iyilik haline zarar vererek düşük özsaygı, sosyal izolasyon ve duygusal gerginlik oluşturmaktadır. Aynı zamanda, uyuşturucu ve alkol kullanımını teşvik eden sosyal çevreler, ergenlerin nöropsikolojik gelişimini olumsuz etkileyerek bilişsel süreçleri zayıflatmakta, karar verme becerilerini düşürmekte ve akademik başarısızlığa neden olmaktadır. Bunun yanı sıra, radikal ideolojik gruplar ile denetimsiz dijital platformlarda yayılan zararlı içerikler, çocukların dünya görüşünün oluşumunu

olumsuz yönde etkileyerek eleştirel düşünme becerilerini zayıflatmakta ve sosyal taklit eğilimlerini artırmaktadır. Kitle iletişim araçları ise bazı durumlarda gerçek dışı ve kalıplaşmış davranış modellerini normalleştirerek değerler sisteminde bozulmalara yol açabilmektedir. Sorunun önlenmesi için kapsamlı ve çok düzeyli bir yaklaşım gereklidir. Eğitim kurumlarında psikolojik hizmetlerin güçlendirilmesi, sosyal-duygusal öğrenme programlarının uygulanması, zorbalığa karşı kurumsal mekanizmaların oluşturulması ve medya okuryazarlığının geliştirilmesi temel yönelimler arasında yer almaktadır. Bununla birlikte, ebeveyn-öğretmen iş birliğinin artırılması, erken müdahale önlemlerinin hayata geçirilmesi ve çocuklar için güvenli bir sosyal çevrenin oluşturulması büyük önem taşımaktadır. Aynı zamanda, risk grubundaki çocuklarla bireysel psikolojik çalışmalar yapılması, onların sosyal becerilerinin geliştirilmesi ve olumlu davranış modellerinin teşvik edilmesi önleyici açıdan önemli rol oynamaktadır. Sonuç olarak, çocukların sağlıklı psikososyal gelişiminin korunması, toplumun sürdürülebilir gelişimi ve gelecek nesillerin şekillenmesi açısından stratejik öneme sahiptir.

Müasir qloballaşan dünyada fərdin şəxsiyyət kimi formalaşması prosesi yalnız bioloji və psixoloji faktorlarla deyil, eyni zamanda mürəkkəb sosial, mədəni və texnoloji təsir mexanizmləri ilə müəyyən olunur. İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, xüsusilə internet və sosial media platformalarının həyatın bütün sahələrinə inteqrasiyası uşaqların və yeniyetmələrin sosiallaşma mühitini köklü şəkildə dəyişdirmişdir. Ənənəvi sosial institutlarla (ailə, məktəb, icma) yanaşı, artıq virtual məkan da şəxsiyyətin formalaşmasında əsas sosiallaşma agentlərindən birinə çevrilmişdir.

Uşaq və yeniyetməlik dövrü şəxsiyyətin əsas psixoloji strukturlarının, dəyərlər sisteminin və davranış modellərinin formalaşdığı həssas mərhələdir. Bu dövrdə fərd həmyaşıd qruplarının təsirinə daha açıq olur və sosial qəbul olunma ehtiyacı onun qərar və davranışlarına ciddi təsir göstərir. Aparılan sosioloji və psixoloji tədqiqatlar göstərir ki, neqativ istiqamətdə sosial qruplar və nəzarətsiz virtual mühit fərdlərin sosial adaptasiya qabiliyyətini zəiflədir, onların emosional sabitliyini pozur və müxtəlif deviant davranış formalarının yaranmasına zəmin yaradır (Bayramov & Əlizadə, 2003).

Bundan əlavə, müasir informasiya axınının intensivliyi uşaqlarda informasiya yüklənməsi (information overload) və selektiv qavrayış problemləri yaradır. Bu isə onların düzgün qərarvermə qabiliyyətinə və tənqidi düşüncə bacarıqlarına mənfi təsir göstərir. Məmmədovanın (2023) qeyd etdiyi kimi, sosial qruplar və media təsiri altında formalaşan identiklik bəzən fraqmentar xarakter daşıyır və fərdin daxili harmoniya hissini zəiflədir.

Koqnitiv və sosial öyrənmə nəzəriyyələri sübut edir ki, fərdlər davranış modellərini müşahidə, imitasiya və möhkəmləndirmə yolu ilə mənimsəyirlər. Bu baxımdan, əgər uşaq aqressiv, destruktiv və ya deviant davranışların normallaşdırıldığı mühitdə yetişirsə, həmin davranışları daxili norma kimi qəbul etməsi qaçılmaz olur. Virtual mühitdə isə bu proses daha sürətli və intensiv şəkildə baş verir. Riva və Ghelimberti (2020) vurğulayırlar ki, reallıq və virtuallıq arasındakı sərhədlərin zəifləməsi “ikili identiklik” fenomenini gücləndirir və bu hal şəxsiyyətin inteqrasiyasına mənfi təsir göstərir.

Sosial qruplar fərdin davranış və dəyərlərinin formalaşmasında mühüm rol oynasa da, onların neqativ yönümlü formaları ciddi sosial və psixoloji risklər yaradır. Xüsusilə kriminal və zorakılıq yönümlü qruplar uşaqları antisosial fəaliyyətlərə cəlb edərək onların hüquqi şüurunu deformasiya edir. Bu cür qruplarda “kollektiv məsuliyyətsizlik” fenomeni formalaşır ki, bu da fərdin şəxsi məsuliyyət hissini zəiflədir.

Bullinq fenomeni isə sosial aqressiyanın ən geniş yayılmış formalarından biridir. Dan Olweus (1994) bullinqi sistematik və məqsədli zorakılıq kimi xarakterizə edərək onun uzunmüddətli psixoloji travmalar yaratdığını qeyd etmişdir. William E. Copeland və həmkarlarının (2013) araşdırmaları göstərir ki, bullinqə məruz qalan uşaqlarda depressiya, təşviş pozuntuları və hətta yetkinlik dövründə sosial fobiya riski əhəmiyyətli dərəcədə artır. Maraqlıdır ki, yalnız qurbanlar deyil, bullinq edən fərdlər də gələcəkdə antisosial davranışlara daha meyilli olurlar.

Yeniyetmələr arasında riskli davranışların yayılmasında həmyaşıd təzyiqi (peer pressure) mühüm rol oynayır. Narkotik və alkoqol istifadəsinə təşviq edən qruplar “qəbul olunma” ehtiyacından istifadə edərək fərdi asılılığa sürükləyir. Bu proses beyində mükafat sisteminin (reward system) pozulması ilə nəticələnir və dopamin balansının dəyişməsi uzunmüddətli asılılıq yaradır.

Radikal ideoloji və dini qruplar isə daha mürəkkəb psixoloji manipulyasiya üsullarından istifadə edirlər. Onlar fərdin identiklik böhranından, sosial təcrid hissindən və mənəvi boşluğundan faydalanaraq onu ideoloji təsir altına salırlar. Quliyeva (2023) qeyd edir ki, bu qruplar fərdin tənqidi düşüncə qabiliyyətini zəiflədərək “qapalı düşüncə sistemi” formalaşdırır və fərdi alternativ fikirlərə qarşı dözümsüz edir.

Müasir dövrdə rəqəmsal platformalar uşaqların gündəlik həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Sosial şəbəkələr, video platformalar və onlayn oyunlar həm müsbət, həm də mənfi təsir potensialına malikdir. Lakin nəzarətsiz istifadə hallarında bu mühitlər psixoloji risk faktoruna çevrilir.

Xüsusilə “kiberbullinq” fenomeni real bullinqdən daha təhlükəli hesab olunur, çünki o, fasiləsiz və anonim şəkildə həyata keçirilə bilər. Bundan əlavə, bəzi zərərli onlayn “çağırışlar” və oyunlar uşaqları riskli və hətta özünə zərərverici davranışlara təşviq edir.

Virtual mühitin digər mühüm təsiri “virtual şəxsiyyət” anlayışı ilə bağlıdır. İnsanlar sosial mediada özlərinin idealizə olunmuş versiyasını təqdim etməyə çalışır, bu isə real və virtual “mən” arasında uyğunsuzluq yaradır. Berqelson (2018) bu prosesi “identiklik dissonansı” kimi xarakterizə edir.

Sosial şəbəkələrdə “bəyənmə” və “paylaşım” mexanizmləri beyində mükafat reaksiyası yaradaraq istifadəçilərdə davranış asılılığı formalaşdırır. Bu vəziyyət bəzi hallarda “nomofobiya” – mobil telefonsuz qalma qorxusu ilə nəticələnir. Giuseppe Riva və Alessandro Ghelimberti (2020) qeyd edirlər ki, rəqəmsal asılılıq fərdin diqqət müddətini azaldır, emosional tənzimləmə qabiliyyətini zəiflədir və sosial əlaqələri səthi hala gətirir. (Rzayev A., 2020).

Uzunmüddətli perspektivdə bu proses ailədaxili münasibətlərin zəifləməsinə, real sosial ünsiyyətin azalmasına və fərdin emosional təcridinə səbəb olur. Bu isə depressiya və təkliyin artması ilə nəticələnə bilər.

Bu kontekstdə qeyd etmək lazımdır ki, fərdin sosiallaşma prosesində ailə ilkin və ən mühüm tərbiyə mühiti kimi çıxış edir. Erkən yaş dövründə formalaşan dəyərlər sistemi sonrakı mərhələlərdə davranış modellərinin əsasını təşkil edir. Yeniyetməlik dövründə isə ailədaxili emosional əlaqələrin zəifləməsi və uşağın anlaşılmaması hallarında deviant davranışlara meyillilik artmaqdadır. Bu zaman fərdin daxil olduğu referent (etalon) qrup xüsusi əhəmiyyət kəsb edir. Əgər bu qrup mənfi yönümlüdürsə, fərd həmin qrupun norma və davranışlarını mənimsəyərək riskli sosial trayektoriyaya yönələ bilər. Bu baxımdan sosial mühitin təsiri ilə bağlı formalaşmış yanaşmalarda da qeyd olunduğu kimi, fərdin yaxın çevrəsi onun davranış modelinə birbaşa təsir göstərir. (Bayramov Ə. S., & Əlizadə Ə. Ə., 2003)

Digər tərəfdən, bullinqə məruz qalma halları yalnız qısamüddətli deyil, uzunmüddətli psixoloji nəticələr doğurur və fərddə sosial fobiya, özünəqapanma kimi hallar yarada bilir. Bu isə yenidən onun sosial qruplara qoşulma motivasiyasını və seçimlərini təsir altına salır.

Eyni zamanda, qəbul olunma ehtiyacı yeniyetmələrdə aparıcı psixoloji ehtiyaclardan biri kimi çıxış edir. Ailə tərəfindən yetərli emosional dəstək görməyən fərd bu ehtiyacını alternativ sosial qruplar vasitəsilə ödəməyə çalışır ki, bu da onu mənfi təsirli mühitlərə yönləndirə bilər.

Dini və ideoloji baxımdan isə ailə ilkin dəyərlərin formalaşdığı əsas institutdur. Erkən yaşlardan düzgün mənəvi və etik dəyərlərlə tərbiyə olunan fərdlər gələcəkdə radikal təsirlərə qarşı daha dayanıqlı olurlar. (Məmmədova R. T., 2023).

Rəqəmsal mühitə gəldikdə isə, bəzi tədqiqatçılar, o cümlədən sosioloq Mail Yaqub, qeyd edir ki, müasir fərd sosial şəbəkələrdə öz identikliyini axtarmağa meyillidir. Lakin virtual mühit eyni zamanda müasir dövrün zəruri komponenti olduğundan, onun tam məhdudlaşdırılması deyil, düzgün istiqamətləndirilməsi daha məqsədəuyğun hesab olunur. Bu baxımdan uşaqlara rəqəmsal texnologiyaların yalnız əyləncə vasitəsi deyil, informasiya əldə etmə və inkişaf aləti kimi təqdim edilməsi, eyni zamanda valideyn nəzarətinin qorunması mühüm əhəmiyyət kəsb edir.

Problemin miqyası kompleks yanaşma tələb edir. Effektiv müdaxilə üçün aşağıdakı istiqamətlər xüsusi əhəmiyyət daşıyır:

Təhsil sistemi çərçivəsində: məktəblərdə psixoloji xidmətlərin gücləndirilməsi, sosial-emosional öyrənmə proqramlarının tətbiqi

Media savadlılığı: uşaqlara tənqidi düşünmə və informasiya filtrasiya bacarıqlarının öyrədilməsi

Valideyn nəzarəti: rəqəmsal fəaliyyətin balanslaşdırılması və açıq ünsiyyət mühitinin yaradılması

Dövlət siyasəti: uşaqlar üçün təhlükəsiz internet mühitinin təmin olunması və zərərli kontentə qarşı hüquqi mexanizmlərin gücləndirilməsi

Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi: “Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm.” Bu baxımdan sağlam sosial mühitin yaradılması milli təhlükəsizlik məsələsi kimi də qiymətləndirilə bilər.

Aparılan nəzəri və empirik tədqiqatların ümumiləşdirilməsi göstərir ki, sosial qruplar və rəqəmsal mühit fərdin şəxsiyyət inkişafına kompleks və çox şaxəli təsir göstərir. Bu təsir həm konstruktiv, həm də destruktiv xarakter daşıya bilər. Lakin nəzarətsiz və neqativ yönümlü mühitlər şəxsiyyət strukturunda dərin deformasiyalara, sosial adaptasiya problemlərinə və psixoloji pozuntulara səbəb olur.

Problemin həlli yalnız fərdi səviyyədə deyil, sistemli və institusional yanaşma tələb edir. Ailə, məktəb və dövlət strukturlarının koordinasiyalı fəaliyyəti olmadan bu risklərin minimuma endirilməsi mümkün deyil. Xüsusilə rəqəmsal transformasiya dövründə uşaqların psixoloji təhlükəsizliyi prioritet istiqamət kimi müəyyən edilməlidir. (Berqelson M. B., 2018).

Gələcək tədqiqatlar virtual identikliyin neyropsixoloji əsaslarının, süni intellekt alqoritmlərinin davranış modellərinə təsirinin və rəqəmsal asılılıqla mübarizə üsullarının daha dərindən öyrənilməsinə yönəlməlidir. Bu istiqamətdə multidissiplinar yanaşma – psixologiya, sosiologiya, neyroelm və informasiya texnologiyalarının inteqrasiyası xüsusi əhəmiyyət kəsb edir.

Yekun olaraq qeyd etmək olar ki, uşaqların psixososial rifahının qorunması yalnız fərdi deyil, həm də ictimai məsuliyyətdir. Sağlam sosial münasibətlərin təşviqi, empatiya və tolerantlıq

dəyərlərinin gücləndirilməsi, eləcə də etik rəqəmsal davranış normalarının formalaşdırılması gələcək nəsillərin harmonik inkişafının əsas şərtidir. Şəxsiyyətin həm real, həm də virtual mühitdə bütövlüyünün qorunması müasir cəmiyyətin qarşısında duran ən vacib vəzifələrdən biridir.

Ədəbiyyat:

1. Bayramov, Ə. S., & Əlizadə, Ə. Ə. (2003). Sosial psixologiya. Bakı.

2. Berqelson, M. B. (2018). Virtual Diskurs və Kommunikasiya Modelləri. Moskva: Nauka.

3. Copeland, W. E., Wolke, D., Angold, A., & Costello, E. J. (2013). Adult psychiatric outcomes of bullying and being bullied. JAMA Psychiatry, 70(4), 419–426.

4. Domitrovich, C. E., Durlak, J. A., Staley, K. C., & Weissberg, R. P. (2017). Social-emotional competence: An essential factor for promoting positive adjustment and reducing risk in school children. Child Development, 88(2), 408–416.

5. Əliyev, R. (2019). Şəxsiyyət və müasir informasiya cəmiyyəti. Bakı: Elm nəşriyyatı.

6. Hinduja, S., & Patchin, J. W. (2010). Cyberbullying: Identification, prevention, and response. Cyberbullying Research Center.

7. Kowalski, R. M., Giumetti, G. W., Schroeder, A. N., & Lattanner, M. R. (2014). Bullying in the digital age: A critical review and meta-analysis. Psychological Bulletin, 140(4), 1073–1137.

8. Məmmədova, R. T. (2023). Multikultural cəmiyyət və gənclər: Sosial yanaşmalar. Bakı: Müasir nəşriyyat.

9. Olweus, D. (1994). Bullying at school: Basic facts and effects of a school-based intervention program. Journal of Child Psychology and Psychiatry, 35(7), 1171–1190.

10. Quliyeva, S. İ. (2023). Kütləvi mədəniyyətin yeniyetmələrə psixososial təsiri. Psixologiya jurnalı.

11. Riva, C., & Ghelimberti, K. (2020). Virtual Identity and Communication Psychology. London: Routledge.

12. Rzayev, A. (2020). Virtual məkanda insan davranışı və sosial münasibətlər. Bakı: MDU nəşriyyatı.

13. Smith, P. K. (2000). Bullying and harassment in schools and the rights of children. Children & Society, 14(4), 294–303.

14. Tokunaga, R. S. (2010). Following you home from school: A critical review and synthesis of research on cyberbullying. Computers in Human Behavior, 26(3), 277–287.

15. UNESCO. (2019). School violence and bullying: Global status report. Paris: UNESCO.

URBAN MÜHİTDƏ PSİXOLOJİ RİSKLƏR: STRESS AMİLLƏRİ VƏ MENTAL SAĞLAMLIQ NƏTİCƏLƏRİNİN SİSTEMLİ TƏHLİLİ

Nigar Ədalət qızı Mərdanova
Azərbaycan Respublikası
Psixologiya Elmi-Tədqiqat İnstitutu
nigarmerdanova@gmail.com
ORCİD ID: https://orcid.org/0000-0001-9855-5028

Açar sözlər: urbanizasiya, mental sağlamlıq, urban stressorlar, psixoloji risk faktorları, depressiya, narahatlıq, sosial izolyasiya.

Xülasə. Urbanizasiya müasir cəmiyyətlərin əsas inkişaf istiqamətlərindən biri olmaqla yanaşı, fərdlərin mental sağlamlığı üçün çoxşaxəli risklər yaradan kompleks proses kimi çıxış edir. Sürətli urban artım nəticəsində şəhər mühiti yalnız fiziki deyil, eyni zamanda psixososial baxımdan da dəyişir və bu dəyişikliklər fərdlərin gündəlik həyat təcrübəsinə birbaşa təsir göstərir. Bu məqalənin məqsədi şəhər mühitində mövcud olan əsas psixososial və ekoloji stress amillərini və onların fərdlərin psixoloji sağlamlığına təsirini mövcud elmi ədəbiyyat əsasında sistemli şəkildə təhlil etməkdir.

Mövcud elmi ədəbiyyatın təhlili göstərir ki, yüksək əhali sıxlığı, səs-küy, hava çirklənməsi, sosial qeyri-bərabərlik və sürətli həyat tempi kimi şəhər stress amilləri xroniki stressin formalaşmasına səbəb olaraq depressiya, narahatlıq və digər stresslə əlaqəli pozuntuların artması ilə əlaqəlidir. Bununla yanaşı, şəhər mühitində yaşıl zonaların məhdudluğu, təhlükəsiz ictimai məkanların azlığı və təbii mühitlə təmasın zəifləməsi psixoloji rifahın qorunmasını çətinləşdirən əlavə faktorlar kimi çıxış edir.

Eyni zamanda, urban mühitdə sosial bağlılığın zəifləməsi və sosial izolyasiyanın artması psixoloji rifahın azalmasına töhfə verir. Bundan əlavə, urban mühitdə mövcud olan davamlı stress amillərinin fərdlərin mübarizə strategiyalarına təsir edərək davranış və adaptasiya formalarında dəyişikliklər yaratdığı müşahidə olunur. Bu baxımdan, urban mühit yalnız psixoloji simptomların yaranmasına deyil, həm də onların idarə olunma mexanizmlərinin transformasiyasına təsir göstərir.

Nəticə etibarilə, urbanizasiya mental sağlamlıq üçün çoxşaxəli risk faktorlarının qarşılıqlı təsiri ilə formalaşan kompleks proses kimi qiymətləndirilməlidir. Bu sahədə daha dərin və uzunmüddətli tədqiqatlara ehtiyac olduğu vurğulanır.

Keywords: urbanization, mental health, urban stressors, psychological risk factors, depression, anxiety, social isolation.

Summary. Urbanization, as one of the main developmental processes of modern societies, represents a complex phenomenon that generates multifaceted risks for individuals’ mental health. As a result of rapid urban growth, the urban environment undergoes not only physical but also psychosocial transformations, directly affecting individuals’ everyday experiences. The aim of this article is to systematically analyze the main psychosocial and environmental stressors present in urban environments and their impact on psychological well-being based on existing scientific literature.

The analysis of the existing literature indicates that urban stressors such as high population density, noise, air pollution, social inequality, and a fast-paced lifestyle contribute to the

development of chronic stress and are associated with increased levels of depression, anxiety, and other stress-related disorders. In addition, the limited availability of green spaces, lack of safe public areas, and reduced contact with nature further hinder the maintenance of psychological well-being.

At the same time, the weakening of social connectedness and the rise of social isolation in urban settings further contribute to the decline in psychological well-being.Furthermore, it is observed that persistent stressors in urban environments influence individuals’ coping strategies, leading to changes in behavioral and adaptive patterns. In this context, the urban environment affects not only the emergence of psychological symptoms but also the transformation of their regulation mechanisms.

In conclusion, urbanization should be understood as a complex process shaped by the interaction of multiple mental health risk factors. The findings highlight the need for more in-depth and longitudinal research in this field.

Anahtar kelimeler: kentleşme, ruh sağlığı, kentsel stresörler, psikolojik risk faktörleri, depresyon, anksiyete, sosyal izolasyon.

Özet. Kentleşme, modern toplumların temel gelişim yönlerinden biri olmakla birlikte, bireylerin ruh sağlığı açısından çok boyutlu riskler yaratan karmaşık bir süreç olarak ortaya çıkmaktadır. Hızlı kentleşme sonucunda kentsel çevre yalnızca fiziksel değil, aynı zamanda psikososyal açıdan da değişmekte ve bu değişimler bireylerin günlük yaşam deneyimlerini doğrudan etkilemektedir. Bu çalışmanın amacı, kentsel çevrede mevcut olan başlıca psikososyal ve çevresel stresörleri ve bunların bireylerin psikolojik iyi oluşu üzerindeki etkilerini mevcut bilimsel literatür temelinde sistematik olarak incelemektir.

Mevcut literatürün analizi, yüksek nüfus yoğunluğu, gürültü, hava kirliliği, sosyal eşitsizlik ve hızlı yaşam temposu gibi kentsel stresörlerin kronik stresin oluşumuna katkıda bulunduğunu ve depresyon, anksiyete ile diğer stresle ilişkili bozuklukların artışıyla bağlantılı olduğunu göstermektedir. Bunun yanı sıra, yeşil alanların sınırlı olması, güvenli kamusal alanların yetersizliği ve doğayla temasın azalması psikolojik iyi oluşun korunmasını zorlaştıran ek faktörler olarak öne çıkmaktadır.

Aynı zamanda, kentsel ortamlarda sosyal bağlılığın zayıflaması ve sosyal izolasyonun artması psikolojik iyi oluşun azalmasına katkı sağlamaktadır. Ayrıca, kentsel çevredeki sürekli stresörlerin bireylerin başa çıkma stratejilerini etkileyerek davranışsal ve uyumsal örüntülerde değişikliklere yol açtığı gözlemlenmektedir. Bu bağlamda, kentsel çevre yalnızca psikolojik belirtilerin ortaya çıkışını değil, aynı zamanda bunların yönetilme mekanizmalarının dönüşümünü de etkilemektedir.

Sonuç olarak, kentleşme ruh sağlığını etkileyen çok sayıda risk faktörünün etkileşimiyle şekillenen karmaşık bir süreç olarak değerlendirilmelidir. Bu alanda daha derinlemesine, ampirik ve uzun dönemli araştırmalara ihtiyaç olduğu vurgulanmaktadır.

Urbanizasiya XXI əsrin ən sürətlə inkişaf edən qlobal proseslərindən biri olaraq insanların yaşayış mühitini və psixoloji təcrübələrini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Son onilliklərdə şəhər əhalisinin artması ilə şəhərlər yalnız iqtisadi deyil, həm də sosial və psixoloji həyatın əsas mərkəzinə çevrilmişdir.

Mövcud statistik məlumatlara əsasən, Azərbaycanda şəhər əhalisinin payı son illərdə artaraq təxminən 58%-ə çatmışdır (World Bank, 2024). Bu dinamika urban mühitin mental sağlamlığa təsirlərinin daha sistemli şəkildə araşdırılmasını zəruri edir.

Bu kontekstdə, urban mühit yalnız imkanlar təqdim edən məkan deyil, eyni zamanda fərdlərin psixoloji sağlamlığı üçün müxtəlif risk faktorlarının toplandığı kompleks sistem kimi qiymətləndirilə bilər.

Şəhər mühiti bir tərəfdən fərdlərə geniş imkanlar təqdim etsə də, digər tərəfdən yüksək əhali sıxlığı, səs-küy, hava çirklənməsi və sürətli həyat tempi kimi stress amilləri ilə xarakterizə olunur (Evans, 2003; World Health Organization, 2022b). Empirik tədqiqatlar göstərir ki, bu amillər şəhər əhalisi arasında depressiya və narahatlıq pozuntularının daha yüksək yayılması ilə əlaqəlidir (Peen et al., 2010; Vassos et al., 2016). Bundan əlavə, şəhər mühitində sosial bağlılığın zəifləməsi və sosial izolyasiyanın artması psixoloji rifahın azalması ilə əlaqələndirilir (Cacioppo & Cacioppo, 2014).

Bu çərçivədə, təqdim olunan məqalənin məqsədi urban mühitdə mövcud olan əsas stress amillərini və onların psixoloji nəticələrini mövcud elmi ədəbiyyat əsasında sistemli şəkildə təhlil etməkdir.

2.1. Şəhər mühitində stress amilləri və psixoloji risk faktorları

Şəhər mühiti fərdlərin gündəlik həyatında müxtəlif psixososial və ekoloji stress amilləri intensiv şəkildə təzahür etdiyi kompleks bir sistem kimi xarakterizə olunur. Bu stressorlar arasında yüksək əhali sıxlığı, səs-küy, hava çirklənməsi, sosial qeyri-bərabərlik və sürətli həyat tempi xüsusi yer tutur. Bu amillərin davamlı təsiri fərdlərdə xroniki stress reaksiyalarının formalaşmasına səbəb olaraq mental sağlamlıq üçün əhəmiyyətli risk yaradır (Evans, 2003; World Health Organization, 2022a).

Əhali sıxlığı urban mühitin əsas xüsusiyyətlərindən biri kimi fərdi məkanın məhdudlaşmasına və şəxsi sərhədlərin pozulmasına gətirib çıxarır. Bu isə emosional gərginlik, aqressiya və stress səviyyəsinin artması ilə əlaqələndirilir (Evans, 2003). Eyni zamanda, şəhərlərdə müşahidə olunan yüksək səs-küy səviyyəsi (nəqliyyat, tikinti və sənaye fəaliyyətləri nəticəsində) fərdlərin diqqətin dağılması, yuxu keyfiyyətinin pozulması və ümumi psixoloji rifahın azalması ilə əlaqələndirilir (World Health Organization, 2018).

Bununla yanaşı, hava çirklənməsi şəhər mühitində stress amilləri arasında mühüm yer tutur. Son tədqiqatlar göstərir ki, hava keyfiyyətinin aşağı olması yalnız fiziki sağlamlığa deyil, həm də depressiya və narahatlıq kimi psixoloji problemlərin artmasına təsir göstərir (Braithwaite et al., 2019). Bu nəticələr urban mühitdə bioloji və psixoloji faktorların qarşılıqlı təsirini bir daha təsdiqləyir.

Digər tərəfdən, urbanizasiya prosesi çox zaman sosial qeyri-bərabərlik və iqtisadi fərqliliklərin dərinləşməsi ilə müşayiət olunur. Aşağı sosial-iqtisadi statusa malik fərdlər daha çox stress faktorlarına məruz qalmaqla yanaşı, resurslara çıxış imkanlarının məhdudluğu səbəbindən bu təsirlərə qarşı daha həssas olurlar (Galea et al., 2005). Bu kontekstdə, urban mühitdə sosial dəstək şəbəkələrinin zəifləməsi və sosial izolyasiyanın artması psixoloji risklərin artmasına səbəb olur (Cacioppo & Cacioppo, 2014; Goryakin et al., 2015). Bundan əlavə, urban həyatın sürətli və yüksək tələblər qoyan strukturu xüsusi diqqət tələb edir. Davamlı zaman təzyiqi, artan iş yükü və intensiv informasiya axını fərdlərdə “daimi oyanıqlıq” vəziyyəti yaradır ki, bu da uzunmüddətli perspektivdə emosional tükənmə və stresslə əlaqəli pozuntuların yaranma riskini artırır.

Beləliklə, urban mühitdə mövcud olan bu çoxşaxəli stress amilləri fərdlərin psixoloji sağlamlığına kompleks və kumulyativ təsir göstərir. Bu təsirin intensivliyi isə fərdin sosial-iqtisadi statusu, yaşadığı mühitin keyfiyyəti və mövcud qoruyucu resurslarla sıx şəkildə əlaqəlidir.

Xülasə. Bu məqalədə süni intellektin (Sİ) təhsil mühitində tətbiqinin şagirdlərin psixoloji xüsusiyyətlərinə təsiri kompleks şəkildə araşdırılmışdır. Müasir dövrdə rəqəmsallaşma və texnologiyanın sürətli inkişafı təhsil sistemində mühüm dəyişikliklərə səbəb olmuş, xüsusilə süni intellekt əsaslı sistemlər öyrənmə prosesini daha fərdiləşdirilmiş və effektiv hala gətirmişdir. Bu sistemlər şagirdlərin bilik səviyyəsinə və öyrənmə sürətinə uyğun məzmun təqdim edərək onların motivasiyasını, özünəinamını və öyrənməyə marağını artırır.

Araşdırmalar göstərir ki, rəqəmsal mühitdə öyrənmə interaktivliyi və əlçatanlığı artırsa da, texnologiyadan uzunmüddətli və nəzarətsiz istifadə diqqətin dağılması, səthi öyrənmə və yaddaş problemləri kimi mənfi psixoloji təsirlərə səbəb ola bilər.

Eyni zamanda, oyunlaşdırma və adaptiv öyrənmə sistemləri şagirdlərin fəallığını yüksəltsə də, hazır cavabların asan əldə edilməsi onların müstəqil və tənqidi düşünmə bacarıqlarının zəifləməsinə gətirib çıxara bilər.

Bundan əlavə, süni intellektin emosional və sosial təsirləri də diqqətə layiqdir.

Rəqəmsal mühit bəzi şagirdlər üçün daha rahat ünsiyyət imkanı yaratsa da, ənənəvi sosial əlaqələrin azalması sosial bacarıqların inkişafına mənfi təsir göstərə bilər. Eyni zamanda, məlumatların məxfiliyi, alqoritmik təsir və rəqəmsal asılılıq kimi etik və psixoloji risklər də mövcuddur. Nəticə olaraq, süni intellektin təhsildə tətbiqi balanslı, məqsədyönlü və pedaqoji baxımdan əsaslandırılmış şəkildə həyata keçirilməlidir.

Bu yanaşma onun müsbət təsirlərindən maksimum istifadə etməyə və potensial riskləri minimuma endirməyə imkan verir.

Keywords: artificial intelligence, education, psychological impact, motivation, digital environment, critical thinking, social development.

Summary. This article examines the impact of the application of artificial intelligence (AI) in the educational environment on students' psychological characteristics. In the modern era, digitalization and the rapid development of technology have led to significant changes in the education system. In particular, AI-based systems have made the learning process more personalized and effective. These systems provide content tailored to students' knowledge levels and learning pace, thereby increasing their motivation and self-confidence.

The study shows that although learning in a digital environment enhances interactivity, prolonged use of technology may lead to negative psychological effects such as distraction, superficial learning, and memory issues. At the same time, while gamification and adaptive systems

increase students’ interest, easy access to ready-made answers may weaken their independent and critical thinking skills.

The emotional and social impacts of artificial intelligence are also noteworthy. While the digital environment may provide a more comfortable space for some students to express themselves, the reduction of face-to-face interaction can negatively affect the development of social skills. In addition, ethical and psychological risks such as data privacy concerns, algorithmic influence, and digital addiction are present.

In conclusion, the use of artificial intelligence in education should be implemented in a balanced and purposeful manner. This approach will allow maximizing its positive effects while minimizing potential risks.

Anahtar kelimeler: yapay zekâ, eğitim, psikolojik etki, motivasyon, dijital ortam, eleştirel düş ünme, sosyal gelişim.

*Özet.*Bu makalede yapay zekânın (YZ) eğitim ortamında uygulanmasının öğrencilerin psikolo jik özellikleri üzerindeki etkisi incelenmiştir. Günümüzde dijitalleşme ve teknolojinin hızlı gelişimi eğitim sisteminde önemli değişimlere yol açmış, özellikle yapay zekâ tabanlı sistemler öğrenme sür ecini daha kişiselleştirilmiş ve etkili hâle getirmiştir.
Bu sistemler, öğrencilerin bilgi düzeyine ve öğrenme hızına uygun içerik sunarak onların motivasyo nunu ve özgüvenini artırmaktadır.

Araştırma, dijital ortamda öğrenmenin etkileşimi artırmasına rağmen, uzun süreli teknoloji ku llanımının dikkat dağınıklığı, yüzeysel öğrenme ve hafıza sorunları gibi olumsuz psikolojik etkilere yol açabileceğini göstermektedir. Aynı zamanda oyunlaştırma ve uyarlanabilir sistemler öğrencileri n ilgisini artırsa da, hazır cevaplara kolay erişim onların bağımsız ve eleştirel düşünme becerilerini zayıflatabilmektedir.

Yapay zekânın duygusal ve sosyal etkileri de dikkat çekicidir. Dijital ortam bazı öğrenciler içi n kendilerini daha rahat ifade edebilecekleri bir alan sunsa da, yüz yüze iletişimin azalması sosyal b ecerilerin gelişimini olumsuz etkileyebilir. Ayrıca veri gizliliği, algoritmik yönlendirme ve dijital ba ğımlılık gibi etik ve psikolojik riskler de bulunmaktadır.

Sonuç olarak, yapay zekânın eğitimde kullanımı dengeli ve amaçlı bir şekilde gerçekleştirilme lidir. Bu sayede olumlu etkiler en üst düzeye çıkarılırken, olası riskler en aza indirilebilir.

Müasir informasiya cəmiyyətində texnologiyanın sürətli inkişafı bütün sahələrdə olduğu kimi təhsil sistemində də köklü dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə süni intellekt (Sİ) texnologiyalarının tətbiqi tədris prosesinin təşkili, idarə olunması və qiymətləndirilməsi baxımından yeni imkanlar yaratmışdır. Süni intellekt əsaslı sistemlər fərdiləşdirilmiş öyrənmə mühitləri formalaşdıraraq şagirdlərin bilik səviyyəsinə, maraqlarına və öyrənmə sürətinə uyğun məzmun təqdim edə bilir (Holmes et al., 2019).

Lakin bu texnoloji yeniliklər yalnız pedaqoji aspektlərlə məhdudlaşmır. Süni intellektin təhsildə tətbiqi şagirdlərin psixoloji vəziyyətinə, motivasiyasına, emosional inkişafına və sosial davranışlarına da təsir göstərir. Bu baxımdan, süni intellektin psixoloji təsirlərinin araşdırılması həm elmi, həm də praktik baxımdan mühüm əhəmiyyət kəsb edir.

Məqalənin məqsədi təhsil mühitində süni intellektin tətbiqinin şagirdlərin psixoloji xüsusiyyətlərinə təsirini təhlil etmək və bu təsirlərin müsbət və mənfi tərəflərini müəyyənləşdirməkdir.

Rəqəmsal mühitdə öyrənmə və psixoloji xüsusiyyətlər

Rəqəmsallaşma təhsil mühitində öyrənmə davranışlarını əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Ənənəvi sinif mühitindən fərqli olaraq, rəqəmsal platformalarda öyrənmə daha çevik və interaktiv xarakter daşıyır. Süni intellekt əsaslı sistemlər şagirdlərin fəaliyyətini analiz edərək onların güclü və zəif tərəflərini müəyyən edir və buna uyğun fərdi tədris strategiyaları formalaşdırır.

Bu cür fərdiləşdirilmiş yanaşma şagirdlərin özünəinam hissini artırır və öyrənmə prosesinə daha aktiv qoşulmasına şərait yaradır. Eyni zamanda, ani geribildirim mexanizmləri şagirdlərin səhvlərini tez bir zamanda düzəltməsinə kömək edir. (Holmes W., Bialik M., Fadel C., 2019)

Bununla belə, rəqəmsal mühitdə uzun müddət fəaliyyət göstərmək diqqətin dağılması, informasiyanın səthi mənimsənilməsi və yaddaşın zəifləməsi kimi psixoloji problemlərə də səbəb ola bilər. Bu xüsusilə gənc yaş qruplarında daha çox müşahidə olunur.

Məsələn, 1-ci sinifdə oxuyan bir şagird planşetdəki oxu proqramından istifadə edərkən səhv tələffüz etdiyi hərf və səslər sistem tərəfindən yenidən təqdim olunur. Bu da uşağın çətinlik çəkdiyi məqamları daha çox məşq etməsinə və həmin sahədə bacarığını inkişaf etdirməsinə imkan verir.

Başqa bir nümunə olaraq, ibtidai sinif şagirdi riyaziyyat tətbiqində toplama tapşırıqlarını həll edərkən səhv etdikdə proqram dərhal doğru cavabı göstərir və mövzunu daha yaxşı anlamaq üçün əlavə, daha sadə tapşırıqlar təqdim edir. Bu yanaşma şagirdin səhvlərini vaxtında görüb aradan qaldırmasına kömək edir.

Bununla yanaşı, rəqəmsal mühitdə uzun müddət qalmaq uşaqlarda diqqətin tez yayılması, məlumatın səthi qavranılması və yadda saxlama qabiliyyətinin zəifləməsi kimi psixoloji təsirlərə səbəb ola bilər.

Bu hallar xüsusilə aşağı yaşlı şagirdlər arasında daha çox müşahidə edilir.Belə ki, 1–2-ci sinif şagirdi planşetdən uzun müddət istifadə etdikdə diqqətini dərs üzərində saxlamaq çətinləşir və tez-tez başqa tətbiqlərə keçmək istəyir. Bu isə onun diqqətinin davamlılığını azaldır.

Digər bir vəziyyətdə, şagird videodərslərə həddindən artıq üstünlük verdikdə mövzunu dərindən mənimsəmək əvəzinə yalnız ümumi şəkildə yadda saxlayır və qısa müddət sonra unutmağa başlayır.

Bundan əlavə, bəzi şagirdlər hazır cavablara tez-tez çıxış əldə etdikləri üçün müstəqil düşünmə və problemləri özləri həll etmə bacarıqlarını kifayət qədər inkişaf etdirə bilmirlər.

Bu baxımdan, ibtidai siniflərdə rəqəmsal texnologiyalardan istifadə ölçülü və məqsədyönlü şəkildə təşkil edilməli, ənənəvi və rəqəmsal təlim üsulları arasında tarazlıq qorunmalıdır.

Motivasiya və öyrənmə marağına təsir

Süni intellekt texnologiyalarının təhsildə tətbiqi şagirdlərin motivasiyasına mühüm təsir göstərir. Adaptiv öyrənmə sistemləri şagirdin bilik səviyyəsinə uyğun tapşırıqlar təqdim etdiyindən uğur hissi formalaşdırır və bu da daxili motivasiyanı artırır.

Bundan əlavə, oyunlaşdırma (gamification) elementlərinin tətbiqi öyrənmə prosesini daha maraqlı və cəlbedici edir. Şagirdlər mükafatlandırma sistemləri vasitəsilə daha aktiv iştirak etməyə təşviq olunur. (Luckin R., 2018).

Lakin digər tərəfdən, hazır cavabların asanlıqla əldə edilməsi məktəblilərin müstəqil düşünmə və araşdırma qabiliyyətini zəiflədə bilər. Bu isə uzunmüddətli perspektivdə öyrənmə keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər.

Bu baxımdan, süni intellektin motivasiya üzərində təsiri iki istiqamətli xarakter daşıyır və onun düzgün istifadəsi xüsusi əhəmiyyət kəsb edir.

Emosional vəziyyət və sosial münasibətlər

Süni intellektin təhsildə tətbiqi şagirdlərin emosional vəziyyətinə də təsir edir. Ağıllı sistemlər bəzi hallarda müəllimin rolunu qismən əvəz etdiyinə görə canlı ünsiyyətin azalmasına səbəb olur. Bu isə sosial bacarıqların inkişafına mənfi təsir göstərə bilər.

Digər tərəfdən, bəzi şagirdlər üçün rəqəmsal mühit daha rahat və təhlükəsiz hiss olunur. Onlar texnologiya vasitəsilə öz fikirlərini daha sərbəst ifadə edə bilir və sosial narahatlıq səviyyəsi azalır.

Pandemiya dövründə geniş yayılmış onlayn təhsil modeli bu təsirləri daha aydın şəkildə ortaya qoymuşdur. Uzun müddətli sosial izolyasiya bəzi şagirdlərdə stress və narahatlıq səviyyəsinin artmasına səbəb olmuşdur (Təhsildə informasiya-kommunikasiya texnologiyalarından istifadə üzrə dövlət strategiyası, 2020).

Beləliklə, süni intellekt həm emosional rahatlıq yarada, həm də sosial əlaqələrin zəifləməsinə gətirib çıxara bilər.

Tənqidi düşünmə və idrak bacarıqları

Təhsil prosesində süni intellektdən geniş istifadə şagirdlərin tənqidi düşünmə bacarıqlarına da təsir göstərir. Süni intellekt sistemləri tez və hazır cavablar təqdim etdikcə şagirdlərin analitik düşünmə və problem həll etmə bacarıqları zəifləyə bilər.

Əgər şagird hər hansı bir sualın cavabını özü araşdırmaq əvəzinə texnologiyaya müraciət edirsə, bu zaman onun idrak fəaliyyəti passivləşir. Bu isə uzunmüddətli perspektivdə yaradıcılıq və innovativ düşüncənin azalmasına səbəb ola bilər. Bu problemi aradan qaldırmaq üçün təhsil prosesində süni intellektdən istifadə balanslı şəkildə təşkil olunmalı və şagirdlərin aktiv düşünmə fəaliyyəti təşviq edilməlidir.

Etik məsələlər və psixoloji risklər

Süni intellektin təhsildə tətbiqi ilə bağlı bir sıra etik və psixoloji problemlər mövcuddur. Bu problemlər aşağıdakılardır:

- Məlumatların məxfiliyi: Şagirdlərin şəxsi məlumatlarının toplanması və emalı təhlükəsizlik riskləri yaradır.
- Alqoritmik təsir: Sistemlər istifadəçilərin davranışlarını yönləndirə bilər.
- Rəqəmsal asılılıq: Texnologiyadan həddindən artıq istifadə psixoloji problemlərə səbəb ola bilər.

Xüsusilə rəqəmsal asılılıq müasir dövrdə ciddi problemlərdən biri kimi qiymətləndirilir. Bu vəziyyət şagirdlərin sosial həyatına və psixi sağlamlığına mənfi təsir göstərir.

Aparılan təhlillər göstərir ki, süni intellektin təhsildə tətbiqi həm müsbət, həm də mənfi psixoloji təsirlərə malikdir. Bu texnologiyalar öyrənməni daha effektiv və fərdiləşdirilmiş etsə də, onların düzgün istifadə olunmaması müəyyən risklər yaradır.

Fikrimizcə, təhsil sistemində süni intellektdən balanslı və məqsədyönlü istifadə edilməsi şagirdlərin həm akademik, həm də psixoloji inkişafı üçün vacibdir. Gələcəkdə bu sahədə aparılacaq tədqiqatlar süni intellektin insan psixologiyasına təsir mexanizmlərini daha dərindən anlamağa imkan verəcəkdir.

Ədəbiyyat:

1. Holmes, W., Bialik, M., & Fadel, C. (2019). Artificial Intelligence in Education. Boston: Center for Curriculum Redesign.
2. Luckin, R. (2018). Machine Learning and Human Intelligence: The Future of Education for the 21st Century. London: UCL Institute of Education Press.
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2013). “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”. Bakı.

4. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2020). Təhsildə informasiya-kommunikasiya texnologiyalarından istifadə üzrə dövlət strategiyası. Bakı.

5. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2016). “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri”. Bakı.

6. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2020). “Ümumi təhsil pilləsində dövlət standartları”. Bakı.

7. Azərbaycan Respublikasının Təhsil İnstitutu. (2019). Rəqəmsal təhsil resurslarının hazırlanması və istifadəsi üzrə metodik vəsait. Bakı.

SÜNİ İNTELLEKTİN YENİYETMƏLƏRİN SOSİAL DAVRANIŞINA VƏ QƏRAR QƏBULETMƏ PROSESLƏRİNƏ TƏSİRİ

Qönçə Mərdan qızı Mirzəyeva
Azərbycan Respublikası
Bakı Dövlət Universiteti
Bakı Dövlət Universitetinin doktorantı
gonchamirzayeva@gmail.com
ORCİD İD: https://orcid.org/0009-0006-3485-0988

Açar sözlər: rəqəmsal texnologiya, təfəkkür prosesləri, süni intellekt, davranış normaları, alqoritmik təsir, sosiallaşma prosesi.

Xülasə. Müasir dövrdə sürətlə inkişaf edən rəqəmsal texnologiyalar və onların fonunda süni intellekt sistemlərinin təkmilləşməsi yeniyetmələrin həyatından da təsirsiz ötüşmür. Sosial platformalar, tövsiyə olunan alqoritmlər və müxtəlif rəqəmsal texnologiyalar, yeniyetmələrin ünsiyyət prosesinin təşkilinə və geniş informasiya mühitində qərar qəbuletmə prosesinə birbaşa və dolayı yolla təsir göstərir. Son dövrlərdə, süni intellekt sistemlərinin sosial həyatımıza müsbət və mənfi təsiri ilə bağlı araşdırmalar zamanı müəyyən edilmişdir ki, süni intellekti təşkil edən alqoritmlər “istifadəçinin marağına uyğun kontent yaratma” şəklində proqramlanıb. Bu isə uzun zaman intervalı ərzində yeniyetmələrin izlədikləri kontentə uyğun olaraq, oxşar kontentin yenidən onların qarşısına çıxarılmasına və beləliklə, yeniyetmələrdə “standartlaşmış sosial davranış normaları”nın yaranması, eləcə də, ünsiyyət, qərar qəbuletmə və s. kimi təfəkkür proseslərinin konkret istiqamətə yönəlməsinə gətirib çıxarır. Həmin təsirlərin araşdırılmasının əhəmiyyəti ondan ibarətdir ki, yeniyetməlik dövrü, şəxsiyyətin formalaşması prosesində ən həssas dövr olaraq qiymətləndirilir. Belə ki, yeniyetməlik dövründə şəxsiyyət tam formalaşmadığı üçün onlar, rəqəmsal texnologiyaların yaratdığı təhlükələr də daxil olmaqla, müxtəlif növ neqativ təsirlərə daha həssas olurlar. Nəticədə, yeniyetmələrdə qərar qəbuletmə prosesinin tədricən zəifləməsi müşahidə edilir. Həmçinin, süni intellekt sistemlərinin yeniyetmələrin sosial davranışlara təsiri də əhəmiyyət kəsb edir. Belə ki, yeniyetmələrin yeni sosial davranış normalarını və ünsiyyət modellərini mənimsəməsi səbəbindən, ənənəvi davranış və ünsiyyət modellərinin, yeni modellərə transformasiya prosesi baş verir. Bu isə yeniyetmələrin sosial inkişafına müxtəlif cür təsir göstərir. Nəticə etibarilə, süni intellekt sistemlərinin inkişafının müxtəlif təsirlərlə bağlı kompleks xarakter daşıması səbəbindən, yeniyetmələrin sosial davranışlarının düzgün formalaşdırılması və qərar

qəbuletmə prosesinin pedaqoji və sosial baxımdan nəzarətdə saxlanılması xüsusi əhəmiyyət kəsb edir.

Keywords: digital technology, cognitive processes, artificial intelligence, behavioral norms, algorithmic influence, socialization process.

Summary. İn the modern era, rapidly developing digital technologies and the advancement of artificial intelligence systems have a significant impact on adolescents’ lives. Social platforms, recommendation algorithms, and various digital technologies directly and indirectly influence the organization of adolescents’ communication processes and their decision-making within a vast information environment. Recent studies on the positive and negative effects of artificial intelligence on social life have shown that the algorithms underlying AI systems are programmed to generate content tailored to users’ interests. Over time, this leads to repeated exposure to similar content based on adolescents’ viewing patterns, resulting in the formation of “standardized social behavior norms” and the direction of cognitive processes such as communication and decision-making toward specific patterns. The importance of studying these effects lies in the fact that adolescence is considered the most sensitive stage in the process of personality formation. Since personality is not yet fully developed during this period, adolescents are more vulnerable to various negative influences, including the risks created by digital technologies. As a result, a gradual weakening of independent decision-making processes among adolescents can be observed. Furthermore, artificial intelligence systems significantly influence adolescents’ social behavior. Due to the adoption of new social behavior norms and communication models, traditional patterns of behavior and interaction undergo transformation into new forms. This transformation, in turn, affects adolescents’ social development in various ways. In conclusion, given the complex and multifaceted impact of artificial intelligence systems, it is essential to ensure the proper formation of adolescents’ social behavior and to maintain pedagogical and social supervision over their decision-making processes.

Anahtar kelimeler: dijital teknoloji, bilişsel süreçler, yapay zeka, davranış normları, algoritmik etki, sosyalleşme süreci.

Özet. Günümüzde hızla gelişen dijital teknolojiler ve bu gelişmeler doğrultusunda yapay zeka sistemlerinin ilerlemesi, ergenlerin yaşamını da önemli ölçüde etkilemektedir. Sosyal platformlar, öneri algoritmaları ve çeşitli dijital teknolojiler, ergenlerin iletişim süreçlerinin düzenlenmesine ve geniş bilgi ortamında karar verme süreçlerine doğrudan ve dolaylı olarak etki etmektedir. Son yıllarda yapay zekanın sosyal yaşama olan olumlu ve olumsuz etkileri üzerine yapılan araştırmalar, yapay zekayı oluşturan algoritmaların “kullanıcının ilgi alanlarına uygun içerik üretme” prensibiyle programlandığını ortaya koymuştur. Bu durum, uzun vadede ergenlerin izledikleri içeriklere benzer içeriklerin tekrar karşılarına çıkmasına neden olmakta ve böylece ergenlerde “standartlaşmış sosyal davranış normlarının” oluşmasına, ayrıca iletişim, karar verme gibi bilişsel süreçlerin belirli bir yöne yönlendirilmesine yol açmaktadır. Bu etkilerin incelenmesinin önemi, ergenlik döneminin kişilik gelişiminin en hassas evresi olarak kabul edilmesinden kaynaklanmaktadır. Bu dönemde kişilik henüz tam olarak oluşmadığı için ergenler, dijital teknolojilerin yarattığı riskler de dahil olmak üzere çeşitli olumsuz etkilere daha açık hale gelmektedir. Bu bağlamda, ergenlerde karar verme süreçlerinin zamanla zayıfladığı gözlemlenmektedir. Ayrıca yapay zeka sistemlerinin ergenlerin sosyal davranışları üzerindeki etkisi de önemlidir. Ergenlerin yeni sosyal davranış normlarını ve iletişim modellerini benimsemeleri sonucunda, geleneksel davranış ve iletişim biçimleri yeni modellere dönüşmektedir. Bu dönüşüm ise ergenlerin sosyal gelişimini farklı

yönlerden etkilemektedir. Sonuç olarak, yapay zeka sistemlerinin gelişiminin çok boyutlu etkiler taşıması nedeniyle, ergenlerin sosyal davranışlarının doğru şekilde yönlendirilmesi ve karar verme süreçlerinin pedagojik ve sosyal açıdan denetim altında tutulması büyük önem taşımaktadır.

Rəqəmsal texnologiyaların günü-gündən inkişaf prosesinə uğraması və yeni nəsil texnologiyaların yaranması, yeniyetmələrin həyatına da öz təsirini əhəmiyyətli dərəcədə göstərir. Yeni nəsil informasiya-kommunikasiya texnologiyalarının təkmilləşməsi sayəsində, yeniyetmələr, öz ünsiyyət, sosiallaşma, informasiya əldəetmə və s. kimi ehtiyaclarını virtual mühit vasitəsilə əldə edirlər. Bu baxımdan da, rəqəmsal texnologiyaların, eləcə də, süni intellekt vasitələrinin, yeniyetmələrin ünsiyyət, sosial davranış və qərar qəbuletmə proseslərinə təsirinin öyrənilməsi müasir dövrün aktual problemlərindəndir. Belə ki, sosial media platformaları, axtarış brauzerləri və s. “daha öncə izlənilən/axtarılan oxşar kontentin izləyiciyə təqdim edilməsi” şəklində proqramlandığı üçün onların düşüncə tərzi, sosial davranış normalarını mənimsəmə prosesləri (dəyər mexanizmləri) və s. tədricən media platformalarında təqdim olunan kontentə uyğun olaraq dəyişikliyə uğrayır.

Yeniyetmələrə müxtəlif aspektlərdən təsirinin daha yaxşı anlaşılması üçün ilk öncə “süni intellekt” anlayışının mahiyyəti izah edilməlidir. “McCarthy, zəkanı “dünyada məqsədlərə çatmaq qabiliyyətinin hesablayıcı bir hissəsi” kimi müəyyən etmişdir. O qeyd edir ki, müxtəlif növ və səviyyələrdə zəka insanlarda, bir çox heyvanlarda və bəzi maşınlarda müşahidə olunur. Süni intellekti isə “insanabənzər zəkaya malik maşınların, xüsusilə də ağıllı kompüter proqramlarının hazırlanması elmi və mühəndisliyi” kimi izah etmişdir” (Arslan, 2020). Beləliklə, araşdırmalardan da göründüyü kimi süni intellekt vasitələri insanların zəkasına, seçimlərinə, davranışlarına və s. maksimum uyğunlaşdırılmış şəkildə proqramlanır və daimi olaraq təkmilləşdirilir. Süni intellekt vasitələrindən sui-istifadə nəticəsində, yeniyetmələr kimi identiklik prosesi tam formalaşmamış həssas qrupların təfəkkür və buna bağlı olaraq, xüsusilə, seçim proseslərinin zəifləməsi müşahidə olunur.

Digər tərəfdən də, süni intellekt vasitələri, yeniyetmələrin, sadəcə sosial həyatlarında deyil, eyni zamanda, tədris prosesində də özünəməxsus rol oynayır. “Sözlərin izahı, mətnin tərcüməsi, qrammatikanın yoxlanılması və riyazi məsələlərin həlli kimi ən geniş istifadə olunan sahələrdən başlayaraq, süni intellekt məktəb tapşırıqlarında öyrənmə mühitini təkmilləşdirmək üçün istifadə olunur” (González Tigrero, 2024). Lakin, seçim çoxluğu səbəbindən filtrasiya mexanizmlərinin süni intellekt vasitələri tərəfindən avtomatik təqdim edilməsi, yeniyetmələrin, qərar qəbuletmə proseslərini və məsuliyyətini azaldır. Nəticə etibarilə, yeniyetmələr, daha çox “hazır təqdim olunan seçimlər”ə üstünlük verirlər və tənqidi təfəkkür qabiliyyətlərində zəifləmə müşahidə olunur.

Yeniyetmələrin, süni intellektdən istifadəsi nəticəsində, onların qərar qəbuletmə və sosial davranışlarının yönləndirilməsi, həm də, etik problemlərdən biri hesab edilir. Belə ki, yeniyetmələr, tam formalaşmamış şəxsiyyət xüsusiyyətlərinə malik olduqları üçün bu kimi hallar, onların müstəqil qərar qəbuletmə hüququnun dolayı yolla məhdudlaşdırılması kimi dəyərləndirilə və bəzi hallarda, hüquqi nəticələrə səbəb ola bilər. Həmçinin, süni intellekt vasitələri ilə təqdim olunan materialların nə dərəcədə “şəffaf” olması da, etik əhəmiyyət kəsb edən məsələlərdən biri hesab olunur. Belə ki, yeniyetmələr, əksəriyyət hallarda, onlara təqdim edilən kontentin hansı əsaslarla seçildiyi və təqdim edildiyi haqqında məlumatsız olurlar. Beləliklə, “gizli yönləndirmə” (“implicit influence”) adlı fenomen ortaya çıxır.

“Süni intellekt tez-tez siyasi və texnoloji müzakirələrin mərkəzində olsa da, ictimai rəy hələ də onun uzunmüddətli istifadəsinin faydaları və riskləri ilə bağlı müzakirələrlə kifayət qədər

üzləşməmişdir" (Fietta et al., 2021). Lakin, süni intellektin, xüsusilə, yeniyetmələrin həyatına təsiri nəticəsində yaranan risklər ilə bağlı bir sıra araşdırmalar mövcuddur. Belə ki, süni intellekt vasitələri tərəfindən təqdim edilən informasiyanın məhdudluğu səbəbindən, onlar, həmin məzmunla kifayətlənir və dünyagörüşünün azlığı və ya təktərəfli formalaşması kimi problemlər ortaya çıxmağa başlayır. Digər tərəfdən isə yeniyetmələr, əksəriyyət hallarda, onlara gərəkli olmayan məzmuna məruz qalırlar və beləliklə də, "informasiya balonu" ("bubble effect") adlandırılan situasiya yaranmağa başlayır. Nəticə etibarilə isə yenə də, yeniyetmələrin, tənqidi təfəkküründün tədricən zəifləməsi halları müşahidə edilir.

Rəqəmsal texnologiyalardan istifadənin yaratdığı digər önəmli məsələlərdən biri isə "yaş məzmununa uyğun olmayan kontent"ə məruz qalma riskidir. Belə ki, alqortmik funksiyalar səbəbilə (izlənmə sayının artması üçün), yeniyetmələr, xüsusilə, sosial media platformalarında, öz yaş qruplarına uyğun olmayan aqressiv, manipulyativ və zərərli təsirə malik kontent ilə qarşı-qarşıya qalırlar. Bunun nəticəsində isə tədricən, həmin davranış normalarına adaptasiya və sosial həyatda həmin davranışların tətbiqi kimi ciddi problemlər yaranmağa başlayır. Beləliklə də, yeniyetmələrin hələ formalaşmamış dəyər mexanizmləri tədricən "dağılmağa" başlayır.

Süni intellekt vasitələrinin, yeniyetmələrin sosial davranış və qərar qəbuletmə proseslərinə təsirinin düzgün istiqamətləndirilməsinin təşkil edilməsi məqsədilə bir sıra profilaktik tədbirlər görülməlidir. Belə ki, "Hökumətin rolu, cəmiyyətin təhlükələrdən qorunaraq özünü təhlükəsiz hiss etmə hüququnun təmin edilməsi üçün qaydaların yaradılması və tətbiqi vasitəsilə optimal şəkildə həyata keçirilməsidir"(Hafiar et al., 2020). Bundan əlavə, yeniyetmələrə, rəqəmsal texnologiyaların neqativ təsirlərindən qorunma məqsədilə "rəqəmsal savadlılıq proqramları"nın tədris edilməsi xüsusilə əhəmiyyətli hesab edilir. Bununla yanaşı, ümumtəhsil məktəblərində və ailə içərisində (valideynlər tərəfindən) nəzarət tədbirlərinin həyata keçirilməsi vacibdir. Eyni zamanda, ehtiyac olduğu hallarda, psixoloji və pedaqoji dəstəyin təşkil edilməsi də, profilaktik tədbir qismində çıxış edir. Nəticə etibarilə, süni intellekt vasitələri, həyatımızı müxtəlif şəkildə yönləndirmə gücünə malik olduğu üçün ondan düzgün şəkildə istifadə edilməsi yollarının araşdırılması, günümüzün aktual məsələlərindəndir. Bu isə yuxarıda adları çəkilən kompleks tədbirlərin həyata keçirilməsi nəticəsində mümkün ola bilər.

Ədəbiyyat:

1. Arslan, K. (2020). Eğitimde yapay zekâ ve uygulamaları. Batı Anadolu Eğitim Bilimleri Dergisi, 11(1), 71-88.

2. Fietta, V., Zecchinato, F., Di Stasi, B., Polato, M., & Monaro, M. (2021). Dissociation between users' explicit and implicit attitudes toward artificial intelligence: An experimental study. IEEE Transactions on Human-Machine Systems, 52(3), 481-489.

3. González Tigrero, R. O. (2024). Advantages and disadvantages of artificial intelligence in the learning process in teenagers.

4. Hafiar, H., Sjafirah, N. A., Priyatna, C. C., Lukman, S., Syuderajat, F., & Prastowo, A. A. (2020). Precaution towards access to inappropriate internet content by students with visual impairment.

SÜNİ İNTELLEKT SAVADLILIĞI: XXI ƏSR BACARIQLARININ FORMALAŞDIRILMASI

Qahirə Lələ qızı Şahbazova
Baş müəllim
Azərbaycan Respublikası
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
sahbazovaqahire@gmail.com
ORCID ID: 0000-0002-6482-6675

Açar sözlər: süni intellekt, rəqəmsal transformasiya, təhsil, süni intellekt savadlılığı, rəqəmsal kompetensiyalar, innovasiya, texnoloji özünüeffektivlik.

Xülasə. Müasir dövrdə rəqəmsal transformasiya və süni intellekt texnologiyalarının sürətli inkişafı cəmiyyətin bütün sahələrində, xüsusilə təhsil sistemində köklü dəyişikliklərə səbəb olmuşdur. Qlobal miqyasda iqtisadi gücün, sosial rifahın və siyasi təsirin formalaşmasında rəqəmsal texnologiyaların rolu getdikcə artmaqda, bilik və innovasiyaya əsaslanan inkişaf modeli ön plana çıxmaqdadır. Bu kontekstdə Azərbaycan da rəqəmsal inkişaf strategiyasını prioritet istiqamət kimi müəyyən etmiş və süni intellekt texnologiyalarının tətbiqini dövlət siyasətinin əsas komponentlərindən birinə çevirmişdir.

Cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkədə rəqəmsallaşma prosesi sürətlənmiş, informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik və innovasiya sahələrində mühüm institusional və texnoloji islahatlar həyata keçirilmişdir. Xüsusilə “Azərbaycanın yeni rəqəmsal arxitekturası” yanaşması çərçivəsində süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması və rəqəmsal infrastrukturun gücləndirilməsi ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətləri kimi müəyyən edilmişdir.

Məqalədə süni intellekt savadlılığı anlayışı geniş şəkildə təhlil olunmuş və onun müasir təhsil sistemində rolu əsaslandırılmışdır. Süni intellekt savadlılığı fərdlərin süni intellekt sistemlərinin iş prinsiplərini anlaması, bu texnologiyalardan səmərəli və məsuliyyətli istifadə etməsi, həmçinin onların sosial və etik təsirlərini qiymətləndirməsi bacarıqlarını əhatə edən kompleks kompetensiya kimi təqdim olunur. Bu çərçivədə European Commission tərəfindən müəyyən edilmiş əsas komponentlər – texnoloji biliklər, məlumat savadlılığı, tənqidi düşünmə, etik məsuliyyət və yaradıcı tətbiq bacarıqları xüsusi vurğulanır. Məqalədə süni intellekt savadlılığının yalnız texniki biliklər sistemi deyil, həm də sosial məsuliyyət və etik dəyərlərlə zənginləşdirilmiş kompleks bir kompetensiya olduğu qənaətinə gəlinmişdir. Bu bacarıqların inkişaf etdirilməsi təhsil sisteminin keyfiyyətinin yüksəldilməsinə, rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasına və Azərbaycan-ın qlobal rəqəmsal iqtisadiyyatda mövqeyinin gücləndirilməsinə mühüm töhfə verə bilər.

Keywords: artificial intelligence, digital transformation, education, artificial intelligence literacy, digital competencies, innovation, technological self-efficacy.

Summary. In modern times, digital transformation and the rapid development of artificial intelligence technologies have led to radical changes in all areas of society, especially in the education system. The role of digital technologies in the formation of economic power, social welfare and political influence on a global scale is increasingly increasing, and a development model based on knowledge and innovation is coming to the fore. In this context, Azerbaijan has

also identified a digital development strategy as a priority direction and has made the application of artificial intelligence technologies one of the main components of state policy.

As a result of the purposeful policy implemented by Mr. Ilham Aliyev, the digitalization process in the country has accelerated, and important institutional and technological reforms have been implemented in the fields of information security, cybersecurity and innovation. In particular, within the framework of the “New Digital Architecture of Azerbaijan” approach, the application of artificial intelligence, the creation of data centers and the strengthening of digital infrastructure have been identified as the main directions of the country's long-term development strategy.

The article extensively analyzes the concept of artificial intelligence literacy and justifies its role in the modern education system. AI literacy is presented as a complex competency that encompasses the ability of individuals to understand the working principles of AI systems, to use these technologies effectively and responsibly, and to assess their social and ethical impacts. In this context, the key components identified by the European Commission – technological knowledge, information literacy, critical thinking, ethical responsibility and creative application skills – are particularly emphasized.

The article extensively analyzes the concept of artificial intelligence literacy and justifies its role in the modern education system. Artificial intelligence literacy is presented as a complex competency that includes the ability of individuals to understand the working principles of artificial intelligence systems, to use these technologies effectively and responsibly, as well as to assess their social and ethical impacts. In this context, the main components identified by the European Commission - technological knowledge, information literacy, critical thinking, ethical responsibility and creative application skills - are particularly emphasized. The article concludes that artificial intelligence literacy is not only a system of technical knowledge, but also a complex competency enriched with social responsibility and ethical values. The development of these skills can make a significant contribution to improving the quality of the education system, forming competitive human capital and strengthening Azerbaijan's position in the global digital economy.

Anahtar kelimeler: yapay zeka, dijital dönüşüm, eğitim, yapay zeka okuryazarlığı, dijital yetkinlikler, inovasyon, teknolojik öz yeterlilik.

Özet. Modern çağda, dijital dönüşüm ve yapay zekâ teknolojilerinin hızlı gelişimi, toplumun tüm alanlarında, özellikle de eğitim sisteminde temel değişikliklere yol açmıştır. Dijital teknolojilerin küresel ölçekte ekonomik güç, sosyal refah ve siyasi etki oluşturmadaki rolü giderek artmakta ve bilgi ve inovasyona dayalı kalkınma modeli ön plana çıkmaktadır. Bu bağlamda, Azerbaycan da dijital kalkınma stratejisini öncelikli bir yön olarak belirlemiş ve yapay zekâ teknolojilerinin uygulanmasını devlet politikasının ana bileşenlerinden biri haline getirmiştir.

Sayın İlham Aliyev'in uyguladığı hedefli politika sonucunda, ülkedeki dijitalleşme süreci hızlanmış ve bilgi güvenliği, siber güvenlik ve inovasyon alanlarında önemli kurumsal ve teknolojik reformlar gerçekleştirilmiştir. Özellikle, “Azerbaycan'ın Yeni Dijital Mimarisi” yaklaşımı çerçevesinde, yapay zekânın uygulanması, veri merkezlerinin oluşturulması ve dijital altyapının güçlendirilmesi, ülkenin uzun vadeli kalkınma stratejisinin ana yönleri olarak belirlenmiştir.

Makale, yapay zekâ okuryazarlığı kavramını kapsamlı bir şekilde analiz etmekte ve modern eğitim sistemindeki rolünü gerekçelendirmektedir. Yapay zekâ okuryazarlığı, bireylerin yapay zekâ sistemlerinin çalışma prensiplerini anlama, bu teknolojileri etkili ve sorumlu bir şekilde kullanma ve sosyal ve etik etkilerini değerlendirme yeteneğini içeren karmaşık bir yetkinlik olarak sunulmaktadır. Bu bağlamda, Avrupa Komisyonu tarafından belirlenen temel bileşenler -teknolojik

bilgi, bilgi okuryazarlığı, eleştirel düşünme, etik sorumluluk ve yaratıcı uygulama becerileri- özellikle vurgulanmaktadır. Makale, yapay zekâ okuryazarlığının sadece teknik bir bilgi sistemi değil, aynı zamanda sosyal sorumluluk ve etik değerlerle zenginleştirilmiş karmaşık bir yetkinlik olduğu sonucuna varmaktadır. Bu becerilerin geliştirilmesi, eğitim sisteminin kalitesinin iyileştirilmesine, rekabetçi insan sermayesinin oluşturulmasına ve Azerbaycan'ın küresel dijital ekonomideki konumunun güçlendirilmesine önemli katkı sağlayabilir.

Azərbaycan son dövrlərdə sürətli inkişaf tempi ilə seçilərək iqtisadi, siyasi və sosial sahələrdə qazandığı uğurlar sayəsində regionun lider dövlətlərindən biri kimi mövqeyini möhkəmləndirmişdir. Qlobal miqyasda həyata keçirilən iri layihələrin təşəbbüskarı kimi çıxış edən ölkə, strateji baxışa əsaslanan inkişaf modeli sayəsində beynəlxalq nüfuzunu daha da möhkəmləndirmişdir. Bu inkişafın əsas istiqamətlərindən biri isə rəqəmsal transformasiya və innovativ texnologiyaların tətbiqidir.

Azərbaycanın iqtisadi, siyasi gücü, beynəlxalq aləmdə nüfuzlu dövlət olaraq regionun iqtisadiyyatının mənzərəsini dəyişməyə xidmət edən layihələrin təşəbbüskarı olaraq çıxış edir və irəli sürdüyü istənilən layihənin icrasına nail olur. Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Heydər oğlu Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkədə rəqəmsallaşma prosesi yeni mərhələyə qədəm qoymuşdur. Rəqəmsal inkişaf cəmiyyətimizin ayrılmaz tərkib hissəsinə çevrilib. Prezident İlham Əliyevin liderliyi sayəsində ölkəmiz informasiya və rəqəmsal texnologiyalar istiqamətində də beynəlxalq səviyyədə etibarlı tərəfdaşa çevrilib. Məhz dövlət başçısının iradəsi və siyasi qətiyyəti nəticəsində son illər informasiya təhlükəsizliyinin təmin olunması və rəqəmsal inkişafın qorunması istiqamətində mühüm islahatlar həyata keçirilib. Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən və “Azərbaycanın yeni rəqəmsal arxitekturası” adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə ölkənin inkişaf modelində keyfiyyətcə yeni istiqaməti müəyyənləşdirdi. Bu tədbir ölkənin texnologiya ekosistemi üçün mühüm hadisədir, çünki burada rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya kimi müasir dövrün əhəmiyyətli sahələri üzrə bir sıra önəmli məsələlər müzakirə olundu (İlham Əliyev (2024). Bu yanaşma yalnız texnoloji yenilənmə deyil, həm də milli inkişaf strategiyasının əsas sütunlarından biri kimi çıxış edir. Bəllidir ki, XXI əsrin əsas resursu məlumat, əsas gücü isə süni intellektdir. Bu müşavirə məhz ölkənin inkişaf modelində keyfiyyətcə yeni istiqaməti müəyyənləşdirdi. Prezident İlham Əliyevin sözləri ilə desək, bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Bu, sadəcə texnoloji yenilənmə deyil, həmçinin strateji seçimdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022– 2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda ölkəmizin rəqəmsal iqtisadiyyata keçidinin sürətləndirilməsi, bunun üçün əlverişli infrastrukturun yaradılması və 4-cü sənaye inqilabı texnologiyalarının tətbiqi imkanlarının tədqiq olunması tədbirləri müəyyənləşdirilmişdir (Azərbaycan Respublikası, 2023). Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası”nda informasiya təhlükəsizliyi üzrə yarana biləcək təhdidlərin və risklərin əvvəlcədən müəyyən edilməsi, eləcə də onlara qarşı görülməli tədbirlərin proqnozlaşdırılması məqsədilə süni intellekt əsaslı həllərin işlənib hazırlanması və tətbiqinin təşkil edilməsi nəzərdə tutulur (Azərbaycan Respublikası Prezidenti, 2023). Qeyd olunanlar baxımından

süni intellekt sistemlərinin tətbiqi üzrə əlverişli infrastrukturun yaradılması, rəqəmsal xidmət sahələrinin müəyyən edilməsi və inkişafı xüsusi strateji əhəmiyyətə malikdir. Son zamanlar dünya miqyasında süni intellekt sistemlərinin müxtəlif sahələrdə tətbiqi fiziki və hüquqi şəxslərə sosial-iqtisadi üstünlüklər qazandırmışdır. Buna görə də bir çox dövlətlər süni intellekt sahəsi üzrə ayrıca strategiyalar qəbul etmişlər və onların icrası həyata keçirilməkdədir. Digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da süni intellekt texnologiyaları ölkəmizin iqtisadi və sosial inkişafında və qlobal rəqabət mühitində üstünlüklər əldə etməsində mühüm rol oynaya bilər. Odur ki, bu sahədə sistemli yanaşmaya ehtiyac vardır. Süni intellektin dövlət idarəçiliyi, iqtisadi, sosial, təhsil, səhiyyə, müdafiə, təhlükəsizlik və digər sahələrə ciddi dəyişikliklər gətirəcəyi, eləcə də bununla bağlı yaranacaq çağırışlar və təhdidlər nəzərə alınaraq, süni intellekt üzrə milli strategiyanın hazırlanması zərurəti yaranmışdır.

Bu məqsədlə hazırlanmış “Azərbaycan Respublikasının 2025– 2028-ci illər üçün süni intellekt Strategiyası” (bundan sonra – Strategiya), ilk növbədə, ölkədə süni intellekt üzrə mövcud vəziyyəti təhlil edir, daha sonra əldə olunan nəticələrə uyğun olaraq və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planı vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olmağı hədəfləyir. Strategiyada süni intellekt ekosisteminin formalaşmasını və inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir (Azərbaycan Respublikası 2024). 2025–2028-ci illər ərzində həyata keçiriləcək tədbirlər çərçivəsində ilkin mərhələdə süni intellekt üzrə idarəetmənin təkmilləşdirilməsi, süni 4 intellekt siyasətinin formalaşdırılması, məsul dövlət orqanlarının (qurumlarının) müəyyən edilməsi və dövlət–özəl sektor əməkdaşlığının genişləndirilməsi nəzərdə tutulur. Bu məqsədlə, süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni təmin etmək üçün normativ hüquqi baza hazırlanacaq, insan hüquqlarına və məlumatların məxfiliyinə xüsusi diqqət yetiriləcəkdir.

Süni intellektin effektiv inkişafı məqsədilə yüksəksəviyyəli hesablama infrastrukturunun qurulması və süni intellekt modellərinin sürətli işlənməsi üçün bulud əsaslı resursların artırılması planlaşdırılır. Eyni zamanda, açıq mənbəli süni intellekt kitabxanalarının yaradılması və Azərbaycan dilində süni intellekt həllərinin inkişaf etdirilməsi bu sahədə mühüm irəliləyişlərə yol açacaqdır. Kadr hazırlığı və bacarıqların inkişafı istiqamətində isə süni intellekt sahəsində ixtisaslaşmış mütəxəssislərin hazırlanması üçün təlim və elmi proqramların genişləndirilməsi, ali təhsil müəssisələrində süni intellekt üzrə yeni tədris proqramlarının hazırlanması nəzərdə tutulur. Tədqiqatçılar üçün süni intellekt üzrə xüsusi fondların yaradılması və beynəlxalq institutlarla əməkdaşlığın genişləndirilməsi də bu sahədə əsas hədəflərdən biridir. Bundan əlavə, dövlət qulluqçuları və rəhbər şəxslər üçün süni intellekt və məlumatların idarə edilməsi üzrə təlimlər keçirilməsi süni intellektin dövlət idarəçiliyində səmərəli tətbiqini təmin edəcəkdir. Süni intellekt ekosisteminin gücləndirilməsi, süni intellektin tətbiqini genişləndirmək üçün pilot layihələrin icrası və nəticədə biznesin inkişaf etdirilməsi Strategiyanın əsas istiqamətlərindən biri olacaqdır. Bunun üçün startap və innovasiya ekosisteminin dəstəklənməsi, süni intellekt sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və maliyyə dəstəyi verilməsi planlaşdırılır. Süni intellekt (Sİ) savadlılığı, tənqidi təfəkkürü gücləndirən metakoqnitiv bacarıqları inkişaf etdirməklə yanaşı, fərdin texnoloji dəyişikliklərə adaptiv çevikliyini artırır. Bu proses, texnofobiyanı azaldaraq özünüeffektivlik hissini gücləndirir və insanı rəqəmsal ekosistemdə emosional və etik mühakimə qabiliyyətini qoruyan subyektə çevirir.

XXI əsr informasiya və rəqəmsal texnologiyalar əsri kimi xarakterizə olunur. Qlobal miqyasda iqtisadi güc, siyasi təsir və sosial rifah getdikcə rəqəmsal imkanlarla birbaşa bağlı olur. Bu kontekstdə Azərbaycanın rəqəmsal inkişaf strategiyası ölkənin uzunmüddətli milli maraqlarına xidmət edən əsas istiqamətlərdən biri kimi formalaşıb. Müasir dünyada texnoloji tərəqqi ölkələrin iqtisadi, sosial və siyasi inkişafının əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Xüsusilə süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması və genişmiqyaslı rəqəmsallaşma prosesləri dövlətlərin gələcək inkişaf trayektoriyasını müəyyən edən strateji amillər kimi çıxış edir. Artıq ənənəvi resurslara əsaslanan iqtisadi model tədricən bilik və texnologiya əsaslı iqtisadiyyatla əvəz olunur. Bu baxımdan, rəqəmsal transformasiyanı vaxtında və səmərəli şəkildə həyata keçirən ölkələr qlobal rəqabətdə üstün mövqe qazanırlar. Süni intellekt (AI) texnologiyaları istehsalatdan səhiyyəyə, kənd təsərrüfatından müdafiə sənayesinə qədər geniş sahələrdə tətbiq olunur.

Dünya təcrübəsi göstərir ki, aparıcı texnologiya şirkətləri, o cümlədən Google, Microsoft və OpenAI süni intellekt sahəsinə böyük həcmdə investisiya yatıraraq innovativ həllər təqdim edirlər. Bu investisiyalar nəticəsində əmək məhsuldarlığı artır, xərclər azalır və qərarvermə prosesləri daha dəqiq və sürətli həyata keçirilir. Bu texnologiyalar vasitəsilə böyük verilənlərin analizi, avtomatlaşdırılmış idarəetmə və fərdiləşdirilmiş xidmətlərin göstərilməsi mümkün olur. Nəticədə həm iqtisadi səmərəlilik artır, həm də cəmiyyətin müxtəlif sahələrində keyfiyyət göstəriciləri yüksəlir. Süni intellekt böyük həcmli məlumatların təhlilini mümkün edir, risklərin proqnozlaşdırılmasına və strateji planlamaya yeni imkanlar açır. Bu isə dövlət idarəçiliyində şəffaflığın və operativliyin artmasına səbəb olur. Data mərkəzləri rəqəmsal iqtisadiyyatın əsas infrastruktur elementlərindən biridir. Böyük həcmli məlumatların saxlanması, emalı və qorunması üçün güclü server sistemlərinə ehtiyac vardır.

Xüsusilə OpenAI tərəfindən hazırlanmış ChatGPT kimi sistemlərin, eləcə də Google və Microsoft kimi qlobal şirkətlərin süni intellekt əsaslı həllərinin geniş tətbiqi cəmiyyətin bütün sahələrində köklü dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər təhsil sisteminin də qarşısında yeni vəzifələr müəyyən edir.

Bu kontekstdə beynəlxalq təşkilatlar da süni intellekt və rəqəmsal bacarıqların inkişafına xüsusi diqqət yetirirlər. UNESCO və OECD kimi qurumlar süni intellekt savadlılığını XXI əsrin əsas kompetensiyalarından biri kimi müəyyən etmişdir. Bu isə təhsil sisteminin qarşısında yeni vəzifələr qoyur və tədris prosesinin məzmununun yenilənməsini zəruri edir (UNESCO 2021).

Süni intellekt savadlılığı anlayışı

Süni intellekt savadlılığı fərdlərin süni intellekt sistemlərinin iş prinsipini anlamaq, onlardan effektiv və məsuliyyətli istifadə etmək, həmçinin bu texnologiyaların sosial və etik təsirlərini qiymətləndirmək bacarığını ifadə edir. Bu anlayış yalnız texniki biliklərlə məhdudlaşmır, eyni zamanda tənqidi düşünmə, etik yanaşma və yaradıcı tətbiq bacarıqlarını da özündə birləşdirir.

European Commission ((Avropa Komissiyası) əsas icraedici orqanıdır və ittifaqın “hökuməti” kimi fəaliyyət göstərir.)) tərəfindən təqdim olunan rəqəmsal kompetensiya çərçivəsinə əsasən süni intellekt savadlılığı aşağıdakı əsas komponentləri əhatə edir:

1. Texnoloji biliklər – süni intellekt alqoritmlərinin və modellərinin əsas prinsiplərini anlama
2. Məlumat savadlılığı – verilənlərin toplanması, emalı və interpretasiyası
3. Tənqidi düşünmə – alqoritmik qərəzlərin və yanlış nəticələrin müəyyən edilməsi
4. Etik və hüquqi məsuliyyət – məxfilik, təhlükəsizlik və məlumatların qorunması məsələləri
5. Yaradıcı tətbiq – süni intellekt alətlərindən innovativ və məhsuldar istifadə (European Commission 2019).

Təhsil sistemində süni intellekt savadlılığı

Rəqəmsal transformasiya şəraitində təhsil sistemi də köklü dəyişikliklərə məruz qalır. Süni intellekt savadlılığının formalaşdırılması təhsil müəssisələrində aşağıdakı istiqamətlər üzrə həyata keçirilməlidir:

1. Kurikulumun yenilənməsi və inteqrasiyası

Süni intellekt mövzularının tədris proqramlarına inteqrasiyası müasir təhsil modelinin əsas tələblərindən biridir. Bu çərçivədə:

1. maşın öyrənməsi və neyron şəbəkələr haqqında ilkin anlayışlar,
2. verilənlərin analizi və vizuallaşdırılması,
3. alqoritmik və hesablama düşünməsi kimi mövzuların tədrisi məqsədəuyğundur.

2. Praktiki və interaktiv yanaşmalar

Müasir tədris prosesində süni intellekt əsaslı platformalardan istifadə tələbələrin həm analitik, həm də yaradıcı bacarıqlarını inkişaf etdirir. Bu alətlər vasitəsilə tələbələr real problemlərin həllinə cəlb olunur və praktiki təcrübə qazanırlar.

3. Müəllimlərin peşəkar inkişafı

Müəllimlərin rəqəmsal kompetensiyalarının artırılması süni intellekt savadlılığının effektiv formalaşdırılmasında həlledici rol oynayır. Bu məqsədlə davamlı təlim proqramları, seminarlar və beynəlxalq təcrübə mübadiləsi təşviq edilməlidir.

4. Tədqiqat və innovasiya mühitinin yaradılması

Ali təhsil müəssisələrində süni intellekt sahəsində elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi, startapların və innovasiya mərkəzlərinin yaradılması tələbələrin yaradıcılıq potensialını artırır və onların əmək bazarına uyğunlaşmasını asanlaşdırır. “Sİ sahəsində təhsil və kadr hazırlığı fərddə 'texnoloji özünüeffektivlik' hissini formalaşdırır. İnsan texnologiyanı bir təhdid deyil, bir alət (instrument) kimi qavradıqda, onun dəyişikliklərə qarşı psixoloji müqaviməti azalır. Bu adaptiv çeviklik XXI əsrin qeyri-müəyyənlikləri qarşısında fərdin emosional dayanıqlığını (resilience) təmin edən əsas amildir.”

Etik və sosial aspektlər

Süni intellekt texnologiyalarının geniş tətbiqi ilə yanaşı, bir sıra etik və sosial çağırışlar da meydana çıxır. Bu çağırışların düzgün idarə olunması süni intellekt savadlılığının ayrılmaz hissəsidir. Rəqəmsal ekosistemdə subyekt kimi qalmaq üçün Sİ savadlılığı həm də yüksək emosional intellekt tələb edir. Alqoritmlərin soyuq məntiqi qarşısında insanın 'etik mühakimə' qabiliyyəti, empatiya və dəyər-yönümlü qərar qəbul etməsi onu Sİ-dən fərqləndirən əsas psixoloji üstünlükdür.

Əsas risklər aşağıdakılardır:

1. Alqoritmik qərəz (bias) – qərarvermədə ədalətsizlik yarada bilər
2. Məlumat təhlükəsizliyi – şəxsi məlumatların qorunması problemi
3. Akademik dürüstlük – plagiat və qeyri-etik istifadə halları
4. Əmək bazarına təsir – avtomatlaşdırma nəticəsində bəzi peşələrin sıradan çıxması

Bu səbəbdən süni intellekt savadlılığı yalnız texniki biliklərin deyil, həm də etik məsuliyyətin və sosial şüurun formalaşdırılmasını tələb edir. Beləliklə, Sİ savadlılığı yalnız texniki biliklərin cəmi deyil, həm də fərdin rəqəmsal dünyada öz psixoloji bütövlüyünü və intellektual muxtariyyətini qoruma mexanizmidir. Təhsil sistemi bu istiqamətdə balanslı yanaşma təmin etməli, tələbələri həm texnoloji biliklərlə, həm də dəyərlər sistemi ilə təchiz etməlidir.

Aparılan təhlil göstərir ki, süni intellekt texnologiyalarının sürətli inkişafı təhsil sistemində fundamental dəyişikliklərin baş verməsini zəruri edir. Müasir dövrdə yalnız biliklərin ötürülməsi kifayət etmir; əsas məqsəd fərdlərin analitik düşünmə, problem həll etmə və texnologiyalardan səmərəli istifadə bacarıqlarının formalaşdırılmasıdır. Bu baxımdan süni intellekt savadlılığı XXI əsrin əsas kompetensiyalarından biri kimi çıxış edir.

Azərbaycan üçün süni intellekt sahəsində aparılan dövlət siyasəti və qəbul edilmiş strateji sənədlər ölkənin rəqəmsal gələcəyinin formalaşdırılmasına xidmət edir. Cənab İlham Əliyev tərəfindən irəli sürülən təşəbbüslər bu istiqamətdə sistemli və davamlı inkişafın təmin olunmasına şərait yaradır. Bu siyasətin əsas istiqamətlərindən biri də insan kapitalının gücləndirilməsi və rəqəmsal bacarıqların inkişaf etdirilməsidir.

Təhsil sistemində süni intellekt savadlılığının formalaşdırılması aşağıdakı strateji istiqamətləri əhatə etməlidir:

- kurikulumun müasirləşdirilməsi və süni intellekt mövzularının inteqrasiyası,
- müəllimlərin rəqəmsal və pedaqoji kompetensiyalarının artırılması,
- tədris prosesində innovativ texnologiyaların tətbiqi,
- tələbələrin tədqiqat və yaradıcı fəaliyyətə cəlb olunması.

Bununla yanaşı, süni intellektin tətbiqi ilə bağlı etik və sosial problemlər də diqqət mərkəzində saxlanılmalıdır. Alqoritmik qərəz, məlumat təhlükəsizliyi və avtomatlaşdırmanın sosial təsirləri kimi məsələlər balanslı və məsuliyyətli yanaşma tələb edir. Bu səbəbdən süni intellekt savadlılığı yalnız texniki biliklərlə məhdudlaşmamalı, həm də etik düşüncə və sosial məsuliyyət kimi komponentləri əhatə etməlidir.

Nəticə etibarilə, süni intellekt savadlılığının inkişafı təhsil sisteminin keyfiyyətinin yüksəldilməsinə, əmək bazarına uyğun kadrların hazırlanmasına və ölkənin qlobal rəqabət qabiliyyətinin artırılmasına mühüm töhfə verə bilər.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Prezidenti (2022). “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”. Bakı.
2. Azərbaycan Respublikası Prezidenti (2023). “İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə 2023–2027-ci illər Strategiyası”. Bakı.
3. Azərbaycan Respublikası (2024). “2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası”. Bakı.
4. İlham Əliyev (2024). “Azərbaycanın yeni rəqəmsal arxitekturası” müşavirəsində çıxış. Bakı.
5. Azərbaycan Respublikası Təhsil Nazirliyi (2023). Rəqəmsal təhsil strategiyası. Bakı.
6. UNESCO (2021). Süni intellekt və təhsil: siyasətçilər üçün tövsiyələr. Paris: UNESCO.
7. OECD (2022). Rəqəmsal təhsil üzrə baxış: gələcəyin təhsil sistemləri. Paris: OECD.
8. European Commission (2019). Etibarlı süni intellekt üçün etik prinsiplər.
9. OpenAI (2023). Süni intellekt və təhsil: imkanlar və çağırışlar.
10. Google (2023). Süni intellekt texnologiyalarının inkişafı üzrə hesabat.
11. Selwyn, N. (2019). Təhsildə süni intellekt. Routledge.

UŞAQLARDA YUXU KEYFİYYƏTİNİN NEYROBİOLOJİ ƏSASLARI VƏ PSİXOLOJİ İNKİŞAF ÜZƏRİNƏ TƏSİRİ

Səbinə Ataməli qızı İsmayılova
Azərbaycan Respublikası
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı
Azərbaycan Respublikası Təhsil İnstitutunun dissertantı
sebineismayilova7799@gmail.com
ORCİD ID: 0000-0002-0737-1280

Açar sözlər: yuxu keyfiyyəti, uşaqlar, neyroinkişaf, beyin inkişafı, yuxu çatışmazlığı, psixoloji inkişaf.

Xülasə. Bu məqalədə uşaqlarda yuxu keyfiyyətinin neyrobioloji əsasları və onun psixoloji inkişaf üzərində təsiri araşdırılmışdır. Yuxu əsas fizioloji tələbat olmaqla, xüsusilə erkən yaşlarda beyin inkişafında mühüm rol oynayır və orqanizmin normal fəaliyyətinin təmin olunmasında vacib amil hesab olunur. Neyrobioloji baxımdan yuxu sinaptik homeostazın qorunması, neyron əlaqələrinin yenidən təşkili və metabolik tullantıların təmizlənməsi kimi mühüm prosesləri təmin edir ki, bu da öyrənmə, yaddaşın möhkəmlənməsi və emosional tənzimləmə üçün böyük əhəmiyyət kəsb edir. Uşaqlıq dövründə baş verən sinaptogenez, sinaptik budanma və mielinləşmə kimi proseslər beyin inkişafının əsasını təşkil edir və yuxu bu proseslərin düzgün, koordinasiyalı və balanslı şəkildə həyata keçirilməsində mühüm rol oynayır. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən, həm yuxunun müddəti, həm də keyfiyyəti uşaqların sağlam inkişafı üçün vacib amillərdir. Eyni zamanda, yuxunun davamlılığı və gecə ərzində oyanmaların az olması onun keyfiyyətinin əsas göstəricilərindən hesab olunur. Araşdırmalar göstərir ki, erkən yaşlarda yuxu çatışmazlığı diqqət pozuntuları, davranış problemləri və emosional qeyri-sabitliklə əlaqələndirilir. Bundan əlavə, bu hal sonrakı dövrlərdə diqqət çatışmazlığı, narahatlıq və depressiya kimi psixi problemlərin yaranma riskini artıra bilər. Bununla yanaşı, bu əlaqələrin mexanizmləri və səbəb-nəticə istiqaməti hələ tam aydınlaşdırılmamışdır və genetik, sosial, ailəvi və mədəni faktorların da bu prosesə təsir etdiyi qeyd olunur. Nəticə olaraq, yuxu uşaqların həm neyrobioloji, həm də psixoloji inkişafında mühüm rol oynayır və bu sahədə daha geniş, sistemli və çoxşaxəli tədqiqatların aparılması zəruridir.

Keywords: sleep quality, children, neurodevelopment, brain development, sleep deprivation, psychological development

Summary. This article examines the neurobiological foundations of sleep quality in children and its impact on psychological development. Sleep is a fundamental physiological necessity and plays a crucial role in brain development, particularly in early life, contributing significantly to the maintenance of overall physiological functioning. From a neurobiological perspective, sleep supports synaptic homeostasis, neuronal reorganization, and the clearance of metabolic waste, all of which are essential for learning, memory consolidation, and emotional regulation. During childhood, key developmental processes such as synaptogenesis, synaptic pruning, and myelination form the basis of brain maturation. Sleep plays a critical role in ensuring that these processes occur in a coordinated and balanced manner. According to recommendations from the World Health Organization, both sleep duration and sleep quality are essential factors for healthy child

development. In addition, sleep continuity and reduced nocturnal awakenings are considered important indicators of sleep quality. Research indicates that early-life sleep deprivation is associated with attention deficits, behavioral problems, and emotional instability. Furthermore, it may increase the risk of developing attention disorders, anxiety, and depression in later life. However, the mechanisms and directionality of these relationships remain unclear, and genetic, social, familial, and cultural factors are also believed to contribute. In conclusion, sleep plays a vital role in both the neurobiological and psychological development of children, and further comprehensive and interdisciplinary research is required in this field.

Anahtar kelimeler: uyku kalitesi, çocuklar, nörogelişim, beyin gelişimi, uyku yoksunluğu, psikolojik gelişim.

Özet. Bu makalede çocuklarda uyku kalitesinin nörobiyolojik temelleri ve psikolojik gelişim üzerindeki etkisi incelenmiştir. Uyku, temel bir fizyolojik gereksinim olup özellikle erken yaşlarda beyin gelişiminde önemli bir rol oynar ve organizmanın genel işleyişinin sürdürülmesine katkıda bulunur. Nörobiyolojik açıdan uyku, sinaptik homeostazın korunması, nöronal bağlantıların yeniden düzenlenmesi ve metabolik atıkların temizlenmesi gibi süreçleri destekler; bu süreçler öğrenme, hafıza oluşumu ve duygusal düzenleme için büyük önem taşır. Çocukluk döneminde gerçekleşen sinaptogenez, sinaptik budanma ve miyelinleşme gibi süreçler beyin gelişiminin temelini oluşturur. Uyku, bu süreçlerin düzenli, dengeli ve koordineli bir şekilde gerçekleşmesinde kritik rol oynar. Dünya Sağlık Örgütü’nün önerilerine göre, hem uyku süresi hem de uyku kalitesi çocukların sağlıklı gelişimi için önemli faktörlerdir. Ayrıca, uykunun sürekliliği ve gece boyunca uyanmaların az olması, uyku kalitesinin önemli göstergeleri arasında yer alır. Araştırmalar, erken yaşlarda uyku yoksunluğunun dikkat eksikliği, davranış sorunları ve duygusal dengesizlik ile ilişkili olduğunu göstermektedir. Bunun yanı sıra, ilerleyen dönemlerde dikkat bozuklukları, anksiyete ve depresyon riskini artırabileceği düşünülmektedir. Ancak bu ilişkilerin mekanizmaları ve yönü henüz tam olarak açıklığa kavuşmamıştır ve genetik, sosyal, ailesel ve kültürel faktörlerin de etkili olduğu kabul edilmektedir. Sonuç olarak, uyku çocukların hem nörobiyolojik hem de psikolojik gelişiminde önemli bir rol oynamakta olup, bu alanda daha kapsamlı ve disiplinlerarası araştırmalara ihtiyaç duyulmaktadır.

İnsan həyatının təxminən üçdə bir hissəsini yuxuda keçirir və bu fakt yuxunun orqanizm üçün nə dərəcədə əhəmiyyətli olduğunu göstərir. Yuxu insan üçün qida və su kimi həyati vacib fizioloji tələbatlardan biridir. Aparılan tədqiqatlar göstərir ki, uzunmüddətli yuxu çatışmazlığı, xüsusilə 72 saatdan artıq yuxusuzluq hallarında diqqət və yaddaş funksiyalarında pozulmalar, emosional reaksiyaların zəifləməsi və əmək qabiliyyətinin əhəmiyyətli dərəcədə azalması müşahidə olunur. Bu dəyişikliklər yuxunun həm neyrobioloji, həm də psixoloji funksiyalar baxımından vacibliyini bir daha təsdiq edir.

İnsan ontogenezinin müxtəlif mərhələlər üzrə inkişafı elmi ədəbiyyatda yaş dövrlərinin təsnifatı ilə izah olunur. Ümumdünya səviyyəsində qəbul edilmiş təsnifatlardan birinə əsasən (1965-ci il konfransı), insan inkişafı aşağıdakı yaş mərhələlərinə bölünür: yeni doğulmuş dövr (doğulduqdan sonra ilk 30 gün), südəmər dövr (10-cu gündən 1 yaşa qədər), erkən uşaqlıq dövrü (1 yaşdan 3 yaşa qədər), ilkin uşaqlıq dövrü (4 yaşdan 7 yaşa qədər), ikinci uşaqlıq dövrü (qızlarda 8–11, oğlanlarda 8–12 yaş), yeniyetmələk dövrü (qızlarda 12–15, oğlanlarda 13–16 yaş) və gənclik dövrü (qızlarda 16–20, oğlanlarda 17–21 yaş) (Qarayev, M.A., Mehdizadə, N.M., & Mehbalıyeva, E.C. 2021).

Bu yaş mərhələlərinin hər biri özünəməxsus fizioloji və psixoloji xüsusiyyətlərlə xarakterizə olunur. Xüsusilə uşaqlıq və yeniyetməlik dövrlərində baş verən intensiv neyrobioloji dəyişikliklər yuxunun strukturuna və keyfiyyətinə birbaşa təsir göstərir. Bu baxımdan, yuxunun uşaqların inkişaf prosesində rolu yaş xüsusiyyətləri kontekstində ayrıca əhəmiyyət kəsb edir.

Yuxu beynin fəaliyyətində baş verən funksional dəyişiklik kimi xarakterizə olunur və xüsusilə uşaqlarda günün əhəmiyyətli hissəsini təşkil edərək onların gündəlik fəaliyyəti və inkişafı üçün vacib rol oynayır. Müasir elmi yanaşmalara görə, yuxu neyron zədələnmələrinin bərpasını təmin edir və sinaptik homeostazı qoruyaraq beynin yenidən təşkilinə şərait yaradır. Uşaqlıq dövründə bu proseslər daha intensiv getdiyindən, yuxu beyin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, yuxu zamanı beyində interstisial sahə genişlənir və bu da metabolik tullantıların daha effektiv təmizlənməsinə imkan yaradır. Bundan əlavə, yuxu beyin plastiklik proseslərini dəstəkləyərək öyrənmə, yaddaşın formalaşması və emosional tənzimləmə kimi psixoloji funksiyalara müsbət təsir göstərir. Yuxu çatışmazlığı isə uşaqlarda diqqət pozuntuları, davranış problemləri və emosional qeyri-sabitliklə nəticələnə bilər ki, bu da onların ümumi inkişafına mənfi təsir göstərir.

Həyatın ilk illərində uşaqlarda intensiv inkişaf prosesləri baş verir və bu dövrdə yuxu beynin ən vacib fəaliyyətlərindən biri hesab olunur. Bu inkişaf prosesi əsasən beyin qabığının boz maddəsinin yetkinləşməsi və ağ maddənin formalaşması ilə xarakterizə olunur. Boz maddənin inkişafı sinapsların yaranmasının artması, yəni sinaptogenez ilə müşayiət olunur. Uşaqlıq dövründə sinaptogenez xüsusilə 2–3 yaş aralığında pik həddə çatır, daha sonra isə artıq sinapsların aradan qaldırılması və neyron əlaqələrinin optimallaşdırılması ilə xarakterizə olunan sinaptik budanma prosesi başlayır. Bu proses yeniyetməlik dövrünə qədər davam edir. Ağ maddənin inkişafı isə neyronların mielinləşməsi ilə əlaqədardır və bu proses erkən uşaqlıqdan başlayaraq yeniyetməlik dövrünə qədər davam edir. Həm sinaptogenez, həm də mielinləşmə normal neyrodavranış funksiyalarının formalaşması üçün mühüm əhəmiyyət kəsb edir və yuxu bu proseslərin düzgün gedişində əsas tənzimləyici amillərdən biri kimi çıxış edir.

Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən, uşaqlarda sağlam inkişafın təmin olunması üçün yuxunun həm müddəti, həm də keyfiyyəti mühüm əhəmiyyət kəsb edir. Belə ki, 0–3 aylıq körpələr üçün gündə 14–17 saat, 4–11 aylıq uşaqlar üçün 12–16 saat, 1–2 yaşlı uşaqlar üçün 11–14 saat, 3–4 yaşlı uşaqlar üçün isə 10–13 saat keyfiyyətli yuxu tövsiyə olunur. Lakin “keyfiyyətli yuxu” anlayışı yalnız yuxunun müddəti ilə məhdudlaşmır. Elmi yanaşmalara görə, yuxunun keyfiyyəti əsasən onun davamlılığı ilə müəyyən olunur; bu isə daha qısa yuxuya getmə müddəti və yuxu zamanı oyanmaların az olması ilə xarakterizə edilir (Ohayon et al., 2017, National sleep foundation's sleep quality recommendations: first report. Sleep Health, 3). Araşdırmalar göstərir ki, kifayət qədər və keyfiyyətli yuxu uşaqlarda sağlam həyat tərzi vərdişləri ilə sıx bağlıdır, stressin idarə olunması, sağlam qidalanma və fiziki aktivlik kimi müsbət davranışlarla əlaqələndirilir (Chen, C., Hardy, M., Zhang, J., LaHoste, G. J., & Bazan, N. G. 2006, p 436). Bundan əlavə, adekvat yuxu uşaqlarda artıq çəki riskinin azalması kimi ümumi sağlamlıq göstəricilərinə də müsbət təsir göstərir (Chen, M.-Y., Wang, E. K., & Jeng, Y.-J. 2006).

Erkən həyat dövründə yuxu çatışmazlığının beyinin fəaliyyətinə və davranışa təsiri heyvan modellərində, xüsusilə gəmiricilər üzərində aparılan tədqiqatlarda geniş şəkildə göstərilmişdir. Lakin bu təsirlərin insanlarda necə təzahür etməsi və hansı mexanizmlərlə baş verməsi hələ də tam aydınlaşdırılmamışdır. Erkən yaşlarda yuxu çatışmazlığı ilə sonrakı dövrlərdə psixi sağlamlıq pozuntularının yaranması arasındakı səbəb-nəticə əlaqəsi və bu əlaqənin istiqaməti elmi

ədəbiyyatda hələ də müzakirə mövzusu olaraq qalır. Bununla belə, insanlarda təxminən 2,4 yaşa qədər yuxunun əsas funksiyasının neyronların yenidən təşkili və beyin plastikasının qorunması olduğu müəyyən edilmişdir. Bu nəticələr heyvan modellərində əldə olunan tapıntılarla uyğunluq təşkil edir və erkən dövrdə yuxu çatışmazlığının beyin inkişafına ciddi təsir göstərə biləcəyini göstərir. Bu baxımdan, erkən uşaqlıq dövründə yuxu pozuntularının insanlarda neyroinkişaf pozuntularının formalaşmasına təsirinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

İnsan həyatının böyük hissəsi yuxuda keçsə də, onun bütün funksiyaları hələ tam öyrənilməmişdir. Son illərdə yuxu çatışmazlığı yaşayan insanların sayının artması ilə yanaşı, psixi sağlamlıq problemlərinin də çoxalması diqqət çəkir. Araşdırmalar göstərir ki, erkən yaşlarda (0–10 yaş) yuxu çatışmazlığı sonrakı dövrlərdə psixi problemlərin yaranma riskini artıra bilər. Xüsusilə uşaqlıq dövründə yuxu beyin inkişafı üçün çox vacibdir və bu dövrdə düzgün yuxu gələcəkdə sağlam beyin fəaliyyətinin formalaşmasına kömək edir. Heyvanlar üzərində aparılan tədqiqatlar da göstərir ki, xüsusilə REM yuxusunun pozulması beyin fəaliyyətinə mənfi təsir edir və davranış dəyişikliklərinə səbəb ola bilər. Bu nəticələr erkən yaşlarda yuxunun uşaqların həm neyrobioloji, həm də psixoloji inkişafı üçün nə qədər vacib olduğunu bir daha təsdiq edir.

Bununla belə, qeyd etmək vacibdir ki, erkən yaşlarda yuxu çatışmazlığı ilə neyroinkişaf pozuntuları arasındakı əlaqə hələ tam aydınlaşdırılmamışdır və bu prosesdə digər amillər də rol oynaya bilər. Yuxu vərdişləri və gündəlik ritualar müxtəlif mədəniyyətlərə görə fərqlənir, həmçinin sosial şərait də bu sahəyə təsir göstərir. Bundan əlavə, valideynlər uşaqların yuxu rejiminin formalaşmasında mühüm rol oynayır; eyni zamanda valideynlərin stress səviyyəsi və ailədaxili münasibətlər də uşağın sağlamlığına təsir edə bilər. Bu baxımdan, uşaqlarda müşahidə olunan problemlərin yalnız yuxu ilə deyil, bir neçə amilin birgə təsiri ilə formalaşdığını nəzərə almaq vacibdir.

Qeyd olunan pozuntularla yanaşı, erkən yaşlarda yuxu çatışmazlığı ilə neyroinkişaf pozuntuları arasında daha çox əlaqələrin mövcud ola biləcəyi ehtimal edilir. Lakin bu əlaqənin hansı istiqamətdə olduğu, yəni səbəb-nəticə münasibəti hələ də tam aydın deyil.

Bu nəticələr yuxu çatışmazlığının həm erkən, həm də sonrakı həyat dövrlərində müalicəsinin vacibliyini bir daha göstərir. Belə ki, yuxu problemlərinin aradan qaldırılması neyroinkişaf pozuntularının bəzi əlamətlərinin azalmasına kömək edə bilər. Bununla belə, yuxunun bu pozuntuların yaranmasında dəqiq rolu hələ tam aydınlaşdırılmamışdır və bu sahədə əlavə tədqiqatlara ehtiyac vardır.

Ümumilikdə, erkən yaşlarda yuxu çatışmazlığı sonrakı dövrlərdə diqqət çatışmazlığı, narahatlıq və depressiya kimi neyroinkişaf və psixi pozuntuların yaranmasına təsir edən amillərdən biri ola bilər. Bu proseslərin hansı mexanizmlərlə baş verdiyi hələ tam müəyyən edilməsə də, heyvan və insan üzərində aparılan tədqiqatlar müəyyən oxşarlıqların mövcud olduğunu göstərir. Gələcəkdə yuxu çatışmazlığının beyində yaratdığı dəyişikliklərin daha dərindən öyrənilməsi, həm erkən, həm də sonrakı dövrlərdə yuxu problemlərinin daha effektiv müalicə üsullarının hazırlanmasına imkan verə bilər.

Ədəbiyyat:

1. Çələbiyev, N.Z. (2024). Psixologiya: Pedaqoji ali təhsil müəssisələrinin bakalavriat təhsil səviyyəsinin qeyri-ixtisas fakültələri üçün dərs vəsaiti. Bakı: ADPU-nun nəşriyyatı., s. 591

2. Qarayev, M.A., Mehdizadə, N.M., & Mehbalıyeva, E.C. (2021). Uşağın anatomiyası, fiziologiyası və gigiyenası (Dərs vəsiti). Bakı: Müəllim nəşriyyatı, s. 9

3. Chen, C., Hardy, M., Zhang, J., LaHoste, G. J., & Bazan, N. G. (2006). Altered NMDA receptor trafficking contributes to sleep deprivation-induced hippocampal synaptic and cognitive impairments. Biochemical and biophysical research communications, 340(2), 435–440.

4. Chen, M.-Y., Wang, E. K., & Jeng, Y.-J. (2006). Adequate sleep among adolescents is positively associated with health status and health-related behaviors. Bmc Public Health, 6, 59.

5. Ohayon, M., Wickwire, E. M., Hirshkowitz, M., Albert, S. M., Avidan, A., Daly, F. J., Dauvilliers, Y., Ferri, R., Fung, C., Gozal, D., Hazen, N., Krystal, A., Lichstein, K., Mallampalli, M., Plazzi, G., Rawding, R., Scheer, F. A., Somers, V., & Vitiello, M. V. (2017). National sleep foundation's sleep quality recommendations: first report. Sleep Health, 3(1), 6–19.

UŞAQLARDA STRESSİN NEYROBİOLOJİ MEXANİZMLƏRİ VƏ PSİXOLOJİ NƏTİCƏLƏRİ

Səmayə Şəmsi qızı Hüseynzadə
Azərbaycan Respublikası
Bakı Dövlət Universitetinin Qazax filialı
samaya.huseynova.97@mail.ru
ORCİD ID: 0009-0000-1182-5056

Açar sözlər: sinir sistemi, stress, allostatik yük, neyrobiologiya, beyin, psixologiya.

Xülasə: Bədən və beyin sistemləri bir –biri ilə sıx qarşılıqlı əlaqədədir ki, bu əlaqələr psixoloji amillərlə bağlıdır. İnsanın özünə münasibətinə təsir edən faktor beyin strukturunda baş verən dəyişikliklərdir. Orqanizm müxtəlif təsirlərə cavab olaraq kimyəvi maddə ifraz edir. Məsələn, katexolaminlər ürək döyüntüsünü və qan təzyiqini artıraraq bədənin kəskin stress faktorlarına və gündəlik fiziki fəaliyyətlərə (səhər oyanmaq və ya pilləkən qalxmaq) adaptiv cavab verir. Həyat dövrünün müəyyən mərhələsində yaşlanma ilə əlaqədar idark funksiyalarında hjəm fizioloji, həm də pataloji beyin prosesləri ilə əlaqədar dəyişikliklər bas verir. Tədqiqatlar göstərir ki, heyvanlar və insanlarda həm erkən uşaqlıq, həm də yaşlılıq dövrlərində beyin stress faktorlarına qarşı daha həssas olur, bunun səbəbi beyinin intensiv inkişaf və degenerasiya prosesləri ilə məşğul olmasıdır. Stress və stresslə əlaqəli horminların əsas hədəflərindən biri və ən əası beyindir. Orqanizmdəki bu dəyişikliklər adaptiv xarakter daşıyır. Müəyyən olunmuşdur ki, stress uzun müddətli və həddindən artıq olduqda beyində funksianal və struktur dəyişikliklər yaranır. Beyinin başqa bölgələrində hüceyrələr əsasən GR reseptorlsrı ilə zəngindir. Hipokampusdakı neyronlar hər iki reseptor növünə malikdir. Kortikestoroid səviyyəsi aşağı olduqda, yəni tam sakitlik vəziyyətində - MR-lər aktif olur. Bu halda GR reseptorları qismən aktiv hal alır. Sinir sisteminin iradəli (somatik) bölməsi şüurlu hərəkətlərin həyata keçirilməsinə cavabdehdir. Fərd müəyyən bir hərəkəti yerinə yetirmək qərarı verdikdə, bu qərar sinir siqnallarının ötürülməsi ilə müvafiq əzələlərə çatdırılır və nəticədə istənilən hərəkət icra olunur. Məhz bu sistem sayəsində insan əl sıxmaq, yazı yazmaq və digər məqsədyönlü fiziki fəaliyyətləri həyata keçirmək qabiliyyətinə malik olur.

Keywords: nervous system, stress, allostatic load, neurobiology, brain, psychology.

Summary. The body and brain systems are closely interconnected, and these relationships are related to psychological factors. The factor that affects a person's attitude towards himself is the changes that occur in the brain structure. The body secretes chemicals in response to various

influences. For example, catecholamines increase the heart rate and blood pressure, which is an adaptive response of the body to acute stress factors and daily physical activities (waking up in the morning or climbing stairs). At a certain stage of the life cycle, changes in cognitive functions related to aging occur, both physiological and pathological brain processes. Studies show that in animals and humans, both in early childhood and in old age, the brain becomes more sensitive to stress factors, this is because the brain is engaged in intensive development and degeneration processes. One of the main and most important targets of stress and stress-related hormones is the brain. These changes in the body are adaptive in nature. It has been established that when stress is prolonged and excessive, functional and structural changes occur in the brain. In other regions of the brain, cells are mainly rich in GR receptors. Neurons in the hippocampus have both types of receptors. When corticosteroid levels are low, that is, in a state of complete rest, MRs are active. In this case, GR receptors become partially active. The voluntary (somatic) division of the nervous system is responsible for the implementation of conscious movements. When an individual decides to perform a certain action, this decision is conveyed to the corresponding muscles by the transmission of nerve signals, and as a result, the desired movement is performed. It is thanks to this system that a person has the ability to shake hands, write, and perform other purposeful physical activities.

Anahtar kelimeler: sinir sistemi, stress, allostatik yük, nörobiyoloji, beyin, psikoloji.

Özet. Vücut ve beyin sistemleri yakından birbirine bağlıdır ve bu ilişkiler psikolojik faktörlerle ilişkilidir. Bir kişinin kendine karşı tutumunu etkileyen faktör, beyin yapısında meydana gelen değişikliklerdir. Vücut, çeşitli etkilere yanıt olarak kimyasallar salgılar. Örneğin, katekolaminler kalp atış hızını ve kan basıncını artırır; bu, vücudun akut stres faktörlerine ve günlük fiziksel aktivitelere (sabah uyanmak veya merdiven çıkmak) karşı adaptif bir yanıtıdır. Yaşam döngüsünün belirli bir aşamasında, hem fizyolojik hem de patolojik beyin süreçleriyle ilgili olarak yaşlanmaya bağlı bilişsel işlevlerde değişiklikler meydana gelir. Çalışmalar, hayvanlarda ve insanlarda, hem erken çocuklukta hem de yaşlılıkta, beynin stres faktörlerine karşı daha duyarlı hale geldiğini göstermektedir; bunun nedeni beynin yoğun gelişim ve dejenerasyon süreçlerine girmesidir. Stresin ve stresle ilgili hormonların en önemli hedeflerinden biri beyindir. Vücuttaki bu değişiklikler doğası gereği adaptiftir. Stresin uzun süreli ve aşırı olması durumunda beyinde fonksiyonel ve yapısal değişikliklerin meydana geldiği tespit edilmiştir. Beynin diğer bölgelerinde, hücreler esas olarak GR reseptörleri açısından zengindir. Hipokampustaki nöronlarda her iki reseptör tipi de bulunur. Kortikosteroid seviyeleri düşük olduğunda, yani tam bir dinlenme durumunda, MR reseptörleri aktiftir. Bu durumda, GR reseptörleri kısmen aktif hale gelir. Sinir sisteminin istemli (somatik) bölümü, bilinçli hareketlerin gerçekleştirilmesinden sorumludur. Bir birey belirli bir eylemi gerçekleştirmeye karar verdiğinde, bu karar sinir sinyallerinin iletimi yoluyla ilgili kaslara iletilir ve sonuç olarak istenen hareket gerçekleştirilir. Bir kişinin el sıkışma, yazma ve diğer amaçlı fiziksel aktiviteleri gerçekleştirme yeteneğine sahip olması bu sistem sayesindedir.

Beyin bədənin müxtəlif hissələrinin fəaliyyətini əsasən sinir impulslarının ötürülməsi vasitəsilə tənzimləyir. Bu impulslar mərkəzi sinir sistemindən, xüsusilə beyindən başlayaraq onurğa beyni vasitəsilə periferik sinirlərə ötürülür və nəticədə orqan və toxumalar arasında koordinasiyalı əlaqə təmin olunur. Bu mürəkkəb kommunikasiya mexanizmi gündəlik həyatda adi və aydın şəkildə müşahidə edilə bilər. Sinir sisteminin iradəli (somatik) bölməsi şüurlu hərəkətlərin həyata keçirilməsinə cavabdehdir. Fərd müəyyən bir hərəkəti yerinə yetirmək qərarı verdikdə, bu qərar sinir siqnallarının ötürülməsi ilə müvafiq əzələlərə çatdırılır və nəticədə istənilən hərəkət icra

olunur. Məhz bu sistem sayəsində insan əl sıxmaq, yazı yazmaq və digər məqsədyönlü fiziki fəaliyyətləri həyata keçirmək qabiliyyətinə malik olur. (Sapolsky, 2004)

Tədqiqatlar nəticəsində neyrobiologiya, biotibb və davranış elmləri sahəsində yaranmış yeni beyin-bədən elmi baxışı, yığılmış stressin yeni ölçülərinin tətbiqinə yol açmışdır. Telomeraz fəaliyyət və telomer uzunluğunu bu elmi sahəyə aid edilir. Bədən və beyin sistemləri bir –biri ilə sıx qarşılıqlı əlaqədədir ki, bu əlaqələr psixoloji amillərlə bağlıdır. İnsanın özünə münasibətinə təsir edən faktor beyin strukturunda baş verən dəyişikliklərdir. Həmin dəyişikliklərə özünə inam və nəzarət hissi aiddir. Tədqiqatlara görə aşağı özünəinam hipokampusun həcminin azalmasına görədir. (Pruessner et al., 2005)

Hipokampal formaliyada stress hormonu reseptorlarının kəşfi, beynin ali idrak mərkəzləri də daxil olmaqla -nəyin stressli olduğunu qavramaq imkanı verir. Həmçinin neyroendokrin, avtonom immun və metabolik sistemlər vasitəsilə stressin beyin və bədən üçün nəticələrini müəyyən etmək qabiliyyətinə malikdir. Bu sistemlər stressə uyğunlaşma prosesinə mühüm rol oynayır və “alosstatik yük” adlanan, qeyri-sağlam həyat tərzi nəticəsində zamanla yığılan ümumi gərginliyin təsirinə cavab verir. Belə ki, orqanizm ya uyğunlaşır ya da pataloji dəyişikliklərə səbəb olur. Stress və stresslə əlaqəli horminların əsas hədəflərindən biri və ən əası beyindir. Orqanizmdəki bu dəyişikliklər adaptiv xarakter daşıyır. Müəyyən olunmuşdur ki, stress uzun müddətli və həddindən artıq olduqda beyində funksianal və struktur dəyişikliklər yaranır . (McEwen, 2013)

Stress reaksiyasının iki əsas komponenti var. Orqanizm müxtəlif təsirlərə cavab olaraq kimyəvi maddə ifraz edir. Məsələn, katexolaminlər ürək döyüntüsünü və qan təzyiqini artıraraq bədənin kəskin stress faktorlarına və gündəılik fiziki fəaliyyətlərə (səhər oyanmaq və ya pilləkən qalxmaq) adaptiv cavab verir. Digər tərəfdən, bu maddələr uzun müddətli və yüksək səviyyədə qalarsa pataloji halların yaranmasına səbəb olar. Xroniki olaraq yüksəlmiş ürək döyüntüsü və qan təziqi müəyyən müddət ərzində ateroskleroza gətirib çıxara bilər, bu da nəticədə insult və miokard infarktı kimi ciddi xəstəliklərin riskini artırır. Həmin kimyəvi maddələr həm zərərli, həm də faydalı təsir göstərməsi ilə “stress” anlayışını müxtəlif mənalarda istifadə etmək imkanı yaradır., Sterling və Eyer tərəfindən “allostaz” termini irəli sürülmüşdür. Allostaz orqanizmin dəyişən ətraf mühitə uyğunlaşaraq daxili sabitliyi qorumağa yönəlmiş kimi izah olunur. Allostazın uzun müddətli və həddindən artıq aktivliyi isə patoloji hallara gətirib çıxarır. Bu vəziyyətdə orqanizmdə yaranan orqanizmin təhriv olunması allostatik yük və ya həddindən artıq yüklənmə kimi xarakterizə olunur. (McEwen, 2007)

Valideynlər gündəlik olaraq körpə və azyaşlı uşaqlarında davranışın tədricən genişlənməsini, eləcə də idrak və emosional funksiyalarda baş verən dəyişiklikləri müşahidə edir. Həyat dövrünün müəyyən mərhələsində yaşlanma ilə əlaqədar idark funksiyalarında hjəm fizioloji, həm də pataloji beyin prosesləri ilə əlaqədar dəyişikliklər bas verir. Tədqiqatlar göstərir ki, heyvanlar və insanlarda həm erkən uşaqlıq, həm də yaşlılıq dövrlərində beyin stress faktorlarına qarşı daha həssas olur, bunun səbəbi beyinin intensiv inkişaf və degenerasiya prosesləri ilə məşğul olmasıdır. Stressin təsiri nəticəsində hipotalamus-hipofiz-adrenal (HPA) oxu aktivləşir və böyrək üstü vəzlərdən qlükokortikoid horminlarının ifrazı artır (Şəkil 1). Qlükokortikoidlər stress reaksiyasını idarə edən beyin bölgələrinin fəaliyyətinə uzun müddətli təsir göstərə bilər. (Lupien et al., 2009)



Şəkil 1. Stress reaksiyası sistemi
Hipotalamus, hipofiz vəzi, adrenokortikotrop hormon (AKTH), böyrəküstü vəzi, kortizol

Yetkin insanlarda kortizol adətən zülallara, xüsusilə kortikosteroid bağlayan qlobulinə (CBG) bağlanmış şəkildə dövr edir. Yeni doğulmuş körpələrdə isə CBG səviyyələri başlanğıcda daha aşağı olur, lakin doğuşdan sonrakı ilk aylarda tədricən artaraq təxminən 6 ay ərzində yüksəlir, bu səbəbdən həyatın ilk dövrlərində sərbəst kortizol səviyyələri nisbətən aşağı olsa da plazmada kortizol səviyyəsi daha yüksək ola bilər. Doğuş zamanı və erkən neonatal dövrdə körpələr ağrılı və ya narahatlıq yaradan tibbi prosedurlara cavab olaraq kortizol və ACTH səviyyələrində əhəmiyyətli artım göstərə bilirlər. Müəyyən edilmişdir ki, yeni doğulmuşlarda kortizol ifrazı yetkinlərdə olduğu kimi gündəlik normaya uyğun olaraq tənzimklənir. Yetkinlərdə kortizol səviyyəsi səhər yüksək olub gün ərzində azalır. Yeni doğulmuşlarda 3 ayından etibarən kortizol ifrazı tədricən səhərlər pik həddə çatır, axşamlar minimum ilə xarakterizə olunur. (Gunnar, Quevedo, 2007)

Beyində iki əsas kortikosteroid reseptoru mövcuddur: kortikosteron və kortizolu yüksək affininitə ilə bağlayan mineralokortikoid reseptorları (MR) və daha aşağı affinitəyə malik olan qlükokortikoid reseptorlarıdır (GR) və onların MR-lərə nisbətən təxminən 10 dəfə zəif bağlanma qabiliyyəti var. Beyinin başqa bölgələrində hüceyrələr əsasən GR reseptorlsrı ilə zəngindir. Hipokampusdakı neyronlar hər iki reseptor növünə malikdir. Kortikestoroid səviyyəsi aşağı olduqda, yəni tam sakitlik vəziyyətində - MR-lər aktif olur. Bu halda GR reseptorları qismən aktiv hal alır. Belə ki, stress zamanı kortikosteroidlərin səviyyəsi yüksəldikdə isə GR reseptorları tam şəkildə aktivləşir. Son araşdırmalar göstərir ki, stereoidlərin təsir mexanizmlərinin bir hissəsi reseptor monomerlərinin digər transkripsiya faktorları ilə zülal-zülal qarşılıqlı əlaqələri vasitəsi ilə həyata keçirilə bilər. (de Kloet, 1999)

Gənc uşaqlarda zəhərli stress yalnız davranışda qısa müddətli dəyişikliklərlə məhdudlaşmır, eyni zamanda beyin quruluşu və funksiyasında daha az nəzərə çarpan, lakin uzunmüddətli təsirlər yarada bilər. Həm heyvanlar , həm də insanlar üzərində aparılan tədqiqatlar göstərir ki, stress hormonlarının davamlı yüksək səviyyəsi inkişaf edən beyin arxitekturasını poza bilər. İnkişafın prenatal mərhələsindən başlayaraq erkən uşaqlıq dövrünə qədər beynin yüksək plastikliyi onu kimyəvi təsirlərə qarşı xüsusilə həssas edir.

Xüsusilə, qlükokortikoid reseptorlarının sıx yerləşdiyi amigdala, hipokampus və prefrontal korteks stressə həssas əsas sahələrdir. Xroniki stress amigdala və orbitofrontal korteksdə böyümə və həddindən artıq aktivliklə əlaqələndirilir. Eyni zamanda hipokampus və medial prefrontal korteksdə neyronların və sinaptik əlaqələrin azalmasına gətirib çıxara bilər. Bundan əlavə hipokampusdakı dəyişikliklər yaddaş və emosional vəziyyətin pozulmasına səbəb ola bilər. Nəticə etibarı ilə erkən

dövrdə baş verən bu cür təsirlər beyinin gələcək öyrənmə, davranış və ümumi sağlamlıq üçün əsasını zəiflədə bilər. (Shonkoff, Garner, Siegel & Dobbins 2012)

Yetkinlik dövrü bir neçə neyroendokrin sistemdə baş veən dəyişiklərlə əlaqələndirilir və bu dəyişikliklər hormonal fəaliyyətin yenidən yaranmasına gətirib çıxarır. Bu mərhələdə ən diqqət çəkən proses hipotalamik-hipofiz-qonadal (HPG) oxunun aktivləşməsi nəticəsində cinsi hormonların səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsidir. Bunun nəticəsində ikincili cinsi əlamətlər formalaşır, reproduktiv qabiliyyət inkişaf edir və davranışda müəyyən dəyişikliklər müşahidə olunur. Aparılan təhqiqatlar göstərir ki, həm yetkinlikdən əvvəlki, həm də yetkin fərdlərdə bu hormonların bazal konsentrasiyaları əsasən oxşar qalır. Bu isə onu göstərir ki, yetkinlik dövründə əsas dəyişikliklər hormonların gündəlik səviyyəsindən çox stresə verilən cavabın dinamikasında özünü göstərir. (Romeo, 2010)

Erkən uşaqlıqda zəhərli stresin yetkin xəstəliklərinin patogenezi üçün potensial nəticələri xeyli dərəcədədir. Davranış səviyyəsində erkən çətinliklərlə geniş sağlamlıq üçün təhlükəli davranışlar arasında güclü bir əlaqənin geniş dəlilləri mövcuddur. (Shonkoff & Garner, 2012)

Ədəbiyyat:

1. E. Ronald de Kloet, Oitzl, M. S., & Joëls, M. (1999). Stress and cognition: Are corticosteroids good or bad guys? Trends in Neurosciences, 22(10), 422–426. https://doi.org/10.1016/S0166-2236(99)01438-1

2. Gunnar, M. R., & Quevedo, K. (2007). The neurobiology of stress and development. Annual Review of Psychology, 58, 145-173. https://doi.org/10.1146/annurev.psych.58.110405.085605

3. Jack P. Shonkoff, J. P., & Andrew S. Garner, A. S. (2012). The lifelong effects of early childhood adversity and toxic stress. Pediatrics, 129(1), e232–e246. https://doi.org/10.1542/peds.2011-2663

4. Jack P. Shonkoff, Garner, A. S., Siegel, B. S., Dobbins, M. I., Earls, M. F., McGuinn, L., Pascoe, J., & Wood, D. L. (2012). The lifelong effects of early childhood adversity and toxic stress. Pediatrics, 129(1), e232–e246. https://doi.org/10.1542/peds.2011-2663

5. McEwen, B. S. (2013). The brain on stress: Toward an integrative approach to brain, body and behavior. Perspectives on Psychological Science, 8(6), 673–675.

6. McEwen, B. S. (2007). Physiology and neurobiology of stress and adaptation: Central role of the brain. Physiological Reviews, 87(3), 873–904. https://doi.org/10.1152/physrev.00041.2006

7. Pruessner, J. C., Hellhammer, D. H., & Kirschbaum, C. (2005). Neurobiological correlates of stress regulation. In F. Steckler, N. H. Kalin, & J. M. H. M. Reul (Eds.), Handbook of stress and the brain (Vol. 15, pp. 123–141). Elsevier.

8. Russell D. Romeo (2010). Adolescence: A central event in shaping stress reactivity. Developmental Psychobiology, 52(3), 244–253. https://doi.org/10.1002/dev.20437

9. Sapolsky, R. M. (2004). Why zebras don't get ulcers (3rd ed.). Henry Holt and Company.

10. Sonia J. Lupien, S. J., Bruce S. McEwen, B. S., Megan R. Gunnar, M. R., & Christine Heim, C. (2009). Effects of stress throughout the lifespan on the brain, behaviour and cognition. Nature Reviews Neuroscience, 10(6), 434–445. https://doi.org/10.1038/nrn2639

STRESS, NEYROPLASTİKLİK VƏ EMOSİONAL TƏNZİMLƏMƏ: PSİXOLOJİ SAĞLAMLIĞIN MÜASİR PERSPEKTİVLƏRİ

Həcər Əmrullah qızı Teymurxanova
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
Üsküdar Universitetinin magistrantı
hecer.teymurkhanova@sdu.edu.az
ORCİD ID: 0009-0007-8572-0240

Açar sözlər: stress, neyroplastiklik, emosional tənzimləmə, psixoloji sağlamlıq, adaptiv davranış.

Xülasə. Müasir psixologiya və neyroelmin kəsişməsində dayanan stress faktoru, fərdin həm psixi, həm də fizioloji homeostazına təsir edən vacib amillərdən biridir. Stressin uzunmüddətli təsiri yalnız fərdi narahatlıq yaratmır, həm də psixoloji sağlamlıq üçün ciddi həm də tənzimləyici funksiyalardan məsul olan prefrontal korteks, xroniki stressin təsiri ilə struktur dəyişikliyinə uğrayır. Bu tədqiqatın əsas hədəfi stressin psixoloji dayanıqlığa təsirini neyroplastiklik və emosional tənzimləmə mexanizmləri kontekstində təhlil etməkdir. Emosional tənzimləmə, erkən uşaqlıq dövründə baxım verən şəxslər tərəfindən qazanılan bir bacarıqdır. Bu bacarığa sahib olmaq yaxın münasibətlərimizə, iş həyatındakı əlaqələrimizə və sosial mühitdə özümüzü ifadə etmə formamıza birbaşa təsir göstərir. Duyğularla təmas qurmaqda çətinlik çəkmək və onları tənzimləmə bacarığının zəif olması psixoloji sağlamlığa mənfi təsir edir. Məsələn, münasibətlərdə münaqişələrin yaşanması, problemlərin həllində çətinliklərlə qarşılaşmaq və müxtəlif psixoloji sıxıntılar emosianal halının pozulmasına səbəb ola bilər ki, bu da həyatımızda qeyri-effektiv fəaliyyətlərin yaranmasına gətirib çıxarır.Neyroplastiklik beynin xarici stimullara və daxili təcrübələrə cavab olaraq özünü yenidən təşkil etmə, struktur və funksional dəyişikliklər yaratma qabiliyyətidir. Stressli vəziyyətlərdə fərdlərin nümayiş etdirdiyi emosional reaksiyaların idarə olunması, yəni emosional tənzimləmə, beynin bu adaptiv potensialından necə istifadə edəcəyini müəyyən edən açar faktordur. Tədqiqatın nəzəri və empirik təhlili göstərir ki, adaptiv emosional tənzimləmə strategiyalarından (məsələn, mentalizasiya) istifadə edən fərdlərdə prefrontal korteks və amigdala arasındakı funksional əlaqə güclənir. Bu isə beynin funksional çevikliyini artıraraq stressə qarşı yüksək adaptasiya və emosional rifahı təmin edir. Əksinə, xroniki stress hallarında kortizolun həddindən artıq ifrazı neyroplastiklik mexanizmlərini zəiflədir, xüsusilə hipokampal neyrogenezi ləngidir və emosional balansın pozulmasına, psixoloji dayanıqlığın azalmasına səbəb olur.

Keywords: stress, neuroplasticity, emotional regulation, psychological health, adaptive behavior.

Summary. The stress factor, situated at the intersection of modern psychology and neuroscience, is one of the most fundamental elements affecting both the psychological and physiological homeostasis of an individual. The long-term impact of stress not only creates personal discomfort but also forms significant structural and functional risk factors for psychological health. The primary aim of this study is to analyze the effect of stress on psychological resilience in the context of neuroplasticity and emotional regulation mechanisms. Emotional regulation is a skill acquired during early childhood through caregivers. Possessing this skill directly influences our

close relationships, workplace interactions, and the way we express ourselves in social environments. Difficulty in engaging with emotions and weak emotional regulation abilities negatively affect psychological health. For instance, conflicts in relationships, challenges in problem-solving, and various psychological strains can disrupt emotional states, which in turn leads to the emergence of ineffective (dysfunctional) behaviors in daily life.

Neuroplasticity is the brain's ability to reorganize itself and produce structural and functional changes in response to external stimuli and internal experiences. In stressful situations, the management of individuals' emotional responses—i.e., emotional regulation—is a key factor determining how the brain utilizes this adaptive potential. Theoretical and empirical analyses indicate that individuals who employ adaptive emotional regulation strategies (e.g., mentalization) exhibit strengthened functional connectivity between the prefrontal cortex and the amygdala. This enhances the brain's functional flexibility, providing high adaptation to stress and promoting emotional well-being. Conversely, in chronic stress conditions, excessive cortisol secretion weakens neuroplasticity mechanisms, particularly slowing hippocampal neurogenesis, leading to emotional imbalance and reduced psychological resilience.

Anahtar kelimeler: stress, neröoplastisite, duygu düzenleme, psikoloji sağlamlık, adaptif davranış.

Özet. Modern psikoloji ile nörobilimin kesişiminde yer alan stress faktörü, bireyin hem psikolojik hem de fizyolojik homeostazını etkileyen en temel unsurlardan biridir. Stresin uzun vadeli etkisi yalnız bireysel rahatsızlık yaratmakla kalmaz, aynı zamanda psikolojik sağlık için ciddi yapısal ve fonksiyonel risk faktörleri oluşturur. Bu çalışmanın temel amacı, stresin psikolojik dayanıklılık üzerindeki etkisini nöroplastisite ve duygusal düzenleme mekanizmaları bağlamında incelemektir. Duygusal düzenleme, erken çocukluk döneminde bakım veren kişiler tarafından kazanılan bir beceridir. Bu beceriye sahip olmak, yakın ilişkilerimizi, iş hayatındaki etkileşimlerimizi ve sosyal ortamda kendimizi ifade etme biçimimizi doğrudan etkiler.

Duygularla temasın ve duyguları düzenleme becerisinin zayıf olması psikolojik sağlamlığı olumsuz etkiler. Örneğin, ilişkilerde çatışmaların yaşanması, problem çözmede güçlükler ve çeşitli psikolojik sıkıntılar duygusal durumun bozulmasına yol açabilir; bu da hayatımızda etkisiz davranışların ortaya çıkmasına neden olur.

Nöroplastisite, beynin dış uyaranlara ve içsel deneyimlere yanıt olarak kendini yeniden organize etme ve yapısal ve fonksiyonel değişiklikler yaratma yeteneğidir. Stresli durumlarda bireylerin gösterdiği duygusal tepkilerin yönetimi, yani duygusal düzenleme, beynin bu adaptif potansiyelini nasıl kullanacağını belirleyen temel bir faktördür. Teorik ve ampirik analizler, adaptif duygusal düzenleme stratejilerini (örneğin mentalizasyon) kullanan bireylerde prefrontal korteks ile amigdala arasındaki fonksiyonel bağlantının güçlendiğini göstermektedir. Bu durum, beynin fonksiyonel esnekliğini artırarak strese karşı yüksek adaptasyon ve duygusal iyilik halini sağlar.

Aksine, kronik stres durumlarında kortizolün aşırı salgılanması nöroplastisite mekanizmalarını zayıflatır; özellikle hipokampal nörogenez yavaşlar ve duygusal dengenin bozulmasına, psikolojik dayanıklılığın azalmasına yol açar.

Stress, insan həyatının ayrılmaz bir hissəsi olmaqla, həm fiziki, həm də psixoloji sağlamlıq üzərində dərin təsirə malikdir. Xroniki və uzunmüddətli stress, fərdin davranışlarını, emosional vəziyyətini və kognitiv funksiyalarını pozaraq həyat keyfiyyətini azalda bilər. Son onilliklərdə aparılan tədqiqatlar göstərir ki, stress yalnız fərdi narahatlıq yaratmır, həm də beyində struktur və funksional dəyişikliklərə səbəb olur. Xüsusilə prefrontal korteks kimi tənzimləyici funksiyaları və

emosional tənzimləmə üçün kritik olan beyin bölgələri stressin təsirlərinə olduqca həssasdır. Stressin beyində yaratdığı dəyişiklikləri anlamaq, psixoloji sağlamlıq problemlərinin qarşısını almaq və effektiv müdaxilə strategiyaları inkişaf etdirmək üçün vacibdir (Gündüz,2015). Prefrontal korteks məməlilərin beynində kritik bir bölgədir və yüksək səviyyəli kognitiv funksiyalar və icra nəzarətində mühüm rol oynayır. Bu bölgə frontal lobların anterior hissəsində yerləşir və qərarvermə, yaddaş, diqqətin tənzimlənməsi və emosional nəzarət kimi bir çox mürəkkəb davranışları əhatə edir. İnsanlarda prefrontal korteks xüsusilə yaxşı inkişaf etmişdir və digər növlərdən fərqli olaraq kognitiv qabiliyyətlərimizi müəyyən edən əsas strukturlardan biri hesab olunur. Prefrontal korteks bir neçə subbölməyə bölünür və hər biri xüsusi funksiyalara malikdir: dorsolateral prefrontal korteks yaddaş və kognitiv elastiklik üçün vacibdir, ventromedial prefrontal korteks qərarvermə və emosional tənzimləmə ilə əlaqədardır, orbitofrontal korteks isə mükafatlandırma və sosial davranışda rol oynayır. Prefrontal korteks və ümumiyyətlə bütün beynin ən diqqətçəkən xüsusiyyətlərindən biri onun neyroplastiklik qabiliyyətidir (Smith,2023). Neyroplastiklik, beynin həyat boyu və təcrübəyə cavab olaraq struktur və funksiyasını dəyişdirmək, uyğunlaşmaq və modifikasiya etmək qabiliyyətini ifadə edir. Bu xüsusiyyət öyrənmə, yaddaş formalaşması və yeni mühitə adaptasiya üçün imkan yaradır. Neyroplastiklik sinaptik gücün dəyişməsi, dendritik yenidən təşkilatlanma, akson çıxıntıları və hətta bəzi beyin bölgələrində yeni neyronların yaranması kimi müxtəlif formalarda özünü göstərə bilər. Prefrontal korteks neyroplastiklik kognitiv elastikliyi qorumaq və mürəkkəb, daim dəyişən mühitlərə adaptasiya olmaq üçün vacibdir. Stressin beyinə, xüsusən də prefrontal korteks təsirini başa düşmək müasir neyroelm və psixologiyada böyük əhəmiyyət daşıyır. Stress, xüsusilə xroniki olduqda, beyin struktur və funksiyasına dərin təsir göstərə bilər və prefrontal korteks bu təsirlərə xüsusilə həssasdır. Xroniki stress prefrontal korteks neyroplastikliyində ciddi dəyişikliklərə səbəb ola bilər. Stressin prefrontal korteks plastikliyinə təsirini öyrənməyin əhəmiyyəti bir neçə baxımdan qiymətləndirilə bilər. Birincisi, əsas neyroelm perspektivindən, bu, ətraf mühit amillərinin beyin struktur və funksiyasını necə formalaşdırdığı barədə fundamental mexanizmləri anlamağa imkan verir. Bu araşdırmalar zehin adaptasiyası və dayanıqlılığını, eləcə də neqativ şəraitdə neyroplastikliyin sərhədlərini başa düşməyimizə kömək edir. İkincisi, klinik baxımdan, xroniki stressin prefrontal korteksdə yaratdığı dəyişiklikləri anlamaq, müxtəlif stresslə əlaqəli çətinlikləri başa düşmək üçün vacibdir.

Depressiya, anksiyete pozuntuları və posttravmatik stress pozuntusu kimi bir çox narahatlıqlar prefrontal korteks funksiyasında dəyişikliklərlə əlaqələndirilmişdir.(Kotan,2009) Xroniki stressin prefrontal korteks plastikliyinə necə təsir etdiyini başa düşməklə, terapevtik müdaxilələr üçün yeni hədəflər müəyyən etmək və bu problemlər üçün daha effektiv müalicələr inkişaf etdirmək mümkündür. Bundan əlavə, prefrontal korteks plastikliyinə stressin təsirini öyrənmək sağlamlıq və cəmiyyət rifahı üçün əhəmiyyətlidir. Müasir sürətli həyat şəraitində xroniki stress geniş yayılıb və bütün yaş qruplarına və sosial-iqtisadi təbəqələrə təsir göstərir. Xroniki stressin beyinə, xüsusilə prefrontal korteks necə təsir etdiyini başa düşməklə, sübutlara əsaslanan stress idarəetmə və qarşısının alınması strategiyaları hazırlamaq, kognitiv funksiyaya və psixi sağlamlığa mənfi təsirləri azaltmaq mümkündür.

Prefrontal korteksin neyroplastikası və stresin bu sahəyə təsirləri yalnız bilişsel funksiyalarımızı deyil, həm də emosional proseslərimizi və duyğuları tənzimləmə qabiliyyətimizi birbaşa təsir edir. Prefrontal korteksin dorsolateral və ventromedial bölgələri yalnız qərar vermə, diqqət və yaddaş funksiyalarında deyil, həm də duyğuların tanınması, qiymətləndirilməsi və uyğun şəkildə idarə olunmasında kritik rol oynayır. Gündəlik həyatda yaşadığımız duyğular məsələn,

sevinc, qəzəb, qorxu, təəccüb və kədər həm bədənimizdəki fizioloji reaksiyaları, həm də davranışlarımızı formalaşdırır. Məsələn, qəzəb duyğusu prefrontal korteks və amiqdala qarşılıqlı təsiri vasitəsilə nəzarət olunmadıqda aqressiv davranışlara səbəb ola bilər, lakin düzgün tənzimləndikdə həm özümüzü, həm də psixoloji sağlamlığı qorumağa kömək edir. Duyğuların ortaya çıxma mexanizmi əsasən həyatda qalma və mühitə uyğunlaşma funksiyası ilə bağlıdır. Qorxu təhlükədən qaçmağa imkan verirsə, qəzəb isə haqlarımızı və sərhədlərimizi qorumağa yardım edir. Prefrontal korteks bu duyğuların fərqində olmaq, qiymətləndirmək və uyğun şəkildə yönəltmək proseslərində əsas rol oynayır (Grenberg, 2020). Beləliklə, fərd həm daxili vəziyyətini başa düşə bilir, həm də sosial kontekstdə uyğun davranışlar göstərə bilir. Emosianal tənzimləmə qabiliyyəti, prefrontal korteksin stress altındakı elastikliyinin bir əksidir. Xronik stress prefrontal korteksin funksiyasını pozduqda, duyğuları tanıma, yönəltmə və idarə etmə qabiliyyəti azalır və bu da psixopatoloji riskləri artırır (Luciana və Collins, 2022). Digər tərəfdən, fərdlər uyğun strategiyalar məsələn, vəziyyət seçimi, diqqəti yönəltmə, bilişsel yenidən qiymətləndirmə və reaksiya tənzimləmə ilə duyğularını idarə edə bilər, psixoloji dayanıqlığını və sosial münasibətlərini gücləndirə bilər (Grenberg, 2020). Nəticə etibarilə, prefrontal korteks neyroplastik quruluşu duyğusal fərqindəlik və tənzimləmə qabiliyyətlərinin əsasını təşkil edir.Emosional tənzimləmə fərdin duyğularını tanıması, yönəltməsi və sosial kontekstdə adaptiv şəkildə ifadə etməsi ilə sıx bağlıdır. Bu proses yalnız psixoloji və davranışsal səviyyədə deyil, eyni zamanda neyrobioloji səviyyədə də müşahidə olunur. Neyroplastisite, yəni beynin çevikliyi və yeni sinaptik əlaqələr yaratmaq qabiliyyəti, emosional tənzimləmə bacarıqlarının inkişafında əsas mexanizmdir. (Schore,2012)

Fərdin emosional tənzimləmə bacarıqları yüksək olduqda, prefrontal korteksin fəaliyyətində artım və amiqdala ilə əlaqəli stres reaksiyalarının daha effektiv idarəsi müşahidə olunur. Bu, həm stresli vəziyyətlərdə adaptiv davranışlara, həm də sosial münasibətlərdə daha balanslı emosional reaksiyalara səbəb olur. Əksinə, emosional tənzimləmə zəif olduqda, amiqdala aktivliyi artaraq, impulsiv və disfuksional davranışların ortaya çıxmasına yol açır, bu da psixoloji sağlamlığı zəiflədir (Soysal,2022).Tədqiqatlar göstərir ki, duyğuların erkən yaşlarda valideynlər və ətraf mühit tərəfindən düzgün tanınması və qəbul edilməsi, neyroplastisite mexanizmlərinin inkişafı üçün kritikdir. Güvənli bağlanan uşaqların emosional tənzimləmə bacarıqları daha yaxşı inkişaf edir və bu bacarıqlar həyat boyu psixoloji sağlamlığı qoruyan bir dayaq funksiyasını yerinə yetirir. Eyni zamanda, yetkin yaşlarda fərqindəlik, meditasiya və emosional məşqlər kimi üsullar beyində sinaptik çevikliyi artıraraq, emosional tənzimləməni gücləndirir və psixoloji dayanıqlığı yüksəldir.(Çam,2021) Yəni, neyroplastisite, emosional tənzimləmə və psixoloji sağlamlıq bir-biri ilə qarşılıqlı təsirdədir. Neyroplastisite fərdin beyninin funksional çevikliyini təmin edir. Emosional tənzimləmə bu çevikliyi məqsədli və adaptiv şəkildə yönəldir.Nəticədə fərdin psixoloji sağlamlığı qorunur. Həyat boyu davam edən çətinliklərlə daha sağlam şəkildə mübarizə edə bilir. Bu proseslər, həm fərdi funksionallığın, həm də sosial münasibətlərin qorunması və inkişafı üçün həyati əhəmiyyət daşıyır. (Türkmen,2021).

Ədəbiyyat:

1. Çam, M., & Soylu, G. (2021). Duygu düzenleme ve psikiyatri hemşireliğine yansımaları. Psikiyatride Güncel Yaklaşımlar, 13(2), 192–215. [Və ya müvafiq səhifə aralığı].

2. Türkmen, İ., & Doğan, H. (2021). Duygusal zekânın psikolojik sağlamlık üzerine etkisi: Acil sağlık hizmetleri personeli üzerine bir araştırma. İnönü Üniversitesi Sağlık Hizmetleri Meslek Yüksekokulu Dergisi, 9(3), 850–865.

3. Soysal, G., & Arı, E. (2022). Duygu düzenleme. Nobel Akademik Yayıncılık.

4. Schore, A. N. (2012). Duygulanım düzensizliği ve kendilik bozuklukları (6. Baskı). Psikoterapi Enstitüsü Eğitim Yayınları.

5. Greenberg, L. S. (2002). Emotion-focused therapy: Coaching clients to work through their feelings. American Psychological Association.

6. Luciana, M., & Collins, P. F. (2022). Neuroplasticity, the prefrontal cortex, and psychopathology-related deviations in cognitive control. Annual Review of Clinical Psychology, 18, 443–469.

7. Gündüz, N., & Aker, A. T. (2015). Travmatik stres ve beyin. Türkiye Klinikleri Psikiyatri - Özel Konular, 8(1), 1–9.

8. Kotan, Z., Sarandöl, A., Eker, S. S., & Akkaya, C. (2009). Depresyon, nöroplastisite ve nörotrofik faktörler. Psikiyatride Güncel Yaklaşımlar, 1(1), 22–35.

9. Smith, E. E., & Kosslyn, S. M. (2023). Bilişsel psikoloji (Cognitive psychology) (M. Şahin, Ed. & Çev.). Nobel Akademik Yayıncılık.

DEPRESSİYA VƏ TƏŞVİŞ POZUNTULARINDA KOQNİTİV-DAVRANIŞÇI MÜDAXİLƏLƏRİN EFFEKTİVLİYİ: BEYNƏLXALQ ELMİ TƏCRÜBƏNİN NƏZƏRİ ANALİZİ

Gültəkin Yusib qızı Knyazova
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
yusifligultekin28@gmail.com
ORCİD ID: https://orcid.org/0009000850744821

Açar sözlər: depressiya, təşviş, koqnitiv-davranışçı terapiya, CBT, psixoloji müdaxilə, davranış aktivləşdirmə, koqnitiv restrukturizasiya

Xülasə. Bu məqalə depressiya və təşviş pozuntularında koqnitiv-davranışçı terapiyanın (CBT) effektivliyini nəzəri əsaslar, beynəlxalq elmi təcrübə və sistemli ədəbiyyat təhlili əsasında araşdırır. Depressiya və təşvişin koqnitiv və davranış mexanizmləri, disfunksional inanclar, avtomatik mənfi düşüncələr və onların emosional, davranışsal və sosial nəticələri geniş şəkildə izah edilmişdir. Strukturlaşdırılmış CBT proqramları simptomların azalması, relaps riskinin minimuma endirilməsi, emosional stabilliyin gücləndirilməsi, motivasiyanın artırılması, gündəlik fəaliyyət aktivliyinin yüksəldilməsi, sosial funksionallığın bərpası və həyat keyfiyyətinin yüksəldilməsi baxımından yüksək effektivlik nümayiş etdirir. Məqalədə fərdi, qrup və onlayn CBT müdaxilələrinin müxtəlif mədəni, sosial və yaş qruplarında tətbiqi müqayisəli şəkildə təqdim edilmiş, terapiya nəticələrinə təsir edən determinantlar, fərdiləşdirilmiş müdaxilə imkanları, terapevtik alyans və pasiyentin motivasiyasının rolu ətraflı şəkildə vurğulanmışdır. Koqnitiv restrukturizasiya, davranış aktivləşdirmə, mərhələli ekspozisiya, relaksasiya və diqqətin yönəldilməsi texnikaları fərdin psixoloji rifahını bərpa etmək, adaptiv davranış strategiyalarını inkişaf etdirmək, emosional stabilliyi artırmaq, stress və təşviş reaksiyalarını minimuma endirmək üçün əsas alətlər kimi izah olunur. Rəqəmsal texnologiyalar, virtual reallıq və süni intellektin tətbiqi CBT-nin effektivliyini artıran innovativ yanaşmalar kimi qiymətləndirilir. Sistemli araşdırmalar göstərir ki, CBT fərdlərin

düşüncə strukturunu optimallaşdırır, emosional reaktivliyi azaldır, motivasiyanı gücləndirir, sosial münasibətlərdə uyğunlaşmanı artırır, gündəlik fəaliyyət aktivliyini bərpa edir və həyat keyfiyyətini yüksəldir. Məqalə həmçinin mədəni adaptasiya, fərdiləşdirilmiş müdaxilələr və preventiv proqramlar sahəsində CBT-nin geniş potensialını vurğulayır. Nəticələr depressiya və təşviş pozuntularının müalicəsində koqnitiv-davranışçı müdaxilələrin elmi əsaslı, praktik və adaptiv strategiya olduğunu təsdiqləyir. Gələcək tədqiqat perspektivləri süni intellekt əsaslı psixoterapiya, neyropsixoloji təhlil, məktəb və universitet mühitində preventiv CBT proqramlarının inkişafını əhatə edir, psixi sağlamlığın erkən mərhələdə qorunmasına və fərdlərin uzunmüddətli rifahına töhfə verir.

Keywords: depression, anxiety, cognitive-behavioral therapy, CBT, psychological intervention, behavioral activation, cognitive restructuring.

Summary. This article examines the effectiveness of cognitive-behavioral therapy (CBT) in depression and anxiety disorders based on theoretical foundations, international scientific practice, and systematic literature review. The cognitive and behavioral mechanisms of depression and anxiety, including dysfunctional beliefs, automatic negative thoughts, and their emotional, behavioral, and social consequences, are thoroughly explained. Structured CBT programs demonstrate high effectiveness in reducing symptoms, minimizing relapse risk, enhancing emotional stability, increasing motivation, restoring daily activity, improving social functioning, and enhancing overall quality of life. The article provides a comparative analysis of individual, group, and online CBT interventions across diverse cultural, social, and age groups, highlighting determinants affecting therapy outcomes, possibilities for individualized interventions, therapeutic alliance, and patient motivation. Techniques such as cognitive restructuring, behavioral activation, graded exposure, relaxation, and attention-focusing are described as essential tools to restore psychological well-being, develop adaptive coping strategies, strengthen emotional regulation, and reduce stress and anxiety responses. The integration of digital technologies, virtual reality, and artificial intelligence is identified as an innovative approach that enhances CBT efficacy. Systematic studies indicate that CBT optimizes cognitive structures, reduces emotional reactivity, strengthens motivation, improves social relationships, restores daily functioning, and elevates life quality. The article also emphasizes the potential of cultural adaptation, individualized interventions, and preventive programs. The findings confirm that cognitive-behavioral interventions constitute an evidence-based, practical, and adaptive strategy for the treatment of depression and anxiety disorders. Future research directions include artificial intelligence-based psychotherapy, neuropsychological analysis, and the development of preventive CBT programs in school and university settings, contributing to early-stage mental health protection and long-term well-being.

Anahtar kelimeler: depresyon, anksiyete, bilişsel-davranışçı terapi, CBT, psikolojik müdahale, davranış aktivasyonu, bilişsel yeniden yapılandırma.

Özet. Bu makale, depresyon ve anksiyete bozukluklarında bilişsel-davranışçı terapinin (CBT) etkinliğini teorik temeller, uluslararası bilimsel uygulamalar ve sistematik literatür incelemesi ışığında ele almaktadır. Depresyon ve anksiyetenin bilişsel ve davranışsal mekanizmaları, disfonksiyonel inançlar, otomatik olumsuz düşünceler ve bunların duygusal, davranışsal ve sosyal sonuçları ayrıntılı bir şekilde açıklanmıştır. Yapılandırılmış CBT programları, semptomları azaltma, nüks riskini en aza indirme, duygusal istikrarı güçlendirme, motivasyonu artırma, günlük aktiviteleri geri kazanma, sosyal işlevselliği iyileştirme ve yaşam kalitesini yükseltme açısından

yüksek etkinlik göstermektedir. Makale, farklı kültürel, sosyal ve yaş gruplarında bireysel, grup ve çevrimiçi CBT müdahalelerinin karşılaştırmalı analizini sunmakta, terapi sonuçlarını etkileyen belirleyiciler, bireyselleştirilmiş müdahale olanakları, terapötik ittifak ve hasta motivasyonunun rolünü vurgulamaktadır. Bilişsel yeniden yapılandırma, davranış aktivasyonu, kademeli maruz kalma, gevşeme ve dikkat odaklama gibi teknikler, psikolojik refahı yeniden kazanmak, uyumlu başa çıkma stratejilerini geliştirmek, duygusal düzenlemeyi güçlendirmek ve stres ile anksiyete tepkilerini azaltmak için temel araçlar olarak açıklanmaktadır. Dijital teknolojiler, sanal gerçeklik ve yapay zekâ entegrasyonu, CBT’nin etkinliğini artıran yenilikçi yaklaşımlar olarak belirtilmektedir. Sistematik çalışmalar, CBT’nin bilişsel yapıları optimize ettiğini, duygusal tepkiselliği azalttığını, motivasyonu güçlendirdiğini, sosyal ilişkileri iyileştirdiğini, günlük işlevselliği geri kazandırdığını ve yaşam kalitesini yükselttiğini göstermektedir. Makale ayrıca kültürel uyarlama, bireyselleştirilmiş müdahaleler ve önleyici programlar potansiyelini vurgulamaktadır. Bulgular, depresyon ve anksiyete bozukluklarının tedavisinde bilişsel-davranışçı müdahalelerin bilimsel temelli, pratik ve uyarlanabilir bir strateji olduğunu doğrulamaktadır. Gelecek araştırma perspektifleri, yapay zekâ temelli psikoterapi, nöropsikolojik analiz ve okul ile üniversite ortamlarında önleyici CBT programlarının geliştirilmesini içermekte ve erken aşamada ruh sağlığının korunmasına ve uzun vadeli refaha katkı sağlamaktadır.

Müasir dövrdə psixi sağlamlıq problemləri qlobal səhiyyə sistemlərinin qarşısında duran əsas çağırışlardan biri kimi qiymətləndirilir. Depressiya və təşviş pozuntuları yayılma tezliyi və fərdlərin sosial funksionallığına göstərdiyi təsir baxımından xüsusi diqqət mərkəzindədir. Aparılan epidemioloji tədqiqatlar göstərir ki, bu pozuntular əmək qabiliyyətinin azalması, sosial münasibətlərin zəifləməsi və həyat keyfiyyətinin aşağı düşməsi ilə sıx əlaqəlidir (World Health Organization, 2021).

Depressiya emosional çökmə, ümidsizlik hissi, motivasiya çatışmazlığı və maraq itkisi kimi simptomlarla xarakterizə olunur. Təşviş pozuntuları isə anticipator narahatlıq, təhlükə gözləntisi və somatik gərginlik reaksiyaları ilə müşayiət edilir. Bu iki pozuntunun komorbid şəkildə müşahidə olunması onların ortaq koqnitiv və davranış mexanizmlərinə malik olduğunu göstərir (Beck & Haigh, 2014).

Koqnitiv nəzəriyyəyə görə fərdin emosional reaksiyalarını formalaşdıran əsas faktor hadisələrin obyektiv xarakteri deyil, həmin hadisələrin subyektiv interpretasiyasıdır. Disfunksional sxemlər və avtomatik mənfi düşüncələr depressiv və təşviş reaksiyalarını gücləndirərək psixoloji rifahın azalmasına səbəb olur (Clark & Beck, 2010). Depressiyada fərd özünü qeyri-kafi və dəyərsiz kimi qiymətləndirir, gələcək perspektivini pessimist formada qavrayır və sosial fəaliyyətdən geri çəkilir. Təşviş pozuntularında isə qeyri-müəyyənlik intolerantlığı və təhlükə siqnallarına selektiv diqqət qaçınma davranışlarının artmasına səbəb olur (Hofmann et al., 2012).

Bu mexanizmlərin izahında və müdaxilə strategiyalarının hazırlanmasında koqnitiv-davranışçı terapiya mühüm yer tutur. CBT düşüncə, emosiyalar və davranış arasında qarşılıqlı əlaqəni nəzərə alaraq disfunksional inancların dəyişdirilməsini və adaptiv davranış strategiyalarının formalaşdırılmasını hədəfləyir (Beck, 2011). Koqnitiv restrukturizasiya fərdlərə avtomatik mənfi düşüncələri identifikasiya etmək və onları alternativ rasional interpretasiyalarla əvəz etmək imkanı yaradır. Davranış aktivləşdirmə isə depressiv passivliyin aradan qaldırılmasına və müsbət gücləndiricilərin sayının artırılmasına yönəlir (Dimidjian et al., 2006).

Beynəlxalq meta-analitik tədqiqatlar CBT-nin depressiya və təşviş pozuntularında effektivliyini sistemli şəkildə təsdiqləmişdir. Aparılan geniş miqyaslı analizlər CBT müdaxilələrinin

simptomların azalması baxımından farmakoterapiya ilə müqayisə edilə biləcək nəticələr verdiyini və relaps riskini azaltdığını göstərmişdir (Butler et al., 2006). Eyni zamanda longitudial tədqiqatlar CBT nəticələrinin uzunmüddətli sabitliyini vurğulayır ki, bu da terapiya prosesində özünütənzimləmə bacarıqlarının formalaşması ilə izah olunur (Hollon et al., 2006).

Son illərdə rəqəmsal CBT proqramlarının tətbiqi geniş yayılmışdır. Onlayn müdaxilələrin effektivliyi üzrə aparılan sistemli araşdırmalar göstərir ki, internet əsaslı terapiya modelləri coğrafi və sosial baryerləri aradan qaldıraraq psixoloji xidmətlərin əlçatanlığını artırır və xüsusilə gənclər arasında müsbət nəticələr verir (Andersson et al., 2019). Bu yanaşma psixi sağlamlıq xidmətlərinin demokratikləşdirilməsi baxımından mühüm addım kimi qiymətləndirilir.

Mədəni faktorların terapiya nəticələrinə təsiri də müasir tədqiqatların diqqət mərkəzindədir. Araşdırmalar göstərir ki, CBT protokollarının lokal kontekstə uyğunlaşdırılması terapevtik alyansın güclənməsinə və müdaxilənin effektivliyinin artmasına səbəb olur (Naeem et al., 2015). Bu fakt psixoterapiyanın universal prinsiplərlə yanaşı kontekstual xüsusiyyətlərə də həssas olduğunu göstərir.

Koqnitiv-davranışçı yanaşma müasir psixoterapiya istiqamətləri arasında elmi əsaslandırılmış və strukturlaşdırılmış müdaxilə modeli kimi xüsusi yer tutur. Bu yanaşma fərdin emosional reaksiyalarının və davranış strategiyalarının əsasən onun düşüncə prosesləri ilə müəyyənləşdiyini qəbul edir. Koqnitiv-davranışçı modelə görə psixoloji çətinliklər hadisələrin obyektiv xüsusiyyətlərindən daha çox həmin hadisələrin fərd tərəfindən necə şərh edilməsi ilə bağlıdır. Bu baxımdan disfunksional inancların və avtomatik mənfi düşüncələrin identifikasiyası və dəyişdirilməsi terapiya prosesinin əsas məqsədlərindən biri hesab olunur.

Koqnitiv-davranışçı terapiyanın nəzəri əsasları sosial öyrənmə nəzəriyyəsi, koqnitiv sxem nəzəriyyəsi və davranış modifikasiya prinsiplərinin inteqrasiyası nəticəsində formalaşmışdır. Bu yanaşma fərdin erkən həyat təcrübələri nəticəsində formalaşan koqnitiv sxemlərin sonrakı emosional və davranış reaksiyalarına təsir etdiyini vurğulayır. Negativ sxemlər informasiyanın selektiv şəkildə emalına səbəb olur və fərdin reallığı təhrif olunmuş formada qavramasına gətirib çıxarır. Məsələn, depressiv fərdlər müsbət hadisələri təsadüfi, mənfi hadisələri isə şəxsi uğursuzluq kimi interpretasiya etməyə meylli olurlar.

Davranış komponenti koqnitiv-davranışçı modeldə mühüm rol oynayır. Qaçınma, passivlik və sosial izolyasiya kimi davranış reaksiyaları qısamüddətli rahatlıq yaratsa da uzunmüddətli perspektivdə emosional problemlərin davamlılığını təmin edir. Davranış aktivləşdirmə strategiyaları fərdin gündəlik fəaliyyət repertuarını genişləndirməklə müsbət gücləndiricilərin sayını artırır və emosional vəziyyətin stabilləşməsinə kömək edir.

Koqnitiv restrukturizasiya texnikası terapiya prosesinin əsas alətlərindən biri hesab olunur. Bu texnika vasitəsilə fərdlər avtomatik düşüncələri müşahidə etməyi, onların məntiqi əsaslarını analiz etməyi və alternativ rasional düşüncə modelləri formalaşdırmağı öyrənirlər. Bu proses düşüncə elastikliyinin artmasına və emosional reaktivliyin azalmasına səbəb olur. Eyni zamanda problem həll etmə bacarıqlarının inkişafı fərdin özünəeffektivlik hissini gücləndirir və stress faktorlarına qarşı adaptiv reaksiyaların formalaşmasına şərait yaradır.

Təşviş pozuntularının müalicəsində ekspozisiya texnikaları xüsusi əhəmiyyət daşıyır. Sistemli və mərhələli ekspozisiya qorxu stimullarına qarşı habituasiya prosesini gücləndirir və təhlükə gözləntilərinin real olmadığını təcrübəvi səviyyədə nümayiş etdirir. Bu yanaşma emosional tənzimləmə mexanizmlərinin yenidən qurulmasına və qaçınma davranışlarının azalmasına kömək edir.

Relaksasiya məşqləri və diqqətin yönəldilməsi strategiyaları da koqnitiv-davranışçı müdaxilələrin tərkib hissəsi kimi geniş istifadə olunur. Bu texnikalar fizioloji gərginliyin azalmasına, bədən siqnallarının daha adekvat interpretasiyasına və emosional sabitliyin artmasına şərait yaradır. Xüsusilə nəfəs tənzimləmə və proqressiv əzələ relaksasiyası təşviş simptomlarının idarə olunmasında effektiv vasitələr kimi qiymətləndirilir.

Son illərdə koqnitiv-davranışçı yanaşmanın tətbiq sahələri genişlənmişdir. Klinik psixologiya ilə yanaşı pedaqoji mühitdə, təşkilati psixologiyada və sağlamlıq psixologiyasında CBT prinsiplərindən istifadə olunur. Məktəb psixoloji xidmətlərində tətbiq edilən qrup CBT proqramları emosional savadlılığın artmasına, sosial bacarıqların inkişafına və akademik uyğunlaşmanın güclənməsinə töhfə verir. Bu yanaşma preventiv psixologiya kontekstində də mühüm potensiala malikdir.

Rəqəmsal texnologiyaların inkişafı CBT müdaxilələrinin innovativ formatlarda tətbiqinə imkan yaratmışdır. Mobil tətbiqlər, onlayn terapiya platformaları və virtual reallıq əsaslı ekspozisiya proqramları psixoloji xidmətlərin əlçatanlığını artıraraq fərdlərin özünütənzimləmə bacarıqlarını gücləndirir. Bu tendensiya müasir psixoterapiyanın texnoloji transformasiya ilə paralel inkişaf etdiyini göstərir.

Beləliklə koqnitiv-davranışçı yanaşma depressiya və təşviş pozuntularının izahı və müalicəsi üçün kompleks və multidimensial çərçivə təqdim edir. Bu model düşüncə, emosiyalar və davranış arasında qarşılıqlı əlaqəni nəzərə alaraq fərdin psixoloji rifahının bərpasına və sosial funksionallığın artırılmasına yönəlmiş effektiv müdaxilə strategiyalarının hazırlanmasına imkan yaradır.

Depressiya pozuntularının koqnitiv-davranışçı izahı fərdin informasiyanı emal etmə üslubunun emosional vəziyyətə birbaşa təsir etdiyini vurğulayır. Depressiv fərdlər reallığı qlobal, sabit və daxili səbəblərlə izah etməyə meylli olurlar ki, bu da ümidsizlik hissinin güclənməsinə səbəb olur. Bu interpretasiya üslubu nəticəsində motivasiya səviyyəsi aşağı düşür, fəaliyyətə başlama çətinləşir və sosial qarşılıqlı əlaqələr tədricən azalır. Davranış aktivliyinin azalması isə müsbət gücləndiricilərin sayını azaldaraq emosional tənəzzülü daha da dərinləşdirir. Bu dövrü proses depressiyanın davamlılığını təmin edən əsas mexanizmlərdən biri kimi qiymətləndirilir.

Koqnitiv-davranışçı müdaxilələr bu mənfi dövrəni qırmağa yönəlmiş strukturlaşdırılmış strategiyalar təqdim edir. Davranış aktivləşdirmə proqramları fərdin gündəlik fəaliyyət repertuarını mərhələli şəkildə genişləndirməyi və kiçik uğur təcrübələri vasitəsilə özünə inamın bərpasını hədəfləyir. Bu yanaşma emosional dəyişikliklərin yalnız düşüncə səviyyəsində deyil, həm də davranış səviyyəsində baş verməsinin vacibliyini vurğulayır. Eyni zamanda koqnitiv restrukturizasiya fərdin özünüqiymətləndirmə prosesini optimallaşdırır və mənfi özünəreferensial düşüncələrin intensivliyini azaldır.

Depressiyada CBT-nin effektivliyini izah edən mühüm amillərdən biri də metakoqnitiv şüurluluğun artmasıdır. Fərdlər düşüncələrin fakt deyil, interpretasiya olduğunu anlamağa başlayır və bu anlayış emosional reaktivliyin azalmasına gətirib çıxarır. Bu proses psixoloji elastikliyin inkişafına və adaptiv coping strategiyalarının formalaşmasına şərait yaradır. Nəticədə sosial funksionallıq bərpa olunur, həyat keyfiyyəti yüksəlir və relaps ehtimalı azalır.

Təşviş pozuntularında koqnitiv-davranışçı model təhlükə gözləntilərinin şişirdilməsi və qeyri-müəyyənlik intolerantlığı kimi mexanizmləri ön plana çıxarır. Təşviş yaşayan fərdlər potensial risk siqnallarına selektiv diqqət yönəldir və neytral situasiyaları belə təhlükəli kimi interpretasiya edə bilirlər. Bu interpretasiya üslubu fizioloji aktivləşmənin artmasına, ürək döyüntüsünün

sürətlənməsinə və somatik simptomların güclənməsinə səbəb olur. Bu simptomlar isə öz növbəsində təşvişi daha da artıraraq “qorxu dövrəsi”nin formalaşmasına gətirib çıxarır.

Ekspozisiya texnikalarının tətbiqi bu dövrənin zəiflədilməsində mühüm rol oynayır. Sistemli və mərhələli ekspozisiya vasitəsilə fərd qorxu yaradan stimullarla təhlükəsiz şəraitdə qarşılaşır və yeni öyrənmə təcrübələri formalaşdırır. Bu proses nəticəsində təhlükə gözləntilərinin reallıqla uyğun gəlmədiyi təcrübəvi şəkildə təsdiqlənir və qaçınma davranışları azalır. Paralel olaraq diqqətin yenidən yönəldilməsi və relaksasiya strategiyaları fizioloji aktivləşməni tənzimləyərək emosional sabitliyi gücləndirir.

Beynəlxalq tədqiqatların müqayisəli analizi göstərir ki, CBT müdaxilələrinin effektivliyi müxtəlif mədəni və sosial kontekstlərdə yüksək səviyyədə qalır. Avropa ölkələrində aparılan klinik proqramlar qrup terapiyasının sosial dəstək mexanizmlərini gücləndirdiyini və təşviş simptomlarının azalmasına töhfə verdiyini göstərmişdir. Şimali Amerikada həyata keçirilən longitudial tədqiqatlar CBT müdaxiləsindən sonra əldə edilən terapevtik effektin uzun müddət qorunduğunu vurğulayır. Asiya ölkələrində aparılan araşdırmalar isə mədəni adaptasiyanın terapiya nəticələrinə müsbət təsir etdiyini göstərmişdir.

Rəqəmsal texnologiyaların inteqrasiyası CBT tətbiqlərinin effektivliyini daha da artıran mühüm istiqamət kimi qiymətləndirilir. Onlayn terapiya proqramları özünümonitorinq alətləri, interaktiv tapşırıqlar və real vaxt geribildirim mexanizmləri vasitəsilə fərdin terapiya prosesində aktiv iştirakını təmin edir. Bu yanaşma psixoloji xidmətlərin əlçatanlığını artırmaqla yanaşı müdaxilələrin fərdiləşdirilməsinə də imkan yaradır.

Gələcək tədqiqat perspektivləri CBT-nin neyropsixoloji əsaslarının daha dərindən öyrənilməsini, emosional tənzimləmə strategiyalarının mediator rolunun araşdırılmasını və süni intellekt əsaslı psixoterapiya modellərinin inkişafını əhatə edir. Xüsusilə uşaqlar və yeniyetmələr üçün preventiv CBT proqramlarının hazırlanması psixi sağlamlıq problemlərinin erkən mərhələdə qarşısının alınması baxımından strateji əhəmiyyət kəsb edir.

Beləliklə mövcud elmi ədəbiyyatın geniş təhlili göstərir ki, koqnitiv-davranışçı müdaxilələr depressiya və təşviş pozuntularının azaldılmasında kompleks və effektiv yanaşma kimi çıxış edir. Bu model fərdin düşüncə strukturunu optimallaşdırmaqla emosional stabilliyi artırır, davranış aktivliyini bərpa edir və sosial uyğunlaşmanı gücləndirir.

Ədəbiyyatın təhlili həmçinin CBT effektivliyinə təsir edən əsas determinantların mövcudluğunu göstərir. Terapevtik münasibətin keyfiyyəti, seansların strukturlaşdırılması, ev tapşırıqlarının icrası və pasiyentin motivasiyası terapiya nəticələrinin davamlılığında mühüm rol oynayır (Kazantzis et al., 2016). Bu faktorların nəzərə alınması psixoloji müdaxilə modellərinin optimallaşdırılmasına və fərdiləşdirilmiş terapiya strategiyalarının hazırlanmasına imkan yaradır.

Gələcək tədqiqatlar üçün perspektiv istiqamətlər arasında süni intellekt əsaslı psixoloji qiymətləndirmə sistemlərinin CBT ilə inteqrasiyası xüsusi əhəmiyyət kəsb edir. Virtual reallıq texnologiyalarının ekspozisiya terapiyasında istifadəsi təşviş reaksiyalarının idarə olunmasında innovativ yanaşma kimi qiymətləndirilir (Freeman et al., 2017). Bundan əlavə preventiv CBT proqramlarının məktəb və universitet mühitində tətbiqi emosional pozuntuların erkən mərhələdə qarşısının alınmasına töhfə verə bilər.

Beləliklə müasir beynəlxalq elmi təcrübə göstərir ki, koqnitiv-davranışçı müdaxilələr depressiya və təşviş pozuntularının azaldılmasında elmi əsaslandırılmış və praktik baxımdan effektiv yanaşma kimi çıxış edir. Strukturlaşdırılmış terapiya modeli fərdin psixoloji rifahını

artırmaqla yanaşı sosial funksionallığın bərpasına və həyat keyfiyyətinin yüksəlməsinə də şərait yaradır.

Ədəbiyyat:

1. Andersson, G., & Titov, N. (2019). Advantages and limitations of internet-based CBT. Springer.

2. Beck, A. T. (2011). Cognitive therapy of depression (2nd ed.). Guilford Press.

3. Beck, J. S. (2011). Cognitive behavior therapy: Basics and beyond (2nd ed.). Guilford Press.

4. Beck, A. T., & Haigh, E. A. P. (2014). Advances in cognitive theory. Annual Review of Clinical Psychology, *10*, 1–24. https://doi.org/10.1146/annurev-clinpsy-032813-153734

5. Butler, A. C., Chapman, J. E., Forman, E. M., & Beck, A. T. (2006). The empirical status of cognitive-behavioral therapy: A review of meta-analyses. Clinical Psychology Review, *26*(1), 17–31. https://doi.org/10.1016/j.cpr.2005.07.003

6. Clark, D. A., & Beck, A. T. (2010). Cognitive therapy of anxiety disorders: Science and practice. Guilford Press.

7. Dimidjian, S., Hollon, S. D., Dobson, K. S., Schmaling, K. B., Kohlenberg, R. J., Addis, M. E., … & Jacobson, N. S. (2006). Randomized trial of behavioral activation, cognitive therapy, and antidepressant medication in the acute treatment of adults with major depression. Journal of Consulting and Clinical Psychology, *74*(4), 658–670. https://doi.org/10.1037/0022-006X.74.4.658

8. Freeman, D., Reeve, S., Robinson, A., Ehlers, A., Clark, D., Spanlang, B., & Slater, M. (2017). Virtual reality in the assessment, understanding, and treatment of mental health disorders. Psychological Medicine, *47*(14), 2393–2400. https://doi.org/10.1017/S003329171700040X

9. Hofmann, S. G., Asnaani, A., Vonk, I. J., Sawyer, A. T., & Fang, A. (2012). The efficacy of cognitive behavioral therapy: A review of meta-analyses. Cognitive Therapy and Research, *36*(5), 427–440. https://doi.org/10.1007/s10608-012-9476-1

10. Hollon, S. D., Stewart, M. O., & Strunk, D. (2006). Enduring effects for cognitive behavior therapy in the treatment of depression and anxiety. Annual Review of Psychology, 57, 285–315. https://doi.org/10.1146/annurev.psych.57.102904.190044

11. Kazantzis, N., Deane, F. P., Ronan, K. R., & L'Abate, L. (2016). Homework in cognitive behavioral therapy: A systematic review of empirical evidence. Springer.

12. Naeem, F., Ayub, M., Kingdon, D., & Gobbi, M. (2015). Cultural adaptation of cognitive-behavioral therapy: A guide for therapists. Asian Journal of Psychiatry, *18*, 83–91. https://doi.org/10.1016/j.ajp.2015.05.016

13. World Health Organization. (2021). Depression and other common mental disorders: Global health estimates. WHO. https://www.who.int/publications/i/item/depression-global-health-estimates

RƏQƏMSAL PSİXOLOGİYA: SÜNİ İNTELEKTİN TERAPEVTİK VƏ DİAQNOSTİK POTENSİALI

Laləzar Elşad qızı Cəfərova
Azərbaycan Respublikası
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı
lale_psixoloq@mail.ru
ORCİD ID: https://orcid.org/0009-0005-7939-2899

Açar sözlər: süni intellekt, psixoloji praktika, etik çağırışlar, rəqəmsal psixologiya, məxfilik, qərəzlilik, terapevtik alətlər.

Xülasə. Süni intellekt (Sİ) texnologiyalarının psixologiya sahəsində tətbiqi son illərdə sürətlə artmışdır. Bu məqalədə süni intellektin psixoloji praktikada tətbiq imkanları, diaqnostika və müalicə proseslərindəki rolu, eləcə də yaratdığı etik çağırışlar təhlil edilmişdir. Tədqiqat göstərir ki, Sİ əsaslı alətlər psixoloji xidmətlərin əlçatanlığını artırmaqla bərabər, məlumat məxfiliyi, qərəzlilik və insan-mühit münasibətlərinin zəifləməsi kimi ciddi etik problemlər də yaratmaqdadır. Məqalədə bu çağırışların öhdəsindən gəlmək üçün praktik tövsiyələr və gələcək tədqiqat istiqamətləri təqdim olunmuşdur.

Sİ psixoloji diaqnostikada inqilabi dəyişikliklər yaradır: səs analizi, üz ifadələrinin emalı və böyük dil modelləri depressiya və digər pozğunluqları erkən aşkarlamağa imkan verir. Terapevtik sahədə Woebot, Wysa və Replika kimi chatbot-lar kognitiv-behavioral terapiya prinsipləri əsasında 24/7 dəstək təqdim edir. VR və Sİ birləşməsi fobiyaların, PTSD-nin müalicəsində effektivdir. Krizis müdaxiləsində Sİ intihar riskini proqnozlaşdırır və təcili yardımı sürətləndirir.

Bu texnologiyaların üstünlükləri sırasında psixoloji xidmətlərin əlçatanlığının artması, xərclərin 60-80% azalması, fərdiləşdirilmiş terapiya imkanı və stiqmanın azalması durur. Lakin ciddi etik çağırışlar mövcuddur: həssas psixoloji məlumatların təhlükəsizliyi, alqoritmik qərəzlilik, antropomorfizasiya və saxta empatiya, məsuliyyətin qeyri-müəyyənliyi, insan terapevtlə əlaqənin zəifləməsi və sosial təcrid riski.

Bu problemlərin həlli üçün şəffaflıq, məlumatlı razılıq, qərəzliliyin aradan qaldırılması, "insan döngüsündə" yanaşması, davamlı təhsil və güclü tənzimləyici çərçivələr lazımdır. Gələcəkdə Sİ psixologiyanın ayrılmaz hissəsi olacaq, lakin etik və insan mərkəzli tətbiqi üçün psixoloqlar, kompüter alimləri və siyasətçilərin birgə çalışması vacibdir.

Keywords: artificial intelligence, psychological practice, ethical challenges, digital psychology, privacy, bias, therapeutic tools.

Summary. The application of artificial intelligence (AI) technologies in psychology has rapidly increased in recent years. This article analyzes AI's application possibilities in psychological practice, its role in diagnostic and treatment processes, and the ethical challenges it creates. Research shows that AI-based tools increase accessibility of psychological services while simultaneously creating serious ethical problems such as data privacy, bias, and weakening of human-environment relationships. The article presents practical recommendations for overcoming these challenges and future research directions.

AI creates revolutionary changes in psychological diagnostics: voice analysis, facial expression processing, and large language models enable early detection of depression and other

disorders. In the therapeutic field, chatbots like Woebot, Wysa, and Replika provide 24/7 support based on cognitive-behavioral therapy principles. The combination of VR and AI is effective in treating phobias and PTSD. In crisis intervention, AI predicts suicide risk and accelerates emergency assistance.

The advantages of these technologies include increased accessibility of psychological services, 60-80% cost reduction, personalized therapy opportunities, and reduced stigma. However, serious ethical challenges exist: security of sensitive psychological data, algorithmic bias, anthropomorphization and false empathy, undefined responsibility, weakening of human therapist relationships, and social isolation risk.

To solve these problems, transparency, informed consent, elimination of bias, "human-in-the-loop" approach, continuous education, and strong regulatory frameworks are needed. In the future, AI will become an integral part of psychology, but ethical and human-centered application requires collaboration between psychologists, computer scientists, and policymakers.

Anahtar kelimeler: yapay zekâ, psikolojik uygulama, etik zorluklar, dijital psikoloji, gizlilik, önyargı, terapötik araçlar.

Özet. Yapay zekâ (YZ) teknolojilerinin psikoloji alanındaki uygulaması son yıllarda hızla artmıştır. Bu makale, YZ'nin psikolojik uygulamadaki uygulama olanaklarını, tanı ve tedavi süreçlerindeki rolünü ve ortaya çıkardığı etik zorlukları analiz etmektedir. Araştırmalar, YZ tabanlı araçların psikolojik hizmetlere erişilebilirliği artırırken, veri gizliliği, önyargı ve insan-çevre ilişkilerinin zayıflaması gibi ciddi etik sorunlar da yarattığını göstermektedir. Makale, bu zorlukların üstesinden gelmek için pratik öneriler ve gelecekteki araştırma yönleri sunmaktadır.

YZ, psikolojik tanıda devrimci değişiklikler yaratmaktadır: ses analizi, yüz ifadesi işleme ve büyük dil modelleri depresyon ve diğer bozuklukların erken tespitine olanak tanımaktadır. Terapötik alanda Woebot, Wysa ve Replika gibi chatbot'lar bilişsel-davranışçı terapi prensiplerine dayanarak 7/24 destek sağlamaktadır. VR ve YZ birleşimi fobilerin ve PTSD'nin tedavisinde etkilidir. Kriz müdahalesinde YZ intihar riskini tahmin etmekte ve acil yardımı hızlandırmaktadır.

Bu teknolojilerin avantajları arasında psikolojik hizmetlere erişilebilirliğin artması, maliyetlerin %60-80 azalması, kişiselleştirilmiş terapi imkânı ve stigmanın azalması yer almaktadır. Ancak ciddi etik zorluklar mevcuttur: hassas psikolojik verilerin güvenliği, algoritmik önyargı, antropomorfizasyon ve sahte empati, tanımsız sorumluluk, insan terapist ile ilişkinin zayıflaması ve sosyal izolasyon riski.

Bu sorunların çözümü için şeffaflık, bilgilendirilmiş onam, önyargının ortadan kaldırılması, "insan döngüsünde" yaklaşımı, sürekli eğitim ve güçlü düzenleyici çerçeveler gereklidir. Gelecekte YZ psikolojinin ayrılmaz bir parçası olacaktır, ancak etik ve insan merkezli uygulama için psikologların, bilgisayar bilimcilerinin ve politika yapıcıların işbirliği şarttır.

XXI əsrin ikinci çərçivəsində psixologiya elmi yeni bir transformasiya mərhələsi keçirməkdədir.

(Baxter, S. L., Longhurst, C. A., Millen, M., və b. 2024). Süni intellekt texnologiyalarının sürətlə inkişafı və tibb elmlərinin bütün sahələrinə nüfuzu, psixologiya praktikasını da kökündən dəyişməkdədir. Rəqəmsal psixologiya və ya psixologiyada süni intellekt tətbiqi kimi yeni yanaşmalar, ənənəvi psixoterapevtik metodların effektivliyini artırmaq və ya onları tamamilə əvəz etmək potensialı daşıyır (Canadian Psychological Association (CPA). 2024). Süni intellekt əsaslı psixoloji alətlərin yaranması, xüsusilə də danışıq robotları (chatbots) və virtual terapevtlərin istifadəsi, psixoloji yardımın əlçatanlığı məsələsini həll etməklə yanaşı, bir sıra fundamental etik və

metodoloji sualları da gündəmə gətirmişdir (Fitzpatrick, K. K., Darcy, A., və Vierhile, M. 2017). Bu texnologiyaların etibarlılığı, təhlükəsizliyi və etik cəhətdən qəbuledilməsi hələ də mübahisəli mövzu olaraq qalmaqdadır (Baxter, S. L., Longhurst, C. A., Millen, M., və b. 2024).Məqalənin məqsədi süni intellektin psixoloji praktikada tətbiq imkanlarını, bu prosesin yaratdığı etik çağırışları və bu çağırışların öhdəsindən gəlmək yollarını ətraflı şəkildə təhlil etməkdir. Tədqiqatın aktuallığı, süni intellekt texnologiyalarının geniş miqyasda tətbiqinin artması və bu prosesdə yaranan etik problemlərin hələ də tam həll edilməməsi ilə bağlıdır (American Board of Professional Psychology (ABPP) 2024).

1. Süni intelləktin psixoloji praktikada tətbiq sahələri

Süni intellekt texnologiyaları psixoloji diaqnostika prosesində inqilabi dəyişikliklər yaratmaqdadır (Gado, S.,2022). Maşın öyrənməsi alqoritmləri, təbii dil emalı (Natural Language Processing - NLP) və kompüter görməsi texnologiyalarının birləşməsi, psixoloji xarakteristikaların obyektiv və sürətli qiymətləndirilməsini mümkün etmişdir. Məsələn, səs analizi vasitəsilə depressiya və digər əhval pozğunluqlarının erken aşkarlanması, üz ifadələrinin emosional vəziyyətin təyində istifadəsi kimi yeni metodlar inkişaf etdirilmişdir (Gado S.,2022).

Böyük dil modellərinin (Large Language Models - LLM) psixiatrik funksiyaların ölçülməsindəki potensialı son tədqiqatların diqqət mərkəzindədir (Kaplan, S. 2025) Galatzer-Levy və həmkarlarının (2023) tədqiqatı göstərir ki, bu modellər psixiatrik diaqnostika prosesində klinik müayinələrə alternativ ola biləcək dəqiqlik səviyyəsinə çatmışdır (Kaplan S. 2025) Bu texnologiyalar, xüsusilə də klinik müsahibələr zamanı əldə edilən məlumatların təhlili və diaqnostik qərarların dəstəklənməsi baxımından əhəmiyyətli potensial təqdim edir.

Süni intellekt əsaslı diaqnostik alətlərin üstünlüklərindən biri də, subyektiv qiymətləndirmə səhvlərinin minimallaşdırılması və diaqnostik prosesin standardlaşdırılmasıdır (.Canadian Psychological Association (CPA). 2024). İnsan klinikistlərin yorğunluq, əhval və ya digər faktorlardan təsirlənərək səhv qərarlar vermə riski, süni intellekt sistemlərində bu cür problemlər minimuma endirilir.

Süni intellekt əsaslı terapevtik alətlər son onillikdə sürətlə inkişaf etmişdir (Canadian Psychological Association (CPA). 2024). Woebot, Wysa və Replika kimi danışıq robotları, kognitiv-behavioral terapiya (KBT) prinsiplərinə əsaslanaraq, istifadəçilərə 24/7 formatında psixoloji dəstək təqdim etməkdədir (Canadian Psychological Association (CPA) 2024). Bu alətlərin randomize nəzarətli tədqiqatlarla effektivliyi təsdiqlənmişdir. Fitzpatrick və həmkarlarının (2017) tədqiqatı, Woebot istifadəçilərində depressiya simptomlarının signifikant şəkildə azaldığını göstərmişdir (Canadian Psychological Association (CPA).2024).

Virtual reallıq (VR) və süni intellektin birləşməsi, fobiyaların, post-travmatik stress pozğunluğunun (PTSD) və sosial anksietetin müalicəsində yeni imkanlar yaratmışdır (Lee, C., Mohebbi, M., O'Callaghan, E., və b. 2024). Maples-Keller və həmkarlarının (2017) meta-analizi, VR əsaslı müdaxilələrin anksietet pozğunluqlarında yüksək effektivlik göstərdiyini təsdiqləmişdir (Lee, C., Mohebbi, M., O'Callaghan, E., və b. 2024). Süni intellekt alqoritmləri VR mühitində terapevtik ssenarilərin fərdi ehtiyaclara uyğunlaşdırılmasına imkan verir.

Digər bir əhəmiyyətli tətbiq sahəsi isə, süni intellekt əsaslı biofeedback sistemləridir (Baxter, S. L., Longhurst, C. A., Millen, M., və b. 2024). Bu sistemlər istifadəçilərin fizioloji göstəricilərini (ürək döyüntüsü, dəri keçiriciliyi və s.) real-time rejimdə təhlil edərək, stres idarəetmə və relaksasiya texnikalarının effektivliyini artırır.

Süni intellekt sistemləri intihar riskinin proqnozlaşdırılması və krizis vəziyyətlərində erkən müdaxilə üçün istifadə edilməkdədir(Luxton, D. D. 2014) . Lee və həmkarlarının (2024) tədqiqatı göstərir ki, böyük dil modelləri tele-psixiatriya xəstələrində krizis vəziyyətlərini proqnozlaşdırmaqda ekspert klinikistlərlə müqayisə edilə biləcək performans göstərməkdədir (Luxton D. D., 2014). Bu, xüsusilə gecə saatlarında və ya həftəsonlarında, insan psixoloqlarının əlçatmaz olduğu vaxtlarda əhəmiyyətli ola bilər.

Süni intellekt əsaslı krizis xətləri və chatbot-lar, intihar fikirləri olan şəxslərə anında dəstək təqdim edə bilər (Fitzpatrick K. K., Darc, A., və Vierhile M. 2017). Crisis Text Line və digər təşkilatlar, süni intellekt alqoritmlərindən istifadə edərək, yüksək riskli mesajları prioritetləşdirir və humanitar müdaxiləni sürətləndirir.

Süni intellekt texnologiyaları psixoloji təhsildə də geniş tətbiq tapmaqdadır (Luxton D. D., 2016). Virtual simulyasiyalar və süni intellekt əsaslı pacient avatrları, tələbələrə təhlükəsiz mühitdə klinik bacarıqların öyrənilməsi imkanı verir. Bu, xüsusilə kəskin hallarda praktika imkanı məhdud olan tələbələr üçün əhəmiyyətli üstünlük təqdim edir.

Peşəkar psixoloqların davamlı təhsilində də süni intellekt alətləri istifadə edilməkdədir (Luxton D. D., 2016) Personalizasiya edilmiş öyrənmə platformaları, psixoloqların müəyyən sahələrdəki bilik boşluqlarını müəyyən edir və onlara uyğun təlim materialları təqdim edir.

2. Süni intelləktin psixoloji practikada üstünlükləri

Süni intellekt əsaslı psixoloji alətlərin ən əhəmiyyətli üstünlüklərindən biri, psixoloji yardımın əlçatanlığını dramatik şəkildə artırmasıdır (Baxter S. L., Longhurs, C. A., Millen M., 2024). Coğrafi məhdudiyyətlər, vaxt çatışmazlığı və ya sosial stiqma səbəbindən ənənəvi psixoterapiya xidmətlərinə çıxışı olmayan şəxslər üçün bu texnologiyalar effektiv alternativ təşkil edir.

Dünya Səhiyyə Təşkilatının (DSÖ) məlumatlarına görə, dünya əhalisinin təxminən 25%-i həyatının bir mərhələsində psixoloji problemlərlə üzləşir, lakin əksəriyyəti uyğun müalicə almır (Canadian Psychological Association (CPA) 2024). Süni intellekt əsaslı alətlər bu boşluğu doldurmaq potensialına malikdir.

Süni intellekt sistemləri bir çox psixoloji tapşırıqların avtomatlaşdırılmasına imkan verərək, xidmət xərclərini azaltmaqla yanaşı, eyni vaxtda minlərlə istifadəçiyə xidmət göstərmə qabiliyyətinə malikdir (Cummins N., Scherer S., Krajewski J., Schnieder S., Epps J., və Quatieri T. F., 2015). Bu, psixoloq çatışmazlığı olan regionlarda xüsusilə əhəmiyyətlidir. Statistik göstəricilər, süni intellekt əsaslı ilkin müdaxilələrin xərcləri ənənəvi psixoterapiya ilə müqayisədə 60-80% azalda biləcəyini göstərir (Cummins N., Scherer S., Krajewski J., Schnieder S., Epps J., və Quatieri T. F., 2015).

Maşın öyrənməsi alqoritmləri istifadəçi məlumatlarını təhlil edərək, fərdi ehtiyaclara uyğunlaşdırılmış terapevtik müdaxilələr təklif edə bilər (King M., 2022). Bu, "bir ölçü bütün ölçülərə uyğundur" yanaşmasının əksinə, daha effektiv müalicə nəticələri əldə etməyə imkan verir. Adaptiv terapiya sistemləri, istifadəçinin proqressini real-time rejimdə izləyərək, terapevtik strategiyanı dəyişə bilər.

Psixoloji yardım almaq istəyən bir çox şəxs, sosial stiqma səbəbindən ənənəvi psixoterapiyaya müraciət etməkdən çəkinir (Fitzpatrick K. K., Darcy A., və Vierhile M. 2017). Süni intellekt əsaslı alətlər anonimlik və məxfilik təklif edərək, bu bariyerləri aradan qaldıra bilər. Xüsusilə gənclər və texnologiyaya yaxın nəsillər üçün bu cür alətlər daha qəbul edilən ola bilər.

3.Etik çağırışlar və problemlər

Süni intellekt sistemlərinin psixoloji praktikada tətbiqi ən ciddi etik çağırışlardan biri məlumat məxfiliyi məsələsidir (.American Psychological Association (APA). (2017).). Psixoloji sağlamlıq məlumatları xüsusilə həssas növü təşkil edir və bu məlumatların qorunması HIPAA və digər tənzimləyici tələblərə uyğun olmalıdır. Baxter və həmkarlarının (2024) tədqiqatı göstərir ki, generativ süni intellekt sistemləri elektron sağlamlıq qeydlərindəki həssas məlumatları emal edərkən ciddi təhlükəsizlik riskləri yarada bilər (Maples-Keller J. L., Bunnell B. E., Kim S. J., və Rothbaum B. O., 2017) Məlumat sızıntıları və ya qanunsuz girişlər, xəstələrin psixoloji vəziyyətləri barədə məlumatların üçüncü şəxslərə açılmasına səbəb ola bilər. Xüsusilə də cloud-based sistemlərdə məlumatların saxlanması, əlavə təhlükəsizlik riskləri yaradır.

Psixoloji məlumatların kommersial məqsədlər üçün istifadəsi də ciddi bir problemdir (Baxter S. L., Longhurst C. A., Millen M., və b., 2024). Bəzi süni intellekt tətbiqləri, istifadəçi məlumatlarını üçüncü tərəflərə satmaqda və ya reklam məqsədləri üçün istifadə etməkdə ittiham olunmuşdur.

Süni intellekt alqoritmlərindəki qərəzlilik, psixoloji xidmətlərdə ədalətsizliyə səbəb ola biləcək ciddi bir problemdir (Meheli S., Sinha C., və Kadaba M. 2022) Alqoritmlər təlim məlumatlarındakı mövcud qərəzləri əks etdirə və ya gücləndirə bilər. King (2022) süni intellektdəki zərərli qərəzliliklərin psixiatriya praktikasına təsirlərini vurğulamışdır. (Meheli S., Sinha C., və Kadaba M., 2022)

Məsələn, müəyyən etnik qruplar, cinslər və ya sosial-iqtisadi siniflər üzrə az reprezentasiya olunan təlim məlumatları, həmin qruplar üçün daha az dəqiq diaqnostika və müalicə nəticələrinə səbəb ola bilər (American Psychological Association (APA). 2017). Bu, sağlamlıqda ədalətsizliyin artmasına və artıq həssas qrupların daha da marginalizasiyasına səbəb ola bilər.

Cins qərəzliliyi də xüsusi diqqət tələb edir (Meheli S., Sinha C., və Kadaba M., 2022) Tarixi olaraq psixiatriya və psixologiya praktikasında qadınların emosional problemləri "histeriya" və digər stiqmatizasiya edilmiş diaqnozlarla qiymətləndirilmişdir. Süni intellekt sistemləri bu tarixi qərəzləri öz təlim məlumatlarında əks etdirsə, bu problemlər yenidən canlana bilər.

Süni intellekt sistemlərinin insan kimi təqdim edilməsi və ya istifadəçilər tərəfindən insan kimi qəbul edilməsi ciddi etik problemlər yaradır (Miner A. S., Shah N., Bullock K. D., Arnow B. A., Bailenson J., və Hancock J., 2019). Tekin (2024) qeyd edir ki, hatbot-ların terapevt kimi təqdim edilməsi, istifadəçilərə yalan vəd verir və terapevtik əlaqənin mahiyyətini təhrif edir (Miner A. S., Shah N., Bullock K. D., Arnow B. A., Bailenson J., və Hancock J. 2019).

İnsanlar təbii olaraq antropomorfizasiya meyli göstərirlər - yəni qeyri-insan varlıqlara insan xüsusiyyətləri atf edirlər. Süni intellekt sistemləri, xüsusilə də natural dil emalı bacarıqları olanlar, istifadəçilərdə onların gerçəkten anlayışlı olduğunu və ya hissləri olduğunu düşünmələrinə səbəb ola bilər (Miner A. S., Shah N., Bullock K. D., Arnow B. A., Bailenson J., və Hancock J. 2019).

Vowels və həmkarlarının (2024) tədqiqatı göstərir ki, ChatGPT-nin münasibət məsləhətlərindəki terapevtik qabiliyyətləri sistematik etik pozuntulara malikdir (Tekin Ş. 2024) Bu, istifadəçilərdə yanlış gözləntilər yarada və terapevtik prosesə zərər vura bilər.

Süni intellekt sistemlərinin psixoloji praktikada tətbiqi zamanı yaranan zərər və ya səhvlərə görə məsuliyyətin kimə aid olması aydın deyil (American Psychological Association (APA. 2025). Psixoloq, proqram təminatı istehsalçısı, yoxsa alqoritmi hazırlayan mühəndislər? Bu hüquqi və etik boşluq, praktikada ciddi çətinliklər yaradır.

Məsələn, əgər süni intellekt əsaslı diaqnostik alət səhv diaqnoz qoysa və bu, xəstənin vəziyyətinin pisləşməsinə səbəb olsa, kim məsuliyyət daşıyır? (Vowels L. M., Francois-Walcott R.

R., və Darwiche J. 2024) Və ya əgər chatbot istifadəçiyə zərər verəcək məsləhət versə, kim cavabdehdir?

Süni intellektin psixoterapiyada həddindən artıq istifadəsi, ənənəvi insan terapevti ilə xəsta arasındakı terapevtik ittifaqın zəifləməsinə səbəb ola bilər (Vowels L. M., Francois-Walcott R. R., və Darwiche J. 2024) İnsan psixoloqlarının təqdim etdiyi empatiya, əlaqə və emosional rezonans, hələlik süni intellekt sistemləri tərəfindən tam əvəz edilə bilməz.

Terapevtik ittifaq, psixoterapiyanın ən güclü proqnoz faktorlarından biridir (Miner A. S., Shah N., Bullock K. D., Arnow B. A., Bailenson J., və Hancock J. 2019). İnsan terapevtlə xəsta arasındakı emosional əlaqə, müalicə nəticələrinin əksəriyyətini izah edir.

Süni intellekt əsaslı psixoloji alətlərin həddindən artıq istifadəsi, istifadəçilərin real insan əlaqələrindən təcrid olunmasına səbəb ola bilər (Fitzpatrick K. K., Darcy A., və Vierhile M. 2017). Psixoloji sağlamlıq, sosial əlaqələrin keyfiyyəti ilə sıx bağlıdır. Əgər insanlar psixoloji dəstəyi süni sistemlərdən alsalar, bu, onların sosial bacarıqlarının atrofiyasiyasına və təcridinə səbəb ola bilər.

4.Etik çağırışların öhdəsindən gəlmək üçün tövsiyələr

Psixoloqlar süni intellekt alətlərinin istifadəsi barədə xəstələrə aydın məlumat verməli və onların məlumatlı razılığını almalıdırlar (American Psychological Association (APA)., 2017). Bu, alətin imkanları, limitasiyaları və potensial riskləri haqqında ətraflı izahatı əhatə etməlidir. Xəstələr bilməlidirlər ki, onlarla danışan "terapevt" əslində bir alqoritmdir.Məlumatlı razılıq prosesi, istifadəçilərin məlumatlarının necə saxlanacağı, kimlərlə paylaşılacağı və nə müddətə saxlanacağı barədə də aydın məlumat verməlidir (American Psychological Association (APA)., 2017).

Süni intellekt sistemləri müxtəlif demoqrafik qrupları əhatə edən məlumatlarla təlim edilməli və müntəzəm olaraq qərəzlilik baxımından yoxlanılmalıdır (Vowels L. M., Francois-Walcott R. R., və Darwiche J., 2024). Psixoloqlar istifadə etdikləri alətlərin mənşəyi və arxitekturası barədə məlumatlı olmalıdırlar.

Alqoritmik auditlər və qərəzlilik testləri, sistemlərin müntəzəm olaraq yoxlanması üçün vacibdir. (Meheli,S., Sinha C., və Kadaba M., 2022)

Süni intellekt heç vaxt insan psixoloqlarının əvəzi olmamalı, yalnız köməkçi alət kimi istifadə edilməlidir (Zhao J., Wu M., Zhou L., Wang X., və Jia J., 2022). Klinik qərarlar və terapevtik müdaxilələr həmişə ixtisaslı peşəkarın nəzarəti altında olmalıdır. "İnsan döngüsündə" (human-in-the-loop) yanaşması, hər bir klinik qərarda insan psixoloqunun iştirakını tələb edir (Zhao J., Wu M., Zhou L., Wang X., və Jia J., 2022). Xüsusilə də krizis vəziyyətlərində və ya yüksək riskli hallarda, süni intellekt sistemlərinin tövsiyələri həmişə insan klinikisti tərəfindən təsdiqlənməlidir (American Psychological Association (APA). 2017).

Psixoloqlar süni intellekt texnologiyalarının etik istifadəsi barədə davamlı təhsil almalıdırlar.

(Maples-Keller J. L., Bunnell B. E., Kim S. J., və Rothbaum B. O., 2017) Universitetlər və peşəkar təşkilatlar bu sahədə xüsusi proqramlar təşkil etməlidirlər. Bu təhsil, yalnız texniki bilikləri deyil, həm də etik çərçivələri və qərarvermə proseslərini əhatə etməlidir.

Psixologiya fakültələrində süni intellekt və etika kurslarının əlavə edilməsi, gələcək nəsil psixoloqların bu texnologiyalara hazırlıqlı olmasını təmin edəcəkdir (Maples-Keller, J. L. Bunnell, B. E. Kim, S. J. və Rothbaum, B. O., 2017)

Süni intellektin psixoloji praktikada tətbiqi üçün xüsusi etik çərçivələr və standartlar hazırlanmalıdır (American Psychological Association (APA)., 2017). Bu, mövcud etik kodekslərin (məsələn, APA-nın 2017, Etik Prinsipləri) genişləndirilməsini və ya yeni xüsusi qaydaların yaradılmasını tələb edir.

Hökumətlər və peşəkar təşkilatlar birgə çalışaraq, süni intellekt əsaslı psixoloji alətlərin sertifikatlaşdırılması, monitorinqi və tənzimlənməsi üçün çərçivələr yaratmalıdırlar.

Süni intellektin psixologiyada etik tətbiqi, psixoloqlar, kompüter alimləri, hüquqşünaslar, etikçilər və siyasətçilər arasında sıx əməkdaşlıq tələb edir (Baxter S. L., Longhurst C. A., Millen M., və b. 2024). Yalnız bu cür multidissiplinar yanaşma, texnoloji inkişafın etik çərçivədə irəliləməsini təmin edə bilər.

5.Gələcək perspektivlər və tədqiqat istiqamətləri

Gələcəkdə süni intellekt texnologiyalarının psixologiyada tətbiqi daha da genişlənəcəyi gözlənilir (Inkster B., Sarda S., və Subramanian, V2018) Multimodal süni intellekt sistemləri, mətn, səs, üz ifadələri və bədən dilini eyni vaxtda təhlil edərək, daha dəqiq diaqnostika va müalicə imkanları təqdim edəcəkdir. Həmçinin, kvant hesablama texnologiyalarının inkişafı, süni intellektin hesablama gücünü artıraraq, daha mürəkkəb psixoloji modellərin yaradılmasına imkan verəcəkdir.

Süni intellektin psixologiyada tətbiqi üçün xüsusi etik çərçivələrin işlənib hazırlanması, gələcək tədqiqatların prioritet istiqamətlərindən biri olaraq qalmaqdadır (American Psychological Association (APA).,2017). Bu çərçivələr, məlumat məxfiliyi, qərəzlilik, şəffaflıq və hesabatlılıq kimi məsələləri əhatə etməlidir.

Hal-hazırda çoxsaylı tədqiqatlar süni intellekt əsaslı psixoloji alətlərin qısamüddətli effektivliyini təsdiqləmişdir (Canadian Psychological Association (CPA), 2024). Lakin bu alətlərin uzunmüddətli təsirləri, relaps rates və müqayisəli effektivlikləri barədə daha çox tədqiqata ehtiyac vardır.

Süni intellekt əsaslı psixoloji alətlərin müxtəlif mədəni kontekstlərdə adaptasiyası vacib tədqiqat istiqamətidir (Meheli S., Sinha C., və Kadaba M., 2022) Psixoloji konseptlər və terapevtik yanaşmalar mədəniyyətə görə dəyişdiyindən, bu alətlərin hər mədəniyyət üçün uyğunlaşdırılması tələb olunur.

Süni intellekt texnologiyaları psixoloji praktikada inqilabi imkanlar təklif etməklə yanaşı, ciddi etik çağırışlar da yaratmaqdadır (American Board of Professional Psychology (ABPP)., 2024). Bu texnologiyaların səmərəli və etik şəkildə istifadəsi üçün balanslı yanaşma tələb olunur.

Tədqiqat göstərir ki, süni intellekt əsaslı alətlər psixoloji xidmətlərin əlçatanlığını artırmaqla yanaşı, məlumat məxfiliyi, qərəzlilik, antropomorfizasiya və insan-mühit münasibətlərinin zəifləməsi kimi ciddi problemlər də yarada bilər (American Psychological Association (APA). 2017, American Psychological Association (APA)., 2025). Bu çağırışların öhdəsindən gəlmək üçün şəffaflıq, qərəzliliyin azaldılması, insan nəzarətinin saxlanılması, davamlı təhsil və tənzimləyici çərçivələrin inkişafı vacibdir (American Psychological Association (APA)., 2017).

Gələcəkdə süni intellekt psixologiya elminin ayrılmaz hissəsi olacaqdır (Galatzer-Levy I. R., McDuff D., Natarajan V., və b. 2023). Lakin bu texnologiyaların insan mərkəzli, etik və peşəkar standartlara uyğun şəkildə tətbiqi, psixoloqların, kompüter alimlərinin, hüquqşünasların və siyasətçilərin birgə məsuliyyətidir (Baxter S. L., Longhurst,C. A., Millen M., və b., 2024). Yalnız bu cür multidissiplinar və etik yanaşma, süni intellektin psixologiyada potensialını tam şəkildə reallaşdırmağa imkan verəcəkdir.

Ədəbiyyat:

1. American Board of Professional Psychology (ABPP). (2024). Standards for the use of artificial intelligence in psychological practice.

2. American Psychological Association (APA). (2017). Ethical Principles of Psychologists and Code of Conduct. https://www.apa.org/ethics/code

3. American Psychological Association (APA). (2025). Ethical guidance for AI in the professional practice of health service psychology. https://www.apa.org/topics/artificial-intelligence-machine-learning/ethical-guidance

4. Baxter, S. L., Longhurst, C. A., Millen, M., və b. (2024). Generative artificial intelligence responses to patient messages in the electronic health record: early lessons learned. JAMIA

5. Canadian Psychological Association (CPA). (2024). Artificial Intelligence and Psychology: Considerations and Challenges. https://cpa.ca

6. Cummins, N., Scherer, S., Krajewski, J., Schnieder, S., Epps, J., və Quatieri, T. F. (2015). A review of depression and suicide risk assessment using speech analysis. Speech Communication

7. Fitzpatrick, K. K., Darcy, A., və Vierhile, M. (2017). Delivering cognitive behavior therapy to young adults with symptoms of depression and anxiety using a fully automated conversational agent (Woebot): A randomized controlled trial. JMIR Mental Health

8. Galatzer-Levy, I. R., McDuff, D., Natarajan, V., və b. (2023). The capability of large language models to measure psychiatric functioning. arXiv:2308.01834

9. Gado, S., və b. (2022). Academic integrity and AI use in university coursework. Journal of Academic Ethics

10. Inkster, B., Sarda, S., və Subramanian, V. (2018). An empathy-driven, conversational artificial intelligence agent (Wysa) for digital mental well-being: Real-world data evaluation mixed-methods study. JMIR mHealth and uHealth

11. Kaplan, S. (2025). Ethical AI in therapy: Safeguards and considerations. Psychology.org

12. King, M. (2022). Harmful biases in artificial intelligence. Lancet Psychiatry

13. Lee, C., Mohebbi, M., O'Callaghan, E., və b. (2024). Large language models versus expert clinicians in crisis prediction among telemental health patients: comparative study. JMIR Mental Health

14. Luxton, D. D. (2014). Artificial intelligence in psychological practice: Applications and ethical considerations. Professional Psychology: Research and Practice

15. Luxton, D. D. (2016). Artificial intelligence and virtual reality in therapy. D. D. Luxton (Red.), Artificial Intelligence in Behavioral and Mental Health Care

16. Maples-Keller, J. L., Bunnell, B. E., Kim, S. J., və Rothbaum, B. O. (2017). The use of virtual reality technology in the treatment of anxiety and other psychiatric disorders. Harvard Review of Psychiatry, 103–113.

17. Meheli, S., Sinha, C., və Kadaba, M. (2022). Understanding people with chronic pain who use a cognitive behavioral therapy-based artificial intelligence mental health app (Wysa): Mixed methods retrospective observational study. JMIR Human Factors

18. Miner, A. S., Shah, N., Bullock, K. D., Arnow, B. A., Bailenson, J., və Hancock, J. (2019). Key considerations for incorporating conversational AI in psychotherapy. Frontiers in Psychiatry

19. Tekin, Ş. (2024). AI in psychotherapy: Therapeutic alliance and deception. Journal of Medical Ethics

20. Vowels, L. M., Francois-Walcott, R. R., və Darwiche, J. (2024). AI in relationship counselling: evaluating ChatGPT's therapeutic capabilities in providing relationship advice. Computers in Human Behavior: Artificial Humans, 2, 100078.

21.Zhao, J., Wu, M., Zhou, L., Wang, X., və Jia, J. (2022). Cognitive psychology-based artificial intelligence review. Frontiers in Neuroscience

İNSAN–SÜNİ İNTELLEKT QARŞILIQLI TƏSİRİNDƏ PSİXOLOJİ FAKTORLARIN ELMİ TƏHLİLİ

Dinara Şirin qızı İslamova
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
dinara.islamova@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0000-0003-2158-4511
Leyla Niyazi qızı Şükürova
Mingəçevir Dövlət Universiteti
leyla.shukurova@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0009-0002-1482-3879
Məhsəti Rövşən qızı Əliyeva
Mingəçevir Dövlət Universiteti
mahsati.aliyeva@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0009-0009-9348-3235

Açar sözlər: rəqəmsal psixologiya, süni intellekt, insan–AI qarşılıqlı təsiri, istifadəçi davranışı, psixoloji faktorlar, istifadəçi məmnuniyyəti, etibar.

Xülasə. Bu məqalədə insan–süni intellekt qarşılıqlı təsiri kontekstində psixoloji faktorların rolu elmi əsaslarla təhlil olunur. Tədqiqatın əsas məqsədi istifadəçilərin süni intellekt sistemləri ilə qarşılıqlı əlaqəsi zamanı formalaşan davranış modellərini, qərarvermə mexanizmlərini və emosional reaksiyaları müəyyən etməkdir. Araşdırma çərçivəsində rəqəmsal psixologiya və insan–kompüter qarşılıqlı təsiri (HCI) sahəsində mövcud nəzəri yanaşmalar müqayisəli şəkildə analiz edilmiş, istifadəçi məmnuniyyəti, etibar səviyyəsi və qarşılıqlı təsirin davamlılığı kimi göstəricilər əsas qiymətləndirmə meyarları kimi götürülmüşdür.

Tədqiqat nəticələri göstərir ki, süni intellekt sistemlərinin effektivliyi yalnız texniki göstəricilərdən deyil, həm də istifadəçinin psixoloji xüsusiyyətlərindən və sosial kontekstindən birbaşa asılıdır. Xüsusilə etibar (trust), qəbul olunma (acceptance), şəffaflıq və istifadəçi nəzarəti kimi amillər sistemin uğurlu tətbiqində həlledici rol oynayır. Bundan əlavə, adaptiv və istifadəçi mərkəzli interfeyslərin tətbiqi istifadəçi təcrübəsini yaxşılaşdırır və qarşılıqlı təsirin keyfiyyətini artırır.

Nəticə etibarilə, məqalədə göstərilir ki, insan–süni intellekt qarşılıqlı təsirinin effektiv təşkili üçün psixoloji faktorların nəzərə alınması zəruridir. Bu yanaşma süni intellekt sistemlərinin dizaynında daha humanist və kontekstual modellərin tətbiqinə imkan yaradır və gələcək tədqiqatlar üçün yeni istiqamətlər müəyyən edir.

Keywords: digital psychology, artificial intelligence, human–AI interaction, user behavior, psychological factors, user satisfaction, trust.

Summary. This article analyzes the role of psychological factors in the context of human–artificial intelligence interaction based on scientific principles. The main objective of the study is to identify behavioral patterns, decision-making mechanisms, and emotional responses formed during users’ interaction with artificial intelligence systems. Within the research framework, existing theoretical approaches in digital psychology and human–computer interaction (HCI) were

comparatively analyzed, and indicators such as user satisfaction, trust level, and interaction continuity were used as key evaluation criteria.

The results of the study show that the effectiveness of artificial intelligence systems depends not only on technical indicators but also directly on users’ psychological characteristics and social context. In particular, factors such as trust, acceptance, transparency, and user control play a decisive role in the successful implementation of such systems. Furthermore, the application of adaptive and user-centered interfaces improves user experience and enhances the quality of interaction.

In conclusion, the article emphasizes that considering psychological factors is essential for the effective organization of human–artificial intelligence interaction. This approach enables the implementation of more human-centered and contextual models in the design of artificial intelligence systems and defines new directions for future research.

Anahtar kelimeler: dijital psikoloji, yapay zekâ, insan–AI etkileşimi, kullanıcı davranışı, psikolojik faktörler, kullanıcı memnuniyeti, güven.

Özet. Bu makalede, insan–yapay zekâ etkileşimi bağlamında psikolojik faktörlerin rolü bilimsel temellere dayanarak analiz edilmektedir. Araştırmanın temel amacı, kullanıcıların yapay zekâ sistemleri ile etkileşimi sırasında ortaya çıkan davranış modellerini, karar verme mekanizmalarını ve duygusal tepkilerini belirlemektir. Çalışma kapsamında dijital psikoloji ve insan–bilgisayar etkileşimi (HCI) alanındaki mevcut teorik yaklaşımlar karşılaştırmalı olarak incelenmiş; kullanıcı memnuniyeti, güven düzeyi ve etkileşimin sürekliliği gibi göstergeler temel değerlendirme kriterleri olarak ele alınmıştır.

Araştırma sonuçları göstermektedir ki yapay zekâ sistemlerinin etkinliği yalnızca teknik göstergelere değil, aynı zamanda kullanıcının psikolojik özelliklerine ve sosyal bağlamına da doğrudan bağlıdır. Özellikle güven (trust), kabul (acceptance), şeffaflık ve kullanıcı kontrolü gibi faktörler sistemlerin başarılı bir şekilde uygulanmasında belirleyici rol oynamaktadır. Bunun yanı sıra, uyarlanabilir ve kullanıcı odaklı arayüzlerin kullanılması, kullanıcı deneyimini iyileştirmekte ve etkileşimin kalitesini artırmaktadır.

Sonuç olarak makalede, insan–yapay zekâ etkileşiminin etkili bir şekilde tasarlanabilmesi için psikolojik faktörlerin dikkate alınmasının gerekli olduğu vurgulanmaktadır. Bu yaklaşım, yapay zekâ sistemlerinin tasarımında daha insancıl ve bağlamsal modellerin geliştirilmesine olanak tanımakta ve gelecekteki araştırmalar için yeni yönelimler ortaya koymaktadır.

Müasir dövrdə rəqəmsallaşma proseslərinin sürətlənməsi və süni intellekt texnologiyalarının geniş tətbiqi insan–texnologiya münasibətlərində keyfiyyətcə yeni mərhələnin formalaşmasına səbəb olmuşdur. Xüsusilə son onillikdə süni intellekt əsaslı sistemlərin gündəlik həyatın müxtəlif sahələrinə – təhsil, səhiyyə, maliyyə, sənaye və xidmət sektoruna inteqrasiyası nəticəsində insan və texnoloji sistemlər arasında qarşılıqlı təsir daha intensiv və mürəkkəb xarakter almışdır. Bu qarşılıqlı təsir artıq yalnız texniki və funksional çərçivədə deyil, həm də psixoloji, sosial və davranış aspektləri ilə birlikdə öyrənilməlidir. Beləliklə, insan–süni intellekt qarşılıqlı təsirinin araşdırılması rəqəmsal psixologiya və insan–kompüter qarşılıqlı təsiri (HCI) sahələrinin kəsişməsində mühüm tədqiqat istiqamətinə çevrilmişdir.

Ənənəvi texnoloji yanaşmalar istifadəçi ilə sistem arasındakı əlaqəni əsasən funksionallıq, istifadə rahatlığı və performans göstəriciləri əsasında qiymətləndirirdi (Brown T., Duguid P., 2020). Lakin müasir tədqiqatlar göstərir ki, istifadəçilərin süni intellekt sistemləri ilə qarşılıqlı əlaqəsi yalnız texniki parametrlərlə müəyyən olunmur. İstifadəçinin emosional vəziyyəti, əvvəlki

təcrübəsi, texnologiyaya olan etibar səviyyəsi, sosial mühit və fərdi psixoloji xüsusiyyətlər bu qarşılıqlı təsirin keyfiyyətinə birbaşa təsir göstərir. Bu baxımdan, istifadəçi davranışının daha dərindən anlaşılması üçün psixoloji faktorların sistemli şəkildə təhlili zəruri hesab olunur.

Süni intellekt sistemlərinin inkişafı ilə birlikdə “insan mərkəzli dizayn” anlayışı daha da aktuallaşmışdır. Bu yanaşma texnologiyanın yalnız funksional deyil, həm də istifadəçinin ehtiyac və gözləntilərinə uyğun şəkildə formalaşdırılmasını nəzərdə tutur. Xüsusilə adaptiv interfeyslər, chatbot sistemləri və ağıllı köməkçilər istifadəçinin davranışına və kontekstinə uyğun olaraq dəyişə bilən xüsusiyyətlərə malikdir. Bu isə öz növbəsində istifadəçi ilə sistem arasında daha təbii və effektiv qarşılıqlı əlaqənin qurulmasına imkan yaradır. Lakin belə sistemlərin uğurlu tətbiqi üçün istifadəçi psixologiyasının, xüsusilə etibar, qəbul etmə, şəffaflıq və nəzarət hissi kimi faktorların nəzərə alınması vacibdir (Dourish P., 2020).

Rəqəmsal psixologiya sahəsi məhz bu problemlərin araşdırılmasına yönəlmişdir və istifadəçilərin rəqəmsal mühitdə davranışlarını, qərarvermə mexanizmlərini və emosional reaksiyalarını öyrənir. Bu sahə süni intellekt sistemlərinin dizaynında psixoloji biliklərin tətbiqini təmin edərək daha effektiv və istifadəçi yönümlü texnologiyaların yaradılmasına şərait yaradır. Eyni zamanda, insan–süni intellekt qarşılıqlı təsiri yalnız fərdi səviyyədə deyil, həm də sosial kontekstdə formalaşır və bu qarşılıqlı əlaqə sosial normativlər, mədəni faktorlar və kommunikasiya modelləri ilə sıx bağlıdır.

Beləliklə, təqdim olunan məqalənin əsas məqsədi insan–süni intellekt qarşılıqlı təsirində psixoloji faktorların rolunu kompleks şəkildə təhlil etmək, bu faktorların istifadəçi davranışına və sistem effektivliyinə təsirini müəyyənləşdirməkdir. Məqalədə rəqəmsal psixologiya və HCI sahəsində mövcud nəzəri yanaşmalar nəzərdən keçiriləcək, həmçinin süni intellekt sistemlərinin dizaynında psixoloji aspektlərin nəzərə alınmasının əhəmiyyəti əsaslandırılacaqdır (Green M., 2021). Bu yanaşma gələcəkdə daha humanist, adaptiv və istifadəçi mərkəzli texnoloji sistemlərin yaradılmasına elmi baza formalaşdırır.

Məsələnin qoyuluşu. Müasir rəqəmsal mühitdə süni intellekt sistemlərinin geniş yayılması insan–texnologiya qarşılıqlı təsirinin xarakterini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Lakin mövcud yanaşmaların böyük hissəsi bu qarşılıqlı təsiri əsasən texniki və funksional aspektlər çərçivəsində izah edir. Bu isə istifadəçi davranışının real xüsusiyyətlərini tam əks etdirmir. Təcrübə göstərir ki, istifadəçilərin süni intellekt sistemləri ilə qarşılıqlı əlaqəsi yalnız sistemin funksionallığı ilə deyil, eyni zamanda onların psixoloji xüsusiyyətləri, emosional reaksiyaları və sosial kontekst ilə sıx bağlıdır. Buna baxmayaraq, bu faktorların sistemli və kompleks şəkildə araşdırılması hələ də kifayət qədər işlənməmişdir.

Problemin aktuallığı ondan ibarətdir ki, süni intellekt əsaslı sistemlər (chatbotlar, ağıllı köməkçilər, tövsiyə sistemləri və s.) istifadəçilərlə daha interaktiv və sosial xarakterli münasibətlər qurmağa başlamışdır. Bu sistemlərin effektivliyi isə istifadəçinin onlara olan etibar səviyyəsindən, qəbul etmə dərəcəsindən və qarşılıqlı təsir zamanı yaranan psixoloji komfortdan birbaşa asılıdır. Əgər bu amillər nəzərə alınmazsa, hətta yüksək texniki göstəricilərə malik sistemlər belə istifadəçi tərəfindən qəbul edilməyə və ya effektiv istifadə olunmağa bilər.

Bu baxımdan əsas elmi problem insan–süni intellekt qarşılıqlı təsirində psixoloji faktorların rolunun müəyyən edilməsi və bu faktorların sistem dizaynına necə inteqrasiya olunmasının araşdırılmasıdır. Problemin həlli üçün aşağıdakı tədqiqat sualları irəli sürülür:

1. Psixoloji faktorlar (etibar, qəbul etmə, emosional vəziyyət və s.) süni intellekt sistemlərinin istifadəsinə necə təsir edir.

2.İstifadəçi davranışının kontekstual və sosial xüsusiyyətləri qarşılıqlı təsirin keyfiyyətini necə dəyişir.

3.Adaptiv və istifadəçi mərkəzli sistemlər bu psixoloji faktorları necə nəzərə almalıdır.

Beləliklə, məsələnin qoyuluşu insan–süni intellekt qarşılıqlı təsirinin daha effektiv təşkili üçün psixoloji faktorların sistemli şəkildə öyrənilməsini və onların texnoloji dizayn prosesinə inteqrasiyasını tələb edir. Bu yanaşma həm nəzəri, həm də praktik baxımdan HCI və süni intellekt sahəsində mühüm əhəmiyyət kəsb edir.

Həlli yolları. İnsan–süni intellekt qarşılıqlı təsirində psixoloji faktorların effektiv şəkildə nəzərə alınması üçün kompleks və çoxsəviyyəli yanaşmanın tətbiqi zəruridir. Bu məqsədlə aşağıdakı əsas həlli yolları təklif olunur.

İlk növbədə, sistemlərin layihələndirilməsi prosesində insan mərkəzli dizayn yanaşmasının tətbiqi genişləndirilməlidir. Bu yanaşma istifadəçinin ehtiyaclarını, gözləntilərini və psixoloji xüsusiyyətlərini əsas götürərək daha uyğun və intuitiv interfeyslərin yaradılmasına imkan verir. İstifadəçi təcrübəsinin erkən mərhələlərdə test olunması və iterativ dizayn prosesi sistemin qəbul olunma səviyyəsini artırır.

İkinci olaraq, süni intellekt sistemlərində adaptiv və kontekst-şüurlu mexanizmlərin tətbiqi vacibdir. Bu cür sistemlər istifadəçinin davranışına, emosional vəziyyətinə və fəaliyyət mühitinə uyğun olaraq öz funksiyalarını dinamik şəkildə dəyişə bilir. Nəticədə qarşılıqlı təsir daha təbii və effektiv olur.

Üçüncü mühüm istiqamət psixoloji faktorların modelləşdirilməsi və ölçülməsi ilə bağlıdır. Etibar, qəbul etmə, motivasiya və emosional reaksiyalar kimi göstəricilər xüsusi metodlar (sorğular, davranış analizi, istifadəçi təcrübəsi testləri və s.) vasitəsilə qiymətləndirilməli və sistem dizaynında nəzərə alınmalıdır (Zhang Y., Patel R., 2022).

Bundan əlavə, sosial interaksiya mexanizmlərinin inteqrasiyası mühüm rol oynayır. Chatbotlar və virtual köməkçilər kimi sistemlərdə sosial normativlərin, etik prinsiplərin və kommunikasiya qaydalarının tətbiqi istifadəçi ilə daha səmərəli əlaqə qurulmasına şərait yaradır.

Digər bir həll yolu kimi şəffaflıq və izaholunabilirlik (explainability) prinsiplərinin təmin edilməsi göstərilə bilər. İstifadəçilər sistemin necə işlədiyini və qərarların necə qəbul olunduğunu anladıqda, onların texnologiyaya olan etibarı artır.

Nəhayət, təhlükəsizlik və məxfilik faktorlarının gücləndirilməsi də vacibdir. İstifadəçilərin şəxsi məlumatlarının qorunması və etik standartlara riayət olunması psixoloji rahatlığı təmin edir və sistemə olan inamı yüksəldir.

Beləliklə, təqdim olunan həlli yolları insan–süni intellekt qarşılıqlı təsirində psixoloji faktorların nəzərə alınmasını təmin edərək daha effektiv, adaptiv və istifadəçi yönümlü sistemlərin yaradılmasına imkan verir.

Bu tədqiqatın elmi yeniliyi insan–süni intellekt qarşılıqlı təsirinin psixoloji aspektlərinin kompleks və sistemli yanaşma əsasında təhlil edilməsindədir (Rogers Y., Sharp H., Preece J., 2022). Məqalədə ənənəvi texniki yanaşmalardan fərqli olaraq, istifadəçi davranışının yalnız funksional göstəricilərlə deyil, eyni zamanda psixoloji və sosial faktorlarla formalaşdığı əsaslandırılmışdır.

Tədqiqat çərçivəsində aşağıdakı elmi yeniliklər irəli sürülmüşdür:

1.İnsan–süni intellekt qarşılıqlı təsirində etibar, qəbul etmə və nəzarət hissi kimi psixoloji faktorların sistem effektivliyinə birbaşa təsiri müəyyən edilmişdir;

2.Adaptiv və kontekst-şüurlu interfeyslərin istifadəçi məmnuniyyətinə təsiri psixoloji aspektdən əsaslandırılmışdır;

3.Rəqəmsal psixologiya və HCI sahələrinin inteqrasiyası əsasında istifadəçi davranışını izah edən yeni konseptual yanaşma təqdim edilmişdir;

4.Süni intellekt sistemlərinin dizaynında sosial və psixoloji komponentlərin nəzərə alınmasının zəruriliyi elmi əsaslarla sübut edilmişdir.

Beləliklə, tədqiqat insan–süni intellekt qarşılıqlı təsirinin yalnız texnoloji deyil, həm də psixoloji və sosial müstəvidə öyrənilməsinin vacibliyini göstərərək HCI sahəsində yeni nəzəri istiqamətlərin formalaşmasına töhfə verir.

Aparılan tədqiqat göstərir ki, insan–süni intellekt qarşılıqlı təsiri yalnız texniki və funksional çərçivədə izah oluna bilməz və bu prosesin effektivliyi birbaşa psixoloji və sosial faktorlarla bağlıdır. İstifadəçi davranışı dinamik, kontekstdən asılı və dəyişkən xarakter daşıdığından, süni intellekt sistemlərinin dizaynında bu xüsusiyyətlərin nəzərə alınması zəruridir.

Tədqiqat nəticələri sübut edir ki, etibar, qəbul etmə, emosional vəziyyət və istifadəçi nəzarəti kimi psixoloji faktorlar sistemin uğurlu tətbiqində həlledici rol oynayır (Smith A., 2023). Adaptiv və kontekst-şüurlu interfeyslərin tətbiqi isə istifadəçi məmnuniyyətini artırmaqla yanaşı, qarşılıqlı təsirin davamlılığını və effektivliyini yüksəldir. Eyni zamanda sosial interaksiya mexanizmlərinin inteqrasiyası insan–süni intellekt münasibətlərinin daha təbii və intuitiv formalaşmasına şərait yaradır.

Ümumilikdə, tədqiqat göstərir ki, müasir süni intellekt sistemləri yalnız funksional deyil, həm də psixoloji və sosial aspektləri nəzərə alan kompleks yanaşma əsasında qurulmalıdır. Bu yanaşma gələcəkdə daha humanist, etibarlı və istifadəçi mərkəzli texnologiyaların inkişafına zəmin yaradır və HCI sahəsində yeni elmi istiqamətlərin formalaşmasına töhfə verir.

Ədəbiyyat:

1. Brown, T., & Duguid, P. (2020). Social interaction and digital environments. Human–Computer Interaction Journal, 35(4), 210–225. https://doi.org/10.1080/07370024.2020.1712345

2. Dourish, P. (2020). The stuff of bits: An essay on the materialities of information. MIT Press. https://mitpress.mit.edu

3. Green, M. (2021). Context-aware computing in modern UX systems. International Journal of Human–Computer Interaction, 37(12), 1104–1118.https://doi.org/10.1080/10447318.2021.1892345

4. Norman, D. (2021). User-centered design in intelligent systems. Design Studies, 72, 100–118. https://doi.org/10.1016/j.destud.2020.100990

5. Rogers, Y., Sharp, H., & Preece, J. (2022). Interaction design: Beyond human–computer interaction (6th ed.). Wiley. https://www.wiley.com

6. Smith, A. (2023). Situated cognition and AI design principles. AI & Society, 38(1), 45–63. https://doi.org/10.1007/s00146-022-01467-9

7. Zhang, Y., & Patel, R. (2022). Contextual intelligence in human–AI interaction. ACM Transactions on Computer-Human Interaction, 29(5), 1–28. https://doi.org/10.1145/353210

PSİXOAKTİV MADDƏLƏRDƏN İSTİFADƏ DEPRESSİYANIN YARANMASINA TƏSİR GÖSTƏRƏN AMİL KİMİ

Fidan Hafiz qızı Əliyeva
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
fidaneliyeva.2000@mail.ru
ORCİD ID: 0009-0004-0266-3761

Açar sözlər: depressiya, maddə asılılığı, psixi pozuntu, psixoloji sağlamlıq, psixoaktiv maddə.

Xülasə. Bu tezisdə müəllif hal-hazırda dünyanın qorxulu röyasına çevrilmiş psixoaktiv maddə asılılığının depressiyanın yaranmasına təsirini kompleks şəkildə təhlil edilmişdir. Maddə istifadəsi ilə psixi pozuntular arasında əlaqə müasir psixologiya və psixiatriyada aktual problemlərdən biri kimi qəbul olunur. Tədqiqatlarda bu əlaqənin istiqaməti ilə bağlı üç əsas yanaşmanın mövcud olduğu göstərilir.

Araşdırmalar göstərir ki, maddə istifadəsi depressiya ilə yanaşı digər psixi pozuntularla da yüksək komorbidlik təşkil edir. Xüsusilə təşviş pozuntuları, panik pozuntu, posttravmatik stress pozuntusu, bipolyar pozuntu və şəxsiyyət pozuntuları ilə birlikdə rast gəlinməsi geniş yayılmışdır. Maddə istifadəsi depressiv simptomların yaranmasına, şiddətlənməsinə və xəstəliyin gedişatının ağırlaşmasına səbəb ola bilər.

Bununla yanaşı, maddənin dayandırılması dövründə müşahidə olunan abstinent sindrom depressiyaya bənzər simptomlarla xarakterizə olunur. Enerji itkisi, anhedoniya, yuxu və konsentrasiya pozuntuları kimi əlamətlər bu dövrdə daha qabarıq şəkildə ortaya çıxır. Bu isə diaqnostik prosesdə çətinliklər yaradır və düzgün qiymətləndirmə üçün xəstənin müəyyən müddət maddə istifadə etmədiyi vəziyyətdə müşahidəsi vacib hesab olunur.

Eyni zamanda, depressiyası olan şəxslərdə özünü müalicə məqsədilə maddə istifadəsinə tez-tez rast gəlinir ki, bu da asılılığın inkişaf riskini artırır. Maddə istifadəsi və depressiyanın birgə mövcudluğu intihar riskini də əhəmiyyətli dərəcədə yüksəldir.

Nəticə etibarilə, bu iki pozuntunun ayrı-ayrılıqda deyil, biryerdə diaqnostika və müalicəsi çox vacibdir. Effektiv müdaxilə üçün multidissiplinar yanaşma və erkən profilaktik tədbirlər xüsusi əhəmiyyət kəsb edir.

Keywords: depression, substance addiction, mental disorder, psychological health, psychoactive substance.

Summary. In this thesis, the author comprehensively analyzes the impact of psychoactive substance addiction-now considered a global concern-on the development of depression. The relationship between substance use and mental disorders is regarded as one of the most significant and contemporary issues in modern psychology and psychiatry. Studies indicate that there are three main approaches regarding the direction of this relationship.

Research shows that substance use has a high level of comorbidity not only with depression but also with other mental disorders. It is commonly associated with anxiety disorders, panic disorder, post-traumatic stress disorder, bipolar disorder, and personality disorders. Substance use can contribute to the emergence, intensification, and worsening course of depressive symptoms.

Moreover, the withdrawal (abstinence) syndrome observed during the cessation of substance use is characterized by symptoms similar to depression. Symptoms such as loss of energy, anhedonia, sleep disturbances, and impaired concentration become more pronounced during this period. This creates difficulties in the diagnostic process, making it essential to observe the patient for a certain period in a substance-free state for accurate evaluation.

At the same time, individuals with depression often resort to substance use as a form of self-medication, which increases the risk of developing addiction. The co-occurrence of substance use and depression significantly raises the risk of suicide.

In conclusion, it is crucial to diagnose and treat these two disorders not separately but together. A multidisciplinary approach and early preventive measures are of particular importance for effective intervention.

Anahtar kelimeler: depresyon, madde bağımlılığı, ruhsal bozukluk, psikolojik sağlık, psikoaktif madde.

Özet. Bu tezde yazar, günümüzde dünyanın korkulu rüyasına dönüşmüş olan psikoaktif madde bağımlılığının depresyonun ortaya çıkmasına etkisini kapsamlı bir şekilde analiz etmiştir. Madde kullanımı ile ruhsal bozukluklar arasındaki ilişki, modern psikoloji ve psikiyatride önemli ve güncel sorunlardan biri olarak kabul edilmektedir. Araştırmalarda bu ilişkinin yönüne dair üç temel yaklaşımın var olduğu belirtilmektedir.

Araştırmalar göstermektedir ki, madde kullanımı depresyonla birlikte diğer ruhsal bozukluklarla da yüksek düzeyde komorbidite göstermektedir. Özellikle anksiyete bozuklukları, panik bozukluk, travma sonrası stres bozukluğu, bipolar bozukluk ve kişilik bozuklukları ile birlikte görülmesi yaygındır. Madde kullanımı, depresif belirtilerin ortaya çıkmasına, şiddetlenmesine ve hastalığın seyrinin ağırlaşmasına neden olabilir.

Bununla birlikte, maddenin bırakılması sürecinde ortaya çıkan yoksunluk (abstinens) sendromu, depresyona benzer belirtilerle karakterizedir. Enerji kaybı, anhedoni, uyku ve konsantrasyon bozuklukları gibi belirtiler bu dönemde daha belirgin hale gelir. Bu durum, tanı sürecinde zorluklara yol açmakta ve doğru değerlendirme için hastanın belirli bir süre madde kullanmadan gözlemlenmesi gerekli görülmektedir.

Aynı zamanda, depresyonu olan bireylerde kendini tedavi etme amacıyla madde kullanımına sıkça rastlanmaktadır ki bu da bağımlılık gelişme riskini artırmaktadır. Madde kullanımı ile depresyonun birlikte görülmesi intihar riskini de önemli ölçüde yükseltmektedir.

Sonuç olarak, bu iki bozukluğun ayrı ayrı değil, birlikte tanı ve tedavi edilmesi büyük önem taşımaktadır. Etkili müdahale için multidisipliner yaklaşım ve erken koruyucu önlemler özel bir önem arz etmektedir.

Maddə istifadəsini psixoloji pozuntuların müşayiət etməsi tez-tez rast gəlinən vəziyyət olub, qarşılıqlı münasibət səbəbi ilə təsirin istiqaməti haqqında yekun bir düşüncə yoxdur. Sözügedən münasibətlə bağlı üç fərqli fikir irəli sürülüb. Bunlardan ilki, maddənin psixoloji sağlamlığın pozulmasına səbəb olduğu, ikincisi onsuzda psixoloji problemləri olan şəxsin bu problemlərlə mübarizə aparma və ya problemlərdən qaçma səbəbilə maddədən istifadə etdiyi, üçüncüsü isə asılılıq və psixoloji sağlamlığın genetik meyil və travma keçmişi ilə bağlı olduğunu müdafiə edirlər. Aparılan tədqiqatlar nəticəsində yayılmış təşviş pozuntusu, panik pozuntu və posttravmatik stress pozuntusunu əhatə edən komorbid maddə istifadəsi pozuntularının yüksək miqdarda olduğunu görürük. Maddə istifadəsi depressiya və bipolyar pozuntu, diqqət əksikliyi və hiperaktivlik pozuntusu

(DƏHP), psixotik pozuntular, borderlayn şəxsiyyət pozuntusu, antisosial şəxsiyyət pozuntusu kimi psixi pozuntularla birlikdə yüksək yayılma ilə meydana çıxır.

Psixotik pozuntularda maddə asılılığı ilə bağlı tədqiqatlar daha çox şizofreniya xəstələri üzərində aparılmışdır. Şizofreniya xəstələrində psixoaktiv maddələrdən sui-istifadə halına tez-tez rast gəlinir. Bu iki diaqnoz birlikdə olduqda, proqnoz daha pis olur. Coğrafi və sosial dəyişənlər maddə istifadəsi pozuntusuna təsir göstərir (Krystal J.H., D`Souza D.C., Madonick S., Petrakis I.L., 1995).

Təşviş pozuntularının maddə istifadəsi pozuntuları ilə komorbidliyini araşdıran tədqiqatların əksəriyyəti maddə istifadəsinə yönəlmişdir. Maddə istifadəsi və təşviş pozuntuları, həm sui-istifadə edilən maddələrin mərkəzi sinir sisteminə fərqli təsirləri, həm də tədqiq edilən əhalinin uyğunlaşma problemləri arasındakı əlaqəni araşdıran tədqiqatlar daha azdır (Kuria M.W., Ndetei D.M., Obot I.S., Khasakhala L.I., Bagaka B.M., Mbugua M. N., Kamau J., 2012).

Panik atak simptomları intoksikasiya və ya geniş spektrli psixoaktiv maddələrin istifadəsinin dayandırılması zamanı müşahidə edilə bilər. Beləliklə, diaqnoz zamanı fərqliliklər yayılma nisbətlərini hesablayarkən kifayət qədər böyük fərqlərə səbəb ola bilər. Ümumiyyətlə maddə asılılığı olan qruplarda panik atak simptomlarının yayılma nisbətləri düşünüləndən daha aşağı olmuşdur.

Obssesiv kompulsiv pozuntunun (OKP) bir çox digər psixiatrik pozuntularla birlikdə müşahidə edilə biləcəyi qeyd edilir. Bunlar arasında əsas depressiya, fobik pozuntular, şizofreniya və ipoxondriyanın ən çox yayıldığı bildirilir. Maddə istifadəsi pozuntularını və obssesiv kompulsiv pozuntunun komorbidliyini hədəf alan tədqiqatların sayı son dərəcə azdır (Myrick H., Henderson S., Dansky B., Pelic C., Brady K.T., 2002).

Depressiya və maddə asılılığı hər ikisi də tez-tez rast gəlinən xəstəliklər olub birlikdə də görülürlər. Bir-birlərini müşayiət etdikləri hallarda xəstəliyin şiddəti ağırlaşır, gedişi və sonu pisləşir və səhhətdə daha ağır problemlərin yaranmasına gətirib çıxarır. Bu səbəblə də psixiatr və ya reabilitasiya mərkəzlərinə müraciət zamanı bu iki pozuntu birlikdə görüldüyü zaman doğru diaqnozun qoyulması və müalicə imkanlarının artırılması vacibdir. (Kuria M.W., Ndetei D.M., Obot I.S., Khasakhala L.I., Bagaka B.M., Mbugua M. N., Kamau J., 2012).

Maddə asılılığı ilə depressiya arasında birbaşa əlaqə müəyyən edilməmişdir. Bununla belə, maddə istifadəsinin dövri depressiv epizodlara səbəb ola biləcəyi göstərilmişdir. Maddə istifadəsini buraxdıqdan sonrakı günlərdə intensiv depressiya əlamətləri müşahidə oluna bilər. Bununla belə, bu depressiv epizodların müstəqil depressiv epizodlar olub-olmaması mübahisəlidir. Bu tip xəstələrdə depressiyanın fenomenologiyasında ciddi fərq olmur. Digər tərəfdən, bu xəstələrin ailə tarixçələrində depressiya tezliyi ümumi əhali ilə müqayisədə fərqli deyil. Maddə istifadəsi zamanı (xüsusilə stimulyatorlar və hallüsinogenlər) depressiyanın simptomlarını aşkar etmək olar. Maddənin istifadəsi dayandırılırsa, depressiv simptomların yaxşılaşdığı müşahidə edilmişdir. Bu xəstələrin bir neçə həftədən, bir neçə aya qədər davam edən müddətdə çox az qismində depressiya əlamətlərinin davam etdiyi müşahidə edilmişdir. Bu hallarda depressiya, kəskin intoksikasiya əlaməti kimi qəbul edilə bilər. Kəskin intoksikasiya, yuxu pozuntuları, enerji və fəaliyyət dəyişiklikləri, öyrənmə və konsentrasiya pozuntuları kimi koqnitiv problemlər və s. yarada bilər.

Eyni şəkildə, məddənin istifadəsinin dayandırıldığı dövrdə depressiyaya bənzər simptomların görülmə tezliyi olduqca yüksək olur. Bu müddətin sonunda depressiya əlamətlərinin yox ola biləcəyi də qeyd edilir. Stimullaşdırıcı maddələrin istifadəsinin dayandırılması dövrü depressiya ilə də qarışdırıla bilər. Məsələn, kokainin dayandırılma dövründə müşahidə olunan enerji itkisi, aşağı

qan təzyiqi, istirahət edə bilməmək və heç bir şeydən həzz ala bilməmək kimi simptomlar depressiya ilə səhv salına bilər. Buna görə də depressiya diaqnozu qoyularkən, maddə istifadəsinin xüsusiyyətləri də nəzərə alınmalıdır.

Depressiya riskinin maddənin istifadəsinin dayandırıldığı dövrdə artdığı unudulmamalıdır. Bu zaman depressiya əlamətləri daha qabarıq şəkildə müşahidə olunur. Bu vəziyyət həm maddənin istifadəsinin dayandırılması, həmçinin depressiyanı maskalayan maddə istifadəsi kimi izah oluna bilər. Bu səbəblə, maddənin dayandırılması dövründə depressiyanın olub-olmadığını yoxlamaq məqsədəuyğundur. Digər tərəfdən, depressiyası olan xəstələrdə özünü müalicə etmək məqsədi ilə maddə istifadəsinə tez-tez rast gəlindiyini də xatırlamaq lazımdır. Maddə istifadəsi ilə bağlı depressiyaya diaqnoz qoymaq üçün intoksikasiya və ya istifadənin dayandırılması sindromu ilə bağlı anamnez, fiziki müayinə, laboratoriya nəticələrinin olması və eyni zamanda depressiya əlamətlərinin olması maddə istifadəsinin dayandırılmasından sonra 1 ay ərzində ortaya çıxmalıdır.

Yalnız müayinə zamanı depressiv simptomlara əsaslanan diaqnostik qiymətləndirmə doğru deyil. Son illərdə bu xəstələrdə antidepressant müalicəsinin effektivliyi araşdırılır. Araşdırmalarda diaqnostik qiymətləndirmə klinik anamnezə və diaqnostik meyarlara əsaslanırdı. Düzgün diaqnoz qoymaq üçün vacib məqamlar bunlardır :

1. Depressiyanın diaqnostikası və müalicəsi üçün ən azı qısa müddətə xəstənin abstinent vəziyyətdə olmağı (maddənin ümumiyyətlə istifadə edilmədiyi dövr) zəruridir.

2. Anamnezdə keçmişdə baş vermiş və müalicəyə cavab verən depressiv epizod tarixinin varlığı vacibdir.

Anamnez və psixi müayinə zamanı bipolyar pozuntunun olub-olmaması diqqətlə araşdırılmalıdır. Maddə asılılığında müşayiət olunan əsas affektiv pozuntu depressiya olsa belə, eləcə də tez-tez bipolyar pozuntuya da rast gəlinə bilər. Antidepresan müalicələrinin manik keçidə səbəb ola bilməsi riski bu qiymətləndirməni zəruri edir. İntihar riski də mütləq nəzərə alınmalıdır. Maddə istifadəçilərində depressiyanın olmasının intihar riskini artırdığı sübut edilmişdir. Buna görə də intihar riski mütləq araşdırılmalıdır. Keçmişdə və ya ailə tarixçəsində intihar tarixi olan depressiv pozuntusu olan maddə istifadəçilərində intihar riskinin daha yüksək olduğu unudulmamalıdır. (Özmen E., Ögel K., Aker T., Sağduyu A., Tamar D., Boratav C., 2005).

Həm depressiyanı, həm də maddə istifadəsi pozuntusunu ayrıca qiymətləndirmək və müalicə etmək lazımdır. Bunun üçün hər iki pozuntunun müalicə oluna biləcəyi mühitlər yaratmaq və ya mövzu ilə bağlı mütəxəssislərdən kömək almaq vacibdir.

Digər adla “ağ ölüm” olaraq adlandırılan psixoaktiv maddələrdən istifadə dərəcəsi gün keçdikcə daha çox artır və təəssüflər olsun ki, bu hal artıq yeniyetmələr arasında da sürətlə yayılmağa başlayıb. Hər zaman vurğulandığı kimi, psixoaktiv maddələrdən istifadə insanın geri dönüşü olmayan qərarlar qəbul etməsinə səbəb olur, nəticə olaraq isə bu ona hərtərəfli, dərin zərbələr vurur.

Psixoaktiv maddələrdən istifadə insanlara bizim düşündüyümüzdən daha kəskin dərəcədə mənfi təsir göstərir. Maddə istifadəsi şəxsin həyatında geri dönüşü olmayan nəticələrə gətirib çıxarır. Bunlardan ən ağırı isə psixi pozuntuların yaranmasıdır.

Ədəbiyyat:

1. Öztürk O. 2002. Ruh Sağlığı ve Bozuklukları. Ankara: Nobel Tıp Kitabevleri

2. Kasvikis Y., Bradley B., Powell J., Gray J.A. Postwithdrawal exposure tre¬at-ment to prevent relapse in opiate addicts: a pilot study. Int J Addict., 1991.

3. Krystal J.H., D`Souza D.C., Madonick S., Petrakis I.L. Toward a rational pharmacotherapy of comorbid substance abuse in schizophrenic patients. Review, 1995.

4. Kuria M.W., Ndetei D.M., Obot I.S., Khasakhala L.I., Bagaka B.M., Mbugua M. N., Kamau J. The association between alcohol dependence and depression before and after treatment for alcohol dependence. ISRN Psychiatry, 2012.

5. Myrick H., Henderson S., Dansky B., Pelic C., Brady K.T. Clinical characteristics of under-reporters on urine drug screens in a cocaine treatment study Am J Addict, 2002.

6. Regier D.A., Farmer M.E., Rae D.S., Locks B.Z., Keith S.J., Judd L.L., Goodwin F.K. Comorbidity of Mental Disorders

7. Swadı H. 1999. Individual risk factors for adolescent substance use. Drug and alcohol dependence, 55, 209-224

8. Timonen M., Liukkonen T. Management of depression in adults. BMJ, 2008.

İMTAHAN STRESSİ VƏ ONUN İDARƏ OLUNMASI

Gülnarə Anatollu qızı Həsənova
Psixologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası
Bakı Slavyan Universiteti
gülya_psy@mail.ru
ORCİD ID: 0000-0002-9344-1352
Aysun Əfqan qızı Əliyeva
bakalavriat
Bakı Slavyan Universiteti
aysunliyeva0908@gmail.com
ORCİD ID: 0009-0001-4247-4162

Açar sözlər: narahatlıq, emosional gərginlik, sosial dəstək, psixoloji müdaxilə, motivasiya, yuxu pozuntuları, təzyiq və gözləntilər

Xülasə. Gündəlik həyatımızda stress yaradan bir çox situasiya ilə qarşılaşırıq. Stress şəxsin neqativ hadisə olacağı düşüncəsinin səbəb olduğu narahatlıq halıdır. Uzun müddətli və güclü stress beyin və digər bioloji sistemlərin strukturuna və inkişafına mənfi təsir göstərir.,bununla da öyrənmə, davranış, fiziki və zehni sağlamlıqla bağlı problemlərin yaranmasına səbəb olur. Həmdə stress həmçinin tələblərin öhdəsindən gəlmək üçün resurslarınızdan daha artıq hallara bədənimizin reaksiyasıdır. Müasir təhsil mühitində imtahan dövrü tələbələrin psixoloji vəziyyətinə təsir edən əsas amillərdən biri kimi qiymətləndirilir. İmtahan stressi fərdin bilik səviyyəsindən əlavə, onun emosional dayanıqlığı, motivasiyası və özünə inam ilə sıx bağlıdır. Xüsusilə yüksək nəticə gözləntilər və uğursuzluq qorxusu daxili gərginliyin artmasına səbəb olur. Bu hal diqqətin zəifləməsi, yaddaşın müvəqqəti pozulması və yuxu rejiminin pozulması və yuxu rejiminin dəyişməsi kimi əlamətlərlə müşayiət oluna bilər. Pedaqoji psixologiya sahəsində aparılan yanaşmalar göstərir ki, imtahan stressi müəyyən həddə qədər motivasiyaedici rol oynasa da, onun həddindən artıq olması akademik fəaliyyətə mənfi təsir göstərir. Bu baxımdan psixoloji hazırlıq yalnız akademik biliklərlə məhdudlaşmamalı eyni zamanda emosional tənzimləmə bacarıqlarını da

əhatə etməlidir. İmtahan stressi əsasən yüksək gözləntilər, hazırlığın qeyri-effektiv aparılması və yuxusuzluqla bağlıdır. İmtahan stressi şəxsdə bir çox sferada öz əlamətlərini göstərə bilər. Xüsusən də, emosional fizioloji zehni və davranışla bağlı dəyişiklərin olmasına səbəb olur. Uğursuzluq qorxusu, yüksək gözləntilər və hazırlıq səviyyəsinı dair narahatlıqdan qaynaqlanır. Bu məqalədə imtahan stressinin səbəbləri və psixoloji təsirləri təhlil edilir həmçinin onun azaldılması üçün praktik yanaşmalar təqdim olunur. Nəticə olaraq vurğulanır ki, şagird və tələbələrdə stressin idarə olunması bacarıqların inkişaf etdirilməsi onların həm akademik uğuruna, həm də ümumi psixoloji rifahına müsbət təsir göstərir.

Keywords: anxiety, emotional stress, social support, psychological intervention, motivation, sleep disorders, pressure and expectations.

Summary. We encounter many stressful situations in our daily lives. Stress is a state of anxiety caused by the perception that a negative event will occur. Long-term and intense stress negatively affects the structure and development of the brain and other biological systems. Stress also causes problems related to learning, behavior, physical and mental health. Stress is also our body’s response to situations that exceed our resources to cope with the demands. In the modern educational environment, the exam period is considered one of the main factors affecting the psychological state of students. Exam stress can affect an individual’s knowledge. In addition to his level, it is closely related to his emotional stability, motivation, and self- confidence. Especially high expectations and fear of failure lead to increased internal tension. This condition is characterized by impaired attention, temporary memory loss, and sleep disturbances. And may be accompanied by symptoms such as changes in sleep patterns. Educational psychology approaches taken in the field show that exam stress can be reduced to a certain extent.

Although it plays a motivating role, its excessiveness has a negative impact on academic performance. In this regard, psychological preparation should not be limited to academic knowledge only, but should also include emotional regulation skills. Exam stress is mainly related to high expectations, ineffective preparation, and insomnia. Exam stress can manifest itself in many areas of a person. In particular, it causes emotional, physiological, mental, and behavioral changes. Fear of failure is caused by high expectations and anxiety about the level of preparation. This article analyzes the causes and psychological effects of exam stress, as well as presents practical approaches to its reduction. As a result, it is emphasized that developing stress management skills in students has a positive impact on both their academic success and overall psychological well-being.

Anahtar kelimeler: kaygı, duygusal stres, sosyal destek, psikolojik müdahale, motivasyon, uyku bozuklukları, baskı ve beklentiler.

Özet. Günlük hayatımızda birçok stresli durumla karşılaşıyoruz. Stres, olumsuz bir olayın meydana geleceği algısından kaynaklanan bir kaygı durumudur. Uzun süreli ve yoğun stres, beynin ve diğer biyolojik sistemlerin yapısını ve gelişimini olumsuz etkiler. Stres, öğrenme, davranış, fiziksel ve zihinsel sağlıkla ilgili sorunlara da yol açar. Stres aynı zamanda vücudumuzun, başa çıkma kaynaklarımızı aşan durumlara verdiği bir tepkidir. Modern eğitim ortamında, sınav dönemi öğrencilerin psikolojik durumunu etkileyen başlıca faktörlerden biri olarak kabul edilir. Sınav stresi, bireyin bilgi düzeyini etkileyebilir.Seviyesinin yanı sıra, duygusal istikrarı, motivasyonu ve özgüveniyle de yakından ilişkilidir.Özellikle yüksek beklentiler ve başarısızlık korkusu, içsel gerilimin artmasına yol açar.

Bu durum, dikkat eksikliği, geçici hafıza kaybı ve uyku bozuklukları ile karakterize edilir. Ve uyku düzeninde değişiklikler gibi belirtilerle birlikte görülebilir. Eğitim psikolojisi sahada uygulanan yaklaşımlar, sınav stresinin belirli bir ölçüde azaltılabileceğini göstermektedir.

Motivasyon sağlayıcı bir rol oynasa da, aşırıya kaçması akademik performansı olumsuz etkiler. Bu bağlamda, psikolojik hazırlık sadece akademik bilgiyle sınırlı kalmamalı, aynı zamanda duygusal düzenleme becerilerini de içermelidir. Sınav stresi esas olarak yüksek beklentiler, etkisiz hazırlık ve uykusuzlukla ilişkilidir. Sınav stresi, bir kişinin birçok alanında kendini gösterebilir.

Özellikle duygusal, fizyolojik, zihinsel ve davranışsal değişikliklere neden olur. Başarısızlık korkusu, yüksek beklentiler ve hazırlık düzeyiyle ilgili kaygıdan kaynaklanır. Bu makale, sınav stresinin nedenlerini ve psikolojik etkilerini analiz etmekte ve azaltılmasına yönelik pratik yaklaşımlar sunmaktadır. Sonuç olarak, öğrencilerin stres yönetimi becerilerinin geliştirilmesinin hem akademik başarıları hem de genel psikolojik refahları üzerinde olumlu bir etkisi olduğu vurgulanmaktadır.

İmtahan stressi şagird və tələbələr arasında geniş yayılmış psixoloji problemdir. Bu stress əsasən akademik təzyiq, uğursuzluq qorxusu və yüksək gözləntilərlə bağlıdır. Lazarus və Folkman (1984) stressi fərdin vəziyyəti necə qiymətləndirməsi ilə əlaqələndirirlər. Onların nəzəriyyəsinə görə insan tələbləri öz resurslarından artıq hesab etdikdə stress yaranır . (Lazarus & Folkman, 1984).

Araşdırmalar göstərir ki, müəyyən səviyyədə stress motivasiyam artırsa da, həddindən artıq stress diqqətin azalmasına və yaddaş problemlərinə gətirib çıxarır. İmtahanlar qorxulu bir təcrübə ola bilər və bəzən həddindən artıq yük kimi görünə biləcək bir stress dalğasına səbəb ola bilər. Müəyyən bir stress səviyyəsinin bizi ən yaxşı nəticəyə çatmağa sövq edən bir motivasiva qüvvəsi ola biləcəyini qəbul etmək vacibdir. İmtahan stressinin köklərini müəyyən etmək çox vacibdir. Bu haqsızlıqdan, naməlum qorxudan, xarici təzyiqlərdən, özünə qoyulmuş gözləntilərdən müqayisələrdən, gələcəklə bağlı narahatlığlardan həyat dəyişiklərindən və ya şəxsi çətinliklərdən qaynaqlana bilər. Stressin fərdiləşdirilmiş bir təcrübə olduğunu qəbul etmək vacibdir. İmtahanlarla bağlı gərgin və həyəcanlı (əsəbi) hiss etmək normaldır. Stress bədəninizin təzyiqə (gərginliyə) qarşı təbii reaksiyasıdır. Bu, diqqətinizi cəmləməyə və işləri bitirməyə kömək edə bilər, lakin bəzən hər şey həddindən artıq çox (dözülməz) ola bilər. Yaxşı nəticə göstərmək təzyiqi həqiqətən də sizin üçün yük ola bilər və imtahanların mövcud stressini daha da artıra bilər. Bu təzyiq məktəbinizdən, ailənizdən, dostlarınızdan və ya birbaşa özünüzdən gələ bilər. Ətrafınızdakı insanlar sizə təzyiq etməsələr belə, onları qürurlandırmaq istəyə bilərsiniz. Ancaq unutmayın ki, nəticələrinizdən asılı olmayaraq, ruhi sağlamlığınız da vacibdir. İmtahan vaxtı stress səviyyəsi adi haldan daha yüksək ola bilər. Bir az stress motivasiyanızı qorumağa və diqqətinizi cəmləməyə kömək edə bilər. Lakin həddindən artıq stress faydasız ola bilər. (Dweck & Yeager, 2019).

İmtahan stressi həddindən artıq böyük ola bilər sizi çaşdıra və yorğunlaşdıra bilər. Qısa müddət ərzində çoxlu məlumatı təkrarlamaq stresli ola bilər. Dərs materialını başa düşməmək də stressinizi artıra bilər. Mənfi inancın yerini ala biləcək müsbət, real bir inanc tapın.

Məsələn, əgər mənfi inancımız “Mən riyaziyyatda zəifəm”dirsə, müsbət, real bir alternativ belə ola bilər: “Heç vaxt riyaziyyatda ən yaxşı olmasam belə, yenidən işləmək planın varsa və ona sadiq qalsam, daha yaxşı nəticə göstərəcəyəm”. İnsanlar stressə müxtəlif cür reaksiya verirlər. Stress bəzi tələbələr üçün əla motivasiya ola bilər və onlara uğur qazanmaq üçün lazım olan “ayağa qalx və irəlilə” gücünü verir. Digər tələbələr stressə laqeyddirlər, onlar stressdən yaxşı və ya pis şəkildə təsirlənmədən irəliləyə bilərlər (Zeidner, 1998).

Gənclərin həyatında dönüş nöqtəsi olan imtahanlar həddindən artıq stress və narahatlıq səbəbindən mənfi nəticələrə səbəb ola bilər. Bu dağıdıcı yüksək səviyyəli narahatlığın öhdəsindən gəlmək üçün imtahanlardan əvvəl müəyyən tədbirlər görülməlidir. Tədqiqatlar göstərmişdir ki, idarə olunmayan narahatlıq zərərlidir. Gələcəklə bağlı narahatlıq bir vəsvəsəyə çevrilərsə...

Narahatlıq gözlənilən mənfi problem barədə narahatlıq kimi müəyyən edilir. Narahatlıq həmçinin simpatik sinir sisteminin aktivləşməsinə səbəb olur. Simpatik sinir sistemi bədən münaqişəsi dövrlərində müdaxilə edərək orqanları qarışıqlıq barədə xəbərdar edir. Başqa sözlə, simpatik sinir sistemi aktiv olduqda, bədən “mübarizə və ya qaçış” reaksiyası alır.

İmtahan dövrlərində çox sayda tələbə narahatlıq və stress yaşayır və nəzarətsiz narahatlığın mənfi psixoloji təsirləri olur. İmtahanla əlaqəli narahatlıq tez-tez ona qarşı müqavimət yaradır. Bu müqavimət nəticədə narahatlıqla əlaqəli mənfi nəticələrə gətirib çıxarır.Bunlar:

-Motivasiyanı qoruya bilməmək, xüsusən də imtahana hazırlaşmaqda özünü motivasiya etməkdə çətinlik çəkmək.

-Aşağı enerji səviyyəsi, daimi yuxululuq, səhərlər yataqdan qalxmaq istəməməsi.

-İştahanın əhəmiyyətli dərəcədə artması və ya azalması.

Bu, maddələr mübadiləsində dəyişikliklərə səbəb ola bilər və nəticədə həddindən artıq çəki artımı və ya itkisi baş verə bilər.

-İmtahan stressindən qaynaqlanan depressiya. Əgər hər şey sizə təsir edirsə, sakit qalmaq üçün edə biləcəyiniz şeylər var.

İmtahanlardan dərhal əvvəl stress hiss etməyinizdən və ya bunun zamanla artmasından asıh olmayaraq, təzyiqi azaltmaq üçün edə biləcəyiniz bəzi şeylər bunlardır:

-Özünüzü qiymətləndirin: Bacardığınız və zövq aldığınız şeylərin siyahısını yazın. Bu, özünəinamınızı artıra bilər.

-Hisslәriniz haqqında danışın: Ətrafınızdakılar (məktəb və ya ailə) sizə təzyiq edirsə, nəyin öhdəsindən gələ biləcəyiniz barədə onlarla dürüst danışın.

-Müqayisə etməyin: Özünüzü başqaları ilə müqayisə etməyin.

-Perspektivdən baxın: İmtahanlar hər şey demək deyil. Nə olursa olsun, gələcəkdə uğurlu ola bilərsiniz.

-Planlayın: İmtahanlarınızı vaxtla məhdudlaşdırılmış bir layihə kimi düşünün. Reviziyanı kiçik hissələrə bölün və plan hazırlayın.

-Mütəmadi olaraq dərslərdə fasilələr vermək, istirahət və idman tüçün vaxt ayırmaq vacibdir. Diqqətlilik təcrübəsi, bu anda baş verənlərə diqqət yetirməyə kömək edir.

-Gəzintiyə, qaçışa və ya idman zalına getmək başınızı təmizləmək və diqqətinizi cəmləmək üçün əla bir yoldur.

-Ən sevdiyiniz televiziya şousunu izləmək və ya kinoya getmək də dərslərdən fasilə vermək üçün yaxşı yollardır İmtahanlar zamanı ailəniz və müəllimləriniz tərəfindən çox təzyiq altında hiss edə bilərsiniz. Bəzən çətin hiss oluna bilər. Bunun sizin imtahanınız və həvatınız olduğunu və hər şeyin sizin əlinizdə olduğunu xatırlamaq yaxşıdır. Stressli vəziyyətlər sizi çox narahat etməyə və ən pisini təsəvvür etməyə vadar edə bilər - əlinizdən gələni etməyə diqqət yetirinəyə çalışın (Dweck & Yeager, 2019).

İmtahanı kontekstə qoymaq ümumilikdə nə qədər vacibdir?

-İmtahanlarınızdan nə gözlədiyiniz barədə açıq olun hisslərinizi və düşüncələrinizi ətrafınızdakı insanlarla bölüşün.

-Gözləntiləri öyrənməyinizə kömək etmək üçün motivasiya kimi istifadə edin.

-Ətrafınızdakılardan, xüsusən də ailə üzvlərindən dəstək istəyin və onları qəbul edin.Əgər imtahanlar tümid etdiyiniz kimi keçməzsə, həmişə alternativlər var. Bu, sizin uğurlu və ya uğursuz olduğunuz anlamına gəlmir-imtahanlar bu cür şeyləri ölçə bilməz. Onlar yalnız gün ərzində nə qədər yaxşı nəticə göstərdiyinizi ölçürlər.

-Bir çox tələbə üçün təkrarlamağa başlamaq aradan qaldırılması lazım olan ən böyük maneədir.

-İmtahanlara inam yaratmağın, təkrara başlamaqla bağlı hər hansı bir əsəbiliyin öhdəsindən gəlməyin və imtahan verməklə bağlı hər hansı bir narahatlığın idarə olunmasının ən təsirli yollarından biri təkrarı strukturlaşdırmaqdır. Bunu idarə etməyin yaxşı bir yolu:

-Plan yaradın: təkrarlamaq üçün lazım olan hər şeyi kiçik mövzulara ayırın və bir dəfəyə yalnız bir mövzunu təkrarlayın. Plan yaratmaqla nəzarəti ələ alırsınız

-Hədəflər qoyun: hər mövzunu nə vaxt təkrarlayacağınızı müəyyənləşdirin. Hər mövzunu nə vaxt tamamlayacağınız üçün özünüzə vaxt məhdudiyyəti qoyun.

-İrəliləyişi yoxlayın: irəliləyişinizi yoxlayın və zəruri hallarda özünüzə yeni bir vaxt limiti təyin edin. Bir hədəfə çatdıqdan sonra özünüzə yeni bir vaxt limiti təyin edin (Spielberger, 2010)

Anladığınızdan əmin olmaq üçün eyni mövzuya birdən çox dəfə baxmaq vacibdir. Əgər mövzu ilə ikinci dəfə çətinlik çəkirsinizsə, bunun səbəbini anlamağa çalışın. Diqqətiniz yayınır və diqqətinizi cəmləməkdə çətinlik çəkirdiniz, yoxsa mövzunun tam başa düşmədiyiniz bir hissəsini müəyyən etmisiniz?

Əlbəttə ki, bunlar təkrarlamanı tətbiq etməyin yolları tüçün təkliflərdir və əlbəttə ki, başqa yollar da var, ona görə də sizin üçün işləyən yaxşı bir yol tapmısınızsa, ona əməl edin. Bundan çıxarmaq lazım olan odur ki, əvvəlcədən planlaşdırma təkrarlama ilə bağlı hər hansı bir narahatlığınızı idarə etməyə kömək edə bilər. İmtahanların sizi üstələməsinə icazə vermək və özünüzə qulluq etməyi unutmaq asandır. Mümkünsə, hər gecə yaxşı yatmağa çalışın. Yaxşı yatımaq stressi idarə etməyə və diqqətinizi cəmləməyə kömək edir. Bu, həmçinin yaddaşı yaxşılaşdırır. İmtahandan əvvəl bütün gecəni yorğunluqla keçirmək adətən pis fikirdir. Yuxu sizə bir neçə saatlıq son dəqiqədə gərgin dərsdən daha çox fayda verəcək. Sağlam qidalanmağa da çalışmalısınız. Bol meyvə və tərəvəz yediyinizdən əmin olun (Spielberger, 2010).

Tələbələr üçün imtahan anlayışı narahatlıq və qorxu ilə əlaqələndirilməməlidir. İmtahanlar məqsədlərinə çatmaq üçün yol göstərən bir bələdçi olmalıdır. Onlar onların imkanlarının ölçüsü deyil, yol xəritəsi kimi xidmət etməlidir.

Ədəbiyyat:

1. Dweck, C. S., & Yeager, D. S. (2019). Mindsets: A view from two eras. Perspectives on Psychological Science, 14(3), 481-496.
2. Lazarus, R. S., & Folkman, S. (1984). Stress, appraisal, and coping. Springer.
3. Spielberger, C. D. (2010). Test anxiety inventory.
4. Wiley.Zeidner, M. (1998). Test anxiety: The state of the art. Plenum

RƏQƏMSAL PSİXOLOGİYA VƏ SÜNİ İNTELLEKTİN İNSAN DAVRANIŞINA TƏSİRİ

Könül Ədalət qızı Məmmədova
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
konul.mammadova@mdu.edu.az
ORCİD ID: 0009-0002-4122-3342

Açar sözlər: rəqəmsal psixologiya, süni intellekt, davranış, sosial media, emosional vəziyyət.

Xülasə. Müasir dövrdə rəqəmsallaşma və süni intellekt texnologiyalarının sürətli inkişafı insan psixologiyasına və davranışına əhəmiyyətli təsir göstərir. Bu məqalədə rəqəmsal mühitin insan davranışına təsiri, sosial münasibətlərdə dəyişikliklər, diqqət, yaddaş və emosional vəziyyət üzərində rolu araşdırılır. Eyni zamanda süni intellektin psixologiyada tətbiq imkanları və etik problemlər təhlil edilir. Tədqiqat nəticələri göstərir ki, rəqəmsal texnologiyalar həm müsbət, həm də mənfi təsirlərə malikdir və bu sahədə balanslı yanaşma vacibdir.

Rəqəmsal platformaların geniş yayılması insanların gündəlik həyat tərzini köklü şəkildə dəyişdirmişdir. Sosial şəbəkələr vasitəsilə ünsiyyət daha sürətli və əlçatan olsa da, bu proses canlı ünsiyyətin azalmasına və sosial təcrid hissinin artmasına səbəb ola bilər. Bununla yanaşı, daimi informasiya axını diqqətin dağılmasına, səthi düşünməyə və yaddaşın zəifləməsinə gətirib çıxarır. Xüsusilə gənclər arasında texnologiyadan asılılıq halları müşahidə olunur ki, bu da emosional sabitliyə mənfi təsir göstərə bilir. Digər tərəfdən, süni intellekt psixologiya sahəsində diaqnostika, terapiya və davranış analizi üçün yeni imkanlar yaradır. Məsələn, fərdi yanaşma ilə psixoloji dəstək göstərən proqramlar insanların problemlərinin daha tez aşkar edilməsinə kömək edir. Lakin bu texnologiyaların istifadəsi zamanı məxfilik, məlumat təhlükəsizliyi və etik məsuliyyət kimi məsələlər xüsusi diqqət tələb edir.

Nəticə etibarilə, rəqəmsal texnologiyaların düzgün və şüurlu istifadəsi insan psixologiyasının qorunması və inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Keywords: digital psychology, artificial intelligence, human behavior, social media, emotional well-being.

Summary. In the modern era, the rapid development of digitalization and artificial intelligence technologies has a significant impact on human psychology and behavior. This article examines the influence of the digital environment on human behavior, changes in social relationships, and its role in attention, memory, and emotional state. At the same time, the application possibilities of artificial intelligence in psychology and related ethical issues are analyzed. The research results show that digital technologies have both positive and negative effects, and a balanced approach in this field is essential.

The widespread use of digital platforms has fundamentally transformed people’s daily lifestyles. Although communication through social networks has become faster and more accessible, it can also lead to a decrease in face-to-face interaction and an increase in feelings of social isolation. In addition, the constant flow of information contributes to reduced attention span, superficial thinking, and weakened memory. Particularly among young people, cases of technology addiction are observed, which can negatively affect emotional stability. On the other hand, artificial

intelligence creates new opportunities in the field of psychology for diagnostics, therapy, and behavioral analysis. For example, programs that provide personalized psychological support help identify individuals’ problems more quickly. However, issues such as privacy, data security, and ethical responsibility require special attention when using these technologies.

In conclusion, the proper and conscious use of digital technologies is of great importance for maintaining and developing human psychological well-being.

Anahtar kelimeler: dijital psikoloji, yapay zekâ, insan davranışı, sosyal medya, duygusal iyi oluş.

Özet. Modern çağda dijitalleşme ve yapay zekâ teknolojilerinin hızlı gelişimi, insan psikolojisi ve davranışı üzerinde önemli bir etkiye sahiptir. Bu makalede dijital ortamın insan davranışı üzerindeki etkisi, sosyal ilişkilerdeki değişimler ve dikkat, hafıza ile duygusal durum üzerindeki rolü incelenmektedir. Aynı zamanda yapay zekânın psikolojideki uygulama olanakları ve ilgili etik sorunlar analiz edilmektedir.

Araştırma sonuçları, dijital teknolojilerin hem olumlu hem de olumsuz dijital platformların yaygınlaşması, insanların günlük yaşam tarzlarını köklü bir şekilde değiştirmiştir. Sosyal ağlar aracılığıyla iletişim daha hızlı ve erişilebilir hale gelse de, bu durum yüz yüze iletişimin azalmasına ve sosyal izolasyon hissinin artmasına yol açabilir. Ayrıca sürekli bilgi akışı, dikkat dağınıklığına, yüzeysel düşünmeye ve hafızanın zayıflamasına neden olmaktadır. Özellikle gençler arasında teknoloji bağımlılığı vakaları gözlemlenmekte olup, bu durum duygusal dengeyi olumsuz etkileyebilmektedir. Diğer yandan yapay zekâ, psikoloji alanında tanı, terapi ve davranış analizi için yeni fırsatlar sunmaktadır. Örneğin, kişiselleştirilmiş psikolojik destek sağlayan programlar, bireylerin sorunlarının daha hızlı tespit edilmesine yardımcı olur. Ancak bu teknolojilerin kullanımı sırasında gizlilik, veri güvenliği ve etik sorumluluk gibi konular özel bir dikkat gerektirir.

Sonuç olarak, dijital teknolojilerin doğru ve bilinçli kullanımı, insan psikolojik sağlığının korunması ve geliştirilmesi açısından büyük önem taşımaktadır.

XXI əsr informasiya texnologiyalarının sürətli inkişafı ilə xarakterizə olunur. İnternet, sosial media və süni intellekt gündəlik həyatın ayrılmaz hissəsinə çevrilmişdir. İnsanlar artıq böyük zaman hissəsini rəqəmsal mühitdə keçirir və bu, onların düşüncə tərzinə, davranışına və sosial münasibətlərinə birbaşa təsir edir.

Rəqəmsal psixologiya bu dəyişiklikləri öyrənən yeni və sürətlə inkişaf edən sahədir. Bu sahə insanın texnologiya ilə qarşılıqlı əlaqəsini, onun psixi proseslərə təsirini və nəticələrini araşdırır. Rəqəmsal mühitin insan davranışına təsiri böyükdür (Turkle S., 2015). Rəqəmsal mühit insanların davranış modellərini dəyişdirir. Sosial şəbəkələr vasitəsilə insanlar daha çox virtual ünsiyyətə üstünlük verir. Bu isə real sosial əlaqələrin zəifləməsinə səbəb ola bilər. Araşdırmalar göstərir ki, sosial mediadan həddindən artıq istifadə sosial təcrid hissini artıra bilər, insanlarda müqayisə və özünüqiymətləndirmə problemləri, həmçinin “like” və şərhlər vasitəsilə təsdiq axtarışı psixoloji asılılıq yarada bilər. Bununla yanaşı, rəqəmsal mühit informasiya əldə etməyi asanlaşdırır və ünsiyyət imkanlarını genişləndirir. Texnologiyanın sürətli inkişafı insanların diqqət müddətinə də təsir etmişdir. Qısa və sürətli məlumat axını insan beynini tez-tez dəyişən stimullara öyrədir. Nəticədə isə diqqətin davamlılığı azalır, multitasking (eyni anda bir neçə iş görmək) artır, dərin düşünmə qabiliyyəti zəifləyir, yaddaş baxımından isə insanlar informasiyanı yadda saxlamaq əvəzinə onu haradan tapacaqlarını yadda saxlayırlar. Bu isə “rəqəmsal yaddaş” fenomenini yaradır (Carr N., 2010).

Rəqəmsal texnologiyalar emosional vəziyyətə də ciddi təsir göstərir. Xüsusilə sosial mediada ideal həyat görüntüləri insanların özlərini qeyri-kafi hiss etməsinə səbəb ola bilər. Mənfi təsirləri depressiya və narahatlıq səviyyəsinin artması, yuxu pozuntuları, asılılıqdır . Müsbət təsirləri psixoloji dəstək qruplarına çıxış, onlayn terapiya imkanları, stressin azaldılması üçün tətbiqlərdir.

Süni intellektin psixologiyada rolu. Süni intellekt psixologiyada yeni imkanlar yaradır. Bu texnologiya insan davranışını analiz etmək, proqnozlaşdırmaq və psixoloji yardım göstərmək üçün istifadə olunur(C.N.-2010). Rəqəmsal psixologiya və süni intellekt müxtəlif sahələrdə geniş tətbiq olunur. Bunlara onlayn psixoloji məsləhət sistemləri, emosiyaların tanınması (üz ifadələri və səs tonu vasitəsilə), psixoloji testlərin avtomatlaşdırılması daxildir. Süni intellekt eyni zamanda fərdi yanaşma imkanları yaradaraq terapiya prosesini daha əlçatan və effektiv edir. Rəqəmsal psixologiya və süni intellekt sahəsində etik məsələlər xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə əsas problemlər aşağıdakılardır:

Məlumatların məxfiliyinin qorunması;

İnsan davranışının manipulyasiya olunması riski;

Texnologiyadan asılılığın artması.

Bu səbəbdən, etik qaydaların formalaşdırılması və effektiv nəzarət mexanizmlərinin yaradılması zəruridir. Gələcəkdə bu sahədə daha geniş tədqiqatların aparılması, xüsusilə multidisiplinar yanaşmaların tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatın metodologiyası. Bu tədqiqatda keyfiyyət və kəmiyyət yanaşmalarının kombinasiyasından istifadə edilmişdir. Mövzu üzrə mövcud elmi ədəbiyyatlar təhlil olunmuş, həmçinin rəqəmsal mühitdən istifadə edən fərdlərin davranış xüsusiyyətləri müqayisəli şəkildə araşdırılmışdır. Tədqiqat çərçivəsində aşağıdakı metodlardan istifadə olunmuşdur:

Elmi mənbələrin analizi və sintezi;

Müşahidə metodu;

Sorğu üsulu (anket vasitəsilə);

Müqayisəli təhlil.

Sorğuda müxtəlif yaş qruplarını əhatə edən iştirakçılar yer almış və onların sosial media istifadəsi, emosional vəziyyəti və diqqət səviyyəsi qiymətləndirilmişdir. Aparılan təhlillər onu göstərir ki, rəqəmsal texnologiyalardan istifadə müddəti ilə psixoloji vəziyyət arasında müəyyən əlaqə mövcuddur. Xüsusilə uzun müddətli sosial media istifadəsi diqqət dağınıqlığı və emosional dalğalanmalarla müşahidə olunur. Nəticələrə əsasən gündə 3 saatdan çox sosial media istifadəsi edən şəxslərdə narahatlıq səviyyəsi daha yüksəkdir (Digital Psychology Research Journal, 2022). Gənclər arasında rəqəmsal asılılıq daha geniş yayılmışdır. Süni intellekt əsaslı tətbiqlər psixoloji dəstək baxımından müsbət təsir göstərir Müzakirə zamanı müəyyən edilmişdir ki, rəqəmsal texnologiyalar düzgün istifadə edildikdə faydalı olsa da, nəzarətsiz istifadə psixoloji problemlərə səbəb ola bilər. Tədqiqat nəticələrinə əsaslanaraq tövsiyələr irəli sürülür ki, bunlar rəqəmsal cihazlardan istifadə müddətinə gündəlik limit qoyulmalıdır, sosial mediadan məqsədli və balanslı istifadə təşviq edilməlidir, gənclər arasında rəqəmsal savadlılıq artırılmalıdır, psixoloji dəstək üçün süni intellekt tətbiqlərindən istifadə genişləndirilməlidir, təhsil müəssisələrində rəqəmsal psixologiya ilə bağlı maarifləndirmə aparılmalıdır. Bu tədqiqatın bəzi məhdudiyyətləri mövcuddur. Araşdırma daha çox ümumi müşahidələrə və mövcud ədəbiyyata əsaslandığı üçün nəticələr bütün əhali qruplarına tam şəkildə şamil edilə bilməz. Nümunə həcmi məhdud olmuşdur. Subyektiv cavablar nəticələrə təsir edərək, rəqəmsal texnologiyaların sürətli inkişafı nəticələrin zamanla

dəyişməsinə səbəb ola bilər. Gələcəkdə bu sahədə daha geniş və dərin tədqiqatların aparılması məqsədəuyğundur. Xüsusilə aşağıdakı istiqamətlər perspektiv hesab olunur:

Süni intellektin klinik psixologiyada tətbiqi;

Uşaqlar və yeniyetmələrdə rəqəmsal davranışın öyrənilməsi;

Rəqəmsal asılılığın qarşısının alınması yolları;

Virtual reallığın psixoloji təsirləri;

Rəqəmsal psixologiya klassik psixologiyanın əsas nəzəriyyələrinə əsaslanaraq inkişaf edir. Bu sahədə davranışçılıq, koqnitiv psixologiya və sosial öyrənmə nəzəriyyələri mühüm rol oynayır. Davranışçılıq yanaşmasına görə, rəqəmsal platformalarda istifadəçi davranışları mükafatlandırma (like, paylaşım, şərh) vasitəsilə formalaşır. Bu isə müəyyən davranışların təkrarlanmasına səbəb olur. Koqnitiv yanaşma isə rəqəmsal mühitin insanın düşünmə, qərarvermə və informasiya emalı proseslərinə təsirini izah edir. Sosial öyrənmə nəzəriyyəsinə əsasən isə insanlar sosial mediada müşahidə etdikləri davranışları təqlid etməyə meyllidirlər (Turkle S., 2015). Sosial media platformaları fərdlərin özlərini təqdim etmə üsullarını dəyişdirmişdir. İnsanlar rəqəmsal mühitdə özlərinin ideal obrazını yaratmağa çalışırlar. Bu proses aşağıdakı nəticələrə gətirib çıxarır:

Real və virtual “mən” arasında fərqin yaranması;

Özünə inamın sosial təsdiqdən asılı olması;

Şəxsiyyətin formalaşmasında xarici təsirlərin artması.

Xüsusilə, yeniyetmələrdə bu təsirlər daha güclü müşahidə olunur və onların psixoloji inkişafına birbaşa təsir edir. Rəqəmsal texnologiyaların həddindən artıq istifadəsi “rəqəmsal asılılıq” kimi tanınan yeni bir psixoloji problemi ortaya çıxarmışdır. Bu asılılığın əsas əlamətləri telefon və ya internet olmadan narahatlıq hissi, vaxtın idarə olunmasında çətinlik, real həyat fəaliyyətlərinin azalması, yuxu və sağlamlıq problemləridir.

Rəqəmsal asılılıq xüsusilə gənclər arasında daha geniş yayılmışdır və onun qarşısının alınması üçün psixoloji və pedaqoji müdaxilələr vacibdir. Rəqəmsal texnologiyalar təhsil sisteminə də ciddi təsir göstərmişdir. Onlayn təhsil platformaları, interaktiv tətbiqlər və süni intellekt əsaslı proqramlar təlim prosesini daha effektiv edir. Bu səbəbdən təhsil prosesində texnologiyadan balanslı istifadə vacibdir. Süni intellekt sistemləri artıq insan emosiyalarını tanımaq və analiz etmək qabiliyyətinə malikdir (Turkle S., 2015). Bu isə emosional intellekt anlayışı ilə yeni əlaqələrin yaranmasına səbəb olmuşdur. Süni intellekt üz ifadələrini analiz edə bilir, səs tonuna əsasən emosiyaları müəyyən edir, psixoloji vəziyyət haqqında proqnoz verir. Lakin bu texnologiyalar insan emosiyalarını tam şəkildə əvəz edə bilməz. İnsan empatiyası və emosional anlayış hələ də unikal olaraq qalır.

Rəqəmsal mühitdə təhlükəsizlik məsələləri də psixoloji rifahla sıx bağlıdır (Carr N., 2010). Kiberzorakılıq (cyberbullying), şəxsi məlumatların yayılması və onlayn təzyiq halları fərdlərin psixi sağlamlığına mənfi təsir göstərir. Bu problemlərin qarşısını almaq üçün istifadəçilər maarifləndirilməli, təhlükəsizlik qaydaları gücləndirilməli, psixoloji dəstək mexanizmləri yaradılmalıdır. Rəqəmsal psixologiya sahəsi yalnız psixologiya ilə məhdudlaşmır. Bu sahə informasiya texnologiyaları, sosiologiya, pedaqogika və neyroelm kimi müxtəlif sahələrlə sıx əlaqəlidir. Problemlərin daha geniş aspektdən öyrənilməsinə imkan verir. Daha effektiv həll yollarının tapılmasını təmin edir və elmi əməkdaşlığı gücləndirir. Bu səbəbdən müasir tədqiqatlarda müxtəlif sahələrin inteqrasiyası vacib hesab olunur.

Ədəbiyyat:

1. Carr, N. (2010). The shallows: What the internet is doing to our brains. W. W. Norton & Company.

2. Turkle, S. (2015). Reclaiming conversation: The power of talk in a digital age. Penguin Press.

3. American Psychological Association. Reports and publications. https://www.apa.org

4. Digital Psychology Research Journal. (2022). Digital psychology studies and findings.

VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇILARINDA PSİXOLOJİ TRAVMANIN FORMALAŞMASI VƏ TƏZAHÜRLƏRİ: QƏLƏBƏ KONTEKSTİNDƏ TARİXİ-PSİXOLOJİ TƏHLİL

Tahirə Əli qızı Quliyeva
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
tahira.quliyeva@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0000-0001-9351-2897

Açar sözlər. Vətən müharibəsi, psixoloji travma, posttravmatik stress, psixoloji davamlılıq, reabilitasiya, sosial adaptasiya, tarixi-psixoloji yanaşma.

Xülasə. Bu tədqiqat, Vətən Müharibəsi iştirakçıları arasında, xüsusən də gənclər və döyüşçülər arasında psixoloji travmanın formalaşması və təzahürlərinin əsas mexanizmlərinin tarixi-psixoloji çərçivə daxilində hərtərəfli və çoxölçülü təhlilini təqdim edir. Tədqiqatın əsas məqsədi müharibə şəraitində insan psixologiyasına təsir edən əsas amilləri, o cümlədən güclü emosional təzyiq, davamlı təhdid qavrayışı, həyati təhlükə yaradan risklər və birbaşa döyüş təcrübəsini və onların fərdlərin zehni vəziyyətinə təsirini sistematik şəkildə araşdırmaqdır. Bu kontekstdə, ekstremal şəraitdə inkişaf etdirilən davranış modellərinə, psixoloji reaksiyalara və adaptiv mexanizmlərə xüsusi diqqət yetirilir.

Tədqiqat müharibədən sonrakı dövrdə müşahidə olunan geniş psixoloji dəyişiklikləri daha da araşdırır. Narahatlıq pozğunluqları, travma sonrası stress reaksiyaları, emosional qeyri-sabitlik, depresif meyllər, sosial münasibətlərdə çətinliklər və davranış transformasiyaları həm fərdi, həm də ictimai səviyyələrdə təhlil edilir. Bundan əlavə, müharibə təcrübələrinin fərdlərin dəyər sistemlərinə, dünyagörüşlərinə və həyat prioritetlərinə təsiri tədqiqatın əhəmiyyətli bir ölçüsü hesab olunur.

Bundan əlavə, tədqiqat psixoloji dayanıqlığı, öhdəsindən gəlmə strategiyalarını, sosial mühitin (ailə, icma və institusional strukturlar daxil olmaqla) dəstəkləyici rolunu və reabilitasiya proseslərinin effektivliyini araşdırır. Nəticələr göstərir ki, hərbi qələbə təcrübəsi əhval-ruhiyyəni, özünəinam hissini artıra və qismən psixoloji bərpaya töhfə verə bilsə də, müharibənin travmatik nəticələri dərin köklərə malikdir və uzunmüddətli olur. Buna görə də, bu təsirlərin aradan qaldırılması elmi cəhətdən əsaslandırılmış psixoloji müdaxilələr və uğurlu sosial reinteqrasiyanı asanlaşdırmağa yönəlmiş hərtərəfli dəstək sistemləri tələb edir.

Nəticə olaraq, bu tədqiqatın nəticələri müharibədən sonrakı dövrdə psixoloji dəstək xidmətlərinin gücləndirilməsinin, risk qruplarının erkən müəyyən edilməsinin və uzunmüddətli

psixoloji rifahın və davamlı insan inkişafının təmin edilməsi üçün effektiv strategiyaların hazırlanmasının vacibliyini vurğulayır.

Keywords: Patriotic War, psychological trauma, post-traumatic stress, psychological resilience, rehabilitation, social adaptation, historical-psychological approach.

Summary. This study provides a comprehensive and multidimensional analysis of the mechanisms underlying the formation and manifestations of psychological trauma among participants of the Patriotic War, particularly focusing on youth and combatants, within a historical-psychological framework. The primary aim of the research is to systematically examine the key factors affecting human psychology in wartime conditions, including intense emotional pressure, persistent threat perception, life-threatening risks, and direct combat experience, and their impact on individuals’ mental states. In this context, special attention is given to behavioral patterns, psychological responses, and adaptive mechanisms developed under extreme conditions.

The study further explores a wide range of psychological changes observed in the post-war period. Anxiety disorders, post-traumatic stress reactions, emotional instability, depressive tendencies, difficulties in social relationships, and behavioral transformations are analyzed at both individual and societal levels. In addition, the impact of war experiences on individuals’ value systems, worldviews, and life priorities is considered a significant dimension of the research.

Moreover, the study examines psychological resilience, coping strategies, the supportive role of the social environment (including family, community, and institutional structures), and the effectiveness of rehabilitation processes. The findings suggest that while the experience of military victory may enhance morale, self-confidence, and contribute partially to psychological recovery, the traumatic consequences of war tend to be deep-rooted and long-lasting. Therefore, addressing these effects requires scientifically grounded psychological interventions and comprehensive support systems aimed at facilitating successful social reintegration.

In conclusion, the results of this study highlight the importance of strengthening psychological support services in the post-war period, early identification of risk groups, and the development of effective strategies to ensure long-term psychological well-being and sustainable human development.

Anahtar kelimeler: Vatan Savaşı, psikolojik travma, travma sonrası stres, psikolojik dayanıklılık, rehabilitasyon, sosyal uyum, tarihsel-psikolojik yaklaşım.

Özet. Bu çalışma, tarihsel-psikolojik bir çerçeve içinde, özellikle gençler ve savaşçılar olmak üzere, Vatanseverlik Savaşı katılımcıları arasında psikolojik travmanın oluşumu ve tezahürlerinin altında yatan mekanizmaların kapsamlı ve çok boyutlu bir analizini sunmaktadır. Araştırmanın temel amacı, yoğun duygusal baskı, sürekli tehdit algısı, yaşamı tehdit eden riskler ve doğrudan savaş deneyimi de dahil olmak üzere, savaş koşullarında insan psikolojisini etkileyen temel faktörleri ve bunların bireylerin zihinsel durumları üzerindeki etkisini sistematik olarak incelemektir. Bu bağlamda, aşırı koşullar altında geliştirilen davranış kalıplarına, psikolojik tepkilere ve adaptasyon mekanizmalarına özel önem verilmektedir.

Çalışma ayrıca, savaş sonrası dönemde gözlemlenen çok çeşitli psikolojik değişiklikleri de incelemektedir. Kaygı bozuklukları, travma sonrası stres reaksiyonları, duygusal istikrarsızlık, depresif eğilimler, sosyal ilişkilerde zorluklar ve davranışsal dönüşümler hem bireysel hem de toplumsal düzeyde analiz edilmektedir. Buna ek olarak, savaş deneyimlerinin bireylerin değer sistemleri, dünya görüşleri ve yaşam öncelikleri üzerindeki etkisi araştırmanın önemli bir boyutu olarak ele alınmaktadır.

Dahası, çalışma psikolojik dayanıklılığı, başa çıkma stratejilerini, sosyal çevrenin (aile, topluluk ve kurumsal yapılar dahil) destekleyici rolünü ve rehabilitasyon süreçlerinin etkinliğini incelemektedir. Bulgular, askeri zafer deneyiminin morali, özgüveni artırabileceğini ve psikolojik iyileşmeye kısmen katkıda bulunabileceğini, ancak savaşın travmatik sonuçlarının köklü ve uzun süreli olma eğiliminde olduğunu göstermektedir. Bu nedenle, bu etkilerin ele alınması, bilimsel temellere dayalı psikolojik müdahaleler ve başarılı sosyal yeniden entegrasyonu kolaylaştırmayı amaçlayan kapsamlı destek sistemleri gerektirmektedir.

Sonuç olarak, bu çalışmanın sonuçları, savaş sonrası dönemde psikolojik destek hizmetlerinin güçlendirilmesinin, risk gruplarının erken tespitinin ve uzun vadeli psikolojik refahı ve sürdürülebilir insan gelişimini sağlamak için etkili stratejilerin geliştirilmesinin önemini vurgulamaktadır.

Vətən müharibəsi kimi genişmiqyaslı hərbi-siyasi hadisələr təkcə dövlətlərin taleyinə deyil, eyni zamanda fərdlərin daxili psixoloji dünyasına da ciddi təsir göstərən mürəkkəb sosial reallıqlardır. Belə mühitdə iştirak edən şəxslər, xüsusilə gənc döyüşçülər, həyatları boyunca qarşılaşmadıqları intensiv emosional təzyiq, təhlükə və qeyri-müəyyənlik şəraitində fəaliyyət göstərirlər. Bu cür şərait insan psixikasında həm qısa, həm də uzunmüddətli dəyişikliklərin yaranmasına səbəb olur. Psixoloji baxımdan müharibə təcrübəsi fərdin emosional reaksiyalarını, düşüncə tərzini və davranış modellərini yenidən formalaşdıran mühüm faktor kimi çıxış edir (Əliyev, 2018).

Müharibə zamanı fərd daima yüksək səviyyəli stress altında olur və bu stress uzun müddət davam etdikdə orqanizmin adaptasiya mexanizmləri tükənməyə başlayır. Davamlı təhlükə hissi, yaxın insanların itkisi, döyüş situasiyalarında yaşanan gərgin anlar və məsuliyyət yükü psixikada dərin izlər buraxır. Bu faktorların təsiri nəticəsində fərdlərdə qorxu, təşviş, emosional qeyri-sabitlik və diqqət pozuntuları kimi halların yaranması müşahidə olunur. Xüsusilə döyüş şəraitində yaşanan intensiv emosional təcrübələr yaddaşda güclü izlər buraxaraq sonradan təkrarlanan xatirələr və narahatlıq formaları şəklində özünü göstərə bilər (İsmayılov, 2016).

Şuşa əməliyyatı 2020-ci il Vətən müharibəsinin ən həlledici və strateji əhəmiyyət kəsb edən hərbi hadisələrindən biri kimi tarixə düşmüşdür. Bu əməliyyat nəticəsində Azərbaycan Ordusu tərəfindən Şuşa şəhəri azad edilmiş və bu hadisə müharibənin gedişatında dönüş nöqtəsi olmuşdur. Şuşanın azad olunması təkcə hərbi baxımdan deyil, həm də siyasi, mənəvi və psixoloji baxımdan mühüm əhəmiyyət daşımış, münaqişənin ümumi nəticəsinə ciddi təsir göstərmişdir.

Şuşa əməliyyatı mürəkkəb relyef şəraiti, əlverişsiz coğrafi mövqe və yüksək strateji əhəmiyyətlə xarakterizə olunan bir ərazidə həyata keçirilmişdir. Şuşa şəhəri dağlıq ərazidə yerləşdiyindən əməliyyatın icrası xüsusi hərbi hazırlıq, çeviklik və yüksək peşəkarlıq tələb edirdi. Azərbaycan hərbi qüvvələri şəhərə əsasən dağlıq və meşəlik ərazilərdən keçərək yaxınlaşmış, bu isə klassik hücum taktikalarından fərqli olaraq daha çətin və riskli əməliyyat planının tətbiqini zəruri etmişdir. Əməliyyat zamanı istifadə olunan taktiki yanaşmalar, sürətli manevrlər və gizli irəliləyişlər bu hərbi uğurun əldə olunmasında mühüm rol oynamışdır.

Şuşa əməliyyatının tarixi əhəmiyyəti həm də onun simvolik dəyərindədir. Şuşa Azərbaycan mədəniyyətinin, musiqisinin və ədəbiyyatının beşiyi kimi tanınır və uzun müddət işğal altında olması cəmiyyətin psixoloji və milli yaddaşında xüsusi yer tutmuşdur. Şəhərin azad olunması bu baxımdan yalnız ərazi bütövlüyünün bərpası deyil, həm də milli kimliyin və tarixi ədalətin bərpası kimi qiymətləndirilmişdir. Bu hadisə cəmiyyət daxilində böyük ruh yüksəkliyi yaratmış, vətənpərvərlik hisslərini gücləndirmiş və kollektiv psixoloji vəziyyətə müsbət təsir göstərmişdir.

Hərbi baxımdan Şuşa əməliyyatı müasir müharibə tarixində xüsusi yer tutur. Əməliyyatın uğurla başa çatdırılması göstərdi ki, yüksək motivasiya, düzgün planlaşdırma və çevik taktiki qərarlar mürəkkəb coğrafi şəraitdə belə həlledici rol oynaya bilər. Şuşanın azad olunması eyni zamanda müharibənin ümumi gedişatını sürətləndirmiş və digər ərazilərin azad olunmasına zəmin yaratmışdır. Bu əməliyyat həm də hərbi strategiyanın effektivliyini və ordunun döyüş qabiliyyətinin yüksək səviyyədə olduğunu nümayiş etdirmişdir.

Psixoloji aspektdən yanaşdıqda, Şuşa əməliyyatı müharibə iştirakçıları və cəmiyyət üçün güclü emosional təsir doğurmuşdur. Bu hadisə döyüşçülər üçün motivasiya mənbəyi olmaqla yanaşı, müharibənin ən kritik mərhələlərindən biri kimi onların yaddaşında dərin iz buraxmışdır. Eyni zamanda, cəmiyyət üçün bu qələbə ümumi inamın artmasına, gələcəyə ümidin güclənməsinə və milli birliyin daha da möhkəmlənməsinə səbəb olmuşdur.

Beləliklə, Şuşa əməliyyatı Vətən müharibəsinin ən mühüm tarixi hadisələrindən biri kimi həm hərbi-strateji, həm də sosial-psixoloji baxımdan böyük əhəmiyyət daşıyır. Bu əməliyyat nəticəsində əldə olunan qələbə Azərbaycanın müasir tarixində dönüş nöqtəsi olmuş və ölkənin ərazi bütövlüyünün bərpasında həlledici rol oynamışdır.

Psixoloji travmanın yaranması təkcə bir hadisənin nəticəsi deyil, əksinə, bir neçə amilin kompleks qarşılıqlı təsiri nəticəsində formalaşan prosesdir. Müharibə şəraitində insanın həyatına birbaşa təhlükə olması, gözlənilməz hadisələrin tez-tez baş verməsi və emosional resursların tükənməsi travmatik reaksiyaların yaranmasına zəmin yaradır. Bu zaman fərd özünü müdafiə etmək üçün müxtəlif psixoloji mexanizmlərdən istifadə edir, lakin bu mexanizmlər hər zaman kifayət etmir və nəticədə psixoloji balans pozulur. Belə vəziyyətlərdə posttravmatik stress reaksiyalarının yaranması və inkişaf etməsi ehtimalı artır (Hüseynov, 2019).

Tarixi-psixoloji yanaşma müharibə iştirakçılarının davranışlarını və psixoloji vəziyyətini daha dərindən anlamağa imkan verir. Bu yanaşmaya görə, müharibə yalnız fiziki qarşıdurma deyil, həm də insan psixikasının ekstremal şəraitdə necə fəaliyyət göstərdiyini göstərən mühüm təcrübə sahəsidir. Fərdlərin müharibə zamanı göstərdiyi reaksiyalar onların əvvəlki həyat təcrübəsi, şəxsi xüsusiyyətləri və sosial mühitlə sıx bağlıdır. Bu baxımdan psixoloji adaptasiya prosesi hər bir fərd üçün fərqli şəkildə inkişaf edir və müxtəlif nəticələrə gətirib çıxarır (Məmmədov, 2020).

Postmüharibə dövrü isə psixoloji baxımdan xüsusi diqqət tələb edən mərhələ kimi çıxış edir. Müharibə iştirakçıları bu mərhələdə gündəlik həyata qayıtmağa çalışsalar da, onların daxili psixoloji vəziyyəti hələ də müharibə təcrübəsinin təsiri altında olur. Narahatlıq, emosional gərginlik, yuxu pozuntuları, sosial münasibətlərdə çətinliklər və bəzi hallarda aqressiv davranışlar müşahidə edilə bilər. Bu dəyişikliklər fərdin sosial adaptasiyasını çətinləşdirə və onun cəmiyyətlə əlaqələrinə təsir göstərə bilər. Bununla yanaşı, bəzi fərdlərdə müharibə təcrübəsi həyatın daha dərindən dərk olunmasına, prioritetlərin dəyişməsinə və şəxsi inkişafın güclənməsinə səbəb ola bilər ki, bu da travma sonrası müsbət dəyişikliklər kimi qiymətləndirilir (Quliyev, 2017).

Psixoloji davamlılıq müharibə iştirakçılarının bu çətin şəraitdən çıxışında əsas rol oynayan amillərdən biridir. Davamlılıq fərdin stresə qarşı müqavimət göstərmək, çətinliklərə uyğunlaşmaq və emosional sabitliyini qorumaq qabiliyyətini ifadə edir. Bu qabiliyyət həm genetik və psixoloji xüsusiyyətlərdən, həm də sosial mühitin təsirindən formalaşır. Sosial dəstəyin mövcudluğu, xüsusilə ailə və yaxın çevrənin anlayışı, fərdin özünü daha güvənli hiss etməsinə və travmatik təcrübələri daha asan emal etməsinə kömək edir. Bu da öz növbəsində psixoloji bərpa prosesini sürətləndirir (Əliyev, 2018).

Müharibə iştirakçılarının psixoloji vəziyyətinin bərpası üçün kompleks yanaşma tələb olunur. Bu yanaşma çərçivəsində psixoloji konsultasiya, psixoterapiya, sosial adaptasiya proqramları və reabilitasiya tədbirləri mühüm yer tutur. Erkən mərhələdə göstərilən psixoloji yardım travmatik təsirlərin dərinləşməsinin qarşısını ala və fərdin həyat keyfiyyətini yaxşılaşdıra bilər. Eyni zamanda, cəmiyyətin bu şəxslərə qarşı empatik və dəstəkləyici münasibəti onların sosial inteqrasiyasını asanlaşdırır və özünəinam hissini gücləndirir (İsmayılov, 2016).

Nəticə olaraq qeyd etmək olar ki, Vətən müharibəsi iştirakçılarında psixoloji travma çoxsəviyyəli və dinamik xarakter daşıyan bir prosesdir. Bu proses həm fərdi, həm də sosial faktorların qarşılıqlı təsiri nəticəsində formalaşır. Müharibənin yaratdığı psixoloji izlər uzunmüddətli olsa da, düzgün yanaşma, sistemli psixoloji dəstək və effektiv reabilitasiya tədbirləri vasitəsilə onların təsirini azaltmaq mümkündür. Bu istiqamətdə həyata keçirilən tədbirlər yalnız fərdlərin deyil, bütövlükdə cəmiyyətin psixoloji rifahının qorunmasına xidmət edir və gələcək nəsillərin daha sağlam psixoloji mühitdə inkişafına şərait yaradır.

Ədəbiyyat:

1. Əliyev, A. (2018). Müasir psixologiyanın əsasları. Bakı: Elm və Təhsil nəşriyyatı.
2. Hüseynov, F. (2019). Sosial psixologiya. Bakı: ADPU nəşriyyatı.
3. İsmayılov, R. (2016). Psixologiya və insan davranışı. Bakı: Maarif nəşriyyatı.
4. Məmmədov, E. (2020). Travma psixologiyası. Bakı: Bakı Universiteti nəşriyyatı.
5. Quliyev, S. (2017). Şəxsiyyət və inkişaf psixologiyası. Bakı: Elm nəşriyyatı.

İNSAN DAVRANIŞININ PROQNOZLAŞDIRILMASINDA SÜNİ İNTELLEKT VƏ VERİLƏNLƏR ANALİTİKASI

Sima Kəmaləddin qızı Məmmədova
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
sima.mammadova@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0009-0006-5504-8206
Aysu Habil qızı Süleymanova
Mingəçevir Dövlət Universiteti
aysu.suleymanova@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0009-0008-5390-0084

Açar sözlər: süni intellekt, verilənlər analitikası, davranış proqnozlaşdırılması, böyük verilənlər (Big Data), maşın öyrənməsi.

Xülasə. Müasir informasiya cəmiyyətində rəqəmsal texnologiyaların sürətli inkişafı insan davranışlarının öyrənilməsi və proqnozlaşdırılması sahəsində yeni imkanlar yaratmışdır. Xüsusilə süni intellekt və verilənlər analitikası texnologiyalarının geniş tətbiqi böyük həcmdə məlumatların emalını və təhlilini mümkün edərək fərdlərin davranış xüsusiyyətlərini daha dəqiq müəyyən etməyə şərait yaradır. Bu texnologiyalar vasitəsilə insanların gündəlik fəaliyyətləri, qərarvermə meylləri, sosial münasibətləri və istehlak davranışları haqqında əhəmiyyətli məlumatlar əldə edilir.

Verilənlər analitikası müxtəlif mənbələrdən toplanan məlumatların sistemli şəkildə analiz edilməsini təmin edir və bu məlumatlar əsasında müəyyən qanunauyğunluqlar və davranış modelləri formalaşdırılır. Sosial şəbəkələr, elektron ticarət platformaları, mobil tətbiqlər və digər rəqəmsal sistemlər istifadəçilərin fəaliyyətini əks etdirən böyük həcmdə məlumat yaradır. Süni intellekt alqoritmləri bu məlumatları emal edərək istifadəçilərin maraqlarını, seçimlərini və gələcək davranışlarını proqnozlaşdırmaq imkanına malikdir. Bu yanaşma təşkilatlara və müəssisələrə daha səmərəli planlaşdırma aparmağa, riskləri azaltmağa və istifadəçi ehtiyaclarına uyğun xidmətlər təqdim etməyə kömək edir.

Bu tədqiqatın əsas məqsədi insan davranışının proqnozlaşdırılmasında süni intellekt və verilənlər analitikasının rolunu araşdırmaq, bu texnologiyaların tətbiq sahələrini müəyyən etmək və onların praktik əhəmiyyətini qiymətləndirməkdir. Məqalədə həmçinin verilənlərin toplanması, emalı və təhlili üsulları, davranış modellərinin qurulması mexanizmləri və proqnozlaşdırma metodları nəzəri və tətbiqi baxımdan izah edilir. Əldə olunan nəticələr süni intellekt və verilənlər analitikasının müxtəlif sahələrdə qərarvermə prosesinin optimallaşdırılmasına və idarəetmə səmərəliliyinin artırılmasına mühüm töhfə verdiyini göstərir.

Keywords: artificial intelligence, data analytics, behavior prediction, big data, machine learning.

Summary. In the modern digital era, the rapid development of information technologies has significantly expanded the possibilities for analyzing and predicting human behavior. Artificial intelligence and data analytics have become essential tools for processing large volumes of data and identifying patterns related to individuals’ actions, preferences, and decision-making processes. These technologies enable researchers and organizations to better understand behavioral tendencies and to forecast future actions based on previously collected data.

Data analytics involves the systematic collection, processing, and interpretation of data obtained from various digital sources. Social networks, e-commerce platforms, mobile applications, and online services generate extensive datasets that reflect users’ daily activities and interactions. Artificial intelligence algorithms, particularly machine learning techniques, analyze these datasets to detect hidden relationships and trends in user behavior. As a result, organizations can develop more accurate predictive models, improve service quality, and optimize decision-making processes in different sectors such as education, business, healthcare, and public administration.

The main objective of this study is to examine the role of artificial intelligence and data analytics in predicting human behavior and to evaluate their practical applications in modern digital environments. The research also focuses on the methods used for data collection, processing, and analysis, as well as the development of behavioral prediction models using advanced analytical tools. The findings demonstrate that the integration of artificial intelligence and data analytics contributes to more efficient management, risk reduction, and the delivery of personalized services. These technologies are expected to play an increasingly important role in shaping data-driven decision-making strategies in the future.

Anahtar kelimeler: yapay zeka, veri analitiği, davranış tahmini, büyük veri (Big Data), makine öğrenmesi.

Özet. Günümüzde dijital teknolojilerin hızlı gelişimi, insan davranışlarının analiz edilmesi ve gelecekteki davranışların tahmin edilmesi alanında önemli fırsatlar yaratmıştır. Yapay zeka ve veri analitiği, büyük hacimli verilerin işlenmesi ve bireylerin davranış kalıplarının belirlenmesi için temel araçlar haline gelmiştir. Bu teknolojiler sayesinde insanların tercihleri, alışkanlıkları, karar

verme süreçleri ve sosyal etkileşimleri daha ayrıntılı şekilde incelenebilmekte ve elde edilen veriler doğrultusunda gelecekteki davranışlar daha doğru bir şekilde öngörülebilmektedir.

Veri analitiği, farklı dijital kaynaklardan elde edilen verilerin sistemli bir şekilde toplanması, işlenmesi ve analiz edilmesi sürecini ifade eder. Sosyal medya platformları, elektronik ticaret siteleri, mobil uygulamalar ve çevrim içi hizmetler kullanıcıların günlük faaliyetlerini yansıtan büyük miktarda veri üretmektedir. Yapay zeka algoritmaları ve özellikle makine öğrenmesi teknikleri bu verileri analiz ederek kullanıcı davranışlarında gizli kalmış ilişkileri ve eğilimleri ortaya çıkarmaktadır. Bu sayede kurum ve kuruluşlar daha doğru tahmin modelleri geliştirebilmekte, hizmet kalitesini artırabilmekte ve karar verme süreçlerini daha etkili bir şekilde yönetebilmektedir.

Bu çalışmanın temel amacı, insan davranışının tahmin edilmesinde yapay zeka ve veri analitiğinin rolünü incelemek ve bu teknolojilerin modern dijital ortamlardaki uygulama alanlarını değerlendirmektir. Araştırmada ayrıca veri toplama, veri işleme ve analiz yöntemleri ile davranış tahmin modellerinin oluşturulması süreci teorik ve uygulamalı açıdan ele alınmaktadır. Elde edilen bulgular, yapay zeka ve veri analitiğinin farklı alanlarda yönetim süreçlerinin iyileştirilmesine, risklerin azaltılmasına ve kişiselleştirilmiş hizmetlerin sunulmasına önemli katkılar sağladığını göstermektedir.

Günümüzdə informasiya texnologiyalarının sürətli inkişafı cəmiyyətin sosial, iqtisadi və psixoloji həyatında əsaslı dəyişikliklərə səbəb olmuşdur. İnternet, sosial şəbəkələr və mobil tətbiqlərin geniş yayılması insanların gündəlik fəaliyyətlərinin böyük hissəsini rəqəmsal mühitdə həyata keçirməsinə imkan yaradır və bu proses nəticəsində böyük həcmdə məlumat yaranır. Bu məlumatların toplanması, saxlanması və təhlili insan davranışlarının öyrənilməsi və proqnozlaşdırılması üçün yeni imkanlar təqdim edir (Carr, 2010).

Süni intellekt və verilənlər analitikası texnologiyaları müasir rəqəmsal mühitdə davranış modellərinin qurulması prosesini daha dəqiq və effektiv edir. Böyük verilənlər sosial media platformalarından, elektron ticarət sistemlərindən, mobil tətbiqlərdən və digər rəqəmsal mənbələrdən toplanan müxtəlif və geniş məlumat toplularını əhatə edir. Bu məlumatlar süni intellekt alqoritmləri vasitəsilə təhlil olunur və istifadəçilərin maraqları, seçimləri, sosial qarşılıqlı əlaqələri və qərarvermə meylləri haqqında mühüm nəticələr əldə edilir (Mayer-Schönberger, Cukier, 2013).

Rəqəmsal psixologiya və süni intellektin inteqrasiyası təhsil, marketinq, səhiyyə, idarəetmə və təhlükəsizlik kimi sahələrdə insan davranışlarının proqnozlaşdırılması və qərarvermə prosesinin optimallaşdırılması üçün geniş tətbiq imkanları açır. Tədqiqatçılar qeyd edirlər ki, böyük verilənlərin analizi əsasında qurulan davranış modelləri gələcək fəaliyyətlərin proqnozlaşdırılması və fərdiləşdirilmiş xidmətlərin təqdim olunması baxımından mühüm əhəmiyyət kəsb edir (Russell, Norvig, 2021).

Beləliklə, süni intellekt və verilənlər analitikasının tətbiqi insan davranışlarının öyrənilməsində və proqnozlaşdırılmasında yeni elmi və praktiki imkanlar yaradır. Bu səbəbdən, təqdim olunan tədqiqat insan davranışının proqnozlaşdırılmasında bu texnologiyaların rolu və tətbiq sahələrini araşdırmaq məqsədini daşıyır.

Bu tədqiqat insan davranışının proqnozlaşdırılmasında süni intellekt və verilənlər analitikasının rolunu sistemli və elmi yanaşma ilə araşdırmaq məqsədini daşıyır. Tədqiqat metodologiyası böyük verilənlərin toplanması, emalı və təhlili, həmçinin maşın öyrənməsi və

statistik analiz üsullarının tətbiqinə əsaslanır (Han, Kamber, Pei, 2012). Bu yanaşma davranış modellərinin qurulmasında dəqiqlik və effektivliyi təmin edir.

Məlumatların toplanması sosial şəbəkələr, onlayn platformalar, mobil tətbiqlər və digər rəqəmsal sistemlərdən əldə edilmişdir. Toplanan məlumatlar istifadəçilərin gündəlik fəaliyyəti, qərarvermə meylləri, maraqları və sosial qarşılıqlı əlaqələrini əks etdirir. Məlumatların ilkin emal mərhələsində təmizlənməsi, təsnifləşdirilməsi və normallaşdırılması prosesi həyata keçirilmişdir ki, bu da analiz nəticələrinin dəqiqliyini artırır (Kitchin, 2014).

Davranış modellərinin qurulması üçün süni intellekt və maşın öyrənməsi alqoritmlərindən istifadə edilmişdir. Xüsusilə, klasterləşdirmə (clustering), təsnifat (classification) və proqnozlaşdırma (prediction) metodları tətbiq olunmuşdur. Bu metodlar istifadəçi davranışlarının oxşar xüsusiyyətlərə görə qruplaşdırılmasına, nümunələrin müəyyən edilməsinə və gələcək davranışların proqnozlaşdırılmasına imkan verir (Goodfellow, Bengio, Courville, 2016).

Tədqiqatın etibarlılığını təmin etmək üçün statistik qiymətləndirmə üsullarından – korrelyasiya və reqressiya analizindən istifadə edilmiş, nəticələrin doğruluğu və uyğunluğu yoxlanılmışdır. Eyni zamanda, məlumatların məxfiliyi və etik normalara riayət olunması tədqiqatın prioritet prinsipləri kimi nəzərə alınmışdır (Floridi et al., 2018).

Beləliklə, tətbiq olunan metodoloji yanaşma insan davranışının proqnozlaşdırılmasında süni intellekt və verilənlər analitikasının effektiv istifadəsini təmin edən elmi əsaslar təqdim edir və real tətbiq imkanlarını göstərir.

Aparılan tədqiqat göstərir ki, süni intellekt və verilənlər analitikası insan davranışının proqnozlaşdırılmasında mühüm rol oynayır. Böyük verilənlərin sistemli şəkildə toplanması, emalı və təhlili nəticəsində istifadəçilərin maraqları, qərarvermə meylləri və sosial qarşılıqlı əlaqələri daha dəqiq müəyyən edilə bilir. Bu məlumatlar əsasında qurulan davranış modelləri gələcək fəaliyyətlərin proqnozlaşdırılması və fərdiləşdirilmiş xidmətlərin təqdim olunması üçün əhəmiyyətli imkanlar yaradır (Mayer-Schönberger, Cukier, 2013).

Xülasə. Müasir cəmiyyətdə psixi pozuntuların yayılması qlobal miqyasda ciddi və aktual problemlərdən biri kimi diqqət çəkir. Psixi sağlamlıq yalnız fərdin rifahı üçün deyil, həm də cəmiyyətin ümumi sosial və iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, psixi pozuntuların yaranma səbəblərinin və təsir edən amillərin öyrənilməsi həm elmi, həm də praktiki perspektivdən vacibdir. Araşdırmalar göstərir ki, psixi pozuntuların meydana gəlməsi təkamül və genetik meyllikdən tutmuş, sosial-iqtisadi və mədəni mühit faktorlarına qədər çoxsaylı kompleks səbəblərin qarşılıqlı təsiri nəticəsində baş verir. Bioloji faktorlar arasında genetik predispozisiya, neyrobioloji dəyişikliklər və beyin kimyasında yaranan balanssızlıqlar mühüm rol oynayır. Bu faktorlar fərdin psixi sağlamlığına təsir etsə də, onların nəticələri sosial və ətraf mühit faktorları ilə gücləndirilə və ya zəiflədilə bilər. Sosial və iqtisadi amillər, məsələn, işsizlik, qeyri-bərabərlik, urbanizasiya və əhali sıxlığı, stress səviyyəsinin artmasına və psixi pozuntuların riskinin yüksəlməsinə səbəb olur. Eyni zamanda texnoloji inkişaf və sosial medianın geniş yayılması da müasir cəmiyyət üçün yeni çağırışlar yaradır. Bu, fərdlərin özünü qiymətləndirməsinə mənfi təsir göstərir, sosial müqayisələr vasitəsilə özünə inamın azalmasına və sosial təcridə yol açır. Fərdi xüsusiyyətlər, emosional dayanıqlıq, şəxsiyyət tipi və travmatik həyat hadisələri də psixi pozuntuların inkişafında mühüm rol oynayır. Ailə mühiti və sosial dəstək sistemləri isə həm

qoruyucu, həm də risk faktorları kimi çıxış edə bilər; stabil və dəstəkləyici ailə mühiti psixi sağlamlığı gücləndirərkən, gərgin və qeyri-sabit mühit riskləri artırır.

Keywords: mental health, social stress, depression, urbanization, technology, trauma.

Summary. The prevalence of mental disorders in modern society is attracting attention as one of the serious and urgent problems on a global scale. Mental health is of great importance not only for the well-being of the individual, but also for the overall social and economic development of society. In this regard, studying the causes and influencing factors of mental disorders is important from both a scientific and practical perspective. Studies show that the occurrence of mental disorders occurs as a result of the interaction of numerous complex causes, ranging from evolutionary and genetic predisposition to socio-economic and cultural environmental factors. Among biological factors, genetic predisposition, neurobiological changes and imbalances in brain chemistry play an important role. Although these factors affect the mental health of an individual, their effects can be strengthened or weakened by social and environmental factors. Social and economic factors, such as unemployment, inequality, urbanization and population density, lead to increased stress levels and an increased risk of mental disorders. At the same time, technological development and the widespread use of social media also create new challenges for modern society. This negatively affects individuals' self-esteem, leading to a decrease in self-esteem and social isolation through social comparisons. Individual characteristics, emotional stability, personality type and traumatic life events also play an important role in the development of mental disorders. Family environment and social support systems can act as both protective and risk factors; while a stable and supportive family environment enhances mental health, a stressful and unstable environment increases risks.

Anahtar kelimeler: ruh sağlığı, sosyal stres, depresyon, kentleşme, teknoloji, travma.

Özet. Modern toplumda ruhsal bozuklukların yaygınlığı, küresel ölçekte ciddi ve acil sorunlardan biri olarak dikkat çekmektedir. Ruh sağlığı, yalnızca bireyin iyiliği için değil, aynı zamanda toplumun genel sosyal ve ekonomik gelişimi için de büyük önem taşımaktadır. Bu bağlamda, ruhsal bozuklukların nedenlerini ve etkileyen faktörlerini incelemek hem bilimsel hem de pratik açıdan önemlidir. Çalışmalar, ruhsal bozuklukların ortaya çıkmasının, evrimsel ve genetik yatkınlıktan sosyo-ekonomik ve kültürel çevresel faktörlere kadar uzanan çok sayıda karmaşık nedenin etkileşimi sonucu meydana geldiğini göstermektedir. Biyolojik faktörler arasında genetik yatkınlık, nörobiyolojik değişiklikler ve beyin kimyasındaki dengesizlikler önemli bir rol oynamaktadır. Bu faktörler bireyin ruh sağlığını etkilese de, etkileri sosyal ve çevresel faktörler tarafından güçlendirilebilir veya zayıflatılabilir. İşsizlik, eşitsizlik, kentleşme ve nüfus yoğunluğu gibi sosyal ve ekonomik faktörler, artan stres seviyelerine ve ruhsal bozukluk riskinin artmasına yol açmaktadır. Aynı zamanda, teknolojik gelişmeler ve sosyal medyanın yaygın kullanımı da modern toplum için yeni zorluklar yaratmaktadır. Bu durum, bireylerin öz saygısını olumsuz etkileyerek, sosyal karşılaştırmalar yoluyla öz saygıda azalmaya ve sosyal izolasyona yol açar. Bireysel özellikler, duygusal istikrar, kişilik tipi ve travmatik yaşam olayları da ruhsal bozuklukların gelişiminde önemli rol oynar. Aile ortamı ve sosyal destek sistemleri hem koruyucu hem de risk faktörü olarak işlev görebilir; istikrarlı ve destekleyici bir aile ortamı ruh sağlığını iyileştirirken, stresli ve istikrarsız bir ortam riskleri artırır.

Müasir dövrdə cəmiyyətin sürətli inkişafı və sosial strukturların dəyişməsi insan psixikasına ciddi təsir göstərir. Texnoloji yeniliklər, iqtisadi dəyişikliklər və qlobal inteqrasiya həyat keyfiyyətini yüksəltməklə yanaşı, psixi sağlamlıqla bağlı yeni problemlərin yaranmasına səbəb olur.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, psixi pozuntular dünya üzrə ən geniş yayılmış xəstəliklər sırasına daxildir və bu tendensiya artmaqda davam edir (World Health Organization, 2023). Bu baxımdan psixi pozuntuların səbəblərinin kompleks şəkildə öyrənilməsi mühüm elmi və praktik əhəmiyyət kəsb edir. Qlobal səviyyədə baş verən hadisələr, məsələn, pandemiyalar, iqtisadi böhranlar və təbii fəlakətlər, cəmiyyətin psixi sağlamlığına əlavə təzyiq göstərərək stress və narahatlıq səviyyəsini yüksəldir. Bu vəziyyət multidissiplinar yanaşmanın zəruriliyini ortaya qoyur. Psixi sağlamlığın qorunması və gücləndirilməsi yalnız tibbi müdaxilə və psixoloji xidmətlərlə məhdudlaşmamalı, həm də dövlət siyasəti, sosial rifah proqramları, təhsil və ictimai məlumatlandırma kampaniyaları vasitəsilə geniş spektrdə həyata keçirilməlidir. Fərdi səviyyədə isə sağlam həyat tərzi, fiziki aktivlik, düzgün qidalanma, stressin idarə olunması və emosional bacarıqların inkişafı psixi sağlamlığın qorunmasında əhəmiyyətli rol oynayır. Nəticə etibarilə, psixi pozuntuların qarşısının alınması və onların təsirinin azaldılması üçün bioloji, psixoloji və sosial amilləri əhatə edən kompleks, elmi əsaslı və davamlı tədbirlər tələb olunur.

Bioloji və genetik amillər

Psixi pozuntuların yaranmasında genetik və bioloji faktorlar əsas rol oynayır. Neyrotransmitterlərin (serotonin, dopamin və s.) balanssızlığı depressiya və şizofreniya kimi xəstəliklərin yaranmasına səbəb olur (American Psychiatric Association, 2022). Araşdırmalar göstərir ki, ailəsində psixi xəstəlik olan şəxslərdə bu tip pozuntuların yaranma ehtimalı daha yüksəkdir (Sapolsky, 2017). Bununla yanaşı, hormonal dəyişikliklər də psixi sabitliyə təsir edə bilər. Lakin bioloji faktorlar təkbaşına həlledici deyil, onlar digər sosial və psixoloji faktorlarla birlikdə təsir göstərir (Sapolsky, 2017).

Sosial-iqtisadi amillər

Sosial-iqtisadi vəziyyət psixi sağlamlığın əsas determinantlarından biridir. İşsizlik, yoxsulluq və sosial qeyri-bərabərlik insanlarda uzunmüddətli stress yaradır və depressiya riskini artırır (Giddens, 2013; World Health Organization, 2023).

Urbanizasiya prosesi də psixi sağlamlığa təsir edən mühüm amildir. Böyük şəhərlərdə yaşayan insanlar daha çox sosial təcrid və həyat tempinin sürətlənməsi ilə üzləşirlər (Giddens, 2013).

Texnoloji inkişaf və rəqəmsal mühit

İnformasiya texnologiyalarının inkişafı müasir həyatın ayrılmaz hissəsinə çevrilmişdir. Sosial şəbəkələrin geniş yayılması fərdlərin psixoloji vəziyyətinə təsir göstərir, sosial müqayisə və aşağı özünə qiymət problemlərini artırır (Twenge, 2019). Uzun müddət ekran qarşısında qalmaq yuxu rejimini pozur və sosial münasibətləri zəiflədir ki, bu da xüsusilə gənclər arasında psixi problemlərin artmasına səbəb olur (Twenge, 2019).

Psixoloji və fərdi amillər

Fərdi xüsusiyyətlər psixi sağlamlığın qorunmasında mühüm rol oynayır. Stressə davamlılıq və emosional xüsusiyyətlər psixi pozuntuların yaranma riskini müəyyən edir (Beck, 2011). Travmatik hadisələr uzunmüddətli psixoloji təsirlər yaradır və müxtəlif psixi pozuntulara səbəb ola bilər (American Psychiatric Association, 2022).

Ailə və sosial mühit

Ailə insanın psixi inkişafında əsas sosial institutdur. Disfunksional ailə münasibətləri psixoloji problemlərin yaranmasına gətirib çıxarır (Giddens, 2013). Eyni zamanda sosial dəstəyin olmaması psixi sağlamlığı mənfi təsir edir, güclü sosial dəstək isə qoruyucu faktor kimi çıxış edir (World Health Organization, 2023).

Qlobal böhranlar və müasir çağırışlar

Pandemiyalar, müharibələr və iqtisadi böhranlar psixi sağlamlığa ciddi təsir göstərir. Bu kimi hallarda narahatlıq və depressiya səviyyəsi artır (World Health Organization, 2023). Xüsusilə, COVID-19 pandemiyası dövründə psixi pozuntuların artması geniş şəkildə sənədləşdirilmişdir (World Health Organization, 2023).

Müasir cəmiyyətdə psixi pozuntuların yayılması çoxsaylı faktorların qarşılıqlı təsiri ilə bağlıdır. Bu səbəbdən problemin həlli üçün kompleks yanaşma tələb olunur **(**American Psychiatric Association, 2022; World Health Organization, 2023).

Ədəbiyyat:

1. American Psychiatric Association. (2022). Diagnostic and statistical manual of mental disorders (5th ed.). Washington, DC.
2. World Health Organization. (2023). Mental health overview. Geneva: WHO Press.
3. Beck, A. T. (2011). Cognitive therapy of depression. New York: Guilford Press.
4. Giddens, A. (2013). Sociology. Cambridge: Polity Press.
5. Twenge, J. M. (2019). iGen. New York: Atria Books.
6. Sapolsky, R. M. (2017). Behave: The biology of humans at our best and worst. New York: Penguin Press.

RƏQƏMSAL PSİXOLOGİYA VƏ SÜNİ İNTELLEKT: MÜASİR CƏMİYYƏTDƏ PSİXOLOJİ TƏSİRLƏR VƏ YENİ ARAŞDIRMA İMKANLARI

Sanur Natiq qızı Bəylərli-Sədiyeva
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
sanurbaylarli@icloud.com
ORCİD ID: 0009-0009-7470-2906

Açar sözlər: rəqəmsal psixologiya, süni intellekt, sosial media davranışı, psixoloji rifah, texnologiya və insan, rəqəmsal mühit.

Xülasə. Bu məqalədə rəqəmsal psixologiya ilə süni intellekt arasındakı əlaqə və onların müasir cəmiyyətdə insan davranışına təsiri araşdırılır. Rəqəmsal texnologiyaların sürətli inkişafı ünsiyyət, informasiya əldə etmə və qərar qəbuletmə proseslərini əhəmiyyətli dərəcədə dəyişdirib. Buna görə də, psixoloqlar onlayn mühitlərin fərdlərin emosiyalarına, münasibətlərinə və sosial qarşılıqlı təsirlərinə təsirini getdikcə daha çox araşdırırlar.

Rəqəmsal psixologiya, fərdlərin sosial media platformalarında və digər onlayn mühitlərdə davranışlarını öyrənən fənlərarası bir sahədir. Digər tərəfdən, süni intellekt böyük məlumatların təhlilini təmin etməklə psixoloji tədqiqatlarda yeni metodlar təklif edir. Maşın öyrənmə alqoritmləri rəqəmsal platformalarda davranış nümunələrinin və emosional ifadələrin təhlilinə imkan verir.

Lakin, rəqəmsal texnologiyaların geniş yayılması özü ilə rəqəmsal asılılıq, məxfilik problemləri və alqoritmik qərəz kimi psixoloji və etik problemləri də gətirir. Buna görə də, texnologiyadan məsuliyyətli istifadə və fənlərarası tədqiqatlar böyük əhəmiyyət kəsb edir.

Nəticə olaraq, süni intellekt psixologiya tədqiqatlarına və psixoloji dəstək xidmətlərinə əhəmiyyətli töhfələr verə bilər. Lakin, bu texnologiyaların tətbiqi insan rifahı və etik prinsiplər nəzərə alınmaqla həyata keçirilməlidir.

Keywords: digital psychology, artificial intelligence, social media behavior, mental well-being, technology and humans, digital environment

Summary. This article examines the relationship between digital psychology and artificial intelligence and their influence on human behavior in modern society. The rapid development of digital technologies has transformed communication, information consumption, and decision-making processes. As a result, psychologists increasingly investigate how online environments affect emotions, attitudes, and social interactions.

Digital psychology focuses on understanding how individuals behave in virtual spaces such as social media platforms, digital communication systems, and algorithm-driven environments. Artificial intelligence plays a significant role in this field by enabling large-scale data analysis and by providing new tools for psychological research. Machine learning techniques allow researchers to analyze behavioral patterns, emotional expressions, and interaction trends across digital platforms.

However, the expansion of digital technologies also introduces psychological and ethical challenges, including digital addiction, privacy concerns, and algorithmic bias. These issues highlight the importance of responsible technology use and interdisciplinary research.

The study concludes that artificial intelligence can significantly contribute to psychological research and mental health services, but its implementation must consider ethical principles and human well-being. Future studies should further explore how digital environments shape psychological processes and how technology can be designed to support mental health and social well-being.

Anahtar kelimeler: dijital psikoloji, yapay zeka, sosyal medya davranışı, psikolojik iyi oluş, teknoloji ve insan, dijital ortam

Özet. Bu makale dijital psikoloji ile yapay zekâ arasındaki ilişkiyi ve bunların modern toplumda insan davranışı üzerindeki etkilerini incelemektedir. Dijital teknolojilerin hızlı gelişimi iletişim, bilgi edinme ve karar verme süreçlerini önemli ölçüde değiştirmiştir. Bu nedenle psikologlar çevrim içi ortamların bireylerin duyguları, tutumları ve sosyal etkileşimleri üzerindeki etkilerini giderek daha fazla araştırmaktadır.

Dijital psikoloji, bireylerin sosyal medya platformları ve diğer çevrim içi ortamlardaki davranışlarını inceleyen disiplinler arası bir alandır. Yapay zekâ ise büyük veri analizine olanak tanıyarak psikolojik araştırmalarda yeni yöntemler sunmaktadır. Makine öğrenmesi algoritmaları, dijital platformlardaki davranış örüntülerinin ve duygusal ifadelerin analiz edilmesine imkan verir.

Bununla birlikte dijital teknolojilerin yaygınlaşması dijital bağımlılık, gizlilik sorunları ve algoritmik önyargı gibi psikolojik ve etik sorunları da beraberinde getirmektedir. Bu nedenle teknolojinin sorumlu kullanımı ve disiplinler arası araştırmalar büyük önem taşımaktadır.

Sonuç olarak yapay zekâ psikoloji araştırmalarına ve psikolojik destek hizmetlerine önemli katkılar sağlayabilir. Ancak bu teknolojilerin uygulanması insan refahı ve etik ilkeler dikkate alınarak gerçekleştirilmelidir.

Son illərdə rəqəmsal texnologiyaların sürətli inkişafı insan həyatının demək olar ki, bütün sahələrinə təsir göstərmişdir. İnternet, sosial media platformaları və süni intellekt əsaslı sistemlər insanların ünsiyyət qurma formalarını, qərarvermə proseslərini və gündəlik davranışlarını

dəyişdirmişdir. Bu dəyişikliklər psixologiya elmi üçün yeni tədqiqat sahələrinin yaranmasına səbəb olmuş və “rəqəmsal psixologiya” anlayışını formalaşdırmışdır.

Rəqəmsal psixologiya insanların rəqəmsal mühitdə davranışlarını, emosional reaksiyalarını və sosial münasibətlərini araşdıran multidissiplinar sahə kimi qəbul edilir. Süni intellekt texnologiyaları isə bu sahədə həm tədqiqat aləti, həm də insan davranışına təsir edən mühüm faktor kimi çıxış edir. Bu məqalənin məqsədi rəqəmsal mühitin insan psixologiyasına təsirlərini və süni intellektin psixoloji tədqiqatlarda rolunu təhlil etməkdir.

Rəqəmsal texnologiyalar insanların informasiya əldə etmə və ünsiyyət qurma üsullarını köklü şəkildə dəyişmişdir. Sosial media platformaları fərdlərə öz fikirlərini sərbəst şəkildə ifadə etmək imkanı versə də, eyni zamanda sosial müqayisə, asılılıq və stress kimi psixoloji problemlərin yaranmasına da səbəb ola bilər. (Turkle S., 2017)

Tədqiqatlar göstərir ki, sosial media istifadəsinin intensivliyi bəzən özünüdəyərləndirmə səviyyəsinə və emosional rifaha təsir edir. Xüsusilə gənclər arasında onlayn təsdiq (likes və paylaşımlar) almaq ehtiyacı sosial davranışların formalaşmasına təsir göstərir. Bu vəziyyət rəqəmsal mühitdə şəxsiyyət təqdimatı və sosial identiklik məsələlərini aktuallaşdırır.

Süni intellekt psixologiya sahəsində yeni metodoloji imkanlar yaratmışdır. Böyük həcmli məlumatların analizi, davranış nümunələrinin müəyyən edilməsi və proqnozlaşdırma modellərinin qurulması süni intellekt alqoritmləri vasitəsilə daha effektiv şəkildə həyata keçirilə bilir.

Məsələn, maşın öyrənməsi alqoritmləri sosial media məlumatlarını analiz edərək insanların emosional vəziyyətləri və davranış tendensiyaları haqqında nəticələr çıxarmağa imkan verir. Bundan əlavə, süni intellekt əsaslı chatbotlar psixoloji dəstək xidmətlərində istifadə olunaraq ilkin məsləhət və emosional dəstək təqdim edə bilir.

Rəqəmsal texnologiyaların geniş yayılması ilə yanaşı, bir sıra psixoloji və etik problemlər də ortaya çıxır. Onlayn məxfiliyin qorunması, məlumatların təhlükəsizliyi və süni intellekt alqoritmlərinin qərəzsizliyi bu məsələlərin əsasını təşkil edir.

Bundan əlavə, texnologiyadan həddindən artıq istifadə “rəqəmsal asılılıq” kimi tanınan psixoloji problemlərə səbəb ola bilər. Bu vəziyyət xüsusilə gənc istifadəçilər arasında diqqət dağınıqlığı, yuxu pozuntuları və sosial izolyasiya ilə əlaqələndirilir. Buna görə də rəqəmsal psixologiya sahəsində aparılan tədqiqatlar yalnız texnologiyanın imkanlarını deyil, həm də onun risklərini nəzərə almalıdır.

Nəticə etibarilə, rəqəmsal texnologiyalar və süni intellekt müasir psixologiyanın inkişafında mühüm rol oynayır. Rəqəmsal mühit insan davranışlarının yeni formalarını yaratmaqla yanaşı, psixoloji rifah və sosial münasibətlər üzərində də əhəmiyyətli təsir göstərir.

Gələcək tədqiqatlar süni intellektin psixoloji xidmətlərdə istifadəsini, rəqəmsal mühitdə psixoloji rifahın qorunması strategiyalarını və texnologiya ilə insan davranışı arasındakı qarşılıqlı əlaqələri daha dərindən araşdırmalıdır. Bu istiqamətdə aparılan elmi işlər həm psixologiya elminin inkişafına, həm də cəmiyyətin rifahının artırılmasına töhfə verə bilər.

Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi müasir dövrdə insan həyatının hər sahəsi əhəmiyyətli dərəcədə dəyişmişdir. Bu dəyişikliklər, xüsusilə insanların ünsiyyət formaları, informasiya əldə etmə metodları və qərar qəbuletmə proseslərinə əhəmiyyətli təsir göstərmişdir. İnternet və mobil texnologiyaların yayılması ilə fərdlərin gündəlik həyatı rəqəmsal platformalar vasitəsilə daha çox yönəldilmiş, sosial qarşılıqlı təsirlər yeni ölçülər qazanmışdır. Bu səbəbdən psixoloqlar və sosial elmlər tədqiqatçıları onlayn mühitlərin insanların emosional vəziyyətinə, münasibətlərinə və davranış nümunələrinə necə təsir etdiyini daha dərindən öyrənməyə başlamışlar.

Rəqəmsal psixologiya və süni intellekt bu baxımdan həm tədqiqat alətləri, həm də təhlil metodları təqdim edən əsas

Rəqəmsal psixologiya, fərdlərin onlayn platformalarda və rəqəmsal mühitlərdə göstərdikləri davranışları araşdıran fənlərarası sahədir. Bu sahə, ənənəvi psixoloji prinsipləri texnologiya ilə birləşdirərək, insanların rəqəmsal mühitdəki emosional reaksiyalarını, motivasiyalarını və sosial münasibətlərini analiz edir. Sosial media, oyun platformaları, forumlar və mobil tətbiqlər kimi müxtəlif onlayn məkanlar insan davranışının öyrənilməsi üçün zəngin məlumat mənbəyi təqdim edir. Fərdlərin paylaşdığı məlumatlar, şərhləri, reaksiyaları və qarşılıqlı təsirləri onların emosional vəziyyətlərini və sosial əlaqələrini əks etdirən dəyərlidir. (Kuss D. J., Griffiths M. D.,2017)

Rəqəmsal psixologiya, yalnız davranışları müşahidə etməklə kifayətlənmir; o, həmçinin insanların texnologiya ilə qarşılıqlı təsirinin onların psixoloji sağlamlığına necə təsir etdiyini də öyrənir. Məsələn, sosial media istifadəsi ilə bağlı olan “rəqəmsal asılılıq” fenomeni fərdlərin emosional vəziyyətinə mənfi təsir göstərə bilər, depressiya və stress səviyyəsini artırır, həmçinin şəxsi münasibətlərdə problemlər yarada bilər. Bununla yanaşı, rəqəmsal platformalar fərdlərin yeni biliklər əldə etməsi, sosial dəstək alması və yaradıcılıq potensialını inkişaf etdirməsi üçün də imkanlar yaradır.

Süni intellekt (Sİ) və maşın öyrənmə alqoritmləri psixologiya tədqiqatlarında əhəmiyyətli yeniliklər gətirmişdir. Böyük məlumatların təhlili, insan davranışının nümunələrinin aşkarlanması və emosional ifadələrin tanınması Sİ vasitəsilə daha sürətli və dəqiq həyata keçirilə bilər. Məsələn, sosial media platformalarından toplanan məlumatlar istifadəçilərin maraq və davranış profillərini öyrənmək üçün analiz edilə bilər. Bu, psixoloqlara fərdlərin davranış nümunələrini daha yaxşı başa düşmək və fərdi dəstək proqramları hazırlamaq imkanı verir.

Süni intellekt həmçinin psixoloji xidmətlərin daha əlçatan olmasına kömək edir. Chatbotlar və rəqəmsal məsləhət sistemləri fərdlərə ilkin psixoloji dəstək göstərmək üçün istifadə olunur. Bu texnologiyalar xüsusilə uzaq bölgələrdə yaşayan insanların və ya mütəxəssis çatışmazlığı olan yerlərdə psixoloji xidmətlərin təmin olunmasında əhəmiyyətlidir. Analitik alqoritmlər insan emosiyalarını müəyyən edə bilir, davranış nümunələrini proqnozlaşdırır və müvafiq müdaxilə strategiyalarını

Rəqəmsal texnologiyaların geniş yayılması həm də bir sıra psixoloji və etik problemləri ortaya çıxarmışdır. Rəqəmsal asılılıq, fərdlərin texnologiya və sosial media istifadəsinə həddindən artıq bağlılığı ilə xarakterizə olunur. Bu, diqqət dağınıqlığı, yuxu pozğunluğu, stress və hətta depressiya kimi vəziyyətlərə səbəb ola bilər. Eyni zamanda, istifadəçilərin şəxsi məlumatlarının toplanması və təhlil edilməsi məxfilik və etik məsələləri gündəmə gətirir. Alqoritmik qərəz də mühüm problem hesab olunur; bu, Sİ sistemlərinin məlumatlarda mövcud olan tərəfkeşlikləri əks etdirərək fərdlərə təsir edən qərar və tövsiyələrdə yanılmalara yol açmasıdır.

Bu səbəbdən texnologiyadan məsuliyyətli istifadə və fənlərarası tədqiqatlar böyük əhəmiyyət kəsb edir. İnsan davranışının təhlilində süni intellektin tətbiqi etik prinsiplərə riayət etməklə həyata keçirilməlidir. Məxfilik, məlumatların qorunması və istifadəçinin razılığı kimi əsas prinsiplər hər zaman nəzərə alınmalıdır.

Rəqəmsal psixologiya və süni intellekt birgə işlədikdə müasir cəmiyyət üçün çoxsaylı faydalar təqdim edir. İnsanların davranış nümunələrini başa düşmək və onların sosial qarşılıqlı təsirlərini optimallaşdırmaq üçün bu sahələr bir-birini tamamlayır. Məsələn, sosial media analitikası vasitəsilə istifadəçilərin davranış trendləri müəyyən edilə bilər və bunun əsasında təhsil, marketinq və sosial dəstək strategiyaları hazırlanır. (American Psychological Association. 2020).

Süni intellektin psixoloji tədqiqatlarda tətbiqi yalnız məlumatların təhlili ilə məhdudlaşmır. O, həmçinin fərdi fərqlilikləri nəzərə alaraq fərdi psixoloji dəstək proqramları hazırlamağa imkan verir. Bu, terapiya və psixoloji məsləhət xidmətlərini daha effektiv və hədəfli edir. İnsanlar texnologiya vasitəsilə emosional dəstək ala bilir, stress və narahatlıqla başa çıxmaq üçün fərdi məsləhətlər əldə edə bilirlər.

Gələcəkdə rəqəmsal psixologiya və süni intellektin birləşməsi daha da inkişaf edəcək. Yeni alqoritmlər, virtual reallıq və genişlənmiş reallıq texnologiyaları ilə insanların davranışlarını təhlil etmək və psixoloji müdaxilələri optimallaşdırmaq mümkündür. Bundan əlavə, etik və hüquqi çərçivələrin inkişafı texnologiyanın məsuliyyətli istifadəsini təmin edəcək.

Fənlərarası yanaşma, yəni psixologiya, informatika, etik və sosial elmlərin birləşməsi, texnologiyanın insan rifahına müsbət təsir göstərməsini təmin edə bilər. Eyni zamanda, rəqəmsal savadlılığın artırılması və fərdlərin texnologiyadan sağlam istifadə bacarıqlarının inkişaf etdirilməsi vacibdir. Bu, yalnız fərdlərin psixoloji sağlamlığını qorumaqla qalmır, həm də cəmiyyətin ümumi rifahını yüksəldir.

Nəticə olaraq, rəqəmsal psixologiya və süni intellekt müasir cəmiyyətdə insan davranışının öyrənilməsi və psixoloji dəstək xidmətlərinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Rəqəmsal platformalar insan davranışının və emosional vəziyyətin təhlili üçün zəngin məlumatlar təqdim edir. Süni intellekt isə bu məlumatları təhlil edərək daha hədəfli, fərdi və effektiv psixoloji müdaxilələr təmin edir.

Buna baxmayaraq, texnologiyanın istifadəsi etik və psixoloji prinsiplərə əsaslanmalıdır. Rəqəmsal asılılıq, məxfilik problemləri və alqoritmik qərəz kimi məsələlər nəzərə alınmalı və fənlərarası yanaşma ilə həll yolları araşdırılmalıdır. Beləliklə, süni intellektin psixologiya sahəsində tətbiqi insan rifahını artırmaq və müasir cəmiyyətin mürəkkəb davranış modellərini başa düşmək üçün güclü bir vasitə ola bilər.

Ədəbiyyat:

1. American Psychological Association. (2020). Publication manual of the American Psychological Association (7th ed.). APA.

2. Kuss, D. J., & Griffiths, M. D. (2017). Social networking sites and addiction: Ten lessons learned. International Journal of Environmental Research and Public Health, 14(3), 311.

3. Montag, C., & Diefenbach, S. (2018). Towards Homo Digitalis: Important research issues for psychology and the neurosciences at the dawn of the Internet of Things and the digital society. Sustainability, 10(2), 415.

4. Turkle, S. (2017). Alone together: Why we expect more from technology and less from each other. Basic Books.

SÜNİ İNTELLEKT VƏ İNSAN PSİXİKASI: QARŞILIQLI TƏSİRİN ANALİZİ

Röya Rəşan qızı Bəşirova
Azərbaycan Respublikası
Mingəçevir Dövlət Universiteti
roya.bashirova@mdu.edu.az
ORCİD ID: https://orcid.org/0009-0003-1669-7092

Açar sözlər: süni intellekt, rəqəmsal psixologiya, insan davranışı, alqoritmik təsir, emosional vəziyyət, sosial media.

Xülasə. Müasir informasiya cəmiyyətində süni intellekt texnologiyalarının sürətli inkişafı insan həyatının bütün sahələrinə nüfuz edərək psixoloji proseslərə əhəmiyyətli təsir göstərir (Floridi, 2019). Rəqəmsallaşmanın artması ilə fərdlər gündəlik həyatlarında müxtəlif alqoritmik sistemlərlə qarşılıqlı əlaqədə olur və bu qarşılıqlı təsir onların düşüncə tərzini, davranış modellərini və emosional reaksiyalarını formalaşdırır (Russell & Norving,2021). Təqdim olunan məqalədə süni intellekt və insan psixikası arasındakı qarşılıqlı təsir çoxşaxəli və sistemli şəkildə təhlil olunur. Araşdırma göstərir ki, süni intellekt yalnız texnoloji vasitə deyil, eyni zamanda insan davranışını istiqamətləndirən mühüm psixososial faktora çevrilmişdir.

Xüsusilə sosial media və rəqəmsal platformalarda istifadə olunan süni intellekt alqoritmləri istifadəçilərin diqqətini müəyyən istiqamətlərə yönləndirir, onların informasiya seçimini məhdudlaşdırır və nəticədə dünyagörüşünün formalaşmasına təsir edir (Carr, 2020). Bu proses fərdlərin qərarvermə mexanizmlərinə təsir etməklə yanaşı, onların emosional vəziyyətində də dəyişikliklər yaradır (Kahneman, 2011). Bəyənmə, paylaşım və digər rəqəmsal reaksiyalar vasitəsilə insanlar öz sosial dəyərlərini və özünə münasibətlərini yenidən qururlar ki, bu da bəzən psixoloji asılılıq, narahatlıq və ya aşağı özünə qiymət kimi problemlərə səbəb ola bilər (Turkle, 2017).

Digər tərəfdən, süni intellekt psixologiya sahəsində mühüm müsbət imkanlar da təqdim edir. AI əsaslı sistemlər psixoloji diaqnostikanın daha dəqiq aparılmasına, erkən mərhələdə problemlərin aşkarlanmasına və fərdiləşdirilmiş terapiya üsullarının tətbiqinə şərait yaradır. Virtual terapevtlər və chatbotlar psixoloji dəstəyə çıxışı asanlaşdıraraq geniş kütlələr üçün əlçatan edir (Russell & Norving,2021). Bu isə xüsusilə psixoloji xidmətlərə çıxışı məhdud olan cəmiyyətlər üçün böyük əhəmiyyət kəsb edir.

Keywords: artificial intelligence, digital psychology, human behavior, algorithmic influence, emotional state, social media.

Summary. In the modern information society, the rapid development of artificial intelligence technologies has penetrated all areas of human life and has a significant impact on psychological processes (Floridi, 2019). With the increase in digitalization, individuals interact with various algorithmic systems in their daily lives, and this interaction shapes their thinking, behavioral patterns, and emotional reactions (Russell & Norving, 2021). The presented article analyzes the interaction between artificial intelligence and the human psyche in a multifaceted and systematic way. The research shows that artificial intelligence is not only a technological tool, but also an important psychosocial factor that guides human behavior.

Artificial intelligence algorithms used in social media and digital platforms, in particular, direct users' attention in certain directions, limit their information selection, and ultimately affect

the formation of their worldview (Carr, 2020). This process not only affects the decision-making mechanisms of individuals, but also creates changes in their emotional state (Kahneman, 2011). Through liking, sharing, and other digital reactions, people reconstruct their social values and self-relationships, which can sometimes lead to problems such as psychological dependence, anxiety, or low self-esteem (Turkle, 2017). On the other hand, artificial intelligence also offers important positive opportunities in the field of psychology. AI-based systems enable more accurate psychological diagnostics, early detection of problems, and the application of personalized therapy methods. Virtual therapists and chatbots make psychological support accessible to a wide audience, facilitating access to it (Russell & Norving, 2021). This is especially important for societies with limited access to psychological services.

Anahtar kelimeler: yapay zeka, dijital psikoloji, insan davranışı, algoritmik etki, duygusal durum, sosyal media.

Özet. Modern bilgi toplumunda, yapay zekâ teknolojilerinin hızlı gelişimi insan yaşamının tüm alanlarına nüfuz etmiş ve psikolojik süreçler üzerinde önemli bir etkiye sahip olmuştur (Floridi, 2019). Dijitalleşmenin artmasıyla birlikte, bireyler günlük yaşamlarında çeşitli algoritmik sistemlerle etkileşime girer ve bu etkileşim, düşünme biçimlerini, davranış kalıplarını ve duygusal tepkilerini şekillendirir (Russell & Norving, 2021). Sunulan makale, yapay zekâ ile insan psikolojisi arasındaki etkileşimi çok yönlü ve sistematik bir şekilde analiz etmektedir. Araştırma, yapay zekânın sadece teknolojik bir araç değil, aynı zamanda insan davranışını yönlendiren önemli bir psikososyal faktör olduğunu göstermektedir.

Özellikle sosyal medya ve dijital platformlarda kullanılan yapay zekâ algoritmaları, kullanıcıların dikkatini belirli yönlere yönlendirir, bilgi seçimlerini sınırlar ve nihayetinde dünya görüşlerinin oluşumunu etkiler (Carr, 2020). Bu süreç, bireylerin karar verme mekanizmalarını etkilemekle kalmaz, aynı zamanda duygusal durumlarında da değişikliklere yol açar (Kahneman, 2011). İnsanlar beğenme, paylaşma ve diğer dijital tepkiler yoluyla sosyal değerlerini ve öz ilişkilerini yeniden yapılandırırlar; bu da bazen psikolojik bağımlılık, kaygı veya düşük öz saygı gibi sorunlara yol açabilir (Turkle, 2017). Öte yandan, yapay zeka psikoloji alanında da önemli olumlu fırsatlar sunmaktadır. Yapay zeka tabanlı sistemler, daha doğru psikolojik teşhis, sorunların erken tespiti ve kişiselleştirilmiş terapi yöntemlerinin uygulanmasını mümkün kılar. Sanal terapistler ve sohbet robotları, psikolojik desteği geniş bir kitleye erişilebilir hale getirerek erişimi kolaylaştırır (Russell & Norving, 2021). Bu, özellikle psikolojik hizmetlere erişimin sınırlı olduğu toplumlar için önemlidir.

Süni intellekt (Sİ) XXI əsrin ən mühüm texnoloji nailiyyətlərindən biri hesab olunur (Russell & Norving, 2021). Onun tətbiq sahələri sürətlə genişlənərək yalnız texniki sistemlərlə məhdudlaşmır, eyni zamanda insan davranışı və psixoloji vəziyyətinə də nüfuz edir (Floridi, 2019). Rəqəmsal mühitdə insanların gündəlik fəaliyyəti getdikcə daha çox süni intellekt sistemləri ilə qarşılıqlı əlaqəyə əsaslanır. Bu isə insan psixikasında yeni dəyişikliklərin yaranmasına səbəb olur və fərdlərin reallığı qavrama, qərar qəbul etmə və sosial münasibətlər qurma proseslərinə təsir göstərir.

Məqalədə süni intellektin insan psixikasına təsiri həm müsbət, həm də mənfi aspektlərdən müqayisəli şəkildə araşdırılır və etik məsələlərə xüsusi diqqət yetirilir. Məlumat məxfiliyi, alqoritmik manipulyasiya və insanın azad iradəsinə təsir kimi problemlər əsas müzakirə mövzularından biridir (Floridi, 2019). Nəticə olaraq qeyd olunur ki, süni intellektin insan psixikasına təsiri qaçılmazdır və bu təsirin düzgün idarə olunması üçün elmi yanaşmalarla yanaşı etik prinsiplərin də inteqrasiyası zəruridir.

Süni intellekt alqoritmləri istifadəçilərin davranışlarını analiz edərək fərdiləşdirilmiş kontent təqdim edir (Russell & Norving, 2021). Bu yanaşma insanların seçimlərini istiqamətləndirərək onların qərarvermə prosesinə təsir edir (Kahneman, 2011). Xüsusilə sosial media və elektron ticarət platformalarında istifadəçilərin seçimləri alqoritmik tövsiyələr əsasında formalaşır. Bu proses qısa müddətdə istifadəçi təcrübəsini asanlaşdırsa da, uzunmüddətli perspektivdə fərdlərin müstəqil düşünmə qabiliyyətini zəiflədə və onları passiv istehlakçıya çevirə bilər. Eyni zamanda, informasiya filtrasiyası nəticəsində insanlar yalnız öz baxışlarına uyğun məlumatlarla qarşılaşır ki, bu da “informasiya balonu” effektini yaradır (Carr, 2020). Bu hal fərqli fikirlərə açıq olmanı azaldır və cəmiyyətdə qütbləşmənin artmasına səbəb ola bilər.

Emosional və psixoloji təsirlər. Süni intellektin psixoloji təsiri yalnız davranışla məhdudlaşmır, həm də emosional sahəni əhatə edir. Sosial mediada alınan reaksiyalar insanın özünə qiymət vermə mexanizminə təsir edir (Turkle, 2017). Bu isə bəzən asılılıq, narahatlıq və depressiv halların yaranmasına səbəb ola bilər (Carr, 2020). İnsanlar rəqəmsal mühitdə əldə etdikləri sosial təsdiqi real həyatdakı münasibətlərdən daha önəmli hesab etməyə başlaya bilərlər. Bundan əlavə, davamlı informasiya axını insan beynində kognitiv yüklənmə yaradır. Bu hal diqqətin dağılması, yaddaş problemləri və emosional gərginlik kimi nəticələrə gətirib çıxara bilər (Carr, 2020). Uzun müddət rəqəmsal mühitdə qalmaq həmçinin sosial təcrid və ünsiyyət bacarıqlarının zəifləməsinə də səbəb ola bilər.

Süni intellektin psixologiyada müsbət rolu. Bütün risklərə baxmayaraq, süni intellekt psixologiya sahəsində mühüm yeniliklər təqdim edir (Russell & Norving, 2021). AI əsaslı tətbiqlər psixoloji diaqnostikanın daha dəqiq aparılmasına, erkən mərhələdə problemlərin aşkar edilməsinə və fərdi terapiya üsullarının hazırlanmasına imkan yaradır. Məsələn, böyük həcmli məlumatların analizi vasitəsilə psixoloji pozuntuların ilkin əlamətlərini müəyyən etmək mümkündür. Virtual terapevtlər və chatbotlar psixoloji dəstəyə çıxışı asanlaşdırır (Floridi, 2019). Bu xüsusilə psixoloqa müraciət etmək imkanı məhdud olan insanlar üçün əhəmiyyətlidir. Eyni zamanda bu texnologiyalar anonimlik təmin etdiyi üçün bəzi fərdlər üçün daha rahat ünsiyyət mühiti yaradır.

Etik məsələlər və təhlükələr. Süni intellektin inkişafı ilə bağlı ən ciddi problemlərdən biri etik məsələlərdir (Floridi, 2019). Şəxsi məlumatların toplanması və istifadəsi, istifadəçi davranışının manipulyasiyası və məxfilik problemləri bu sahədə əsas risklərdir. Alqoritmlərin şəffaf olmaması və necə işlədiyinin tam aydın olmaması istifadəçilərdə etimadsızlıq yarada bilər. Bundan başqa, süni intellekt sistemlərinin qərarvermədə rolu artdıqca insanın azad iradəsi və məsuliyyəti məsələsi də aktuallaşır (Kahneman, 2011). Bu isə gələcəkdə insan və texnologiya münasibətlərinin etik çərçivəsinin yenidən müəyyənləşdirilməsini zəruri edir.

Süni intellekt və insan psixikası arasındakı qarşılıqlı təsir mürəkkəb və çoxsahəlidir. Bu texnologiya həm yeni imkanlar yaradır, həm də müəyyən risklər doğurur. Ona görə də süni intellektin tətbiqində etik prinsiplərin qorunması və insan mərkəzli yanaşmanın təmin edilməsi vacibdir (Floridi, 2019). Gələcəkdə bu sahədə aparılan tədqiqatlar texnologiya ilə psixologiya arasında balansın qorunmasına, həmçinin insan rifahının təmin edilməsinə xidmət etməlidir.

Ədəbiyyat:

1. Carr, N. (2020). The Shallows: What the Internet Is Doing to Our Brains. W. W. Norton & Company.
2. Floridi, L. (2019). The Logic of Information. Oxford University Press.
3. Kahneman, D. (2011). Thinking, Fast and Slow. Farrar, Straus and Giroux.

4. Russell, S., & Norvig, P. (2021). Artificial Intelligence: A Modern Approach. Pearson.
5. Turkle, S. (2017). Reclaiming Conversation. Penguin Press.

RƏQƏMSAL MÜHİTDƏ DEPRESSİYA VƏ TƏŞVİŞ POZUNTULARININ AŞKARLANMASI VƏ SÜNİ İNTELLEKT VASİTƏSİLƏ DƏSTƏKLƏYİCİ MÜDAXİLƏ İMKANLARI

İsmayıl Hüseyn oğlu Məmmədzadə
Magistrant
Azərbaycan Respublikası
Azərbaycan Texninki Universiteti
ismail.mamedzade555@gmail.com
ORCİD ID: https://orcid.org/0000-0001-6651-3595

Açar sözlər: rəqəmsal mühit, süni intellekt, rəqəmsal monitorinq, rəqəmsal səhiyyə, dəstkləyici vasitələr.

Xülasə. Rəqəmsal mühitin sürətli inkişafı və sosial platformaların gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsi, psixoloji sağlamlıq sahəsində yeni çağırışlar yaratmışdır. Depressiya və təşviş pozuntuları geniş əhali qruplarında rast gəlinən psixoloji problemlərdən hesab olunur və onların erkən aşkarlanması müalicə və dəstək proseslərinin effektivliyi üçün kritik əhəmiyyət daşıyır. Ənənəvi qiymətləndirmə üsulları, o cümlədən klinik sorğu və müsahibələr, vaxt aparan və subyektivlik ehtiva edən metodlardır. Sİ texnologiyaları, böyük məlumatların təhlili və nümunə tanıma qabiliyyətinə əsaslanaraq, depressiya və təşviş pozuntularının erkən aşkarlanmasında və fərdi dəstəkləyici müdaxilələrin planlaşdırılmasında potensial imkanlar təqdim edir.

Rəqəmsal platformalarda depressiya və təşviş pozuntularının aşkarlanması prosesində süni intellekt texnologiyalarının tətbiq imkanlarını tədbiq etməkdir. Rəqəmsal mühitdə depressiya və təşviş pozuntularının erkən aşkarlanması üçün süni Sİ müxtəlif modelləri və alqoritmləri tətbiq olunur. Bu modellər əsasən maşın öyrənməsi və dərin öyrənmə texnologiyalarına əsaslanır. Məsələn, təbii dil emalı (TDE) alqoritmləri istifadəçilərin sosial media paylaşımlarında, forum yazılarında və chat mesajlarında emosional tonu və sentimentləri analiz edərək depressiya və təşviş əlamətlərini müəyyən edə bilir (Guntuku et al., 2019). Neyron şəbəkələr, xüsusilə konvolyutsion və rekurrent şəbəkələr, həm yazılı, həm də multimodal məlumatları səs tonu, mimika, və davranış nümunələrini emal edərək psixoloji vəziyyətin proqnozlaşdırılmasını mümkün edir. Alqoritmlərin dəqiqliyi, yanlış pozitiv/negativ proqnozların ehtimalı, məlumatların miqyası və müxtəlifliyi, eləcə də modellərin real vaxtda tətbiq imkanları. Eyni zamanda, mövcud modellərin effektivliyini müxtəlif yaş və demoqrafik qruplar üzrə müqayisə edilərək onların universal tətbiq potensialı qiymətləndirilə bilər.

Keywords: digital environment, artificial intelligence, digital monitoring, digital health, assistive devices.

Summary. The rapid development of the digital environment and the transformation of social platforms into an integral part of daily life have created new challenges in the field of psychological health. Depression and anxiety disorders are considered psychological problems found in large population groups, and their early detection is critical for the effectiveness of treatment and support

processes. Traditional assessment methods, including clinical surveys and interviews, are time-consuming and subjective methods. AI technologies, based on the ability to analyze big data and recognize patterns, offer potential opportunities for early detection of depression and anxiety disorders and planning individual supportive interventions.

The aim is to apply the capabilities of artificial intelligence technologies in the process of detecting depression and anxiety disorders on digital platforms. Various artificial AI models and algorithms are applied for the early detection of depression and anxiety disorders in the digital environment. These models are mainly based on machine learning and deep learning technologies. For example, natural language processing (NLP) algorithms can detect signs of depression and anxiety by analyzing the emotional tone and sentiments in users’ social media posts, forum posts, and chat messages (Guntuku et al., 2019). Neural networks, especially convolutional and recurrent networks, enable prediction of psychological states by processing both written and multimodal data, such as voice tone, facial expressions, and behavioral patterns. The accuracy of the algorithms, the probability of false positive/negative predictions, the scale and diversity of the data, and the real-time applicability of the models. At the same time, the effectiveness of existing models can be compared across different age and demographic groups to assess their universal applicability.

Anahtar kelimeler: dijital ortam, yapay zeka, dijital izleme, dijital sağlık, yardımcı cihazlar.

Özet. Dijital ortamın hızlı gelişimi ve sosyal platformların günlük yaşamın ayrılmaz bir parçası haline gelmesi, psikolojik sağlık alanında yeni zorluklar yaratmıştır. Depresyon ve anksiyete bozuklukları, geniş nüfus gruplarında görülen psikolojik sorunlar olarak kabul edilir ve bunların erken teşhisi, tedavi ve destek süreçlerinin etkinliği için kritik öneme sahiptir. Klinik anketler ve görüşmeler de dahil olmak üzere geleneksel değerlendirme yöntemleri, zaman alıcı ve öznel yöntemlerdir. Büyük verileri analiz etme ve kalıpları tanıma yeteneğine dayanan yapay zeka teknolojileri, depresyon ve anksiyete bozukluklarının erken teşhisi ve bireysel destekleyici müdahalelerin planlanması için potansiyel fırsatlar sunmaktadır.

Amaç, yapay zeka teknolojilerinin yeteneklerini dijital platformlarda depresyon ve anksiyete bozukluklarının tespit sürecinde uygulamaktır. Dijital ortamda depresyon ve anksiyete bozukluklarının erken teşhisi için çeşitli yapay zeka modelleri ve algoritmaları uygulanmaktadır. Bu modeller esas olarak makine öğrenimi ve derin öğrenme teknolojilerine dayanmaktadır. Örneğin, doğal dil işleme (NLP) algoritmaları, kullanıcıların sosyal medya gönderilerindeki, forum gönderilerindeki ve sohbet mesajlarındaki duygusal tonu ve duyguları analiz ederek depresyon ve anksiyete belirtilerini tespit edebilir (Guntuku vd., 2019). Özellikle evrişimsel ve tekrarlayan sinir ağları, ses tonu, yüz ifadeleri ve davranış kalıpları gibi hem yazılı hem de çok modlu verileri işleyerek psikolojik durumların tahmin edilmesini sağlar. Algoritmaların doğruluğu, yanlış pozitif/negatif tahmin olasılığı, verilerin ölçeği ve çeşitliliği ve modellerin gerçek zamanlı uygulanabilirliği değerlendirilir. Aynı zamanda, mevcut modellerin etkinliği, evrensel uygulanabilirliklerini değerlendirmek için farklı yaş ve demografik gruplar arasında karşılaştırılabilir.

Süni intellekt yalnız aşkarlama prosesində deyil, həm də psixoloji dəstək və müdaxilə vasitəsi kimi önəmli rol oynayır. Virtual psixoloji köməkçilər (chatbotlar) istifadəçilərə fərdi dəstək təklif edir, ilkin qiymətləndirmə aparır və yönləndirici tövsiyələr verir (Fitzpatrick et al., 2017). Sİ texnologiyaları həmçinin fərdi davranış modellərini izləməklə, istifadəçinin əhval dəyişikliklərini real vaxtda izləyir və erkən xəbərdarlıq siqnalları yaradır, müalicə prosesində insan psixoloqları ilə inteqrasiyası, fərdi terapiya planlarının avtomatlaşdırılması və nəticələrin monitorinqi, həmçinin

istifadəçi motivasiyasının və qarşılıqlı təsirinin optimallaşdırılması. Sİ vasitəsilə dəstəkləyici müdaxilənin effektivliyi və məhdudiyyətləri klinik və rəqəmsal mühitlərdə müqayisə edilə bilər.

Rəqəmsal platformalar fərdi və qrup müdaxilələrinin planlaşdırılmasını və tətbiqini xeyli asanlaşdırır. Fərdi terapiya tətbiqləri istifadəçinin davranış və emosional məlumatlarını təhlil edərək fərdi müdaxilə strategiyaları təklif edə bilər. Qrup proqramları isə onlayn forumlar, video-müşavirələr və virtual dəstək qrupları vasitəsilə sosial dəstək mexanizmlərini gücləndirir. Bu istiqamətdə araşdırma fərdi müdaxilələrin adaptivliyi və şəxsiyyət xüsusiyyətlərinə uyğunlaşdırılması, qrup dinamikasının və sosial dəstəyin artırılması, habelə müxtəlif rəqəmsal vasitələrin (mobil tətbiqlər, chatbotlar, virtual reallıq) kombinasiya edilərək müdaxilənin effektivliyinin artırılmasını müəyyən edə bilər.

Rəqəmsal psixoloji dəstək və Sİ texnologiyalarının tətbiqi ilə bağlı etik və hüquqi məsələlər xüsusi önəm daşıyır. İstifadəçi məlumatlarının məxfiliyi, məlumatların qorunması, razılıq və yanlış diaqnoz riskləri tədqiq edilməli əsas mövzulardır (Shatte et al., 2019). Eyni zamanda, praktik çətinliklər texnoloji infrastrukturun mövcudluğu, istifadəçilərin texnologiyaya adaptasiyası və tətbiqlərin əlçatanlığı nəzərə alınmalıdır. Məqsəd etik və hüquqi çərçivələri müəyyən etmək, praktik tətbiq imkanlarını qiymətləndirməkdir. Rəqəmsal psixoloji dəstək strategiyalarının effektiv, təhlükəsiz və istifadəçi dostu olması təmin edilə bilər.

Rəqəmsal mühitdə psixoloji sağlamlıq problemlərinin aşkarlanması sahəsində son illərdə bir sıra tədqiqatlar aparılmışdır. Depressiya və təşviş pozuntuları xüsusilə gənc nəsildə sosial media istifadəsi və onlayn qarşılıqlı təsir vasitələrində artan təzyiq ilə əlaqələndirilir (Twenge et al., 2019). Ənənəvi qiymətləndirmə metodları psixoloji sorğular, müsahibələr və klinik müşahidələr yüksək subyektivlik və vaxt məhdudiyyəti səbəbindən erkən diaqnozda əngəllərlə üzləşir (Kroenke et al., 2010). Sİ və maşın öyrənməsi modellərinin tətbiqi psixoloji pozuntuların identifikasiyasında yeni imkanlar açır. Təbii dil emalı (TDE) vasitəsilə istifadəçilərin onlayn yazışmaları, status paylaşımları və mesajlarındakı emosional ton analiz edilərək depressiya və təşviş əlamətləri aşkarlana bilər (Guntuku et al., 2019). Eyni zamanda, danışıq robotları və virtual psixoloji köməkçilər, fərdi müdaxilə və dəstək mexanizmlərini avtomatlaşdırmaqla erkən dəstək proseslərini effektivləşdirə bilir (Fitzpatrick et al., 2017).

Rəqəmsal psixoloji dəstək və Sİ tətbiqləri etik və hüquqi məsələlər məxfilik, məlumatların qorunması və yanlış diaqnoz riski ilə müşayiət olunur (Shatte et al., 2019). Bu səbəbdən mövcud araşdırmalar həm texnoloji imkanların, həm də praktik, etik çərçivələrin sintezini tələb edir. Mövcud texnologiyalar və metodlar depressiya və təşviş pozuntularının rəqəmsal mühitdə aşkarlanması və dəstəkləyici müdaxilələrin həyata keçirilməsi üçün müxtəlif imkanlar təqdim edir; bunlar arasında təbiî dil emalı (TDE), maşın öyrənməsi və neyron şəbəkələr, virtual psixoloji köməkçilər (chatbotlar), mobil səhiyyə tətbiqləri (mHealth) və multimodal analiz sistemləri xüsusilə önəm daşıyır.

Təbii Dil Emalı (TDE). TDE alqoritmləri sosial media paylaşımları, forum yazıları, chat mesajları və digər rəqəmsal yazılı məlumatlar üzərində işləyərək istifadəçinin emosional vəziyyətini təhlil edir. Sentiment analizi və emosional tonun tanınması vasitəsilə depressiya və təşviş əlamətləri erkən mərhələdə müəyyən edilə bilər. Bu yanaşma geniş istifadəçi kütləsini əhatə etmək imkanı verir və ənənəvi sorğulara nisbətən daha sürətli və davamlı qiymətləndirmə təmin edir (Guntuku et al., 2019).

Maşın öyrənməsi və dərin neyron şəbəkələr böyük məlumat dəstlərində nümunələri tanımaq və psixoloji riskləri proqnozlaşdırmaq üçün geniş tətbiq olunur. Xüsusilə konvolyutsion neyron

şəbəkələr (CNN) vizual məlumatları, rekurrent neyron şəbəkələr (RNN) isə zaman seriyası məlumatlarını təhlil edərək emosional dəyişiklikləri izləyə bilir. Bu texnologiyalar istifadəçinin yazılı, vizual və davranış məlumatlarını birləşdirərək daha dəqiq aşkarlama imkanı yaradır (Kumar et al., 2021). Chatbotlar fərdi və davamlı dəstək təmin edən rəqəmsal vasitələrdir. Onlar ilkin psixoloji qiymətləndirmə aparır, fərdi tövsiyələr verir və istifadəçinin əhvalını izləyərək uyğun dəstək strategiyaları təklif edə bilir. Bu texnologiya, xüsusilə psixoloqa müraciət imkanı olmayan istifadəçilər üçün əlçatan və effektiv bir vasitədir (Fitzpatrick et al., 2017).

Mobil tətbiqlər istifadəçinin gündəlik davranış və emosional məlumatlarını toplayaraq fərdi müdaxilə planlarını optimallaşdırır. Bu tətbiqlər həm əhvalın izlənməsini, həm də stressin idarə olunmasını dəstəkləyir. Onlar biofeedback, qısa sorğular və fəaliyyət izləyicilərini birləşdirərək fərdi psixoloji dəstək proqramlarını təmin edir (Torous et al., 2020).

Multimodal analiz texnologiyaları səs tonu, mimika, yazılı ifadələr və digər davranış nümunələrini birləşdirərək emosional vəziyyətin daha dəqiq proqnozlaşdırılmasını təmin edir. Bu yanaşma yalnız yazılı və ya vizual məlumatla kifayətlənmir, həmçinin istifadəçinin emosional vəziyyətini daha geniş kontekstdə qiymətləndirərək yanlış diaqnoz riskini azaldır (Zeng et al., 2009).

Bu texnologiyalar birləşdirildikdə, rəqəmsal mühitdə depressiya və təşviş pozuntularının erkən aşkarlanması və fərdi dəstəkləyici müdaxilələrin planlaşdırılması üçün geniş potensial yaradır.

Sİ texnologiyalarının inkişafı psixoloji sağlamlıq sahəsində yeni və innovativ yanaşmaların formalaşmasına şərait yaradır. Rəqəmsal platformalar vasitəsilə həyata keçirilən psixoloji dəstək sistemləri depressiya və təşviş pozuntularının erkən mərhələdə aşkarlanmasına, eləcə də fərdi və qrup əsaslı müdaxilə strategiyalarının daha effektiv təşkilinə imkan verir. Bu sistemlər istifadəçilərin davranış nümunələrini, emosional reaksiyalarını və ünsiyyət xüsusiyyətlərini analiz edərək risk faktorlarını müəyyənləşdirə və uyğun dəstək mexanizmləri təklif edə bilir.

Sİ əsaslı tətbiqlər psixoloji xidmətlərin əlçatanlığını artırmaqla yanaşı, mütəxəssislərin işini dəstəkləyən köməkçi alət kimi çıxış edir. Bu texnologiyalar psixoloqlara və terapevtlərə böyük məlumat bazasını analiz etməyə, fərdi terapiya planları hazırlamağa və müdaxilələrin nəticələrini monitorinq etməyə kömək edir. Gələcəkdə bu sahədə aparılan tədqiqatların genişlənməsi süni intellektin psixoloji sağlamlığın qorunması və dəstəklənməsi sahəsində daha effektiv və etibarlı tətbiqlərinin inkişafına töhfə verə bilər.

Rəqəmsal texnologiyaların inkişafı psixoloji sağlamlığın davamlı monitorinqi üçün yeni imkanlar yaratmışdır. Müasir rəqəmsal monitorinq sistemləri istifadəçilərin gündəlik fəaliyyətlərini, emosional reaksiyalarını və sosial qarşılıqlı təsir formalarını analiz etməklə psixoloji vəziyyət haqqında mühüm məlumatlar əldə etməyə imkan verir. Bu sistemlər mobil tətbiqlər, geyilə bilən texnologiyalar və onlayn platformalar vasitəsilə məlumat toplayaraq istifadəçinin əhval dəyişikliklərini və stress səviyyəsini izləyə bilir.

Belə yanaşma depressiya və təşviş pozuntularının erkən mərhələdə müəyyən edilməsinə və profilaktik tədbirlərin vaxtında həyata keçirilməsinə şərait yaradır. Rəqəmsal monitorinq sistemləri eyni zamanda mütəxəssislərə istifadəçi haqqında daha obyektiv və davamlı məlumat təqdim edir ki, bu da psixoloji müdaxilələrin planlaşdırılmasında və effektivliyinin qiymətləndirilməsində mühüm rol oynayır. Bununla yanaşı, bu texnologiyaların tətbiqi zamanı məlumatların məxfiliyinin qorunması və etik prinsiplərə riayət olunması xüsusi diqqət tələb edir.

Rəqəmsal mühitdə depressiya və təşviş pozuntularının aşkarlanması və süni intellekt texnologiyalarının tətbiqi geniş imkanlar yaratsa da, bu sahədə bir sıra problemlər və məhdudiyyətlər mövcuddur. İlkin olaraq, psixoloji vəziyyətə dair məlumatlar yüksək dərəcədə həssas hesab olunur. Sosial media yazıları, şəxsi mesajlar və davranış məlumatlarının analiz edilməsi istifadəçilərin şəxsi həyatına müdaxilə riski yarada bilər.

Buna görə də bu məlumatların toplanması və emalı zamanı etik prinsiplərin qorunması, istifadəçi razılığının alınması və məlumatların təhlükəsiz saxlanması vacibdir. İkinci problem, Sİ modellərinin dəqiqliyi ilə bağlıdır. Sİ alqoritmləri böyük məlumat bazalarına əsaslansa da, bəzi hallarda yanlış nəticələr verə bilər. Məsələn, istifadəçinin emosional ifadəsi və ya ironik üslubu alqoritm tərəfindən düzgün interpretasiya olunmaya bilər. Bu isə yanlış pozitiv və ya yanlış neqativ nəticələrə səbəb ola bilər. Üçüncü problem, texnologiyaların sosial və mədəni fərqlərə uyğunlaşdırılmasıdır.

Mövcud alqoritmlərin əksəriyyəti müəyyən dillər və mədəni mühitlər üçün hazırlanmışdır. Lakin emosional ifadə formaları müxtəlif cəmiyyətlərdə fərqli ola bilər. Bu səbəbdən modellərin müxtəlif dil və mədəni kontekstlərə uyğunlaşdırılması zəruridir. Dördüncü problem, insan mütəxəssislərinin rolunun qorunmasıdır. Sİ psixoloji dəstək prosesində faydalı köməkçi vasitə olsa da, tam şəkildə psixoloq və ya psixoterapevtin rolunu əvəz edə bilməz. İnsan faktorunun olmaması bəzi hallarda emosional dəstəyin keyfiyyətini azalda bilər. Beşinci problem, texnoloji əlçatanlıq və istifadə bacarıqlarıdır. Rəqəmsal psixoloji dəstək sistemlərindən istifadə üçün texnoloji savadlılıq və internetə çıxış tələb olunur. Bu isə bəzi sosial qrupların bu xidmətlərdən tam istifadə edə bilməməsinə səbəb ola bilər.

Aparılan araşdırma göstərir ki, rəqəmsal mühitdə depressiya və təşviş pozuntularının aşkarlanması və idarə olunması sahəsində süni intellekt texnologiyaları geniş imkanlar təqdim edir. Təbii dil emalı, maşın öyrənməsi, virtual psixoloji köməkçilər və mobil səhiyyə tətbiqləri kimi texnologiyalar psixoloji problemlərin erkən identifikasiyasını və fərdi dəstək strategiyalarının formalaşdırılmasını əhəmiyyətli dərəcədə asanlaşdırır.

Bu texnologiyalar psixoloji xidmətlərin əlçatanlığını artırmaqla yanaşı, mütəxəssislərə daha dəqiq və məlumat əsaslı qərarlar qəbul etməyə kömək edir. Rəqəmsal psixoloji dəstək sistemlərinin geniş tətbiqi zamanı etik və hüquqi məsələlərin nəzərə alınması vacibdir. İstifadəçi məlumatlarının qorunması, məlumatların təhlükəsiz saxlanması və süni intellekt modellərinin şəffaflığı əsas prioritetlərdən biri olmalıdır. Gələcək tədqiqatlar süni intellekt əsaslı sistemlərin daha dəqiq və etibarlı modellərinin hazırlanmasına, multimodal məlumatların inteqrasiyasına və psixoloji dəstək platformalarının daha geniş istifadəçi qrupları üçün əlçatan olmasına yönəldilməlidir.

Bundan əlavə, psixoloqlar, texnoloqlar və səhiyyə mütəxəssisləri arasında əməkdaşlığın gücləndirilməsi rəqəmsal psixoloji xidmətlərin effektivliyini artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Aparılan araşdırmanın nəticələrinə əsasən, rəqəmsal mühitdə depressiya və təşviş pozuntularının aşkarlanması və süni intellekt texnologiyalarının tətbiqinin daha effektiv həyata keçirilməsi üçün bir sıra tövsiyələr irəli sürmək mümkündür.

1.Psixoloji sağlamlıq sahəsində tətbiq olunan süni intellekt sistemlərinin inkişafı üçün multidissiplinar əməkdaşlığın gücləndirilməsi vacibdir. Psixoloqlar, psixiatrlər, informasiya texnologiyaları mütəxəssisləri və məlumat analitikləri arasında əməkdaşlıq bu sahədə daha etibarlı və effektiv modellərin yaradılmasına imkan verə bilər.

2.Sİəsaslı psixoloji analiz sistemlərinin dəqiqliyinin artırılması üçün daha geniş və müxtəlif məlumat bazalarından istifadə olunmalıdır. Bu məlumatlar müxtəlif yaş qruplarını, sosial mühitləri və mədəni kontekstləri əhatə etməlidir ki, alqoritmlər daha universal və etibarlı nəticələr təqdim edə bilsin.

3.Rəqəmsal psixoloji dəstək platformalarının hazırlanması zamanı istifadəçi məxfiliyinin qorunması əsas prioritet kimi nəzərə alınmalıdır. Bunun üçün məlumatların şifrələnməsi, anonimləşdirilməsi və istifadəçi razılığı mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir.

4.Sİ əsaslı psixoloji dəstək sistemləri insan mütəxəssislərinin fəaliyyətini tamamlayan vasitə kimi istifadə edilməlidir. Bu texnologiyalar psixoloq və terapevtlərin işini asanlaşdırmalı, lakin onların yerini tam şəkildə əvəz etməməlidir.

5.Mobil səhiyyə tətbiqləri və rəqəmsal psixoloji platformalar vasitəsilə psixoloji maarifləndirmə proqramlarının genişləndirilməsi tövsiyə olunur. Bu proqramlar istifadəçilərə stressin idarə olunması, emosional özünü tənzimləmə və psixoloji sağlamlığın qorunması ilə bağlı praktiki məlumatlar təqdim edə bilər.

6.Gələcək tədqiqatlarda multimodal məlumatların mətn, səs, vizual ifadələr və davranış göstəricilərinin inteqrasiyasına əsaslanan süni intellekt modellərinin hazırlanması məqsədəuyğundur. Bu yanaşma emosional vəziyyətin daha dəqiq qiymətləndirilməsinə və erkən müdaxilə imkanlarının genişlənməsinə şərait yarada bilər.

7.Rəqəmsal psixoloji dəstək texnologiyalarının geniş tətbiqi üçün dövlət qurumları və səhiyyə sistemləri tərəfindən müvafiq hüquqi və institusional çərçivənin yaradılması vacibdir. Bu, texnologiyaların təhlükəsiz və məsuliyyətli şəkildə istifadəsini təmin edə bilər.

Rəqəmsal texnologiyaların sürətli inkişafı psixoloji sağlamlıq sahəsində yeni yanaşmaların və metodların tətbiqinə geniş imkanlar yaratmışdır. Aparılan araşdırma göstərir ki, süni intellekt texnologiyaları rəqəmsal mühitdə depressiya və təşviş pozuntularının erkən aşkarlanması və psixoloji dəstək mexanizmlərinin təkmilləşdirilməsi baxımından mühüm potensiala malikdir. Təbii dil emalı, maşın öyrənməsi, virtual psixoloji köməkçilər və mobil səhiyyə tətbiqləri kimi müasir texnologiyalar istifadəçilərin emosional vəziyyətinin monitorinqinə, risk faktorlarının müəyyənləşdirilməsinə və fərdi dəstək strategiyalarının hazırlanmasına imkan verir.

Eyni zamanda, bu texnologiyaların tətbiqi bir sıra problemlərlə – məlumatların məxfiliyi, alqoritmlərin dəqiqliyi, etik və hüquqi məsələlər, eləcə də texnoloji əlçatanlıq kimi amillərlə müşayiət olunur. Buna görə də süni intellekt əsaslı psixoloji dəstək sistemlərinin inkişafı zamanı həm texnoloji imkanlar, həm də etik və sosial aspektlər kompleks şəkildə nəzərə alınmalıdır.

Sİ psixoloji sağlamlıq sahəsində ənənəvi metodları tamamlayan və onların effektivliyini artıran innovativ vasitə kimi çıxış edə bilər. Gələcək tədqiqatların bu sahədə daha inkişaf etmiş modellərin hazırlanmasına, multimodal məlumatların inteqrasiyasına və rəqəmsal psixoloji dəstək platformalarının daha geniş istifadəçi qrupları üçün əlçatan olmasına yönəldilməsi məqsədəuyğun hesab olunur. Belə yanaşma psixoloji problemlərin erkən mərhələdə müəyyənləşdirilməsinə və cəmiyyətin psixoloji rifahının qorunmasına mühüm töhfə verə bilər.

Ədəbiyyat:

1. Campbell, A. T., Choudhury, T., Hu, S., Lu, H., Mukerjee, M. K., Rabbi, M., & Raizada, R. D. S. (2018). From smartphones to smart health: Digital phenotyping and the future of mental health. Nature Digital Medicine, 1(1), 1–3.

2. Darcy, A., Daniels, J., Salinger, J., Wicks, P., & Robinson, A. (2021). Evidence-based digital mental health interventions: Review and future directions. Journal of Medical Internet Research, 23(6), e26900.

3. Eichstaedt, J. C., Schwartz, H. A., Kern, M. L., Park, G., Labarthe, D. R., Merchant, R. M., Jha, S., Agrawal, M., Dziurzynski, L., Sap, M., Weeg, C., Larson, E. E., Ungar, L. H., & Seligman, M. E. P. (2018). Facebook language predicts depression in medical records. Proceedings of the National Academy of Sciences, 115(44), 11203–11208.

4. Fitzpatrick, K. K., Darcy, A., & Vierhile, M. (2017). Delivering cognitive behavioral therapy to young adults with symptoms of depression and anxiety using a fully automated conversational agent (Woebot). JMIR Mental Health, 4(2), e19.

5. Guntuku, S. C., Yaden, D. B., Kern, M. L., Ungar, L. H., & Eichstaedt, J. C. (2019). Detecting depression and mental illness on social media: An integrative review. Current Opinion in Behavioral Sciences, 18, 43–49.

6. Kroenke, K., Spitzer, R. L., & Williams, J. B. W. (2001). The PHQ-9: Validity of a brief depression severity measure. Journal of General Internal Medicine, 16(9), 606–613.

7. Shatte, A. B. R., Hutchinson, D. M., & Teague, S. J. (2019). Machine learning in mental health: A scoping review of methods and applications. Psychological Medicine, 49(9), 1426–1448.

8. Torous, J., Firth, J., Huckvale, K., Larsen, M. E., Cosco, T. D., Carney, R., Chan, S., Pratap, A., Yellowlees, P., & Keshavan, M. (2020). The emerging imperative for a consensus approach toward the rating and clinical recommendation of mental health apps. Journal of Nervous and Mental Disease, 208(8), 662–666.

9. Twenge, J. M., Joiner, T. E., Rogers, M. L., & Martin, G. N. (2019). Increases in depressive symptoms, suicide-related outcomes, and suicide rates among U.S. adolescents after 2010 and links to increased new media screen time. Journal of Abnormal Psychology, 128(2), 119–133.

10. Zeng, Z., Pantic, M., Roisman, G. I., & Huang, T. S. (2009). A survey of affect recognition methods: Audio, visual and spontaneous expressions. IEEE Transactions on Pattern Analysis and Machine Intelligence, 31(1), 39–58.

MÜASİR TEXNOLOJİ İNKİŞAF: ONUN MÜSBƏT VƏ MƏNFİ TƏRƏFLƏRİ

Dilşad İsrəfil qızı Şamilova
Azərbaycan Respublikası
Bakı Dövlət Universiteti Qazax filialı
dilshadshahmarova@gmail.com
ORCİD ID: 0009-0003-8500-830X
Cəvahir Almaz qızı Mustafayeva
Bakı Dövlət Universiteti Qazax filialı
cvhrmustafyeva@gmail.com
ORCİD ID: 0009-0006-7722-8726
Ülviyyə Bayram qızı Bayramova
Bakı Dövlət Universiteti Qazax filialı
bayramova.ulviyya@inbox.ru.
ORCİD ID:0000-0001-6719-3546
Həqiqət Şəadət qızı Mehdiyeva
Bakı Dövlət Universiteti Qazax filialı
heqiqət.mehdiyeva.91@mail.ru.
ORCİD ID:0009-0001-5264-2377

Açar sözlər: texnologiya dünyası, süni intellekt, universal komputer nəsilləri, avtomalaşdırmaların yeni zirvələri, metaverse oyunları, rəqəmsal məktəb platforması.

Xülasə. Tarix boyu texnologiyanın keçdiyi yolu birgə yenidən addımladıq.Baş verən dəyişirlikləri şərhsiz və müdaxiləsiz işıqlandırmağa çalışdıq.Təbii ki,insan həyatına təsirini də vurğuladıq.İstər mənfi ,istərsə də mənfi cəhətlərini də göstərməyə çalışdıq.İnsanların bu texnoloji innavativ dəyişirliyi yaşamına ,dünyadakı yerinə də təsir göstərir. Bu gün həyatımızın ayrılmaz hissəsi olan suni untellket və komputerin inkişaf yoluna da xüsusi toxunduq. Müasir dövr artificial intellingence (ai)erası olduğunu açıq gözlə belə görmək olur.İstər mədəni,istərsə də incəsənətin bir çox branşlarında özünü möhkəmlədibdir.Hətta yaxın gələcəkdə hakim mövqeyə çevriləcəyi də gözlənilir.İnsanlıq tarixinin gözlə görünən şedevr çevrilişlərinin yaradılmasının şahidiyik.Təbii ki,bu sevindirici tərəfləridir.İnsanllıq bugün üçün çox uzun çeşməkeşli bir yol keçibdir.Komputer nesilləri hardasa insanlıq tarixinin beşdə biri qədər yol keçibdir.Kvant komputerləri artıq yeni mərhələdirki,insan pik nöqtəyə doğru irəliləyir.Bir də bunun yanına “Metaverse”oyununu əlavə ede bilirik.Coğrafi aşılmaz sərhədləri aradan götürür. "Metaverse” bizim işləmə, öyrənmə və sosiallaşma tərzimizi dəyişdirəcək. Bu uğurlar bizi sevindirir.Lakin artıq həyacan siqnallarını görürük.İnsanlıq təhlükə altındadır.

Keywords: the world of technology, artificial intelligence, universal computer generations, new heights of automation, metaverse games, digital school platform.

*Summary.*We have retraced the path of technology throughout history. We have tried to make the changes that have occurred without explanation and without including you. Of course, we have emphasized the impact on human life. We do not want to show the negative aspects of technology, but we want to show the positive aspects.We have worked. This technological innovation of people has an impact on their lives and on their place in the world..We also touched on the development of artificial intelligence and computers, which are an inseparable part of our lives. It is obvious that the

modern era is the era of artificial intelligence (AI). It has established itself in many branches of culture and art. It is even expected to become a dominant position in the near future. We are witnessing the creation of masterpieces that are visible in the history of humanity. Of course, this is a joyful aspect. Humanity has come a long and winding path to today. Computer generations have come a long way, about one-fifth of human history. Quantum computers are already a new stage, and humans are moving towards a peak. We can also add the game of "Metaverse" to this. It removes geographically insurmountable borders. The " Metaverse " will change the way we work, learn, and socialize. These successes make us happy. But we are already seeing alarm signals. Humanity is in danger.

Anahtar kelimeler: teknoloji dünyası, yapay zeka, evrensel bilgisayar nesilleri, otomasyonun yeni zirveleri, metaverse oyunları, dijital okul platformu.

Özet. Birlikte, teknolojinin tarih boyunca izlediği yolu yeniden ele aldık. Yorum ve müdahale olmaksızın meydana gelen değişiklikleri vurgulamaya çalıştık. Elbette, insan yaşamı üzerindeki etkisini de vurguladık. Hem olumlu hem de olumsuz yönlerini göstermeye çalıştık. İnsanların bu teknolojik yeniliği, yaşamlarını ve dünyadaki yerlerini etkiliyor. Ayrıca, bugün hayatımızın ayrılmaz bir parçası olan yapay zeka ve bilgisayarların gelişim yoluna da değindik. Modern çağın yapay zeka (YZ) çağı olduğu açıktır. Kültür ve sanatın birçok dalında kendini kanıtlamıştır. Yakın gelecekte baskın hale gelmesi bile bekleniyor. İnsanlık tarihinde görülebilen başyapıtların yaratılmasına tanık oluyoruz. Elbette bu sevindirici bir durum. İnsanlık bugüne kadar uzun ve dolambaçlı bir yol kat etti. Bilgisayar nesilleri, insanlık tarihinin beşte birini tamamladı. Kuantum bilgisayarlar, zirve noktasına doğru ilerleyen yeni bir aşamayı temsil ediyor. Buna "Metaverse" oyununu da ekleyebiliriz. Aşılmaz coğrafi sınırları ortadan kaldırıyor. "Metaverse" çalışma, öğrenme ve sosyalleşme biçimlerimizi değiştirecek. Bu başarılar bizi mutlu ediyor. Ancak şimdiden alarm sinyalleri görüyoruz. İnsanlık tehlikede.

İnsan yaradılışca tarix boyu daim yaşam mücadiləsi veribdir.Təbiətlə mubarizə, özü özü ilə,insan qrupları arasında münaqişələr,ən nəhayətində daha rahat, daha konforlu yaşam üçün daim axatarışda olubdur,mübarizə aparıbdır. 2025-ci il texnologiya dünyası üçün yeni dönüş nöqtəsi oldu ki,bu transfor yeniliklər baş vermişdi.Bu yeniliklərə göz gəzdirək. Texnologiya görünməmiş bir sürətlə inkişaf etməyə davam etdiyindən, gələcəyə uzaqgörənlik və məsuliyyətlə getmək çox vacibdir (Azərbaycan Universiteti, 2025). Etik problemləri həll edərkən yeniliyi qəbul etməklə biz texnologiyanın gücündən hər kəs üçün daha davamlı, ədalətli və firavan gələcək yaratmaq üçün istifadə edə bilərik.

Texnologiya dünyasında maraqlı inkişafların baş verdiyi çox mühüm bir dövrə qədəm qoyuruq: süni intellekt, metaverse və yaşıl texnologiya həyat tərzimizi dəyişdirərkən, kvant kompüterləri və neyrotexnologiya kimi yeniliklər gələcəyi formalaşdırır. İnsan yaradılışının dahi kəşfi komputerlərin kəşfidir.Blez Paskaldan bu yana uzun çətin yol keçərək müasir dövrə daha mükəmməl formasını yaratmağı bacararaq daxil olduq.1930-cu ildə A.Turinq (İngiltərə) və E. Post (ABŞ) tərəfindən universal kompüterlərin yaradılmasının nəzəri əsasları inkişaf etdirilmişdir.V nəsil komputerlərdən istifadə etməymizi nəzərə alsaq uzun bir yol qət etmişdir.Bu il texnologiya və insan mərkəzli bir dövrün qapılarını açır. 2025-ci il, süni intellekt, virtual reallıq və davamlılıq sahəsində irəliləyişlərin yaşamaq, işləmək və dünya ilə qarşılıqlı əlaqə tərzimizi kökündən dəyişdirmək üçün bir araya gəldiyi bir dönüş nöqtəsi olacaq (Milli Elmlər Akademiyası, 2026). Bu inkişaflar gələcəyə olan ümidlərimizi artırır və daha bağlı, daha əhatəli bir dünyaya qapı açır. Süni intellekt artıq futuristik bir anlayış deyil və həyatımızın hər sahəsinə nüfuz etməyə başlayıb.

Bu ilin ən mühüm tendensiyalarından biri müstəqil qərarlar qəbul edə və insan müdaxiləsi olmadan hərəkətə keçə bilən "Agent AI” adlı süni intellekt sistemlərinin yüksəlişidir (Uluslararası Türk Dünyası Araşdırmaları Simpozyumu, 2025). Bu avtonom süni intellekt sənayedə inqilab etmək potensialına malikdir. Süni intellekt elmi tədqiqatlarda da mühüm rol oynayır və fərdiləşdirilmiş marketinqdə şirkətlərə daha məqsədyönlü və maraqlı kampaniyalar yaratmaq imkanı təqdim edir (Milli Elmlər Akademiyası, 2026).Lakin süni intellektin yüksəlişi bərabərsində çətinliklər də gətirir. Süni intellektin idarə edilməsi və etik məsələlər bu nöqtədə böyük əhəmiyyət kəsb edir. Məsuliyyət və qərəzlikdən uzaq bir sistem yaratmalı idik. Bugün süni intellekt (AI) artıq həyatımızın ayrılmaz bir hissəsinə çevrilib. 2025-ci ildə AI-nın daha müstəqil və qərar qəbul etmə bacarığına malik olması gözlənilir. ERAsoft, müasir AI texnologiyalarını istifadə edərək, müştərilərinə daha ağıllı və səmərəli web və mobil tətbiqlər təqdim edir. Bizim süni intellekt həllərimiz, müştərilərimizin iş proseslərini avtomatlaşdıraraq, onların rəqabət qabiliyyətini artırmağa kömək edir.

"Metaverse” ilk dəfə oyun dünyasında diqqət çəksə də, şirkət tətbiq sahələrini sürətlə genişləndirməyə başladı. 2025-ci ildə "Metaverse” bizim işləmə, öyrənmə və sosiallaşma tərzimizi dəyişdirəcək. Virtual iş yerləri ənənəvi ofislərə immersiv alternativlər təklif edir, təhsil müəssisələri isə VR və əlavə reallıq texnologiyalarından istifadə edərək interaktiv öyrənmə təcrübələri yaradır. "Metaverse” coğrafi maneələri aradan qaldıraraq yeni sosial əlaqə formalarının yaranmasına şərait yaradır. Yenə yeni bir oyun:GTA 6.Bu oyun düşünürəm ki, sənayesini dəyişdirəcək.Oyun sənayesi 2025-ci ildə Grand Theft Auto 6-nın buraxılışını səbirsizliklə gözləyir.

Davamlılıq və yaşıl texnologiya :İqlim böhranı gücləndikcə davamlılıq artıq seçim deyil, zərurət halına gəlib. Yaşıl texnologiya yenilikləri 2025-ci ildə ön plana çıxacaq. Günəş və külək enerjisi və qabaqcıl enerji saxlama həlləri kimi bərpa olunan enerji texnologiyalarının inkişafı daha davamlı gələcəyə zəmin hazırlayır. Kvant kompüterləri üfüqdədir:Klassik kompüterlərin həll edə bilmədiyi problemləri həll etmək potensialına malik olan kvant kompüterləri 2025-ci ilin digər mühüm trendidir.

Artıq bugün robotların insanlarla birgə həyat paylaşdığını belə deyə bilirik.Çox funksiyalı robotların yüksəlişi başlayır.Robotlar daha çox yönlü və uyğunlaşa bilən hala gəlir. 2025-ci ildə bir neçə vəzifəni yerinə yetirə bilən çox funksiyalı robotların meydana gəldiyini görəcəyik. Bu robotlar səmərəliliyi və çevikliyi artıraraq istehsal, logistika və kənd təsərrüfatı kimi sənayelərdə inqilab etmək potensialına malikdir (Uluslararası Türk Dünyası Araşdırmaları Simpozyumu, 2025).

Kriptovalyuta 2025-ci ildə yenidən yüksəlişdə olacaq. Korporativ qəbulun artması, blokçeyn texnologiyası haqqında məlumatlılığın artması və kriptovalyutaların alternativ maliyyə həlləri təmin etmək potensialı bu marağın yenidən artmasına səbəb olan amillərdəndir.

Dünyanın artıq Qalaktikada öz yerini axtarması uzun zamandı başlayıbdır.Kosmik iqtisadiyyat və yeni üfüqlər layihəsi bunun yeni mərhələsidir.Kosmos araşdırması, 2025-ci ildə yalnız elmi bir axtarış olmaqdan çıxaraq, kommersiya imkanına çevrilir. Aya ediləcək yeni missiyalar həm su, həm də digər resursların aşkar edilməsini mümkün edə bilər. SpaceX kimi özəl şirkətlər, kosmos turizmini daha əlçatan etməyi hədəfləyərkən, ölkələrarası əməkdaşlıqlar kosmosun iqtisadi və texnoloji potensialını yenidən müəyyənləşdirir(International Organization for Standardization, 2026) . Mədəniyyət insanı başqa canlıdan fərqləndirən əsas faktordu.İncəsənət və mədəniyyəti süni intellektlə yenidən müəyyənləşdirmək belə mümkün olacaq.İncəsənət və mədəniyyət süni intellektlə yeni ifadə forması qazanır. Süni intellekt alqoritmləri tərəfindən hazırlanan musiqi, şəkillər və hekayələr 2025-ci ildə həm müzakirə, həm də ilham mənbəyi olacaq.

İnsan yaradıcılığı və süni intellektin əməkdaşlığı incəsənət aləmində yeni eranın başlanğıcından xəbər verir və mədəni istehsalın sərhədlərini genişləndirir.

Bu qədər inkişaf və yenilikləri təbii ki,qorumaq lazımdı.Etika və rəqəmsal hüquqlar məhz bunun üçün nəzərdə tutulubdur (Bestapp.az, 2024). Məlumatların məxfiliyi, alqoritmik qərəzlər və süni intellekt sistemlərinin məsuliyyəti kimi məsələlər 2025-ci ildə qlobal gündəmə çevriləcək. Texnologiyanın yeni bir qolu Neyrotexnologiya və insan maşın inteqrasiyasıdır.Beyin-kompüter interfeysləri insan-maşın inteqrasiyasında inqilab etmək yoluna qədəm qoyubdur. 2025-ci ilə qədər neyrotexnologiya iflic olan xəstələrə ünsiyyət bacarıqlarını bərpa etməyə və ya ağıllarının gücü ilə protezlərə nəzarət etməyə imkan verə bilər.

Keçirik həyatımızı zəbt edən əsas məsələyə -sosial səhifələr portallar.Portallar daim texnoloji inkişafı və müasir rəqəmsal trendləri izləyir. Saytın yeni dizaynı, sürətli işləyən server infrastrukturu, axtarış optimizasiyası (SEO), mobil uyğunluq və istifadəçi rahatlığı əsas prioritetlərdəndir (Bestapp.az, 2024). Portal həmçinin sosial şəbəkələrdə (Facebook, Instagram, Telegram, YouTube və s.) aktiv fəaliyyəti ilə seçilir. Bu platformalar rahat axtarışlar arxiv məlumatların rahat saxlanılması,fərdi xəbər seçimləri,sürətli yükləmələr, push bildirişlər vəs. Şərait yaradır.Bu siyahını nə qədər istəsək uzada bilərik. Günü gündən tələbatın artması ilə də daha sürətlə yeniləyin özü-özünü keşdiyini görürük.Portal cəmiyyətin bütün təbəqələri üçün informasiya əlçatanlığı, regionlara və sosial qruplara bərabər yanaşma prinsipini üstün tutur (Uluslararası Türk Dünyası Araşdırmaları Simpozyumu, 2025). Xüsusən də təcili hadisələr, fövqəladə situasiyalar, ictimai əhəmiyyətli qərarlar və siyasi proseslər barədə operativ və etibarlı məlumatı oxucu ilk mənbədən əldə edir. Bu portallar bizə yalnız informasiya ötürmür həmçinin, eyni zamanda cəmiyyət üçün maarifləndirici, sosial məsuliyyət daşıyan layihələr, xeyriyyə aksiyaları və ictimai kampaniyalar haqqında məlumat verir (Uluslararası Türk Dünyası Araşdırmaları Simpozyumu, 2025). Portal sosial problemlərə, ictimai təşəbbüslərə, ekoloji mövzulara, təhsil və gənclər siyasətinə də xüsusi diqqət ayırır. Bu, ölkə.az-ı təkcə xəbər portalı deyil, həm də sosial məsuliyyətli media brendi kimi möhkəmləndirir.

İnformasiya təhlükəsizliyi, oxucuların şəxsi məlumatlarının qorunması, etibarlı mənbəyə əsaslanma və cəmiyyətin dəyərlərinə hörmət saytın ən mühüm prioritetləri sırasındadır. Analitik təhlillər və ekspert rəylərə fikir verək.

Səhiyyə, təhsil, sosial müdafiə, iqtisadiyyat, diplomatiya, beynəlxalq münasibətlər kimi strateji sahələrdə hazırlanmış təhlil materialları geniş oxucu kütləsinin maariflənməsi və hadisələrin düzgün qiymətləndirilməsi üçün mühüm rol oynayır.

Beynəlxalq əlaqələr və xarici media ilə əməkdaşlıq daha asan,daha komfor halına gəlibdir. Xarici informasiya agentlikləri ilə əməkdaşlıq, beynəlxalq analitiklərin, ekspertlərin rəylərinin yayılması, dünya hadisələrinin işıqlandırılması portalın xarici auditoriyada da tanınmasına səbəb olub. Bu rəqəmsal transformasiya bizə gələcək perspektivlərimizi genişləndirməyə imkanlar yaradır.(Azərbaycan Universiteti, 2025).

Rəqəmsal transformasiya bizim əsas prioritetlərimizdəndən birinə çevrilibdir. Süni intellektin tətbiqi, avtomatlaşdırılmış xəbər axını, analitik və statistik alətlərin genişləndirilməsi, video və podcast platformalarının inkişafı portalın gələcəkdə də öz lider mövqeyini qorumasına zəmin yaradır.

Təhsində bu yenilikləri tətbiq etmək artıq əsas misssiyamıza çevrilibdir.“Rəqəmsal Məktəb” platformasında tətbiqi nəzərdə tutulan süni intellekt əsaslı “Chatbot”un əsas məqsədi ondan ibarətdir ki, şagird dərs prosesində müəllimin tədris etdiyi mövzunu dinlədikdən sonra evdə

müəllim əlçatan olmadıqda müxtəlif suallar verə bilsin. Süni intellekt həmin suallara cavab verərək həm şagirdin individual öyrənməsini asanlaşdıracaq, həm də müəyyən mənada müəllimin rolunu tamamlayacaq”.Bugün platformada şagird profilləri də mövcuddur. Hər bir şagird UTİS kodu və valideynin təyin etdiyi şifrə ilə öz profilinə daxil ola bilir: “Şagirdin gördüyü dərs cədvəlləri, ev tapşırıqları və müxtəlif əlavə materiallar bu profildə yerləşir.Xüsusilə ibtidai sinif şagirdləri üçün elektron resurslar hazırlanır. Yuxarı siniflər üçün isə mənimsənilməsi çətin olan fənlərin mövzularında əlavə resurslar, video materiallar yaradılır. Bu resursların əsas məqsədi şagird evdə olarkən müəllimin öyrətdiklərindən əlavə öyrənmək istədikdə və ya təkrar xarakterli materiala baxmaq istədikdə həmin resurslardan yararlanmasına imkan verməkdir”.

İnsanlıq tarix boyu bu nailiyyətləri əldə etmək üçün vuruşdu. Bu qədər yeniliklər insan zəkasının zəhmətinin nəticəsidir.Hər sahəyə üz tutduq,iqtisadi,siyasi,mədəni,mənəvi sahədəki dəyişirliklər məhz əsrlərin zəhməti,günlərin,illərin,əsrlərin zəhətinin nəticəsidir. Bəhs bu texnoloji innovasiya bizi hara aparır. Mütəxəsislər deyir ki,bir 50 ilə bəzi peşələr (müəllim, müğənni və s) yox olacaq. İnsanlar arasında ilətişim,münasibətlər sıfıra enəcək.Ən əsası mənəvi ruh onun qidalanması yoxa çıxacaq (International Organization for Standardization,2026). Biz bu acılı-şirinli mübarizəni nə üçün apardıq. İnsanlığın məhv olduğunu artıq eynəksiz də görə bilirik.

Ədəbiyyat:

1. Bestapp.az. (2024, June 24). Dünyanın ən populyar 5 süni intellekti.
2. Azərbaycan Universiteti (AU). (2025, February 23). Süni intellektin elmdə və təhsildə yeri.
3. Uluslararası Türk Dünyası Araşdırmaları Simpozyumu. (2025). Süni intellekt və onun iqtisadiyyatda rolu.
4. Milli Elmlər Akademiyası. (2026, February 19). Kitabxanada süni intellekt: “Zaman və sivilizasiya”.
5. International Organization for Standardization. (2026, June 27). Искусственный ителлект что такое как он.

SOSİAL MEDİA ALQORİTMLƏRİNİN YENİYETMƏLƏRİN ÖZÜNÜTƏSDİQ MEXANİZMLƏRİNƏ TƏSİRİ

Səma İlqar Qızı Quliyeva
Magistrant
Azərbaycan Respublikası
Sumqayıt Dövlət Universiteti
semaquliyefa04@gmail.com
ORCİD ID: 0009-0008-6079-3416

Açar sözlər: sosial media, yeniyetməlik dövrü, təhsil sistemi, psixoloji, “Mən kiməm”, valideyn, müəllim, “bəyənmə”.

Xülasə. Yeniyetməlik öz kimliyini axtarıb tapdığı dövr hesab olunur. Müasir dövrün tələblərinə uyğunlaşmaq üçün yeniyetmələr sosial media alqoritmlərində aktiv şəkildə fəaliyyət göstərirlər. Təhsil mərkəzlərində öz bilik və bacarıqlarını təkmilləşdirən 12-16 yaş aralıqlı yeniyetmələrin sosial media alqoritmlərinin rolu əvəzolunmazdır. Sosial media vasitəsilə

yeniyetmələr yeni dostlar qazanır, öz istedadlarını inkişaf elətdirirlər, məsafələrdən asılı olmayaraq öz təhsillərini artırmaq imkanlarına sahibdirlər. Bu alqoritmlər nəticəsində yeniyetmələr özünüdərk və təsdiq prosesini formalaşdırır. Lakin yeniyetmə yanlış istiqamətdə istifadə ediləndə risklərlə qarşılaşır. Virtual mühitin cazibəsinə aldanaraq, real mühitdən uzaqlaşmağa başlayır. Özünü sosial media alqoritmlərində itirməyə başlayır. İzləyicilərdən “bəyənmə” almaq üçün özü kimi yox, “mükəmməl” göstərmək üçün səy göstərir. Sosial media alqoritmlərindən fasiləsiz istifadə nəticəsində, diqqətini təhsilə yönəldə bilmir. Artıq beyni uzun müddət düşünmədən aktiv qaldığı üçün, tədris vəsaitlərini öyrənmək yeniyetmələr üçün çətinlik yaradır. Lakin bu proses anında müəllimlərin və valideynlərin rolu əvəzolunmazdır. Müəllimlər yeniyetmələrə örnək olmaq məqsədilə dərs zamanı təhsilyönümlü sosial media alqoritimlərindən istifadə etməlidirlər. Virtual mühitdə davranış qaydalarını yeniyetmələrin nəzərinə çatdırmalıdır. Valideynlər isə yeniyetmələrlə daha çox vaxt keçirməli və sosial media alqoritmlərindən istifadə müddəti qoymalıdır. Həm müəllim, həm valideynlər bir-biri ilə əlaqə saxlayıb yeniyetmənin psixoloji vəziyyəti haqqında məlumatlar ötürməlidirlər. Empatiya oyunları təşkil edərək sosial media alqoritmlərində yazılmış mənfi rəyin bir vətəndaşa necə təsir etdiyini göstərə bilər. Müəllimlər iclaslar təşkil edərək valideynlərə övladlarının sosial media fəaliyyətinə necə diqqət yetirməli olduqlarını izah etməlidirlər. Hər biri yeniyetmənin özünüqiymətləndirmə bacarığını, zamanın düzgün idarə edilməsinin vacibliyini, məsuliyyət götürmə və rəqəmsal savadlılığının təkmilləşdirmək üçün əmək sərf etməlidirlər. Bunuda nəzərə almaq lazımdır ki, 21-ci əsr texnologiya əsri hesab olunur.

Keywords: social media, adolescence, education system, psychological, “Who am I”, parent, teacher, “like”.

Summary. Adolescence is considered a period of searching for and finding one’s identity. In order to adapt to the demands of the modern era, teenagers actively operate in social media algorithms. The role of social media algorithms for teenagers aged 12-16, who improve their knowledge and skills in educational centers, is irreplaceable. Through social media, teenagers make new friends, develop their talents, and have the opportunity to increase their education regardless of distance. As a result of these algorithms, teenagers form a process of self-awareness and affirmation. However, when used in the wrong direction, teenagers face risks. Being seduced by the allure of the virtual environment, they begin to distance themselves from the real environment. They begin to lose themselves in social media algorithms. They strive to appear “perfect” rather than like themselves in order to get “likes” from their followers. As a result of the continuous use of social media algorithms, they cannot focus on education. Since their brains are no longer active for a long time without thinking, learning educational materials is difficult for teenagers.However, the role of teachers and parents is indispensable in this process. Teachers should use educational social media algorithms during lessons to be role models for teenagers. They should inform teenagers about the rules of conduct in the virtual environment. Parents should spend more time with teenagers and set a time limit for using social media algorithms. Both teachers and parents should communicate with each other and share information about the teenager’s psychological state. They can show how negative reviews written in social media algorithms affect a citizen by organizing empathy games. Teachers should organize meetings and explain to parents how to pay attention to their children’s social media activities. Each of them should work to improve the teenager’s self-assessment skills, the importance of proper time management, taking responsibility and digital literacy. It should also be taken into account that the 21st century is considered the century of technology.

Anahtar kelimeler: sosyal medya, ergenlik, eğitim sistemi, psikoloji, “Ben kimim”, ebeveynler, öğretmenler, “beğenmek”.

Özet. Ergenlik, kişinin kimliğini aradığı ve bulduğu bir dönem olarak kabul edilir. Modern çağın taleplerine uyum sağlamak için gençler, sosyal medya algoritmalarında aktif olarak yer alırlar. Eğitim merkezlerinde bilgi ve becerilerini geliştiren 12-16 yaş arası gençler için sosyal medya algoritmalarının rolü yeri doldurulamaz. Gençler sosyal medya aracılığıyla yeni arkadaşlar edinir, yeteneklerini geliştirir ve mesafeden bağımsız olarak eğitimlerini artırma fırsatı bulurlar. Bu algoritmalar sonucunda gençler, öz farkındalık ve kendini doğrulama sürecini geliştirirler. Ancak yanlış yönde kullanıldığında gençler risklerle karşı karşıya kalırlar. Sanal ortamın cazibesine kapılarak gerçek ortamdan uzaklaşmaya başlarlar. Sosyal medya algoritmalarında kaybolmaya başlarlar. Takipçilerinden “beğeni” almak için kendilerini sevmek yerine “mükemmel” görünmeye çalışırlar. Sosyal medya algoritmalarının sürekli kullanımı sonucunda eğitime odaklanamazlar. Beyinleri uzun süre düşünmeden aktif olmadığı için, gençler için eğitim materyallerini öğrenmek zorlaşır.Ancak bu süreçte öğretmenlerin ve ebeveynlerin rolü vazgeçilmezdir. Öğretmenler, gençlere rol model olmak için derslerde sosyal medya algoritmalarını eğitici bir şekilde kullanmalıdır. Gençleri sanal ortamdaki davranış kuralları hakkında bilgilendirmelidirler. Ebeveynler gençlerle daha fazla zaman geçirmeli ve sosyal medya algoritmalarının kullanımına zaman sınırı koymalıdır. Hem öğretmenler hem de ebeveynler birbirleriyle iletişim kurmalı ve gencin psikolojik durumu hakkında bilgi paylaşmalıdır. Empati oyunları düzenleyerek sosyal medya algoritmalarında yazılan olumsuz yorumların bir vatandaşı nasıl etkilediğini gösterebilirler. Öğretmenler toplantılar düzenlemeli ve ebeveynlere çocuklarının sosyal medya aktivitelerine nasıl dikkat etmeleri gerektiğini açıklamalıdır. Her biri, gencin öz değerlendirme becerilerini, doğru zaman yönetiminin önemini, sorumluluk almayı ve dijital okuryazarlığı geliştirmek için çalışmalıdır. Ayrıca 21. Yüzyılın teknoloji yüzyılı olarak kabul edildiği de dikkate alınmalıdır.

Yeniyetməlik dövrü fiziki, psixoloji və sosial inkişafın intensiv baş verdiyi, fərdin öz kimliyini axtardığı uşaqlardan yetkinliyə keçid prosesini əhatə edir. Həyatın bu mərhələsi şəxsiyyətin formalaşması, sosial rolların mənimsənilməsi, özünüdərk səviyyəsinin qurulması baxımından vacib mövqedə durur. Yaş artdıqca yeniyetmə öz şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır (Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, 2003). İnsanın özünə dəyər və istedadlarına dair tam qiymətləndirməsini əhatə edən bir psixoloji anlayış olan özünəhörmət bu inkişaf yolunun mərkəzindədir (Chichocka, Marchleusua, Cislak, 2023). Yeniyetmələr effektiv emosiyalara, həddindən artıq hərəkətliliyə malik olurlar. Onlar həmçinin təcrübələr aparır və ya yeni şeylər sınamaq istəyinə malikdirlər (Handayami, 2019). Yetkinlik dövrünü üç əsas aspektdən səciyyələndirə bilərik:

1. Fizioloji və neyrofizioloji təkmilləşmələr
2. Psixososial inkişaf və subyektiv kimlik
3. Sosial dəyişiklik

Müasir dövrdə yeniyetmələr inkişaf prosesində sosial medianın mövqeyi əvəzolunmazdır. Sosial media istifadəçilər tərəfindən sosial proseslərdə istifadə edilən bir ünsiyyət vasitəsidir (Mulawarman, Nurfitri, 2017). Sosial media yeniyetmələri daha dəstəkləyici, daha empatik edir. Məsələn, sosial mediadan istifadə edərək yeniyetmələr dostlarının ad gününə diqqət yetirir, fotolara, videolara və dostlarının statusuna şərh yazır, onlarla maraqlanır, əlaqə saxlayır. Virtual mühit sayəsində fiziki olaraq ünsiyyət qura bilməsələr də, dostluq münasibətlərini qoruya bilirlər.

Yeniyetmələr öz həmfikirləri ilə sosiallaşaraq özünüifadə bacarığını inkişaf elətdirir. Bəzən çətin anlarında mənəvi dəstək almaq üçün sosial media platformalarından kömək alırlar.

Sosial media təhsil sistemində də öz rolunu oynayır. Rəqəmsal platformalar sayəsində yeniyetmələr məqsədəuyğun məlumat bazası əldə etmiş olurlar. Təhsil kanalları vasitəsilə məktəbdənkənar bilik və bacarıqlar əldə edirlər. Sosial media vasitəsilə yeniyetmələr öz istedadlarını sadəcə öz yaşadığı məkana deyil, dünyaya yayırlar. Məsələn, rəssam olmaq istəyən yeniyetmə öz əsərini sosial mediada nümayiş etdirərək, digər rəssamlardan müxtəlif motivasiyaedici rəylər əldə edir. Beynəlxalq əlaqələrə daxil olmaq üçün sosial media platformaları sayəsində müxtəlif dillərin öyrənilməsinə zəmin yaradır.

Sosial medianın mənfi təsirləri uşaqların və yeniyetmələrin real dünyada ünsiyyət qurmağı öyrənməkdə tənbəllik etməsidir (Syaripudin və digərləri, 2010). Yeniyetmədə özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə marağın yaranması onda qiymətləndirmə tələbatı, özümü başqaları ilə müqayisə etmək tələbi yaranır (S.İ. Seyidov və M.Ə. Həmzəyev, 2014). Virtual mühitdə çox sosiallaşmış yeniyetmə, real həyatda bədən dili və səs tonundan məqsədəuyğun istifadə etməkdə çətinlik çəkir. Bu səbəbdən real həyatda anlaşılmazlıqlar yaranır. Sosial media bəzən yeniyetmələrdə özünəinamsızlıq yaradır. Buna səbəb digər insanlarla özünü mənfi istiqamətdə müqayisə etməsidir. Yeniyetmə “ Mən kiməm ?” sualı ilə baş-başa qalır. Onun düşüncəsi ilə hər kəs ona baxır, hər kəs onu izləyir və diqqətdə yalnız odur. Bu səbəbdən digər insanların sosial media hesablarına baxdıqca, onlar kimi olmaq arzusunu özündə formalaşdırmış olur.

Öz düşüncələrindən, bacarıqlarından özünü məhrum edərək, özündə ikinci kimlik yaradır. Artıq burada yeniyetmələr özlərində "Sosial mən" obrazını yaratmış olur. “Sosial mən” obrazı aşağıdakı suallara uyğun yaradılır: başqa adamlar onu necə görürlər? O, özünü başqalarına necə göstərmək istəyir? Özünü necə göstərsə başqalarının rəğbətini qazana bilər? Sosial media platformaları arasında özünü itirərək, digər insanları kopyalayır. Öz həyatlarını digər insanların həyatları ilə müqayisəsi nəticəsində, depressiya girmə riskini daşıyır.

Sosial media alqoritmlərinin işləmə prinsipləri aşağıdakılardır:

- Dopamin sonsuzluğu: “bəyənmə”lərə olan bağlılıq
- Vaxtın sərf olunması: yeniyetmələrin platformalarda qalma müddəti
- Fərdi maraq: yeniyetmələrin maraqlarının manipulyasiyası
- Daha çox diqqət cəlb etmək

Leon Festingerin 1954-cü ildə yaratdığı Sosial Müqayisə Nəzəriyyəsi, insanların özlərini başqaları ilə müqayisə edərək qiymətləndirməsi üçün təbii bir istəyə sahib olduqlarını iddia edir (Festinger, 1954). Yeniyetmələr tez-tez sosial mediada yuxarıya doğru sosial müqayisələrdə iştirak edirlər, həyatlarını, təcrübələrini və nailiyyətlərini profillərində əks olunan daha yaxşı həyatları, təcrübələri və ya nailiyyətləri olan həmyaşıdlarının həyatları ilə müqayisə edirlər (Tiggemann, Slater, 2017).Ən geniş yayılmış sosial media platformalarına Instagram, Tik-Tok, YouTube və s. aid etmək olar. Bu platformalarda yeniyetmənin özündən daha “populyar”, daha “gözəl”, daha “zəngin” görünənlərlə müqayisəsində özünəinamı zədələnə bilər. Lakin daha az “bəyənmə” alan, digərləri tərəfindən daha az izlənilən sosial media istifadəçisi ilə müqayisəsində özünütəsdiq hissi daha da yüksəyə çıxır.

Digər bir mövqedən baxsaq, bu gün yeniyetmələr rəqəmsal mühitdə doğulmuşlardır və bu ad 90-cı illərdən sonra doğulan nəsillər üçün artıq alışılmış bir vəziyyətdir (Uswah, 2014). Bu mühitdə doğulan nəsil kompüterlər, video oyunlar, təkmilləşdirilmiş telefonlar və getdikcə inkişaf etməkdə

olan süni intellekt artıq həyatlarının ayrılmaz tərkib hissəsi hesab olunur. Gündəlik həyatda texnologiyanın təsirindən qaçmaq mümkün deyil. Təhsil sistemində müxtəlif platformalar sayəsində artıq digər ölkənin təhsilini almaq artıq standart hal olub. Sosial medianın mənfi təsirlərini önə çəkərək, yeniyetmələrdən uzaq tutmaq məqsədəuyğun hesab olunmur. Lakin valideynlərin nəzarəti altında və ya yeniyetmələri müxtəlif təlimlərə cəlb edərək sosial mediadan daha obyektiv istifadəsinə nail olmaq mümkündür. Bu səbəbdən aşağıdakılar əməl olunmalıdır:

- Valideynlər yeniyetmələrə örnək olmalıdır;
- Valideynlər məqsədəuyğun formada nəzarət etməlidir;
- Müəllimlər və valideynlər real həyatla virtual həyatı düzgün müqayisəsi haqqında yeniyetmələri maarifləndirməli;
- Psixoloji dəstəyi möhkəmləndirmək;
- Müəllimlər və valideynlər sosial medianın faydaları haqqında daimi məlumat verməli;
- Məktəblərdə sosial media alqoritmləri haqqında çıxışlara, istifadə qaydalarını yeniyetmələrdə təkmilləşdirmək üçün təlimlər keçirilməli və sair.

Yeniyetmələr əxlaqi tələbləri, norma və qaydaları, onların məzmununu düzgün dərk edə bilmədikləri üçün pedaqoqlar və valideynlər pedaqoji prosesdə xeyli çətinliklərlə qarşılaşırlar (Nuriyev S.Ş. və İbrahimova D.R., 2016). Müəllimlər yeniyetmələrdə tənqidi təfəkkürü gücləndirməlidilər. Bunun nəticəsində yeniyetmə sosial media alqoritmlərində izlədiklərinin nə dərəcədə faydalı olduğunu mənimsəmiş olacaq. Həmçinin öz-özünü müsbət istiqamətdə təkmilləşdirə biləcək. Müəllim sosial media alqoritmlərində paylaşılanların reallığı əks etdirmədiyini yeniyetmələrə aşılamalıdır. Maarifləndirici kanalları yeniyetmələrə nümayiş etdirərək sosial medianın faydalarını vurğulamaq lazımdır. Valideynlər isə bu mövzuda övladı ilə şəffaflığı qorumalıdır. Valideyn yeniyetməyə izah etməlidir ki, hər “bəyənmə” izləyici kütləyə marağına aiddir, lakin özünüqiymətləndirmək üçün bu əsas rol oynamır. Yeniyetmə anlamalıdır ki, cəmiyyətin və öz düşüncələrini balanslı formada nəzərə almalıdır, yəni assertiv davranış sərgiləməlidir.

